AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI

ƏLİ HƏSƏNOV

AZƏRBAYCANIN GEOSİYASƏTİ

DƏRSLİK

- **GEOSİYASİ İNKİŞAF TARİXİ**
- **GEOMƏKAN XARAKTERİSTİKASI**
- **GEOSİYASİ, GEOİQTİSADİ, HƏRBİ-GEOSTRATEJİ MARAQLARI VƏ PROBLEMLƏRİ**
- **DÜNYA DÖVLƏTLƏRİNİN AVRASİYA SİYASƏTİNDƏ YERİ VƏ ROLU**
- **MÜASİR GEOSİYASİ VƏZİYYƏTİ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ**
- **GEOSİYASİ İNKİŞAF PERSPEKTİVLƏRİ**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Böyük Elmi Şurasının tövsiyəsi, Azərbaycan Respublikası təhsil nazirinin 25.05.2010-cu il tarixli, 650 №li əmri ilə Ali məktəblərin "Beynəlxalq münasibətlər", "Dövlət idarəçiliyi", "Regionşünaslıq", "Politologiya" və digər müvafiq ixtisas qruplarının tələbələri, o cümlədən Xarici İşlər, Milli Təhlükəsizlik, Müdafiə, Fövqəladə Hallar nazirliklərinin və digər müvafiq qurumların ixtisaslaşdırılmış Akademiyalarının dinləyiciləri üçün dərslik kimi təsdiq edilmişdir.

BAKI- 2015

Elmi redaktor: **Elman Nəsirov**
siyasi elmlər doktoru, professor

Rəyçilər: **Novruz Məmmədov**
Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri, professor

Musa Qasımlı
tarix elmləri doktoru, professor

Hikmət Məmmədov
siyasi elmləri doktoru, dosent

Elçin Əhmədov
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

Redaktor: **Vüqar Səlimov**
fəlsəfə üzrə fəlsəfə doktoru

Həsənov Ə.M. **Azərbaycanın geosiyasəti.** Dərslik. - Bakı, "Zərdabi LTD" MMC, 2015. -1056 s.

Oxucuların diqqətinə təqdim olunan bu dərslikdə dünyanın əsas ölkələrinin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz regionunda nümayiş etdirdikləri geosiyasi maraqlar və yürütdükləri siyasət fonunda Azərbaycan Respublikasının keçmiş, indiki və gələcək inkişaf məsələləri araşdırılır, milli inkişaf və təhlükəsizlik maraqlarının təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsasları şərh edilir; ölkənin geosiyasi kodunun, xarici və milli siyasət konsepsiyasının hazırlanması, milli maraqlarının çərçivəsinin müəyyənləşməsi və təmin edilməsi kimi çoxsaylı geosiyasi məsələlər təhlil olunur; gələcək geosiyasi perspektivləri, dünyanın və regionun geosiyasi güc mərkəzləri ilə münasibətləri, Xəzərin enerji daşıyıcılarının istismarı və dünya bazarlarına çıxarılması sahəsindəki rolu, Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizinin yaradılması, təhlükəsizliyinin təmin edilməsi və s. kimi məsələlər tədqiq olunur.

Bundan başqa, dərslikdə Azərbaycan dövlətinin regionda və dünyada nümayiş etdirdiyi geosiyasi və geoiqtisadi fəaliyyət, regionun, Avropanın və transmilli dünyanın enerji, tranzit-keçid, beynəlxalq daşıma, nəqliyyat-kommunikasiya sistemindəki iştirakı ilə bağlı məsələlər təhlil edilir, Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsi ölkələrinin gələcək milli maraqlarını təhdid edən qlobal proseslər şərh olunur.

Geosiyasət elmi beynəlxalq münasibətlərin bütün səviyyələrində – ölkələrarası, təşkilatlararası, hətta fərdlərarası əlaqələrdə, ayrıca götürülmüş məkanlarda ətraf aləmin, ümumi geosiyasi vəziyyətin düzgün qavranması, təbii, ictimai və elmi məlumatların, innovativ biliklərin dolğun qiymətləndirilməsi üçün mühüm vasitə rolunu oynayır. Dövlət təhsil standartlarına uyğun olaraq ali məktəblərin müvafiq ixtisasları üzrə təhsil alan tələbə və doktorantlar, ixtisaslaşmış akademiyaların dinləyiciləri və elmi işçilər üçün dərslik kimi yazılmış bu dərslikdən həm də ictimai-siyasi xadimlər, millət vəkilləri, dövlət qulluqçuları, xarici siyasət, təhlükəsizlik və hərbi-geostrateji planlama sahəsində çalışan mütəxəssislər və ən geniş intellektual oxucu təbəqəsi – milli elita istifadə edə bilər.

ISBN 978 9952 504 03 3

© Həsənov Ə.M., 2015
© "Zərdabi LTD" MMC, 2015

MÜNDƏRİCAT

Giriş 11

I BÖLMƏ
AZƏRBAYCANIN GEOSİYASİ İNKİŞAF TARİXİ VƏ XARAKTERİSTİKASI, MÜASİR MİLLİ İNKİŞAF SİYASƏTİNİN ƏSASLARI

I FƏSİL
Azərbaycanın geosiyasi inkişaf tarixi

§ 1.1. Azərbaycanın qədim zamanlardan Birinci dünya müharibəsinə qədərki geosiyasi vəziyyəti 20
§ 1.2. Birinci dünya müharibəsi dövründə Cənubi Qafqazdakı geosiyasi vəziyyət və xarici dövlətlərin fəaliyyəti 30
§ 1.3. Azərbaycanın müstəqilliyinin elan edilməsi və onun Cənubi Qafqazın geosiyasi vəziyyətinə təsiri 41
§ 1.4. Azərbaycan Xalq Cümhuriyyətinin geosiyasi fəaliyyəti və xarici dövlətlərin Cənubi Qafqaz siyasəti 48
§ 1.5.Müharibənin başa çatmasından sonra Cənubi Qafqazda geosiyasi vəziyyətin dəyişməsi və Xalq Cümhuriyyəti hökumətinin diplomatik manevrləri..... 55
§ 1.6. Azərbaycan Xalq Cümhuriyyətinin iflası və onun geosiyasi nəticələri..... 71
Təkrar və məşğələ sualları 86

II FƏSİL
Azərbaycan Respublikasının müasir milli inkişaf siyasəti: xarakteristikası, əsas vəzifələri və tələbləri 88

§ 2.1. Azərbycan Respublikasının milli inkişaf siyasətinin formalaşması, əsas mərhələləri və xarakterik xüsusiyyətləri 90
§ 2.2. Azərbaycan Respublikasının milli inkişaf siyasətinin əsas prinsipləri, vəzifələri və tələbləri 108

lll FƏSİL
Azərbaycan Respublikasının müasir geosiyasi inkişaf xüsusiyyətləri: geosiyasi statusu, vəzifələri və perspektivləri
§3.1. Azərbaycan Respublikasının inkişaf xüsusiyyətləri, əsas geosiyasi vəzifələri və perspektivləri 120
§3.2. Azərbaycanın geosiyasi statusu və müasir geosiyasi fəaliyyət kodeksi 153
§ 3.3. XXl əsrdə Azərbaycanın qarşısında dayanan əsas geosiyasi vəzifələr və perspektivlər 160
Təkrar və məşğələ sualları 197

ll BÖLMƏ
AZƏRBAYCANIN BEYNƏLXALQ ALƏMLƏ GEOSİYASİ MÜNASİBƏTLƏRİ

l FƏSİL
Avrasiyanın ümumi geosiyasi xarakteristikası və müasir vəziyyəti
§1.1. Avrasiyanın ümumi geosiyasi xarakteristikası 204
§1.2. Avrasiyanın regional geosiyasi vəziyyətinə təsir göstərən fərqli maraqlar sistemi: transmilli, regional və milli hədəflər haqqında 210
§1.3. Rusiya Avrasiyanın əsas dövlətlərindən biri kimi: geosiyasi inkişaf tarixi və müasir geosiyasəti. Rusiyanın Avrasiya siyasətində Azərbaycanın yeri və rolu..... 215
§1.4. Amerika Birləşmiş Ştatlarının Avrasiya siyasəti və Azərbaycanla geosiyasi münasibətlərinin xarakteristikası..... 260
§1.5. Avropa İttifaqının Avrasiya siyasəti və Azərbaycanla geosiyasi münasibətlərinin xarakteristikası 303
§1.6. Türkiyənin Avrasiya siyasəti və Azərbaycanla geosiyasi münasibətlərinin xarakteristikası..... 323

§1.7. İranın Avrasiya siyasəti və Azərbaycanla geosiyasi münasibətlərinin xarakteristikası..... 353
§1.8. Digər aparıcı dünya dövlətlərinin Avrasiya siyasəti və Azərbaycanla geosiyasi münasibətlərinin xarakteristikası..... 386
Təkrar və məşğələ sualları 391

II FƏSİL
Postsovet məkanının ümumi geosiyasi xarakteristikası: MDB ölkələri və Rusiya: fərqli maraqlar və regional geosiyasi fəaliyyətin əsas xüsusiyyətləri
§ 2.1 Postsovet məkanında SSRİ-nin dağılmasından sonrakı geosiyasi proseslər: MDB-nin yaranması və fəaliyyəti, qurumdaxili qruplaşma meyllərinin əsas səbəbləri və istiqamətləri 393
§ 2.2 Postsovet məkanındakı geosiyasi**,** geoiqtisadi və hərbi-strateji münasibətlərin əsas meyilləri və tendensiyaları..... 400
§ 2.3 MDB çərçivəsindəki çoxtərəfli inteqrasiya proseslərinin xarakteristikası 409

III FƏSIL
Orta Asiya və Xəzər hövzəsinin ümumi geosiyasi xarakteristikası: yerli, regional və transmilli maraqlar sistemi
§ 3.1. Orta Asiya, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geosiyasi xarakteristikası, müasir dünya siyasətindəki yeri və rolu haqqında 425
§ 3.2. Orta Asiya və Xəzər hövzəsi dövlətlərinin geosiyasi, hərbi-strateji və geoiqtisadi maraqlar sistemi və Azərbaycanla münasibətlərinin xarakteristikası 430

lV FƏSIL
Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional geosiyasi xarakteristikası və transmilli maraqlar sistemi 462
§ 4.1. Qara dəniz hövzəsinin beynəlxalq və regional maraqlar sistemində Ukraynanın geosiyasi və hərbi-geostrateji mövqeləri: Azərbaycan-Ukrayna münasibətlərinin xarakteristikası 464
§ 4.2. Qara dəniz hövzəsinin geosiyasətində Belarus və Moldovanın rolu və Azərbaycanla geosiyasi tərəfdaşlıq meylləri 485
§ 4.3. Cənubi Qafqazın regional geosiyasi maraqlar sistemi: Azərbaycan, Gürcüstan və Ermənistan arasındakı münasibətlərin və dinc-yanaşı yaşamanın əsas şərtləri və tələbləri 491
§ 4.4. Azərbaycanın Qara dəniz hövzəsi və Cənubi Qafqaz ölkələri ilə geosiyasi münasibətlərinin xarakteristikası 512
Təkrar və məşğələ sualları 523

lll BÖLMƏ
AZƏRBAYCANIN BEYNƏLXALQ ALƏMLƏ GEOİQTİSADİ MÜNASİBƏTLƏRİ

l FƏSİL
Xəzər hövzəsi və Cənubi Qafqazın geoiqtisadi xarakteristikası: beynəlxalq, regional, yerli maraqlar sistemi. Azərbaycan regional geoiqtisadi maraqları və enerji strategiyası
§ 1.1. Transmilli dünya güclərinin və yerli dövlətlərin Xəzər hövzəsi və Cənubi Qafqazdakı geoiqtisadi maraqları və fəaliyyətinin xarakteristikası 526
§ 1.2. Xəzər hövzəsi və Cənubi Qafqazın enerji mənbələri və onun bölgədə yaratdığı müasir geoiqtisadi vəziyyət. Xəzərin neft-qaz ehtiyatlarının Avropanın enerji təhlükəsizliyindəki rolu 536

§ 1.3. Xəzərin hüquqi statusu: problemin tarixi, müasir geosiyasi yanaşmalar və Azərbaycanın geoiqtisadi maraqları 555
§ 1.4. Azərbaycanın karbohidrogen ehtiyatlarının sərbəst istehsalı və ixracı siyasətinin beynəlxalq və regional geoiqtisadi nəticələri 596

II FƏSİL
Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın transmilli enerji ixracı sisemi: beynəlxalq, regional və yerli maraqlar, Azərbaycanın enerji ixracının şaxələndirilməsi siyasəti və onun regionun ümumi geoiqtisadi vəziyyətinə təsiri
§ 2.1. Xəzər-Qara dəniz hövzəsi ölkələri və digər siyasi dairələrin enerji ixracı maraqları və bunun bölgənin ümumi geoiqtisadi vəziyyətinə təsiri 613
§ 2.2. Xəzər hövzəsinin mövcud və perspektv neft-qaz kəmərləri, region və dünya ölkələrinin transmilli enerji ixracı siyasətinin xarakteristikası..... 619
§ 2.3 Azərbaycanın enerji ixracının şaxələndirilməsi siyasəti və onun regionun ümumi geoiqtisadi vəziyyətinə təsiri 650
Təkrar və məşğələ sualları 686

III FƏSİL
Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın transmilli nəqliyyat-kommunikasiya sistemi: beynəlxalq, regional və milli maraqlar. Azərbaycanın beynəlxalq aləmlə sərbəst və təhlükəsiz kommunikasiya siyasəti
§ 3.1. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın mövcud və perspektiv transmilli nəqliyyat-kommunikasiya sistemi: beynəlxalq, regional və milli maraqların xarakteristikası..... 688

§ 3.2. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz ölkələrinin bölgənin alternativ Transavrasiya nəqliyyat-kommunikasiya sisteminə münasibəti, maraqları və iştirakı 702
§ 3.3. Azərbaycanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda həyata keçirdiyi transmilli nəqliyyat-kommunikasiya siyasəti və onun bölgənin geoiqtisadi vəziyyətinə təsiri 714
Təkrar və məşğələ sualları 734

IV BÖLMƏ
AZƏRBAYCANIN XARİCİ ALƏMLƏ HƏRBİ-GEOSTRATEJİ MÜNASİBƏTLƏRİ: BEYNƏLXALQ, REGİONAL VƏ MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN ƏSASLARI

I FƏSIL
Beynəlxalq təhlükəsizlik sisteminin əsasları və geosiyasi tələbləri. Azərbaycanın beynəlxalq təhlükəsizlik siyasəti

§ 1.1. Beynəlxalq təhlükəsizlik sistemi: formalaşması, hüquqi əsasları, mahiyyəti, geosiyasi ölçüləri və tələbləri 736
§ 1.2. Beynəlxalq təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasət strategiyası və fəaliyyəti 748

II FƏSİL
Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik mühiti, Azərbaycanın regional təhlükəsizlik siyasəti və beynəlxalq aləmlə hərbi-geostrateji münasibətləri

§ 2.1. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik mühiti: regional bloklaşma reallıqları və proqnozları, hərbi-geostrateji güclərin təsnifatı 769
§2.2. Rusiya, ABŞ, NATO və Avropa İttifaqı arasındakı münasibətlərin Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizliyinə təsiri 784

§ 2.3. Azərbaycanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yürütdüyü regional təhlükəsizlik siyasəti: təhlükəsizlik sahəsində Azərbaycan, Gürcüstan və Türkiyənin birgə tərəfdaşlıq platforması 802
Təkrar və məşğələ sualları..... 830

lll FƏSİL
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Cənubi Qafqazın əsas təhlükəsizlik problemi kimi: beynəlxalq, regional yerli maraqlar və Azərbaycanın ərazi bütövlüyü məsələsi 831
§3.1. Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ münaqişənin tarixi kökləri haqqında 832
§ 3.2. XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və sovet rəhbərliyinin ermənipərəst Qafqaz siyasəti 836
§ 3.3. Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı və münaqişənin BMT Təhlükəsizlik Şurasında müzakirəsi 840
§ 3.4. ATƏT-in Minsk qrupunun yaradılması, münaqişəsinin həlli istiqamətində sülh axtarışları, münaqişə tərəflərinin mövqeyi və ümumi nəticələr..... 845
§3.5. Digər beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi və Azərbaycanın diplomatik fəaliyyətinin nəticələri.....859
Təkrar və məşğələ sualları 868

lV FƏSİL
Azərbaycanın milli təhlükəsizlik siyasəti: əsas milli maraqları, geosiyasi kodu və təhlükəsizlik perspektivləri
§ 4.1. Azərbaycanın milli təhlükəsizlik siyasəti: formalaşması, əsas ölçüləri və mexanizmləri 869

§ 4.2. Təhlükəsizlik mühitinin formalaşması və beynəlxalq imicin qazanılması 876
§ 4.3. Azərbaycanın milli maraqları və onun çərçivəsi: milli təhlükəsizliyə təhdidlər 878
§ 4.4. Azərbaycanın milli təhlükəsizliyinin təmin olunmasının əsas vasitələri və ehtiyatları 885

V FƏSİL
Milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri
§ 5.1. Azərbaycanın hərbi təhlükəsizlik siyasəti 891
§ 5.2. Azərbaycanın sərhəd təhlükəsizliyi siyasəti 902
§ 5.3. Azərbaycanın milli enerji təminatı və təhlükəsizliyi siyasəti 919
§ 5.4. Azərbaycanın geoiqtisadi müstəqilliyi və təbii ehtiyatların təhlükəsiz istifadəsi siyasəti 934
§5.6. Azərbaycanın ictimai-siyasi, sosial, etnik və milli insan ehtiyatlarının təhkükəsiz istifadəsi və idarə olunması siyasəti 943
§ 5.7. Azərbaycanın ərzaq təhlükəsizliyi siyasəti 954
§ 5.8. Azərbaycanın informasiya təhlükəsizliyi siyasəti .. 963
§ 5.9. Azərbaycanın ekoloji təhlükəsizlik siyasəti 993
Təkrar və məşğələ sualları 1008

İstifadə edilmiş mənbə, ədəbiyyat və informasiya resursları 1012
Summary 1050
Резюме 1053

GİRİŞ

SSRİ-nin dağılması və dünya sosializm sisteminin süqutu, yer kürəsində total ideoloji qarşıdurmanın və bu zəmində həyata keçirilən "soyuq müharibə" nin başa çatması, yeni-yeni dövlətlərin müstəqillik qazanması və beynəlxalq hüququn subyektinə çevrilməsi kimi qlobal hadisələr – XX əsrin sonunda planetin ümumi geosiyasi vəziyyətini dəyişməklə yanaşı, həm də beynəlxalq münasibətlər sistemində əsaslı transformasiyaların bünövrəsini qoydu, onun strukturunda ciddi dəyişikliklər yaratdı.

Hazırda təzahüretmə miqyasından və məkan amilindən asılı olaraq beynəlxalq münasibətlər sistemi və planetar maraqların arxitekturası əvvəlki dövrdə olduğu kimi *sosializm və kapitalizm düşərgələrinin ideoloji qarşıdurması çərçivəsində deyil, milli, regional və qlobal olmaqla üç fərqli məkan ölçülərini və ayrılıqda hər bir dövlətin milli maraq və milli təhlükəsizlik səviyyəsini özündə əks etdirir.* Beynəlxalq münasibətlərin və dünya sisteminin bu tipologiya üzrə təsnif olunmasına bütövlükdə planetin, ayrı-ayrı regionların və dövlətlərin geosiyasi maraqlarının, hərbi-geostrateji və təhlükəsizlik mühitinin xarakteristikası, birlikdə və yaxud ayrılıqda- siyasi, hərbi və iqtisadi blokların, müxtəlif ölkələrin dünya siyasətinə təsiri, milli dövlətlərin təhlükəsizlik, milli maraq və ərazi suverenliyi amili kimi məsələlər də ciddi təsir göstərir.

Lakin, müxtəlif səviyyələrdə təsnif olunmasına baxmayaraq müasir dünya sisteminin və planetar geosiyasi maraqların ümumi arxitekturasının mövcudluğu və davamlı təminatı *qlo-*

bal miqyaslı vahid iyerarxik ünsiyyət sisteminin (strukturunun) fəaliyyət göstərməsini tələb edir. Beynəlxalq, regional və milli olmasından asılı olmayaraq, bu sistemin *etibarlılığına və funksionallığına* nail olmaq üçün hər bir səviyyənin özünəməxsus xüsusiyyətlərini, təhlükə mənbələrini, vasitələrini və mexanizmlərini nəzərə almaq lazımdır.

Bəhs olunan şəraitdə dünyanın geosiyasi reallıqlarına və təhlükəsizlik sistemlərinə ən çox təsir göstərən və fərqli xüsusiyyətlər gətirən amillərdən biri də Avrasiyada- Xəzər-Qara dəniz hövzəsi, Orta Asiya və Cənubi Qafqazda *yeni müstəqillik əldə etmiş dövlətlərin milli inkişaf və təhlükəsizlik sahəsində həyata keçirdikləri geosiyasət* hesab olunur. Hazırda bütün dünyada, o cümlədən Avrasiya məkanında müstəqillik əldə etmiş və beynəlxalq münasibətlərin subyektinə çevrilmiş hər bir müstəqil dövlət özünün geosiyasi statusunu və fəaliyyət normalarını, milli inkişaf və təhlükəsizlik məsələlərini, milli maraq dairələrini və hədəflərini öyrənir, ölkəsinin daxili və xarici aləmdən qaynaqlanan geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının qorunması mexanizmlərini təklif edir, milli təhlükəsizlik və hərbi doktrinalarının yaradılması və s. strateji vəzifələrin reallaşdırılması ilə məşğul olurlar. Bütün bu və digər vəzifələr hər bir ölkənin müvafiq rəsmi strukturlarından, siyasi və elmi dairələrindən geniş geosiyasi tədqiqatların və strateji araşdırmaların aparılmasını, müxtəlif analitik geosiyasi mərkəzlərin yaradılmasını, elmi-tədris proqramlarının, dərsliklərin və kitabların çap edilməsini tələb edir.

Yeni transmilli geosiyasi proseslərin, beynəlxalq, regional və milli-vətəndaş münasibətlərinin, milli təhlükəsizlik, geosiyasi, hərbi-geostrateji və geoiqtisadi maraqlar sisteminin fərqli cəhətlərinin və xüsusiyyətlərinin öyrənilməsi zərurəti başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da getdikcə məxsusi geosiyasi tədqiqatlara və tədqiqatçılara ehtiyac yaradır, ölkə rəsmiləri və müvafiq strukturlar qarşısıında müasir bey-

nəlxalq və regional vəziyyəti təhlil etmək, ölkəni əhatə edən coğrafi, hərbi-geostrateji, geosiyasi və geoiqtisadi mühiti öyrənmək, məxsusi milli inkişaf və təhlükəsizlik siyasəti formalaşdırmaq kimi strateji vəzifələr qoyur.

Müstəqil dövlət kimi hər bir ölkənin dünya birliyində tutduğu mövqe və qazandığı nüfuz onun beynəlxalq, regional və milli səviyyələrdə reallaşdırdığı milli inkişaf xəttindən, həyata keçirdiyi geosiyasətin çevikliyindən, səmərəliliyindən və ətraf aləmlə yaratdığı effektiv geosiyasi münasibətlərdən asılı olur. Azərbaycanın region və dünya ölkələri ilə geosiyasi münasibətlərinin, milli inkişaf və təhlükəsizlik sahəsində yürütdüyü xarici siyasət strategiyasının əsas vəzifələrindən biri Prezident İlham Əliyevin söylədiyi kimi, *ölkənin müstəqilliyini möhkəmlətmək, davamlı inkişafını və suveren dövlət hüquqlarını təmin etmək, beynəlxalq münasibətlərin əksər subyektləri ilə qarşılıqlı faydalı münasibətlərini yaratmaq və milli maraqlarını maksimum qorumaqdan ibarətdir*.[1]

Azərbaycanın Avropa və Asiyanın nəqliyyat-kommunikasiya xətlərinin kəsişmə nöqtəsində, geosiyasi, hərbi-geostrateji və geoiqtisadi cəhətdən mühüm əhəmiyyət kəsb edən, enerji qaynaqları ilə zəngin Avrasiya məkanında yerləşməsi onun beynəlxalq, regional və milli maraqlarının əsas istiqamətləri və mexanizmlərinin müəyyənləşməsinə həlledici təsir göstərir. Məlumdur ki, Avrasiyanın ən əhəmiyyətli bölgələrindən hesab olunan *Xəzər-Qara dəniz hövzəsi* və *Cənubi Qafqaz* Rusiya üçün daim xüsusi əhəmiyyət daşımış, son iki əsrə yaxın müddət ərzində onun geosiyasi təsiri, hərbi-geostrateji və geoiqtisadi nəzarəti altında olmuşdur. Sovet İttifaqının dağılmasından sonra bu məkanda bir müddət nisbi "geosiyasi boşluğun" yaranması ümumi geosiyasi mühitə mənfi təsir göstərən etnik

[1] Bax: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri, və bəyənatları //http://president.az/articles/11725

separatizmə, milli qarşıdurmalara və dezinteqrasiya proseslərinə təkan vermişdir. Bundan başqa, bu regiona nəzarət Avrasiyanın daha geniş ərazilərini təsir dairəsində saxlamağa şərait yaratdığından, Rusiya ilə yanaşı digər beynəlxalq güclər, böyük dövlətlər də bu məkanda öz geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarını ortaya qoymuşlar.

XX əsrin sonlarından başlayaraq Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz həm də transkontinental enerji, nəqliyyat-kommunikasiya əlaqələndiricisi və beynəlxalq enerji təhlükəsizliyi sisteminin təsiredici mərkəzlərindən birinə çevrilmişdir. Bütün bunlar həm bölgənin ümumi geosiyasi vəziyyətinə, həm də yerli ölkələrin beynəlxalq, regional və milli siyasətinə mühüm təsir göstərmişdir.

Mütəxəssislərin fikrinə görə, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geosiyasi, geoiqtisadi və hərbi-strateji mühitinin formalaşması və sabitliyində Azərbaycanın yürütdüyü milli, regional və beynəlxalq siyasət xüsusi önəm daşıyır. Bu siyasətin əsas istiqamətindən biri *ölkənin regionda gedən əksər geosiyasi və geoiqtisadi proseslərdə fəal iştirakının təmin edilməsi və bütün sahələr üzrə milli maraqlarının qorunmasıdır.*

Hazırda regionun geosiyasi, geoiqtisadi və hərbi-geostrateji həyatında yerli ölkələrlə yanaşı üç əsas geosiyasi aktor – Rusiya, ABŞ və Avropa Birliyi öz milli maraqlarını maksimum formada reallaşdırmağa çalışır. Odur ki, bu məkandakı beynəlxalq, regional və lokal *maraqların təsnif olunması, ümumi geosiyasi mühitin formalaşmasına, hər bir yerli və beynəlxalq aktorun geosiyasi fəaliyyətinə təsir göstərən amillərin, regionda maraqları təmsil olunan dövlətlərin və beynəlxalq güclərin siyasi, hərbi, enerji, informasiya və iqtisadi strategiyalarının, geosiyasi proseslərin mümkün inkişaf ssenarilərinin araşdırılması elmi-nəzəri və praktiki cəhətdən getdikcə aktuallaşır.*

90-cı illərin əvvəlindən Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın milli inkişafının, təhlükəsizlik, enerji, nəqliyyat-kommunikasiya-dəhliz, informasiya və s. siyasətinin nəzəri və praktiki əsaslarının, ölkənin əsas inkişaf resurslarının formalaşdırılması, müstəqil dövlətin həyati maraqlarının çərçivəsinin müəyyənləşməsi və təmin olunması, cəmiyyətin sosial-iqtisadi, siyasi və mənəvi əsaslarının yeni dəyərlər və prinsiplər əsasında qurulması kimi vəzifələr milli siyasətin xüsusi istiqamətinə çevrilərək, dövlət quruculuğu prosesinin təxirəsalınmaz və vacib məsələlərinə çevrilmişdir. Buna görə də *ölkənin milli və geosiyasi maraqlarının bütün səviyyələrdə təmin olunması ilə bağlı reallaşdırdığı xarici siyasət fəaliyyətinin öyrənilməsi, qarşıda dayanan məqsəd və vəzifələrin elmi-konseptual baxımdan araşdırılması* Azərbaycan siyasətşünaslığında mühüm aktuallıq kəsb edir. *Azərbaycanın ətraf aləmlə geosiyasi münasibətlərini, beynəlxalq, regional və milli siyasətinin əsas hədəflərini, hər səviyyə üzrə vəzifə və istiqamətlərini müəyyənləşdirən və tədqiq edən* ümumiləşmiş əsərlərin yazılmasına isə müasir dövrdə xüsusi ehtiyac duyulur.

Oxuculara təqdim edilən birinci kitabda- "Geosiyasət" adlanan dərslikdə, müəllif əsas diqqətini geosiyasətin ayrıca bir elm sahəsi olaraq meydana gəlməsi və inkişafı tarixinə, bu elmin əsas anlayışlarının yaranması, formalaşması və inkişafının tarixşünaslığına yönəltmiş, geosiyasət elminin nəzəri mənbələri, qanunauyğunluqları, obyekt və predmeti, kateqoriyaları, aktorları ilə bağlı klassik geosiyasət xadimlərinin və müasir geosiyasi tədqiqatçıların baxışlarını təhlil etmiş, müxtəlif dövrləri və fərqli geosiyasi məktəbləri təmsil edən siyasətşünasların ideya və nəzəriyyələrini araşdırmış və qarşılıqlı şəkildə müqayisə etmişdir.

Birinci kitabda, həmçinin müasir Qərb dövlətlərinin, Rusiya, Çin, Türkiyə və digər böyük ölkələrin aparıcı geosiyasi

tədqiqatlarından və ümumiləşmiş əsərlərindən istifadə olunmaqla ilk dəfə azərbaycandilli oxucular üçün ümumi şəkildə: 1648-ci ildən başlayaraq müasir dövrə qədər dünyada cərəyan edən əsas geosiyasi hadisələr, planetin geosiyasi xarakteristikası, geosiyasi güc mərkəzləri və onlar arasındakı münasibətlər, qloballaşan dünyada geosiyasi məsələlərə yeni baxışlar, milli-dövlət maraqları uğrunda mübarizə və yeni dünya nizamı, bəşəriyyəti təhdid və məşğul edən əsas iqtisadi, siyasi, enerji təhlükəsizliyi, qlobal nəqliyyat-kommunikasiya, ticarət, xammal, beynəlxalq daşımalar kimi məsələlərin mövcud vəziyyəti və perspektivləri haqqında geniş məlumatlar toplanmış və oxucuların geosiyasi biliklərini, təsəvvür və anlayışlarını dərinləşdirən materiallar təqdim olunmuşdur.

"Geosiyasət" dərsliyinin ikinci hissəsi kimi yazılmış (ll kitab) mövcud kitab isə dünyanın aparıcı ölkələrinin və regional güclərin Azərbaycanın yerləşdiyi Avrasiya məkanında, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda nümayiş etdirdikləri geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlara və yürütdükləri geosiyasətə, bu siyasətin Azərbaycanın bugünkü və gələcək geosiyasi vəziyyətinə göstərdiyi, yaxud göstərə biləcəyi təsirə, onun ətraf ölkələrlə geosiyasi münasibətlərinə və s. məsələlərə həsr edilmişdir.

Dərslikdə əksəriyyəti elmi dövriyyəyə ilk dəfə gətirilən yerli və xarici- türk, rus, ingilis və s. dillərdə nəşr edilmiş zəngin mənbə və ədəbiyyat, internet ehtiyatları əsasında *Azərbaycanın geosiyasəti və xarici aləmlə geosiyasi münasibətlərinin, milli inkişaf siyasətinin əsasları, məqsəd və vəzifələri, istiqamətləri və mexanizmləri geniş politoloji təhlil olunur, həyata keçirilən siyasət* araşdırılır.

Dərslikdə həmçinin, Azərbaycanın geosiyasi inkişaf tarixinə, müstəqil dövlət olaraq müasir milli maraqları və onun təmin edilməsi ilə bağlı yürütdüyü geosiyasətin şərhinə, ölkənin geosiyasi və geostrateji kodunun, xarici və milli siyasət

konsepsiyasının hazırlanması, milli maraqlar və onun çərçivəsinin müəyyənləşməsi kimi çoxsaylı geosiyasi məsələlərə də geniş diqqət ayrılmış, dövlətin geosiyasi gələcəyi ilə bağlı mövcud təhdidlər və yarana biləcək problemlər, onların aradan qaldırılması yolları şərh edilmişdir.

Geosiyasət elminin vəzifəsi təkcə akademik formada bəşəriyyətin birgəyaşayış normalarını və təhlükəsizliyini planlaşdırmaqla yekunlaşmır. Bu elm həm də praktiki fəaliyyət üçün rəhbər tutulan tətbiqi sahə hesab olunur və beynəlxalq siyasətdə müxtəlif açıq və qapalı cəmiyyətləri dəyərləndirmək, fərqli iqtisadi-sosial, ekoloji, demoqrafik, informasiya, dini, mədəni vəziyyəti olan ölkələrlə qarşılıqlı əlaqələri düzgün qurmaq anlamında hər bir dövlətin ali rəhbərlərində, siyasi və ictimai xadimlərdə, idarəçilik, hərbi, təhlükəsizlik və strateji planlama ilə məşğul olan məmurlarda, millət vəkillərində və bütün milli elitada geniş geosiyasi düşüncə yaratmaqdan ibarətdir. Odur ki, dərslikdə Azərbaycanın geosiyasi perspektivlərində mühüm əhəmiyyət kəsb edən dünyanın və regionun geosiyasi güc mərkəzləri ilə əlaqələri və münasibətlərinə, xüsusən Xəzərin enerji resurslarının istismarı və dünya bazarlarına çıxarılması, neft və təhlükəsizlik strategiyasının hazırlanması və həyata keçirilməsi, Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizinin yaradılması və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı məsələlərinin həllinə, bu sahədə yürüdülən strateji dövlət siyasəti və atılan praktiki addımlara geniş yer ayrılmiş, Azərbaycanın dünyanın, regionun və Avropanın təhlükəsizlik, enerji, tranzit-keçid, beynəlxalq daşıma və nəqliyyat-kommunikasiya sistemində iştirakı məsələləri, onu təhdid edən təhlükəsizlik, enerji, demoqrafik və s. kimi qlobal proseslər haqqında praktiki tövsiyələr verilmişdir.

Beynəlxalq münasibətlərin bütün səviyyələrində - ölkələrarası, təşkilatlararası və hətta, ayrıca götürülmüş fərdlərarası əlaqələrdə geosiyasi vəziyyətin düzgün qavranması, məlumat-

ların, biliklərin qiymətləndirilməsi çox mühüm əhəmiyyət kəsb edir. Düşünürük ki, təqdim olunan **«Azərbaycanın geosiyasəti»** dərsliyi bu mənada ali məktəblərin müvafiq ixtisasları üzrə təhsil alan tələbələri, aspirant və doktorantlar, o cümlədən müəllimlər və elmi işçilər üçün mühüm əhəmiyyət kəsb edəcəkdir. İnanırıq ki, Azərbaycanda ilk ümumiləşmiş tədqiqat əsəri kimi bu kitab həm də müvafiq sahədə çalışan dövlət məmurları və qulluqçular, habelə geniş oxucu kütləsi, aidiyyatı mütəxəssislər, siyasətçilər, millət vəkilləri və ən geniş intellektual təbəqə - milli elita üçün dəyərli töhfə olacaqdır.

I BÖLMƏ

AZƏRBAYCANIN GEOSİYASİ İNKİŞAF TARİXİ VƏ XARAKTERİSTİKASI, MÜASİR MİLLİ İNKİŞAF SİYASƏTİNİN ƏSASLARI

I FƏSİL
AZƏRBAYCANIN GEOSİYASİ İNKİŞAF TARİXİ

§1.1. Azərbaycanın qədim zamanlardan Birinci dünya müharibəsinə qədərki geosiyasi vəziyyəti

Beynəlxalq münasibətlər sisteminin əsasını qoyan Vestfal (1648) sülhünə qədər Azərbaycanın çox mürəkkəb və ziddiyyətli bir inkişaf tarixi olmuşdur. Əhəmiyyətli ərazi xarakteristikasına malik olan Xəzər hövzəsi, Cənubi Qafqaz, Anadolu və Mərkəzi Asiya bölgəsi daim xarici dövlətlərin, məşhur dünya sərkərdələrinin diqqətini çəkmiş, onların işğalçı yürüşlərinə məruz qalmışdır.

Azərbaycan ərazisində yaranmış qədim dövlətlər (Manna, Atropatena, Albaniya) ayrı-ayrı dövrlərdə müstəqil xarici siyasət yürüdərək, ətraf aləmin vəziyyətindən asılı olmayaraq, öz ərazilərini və dövlətçiliyini qorumağa səy göstərmişlər. Lakin dünyada yaranmış geosiyasi və hərbi-geostrateji vəziyyətin təsiri altında zaman-zaman Azərbaycanın siyasi coğrafiyasında da müəyyən dəyişikliklər olmuş, onun ərazisində mövcud olan dövlətlər nə qədər ciddi müqavimət göstərsə də, müxtəlif tarixi mərhələlərdə yadelli işğalçıların, daha güclü region dövlətlərinin, böyük imperiyaların hökmranlığı altına düşmüşlər.

Bizim eradan əvvəl Azərbaycan uzun müddət Midiya, Əhəmənilər, Sasani imperiyaları tərkibinə qatılmış, VII əsrdən Ərəb xilafətinin hakimiyyəti altına düşmüşdür. Ərəb xilafətinin süqutundan sonra Azərbaycan ərazisində meydana gəlmiş feodal dövlətləri (Sacilər, Salarilər, Rəvvadilər, Şirvanşahlar, Şəd-

dadilər) IX-XI əsrlərdə xarici aləmlə, qonşu ölkə və xalqlarla müxtəlif istiqamətli əlaqələr yaratmış və öz suveren idarəçiliklərini qorumağa çalışmışlar. Sonrakı dövrdə Atabəylərin hakimiyyəti dövrü (1136-1225-ci illər) istisna olmaqla Azərbaycan XV əsruin sonlarına qədər ayrı-ayrı işğalçı imperiyaların- XI-XII əsrlərdə Böyük Səlcuq imperiyasının, XIII əsrdənsə Hülakilərin tərkibinə qatılmışdır.

1357-ci ildə Qızıl Orda xanı Canıbəy (1341-1357-ci illər) Şirvanşah Kavusla birləşərək Hülaki dövlətinin varlığına son qoyur. Lakin monqol-tatar (türk-Ə.H.) mənşəli cəlairilər, cobanilər və teymurilər 1367-1410-cu illərdə yenə Azərbaycanda öz hökmranlıqlarını davam etdirirlər.

Beləliklə, göründüyü kimi Azərbaycan uzun müddət yadelli işğalçıların hökmranlığı altında yaşamağa məcbur edilsə də xalq öz milli inkişafını heç zaman dayandırmamış, hətta böyük və fərqli imperiyaların tərkibində belə özünəməxsus maddi-mənəvi dəyərlərini, dilini, milli varlığını qoruyub saxlamağa və inkişaf etdirməyə nail olmuşdur. Elə bu inkişafın nəticəsində Azərbaycanda Avropadan daha əvvəl – XV əsrin sonlarından etibarən yerli Səfəvilərin *mərkəzləşmiş milli dövlət hərəkatı* başlanmışdır.

Mərkəzləşmiş milli dövlət hərəkatının meydana gəlməsi ücün zəruri əlverişli zəmin əvvəlki dövrlərdə- Atabəylər dövləti (XII-XIII əsrlər), Qaraqoyunlu, Ağqoyunlu dövlətləri (XV əsr), Şirvanşahlar dövləti (XV-XVI əsrlər) və s. zamanında yaşanan siyasi proseslərin nəticəsi kimi meydana çıxmışdır. Həmin dövlətlər mürəkkəb geosiyasi şəraitdə öz qonşuları ilə və o dövrün digər dövlətləri ilə xarici təmaslar qurmuş, müxtəlif səviyyəli diplomatik əlaqələr yaratmışdırlar.[2]

[2] Bax: Əfəndiyev O.A. Azərbaycan Səfəvilər dövləti. B., 1993; Mahmudov Y. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəri dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər). B., 2006.

Mütəxəssislərin fikrinə görə, Avropada milli dövlətlərin yaranması prosesinin başlanması və Qərbi Roma dini imperiyasının süqutu ərəfəsində Azərbaycan ərazisində yaradılmış Səfəvilər dövləti regionun nüfuzlu dövlətlərindən birinə çevrilə bilmişdir. Səfəvilər dövləti özünün bütün parametrləri ilə (vahid ərazi, kompakt yaşayan əhali (xalq), əhalinin de-fakto idarə olunması, başqa dövlətlər tərəfindən tanınma və s.- Ə.H.) Vestfal prosesinin prinsiplərinə cavab verirdi. Bu dövlət bölgədə kifayət qədər müstəqil xarici siyasət fəaliyyəti həyata keçirir və dünya dövlətləri içərisində öz nüfuzu ilə seçilirdi. Səfəvilər həm bə təkcə milli dövlət yaratmaq və onu qorumaqla kifayətlənməmiş, dövrün tələblərinə uyğun olaraq öz sərhədlərini genişləndirmək, yeni əraziləri ələ keçirmək siyasəti də yürütmüşlər. Xüsusən, I Şah İsmayılın dövründə (1501-1524) Səfəvilər dövləti bütün Azərbaycan torpaqlarını birləşdirməyə nail olmuş və keçmişdə ayrı-ayrı qonşu imperiyalar tərəfindən tutulmuş digər əraziləri geri qaytarmaq uğrunda qanlı müharibələr aparmışdır. Onun xarici siyasət xətti, güddüyü dövlət maraqları həmin dövrdə Osmanlı imperiyasının siyasəti ilə toqquşduğundan iki ölkə arasında uzun müddətli müharibələrə səbəb olmuşdur (1514), (1578-1590 və s.). Mütəxəssislərin fikrinə görə, Avropa ölkələri və Rusiya tərəfindən qızışdırılan osmanlı-səfəvi münasibətləri hər iki dövləti, xüsusən Səfəviləri tədricən zəiflətmişdir.[3]

I Şah Abbas dövründə (1587-1629) Səfəvilərin itirilmiş torpaqlarını geri qaytarmaq, mərkəzləşmiş dövləti yenidən bərpa etmək istiqamətində həm daxildə, həm də xarici aləmlə uzun müddətli ciddi iş aparılsa da, bu dövlətin əvvəlki sərhədlərini bərpa etmək mümkün olmamışdı. 1590-cı ildə İstanbulda Osmanlı dövləti ilə bağlanan sülh sazişinə görə (Səfəvi-Os-

[3] Bax: Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). B., 1999.

manlı müqaviləsi) Azərbaycan torpaqları iki hissəyə bölünmüşdür. Müqaviləyə əsasən, Azərbaycanın Şirvan, Qarabağ, Təbriz, Sərab, Marağa və ondan qərbdə yerləşən bütün əraziləri Osmanlı dövlətinə keçmiş, Xalxal, Ərdəbil, Qaradağ, Talış, Zəncan və Sultaniyə torpaqları Səfəvilərdə qalmışdır.

I Şah Abbas dövründə Səfəvi dövləti fars vilayətləri və digər ərazilər hesabına bir qədər də genişlənmiş və Azərbaycan çərçivəsindən çıxaraq ümumi imperiya idarəçiliyinə keçmişdir. Osmanlının tabeçiliyində olan ərazilərə (əsasən azərbaycanlıların yaşadığı Qərbi Azərbaycan torpaqları- Ə.H.) yaxınlığına görə, Səfəvilər təhlükəsizlik baxımından paytaxtı Təbriz və sonra Qəzvin şəhərlərindən ölkənin daha içərilərinə – fars əyalətlərinə (İsfahana) köçürmüşlər. Həmin vaxtdan Azərbaycan torpaqları bu imperiyanın çərçivəsində "Azərbaycan vilayəti" adlandırılaraq "bəylərbəyliyi" statusunda idarə edilmişdir. Əfşarlar tayfasını təmsil edən Nadir şahın hakimiyyətindən (1736-1747 sonrakı dövrdə də bu dövlətə və ondan ayrılmış xanlıqlara mənşəcə azərbaycanlılar olan şahlar başçılıq etsələr də (İranda yalnız 1925-ci ildə Pəhləvilərin idarəçiliyə gəlməsi ilə fars mənşəli şahlar ölkə rəhbərliyinə keçmişdir -Ə.H.), bu dövlət artıq xarici aləmdə Səvəvilər dövləti kimi deyil, tədricən Persiya, sonralarsa İran adından çıxış etməyə başlamışdır.

Osmanlı-Səfəvi qarşıdurması nəticəsində, göründüyü kimi, Azərbaycan iki hissəyə bölünmüş və azərbaycan xalqının məskunlaşdığı etnik ərazilərin sərhədlərinin miqyasında dəyişiklik baş vermişdir ki, bu da regiondakı geosiyasi şəraiti xeyli dəyişmişdir. Əslində sonrakı illərdə də bu iki imperiya arasındakı qarşıdurma dayanmamış və müharibə vəziyyəti XVII əsrin ilk yarısına qədər davam etmişdir. İtirilmiş torpaqları geri qaytarmağa çalışan Şah Abbas 1603-cü ildə Təbrizi, 1604-1605-ci illərdə Naxçıvanı, Makunu və Araz çayı sahillərindəki torpaqları, İrəvanı, Qarabağı, Sərabı osmanlılardan azad edərək

Azərbaycana birləşdirmişdi. 1607-1616-cı illərdə Səfəvi ordusu Gəncəni, Şirvanı, Dərbəndi ələ keçirmiş və ölkənin sərhədlərini qısa müddətə olsa da xeyli genişləndirmişdir ki, bu da regionun geosiyasi vəziyyətini yenidən dəyişmişdi. 1612-cı il *Sərab* və 1639-cu il *Qəsri-Şirin* sülhünün şərtləri nəticəsində uzunmüddətli Osmanlı-Səfəvi müharibələrinə XVIII əsrin əvvəllərinədək son qoyulmuş və bölgədə müvəqqəti sakitlik bərpa olunmuşdu.

Lakin uzunmüddətli müharibələr nəticəsində Səvəvilərin ölkəsi ağır vəziyyətə düşmüşdü, ölkə ərazisindəki əksər xalqlar narazı idi. Odur ki, XVIII əsrin əvvəllərindən azərbaycan və fars əyalətlərində Səfəvi idarəçiliyinə qarşı kortəbii üsyanlar başladı. Bu dövrdə Avropada və dünyada mərkəzləşmiş dövlətlərin getdikcə güclənməsi, müstəmləkəçilik siyasətinin vüsət alması və ənənəvi imperiyaların tədricən keçmiş müstəmləkə ərazilərindən sıxışdırılması prosesi gedirdi. Səfəvi dövlətinin zəifləməsi və daxildə artan narazılıq mərkəzləşmiş dövlətin *müxtəlif xanlıqlara parçalanmasını* qaçılmaz edirdi. Bu proses daha çox həmin dövrdə Qafqazda, Xəzər-Qara dəniz hövzəsində getdikcə öz imperiya maraqlarını reallaşdırmağa başlayan Böyük Britaniya və Rusiya imperiyalarının işinə yarayırdı.

1700-1721-ci illərdə Rusiya Skandinaviya ölkələri ilə apardığı Şimal müharibəsi nəticəsində Baltik dənizinə çıxış əldə etdi və Rusiya "İmperatorluq" elan edildi. Lakin Baltik dənizi ilin çox hissəsini donduğundan ucuz və sərfəli dəniz ticarəti üçün əlverişli deyildi. Ona görə də Rusiya imperatorluğu isti dənizlərə yiyələnmək planlarını həyata keçirməyə başladı. Həmin niyyətləri həyata keçirmək uğrunda bütün vasitələr məqbul hesab edilirdi. Rusiya Şimali Azərbaycan ərazisinə-Dərbənd, Şirvan, Gəncə və digər bölgələrə diplomatik missiyalar, kəşfiyyat məqsədi güdən ekspedisiyalar göndərməyə

başladı. I Pyotr Xəzər sahili ərazilər və Qafqaz üzərinə böyük yürüşlər üçün planlar hazırlayırdı. Çarizm ayrı-ayrılıqda Qafqazda həm Osmanlı, həm də Səfəvi şahları ilə separat danışıqlar aparır, onların arasında mövcud olan ziddiyyətlərdən istifadə etməyə çalışırdı. Rusiya 1722-1723-cü illər ərzində Dərbənd, Bakı və Rəşt üzərinə yürüş edərək Xəzərboyu Azərbaycan vilayətlərini işğal etdi. Bu vəziyyət regionun coğrafiyasında yeni geosiyasi dəyişikliklər əmələ gətirdi.

Səfəvilərin getdikcə zəifləməsi və baş verən hakimiyyət dəyişikliyi Qafqaz uğrunda Osmanlı və Rusiya imperatorluqları arasında amansız rəqabətin güclənməsinə gətirib çıxardı. Lakin hər iki dövlət qanlı müharibələrdən imtina etdi və nəticədə 1724-cü ildə İstanbulda sülh müqaviləsi imzalandı. *Müqaviləyə görə, Türkiyə Səfəvi şahlarının "Rusiyaya güzəşt etdiyi Xəzərsahili" Şimali Azərbaycan torpaqlarının yeni statusunu təsdiq etdi. Bunun əvəzində isə Rusiya Şirvan istisna olmaqla Səfəvilərə məxsus digər Qərbi Azərbaycan ərazilərinin və Cənubi Qafqazın bir hissəsinin (Azərbaycanlılar yaşayan Borçalı və digər vilayətlərin, Batumun. Krımın və s.-Ə.H.) Osmanlı dövləti tərəfindən tutulmasına etiraz etməyəcəyinə təminat verdi*.

Beləliklə, Rusiya və Osmanlı dövlətləri Səfəvilər dövlətinin bir qism Azərbaycan ərazilərini öz aralarında bölüşmək barədə razılığa gəldilər ki, bu da bir tərəfdən Azərbaycanın siyasi cöğrafiyasında və geosiyasi xəritəsində yeni dəyişiklik əmələ gətirdi, digər tərəfdənsə bölgədə tamamilə yeni geosiyasi vəziyyət yaratdı.

Bu zamandan etibarən çarizm dairələri *"Bakı və Azərbaycan"* ifadələrini öz istilası altında olan Şimali Azərbaycan torpaqlarına aid edərək, bu torpaqlara rus əyaləti kimi baxmağa başlandılar. Belə yanaşma onların Bakıya münasibətdə strateji

niyyətlərindən xəbər verirdi və bütün sonrakı dövrlərdə, hətta sovet hakimiyyəti illərində də Bakının Rusiyaya birləşdirilməsi planlarını reallaşdırmağa cəhdlər edildi.

Xəzərətrafı əraziləri işğal etdikdən sonra Rusiya müvəqqəti olaraq Qafqazda bir qədər sakitləşdi. Bu sakitləşmə sonrakı işğallar üçün gücün çatışmaması, qüvvələrin səfərbər edilməsi və Rusiyada imperator I Pyotrun ölümündən sonra baş vermiş hakimiyyət dəyişkənliyi ilə bağlı idi. Hətta, yeni Rusiya imperatoru rus ordularını bir müddət Azərbaycandan geri də çağırdı və bu ölkənin Qafqaz siyasətində qeyri-müəyyənlik yarandı.

Bu zaman Osmanlı dövləti ilə Səfəvi şahları arasında yenidən 1724-1735-ci illərdə Cənubi Azərbaycan və Cənubi Qafqaz uğrunda ciddi mübarizəyə başladı. Görkəmli sərkərdə, milliyyətçə azərbaycanlı olan Nadir şah Türkiyəni bütün Cənubi Azərbaycan və Cənubi Qafqazdan çıxarmağa nail oldu. Bunun ardınca Nadir şah 1735-ci ildə Rusiyanı "Gəncə müqaviləsi"ni imzalamağa məcbur etdi. Müqaviləyə görə, Rusiya öz ordularını bütün Xəzərsahili ərazilərdən geri çəkməyə məcbur edildi. Beləliklə, Azərbaycanın və Cənubi Qafqazın siyasi coğrafiyasında yenidən dəyişiklik baş verdi.

Osmanlı və ruslar üzərində parlaq qələbə qazanan Nadir şah əksər Azərbaycan torpaqlarını öz hakimiyyətinə tabe edərək 1747-ci ilə qədər Səfəvilərin səltənətində tam hökmdarlıq etdi. Nadir şahın ölümündən sonra XVIII əsrin ortalarında onun yaratdığı mərkəzi hökumət yenidən parçalandı. O dövrdən başlayaraq Azərbaycan dövlətçiliyi mərkəzi hökumətdən ayrılan bir çox xanlıqların timsalında davam etdirildi. Cənub ərazilərində- Təbriz, Urmiya, Xoy, Qaradağ, Sərab, Marağa, Maku, Ərdəbil, Şimal ərazilərində isə- Naxçıvan, Qarabağ, Gəncə, Bakı, Quba, Şəki, Şamaxı, İrəvan, Lənkəran və Cavad xanlıqları yarandı. Xanlıqların yaranması sonrakı tarixi proses-

lərdə Azərbaycanın geosiyasi vəziyyətinə ciddi təsir edən obyektiv amillərdən biri oldu.

Daxili idarəçilik sistemini quran xanlıqlar müstəqil siyasət yürütməyə, qonşu dövlətlərlə – Rusiya, Türkiyə və digər qonşu dövlətlərlə əlaqələr yaratmağa başladılar. Xanlıqların xarici siyasəti kifayət qədər müstəqil idi. Onların özlərinin ordu hissələri, maliyyə və idarəçilik sistemləri var idi, xarici ölkələrlə müstəqil yazışmalar həyata keçirirdilər.

Heç şübhəsiz, xanlıqlar hərbi-siyasi cəhətdən regionun böyük dövlətlərinin müstəmləkə siyasətinə qarşı çıxmaq qüdrətində deyildilər. Bununla belə, onlar Azərbaycan xalqının qədim və zəngin dövlətçilik ənənələrini qoruyub saxlayır və ətraf dövlətlərlə sərbəst münasibətlər yaradırdılar.

Xanlıqların Rusiya, Türkiyə və digər qonşularla qarşılıqlı münasibətləri daha çox milli təəssübkeşlik və dini birlik amilləri üzərində qurulurdu. Bu dövlətlərin hər biri yerli xanlıqlardan öz siyasi və strateji maraqları naminə istifadə edərək Cənubi Qafqazda, o cümlədən Azərbaycanda möhkəmlənməyə çalışırdılar. Rusiya gürcüləri və erməniləri, Türkiyə isə azərbaycanlıları və digər müsəlman xalqlarını öz himayəsi altına alaraq, onların xarici aləmlə təmaslarına nəzarət etməyə çalışırdı. Burada dini və etnik amillərin arxasında hər bir dövlətin geosiyasi niyyətlərinin reallaşdırılması istəkləri dururdu.

XIX əsrdə Azərbaycan torpaqlarının geosiyasi vəziyyətində yeni ciddi dəyişikliklər baş verdi. Rusiya-İran, Rusiya-Türkiyə və Türkiyə-İran arasında aparılan bir neçə qanlı müharibə nəticəsində Qafqazda və Azərbaycanda yeni geosiyasi vəziyyət yarandı. 1804-1813 və 1826-1828-ci illər Rusiya-İran, 1806-1812 və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələri ilə Rusiya Azərbaycanın şimalındakı xanlıqları və Qara dənizin şərq hissəsi də daxil olmaqla Cənubi Qafqazın digər ərazi-

lərini tam işğal edərək öz tərkibinə qatdı. Şimali Azərbaycanın geosiyasi vəziyyəti tamamilə dəyişdi. İşğal edilən Şimali Azərbaycan xanlıqlar formasında, azərbaycanlılar isə bakılı, şirvanlı, naxçıvanlı, irəvanlı, lənkəranlı və b. adlarla Rusiya imperiyasının tərkibinə qatıldılar.

1813-cü il Gülüstan[4] və 1828-ci il Türkmənçay[5] sülh müqavilələrinin şərtlərinə görə, Şimali Azərbaycan bötövlükdə və Qərbi Azərbaycanın bir hissəsi (İrəvan xanlığının ərazisi və azərbaycanlılar yaşayan Gürcüstanın Borçalı vilayəti- Ə.H.) Rusiyanın, Cənubi Azərbaycan bötövlükdə həmin vaxtdan sonra bəzi mənbələrdə artıq İran dövləti kimi təqdim edilən Səfəvilərin, Qərbi Azərbaycanın digər hissəsi, o cümlədən Araz çayının qərb ətrafı Osmanlı imperiyasının tərkibində qaldı. Beləliklə, bir neçə işğalçı müharibə nəticəsində Səfəvi imperiyasının bir yerə topladığı Azərbaycan əraziləri üç dövlət arasında bölüşdürüldü. Azərbaycan torpaqlarının ayrı-ayrı dövlətlərin tərkibinə qatılması ilə onun sonrakı geosiyasi vəziyyəti əsaslı şəkildə dəyişdi. Lakin, hətta bölüşdürüldükdən sonra belə Azərbaycan uzun tarixi dövr ərzində bölgənin böyük dövlətləri arasında maraqların toqquşduğu əsas geosiyasi məkan olaraq qaldı və geosiyasi ədəbiyyarda "Şimali Azərbaycan" , "Cənubi Azərbaycan", "Qərbi Azərbaycan" və s. ifadələri yarandı.

Baş vermiş geosiyasi dəyişikliklər gələcəkdə Azərbaycanın Cənubu, Şimalı və Qərbinin müxtəlif istiqamətlərdə və səviyyələrdə inkişaf etməsinə, xalqın milli kimliyinin formalaşmasını ciddi təsir göstərdi. Xüsusən, azərbaycanlıların milli kimliyinin yaranması prosesi Şimali, Cənubi və Qərbi Azərbaycanda fərqli məzmun və fərqli formada getməyə başladı.

[4] Мирный трактат заключенный между Россией и Персией в Гюлистане. - Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f.202, siy.1, iş 25, v. 279-283.

[5] Манифест об окончании войны и заключении мира с Персией. -ARDTA, f. 202, siy. 1, iş 71, v. 312-317.

Avropa ölkələrindən mədəni inkişafına görə geri qalsa da, o dövrdə Rusiya imperiyası İrandan və Osmanlıdan daha sürətlə inkişaf edirdi. Odur ki, onun tərkibinə keçən Şimali Azərbaycan və Qərbi Azərbaycanın bir hissəsi rus dili və mədəniyyəti vasitədi ilə yavaş-yavaş özünün məxsusi təhsilini, elm və mədəniyyətini inkişaf etdirməyə başladı. Düzdür, çarizm bu "maarifçilik siyasəti"ni öz müstəmləkəçilik fəaliyyəti ilə çətinləşdirərək, nə qədər azərbaycanlılar arasında ruslaşdırma siyasəti həyata keçirsə də, tam fərqli etnik və dini mənsubiyyətə malik olan azərbaycanlıları imperiya işərisində assimilyasiya etdirə bilmədi. Əksinə, bu xalqın milli kimliyinin- məxsusi dilinin, dini sitayiş modelinin, adət-ənənələrinin, milli-mənəvi və milli-əxlaqi dəyərlərinin formalaşmasına təkan vedrdi.

Cənubi Azərbaycanı öz tərkibində saxlayan İranda və Qərbi Azərbaycanın bir hissəsini özünə birləşdirən Osmanlıda isə azərbaycan xalqının milli inkişafı ayrıca bir xətt üzrə davam etdirilmədi və İranda bu proses şiə məzhəbli ümumislam, Osmanlı ərazisindəsə dil birliyinə söykənən ümumtürk çərçivəsinə salınaraq dayandırıldı. Bu ölkələrin heç birində azərbaycanlılar üçün məxsusi milli tədris müəssisələri, mətbuat, dini ibadət və mədəniyyət ocaqları yaradılmadı, əksinə, onlara qarşı güclü assimilyasiya siyasəti həyata keçirilməyə başlandı.

Çarizm yuxarıda qeyr olunan müsbət cəhətlərlə yanaşı, azərbaycanlılar üçün bir sıra ciddi geosiyasi problemlərin də təməlini qoydu- işğal etdiyi əraziləri imperiya ilə daha sıx bağlamaq üçün Cənubi Qafqazın "daha etibarlı ünsürləri" ilə Azərbaycanın demoqrafik şəraitini dəyişməyə başladı. Regiona kənardan ruslar, almanlar, polyaklar, xüsusən ermənilər köçürülməyə başlandı. Rusiya imperatorluğunun Osmanlı və İran ilə sərhədləri boyunca öz tarixi vətənlərində yaşayan azərbaycanlıların torpaqlarına həmin ölkələrdən çoxsaylı ermənilər köçürülərək planlı şəkildə yerləşdirildi. Çarizmin Azərbaycan torpaqlarının ermənileşdirilməsisiyasəti səbəbsiz deyildi. Er-

mənilər uzun tarix boyu müsəlman xalqları içərisində yaşamışdı, onların adət-ənənələrini, dillərini bilirdi, şəraitə tez uyğunlaşa bilirdi və həm də itaətkar idi.

Ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsi regiona özü ilə bərabər çoxlu, o cümlədən gələcəkdə baş verə biləcək geosiyasi dəyişiklərə zəmin yaradan problemlər də gətirdi. Onlar azərbaycanlılara məxsus münbit torpaqlarda yerləşdirilərək və onların hesabına varlanaraq, az sonra bu ərazilərdə milli-dini ziddiyyətləri kəskinləşdirdi və yerli xalqları öz tarixi torpaqlarından sıxışdırmağa başladı.

İşğalçı müharibələr nəticəsində həyata keçirilən bölüşdürülmə və ermənilərin yerləşdirilməsi XIX əsrdə Azərbaycanın geosiyasi vəziyyətində baş verən ən ciddi mənfi dəyişiklik olub, bütün Azərbaycan xalqının taleyinə və gələcək dövlətinin ərazi quruluşuna təsir edən amil oldu. Çarizmin regionda həyata keçirdiyi "parçala və hökm sür" siyasəti sonralar bütün Cənubi Qafqaz regionunda qan və müharibələr ilə müşayiət olunan əsaslı geosiyasi dəyişikliklər üçün şərait yaratdı.

§1.2. Birinci dünya müharibəsi dövründə Cənubi Qafqazdakı geosiyasi vəziyyət və xarici dövlətlərin fəaliyyəti

1914-cü ildə dünyanın yenidən bölüşdürülməsi uğrunda sonralar Birinci dünya müharibəsi adlandırılan Böyük müharibə başladı. Bu müharibə təkcə iqtisadi və hərbi deyil, həm də geosiyasi niyyətlərin reallaşdırılmasını güdürdü. Müharibənin əsas qaynar nöqtələrindən biri də Qara və Xəzər dənizləri hövzəsi, Cənubi Qafqaz və Anadolu torpaqları uğrunda aparılan mübarizə cəbhəsi idi. (Bax: Xəritə 1)

Müharibəyə Antanta bloku daxilində qoşulan Çar Rusiyasi öz ərazilərini cənuba doğru genişləndirməyi, İstanbula və Qara

dəniz boğazlarına sahib çıxmağı və s. haqqında düşünürdü. Bununla bağlı, Rusiya müttəfiqlərinin razılığını da almış, müvafiq sənəd də imzalamışdı. Müharibənin nəticəsi onu daha nəhəng bir dövlətə çevrilməsinə gətirib çıxarmalı, isti dənizlərdə hökmranlığını təmin etməli idi.

Birinci dünya müharibəsi Rusiya imperiyasında cərəyan edən ictimai-siyasi prosesləri daha da mürəkkəbləşdirmişdi. Xüsusən Osmanlı imperatoluğunun müharibəyə qoşulmasından sonra Qara dəniz boğazlarının Rusiya gəmilərinin üzünə bağlaması ölkədə onsuz da ağır olan iqtisadi vəziyyəti daha da ağırlaşdırdı. Ciddi ərzaq qıtlığı yaranmışdı, xalq aclıq çəkirdi. Əhalinin hakimiyyətdən narazılığı günü-gündən artırdı.

BİRİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ CƏNUBI QAFQAZ VƏ ANADOLU CƏBHƏSİ, 1914-1916 Cİ İLLƏR



Xəritə 1.

Belə bir vəziyyətdə 1917-ci ilin fevral ayında Rusiyada inqilab baş verdi. 300 ildən artıq hökmranlıq etmiş Romanovlar sülaləsi devrildi. Ölkədə müvəqqəti hökumət quruldu. Hərbi əməliyyatların böyük çətinliklər hesabına davam etdirilməsi Rusiyanın ucqarlarında narazılığın artmasına, milli özünüdərk hisslərinin getdikcə güclənməsinə, milli azadlıq hərəkatının yaranmasına və imperiyanın sütunlarının laxlamasına böyük təkan verdi. Təməli sarsılmış rus imperiyasının daxili həyatında, ictimai və milli quruluşunda dəyişikliklər qaçılmaz idi. Ölkədə mərkəzdənqaçma prosesləri getdikcə güclənirdi.

Rus imperiyasının caynağından qurtulmağa çalışan və qısa müddətdə buna nail olan etnik ərazilərdən biri də XIX əsrdə işğal edilərək bu ölkəyə birləşdirilmiş Cənubi Qafqaz idi. Bu diyarı idarə etməyin getdikcə çətinləşdiyini nəzərə alaraq, regionu nəzarətdə saxlamaq üçün Rusiya Dövlət Dumasının Cənubi Qafqazdan olan bir qrup deputatının təşəbbüsü ilə həmin dövrdə Xüsusi Komitə yaradılır. Lakin bu komitənin fəaliyyəti gözlənilən nəticəni vermir. Çünki bölgədə xalqların getdikcə güclənən milli muxtariyyət və müstəqillik uğrunda mübarizəsinin qarşısını almaq, çoxsaylı siyasi partiyaların və ictimai təşkilatların fəaliyyətini dayandırmaq artıq mümkün deyildi.

1917-ci ilin oktyabr ayında baş vermiş çevriliş nəticəsində bolşeviklərin Petroqradda hakimiyyətə gəlməsi ilə ölkədə vəziyyət tamamilə dəyişdi. Müvəqqəti hökumətin yerinə yeni - Proletariat diktaturası adlanan hakimiyyət gəldi. Ölkədə sosial və milli qarşıdurma güclənərək vətəndaş müharibəsinə çevrildi. Hakimiyyətdən düşürülənlər ilə hakimiyyətə gələnlər arasında yaranmış düşmənçilik ölkəni iki sinfi cəbhəyə böldü. Yaranmış vəziyyət keçmişdə xalqlar həbsxanası hesab olunan Rusiyanı qanlı vətəndaş müharibəsinə sürüklədi. Belə bir şəraitdə təməli sarsılmış Rusiya imperatorluğunun milli ucqarlarında muxtariyyət və müstəqillik uğrunda mübarizə güclənərək qarşısıalınmaz prosesə cevrildi. Yaranmış vəziyyətdən çıxış

yolları axtaran xalqlar və onların milli liderləri rus imperiyasının dağıntıları altından daha az itki ilə çıxmağa və xalqlarının gələcək inkişafını müstəqil şəkildə qurmağa çalışırdılar.

Hakimiyyətə gələn bolşeviklər "Sülh haqqında dekret" adlı xüsusi bəyanatla çıxış edərək, hər iki cəbhədə döyüşən tərəflərə, müharibəyə cəlb olunmuş dövlət və xalqlara barışıq təklif edir ki, bu da o dövrün beynəlxalq münasibətlərində yeni vəziyyətin başlanğıcından xəbər verirdi.

Bolşeviklərin Rusiyanı müharibədən çıxarması onun keçmiş müttəfiqləri ilə münasibətlərini kəskinləşdirdi. Antanta ölkələri Rusiyanın müharibəni davam etdirməsini təkid edirdilər. Onların düşüncələrinə görə, Rusiyadakı yeni hakimiyyətin müharibəni davam etdirməsi bir tərəfdən Almaniya bloku ölkələrinin hərbi əməliyyatlarda üstünlük qazanmasının qarşısını alar, digər tərəfdən isə yerli inqilabi şəraiti zəiflədə, monarxiya hakimiyyətinin bərpasına şərait yarada bilərdi. Bolşeviklər isə əksinə, "proletariatın vətəni yoxdur, sinfi marağı var" şüarı ilə tam fərqli fəaliyyət nümayiş etdirərək dünya xalqlarını kapitalizm quruluşuna qarşı sinfi mübarizəyə çağırırdılar.

Bolşevik hakimiyyəti üçün iqtisadi, siyasi və hərbi-strateji cəhətdən ən əhəmiyyətli regionlardan biri Cənubi Qafqaz idi. Cənubi Qafqazda Bakı iqtisadi, hərbi-strateji, geosiyasi baxımdan xüsusi bir yer tuturdu. Bakı nefti artıq müharibədə qələbənin taleyinə təsir edən ciddi amilə çevrilmişdi. Ona görə də bolşeviklər Bakı üzərində nəzarətin itirilməsinə yol verməkistəmirdilər. 1917-ci ilin noyabrında bolşeviklər erməni-daşnak qüvvələrinin yaxından köməyi ilə Bakıda hakimiyyəti ələ keçirdilər. Onların Bakıda hakimiyyətə gəlməsi Antanta ölkələri içərisində ciddi narazılıq və həyacan yaratdı.

Rusiyanın keçmiş müttəfiqləri isə dağılmış imperiyanın bərpası, düşmən dövlətlərin Cənubi Qafqaza daxil olmasının qarşısını almaq və antibolşevik niyyətli konkret tədbirlər həyata keçirməyə başlayırlar. Tiflisdə fəaliyyət göstərən Böyük

Britaniya, ABŞ və Fransa nümayəndəliklərinin tövsiyəsi, maliyyə dəstəyi və iştirakı ilə azərbaycanlı, gürcü və erməni siyasi partiyalarının toplantısında Cənubi Qafqazda yaranmış vəziyyətin aradan qaldırılması və regionun idarə edilməsi üçün Zaqafqaziya (Transqafqaz) Komissarlığının yaradılması qərara alınır. Komissarlıq öz fəaliyyətində əsasən anti-bolşevik tədbirlərinə üstünlük versə də, bütövlükdə Rusiyanın parçalanmasının əleyhinə çıxış edir və kecmiş imperatoluğun bərpasına çalışırdı. Müttəfiqlərin təsiri və digər amillər ucbatından bu qurum həm də Almaniya bloku ölkələrinin əleyhinə çıxış edirdi. Baxmayaraq ki, bütün siyasi partiyalar Komissarlığın anti-alman mövqeyini dəstəkləmirdilər.

Komissarlığın tərkibinə daxil olan partiyalar arasında mövcud olan ziddiyyətlər və region ətrafında cərəyan edən mürəkkəb proseslər Cənubi Qafqazda yeni gesoyasi vəziyyətin yaranacağından xəbər verirdi. Azərbaycanlı, gürcü və erməni siyasi partiyalarını bolşevizmə qarşı ümumi mövqe birləşdirsə də, bu qurumun xarici siyasət məsələlərinə onların baxışları bir-birindən kifayət qədər fərqlənirdi. Bu sahədəki fikir ayrılıqları milli fraksiyalar arasındakı anlaşılmazlıqları, ixtilafları daha da dərinləşdirirdi.

Azərbaycanlı nümayəndələr xarici dövlətlərlə əlaqələrin yaradılması məsələsində hökumətin tam müstəqilliyini nəzərdə tutan bəyannamə qəbul olunmasını məqsədəuyğun sayırdılar ki, bu onların yaxın gələcəkdə həyata keçirmək istədikləri niyyətlərindən xəbər verirdi.

Gürcü fraksiyası yalnız bir sıra daxili məsələlərin həll edilməsi ilə kifayətlənməyi lazım bilirdi. Onlar xarici siyasət məsələlərinə münasibətdə ehtiyatlı mövqe tuturdular.

Erməni milli fraksiyasının isə Rusiyadan ayrılmaq və müharibə aparan tərəflərlə sülh məsələsində yekdil fikri yox idi. Onlar yaranmış vəziyyətə uyğun olaraq daha çox çevik hərəkət

etməyə və anti-türk qüvvələrin köməkliyi ilə öz milli dövlətlərini yaratmağa çalışırdılar.

Belə yanaşma əslində Transqafqaz Komissarlığının uzun müddət fəaliyyət göstərməsinin mümkün olmayacağından və Cənubi Qafqazın daha ciddi geosiyasi dəyişikliklər ərəfəsində olmasından xəbər verirdi.

Gənc sovet hakimiyyəti isə sözdə çarizmin "xalqlar həbsxanası" siyasətinin prinsiplərindən imtina etdiyini bildirsə də, faktiki olaraq imperiya çərçivəsində sosialist rejimi yaratmağa, Cənubi Qafqazın əlverişli geostrateji mövqeyə malik Bakı kimi şəhərlərini əldə saxlamağa, bu ərazidə yaşayan azərbaycanlıların türklərə olan meyilini və müstəqillik əzmini qırmağa can atırdı. Lenin və onun silahdaşları müsəlmanlara etibar etmədiyini nümayiş etdirərək, Bakıda və Azərbaycanın digər ərazilərində silahlı ermənilərə meydan verərək azərbaycanlılara qarşı qəddar milli siyasət yeridirdi. Bu mövqeni bolşeviklərin yaratdığı Bakı Sovetinin və onların ixtiyarında olan silahlı qüvvələrin azərbaycalılara qarşı düşmən münasibət sərgiləməsi açıq nümayiş etdirirdi.

Petroqraddakı bolşevik hökumətinin sülh təkliflərini Antanta ölkələri qəbul etmədikdə onlar Almaniya bloku ilə Brest-Litovskda danışıqlara başladılar. Brest-Litovskda Almaniya, Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstanla atəşkəs haqqında sənəd imzalaması ilə dünyada və bölgədə əsaslı geosiyasi dəyişikliklərin başlanğıcı qoyuldu.

Transqafqaz Komissarlığının xarici siyasət sahəsində ilk addımı həmin dövrdə Osmanlı imperatorluğu ilə Cənubi Qafqaz məsələləri ilə bağlı danışıqlara başlamaq qərarına gəlməsi və bu istiqamətdə fəallıq nümayiş etdirməsi oldu. Bu qurumun qərarına əsasən, 1917-ci il dekabrın 5-də Ərzincanda Osmanlı dövləti nümayəndələri ilə 14 maddədən ibarət barışıq müqaviləsi imzalandı. Ərzincan barışığına Rusiya tərəfdən bolşevik hakimiyyəti deyil, rus ordusunun komandanlığı imza atdı.

Müqaviləyənin maddələri sülh müqaviləsi imzalanana qədər tərəflərin hər biri üçün məcburi xarakter daşıyırdı. Barışıq müqaviləsində digər məsələlərlə yanaşı, qeyd olunurdu ki, Rusiya Respublikası ilə Almaniya blokunun ölkələri arasında ümumi barışıq sazişi imzalanacağı təqdirdə onun maddələri Qafqaz cəbhəsi üçün məcburi olmalıdır. Beləliklə, barışıq şərtlərinə əsasən Cənubi Qafqaz Rusiyanın tərkib hissəsi kimi qəbul edilirdi. Atəşkəs haqqında sazişin imzalanması ilə barışıq müqaviləsinə əlavə olaraq demarkasiya xətti haqqında akt da daxil edilmişdi. Barışığın imzalanmasına azərbaycanlı, gürcü və erməni siyasi partiyalarının münasibəti birmənalı deyildi.

Ərzincan barışığından sonra rusların Qafqaz cəbhəsi dağıldı. Rusiyada və müharibə cəbhəsində yaranmış vəziyyətlə əlaqədar rus ordusu öz mövqelərindən geri çəkildi. Onunla birlikdə rus ordusu tərkibində fəaliyyət göstərən erməni silahlı dəstələri də Anadoluda dinc türk əhaliyə qarşı törətdikləri kütləvi qırğınlara görə məsuliyyətdən yaxa qurtara bilməyəcəklərindən qorxaraq Cənubi Qafqaza (əsasən Bakıya və digər Azərbaycan ərazilərinə) döğru hərəkət etdilər. Dağılmış rus ordu hissələri öz silah və sursatını erməni silahlı dəstələrinə verirdilər.

Ərzincan barışığından sonra Osmanlı imperatopluğunun Cənubi Qafqaz siyasətində yeni bir mərhələ başladı. Türk ordusunun bu ərazilərə daxil olması üçün əlverişli şərait yarandı. Osmanlı komandanlığının Şərqə doğru hərəkət planlarını həyata keçirmək üçün əlverişli keçid-tranzit rayon olan Cənubi Qafqazdan istifadə etmək istəkləri ciddi nəticələrə gətirdi.

Qeyd edildiyi kimi, müharibənin son mərhələsində neftə və digər yanacaq məhsullarına tələbatın artması Bakı neftinə yiyələnmək uğrunda hərbi əməliyyatların aparılmasını şiddətləndirdi. Antanta ölkələri Mesopotamiya cəbhəsində Türkiyənin panislamçı siyasətinə qarşı etnik ərəb millətçiliyini qızışdırdı. Türkiyə üçün bu regionda artıq panislamizm şüarları ilə

hərəkət etmək, hərbi əməliyyatlarda uğur qazanmaq və Mosul neftini əldə saxlamaq mümkün deyildi. Ona görə də Osmanlı imperatoluğu və onların alman müttəfiqləri Cənubi Qafqaz istiqamətində hərəkət etməyə qərar verirlər.

Osmanlı imperatoluğunun bu istiqamətdə hərəkəti bir sıra amillərlə şərtlənmişdi. Hər şeydən əvvəl, Azərbaycan nefti hərbi əməliyyatların aparılmasında əsaslı rol oynayırdı. Onun Antanta ölkələri tərəfindən tutulması, Xəzər üzərində müttəfiqlərin nəzarət qazanması, Mərkəzi Asiyaya gedən yola sahib olmaları Almaniya və Osmanlının məğlubiyyətini bilavasitə sürətləndirirdi. Almaniya bloku ölkələrindən Cənubi Qafqaza ən yaxın olanı və regionu daha mükəmməl tanıyanı türklər idi.

İkincisi, Cənubi Qafqaz istiqamətində Osmanlı ordu hissələrinin hərəkəti üçün milli və sosial baza baxımından heç bir ciddi problem yox idi. Regionun əhalisinin böyük əksəriyyətini azərbaycanlılar, digər türkdilli xalqlar və müsəman əhalisi təşkil edirdi. Onlar uzun illər boyu çarizmin zülmündən əziyyət çəkmişdilər və öz azadlıqları yolunda Türkiyəyə, türklüyün və islamın mərkəzi olan Osmanlıya xilaskar kimi yanaşırdılar. Türklərin özü də bu faktordan xüsusi istifadə edərək bu xalqların nümayəndələri hesabına özlərinin günü-gündən zəifləyən və seyrələn Qafqaz İslam ordusunun sıralarını doldurdu. Belə bir şəraitdə, başda Şaumyan olmaqla bolşevik-daşnak ünsürləri türk ordusunun Qafqazda güclənən hücumlarının qarşısını almaq, azərbaycanlıların istiqlala gedən yolunu bağlamaq üçün Cənubi Qafqazın türk və müsəlman əhalisinə qarşı ermənilərin vasitəsilə təzyiq və təqibləri artırır, dinc əhalini qorxutmaq məqsədilə kütləvi qırğınlar təşkil edirdi. Bakıdakı sovet hakimiyyətinin silahlı qüvvələri zəif olduğundan o, rus cəbhəsindən tərxis olunmuş silahlı erməni-daşnak hissələrinin gücündən istifadə edir və onlara arxalanırdı. Bolşeviklər başda Lenin olmaqla formal olaraq "xalqların öz müqəddəratını təyin etmə hüququnu" tanısalar da, hakimiyyətlərini keçmiş impera-

torluğun bütün ərazilərində, xüsusən neftlə zəngin, geosiyasi cəhətdən əhəmiyyətli məkanda yerləşmiş Azərbaycanda qoruyub saxlamaq üçün hər cürə rəzalətə, hətta yeri gəlsə yerli azərbaycanlıları məhv etməyə belə hazır idi və buna ciddi cəhd göstərirdi.

Daşnak silahlı dəstələri və bolşevik hakimiyyəti azərbaycanlıları ilk növbədə Abşeron yarımadasından sıxışdırıb çıxarmağa, Osmanlı ordularını Bakıya buraxmamağa və bu şəhəri nəyin bahasına olursa-olsun öz nəzarətində saxlamağa çalışırdı. Odur ki, buna qədər azərbaycanlı, türk və müsəlmanlara qarşı Anadolu və Cənubi Azərbaycanda törədilmiş kütləvi məhvetmə kompaniyası, həmin dövrdən başlayaraq daha amansızlıqla Bakıda, Qubada, Zəngəzur və İrəvan quberniyalarında, Borçalı və Şimali Azərbaycanın digər müxtəlif bölgələrində həyata keçirilməyə başlandı. Bu qırğınlar regionda gedən geosiyasi proseslərə və əhalinin etnik tərkibinə ciddi təsir edən mühüm amillərdən idi. Transqafqaz Komissarlığı bu qırğınların qarşısını ala bilmədi və əslində almaq istəmədi. Milli siyasət nəinki bütün Qafqaz regionunda, həmçinin Komissarlığın daxilində belə düzgün qoyulmur və millətlərarası münasibətlər qızışdırılır, xüsusən də yerli müsəlman əhaliyə qarşı ayrıseçkilik aşkar şəkildə həyata keçirilirdi. Odur ki, belə şəraitdə Osmanlı imperiyası həm də Cənubi Qafqazın türk və müsəlman əhalisini qorumaq baxımından xüsusi mənəvi məsuliyyət daşıyırdı.

Türkiyə istisna olmaqla Birinci dünya müharibəsində iştirak edən tərəfləri, əlbəttə, yerli azərbaycanlıların taleyi deyil, daha çox Bakı və onun nefti maraqlandırırdı. Odur ki, indiyədək Yaxın və Orta Şərqdə - Mosul nefti uğrunda müharibədə iştirak edən tərəflər arasında aparılan geostrateji döyüşlərə 1918-ci ilin ortalarından zəngin neft yataqları olan Bakı və Cənubi Qafqazın digər müvafiq əraziləri (məsələn Bakı-Batum

dəmir yolunun keçdiyi rayonlar və s.) uğrunda amansız döyüşlər də əlavə edildi.

Bakı şəhəri mühüm geosiyasi mövqeyə sahib idi. Bakıda hökmran olan ölkə Xəzər üzərində nəzarət əldə edirdi. Xəzər üzərində nəzarət edən ölkə isə həm Cənubi Qafqaz, Orta Asiya və həm də Şimali Qafqazda yeni imkanlar qazanır, Türküstana gedən bütün yolları açılmış olurdu. Ona görə də bolşevik hakimiyyəti Bakının hər hansı bir ölkə tərəfindən tutulmasına və yaxud azərbaycanlıların öz tarixi, təbii paytaxtı olmuş bu şəhər üzərində nəzarəti qaytarmalarına qətiyyən yol vermək fikiri yox idi.

Türk və müsəlman dünyası qarşısında o dövrdə xüsusi mənəvi məsuliyyət daşıyan Osmanlı dövləti belə bir şəraitdə Bakıya yürüş etmək və yerli azərbaycanlılara kömək etmək məqsədilə hərəkətə keçdi. Bu hərəkatda heç şübhəsiz, Osmanlının regionda neft, təbii sərvətlərdən yararlanmaq, Xəzər hövzəsi və Türküstanın qapıları üzərində nəzarət qazanmaq, Orta Asiyaya sahib olmaq kimi hərbi-strateji maraqları da var idi. Region əhalisinin milli və dini tərkibi nəzərə alınmaqla bu niyyətləri həyata keçirmək Osmanlı üçün sosial və mənəvi baxımdan çətin deyildi.

Osmanlı imperatorluğunun Cənubi Qafqaza qoşun çıxarması və hərtərəfli üstünlük qazanmasına təsir edən əsas amillərdən biri də Rusiyanın müharibədən çıxması və qoşunlarını Qafqazdan geri çəkməsi idi.

Antanta ölkələri regionda müəyyən rol oynasalar da, onların siyasəti bəhs olunan zaman üçün hələ ki, kifayət qədər təsirli deyildi. Onlar Mesopotamiya cəbhəsindən müəyyən qədər ordu hissələrini ayırıb Cənubi Qafqaza göndərmək istəsələr də, niyyətlərini bir çox coğrafi, siyasi, hərbi və s. amillər ucbatından reallaşdıra bilmədilər. Bu isə Osmanlının qəti qərar verməsinə və Cənubi Qafqazda yeritdiyi siyasətə həlledici təsir edən amillərdən digəri idi.

Bütün bu amillərin məcmusu isə müharibənin gedişində Cənubi Qafqazda yeni geosiyasi vəziyyətin yaranmasına gətirib çıxardı. Həmin dövrdə Cənubi Qafqazda geosiyasi vəziyyəti müəyyənləşdirən əsas dövlətlər Osmanlı, Almaniya, Avstriya-Macarıstan və düşdüyü ağır vəziyyətdə çarəsiz qalaraq həmin dövlətlərlə könülsüz razılaşan bolşevik Rusiyası idi.

Osmanlı imperatopluğunun güclənən təzyiqləri qarşısında nə Transqafqaz Komissarlığı nə də ki, Bakıya nəzarət edən bolşevik-daşnak qüvvələri dayanmağa qadir idilər. Vəziyyət getdikcə mürəkkəbləşirdi. Regionda Osmanlı imperatorluğunun təsirinin günü-gündən artması müşahidə olunurdu.

Ərzincan barışığı müvəqqəti olduğu üçün Osmanlı imperatorluğu Transqafqaz Komissarlığı ilə yeni sülh danışıqlarına başlamaq qərarına gəlir. 1918-ci ilin yanvarında general Odişelidzeyə göndərdiyi məktubda Osmanlı hökuməti Tranqafqaz Komissarlığını Brest-Litovskda aparılan sülh danışıqlarına dəvət edir və Cənubi Qafqazda yeni - müstəqil dövlətin yaranmasına öz köməyini göstərəcəyini vəd edir.

Əslində Osmanlı imperatorluğunun bu mövqeyi Cənubi Qafqazın müstəqilliyi üçün geniş imkanlar yaradırdı. Türk komandanlığının müraciəti Transqafqaz Komissarlığında müzakirə olunsa da, irəli sürülən təkliflər bu qurumda təmsil olunan və Antanta ölkələri ilə o dövr üçün müəyyən münasibət yaratmağa nail olmuş qeyri-müsəlman nümayəndələri tərəfindən müəyyən təsirlər nəticəsində qəbul edilmədi. Komissarlığın erməni və bəzi gürcü nümayəndələri Türkiyənin bölgədəki mövqeyindən ciddi şəkildə çəkinirdilər. Hadisələrin sonrakı gedişi Transqafqaz Komissarlığının çar Rusiyasından ayrılaraq özünün müstəqilliyini elan etməkdə maraqlı olmadığını ortaya çıxardı. Bunun əsas səbəbi isə Komissarlığa daxil olan siyasi partiyaların bəzilərinin hadisələrə öz milli maraqları çərçivəsindən yanaşması, digər hallarda isə sadəcə cəsarətsizlik göstərmələri ilə bağlı idi.

Lakin yaradılmış Tranqafqaz Seymi gürcü və azərbaycanlı nümayəndələrin təkidi ilə mürəkkəb və ziddiyyətli proseslərlə üzləşməsinə baxmayaraq, aprelin 22-də böyük səs çoxluğu ilə Cənubi Qafqazı müstəqil dövlət - Demokratik Federativ Respublika elan etdi. Yeni yaranmış dövlətin Konstitusiyasını hazırlamaq üçün komissiya təşkil edilməsi haqqında qərar qəbul edildi. Cənubi Qafqazın müstəqil respublika elan edilməsi onun beynəlxalq münasibətlərin subyekti kimi tanınması yolunda mühüm hadisə idi.

Lakin Cənubi Qafqazın müstəqilliyinin elan edilməsi bu qurumun xarici siyasət sahəsində hansısa əsaslı dəyişikliklər aparması ilə nəticələnmədi. Regiondakı böhranın və milli qarşıdurmanın qarşısını almaq üçün Seymdə fikir birliyi yox idi. Fraksiyalararası ziddiyyətlər günü-gündən səngimək əvəzinə, daha da güclənirdi. Millətlərarası münaqişələr və qarşıdurmalar daha da radikallaşırdı. Bakı və Yelizavetpol, İrəvan quberniyalarında erməni silahlı dəstələri tərəfindən müsəlman əhalini kütləvi qətillərə məruz qoyma halları getdikcə artırdı. Cənubi Qafqazda anarxiya və xaos, millətlərarası qarşıdurma və lokal döyüşlər dayanmırdı. Transqafqaz Seymi bu qırğınları dayandırmaq üçün məsul olsa da, ona nail ola bilmirdi.

§1.3. Azərbaycanın müstəqilliyinin elan edilməsi və onun Cənubi Qafqazın geosiyasi vəziyyətinə təsiri

Belə şəraitdə, may ayının 26-da Transqafqaz Seyminin sonuncu iclasında gürcü nümayəndələri Seymi tərk edərək öz müstəqil dövlətlərini yaratmaq haqqında bəyanat verdilər. Bunun ardınca qurum özünün buraxılması haqqında qərar qəbul etdi. Yaranmış vəziyyətlə əlaqədar, mayın 27-də Seymdə təmsil olunan Azərbaycan fraksiyasının nümayəndələri fövqəladə iclas keçirir və Azərbaycan Müvəqqəti Milli Şurasının yaradıl-

ması qərarına gəlir. Milli Şuranın mayın 28-də keçirilən ilk iclasında çıxış edənlər Azərbaycanın müstəqil respublika elan edilməsinin vacib olduğunu bildirdilər. İclasda Azərbaycanın istiqlaliyyətinin elan edilməsi haqqında qərar qəbul olunur və altı bənddən ibarət "İstiqlal bəyannaməsi" bəyan edilir.[6] Burada Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin gələcək daxili və xarici siyasətinin əsas istiqamətləri və prinsipləri müəyyən olunmuşdu.

Azərbaycanda respublika idarə-üsulunun qurulacağını bəyan edən Milli Şura ilk dəfə olaraq müsəlman Şərqinə xalq respublika məfkurəsini və idarə üsulunu gətirdi. Beləliklə, Cənubi Qafqazda müstəqil dövlətlərin, o cümlədən də Azərbaycan dövlətinin yaradılması prosesi başlandı. Azərbaycanlılar uzun illər boyu arzuladıqları və uğrunda mübarizə apardıqları müstəqilliyə qovuşmaq şansı əldə etdilər. (Bax: Xəritə 2)

Əgər Azərbaycanın şimalı XIX əsrdə Rusiya tərəfindən xanlıqlar formasında işğal edilmişdisə, azərbaycanlılar isə şirvanlı, gəncəli, bakılı, lənkəranlı, naxçıvanlı və b. adlar altında bu ölkəyə birləşdirilmişdilərsə, 1918-ci ildə Azərbaycan vahid bir dövlət, azərbaycanlılar isə vahid bir xalq kimi imperiyanın tərkibindən ayrıldı. Azərbaycan xalqının uzun illər boyu pozulmuş vahid dövlətçilik ənənələri bərpa edildi. Bu isə Cənubi Qafqazda yeni bir geosiyasi vəziyyətin yaradılması demək idi. Azərbaycan beləliklə, təkcə Qafqaza deyil, bütün Yaxın və Orta Şərq regionuna təsir edən ciddi bir faktora çevrildi. Azərbaycan Cümhuriyyəti bütün müsəlman xalqlarına müstəmləkə zülmündən azad olmanın və müstəqil dövlət yaratmanın nümunəsini göstərdi.

[6] Адрес-календарь Азербайджанской Республики на 1920 год. Под ред. А. И. Ставровского. Б., Правительственная типография газ. «Азербайджан» 1920, с. 16-17; Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 970, siy.1, iş 1, v. 1-2.

Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin təbii-tarixi olaraq formalaşmış vahid inzibati ərazisi mövcud idi. Azərbaycan dövlətini yaratmaqdan ötrü bundan başqa, daxili amillər - Azərbaycan xalqı və onun vahid etnik ərazisi də formalaşmışdı. Proseslərin gedişində bütün əhalini idarə edən mərkəzi hakimiyyətin də yaradılması milli dövlət quruculuğunu şərtləndirən əsas daxili amillərin mövcudluğunu göstərirdi.

Müstəqil dövlətin yaradılması üçün əlverişli beynəlxalq şərait də mövcud idi. Osmanlı imperatoluğunun xarici siyasət konsepsiyası, geosiyasi niyyətləri Azərbaycan xalqının arzu və istəkləri ilə üst-üstə düşürdü. Osmanlı yardımları dövlətin yaradılması üçün mühüm xarici faktor rolunu oynayırdı. Beləliklə, göründüyü kimi, müstəqil dövlətin yaradılması obyektiv tarixi proseslərin və Azərbaycan xalqının uzun illər boyu apardığı istiqlal mübarizəsinin konkret nəticəsi idi.

BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN SONU. CƏNUBİ QAFQAZ 1918-ci il.
AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ ERMƏNİSTAN MÜSTƏQIL DÖVLƏTLƏRİNİN YARADILMASI



Xəritə 2.

Rus çarizminin yeritidiyi Qafqaz siyasəti nəticəsində regiona yerləşdirilən ermənilərə ayrılan Azərbaycan torpaqları istisna olmaqla Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin iddia etdiyi ərazilərin xəritəsi belə idi: Bakı quberniyası və Dağıstan vilayəti, bütün Yelizavetpol quberniyası (keçmiş inzibati sərhədlərində), Sıqnax qəzasının qərb hissəsindən Qəbələ çayına qədər Zaqatala dairəsi, Sıqnax qəzasının cənub-qərb hissəsi, Borçalı qəzasının orta hissəsi, Naxçıvan, Şərur-Dərələyəz, və Sürməli qəzaları, İrəvanın cənub hissəsi, (İrəvan şəhərinin özü Milli Şura tərəfindən ermənilərə verilmişdi) Göyçə gölünün şərq sahilinə qədər, Yeni Bəyazıt qəzasının bir hissəsi.

Azərbaycanın sərhədləri aşağıdakı kimi müəyyənləşdirilirdi: şimaldan dağlı xalqlar, şimal-qərbdən Gürcüstan, qərbdən Ararat Respublikası (Ermənistan), şərqdən Xəzər dənizi ilə Türküstan, cənubdan İran, cənub-qərbdən Osmanlı imperatorluğu.


Azərbaycan Xalq Cümhuriyyəti Cənubi Qafqazda mühüm geosiyasi mövqe tutraraq regionun ərazi baxımından ən böyük ölkəsi idi. Ölkənin mübahisəsiz ərazisi 97.297. kv.km təşkil edirdi. Ermənistan və Gürcüstanla mübahisəli ərazilərlə birlikdə Azərbaycan ərazisi ümumən 113.895. kv.km göstərilirdi. (Bax Xəritə 3)

Cənubi Qafqazda əhali baxımından ən çoxsaylı xalq da azərbaycanlılar idi. O zaman bütün Cənubi Qafqazda 7 milyon 687 min 770 nəfər əhali yaşayırdı ki, onun üç milyon 306 min nəfəri azərbaycanlı, 1 milyon 786 min nəfəri erməni, 1 milyon 641 nəfəri isə gürcü idi.

Azərbaycan Xalq Cümhuriyyətinin əhalisi 2 milyon 861 min 862 nəfər idi. Bunun 1 milyon 952 min 250 nəfəri və ya 68,2 %-i azərbaycanlı, 622 min 6 nəfəri və ya 14,7%-i erməni, 14 min 791 nəfəri və ya 0,6 %-i gürcü, 214 min 930 nəfəri və ya 7,5 %-i rus, 57 min 882 nəfəri və ya 2,3 %-i digər xalqların nümayəndələri idi.[7]

[7] Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Akad. Z. M. Bünyadovun redaktəsi ilə. B., Elm, 1990, s. 179.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ. 1918-1920-ci illər



Xəritə 3.

Azərbaycan dövləti ilə yanaşı Cənubi Qafqazda Gürcüstan və Ararat erməni respublikaları da elan edildi. Bu vaxtadək Cənubi Qafqazda heç bir zaman Ermənistan adlı inzibati-siyasi vahid olmamışdı. Ermənistan adlı dövlət ilk dəfə olaraq məhz qədim İrəvan şəhəri mərkəz seçilməklə Azərbaycan torpaqlarında yaradılırdı. Yaradılarkən Ermənistan ərazisi təxminən 9 min kv. km elan edilmişdi. Yeni yaradılmış dövlətin hətta paytaxtı yox idi. Ermənilər bu zaman İrəvana iddia etmirdilər. Onlar dövlət yaratmaq üçün indiki Türkiyənin bəzi vilayətlərini və paytaxt olaraq Gümrünü istəyirdilər. Həmin torpaqlar və Gümrü şəhəri o zaman türk ordusunun nəzarəti altında idi.

Azərbaycan Milli Şurası bir sıra amillərin təsiri altında İrəvanı paytaxt olaraq Ermənistana güzəştə getdi.[8] Şura erməni və Azərbaycan xalqı arasında milli sülhün yaranacağına, ermənilərin ondan sonra guya ərazi iddiaları irəli sürməyəcəyinə ümid edirdi. Digər tərəfdən, ermənilər artıq İrəvanı işgal etmişdilər və onun azad edilməsi qanlı müharibə vasitəsilə mümkün idi. İrəvanın paytaxt kimi güzəştə gedilməsinə bir çox xarici amillər də təsir edirdi. Türklər də həmin vaxtda bütün dünyada antitürk fəaliyyəti sərgiləyən və Anadolunun bir çox strateji məntəqələrini tələb edən ermənilərə sakitləşdirmək, bu ərazilərdə sabitlik yaradılmasını təmin etmək, müttəfiqlərin ermənilərlə bağlı ərazi və digər təzminat tələblərini önləmək məqsədilə Azərbaycan hökumətinə İrəvanı ermənilərə güzəştə getməyi tövsiyə edirdilər. Əlbəttə, Türkiyə bu işi Azərbəycanın müstəqilliyinin qorunub saxlanması məqsədilə etdiyini bəyan edirdi.

Beləliklə, 1918-ci ildən sonra Cənubi Qafqazda yeni geosiyasi vəziyyət yarandı. Osmanlı ilə Rusiya və Orta Asianın müsəlman-türk əhalisi arasında bufer dövlətlər əmələ gəldi. Bufer dövlətlərin yaradılması ilə Rusiya və Osmanlı artıq birbiriləri ilə birbaşa sərhəd qonşusu deyildilər.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasına dünyanın böyük ölkələrinin münasibəti birmənalı olmadı. Belə yanaşma həmin ölkələrin Xəzər regionunda ciddi geosiyasi və geoiqtisadi maraqlarından doğurdu.

Bolşevik Rusiyası sona qədər Azərbaycanın müstəqilliyini tanımadı. Xüsusən, 1918-ci ilin mart ayında Bakıda azərbaycanlılara, müsəlmanlara qarşı törədilən dəhşətli soyqırımlardan sonra möhkəmlənmiş Bakı Xalq Komissarları hökumətinin köməyi ilə bütün Cənubi Qafqazı yenidən öz nəzarəti altına

[8] Протокол № 3. Заседания Мусульманского Национального Совета, состоявшегося 29 мая 1918 г. В город Тифлис во дворце.- Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA) , f. 970, siy. 1, iş 1, v. 51-52.

almağa səylər edirdi. Bolşevik hökuməti Bakı neftinin digər bir ölkənin əlinə keçməsinə imkan verməmək istəmirdi.

Bolşevik çevrilişi nəticəsində müharibədən çıxdıqdan və Cənubi Qafqazda yeni müstəqil dövlətlər yarandıqdan sonra Rusiya dünyada böyük dövlət statusunu itirmişdi. Xüsusən, zəngin təbii sərvətləri və nefti olan Azərbaycanın itirilməsi Rusiyanın mövqelərini sarsıtmışdı. İmperiyanın dağılması nəticəsində Xəzər donanmasının 40%-i Azərbaycanda qalmışdı. Rusiya isti dənizlərə gedən əlverişli və strateji Qara dəniz yollarını da itirmişdi. Çarizmin siyasətini tənqid etməsinə və onun dövlət idarəçilik sistemini dağıtmasına baxmayaraq, bolşeviklər keçmiş imperatorluğun ərazilərinin bərpa edilməsinə çalışırdılar. Onların fikrincə, Bakı neftinə yiyələnmək Rusiyanın böyük dövlət statusunu özünə qaytarması üçün çox vacib şərt idi. Rusiya regionda köçürmə siyasəti nəticəsində yerləşdirdiyi rus icmasına, xristian xalqlara və xüsusən də ermənilərə arxalanırdı. Cənubi Qafqazda hökm sürən hər hansı qarışıqlıq və milli münaqişə bolşevik Rusiyasının maraqlarına uyğun idi və dərhal belə hallardan stifadə olunurdu.

Osmanlı imperatorluğunun mövqeləri isə regionda möhkəmlənirdi. Buna çoxlu- dini, etnik və s. amillər təsir edirdi. Osmanlı Cənubi Qafqazda sabitliyin olmasında və ətrafında kiçik və zəif dövlətlərin yaranmasında maraqlı idi. Bütün bu proseslərdə Osmanlı regionda çoxluq təşkil edən türk- müsəlman əhaliyə arxalanırdı.

Almaniya regionda müəyyən rol oynamaq istəyirdi. Onun siyasətində arxalandığı qüvvə çarizm tərəfindən müxtəlif dövrlərdə köçürülərək bu yerlərə yerləşdirilən alman koloniyaları və gürcülər idi. Almaniyanın Azərbaycanda neft və digər təbii sərvətlərə yiyələnmək maraqları da var idi. Osmanlı ilə müttəfiq olmalarına baxmayaraq, Bakı məsələsində Almaniya ilə Osmanlı arasında dərin ziddiyyətlər yaranmışdı. Almaniya ki-

min vasitəsilə olursa-olsun Bakı neftindən pay almağa çalışırdı.

Yeni müstəqil dövlətlərin yaradılması Antanta ölkələrini də hərəkətə keçirmişdi. Onlar nə regionun Osmanlının təsiri altına düşməsində, nə də ki, sovet Rusiyasının nəzarətində qalmasında maraqlı deyildilər və hər vəchlə türk hücumlarının qarşısını almağa çalışırdılar. İngilislər Bakı neftinə sahib olmağa, Xəzər üzərində nəzarət qazanmağa və Orta Asiyaya gedən yola yiyələnməyə, Şimali Qafqazda gedən antisovet hərəkatını gücləndirməklə Rusiyada devrilmiş rejimi bərpa etməyə cəhd edirdilər. Lakin onların bu niyyətlərini reallaşdırmağa kömək edən güclü qüvvə regionda mövcud deyildi. Onlar da əsasən çarizmin müstəmləkəçilik siyasəti gedişində Cənubi Qafqaza yerləşdirdiyi xalqlara ümid edirdilər.

§1.4. Azərbaycan Xalq Cümhuriyyətinin geosiyasi fəaliyyəti və xarici dövlətlərin Cənubi Qafqaz siyasəti

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən etibarən fəal xarici siyasət xətti həyata keçirməyə başladı. Azərbaycanın Xarici İşlər Nazirliyi Osmanlı hökumətinin Xarici İşlər Nazirliyinə Azərbaycan Milli Şurasının və Fətəli xan Xoyskinin başçılıq etdiyi hökumət kabinəsinin yaradılması haqqında məlumat verdi.

Azərbaycan hökuməti may ayının 30-da Xalq Cümhuriyyətinin yaranması ilə bağlı məlumatı radioteleqramla bütün ölkələrin xarici işlər nazirliklərinə göndərdi. Ölkənin müvəqqəti paytaxtının Gəncə olduğu bildirildi.

Yenicə müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin beynəlxalq münasibətlər sisteminə qoşulması prosesi asan deyildi. Ona mane olan bir sıra daxili və xarici problemlər mövcud idi. Hətta bunu nəzərə alaraq, xarici

işlər naziri Məhəmmədhəsən Hacınski rəsmi müraciət edərək Osmanlı dövlətinin Avropa ölkələrində fəaliyyət göstərən türk səfirlikləri vasitəsilə Azərbaycan ilə Avropa dövlətləri arasında vasitəçi olmağa razılıq verib-verməməsi məsələsini qaldırdı. Bu müraciətdən sonra müxtəlif ölkələrdəki türk səfirlikləri Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında dünya ictimaiyyətinə məlumatın çatdırılmasını öz üzərinə götürdü.

İstiqlaliyyətini elan etmiş yeni müstəqil dövlətlərin sərhədlərini müəyyənləşdirmək məsələsi həmin ölkələrin xarici siyasəti qarşısında duran və qarşılıqlı münasibətlərinə ciddi təsir edən məsələlərdən biri idi. Əslində ərazi-sərhəd məsələləri regionda böyük güclər arasında gedən geosiyasi mübarizənin ən əsas hədəfi idi. Onlar bu amil vasitəsilə həm xalqlar arasında manevr edir, həm də Cənubi Qafqazda öz forpostlarını yaratmağa çalışırdılar.

1918-ci ilin may-iyun aylarında Batumda keçirilən danışıqların yekununu kimi iyunun 4-də Osmanlı imperatorluğu, Azərbaycan və Ermənistan arasında "Sülh və dostluq" haqqında müqavilə imzalandı.[9] Azərbaycan hökumətinin xarici dövlətlərlə imzaladığı bu ilk müqavilədə Azərbaycan ilə Osmanlı hökuməti arasında daimi sülh və dostluq əlaqələrinin bərqərar olması, Azərbaycan, Gürcüstan və Ermənistanın öz aralarında tezliklə sərhədləri müəyyən edəcək protokol imzalayacaqları nəzərdə tutulurdu. Azərbaycan-Osmanlı dostluq müqaviləsində ehtiyac olacağı təqdirdə, dinclik və asayişi möhkəmləndirmək üçün Osmanlı hökumətinin Azərbaycana hərbi yardım göstərəcəyi də nəzərdə tutulmuşdu. Müqavilədə Azərbaycan hökumətinin onun sərhədyanı ərazilərində yaradılmış silahlı quldur dəstələri tərksilah etməyi öz uzərinə götürdüyü, konsulluq

[9]Договор дружбы между императорским Оттоманским Правительством и Азербайджанской Республики. – Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi (ARPİİSPİHDA), f. 277, siy. 2, bağ. 1, iş 9, v. 10-11.

konvensiyası məsələsi, dəmiryol yüklərinin daşınmasında tərəflərin öhdəlik götürmələri, Brest-Litovsk müqaviləsinin tərəflər arasında qüvvədə olduğu və s. məsələlər də qeyd edilirdi.

Batum müqaviləsi yenicə müstəqillik elan etməsinə baxmayaraq, Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində özünə yer tutmaq və nüfuz qazanmaq üçün qəti iradəsini sübut edirdi. Sonradan Batum müqaviləsinə əlavə olaraq bəhs olunan dövlətlər arasında iki saziş də imzalandı.

Azərbaycan, Gürcüstan və Osmanlı arasında imzalanan birinci saziş Bakı-Batum neft daşımaları (neft kəməri vasitəsilə) ilə bağlı idi. Müqaviləyə əsasən tərəflər öz ərazilərində neft daşımalarının təhlükəsizliyini təmin etmək barədə razılığa gəlirdilər. Bu sazişin müddəalarının həyata keçirilməsi Azərbaycanın neft sənayesinin inkişafına mühüm təsir göstərir, onun dünya bazarına çıxarılmasına təminat yaradırdı. Əslində neftin belə nəqli yeni geoiqtisadi vəziyyət yaradırdı.

Dəmiryol nəqliyyatına aid olan ikinci saziş isə Osmanlı imperatorluğu, Azərbaycan, Gürcüstan və Ermənistan arasında imzalandı. Sənəddə keçmiş Rusiya dövlətinin mülkiyyəti olan dəmiryolu nəqliyyat vasitələrinin müqaviləni imzalayan tərəflərin ərazi hüdudlarına müvafiq olaraq onlar arasında bölüşdürülməsi nəzərdə tutulurdu.

Azərbaycan hökuməti müvəqqəti paytaxtı olan Gəncədə yerləşmişdi. Ölkənin təbii, tarixi paytaxtı olan Bakı isə Bakı Xalq Komissarları Sovetinin əlində idi. Bu hakimiyyət Azərbaycan xalqına zülm edirdi. Eyni zamanda bütün Cənubi Qafqazı nəzarət altına almağa hazırlaşırdı. Bakı dövrün beynəlxalq münasibətlərində və böyük dövlətlərin xarici siyasət strategiyasında mühüm rol oynayırdı. Bakı Osmanlı imperatorluğu, Almaniya, Böyük Britaniya və sovet Rusiyası arasında gedən amansız geosiyasi mübarizə məkanına çevrilmişdi. Sovet Rusiyası Azərbaycan hökumətinə bolşeviklərin yaratdığı Bakı Xalq Komissarları Soveti vasitəsilə təsir göstərir, onu məhv

etməyə çalışırdı. Məlum olduğu kimi, Bakıdakı bolşevik hökuməti nəinki yeni yaradılmış milli hökuməti tanımır, eyni zamanda onu məhv etmək üçün qüvvələrini səfərbər etməyə çalışırdı. Bu məqsədi həyata keçirməyə gücü yetmədiyindən bolşeviklər daşnak qüvvələrindən istifadə etdilər. Əslində Bakıda bolşevik-daşnak ittifaqı yaradılmışdı. Onlar azərbaycanlılara qarşı kütləvi qırğınları amansızlıqla davam etdirirdilər. Bolşevik hökuməti Gəncə istiqamətində hücum edərək dinc türk və müsəlman əhalini qırmaqda davam edirdi.

Azərbaycan hökumətinin əsas məqsədi isə paytaxtı yadelli qüvvələrdən azad etmək idi. Lakin Bakını azad etmək üçün Azərbaycanın qüvvələri kifayət etmirdi. Ona görə Azərbaycan hökuməti Osmanlıya müraciət etdi. Buna qədər, hələ Cümhuriyyət elan edilənə qədər türk hərbi təlimatçıları artıq Gəncəyə gəlmişdilər. Cümhuriyyət hökuməti Gəncəyə köçdükdən sonra milli ordu yaradılmasına başlanıldı. Bakı azad edildikdən sonra diplomatik-siyasi çətinliklər çıxmaması üçün Nuru Paşa komandanlığında Qafqaz İslam Ordusu (ilk mənbələrdə bu ordunun adı Qafqaz Müsəlman Ordusu adlanır - Ə.H.) yaradıldı. Bu adın götürülməsi səbəbsiz deyildi. Cənubi Qafqazda adətən ermənilər və gürcülər öz adları ilə, azərbaycanlıları isə müsəlman adlandırırdılar. Ordunun tərkibində azərbaycanlı könüllülərdən ibarət "Vəhşi diviziya"nın əsgərləri də daxil oldular. Əsas məqsəd Bakının azad edilməsi idi. Ordu Bakı üzərinə azadlıq yürüşünə başladı. Hücumlar qarşısında tab gətirə bilməyən bolşevik-daşnak Bakı Xalq Komissarları Soveti iflasa uğradı və öz hakimiyyətini Sentrokaspi diktaturası adlanan qondarma quruma təhvil verdi. Bu qurum da tamamilə anti-azərbaycan siyasəti yeridirdi. Sentrokaspi hökuməti tezliklə Bakıya hücumları dayandırmaqdan ötrü şəhərə ingilisləri dəvət etdi. Avqustun əvvəllərində ingilis generalı L. Denstervil başda olmaqla az miqdarda ingilis hərbi hissələri Bakıya gəldilər. İngilislər Bakıya yiyələnməklə ciddi iqtisadi, hərbi-siyasi və

strateji niyyətlər güdürdülər. Lakin o dövrdə həm ingilislərin Azərbaycanda sosial dayaqları mövcud deyildi, həm müharibə cəbhəsindəki mövcud hərbi-siyasi vəziyyət onlara Bakıya çoxsaylı qoşun yeritməyə imkan vermirdi, həm də Azərbaycan xalqının kəskin nifrətini qazanmış Sentrokaspi hökumətinin onları dəvət etməsi onların Bakını əldə saxlamasını qeyri mümkün edirdi.

Qafqaz İslam Ordusunun Bakını azad etmək üçün hərbi əməliyyatlara başlaması Osmanlının müttəfiqi olan Almaniyanın özü tərəfindən də narazılıqla qarşılandı. Müttəfiqlər arasında Bakı məsələsində ciddi fikir ayrılığı və kəskin ixtilaflar var idi. Bu məsələdə əslində Almaniya ilə Osmanlı nəinki müttəfiq deyildilər, həm də rəqib kimi görünürdülər. Bu özünü təkcə iki ölkə arasındakı, Almaniya-Rusiya diplomatik yazışmalarda deyil, onların hər üçünün ayrı-ayrılıqdakı konkret fəaliyyətində də aydın göstərirdi. Azərbaycan üçün belə çətin və mürəkkəb bir şəraitdə Almaniya ilə sovet Rusiyası arasında 1918-ci il avqustun 27-də Brest-Litovskdə sülh müqaviləsi və ona əlavə olaraq Azərbaycan və Bakı ilə bağlı xüsusi saziş imzalandı.[10]

8 fəsildən, 17 maddədən ibarət olan bu müqavilənin 14-cü maddəsi bilavasitə Azərbaycana aid idi. Bu maddədə Almaniyanın Qafqazda Gürcüstanın hüdudlarından kənarda hərbi əməliyyatlarda hər hansı üçüncü bir dövlətə heç bir yardım göstərməyəcəyi bildirilirdi. Sənəddə Almaniyanın Qafqazda üçüncü dövlətin hərbi qüvvələrinin Kür çayının mənsəbindən Petropavlovsk kəndinə, Şamaxı qəzasının sərhədləri boyunca Əyrioba kəndinə qədər, Bakı, Şamaxı və Quba qəzaları

[10] Русско-германский добавочный договор к Мирному договору между Россией, с одной стороны, и Германией, Австро-Венгрией, Болгарией и Турцией – с другой. 27 августа 1918 г.- Документы внешней политики СССР, T.I, с. 437-445.

boyunca, Bakı qəzasının şimal sərhədlərindən dənizə qədər olan əraziyə keçməməsi üçün təsir göstərəcəyi vurğulanırdı.

Almaniya bu müqaviləni imzalayarkən Avstriya-Macarıstanın mənafeyini nəzərə almadan sovet Rusiyası ilə separat razılığa gəldi, Osmanlıya qarşı qeyri-səmimi və xəyanətkar mövqe nümayiş etdirdi. Sazişdə adı çəkilməyən üçüncü dövlət dedikdə, Osmanlı imperatoluğu nəzərdə tutulurdu. Bakıya Osmanlı qoşunlarının buraxılmaması məsələsində sovet Rusiyası ilə Almaniya birmənalı müttəfiq idi.

Brest-Litovsk müqaviləsi Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmişdi və onu təhlükə altına alırdı. Azərbaycan hökuməti ölkənin əleyhinə yönəlmiş bu sazişə qarşı diplomatik mübarizəyə başladı. İstanbulda olan Azərbaycan nümayəndələrinin Tələt Paşa tərəfindən qəbulu zamanı Bakı məsələsi ilə bağlı Almaniyanın tutduğu mövqe müzakirə edildi. Görüşdə Bakının tezliklə azad olunmasının vacibliyi vurğulandı. Bu danışıqlar çox vaxt keçmədən öz təsirini göstərdi. Berlinə səfər edən Tələt Paşa Almaniyadan təcili olaraq həmin sazişin Azərbaycanla bağlı hissəsinin ləğv olunmasını tələb etdi.

Azərbaycan hökuməti də sərt diplomatik addımlar atdı. Sentyabrın 12-də İstanbulda Azərbaycan nümayəndələri Almaniyanın Osmanlı dövlətindəki səfirliyinə Azərbaycan hökumətinin etiraz notasını təqdim etdilər. Notada tarixi, etnoqrafik, coğrafi və iqtisadi faktlarla Bakının Azərbaycanın ayrılmaz hissəsi olduğu göstərilirdi. Qeyd edilirdi ki, "Azərbaycan əhalisi Bakını geriyə qaytarmaq arzusundan heç bir zaman əl çəkə bilməz. Bu məsələ Azərbaycan üçün yalnız ərazi məsələsi deyil, o, indi xalq üçün ölüm-dirim məsələsinə çevrilmişdir". Sənəddə Rusiya və digər dövlətlər üçün Bakının yalnız iqtisadi baxımdan faydalı olduğu vurğulanırdı. Göstərilirdi ki, Bakı Azərbaycanın siyasi, ictimai, elmi, mədəni və ideoloji mərkəzi, təbii, tarixi paytaxtdır.

Bu zaman müharibə cəbhəsində və beynəlxalq aləmdə mühüm dəyişikliklərin baş verməsini, regionda Böyük Britaniyanın fəallığının artması və s. yeni amilləri nəzərə alan Almaniya Azərbaycana qarşı ədalətsiz mövqeyindən əl çəkdi. Almaniya hökuməti 27 avqust sazişini imzalamaqla Bakı məsələsində səhvə yol verdiyini başa düşdü.

Bu dövrdə Azərbaycan hökuməti ilə Osmanlı Türkiyəsi arasında diplomatik əlaqələr daha da inkişaf etməyə başladı. 1918-ci il sentyabrında Sultan VI Mehmetin İstanbulda Azərbaycan nümayəndələri, oktyabr ayında isə Azərbaycanın İstanbuldakı fövqəladə səlahiyyətli nümayəndəsi Əlimərdan bəy Topçubaşov ilə görüşündə tərəflər Osmanlı və Azərbaycan türkləri arasında qardaşlıq münasibətlərinin mövcud olduğunu bildirdilər. Sultan VI Mehmet Ə. Topçubaşova xitabən qeyd etdi: "Əmin ola bilərsiniz ki, Osmanlı türkləri heç vaxt sizdən köməyini əsirgəməyəcəkdir".

Bütün bu görüşlərin müsbət nəticələri özünü çox da gözlətmədi. Osmanlı hökuməti Azərbaycana əlavə hərbi hissələr və hərbi yardım göndərdi. Sentyabrın 15-də Bakı şəhəri azad edildi. Yadelli qüvvələr şəhəri tərk edərək qaçdılar. Azərbaycanın türk qoşunları tərəfindən azad edilməsi Azərbaycan-Türkiyə danışıqlarının səmərəli nəticəsi və iki qardaş ölkənin silahlı qüvvələrinin birgə müttəfiqliyinin nümunəsi idi.

Bakının azad edilməsi sadəcə bir şəhərin xilası deyildi. Bu regionda yeni bir geosiyasi vəziyyətin yaranması demək idi. Azərbaycan hökuməti təbii-tarixi paytaxtına köçdü. Xəzər üzərində nəzarət əldə etdi. Bununla da Azərbaycanın təsiri həm Şimali Qafqaz üzərində artdı, həm də Türküstana gedən yola nəzarət qazandı. Bakının azad edilməsi Azərbaycan hökumətinin daxili siyasətinə mühüm təsir göstərdiyi kimi, xarici siyasət sahəsində də onun fəallaşmasına təkan verdi.

Almaniya və Avstriya-Macarıstan nümayəndə heyətləri Bakıya səfərlər etməyə başladılar. Məhz milli hökumətin

fəallığı və Osmanlının dəstəyi nəticəsində Almaniya hökuməti 27 avqust tarixli müqaviləyə əlavənin hüquqi qüvvəsini itirdiyini bildirdi, Azərbaycan Xalq Cümhuriyyətini müstəqil dövlət kimi tanıyacağına və tezliklə Bakıda konsulluq açacağına söz verdi.

Bu dövrdə milli hökumət dünyada və regionda gedən ictimai-siyasi proseslərə mühüm təsir göstərən Avropa dövlətlərində Azərbaycan nümayəndəliklərini yaratmağı əsas vəzifələrindən biri hesab edirdi. Lakin Bakının azad edilməsi ilə barışa bilməyən sovet Rusiyasının təzyiqləri artırdı. Bolşevik hökuməti türk ordusunun Bakıdan çıxmasını tələb edirdi. Bununla bağlı rus və türk nümayənədlərinin Berlində keçirilən görüşlərində Osmanlı hökumətinin siyasi-diplomatik xadimləri Bakını tərk etməyəcəklərini, edəcəkləri təqdirdə isə şəhəri öz sahibi olan azərbaycanlılara verəcəyini bəyan etdilər.

§1.5. Müharibənin başa çatmasından sonra Cənubi Qafqazda geosiyasi vəziyyətin dəyişməsi və Xalq Cümhuriyyəti hökumətinin diplomatik manevrləri

Birinci dünya müharibəsinin başa çatması ərəfəsində hər şey Osmanlı imperiyası və onun müttəfiqlərinin istəyinin əksinə gedirdi. Onların bir-birinin ardınca müharibədə ciddi məğlubiyyətə uğraması Cənubi Qafqazda da vəziyyətə ciddi təsir göstərərək yeni geosiyasi şərait yaranmağa başlandı. Oktyabrın 30-da Osmanlı nümayəndələrinin Mondros limanında ingilis komandanlığı ilə öz məğlubiyyətlərini etiraf edərək imzaladıqları sazişdən sonra Cənubi Qafqaza yenidən Böyük Britaniya qüvvələrinin gəlişi imkanı yarandı. Barışığın şərtləri Azərbaycan dövləti və onun gələcək geosiyasi maraqlarının təmin olunması üçün tam mənfi perspektivlərdən xəbər verirdi. Müqavilənin 11-ci maddəsində Osmanlı ordusunun tezliklə

Azərbaycanı və Transqafqazı tərk etməsi nəzərdə tutulurdu. Azərbaycandakı türk ordusu hissələrinin bir həftədən gec olmayaraq Bakını, bir aydan sonra isə bütün Azərbaycanı tərk etmələri haqqında şərt qoyulurdu. Müqavilənin 15-ci maddəsinə görə, Osmanlının əlində olan Cənubi Qafqaz dəmiryolu müttəfiq qüvvələrin nəzarətinə keçməli idi. Həmçinin, bu müqavilə müttəfiqlərin Batum şəhərini və limanları tutmasına da əsas yaradırdı. Belə vəziyyət Azərbaycan hökumətinin ciddi narazılığına səbəb oldu. Hakimiyyət etiraz əlaməti olaraq müttəfiq dövlətlərə nota göndərdi.

Yaranmış ağır vəziyyətdən çıxmaq üçün nəyin bahasına olursa-olsun, böyük dövlətlərlə, müharibədə qalib gəlmiş ABŞ, İngiltərə, Fransa və s. ilə diplomatik danışıqları davam etdirmək və Azərbaycanın müstəqilliyinin tanınmasına, onun beynəlxalq vəziyyətinin yaxşılaşdırılmasına nail olmaq yönündə mühüm tədbirlər görmək vacib idi.

Mondros barışığı Azərbaycan Respublikasının müstəqilliyinin dünyanın aparıcı dövlətləri tərəfindən tanınması məsələsinə də böyük maneçilik törədirdi. Lakin bu problemlərə baxmayaraq, Azərbaycan hökuməti milli dövlətin tanınması yönündə cidd-cəhdlə çalışırdı. Bu məqsədlə noyabrın 10-da Baş nazir Fətəli Xan Xoyski və xarici işlər naziri vəzifəsini icra edən Adil xan Ziyadxan ABŞ-ın prezidenti Vudro Vilsona müraciətlərində Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasına köməklik göstərilməsini xahiş etdilər. ABŞ prezidentinə müraciət səbəbsiz deyildi. Bu dövrdə ABŞ dünyada gedən ictimai-siyasi proseslərə mühüm təsir göstərən dövlətə çevrilmişdi. V. Vilson müharibədən sonrakı dövrdə dövlətlərarası münasibətlərdə və yeni dünya quruluşunun yaranması ilə bağlı məsələlərdə modern və liberal yanaşmanın banisi hesab edilirdi.

Azərbaycan hökuməti bu dövrdə çevik hərəkət edərək, Ənzəlidə yerləşmiş və Bakıya gəlmək üçün hazırlanan ingilis

ordusunun başçısı general V. Tomson ilə görüşüb danışıqlar aparmaqdan ötrü nümayəndə heyəti göndərdi. Tomson Azərbaycanın müstəqilliyinə müxtəlif motivlərin təsiri altında soyuq yanaşdı. Azərbaycan hökumətinin sosial dayağının olmadığını və Osmanlı intriqaları nəticəsində yaradıldığını bildirdi. Azərbaycan nümayəndələrinin israrından sonra isə gəlib vəziyyəti yerində öyrənəcəyini söylədi.

Tomson Azərbaycana gəlməzdən əvvəl türk ordusu Bakını tərk etdi. Yerli əhali türk ordusunu böyük hörmətlə yola saldı. Azərbaycanın müxtəlif şəhərlərində türk əsgərlərinin şərəfinə ziyafətlər verildi.

Azərbaycan Milli Şurasının noyabrın 16-da keçirilən iclasında Azərbaycanın müstəqilliyini tanımaq barədə bütün dünya dövlətlərinə yeni müraciət qəbul edildi. Eyni zamanda general Tomsona da müraciət qəbul olundu. Nazirlər Şurası sədrinin general Tomsona göndərdiyi teleqramda bildirilirdi: "Hökumət əmindir ki, müttəfiq ordunun Azərbaycana gəlməsi Azərbaycan hökumətinin daxili işlərinə qarışmadığı surətdə istiqlaliyyətimizə və məmləkətimizin təmamiyyətinə xəta toxunmaz". General Tomson cavab teleqramında Azərbaycan hökuməti ilə əməkdaşlığa hazır olduğunu qeyd etdi. O sonrakı çıxışlarında da Böyük Britaniya komandanlığının Azərbaycan hökumətinə və onun Baş nazirinə böyük ehtiram göstərdiyini, yeni koalisiyalı hökumət təşkil olunana qədər hazırkı hökumətin Azərbaycanda yeganə qanuni hökumət olaraq qaldığını vurğulayırdı. Əslində, Tomsonun bu mövqeni tutması Azərbaycan hökumətinin onunla diplomatik danışıqları uğurla və məharətlə aparmasından irəli gəlirdi.

Noyabrın 17-də general Tomson başda olmaqla müttəfiqlər adından ingilis ordu hissələri gəmilərlə Bakıya gəldi. Tomson Bakıda ciddi nizam-intizam ilə və qayda qanunla qarşılandı. Ölkədə real hakimiyyətin Azərbaycan hökuməti olduğuna

əmin oldu. Azərbaycan hökuməti ilə əməkdaşlıq etməyə başladı.

Milli Şura Avropa dövlətləri ilə beynəlxalq əlaqələrin yaradılmasında demokratik prinsiplərin göstərə biləcəyi təsiri də nəzərə alırdı. Azərbaycanda parlament üsul-idarəsinin təsis edilməsi Avropa dövlətləri ilə əlaqələrin yaradılmasında mühüm addım ola bilərdi. Bu məqsədlə Milli Şuranın noyabrın 16-dakı iclasında parlament üsul-idarəsinin yaradılması məsələsinə baxıldı. Noyabrın 19-da seçki qanunu qəbul edildi.

Dekabrın 7-də parlamentin ilk iclasının keçirilməsi Azərbaycan Respublikasının istər daxili, istərsə də xarici siyasət sahəsində mühüm hadisə oldu. İclasda hökumətin başçısı Fətəli xan Xoyski hesabat xarakterli məruzə ilə çıxış etdi. Milli hökumətin daxili və xarici siyasətinin xüsusiyyətləri və qarşıda dayanan vəzifələr haqqında məlumat verdi. O, xarici siyasət sahəsi ilə bağlı çıxış edərkən Azərbaycanın ətrafında yaranmış beynəlxalq vəziyyətə aydınlıq gətirməyə çalışırdı. Xoyski vaxtilə türk qoşunlarının Bakıda olması, Mondros barışığından sonra isə müttəfiqlərin Bakıya gəlməsi məsələlərinə hökumətin münasibətini bildirdi.

Dekabrın 26-da yeni hökumət kabinəsi yaradıldı. Bu hadisədən iki gün sonra müttəfiqlərin Bakıdakı nümayəndəsi general Tomson Azərbaycan hökumətini tanıdığını bəyan etdi. Bəyanatda bütün Azərbaycan ərazisində koalisiyalı hökumətin yeganə qanuni hakimiyyət olduğu və müttəfiq hərbi qüvvələrin komandanlığının bu hökumətə hərtərəfli yardım göstərəcəyi bildirilirdi. Balkanlarda və Qafqazdakı Böyük Britaniya qoşunlarının baş komandanı, general Corc Miln də İngiltərənin Azərbaycan hökumətini bu ölkənin ərazisində yeganə qanuni hakimiyyət kimi tanıdığını bəyan etdi. Azərbaycan hakimiyyətinin qanuni olması barədə belə bəyanatların verilməsi Cümhuriyyət hökumətinin diplomatik uğuru idi. Bununla eyni

zamanda Azərbaycana düşmən olan ölkələrə bir xəbərdarlıq edilirdi.

Beləliklə, Mondros barışığından sonra uğursuzluqla üzləşən Azərbaycan hökuməti Bakıya gəlmiş müttəfiq qoşunların komandanlığı ilə diplomatik münasibətlər qurmağı bacardı. Ardıcıl diplomatik təşəbbüslərin və danışıqların nəticəsində müttəfiq qoşunların komandanlığı Azərbaycan hökumətini defakto tanıdı, onunla əməkdaşlıq etməyə başladı və ölkə ərazisində qayda-qanun yaradılması üçün öz səylərini göstərdi. Hətta, Milli hökumətə qarşı mütəmadi təxribatlar törədən və qiyam qaldıran erməni-daşnak silahlı qüvvələrinə ciddi xəbərdarlıq etdi.

Hökumətin qarşısında Azərbaycanın beynəlxalq vəziyyətinə və geosiaysətinə həlledici təsir göstərə biləcək Paris sülh konfransına hazırlıq və bu mötəbər tədbirdə iştirak edəcək nümayəndə heyətini təşkil etmək kimi mühüm vəzifə dayanırdı. Azərbaycan hökuməti hələ 1918-ci ilin noyabrında general V. Tomsonla danışıqlar zamanı Azərbaycanın beynəlxalq sülh konfransında iştirak edəcəyinə təminat almışdı. Böyük Britaniya komandanlığı Azərbaycana dair bütün mübahisəli ərazi məsələlərinin sülh konfransının qərarları əsasında ədalətili həll ediləcəyinə müəyyən vədlər verirdi. Azərbaycanın İstanbuldakı nümayəndəsi Ə.Topçubaşov sülh konfransında Cənubi Qafqaz respublikalarının vahid nümayəndəliklə iştirak etməsini nəzərdə tutaraq, dekabrın 16-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədrinə məktubunda qeyd edirdi ki, yaranmış tarixi şəraitdə Qafqaz xalqlarının dövlət müstəqilliyinin tanınmasının yeganə yolu azərbaycanlıların, gürcülərin və ermənilərin razılaşdırılmış birgə addım atmalarından keçir: "Bu xalqların milli siyasi ideallarında hər hansı fərq olursa-olsun, indi onların hamısının müstəqilliyi sülh konfransında birgə işlərdən və birgə çıxışlardan asılıdır."

Bəhs olunan məqsədlə hər üç xalqın nümayəndələrinin iştirakı ilə Transqafqaz konfederativ nümayəndəliyinin yaradılmasını nəzərdə tutan memorandum hazırlanması qərara alınır. Sənəd Fransa, Böyük Britaniya, ABŞ, İtaliya, Yunanıstan və Yaponiyanın diplomatik nümayəndəliklərinə təqdim edilir. Lakin birgə nümayəndəlik yaratmaq ideyasının böyük dövlətlər arasında gedən geosiyasi mübarizə və Cənubi Qafqaz xalqları arasındakı qızışdırılan düşmənçilik nəticəsində reallaşdırmaq mümkün olmadı. Gərgin münasibətlərin yaranmasına başlıca səbəb rusların təhriki ilə erməni siyasi və hərbi dairələrinin Azərbaycana və Gürcüstana qarşı əsasız ərazi iddiaları irəli sürmələri, qatı antitürk düşməçiliyi nümayiş etdirməsi ilə bağlı idi.

Azərbaycan Milli Şurası dövlət müstəqilliyinin tanıdılmasında və qorunub saxlanılmasında Paris sülh konfransının mühüm rol oynayacağını nəzərə alıraq noyabrın 28-də "Bütün Azərbaycan əhalisinə" müraciət qəbul etdi. Bu müraciətdə müstəqilliyin tanınması və zalqın milli dövlət arzularının reallaşmasında Paris sülh konfransının gələcək roluna böyük ümid bəsləndiyi qeyd olunurdu.

Dekabrın 26-da təşkil olunan üçüncü hökumət kabinəsi parlamentin Ağsaqqallar Şurası ilə birlikdə Paris sülh konfransında iştirak edəcək Azərbaycan nümayəndə heyətini seçdi. Nümayəndə heyətinin sədri Xarici işlər naziri Ə.Topçubaşov, onun müavini isə hökumət üzvü M.Hacınski təyin edildi. Paris konfransına əsasən dövlət və hökumət başçıları dəvət olunduğundan və Topçubaşovun özü o zaman İstanbulda olduğundan, onun iştirakı olmadan iclasda o, həm də Azərbaycan parlamentinin sədri seçilərək sülh nümayəndə heyətinin rəhbəri təyin edildi. Topçubaşovun nümayəndə heyətinə sədr seçilməsi səbəbsiz deyildi. O, bir neçə xarici dili və beynəlxalq hüquq məsələlərini mükəmməl bilirdi, kifayət qədər tanınmışdı, nüfuz sahibi idi.

Parisə getmək üçün viza almaq məsələsində müxtəlif səbəblər və bəhanələrlə əngəl törədərək fransızlar Azərbaycan nümayəndə heyətini üç ay İstanbulda gözləməyə məcbur etdilər. Böyük çətinliklərə və süni maneələrə baxmayaraq, Azərbaycan hökumətinin Paris sülh konfransında öz nümayəndələrinin iştirak etmələri üçün göstərdiyi səylər nəticəsini verdi. Nəhayət, nümayəndə heyəti Fransaya yola düşdü. Azərbaycan nümayəndə heyətinə viza verilməsi məsələsinə və səfər xərclərinə ABŞ hökuməti yardım etdi. Lakin nümayəndə heyətinin üzvlərinin heç də hamısı viza ala bilmədi. Onların bəzisi İstanbulda ingilislər tərəfindən həbs edilərək Paris səfərindən yayındırıldı. Böyük çətinliklərlə Parisə gələn Topçubaşov başda olmaqla nümayəndə heyəti gərgin fəaliyyətə başladı.

Azərbaycanın müstəqilliyi məsələsi ilk dəfə olaraq 1919-cu il mayın 2-də ABŞ prezidenti V. Vilsonun təşəbbüsü ilə ABŞ, Böyük Britaniya, Fransa və İtaliya hökumət başçılarının təmsil olunduğu Dördlər Şurasının iclasında müzakirə edildi[11]. V. Vilson Azərbaycan Respublikasından olan nümayəndələrin Versal sülh konfransına buraxılmasının məqsədəuyğun olduğunu qeyd edərək, Topçubaşovu Azərbaycan nümayəndə heyətinin başçısı kimi qəbul etməyin tərəfdarı olduğunu bildirdi.

Azərbaycan nümayəndə heyəti Fransaya gəldiyi ilk gündən etibarən Azərbaycanın siyasi, iqtisadi və hərbi vəziyyəti ilə bağlı məsələləri Avropa dövlətlərinin bu ölkədəki diplomatik nümayəndələrinin diqqətinə çatdırmaq üçün fəaliyyətə başladı. Mayın 23-də onlarla ingilis nümayəndə heyətinin üzvü Luiz Mallet arasında görüş keçirildi. Bu görüş Britaniya –Azərbaycan əlaqələrində böyük əhəmiyyətli bir hadisə idi.

[11] Notes of Meeting Held at President Wilson' s House in the Place des Etats-Unis, Paris, on Friday, May 2, 1919, at 11 a.m.- Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Confenrence. Volume V. Washington, United States Government Printing Office, 1946, p. 407.

Mayın 28-də Ə.M.Topçubaşovun ABŞ nümayəndə heyətinin üzvü Q.Morqentau ilə görüşündə isə ABŞ-ın Azərbaycan hökumətinə maliyyə yardımı göstərməsinin mümkünlüyü məsələləri müzakirə olundu.

Azərbaycan nümayəndə heyətinin üzvləri üçün ən mühüm hadisə onların mayın 28-də ABŞ Prezidenti V.Vilson tərəfindən qəbul edilməsi idi. Nümayəndə heyətinin rəhbəri Ə.Topçubaşov görüşdə prezident V.Vilsona müraciət edərək Azərbaycanın Millətlər Cəmiyyətinə üzv qəbul ediləcəyinə və ABŞ tərəfindən Azərbaycana yardım göstəriləcəyinə ümid etdiyini bildirdi. O, Avropa və Amerika mətbuatında Azərbaycan haqqında qərəzli və saxtalaşdırılmış yazılar dərc edildiyini əsas gətirərək bu konfransda əsl həqiqətlər haqqında məlumat vermək üçün imkan yaranacağını qeyd etdi. Azərbaycan sülh nümayəndə heyətinin başçısı azərbaycanlı, gürcü, erməni və dağlılardan ibarət konfederasiya yaratmağın mümkün olduğunu vurğuladı və Qafqaz Azərbaycan Respublikası nümayəndələrinin memorandumunu V.Vilsona təqdim etdi. Bu memorandumda Azərbaycanın istiqlaliyyətinin əldə etməsi tarixi, milli hökumətin gördüyü işlər, parlamentin yaradılması və s. mühüm məsələlər öz əksini tapmışdı.

Azərbaycan nümayəndə heyəti V.Vilsonla görüşdə bir neçə bənddən ibarət tələblər də irəli sürmüşdü. Burada ABŞ prezidentindən onların yerinə yetirilməsinə köməklik göstərməsi xahiş olunurdu. Həmin tələblərdə Azərbaycanın müstəqilliyinin tanınması, Vilson prinsiplərinin Azərbaycan Respublikasına da aid edilməsi, Azərbaycan nümayəndələrinin sülh konfransına buraxılması, Azərbaycanın Millətlər Cəmiyyətinə üzv qəbul edilməsi, ABŞ-ın Azərbaycana hərbi yardım göstərməsi, ABŞ və Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin yaradılması və s. məsələlər irəli sürülürdü.

Tədqiqatçıların fikrinə görə Azərbaycan nümayəndə heyətinin V. Vilsona təqdim etdikləri tələblər tam reallığa əsas-

lanırdı və öz müstəqil dövlətinin tanmasını və sivil beynəlxalq münasibətlər sistemində qatılmasını nəzərdə tutaraq xoş bir məqsədi sənəd idi. Lakin bütün cəhdlərə baxmayaraq Azərbaycan tərəfinin bu ədalətli tələbləri nə V.Vilson, nə də ki, sülh müqaviləsində həlledici mövqeyə malik digər əsas dövlətlər tərəfindən qəbul edildi. Paris sülh konfransı Azərbaycanın istiqlaliyyətinin tanınması məsələsini açıq saxladı. Belə bir mövqenin tutulması da səbəbsiz deyildi. ABŞ və onun müttəfiqləri dünyanı kiçik hissələrə bölmək niyyətində deyildilər.Yaranmış şəraitdə onlar imperiyaların maraqlarını əsas götürərək Cənubi Qafqazda yeni müstəqil dövlətlərin yaradılması və ondan irəli gələn geosiyasi vəziyyətə hazır deyildilər. Bu da o dövrün bir çox geosiyasi, geostrateji və iqtisadi maraqları və müttəfiqlərarası münasibətlərə təsir göstərən digər məsələlərlə bağlı idi. ABŞ-ın Cənubi Qafqaza dair geosiyasi niyyətləri hələ ki, kifayət qədər aydın deyildi.

Bununla belə, V.Vilson Azərbaycanın və digər siyasilərin Ümumi Qafqaz Federasiyası yaratmaq ideyasına nikbin yanaşaraq bu niyyəti təqdir edir və yaradılacağı təqdirdə belə qurumun Millətlər Cəmiyyətinin dəstəyi ilə hər hansı bir dövlətin köməyinə arxalana biləcəyini real sayırdı.

V.Vilson Azərbaycan nümayəndələrinə irəli sürdükləri tələblərini sülh konfransının katibliyinə təqdim etməyi tövsiyə etdi. 14 bölmədən ibarət olan və özündə mühüm tarixi, siyasi və diplomatik məsələləri əks etdirən "Qafqaz Azərbaycanı Respublikasının nümayəndəliyinin Paris sülh konfransına memorandumu" adlı bu fundamental sənəd böyük əhəmiyyət daşıyırdı. Memorandum Cənubi Qafqazdakı vəziyyəti, Azərbaycanın ictimai, siyasi, hüquqi və beynəlxalq məsələlərə yanaşması və mövqeyini əks etdirir, onun əhalisi, ərazisi və sərhədləri ilə bağlı məsələləri əhatə edirdi.

Memorandumda Azərbaycan Respublikası hökumətinin nəzarətində olan mübahisəsiz ərazinin 94.137,38 kv.km olduğu

göstərilirdi ki, bu bütün Qafqazın 247.376,15 kv.km olan ərazisinin 30 faizini təşkil edirdi.

Sənədin 4-cü bölməsində Azərbaycan Respublikasının müstəqil dövlət quruculuğu istiqamətindəki fəaliyyətində müttəfiq dövlətlərin mənəvi yardımına arxalandığı qeyd edilirdi. Vurgulanırdı ki, "biz Qafqazda artıq de-fakto mövcud olan dövlətlərin tanınması məsələsini qoyuruq ki, onlardan da biri müstəqil Azərbaycan Respublikasıdır".

Azərbaycan nümayəndə heyətinin üzvləri V. Vilsonla görüşdən ümidsiz çıxsalar da ABŞ ilə təmas qurmağın özünün o dövr üçün mühüm hadisə olduğunu anlayırdılar. Vilsonun Azərbaycan nümayəndə heyətini qəbul etməsi əslində ölkənin müstəqilliyə can atmasına onun göstərdiyi hörmətin nümunəsi idi və gələcəkdə yeni-yeni əlaqələrin qurulması üçün təməl rolunu oynayırdı. Bu görüşün baş tutması Azərbaycan diplomatiyasının uğurlarından sayıla bilərdi. Ə. Topçubaşovun özü də sonralar bəhs olunan görüşlə bağlı bildirirdi ki, "bizim nümayəndə heyətinin prezident Vilson tərəfindən qəbulu çox böyük hadisə idi. Çünki başqa Antanta dövlətlərinin başçıları kimi, Vilson da heç bir nümayəndə heyətlərini qəbul etmirdi".

Parisdə olarkən Azərbaycan nümayəndə heyətinin üzləşdiyi növbəti problem mayın 26-da Antanta ölkələri və Yaponiya dövlət başçılarının admiral A. Kolçak başda olmaqla Omsk hökumətini Ümumrusiya hökuməti kimi tanıdıqlarını bəyan etmələri və ona nota ilə müraciət etmələri oldu. Kolçakın Ümumrusiya hökuməti kimi tanınması yeni yaranmış digər müstəqil dövlətlər kimi Azərbaycanın da mövcudluğunu və tanınmasını sual altında qoyurdu. Bu əslində onların Rusiyanı əvvəlki sərhədləri çərçivəsində bərpa etmək cəhdi idi.

Ə.Topçubaşov dərhal bu hadisəyə etiraz etdi və mayın 31-də Azərbaycan nümayəndə heyəti adından bəyanatla çıxış etdi. Bəyanatda deyilirdi ki, admiral Kolçak hökumətinin Ümumrusiya hökuməti kimi tanınması çar Rusiyasından ayrılaraq

istiqlaliyyətini əldə etmiş xalqların, o cümlədən Azərbaycanın milli maraqlarına ziddir və Azərbaycan Respublikasının ərazisi gələcək Rusiya dövlətinin tərkibinə daxil edilə bilməz.

Azərbaycan nümayəndə heyəti bununla kifayətlənmədi. İyunun 5-də sülh konfransının sədrinə və Antanta dövlətlərinə etiraz notası göndərildi. Sənəddə Kolçak hökumətinin keçmiş çar Rusiyasının hüdudlarında tanınmasına etiraz edilir, Azərbaycanın bu dövlətin tərkibindən birdəfəlik çıxdığı göstərilirdi. Notada qeyd olunurdu ki, "Rusiyada hansı hökumətin tanınmasından asılı olmayaraq, Azərbaycan Rusiyanın ərazisinə daxil edilməməlidir".

Azərbaycan bu etirazlarını təkbaşına etmədi. Digər ölkələrin də səylərini birləşdirmək üçün cəhdlər edildi. İyunun 17-də admiral Kolçakın hökumətinə etiraz əlaməti olaraq, Parisdə Azərbaycan, Estoniya, Gürcüstan, Latviya, Şimali Qafqaz, Belorusiya və Ukrayna nümayəndələri adından birgə bəyannamə imzalandı. Bəyannamədə bildirilirdi ki, sənədi imzalayan respublikalar Sülh Konfransının qarşısında böyük dövlətlərin tezliklə onların siyasi müstəqilliyini tanıması xahişi ilə çıxış edirlər.

Admiral Kolçakla yanaşı o dövrdə Denikinin də fəaliyyəti Qafqaz respublikalarının müstəqilliyi üçün ciddi problemlər yaradırdı. Bunu nəzərə alaraq, iyunun 23-də Azərbaycan, Gürcüstan və Şimali Qafqaz Respublikalarının nümayəndələri sülh konfransına 7 maddədən ibarət etiraz notası təqdim etdilər. Notada Kolçakla yanaşı Denikinin də Qafqaz respublikalarının istiqlaliyyətinə qarşı təhlükə törədə biləcəyi vurğulanırdı. Sənəddə Qafqaz respublikalarına siyasi vahid kimi baxıldığı təqdirdə, Rusiya ilə onun ərazilərinin gələcək siyasi quruluşu və sərhədlər haqqında qarşılıqlı saziş bağlamağın mümkün olduğu qeyd olunurdu. Bu sənədi ermənilərdən başqa Rusiyadan ayrılmış bütün ölkələrin nümayəndələri imzalamadılar. Ermənilərsə o zaman Kolçak və Denikinlə gizli əlaqələr

yaradaraq onların köməyi ilə Bakını və digər Azərbaycan torpaqların ələ keçirməyə ümid bəslədiklərinə görə şimaldan gələn bu təhlükəyə qarşı birgə mübarizə aparmaqdan imtina edirdilər. Ermənilərin Cənubi Qafqazda yaratdığı qarşıdurma və millətlərarası ziddiyyətlər Rusiyanın yenidən regionu öz təsiri altına almasına əlverişli şərait yaradırdı.

Cümhuriyyət hökumətinin xarici siyasətinin əsas istiqamətlərindən birini Fransa, İtaliya və Böyük Britaniya dövlətlərin mandatı altında (qəyyumluğu ilə) fəaliyyət göstərmək məsələsinə Azərbaycanın münasibətini müəyyənləşdirmək və müvafiq addımlar atmaq məsələsi təşkil edirdi. Millətlər Cəmiyyəti yaradıldıqdan sonra meydana gələn mandat məsələsi Paris sülh konfransında da əsas müzakirə mövzularından biri idi. Bu məsələnin mahiyyətini dünyanın aparıcı dövlətlərinin Millətlər Cəmiyyətindən mandat aldığı ərazinin sosial-iqtisadi, siyasi və mədəni inkişafı üçün həmin qurum qarşısında məsuliyyət daşıması təşkil edirdi.

Azərbaycan hökuməti özünün milli təhlükəsizliyini, hər şeydən əvvəl, müstəqilliyini qoruyub saxlamaq üçün həmin dövrdə dünyada böyük nüfuzu olan dövlətlərdən biri ilə strateji tərəfdaşlıq münasibətləri qurmağı və ondan yardım almağı məqsədəuyğun hesab edirdi. Sözsüz ki, bu məsələdə Azərbaycana Osmanlı Türkiyəsindən yaxın dövlət ola bilməzdi. Lakin Osmanlı imperatorluğunun Birinci dünya müharibəsindəki məğlubiyyəti bu strateji tərəfdaşlığı çətinləşdirmişdi. Eyni zamanda, Millətlər Cəmiyyətinin mandatlıq sisteminin özü Almaniya və Osmanlının məğlubiyyətindən sonra bu ölkələrin keçmiş müstəmləkələrini idarə etmək zərurətindən yaranmışdı.

Paris sülh konfransında ABŞ və Fransa nümayəndələrinin çıxışlarında onların Cənubi Qafqazda gedən ictimai-siyasi proseslərlə yaxından maraqlandıqları, habelə bu bölgəyə xüsusi diqqət yetirdikləri özünü açıq şəkildə göstərirdi. İtaliya hökuməti də bu baxımdan həmin dövlətlərdən geridə qalmırdı. Bu

dövlətlərin Cənubi Qafqaza olan maraqlarının əsasında geosiyasi və iqtisadi məqsədlər dayanırdı. İtaliya dövləti bu mənada özünün iqtisadi maraqlarına görə xüsusi olaraq seçilirdi. Böyük Britaniya Azərbaycan üzərində olan mandatından imtina edərək onu İtaliyaya verdi. Lakin İtaliyada hakimiyyət dəyişdiyindən, maliyyə və texniki imkanlar çatışmadığından və müttəfiqlər ordu hissələri göndərməyə cəsarət etmədiklərindən həmin mandatı həyata keçirmək mümkün olmadı. Mandat hüququ böyük dövlətlərin Cənubi Qafqazda geosiyasi və geoiqtisadi maraqlarını ifadə edirdi.

ABŞ-ın Qafqaz mandatına marağı Böyük Britaniya, Fransa və İtaliyadan fərqli olaraq daha böyük idi. Bu maraq xüsusi cəhətləri ilə fərqlənirdi. Hələ 1919-cu ilin may ayında Parisdə ABŞ nümayəndələri ilə danışıqlar aparan Azərbaycan tərəfi Amerikanın respublikanın müstəqlilliyinə xələl gətirməyəcəyi və daxili işlərinə müdaxilə etməyəcəyi təqdirdə onun himayəçiliyini qəbul etməyə razı olduğunu bildirmişdi.

1919-cu ilin ortalarında yaranmış beynəlxalq vəziyyət, o cümlədən Kolçak və Denikin ordularının məğlub olması və Rusiyada bolşeviklərin güclənməsi Azərbaycan hökumətini getdikcə narahat etməyə başlayır. Vəziyyət çevik xarici siyasət aparmağı və hansı şəkildəsə böyük xarici dövlətlərin, xüsusən də ABŞ-ın yardımına nail olmağı, onlardan müstəqilliyin qorunması ilə bağlı qarantiya almağı tələb edirdi. Azərbaycan əsas diqqətini ABŞ hökuməti ilə diplomatik, iqtisadi, siyasi və hərbi münasibətlər yaratmağa yönəltmişdi ki, bunun da bir çox səbəbləri var idi.

Əvvəla, müharibədə Antantanın qələbəsinə ABŞ xüsusi töhfə vermişdi və onlar arasında da xüsusi çəkiyə malik idi. Dünya müharibəsindən əvvəl özü borc alan Amerika müharibənin gedişində, xüsusən də müharibədən sonra əsas borc verən dövlətə çevrilmişdi. ABŞ-ın beynəlxalq aləmdə qısa müddətdə nüfuzu yüksəlmiş və dünya siyasətində rolu qat-qat

artmışdı. Avropanın böyük ölkələrinin demək olar ki, hamısı ABŞ-a borclu idilər. Paris sülh konfransının və dünya müharibəsindən sonrakı beynəlxalq münasibətlər sisteminin təməllərini də məhz Vilsonun "14 maddəsi" təşkil edirdi. ABŞ prezidenti xarici siyasət fəaliyyətində təcridçilikdən imtina edərək beynəlmiləlçi liberal xətt yeritməyə üstünlük verirdi ki, bu da Azərbaycan tipli gənc dövlətləri fəaliyyətə ruhlandırırdı.

İkincisi, həmin vaxt Paris Konfransında qalib ölkələrdən İngiltərə, Fransa və İtaliyanın real köməyini almaq ehtimalının zəif olmasını yəqin edən, indiyə qədər ölkəmizə yardım edən Türkiyəninsə öz problemlərinin yetərincə olduğunu görən Azərbaycan hökuməti yeganə çıxış yolunun ABŞ-la siyasi və iqtisadi əlaqələr yaratmaqda olduğu qənaətinə gələrək, ölkənin müstəqilliyinin ABŞ tərəfindən tanınmasına ciddi-cəhdlə səy göstərir. Bu məqsədlə, Topçubaşov sentyabrın 26-da prezident V.Vilsona yazdığı məktubunda dostcasına onun diqqətinə "ABŞ-ın Azərbaycanın müstəqilliyini qoruyacağına və ölkəyə yardım göstərəcəyinə azərbaycan xalqının inandığını, gözlədiyini və umduğunu" çatdırırdı.

Bundan başqa, Azərbaycan tərəfinin ABŞ ilə yaxın münasibətlər qurmaq istəyi ermənilərin ABŞ-da getdikcə fəallaşması ilə də bağlı idi. ABŞ-da fəaliyyət göstərən "Müstəqil Ermənistanın Amerika Komitəsi" bu ölkənin siyasi dairələrində Azərbaycan haqqında böhtan və yalan yaymaq sahəsində xüsusi məharət qazanmışdı. Bu mənfur fəaliyyət türkləri və Cənubi Qafqazda müstəqillik uğrunda çalışan Azərbaycan xalqını gözdən salmağa, ABŞ-ın bu dövləti tanımasını və onunla hər hansı əlaqə yaratmasına əngəl törətməyə yönəlmişdi. Azərbaycan hökuməti erməni dairələrinin bu cür iyrənc məqsədlərini ifşa etmək və Azərbaycanla bağlı həqiqətləri Amerika ictimaiyyətinin diqqətinə çatdırmaq üçün bu ölkədə lazımi təbliğat aparmağı vacib hesab etsə də buna heç cür nail ola bilmirdi.

Həmin dövrdə Azərbaycan hökumətinin razılığına əsasən, Ə.Topçubaşov Nyu York şəhərindən olan hüquq məsləhətçisi Valter Çandlerlə iki müqavilə imzalaya bilmişdi. Müqavilənin şərtlərinə görə, V.Çandler Azərbaycan nümayəndə heyətinin təbliğat məsələləri üzrə hüquq məsləhətçisi (əslində lobbi fəaliyyətndən söhbət gedirdi) təyin edildi. O, göstərilən müddət ərzində ABŞ-da Azərbaycanın milli maraq və mənafelərini müdafiə etmək missiyasını öz üzərinə götürürdü. Eyni zamanda, həmin dövrdə amerikalı iqtisadçı Maks Rabinov da Azərbaycanın Paris nümayəndəliyində işə qəbul edildi. Bu şəxs dünya qiymətlərinə uyğun olaraq, Azərbaycandan neft alınması və digər iqtisadi məsələlərlə məşğul olmalı idi. Azərbaycan nümayəndə heyətinin bu hərəkəti xarici siyasətin doğru təbliğ edilməsi və lobbiçilik sahəsində atılan ilk addımlar kimi əhəmiyyət daşıyırdı.

Azərbaycan hökuməti Böyük Britaniya, Fransa və İtaliya kimi dövlətlərlə də iqtisadi və ticarət əlaqələrinin yaradılması istiqamətində mühüm addımlar atmağa başlayır. Belə addımlar sırasında Fransa-Qafqaz Komitəsinin təşəbbüsü ilə 1919-cu il oktyabrın 4-də keçirilən və Azərbaycan, Gürcüstan, Fransa işgüzar dairələrinin iştirak etdiyi Qafqaz konfransı xüsusi əhəmiyyət daşıyırdı. Konfransdan sonra həmin ilin oktyabr ayında Fransa Respublikasının Ticarət və Sənaye Nazirliyinin nümayəndəsi Bakıya səfər edərək, Azərbaycanın xarici işlər naziri Məmmədyusif Cəfərovla danışıqlar aparır. Görüş zamanı Fransa tərəfinin nümayəndəsi öz ölkəsi ilə Azərbaycan arasında dostluq əlaqələrinin yaradılmasının vacib olduğunu bildirir.

Həmin ərəfədə Azərbaycan hökuməti Böyük Britaniyanın "Kosmos" kompaniyası ilə müqavilə imzalayır. Müqaviləyə görə, bu kompaniya Azərbaycan neftinin Qara dəniz limanından daşınıb Avropaya satışını təşkil etməli idi. Bundan başqa Azərbaycanla Fransanın teleqraf və telefon kompaniyası ara-

sında qarşılıqlı razılaşmaya nail olunur və Parisdən Bakıya xeyli avadanlıq göndərilməsi təmin olunur.

Azərbaycan hökuməti xarici dövlətlərlə müəyyən iqtisadi və ticarət əlaqələri yaratmaqla və bu əlaqələri genişləndirməklə yanaşı, həm də müstəqilliyin tanınması üçün özünün ciddi diplomatik səylərini davam etdirirdi.

Özlərinin dövlət müstəqilliyini qəbul etdirmək məqsədilə Fransaya toplaşmış respublikalarla birgə, Azərbaycan tərəfi də oktyabrın 5-də Paris sülh konfransının sədri, Fransa hökumətinin başçısı Jorj Klemansoya ölkənin müstəqilliyinin tanınması məsələsinin sülh danışıqlarına çıxarılmasını və ona dəstək verilməsini xahiş edən nota ilə müraciət etdi. Notada müstəqilliyini yenicə əldə etmiş bütün respublikaların, o cümlədən də Azərbaycanın böyük dəstəyə ehtiyacı olduğu vurğulanır və onların milli istiqlaliyyətini tanımağın vacibliyi geyd edilirdi. Sənəddə vurğulanırdı ki, "bizim dövlətlərimizin məsələlərinin beynəlxalq həlli bundan sonra yubadılmamalıdır və rus məsələsindən asılı olmayaraq həll edilməlidir. Bunu dünyada gələcək sülhün, humanizmin və tərəqqinin mənafeyi tələb edir". Bu notada qaldırılmış məsələlər və Azərbaycan-Gürcüstan nümayəndələrinin birgə müraciəti nəzərə alınaraq, oktyabrın 29-da Fransa müstəmləkə liqasının xarici siyasət bölməsində "Transqafqaz məsələsini" müzakirəyə çıxarır.

1919-cu ilin dekabr ayında Fransadakı Azərbaycan nümayəndələri "Azərbaycan Respublikasının Millətlər Cəmiyyətinə qəbul edilməsi barədə" Memorandum hazırlayıb qurumun katibliyinə təqdim etdi. Oxşar sənədi Gürcüstan tərəfi də Millətlər Cəmiyyətinə göndərdi. Bu qurum tərəfindən hər iki respublikanın müraciətlərinə baxıldı. Çili nümayəndəsi Antonio Qunetsin sədrliyi ilə xüsusi komissiya yaradıldı. Araşdırmalardan sonra komissiya belə bir qərara gəldi ki, Cənubi Qafqaz respublikaları de-yure tanınmadığı və öz aralarındakı mübahi-

səlı ərazi məsələlərini tam həll etmədiyi üçün (ermənilərin iddiası əsasında – Ə.H.) onların Millətlər Cəmiyyətinə qəbul edilməsi müvəqqəti olaraq dayandırılsın.

§1.6. Azərbaycan Xalq Cümhuriyyətinin iflası və onun geosiyasi nəticələri

Azərbaycan dövləti bütün dünada öz müstəqilliyinin tanınması üçün hərtərəfli diplomatik səylər göstərildiyi bu cəhdlərin öz müsbət nəticələrini verməyə başladığı bir vaxtda bolşevik Rusiyasının getdikcə güclənməsi Cənubi Qafqazda da geosiyasi vəziyyəti getdikcə çətinləşdirirdi. RSFSR xalq xarici işlər komissarı Georgi Çiçerinin Azərbaycan və Gürcüstan hökumətlərinə müraciət edərək Avropa ölkələrinin dəstəklədikləri Denikinin könüllü ordusuna qarşı birgə mübarizə aparmaq üçün hərbi saziş bağlamağı təklif edirdi. Bu müraciət artıq Sovet Rusiyasının mövqelərinin gücləndiyini və Qərb ölkələrinin tədricən bu ölkə daxilindəki əksinqilabi qüvvələri dəstəkləməkdən çəkindiklərini göstərirdi.

Rusiyanın Cənubi Qafqaza xüsusi diqqət yetirməsi səbəbsiz deyildi. İmperiyanın dağılması və bolşevik inqilabı nəticəsində bu regionu itirməklə Rusiya dünyada zəifləmiş və kiçilmişdi. Cənubi Qafqaz üzərində təsir qazanmadan Rusiya dünyada böyük və aparıcı dövlət ola bilmirdi. Bundan başqa, zəngin neft mənbələri və əlverişli strateji mövqeləri olan Azərbaycan üzərində nəzarət əldə etmədən Proletariat diktaturası hökumətini qurmaq və onun müdafiəsini təşkil etmək xeyli çətin idi. Ona görə də Rusiyanın ilk hədəfi Azərbaycana və Bakıya sahib olmaq idi.

Sovet Rusiyası Azərbaycana qarşı ardıcıl təzyiqlər göstərməsi vəziyyətin mürəkkəbliyindən xəbər verirdi. Rusiyanın notaları münasibətləri daha da gərginləşdirirdi. Azərbaycan hökuməti də bu notaları cavabsız qoymur, mütəmadi olaraq onlara öz münasibətini bildirirdi. 1920-ci yanvarın 6-da Nəsib bəy Yusifbəylinin sədrliyi altında Azərbaycan Dövlət Müdafiə Komitəsinin iclasında sovet Rusiyasının Azərbaycan və Gürcüstan ilə hərbi saziş bağlamaq təklifi müzakirə edildi. Müzakirələrin sonunda qəbul edilən qərarda Azərbaycan Respublikasının müstəqil dövlət olaraq sovet Rusiyası ilə qarşılıqlı münasibətlər yaratmaq üçün danışıqlar aparmağa hazır olduğu bildirildi.

Yanvarın 14-də xarici işlər naziri Fətəli xan Xoyski Çiçerinə cavab notasında qeyd edirdi: "Azərbaycan Respublikasının gələcəkdə bitərəf dövlət olmaq istəməsinə baxmayaraq, öz azadlığının və müstəqilliyinin hər cür xarici qəsdlərdən müdafiə edilməsində tamamilə yekdildir. Buna görə də Azərbaycan hökuməti Azərbaycan xalqının müstəqilliyinə qəsd etdiyinə görə həmişə Denikinlə qızğın mübarizə aparmış və bunun müvəffəqiyyətli olması məqsədilə qonşu gürcü hökuməti ilə hərbi müdafiə ittifaqı bağlamışdı. Azərbaycan hökuməti tərəfindən qəbul edilmiş yuxarıda qeyd edilən xarici siyasətin istiqaməti ona Azərbaycan və digər xalqlar arasında mehriban münasibətlərin qurulmasına imkan verir. Buna əsasən, Azərbaycan hökuməti danışıqlar yolu ilə hər iki dövlətini müstəqilliyi prinsiplərindən irəli gələn rus və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətləri yaratmağa hazırdır".

Antanta ölkələri həmin vaxt bolşevik Rusiyasının Cənubi Qafqazda yarada biləcəyi təhlükənin coğrafi miqyasının genişlənəcəyini nəzərə alaraq fəal xarici siyasət kursu müəyyən etmək qərarına gəldilər. Bu məqsədlə, yanvarın 10-da Böyük

Britaniyanın təşəbbüsü ilə Paris sülh konfransı Ali Şurasının sessiyasında Transqafqaz respublikaları ətrafında yaranmış vəziyyət geniş müzakirə olundu.[12] Ali Şura hərbi ekspertlərin bu respublikalara hərbi yardım göstərilməsi barədə təkliflər verməsini vacib hesab etdi. Ali Şuranın iclasında İngiltərənin xarici işlər naziri lord Kerzon çıxış edərək, Lloyd Corcun Azərbaycan və Gürcüstanın müstəqilliyini tanımaq məsələsini müzakirə etməyin tərəfdarı olduğunu bildirdi. İclasda çıxış edən Avropa dövlətlərinin xarici işlər nazirləri həqiqətən də Azərbaycan və Gürcüstan ətrafında təhlükəli vəziyyət yarandığını vurğuladılar. Lord Kerzon Azərbaycan və Gürcüstan hökumətlərinin Antanta dövlətlərinə yardım üçün müraciətlərini nəzərə alaraq, onları de-fakto tanımağın vacib olduğunu bildirdi. Yanvarın 11-də Ali Şuranın qəbul etdiyi qərarda bəyan edildi ki, "müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini birlikdə de-fakto səviyyəsində tanıyırlar". Fevralın 7-də Yaponiya hökuməti də Ali Şuranın bu qərarını müdafiə etdi.

Böyük Britaniyanın bu təklifi irəli sürməsi və fəal şəkildə onu müdafiə etməsi bir sıra hərbi-siyasi, sosial-iqtisadi və geosiyasi amillərlə bağlı idi. İngiltərə iki cəbhədə - həm Türkiyəyə qarşı, həm də Rusiyada vətəndaş müharibəsində bolşevizmə qarşı döyüşən qüvvələrə kömək edirdi. Bu da ölkə daxilində sosial-iqtisadi vəziyyəti ağırlaşdırırdı. Müharibənin nəticələrinin və hərbi əməliyyatların doğurduğu çətinliklər əhalinin narazılığını artırırdı. Cənubi Qafqaza döğru hərəkət edən bolşeviklərə qarşı yeni bir cəbhə açmaq və hərbi əməliyyatlar aparmaq Böyük Britaniya üçün xeyli çətin idi. Britaniya hökuməti

[12] Notes of a Meeting of the Ministers of Foreign Affairs, held at the Quai d'Orsay, Paris, Saturday, Yanuary 10, 1920, at 11: 30 a.m.- Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Confenrence. Volume IX. Washington, United States Government Printing Office, 1946, p. 835.

Azərbaycan və Gürcüstanın müstəqilliyini tanımaqla bu ölkələrin müdafiəsi üçün məsuliyyəti də onların öz üzərinə qoyurdu.

ABŞ bu məsələni rəsmi surətdə dəstəkləmədiyini bildirdi. Amerikalıların Azərbaycanın istiqlalını tanımağa soyuq yanaşmasının bir sıra səbəbləri var idi. Onların fikrincə, keçmiş Rusiya imperatorluğunun bir hissəsində yaranmış qurumların müstəqilliyini tanımaq müttəfiqlərlə münasibətləri pozar, bolşevizmə qarşı mübarizə aparan və Rusiya imperiyasını bərpa etməyə çalışan qüvvələri zəiflədərdi. Belə tanınma avtomatik olaraq Rusiyanın digər hissəsində mövcud olan bolşevik rejimini tanımaq anlamına gələrdi. ABŞ diplomatları ingilislərin tanımaq barədə qərarını romantizm kimi qiymətləndirirdilər.

Paris sülh konfransı Ali Şurasının yanvarın 19-da keçirilən iclasında Azərbaycan və Gürcüstana hərbi və maliyyə yardımının göstərilməsi məsələləri müzakirə edildi. İclasın sonunda Qafqaz məsələsinə dair qərar qəbul edildi.[13] Bu qərarda müttəfiq hökumətlərin Cənubi Qafqaza ordu göndərmək imkanı olmadığı bildirilirdi. Lakin ərzaq və hərbi sursatla kömək göstərilməsi nəzərdə tutulurdu. Belə bir qərarın qəbul edilməsi qalib ölkələrin daxilində bolşeviklərin sosialst təbliğatının yaratdığı sosial narazılıqla, müharibənin aparılması xərclərindən doğan iqtisadi vəziyyətlə və beynəlxalq münasibətlərdə yaranmış əlverişsiz şəraitlə, getdikcə güclənən bolşevik Rusiyasının geosiyasi planlarının həyata keçirməsinə böyük dövlətlərin mane olmaq imkanlarının zəifliyi ilə bağlı idi.

Azərbaycan Respublikasının müstəqilliyinin Paris sülh konfransında tanınması Azərbaycan hökumətinin, xüsusilə nü-

[13] Notes of a Meeting Held in M. Pichon's Room, Quai d'Orsay, Paris, Monday, January 19, 1920, at 10: 30 a.m.- Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Confenrence. Volume IX, p. 889-904.

mayəndə heyətinin gərgin diplomatik fəaliyyəti nəticəsində mümkün oldu. Bu tarixi hadisə Azərbaycanda böyük təmtəraqla qeyd edildi. Yanvarın 14-də Baş nazir Nəsib bəy Yusifbəylinin ölkə vətəndaşlarına müraciətində və həmin gün Azərbaycan parlamentinin iclasındakı çıxışlarda bildirildi ki, Azərbaycanın müstəqilliyinin tanınması böyük tarixi əhəmiyyət daşıyır. Parlamentin iclasına sədrlik edən Həsən bəy Ağayev qeyd edirdi: "Bu bayram yalnız bizim bayramımız deyil, bütün türk xalqının bayramıdır. Sübut etmək lazım idi ki, biz müstəqil həyata layiqik. Avropa bizim dövlətimizdə olan nümayəndələri vasitəsilə xalqımızın həyat qabiliyyətinə inandı və bizim müstəqilliyimizi tanıdı. Böyük qurbanlar bahasına biz buna nail olduq".

Azərbaycanın müstəqilliyinin tanınması sadə bir akt olmayıb, böyük geosiyasi əhəmiyyətli hadisə idi. Cənubi Qafqazda yeni müstəqil dövlətin mövcudluğunun tanınması ilə regionun yeni geosiyasi xəritəsi qəbul edilirdi. Bu, böyük geosiyasi dəyişiklik demək idi. Bütün Şərqdə və müsəlman dünyasında ilk dəfə olaraq respublika formasında dövlət quran Azərbaycanın və Azərbaycan xalqının xarici aləmə müstəqil təsir imkanları yaranırdı. Azərbaycan xalqı müstəmləkə zülmü altında inləyən başqa xalqlara, o cümlədən digər türk və müsəlmanlara azadlığın yolunu göstərir və nümunə rolunu oynayırdı. Əslində Azərbaycanın istiqlalının elan edilməsi və tanınması ilə türk-müsəlman xalqlarının yaşadığı coğrafiyada gələcək mühüm geosiyasi dəyişikliklərin başlanğıcı qoyulurdu.

Azərbaycan hökuməti dövlət müstəqilliyinin tanınmasından sonra sovet Rusiyası tərəfindən üzləşdiyi təzyiqləri dəf etmək yönündə öz fəaliyyətini artırdı. Azərbaycanın Xarici İşlər və Hərbi nazirlikləri Respublika ətrafında yaranmış vəziyyəti nəzərə alaraq, ölkənin müdafiəsinin təşkil edilməsi

tədbirləri və milli ordunun ehtiyacları haqqında memorandum hazırlayaraq, onu müttəfiq dövlətlərin hərbi ekspertlər şurasına göndərdi. Memorandumda Azərbaycanın dövlət təhlükəsizliyini möhkəmləndirmək üçün ölkəyə hərbi, iqtisadi və siyasi yardım göstərilməsi xahiş edilirdi.

Həmin dövrdə bir-birinin ardınca Avropa dövlətlərinin Bakıda konsulluqları fəaliyyətə başlayırdı. Azərbaycan hökuməti ilə ABŞ, Böyük Britaniya və İtaliya arasında iqtisadi əlaqələrin qurulması yönündə mühüm işlər görüldü.

Azərbaycan dövləti Şərq ilə Qərb arasında etibarlı körpü funksiyasını oynamaq üçün ciddi addımlar atırdı. Avropa ölkələri ailəsinə daxil olmaqdan otrü vacib tədbirlər həyata keçirilirdi.

1920-ci il martın 20-də Azərbaycan Respublikası ilə İran arasında dostluq haqqında müqavilənin imzalanması ilə iki ölkə arasında diplomatik münasibətlər yaradıldı. Bu Azərbaycanın xarici siyasətinin böyük uğurlarından biri idi. Müqavilənin birinci maddəsinə görə, İran hökuməti Azərbaycan Respublikasının müstəqilliyini de-yure tanıdığını bəyan edirdi. Məhz hər iki dövlət arasındakı əlaqələrin möhkəmlənməsi sayəsində az bir müddət ərzində Tehranda Azərbaycan səfirliyi fəaliyyətə başladı. Eyni zamanda, Təbriz, Rəşt, Məşhəd, Xoy və Əhərdə Azərbaycanın konsulluqları yaradıldı.

1920-ci il aprelin 15-də Azərbaycan parlamentində Avropa dövlətlərinə və ABŞ-da diplomatik nümayəndəliklər açmaq haqqında qanun layihəsi müzakirəyə çıxarıldı və aprelin 19-da keçirilən iclasda Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Almaniya və Rusiyada diplomatik nümayəndəliklər təsis etmək haqqında qanun qəbul edildi.

Azərbaycan hökumətinin 1920-ci ilin aprel böhranına qədərki dövrdə xarici siyasət sahəsində apardığı ciddi işlər xal-

qımızın milli istiqlaliyyətinin tanınmasında mühüm rol oynadı. Həyata keçirilən xarici siyasət xətti dünyada Azərbaycanın sivil, demokratik respublika kimi tanınmasına ciddi təsir göstərdi. Böyük çətinliklər hesabına müstəqil dövlətin yaradılması və onun daxili, xarici siyasət fəaliyyətinin qurulması Azərbaycanın dövlətçilik ənənələrinin bərpa olunması və dirçəldilməsi istiqamətində də ciddi addımlar oldu.

Lakin bolşevik Rusyası Cənubi Qafqazda yaranmış yeni geosiyasi dəyişiklikləri və Azərbaycanın dövlət müstəqilliyini heç cür qəbul edə bilmirdi və etmək fikrində də deyildi. Bu da səbəbsiz deyildi. Bolşevik hakimiyyəti formal olaraq çarizmin xarici siyasət niyyətlərindən imtina etdiyini bəyan etsə də, klassik alman geosiyasətçilərinin "dövlət canlı orqanizmdir" kimi məşhur geosiyasi nəzəriyyələrindən çıxış edərək sovet Rusiyasının ərazilərini keçmiş imperiya sərhədlərində bərpa etməyə çalışırdı ki, buna da bir qədər sonra nail oldular. Rusiyanın böyük dövlət olmasının yolu ilk növbədə Cənubi Qafqazdan, onun açar ölkəsi olan Azərbaycana yiyələnməkdən keçirdi. Lenin bolşevik hakimiyyətinə nəyin bahasına olursa-olsun Azərbaycanın istiqlalına son qoymağı, Bakı neftinə, Azərbaycanın əlverişli streteji mövqelərinə və zəngin təbii sərvətlərinə yiyələnməyi tövsiyə edirdi.

1920-ci ilin əvvəllərindən başlayaraq Azərbaycanın ətrafında bolşeviklərin planlarının reallaşmasından ötrü əlverişli beynəlxalq şərait yaranmağa başlayır. Keçmiş Antanta ölkələrinin bir qisminin bolşevizmi beşiyində boğmaq və Türkiyənin keçmiş mülklərinə sahib olmaq istəkləri yaxın keçmişədək bir-biri ilə düşmən olan Türkiyə ilə bolşevik Rusiyasının yaxınlaşması ilə iflasa uğradı. Birinci dünya müharibəsində məğlub olan Türkiyədə bu zaman iki hakimiyyətlilik mövcud idi. Bunlardan biri paytaxtı İstanbul olan Osmanlı hakimiyyəti,

digəri isə 1920-ci il aprelin 23-də Ankarada qurulan Türkiyə Böyük Millət Məclisi hökumətinin başçılıq etdiyi istiqlal hakimiyyəti idi. Türkiyə üçün çox ağır bir vəziyyət yaranmışdı. Türk xalqının istiqlal savaşında onu müdafiə edən və yardım göstərən ölkə yox idi. Bu zaman Daşnak Ermənistanı Anadolu torpaqlarına sahib olmaq və bu ərazilərdə öz müstəqil dövlətini yaratmaq üğrunda Türkiyəyə qarşı şərqdə ikinci bir cəbhə açmışdı. Türkiyə həm qərbdə, həm də şərqdə hərbi əməliyyatlar aparmaq məcburiyyətində qalmışdı. Belə bir şəraitdə TBMM hökumətinin başçısı Mustafa Kamal Atatürk o zaman "Anadoluda gözü olmayan" bolşeviklərlə bir müqavilə imzalamağı vacib sayırdı.[14] O, aprelin 26-da sovet hökumətinə ümumi düşmənə qarşı mübarizədə müttəfiqlik barədə müraciət etdi.[15] Bununla bağlı olaraq türk tarixçisi Səlahəddin Tansel "1919-1923-cü illər Atatürk və qurtuluş savaşı" adlı əsərində yazır: "Mustafa Kamal 1920-ci il aprelin 26-da Rusiyanın ümumi siyasətini nəzərə alaraq sovetlərə bir məktub göndərdi və siyasi, hərbi ittifaqda əməkdaşlıq edə biləcəklərini, hər iki

[14] Atatürk'ün Tanım, Telqraf ve Beyannameleri. IV. Ankara, 1964, s. 162; Salahi R. Sonyel. Türk kurtuluş savaşı ve dış politika. I. Mondros bırakışmasından Böyük Millet Meclisi'nin açılışına kadar. Ankara, Türk Tarih Kurumu Basımevi, 1987, s.174; Qasımlı M. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il-dekabr 1922-ci il). B., 1998, s. 26-27.

[15] Mehmet Gönlübol, Cem Sar. Atatürk ve Türkiyenin dış politikası (1919-1938). Ankara, Atatürk Araştırma Merkezi, 1997, s.16; Ömer Göksel İşyar. Bölgesel ve global güvenlik çıkarları bağlamında Sovyet-Rus dış politikaları ve Karabag sorunu. İstanbul, ALFA, 2004, s. 341; Письмо Мустафы Кемал-Паши от имени ВНС Турции В.И.Ленину с предложением установления дипломатических отношений между РСФСР и Турцией. 26 апреля 1920 г. Архив Внешней Политики Российской Федерации, фонд 132, оп.3, папка 2, дело 1, лист 11; Из письма Письмо Мустафы Кемал-Паши от имени ВНС Турции В.И.Ленину с предложением установления дипломатических отношений между РСФСР и Турцией. 26 апреля 1920 г. – Журн. "Международная жизнь.", М., 1963, N: 11, с. 147-148.

ölkəni təhdid edən yabançı imperializmə qarşı birlikdə mübarizə aparacaqlarını, sovet hökuməti Gürcüstan menşevikləri üzərinə hücum edəcəyi təqdirdə türk qüvvələrinin də Ermənistandakı daşnaklara hücum edə biləcəyini, Azərbaycanı isə bolşeviklərə təslim edəcəyini bildirdi".[16]

Müraciətdə Türkiyə tərəfi Azərbaycan və Gürcüstanın müstəqilliyinin bolşevik hakimiyyətinə güzəştə gedilməsi müqabilində Rusiyadan Ermənistandakı daşnakların hakimiyyətdən uzaqlaşdırılmasını, onların Türkiyə ərazilərinə olan iddialarının geri götürülməsini və Türkiyənin ərazi bütövlüyünün tanınmasına bolşeviklərin dəstək verməsini təkilf edirdi.

RSFSR xalq xarici işlər komissarı G.Çiçerin bu müraciətə iyunun 3-də cavab verdi.[17] Cavab məktubunda Türkiyə ilə müttəfiqlik üçün tələb olunan bir sıra siyasi və ərazi məsələləri ilə yanaşı, Cənubi Qafqazın gələcəkdə Rusiyanın tam təsir dairəsinə verilməsi tələbi qoyulurdu.

Atatürkün müttəfiqlik təklifi səbəbsiz deyildi. O dövrdə ərazi bütövlüyünün qorunması, sinfi və milli maraqların ümumiliyi və oxşar geosiyasi vəziyyət hər iki ölkəni birləşdirirdi. Onların hər ikisi keçmiş Antanta ölkələrinin təcavüzünə qarşı vuruşurdular. Atatürk başa düşürdü ki, bolşevik hakimiyyəti ilə əməkdaşlıq Türkiyə üçün qorxulu deyildir. Düzdür, islam və bolşevizm prinsipləri bir-birinə zidd idi, lakin o zaman Atatürkü daha çox Türkiyənin və türklərin milli maraqları düşündürürdü. O ki, qaldı Rusiyaya bəhs olunan dövrdə onun Avropa ölkələri kimi öz gücü ilə Şərqin müsəlman xalq və

[16] Sitat götürülmüşdür: Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. B., Azərnəşr, 1992, s. 262.

[17] Письмо народного комиссара иностранных дел РСФСР председателью Великого Национального Собрания Турции Мустафе Кемал-Паше. 3 июня 1920 г. - Документы внешней политики СССР. Т.II. М., Политиздат, 1958, с. 554-555; Газ. «Известия», 1920, 9 июня, N: 123 (970).

ölkələrini öz nüfuz dairəsinə salmaq imkanları yetərincə deyildi və bu məsələdə Türkiyənin nüfuzlu dəstəyinə ehtiyacı var idi. Odur ki, Atatürkün müttəfiqlik barədə təkliflərini sovet Rusiyası hökuməti göydəndüşmə imkan kimi, tərəddüd etmədən qəbul etdi. Lenin başa düşürdü ki, əgər Böyük Britaniya Türkiyə üzərində qələbə qazansa, onda Bakı neftinə də ingilislər yiyələnəcək, Xəzər dənizi və bütün Qafqaz üzərində nəzarət imkanı əldə edəcək, Orta Asiyaya gedən dəniz yolunu öz üzünə açacaq və Moskvaya hücum üçün Qərb dünyası əlverişli fürsət qazanacaqdır. Bundan sonra isə Rusiyada bolşevik hakimiyyətinin devrilməsi çox asan bir iş olacaqdır. O bilirdi ki, ingilislər Cənubi Qafqaza kifayət qədər yaxşı bələddirlər. Azərbaycandan ordu hissələrini çıxarsalar da, Gürcüstanda onu saxlamışdılar.

Beləliklə, müsəlman-türk dünyası üçün ciddi itki bahasına baş versə də Rusiya-Türkiyə müttəfiqliyi baş tutdu. Ümumi maraqlar Rusiya ilə Türkiyəni birləşdirdi. Bu müttəfiqlik Avropa və dünya ölkələri tərəfindən yenicə tanınmağa başlayan Azərbaycanın müstəqilliyinin taleyinə və sonrakı geosiyasi vəziyyətinə həlledici təsir etdi. Azərbaycanın geosiyasi vəziyyətinin dəyişməsinə beynəlxalq amillərin biganəliyinin də ciddi təsiri oldu.

Biri-biriləri ilə düşmən olmalarına baxmayaraq, Böyük Britaniya, Rusiya və Türkiyə Azərbaycanın müstəqilliyinə və onun hökumətinə eyni dərəcədə mənfi münasibət sərgilədilər. Bu məsələdə ingilislərin də öz haqq-hesabı var idi. Onlar belə hesab edirdilər ki, azərbaycanlılar türk, müsəlman olaraq Türkiyəni istiqlal savaşında müdafiə edirlər. Həqiqətən də, azərbaycanlılar türk dünyasının və islamın mərkəzi hesab edilən Türkiyənin istiqlal müharibəsində məğlub olmasını istəmirdi və türklərə canı-dildən dəstək verirdi. Minlərlə azərbaycanlı

istiqlal savaşında türklərlə çiyin-çiyinə vuruşurdu. Bir neçə azərbaycanlı ziyalı Türkiyə Böyük Millət Məclisi hökumətində çalışaraq yeni Türkiyənin qurulmasına öz töhfələrini verirdilər.

İngilis hökumətinin Azərbaycana olan inamının azalmasına başqa amillər də təsir edirdi. Britaniya hərbi komandanlığı türk ordu hissələri Bakıdan çıxdıqdan sonra Azərbaycanda yaşayan Nuru Paşanı müharibə təqsirkarı kimi təslim almaq istəsə də, Nəsib bəy Yusifbəyli hökuməti təkidlə onu təslim etməkdən imtina edirdi. Bu isə ingilislərin azərbaycanlılara qarşı münasibətini pisləşdirir və inamsızlığını daha da artırırdı.

Bolşevik Rusiyası Azərbaycan istiqlalını qətiyyən qəbul etmirdi. Çünki Azərbaycan hökumətinə 1918-ci ildə Denikinin təhlükəsinə qarşı birgə mübarizə etmək təklifini versə də, Avropa ölkələrinin təsiri altında rədd cavabı almışdı. Bu da bolşevikləri hiddətləndirirmişdi. Amma bu bir bəhanə idi.

Müharibədən çıxan bəzi Avropa ölkələri də bolşevizmin Şərqə doğru genişlənməsində maraqlı idilər. Bu ölkələrin bir çoxunun sosial-iqtisadi həyatı gərginliklərlə müşayiət olunurdu. Hökumətlər ölkələrinin təsərrüfat həyatlarını bərpa etməkdə çətinlik çəkirdilər. Yaranmış ağır vəziyyətdə ölkələrdə sosialist yönlü sol meyillər güclənirdi və rus inqilabını dəstəkləyirdilər. Bir çoxlar isə hesab edirdi ki, Rusiya parçalanardısa, keçmiş borcları ondan almaq daha çətin olardı. Həm də belə hesab edirdilər ki, cəlbedici bolşevizm şüarları qərb ölkələri üçün dağıdıcı olduğundan onu prinsipləri ilə ziddiyyət təşkil edən müsəlman ölklərinə yönəldib zəiflətmək və dünya inqilabi prosesini dayandırmaq olar.

Türkiyə də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə etibar etmirdi. Türk hökumətinin ingilislərə qarşı döyüşmək təklifinə Azərbaycanın bir qədər praqmatik və soyuq yanaşması bu etimadsızlığı daha da artırmışdı. Atatürk hökuməti

belə hesab edirdi ki, Azərbaycanda Türkiyənin müttəfiqi kimi çıxış edən bolşevik Rusiyasının xəttini davam etdirən bir rejimin qurulması qorxulu deyildir. Azərbaycan xalqı isə istiqlal savaşında türk xalqının məğlub olmasını istəmirdi. Türk xalqına yardım edən istənilən qüvvəyə rəğbət bəsləyirdi. Belə bir qüvvə isə bolşevik Rusiyası idi.

Beləliklə, rus bolşevikləri bölgənin gələcək mübahisəsiz hakimi halına gəldilər. Bu zamandan etibarən türk millətçilərinin dəstəyi ilə bölgəni başdan-başa sovetləşdirmə planı çərçivəsində inkişafın istiqamətlərini müəyyənləşdirdilər.18 1920-ci il aprelin 28-də sovet ordusu türklərin köməyi ilə Azərbaycanı işğal etdi.[19] Mustafa Kamal Paşa 1920-ci il iyulun 8-də TBMM-də etdiyi nitqində deyirdi ki, biz bolşeviklərlə əlaqə yaratmağa nail olduq. Son zamanlar bizim onlarla münasibətlərimiz az və ya çox real və möhkəm əsas qazandı. Biz sovet respublikası ilə rəsmi yazışma qurduq. Bu yazışmanın məzmunu sizə məlum olduğu kimi tamamilə uğurlu gedir. Sovet respublikası bizə ehtiyac duyduğumuz istənilən maddi yardımı etməyi vəd verib. Əgər biz indiyədək bu maddi yardımdan istifadə edə bilməmişiksə, buna görə nə biz, nə də sovet respublikası günahkardır. Səbəb görünür, son vaxtlaradək Qafqazda olan anlaşılmazlıqlarla bağlıdır. Bu anlaşmazlıqlar indi tamamilə ləğv olunmağa yaxındır.[20]

Bir müddət sonra, avqustun 14-də Atatürk deyirdi: "Başda ingilislər olmaqla, Antanta dövlətləri əllərində olan bütün vasi-

[18] Bülent Gökay. Bolşevizm ile emperyalizm arasında Türkiye (1918-1923). İstanbul, Agora Kitaplığı, 2006, s.110- 111.

[19] Salahi R. Sonyel. Türk kurtuluş savaşı ve dış politika. I. Mondros bırakışmasından Böyük Millet Meclisi' nin açılışına kadar, s.182.

[20] Из речи Мустафы Кемал-Паши в Великом Национальном Собрании Турции 8 июля 1920 г. - Журн. "Международная жизнь", М., 1963, N: 11, с. 148.

tə və qüvvələri ilə bizi yox etmək, əzmək üçün çalışdıqları halda, o biri tərəfdən də əzilən bütün insanlığı qurtarmaq məqsədilə çalışan bolşeviklər, məzlum millətimizə əl uzatmaq üçün sərvətlərini, qüvvə və qüdrətlərini sərf etmişlər. Fəqət, bolşevik cümhuriyyəti, həm özlərinin yaşamaları və varlıqlarının önəmini artırmaq, həm də Antanta dövlətlərinin zülm pəncəsindən qurtulduqları təqdirdə, ən qüdrətli yardımçı və tərəfdar olacaq millətimizin birlik və bərabərlik əlini tutmaq üçün bizə kömək etdi. Əfəndilər, etdikləri yardım X və XI ordularını açıqdan açığa Qafqaza, Şərq cəbhəsinə parçalamaq oldu. Bu ordular bizim istiqamətimiz, təsirimiz və xidmətimiz sayəsində asanlıqla Şimali Qafqazı keçib Azərbaycana gəldilər".[21]

Bu hadisə əlaqədar olaraq RSFSR xalq xarici işlər komissarı G.Çiçerin sonralar, 1924-cü il aprelin 28-də Moskvada Zaqafqaziya tələblərinin toplantısında etdiyi nitqində deyirdi ki, Anatanta imperializmi Asiyada xalqları əzib möhkəmlənmək istərkən tarixin təkərini Bakıdakı inqilabi çevriliş döndərdi. Bu çevrilişə gənc Türkiyənin milli hərəkatı kömək etdi.[22]

Beləliklə, Azərbaycanın dövlət müstəqillyinə son qoyuldu. Xalq Cümhuriyyəti hökuməti buraxıldı və onun yerində Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı. Bu sadəcə dövlət müstəqilliyinin süquta uğraması demək deyildi, həm də Azərbaycanın və Cənubi Qafqazın yeni geosiyasi vəziyyətinin başlanğıcı idi. Artıq Rusiya, Türkiyə və İran arasında bufer dövləti rolunu oynayan müstəqil Azərbaycan dövləti mövcud

[21] Sitat götürülmüşdür: Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. B., Azərnəşr, 1992, s. 264; Из выступления Мустафы Кемал-Паши в ВНСТ в связи с запросом о положении на восточном фронте. 14 августа 1920 г.- Журн. "Международная жизнь", М., 1963, N: 11, с. 148-149.

[22] Газ. "Бакинский рабочий", 1924, 14 мая, N: 107 (1130); Qasımlı M. Azerbaycan türklerinin milli mücadele tarihi. 1920-1945. İstanbul, 2006, s. 92.

deyildi və həmin ölkələrlə sərhədlərə Rusiya bilavasitə nəzarət etmək imkanı qazanırdı.

Azərbaycanın işğalı ilə Cənubi Qafqazda yeni geosiyasi dəyişiklər üçün ilk addımlar atıldı. Bir qədər sonra Azərbaycan torpaqlarında yaradılan Ermənistan Türkiyəyə olan torpaq iddialarından əl çəkdiyini bəyan edən hökumətlə əvəz edildi və sovetləşdirildi. 1921-ci ilin əvvəllərində isə Cənubi Qafqazın son müstəqil dövləti də bolşeviklərin əlinə keçir və beləliklə də Cənubi Qafqazda müstəqil dövlətlərin mövcudluğuna son qoyulur.

Rusiya Cənubi Qafqazın əsas ölkəsi olan Azərbaycana, onun təbii sərvətlərinə, əlverişli coğrafi mövqelərinə yiyələnməklə böyük bir dövlətə çevrilmək istiqamətində səylərini artırırdı. Artıq İran və Türkiyə zəif və kiçik Azərbaycan, Gürcüstan və Ermənistan ilə deyil, ağır vəziyyətdə olmasına baxmayaraq, güclənməkdə olan Rusiya ilə qonşuya çevrildilər. Bu isə nəinki regionda, o cümlədən dünyada gedən geosiyasi proseslərə ciddi təsir edən faktorlardan birinə çevrildi. Beləliklə, Rusiya-Türkiyə müttəfiqliyi qərb ölkələri üçün mənfi nəticələr doğursa da, ən ağır zərbə Azərbaycan və Gürcüstana dəydi.

Rus-türk müttəfiqliyinin yaranması bütün ziddiyyətlərinə baxmayaraq, onların hər ikisinin maraqlarına uyğun idi və sonrakı illərdə həm Rusiyaya, həm də Türkiyə Cümhuriyyətinə uğur qazandırdı. Cənubi Qafqazın böyük və güclü, zəngin təbii sərvətləri, əlverişli coğrafi-strateji mövqeyi olan ölkəsi Azərbaycana yiyələnməklə Rusiya daha da gücləndi. O ki, qaldı Türkiyəyə, bu dövlət bir tərəfdən keçmiş Antanta ölkələrinə qarşı istiqlal müharibəsində özünə ciddi müttəfiq qazandı. Digər tərəfdən isə elə həmin Antantanın və Rusiyanın dəstəyi ilə Türkiyə ərazisində dövlət yaratmaq istəyən "erməni məsələsini" həll etdi. Bu isə təkcə Cənubi Qafqazda deyil, o cümlədən

Yaxın və Orta Şərqdə, müsəlman dünyasında yeni geosiyasi vəziyyətin yaranmasına ciddi təsir edən faktorlardan biri oldu.

Rusiya qüvvə toplayaraq sovetləşdirdiyi ölkələri 1922-ci ildə vahid bir dövlət olan Sovet Sosialist Respublikaları İttifaqı adlı sosialist imperiyası bayrağı altında birləşdirdi və Avrasiyanın ən əlverişli strateji mövqelərinə, geniş quru və dəniz sərhədlərinə yiyələnərək, dünyanın ən böyük bir ölkəsinə çevrildi. Sovet dövlətinin dünya siyasətində geosiyasi mövqeləri gücləndi. Bu isə Qərb ölkələrdə yeni narahatlıq yaratdı.

Türk xalqı istiqlal savaşında qalib gələrək 1923-cü ildə Türkiyə Cümhuriyyətini qurdu. Az sonra isə Qərb ölkələri bolşevizmin və Rusiyanın yayılması təhlükəsi qarşısında qalaraq özləri üçün Türkiyənin əhəmiyyətini yenidən dəyərləndirdilər və onunla yaxınlaşmağa başladılar.

Beləliklə, Birinci dünya müharibəsinin son mərhələsində qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin yerində yaradılmış Azərbaycan SSR 70 ildən çox bir müddət ərzində SSRİ tərkibində mövcud oldu və öz müstəqilliyi haqqında yenidən ayağa qalxmaq üçün məqam gözlədi və 1991-ci ildə SSRİ-nin dağılması belə bir fürsəti yaratdı. Sosiaizm sisteminin və SSRİ-nin süqutu bütün dünyanın, o cümlədən Azərbaycanın geosiyasi vəziyyətinə əsaslı təsir etdi və onun müstəqillik şanslarını yenidən ortaya qoydu. Dünyada yaradılmış yeni geosiyasi şərait Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsini gündəmə gətirdi ki, xalqımız da bu imkandan istifadə etdi. Yenidən bərpa edilmiş və Azərbaycan Respublikası adlandırılan bu dövlət özünü Azərbaycan Xaql Cümhuriyyətinin varisi, yürütdüyü siyasəti isə onun demokratik və dünyəvilik kursunun davamı elan etdi.

Təkrar və məşğələ sualları:

1. Azərbaycanın Birinci Dünya müharibəsinə qədərki geosiyasi vəziyyəti və mərkəzləşmiş Azərbaycan dövlətinin yaranması haqqında nə bilirsiniz? Sonrakı dövrdə Rusiya, Türkiyə və İran dövlətlərinin Azərbaycan uğrunda apardığı mübarizələri və onun geosiyasi nəticələrini şərh edin. Çar Rusiyasının Qafqaz və Azərbaycan siyasətinin əsas məqsədləri haqqında danışın.

2. Birinci dünya müharibəsi dövründə Cənubi Qafqazda geosiyasi vəziyyət və xarici dövlətlərin Azərbaycandakı fəaliyyəti haqqında nə biilrsiniz? Rusiya inqilabının və onların milli siyasətinin Cənubi Qafqazın geosiyasi vəziyyətinə təsiri və Azərbaycandakı proseslər haqqında danışın. Müvəqqəti hökumətlərin, siyasi və hərbi qüvvələrin Bakı və Azərbaycanı ələ keçirmək cəhdlərini və Osmanlı ordusunun Azərbaycana gəlişinin geosiyasi nəticələrini şərh edin.

3. Transqafqaz hakimiyyətinin dağılması, Azərbaycanın müstəqilliyinin elan edilməsi və onun Cənubi Qafqazın geosiyasi vəziyyətinə təsiri haqqında nə bilirsiniz?

4. Azərbaycan Xalq Cümhuriyyətinin geosiyasi vəziyyətini və xarici siyasətini xarakterizə edin və qiymətləndirin (ərazisi, əhalisi, milil və sosial vəziyyəti, sərhəd və əhali təhlükəsizliyi, Bakı şəhərinin geri alınması və s.). Xarici dövlətlərin AXC-yə və Azərbaycanın müstəqilliyinə ilkin münasibəti haqqında danışın Rusiya, Almaniya, Türkiyə, İngiltərə və ABŞ-ın Cənubi Qafqaz siyasəti haqqında nə deyə bilərsiniz?

5. Birinci Dünya müharibəsinin başa çatmasından sonrakı geosiyasi vəziyyət və AXC hökumətinin diplomatik fəaliyyəti haqqında nə bilirsiniz?

6.Türkiyənin müttəfiqlərinin məğlubiyyətinin Cənubi Qafqaz və Azərbaycandakı geosiyasi vəziyyətə təsiri və AXC hökumətinin yeni manevrlərini şərh edin və qiymətləndirin. Paris sülh konfransında xarici dövlətlərdən Azərbaycanın müstəqilliyinə münasibəti necə olmuşdur?

7. Bolşeviklərin Cənubi Qafqazda yenidən fəallaşmasının səbəbləri və geosiyasi nəticələri haqqında nə deyə bilərsiniz? Rus-türk yaxınlaşmasının Cənubi Qafqazın sonrakı geosiyasi vəziyyəti və Azərbaycanın müstəqilliyinə təsirini şərh edin və qiymətləndirin.

8. AXC-nin iflasının səbəb və nəticələri, xarici dövlətlərin mövqeyi və bütün bunların Cənubi Qafqazdakı sonrakı geosiyasi proseslərə təsiri haqqında nə bilirsiniz?

I fəsildə istifadə edilmiş mənbə və ədəbiyyatlar

Azərbaycan dilində:

1. Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, Elm, 1998. 336 s.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, f. 277, siy. 2, bağ. 1, iş 9.
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.202, siy.1, iş 25, 71.
4. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 970, siy.1, iş 1.
5. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Akad. Z.M.Bünyadovun redaktəsi ilə. B., Elm, 1990.
6. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. B., Azərnəşr, 1992. 278 s.
7. Daniel Yergin. Neft fəlsəfəsi. I cild. Bakı, Zəkioğlu nəşriyyatı, 2006. 865 s.
8. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. B., 1993. 301 s.
9. Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). B., 1999. 241 s.
10. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, Azərbaycan Nəşriyyatı, 2005. 752 s.
11. Həsənov C.P. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, Azərnəşr, 1993. 362 s.
12. Qasımlı M.C. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ-nin yaradılmasına qədər). Bakı, Qanun nəşriyyatı, 1998. 300 s.
13. Qasımlı M.C. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri(Aprel 1920- dekabr 1922). Bakı, 1998. 130 s.

14. Qasımlı M.C. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. - Bakı, 2000-2004. 506 s.
15. Qasımlı M. Azerbaycan türklerinin milli mücadele tarihi. 1920-1945. İstanbul, 2006. 704 s.
16. Qasımlı M.C.1920-ci ilin apreli:Azərbaycanın dövlət müstəqilliyinin itirilməsinə böyük dövlətlərin münasibəti.- "525-ci qəzet", 2007, 7 aprel, N:59 (2409); 14 aprel, N:64 (2414); 21 aprel, N:69 (2419); 28 aprel, N:74 (2424).
17. Qasımlı M.C.Bolşevik Rusiyasının Güney Qafqaz siyasəti.- Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, Nurlar nəşriyyatı, 2008.
18. Qasımlı M.C.Antanta ölkələrinin Güney Qafqaz siyasəti.- Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, Nurlar nəşriyyatı, 2008.
19. Qasımlı M.C. Sovet-Türkiyə münasibətləri (Mustafa Kamal Paşanın məktubundan SSRİ-nin yaradılmasınadək). - "525-ci qəzet" 2008, 19 iyul, N:129 (2720).
20. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəri dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər). B., 2006.
21. Nəsibli N.N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, Ay-Ulduz, 1996. 302 s.

Rus dilində:

1. Адрес-календарь Азербайджанской Республики на 1920 год. Под ред. А.И.Ставровского. Б., Правительственная типография газ. "Азербайджан" 1920, 134 с.
2. Архив Внешней Политики Российской Федерации, ф. 132, оп.3, п.2,d.1.
3. Газ. "Бакинский рабочий", 1924, 14 мая, N: 107 (1130).

4. Газ. “Известия”, 1920, 9 июня, N: 123 (970).
5. Гасанов А.М. Современные международные отношения и внешняя политика Азербйджана. Баку, Шарк, 2005.772 с.
6. Документы внешней политики СССР. Т.I. М., Политиздат, 1957. 772 с.
7. Документы внешней политики СССР. Т.II. М., Политиздат, 1958. 804 с.
8. Халилов А. Геноцид против мусульманского населения Закавказья в 1917-1920 гг. Исторических источниках. Б., 2000. 168 с.
9. Журн. “Международная жизнь”, М., 1963, N: 11.

Türk dilində:

1. Atatürk’ün Tanım, Telqraf ve Beyannameleri. IV. Ankara, 1964.
2. Bülent Gökay. Bolşevizm ile emperyalizm arasında Türkiye (1918-1923). İstanbul, Agora Kitaplığı, 2006, 296 s.
3. Mehmet Gönlübol, Cem Sar. Atatürk ve Türkiyenin dış politikası (1919-1938). Ankara, Atatürk Araştırma Merkezi, 1997. 152 s.
4. Ömer Göksel İşyar. Bölgesel ve global güvenlik çıkarları bağlamında Sovyet-Rus dış politikaları ve Karabag sorunu. İstanbul, ALFA, 2004. 698 s.
5. Salahi R. Sonyel. Türk kurtuluş savaşı ve dış politika. I. Mondros barışından Böyük Millet Meclisi’nin açılışına kadar. Ankara, Türk Tarih Kurumu Basınevi, 1987. 255 s.

II FƏSİL
AZƏRBAYCAN RESPUBLİKASININ MÜASİR MİLLİ İNKİŞAF SİYASƏTİ: XARAKTERİSTİKASI, ƏSAS VƏZİFƏLƏRİ VƏ TƏLƏBLƏRİ

Hər bir dövlətin daxili və xarici vəziyyətini, milli maraq dairələrini və onların təminatını, beynəlxalq aləm və region ölkələri ilə münasibətlərinin taktikasını, vəzifələrini, yollarını, vasitələrini və ehtiyatlarını, onu əhatə edən geosiyasi subyektlərin hərəkətlərini və buna müvafiq olaraq geosiyasi davranışını müəyyən edən **Milli İnkişaf Strategiyası** olur. Bu strategiya ölkənin həyata keçirdiyi praktiki daxili və xarici siyasətin, ölkədaxili ictimai-siyasi, milli-etnik, sosial-dini sabitliyin, yaxın və uzaq ölkələrlə geosiyasi münasibətlərin davamlı, təhlükəsiz inkişafını təmin edən əsas vasitədir.

Milli İnkişaf Strategiyası bir-biri ilə eyni statusda və dəyərdə olan **milli inkişaf** və **milli təhlükəsizliyin** (daxili və xarici) əsas ölçüləri və tələblərini əks etdirir, hər iki sahə üzrə ayrıca konsepsiyanın yaradılması və həyata keçirilməsini bir vəzifə kimi qarşıya qoyur.

Milli İnkişaf Strategiyası ölkənin xarici aləmdən qaynaqlanan geosiyasi, geoiqtisadi və hərbi-geostrateji vəziyyətini, daxili iqtisadi, ictimai-siyasi və mənəvi inkişafını, spesifik xüsusiyyətlərini və s. məsələləri nəzərə almaqla, ümumən:

- milli inkişafın və digər strateji vəzifələrin hərtərəfli elmi tədqiqini, əsaslandırılmasını, onların təmin olunması yollarının, vasitə və ehtiyatlarının tapılmasını;

- ölkənin milli inkişaf və təhlükəsizlik konsepsiyasının hazırlanması və bu əsasda praktiki siyasətinin formalaşdırılmasını, onun əsas vəzifə və tələblərinin müəyyən edilməsini;
- ölkənin milli inkişafı və təhlükəsizlik mühitinin – müstəqillik, ərazi bütövlüyü, suveren idarəçilik, hərbi-strateji və sərhəd təhlükəsizliyinin, iqtisadi, siyasi, sosial-mədəni, informasiya, ekoloji inkişafın vacib tələblərinin öyrənilməsi və təmin edilməsi taktikasının hazırlanmasını;
- daxili və xarici siyasətin əsas tələblərinin, daxili miqrasiya, təbii ehtiyat, əmək insan və s. resurslarının səmərəli istifadəsi, qorunması, tənzimlənməsi və idarə edilməsi kimi vacib geosiyasi vəzifələrin əsaslandırılması və təminatı yollarının təklif edilməsini;
- ölkənin milli inkişafının və milli təhlükəsizlik mühitinin davamlı sabitliyinin, bu sahədə yürüdülən dövlət siyasətinin səmərəliliyinin, dayanıqlığının və müvəffəqiyyətinin təmin edilməsini;
- dövlətin və ictimai həyatın milli, hərbi, sərhəd, iqtisadi, sosial, informasiya, ekoloji, ərzaq, enerji, nəqliyyat-kommunikasiya kimi həyati əhəmiyyət kəsb edən strateji sahələrində praqmatik milli inkişaf və təhlükəsizlik maraqlarının əsaslandırılması və təmin edilməsini;
- hərbi və sərhəd təhlükəsizliyi Doktrinasının hazırlanmasını;
- milli maraq ölçülərinin, milli təhlükəsizlik siyasətinin, onun əsas vəzifələrinin müəyyən olunması və mexanizmlərinin yaradılmasını;
- iqtisadi, enerji, resurs, ərzaq, nəqliyyat, infrastruktur, ekologiya, informasiya kimi sahələrin milli strategiyasının, təhlükəsizlik konsepsiyasının hazırlanması və həyata keçirilməsini;

- ölkənin geosiyasi kodunun, beynəlxalq və regional təhlükəsizlik sahəsində müvafiq xarici siyasət konsepsiyasının yaradılmasını və s. ehtiva edir.

§ 2.1. Azərbaycan Respublikasının milli inkişaf siyasətinin formalaşması, əsas mərhələləri və xarakterik xüsusiyyətləri

Azərbaycanın müstəqillik yolu, milli inkişafı və dövlət quruculuğu prosesi bir sıra mühüm daxili və xarici amillərlə şərtlənir. Azərbaycan xalqı özünün siyasi, iqtisadi, mədəni-intellektual potensialından və SSRİ-nin dağılması ilə əlaqədar yaranan əlverişli tarixi şəraitdən istifadə edərək, 1991-ci ildə öz milli iradəsini ortaya qoydu, yenidən istiqlal haqqına qovuşaraq, müstəqil dövlətini bərpa etdi və BMT üzvü olan müstəqil dövlətlər sırasına qoşuldu. Bu hadisə Azərbaycan xalqının indiyə qədər malik olduğu ən böyük tarixi nailiyyət hesab olunur. Müasir dünyada 5000-dən artıq xalq və millət mövcud olsa da, BMT iqamətgahında bayrağı dalğalanan müstəqil dövlətlərin sayı 200-dən çox deyil.

Müstəqillik tarixinin araşdırılması ümummilli lider Heydər Əliyevin belə bir əsaslı fikrini təsdiq edir ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunub saxlanılması, yaşadılması, daimi və əbədi edilməsi bundan da çətindir. O, 1993-cü ildəki müraciətlərindən birində qeyd edirdi ki, "Azərbaycan xalqının əsrlər boyu qəlbində yaşatdığı, həsrətini çəkdiyi günlər gəlib çatmışdır. Müstəqilliyi qazanmaq, dövlətin tam müstəqil olmasına nail olmaq üçün xalqımız çətin yollardan keçmişdir. Ancaq müstəqilliyi qorumaq, əldə saxlamaq, möhkəmləndirmək, dövlətin tam müstəqilliyinə nail olmaq, vətəndaşlara müstəqil dövlət şəraitində layiqli həyat şəraiti təmin etmək daha çətindir".[23]

[23] Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Elektron külliyyat, http://heydaraliyev.preslib.az

Dünya təcrübəsi və Azərbaycanın dövlətçilik tarixinin qısa təhlili göstərir ki, müstəqilliyə qovuşmaq, milli dövlət yaratmaq və onu yaşatmaq üçün üç əsas şərtin olması vacibdir. Bunlar:

- müstəqillik üçün mövcud daxili və xarici şəraitin yetişməsi;
- müstəqillik qazanmaq, onu qorumaq və yaşatmaq üçün xalqın milli iradəsinin ortaya qoyulması və vahid milli məqsəd ətrafında birləşməsi;
- həmin dövr üçün millətin vahid milli ideyasının və iradəsinin daşıyıcısı rolunu oynayan, insanları səfərbər edərək öz arxasınca aparmaq gücünə və qabiliyyətinə malik, cəmiyyətin əksər təbəqələrinin qəbul etdiyi milli liderin olmasından ibarətdir.

Bəşər tarixində bu və ya digər xalqın və ölkənin müstəqilliyi üçün lazımi tarixi şəraitin yetişməsi ayrı-ayrı dövrlərdə müxtəlif forma və məzmunda özünü büruzə vermiş və bəhs olunan mövcud zaman və məkanın spesifik ölçüləri, əlverişli daxili və xarici amilləri və s. ilə ölçülmüşdür.

Milli iradə ortaya qoymaq və milli məqsəd uğrunda birləşmək bütün məkan və zamanlarda, bir qayda olaraq, ölkə əhalisinin tam əksəriyyətinin "birlik, vahidlik və qətiyyətlilik" əmsalı hesab olunmuşdur.

O ki, qaldı tarixdə, millətlərin və dövlətlərin həyatında vahid, birləşdirici liderin, şəxsiyyətin oynadığı rola, bununla bağlı dünya siyasətşünaslığında fərqli yanaşmalar mövcuddur. Bu məsələdə ən inandırıcı siyasi yanaşma metodunu geosiyasi ədəbiyyatda "Biheviorist metod" tərəfdarları irəli sürür və əsaslandırırlar.[24]

[24] Bu metoddan geosiyasətdə ilk dəfə ABŞ siyasətçisi, sonralar isə prezident seçilmiş Vudro Vilson 1880-ci ildə istifadə etmişdir. Həmin geosiyasi metoda görə, bu və ya digər hadisəni qiymətləndirərkən "tam aydın, dəqiq və birmənalı bilik və təcrübəyə əsaslanaraq qərar vermək lazımdır". V.Vilson

Şiyasətşünaslar şəxsiyyətin (liderin) xalqların və toplumların milli "özünü müəyyənetməsi" və ya milli kimliyi, milli dövlət quruculuğu və milli inkişafındakı tarixi rolunun ölçü meyarlarını onun mövcud zaman və məkan çərçivəsindəki milli ideya və milli iradə daşıyıcısı kimi çıxış etməsi, bu missiyanı icra etmək gücünə və keyfiyyətinə, geniş və hərtərəfli qlobal dünyagörüşə malik olması, yerli, regional və beynəlxalq geosiyasi mühitdən yetərincə baş çıxarması və nəhayət, cəmiyyətin ictimai dəstəyini qazanması ilə müəyyənləşdirirlər.

Müstəqilliyə qovuşmaqla Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti birdən-birə yaranmamış və bir neçə mərhələdən keçərək, tədricən formalaşmışdır. Siyasi ədəbiyyatda bəzi xarakterik xüsusiyyətlərinə görə, Azərbaycanın müstəqil dövlət quruculuğu və milli inkişafını bir neçə mərhələyə bölürlər.

Birinci mərhələyə Azərbaycanın 18 oktyabr 1991-ci ildə müstəqillik haqqında Konstitusiya Aktını qəbul etməsindən başlayaraq 1993-cü ilə - Heydər Əliyevin hakimiyyətə gəlməsinə qədərki dövrü aid edirlər.

1980-ci illərin sonu, 1990-cı illərin əvvəlində SSRİ-nin süqutunun qarşısıalınmaz prosesə çevrilməsi, beynəlxalq aləmdə yaranan əlverişli tarixi şərait, bölgədə cərəyan edən mərkəzdənqaçma meyillərinin vüsət alması, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin həllində o zamankı sovet rəhbərliyinin ermənipərəst mövqeyi, ermənilərin yaranmış boşluqdan bəhrələnərək Azərbaycan torpaqlarını bir-birinin ardınca işğal etməsi və s. hadisələr Azərbaycanda əvvəlcə

---

hesab edirdi ki, həm daxili siyasətdə, həm də geosiyasətdə bütün hadisələrin əsasında lider (şəxsiyyət) dayanır və əsas rolu da məhz o oynayır. V.Vilson konkret zaman və məkan çərçivəsində xalqların, millətlərin və digər insan birliklərinin əsas maraq və mənafe dairəsinin, fəaliyyət və istəklərinin ifadə və təmin olunması yolları və vasitələrinin tapılmasını da məhz onların "liderlərinin dünyagörüşü və qabiliyyəti" ilə əlaqələndirirdi.

kortəbii xalq hərəkatına, 1990-cı ildən sonra isə artıq məqsədləri aydın olan milli-azadlıq hərəkatına rəvac verdi. Həmin vaxt ölkənin müstəqilliyinin elan olunması və müstəqil dövlət qurulması üçün tələb olunan ilk iki şərt tam yetişmişdi.

Bəhs olunan dövrdə SSRİ-nin ali siyasi rəhbərliyində yaranan böhranlı vəziyyət və Moskvada yaşanan siyasi qarşıdurmadan istifadə edən bir çox keçmiş müttəfiq respublikalar, o cümlədən Azərbaycan öz müstəqilliyini elan etdi. Lakin həmin dövrdə həm ölkəni, həm də xalq hərəkatını idarə edənlərin, dövlət qurumlarının aydın milli inkişaf konsepsiyasının olmaması, respublikaya rəhbərlik edən şəxslərin müstəqillik və milli dövlət iradəsinin zəifliyi, qeyr-prinsipial və səriştəsiz iqtisadi, ictimai-siyasi və mənəvi siyasət yürütməsi, ölkədə sabitliyi və qanunçuluğu bərpa edə bilməməsi, siyasi mübarizənin milli-vətəndaş qarşıdurması müstəvisinə keçməsi, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının işğal edilməsi və yerli əhalinin qaçqın-köçkünə çevrilməsi, iqtisadi, siyasi, sosial-mənəvi böhranın getdikcə dərinləşməsi və s. Azərbaycanı ciddi təhlükə ilə üz-üzə qoydu, əhalinin gələcəyə, müstəqil dövlətçiliyə inamını sarsıtdı.

1991-ci ildə Azərbaycan SSRİ-nin keçmiş kommunist ideologiyasından birmənalı imtina etsə də, xalqı səfərbər edən, onun kimliyini, yaratdığı dövlətin xarakterini, milli-mənəvi dəyərlərini qoruyub saxlayacaq və yönəldəcək yeni milli sistem və ideya ortaya qoyulmadı. Keçmişin bütün qalıqlarından, o cümlədən elmi, intellektual, mənəvi, ictimai dəyərlərindən kütləvi surətdə imtina meyli Azərbaycanda sözün həqiqi mənasında ciddi bir ideoloji boşluq yaratdı. Əlbəttə, cəmiyyətin ideyasızlaşdırılması meyli bir tərəfdən, keçmiş kommunist rejiminə nifrətdən qaynaqlanırdısa, digər tərəfdən, 1991-ci ildən 1993-cü ilin ortalarına qədər Azərbaycanı idarə edənlərin aydın məqsəd və məramının yoxluğundan, idarə etdikləri dövlə-

tin və xalqın siyasi, iqtisadi, mədəni, mənəvi inkişafı haqqında dolğun təsəvvürə malik olmamasından irəli gəlirdi.

Bu dövrdə Azərbaycanın milli azadlıq hərəkatı və müstəqil dövlət quruculuğu prosesinə rəhbərlik etmək iradəsinə, gücünə və qabiliyyətinə malik, əhalinin əksəriyyəti tərəfindən qəbul edilən və dəstəklənən milli liderə olan ehtiyac açıq-aşkar özünü göstərməyə başlayır. Belə lider 1990-ci ildən Naxçıvan əhalisinin iradəsi ilə Azərbaycan Ali Sovetinə deputat və 1991-ci ildənsə Muxtar Respublikanın Ali Məclisinə sədr seçilən, faktiki olaraq Naxçıvan əhalisinin xilaskarına çevrilən Heydər Əliyev oldu. 1993-cü ildə xalqın tələbi ilə, o, hakimiyyət dairələri tərəfindən Bakıya dəvət olundu. İyunun 15-də Ali Sovetin sədri, oktyabrın 3-də isə ölkə prezidenti seçilərək, yenidən Azərbaycanın siyasi sükanı arxasına keçən Heydər Əliyev ölkənin milli inkişafının üçüncü əsas şərtini - vahid lider tələbini təmin etdi.

Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə ölkənin milli inkişafının yeni - **ikinci mərhələsi** başlandı. Tədqiqatçıların fikrinə görə, bu mərhələdə Azərbaycanın milli inkişaf siyasətinin, gələcək ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi inkişafının əsası qoyuldu, daxili və xarici siyasətinin məqsəd və vəzifələri, prinsip və xüsusiyyətləri, əsas istiqamətləri və prioritetləri müəyyən edildi.[25]

Heydər Əliyevin Azərbaycanın gələcək müstəqil milli inkişafı ilə bağlı siyasi dünyagörüşü və konseptual yanaşması ilk dəfə hələ SSRİ dağılmamışdan qabaq - 1991-ci ilin əvvəllərində Azərbaycan parlamentinin tribunasından səsləndirdiyi fikirlərdə öz əksini tapmışdır. Azərbaycanın yeni şəraitdəki inkişafı ilə bağlı onun həmin dövrdə parlament müzakirələrində səsləndirdiyi fikirlər, təklif və mülahizələr, mütəxəssislərin

[25]Bax: Mehdiyev R.Ə. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı, 2006.

fikrincə müstəqilliyə doğru uzanan yolda rastlaşılan yeganə rasional, praqmatik və uzaqgörən fəaliyyət nümunəsi idi.[26]

Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin milli inkişafı ilə bağlı praktiki addımları - ictimai-siyasi, sosial-iqtisadi, mədəni-mənəvi inkişafının məqsəd və vəzifələrinin müəyyən edilməsi, ölkə həyatının bütün sahələrində keçmiş sosialist normalarından imtina edilməsi və yeni prinsiplərə söykənən dövlət quruculuğu proseslərini həyata keçirməsi, milli dövlətin əsas atributlarının yaradılması və s. də SSRİ-nin dağılmasından bir qədər əvvəl, 1991-cü ilin sentyabr ayında Naxçıvan MR Ali Məclisinə sədr seçilməsi ilə başlamış və 1993-cü ildənsə Azərbaycan Respublikasının Prezidenti kimi davam etdirilmişdir.

Müstəqil Azərbaycan dövlətinin sükanı arxasına keçəndən sonra Heydər Əliyev ölkənin milli ruhlu, qlobal düşüncəli və dövlət təfəkkürlü vətəndaşlarını, bütün sağlam qüvvələri öz ətrafına toplayaraq, dövlətin gələcək iqtisadi, ictimai-siyasi və sosial-mənəvi inkişafının prinsiplərini, məqsəd və vəzifələrini müəyyənləşdirdi, onun keçmiş sosialist ictimai-siyasi və iqtisadi sistemindən yeni hüquqi dövlət quruluşuna, azad bazar iqtisadiyyatı və çoxmülkiyyətli iqtisadiyyata, demokratik normalara və siyasi plüralizmə əsaslanan vətəndaş cəmiyyəti modelinə keçidinin konseptual əsaslarını yaratdı və 1995-ci ildə qəbul olunmuş ölkə Konstitusiyasına daxil etdi.

Heydər Əliyevin milli inkişaf siyasətinin xarakterik əlamətlərindən biri də, onun bütün milli resursları, maddi və mənəvi sərvətləri səfərbər edərək, ölkənin ümumi iqtisadi inkişafına yönəlməsi taktikasında idi. Bu məqsədlə, Heydər Əliyev 1994-cü ildə dünyanın aparıcı ölkələrini təmsil edən transmilli neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorundakı

[26] Bax: Mehdiyev R.Ə. Yeni siyasət: İnkişafa doğru. 1 kitab, Bakı, 2008. s.28-29

neft və qaz resurslarının birgə işlənməsi və sərbəst yollarla dünya bazarlarına ixrac edilməsini hədəfləyən "Əsrin müqaviləsi"ni imzalamağa nail oldu. Bu müqavilə Azərbaycanın yeni neft strategiyasının əsasında dayanaraq, bir tərəfdən, ölkənin milli inkişafı üçün lazımi maddi resursların əldə edilməsi və istifadəsi yollarını müəyyənləşdirdi, digər tərəfdənsə onun beynəlxalq aləm üçün geosiyasi və geoiqtisadi əhəmiyyətini artıraraq, dünyaya inteqrasiyasını şərtləndirdi. "Əsrin müqaviləsi"ndən başlayaraq, Azərbaycan transmilli dünyanın və qlobal dünya iqtisadiyyatının bir hissəsinə çevrildi, ölkənin inkişaf etdirilməsi, bazar iqtisadiyyatı mexanizmlərinin formalaşdırılması, sahibkarlığın və özəl sektorun yaranması, fəal sosial siyasətin yürüdülməsi üçün həm daxildə, həm də xaricdə əlverişli şərait yarandı. Azərbaycan dövləti və vətəndaşları, ictimai-siyasi və iqtisadi institutlar dünya ölkələrinin iqtisadi, maliyyə və texnoloji imkanlarından istifadə etmək imkanı qazandılar.

Heydər Əliyevin milli inkişaf siyasətinin əsasında hüquqi dövlət, demokratik inkişaf və siyasi plüralizmə əsaslanan cəmiyyətin yaradılması dayanırdı. Bu istiqamətdə 1993-cü ildən həyata keçirilən tədbirlər, atılan ən mühüm addımlar – milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, azad, plüralist cəmiyyət quruculuğu, qeyri-hökumət strukturlarının və müstəqil mətbuatın yaradılması ilə bağlı görülən çoxsaylı işlər, 1995-ci ildə demokratik normaları özündə əks etdirən yeni Konstitusiyanın qəbulu, çoxpartiyalı sistemin bərqərar olması, onun əsasında ilk parlament seçkilərinin keçirilməsi və demokratik parlamentin yaradılması, mətbuat və informasiya üzərindən bütün dövlət tənzimləyici mexanizmlərinin yığışdırılması və senzuranın ləğvi və s. həm milli inkişafı sürətləndirdi, həm də ölkənin dünyadakı demokratik imicini formalaşdıraraq, beynəlxalq ictimaiyyəti onunla daha geniş əməkdaşlığa ruhlandırdı. Bir neçə il ərzində hüquqi dövlət

quruculuğu istiqamətdə reallaşdırılan məqsədyönlü siyasət ölkənin ictimai-siyasi, iqtisadi, mənəvi-ideoloji və sosial həyatını kökündən dəyişdi, vətəndaş cəmiyyəti institutlarının yaradılması və inkişafına təkan verdi, ölkədaxili münasibətləri Avropa standartlarına uyğunlaşdırdı ki, bu da 2001-ci ildə Azərbaycanın Avropa Şurasına daxil olması, Avropa Birliyi ilə tərəfdaşlıq münasibətləri yaratması, dünyanın demokratik təsisatlarına inteqrasiyası və s. ilə nəticələndi.

Heydər Əliyevin milli inkişaf siyasətində ədalətli cəmiyyət və sosial yönümlü dövlət, ölkə vətəndaşlarının sosial-iqtisadi və mənəvi tələblərinin dolğun təminatı, sosial rifahının yaxşılaşdırılması, mövcud maddi resursların ölkə daxilində insan potensialının inkişafına yönəldilməsi prinsipi də mühüm yer tuturdu. Sosialyönümlülük, ümumiyyətlə, onun həyatı boyu yürütdüyü siyasətdə daimi prinsip olmuş, rəhbərlik etdiyi dövlətin imkanları əhalinin rifah halının yaxşılaşdırılmasına xidmət etmişdir. Bununla bağlı, Heydər Əliyev vurğulayırdı ki, "xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır".[27] Məhz Heydər Əliyevin təməlini qoyduğu fəal sosial siyasətin nəticəsidir ki, 20 ildə ölkədə yoxsulluğun səviyyəsi dəfələrlə aşağı salınmış, əhalinin pul gəlirləri və həyat səviyyəsi dayanmadan yüksəlmiş, sosial-iqtisadi vəziyyəti yaxşılaşmışdır.

Heydər Əliyevin milli inkişaf siyasəti Azərbaycanın Cənubi Qafqaz və Xəzər hövzəsi, Avrasiya bölgəsi və dünyadakı regional və beynəlxalq addımlarını, mövqelərini, onun dünya birliyinə inteqrasiyasının prinsipial xəttini, əsas məqamlarını dəqiq müəyyən etmişdir. Onun beynəlxalq və regional xarici siyasət kursu Azərbaycanın geosiyasi maraqlarına müvafiq olaraq, həm region ölkələri ilə, həm də dünya dövlətləri ilə münasibətlərin praqmatik, ölçülüb-biçilmiş, düşünülmüş və

[27] Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Elektron külliyyat // http://heydaraliyev.preslib.az

balanslı siyasi strategiyasını formalaşdırmışdır. Xüsusən, Azərbaycanın malik olduğu enerji resurslarının, Qərblə Şərqi birləşdirən nəqliyyat-kommunikasiya imkanlarının və digər geosiyasi əhəmiyyətli üstünlüklərinin istifadəsində Heydər Əliyevin yürütdüyü prinsipial kurs, tətbiq etdiyi optimal yanaşma dünya dövlətləri içərisində Azərbaycanın güclü milli və regional faktora çevrilməsini, beynəlxalq aləmlə uğurlu inteqrasiyasını və əksər geosiyasi aktorlarla qarşılıqlı-faydalı əməkdaşlığını şərtləndirmişdir. Heydər Əliyev tərəfindən düzgün təməli qoyulmuş xarici siyasət kursu 2011-ci ol oktyabrın 24-də Azərbaycana dünyanın 150-dən çox ölkəsinin dəstəyini qazandırmış və BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsinə şərait yaratmışdır. Bu addım, həm də keçən müddətdə Heydər Əliyevin uzaqgörən siyasətinin ağıllı, səriştəli və dönmədən həyata keçirilməsinin nəticəsi idi.

Göründüyü kimi, Azərbaycan Prezidenti kimi Heydər Əliyevin 1993-2003-cü illərdə irəli sürdüyü ideya və fikirlər, iqtisadi, siyasi və sosial-mənəvi sahədə reallaşdırdığı kurs və praktiki tədbirlər milli inkişaf siyasətinin formalaşması və həyata keçirilməsinin ikinci mərhələsində ölkədə bir ictimai-siyasi sistemdən digərinə keçidin, yeni demokratik cəmiyyətin və ictimai həyat normalarının əsaslarını yaratmışdır. Bu siyasət bütün keçid dövrü ərzində imperiya və sosializm sistemindən azad olaraq müstəqillik yolu tutmuş, lakin region və dünya güclərinin üst-üstə düşməyən, kəsişən maraqları ilə üz-üzə qalmış, getdikcə qloballaşan dünyada öz yerini axtaran, milli maraqlarını və təhlükəsizliyini qorumağa çalışan gənc Azərbaycan dövləti üçün praktiki fəaliyyət proqramına çevrilmişdir.

Heydər Əliyevin milli inkişaf siyasəti həm də uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiqində mühüm, səfərbəredici funksiya yerinə yetirmiş, dövlət strukturlarının rəsmi və praktiki

fəaliyyətinin, həyata keçirilən iqtisadi-siyasi, hüquqi və sosial-mənəvi proqramların əsasında dayanmışdır. Çünki, Azərbaycana rəhbərlik etdiyi dövrdə, o, təkcə müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi, onun müstəqilliyinin dönməzliyinin təmin olunması və dövlətçilik atributlarının formalaşdırılması ilə deyil, mütəxəssislərin fikrinə görə, həm də, Azərbaycan xalqının dövlətçilik ənənələrinin qədim köklərinin üzə çıxarılması və müasir tarixi dəyərlərlə birləşdirilərək milli şüurun bərpa olunması sahəsində əvəzsiz rol oynamışdır.[28]

Heydər Əliyev yeni şəraitdə etnik mənsubiyyəti xüsusi qabartmadan birləşdirici **azərbaycançılıq ideyasının** – ümumvətəndaşlıq, Azərbaycana mənsubluq, Vətənə bağlılıq, Azərbaycan dilinə və mədəniyyətinə sevgi, dövlətin sevinci və kədəri, dəyərləri və problemləri qarşısında ümumi və bərabər məsuliyyət hissi daşımaq kimi yeni konfiqurasiyanın - Azərbaycanın müstəqil dövlətçiliyi üzərində qurulmuş milli inkişaf siyasətinin ideoloji əsaslarını ortaya qoydu. Həm də xüsusi qeyd olunmalıdır ki, Heydər Əliyev daxili siyasətində vətəndaşların vahid amal və məqsəd ətrafında birləşdirilməsi istiqamətində addımlarını etnik-milli müstəvidən dövlətçilik və vətənpərvərlik müstəvisinə ustalıqla və mükəmməl formada keçirərək, respublikanın əsas vətəndaşları olan türk kökənli çoxluqla digər milli azlıqların, etnik qrupların birliyinə nail ola bildi. Bu baxımdan, tədqiqatçı alim Səlahəddin Xəlilovun fikri ilə razılaşmamaq mümkün deyil ki, Heydər Əliyev milli ideologiyamızın əsasını müəyyənləşdirməklə bərabər, bilavasitə onun həyata keçirilməsini də təmin edirdi ki, bu da onun dövlət başçısı olmasından əlavə, həm də milli lider kimi üzərinə götürdüyü missiyaya necə böyük məsuliyyətlə yanaşmasına dəlalət edirdi.[29]

[28] Bax: Xəlilov S.S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi // Heydər Əliyev və Azərbaycan. Bakı, 2008.s.571

[29] Bax: Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001, s. 87

Heydər Əliyev Azərbaycanda əksər vətəndaşları vahid amal, ideya və məqsəd ətrafında birləşdirəcək milli ideologiya məsələsini ümumdövlət səviyyəsinə qaldırıldı. Bir faktı xüsusi vurğulamaq lazımdır ki, başqa sahələrdə olduğu kimi, milli-ideoloji baxışlar sisteminin formalaşması prosesində də Azərbaycan Xalq Cümhuriyyətinin varislik prinsipi saxlanıldı və vaxtilə məhz onun birləşdirici ideya kimi irəli sürdüyü "azərbaycançılıq" ideologiyasına müraciət edildi. Milli ideologiya Azərbaycanın tarixi keçmişi, onun millət və xalqlarının adət-ənənələri, dövlətçiliyinin dünəni, bu günü və gələcəyi ilə sıx şəkildə əlaqələndirildi. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşlarının, ölkənin istiqlaliyyətini dəstəkləyən insanların vahid dövlətçilik ətrafında birləşdirilməsi üçün ciddi iş aparıldı. Cəmiyyətdə hakim olan istiqlal arzusu, azərbaycançılığın müstəqil ölkənin bütün əhalisinin ali ideologiyasına çevrilməsi, ümummilli birliyin təmin olunması zərurəti tezliklə ictimai-siyasi, elm, yaradıcı və digər ziyalı dairələrinin gündəminə çıxarıldı. Azərbaycançılıq ideyasına tamamilə yeni məzmun verildi və bu ideya ölkənin milli-etnik xüsusiyyətlərinə, müasir inkişafının tələblərinə və dünyanın yeni şəraitinə uyğunlaşdırıldı. Bütün bunları nəzərə alaraq, Heydər Əliyevi həm də müasir azərbaycançılıq ideologiyasının - dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan yeni milli təlimin banisi hesab etmək olar.[30]

Heydər Əliyev azərbaycançılıq ideyasını bütöv bir xalqın – bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin vahid **milli birlik platformasına** çevirdi. Əgər Heydər Əliyevə qədər bu ideya əsasən etnolinqvistik, etnoqrafik, ədəbi, mədə-

[30] Bax: Mehdiyev R.Ə. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi //"Azərbaycan" qəzeti, 26 may 2011

ni-estetik, fəlsəfi və mənəvi dəyər kimi mövcud idisə, onun dövründə ciddi sosial-siyasi məzmun kəsb edərək ümumi və birləşdirici ideyalar sisteminə - dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevrildi.[31]

Heydər Əliyev üçün azərbaycançılıq ideologiyasının mahiyyətini təşkil edən əsaslardan biri milli-mənəvi dəyərlərin - ana dilinin və milli mədəniyyətin, tarixi keçmişimizdən bizə irs qalmış milli varlığımızın, azərbaycanlıları tanıdan və fərqləndirən bütün atributların qorunması və inkişaf etdirilməsi idi.

Heydər Əliyev Azərbaycanı müasir, inkişaf etmiş, xalqın maddi - mənəvi tələbatını təmin edə bilən, daxili həyatı sabit, milli birliyə qovuşmuş bir dövlət kimi görmək istəyirdi. Bununla bağlı o, qeyd edirdi ki, bizim milli ideologiyamızın konsepsiyası tarixi keçmişimizi, milli adət-ənənələrimizi, dilimizi, dinimizi və mədəniyyətimizi əks etdirmək və yaşatmaqla bərabər, həm də bu dəyərləri müasir dünyanın qazandığı yeniliklər və təcrübə əsasında zənginləşdirməyə və inkişaf etdirməyə xidmət etməlidir. *"Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!"*.[32] Bu ifadələr ümummilli liderimizin milli-mənəvi dünyasını, vətəndaşlıq mövqeyini göstərən, öz milli köklərinə bağlılığını sübut edən və həm də böyük milli səfərbəredici gücü olan tarixi bir bəyanat idi. Müasir Azərbaycanın mürəkkəb və taleyüklü tarixi dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini üzərinə götürmüş Heydər Əliyevin yaratdığı müstəqil dövlət və onun milli inkişaf strategiyası ölkəmizin bugünkü varlığının və gələcək geosiyasi inkişafının əsasını təşkil edir.

[31] Daha ətraflı bax: Vəliyeva S.M. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi. Məsələnin qoyuluşuna dair. Bakı, 2002

[32] Bax: 9-10 noyabr 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayında Heydər Əliyevin nitqi // Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı, 2002, s. 25

Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi, Heydər Əliyevin indiyə qədər toplanmış nəzəri-siyasi irsi müstəqil Azərbaycan dövlətinin əsasları və milli inkişafı haqqında zəngin mənbəşünaslıq bazası, bitkin bir təlim hesab olunur. Bu təlimin bir çox tezisləri 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı onun ölkə ziyalılarına ünvanlanmış müraciətində, həmin partiyanın yeni qəbul edilmiş məramnaməsində, digər hissəsi isə 1993-2003-cü illərdə onun prezidentlik fəaliyyəti dövründə qəbul edilmiş ayrı-ayrı dövlət proqramlarında, səsləndirdiyi fikir və mülahizələrdə, çıxışlarında, ortaya qoyduğu nəzəri-siyasi ideyalarda öz əksini tapmışdır. Mütəxəssislərin fikrinə görə, Heydər Əliyevin dövlət həyatının müxtəlif sahələri və yürüdülən siyasətin ayrı-ayrı məqamları ilə bağlı söylədiyi fikirlər, səsləndirdiyi tezislər, əslində, Azərbaycanın vahid milli inkişaf konsepsiyası, milli ideologiyası, müasir Azərbaycanın sosial idealı, milli-fəlsəfi dünyagörüşüdür, ölkənin real gerçəkliyinin, ictimai-siyasi və mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl elmi-nəzəri sistem və dövlət quruculuğu təlimidir.[33] Heydər Əliyevin ayrı-ayrı çıxışlarında dövrün ictimai-siyasi xarakteristikası, Azərbaycanda həyata keçirilən müstəqil dövlət quruculuğunun tələbləri, şərtləri və yolları, regionumuzda və beynəlxalq aləmdə baş verən hadisələr və geosiyasi proseslərin xüsusiyyətləri və onların Azərbaycanın daxili, regional və beynəlxalq vəziyyətinə təsiri, 1990-cı ilin əvvəllərində ölkənin düçar olduğu iqtisadi-siyasi böhranın təhlili, mövcud vəziyyətdən çıxış yolları və s. kimi taleyüklü strateji məsələlər özünün həqiqi cavabını tapmışdır.

Heydər Əliyevin milli inkişaf siyasətinin əsas xarakterik xüsusiyyətlərindən biri Azərbaycanda daxili inkişafın təkamül yolunun seçilməsi, bütün sahələrdə - hüquqi dövlət quruculu-

[33] Bax: Xəlilov S.S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi...

ğu, bazar iqtisadiyyatına, çoxmülkiyyətçiliyə və azad rəqabətə keçid, demokratiya və siyasi plüralizmin yaradılmasında inqilabi yanaşmadan qaçması və təkamül prinsipini tətbiq etməsi idi. O, öz çıxışlarında daim vurğulayırdı ki, dövlət həyatında heç nəyə birdən-birə nail olmaq mümkün deyil. Nə iqtisadi, siyasi, sosial-mədəni inkişafa, nə də ki, demokratiya, vətəndaş cəmiyyəti və siyasi plüralizmə bir-iki gündə çatmaq olmaz. Bunun üçün uzunmüddətli ciddi təşkilati işlər görülməlidir, milli inkişaf resursları səfərbər edilməlidir, daxili idarəçilikdə, insanların şüurunda dəyişiklik edilməlidir. Bütün bunları heç bir inqilabla etmək mümkün deyil, bunu yalnız təkamül yolu ilə, tədricən həyata keçirmək olar**.**[34]

Göründüyü kimi, Heydər Əliyevə görə milli inkişafa təkamül yolu ilə, ciddi və uzunmüddətli praktiki işlərlə yanaşı, həm də milli şüurun formalaşması yolu ilə nail olmaq mümkündür. Heydər Əliyev qeyd edirdi ki, bir ölkədə hətta inqilabi dəyişikliklər belə köhnə sistemi dərhal dəyişdirmir, onu yeni bir sistemlə əvəz etmir, inqilab köhnəni vurub dağıdır, ancaq ondan fərqli sistem yaratmaq üçün müəyyən vaxt və illər lazımdır.[35]

Heydər Əliyevin milli inkişaf sahəsində atdığı addımların, həyata keçirdiyi tədbirlərin əvvəlcədən elmi-siyasi təhlili, onun müsbət və mənfi tərəflərinin ölçülüb-biçilməsi, nəticələrinin proqnozlaşdırılması, ardıcıl və məqsədyönlü olması da siyasətşünasların diqqətini cəlb etmişdir. Bu xüsusiyyət özünü, xüsusən, Azərbaycanın daxili və xarici siyasətinin, milli təhlükəsizliyinin, hərbi quruculuğunun proqramlaşdırılması və yerinə yetirilməsində, iqtisadi-siyasi və sosial proqramların qəbulunda göstərmişdir.

[34] Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Elektron külliyyat, http://heydaraliyev.preslib.az

[35] Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Elektron külliyyat, http://heydaraliyev.preslib.az

Mütəxəssislər Heydər Əliyevin dövlətçilik və milli inkişaf nəzəriyyəsinin ən böyük yeniliklərdən biri kimi, onun sosial sistemləri dağıdıb yenidən vaxt və qüvvə sərf etmədən, öz daxili enerjisi hesabına dəyişdirərək, proseslərin təbii gedişini istiqamətləndirmək taktikasını xüsusi qeyd edirlər. Bu taktikanı reallaşdırarkən əsas məsələ mürəkkəb proseslərə müxtəlif rakurslardan yanaşmaq qabiliyyəti idi. Heydər Əliyevin milli inkişaf siyasətində ictimai davranış və əxlaq normaları cəmiyyət üçün kənar təsirlər vasitəsilə deyil, məhz daxildən - ictimai şüurun həmahəng formada yetişməsi yolu ilə tətbiq olunurdu.[36]

Heydər Əliyev müstəqillik dövrünün 1993-2003-cü illəri əhatə edən keçid mərhələsində Azərbaycanın milli inkişaf siyasətinin həm nəzəri əsasını qoydu, həm də onu praktiki şəkildə reallaşdıraraq dövlət müstəqilliyinin dönməzliyini təmin etdi.

Heydər Əliyevin milli inkişaf təlimi Azərbaycandakı bütün sonrakı proseslərin təməlində dayanır və bundan sonra da dayanacaqdır. Onun Azərbaycan xalqının dövlətçilik ənənələrinə söykənərək 1993-cü ildə müəyyənləşdirdiyi siyasi kurs, əsasını qoyduğu demokratik və hüquqi dövlət idarəçiliyi forması 1995-ci ildə qəbul olunmuş yeni Konstitusiyaya daxil edilmiş və 2003-cü ilə qədər ulu öndərin özü tərəfindən həyata keçirilmişdir. Təsadüfi deyil ki, 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Heydər Əliyevin müəyyənləşdirdiyi və 1993-2003-cü illərdə həyata keçirdiyi milli inkişaf siyasətinin heç bir alternativi olmadığını, bu strateji inkişaf kursunun bundan sonra da dönmədən davam etdiriləcəyini birmənalı şəkildə bəyan etmişdir.[37]

Göründüyü kimi, Heydər Əliyevin dövlətçilik kursu və milli inkişaf siyasəti, xüsusən onun təməl prinsipləri, nəzəri-

[36] Bax: Xəlilov S.S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi...

[37] Bax: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri, və bəyənatları //http://files.preslib.az/site/ialiyev/2003

siyasi məsələləri bütün keçid dövrü üçün Azərbaycanın əsas inkişaf strategiyası olmuş, 2003-2011-ci illərdə dövrün, zamanın və respublikanın müasir inkişafının yeni tələbləri də əlavə olunaraq, Prezident İlham Əliyev tərəfindən dönmədən həyata keçirilmişdir.

Hazırda Azərbaycan Respublikası bir çox sahələrdə, xüsusən, iqtisadi sferada keçid dövrünü başa vurmuşdur. Respublikanın sonrakı onilliyini hədəfə alan yeni inkişaf konsepsiyasının yaradılmasına ciddi ehtiyac yaranmışdır. Heç kimdə şübhə yoxdur ki, yeni inkişaf konsepsiyası da Azərbaycanın milli inkişafının Heydər Əliyev tərəfindən müəyyən olunmuş əsas təməl prinsiplərini mütləq şəkildə nəzərə alacaq və davam etdirəcəkdir.

Mütəxəssislər hesab edir ki, Heydər Əliyev dühasının fövqəladəliyi həm də onda idi ki, o, təkcə öz dövrünün nəbzini tutmaqla məhdudlaşmadı, ölkənin ictimai-siyasi, sosial-iqtisadi inkişafının birinci fazasından uğurla çıxarmaq missiyasını başa vurdu və bununla kifayətlənməyərək, vaxtında ikinci fazanın təməl daşını qoydu, bu mərhələdə ölkəyə rəhbərlik edə biləcək yeni siyasi güc mərkəzini yaratdı... Bəzi qonşu ölkələrdən fərqli olaraq Azərbaycan yeni iqtisadi sistemin üstqurumu kimi ortaya çıxan siyasi dünyagörüşü və yeni siyasi lideri müxalifətdə deyil, iqtidar partiyasının içərisində yetişdirdi. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyevin siyasi kursunu davam etdirməklə yanaşı, həm də onu yeni şəraitin tələblərinə uyğun surətdə, yaradıcılıqla inkişaf etdirir.

Hazırda respublika öz inkişafının keçid dövrünü başa vuraraq, sosial-iqtisadi, mənəvi və s. sahədə yeni mərhələyə qədəm qoymaqdadır. Keçən illərdə Azərbaycan bütün sahələr üzrə Heydər Əliyevin milli inkişaf siyasətini uğurla həyata keçirərək, nəzərə çarpacaq nailiyyətlər qazanmışdır. İctimai-siyasi həyatın demokratikləşməsi, vətəndaş cəmiyyəti quruculuğunun, siyasi plüralizmin getdikcə dərinləşməsi, iqtisadi

həyatın liberallaşması, sahibkarlıq institutlarının yaradılması və sahibkar təşəbbüskarlığına söykənən iqtisadiyyat modelinin bərqərar olması, iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsi və s. göstəricilər Azərbaycanın gələcək inkişafı üçün geniş imkanlar açmışdır. Müşahidə olunan dayanıqlı inkişaf həm də hakimiyyət qarşısında yeni, uzunmüddətli Milli İnkişaf Konsepsiyasının yaradılması və həyata keçirilməsi vəzifəsini irəli sürmüşdür.

Azərbaycanın ictimai, siyasi, iqtisadi, mədəni həyatının bütün sahələrində əldə etdiyi uğurlar Prezident İlham Əliyevə qarşıdakı dövrdə Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-ideoloji transformasiyasının yeni mərhələsinin təməlini qoymaq və milli inkişafın növbəti on ilinin vəzifələrini müəyyənləşdirmək imkanı yaratmışdır. Azərbaycan dövləti bütün sahələrdə nail olunan müvəffəqiyyətlərlə kifayətlənməyərək, Qərbin inkişaf etmiş ölkələrinin standartları səviyyəsinə yüksəlməyi və müasir bir ölkəyə çevrilməyi hədəfə almışdır.

Yeni mərhələnin əsas hədəfi, bir tərəfdən əldə olunmuş iqtisadi, siyasi, sosial və mədəni nailiyyətləri möhkəmləndirmək, ölkəni müasir tələblər səviyyəsinə qaldırmaq, digər tərəfdən isə gələcək liberal, çoxşaxəli, rəqabətədavamlı, dinamik və innovasiya yönümlü milli iqtisadiyyatın formalaşdırılması, iqtisadi və insan resurslarının düzgün istifadə edilməsi, ictimai və sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi, sosial sahədə optimal, səmərəli və ədalətli inkişaf modelinin yaradılması, əhalinin rifahının qabaqcıl beynəlxalq standartlara çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında tətbiqi istiqamətlərin inkişaf etdirilməsi, ictimai həyatın bütün sahələrində yeni nailiyyətlərin əldə olunması və s. ibarət olmalıdır.

Azərbaycanın gələcək milli inkişaf siyasətinin əsas və uzunmüddətli perspektivləri ilə bağlı vahid konsepsiyanın hazırlanması, strateji inkişafın gələcək istiqamətlərinin, prinsip və vəzifələrinin müəyyənləşdirilməsi müasir Azərbaycan döv-

lətinin qarşısında dayanan əsas vəzifələrdən biri hesab olunur. 29 noyabr 2011-ci ildə «Azərbaycan 2020: gələcəyə baxış» Milli İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin xüsusi Sərəncamı məhz bu məsələni qarşıya vəzifə kimi qoyur. Sərəncamda qeyd olunur ki, son dövrdə Azərbaycan Respublikasında milli dövlət quruculuğu istiqamətində həyata keçirilən islahatlar, reallaşdırılan çoxsaylı xüsusi dövlət proqramları və s. ölkə həyatının bütün sahələrində müsbət nəticələrin əldə olunmasına şərait yaratmışdır. Bu illər ərzində, xüsusilə son onillikdə Azərbaycanda makroiqtisadi sabitliyə, dinamik iqtisadi artıma nail olunmuş, yoxsulluğun azaldılmasında və əhalinin sosial rifahının yüksəldilməsində ciddi uğurlar qazanılmışdır.

Ölkə prezidenti bu sərəncamda Azərbaycanın perspektiv inkişafının əsas hədəf və istiqamətlərinin müəyyən edilməsi məqsədi ilə müvafiq dövlət orqanlarının, elmi təşkilatların və yüksək ixtisaslı mütəxəssislərin iştirakı ilə, 2020-ci ilədək dövrü əhatə edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanmasını Administrasiyası qarşısında mühüm bir vəzifə kimi qoymuşdur.

Sərəncamda həmçinin yeni Milli inkişaf Konsepsiyasının yaradılması sahəsində qabaqcıl dünya təcrübəsindən yararlanmaq, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və digər beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq etmək kimi tapşırıqlar verilmiş, bu işdə vətəndaş cəmiyyəti təsisatlarının iştirakının, habelə layihənin açıq müzakirəyə çıxarılması üçün müvafiq tədbirlərin görülməsinin vacibliyi qeyd edilmişdir.[38]

Beləliklə, bu gün Azərbaycanda ümummilli lider Heydər Əliyevin irsi, müəyyən etdiyi milli inkişaf siyasəti yaşayır və ardıcıl olaraq, yaradıcı surətdə, müasir dövrün tələbləri, reallıqları nəzərə alınmaqla uğurla davam etdirilir.

[38] Bax: “Azərbaycan” qəzeti, 30 noyabr, 2011. N264, s. 1

§ 2.2. Azərbaycan Respublikasının milli inkişaf siyasətinin əsas prinsipləri, vəzifələri və tələbləri

Milli inkişafın bilavasitə dövlətin daxili ictimai-siyasi, sosial-iqtisadi və beynəlxalq vəziyyəti ilə bağlı olduğunu nəzərə alsaq, müstəqilliyini bərpa etdiyi gündən Azərbaycanın qarşısında dayanan əsas vəzifələrdən biri öz Milli İnkişaf Konsepsiyasını və ona uyğun olaraq dövlətin praktiki fəaliyyət strategiyasını yaratmaq, daxili-xarici siyasətini, onun istiqamətlərini, prioritetlərini və hədəflərini müəyyənləşdirmək, milli dövlət quruculuğu prosesinin həyata keçirilməsi mexanizmlərini formalaşdırmaq və təmin etməkdən ibarət idi.

Azərbaycanın milli inkişaf siyasətinin konseptual əsaslarını, başlıca prinsiplərini, strateji vəzifə və tələblərini də müstəqil dövlətin qurucusu Heydər Əliyev müəyyənləşdirmiş, 1993-2003-cü illərdə dönmədən həyata keçirmişdir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

Güclü dövlət və səmərəli dövlət idarəçiliyi

Siyasətşünaslıq elmində milli inkişafın əsas tələblərindən biri güclü dövlətin qurulması, müvafiq ölçüləri ilə onun iqtisadi, siyasi, sosial-mənəvi əsaslarının yaradılması, ölkənin siyasi sisteminin və dövlət idarəçiliyinin səmərəli və ahəngdar işinin təmin edilməsi hesab olunur.

Mütəxəssislər hesab edir ki, Heydər Əliyevin milli inkişaf siyasətində güclü dövlət prinsipi həmişə önəmli yer tutmuşdur. Onun dövlət quruculuğundakı əsas xidmətlərindən biri məhz ölkənin bütün sağlam qüvvələrini, əksər vətəndaşları, ictimai-siyasi dairələri səfərbər edərək güclü dövlət strukturu yaratmasında, müstəqilliyin, daxili ictimai-siyasi sabitliyin real təminatçısı ola biləcək dinamik dövlət maşını qurmasında idi.

Səmərəli və güclü dövlət, səmərəli dövlət idarəçiliyi anlayışını – siyasi ədəbiyyatda təkmil mərkəzi və yerli idarəetmə mexanizmi, sabit ictimai-siyasi həyatı, işlək və hamı tərəfindən əməl olunan qanunları, ədalətli cəmiyyəti olan, insanların etimadını qazanan, ehtiyaclarını dəyərləndirən, qabiliyyətinə görə hər kəsi ictimai-siyasi, iqtisadi və mədəni proseslərə cəlb edən, milli və vətəndaş birliyinə söykənərək, siyasi-hüquqi idarəçilik institutu funksiyasını yerinə yetirən ölkələrə aid edirlər.

Bundan başqa, müasir dövrün tələbləri çərçivəsində güclü və səmərəli dövlət həm də azad, ədalətli, demokratik dəyərlərin bərqərar olduğu, siyasi plüralizm və siyasi fəaliyyət azadlığının hökm sürdüyü, bütün vətəndaş hüquqlarının dolğun təmin edildiyi cəmiyyətlərə şamil edilir.

Azərbaycanda Heydər Əliyevin formalaşdırdığı milli inkişaf siyasətinin əsas prinsiplərindən sayılan sabit və güclü mərkəzi dövlət idarəetmə sisteminin qurulması, həm də yuxarıda sadalanan əksər vəzifə və tələblərə əməl edilməsini nəzərdə tuturdu. Bundan başqa, güclü dövlət və səmərəli dövlət idarəçiliyi ölkənin vahid mərkəzdən idarə edilməsini, mərkəzi icra hakimiyyəti orqanları ilə regional və yerli idarəçilik strukturları arasında möhkəm rabitənin yaradılmasını da ehtiva edirdi.

İctimai-siyasi sabitliyin yaradılması və qorunması

Azərbaycanın milli inkişafının mühüm şərtlərindən və amillərindən biri kimi, Heydər Əliyev daxili ictimai-siyasi sabitliyin yaradılması, davamlı olaraq təmin edilməsi və qorunması vəzifəsini irəli sürürdü. Heydər Əliyev daim vurğulayırdı ki, ictimai-siyasi həyatı sabit, iqtisadiyyatı güclü və vətəndaş birliyi olan dövlətlər hər şeyə qadirdir.[39]

39 Bax: Əliyev. H.Ə. Müstəqilliyimiz əbədidir... http://heydaraliyev.preslib.az

Dünya siyasətşünasları dövlətin həyatında ictimai-siyasi sabitliyi milli inkişafın ən vacib daxili vəzifəsi hesab edir və cəmiyyətlərin sağlam həyat tərzini, ictimai həyat normalarının dönməzliyini, sabit idarəçiliyi, qanunçuluğu, vətəndaş birliyi və milli həmrəyliyi, ölkənin regional geosiyasi və beynəlxalq təhlükəsizlik vəzifələrinin dolğun və davamlı təminatını məhz dövlətin daxili ictimai-siyasi həyatının sabitliyi və iqtisadiyyatının dinamik inkişafı ilə əlaqələndirirlər.

Heydər Əliyev 1993-cü ildən etibarən Azərbaycanda dövlət quruculuğu sahəsində həyata keçirdiyi bütün tədbirlərdə ilk növbədə daxili ictimai-siyasi sabitliyin qorunması, milli-vətəndaş birliyinin və iqtisadi inkişafın təmin edilməsi vəzifələrini irəli sürür, dövlətin zəruri ehtiyaclarının və əhalinin sosial-iqtisadi tələbatının ödənilməsi kimi məsələləri daim diqqətdə saxlayırdı.

İctimai-siyasi sabitliyin yolu o dövrdə Azərbaycanda güclü dövlət, sosial ədalət və milli həmrəyliyə söykənən daxili siyasətin yürüdülməsindən, milli inkişaf maraqlarının bütün ictimai-siyasi dairələrin, milli-etnik qrupların düşüncəsinə hakim kəsilməsindən keçirdi. Odur ki, Heydər Əliyev ölkədə sosial ədalətin yaradılmasını, hər bir vətəndaş üçün bərabər hüquq və azadlıqların tanınmasını, hüquqi normalar və qanunçuluğun möhkəmləndirilməsini, ölkədaxili mənfi hallarla ciddi mübarizə aparılmasını, demokratiya və siyasi plüralizm prinsiplərinin cəmiyyətdə geniş tətbiq edilməsini, dövlət idarəçiliyinin, hakimiyyətin fəaliyyətinin şəffaflaşdırılması və möhkəm ümumxalq hakimiyyətinin formalaşdırılmasını Azərbaycanın daxili ictimai-siyasi həyatının əsas prinsipləri kimi elan edərək, onlara dönmədən əməl olunmasını tələb edirdi.

Çevik iqtisadi siyasətin yürüdülməsi və iqtisadi inkişafa nail olunması

Dünyada hər bir ölkənin əsas göstəricisi və gücü ilk növbədə onun iqtisadi vəziyyəti ilə ölçülür. Müasir iqtisadçılar iqtisadi inkişafın ən təkmil forması, dinamik və davamlı inkişafa ən çox şərait yaradan modeli kimi azad sahibkarlığa söykənən bazar iqtisadiyyatı modelini qəbul edirlər.

Heydər Əliyev hakimiyyəti dövründə Azərbaycanın iqtisadi inkişaf siyasətinin əsas vəzifələri və prinsipləri müəyyən edildi və dönmədən həyata keçirilməyə başlandı. Bu prinsiplər birincisi, milli inkişaf resurslarının və mövcud iqtisadi imkanların düzgün dəyərləndirilməsi, səfərbər və idarə edilməsini, ikincisi ölkədə azad sahibkarlığın formalaşması, bazar iqtisadiyyatı mexanizmlərinin yaradılması və inkişafını, üçüncüsü isə qabaqcıl dünya iqtisadiyyatına inteqrasiya xəttinin dönmədən həyata keçirilməsini nəzərdə tuturdu.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə 1993-cü ildən Azərbaycanda başlanmış milli inkişaf resurslarının səfərbər edilməsi və inkişafa yönəldilməsi, sahibkarlığın, mülkiyyət çoxnövlüyünün və müxtəlifliyinin dəstəklənməsi, liberal bazar iqtisadiyyatı istiqamətində iqtisadi və sosial islahatların həyata keçirilməsi, Avropanın qabaqcıl və inkişaf etmiş ölkələri ilə hərtərəfli iqtisadi əməkdaşlıq və tərəfdaşlıq xəttinin yürüdülməsi bir tərəfdən ölkənin dinamik və davamlı inkişafının əsasını qoydu, digər tərəfdənsə onun gələcəyi ilə bağlı dünyada nikbin ovqat yaradaraq, beynəlxalq aləmlə iqtisadi inteqrasiyasını sürətləndirdi.

Vətəndaş birliyi və cəmiyyətin bölünməzliyi prinsipi

Dünya siyasət elmində dövlətin gücü və qüdrəti təkcə onun əhalisinin sayı, iqtisadi, hərbi gücü, böyük və kiçik əra-

ziyə, təkmil və səmərəli dövlət hakimiyyətinə malik olması, yaxud özünü sosial-iqtisadi cəhətdən təmin etməsi, xarici aləmdən minimal asılılığı və s. ilə deyil, həm də ölkədaxili milli-vətəndaş birliyinin vəziyyəti, ölkənin ərazisində yaşayan əhalinin milli, dini və sosial mənsubiyyəti, vətəndaşların dövlətçiliyə bağlılıq dərəcəsi, dövlətçilik təfəkküründün səviyyəsi, dövlətin idarə olunmasında, ölkənin iqtisadi, sosial, mədəni həyatındakı iştirakı, idarə edənlərlə idarə olunanların, dövlət qurumları ilə xalqın yekdilliyi ilə ölçülür. Bu anlamda hər bir dövlətin xarici və daxili təhlükələrə qarşı müqaviməti, ictimai-siyasi həyatının dayanıqlılığı və yekdilliyi həm də vətəndaşlar arasındakı bağlılıqdan, vətəndaşlarla dövlət arasındakı birliyin vəziyyətindən asılıdır.

Təcrübə göstərir ki, o ölkələrdə ki, vahid vətəndaşlıq prinsipi üzrə milli-etnik, dini və sosial ayrı-seçkiliyə yol verilmir, ölkə vətəndaşlarının sosial, dini, milli ehtiyacları maksimum dərəcədə təmin edilir, milli-mənəvi dəyərləri qorunur - orada ictimai-siyasi həyat sabit, vətəndaş birliyi möhkəm olur, daxili həyatda milli-etnik, dini qruplar arasında sülh və tolerantlıq hökm sürür. Əksər inkişaf etmiş dünya ölkələrində bu sahədə həyata keçirilən mütərəqqi milli, sosial siyasət və praktiki fəaliyyət həmin ölkələrin milli inkişafının və dövlət strategiyasının vacib daxili elementi hesab olunur. Çünki ölkədaxili milli və sosial birliyin yaradılması, vətəndaş sülhünə nail olunması, əsassız siyasi, etnik, sosial qarşıdurmalar nəticəsində yaranan gərgin daxili sosial-siyasi vəziyyətin aradan qaldırılması ölkənin həm qüdrətini, həm də xarici geosiyasi müdaxilələlərə qarşı müqavimət gücünü artırır.

1990-cı illərin əvvəllərində Azərbaycan cəmiyyətində yaranan ciddi milli, dini və vətəndaş qarşıdurması göstərdi ki, vətəndaş birliyinin qorunması və davamlı təmin olunması ölkənin strateji inkişaf və təhlükəsizlik siyasətinin ən əsas tələblərindən biridir. O dövrdə Azərbaycanda yaşayan müxtəlix xalqlar və

etnik qruplar, sosial-dini təbəqələr, dövlət idarəçilik sistemində işləyən məmurlar, milli elita və sadə vətəndaşlar, ictimai-siyasi dairələr, hakimiyyət uğrunda mübarizə aparan qüvvələr arasında etnik, siyasi və digər xarakterli qarşıdurma halları yaranmışdı. Bu da bilavasitə ölkənin milli inkişafını sarsıtmağa xidmət edirdi. Ən təhlükəlisi isə ondan ibarət idi ki, hakimiyyətə iddialı olan bəzi dairələr bilərəkdən, yaxud anlamadan milli inkişaf maraqları fonunda deyil, öz şəxsi siyasi iddiaları çərçivəsində hərəkət edərək, hakimiyyətə gəlmək yolunda ictimai-siyasi və milli-etnik qarşıdurmalardan bəhrələnirdilər. Bu da müvafiq olaraq, Azərbaycanın milli maraqlarını ayrı-ayrı siyasi düşərgələr arasında parçalayıb, xüsusi təhlükəli vəziyyət yaradırdı.

Həmin dövrdə siyasi sükan arxasına keçən Heydər Əliyevin ilk müraciətlərindən biri: "Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır. Respublikanın ərazisində yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalı... bütün demokratik prinsiplər, insan hüquqlarının müdafiəsi, siyasi plüralizm, söz azadlığı, vicdan azadlığı, dini etiqad azadlığı, millidini mənsubiyyətindən asılı olmayaraq vətəndaşların hüquqi bərabərliyi təmin edilməlidir"- çağırışı oldu.[40]

Heydər Əliyev milli və vətəndaş birliyi ideyasının reallaşdırılması və qorunmasını, mili adət-ənənələrin, tarixi və mənəvi dəyərlərin yaşadılmasını, ümumbəşəri dəyərlərlə zənginləşdirilməsini respublikada vahid milli kurs kimi həm dövlət orqanlarından, həm də siyasi, ictimai, elmi və geniş ziyalı institutlarından tələb edirdi. Odur ki, həm vətəndaş birliyi ideyası, həm də ölkənin insan ehtiyatlarından düzgün istifadə olunması, hər bir vətəndaşın özünü dövlətinə və dövlətçiliyinə bağlı

[40] Bax: Əliyev. H.Ə. Müstəqilliyimiz əbədidir... http://heydaraliyev.preslib.az

hesab etməsi, dövlətin isə hər bir vətəndaşa xidmət göstərməsi amalı müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyasına salındı.

Mütəxəssislər hesab edir ki, o illərdə Heydər Əliyev Azərbaycan vətəndaşlarının etnik milli duyğularını nəzərə almaqla, həm də məqsədyönlü şəkildə ictimai-siyasi özünüdərk hisslərinin, vətəndaşlıq və vətənpərvərlik duyğusunu formalaşdırılması kimi ciddi bir dövləti funksiyanı yerinə yetirərək, bütün ölkə vətəndaşlarını azərbaycançılıq platformasında birləşdirmişdir. Onun həmin dövrdə səsləndirdiyi "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!.., yaxud,- "Vətən birdir və hamı bu Vətən üçün çalışmalıdır!" çağırışı bu sahədəki fəaliyyətin əsas göstəricisi hesab oluna bilər.[41]

Milli iradəli, sağlam əqidəli vətəndaşların tərbiyə edilməsi və vahid milli ideya ətrafında birləşdirilməsi

Siyasət elmində dövlətin gücünü və geosiyasi qüdrətini həm də onun vətəndaşlarının milli və dövlətçilik iradəsi, lazım gələndə öz dövləti və dövlətçiliyi ətrafında səfərbərolunma bacarığı ilə qiymətləndirirlər. Buna misal olaraq tarixdə XVll əsrin əvvəllərində, rus dövlətçiliyinin xarici basqınlar nəticəsində ciddi təhlükə qarşısında qaldığı zaman xalqın içərisindən çıxmış Minin və Pojarski adlı iki sadə vətəndaşın çağırışına səs verən on minlərlə vətənsevərin öz dövlətçiliyini qoruması və yaşatmaq əzmi nümayiş etdirməsini, yaxud XX əsrin əvvəlində Osmanlı imperiyasının dağılmasının qaçılmaz olduğu dövrdə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə səfərbər olunan və ayağa qalxan türk xalqının ölüm-dirim müharibəsində Türkiyəni biabırçı süqutdan xilas etməsini və s. nümunə göstərmək olar. Tarixdə xalqların milli iradəsi və əzminin geosiyasi güc

[41] Bax: Xəlilov S.S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi..s.573.

resursu kimi özünü göstərməsi və neçə-neçə dövlətləri iflasdan xilas etməsi halları yetərincə baş vermişdir.

Azərbaycanda milli iradə və vətəndaş əzmkarlığından geosiyasi güc və milli müqavimət vasitəsi kimi ilk dəfə Heydər Əliyev istifadə etmişdir. O, öz xalqını səfərbər edərək, onun milli iradəsinə söykənərək ölkəni çoxsaylı ciddi xarici və daxili təhlükələrdən, sarsıntılardan və məhvolmadan xilas etmişdir.

Heydər Əliyev qeyd edirdi ki, hər hansı dövlətin gücü heç də onun böyüklüyü, yaxud kiçikliyi ilə ölçülmür. Əgər ölkənin vətəndaşı gördüyü işin ona, ailəsinə və xalqına gətirəcəyi xeyri əvvəlcədən anlayır və ədalət prinsipi ilə zəhmətinin bəhrəsini alırsa, həmin ölkə vətəndaşları daha ideyalı, əzmli və iradəli, belə ölkələr isə daha güclü, qüdrətli və əzəmətli olurlar.[42]

Millətini və xalqını sevən, dövlətçiliyi yolunda hər bir şücaətə və fədakarlığa hazır olan, milli mənəvi dəyərləri qoruyan və yaşadan, ana dilini bilən və sevən, təhsilli, ədalətli, vətəni və xalqı üçün gərəkli, təşəbbüskar, qlobal və azad düşüncəli, iradəli, fəal mövqeli, ölkədaxili və beynəlxalq proseslərdən yetərincə baş çıxara bilən Azərbaycan vətəndaşı nümunəsi Heydər Əliyevin dövlət təlimi və milli ideyasında mühüm yerlərdən birini tuturdu.

Heydər Əliyev milli vətənpərvərlik hissinin yaradılması və inkişaf etdirilməsini, gənclərin vətənpərvərlik tərbiyəsini təkcə dövlət orqanlarının deyil, həm də ümumxalq işi kimi dəyərləndirirdi. O, dəfələrlə vurğulayırdı ki, hamımızın ümumi vəzifəmiz xalqımızda, yetişən gənc nəsil arasında vətənpərvərlik, torpağa, millətə sədaqət, Vətəni sevmək və yolunda şəhidliyə hazır olmaq hisslərini tərbiyə etmək, formalaşdırmaq və inkişaf etməkdən ibarətdir. [43]

[42] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir... http// heydaraliyev.preslib.az
[43] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir... http// heydaraliyev.preslib.az

Heydər Əliyev milli-vətəndaş birliyini, hərtərəfli inkişaf etmiş, iradəli və əzmkar vətəndaş idealını çox bacarıqla və ustalıqla ümumazərbaycançılıq ideyası ilə bağlayaraq, vahid amala döğru yönəltməyi bacarırdı. Tarixi təcrübə sübut edir ki, güclü birləşdirici ideyası olan insan birlikləri (xalqlar, millətlər, dini icmalar və s.) bu cür ideyaları olmayanlara həmişə qalib gəlmişlər. Müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafında, əbədi yaşadılmasında, geosiyasi dayanıqlığının və xarici aləmə qarşı müqavimət gücünün artırılmasında həmişə, xüsusən də tariximizin yeni dövründə birləşdirici, vahid milli ideyanın tapılması və onun əsasında milli iradənin formalaşdırılması, ölkə vətəndaşlarını səfərbər edən, beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında birləşdirən milli ideologiyanın yaradılması ciddi siyasi vəzifə kimi qarşıda dayanmışdır. XlX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycanın maarifçi ziyalıları, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin qurucuları və nəhayət, 1990-cı illərdə Heydər Əliyev azərbaycançılıq ideyasına müraciət edərək onu milli və birləşdirici təlimə çevirməyə çalışmışlar. Məhz son mərhələdə, Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinə rəhbərliyi dövründə - **azərbaycançılıq ideyası** məzmunca tamamlanaraq və zənginləşdirilərək, yeni konfiqurasiyada rəsmi dövlət siyasəti səviyyəsində ölkə vətəndaşlarının və bütün dünya azərbaycanlılarının birləşdirici və səfərbəredici milli ideyası statusuna qaldırıldı.

Heydər Əliyev azərbaycançılıq ideologiyasını müəyyən edərkən həm də beynəlxalq aləmdə cərəyan edən hadisələri, müasir dünya siyasətinin, qloballaşan və transmilliləşən dünyanın inkişaf meyillərini nəzərə alırdı. Əlbəttə, qloballaşan dünyada ölkələrin milli sədlərini, milli-mənəvi dəyərlərini, vətəndaşların milli maraqlarını qorumaq o qədər də asan olmur.

Transmilli şirkətlər və onların arxasında duran fövqəldövlətlər kiçik ölkələrin milli inkişaf yolunu və maraqlarını, milli-mənəvi dəyərlərini qorumasını və digər addımlarını çox qısqanclıqla qarşılayırlar. Heydər Əliyev bu reallıqları nəzərə alaraq bir tərəfdən, azərbaycançılıq ideologiyasını ümumbəşəri dəyərlər fonunda formalaşdırır, digər tərəfdən isə dövlət quruculuğu proseslərində xarici təsirləri milli ideologiya süzgəcindən keçirirdi.

Balanslı xarici siyasət və tarazlı daxili inkişaf

Mütəxəssislər hesab edir ki, Heydər Əliyevin milli inkişaf siyasətində əsaslandığı və keçid dövrü üçün dövlət quruculuğunda nəzərə alınmasını tələb etdiyi əsas vəzifələrdən biri balanslı xarici siyasət və tarazlı daxili inkişaf prinsipi idi. Məhz onun hakimiyyəti illərində Azərbaycanın xarici aləm üçün kəsb etdiyi maraqlar dairəsi, geosiyasi, geoiqtisadi və hərbi-geostrateji əhəmiyyəti elmi-siyasi cəhətdən öyrənildi və dəyərləndirildi, beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda üst-üstə düşən, kəsişən maraqlar dairəsi müəyyənləşdirildi, dövlətlərarası münasibətlərin və təhlükəsizlik mühitinin vəziyyəti, tələbləri, prinsipləri, beynəlxalq hüququn təsir gücü və dairəsi, dünyanın böyük dövlətlərinin, regionun aparıcı ölkələrinin və beynəlxalq təşkilatların Cənubi Qafqaz və Azərbaycanla bağlı yürütdüyü siyasət, yarana biləcək təhlükələr və s. məsələlər praqmatik formada təhlil edildi və balanslı xarici siyasət kursu formalaşdırıldı.[44]

[44] Daha ətraflı materiallara bax: Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti: əsas məqsədi, vəzifələri və icra mexanizmləri //Heydər Əliyev və inkişafın Azərbaycan modeli. Bakı, 2010, s.32-48

1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında Heydər Əliyev qeyd edirdi ki, "respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yürüdülməsidir... Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Bunun üçün dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmalı və inkişaf etdirməliyik, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməliyik".[45]

Azərbaycan dövləti Heydər Əliyevin rəhbərliyi altında 1993-cü ildən başlayaraq, müstəqil dövlət kimi dünya sistemindəki məxsusi yerini, beynəlxalq münasibətlər sahəsində təmsilçiliyinin strateji məqsədlərini və taktiki vəzifələrini, xarici aləmlə əlaqələrinin, xarici təhlükəsizlik siyasətinin konturlarını, prioritetlərini müəyyən etdi və özünün tarazlaşdırılmış xarici siyasət kursunun taktikasını müəyyənləşdirdi.

Heydər Əliyev, Azərbaycanın daxili ictimai-siyasi, iqtisadi, mənəvi, milli-etnik və dini həyatının tarazlı inkişaf modelini yaratmaqla yanaşı, həm də həlli prinsiplərini ortaya qoydu. Mütəxəssislərin fikrinə görə, Heydər Əliyev ölkə daxilində ümumi ahəngi pozmadan, etik-milli və milli-siyasi aspektlər arasında optimal nisbəti nəzərə almaqla, dövlətin təkamül yolu ilə inkişafına ciddi zəmin yaratdı və dövlətçilik probleminin ən əlverişli həlli yolunu ortaya qoydu. [46]

[45]Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, s. 16
[46] Bax: Xəlilov S.S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi..s.576-580.

Heydər Əliyev həm Azərbaycanın dövlət idarəçiliyinin qurulmasında, ölkədaxili ictimai-siyasi və milli-vətəndaş birliyinin yaradılmasında, sabitlik və qanunçuluğun bərqərar olmasında, iqtisadi, sosial, mədəni və s. islahatların aparılmasında tarazlı inkişafın, həm də respublikanı əhatə edən region və dünya dövlətləri ilə qarşılıqlı-faydalı münasibətlərin yaranmasında balanslı siyasətin pozulmasına heç zaman yol vermədən, Azərbaycanın fərqli daxili və xarici maraqlar müstəvisində öz müvazinətini lazımi səviyyədə qoruyub saxlanmasını təmin etmişdir.

III FƏSIL
AZƏRBAYCAN RESPUBLİKASININ MÜASİR GEOSİYASİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ: GEOSİYASİ STATUSU, VƏZİFƏLƏRİ VƏ PERSPEKTİVLƏRİ

§ 3.1. Azərbaycan Respublikasının inkişaf xüsusiyyətləri, əsas geosiyasi vəzifələri və perspektivləri

Postsovet məkanının, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın müasir geosiyasi xarakteristikasını, region ölkələrinin inkişaf tendensiyalarını və perspektivlərini qiymətləndirən əksər ekspertlər:

- əlverişli coğrafi, geosiyasi, geoiqtisadi, hərbi-geostrateji mövqelərini;
- yürütdüyü müstəqil daxili və xarici siyasətini;
- zəngin təbii ehtiyatlarını, maddi, mənəvi, əmək və insan resurslarını,
- Şərq-Qərb alternativ nəqliyyat-kommunikasiya, tranzit və enerji dəhlizlərinin yaradılması sahəsində yürütdüyü transmilli siyasəti və tutduğu düzgün mövqeyini;
- daxili ictimai-siyasi sabitliyi təmin etməsini, demokratik dövlət, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı quruculuğu prinsiplərini rəhbər tutmasını;
- son on ildə nail olduğu dinamik sosial-iqtisadi inkişafı və gələcək inkişaf potensialını nəzərə alaraq Azərbaycan Respublikasını *bölgənin geosiyasi cəhətdən ən*

əhəmiyyətli və perspektivli ölkəsi hesab edirlər. Mütəxəssislərin fikrinə görə, geosiyasi xarakteristikanın əsas dəyər ölçüləri kimi çıxış edən həmin amillər ölkənin həm beynəlxalq aləm üçün tərəfdaşlıq dəyərini, həm də bugünkü dinamik inkişafını şərtləndirmişdir.

Digər *geosiyasi xarakteristikasına* - ərazisinin ölçülərinə, sərhədlərinin vəziyyəti və qonşularla münasibətlərinə, maddi və mənəvi resurslarından yararlanma əmsalı və s. görə də Azərbaycan Cənubi Qafqazın ən böyük və ən perspektivli dövləti hesab olunur. Ərazisinin təbii və coğrafi resurslarına onun:

- 86,6 min kvadrat km. quru və 80 min kvadrat km. Xəzər dənizindəki milli sektoru;
- Avropa və Asiyanı birləşdirən əlverişli coğrafi, geosiyasi və geoiqtisadi vəziyyəti;
- avtomobil, dəmir yolu və su nəqliyyatı vasitəsilə Rusiya, Türkiyə, İran, Gürcüstan, Ermənistan, Orta Asiya və Qara dəniz bölgəsi ölkələri ilə nəqliyyat-kommunikasyia xətləri və s. daxildir.

Ölkənin geosiyasi dəyərinin artmasına və xarici ölkələrlə münasibətlərinin qurulmasına müsbət təsir göstərən *əsas amillərdən biri* onun əhəmiyyətli geosiyasi və coğrafi məkanda yerləşməsi hesab olunur. Ölkə dünyanın ən əhəmiyyətli regionlarından hesab olunan Avrasiyanın ortasında yerləşir, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda gedən əsas proseslərin və transmilli maraqların mərkəzində dayanır.


- Azərbaycan Gürcüstanla birlikdə, Xəzər-Qara dənizləri arasındakı mühüm əhəmiyyətli

Kontinental geosiyasi məkanının;

- Türkmənistan və Qazaxıstanla birlikdə Avropa-Cənub-Şərqi Asiyanın;
- Rusiya və İranla birlikdə Şimal-Cənub dəhlizinin;
- Şərqlə-Qərb arasındakı əksər transmilli nəqliyyat-kommunikasiya layihələrinin;

- NATO və KTMT kimi hərbi-strateji bloklaşmaların təmas xəttində yerləşir, həm Avropanın, həm Asiyanın, həm də bəhs olunan sahələr üzrə Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional maraqlar mübarizəsində önəmli vəsilə kimi çıxış edir.

MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİ VƏ GEOSİYASİ ƏHATƏSİ



Xəritə 4.

Mütəxəssislərin fikrinə görə, Xəzərətrafı ölkələr içərisində ən əhəmiyyətli geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqe məhz Azərbaycana məxsusdur. Düzdür, tədqiqatçılar regional əhatə dairəsi və bölgənin geosiyasi mühiti ilə bağlı bəzi məqamları nəzərə alaraq (Ermənistan, İran və Rusiyanın müəyyən məsələlərdə Azərbaycanla üst-üstə düşməyən maraqları və s. - Ə.H.) onun tam müstəqil siyasət yürütmək və beynəlxalq aləmlə milli maraqlara uyğun sərbəst hərəkət etmək imkanını qismən məhdud hesab edir və bu fonda Cənubi Qafqazda, ətraf

regionlarda mövcud olan münaqişələrin bölgə dövlətləri arasında ən çox Azərbaycana mənfi təsir göstərdiyini və onun müstəqil siyasət kursunu təhdid edəcəyini proqnozlaşdırırlar. Onların fikrinə görə, milli və regional təhlükəsizlik, regional və beynəlxalq inteqrasiya və s. geosiyasi, geoiqtisadi və geostrateji məsələlərdə Azərbaycanın həm bölgə, həm də dünya ölkələri ilə üst-üstə düşən və düşməyən maraqları, fərqli fəaliyyət istiqamətləri mövcuddur ki, bu da rəsmi Bakının gələcək geosiyasi qərarlarına təsirsiz ötüşməyəcəkdir. Lakin nəzərə almaq lazımdır ki, qloballaşma dövrünün müasir çağırışları fonunda bütün ölkələr, o cümlədən dünyanın aparıcı dövlətləri qlobal və regional çərçivədə, müəyyən proseslərin və hadisələrin təsiri altında, habelə qarşılıqlı maraqlar kontekstində tez-tez öz siyasətlərinə müəyyən düzəlişlər edirlər. Təbii olaraq, Azərbaycan da öz milli maraqlarının təmin edilməsinə istiqamətlənmiş siyasi kursuna, əlverişli coğrafi mövqeyinə və kəsb etdiyi transmilli geosiyasi əhəmiyyətinə uyğun olaraq bu və ya digər gedişlər edir və bundan sonra da edəcəkdir.

Geoiqtisadi dəyərinə görə Prezident Heydər Əliyevin 1994-cü ildə əsasını qoyduğu yeni neft strategiyası və digər transmilli enerji-nəqliyyat-kommunikasiya layihələrin həyata keçirilməsi, sözün həqiqi mənasında, Azərbaycanı geoiqtisadi cəhətdən dünyanın aparıcı dövlətləri və şirkətləri üçün cəlbedici tərəfdaş etmişdir. Ölkənin əlverişli geoiqtisadi dəyəri həm də yalnız neft-qaz sektoru ilə məhdudlaşmamış, keçən illərdə yürüdülən düzgün iqtisadi inkişaf strategiyası ümumilikdə Azərbaycanı Avrasiyanın iqtisadi, siyasi və sosial-mənəvi cəhətdən dinamik inkişaf edən bir ölkəsinə, dövlətlərarası əlaqələrdə ciddi geosiyasi aktora çevrilmişdir. Bununla yanaşı, Azərbaycan həm də hövzənin neft-qaz resurslarından istifadənin düzgün strategiyasını müəyyənləşdirməklə, beynəlxalq aləmin daim artan enerji ehtiyacı ilə ölkənin milli maraqlarını uzlaşdırmaqla və bu əsasda etibarlı tərəfdaş kimi tanınmaqla,

milli iqtisadi və maliyyə dividendlərini gücləndirməklə beynəlxalq dəyərini artırmış və xarici aləmlə münasibətlərini intensivləşdirmək imkanı qazandırmışdır. Bu amilə təkcə təbii resurs mənbəyi və geoiqtisadi anlamında yanaşmaq düzgün olmazdı. Ölkənin bəhs olunan üstünlüklərindən, xüsusən də neft və qaz amilindən bacarıqla istifadə etməklə, müasir dünyanın aparıcı dövlətləri və güc mərkəzlərinin diqqətini özünün digər milli problemlərinə cəlb etməsi Azərbaycanın müasir dövrdə əsas milli geosiyasi vəzifələrindən biri hesab olunur. Bu üstünlüyün və imicin qorunması və düzgün istifadə olunması gələcəkdə də Azərbaycanın geosiyasi addımlarının və vəzifələrinin əsas müvəffəqiyyətini təşkil etməlidir.

Hazırda Azərbaycan Xəzər dənizinin digər sahilində yerləşən Qazaxıstan və Türkmənistanla birlikdə *üçüncü minillikdə Avropanın artan enerji tələbatının ödənilməsi və dünyada enerji təhlükəsizliyinin təminatı sahəsində "ən əlverişli, ümidverici və etibarlı alternativ tərəfdaş"* hesab olunur. Dünyanın alternativ enerji mənbəyi hesab olunan Xəzər regionunda neft-qaz istehsalı ilə bağlı əsas risklərdən biri *hasil olunan məhsulun dünya bazarlarına təhlükəsiz və sərbəst marşrutlarla çıxarılması* ilə bağlıdır. Bu anlamda Azərbaycan özünün və tərəfdaşlarının hasil etdiyi neft-qaz məhsullarının xarici bazarlara çıxarılması, ixrac marşrutlarının şaxələndirilməsi (diversifikasiyası) məsələsində Xəzər ölkələri içərisində həm Qazaxıstandan, həm də Türkmənistandan əlverişli vəziyyətdədir. Onlarla müqayisədə Azərbaycanın enerji ixracı riskləri çox aşağı səviyyədədir. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycan bölgənin karbohidrogen ehtiyatlarının alternativ yolla Avropaya nəqli marşrutunu müəyyənləşdirərək, planetar əhəmiyyətli, eyni zamanda çox məsuliyyətli və uzaqgörən strateji seçim etdi. Nəticədə Xəzərin neft və qaz ehtiyatlarının alternativ və müstəqil yolla Avropa ölkələrinə çatdırılmasının yeni marşrutunu dövriyyəyə buraxdı. Bu marşrut

ilə yeni neft və qaz ixracı kəmərlərinin çəkilməsi *növbəti bir amil* olaraq Azərbaycanın regionda geosiyasi, geoiqtisadi nüfuzunu və tranzit dəyərini artırdı və Xəzər hövzəsinin, Mərkəzi Asiyanın enerji resurslarının Qərbə nəqli istiqamətində əsas tranzit ölkələrdən birinə - yeni transmilli yanacaq və nəqliyyat dəhlizlərinin dayağına çevirdi.

Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çatdırılmasını nəzərdə tutan layihələrin reallaşması heç də asanlıqla başa gəlməyib, müxtəlif beynəlxalq, regional və yerli geosiyasi maraqların toqquşması ilə müşahidə olunubdur. Lakin Azərbaycanın tam müstəqil geosiyasi, geoiqtisadi və təhlükəsizlik siyasəti, prinsipial və qətiyyətli mövqeyi Asiya ilə Avropanı birləşdirən böyük enerji-nəqliyyat layihələrinin həyata keçirilməsini mümkün etdi. *Hazırda, Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk kimi illik gücü təxminən 70 milyon ton təşkil edən üç neft kəməri, Bakı-Tbilisi-Ərzurum, Bakı-Astara-İran və Bakı-Rusiya kimi illik gücü təxminən 30-40 milyard kub metr olan maye qaz kəmərlərinin mövcudluğu Azərbaycanın və tərəfdaşlarının enerji ixracı sahəsindəki geoiqtisadi risklərini, demək olar ki, sıfıra endirmişdir.* Xəzər qazının Qara dənizin Gürcüstan limanlarına qədər kəmərlərlə, sonra isə sıxılaraq tankerlərlə Rumıniyaya, oradan da Avropa Birliyi ölkələrinə ixrac olunması haqqında dövlətlərarası sazişin imzalanması təkcə Azərbaycanın deyil, bütöv Xəzər hövzəsi ölkələrinin qaz ixracı ilə bağlı risklərini ciddi şəkildə azaltmış və geoiqtisadi etibarlılığını artırmışdır. Buna əlavə olaraq "Şahdəniz 2" layihəsinin reallaşdırılması ilə yeni kəmərlər- TANAP və TAP vasitəsilə böyük Azərbaycan qazının Avropa bazarına çıxarılması perspektivi bu etibarlılığı daha da möhkəmləndirmişdir.

Azərbaycan geosiyasi və geoiqtisadi baxımdan həm də *Avrasiyanın giriş qapısı, Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizlərinin mərkəzi* dövləti hesab olunur. Rusiyadan

yan keçməklə Avropa və Asiya ölkələri arasında bağlayıcı körpü rolunu icra edən *Trans-Qafqaz nəqliyyat-enerji dəhlizi* (TRASEKA), strateji *Bakı-Tbilisi-Qars dəmir yolu* layihələrinin təşəbbüskarı, hərəkətverici qüvvəsi və əsas təminatçılarından biri məhz Azərbaycandır. Bundan başqa, *Trans-Asiya nəqliyyat dəhlizində* (Cənubi, Şərqi və Orta Asiya-İran-Azərbaycan-Rusiya və əksinə, İranın Fars körfəzi vasitəsilə bu ölkələri Avropa ilə birləşdirən nəqliyyat-kommunikasiya layihəsi - Ə.H.) əsas bağlayıcı ölkələrdən biri kimi çıxış etməsi Azərbaycanın mühüm tranzit əhəmiyyətini bir daha təsdiq edir. Dünyanın nəqliyyat-kommunikasiya əlaqələrində həlledici bir vəsiləyə çevrilməsi Azərbaycanın son bir neçə ildə həm daxili, həm də regional və beynəlxalq yol-nəqliyyat infrastrukturunlarının, o cümlədən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri çərçivəsində çoxsaylı tranzit sistemlərinin müasir tələblərə uyğun yenidən qurulmasına təkan vermişdir. 2013-cü ildə ölkədə yeni nəhəng Gəmiqayırma zavodu istifadəyə verilmiş, Xəzər donanması müasir gəmilər hesabına gücləndirilmiş, yaxın bir neçə ildə isə yükötürmə gücü 20 milyon tona bərabər olan Beynəlxalq Dəniz Ticarəti Limanının tikintisinin başa çatdırılması nəzərdə tutulmuşdur. Paralel olaraq Heydər Əliyev adına Beynəlxalq Hava Limanında yenidənqurma işləri aparılmış, əlavə nəhəng terminallar istifadəyə verilmiş, regionlarda 5 yeni aeroport tikilmişdir. Ölkənin dəmir yolu infrastrukturunun müasirləşdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilməyə başlamış, 2015-ci ildə isə Şərqlə Qərbi birləşdirəcək *Bakı-Tbilisi-Qars dəmir yolunun* istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Görülən bütün işlərin başlıca məqsədi *Azərbaycanın regionun tranzit mərkəzi statusunu möhkəmləndirməklə yanaşı, həm də onun nəqliyyat-logistika mərkəzinə çevrilməsini təmin etməkdir*. Bu isə onu deməyə əsas verir ki, Almaniya, Niderland, Böyük Britaniya, Çin, Cənubi Koreya, İran və digər

ölkələrdə olduğu kimi, Azərbaycanda da Nəqliyyat Logistika Mərkəzinin yaradılacağı gün heç də uzaqda deyil.

Beləliklə, Avrasiyanın əsas tranzit ölkələrindən biri olaraq, Azərbaycan Şərq-Qərb ticarət, enerji-yanacaq və nəqliyyat-kommunikasiya əlaqələrinin mərkəzində dayanır. Bu mövqe getdikcə güclənir və ən əsası isə dünyanın əsas qloballaşma və regional inteqrasiya mərkəzləri (Avropa Birliyi, ABŞ, Yaponiya, Çin, Cənub-Şərqi Asiya ölkələri və b.) Azərbaycanın üçüncü minillikdə dünyanın həm alternativ enerji təminatçılarından biri hesab edir, həm də onun əsas tranzit ölkə mövqelərinin güclənməsində maraqlı olduqlarını nümayiş etdirir və bu işə ciddi səy göstərirlər. Azərbaycanın tranzit imkanları artdıqca, planetar geosiyasi dəyəri də yüksəlir ki, bu da onun xarici ölkələrlə geosiyasi tərəfdaşlığını şərtləndirən *digər əsas amil* hesab olunur.

Azərbaycanın qlobal və regional geosiyasi çəkisini artıran ən başlıca amillərdən biri *onun bir dövlət olaraq tam formalaşması, özünü təmin edən milli iqtisadiyyata, maddi, mənəvi və insan resurslarına, milli-vətəndaş birliyinə, əhali tərəfindən dəstəklənən milli inkişaf kursuna, güclü ordu və müdafiə potensialına və s. zəruri təsisatlara malik olması və bütün bunlara söykənərək müstəqil daxili və xarici siyasət yürütməsidir*. Müstəqillik əldə edildikdən sonrakı dövrdə milli dövlətin iqtisadi, hüquqi və ideoloji əsaslarının, idarəçilik mexanizminin, daxili və xarici siyasət strategiyasının, təhlükəsizlik konsepsiyasının formalaşdırılması və həyata keçirilməsi prosesi bir tərəfdən Ermənistanla hərbi qarşıdurma, digər tərəfdənsə Azərbaycanı istiqamətləndirmək, onu təsir altında saxlamaq istəyən daxili və xarici güclərlə kəskin mübarizə şəraitində baş tutmuşdur. Prezident Heydər Əliyevin şəxsi nüfuzu, siyasi uzaqgörənliyi, böyük idarəçilik təcrübəsi sayəsində 1993-2003-cü illəri əhatə edən birinci on il ərzində bütün milli resursları vahid məqsəd uğrunda səfərbər etmək və Azərbayca-

nın dövlət müstəqilliyini qoruyub saxlamaq, onu sabit inkişaf yoluna çıxarmaq, milli iradəyə əsaslanan müstəqil subyekt kimi beynəlxalq aləmlə sıx inteqrasiyasını təmin etmək mümkün olmuşdur. Bununla yanaşı, etiraf olunmalıdır ki, hər bir dövlət ilkin mərhələdə xarici təhlükələrdən qorunmaq sahəsində özünümüdafiə sistemini dərhal formalaşdıra bilmir, müxtəlif təzyiq və təhdidlərə qarşı sinə gərmək məcburiyyətində qalır. Bu mənada Azərbaycan daha uğurlu siyasət həyata keçirərək, müstəqilliyinin ilk dövründə ayrı-ayrı güc mərkəzləri arasında balans yaratmağa, minimum güzəştlər hesabına maksimum dividendlər əldə etməyə, prinsipial məsələlərdə öz mövqeyini qoruyub saxlamağa və inkişaf etdirməyə nail olmuşdur. Nəticədə, dövlət həm özünün neft strategiyasını uğurla reallaşdırmağı bacarmış, həm də gələcək sürətli inkişafının möhkəm bazasını yaratmışdır.

2003-2013-cü illəri əhatə edən ikinci onillikdə Azərbaycan oturuşmuş liberal iqtisadiyyata və böyük maliyyə resurslarına, güclü orduya malik, özünü tam təmin edən, heç kimdən asılı olmayan, sözünü cəsarətlə deyən, mövqeyinə və rəyinə hörmətlə yanaşılan və milli maraqlara əsaslanaraq tam müstəqil siyasət yürüdən ölkəyə çevrilimişdir. Məhz buna görə də bu gün Azərbaycan ciddi geosiyasi faktor kimi postsovet məkanının, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın müasir geosiyasi, geoiqtisadi və hərbi-geostrateji xarakteristikasının müəyyənləşdirilməsinə mühüm təsir göstərir, habelə BMT, ATƏT, Avropa Şurası, İKT, Qoşulmama Hərəkatının fəal üzvü olaraq, eyni zamanda dünyanın güc mərkəzləri ilə yaxından əməkdaşlıq edərək qlobal siyasətdə özünün iştirak imkanlarını getdikcə genişləndirir.

Azərbaycan Cənubi Qafqaz və keçmiş postsovet məkanında *ümumi iqtisadi potensialına görə* də xarici aləmin diqqətini çəkir. Hazırda Cənubi Qafqazda, Avrasiya məkanında və dünyada Azərbaycanın mövcud və perspektiv geoiqtisadi poten-

sialı - iqtisadi inkişaf resursları, malik olduğu maddi və insan ehtiyatları, bu sahələrdə ölkə rəhbərliyinin yürütdüyü praqmatik siyasət yüksək qiymətləndirilir. Cəmi 9 milyondan bir az çox əhalisi olmasına baxmayaraq, zəngin təbii, xüsusən, enerji və karbohidrogen ehtiyatlarına, əlverişli iqlim və münbit torpağa, turizm imkanlarına, kənd təsərrüfatı və sənaye infrastrukturlarına və işlək əhaliyə malik olması onun iqtisadi perspektivlərini xüsusi cəlbedici edir.

Mütəxəssislərin fikrinə görə, region ölkələri içərisində öz geosiyasətini və geoiqtisadiyyatını, beynəlxalq əlaqələrini, reallaşdırdığı daxili və xarici layihələri və s. *Xəzər dənizinin karbohidrogen məhsullarının istehsalı və satışı ilə ən sıx əlaqələndirən* ölkə məhz Azərbaycandır. Azərbaycanın iqtisadi inkişafının əsasında da məhz xarici şirkətlərlə Xəzər dənizində müştərək kəşf və istehsal etdiyi neft-qaz ehtiyatlarının sərbəst istifadəsi amili dayanır. Bu strateji məhsul ölkənin dinamik daxili iqtisadi, sosial və mənəvi inkişafını şərtləndirməklə bərabər, həm də onu dünya geosiyasətində, xüsusən Avropa enerji sektorunda mühüm bir amilə çevirmiş və geoiqtisadi tərəfdaşlıq dəyərini yüksəltmişdir. Hazırda ölkənin təsdiq olunmuş karbohidrogen ehtiyatları 4.6 milyard ton şərti yanacaq təşkil edir. Bunun 2 milyard tonu neft, 2,6 trln. kub metri isə (ümumilikdə ehtimal edilən karbohidrogen ehtiyatları isə 10 milyard ton şərti yanacaq) təbii qaz təşkil edir. Təkcə "Şahdəniz" yatağının ehtiyatı 1,2 trln. kubmetr, 2010-cu ildə kəşf olunmuş "Ümid" qaz yatağının ehtiyatı 250-300 mlrd. kubmetr, 2011-ci ildə kəşf olunmuş "Abşeron" yatağının ehtiyatı isə 350 mlrd. kub metrdən artıq qaz-kondensat miqdarında qiymətləndirilir. Müstəqillik illərində neft sektoruna 48 milyarddan çox ABŞ dolları miqdarında xarici sərmayə qoyulmuş, 61 yeni neft yatağı istismara verilmiş və yaxud yararlı vəziyyətə gətirilmışdir.[47]

[47] Bax: "İki sahil" qəzeti, 20 sentyabr 2013-cü il, xüsusi buraxılış

Hələ 2000-ci ilin əvvəllərində mütəxəssislər 2010-cu ildən etibarən Azərbaycanın Xəzərdə ildə təxminən 55 milyon ton neft və 20 milyard kub metr qaz çıxarmaq imkanı olacağını proqnozlaşdırırdılar. Dünya mütəxəssislərinin hesablamalarına və proqnozlarina görə, XXI əsrdə Azərbaycan dünyanın enerji məhsullarına artan tələbatının nəzərəçarpacaq hissəsini (ildə təxminən 40-50 milyon ton neft və 25-30 milyard kub metr qaz) verəcəkdir. Artıq 2006-cı ildə neft və qaz hasilatının həcmi bu proqnozların əsassız olmadığını təsdiq etdi. Dövlət Neft Şirkətinin rəsmi məlumatına əsasən, keçən illər üzrə Azərbaycanın neft və qaz hasilatının dinamikası aşağıdakı kimi olmuşdur.[48]

	2006	2007	2008	2009	2010	2011	2012	2013
Neft (mln. ton)	**32.273**	**42.604**	**44.527**	**50.419**	**53.050**	**45.625**	**43.390**	**43.484**
Qaz (mld. kub.m.)	**9.044**	**16.964**	**23.405**	**23.681**	**29.100**	**25.753**	**26.909**	**29.456**

Göründüyü kimi, 2010-cu ildə Azərbaycanda həm neft, həm də qaz hasilatının həcmi ilə bağlı proqnozlar özünü doğrultmuşdur. Ölkədə 53 milyon tondan artıq neft, 29 milyard kubmetrdən artıq isə təbii qaz istehsal edilmişdir. Xəzər dənizində 2010-cu ildə ən çox neft və qaz Azərbaycana məxsus milli sektordan çıxarılmışdır. Sonrakı illərdə karbohidrogen ehtiyatların hasilatına korrektələr edilmiş, mövcud tələbat nəzərə alınaraq neft hasilatı stabil olaraq 43-45 milyon ton həcmində saxlanılmış, əsas diqqət isə qaz hasilatı sahəsində yeni layihələrin həyata keçirilməsinə yönəldilmişdir. Yaxın bir neçə ildə "Şahdəniz -2" layihəsinin reallaşdırılması nəticəsində bu yataqdan hasil olunacaq qazın həcminin 9 milyard kubmetrdən

[48] Bax: http://www.socar.az

16 milyard kubmetrə çatdırılması planlaşdırılır. "Abşeron" qaz yatağından isə ildə 5 milyard kubmetr qaz hasil olunacağı gözlənilir. "Abşeron", "Ümid" və digər perspektivli qaz yataqlarının ehtiyatlarını da nəzərə almaqla yaxın gələcəkdə Azərbaycanda qaz hasilatının həcminin 45-50 milyard kubmetrə çatdırılacağı proqnozlaşdırılır.[49]

Neft və qaz istehsalı üzrə həyata keçirilən transmilli layihələrə yaradılan şəraitə görə, xarici partnyorlar bölgə ölkələri içərisində ən çox Azərbaycan və Qazaxıstandan razıdırlar və bu ölkələrin iqtisadi gələcəyinə də çox nikbin yanaşırlar. Hazırda *Qərb ölkələri və ABŞ Azərbaycanı özlərinin enerji sahəsində ən sabit və etibarlı tərəfdaşlarından biri kimi dəyərləndirərək, ona dünya enerji bazarına çıxmaq üçün lazım olan bütün köməkliyi göstərirlər*.[50] Bütün bunlar Azərbaycanın dünyada və regionda transmilli geoiqtisadi dəyərini artırır və əlverişli tərəfdaşa çevirir.

Azərbaycanın müstəqillik illərində davamlı olaraq müşahidə olunan sürətli sosial-iqtisadi inkişafı faktı da, mütəxəssislərin fikrinə görə, Cənubi Qafqaz ölkələri içərisində onun geoiqtisadi çəkisini getdikcə əhəmiyyətli dərəcədə yüksəldir. 1996-cı ildən başlayaraq Azərbaycanda ümumi daxili məhsul istehsalının orta hesabla hər il 10%-dən yuxarı artımı, inflyasiyanın nisbətən sabit saxlanması, əhalinin pul gəlirlərinin və yaşayış həddinin getdikcə yüksəlməsi, istehsalda qeyri-neft sektorunun və özəl sahənin payının artması, idxal-ixrac balansında ixracın üstünlüyünün təmin edilməsi və s. həyata keçirilən iqtisadi siyasətin səmərəli olmasını bilavasitə təsdiq edir. 1999-2001-ci illərdə ölkədə ÜDM-in orta illik artım sürəti 2,5 faiz, 2001-2004-cü illərdə isə 8-10% təşkil etmişdir. 1993-2004-cü illərdə Azərbaycan iqtisadiyyatına bütün mənbələr

[49] Bax: Trend xəbər bülleteni, 14 may 2014, 14 iyul 2014.
[50] Bax: "İki sahil" qəzeti, 26 fevral 2010. N46

hesabına 22,6 milyard ABŞ dolları miqdarında sərmayə qoyulmuşdur ki, bunun da 17 milyardı xarici, 5,6 milyardı isə daxili sərmayə olmuşdur.[51] Müstəqillik illərində ölkə iqtisadiyyatına yatırılmış sərmayələrin ümumi həcmi 2013-cu ildə 172.4 milyard dollara çatmış və 2007-ci ildən başlayaraq daxili sərmayələrin həcmi xarici sərmayələrin həcmini üstələməyə başlamışdır. 2004-2013-cü illərdə ölkə iqtisadiyyatına 150.2 milyard dollar investisiya qoyulmuş, onun da 54%-i daxili sərmayələr olmuşdur.[52]

Mütəxəssislər hesab edirlər ki, artıq 2005-ci ildə Azərbaycan öz iqtisadi və sosial inkişaf parametrlərinə görə nəinki təkcə bölgədə, həmçinin dünyada lider ölkəyə çevrilə bilmişdir. Həmin il ölkədə ÜDM istehsalı 27%, 2006-cı ildə isə 34% artaraq bölgənin və dünyanın ən yüksək göstəricisi olmuşdur.[53] Azərbaycanın sürətli iqtisadi inkişafı sonrakı illərdə də öz yüksək tempini saxlamış və ÜDM artımı müvafiq olaraq 2007-ci ildə 27%, 2008-ci ildə 11%, 2009-cu ildə 9,3% və 2010-cu ildə 5,7% təşkil etmişdir.[54]

2008-ci ildə başlayan ümumdünya iqtisadi böhran bir çox ölkələrin, hətta inkişaf etmiş Qərb dövlətlərinin iqtisadiyyatına ciddi zərbə vurduğu halda, Azərbaycan iqtisadiyyatı öz dayanıqlığını qoruyub saxlamış, əhalinin yaşayış səviyyəsi yüksəlməkdə davam etmiş, mühüm investisiya layihələrinin həyata keçirilməsi belə dayandırılmamışdır. Əgər 2011-ci ildə ölkədə ÜDM artımı cəmi 0.1% olmuşdusa, 2012-ci ildə bu rəqəm 2.2%, 2013-cü ildə isə 5.8% təşkil etmişdir.[55] İqtisadi artım

[51] Bax: "Azərbaycan" qəzeti, 25 yanvar, 2004; 08 dekabr 2004; 17 yanvar 2009.
[52] Bax: http://www.economy.gov.az/
[53] Bax: AzerTAc. Bülleten, 28,31 yanvar 2006.
[54] Bax: "Azərbaycan" qəzeti, 17 yanvar 2009, 15 yanvar 2010, 16 mart 2011-ci il.
[55] Bax: http://www.economy.gov.az/

əsasən iqtisadiyyatın qeyri-neft sektorunun orta hesabla illik 10% yüksəlməsi hesabına əldə olunmuşdur.

Ümumilikdə, son 10 ildə Azərbaycanın inkişaf strategiyası xüsusi düşünülmüş, hərtərəfli əsaslandırılmış uzunmüddətli dövlət proqramları əsasında həyata keçirilmişdir. 2004-2013-cü illərdə Azərbaycanın sosial-iqtisadi, regional və ayrı-ayrı digər sahələrin inkişafını nəzərdə tutan çoxsaylı ünvanlı dövlət proqramları qəbul edilmiş və uğurla həyata keçirilmişdir. Bunun nəticəsində ölkə iqtisadiyyatı ümumilikdə 3.4 dəfə artmış, yoxsulluğun səviyyəsi 49 faizdən 5.5 faizə düşmüşdür. İşsizliyin səviyyəsi 4.8 faizə enmiş və bu göstəriciyə görə, Azərbaycan dünyanın bir sıra inkişaf etmiş ölkələrini də geridə qoymuşdur. Azərbaycanda müasir iqtisadi və sosial infrastruktur yaradılmış, respublikanın enerji təhlükəsizliyi tam, ərzaq təhlükəsizliyi isə əsasən təmin olunmuşdur. Son 10 ildə Azərbaycanın dövlət büdcəsi 17 dəfə artaraq 25 milyard dollara çatmış, 2013-cü ildə icmal büdcənin gəlirləri 29.5 milyard dollar təşkil etmişdir. 2003-cü ildə cəmi 800 milyon dollar təşkil edən strateji valyuta ehtiyatları 2013-cü ildə artıq 50 milyard dollara yüksəlmişdir. Əmək haqları, pensiyalar, təqaüdlər ardıcıl şəkildə artırılmış və bu göstəriciyə görə, Azərbaycan MDB məkanında öncül yerləri tutmuşdur. Minlərlə istehsal obyekti, nəhəng zavod və fabriklər, texnoparklar tikilmiş, 1.2 milyon yeni iş yeri yaradılmışdır. 2500 məktəb, yüzlərlə səhiyyə müəssisəsi, mədəniyyət, idman obyektləri tikilmişdir. Nəhəng infrastruktur layihələri reallaşdırılmış, regional inkişaf proqramları paytaxtla bölgələr arasında kəskin fərqin aradan qaldırılmasına ciddi təsir göstərmişdir. Regionlar da paytaxt kimi dinamik inkişaf etmiş, müasirləşmişdir.[56]

Son 10 ildə iqtisadi sahədə əldə olunmuş uğurlar nəticəsində Azərbaycan *Cənubi Qafqaz regionunda lider mövqeləri-*

[56] Bax: AzərTAc. Bülleten, 29 dekabr 2013-cü il.

ni daha da möhkəmləndirmişdir. Müqayisə üçün qeyd edək ki, 2013-ci ildə Azərbaycanda UDM istehsalı 71 mlrd. ABŞ dolları[57], müvafiq olaraq Gürcüstanda 16.1 mlrd. dollar[58], Ermənistanda isə 10,4 mlrd. dollar[59] təşkil etmişdir. Azərbaycanın Gürcüstan iqtisadiyyatının inkişafında oynadığı rolu da nəzərə alaraq, demək olar ki, bu gün ölkəmizin bölgənin UDM istehsalındakı payı 80%-dən çoxdur. Dünyanın bir çox nüfuzlu iqtisadi və maliyyə mərkəzləri, o cümlədən Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Dünya İqtisadi Forumu, "Moodys", "Fitch Raitings", "Standard and Poors" nüfuzlu reytinq agentlikləri Azərbaycanın yüksək inkişaf tempi nümayiş etdirdiyini xüsusi vurğulayaraq, onun dünyada ən yüksək iqtisadi artıma malik olması faktını qeyd etmişlər. Davos iqtisadi Forumunun 2013-cü ilə dair hesabatında Azərbaycan "iqtisadiyyatın rəqabətə davamlılığı" əmsalına görə dünya ölkələri arasında 39-cu, 2014-cü ilin birinci yarısının göstəricilərinə görəsə 38-ci yeri tutmuşdur.[60] ABŞ-ın "Heritage" Fondu və "Wall Street Journal" qəzetinin birgə hazırladığı "İqtisadi Azadlıq İndeksi - 2014" adlı hesabatda Azərbaycan dünyanın 186 ölkəsi arasında 81-ci yeri tutaraq iqtisadi cəhətdən "orta azad ölkələr" sırasına daxil olmuşdur.[61] Beynəlxalq maliyyə mərkəzlərinin, o cümlədən Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun hesablamaları göstərir ki, qarşıdan gələn illərdə Azərbaycanda sürətli iqtisadi inkişaf tendensiyası davam edəcək ki, bu da müvafiq olaraq həm ölkənin beynəlxalq imicinə, həm də xarici geosiyasi aktorlarla tərəfdaşlıq münasibətlərinə müsbət təsir göstərəcəkdir.

Hazırda təbii səbəblərdən ümumi iqtisadi gücünə görə Rusiya, Ukrayna, Qazaxıstan və Belarus kimi iri dövlətlərdən

[57]Bax: http://www. kaspiy.az, 10 yanvar 2014.
[58]Bax: http:// www. newsgeorgia.ru, 24 mart 2014.
[59]Bax: http:// www. newsarmenia.ru, 31 may 2014.
[60] Bax:"Azərbaycan"qəzeti, 4 sentyabr 2014-cü il, s.6.
[61] Bax: AzərTAc, Bülleten, 17 yanvar 2014- cü il.

nisbətən geridə qalsa da, Azərbaycan qalan digər postsovet respublikalardan həm iqtisadi kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə irəlidədir. *Bölgədəki neft istehsalına, transmilli nəqliyyat-tranzit imkanlarına, xarici iqtisadi əlaqələrinin intensivliyinə, enerji resursları ixracının şaxələndirilməsinə, Qərbin Xəzərə hərbi-geostrateji çıxışının təmin edilməsi və hövzənin strateji hədəflərinə nəzarət imkanı yaratmasına və digər geoməkan üstünlüklərinə görə* isə, Azərbaycan Qazaxıstan və Gürcüstanla birlikdə mütəxəssislər tərəfindən bölgənin ən əhəmiyyətli dövləti hesab olunur.

Bundan başqa, Azərbaycanın milli iqtisadiyyatı müstəqilliyinin ilk illərində tamamilə xarici kapitaldan və neft sənayesindən asılı idisə, son illərdə nisbət əsaslı şəkildə dəyişmiş, iqtisadi, sosial, infrastruktur və s. sahələrdə yerli kapital və qeyri-neft sektorunun payı üstün səviyyəyə yüksəlmişdir. Son illər Azərbaycan rəhbərliyi *neft amilindən və xarici kapitaldan asılılığı* kəskin şəkildə azaltmış, iqtisadi inkişafın yükünü qeyri-neft sektorunun üzərinə keçirmiş, əsas valyuta ehtiyatlarını da məhz bu sektorun yüksəlişinə istiqamətləndirərək, yerli istehsalın, xüsusən, milli sənaye, emal və ərzaq istehsalı müəssisələrinin inkişafını təmin etmək üçün ciddi addımlar atmış ki, bu da ölkənin iqtisadi gələcəyi ilə bağlı əhalidə və mütəxəssislərdə nikbin əhval-ruhiyyə yaratmışdır. Azərbaycanda yürüdülən məqsədyönlü siyasətin - neftdən gələn gəlirləri iqtisadiyyatın şaxələndirilməsinə və qeyri-neft sektorunun inkişafına yönəldilməsinin nəticəsi olaraq ÜDM-in strukturunda bu sahənin payı sürətlə artmışdır. Əgər 2010-cu ildə iqtisadiyyatda qeyri-neft sektorunun payı 44.4% təşkil edirdisə, 2013-cü ildə bu rəqəm artıq 56.6%-ə yüksəlmişdir. Hökumətin proqnozlarına əsasən, 2015-ci ildə qeyri-neft sektorunun ÜDM-də payı 61,7 faizə çatacaqdır.[62]

[62] Bax: http://www.economy.gov.az, Trend, 22 noyabr 2011.

Azərbaycanın 2005-2013-cü illərdə strateji neft və qaz məhsullarının satışından əldə edilən gəlirlər hesabına *ölkənin enerji, nəqliyyat, rabitə-informasiya sektorunun tam yeniləşdirilməsi və bu sahələr üzrə milli təhlükəsizliyin möhkəmləndirilməsi, sosial və iqtisadi infrastrukturun yenidən qurulması, iqtisadiyyatının liberallaşdırılması və şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafına önəm verilməsi, ekoloji tarazlığın təmin edilməsi* və s. hesab olunur.

2003-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının qəbulu və icrası respublikada yeni şərait yaradaraq, Azərbaycanın bütövlükdə əksər bölgələrinin hərtərəfli tərəqqisinə səbəb olmuş, mərkəzlə regionlar arasında iqtisadi-sosial fərqləri əsasən aradan qaldırmış, yaşayış məntəqələrinin simasını müasirləşdirmişdir. Respublikanın kommunal, yolnəqliyyat, sosial, informasiya-kommunikasiya, ekologiya və digər sahələrin infrastrukturuna milyardlarla dollar investisiya qoyulmuşdur. Yeni iş yerlərinin açılması ölkədə işsizlik probleminin aradan qaldırılmasına mühüm təsir göstərmişdir.

Müstəqillik illərində Azərbaycanın *kənd təsərrüfatı və ərzaq istehsalı sisteminə* əsaslı investisiya yatırılmış, fermerlərə birbaşa dövlət dəstəyi göstərilmiş və bu sahənin inkişafına əsaslı təkan verilmişdir. Hazırda Azərbaycan əksər ərzaq məhsulları ilə özünü əsasən təmin edir. Əgər Sovet hakimiyyəti illərində Azərbaycan bəzi ərzaq məhsullarının istehlakında (ət, yağ, kartof, taxıl və s.) digər respublikalardan asılı vəziyyətdə idisə, müstəqillik dövründə bu balans daxili istehsal hesabına kəskin dəyişmişdir.

Göründüyü kimi, 2004-2013-cü illərdə həyata keçirilmiş məqsədyönlü siyasət nəticəsində ölkə iqtisadiyyatı şaxələndirilmiş və iqtisadi balansda qeyri-neft sektorunun üstünlüyü təmin edilmişdir. Bununla yanaşı, qarşıdan gələn dövrdə də iqtisadiyyatda enerji amili öz aktuallığını saxlayacaq. Hazırda Azərbaycanın xarici borclarının miqdarı ÜDM-in cəmi 8%-i

həcmindədir ki, bu da dünyada ən yaxşı göstəricilərdəni biri hesab olunur.

Mütəxəssislərin fikrinə görə, Xəzər regionunun hazırkı regional hərbi-geostrateji balansı Rusiyadan, geoiqtisadi və təbii enerji balansı Azərbaycan, Qazaxıstan və Türkmənistandan, nəqliyyat-kommunikasiya dəhlizləri Azərbaycan, Gürcüstan, Türkiyə və Rusiyadan asılıdır. Onların fikrinə görə, Rusiya, İran, Orta Asiya ölkələri, Azərbaycan, Türkiyə və Gürcüstanın, o cümlədən Qərb ölkələrinin iştirakı ilə formalaşan Xəzər hövzəsinin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mühitinin gələcək taleyində isə Azərbaycanın mövqeyi kifayət qədər yüksəkdir. Bu ölkənin ayaq qoyduğu "geosiyasi tərəzi"nin gözü dərhal regionun əsas ağırlıq mərkəzinə çevrilir və regional münasibətlərin üstün istiqamətini təşkil edir.

Azərbaycanın artan enerji ixracı potensialını düzgün qiymətləndirən ABŞ və Avropa İttifaqı 2007-ci ildən başlayaraq Avropaya qaz ixracını nəzərdə tutan "Cənub Dəhlizi" çərçivəsində Nabucco qaz layihəsini geniş müzakirə mövzusuna çevirmişlər. (Bax: Xəritə 5) Ehtimal edilirdi ki, bu layihənin tikintisi 2010-2011-ci illərdə başlayarsa, artıq 2014-2015-ci illərdə onun vasitəsilə təxminən ildə 25-30 milyard kub metr Azərbaycan, Mərkəzi Asiya, hətta ola bilsin İran qazının Avropa bazarına ixracı mümkün olacaq və Avropa alternativ yanacaq mənbəyi əldə etməklə özünün enerji təhlükəsizliyi məsələsində Rusiyadan asılılığını xeyli azaldacaqdır. Ancaq Nabucco ətrafında aparılan uzun və səmərəsiz müzakirələr təsdiq etdi ki, bu layihənin əsas təşəbbüskarları real addımlar atmaq niyyətindən uzaqdırlar və əsas maliyyə yükünü hasilatçı ölkələrin üzərinə yönəltmək fikrindədirlər. Üstəlik, hasilatçı-tranzit-istehlakçı sxemi üzrə iştirakçıların maraqlarının uzlaşdırılmasında ziddiyyətli məqamlar özünü açıq şəkildə büruzə verirdi. Bütün bu qeyri müəyyənliklərin nəticəsi olaraq, artıq 2012-ci ilin aprelində Macarıstanın MOL şirkəti, 2013-cü ilin

martında isə Almaniyanın RWE şirkəti Nabucco layihəsini tərk etdilər. 2013-cü ilin mayında isə Avstriyanın OMV şirkəti rəsmi şəkildə layihənin bağlandığını bəyan etdi.[63]

NABUCCO QAZ KƏMƏRİNİN İLKİN LAYİHƏSİ



Xəritə 5.

2010-cu ildən başlayaraq Azərbaycan "Cənub dəhlizi" layihəsi ilə bağlı müzakirələrin perspektivsizliyini görərək təşəbbüsü öz əlinə aldı və növbəti dəfə liderlik keyfiyyətlərini ortaya qoydu. 2011-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında strateji enerji əməkdaşlığına dair memorandumun, 2012-ci ildə Türkiyə ilə Trans-Anadolu layihəsi üzrə sazişin imzalanması, 2013-cü ildə isə Trans-Adriatik layihənin əsas ixrac marşrutu kimi seçilməsi "Cənub dəhlizi"nə yeni nəfəs gətirdi. Nəticə etibarilə 2013-cü il dekabrın 17-də Bakıda "Şahdəniz-2" layihəsinə dair yekun investisiya qərarı qəbul edildi.[64] Azərbaycan öz

[63] Bax: Vikipediya.org - Nabucco.
[64] Bax: AzərTAc. Bülleten, 29 dekabr 2013.

təşəbbüsü və praktiki addımları ilə yeni transmilli enerji layihələrinin əsasını qoydu, *"Cənub dəhlizi"* layihəsini xilas etdi, eyni zamanda Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında daha fəal iştirak etmək imkanı qazandı.

Azərbaycanın geosiyasi xarakteristikasının əsas göstəricilərindən biri də onun zəngin *insan resurslarına malik olması, ölkədaxili sabit daxili ictimai-siyasi, milli-etnik və dini vəziyyətin hökm sürməsi və dövlətin bütün bu sahələr üzərindəki nəzarət imkanları ilə* sıx bağlıdır. Azərbaycanın insan resursları kəmiyyət və keyfiyyət baxımından digər Cənubi Qafqaz ölkələri ilə müqayisədə üstün və perspektivli görünür. Azərbaycanın ümumi *demoqrafik göstəriciləri* (əhalinin artım sürəti, gənclərin ümumi əhali arasında miqdarı və s.) müsbət istiqamətdə inkişaf edir. Ölkə əhalisinin sayı hazırda 9 milyondan artıqdır və artım balansı getdikcə müsbətə doğru dəyişir. Respublika üzrə hər kvadrat kilometrə, təxminən 96 nəfər düşür.

Keyfiyyət göstəricilərinə görə də ölkə əhalisi dünya standartlarına yaxındır. Əhalinin yaşayış səviyyəsi, təhsili, texniki və peşə hazırlığı, sağlamlıq və yaş meyarları, miqrasiya, urbanizasya göstəriciləri həm daxili inkişaf, həm də qlobal iqtisadi əlaqələr baxımından mütəxəssislər tərəfindən yetərli hesab olunur. Burada ən mühüm kriterilərdən biri kimi 2004-cü ildən başlayaraq və hazırda da davam edən sosial proqramlar nəticəsində əhalinin yaşayış səviyyəsinin sürətlə yüksəlməsini, adekvat olaraq yoxsulluğun 10 dəfəyə yaxın azalmasını göstərmək olar. Hətta 2001-2013-cü illər ərzində Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılmış vəsait hesabına həyata keçirilmiş layihələr nəticəsində qaçqın və məcburi köçkünlərin arasında yoxsulluq səviyyəsi 2003-cü ildəki 75%-dən 2013-cü ildə 15%-ə enmişdir. Reallaşdırılan tədbirlərin miqyası isə çox genişdir - 2,5 milyon kvadrat metr sahəsi olan, bütün sosial-texniki infrastruktura malik 82 müasir qəsəbə salınmış, 40 min ailə 180 min nəfərədək qaçqın və məcburi köçkünün mənzil-

məişət şəraiti yaxşılaşdırılmışdır. Son bir neçə ildə orta hesabla hər il 20 min nəfərdən çox məcburi köçkün yeni müasir mənzillərlə təmin olunur. Yeni salınmış yaşayış məntəqələrində 139 məktəb, 6 musiqi məktəbi, 51 uşaq bağçası, 55 tibb məntəqəsi, 45 mədəniyyət mərkəzi, 2 olimpiya İdman kompleksi tikilmiş, müasir tələblərə uyğun kommunal infrastruktur yaradılmışdır. Paralel şəkildə qaçqın və məcburi köçkünlərin məşğulluq probleminin həlli istiqamətində də səmərəli addımlar atılır.[65]

Hazırda bütün dünyada baş verən qloballaşma prosesləri Azərbaycan əhalisinin həm daxildəki yerdəyişmə hərəkətinə (urbanizasiya prosesinə), həm də ölkə xaricinə miqrasiyasına təkan vermişdir. Müstəqillik dövründə kənd əhalisinin təxminən bir milyona yaxını kortəbii qaydada kəndləri tərk edərək Bakı şəhərinə və ətraf qəsəbələrə köçmüş, bir o qədər də ölkə əhalisi xarici ölkələrə miqrasiya etmişdir. Bunların daha çoxu mövsümi işlər üçün xaricə gedənlər, az bir qismi isə öz yaşayış yerini daimi dəyişənlərdir. Şəhərlərdə və rayon mərkəzlərində yaşayan əhali arasında bazar iqtisadiyyatına keçidlə və SSRİ dövründə tikilmiş iri sənaye müəssisələrinin dağılması ilə bağlı müəyyən işsizlik mövcud olsa da, bu boşluq miqrasiya və yeni istehsal-kommersiya müəssisələrinin yaranması hesabına doldurulur.

Tədqiqatçılar ictimai-siyasi və sosial-mənəvi resursların milli maraqların təmin edilməsinə yönəldilməsi sahəsində Cənubi Qafqaz ölkələri içərisində *ən balanslı geosiyasəti və effektli siyasi idarəçilik sistemini* də Azərbaycana aid edirlər. Azərbaycanın siyasi hakimiyyəti 1993-2013-cu illər arasında ölkənin geosiyasi vəzifələri və inkişaf ehtiyaclarına uyğun fəaliyyət konsepsiyasını və strategiyasını, dövlətin daxili və xarici siyasətinin prioritetlərini, istiqamət və vəzifələrini düzgün

[65] http://www.refugees-idps-committee.gov.az

müəyyənləşdirmiş, təqdirəlayiq daxili və xarici fəaliyyət prinsipləri nümayiş etdirmiş, ölkəni beynəlxalq, regional, çoxtərəfli və ikitərəfli münasibətlər sistemində fəal təmsil etmişdir. Hazırda Azərbaycanın geosiyasi idarəçilik sistemi ölkə Prezidentinin, onun Administrasiyasının, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və digər strukturların vahid fəaliyyət koordinasiyası əsasında həyata keçirilir. Bu sistem ölkənin bütün daxili institusional, ərazi, təbii-coğrafi, əhali və digər geosiyasi resurslarının, xarici siyasət aktivlərinin səmərəli və effektiv istifadəsini, daxili və xarici siyasi-iqtisadi əlaqələrin koordinasiyasını təmin edir. Xüsusən ölkənin daxilində və beynəlxalq aləmdə, xarici təşkilatlarda, transmilli qurumlarda vahid siyasət üzrə təmsil olunma və təmsilçiliyin idarə edilməsi, beynəlxalq münasibətlər sistemində cərəyan edən proseslərin öyrənilməsi və müvafiq strategiyanın hazırlanması, müttəfiqlərlə, tərəfdaşlarla, rəqiblərlə və digər beynəlxalq aktorlarla əlaqələrin xarakterinin müəyyənləşdirilməsi və həyata keçirilməsi sahəsində bu əlaqələndirmə sisteminin mühüm əhəmiyyəti özünü göstərir.

Uğurlu geosiyasi idarəçiliyin nəticəsi olaraq ötən dövrdə Azərbaycanın xarici aləmlə səmərəli əməkdaşlığı yaranmış, qarşılıqlı maraqlara cavab verən çoxsaylı ortaq transmilli layihələr həyata keçirilmiş, dünya siyasətinə təsir gücü olan böyük dövlətlərlə, beynəlxalq və regional qurumlarla tərəfdaşlıq münasibətləri qurulmuş, ölkənin nüfuzlu xarici alyanslarda, hökumətlərarası və qeyri-hökumət təşkilatlarında iştirakı təmin edilmişdir.

İqtisadiyyatın qloballaşdığı yeni minillikdə Azərbaycan dünyanın universal və qlobal iqtisadi sisteminə müvəffəqiyyətlə inteqrasiya olunur, Avropa İttifaqı, Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və digər iqtisadi-maliyyə qurumları ilə hərtərəfli əməkdaşlıq edir. Təsadüfi deyil ki, bu qurumların dəstəyi və təqdimatı ilə, postsovet

ölkələri içərisində ən çox xarici kapital da məhz Azərbaycan və Qazaxıstan iqtisadiyyatına yatırılıb. Hazırda adambaşına düşən xarici investisiyaların miqdarına görə Azərbaycan nəinki postsovet məkanının, həmçinin dünyanın lider ölkələrindən hesab olunur.

Keçən müddətdə Azərbaycanın regionda və dünyada nümayiş etdirdiyi balanslı geosiyasət, praqmatik xarici siyasət kursu, reallaşdırdığı uğurlu neft strategiyası, transmilli enerji və nəqliyyat-kommunikasiya siyasəti, həyata keçirdiyi regional və milli təhlükəsizlik strategiyası, Avropa Birliyi, NATO, ATƏT, MDB, İKT və b. beynəlxalq-regional qurumlarla yaratdığı tərəfdaşlıq münasibətləri, Avropa Şurasına və Qoşulmama Hərəkatına üzv qəbul olunması, əksər beynəlxalq konvensiyalara qoşulması və beynəlxalq aləm qarşısında götürdüyü öhdəliklərin icrası ölkənin xarici aləmlə geosiyasi, geoiqtisadi və hərbi-geostrateji tərəfdaşlıq münasibətlərinə müsbət təsir göstərən əsas amillər kimi çıxış etmişdir.

Müasir dünyada geoiqtisadi dəyər ölçüləri həm də *mövcud ölkədə yürüdülən iqtisadi, siyasi, sosial, milli və s. siyasətin xarakteri və effektivliyi* ilə ölçülür. Azərbaycan özünün müsbət və pozitiv iqtisadi inkişaf meyillərini - iqtisadiyyatının liberallaşdırılmasını, Qərblə iqtisadi əlaqələrini və bazar iqtisadiyyatı mexanizmlərini inkişaf etdirilməklə yanaşı, həm də ölkə daxilində sabit vətəndaş birliyinin yaradılması istiqamətində mühüm nailiyyətlər qazanmışdır. Ölkədə həyata keçirilən düzgün və fəal siyasət onun daxili ictimai-siyasi mühitini nəzərəçarpacaq dərəcədə modernləşdirmiş, dövlət və cəmiyyət həyatını demokratikləşdirmiş, sosial-mənəvi sahələri yeniləşdirmiş, vətəndaş cəmiyyəti təsisatlarını formalaşdırmış və müasir dövrün tələblərinə uyğunlaşdırmışdır. Avropa dəyərlərinə, dünyəvi və hüquqi dövlət quruculuğu yoluna üstünlük verməsi, vətəndaşlarının təhsil, mədəni və intellektual səviyyəsini yüksəltməsi və s. amillər ölkənin dünyəvi geosiyasi əhəmiyyətini xeyli

artırmış, planetar imicinə və geosiyasi xarakteristikasına müsbət təsir göstərmişdir. Hazırda Azərbaycan öz ictimai-siyasi və sosial-mənəvi vəziyyəti, yekdil milli-dini-vətəndaş birliyi, tolerant daxili vəziyyəti və s. ilə Cənubi Qafqazın ən sabit və lider ölkəsi hesab olunur.

Azərbaycan Cənubi Qafqazda həm də xristianıqla islamın sərhədlərinin bitdiyi və sivilizasiyaların qovuşduğu, müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin bir arada inkişaf etdiyi, dini dözümlülüyün hökm sürdüyü coğrafi məkan olaraq, öz multikulturalist və *tolerant cəmiyyəti, sabit ictimai mühiti* ilə seçilir. Bu istiqamətdə ölkə rəhbərliyinin yürütdüyü ardıcıl siyasət ölkənin regionda geosiyasi nüfuzunu artırmaqla yanaşı, həm də Cənubi Qafqaz və Xəzər hövzəsində regional sabitlik və təhlükəsizliyin təmin olunmasına ciddi təsir göstərir. Bütün bunlar da Azərbaycanın xarici aləmlə geosiyasi tərəfdaşlığına müsbət təsir göstərən əsas amil hesab olunur.

Tədqiqatçılar Azərbaycanın üstün geosiyasi resursları sırasına, həmçinin *azərbaycanlıların ölkədaxili və beynəlxalq aləmdə nümayiş etdirdiyi vətəndaş birliyini, hakimiyyətin siyasətinə xalqın etimadı və dəstəyini, milli maraqların və ölkədaxili sabitliyin qorunması üçün əhalinin, xüsusən, ziyalıların nümayiş etdirdiyi güclü milli iradəni, vətəndaş əzmini və dövlətçilik təfəkkürünü* və s. də aid edirlər. Müstəqilliyinin müəyyən mərhələlərində Azərbaycanın ictimai-siyasi və mənəvi resurslarının təsir gücünü azaltmaq, vətəndaş birliyini pozmaq, yürüdülən siyasətə etimadsızlıq yaratmaq istiqamətində həm xaricdən, həm də daxildən göstərilən bütün cəhdlərə baxmayaraq, bu gün Cənubi Qafqazın ən sabit ölkəsi Azərbaycandır. Tədqiqatçıların fikrinə görə, *bölgədə ən sabit cəmiyyət, milli, etnik, dini icmalar arasında sülh və tolerantlıq mühiti* də məhz Azərbaycanda hökm sürür. Bütün bunlar da öz növbəsində Azərbaycanın Cənubi Qafqazdakı geosiyasi liderliyindən xəbər verir və ölkənin daxili və xarici siyasətində mühüm amil kimi çıxış edir.

Hər bir dövlətin siyasi, iqtisadi və s. fəaliyyətinin ölçü meyarı, göstəriciləri və müvəffəqiyyəti həm də onun *beynəlxalq nüfuzundan, geosiyasi imicindən, qazanılmış reputasiyasından, onu təmsil edən rəhbərlərin (yaxud rəhbər işçilərin) təsdiq olunmuş nüfuzundan, daxildə və beynəlxalq aləmdə nümayiş etdirdiyi fəaliyyətdən, xalqının mədəni və intellektual səviyyəsindən* və s. asılıdır. Bu baxımdan Azərbaycan özünün regional imicinə, daxili ideoloji-mədəni resurslarına görə dünyada seçilən yerlərdən birini tutur. Bu yer bir tərəfdən keçmiş Azərbaycan prezidenti, dünyada nüfuzlu ictimai-siyasi və dövlət xadimi imici qazanmış Heydər Əliyevin uzun müddət ölkəni beynəlxalq aləmdə təmsil etməsi, müsəlman ölkələri içərisində Azərbaycanın daha çox Avropa dəyərlərinə, dünyəvi və hüquqi dövlət quruculuğu yoluna üstünlük verməsi, xalqın təhsil, mədəni və intellektual səviyyəsinin yüksək olması, dünyanın elm, mədəniyyət və incəsənət xəzinəsinə verdiyi qabaqcıl töhfələrlə, digər tərəfdənsə hazırda prezident İlham Əliyevin yürütdüyü tam müstəqil və prinsipal xarici siyasət kursu ilə bağlıdır.

Dövlətlərin geosiyasi gücünün və beynəlxalq aləmə təsir imkanlarının əsas göstəriciləri həm də onun bütün *dünyanın, ayrı-ayrı regionların ictimai-siyasi, iqtisadi, sosial, təhlükəsizlik mühitinə, beynəlxalq aləmin rəsmi və ictimai rəyinə təsir etmək imkanları, transmilli proseslərdə iştirakı* və s. ilə ölçülür. Bu baxımdan Azərbaycanın dünya ölkələrinin alternativ enerji təminatı, transmilli enerji, nəqliyyat-kommunikasiya layihələrində iştirakı ilə yanaşı, həm də son illərdə digər planetar qlobal proseslərdə - beynəlxalq terrorizmə, narkoticarətə qarşı mübarizədə, dünya siyasətinin demokratik transformasiyasında, regional inteqrasiya və s. fəal iştirakı da onun bölgədəki geosiyasi gücünü və təsirini, beynəlxalq aləmdəki nüfuzunu, rolunu və dəyərini xeyli yüksəltmişdir. 2012-ci ildə 155 ölkənin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv

seçilməsi və bu qurumun çərçivəsində səmərəli fəaliyyəti onun qlobal müstəvidə məqsədyönlü, prinsipial və aktiv fəaliyyətin məntiqi nəticəsi kimi izah oluna bilər. Azərbaycan BMT Təhlükəsizlik Şurasında iki illik fəaliyyəti ilə bir daha təsdiq etmişdir ki, bu ölkə qlobal təhlükəsizliyə, dünyada sabitliyin, sülhün və əmin-amanlığın bərqərar olmasına, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına töhfə verməkiqtidarındadır və bu işdə əlindən gələni edir. Bu müddət ərzində Azərbaycan BMT-nin üzv dövlətləri, qurumun rəhbər orqanları, digər beynəlxalq təsisatlarla sıx işbirliyi, sağlam əməkdaşlıq münasibətləri yaratmış və inkişaf etdirmişdir. BMT Təhlükəsizlik Şurası həm də Azərbaycan üçün öz həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq çərçivəsində həllini diqqətdə saxlamaq üçün bir vasitə olmuşdur.

Bundan başqa, Azərbaycan öz vətəndaş cəmiyyəti institutları, KİV-ləri və QHT-ləri vasitəsilə dünyanın qlobal ictimai və informasiya məkanında arzuolunan səviyyədə təmsil olunmasa da, ölkə daxilində qeyri-hökumət qurumlarına, mediaya yaratdığı sərbəst və azad mühitə, göstərdiyi maddi və mənəvi dəstəyə, dünyanın qlobal informasiya vasitələrinə, aparıcı xarici mətbuat orqanlarına və nümayəndəliklərinə yaratdığı əlverişli şəraitə və s. görə də dünyada *vətəndaş cəmiyyəti və siyasi plüralizmin hökm sürdüyü* bir dövlət imici qazana bilmişdir. Bu amil də ölkənin beynəlxalq imici və geosiyasi gücünə fəal təsir göstərir.

Azərbaycanın geosiyasi təsir və diplomatik resursları sırasına *xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəlikləri, dünyada yaşayan azərbaycanlıları* və s. aid etmək olar. Azərbaycan bu resurslar vasitəsilə dünyanın siyasi, mədəni, diplomatik və s. həyatında iştirak edir və müvafiq sahələrdə öz geosiyasi maraqlarını təmin etməyə çalışır. Xarici siyasət resurslarının gücünə, xarici ölkələrdəki səfirliklərinin və diplo-

matlarının sayına görə də Azərbaycan əksər postsovet və Cənubi Qafqaz ölkələrindən üstün mövqedədir.[66]

Xaricdə yaşayan və ölkənin xarici siyasət resursu kimi dəyərləndirilən soydaşlara gəldikdə, Cənubi Azərbaycanda, Gürcüstan, Rusiya (Dərbənd vilayəti) və başqa ölkələrdəki tarixi vətənlərində yaşayan təxminən 30-35 milyon azərbaycanlı ilə yanaşı, dünyada yaşayan digər soydaşlar da ana Vətənlə əlaqələrini kəsməmiş (bunların sayı təxminən 2 milyona yaxındır) və Azərbaycan üçün potensial investisiya mənbəyi hesab olunurlar. Məhz ikincilər (uzaq xaricdə yaşayanlar) Azərbaycandakı yaxınları ilə mütəmadi əlaqə yaradır, onların maddi problemlərinin həllində iştirak edir, yaşadıqları ölkələrdə qazandığı pulların bir qismini öz doğma şəhər və rayonlarında müxtəlif işlərə yönəldirlər. Odur ki, bu qəbildən olan azərbaycanlılar Azərbaycanın həm daxili, həm də qlobal inkişafında, onun sabit və təhlükəsiz yaşamasında, problemlərinin həllində daha çox maraqlıdırlar. Bu da Azərbaycan dövlətinə yürütdüyü xarici siyasətdə həmin insanlardan öz əhali resursu kimi istifadə etmək imkanı yaradır.

Azərbaycanın planetar və regional geosiyasi təsirinə həlledici təsir göstərən əsas amillərdən biri də *ölkənin mövcud hərbi-geostrateji potensialı, regional və beynəlxalq təhlükəsizlik blokları ilə münasibətləri və təhlükəsizlik siyasəti* hesab olunur. Azərbaycan malik olduğu hərbi-geostrateji potensialına, bu sahədəki əsas göstəricilərinə və milli resurslarına görə də Cənubi Qafqazın lider dövləti hesab olunur. Baxmayaraq ki, ATƏT-in "Avropada adi Silahlı Qüvvələr haqqında" müqavilənin cinah sazişi ilə (bu müqavilə 15 may 1992-ci ildə Azərbaycanın o zamankı müdafiə naziri R. Qazıyev tərəfindən

[66] Azərbaycanın xarici ölkələrdə 85 diplomatik təsisatı - 57 səfirliyi, 5 daimi nümayəndəliyi, 9 baş konsulluğu, 7 fəxri konsulluğu və 7 təmsilçiliyi fəaliyyət göstərir ki, onlarda işləyən diplomat və xidmətçilərin sayı hazırda1000 nəfərə yaxındır.

Rusiyanın təzyiqi nəticəsində imzalanmışdır) Cənubi Qafqazda Azərbaycanın, Gürcüstan və Ermənistanın hərbi texnika kvotası bərabərləşdirilmiş və Azərbaycanın milli hüquqları açıq şəkildə pozulmuşdur. Həm ərazisinin həcmi, həm də əhalisinin sayı nəzərə alınmadan, o zaman Azərbaycana Gürcüstan və Ermənistanla bərabər miqdarda ağır hərbi texnika kvotası verilmişdir.[67] Azərbaycanın əhalisinin sayına müvafiq olaraq, milli ordusunun say tərkibi, hərbi-texniki hazırlığı və silahlanma keyfiyyəti də həm Gürcüstandan, həm də Ermənistandan yüksəkdir. Bundan başqa, ordu quruculuğuna yönəltdiyi ümumi büdcə xərclərinə görə də Cənubi Qafqazın lider ölkəsi Azərbaycan hesab olunur.[68]

Avroatlantik təhlükəsizlik strukturlarına inteqrasiya xətti götürməsi Azərbaycanı dünyanın və regionun təhlükəsizlik maraqlarında ciddi bir aktora çevirmiş və transmilli hərbi-strateji maraqların mərkəzinə çıxarmışdır. 1994-cü ildə NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qoşulmaqla Azərbaycan özünün regional və milli təhlükəsizlik maraqlarını təmin edəcəyinə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olacağına çox ümid bəsləyirdi. Eyni zamanda, bu proqrama qoşulmaqda Azərbaycanın əsas məqsədi həm də öz müstəqilliyinə və sərhədlərinin təhlükəsizliyinə əlavə zəmanət almaq, Xəzər dənizinin ona məxsus sektorunda həyata keçirdiyi neft-qaz layihələrinin və dünya bazarlarına

[67] Sazişə görə onların hər biri 220 tank, 220 zirehli döyüş maşını, 285 top və 100 hərbi təyyarə saxlaya bilərlər. Əgər, ərazisinin həcmi və əhalisinin sayına müvafiq bölgü aparılsa idi (qalan bütün ATƏT üzvü olan dövlətlərdə bölgü məhz bu prinsiplərlə aparılıb) o zaman Azərbaycanın hərbi texnika və silah kvotası tank üzrə müvafiq olaraq 565, ZDM üzrə 860, top üzrə 566 ədəd və s. silahlar üzrə də indikindən üç dəfə çox olmalı idi. – Ə.H.

[68] 2010-cu ildən başlayaraq Azərbaycanın dövlət büdcəsində hərbi xərclər üçün 3 milyard manatdan artıq vəsait nəzərdə tutulur. Bu, orta hesabla Ermənistanın dövlət büdcəsindən 1.5 dəfə çoxdur. – Ə.H.

çəkilən transmilli kəmərlərin təhlükəsizliyini təmin etməkdən ibarət idi.

NATO-ya, yaxud KTMT-yə üzvlük məsələsinə gəlincə, Azərbaycan Cənubi Qafqazda və Avrasiya məkanında bir-biri ilə toqquşan geosiyasi maraqların (əsasən Rusiya və ABŞ başda olmaqla NATO və KTMT-nin) mövcud olduğunu nəzərə alaraq, həmişə tarazlı siyasət aparmağa üstünlük vermişdir. Mütəxəssislər hesab edir ki, bu sahədə Azərbaycanın həyata keçirdiyi siyasət Cənubi Qafqazın mövcud reallığına tam adekvat idi. Çünki "Rusiya Bakını hərbi cəhətdən birbaşa nəzarətdə saxlaya bilməsə də, Ermənistanla müvafiq əməkdaşlığı gücləndirmək və rəsmi olaraq Dağlıq Qarabağ münaqişəsindəki davranışını Ermənistanın xeyrinə dəyişməklə Azərbaycanın milli təhlükəsizliyinə və hərbi-strateji maraqlarına ciddi təhlükə yarada bilərdi".[69]

Beləliklə, göründüyü kimi Azərbaycan təkcə Avropa Birliyinin enerji təminatı və təhlükəsizliyi baxımından və "Qonşuluq siyasəti"nin əsas fiqurantlarından biri kimi deyil, həm də dünyanın müxtəlif bölgələrində - Əfqanıstanda, İraqda, Balkanlarda və s. həyata keçirdiyi sülhyaratma proseslərində birbaşa iştirakı, NATO-nun qeyri-hərbi ehtiyatlarla təchizatı, təhlükəsiz hava dəhlizinin təqdim olunması və s. fəaliyyəti ilə də Qərbin etibarlı tərəfdaşı hesab olunur.[70]

Beləliklə, yuxarıda göstərilən amillər əsasında, hazırda Azərbaycanın əksər xarici və region ölkələri ilə yaxşı tərəfdaşlıq və əməkdaşlıq münasibətləri vardır. Azərbaycan ABŞ və Avropa Birliyi ilə yanaşı, Xəzər-Qara dəniz hövzəsi, Orta Asiya, Yaxın Şərq, 2012-ci ildə Qoşulmama Hərəkatına üzv olduqdan sonra isə bir sıra Cənubi Amerika və Afrika ölkələri

[69] Rayner Fraytaq-Virminqhaus. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti // "Azerbaijan Focus" jurnalı, №1, 2009, s. 107.

[70] Bax: Aleksandros Petersen. Azərbaycanın Avroatlantik baxışları //Azərbaycan focus, №2, yanvar-mart 2010.s.197.

ilə yaxşı münasibətlər qurmuş və onlarla tərəfdaşlıq əlaqələrini inkişaf etdirir. Azərbaycan Qara-Xəzər dənizi hövzələri və Cənubi Qafqaz ölkələri icərisində geosiyasi və geoiqtisadi riskləri ən minimum olan və "etibarlı tərəfdaş" imici qazanmış ölkələr sırasında lider mövqelərdən birini tutur. Ətraf ölkələrdən onun yalnız işğalçı Ermənistanla Dağlıq Qarabağla bağlı münaqişəsi və problemləri mövcuddur. Xəzər hövzəsi ölkələri içərisində Türkmənistan və İranla Xəzər dənizindəki sektor bölgüsü və bəzi yataqların mənsubiyyəti ilə bağlı müəyyən problemlər yaşansa da, hazırda bu ölkələr arasında bütün digər sahələr üzrə dostluq və tərəfdaşlıq münasibətləri hökm sürür.

Azərbaycanın əlverişli coğrafi durumu, müstəqil siyasəti, iqtisadi potensialı, maddi və mənəvi resursları və digər amillər onun regional mərkəz statusuna yüksəltmiş və beləliklə, geosiyasi dəyərini daha da artırmışdır. Azərbaycan bölgədə iqtisadi, sosial, humanitar və digər sahələrdə reallaşdırılan bütün layihələrin əsas təşəbbüskarı və mərkəzi fiqurudur. Ekspertlər müstəqillik dövründə həyata keçirilmiş transmilli neft və qaz, nəqliyyat-kommunikasiya layihələrini, son 10 ildə ölkə iqtisadiyyatının dinamik inkişafını əsas gətirərək 2013-cü ilin aprelində Dünya İqtisadi Forumunun məhz Bakıda keçirilməsini dünya birliyinin Azərbaycanın iqtisadi gücünə verdiyi qiymət kimi səciyyələndirirlər. Bununla yanaşı, Azərbaycan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, Beynəlxalq Humanitar Forumunun təşəbbüskarı və təşkilatçısı kimi çıxış edərək həm də dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun güclənməsinə öz dəyərli töhfələrinin verir. Təsadüfi deyil ki, bu gün ekspertlər Bakını "Humanitar Davos" adlandırırlar. Azərbaycan məscidin, kilsənin və sinaqoqun heç bir qısqanclıq, narahatlıq olmadan yan-yana fəaliyyət göstərdiyi, çoxsaylı milli və etnik azlıqların sülh və əmin-amanlıq şəraitində yaşadığı ən nadir tolerantlıq məkanı – multikultura-

lizm mərkəzi kimi bütün dünyada tanınır və qəbul edilir. 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsini, çoxsaylı beynəlxalq idman yarışlarını yüksək səviyyədə təşkil edən Azərbaycan artıq 2015-ci ildə I Avropa Oyunlarını keçirməyə hazırlaşır.

Azərbaycanın xarici aləmlə *tərəfdaşlıq münasibətlərinə mənfi təsir göstərən və geosiyasi dəyərini aşağı salan* bəzi amillər də mövcuddur. Tədqiqatçılar bu sıraya *ilk növbədə* Ermənistanla münaqişənin və Dağlıq Qarabağ probleminin 20 ildən bəri həll olunmamasını aid edirlər. Ümumiyyətlə, müstəqilliyə qovuşduğu andan Azərbaycanın milli inkişafı yolunda rastlaşdığı ən mühüm problem də məhz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olmuşdur. Müstəqilliyin ilk illərində bu problem ölkənin bölgədə və dünyada kəsb etdiyi geosiyasi əhəmiyyəti ciddi surətdə azaldaraq, beynəlxalq investisiya qurumlarının ölkəyə davamlı kapital qoyuluşu siyasətinə uzun müddət ciddi mənfi təsir göstərmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həm də bütövlükdə regionun iqtisadi, siyasi tərəfdaşlıq mühitinə, sülhün və təhlükəsizliyin təmin olunmasına maneçilik törədən başlıca amildir. Bu münaqişə həmçinin regionda transmilli enerji, nəqliyyat və dəhliz infrastrukturlarının təhlükəsizliyinə təhdid yaradır. Mütəxəssislər hesab edirlər ki, münaqişənin həllində heç bir irəliləyişin olmaması bir tərəfdən Azərbaycan ictimaiyyətini anti-qərb əhval ruhiyyəsində kökləyir, digər tərəfdən isə Avrasiyanın təhlükəsizlik sisteminə, tərəfdaşlıq mühitinə mənfi təsir edir.[71]

Azərbaycanın geosiyasi xarakteristikasına mənfi təsir göstərən amillər sırasına, mütəxəssislər *həm də* ölkə daxilində iqtisadi inkişaf sahəsində sona çatdırılmamış bəzi milli layihələri

[71] Michael Cohen. The effect of oil revenues on transition economics: the case of Azerbaijan // "Geopolitics of energy" Journal, №6, June 2006

- iqtisadi liberallaşama və özəl sektorun inkişafı prinsiplərinin dünya standartlarından qismən geri qalmasını, sərbəst iqtisadi, biznes və rəqabət mühitinin hələ də tam bərqərar olmamasını, ölkədaxili bəzi hüquqi, siyasi, iqtisadi və digər problemləri və s. aid edirlər. Bununla yanaşı hesab olunur ki, son illər vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı quruculuğu sahəsində islahatların dərinləşdirilməsi, korrupsiyaya, inhisarçılığa, hüquq pozuntularına qarşı mübarizənin gücləndirilməsi, bu məqsədlə hüquqi, institutsional, inzibati və digər tədbirlərin intensivləşdirilməsi mövcud problemlərin əsasən aradan qaldırılmasına artıq öz müsbət təsirini göstərir.

Azərbaycan iqtisadiyyatı müasir dünya miqyasında hələ ki, özünün enerji və xammal resursları, müəyyən qədər kənd təsərrüfatı və ərzaq məhsulları ilə təmsil olunur. Xarici kapital qoyuluşunun həcminə görə Azərbaycan ən qabaqcıl ölkələr sırasında olsa da, investisiyaların böyük bir qismi neft-qaz, enerji, nəqliyyat- kommunikasiya layihələrinə yönəldilmişdir. Əksər neft ölkələrində olduğu kimi, Azərbaycanın da mühüm iqtisadi göstəricilərinin və ümumiyyətlə iqtisadiyyatının əsasını neft-qaz sənayesi, enerji resurslarının istehsalı və satışı təşkil edir. Hazırda, ölkə büdcəsinin böyük qismini enerji resurslarının istehsalı və satışından gələn gəlirlər, yaxud bu sahədən daxil olan vergilər təşkil edir. Bununla yanaşı, qeyd olunmalıdır ki, son illər sənayeləşmə prosesinin sürətlənməsi, həm daxili bazarın ehtiyaclarının ödənilməsinə, həm də ixraca hesablanmış orta və böyük istehsal müəssisələrinin yaradılması, emal sektorunun güclənməsi, kənd təsərrüfatının inkişafı sahəsində atılmış mühüm addımlar, yeni torpaq sahələrinin dövriyyəyə buraxılması və iri fermer təsərrüfatlarının yaradılması, turizm, xidmət infrastrukturunun yenidən qurulması və inkişaf etdirilməsi, nəqliyyat infrastrukturunun müasir tələblərə uyğun

yenidən qurulması, tikinti biznesinin inkişafı, yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsi və gəlirlərinin artması qeyri-neft sektorunun əsaslı şəkildə inkişafına və ÜDM-in formalaşmasında onun payının kəskin şəkildə artmasına şərait yaratmışdır. 2013-cü ilin statistikasına əsasən, 57.7 milyard manatlıq ÜDM-in 24 milyard 35 milyon manatı neft sektorunda, 29 milyard 983 milyon manatı isə qeyri-neft sektorunda yaranmışdır. 3 milyard 690 milyon manat isə məhsula və xalis idxala tətbiq olunan vergilərdən əldə olunmuşdur. İl ərzində neft sektorunun inkişafı 101%, qeyri-neft sektorunun artımı isə 110% təşkil etmişdir.[72]

Xəzər dənizinin hüquqi statusunun həll edilməməsi, Trans Xəzər layihəsinə region dövlətlərinin fərqli yanaşması və digər problemlər həm Azərbaycanın, həm də digər bölgə ölkələrinin xarici aləmlə tərəfdaşlığına mənfi təsir göstərir.

Bir faktı da qeyd etmək lazımdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsindəki regional qarşıdurmalara və bəzi ölkədaxili problemlərə görə bir çox maraqlı dairələr dünya investorlarına nə qədər Azərbaycanı əlverişsiz bir ölkə kimi təqdim etməyə çalışsalar da, malik olduğu zəngin enerji resursları, Xəzər hövzəsində yürütdüyü effektli neft-qaz siyasəti və reallaşdırdığı çoxsaylı transmilli layihələr onu bütün dünya üçün bir o qədər, cəlbedici və arzuolunan tərəfdaşa çevirmişdir.

Beləliklə, ölkənin müasir geosiyasi xarakteristikası onu deməyə əsas verir ki, müstəqillik əldə edildikdən sonra tarix baxımından ötən qısa dövr ərzində Azərbaycan keçid dövrünü başa vurmuş, güclü regional geosiyasi amilə çevrilmiş, qlobal siyasətdə də öz sözü, rəyi və prinsipial mövqeyi ilə seçilən müstəqil dövlət kimi çıxış etməyə başlamışdır.

[72] Bax: http://www.stat.gov.az

§ 3.2. Azərbaycanın geosiyasi statusu və müasir geosiyasi fəaliyyət kodeksi

Hər bir müstəqil dövlətin **əsas geosiyasi vəzifəsi** *öz milli ərazisi (dövlətin məxsusi coğrafi məkanı) çərçivəsində vahid milli-dövlət strukturunu, mərkəzləşmiş dövlət idarəçilik sistemini və suveren dövlət hakimiyyətini yaratmaq, möhkəmlətmək və daimiliyini təmin etməkdən ibarətdir.* Bundan başqa, dövlətin geosiyasi vəzifələri sırasına həm də *cəmiyyətin artan sosial-iqtisadi, mənəvi və s. tələbatının, ölkənin xarici və daxili təhlükəsizliyinin dolğun şəkildə təmin edilməsi, əhalinin təbii fəlakətlərdən qorunması, ölkədə milli-vətəndaş həmrəyliyinin yaradılması, tolerantlığın qorunması* və s. daxildir. Bütün bu vəzifələri həyata keçirmək üçün dövlət onunla həmsərhəd olan qonşu ölkələrlə, qarşılıqlı münasibətlərdə fərqli mövqeyi ilə seçilən ayrı-ayrı beynəlxalq və regional aktorlarla təmasa girməli olur. Dövlətin geosiyasi maraqları həmin aktorlarla toqquşa, kəsişə, yaxud üst-üstə düşə bilər. Lakin heç nədən asılı olmayaraq dövlətin rəsmi və qeyri-rəsmi strukturları tarixən formalaşmış beynəlxalq normalara, regional ənənələrə və praktikaya, dərk olunmuş milli və ümumi maraqların qarşılıqlı tarazlığına əsaslanaraq xarici aktorlarla bu və ya digər geosiyasi münasibətlər qurmağa borcludur. Belə münasibətlər sistemi səviyyəsinə görə beynəlxalq, regional və yerli (lokal) olmaqla dövlətin müəyyən **geosiyasi kodunu**[73] (statusunu) müəyyənləşdirir və müvafiq fəaliyyət kodeksinin (məcəlləsinin) yaradılmasını tələb edir.

[73] Dövlətlərin geosiyasi kodu deyəndə, ilk növbədə onun beynəlxalq aləmdə və regionda qazandığı qeyri- rəsmi status və imicdən söhbət gedir. Hazırda dünyada müxtəlif geosiyasi kod daşıyıcıları - fövqəldövlət, aparıcı ölkə, regional lider, adi dövlət, geosiyasi cəhətdən əhəmiyyətli dövlət, militarist, demokratik, millətçi-şovinist, kosmopolit, işğalçı, sülhsevər və s. statuslu ölkələr mövcuddur.

Geosiyasi kod *hər bir ölkənin siyasi fəaliyyətindən, ölkə rəhbərlərinin və əksər əhalinin ətraf aləmə münasibətindən, geoməkan təsəvvüründən, dərk olunmuş və yaxud iddia olunan milli maraq, milli mənafe dairəsi və onun təmin olunması vasitələrindən, xarici aləmlə ünsiyyət zamanı ölkənin kəsb etdiyi maddi, mənəvi, hərbi, insani dəyərlərdən, xarici aləmdən yarana biləcək geosiyasi təhlükələrə reaksiyasından, müqavimət gücündən, malik olduğu hərbi-texniki vasitələrdən və s. keyfiyyət göstəricilərindən* asılı olaraq müəyyənləşir. Böyüklüyündən və kiçikliyindən asılı olmayaraq, hər bir dövlətin ya tarixən formalaşmış, zaman-zaman ətraf aləmin təsiri ilə dəyişikliklərə məruz qalmış, ya da ki, yeni yaradılmış geosiyasi kodu və buna müvafiq olaraq, xarici aləmlə geosiyasi davranış kodeksi mövcud olur.

Tədqiqatçılar fəaliyyət səviyyəsinə görə, ölkələrin geosiyasi fəaliyyət kodeksini- *yerli, regional və planetar olmaqla,* üç qrupa ayırırlar:

- Yerli səviyyəli kodekslər - qonşu həmsərhəd ölkələrin geosiyasi statusu, davranışı, bəyan etdiyi, yaxud fəaliyyətindən yaranan, müşahidə olunan geosiyasi məqsəd və vəzifələrinin qiymətləndirilməsi və ona müvafiq addımların atılması haqqında dövlətlərin hazırladığı ümumi xarakterli geosiyasi tövsiyələr toplusudur. Belə kodekslər hər bir ölkənin dövlət və hökumət, müvafiq xarici siyasət, hərbi, təhlükəsizlik, sərhəd və digər strukturlarının rəhbər fəaliyyətlərinin əsasını təşkil edir.
- Regional fəaliyyət kodeksləri - öz geosiyasi təsirini təkcə həmsərhəd qonşu dövlətlərin deyil, həm də regionun digər ölkələrinin ərazisində yaymaq istəyən regional lider və yaxud belə statusa can atan digər dövlətlərin geosiyasi istəyinə uyğun olaraq yaradılan tövsiyələr toplusudur.

- Nəhayət, planetar geosiyasi fəaliyyət kodeksləri o ölkələrdə (məsələn, bu sıraya dünyanın atom silahına malik olan ölkələrini aid etmək olar) yaradılır ki, onlar bütün dünyada geosiyasi maraqlarını təmin etmək gücünə malikdir, beynəlxalq aləmin əksər hadisələrinə fəal müdaxilə edə bilir və planetin istənilən guşəsində geosiyasi fəaliyyətlərini təmin etməyə çalışırlar.

Əlbəttə, hər bir ölkə özünün iqtisadi, siyasi və sosial vəziyyətindən, dövləti idarə edənlərin dünyagörüşü və xarakterindən, əhalinin ətraf aləmə baxışları və münasibətindən çıxış edərək, yerli, regional və beynəlxalq geosiyasi münasibətlərdən, qonşu ölkələrin geosiyasətindən və mövcud məkanda nümayiş etdirdiyi davranışlardan və s. asılı olaraq, özünün məxsusi geosiyasi vəzifələrini müəyyənləşdirir, fəaliyyət kodeksini hazırlayır və onun əsasında da yaxın və uzaq xarici aktorlarla geosiyasi əlaqələr yaradır.

Xəzər hövzəsi və Cənubi Qafqaz r*egionunda mövcud olan irili-xırdalı bütün milli dövlətlərlə və dünyanın qarşılıqlı maraq kəsb edən digər ölkələri ilə tarazlaşdırılmış, xüsusi ölçülüb-biçilmiş geosiyasi, geoiqtisadi və geostrateji əlaqələrin qurulması, kəsişən və üst-üstə düşən regional və beynəlxalq maraqlar sisteminin təhlil olunaraq gündəlik xarici siyasət fəaliyyətində nəzərə alınması ehtiyacı müstəqil Azərbaycan Respublikasının da məxsusi* geosiyasi kodunun müəyyənləşdirilməsi və müvafiq olaraq ölkənin ətraf aləmlə geosiyasi münasibətlərinin, fəaliyyət proqramının hazırlanması vəzifəsini ortaya qoymuşdur.[74]

Azərbaycanın geosiyasi ərazisi Şərqlə Qərbin, Avropa ilə Asiyanın birləşdiyi, islam sivilizasiyasının sərhədlərinin bitdiyi

[74] Daha ətraflı bax: Həsənov Ə.M. Azərbaycanın müasir geosiyasi inkişafı: mövcud vəziyyət və perspektivlər // "Geostrategiya" jurnalı, Bakı, mart 2011, N1, s.10-20.

və xristianlığın sərhədlərinin başlandığı mədəni-mənəvi təmas məkanıdır. Bundan başqa, onun ərazisi dünyanın ən əhəmiyyətli geoməkanlarından biri hesab olunur, mühüm nəqliyyat-kommunikasiya dəhlizlərinin kəsişmə nöqtəsində yerləşir və zəngin karbohidrogen ehtiyatlarına malikdir. Əsasən müsəlman əhalisinə malik olan, Şərq və Qərb dəyərlərini özündə birləşdirən ölkə dünyəvi həyat tərzinə malikdir. Hər bir digər ölkə kimi, geosiyasi statusuna müvafiq olaraq yerli, regional, beynəlxalq maraq çərçivəsini və dairələrini, geosiyasətinin məqsəd və vəzifələrini müəyyənləşdirmək, qonşu həmsərhəd ölkələrlə münasibətlərinin xarakterinə uyğun olaraq taktikasını, məxsusi geosiyasi fəaliyyət kodeksini hazırlamaq Azərbaycanın da xarici siyasət, milli təhlükəsizlik və müdafiə qurumlarının vacib vəzifələri sırasına daxildir.

Azərbaycanın geosiyasi kodunun müəyyən olunması onun ərazisinin geosiyasi xarakteristikası, yerləşmə coğrafiyası və əhatəsi (onu əhatə edən xarici aləm) ilə bilavasitə bağlıdır. Geosiyasi anlamda dövlətin ərazisi və əhalisi onun bədəni hesab olunursa, geosiyasi kodu bədənin xarici mühafizəsinin, təhlükəsizliyinin və ətraf aləmlə təmaslarının məqsədyönlü şəkildə hazırlanmış geyimi (qorunma və təhlükəsizliyi planlama proqramı) sayılır.

Geosiyasi, geoiqtisadi və hərbi-geostrateji xarakteristikasına görə, Azərbaycan Gürcüstanla birgə dünyanın mühüm geostrateji məkanlarından biri hesab olunan Qara və Xəzər dənizləri arasındakı beynəlxalq əhəmiyyətli kontinental tranzit-keçid ərazidə yerləşir. Hazırda təxminən 20% ərazisi Ermənistanın silahlı qüvvələrinin işğalı altında olan Azərbaycanın əsas geosiyasi vəzifəsi öz ərazi bütövlüyünü və bu ərazilər üzərində suveren dövlət idarəçiliyini bərpa etməkdən ibarətdir.

Azərbaycan ərazisi, əhalisi və inkişaf perspektivlərinə görə Cənubi Qafqazın ən böyük potensiala malik ölkəsi hesab olunur. Geosiyasi kodunun yaradılması zamanı onun daxili

coğrafi və əhali xarakteristikasına söykənən bir çox üstünlükləri mütləq şəkildə nəzərə alınmalıdır. Ölkənin üstün coğrafi və ərazi xarakteristikasına ilk növbədə təbii və əmək ehtiyatlarının vəziyyətini, zəngin enerji qaynaqlarına malik olmasını, torpaqlarının məhsuldarlığını, sərvətlərdən istifadə olunması vəziyyətini, habelə ölkənin iqlim xüsusiyyətlərini, flora-faunasını və ekoloji ehtiyaclarını aid etmək olar.

Bundan başqa, Azərbaycanın həm də üstün əhali xarakteristikasını- əhalinin təbii artımı, işgüzarlığı, məşğuliyyəti, sıxlığı, bölgələrdə məskunlaşma xüsusiyyətlərini, milli-etnik tərkibini, vətəndaşların dövlətçilik mövqeyini, ölkənin demoqrafik göstəricilərini, miqrasiya, yerdəyişmə prosesləri və onun idarə edilməsi kimi məsələləri də nəzərdən qaçırmaq olmaz.

Geosiyasi təhlükəsizliyin təmin olunmasında məkanların hərbi təhlükəsizliyi ilə yanaşı, hər bir ölkənin iqtisadi-siyasi qüdrətinə, enerji, əmək, texnologiya, innovasiya, informasiya və insan ehtiyatlarının potensialına və inkişafına xüsusi önəm verildiyi müasir dünyada, Azərbaycan kimi ölkələr əksər qlobal çağırışlara operativ və adekvat münasibət göstərməli, yerləşdiyi məkanda öz geosiyasi statusunu və müvafiq fəaliyyət taktikasını düzgün müəyyənləşdirməlidir.

Bütün qeyd edilən geosiyasi ölçü meyarları ilə yanaşı, hər bir dövlətin, o cümlədən Azərbaycanın geosiyasi vəziyyətinin müəyyənləşdirilməsində və kodunun hazırlanmasında ən önəmli və həlledici amillərdən biri də **ölkənin geosiyasi əhatəsi** hesab olunur. Azərbaycanın geosiyasi əhatəsində yerləşən və fərqli geosiyasi maraqları, xarakterləri, vəzifələri və fəaliyyətləri ilə seçilən bölgə ölkələrinin sayı yeddidir. Ölkənin onlarla geosiyasi, geoiqtisadi və hərbi-geostrateji təmas nöqtəsi hesab olunan quru və dəniz sərhədləri mövcuddur. Bunlardan, Rusiya, İran, Türkiyə, Gürcüstan və Ermənistan ilə Azərbaycanı quru, Türkmənistan, Qazaxıstan, Rusiya və İranla isə dəniz

sərhədləri birləşdirir.[75] Ölkənin geosiyasi kodunun əsasını da məhz bu dövlətlərlə sərhəd və sərhədboyu ərazilərin xarakteristikası, ərazidaxili əhali göstəriciləri, eyni zamanda ətraf ölkələrin geosiyasi fəaliyyətinin xüsusiyyətləri təşkil edir. Bu mənada, Azərbaycanın geosiyasi kodunun müəyyənləşməsində təsir göstərən əsas regional və yerli amillər aşağıdakılar hesab oluna bilər:

- Rusiya, Türkiyə və İran kimi iddialı regional lider statuslu ölkələrlə quru və dəniz sərhədlərinə malik olması və ondan irəli gələn geosiyasi, geoiqtisadi və hərbi-geostrateji, sərhəd-keçid təhlükəsizliyi məsələləri, həmin dövlətlərin sərhədboyu yaşayış məskənlərində yaşayan əhaliyə siyasi, informasiya, dini və s. təsirindən yaranan problemlər;
- Xəzər dənizi vasitəsilə Rusiya, İran və Orta Asiya ölkələri ilə, quru məkanda isə tamamilə fərqli geosiyasi statusa, davranışa, geoiqtisadi, hərbi-geostrateji maraq və mənafeyə malik, Azərbaycana və onun bölgədə reallaşdırdığı transmilli layihələrə fərqli münasibəti və yanaşması ilə seçilən Türkiyə, Cənubi Qafqazın Gürcüstan və Ermənistan kimi ölkələri ilə həmsərhəd olması;
- əhəmiyyətli geosiyasi əraziyə - geosiyasi anlamda "acar məkan" və tranzit-keçid xarakteristikasına malik olması və əksər transmilli aktorların diqqət mərkəzinə çıxması;
- fərqli hərbi-geostrateji blokların sərhədlərində, təhlükəsizlik baxımından həssas regionda yerləşməsi və əhəmiyyətli strateji ərazi xarakteristikasına - xüsusi hərbi-strateji və coğrafi məkana malik olması;

[75] Bu haqda daha ətraflı materialla kitabın sərhəd təhlükəsizliyi bölməsində tanış olmaq olar.

- zəngin geoiqtisadi, hərbi-geostrateji potensiala (karbohidrogen ehtiyatlarına və İran, Orta Asiya, Rusiya və Cənubi Qafqazın hərbi-geostrateji təhlükəsizliyinə təsir gücünə) malik olan Xəzər dənizi hövzəsində əhəmiyyətli coğrafi mövqedə yerləşməsi;
- regionun və dünyanın geoiqtisadi əlaqələrində istifadə olunan enerji və nəqliyyat dəhlizlərinin mərkəzi hissəsində yerləşməsi və üstün nəqliyyat-infrastrukturlarına, inkişaf etmiş kommunikasiyalara malik olması,
- onun torpaqlarını işğal edən və bundan sonra da ona daim ərazi ekspansiyası təhlükəsi törədən Ermənistan kimi işğalçı dövlətlə həmsərhəd olması,
- ölkənin ərazi bütövlüyünü, geosiyasi uğurlarını, milli inkişafını, demokratik dövlət quruculuğu və ondan irəli gələn bütün rəsmi fəaliyyətini açıq və yaxud gizli şəkildə təhdid edən digər geosiyasi aktorlarla qonşuluğu və s.

Bu amillərin hər biri müəyyən məqamlarda Azərbaycana geosiyasi üstünlüklər qazandırsa da, əksər hallarda ciddi problemlər yaradır və milli təhlükəsizlik sahəsində ona əlavə qayğılar gətirir. Bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da ölkənin geosiyasi vəziyyəti və statusu ilə bağlı məsələlər, yaxın, uzaq geosiyasi ortam, yaxın ətraf və s. davamlı şəkildə öyrənilməli, gündəlik fəaliyyətdə nəzərə alınmalı, yürüdülən rəsmi xarici və daxili siyasət, həyata keçirilən geosiyasi fəaliyyət səbatlı olmalıdır.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanda dünyanın və region ölkələrinin geosiyasi, geoiqtisadi, millimənəvi, ekoloji, informasiya və s. maraqlar sisteminin öyrənilməsi və təmin olunması, xarici dövlətlərlə, geosiyasi aktorlarla münasibətlərinin strategiya və taktikasının müəyyənləşdirilməsi və həyata keçirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Lakin yerləşdiyi Avrasiya məkanının yerli, regional və

beynəlxalq əhəmiyyətli hadisələrinin dinamik xarakteri ölkənin geosiyasi kodu və fəaliyyət kodeksi üzərindəki analitik və praktiki işin mütəmadi şəkildə aparılmasını tələb edir. Çünki bu iş ölkənin **geosiyasi vəziyyəti və geosiyasi təhlükəsizliyi** ilə bilavasitə bağlıdır və dövlətin əsas milli vəzifələrindən hesab olunur. Mütəxəssislər hesab edir ki, geosiyasi kodun yaradılması və fəaliyyət kodeksinin hazırlanması ilə bağlı həyata keçirilən milli siyasətin uğuru, ilk növbədə geniş elmi-siyasi təhlil əsasında bütün həmsərhəd ölkələrin, dünya güclərinin Cənubi Qafqaz və Xəzər hövzəsində üst-üstə düşən, kəsişən və müvafiq ölkənin nöqteyi-nəzərindən dəyərləndirilən geosiyasi, geoiqtisadi və geostrateji maraqlar sisteminin təhlil olunması və qiymətləndirilməsindən asılıdır.

Azərbaycanın ətraf aləmlə mövcud geosiyasi əlaqələrinin, məkan təmaslarının taktikasının müəyyən olunması, bölgədəki və dünyadakı potensial tərəfdaşlar və rəqiblərin düzgün qiymətləndirilməsi, onların təsir və müdaxilə imkanlarının, bu işdə istifadə edə biləcəyi geosiyasi ehtiyatların və mexanizmlərin obyektiv dəyərləndirilməsi, bu fonda ölkənin **geosiyasi fəaliyyət konsepsiyasının və proqramının** yaradılması təhlükəsizlik və xarici siyasət fəaliyyəti ilə məşğul olan müvafiq dövlət qurumları qarşısında mühüm vəzifələr qoyur.

§ 3.3. XXI əsrdə Azərbaycanın qarşısında dayanan əsas geosiyasi vəzifələr və perspektivlər

Müstəqillik illərində Azərbaycanın təşəbbüsü ilə Cənubi Qafqazda reallaşdırılan transmilli enerji, nəqliyyat-kommunikasiya və dəhliz layihələrinin işə düşməsi faktiki olaraq önu Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın lider dövlətinə çevirdi. Bəzi nüfuzlu qərb tədqiqatçıların fikri ilə ifadə etsək: "Azərbaycana Cənubi Qafqazda ətraf ölkələrin geosiyasi

kursunu müəyyən edən" lider dövlət mövqeyi qazandırdı. Əlbəttə, bütün bunlar ölkəyə regional və beynəlxalq səviyyədə müəyyən iqrisadi, siyasi, sosial-mənəvi üstünlüklər qazandırmaqla yanaşı, həm də onun rəsmi strukturları qarşısında ölkə daxilində, yerləşdiyi Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda, o cümlədən bütün dünyada xüsusi düşünülmüş və davamlı geosiyasi fəaliyyət göstərmək kimi vacib tələbləri qoydu.

Cənubi Qafqaz və Xəzər hövzəsinin digər dövlətləri ilə müqayisədə hazırda Azərbaycanın beynəlxalq aləm üçün müasir geosiyasi dəyər ölçülərini artıran, milli inkişafını dönməz edən, regional və beynəlxalq perspektivini yüksəldən, xarici aləmlə tərəfdaşlıq münasibətlərinə müsbət təsir göstərən əsas amillər daha çox ölkənin təbii-mineral ehtiyyatları, Qərblə-Şərq arasındakı mövcud siyasi, hərbi, ticarət və s. əlaqələrdə tutduğu mövqe, malik olduğu nəqliyyat- kommunikasiya və tranzit imkanları, yürütdüyü geoiqtisadi siyasət və s. ilə bağlıdır. Odur ki, hazırkı onillikdə Azərbaycanın qarşısında duran əsas geosiyasi, geoiqtisadi və hərbi-geostrateji vəzifələr, ölkənin XXI əsrdəki uğurlarını və geosiyasi gələcəyini təmin edəcək milli strateji kurs aşağıdakı kimi görünür:

Cənubi Qafqazın lider dövləti geosiyasi statusunun qazanılması, möhkəmləndirilməsi və qorunub saxlanması

Azərbaycan özünün "Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilmək" kimi geosiyasi və geostrateji iddialarını heç vaxt gizlətməmişdir**.** Bu gün Azərbaycan öz iqtisadi inkişaf potensialına və milli resurslarına görə faktiki olaraq regionun lider ölkəsinə çevrilmişdir. Cənubi Qafqazın insan resurslarının təxminən 60%, yanacaq-enerji və maliyyə resurslarının 90%, iqtisadi potensialının isə 75-80% Azərbaycanın payına düşür. Hazırda həm qonşu dövlətlər, həm də dünyanın əksər geosiyasi aktorları bütün ölçülər üzrə regionun "lider ölkəsi"

statusunu daşımaq imkanını məhz Azərbaycana aid edirlər. Mütəxəssislərin fikrinə görə, Azərbaycanın bölgədəki əksər geosiyasi hadisələrə görə getdikcə artan məsuliyyəti fonunda, həm də regional proseslərə təsir gücü günü-gündən yüksəlir. Beynəlxalq aləm Xəzər hövzəsi və Cənubi Qafqazın regional problemlərinin, bu məkanda reallaşdırılan əksər transmilli layihələrin və s. həllində, ilk növbədə Azərbaycanın mövqeyini əsas götürür və onunla hesablaşmaq məcburiyyəti ilə üzləşirlər. Məsələn, postsovet ölkələrinin NATO-ya inteqrasiyası məsələsində ABŞ-ın Ukrayna və Gürcüstana üstünlük verməsini ekspertlər yanlış addım hesab edirlər. MDB ölkələri və beynəlxalq energetika məsələləri üzrə Avropa İttifaqının eksperti Aleksandr Rar çıxışlarından birində söyləmişdir ki, Gürcüstan NATO üçün ən optimal tərəfdaş deyil və qeyri-sabit ölkədir. Onun fikrinə görə, "Corc Buşun prezidentliyi dövründə NATO qeyri-rasional şəkildə əsas diqqətini Gürcüstana yönəltdi. Halbuki, NATO-nun bu regiona yaxınlaşması və daxil olması üçün ilk növbədə Azərbaycanla ciddi iş aparmaq və razılığa gəlmək lazım idi. İndi isə elə bir əlverişsiz vəziyyət yaranıb ki, Cənubi Qafqazda NATO-nun yeganə tərəfdaşı hətta, Alyans üzvlərinin bir çoxu tərəfindən ciddi qəbul edilməyən- Gürcüstandır. Bu isə NATO-nun regionda dalana dirənməsi deməkdir."[76]

Hazırda Cənubi Qafqazdakı hər hansı regional məsələdə, nə geosiyasi və geoiqtisadi imkanları zəif qiymətləndirilən **Gürcüstan,** nə də ki, Rusiyanın "forpostu" hesab olunan Ermənistan Azərbaycanla heç bir rəqabətə tab gətirə bilmir. Gürcüstanda hakimiyyət dəyişikliyindən sonra bu ölkənin yeni siyasi rəhbərliyi Tbilisini regionun və hətta, postsovet məkanının əsas və aparıcı mərkəzinə çevirmək iddiası ilə çıxış etsə də, bir sıra mühüm amillər, o cümlədən ölkənin zəif iqtisadi poten-

[76] Bax: газ. Зеркало, 24 февраля 2010.-№34.

sialı, yararsız, köhnə infrastrukturları və s. buna imkan vermir. Gürcüstanın iqtisadi perspektivi əsasən Azərbaycandan və Otra Asiyadan gələn enerji və digər malların Qərb ölkələrinə nəqlinə, Avropa-Asiya əlaqələrində tranzit dəhliz roluna hesablanmışdır. Bu ölkənin gəlir əldə etmək imkanlarının böyük hissəsi birbaşa Azərbaycanla bağlıdır. Gürcüstan öz enerji təhlükəsizliyinin təmin edilməsi məsələsində də Rusiya və Azərbaycandan tam asılı vəziyyətdədir. 2008-ci ildə bu ölkənin Rusiya ilə münasibətlərinin gərginləşməsi fonunda dərin enerji böhranına düçar olması və yalnız Azərbaycanın işə qarışmasından sonra vəziyyətdən çıxması, söylədiklərimizin əyani sübutu idi. Bundan başqa, Gürcüstanda daxili vəziyyətin qeyri-sabitliyi, 2008-ci ilin avqustunda Rusiya ilə qısamüddətli müharibədən sonra Abxaziya və Cənubi Osetiyanın öz "müstəqilliyini" elan etməsi və bu "müstəqilliyin" Rusiya, onun təsiri altında olan bir neçə dövlət tərəfindən faktiki tanınması, Cavaxetiya kimi potensial münaqişə ocağının mövcudluğu və s. məsələlər də onun regional lider şanslarını azaltmışdır.

O ki, qaldı **Ermənistan** və onun Cənubi Qafqazdakı mövqeyinə, Azərbaycanın beynəlxalq aləmdəki çəkisinin artması, rəsmi Bakının aktiv xarici siyasəti nəticəsində bu ölkənin işğalçı siyasəti ən yüksək tribunalardan etiraf olunmuşdur. Bu gün Ermənistan hətta ən yaxın strateji müttəfiqləri ilə münasibətlərdə də bu faktı ört-basdır etməkdə çətinlik çəkir. O bütün regional və transmilli layihələrdən təcrid olunmuş və ağır sosial-iqtisadi böhrana düçar olmuşdur. Ölkənin əsas iqtisadiyyatı və həyati əhəmiyyətli infrastrukturları Rusiyanın tam nəzarətinə keçmiş, əsas daxili və xarici siyasət məsələləri, Cənubi Qafqazdakı geosiyasi fəaliyyəti Moskva ilə razılaşdırılır, onun rəyi olmadan erməni rəhbərləri heç bir müstəqil qərar qəbul edə bilmir.

Bundan başqa, Ermənistanda sosial durumun ildən-ilə ağırlaşması, əhalinin kütləvi şəkildə ölkəni tərk etməsi haki-

miyyət strukturlarını çox ciddi demoqrafik problemlərlə üz-üzə qoymuşdur. Ermənistan Dövlət Statistika xidməti öz açıqlamasında etiraf etmişdir ki, hər il orta hesabla 50-70 min vətəndaş xarici dövlətlərə miqrasiya edir. Ermənistanda əhalinin sayının "sabit" saxlanılması üçün ikili vətəndaşlıq tətbiq edilmiş və əhalinin sayını süni şəkildə 3 milyona qaldırılmışdır. Halbuki BMT-nin Ermənistan nümayəndəliyi, Rusiyanın müxtəlif rəsmi və qeyri rəsmi qurumları və Çexiyanın beynəlxalq "People in Need" təşkilatının 2009-cu ildə keçirdiyi müxtəlif araşdırmaların və sorğunun nəticələrinə əsasən, bu ölkədə hazırda cəmi 1,5 milyon əhali yaşayır və gənclərin 70% Ermənistanı tərk edərək xaricdə məskunlaşmaq arzusundadır.[77]

2009-cu ildə iqtisadi böhran Ermənistanda durumu daha da ağırlaşdırmış, ölkə iqtisadiyyatı 14,4% geriləmiş, əhalinin yaşayış səviyyəsi 30% aşağı düşmüş, işsizlərin sayı daha 82 min 900 nəfər artmışdır. [78]

Ermənistanın Cənubi Qafqazdakı iri enerji layihələrindən kənarda qalması isə onun regionda sülhün və təhlükəsizliyin təmin olunmasına maneçilik törədən siyasət aparması ilə bağlıdır. Azərbaycanın iştirak etdiyi enerji - nəqliyyat dəhlizləri layihələrinə Ermənistanın da qoşulmasına etiraz etməsinin əsaslı səbəbləri vardır. Bunların sırasına Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını Ermənistanın işğal altında saxlaması, Azərbaycanla onun Naxçıvan Muxtar Respublikasını birləşdirən nəqliyyat-kommunikasiya xətlərini dağıtması və Naxçıvanı blokadada saxlaması kimi məsələlər daxildir.

Təhlillər göstərir ki, hazırda Azərbaycanın iqtisadi potensialı Ermənistanınkından azı 10 dəfə yüksəkdir. Azərbaycanın son ildəki təkcə illik hərbi büdcəsi (təxminən 3,2 milyard manat) Ermənistanın bütün dövlət büdcəsindən (təxminən 3 mil-

[77] Bax: "Şərq" qəzeti, 30 yanvar 2010.-N33.
[78] Bax: "Səs" qəzeti, 23 fevral 2010.-N39.

yard ABŞ dolları) artıq olmuşdur. İşğalçılıq siyasəti ilə özünü regionun bütün transmilli layihələrindən kənarda qoyan bu millitarist ölkə, işğal etdiyi Azərbaycan ərazilərinin müvəqqəti qarət edilməsindən, xaricdəki havadarlarından və çoxsaylı erməni diasporundan aldığı maliyyə dəstəyindən tam asılı vəziyyətdədir. Ekspertlərin hesablamalarına görə, hər il Ermənistanın xarici ölkələrdəki diaspora təşkilatlarından və şəxslərdən topladığı yardımlar ölkə iqtisadiyyatının daxili gəlirlərini iki dəfə üstələyir. Onların fikrinə görə, Dağlıq Qarabağ münaqişəsi zəminində ermənilərin xarici aləmdən aldıqları yardım dayanandırıldıqdan sonra onun sosial-iqtisadi vəziyyəti daha da ağırlaşacaqdır. Ümumiyyətlə, erməni lobbisinin nə vaxta kimi və hansı miqdarda Ermənistana maliyyə yardımı göstərməsi məsələsi son zamanlar bəzi erməni ekspertlərinin xüsusi araşdırma mövzusuna çevrilməkdədir.

Lakin bir faktı da inkar etmək olmaz ki, nə qədər ağır və perspektivsiz vəziyyətdə olsa da, Ermənistan Cənubi Qafqaz ölkələri və xalqları arasında yarana biləcək mehriban qonşuluq, qarşılıqlı-faydalı əməkdaşlıq və regional tərəfdaşlıq münasibətlərinə kifayət qədər mənfi təsir göstərmək gücünə malikdir. Bəzi geostrateqlərin fikrinə görə, Ermənistanın Cənubi Qafqazdakı "xüsusi geosiyasi missiyası" təkcə bölgə ölkələrinin "heç kimdən asılı olmayan, müstəqil regional əməkdaşlıq tendensiyasını" pozmaq deyil, həm də bu məkanda davamlı regional böhran, etnik-separatçı münaqişələr və s. yaradaraq, region ölkələrinin Avropa strukturlarına- NATO-ya, Avropa Birliyi və s. inteqrasiyasının qarşısını almaqdan ibarətdir. Ermənistanın, hətta ən əlverişli şərtlər çərçivəsində belə, Dağlıq Qarabağ münaqışəsinin həllindən hər dəfə bu və ya digər bəhanələrlə boyun qaçırmasının kökündə də məhz- kənardan idarə olunan "geosiyasi missiya" dayanır.

Azərbaycanın qazanmaqda olduğu "regional lider dövlət" statusunu daha da möhkəmləndirməsi üçün qarşıdan gələn il-

lərdə bir çox vacib və məsuliyyətli geosiyasi, geostrateji və geoiqtisadi vəzifələri reallaşdırması tələb olunur. Bu işin əsas hərəkətverici qüvvəsi rolunda ilk növbədə ölkənin ictimai-siyasi institutları, milli elitası və cəmiyyətin bütün orta təbəqəsi çıxış etsə də, müvəffəqiyyətli həlli daha çox ölkə rəhbərliyindən, hakimiyyət strukturlarından və həyata keçirilən rəsmi dövlət siyasətindən asılı olacaqdır.

Avropa və dünyanın enerji təhlükəsizliyi sahəsindəki mövqeləri qorumaq, gücləndirmək və ölkənin milli maraqları ilə sıx əlaqələndirmək

Azərbaycan regionda və dünyada geosiyasi mövqeyini möhkəmləndirən əsas amillərdən biri Xəzərin ona məxsus sektorundakı zəngin karbohidrogen ehtiyatları və və həmin resursların alternativ marşrutlarla dünya bazarlarına daşınması sahəsində həyata keçirdyi müstəqil və qərbyönümlü enerji siyasəti olmuşdur. Ardıcıl şəkildə həyata keçirdiyi yeni neft strategiyası ilə Azərbaycan qısa müddətdə *Avrasiynın alternativ enerji daşıyıcılarının tranzit qovşağına və əsas təminatçılarından birinə* çevrilmişdir. Mütəxəssislərin fikrinə görə, Azərbaycan Avrasiyanın "elə bir geosiyasi məkanına çevrilmişdir ki, orada "ABŞ, Avropa İttifaqı, Rusiya və başqa dünya güclərinin geoiqtisadi maraqları, geosiyasi və hərbi-geostrateji mövqeləri birbirinə ən yüksək dərəcədə yaxındır".[79]

Cənubi Qafqazda ən iri enerji, nəqliyyat-kommunikasiya layihələrinin təşəbbüskarı olması və onların fəaliyyətini təmin etməsi təkcə Azərbaycanın özünün deyil, həm də bütün Qara – Xəzər dənizi hövzəsi regionunun, Avropa və Amerikanın, bütün dünyanın strateji maraqlarını təmin edir. *Avropa Birliyinin*

[79] Yohannes Rau. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair Avropanın mövqeyi // "Azerbaijan Focus" jurnalı, yanvar-mart 2010, s. 117

enerji təhlükəsizliyində həm tranzit ölkə, həm də neft və qaz təchizatçısı kimi tanınması XXI əsrdə Azərbaycanın geosiyasi dəyərini artırması üçün geniş perspektivlər yaradır. Bu sahədə onun bundan sonrakı həlledici mövqelərinin qorunması və möhkəmləndirilməsinə artıq təkcə əvvəlki qərbyönümlü mövqelərdə dayanması, yaxud fərqli, müstəqil və alternativ geosiyasət yürütməsi bəs etməyəcəkdir. *Azərbaycanın bundan sonrakı geosiyasi və geoiqtisadi dəyəri daha praqmatik və real şəkildə, dünyada kəskin rəqabət şəraitində, enerji bazarlarına daha ucuz qiymətə, sabit və artan miqdarda enerji resursları çıxarmaq qabiliyyətindən, bölgədəki xarici investisiyaların həcmini artırmasından, öz milli kapitalı ilə sonrakı transmilli enerji-nəqliyyat layihələrində xarici partnyorlarla bərabər hüquqlu tərəfdaşlıq əsasında iştirak etməsindən və s. asılı olacaqdır.* Yalnız ölkənin neft və qaz hasilatını ildən-ilə artırmaqla və onu Qərbin artan enerji tələbatı ilə ağıllı surətdə əlaqələndirməklə üçüncü minillikdə Azərbaycanın geosiyasi və geoiqtisadi perspektivini artırmaq, dünyada, Avrasiya regionunda və Cənubi Qafqazdakı mövqelərini getdikcə daha da möhkəmləndirmək olar. Mütəxəssislərin fikrinə görə, yaxın on ildə ölkənin ixrac üçün nəzərdə tutulan neft-qaz hasilatının artırılması və sonrakı iyirmi ildə sabit vəziyyətdə saxlanması təkcə onun iqtisadi və maliyyə vəziyyətini yaxşılaşdırmaq anlamında deyil, həm də beynəlxalq geosiyasi dəyərini artırmaq baxımından vacibdir. Bu reallığı nəzərə alaraq Xəzər dənizinin Azərbaycan sektorundakı enerji resurslarının istehsalının getdikcə artırılması və ən əsası isə, bu məhsulların məhz Avropa bazarına ixrac edilməsi Azərbaycanın dünya miqyasına çıxması, əhəmiyyətli "dünya dövlətinə" çevrilməsini şərtləndirən əsas amillərdən birincisidir.

2009-2010-cu illərdə ümumdünya iqtisadi böhranı ilə əlaqədar dünyada neftə tələbat qismən azalsa da, 2011-ci ildən enerji daşıyıcılarına ehtiyacın yenidən artması və müvafiq ola-

raq qiymətlərin sürətlə yüksəlməsi, sonrakı onilliklərdə də neft və qazın dünya geosiyasətində əsas katalizator olacağından xəbər verir. Dünyanın aparıcı treyderlərinin yaxın perspektivdə neft və qaza olan ehtiyac, bu məhsulların dünya bazarlarındakı qiyməti və s. ilə bağlı proqnozları göstərir ki, planetar iqtisadiyyatının dirçəlməsi, xüsusilə Hindistan, Çin və Yaxın Şərqdə neftə olan tələbatın yüksəlməsi onun yaxın gələcəkdə qiymətinin də artmasına səbəb olacaq. "Barclays Capital" və "Bank of Amerika"nın proqnozlarına görə, 2011-2013-cü illərdə neftin bir barelinin qiyməti, təxminən 100, 2014-2015-ci illərdə isə 135-150 dollara qədər yüksələ bilər.[80]

Göstərilən əsaslı arqumentlər Xəzər hövzəsinin və konkret olaraq, Azərbaycanın gələcək geosiyasi perspektivlərini tam təsəvvür etməyə imkan verir. Deməli, gələcəkdə Azərbaycan bir tərəfdən öz karbohidrogen resursları ilə dünyanın enerji asılılığında həlledici həlqə rolunu qoruya biləcək, həm də bu məhsulların satışından külli miqdarda gəlir əldə etmək imkanını saxlayacaqdır ki, bu da 2009-cu ilin sonunda öz iqtisadiyyatında keçid dövrünü başa çatdırmış bir ölkənin gələcək dinamik inkişafının yeni mərhələsinə çevrilə bilər.

Enerji ixracı marşrutlarının şaxələndirilməsi və yeni bazarların axtarışı siyasətinin davam etdirilməsi

Azərbaycan Avropa və Asiyanın nəqliyyat-kommunikasiya dəhlizlərinin və neft-qaz ixracatı marşrutlarının üzərində yerləşir. *Ölkənin dünyada önəmli rol oynayan dövlətlərlə geoiqtisadi münasibətlərinin taktikasının düzgün müəyyənləşdirilməsi, neft-qaz ixracı marşrutlarının şaxələndirilməsi və səmərəli istifadəsinin təşkili, xarici aləmlə mövcud nəqliyyat-tranzit əlaqələrinin genişləndirilməsi, dünyada yeni-yeni satış bazar-*

[80] Bax: "Yeni Müsavat" qəzeti.-24 fevral 2010.-N49.

larının axtarılması və mənimsənilməsi onun 2010-2020-ci illərdə reallaşdıracağı əsas geosiyasi və geoiqtisadi vəzifələr sırasına daxildir. Bu məqsədlə xarici aləmlə Azərbaycanı birləşdirən transmilli və ölkədaxili strateji tranzit-nəqliyyat infrastrukturlarının, neft-qaz kəmərlərinin yenidən qurulması, buraxılış və daşıma gücünün bir neçə dəfə artırılması xüsusi əhəmiyyət kəsb edir.

Rəsmi məlumatlara görə, keçən illərdə 34 beynəlxalq transmilli şirkət və 16 nüfuzlu dövlət Azərbaycanın təşəbbüsü ilə Xəzər regionundakı nəqliyyat-kommunikasiya dəhlizi və ixrac kəmərlərinin çəkilişi, yenidən qurulması və s. layihələrinə qatılmış, onların reallaşmasında iştirak etmişdir. Bu layihələrdən ən vacibi, şübhəsiz ki, artıq istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan (BTC) əsas neft və Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz kəməri, eyni zamanda Avropa Birliyinin TRASEKA layihəsi çərçivəsində yenidən qurulmuş və bərpa edilmiş Trans Qafqaz nəqliyyat-kommunikasiya dəhlizi ("İpək yolu") və tikilməkdə olan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsidir. Bunlardan Azərbaycanın memarı olduğu BTC, BTƏ ixrac kəmərləri və AB-nin təşəbbüsü ilə bərpa olunan TRASEKA ölkənin və regionun geosiyasi vəziyyətini köklü şəkildə dəyişmək gücündə olan qlobal layihələrə çevrilmişdir. Region ölkələrinin müstəqilliyinin gücləndirilməsi, iqtisadiyyatının, sosial həyatının, ölkədaxili milli-vətəndaş birliyinin, siyasi plüralizm, vətəndaş cəmiyyəti və demokratik dəyərlərin inkişaf etdirilməsində və ən əsası, regional, beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında BTC-nin rolu bütün dünyada, hətta rəqib ölkələrdə belə yüksək qiymətləndirilir. Məsələn, ABŞ Dövlət katibinin müavini Uilyam Berns 2010-cu ilin fevralında Bakıya səfəri çərçivəsində Xarici İşlər Nazirliyinin Diplomatiya Akademiyasında çıxış edərkən bildirmişdir ki, BTC Xəzərin və Orta Asiyanın enerji resurslarını bütün dünyaya açmış, Azər-

baycanın milli iqtisadiyyatına ciddi təkan vermiş və ölkənin müstəqil iqtisadi gələcəyinə təminat yaratmışdır.[81]

Tədqiqatçılar hesab edir ki, dünyanın aparıcı ölkələrinin və şirkətlərinin BTC-nin reallaşmasındakı iştirakı təkcə Azərbaycanın deyil, həm də bölgənin enerji resursları ilə zəngin digər ölkələrinin geoiqtisadi gücünü artırmış, bəzi regional qüvvələrin geosiyasi təsirlərdən azad etmiş və beynəlxalq aləmdə onların reallaşdırdığı transmilli enerji layihələrinə dəstək olmuşdur. Layihə iştirakçısı olan əksər dövlətlər həm də regionun geosiyasi proseslərinə daha fəal cəlb olunmuş və ona təsir göstərmək imkanı qazanmışdır. Azərbaycan tərəfindən davamlı şəkildə həyata keçirilən bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq, bütün tərəflərin ortaq maraqlarının nəzərə alınması və s. bu ölkənin xarici müttəfiqlərinin sayının artmasını şərtləndirmişdir.

Lakin Azərbaycana çoxsaylı müttəfiqlər qazandıran BTC, BTƏ kəmərləri, TRASEKA və s. transmilli layihələr həm də onu ciddi geosiyasi təzyiqlərlə üz-üzə qoymuşdur. Burada söhbət ilk növbədə regiondakı əsas geosiyasi oyunçulardan olan Rusiya və İrandan gedir. Moskva ilk gündən Rusiya ərazisindən yan keçməklə Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji ixracı layihələrinə "özünün regiondakı maraqlarına zidd təşəbbüs" kimi yanaşmış və mübarizə aparmışdır. Çünki, əvvəlki dövrlərdə davamlı şəkildə Xəzər hövzəsində istehsal olunan enerji resurslarını, neft və qaz marşrutlarını nəzarətdə saxlayan Rusiya, Xəzəryanı ölkələrin öz milli sərvətlərinə sahib çıxması və BTC-nin reallaşmasından sonra əvvəlki gəlirlərinin bir qismindən məhrum olmuşdur. Yaxud, TRASEKA-nin yenidən bərpa olunması ilə bərabər, bu ölkə həm də bölgədə əsas tranzit-daşıma statusunu, region ölkələrinə geosiyasi təsir mexanizmlərini itirmişdir. Hətta, BTC və BTƏ neft-qaz kəmərləri

[81] Bax: "Şərq" qəzeti, 20 fevral 2010.-N32.

layihəsini geosiyasi tədqiqatçılar içərisində «Rusiyanın Xəzərdəki açıq məğlubiyyəti» adlandıranlar da mövcuddur. Lakin rəsmi Bakının tarazlaşdırılmış siyasəti və bölgə ölkələrinin maraqlarının maksimum nəzərə alınması ilə bağlı reallaşdırdığı tərəfdaşlıq tədbirləri bu ölkə ilə problemin kəskinləşməsinə və açıq münaqişəyə keçməsinə mane oldu. Qərb şirkətləri ilə «Əsrin müqaviləsi»ni imzalayan, BTC və BTƏ-nin reallaşmasına nail olan Azərbaycanın, hər üç layihəni özünün maraqlarına zərbə kimi qəbul edən Moskva ilə münasibətlərinin kəskinləşməsinə və tam pozulmasına imkan vermədi və onunla ortaq dil tapa bildi.

Azərbaycan hazırda beynəlxalq aləmlə iqtisadi, enerji, nəqliyyat və s. əlaqələrini heç bir kənar təsirə məruz qalmadan, müstəqil şəkildə reallaşdırmağa çalışır. Bunun üçün ölkə rəsmiləri qarşıdan gələn illərdə həm mövcud transmilli nəqliyyat-kommunikasiya və enerji kəmərlərinin sabit fəaliyyətini, öz məhsullarının bu dəhlizlərlə sərbəst ixracını təmin etməli, həm də yeni-yeni alternativ bazarların axtarılmasını, kəmərlərin çəkilməsini və enerji ixracının şaxələndirilməsini davam etdirməlidir.

Geosiyasi mövqelərin möhkəmləndirilməsi taktikasının çevikləşdirilməsi və sistemli təminatı

Azərbaycan Respublikasının bugünkü əsas strateji mənafeləri və geosiyasi maraqları ilk növbədə onun *dövlət suverenliyinin qorunub saxlanılmasını, ərazi bütövlüyünün bərpa edilməsini, əhalisinin həyat şəraitinin yaxşılaşdırılması və təhlükəsizliyinin təmin olunmasını, ölkə daxilində dayanıqlı siyasi və liberal iqtisadi sistemin formalaşdırılması və inkişafını, sosial-iqtisadi tərəqqinin davam etdirilməsini, xarici aləmlə ortaq maraqların tapılması və uzlaşdırılmasını, ölkənin milli maraqlarının təminatı ilə bağlı qazanılmış beynəlxalq dəstəyin get-*

dikcə artırılması və s. vəzifələrin reallaşmasını tələb edir. Bu məsələlər Azərbaycanın bir dövlət kimi mövcudluğunu, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı mövqelərinin güclənməsini şərtləndirən əsas strateji vəzifələr hesab olunur.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan diplomatiyasının bütün səyləri planetin mürəkkəb siyasi münasibətlər sistemində ölkənin müharibədən çıxarılmasına, pozulmuş ərazi bütövlüyünün bərpa olunmasına, milli, regional və beynəlxalq maraqlarının təmin edilməsinə, xarici aləmlə dinc əməkdaşlıq mühitinin yaradılmasına yönəlmişdir. Prezident Heydər Əliyevin diplomatik məharəti, Azərbaycanın mühüm coğrafi mövqeyi, zəngin təbii ehtiyatları, dünya üçün kəsb etdiyi geosiyasi önəm və s. həmin vəzifələri həll etməyə şərait yaratmışdır. Azərbaycanın Avrasiyadakı əhəmiyyətli strateji mövqeyi və geosiyasi dəyəri məşhur dünya politoloqları, aparıcı tədqiqat mərkəzləri tərəfindən də etiraf olunmuşdur. Politoloq Z.Bjezinski bildirmişdir ki, «Müstəqil Azərbaycan Qərbin Xəzər hövzəsinin və Orta Asiyanın zəngin enerji resurslarına çıxışı üçün dəhliz ola bilər. Və əksinə, asılı Azərbaycan Orta Asiyanın dünyadan təcrid edilməsi deməkdir».[82]

Digər tərəfdən, bir çox mütəxəssislər hesab edirlər ki, Azərbaycanın dünyadakı geosiyasi mövqeyinə müsbət təsir edən amillərdən biri, bəzi hallarda onun mövqeyinin digər region ölkələrininki ilə üst-üstə düşməməsidir. Lakin bu geosiyasi uyğunsuzluq mövcud milli resursların bölüşdürülməsi və ortaq maraqlar naminə reallaşdırılan "kompromis siyasət" vasitəsilə aradan qaldırılır. Azərbaycanın dünyanın mühüm transmilli geosiyasi və geoiqtisadi maraqların kəsişmə nöqtəsində yerləşməsi və ölkə rəhbərliyinin indiyə qədər bu üstünlükdən məharətlə istifadə etməsi region ölkələri ilə yaranan ziddiyyətli

[82] Bax: Бжезинский З.К. Великая шахматная доска. Господства Америки и его геостратегические императивы. М., 1998.s. 232-234.

məqamları aradan qaldırmışdır. Məsələn, Azərbaycanın da iştirak etdiyi tarixi «İpək yolu»nun bərpası ilk dövrdə Rusiyanı razı salmasa da, sonrakı dövrdə Azərbaycan dövlətinin yürütdüyü siyasət nəticəsində bu ölkə rəsmiləri bəhs olunan dəhlizin bütün regiona, o cümlədən də Rusiyaya mənfəət gətirəcəyinə inandıra bilmişdir. Çünki sözün həqiqi mənasında bu layihə təkcə planetin fərqli qütblərində yerləşən xarici ölkələrin öz məhsullarını bir-birinə idxal-ixrac etmək baxımından deyil, həm də Avrasiya bölgəsinə nəqliyyat-infrastruktur sahəsində yüksək texnologiyalar gətirmək, yeni iş yerləri açmaq, dövlətlərarası iqtisadi bağlılığı intensivləşdirmək, xarici investisiya yönəltmək və s. anlamında mühüm əhəmiyyət kəsb edir. Azərbaycan öz səmərəli və müsbət mahiyyətli geosiyasəti ilə Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin açılmasında mühüm rol oynayaraq, transqafqaz və transasiya nəqliyyat dəhlizlərinin fəaliyyət göstərməsində təkcə öz milli maraqlarını deyil, Rusiya da daxil olmaqla bütün region ölkələrinin maraqlarını təmin etmiş, bölgəni dünyanın əsas tranzit mərkəzlərindən birinə çevrilmişdir. Bakı-Tbilisi-Qars dəmir yolu da bu anlamda təkcə Azərbaycanın deyil, bütün bölgənin geoiqtisadi maraqlarının təmin olunmasında mühüm əhəmiyyət kəsb edəcəkdir.

Ciddi transmilli layihələri həyata keçirərkən Azərbaycanın geosiyasi və geoiqtisadi maraqlarının gələcək perspektivləri bundan sonra da, *hər hansı qarantiyalı inkişaf və tərəqqiyə nail olmaq, əsas strateji həyati ehtiyacları təmin etmək məqsədilə ölkənin geosiyasi addımlarını nüfuzlu regional və beynəlxalq dövlətlərlə, hövzədə geosiyasi maraqları ölkəmizlə üst-üstə düşən transmilli aktorlarla, güc mərkəzləri ilə uzlaşdırmağı tələb edir*. Hazırda Azərbaycan yeni müstəqillik əldə etmiş dövlət kimi, öz milli mənafelərini mövcud geosiyasi reallıqlara adekvat olaraq müəyyənləşdirməyə, regionda marağı olan əsas ölkələrlə uzlaşdırmağa məcburdur. Yaranmış vəziyyətdə bəzən Azərbaycan da başqa hövzə ölkələri kimi öz milli mənafelərin

qeyri əsas hesab olunan bir qismini kiməsə güzəştə getməyə, yaxud hansısa "milli dividentləri" kiminləsə bölüşməyə məcbur olur. Əsas odur ki, bu prosesdə dövlət mövcud imkanlar daxilində öz milli və geosiyasi maraqlarının ən vacib, strateji sahələrini kiməsə güzəştə getməsin. Dünya siyasətşünasları belə fəaliyyəti planetin geosiyasi və beynəlxalq münasibətlərinin hazırkı vəziyyətində doğru addım hesab edir və Azərbaycanın bundan sonra da məhz belə davranış nümayiş etdirəcəyini proqnozlaşdırırlar.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dinc yolla nail olunması

Xəzər hövzəsi və Cənubi Qafqazın geosiyasi perspektivləri ilə bağlı bütün beynəlxalq dəyərləndirmələrdə regional sülh və təhlükəsizlik məsələsi əsas şərt kimi irəli sürülür. Hazırda regionun inkişafı və dünyada gedən inteqrasiya proseslərinə qatılması məhz yerli ölkələr arasındakı sivil, dinc birgəyaşayış münasibətlərinin bərqərar olmasından, regional sülhün yaradılması və bölgədəki sabitliyin saxlanılmasından asılı vəziyyətə düşməkdədir. Bu gün Qafqazdakı postsovet ölkələrinin dördü də daxili etnik-separatist münaqişələrə cəlb olunmuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ, Gürcüstan Abxaziya, Gürcüstan Cənubi Osetiya və Rusiya Çeçenistan münaqişələri regionun sabitliyini hər an poza biləcək potensial təhlükə mənbələridir. Qloballaşma dövründə istənilən ölkənin daxili həyatındakı münaqişə təkcə həmin ölkənin deyil, həm də ümumilikdə regionun və dünyanın geosiyasi və təhlükəsizlik mühitinə mənfi təsir göstərir, ölkələrin müxtəlif yönlü maraqlarına zərbə vurur.

Hazırda rəsmi Bakı Azərbaycanın və ümumilikdə, regionun geosiyasi, geoiqtisadi maraqları və perspektivi baxımından, bütün daxili və xarici münaqişələrin tezliklə, yeni mühari-

bəyə əl atmadan- sülh yolu ilə nizamlanmasının tərəfdarı kimi çıxış edir. Lakin eyni zamanda, "nə sülh, nə müharibə" vəziyyətinin də sonsuza qədər uzanmasına göz yuma bilməyəcəyi, "sülh danışıqları nəticəsiz yekunlaşacağı təqdirdə digər vasitələrlə öz beynəlxalq və milli haqlarını təmin edəcəyi" haqqında ara-sıra bəyanatlar səsləndirir. Əlbəttə, bu beynəlxalq münasibətlərin hazırkı vəziyyətində ən doğru və optimal mövqedir. Çünki Cənubi Osetiya ətrafında Rusiya-Gürcüstan müharibəsindən sonra yaranmış beynəlxalq və regional hərbi-geostrateji vəziyyət göstərir ki, yaxın zamanlarda nə müharibə, nə də ki, sülh yolu ilə Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünü bərpa etmək o qədər də asan olmayacaq. Hazırda Ermənistan dünya dövlətlərinin ikili siyasətindən, BMT-nin və ATƏT-in səmərəsiz fəaliyyətindən, Minsk qrupunun və həmsədr ölkələrin neçə illərdir ki, ciddi bir mövqe ortaya qoya bilməməsindən, dünyadakı erməni diasporunun aparıcı ölkələrin rəsmi siyasətinə göstərdiyi ciddi təsirdən, Rusiya və başqa ölkələrin hərbi-iqtisadi dəstəyindən bəhrələnərək öz işğalçı siyasətindən əl çəkmək istiqamətində hər hansı ümidverici mövqe sərgiləmir. 2009-cu ildə ATƏT-in Minsk qrupunun aktivləşməsinə baxmayaraq, hələ də münaqişənin ədalətli həllinə səbəb olacaq prinsipial mövqe nümayiş etdirməməsi, əlbəttə, haqlı olaraq 20 ilə yaxın bir müddətdə sülhə ümid edərək gözləmə mövqeyi tutmuş Azərbaycanın təkcə səbrini tükətmir, həm də getdikcə müharibəyə başlamaq ehtimalını artırır.

Bu gün Dağlıq Qarabağ problemi təkcə iki ölkə arasında yaşanan lokal münaqişə deyil, bütün regionun ciddi geosiyasi böhrana sürüklənməsidir və ayrı-ayrılıqda hər iki ölkənin sosial-iqtisadi inkişafı yolunda böyük maneədir. Beynəlxalq iqtisadi institutların hesablamaları göstərir ki, münaqişənin mövcudluğu region ölkələrinin iqtisadiyyatına qoyulan xarici sərmayələrin həcmini dəfələrlə azaltmışdır. Beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər və nüfuzlu şirkətlər region ölkələri ilə

iqtisadi əlaqələri möhkəmlətməyin əsas şərti kimi məhz "münaqişələrin sülh yolu ilə nizamlamasını və regionda sabitliyin qorunmasını" göstərirlər.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına münasibət bildirən bütün nüfuzlu qurumlar və ekspertlər bu problemi "regionda sülh və sabitliyi ən çox təhdid edən real bir təhlükə" kimi xarakterizə etmişlər və etməkdədirlər. İstər Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının sessiyasındakı çıxışı zamanı, istərsə də sonrakı çıxışlarında Azərbaycan prezidenti İlham Əliyev işğal altında olan Azərbaycan ərazilərinin rəsmi Bakının və beynəlxalq aləmin nəzarətindən çıxdığını, "nəzarətsiz və təhlükəli zonaya" çevrildiyini bəyan etmişdir. Bu isə həmin ərazidə beynəlxalq terrorizm, nəzarətsiz silah və narkotik qaçaqmalçılığı üçün əlverişli şərait yaradır.

Rəsmi Bakının hazırda xarici siyasətinin əsas istiqamətlərindən birini məhz dünya birliyinin bu problemə beynəlxalq hüquqa uyğun, konstruktiv və prinsipial yanaşmasını təmin etmək və onun köməkliyi ilə Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olmaq təşkil edir. Keçən müddətdə bu istiqamətdə həyata keçirilən fəaliyyət nəticəsində Azərbaycan hökuməti bəhs olunan münaqişənin mahiyyətini açmış və dünya ictimaiyyətinə çatdırmış, ermənilərin ölkəmizə qarşı həyata keçirdikləri işğalçılıq faktını BMT TŞ-nin dörd qətnaməsində, ATƏT, Avropa İttifaqı, Avropa Şurası, NATO, İKT və s. qurumların sənədlərində əks etdirmişdir. Lakin, Dağlıq Qarabağ münaqişəsinin 20 ildən çoxdur ki, həllini tapa bilməməsində dünyanın aparıcı dövlətlərinin və onların təmsil olunduğu qurumların ikili standartlar çərçivəsindəki yanaşmasının, yalnız deklarativ bəyanatlar verməklə kifayətlənməsinin, məsələyə seyrçi münasibət göstərməsinin xüsusi təsiri olmuşdur. Qeyd edək ki, məsələn Avropa Birliyi ölkələrinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə ikili standartlardan ya-

naşması Avropa ictimai rəyinin özündə də birmənalı qarşılanmır. "Bir çox Avropa siyasətçiləri əksər adi vətəndaşlar kimi Cənubi Qafqazda yerli münaqişələrin Avropa İttifaqına yaratdığı təhlükələri hələ də lazımınca dəyərləndirmir. Siyasətçilər və kütləvi informasiya vasitələrinin diqqəti nədənsə daha çox Avropa İttifaqının qonşuluğunda yerləşən Cənubi Qafqazdakı münaqişələrə deyil, əsasən Əfqanıstan, İran, İraq, Şimali Koreya və hətta Venesuela kimi ölkələrdə yönəlib. Avropanın enerji təhlükəsizliyi üçün Cənubi Qafqazdakı yerli münaqişələrdən irəli gələn təhdidlər isə ya gec anlaşılır, ya da bütövlükdə anlaşılmır"- deyə, Avropalı tədqiqatçı qeyd edir. Onun fikrinə görə "Azərbaycan münaqişənin beynəlxalq hüquqi normalar və prinsiplər çərçivəsində həllinə tərəfdardır. Lakin Ermənistanın qeyri-konstruktiv mövqe tutması münaqişənin həllinə imkan vermir... Azərbaycanın işğal olunmuş ərazilərinin qeyd-şərtsiz azad olunmasını nəzərdə tutan BMT-nin 822, 853, 874 və 884 saylı qətnamələrinin tələblərini yerinə yetirmir. Odur ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarını hərbi yolla azad etmək variantı qaçılmaz hala gəlir".[83]

Mütəxəssislərin fikrinə görə, 1998-ci ildən başlayaraq ildən-ilə öz iqtisadi və hərbi potensialını gücləndirən, bütün dünyada nüfuzu artan və etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycanın fəal xarici siyasəti, diplomatik uğurları danışıqlar prosesinin dinamikləşməsinə, konstruktivlik potensialının artmasına səbəb olmuş, Ermənistanı real seçim qarşısında qoymuşdur. 2010-cu ilin yanvarında "Euronews" televiziya kanalına müsahibəsində Prezident İlham Əliyev də " son illərdə Azərbaycanın iqtisadi, siyasi və hərbi potensialının güclənmə-

83 Yohannes Rau. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair Avropanın mövqeyi // "Azerbaijan Focus" jurnalı, yanvar-mart 2010, s. 112-117.

sinin Ermənistanla danışıqlar prosesində vacib rollardan birini oynadığını, sülh prosesinə müəyyən müsbət dinamika gətirdiyini qeyd etmişdir."[84]

Bəzi tədqiqatçılar hesab edir ki, Azərbaycanın siyasi və hərbi mövqelərinin, iqtisadi potensialının bundan sonra da güclənəcəyi, Ermənistanda isə sosial-iqtisadi böhranın daha da dərinləşəcəyi davam etsə, onun gələcəkdə "Dağlıq Qarabağ məsələsində ciddi güzəştlərə getməsi qaçılmaz olacaqdır. Bu fikir son illərdə Ermənistanın xarici diaspora qurumlarında və ölkə daxilində də açıq etiraf olunur. Məsələn, Erməni Milli Konqresinin nümayəndəsi, politoloq Levon Zurabyanın fikrincə, Ermənistan hakimiyyətinin gələcəkdə güzəştə getməsinin əsl səbəbi "məhz hərbi-siyasi balansın Azərbaycanın xeyrinə dəyişməsi" ola bilər. O etiraf edir ki, bugünkü Azərbaycan özünün hərbi, iqtisadi və digər resursları ilə Ermənistandan dəfələrlə güclüdür.[85]

Lakin dünyanın əksər konfliktoloqları bu münaqişənin həllini yalnız sülh yolu ilə, ədalətli, beynəlxalq hüquq normaları əsasında mümkün sayır və belə olacağı təqdirdə Azərbaycanın real geosiyasi imkanlarının daha da artacağını, onun öz regional lider statusunu bir qədər də möhkəmləndirəcəyini proqnozlaşdırırlar. Yenidən müharibəyə cəlb olunması hazırki dövrdə əsasən, dinamik inkişaf edən və getdikcə dünyada öz nüfuzunu artıran, beynəlxalq mövqelərini gücləndirən tərəfin-Azərbaycanın ziyanına, Ermənistanınsa xeyirinə işləyəcək. Çünki, bu müharibə getdikcə Azərbaycanın ədalətli sülh təklifləri ilə razılaşmaqdan başqa çıxış yolu və bəhanələri qalmayan, arqumentləri tükənən Ermənistana, onun beynəlxalq havadarlarına, regionun və dünyanın anti-azərbaycan qüvvələrinə Azərbaycanı "millitarist və müharibə tərəfdarı olan ölkə kimi"

[84] Bax: "Azərbaycan" qəzeti, 19 yanvar 2010.-N39.
[85] Bax: Azət Tac. Bülleten, 03 fevral 2010.

dünyada "rüsvay və biabır etmək" üçün göydəndüşmə bir fürsət olacaqdır.

Balanslaşdırılmış xarici siyasət: Qərblə və region dövlətləri ilə qarşılıqlı maraqlara söykənən tərəfdaşlıq münasibətlərinin yaradılması və inkişaf etdirilməsi

SSRİ-nin süqutundan sonra analitiklər dünyada "soyuq müharibə" dövrünün bitdiyini və Qərbin postsovet ölkələri, xüsusilə, Rusiya ilə münasibətlərində yeni əməkdaşlıq erasının başlandığını bəyan etdilər. XX əsrin son onilliyində postsovet məkanında və Şərqi Avropada demokratikləşmə dalğasının geniş vüsət alması, Rusiyada çoxsaylı daxili problemlərin mövcudluğu, o cümlədən müşahidə olunan iqtisadi tənəzzül, ictimai-siyasi çəkişmələr, onun yerləşdiyi regiondakı qeyri-sabitlik, Çeçenistan müharibəsi və digər məsələlər rəsmi Moskvanın diqqətini müəyyən mənada Avrasiya bölgəsində və dünyada yaşanan əsas geosiyasi proseslərdən yayındırırdı. Diqqətini daha çox daxili problemlərin həllinə yönəldən Rusiya, müvafiq olaraq regionda, Avropada və dünyada öz geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqelərini bir-birinin ardınca itirməyə başladı. Həmin dövrdə Rusiyanın xarici siyasətində təkcə Cənubi Qafqaz və Azərbaycanda deyil, bütün istiqamətlərdə anlaşılmaz hərəkətlər müşahidə olunurdu. Qərb analitikləri bunu təkcə SSRİ-nin dağılmasının fəsadları kimi xarakterizə etmir, həm də Rusiyada siyasi sistemin və hakimiyyət strukturlarının böhranı kimi təqdim edir, bu prosesi demokratikləşmənin xeyirinə təsnif edərək, onun daha da dərinləşməsinə çalışırdılar. Rusiya ekspertləri isə iddia edirdilər ki, Qərbin məqsədi təkcə SSRİ-ni məhv etmək deyil, həm də Rusi-

yanın parçalanmasına nail olmaq idi. Onlar 1990-2000-ci illərdə Rusiyada müşahidə olunan daxili anarxiya və xaosun əsl səbəbini də, məhz "Qərbin antirus siyasətində" axtarırdılar.

2000-ci ilin əvvəlində Rusiyanın xarici siyasətində sabitləşmə müşahidə olunmağa başlayır. Bəzi ekspertlər Rusiyanın həmi dövrdəki xarici siyasət kursunu "praqmatik strategiya" kimi dəyərləndirərək, öz fikirlərini onunla əsaslandırmağa çalışırdılar ki, "Rusiya müasir dövrün inkişaf tendensiyalarını nəzərə alaraq imperiya siyasətini "qarşılıqlı faydalı əməkdaşlıq mühitində milli maraqların müdafiəsi xətti" ilə əvəz etmişdir". Lakin 2007-ci ildən sonra dünyada neftin qiymətinin birdənbirə qalxması həm tədqiqatçıların nikbinliyə bir qədər şübhə yaratdı, həm də Moskvanın da ABŞ və b. böyük ölkələr kimi, öz "fövqəldövlət ambisiyalarından" heç də geri çəkilmədiyini sübut etdi. Bir qədər sonra Qərblə Rusiya arasında başlanan yeni geosiyasi "əzələ nümayişi"ni 2009-ci ilin beynəlxalq maliyyə böhranı da dayandıra bilmədi. 2009-2010-cu illərdə "Rusiyanın iqtisadi tənəzzülünün başlanğıcı" haqqındakı bəzi fikirlər də özünü tam doğrultmadı. Hazırda tədqiqatçılar qarşıdan gələn illərdə Rusiya ilə Qərb arasında Avrasiyada yeni geosiyasi, geoiqtisadi rəqabətin, hərbi-geostrateji ziddiyyətlərin güclənəcəyini proqnozlaşdırır və öz fikirlərini kifayət qədər məntiqi mülahizələrlə əsaslandırırlar.

Azərbaycan öz milli maraqlarına söykənərək, hazırda Qərb-Rusiya münasibətləri fonunda "tərəfsiz və tarazlaşdırılmış siyasi kurs" yeridir. Rəsmi Bakının məxsusi maraqları eyni zamanda, həm Qərblə əvvəlki strateji münasibətləri qorumaq, həm də Rusiya və İranla tərəfdaşlıq münasibətlərini genişləndirməyi tələb edir. Ölkənin milli və təhlükəsizlik maraqları həm də Azərbaycanın əsas müttəfiqi hesab olunan Türkiyə ilə

strateji müttəfiqlik münasibətlərinin qorunub saxlanılmasını və hərbi-geostrateji sahədə daha da dərinləşdirilməsini zəruri edir.

Azərbaycanın mövcud geosiyasi maraqları və bugünkü rəsmi siyasəti ölkə ərazisinin və Cənubi Qafqazın kimlərinsə "geosiyasi və hərbi-geostrateji münaqişə obyektinə" deyil, bütün sivil dünyanın "tərəfdaşlıq, qarşılıqlı-faydalı əməkdaşlıq və ədalətli iqtisadi yarış meydanına" çevrilməsini tələb edir. Rəsmi Bakı indiyə qədər Rusiya, Qərb, Türkiyə, İran və b. güclər arasında- Avrasiya, Xəzər hövzəsi və Cənubi Qafqazın geoiqtisadi və geosiyasi hədəfləri uğrunda gedən mübarizədən "tam müstəqil mövqe tutmaqla" və öz milli maraqlarına uyğun hərəkət etməklə, müəyyən məsafə saxlamağa nail olmuşdur ki, bu da onun regiondakı geosiyasi mövqelərini daha da gücləndirmişdir.

Məlum olduğu kimi, ABŞ-da baş verən 2001-ci il 11 sentyabr faciəsindən və dünya geosiyasətində yaranan "yeni reallıqlar"dan sonra Azərbaycanın bölgədəki geosiyasi çəkisi yalnız Qərb üçün deyil, həm də ayrıca olaraq Türkiyə, İran və Rusiya üçün də artmışdır. Rəsmi Bakının əldə etdiyi əsas geostrateji uğur ondan ibarət olmuşdur ki, o regionda geosiyasi maraqları təmsil olunan güc mərkəzlərinin hamısı üçün "ortaq balans obyektinə" çevrilmiş və onların heç biri Azərbaycanın "zəif və gücsüz olmasında", kiminsə "forpostu" statusunda çıxış etməsində maraqlı olmamışlar. Məsələn, Qərb və Türkiyə "müstəqil və güclü" Azərbaycana Rusiyanın, yaxud İranın "təzyiqlərinə sinə gərən, onların bu regionu tam nəzarətə götürməsinin qarşısını ala biləcək faktor kimi" yanaşdığı halda, İran Azərbaycandan "öz ərazisindən bu ölkəyə qarşı NATO və ABŞ-ın istifadə etməsi istəyinə müqavimət göstərdiyinə" və s. müstəqil iradəsinə görə razı qalmışdır. Zbiqnev Bjezinskinin sözlərinə görə, ABŞ Azərbaycanın geosiyasi potensialını yük-

sək qiymətləndirir və Cənubi Qafqaz, Orta Asiya kimi strateji əhəmiyyətli regionda Azərbaycana «dayaq elementi» kimi yanaşır. Amerikalı strateqlərin fikrincə, Orta Asiya, İran, Yaxın Şərq, Cənub-Qərbi Rusiya və ümumilikdə bütün Qafqaz regionuna «körpü» rolunu oynayan Azərbaycan, ABŞ-ın xarici siyasətində əhəmiyyətli yer tutur. Qeyd etmək lazımdır ki, Bakı-Tbilisi-Ceyhan neft və Baki-Tbilisi-Ərzurum qaz kəmərlərininin işə düşməsi ilə Birləşmiş Ştatlar regiondakı əsas məqsədlərinin birinə nail olmuş- Rusiyanın bölgədəki enerji monopoliyasına son qoymuş, bölgə ölkələrinin, xüsusən, Gürcüstanın Moskvadan enerji asılılığını minimuma endirmiş və kəmərin ərazisindən keçdiyi ölkələr arasında (Azərbaycan, Gürcüstan, Türkiyə) strateji tərəfdaşlıq münasibətləri yaratmışdır. Bu layihə, eyni zamanda Xəzər hövzəsinin zəngin karbohidrogen resurslarının Avropa bazarlarına çıxarılmasına və bu ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsinə də əlverişli şərait yaratmışdır.

Məlum olduğu kimi, Azərbaycan paralel olaraq Bakı-Novorossiysk kəməri ilə Rusiya ərazisindən də neft nəqlini davam etdirir, Şimali Qafqaz və Çeçenistan məsələsində rəsmi Moskvanın mövqeyini dəstəkləyir, Müstəqil Dövlətlər Birliyi çərçivəsində onunla iqtisadi inteqrasiya proseslərində iştirak edir, regional terrorizmə qarşı mübarizədə öz fəallığı ilə seçilir, beynəlxalq təşkilatlarda Rusiya ilə bağlı istənilən müzakirələrdə onun əleyhinə olan bloklara qoşulmur və s. Bütün bunlar öz növbəsində, Rusiyanı da Azərbaycanın "tam neytral və tarazlaşdırılmış siyasət yürütmək gücündə olan" dövlət kimi qalmasında maraqlı edir. Bu həm də, rəsmi Bakının Rusiyanın rəqibi rolunda çıxış edən digər güc mərkəzlərindən "asılı vəziyyətə düşməməsinə" əlavə təminatdır. Azərbaycanın Cənubi Qafqazda rəqabət aparan hər üç mərkəzlə münasibətlərinin yüksək sə-

viyyədə qurulmasının əsas səbəbi də məhz yuxarıda göstərilən amillər və Azərbaycan prezidentinin indiyə qədər çevik manevr imkanlarından yetərincə bəhrələnə bilməsi olmuşdur.

Lakin "güclü Azərbaycan dövləti yaratmaq" və "heç kimdən asılı olmayan siyasət yürütmək" bəhs olunan ölkələrdən daha çox Azərbaycanın özünə lazımdır. Ötən müddətdə regionda formalaşmış geosiyasi mənzərə fonunda Azərbaycanın hərtərəfli və sürətli iqtisadi inkişafı, ölkədaxili milli-vətəndaş birliyi və ictimai-siyasi sabitlik onu gücləndirən, söz sahibinə çevirən əsas amillərdəndir. Azərbaycan artıq beynəlxalq aləmdə və xüsusən də regionda oturuşmuş dövlətə, sabit, nüfuzlu, rəyi nəzərə alınan, bir çox hallarda isə həlledici sözə malik geosiyasi aktora, öz mənafeləri naminə istənilən qüvvəyə müqavimət göstərməyi bacaran ölkəyə çevrilmişdir. Məsələn, 2009-cu ildə ABŞ və Avropa İttifaqının təhriki ilə Türkiyə-Ermənistan yaxınlaşmasının sonda iflasa uğramasında, Türkiyənin bu ölkə ilə sərhədləri açmaq fikrindən vaz keçməsində və əvvəlki mövqeyinə qayıtmasında Azərbaycanın ciddi müqavimət göstərməsi həlledici rol oynamışdır. Müasir dövrdə Azərbaycanın maksimum müstəqil siyasət həyata keçirməsi, xarici aktorlardan və amillərdən öz asılılığını minimuma endirməsi, fövqəlgüclər də daxil olmaqla ona olan beynəlxalq marağın güclənməsinə, onunla əməkdaşlıq və tərəfdaşlıq etmək istəyənlərin sayının artmasına gətirib çıxarmışdır. Ölkənin bundan sonrakı geosiyasi maraqları da, balanslı və tərəfsiz xarici siyasəti pozmadan, Türkiyə istisna olmaqla, Xəzər hövzəsi və Cənubi Qafqazda maraqları təmsil olunan böyük ölkələrin heç birinə ciddi üstünlük vermədən, əvvəlki tarazlı və çevik geosiyasi xəttin davam etdirilməsini tələb edir. Ölkənin milli maraqlarına söykənərək, bu mərkəzlərin hər biri ilə mövcud tərəfdaşlıq münasibətlərinin qorunub saxlanması və yaxud yenidən

yaradılaraq, inkişaf etdirilməsi Azərbaycanın növbəti onilliklərdəki əsas geosiyasi vəzifələrindən biri hesab olunur.

ABŞ-İran geosiyasi ziddiyyətləri fonunda hər iki dövlətlə dostluq və tərəfdaşlıq münasibətlərinin qorunması

1979-cu il İran islam inqilabından sonra dünyanın siyasi xəritəsində yeni bir ziddiyyətli geosiyasi qarşıdurmanın əsası qoyulmuşdur. 30 ildən artıq dövr keçməsinə baxmayaraq, ABŞ və İran münasibətlərinin tənzimlənməsi istiqamətində heç bir müsbət nəticə əldə edilməmişdir. 2007-ci ildən sonra İranın nüvə proqramı Tehranla Vaşinqton arasındakı ziddiyyətlərin daha də kəskinləşməsinə səbəb olmuş və yeni geostrateji münaqişə ocağının alovlanmasına şərait yaratmışdır. Bu məsələdə müasir dünyanın hərbi-strateji güc mərkəzləri uzun müddət vahid mövqeyə gələ bilməmiş və nəticədə problem getdikcə dərinləşərək kəskinləşmişdir. ABŞ, Avropa İttifaqı və İsrail ciddi cəhdlə İrana qarşı sanksiyaları gücləndirməyə, rəsmi Tehranı nüvə proqramından əl çəkməyə məcbur etməyə çalışır, Rusiya və Çin isə bu məsələnin danışıqlar yolu ilə həll edilməsinə tərəfdar çıxaraq, tələb olunan sərt metodlara etiraz edirlər.

İran-ABŞ qarşıdurmasında Azərbaycanın indiyə qədər nümayiş etdirdiyi mövqe daha çox İran və ABŞ-ın istək və tələbləri, yaxud hansısa əsassız ambisiyaları üzərində deyil, daha çox müstəqil dövlət olaraq Azərbaycanın maraq və mənafeləri üzərində qurulmuşdur. Lakin, Azərbaycan eyni zamanda həm İranla dost, ədalətli və etibarlı qonşu kimi, həm də ABŞ-la etibarlı və ciddi tərəfdaş kimi- qarşılıqlı-faydalı əlaqələr qurmağa və ikitərəfli münasibətləri inkişaf etdirməyə çalışmış, onların bir-biri və digər xarici aktorlarla münasibətlərinə müdaxilə et-

məyəcəyini açıq şəkildə bəyan etmişdir. Azərbaycanın bu mövqeyi həm də beynəlxalq hüquq normalarına söykənir.

Lakin bütün bunlara baxmayaraq, İran-ABŞ məsələsi Azərbaycan üçün bölgədə və dünyada müəyyən problemlər yaradaraq, ölkəni daha ehtiyyatlı, ardıcıl və çevik siyasət yürütməyə, diplomatik və geosiyasi manevr imkanlarından bacarıqla istifadə etməyə məcbur edir. Məsələn, Birləşmiş Ştatların İrana qarşı hər hansı hərbi əməliyyatlara başlamaq niyyəti reallaşarsa Azərbaycanın manevr imkanları ciddi şəkildə məhdudlaşacaqdır. Çünki illərdir dünyada beynəlxalq terrorizmin əsas dayaqlarından biri kimi təqdim olunan İrana BMT-nin sanksiyası əsasında hərbi müdaxiyə başlayacağı təqdirdə bu plana mane olmaq, yaxud da onunla bağlı hər hansı dirəniş göstərmək dünyanın bir nömrəli güc mərkəzi olan ABŞ-la münasibətlərə ciddi şəkildə mənfi təsir göstərə bilər. Digər tərəfdən, Azərbaycan regionda ən uzun müştərək sərhədə, ortaq tarixə və geosiyasi məkana malik olduğu dost İran dövlətinin, onun 30 milyondan çoxu azərbaycanlı olan 70 milyonluq müsəlman əhalinin də maraqlarını zərbə altinda qoyaraq, bölgənin əsas geosiyasi fiqurlardan olan qonşu dövlətlə münasibətlərini korlaya bilməz.

Hazırda ABŞ-la münasibətləri gərginləşən İran region dövlətləri və xüsusilə Azərbaycanla əlaqələrini daha da yaxşılaşdırmağa çalışır və onun bu səyləri getdikcə güclənəcəkdir. Bəzi ekspertlər hesab edirlər ki, Təbriz şəhərində Azərbaycan konsulluğunun açılması və Azərbaycan vətəndaşları üçün viza rejiminin aradan qaldırılması, rəsmi Tehranın ölkəmizin ərazi bütövlüyünü dəstəkləməsi, enerji mübadiləsi və ticarət məsələlərində irəliləyiş əldə olunması, İran ərazisi ilə Naxçıvana gediş-gəlişin açılması həmin səylərin göstəricisidir. Butün bunların müqabilində İran Azərbaycanı öz tərəfinə çəkərək,

anti-qərb düşərgəsinə qatmağa, Tehranın mövqelərini müdafiə etməyə, bunlar mümkün olmayacağı təqdirdə isə tərəfsiz qalacağına qarantiya almağa çalışır. Ekspertlər belə qənaətdədirlər ki, Azərbaycanın buna qarşılıq verməsi Qərblə, verməməsi isə İranla münasibətlərində mənfi fəsadlar yaradacaqdır.

ABŞ-İran münasibətlərinin getdikcə kəskinləşməsinə baxmayaraq, Azərbaycan öz siyasətini dəyişmək və tərəfsizliyini pozmaq niyyətində deyil. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, sülhsevər dövlət kimi, Azərbaycan bütün dünya və region ölkələri ilə, o cümlədən də İranla qarşılıqlı maraqlara cavab verən dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında maraqlıdır. İranla Azərbaycan arasında imzalanmış dövlətlərarası müqavilədə hər iki dövlətin öz ərazisindən birbirinə qarşı istifadənin yolverilməzliyi ilə bağlı müddəanın daxil edilməsi də bu məsələnin rəsmi Bakı tərəfindən ən yüksək səviyyədə bəyan olunması deməkdir və Azərbaycanın səmimi, etibarlı və mehriban qonşuluq niyyətinin əyani göstəricisidir. Azərbaycan həmişə sübut etmişdir ki, o hər hansı qonşu və yaxud qeyri-qonşu dövlətin marağına toxunan addımlar atmır və bu sahədə imzalanmış bütün dövlətlərarası, beynəlxalq anlaşmalara hörmətlə yanaşır. Digər tərəfdən, 2006-cı ildə Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-a səfəri zamanı bu ölkə ilə ikitərəfli münasibətləri, tərəfdaşlıq siyasətini inkişaf etdirmək istiqamətində müəyyən addımlar atarkən, ilk növbədə İranın bu və ya digər rəyini, tələblərini deyil, öz ölkəsinin və xalqının milli maraqlarını rəhbər tutmuşdur. Səfər zamanı prezident İlham Əliyev, eyni zamanda Azərbaycan ərazisindən İrana qarşı hər hansı hərbi əməliyyat keçirilməsinə və bütövlükdə Cənub Qafqaz regionunun ABŞ-İran mübarizəsinin "poliqonuna" çevrilməsinə imkan verilməyəcəyi haqqında açıq bəyanat da səsləndirmişdir. Səfər ərəfəsində "Fiqaro" qəzetinə

verdiyi müsahibəsində o bildirmişdi ki, "İranda sabitliyin pozulması bütün regiona öz təsirini göstərə bilər. Hesab edirik ki, münaqişə diplomatik vasitələrlə, sülh və dialoq yolu ilə, xoş məramla həll olunmalıdır. Azərbaycan bu ölkəyə qarşı hərbi əməliyyatları dəstəkləməyəcək. Düşünürəm ki, Vaşinqton da buna anlaşıqlı yanaşacaq".[86]

Beləliklə, göründüyü kimi Azərbaycan indiyə qədər həm ABŞ və Avropa ilə, həm də İranla qrşılıqlı tərəfdaşlıq münasibətləri qurmaq bacarığını ən kritik məqamlarda belə nümayiş etdirə bilmişdir. Lakin, hərdən adı çəkilən hər üç düşərgəni təmsil edən dövlət qurumları və rəsmilərinin Ermənistanın regiondakı bu və ya digər addımlarını dəstəkləməsi, bu ölkənin işğalçılıq və separatçılıq siyasətini müdafiə etməsi Azərbaycanın haqlı narazılığına da səbəb olur.

Göründüyü kimi, Cənubi Qafqaz və Xəzər hövzəsinin müasir mürəkkəb geosiyasi reallıqları çərçivəsində və dünya siyasətinin qeyri-müəyyənliklərlə dolu hazırkı şəraitində Azərbaycan ABŞ-İran münasibətlərinin xarakterindən asılı olmayaraq öz geostrateji mövqelərini və milli maraqlarını qorumağa və bir qədər də möhkəmlətməyə nail olmuşdur. Qarşıdan gələn illərdə eyni geosiyasi xəttin- regionda marağı olan Qərb dövlətləri, dünyanın aparıcı güc mərkəzləri ilə transmilli layihələrin reallaşdırılması sahəsində tərəfdaşlıq əlaqələrini davam etdirməklə, həm də İran kimi böyük qonşu ölkələrlə tərəfdaşlıq əlaqələrinin qurulması və davam etdirilməsi Azərbaycana sabit inkişaf və perspektivli gələcək vəd edir. Siyasi və iqtisadi perspektivdə ölkənin regional lider statusunun möhkəmlədirilməsi də onun bundan sonra həyata keçirəcəyi geosiyasi xəttdən və dünyanın ən əhəmiyyətli geoməkanlarından hesab olunan Av-

[86] Bax: "Azərbaycan" qəzeti, 04 iyun 2006.

rasiya bölgəsində qazanacağı mövqedən, planetin əsas geosiyasi aktorları ilə yarada biləcəyi münasibətlərdən asılı olacaqdır.

Yeni geosiyasi reallıqlara və bundan irəli gələn qlobal çağırışlara operativ reaksiya verilməsi, strateji tərəfdaşlarla geosiyasi münasibətlərə xələl gətirmədən daha praqmatik xarici siyasətin yürüdülməsi

Azərbaycan keçən illərdə öz strateji tərəfdaşları ilə nəhəng transmilli enerji və nəqliyyat layihələri reallaşdırmaqla *Avrasiyanın geosiyasi xarakteristikasını ciddi şəkildə dəyişmişdir.* Yeni enerji-ixrac marşrutları və yeni geoiqtisadi şərtlər çərçivəsində Xəzər hövzəsinin və Orta Asiyanın zəngin karbohidrogen resurslarının dünya bazarlarına çıxarılması təmin edilmiş və faktiki olaraq bölgənin ənənəvi enerji ixracının şaxələndirilməsinə (diversifikasiyasına) nail olunmuşdur. Azərbaycanın təşəbbüsü və dünyanın ən aparıcı ölkə və şirkətlərinin iştirakı ilə yaradılan transmilli enerji konsorsiumu, yeni istehsal, ixrac marşrutları və s. infrastrukturlar Cənubi Qafqaz və Xəzər regionunun inkişafına ciddi təsir göstərmiş, bölgəni Avropa və dünya ölkələrinin güclü maliyyə və qabaqcıl texnologiyalarının üzünə açmışdır. Prezident Heydər Əliyevin qətiyyəti və böyük səyləri, tərəqqipərvər dünyanın hərtərəfli dəstəyi nəticəsində o dövrdə bəzi ölkələrin və maraqlı qüvvələrin bu işə mane olmaq cəhdləri müvəffəqiyyətlə neytrallaşdırılmışdır. Artıq Avropanın enerji təhlükəsizliyi məsələsində əhəmiyyətli rol oynamağa başlayan Transqafqaz enerji ixracı kəmərləri həm də Mərkəzi Asiya və Xəzər hövzəsi ölkələrinin geosiyasi və geoiqtisadi müstəqilliyinə ciddi təsir göstərmiş, onların Qərblə yaxınlaşması yolunda əsas maneələri aradan qaldırmışdır.

Bəzi region ölkələrindən fərqli olaraq, Azərbaycan bəhs olunan şəraitdən ciddi şəkildə bəhrələnmiş, regionla əlaqəyə can atan bütün transmilli şirkətlərlə, xarici dövlətlərlə, güc mərkəzləri ilə yaxından əməkdaşlıq etməyə, ABŞ, Avropa İttifaqı ölkələri, Türkiyə, Rusiya, Gürcüstan kimi dövlətlərlə strateji əlaqələr qurmağa, bu əməkdaşlıqdan milli maraqlar naminə yararlanmağa müvəffəq olmuş və eyni zamanda öz müstəqil siyasətini də qoruyub saxlaya bilmişdir. Ekspertlər hesab edirlər ki, Azərbaycan bütün fəaliyyəti və geosiyasi addımları ilə Xəzər hövzəsi və Cənubi Qafqazda sabitləşdirici rol oynamış bir ölkədir.

Son bir neçə ilə nəzər saldıqda, Avrasiyanın bəzi bölgələrində, Xüsusən Xəzər-Qara dəniz hövzəsi, Orta Asiya və Cənubi Qafqazda yeni geosiyasi reallıq formalaşmaqdadır. Bu reallığın bəzi əlamətləri açıq, bəziləri isə dolayısı ilə Azərbaycanın da geosiyasi maraqlarına toxunur və onu çevik, operativ, adekvat fəaliyyətə sövq edir.

Avrasiyanın yeni geosiyasi reallığının ilk gözə çarpan görüntüləri aşağıdakı kimi görünür: **Birincisi,** ABŞ-ın keçmiş prezidentləri B.Klinton və C. Buşun dövründə Avrasiyada- bir tərəfdən ABŞ, Avropa Birliyi və onların Avrasiya tərəfdaşları (Türkiyə, Ukrayna, Azərbaycan, Gürcüstan və b.), digər tərəfdənsə Rusiya və geosiyasi maraqları onunla üst-üstə düşən İran kimi bəzi region ölkələri arasında güclü geosiyasi və geoiqtisadi rəqabət mövcud idi. Bu rəqabətdən qalib çıxan birinci tərəf bölgənin əksər transmilli proseslərini öz nəzarəti altında saxlayaraq, həm özünün, həm də tərəfdaşlarının mövqelərini gücləndirməyə çalışmış və buna əsasən nail olmuşdur. Hazırda isə ABŞ-ın Barak Obama administrasiyası özünün Avrasiya və Rusiya siyasətinə yenidən baxaraq, Vaşinqtonun regional maraqları ilə bağlı fərqli meyarlar və ölçülər ortaya qoymuşdur.

Vaşinqtonun regiona öz marağını azaltması müvafiq olaraq bölgədəki geosiyasi duruma, regionun böyük və kiçik ölkələrinin geosiyasi vəziyyətinə və mövqelərinə təsirsiz ötüşməmişdir. **İkincisi,** ABŞ-ın yeni Avrasiya geosiyasəti həm də regiondakı əsas geosiyasi aktorlar arasındakı müttəfiqlik və rəqiblik əlaqələrinin bir qədər əvvəlki ənənəvi nizamını pozmuşdur. Məsələn, hazırda bəzi sahələrdə ABŞ-la bir çox Orta Asiya ölkələri, Ukrayna, Azərbaycan və s. bölgə dövlətləri arasında bəzi anlaşılmaz münasibətlər ortaya çıxır. Əvəzində bu ölkənin Rusiya ilə əvvəlki "Avropanın strateji müdafiəsinə yönəlmiş hərbi-geostrateji problemləri" aradan qalxır. Yaxud, son zamanlar Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı strateji əməkdaşlıq münasibətlərində- enerji dəhlizləri, satışı, ixrac marşrutları və tariflər, nəqliyyat-tranzit keçidləri, onların təhlükəsizliyi və s. məsələlərdə bir çox əsassız iddialar ortaya çıxır. Bu ölkələrin bəzi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji dairələri qarşılıqlı maraqları nəzərə almadan müəyyən nizamsız və plansız meyillər sərgiləyir. Eyni zamanda, əvvəllər birbirinə enerji sahəsində rəqib kimi yanaşan Rusiya və Azərbaycan arasında elektrik enerjisi mübadiləsi, maye qazın nəqli və s. sahələrdə əməkdaşlıq haqqında saziş imzalanır. **Üçüncüsü,** son zamanlar Rusiyanın bütövlükdə Avrasiya regionu ölkələrinə, xüsusən də Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaza geosiyasi və geoiqtisadi təzyiqlərinin güclənməsi və Moskvanın bölgədəki proseslərdə aktivliyinin artması fonunda, ABŞ və Avropa birliyinin həmin mövqelərdən geri çəkilməsi müşahidə olunur. Bunu son illərdə Ukraynada, Şərqi Avropada, Gürcüstanda, Türkiyədə və b. ölkələrdə yaşanan proseslərdə bəhs olunan aktorların öz əvvəlki prinsipial mövqelərindən asanlıqla imtina etmələri də sübut edir. Mütəxəssislərin bu vəziyyətlə bağlı gəldiyi ilk qənaət ABŞ-ın nəyinsə xətrinə (məsə-

lən İran, Liviya və s. məsələlərdə güzəştə getməsinə görə) öz müttəfiqlərini və onların maraqlarını Rusiyaya güzəştə getməsi fikrindən ibarətdir. **Dördüncüsü,** ABŞ-İran ziddiyyətlərinin son dövrdə kəskinləşməsi həm də regionda yeni geosiyasi vəziyyət yaradaraq, bölgə ölkələrini öz maraqlarını qorumaq üçün yeni seçim qarşısında qoymuşdur. **Beşincisi,** ABŞ-ın Avrasiya siyasəti zəiflədikcə, həm də Türkiyənin bu bölgədəki geosiyasi fəallığı, proseslərə müdaxilə etməsi və qoşulması halı müşahidə olunur. Xüsusən, son bir ildə ABŞ, İsrail və bəzi Avropa ölkələri ilə münasibətlərndə soyuqluq yaranması fonunda Türkiyənin "fəal Avrasiya geosiyasəti" və "yeni geosiyasi taktikası" özünü göstərir. Hazırda bu ölkə bölgənin Rusiya, İran, Yaxın və Orta Şərq, Balkanlar, keçmişdə Osmanlı imperiyası ilə bağlı olan digər ərazilər, xalqlar və dövlətlərlə öz iqtisadi-siyasi əlaqələrini, tərəfdaşlıq münasibətlərini və bəyan etdiyi "yeni regional lider iddiasına" uyğun gələn "məxsusi milli maraq və davranış normaları çərçivəsi"ni yaradır və getdikcə ciddi şəkildə gücləndirməyə çalışır. Türkiyə rəhbərliyi bütün dünyaya açıq şəkildə nümayiş etdirir ki, onun ölkəsi bundan sonra Qərbin Rusiyaya qarşı "təhlükəsizlik şiti" və yaxud islam dünyasında "geosiyasi təsir vasitəsi" olmaq niyyətində deyil.

Tədqiqatçılar hesab edir ki, Türkiyənin yeni geosiyasi davranışı və kursu, həmin kursun son zamanlar regionda yaratdığı regional vəziyyət Azərbaycanın ziyanına deyil, əksinə, bu ölkənin güclənən geosiyasi vəziyyəti daimi və strateji müttəfiq kimi, həm də bilavasitə Azərbaycanın xeyirinədir. Lakin yeni şərait müstəqil dövlət kimi Azərbaycanın xarici siyasəti qarşısında bir çox yeni vəzifələr qoyur, ondan geosiyasi və xarici siyasət məsələlərinə "şəraitə uyğun" operativ düzəlişlər etməyi tələb edir.

İlk növbədə, fikrimizcə, dünyada baş verən son qlobal dəyişikliklər fonunda Cənubi Qafqazda formalaşmış geosiyasi reallıq və onun yeni təzahürləri ciddi təhlil olunmalı, proseslərə təsir göstərən amillər, onların meydana gəlməsi səbəbləri və s. məsələlər araşdırılmalı, mövcud şəraitdə Azərbaycanın geosiyasi və geoiqtisadi addımları, transmilli layihələrlə bağlı prioritet vəzifələri, onların təmin olunması yolları və vasitələri üzərində praqmatik şəkildə bir daha düşünülməlidir. Məsələn, bəzi mütəxəssislər hesab edir ki, regionda Türkiyənin rolunun sürətlə artması və onun həyata keçirdiyi yeni xarici siyasət kursu indiki vəziyyətdə Azərbaycanın mənafelərinə tam cavab verməyən bəzi geosiyasi proseslərə də təkan verə bilər. Çünki bu ölkənin bir az əvvəl Cənubi Qafqazda sülh və təhlükəsizlik platforması çərçivəsində Ermənistanla yaxınlaşmaq cəhdləri sübut etdi ki, rəsmi Ankaranın "şərait tələb etdikdə" praqmatik formada Azərbaycanın milli maraqlarını "nəzərdən qaçırması" və daha pisi, onlar sadəcə unutması ehtimalı realdır. Heç kim bu cür halların nə vaxtsa Türkiyə ərazisindən keçən tansmilli enerji ixracı kəmərləri, neft-qaz tarifləri və s. strateji məsələlərlə bağlı özünü göstərməyəcəyinə və yaxud Bakı-Tbilisi-Qars dəmir yolunun təhlükəsizliyinin tam təmin ediləcəyinə zəmanət verə bilməz. Yaxud, 2008-ci ilin avqustunda Rusiya ilə Gürcüstan arasında hərbi əməliyyatlar nəticəsində BTC vasitəsilə neft ixracının dayandırılması və ümumiyyətlə, Gürcüstanın qeyri-sabit ərazi xarakteristikasına malik olması, təkcə Qərb enerji ixracı marşrutundan asılılığın Azərbaycan üçün müəyyən qədər təhlükəli olduğunu söyləməyə əsas yaratdı. Digər tərəfdən, vaxtilə Qərb marşrutunu işə salmaq və mövcud maneələri aradan qaldırmaq üçün Azərbaycan Bakı-Novorossiysk kəmərinin tarifi ilə bağlı Rusiyaya, BTC-nin tarifi ilə bağlı Türkiyəyə ciddi güzəştə getmiş, Gürcüstanın xeyirinə isə ümu-

miyyətlə BTC kəmərinin Azərbaycan hissəsinin tranzit gəlirlərindən imtina etmişdir. Bu gün kimsə qarantiya verə bilməz ki, sabah bu ölkələrin biri, yaxud hər üçü tariflərlə bağlı yeni-yeni tələblərlə çıxış etməyəcəklər. Beləliklə, *yeni şərait və gələcək perspektivlər Azərbaycandan Türkiyə və Gürcüstanla strateji münasibətlərə xələl gətirmədən və regional münasibətlərin bütün sahələrində bu iki ölkə ilə geosiyasi müttəfiqliyi qoruyub saxlamaqla, öz enerji ixracı marşrutlarını yenidən dəyərləndirməsini, mümkün qədər bu marşrutları şaxələndirməsini, yeni-yeni marşrut və istiqamətlərin, dünyada enerji tərəfdaşlarının, satış bazarlarının tapılmasını və s.* tələb edir. Bütün bu işlərlə bağlı real tədbirlər, geoiqtisadi axtarışlar bir an belə dayandırılmamalı, vaxtilə əsas işin xatirinə Türkiyə və Gürcüstana gedilmiş tarif güzəştləri məsələlərinə xüsusi diqqət yetirilməli və bu güzəştlər davamlı olaraq onların yadına salınmalı, Azərbaycanın güzəşt limitinin bitməsi, qarşı tərəfdən hər hansı "güzəşt tələbinə" bir də qayıdılmayacağına dair hansısa ikitərəfli və çoxtərəfli dövlətlərarası qarantiya alınmalıdır.

Hazırda Azərbaycan öz neft-qaz məhsullarını xarici bazarlara çıxarmaq üçün Şimal istiqaməti üzrə Bakı-Novorossiysk neft və Bakı-Mozdok qaz, Qərb marşrutu üzrə BTC, Bakı-Supsa kimi neft və BTƏ qaz, Cənub istiqaməti üzrə Bakı-Astara qaz kəmərlərinin xidmətindən istifadə edir. Bundan başqa, Azərbaycan, Qazaxıstan və Türkənistanın neft məhsulları Azərbaycandan dəmir yolu vasitəsilə Gürcüstanın Qara dəniz limanlarına, oradan da Avropaya; Xəzər dənizi vasitəsiləsə gəmilərlə İrana daşınır. Göründüyü kimi, Azərbaycanın karbohidrogen ehtiyatların ixracında Qərb marşrutu böyük üstünlük təşkil edir.

Azərbaycanın enerji nəqlinin rastlaşdığı və yaxud gələcəkdə rastlaşa biləcəyi problemlər haqqında son zamanlar təkcə

mütəxəssislər deyil, həm də dövlət rəsmiləri öz narahatlığını açıq şəkildə nümayiş etdirməyə başlamışlar ki, bu da çox ciddi geosiyasi narahatlığın birbaşa göstəricisi hesab oluna bilər. Məsələn, Azərbaycan prezidenti İlham Əliyev 2009-cu ildə Nazirlər Kabinetinin toplantısında çıxışı zamanı bildirmişdir ki, son iki ildə Azərbaycan Avropa İttifaqı ölkələrinə bazar qiymətləri ilə qaz nəqlini həyata keçirə bilmir: "Bunun əsas səbəbi ondan ibarətdir ki, bu vaxta qədər Türkiyə ilə Azərbaycan arasında qaz ixracının tranzit məsələləri həll olunmayıb... Azərbaycan uzun illərdir, Türkiyəyə qazı dünya qiymətinin üçdə birinə, 30 faizinə satır. Bu, heç bir məntiqə sığmayan məsələdir... Eyni zamanda, Azərbaycan "Şahdəniz" qaz yatağının ikinci hissəsinin işlənməsinə başlaya bilmir... Biz süni şəkildə yaradılmış səbəblər üzündən buna nail ola bilmirik. Həm qiymət real deyil və Azərbaycan təklif olunan qiymətlə heç kimə öz qazını sata bilməz, həm də tarif haqları ədalətli deyil və bizi qane etmir".[87]

Göründüyü kimi, Azərbaycan Prezidenti Türkiyə ilə tranzit məsələlərinin həll olunmamasını, bu ölkə tərəfindən qəbul edilməsi mümkün olmayan şərtlərin irəli sürülməsini və s. qeyri-normal məsələləri enerji sahəsində neçə illərdir ki, transmilli dünya ilə reallaşdırılan və perspektivdə reallaşdırılacaq layihənin pozulmasına gətirib çıxara biləcəyi təhlükəsindən bəhs edir. Problemdən çıxış yolu isə, müvafiq olaraq yeni-yeni alternativ yolların tapılması və enerji ixracının şaxələndirilməsi ilə əlaqələndirilir.

Hazırda Azərbaycan və dünya mütəxəssisləri bölgənin zəngin neft və qaz məhsullarının daha etibarlı və səmərəli nəqli üçün bir neçə yeni alternativ yollar təklif edir. Bunlardan biri Rusiya marşrutudur. 2009-cu ilin oktyabrında ARDNŞ və Ru-

[87] Bax: "Azərbaycan" qəzeti, 17 oktyabr 2009.

siyanın "Qazprom" şirkəti arasında qaz alqı-satqısı ilə əlaqədar imzalanmış müqaviləyə əsasən 2010-cu ildən bazar qiymətləri ilə Rusiyaya ildə 500 milyon kub. metr və daha artıq qaz ixracına başlanmışdır. Perspektivdə bu həcmin Azərbaycanın imkanlarına uyğun olaraq artırılması nəzərdə tutulmuşdur. İkinci marşurut İran istiqamətində fəaliyyət göstərən Astara-İran xəttidir. Mütəxəssislərin fikrinə görə, bir sıra texniki məsələlərin həllindən sonra bu marşrutla İrana kifayət qədər əlavə qaz satışı həyata keçirilə bilər. Üçüncüsü, Azərbaycan qazı AQRİ layihəsi əsasında Qara dəniz limanlarından yeni texnologiya əsasında (sıxılma və xüsusi gəmilərlə daşıma) Avropa İttifaqı ölkələrinə çıxarıla bilər. Sonuncu məsələdə Rumıniya və Ukrayna ilə danışıqlar başlanıb və gələcəkdə müvafiq razılaşmalar əldə ediləcəyinə ümid bəslənir. Təbii ki, digər variantlar da nəzərdən keçirilə bilər.

Azərbaycanın üç neft ixracı kəmərinin olması, prinsipcə nəql məsələlərində alternativliyi təmin edir. Lakin burada da bütün nüanslar, reallıqlar və proqnozlar nəzərə alınmalı, hər iki istiqamət üzrə yeni marşrutların geoiqtisadi və geosiyasi əsaslandırılması təmin edilməlidir.

Tariflər məsələsinə gəldikdə, neft müqavilələri və BTC-yə dair sazişlərin imzalandığı illərlə müqayisədə, hal-hazırda vəziyyət tam dəyişmişdir. Azərbaycan haqlı olaraq Türkiyəyə ucuz qaz satışından imtina edir və tariflərə yenidən baxılmasını tələb edir. Eyni zamanda, BTC-yə dair sazişlər imzalanan zaman Azərbaycanın kəmərdən əldə edəcəyi tranzit gəlir payını Gürcüstana güzəştə getməsi məsələsinə yenidən qayıtmaq, ən azından mütəmadi olaraq rəsmi Tbilisinin bu haqda yaddaşının itməsinə imkan verməmək lazımdır. Rusiya və İrana bazar qiymətinə qaz ixracına başlanması və gələcəkdə bu istiqamətlərdə mövcud olan perspektivlər, ixrac və tarif məsələsində Azərbay-

cana Gürcüstan və Türkiyə ilə daha inamla danışmağa və milli maraqlarını təmin etməyə əlavə imkan yaradır.

Beləliklə, düzgün dəyərləndiriləcəyi təqdirdə, bütün bu reallıqların, imkan və geosiyasi perspektivlərin bölgədə və dünyada Azərbaycana əlavə geosiyasi üstünlüklər qazandıracağı şübhəsizdir. Bu gün dövlət müstəqilliyi möhkəmlənmiş və hərtərəfli inkişaf edən Azərbaycan həm özünün daxili məsələlərini uğurla həll etmək iqtidarındadır, həm də regionda, beynəlxalq aləmdə geosiyasi, geoiqtisadi və s. maraqlarını qorumağa, öz prinsipial mövqeyini müdafiə etməyə qadirdir. Artıq dünyanın əksər geosiyasi güc mərkəzləri Azərbaycanla bərabərhüquqlu əməkdaşlığa üstünlük verir və yerləşdiyi regionun bütün transmilli məsələlərinin həllində onun rəyini nəzərə alırlar. Bəhs olunan geosiyasi vəziyyət və imkanlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də Azərbaycanın mövqeyini gücləndirir ki, bu da ölkənin gələcək inkişafı haqqında optimist ovqat yaradır.

Ermənilərin zaman-zaman Azərbaycanlılara qarşı törətdiyi soyqırımı siyasətinin ifşa edilməsi və dünyada səmərəli təbliğat işinin qurulması

Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarını geri qaytarmasından sonra da ölkə rəsmiləri qarşısında dayanan mühüm geosiyasi və hərbi-geostrateji vəzifələrdən biri azərbaycanlılara qarşı əsrlərlə reallaşdırılan soyqırımı faktlarının, Xocalı faciəsinin və s. kimi hadisələrin dünya birliyinə çatdırılması, beynəlxalq ictimaiyyət tərəfindən bu tarixi həqiqətlərin qəbul edilməsi istiqamətində sistemli və daimi iş aparılması, soyqırımı cinayətlərinin səbəbkarlarının beynəlxalq ictimaiyyət qarşısında ifşa olunması, müasir Ermənistan dövlətinin Cənubi Qafqazda yürütdüyü qonşulara qarşı ərazi iddiası

və işğalçılıq siyasətinin ifşa edilməsi və s. olacaqdır. Planetar və qlobal informasiya məkanında dünya ermənilərinin təbliğat maşını ilə effektli mübarizə taktikasının hazırlanması və davamlı şəkildə həyata keçirilməsi üçüncü minillikdə Azərbaycan Respublikasının və dünya azərbaycanlılarının qarşısında dayanan əsas strateji və geosiyasi vəzifə olaraq qalacaqdır.

Naxçıvan MR ilə quru dəhlizinə nail olunması istiqamətində iş aparılması

Azərbaycan dövlətinin qarşısında üçüncü minillikdə dayanan əsas geosiyasi vəzifələrdən biri də, vaxtilə SSRİ rəhbərliyi tərəfindən Zəngəzur torpaqlarının ermənilərə bəxş edilməsi yolu ilə, süni şəkildə Azərbaycanın əsas ərazisindən təcrid edilmiş Naxçıvan MR ilə birbaşa quru əlaqələrinin bərpası və bu istiqamətdə müvafiq dəhlizin açılması hesab olunacaqdır. Bu məsələnin beynəlxalq gündəmə çıxarılması, müvafiq variantların axtarılması və müsbət istiqamətdə həlli məqsədilə milli strategiyanın hazırlanması və həyata keçirilməsi vəzifəsi yaxın gələcəkdə Azərbaycanın xarici və daxili siyasətinin əsas vəzifələrindən birinə çevrilməlidir.

Təkrar və məşğələ sualları:

1.Milli inkişaf strategiyası nədir və onun əsas tələbləri nədən ibarətdir?

2. Azərbaycanın müstəqilliyinin əldə edilməsi və milli inkişaf siyasətinin formalaşmasının ilkin şəraitini, şərtlərini, əsas mərhələlərini və xarakterik xüsusiyyətlərini şərh edin.

3.Prezident Heydər Əliyevin milli inkişaf siyasətinin xarakteristikasını verin.

4.Prezident Heydər Əliyevin milli inkişaf siyasətinin əsas prinsiplərini, vəzifə və tələblərini şərh edin.

5.Prezident Heydər Əliyevin milli inkişaf siyasətinin formalaşması və həyata keçirilməsində milli birlik platformasının və azərbaycançılıq ideologiyasının rolunu şərh edin.

6. Azərbaycanın gələcək milli inkişaf perspektivləri haqqında prezident İlham Əliyevin "Azərbaycan 2020: gələcəyə baxış" Milli İnkişaf Konsepsiyasının əsas vəzifələri və hədəfləri haqqında nə bilirsiniz?

7.Azərbaycanın regiondakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji əhəmiyyətini şərtləndirən əsas daxili və xarici amillər, təbii-coğrafi, iqtisadi, siyasi və s. dəyərlər haqqında nə bilirsiniz?

8. Azərbaycanın beynəlxalq və regional geosiyasi dəyərinin və üstünlüklərinin düzgün istifadəsi sahəsində dövlət siyasətinin əsas məqsəd və vəzifələrini, hədəflərini və nəticələrini necə şərh edərdiniz?

9.Azərbaycan Respublikasının hazırkı sosial-iqtisadi, ictimai-siyasi, mənəvi-mədəni, hərbi və s. inkişafının mövcud vəziyyətini və onun respublikanın regional və beynəlxalq geosiyasi vəziyyətinə təsiri məsələlərini təhlil edin.

10.Azərbaycanın Cənubi Qafqazdakı lider mövqelərini şərtləndirən əsas amillər haqqında danışın (iqtisadi potensial, enerji mənbələri və insan resursları, hərbi güc və s.).

11.Geosiyasi status və fəaliyyət kodeksi haqqında nə bilirsiniz və Azərbaycan dövlətinin bu sahədəki fəaliyyətini necə

şərh edərdiniz? Azərbaycanın geosiyasi statusu və fəaliyyət kodeksinə təsir göstərən geosiyasi, geoiqtisadi və hərbi-geostrateji amillər hansılardır?

12.Azərbaycanın geosiyasi əhatəsi və ondan irəli gələn regional geosiyasi fəaliyyət kodeksinə təsir göstərən əsas amillər haqqında nə bilirsiniz?

13.XXI əsrdə Azərbaycanın qarşısında dayanan əsas geosiyasi vəzifələr haqqında nə düşünürsünüz.

II BÖLMƏ

AZƏRBAYCANIN BEYNƏLXALQ ALƏMLƏ GEOSİYASİ MÜNASİBƏTLƏRİ

I FƏSİL
AVRASİYANIN ÜMUMİ GEOSİYASİ XARAKTERİSTİKASI VƏ MÜASİR VƏZİYYƏTİ

§ 1.1. Avrasiyanın ümumi geosiyasi xarakteristikası

Avrasiya Azərbaycanın və bu ərazidə yerləşən digər ölkələrin müasir geosiyasi maraqlarının, milli inkişaf və təhlükəsizliyinin təmsil olunduğu əhəmiyyətli bir regiondur.[88] Geosiyasi xarakteristikasına görə Avrasiyanın ən əhəmiyyətli geoməkanları sırasına ümumən və ayrı-ayrılıqda:

1. postsovet məkanını (bütün keçmiş SSRİ-yə daxil olan əraziləri);
2. Orta Asiya və Xəzər hövzəsini (Rusiya, İran, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistanın indiki ərazilərini);
3. Cənubi Qafqaz və Qara dəniz hövzəsini (üç Cənubi Qafqaz dövləti - Azərbaycan, Gürcüstan, Ermənistan; Qara dəniz hövzəsi ölkələri - Rusiya, Türkiyə, Ukrayna və Qara dənizə çıxışı olan bir çox Şərqi Avropa dövlətləri və s. əraziləri);
4. Yaxın Şərq və Fars körfəzi ölkələrinin yerləşdiyi əraziləri və s. aid edirlər.

Avrasiyanın mövcud geosiyasi, geoiqtisadi və hərbi-geostrateji xarakteristikası, dünya birliyi üçün kəsb etdiyi əhə-

[88]Avropa ilə Asiyanın qovşağında yerləşən və iki qitənin birləşdiyi Kontinental ərazi (Hartlənd)- dünyanın ən əhəmiyyətli məkanlarından hesab olunur və siyasi ədəbiyyatda şərti olaraq "Avrasiya" adlandırılır.

miyyətlə bağlı orta əsrlərdən başlamış günümüzə qədər müxtəlif tədqiqatçılar və politoloqlar elmi-siyasi araşdırmalar aparmış, çoxsaylı kitablar yazmış və geosiyasi xəritələr tərtib etmişlər. Bütün bu əsərlərdə, xüsusən də klassik və müasir Avropa, İngilis-Amerikan geosiyasət məktəbinin əksər nümayəndələri, Rusiya, Türkiyə, İran, Çin və s. ölkələrin tədqiqatçıları Avrasiyanı planetin ən əhəmiyyətli bölgəsi kimi qiymətləndirirmiş, onu Kontinental dünyanın (Hartləndin) ən mühüm geosiyasi məkanı hesab etmiş və bu məkana sahiblənmənin müxtəlif geosiyasi, geoiqtisadi və hərbi-geostrateji yol xəritələrini təklif etmişlər.

AVRASİYA



Xəritə 6.

Bununla əlaqədar anqlo-saks geosiyasi məktəbinin əsas yaradıcılarından hesab olunan Helford Makinder hələ 1904-cü ildə Avrasiyanın geosiyasi və geostrateji əhəmiyyətini ciddi dəyərləndirmiş, onun dünyanın keçmiş, bugünkü və gələcək


taleyində oynadığı rol haqqında öz geosiyasi və hərbi-geostrateji mülahizələrini yazmışdır.[89]

Makinder əsərlərindən birində[90] Avrasiyanın "yer kürəsinin sonrakı arxitekturasının qurulmasındakı" roluna xüsusi toxunmuş və bu məkanı "gələcək imperiya və müstəmləkə müharibələrinin əsas hədəfi" kimi xarakterizə etmişdir. Avrasiyanı yer kürəsinin orta məkanı - Hartlənd adlandıran müəllif yazırdı ki, bura özünün unikal suvarma sistemləri, bərəkətli torpaqları, taxılı, pambığı, meyvə-tərəvəzi ilə yanaşı, həm də zəngin enerji resursları, neft, qaz və qiymətli metalları ilə bütün lazımi yaşam, inkişaf resurslarına malikdir. Bundan başqa, regionun transmilli nəqliyyat-kommunikasiya imkanları, avtomobil və dəmir yolları, neft və qaz kəmərləri həm qonşu ölkələrlə, həm də bütün dünya ilə iqtisadi-ticarət əlaqələri üçün əlverişli şərait yaradır. Onun fikrincə, dəniz və quru ölkələri arasındakı keçmiş, indiki və gələcək geosiyasi mübarizələrdə əsas hədəf "tarixin coğrafi oxu" hesab olunan Avrasiyaya (orta məkana) sahiblik uğrunda aparılır. Alimin qənaətinə görə, Avrasiya gələcək müharibələrin də həlledici amilidir və "Hartləndə sahib olan dövlət, yaxud dövlətlər birliyi bütün Avropaya, Avropaya sahib olanlar isə bütün dünyaya sahib olacaq."[91]

Avrasiyanın dünya siyasətində oynadığı müasir geosiyasi, hərbi-geostrateji və geoiqtisadi rolu ABŞ politoloqu Zbiqnev Bjezinski də çox yüksək dəyərləndirmişdir. Makinder kimi Bjezinski də hesab edir ki, qlobal dünyanın gələcək geostrateji, geoiqtisadi və transmilli siyasi maraqları Avrasiya məkanında həll olunacaqdır. Lakin Makinderdən fərqli olaraq, Bjezinski yeni minillikdə dünyanın taleyinin "Avrasiyanın orta zonası

[89] Макиндер Х.Дж. Географическая осъ истории // Геополитика. Антология. М., 2006. с. 244-255.
[90] Макиндер Х.Дж. Географическая осъ истории // Геополитика. Антология. М., 2006. с. 244-255.
[91] Yenə orada.

hesab olunan Şərqi Avropada" deyil, daha çox *Xəzər-Qara dənizləri hövzəsi və Cənubi Qafqazda* həll olunduğu qənaətinə gəlir. (Bax: Xəritə 7)



Xəritə 7.

Müəllif ABŞ-ı və Qərb dünyasını öz əsas güclərini bu bölgəyə yönəltməyə, regionun yeni müstəqil ölkələrinə dəstək verməyə, onları Rusiyanın geosiyasi təsir dairəsindən azad edərək, qərbə inteqrasiya etdirməyə çağırır. Z. Bjezinskinin fikrincə, Qərb ilk növbədə bölgənin Azərbaycan, Ukrayna, Qazaxıstan, Gürcüstan, Özbəkistan kimi müstəqil siyasət yürüdən dövlətlərinin transmilli geosiyasi və geoiqtisadi layihələrini dəstəkləməli və onların vasitəsilə özünün bu bölgədəki strateji mövqelərini gücləndirməlidir.[92]

[92] Вжезинский З.К. Выбор: мировое господство или глобалъное лидерство. М., 2004.s.136-137.

Avrasiyanın, xüsusən də, Xəzər hövzəsinin geoiqtisadi xüsusiyyətləri, onun zəngin enerji resurslarının dünya ölkələrinin maraqlarını cəlb etməsi, Avropa ilə enerji mübadiləsi sahəsində region ölkələrinin reallaşdırmaq istədiyi transmilli layihələr və s. haqqında "Sivilizasiyaların toqquşması" əsərində S. Hantinqton da bəhs etmişdir.[93]

ABŞ diplomatı, görkəmli ictimai-siyasi xadim Henri Kissincer Avrasiyanın dünya geosiyasətindəki rolundan bəhs edərkən əsas diqqətini Rusiyanın bu bölgədə yürütdüyü imperiya siyasəti və onun gələcək mümkün geostrateji nəticələrinə yönəltmişdir. Kissincer rusların "yaxın xaric" hesab etdikləri Orta Asiya və Cənubi Qafqazdakı geostrateji maraqlarının keçmiş SSRİ-nin digər ərazilərindəkilərdən daha vacib və strateji olduğunu qeyd etməklə yanaşı, onların bu maraqları qeyri-sivil vasitələrlə və beynəlxalq hüquqa zidd yollarla təmin etməyə çalışdıqlarını bildirmişdir.[94]

Avrasiyanın geosiyasi xarakteristikası, dünya ölkələrinin bölgədə təmsil olunan və toqquşan maraqları, regional münasibətlərin vəziyyəti və inkişaf meyilləri, Rusiyanın geosiyasi maraqları, onun bölgə ölkələri ilə münasibətlərinin xarakteri və s. haqqında məsələləri klassik rus geosiyasətçilərindən tutmuş, "köhnə" və "yeni Avrasiyaçılar" adlanan cərəyanların nümayəndələri də daxil olmaqla əksər rus alimləri öz əsərlərində geniş təhlil etmiş, çoxsaylı mülahizələr söyləmiş və onlar "Rusiyanı bölgədə öz maraqlarını fəal surətdə, müxtəlif yollarla və vasitələrlə təmin etməyə çağırmışlar." [95]

[93] Хантингтон С. Дж. Столкновение цивилизаций. М, 2005. s.591-628.
[94] Киссинджер Г.А. Нужна ли Америке внешняя политика // Геополитика. Антология. М., 2006. s.562-568.
[95] Bax:Нартов Н. А; Нартов Б.Н. Геополитика.М.,2007; Дугин А.Г. Основы Геополитики. Геополитическое будущее России. М., 2000., yenə onun: Теория неоевразийства. М.,2002, və s.

Avrasiyanın müasir geosiyasi əhəmiyyəti, bölgədə həyata keçirilən transmilli, regional və lokal geosiyasət haqqında Ziya Gökalpdan, Mustafa Kamal Atatürkdən üzü bəri çoxsaylı türk siyasətşünasları və Türkiyə rəsmiləri də bəhs etmiş, bununla bağlı çoxsaylı əsərlər yazmışlar. Xüsusilə, son zamanlar Türkiyə Cümhuriyyətində Avrasiyanı öyrənmək və bölgədə həyata keçirilən siyasətin tədqiq olunması yönündə mühüm işlər görülmüşdür.[96] Əksər tədqiqatçılar və politoloqlar Avrasiyanı müasir dünyanın ən əhəmiyyətli geosiyasi bölgəsi hesab edərək, Türkiyənin öz geosiyasi fəaliyyətini bu regionda gücləndirməsini, Xəzər-Qara dəniz hövzəsində, Cənubi Qafqaz və Orta Asiyada reallaşdırılan transmilli layihələrdə yaxından iştirak etməsini vacib saymışlar. Göründüyü kimi, Avrasiya geosiyasi, geoiqtisadi və geostrateji əhəmiyyətinə görə bütün dövrlərdə dünyanın aparıcı dövlətlərinin, geosiyasi güc mərkəzlərinin və regional təşkilatların diqqətini daim özünə cəlb etmiş və etməkdədir.

XX əsrin sonlarına yaxın SSRİ-nin və dünya sosializm sisteminin süqutundan sonra fərqli ideoloji düşərgələri təmsil edən mütəxəssislər Avrasiyanın artan regional geosiyasi əhəmiyyətindən, bölgədəki vəziyyətə təsir göstərən geosiyasi maraqlar sistemindən, yeni minillikdə transmilli, regional və lokal milli maraqların kəsişmə nöqtəsinə və mübarizə hədəfinə çevrilməsindən bəhs edərək, geniş müzakirələr aparmağa başlamışlar.

[96] Suat İlhan. Türklerin Jeopolitiği ve Avrasiyaçılık. Ankara.2005; Mert Bilgin. Avrasiya Enerji savaşları. İstanbul, 2005; Kaynak M. Büyük Ortadoğu projesi ve Türkiye üzerine stratejik analizler. İstanbul, 2005; Arslan Bulut. Küresel Haclı Seferi. Ankara.2005; 21 Yüzyılında dünya düzeni və yönetişim. Istanbul, 2005; Ahmet Davutoğlu. Stratejik Derinlik. Türkiye,nin uluslararası konumu. Ankara, 2008; Bügünden yarına Türk dünyasında Stratejik bakış. İstanbul, 2008; Avrasyada Türk jeopolitiği.Ankara, 2009; Celalettin Yavuz. Jeopolitik ve Strateji // http:www.turksam.orq və s.

§ 1.2. Avrasiyanın regional geosiyasi vəziyyətinə təsir göstərən fərqli maraqlar sistemi: transmilli, regional və milli hədəflər haqqında

SSRİ-nin süquta uğraması ilə geosiyasi, geoiqtisadi və hərbi-geostrateji əhəmiyyətinə görə Avrasiya bölgəsi əksər transmilli güclərin, böyük dünya dövlətlərinin və digər beynəlxalq aktorların xüsusi diqqətini çəkməyə başladı. Mütəxəssislər bunu *hər şeydən əvvəl*, bölgənin uzun müddət qapalı məkan kimi yalnız Sovet İttifaqının təsir dairəsinə daxil olması və başqa maraqlı tərəflərin bu əhəmiyyətli geosiyasi məkana müdaxiləsinin qeyri-mümkünlüyü ilə bağlayırlar. Onların fikrinə görə, SSRİ-nin süqutu *Avropa ilə Asiyanın qovşağında yerləşən, əlverişli və unikal coğrafi imkanları olan* Avrasiyanı cəlbedici transmilli bir amilə çevirdi və beynəlxalq şirkətləri, Qərb ölkələrini qloballaşan dünyanın iqtisadi və ticarət ehtiyaclarına uyğun olaraq, bu məkandan ilk növbədə Şərq-Qərb əlaqələrində əsas nəqliyyat-kommunikasiya dəhlizi kimi istifadə etməyə ruhlandırdı.

Avrasiya həm də XXI əsrin əsas alternativ enerji və digər transmilli layihələrinin həyata keçirildiyi region hesab olunur. *Təbii xammal mənbələri ilə zənginliyi, əmək resurslarının geniş potensialı, dünya enerji və xammal ehtiyatlarının böyük bir qisminə malik olması və s. Avrasiyanın geosiyasi, geoiqtisadi və geostrateji əhəmiyyətini getdikcə ciddi şəkildə artırır.* Xüsusən, yeni dövrdə dünyada enerji ehtiyaclarının getdikcə artması regionun zəngin təbii və mineral qaynaqlara malik olan Orta Asiya, Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsi kimi ərazilərinin planetin əhəmiyyətli və cəlbedici məkanı kimi tanınmasına şərait yaratmışdır.

Bəhs olunan amillərlə yanaşı, *üçüncü minilliyin başlanğıcından* həm də *beynəlxalq sülh və təhlükəsizlik üçün kəsb etdiyi hərbi-geostrateji əhəmiyyət, regionda dünya güclərinin və*

böyük dövlətlərin geoiqtisadi, geosiyasi və hərbi-strateji maraq dairələrinin kəsişməsi, fərqli dinlərin və sivilizasiyaların intensiv təmas nöqtəsinə çevrilməsi və s. üstünlükləri Avrasiyanı sözün həqiqi mənasında dünya geosiyasətinin əsas mərkəzlərindən birinə çevirmişdir. Yeni dövrdə Avrasiya və onun – Mərkəzi (Orta) Asiya, Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsi və Fars körfəzi kimi bölgələri qloballaşmaya sürətlə cəlb olunan və regional inteqrasiya proseslərində müxtəlif meyillərin müşahidə olunduğu əsas planetar məkanlar sırasında dayanır. Bu da müvafiq olaraq, planetin əksər dövlətlərini və digər geosiyasi aktorları bölgədə öz geosiyasətini formalaşdırmağa və yürütməyə sövq edir.

Avrasiya özünün beynəlxalq dəyəri, zəngin və əhəmiyyətli geosiyasi, geoiqtisadi və geostrateji resursları ilə yanaşı, həm də *region xalqlarının yaşadığı, region ölkələrinin mövcud olduğu konkret bir sivilizasiya meydanı, milli-etnik yaşayış məskəni və coğrafi məkandır.* Hər bir Avrasiya ölkəsi bölgədə milli maraqlarını təmin etmək məqsədi ilə daxili və xarici siyasət prioritetlərini formalaşdırır, başqa dövlətlərlə siyasi, iqtisadi, hərbi və mədəni qurumlar yaradır, transmilli və regional inteqrasiya proseslərində iştirak edir. Təbii ki, bu zaman ölkələrin bəzən bir-biri ilə və regionda marağı olan digər dövlətlərlə geosiyasi, hərbi-strateji və geoiqtisadi maraqları toqquşur, bəzən də üst-üstə düşür. Buna görə də Avrasiya *əhatə etdiyi ölkələrin maraq və mənafe dairəsinin, xarici siyasət istiqamətləri və yönlərinin müxtəlifliyi, dövlət idarəçilik sistemlərinin xarakteri və s. baxımından da çox mürəkkəb regiondur*. Avrasiyada həyata keçirilən qlobal transmilli layihələr, yerli ölkələrin demokratik transformasiyası, iqtisadiyyatının liberallaşdırılması və bölgədaxili siyasi, iqtisadi, mədəni inteqrasiya proseslərində fərqli maraqları təmsil edən onlarla müxtəlif dövlət, hökumətlərarası birlik, QHT-lər və digər geosiyasi aktorlar iştirak edir.

Avrasiyadakı regiondaxili geosiyasi münasibətlərin mürəkkəbliyi *əsasən bölgə ölkələri arasındakı inkişaf istiqamətlərinin fərqliliyi, regional münaqişələrin mövcudluğu, transmilli və milli maraqların kəsişməsi, xarici geosiyasi güclərin təsiri və s. amillərlə* izah edilir. Region ölkələrinin qarşısında qloballaşmanın irəli sürdüyü iqtisadi və sosial yeniləşmə, liberallaşma və demokratik transformasiya kimi tələblərin ciddi bir vəzifə kimi dayandığı müasir dövrdə, bölgədə geoiqtisadi inteqrasiyaya, vahid geostrateji struktura, ölkələrarası bərabərhüquqlu əməkdaşlığa, sabit və təhlükəsiz birgəyaşayışın formalaşmasına *region və beynəlxalq qüvvələrin yürütdüyü siyasət* də müvafiq təsir göstərir. Hövzə ölkələrinin inkişafı, *bölgənin sabitliyi və sivil birgəyaşayış normaları ilə tənzimlənən beynəlxalq münasibətlərə qatılması bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıqdan, hər bir dövlətin beynəlxalq hüquq normalarına, özünün və qonşularının suveren hüquqlarına və geosiyasi mənafelərinə hörmətlə yanaşmasından asılıdır.*

Göründüyü kimi, Avrasiya hazırda bir tərəfdən beynəlxalq güclərin, ABŞ, Avropa Birliyi, Rusiya, Türkiyə, İran, Çin və Yaponiya kimi böyük ölkələrin, digər tərəfdənsə Orta Asiya, Cənubi Qafqaz və digər postsovet respublikalarının yerləşdiyi və məxsusi maraqlarının təmsil olunduğu məkan hesab olunur. Hazırda Avrasiya sözün həqiqi mənasında, dünyanın gələcək geosiyasi taleyinin müəyyənləşdiyi və beynəlxalq münasibətlərin dinamik cərəyan etdiyi əhəmiyyətli bir məkan rolunu oynayır. Dünyanın artan enerji və xammal ehtiyaclarını ödəmək qabiliyyəti olan bu bölgə on milyardlarla dollarlıq xarici investisiyanın yatırıldığı, ən qabaqcıl texnologiyaların tətbiq edildiyi və nəhəng transmilli layihələrin reallaşdığı önəmli bir geosiyasi və geoiqtisadi mərkəzə çevirmişdir. Xüsusilə, Azərbaycan, Qazaxıstan və Türkmənistanın enerji mənbələrinin, neft-qaz yataqlarının istismarına, sərbəst və əlverişli marşrutlarla dünya bazarlarına daşınmasına və sərbəst satışına

yönəlmiş, həm Qərb, həm də Şərq ölkələrinin cəlb olunduğu nəhəng transmilli layihələr dünya güclərinin əsas diqqətini bu regiona cəlb etmişdir.

Müasir dövrdə Avrasiya regionunda dövlətlərarası beynəlxalq münasibətlər və milli maraqlar uğrunda mübarizə əsasən bir neçə istiqamət üzrə cərəyan edir. Bunlar:

- regionun böyük dövlətlərinin (Rusiya, İran, Türkiyə, Çin və s.) ayrı-ayrılıqda təzahür edən maraqları;
- dünyanın digər böyük dövlətləri və dövlət birliklərinin maraqları: Buraya ABŞ, Avropa İttifaqı və onun bəzi üzv dövlətlərini (Böyük Britaniya, Fransa, Almaniya), Yaponiya və Çini aid etmək mümkündür;
- regionun mühüm geosiyasi və geostrateji əhəmiyyət kəsb edən dövlətlərinin milli maraqları: Bu sıraya Azərbaycan, Ukrayna, Qazaxıstan, Gürcüstan, Özbəkistan, Türkmənistan və digər region dövlətlərini aid etmək olar.

Qeyd etmək lazımdır ki, SSRİ-nin süqutuna qədər, bölgənin geosiyasi həyatında hazırkı dövlətlərarası gərginlik müşahidə olunmurdu. Bunun əsas səbəbi yuxarıda qeyd olunduğu kimi, Sovet İttifaqı dağılana qədər bu region onun tam təsiri altında olması idi. ABŞ və NATO ölkələri regionda Türkiyə vasitəsilə öz maraqlarını reallaşdırmağa çalışsalar da, bu sahədə ciddi müvəffəqiyyət qazana bilmirdilər. Öz regional siyasətində SSRİ ilə gərginlik yaratmamaq və onunla razılaşdırılmış siyasət yürütməyə üstünlük verən Çin, İran və s. kimi böyük ölkələr isə Avrasiyanın bu bölgəsində müstəqil faktor kimi çıxış etmirdilər.

Sovet İttifaqının süqutundan sonra Avrasiya bölgəsinin geosiyasi vəziyyətinin xarakteri və inkişaf meyilləri köklü şəkildə dəyişdi. Artıq böyük dövlətlərlə yanaşı, müstəqillik əldə etmiş və beynəlxalq hüququn subyektinə çevrilmiş keçmiş sovet respublikaları da, bölgənin tamamilə Rusiyanın nəzarətində

olması faktı ilə razılaşmayaraq daha aktiv siyasət yürütməyə başladılar ki, bu da regionun geostrateji münasibətlərini mürəkkəbləşdirdi və beynəlxalq əhəmiyyətini bir qədər də artırdı.

Regionun böyük dövlətləri təmsil olunduqları bütün bölgə təşkilatlarında bir qayda olaraq, üstün statusla çıxış edir və əsasən, öz milli maraqlarının qayğısına qalırlar. Bu ölkələr istər milli maraqlar, istərsə də regional təhlükəsizlik baxımından özləri üçün bəzi siyasi və iqtisadi dayaqlar yaradaraq geosiyasi hədəflərini müəyyənləşdiriblər. Lakin XX əsrin sonlarından etibarən dünyada geosiyasi vəziyyət elə sürətlə dəyişir ki, dövlətlər öz dayaq və hədəflərinə mütəmadi olaraq çevik dəyişikliklər etmək məcburiyyətində qalırlar. Bəzi ölkələrin cəmi bir neçə il ərzində tamamilə fərqli prinsip və maraqlar əsasında qurulmuş təşkilatlarda təmsil olunması, mütəmadi olaraq öz xarici siyasi kursunu, prioritetlərini və hədəflərini dəyişməsi artıq adi hala çevrilib.

Avrasiyanın regional geosiyasi vəziyyətini və ölkələrarası münasibətlərin xarakterini müəyyən edən səciyyəvi cəhətlərdən və meyillərdən biri də *region çərçivəsində mürəkkəb geosiyasi mühitin və arxasında müxtəlif maraqlı dövlətlərin dayandığı geostrateji qruplaşmaların gizli mübarizəsinin mövcudluğudur*. Regionun Rusiya, Türkiyə, Çin və İran kimi ölkələrinin müxtəlif maraq çərçivəsi, fərqli hədəflərə malik dövlətlərin mövcudluğu və s. amillər istər-istəməz geosiyasi, geoiqtisadi və inteqrasiya proseslərində qruplaşmaya şərait yaradır. Bu dövlətlərin hər biri Avrasiyada öz məqsədi və marağına müvafiq olaraq, digər ölkələri ətrafında, yaxud təsir dairəsində saxlamağa cəhd göstərir. Məsələn, Rusiya özünün böyük dövlət statusu və keçmişdə «SSRİ-nin yaratdığı iqtisadi, siyasi, sosial və mədəni reallıqlar»dan çıxış edərək xüsusi statusa və ondan irəli gələn üstünlüyə can atdığı halda, İran özünəməxsus üsullarla "islamyönlü" siyasət yürüdərək, bölgənin müsəlman əhalisinin say üstünlüyündən öz maraqları naminə istifadə

etməyə çalışır. Çin ənənəvi olaraq xalqların və dövlətlərin milli maraqlarının «ən ədalətli, ən obyektiv təmsilçisi», «yeni dünya nizamında təkqütblü ABŞ hegemonluğunun ən böyük opponenti» rolu ilə dövlətlərin etimadını qazanmağa çalışır. Bu dövlət bölgəni hərtərəfli tədqiq edərək, onun xammal mənbələrinə, nəqliyyat-kommunikasiya imkanlarına, satış bazarlarına daxil olmanın və regionda təmsilçiliyin məxsusi strategiyasını hazırlamışdır. O ki qaldı Türkiyəyə, bu dövlət Avrasiyada daha çox türkdilli xalqlar və dövlətlərin dəstəyinə, eyni zamanda, Avropaya ən yaxın və Avropa dəyərlərini daşıyan bir modern dövlət statusu ilə regionun qərbyönlü ölkələrinin etimadına iddia edir. Avrasiyanın mürəkkəb və kövrək geosiyasi mühiti bölgədə fəaliyyət göstərən beynəlxalq və regional təşkilatların da taktika və strategiyasına ciddi təsir göstərir, bəzi geosiyasi məsələlər üzrə onların mövqelərinin dəyişməsinə səbəb olur.

§ 1.3. Rusiya Avrasiyanın əsas dövlətlərindən biri kimi: geosiyasi inkişaf tarixi və müasir geosiyasəti. Rusiyanın Avrasiya siyasətində Azərbaycanın yeri və rolu

Rusiyanın geosiyasi inkişaf tarixi və geosiyasi yüksəliş dövrü: Rusiyanın bir dövlət olaraq *geosiyasi yüksəliş dövrü* XVl-XVll əsrlərdə Moskva knyazlığı ətrafında tədricən mərkəzləşmiş dövlətin yaranması ilə başlamışdır.[97] Bu yüksəliş

[97] Avrasiyada ilkin geosiyasi strukturlaşma qədim yunanların, sonra isə romalıların e.ə.Vll–V əsrlərdə Avropada, qərim çinlilərin, ərəblərin və s. Asiyada yaratdıqları ilkin sivilizasiyaların, onlara təsir göstərən dövlət və cəmiyyətlərin mövcudluğu tarixindən başlayır. Lakin dünyanın müasir geosiyasi strukturunun formalaşması və geosiyasi dövrləşmə Avropada mərkəzləşmiş milli dövlətlərin yaranması tarixi ilə üst-üstə düşür. Mənbələrin məlumatına görə, ruslar tarix səhnəsinə qərim dünya sivilizasiyasını təşkil edən xalqlardan bir qədər gec gəldiklərindən onların ilk geosiyasi fəaliyyət dövrü bizim eranın X əsrindən irəli getmir. Düzdür, bəzi rus alimləri bu ölkənin də ilk geosiyasi fəaliyyət dövrünün qədim dünya tarixi ilə bağlı olduğunu, yəni "slavyanların da başqa

ruslar yaşayan ərazilərin türklərin işğallarından azad edilməsi, tədricən iflasa uğramış Bizans imperiyasının siyasi, dini və mənəvi varisinə çevrilməsi ilə xarakterizə olunmuşdur. Bəhs olunan dövrü rus tarixçiləri "Moskva knyazlığı ətrafında mərkəzləşmiş rus dövlətinin yaranması dövrü" kimi qiymətləndirirlər. Həmin vaxt Rusiyanın ərazisi ətraf xalqlara məxsus torpaqların işğalı nəticəsində xeyli genişlənir. Rus qoşunları Uzaq Şərqə qədər bütün Sibir və Şərq rayonlarını, bu

xalqlar və etnoslar kimi, qədim sivilizasiyaların təsirinə məruz qalıb, təxminən elə həmin dövrdə məxsusi sivilizasiya daşıyıcısı olaraq etnik cəhətdən formalaşdığını" iddia edirlər. Onların fikrinə görə, bizim eranın Vl-Vlll əsrlərində slavyanlar tədricən şərqi slavyanların və başqa etnosların məskunlaşdığı Şimaldan - Qərbi Dvina, Qərbdən - Oder, Şərqdən - Dnepr və Cənubdan - Dunay çayları arasındakı böyük əraziləri, müxtəlif etnos və birlikləri, təxminən öz ərazisindən 36 dəfə böyük olan torpaqları tərkibinə qataraq vahid slavyan etnosunu formalaşdırmağa başlamışlar. Lakin qərb tarixçiləri Rusiyada geosiyasi dövrləşmənin başlanğıcını 882-ci ildə Normandiyalı knyaz Oleqin Novqorod və Kiyevi tutaraq Kiyev Rus dövlətini yaratması və 988-989-cu illərdə bizanslıların ruslara xristianlığı qəbul etdirməsi ilə bağlayırlar. Onlar bu dövrü V-XV əsrlərdə Bizans imperiyasının yüksəlişi və süquta uğraması ilə əlaqələndirərək, rus tarixinin mühüm dövrü kimi qiymətləndirirlər. Həmin dövrdə Rusiya tarixində xüsusi geosiyasi mahiyyəti olan üç hadisə baş vermişdir. Tədqiqatçılar həmin vaxta qədər bölgədə gedən proseslərin yalnız passiv oyunçusu olan *rusların Bizansın təsiri ilə dövlət yaratmasına*, həmçinin *xristianlığı qəbul edərək tarixin sivilizasiya axarına qoşulmasına* müsbət, *Xlll-XV əsrlərdə türklərin (rus mənbələrində monqol-tatarların) Rusiya ərazisini tam işğal etməsinə və iki yüz il orada hökmranlığına* isə mənfi geosiyasi hadisə kimi baxırlar. Rus alimləri "yadellilərin işğalı" kimi şərh etdikləri bu geosiyasi dövrdə (Xlll-XV əsrlər) baş verən hadisələri və türklərin yaratdıqları geosiyasi konfiqurasiyanı mənfi dəyərləndirirlər. Halbuki, monqol-tatarların (türklərin) rus knyazlıqlarına və onların ərazilərinə, Avrasiyanın digər bölgələrinə daxil olması, 200 ildən artıq bir müddətdə onları vahid mərkəzdə birləşdirməsi və idarəçilik altında saxlaması Rusiyanın gələcək strateji məqsədlərinin formalaşmasına müsbət təsir göstərmişdir. Həmçinin rusların pravoslav xristian dünyasında yeganə rəqib hesab etdikləri, gələcək milli, dini və geosiyasi münasibətlərdə onlara ciddi maneçilik törədə biləcək Bizans imperiyasının türklər tərəfindən süquta uğradılması Moskva knyazlığı üçün əlverişli şərait yaratdı.

ərazilərdə yaşayan xalqların torpaqlarını – Tümen, Tobolsk və Yakutiyanı işğal edir, yerli hökumətləri süquta uğradır. Həmin dövrü səciyyələndirən ən mühüm cəhət Rusiyanın dənizlərə çıxış əldə etməsi və böyük Avropa imperiyası statusu qazanaraq, getdikcə Avrasiya məkanında ciddi geosiyasi gücə çevrilməsi idi. Mərkəzləşmiş rus dövlətinin yaranması prosesi 1530-cu ildə İvan Qroznının hakimiyyətə gəlməsi ilə başlayır. Onun hakimiyyəti illərində Rusiyanın ərazisi Cənuba və Şərqə doğru xeyli genişlənərək təxminən 14 milyon kv. km-ə çatır, əhalisi isə 6-7 milyon nəfər təşkil edir.

X. Makinder 1904-cü ildə "Tarixin coğrafi oxu" adlı məqaləsində yazırdı ki, tarixin coğrafi oxu Avrasiyadan keçir. Rusların Xəzərə gəlişi də məhz həmin coğrafi oxun iki geosiyasi xətti üzrə: 1. Dneprin axarı boyu Baltik və Qara dəniz hövzəsinə, 2. Volqa çayı vasitəsilə Xəzərə, oradan isə Qafqaza və Orta Asiyaya doğru baş vermişdir. Qeyd edək ki, Rusların Xəzər dənizi hövzəsinə gəlişi, regionda geosiyasi mövqelərini möhkəmləndirməyə başlaması Moskva knyazlığının getdikcə güclənməsi və IV İvanın çarlığı illərində ətraf ərazilərin zəbt olunması dövrünə təsadüf edir. 1552-ci ildə Moskva knyazlığının qoşunları Kazan şəhərini, 1556-cı ildə isə Həştərxanı ələ keçirərək, Volqa çayının axarı boyu Xəzər dənizinin şərq sahillərini işğal edir. Xəzərin şərq hövzəsinə çıxan ruslar burada yeni bir geosiyasi əhatə - İran və Türkiyə ilə qonşuluq şəraitində yaşamaq və "öz cənub sərhədlərinin" təhlükəsizliyi ilə bağlı tədbirlər həyata keçirməyə başlayır. Həmin dövrdən etibarən rusların hərbi hissələri sırasında Cənub sərhədlərinin təhlükəsizliyi keşiyində dayanan kazak hərbi dəstələri yaradılır.

l Pyotrun hakimiyyəti illərində Rusiya Ukrayna və Belarusun ərazilərini öz tərkibinə qataraq, Baltik və Qara dənizə çıxış əldə edir. Beləliklə, Rusiya getdikcə Avropanın əsas və aparıcı dövlətlərindən birinə çevrilir. Tədqiqatçılar I Pyotrun hakimiyyətə gəlməsindən ll Aleksandrın hakimiyyətinin sonu-

na qədərki dövrü (1682-1880) rus tarixinin geosiyasi dövrləşməsinin növbəti mərhələsi kimi dəyərləndirirlər. Həmin dövrdə Rusiya əhalisinin sayı, ərazisinin ölçüləri və digər strateji meyarlarına görə Avropanın güclü imperiyalarından biri olur.

XVlll əsrin başlanğıcında, dünya müstəmləkəçilik hərəkatının vüsət aldığı bir dövrdə Rusiyanın genişlənməsi və aparıcı Avropa dövlətlərindən biri kimi çıxış etməsi Avropanın geosiyasi vəziyyətini tamamilə dəyişdi. Çünki Rusiya nəinki təkcə öz sərhədlərini Avrasiyanın Şimal və Cənub istiqamətində xeyli genişləndirdi, Orta Asiya və Qafqazı işğal etdi, həm də İngiltərənin müstəmləkəsi olan Hindistanı ələ keçirmək niyyətinə düşdü, Cənubi Asiyaya doğru hərəkətə başladı. Sözsüz ki, Rus imperatoru l Pavelin Hindistanı işğal etmək arzusunun həyata keçməsi qeyri-mümkün idi və daha çox avantürist xarakter daşıyırdı. Lakin bu cür niyyətlər Avropanın böyük imperiyalarına gələcək rus təhlükələri haqqında ciddi siqnal verirdi.

Ruslar Avrasiyanın cənub hissələrini- Xəzər bölgəsini ilk dəfə 1722-1723-cü illərdə ələ keçirməyə başlayırlar. Xəzər bölgəsinin xüsusi geosiyasi və hərbi geostrateji əhəmiyyətini də onlar ilk dəfə məhz bu bölgənin Dərbənd, Quba, Bakı və Gilan kimi şəhərlərini, eyni zamanda Şirvanın bir hissəsini, Araz və Kür çayları arasındakı torpaqları, Terek çayının sahillərini, ələ keçirəndən və Cənubi Qafqazın böyük bir hissəsinə sahib olandan sonra dərk edirlər. Həmin dövrdə İran və Türkiyənin davamlı hərbi həmlələrindən sonra rus ordusu 1724-cü ildə Kür-Araz çayları arasında dayandırılır və sülh danışıqlarına getməyə məcbur edilirlər. 1724-cü ildə Osmanlı ilə bağlanmış sülh müqaviləsinə müvafiq olaraq, Rusiyanın Qafqazdakı yeni sərhədləri Kür-Araz sahilindən başlayıb Xəzərin cənub-qərb hissəsini əhatə edir. XIX əsrin 70-ci illərində ruslar ingilis müstəmləkəçiliyinin zəifləməsindən istifadə edib Xəzərin Asiya hissəsinə, xüsusən Orta Asiyaya yürüşlərə başlayır və yerli xanlıqların daxili çəkişmələrindən yararlanaraq, qısa

müddətdə bu əraziləri işğal edirlər. O zaman İran əraziləri istisna olmaqla, demək olar ki, ruslar bütün Xəzərətrafı hövzəyə sahib olur və geosiyasi cəhətdən mühüm əhəmiyyət daşıyan bu məkanı İranla öz aralarında bölüşərək, qapalı bir dairəyə çevirirlər. Ümumiyyətlə, XVIII-XIX əsrdə ruslar bütün Cənubi Qafqazı və Xəzərin cənub-qərb bölgələrini ələ keçirirlər.

I Aleksandrın hakimiyyəti illərində (1801-1825) Rus imperiyası öz gücünü və geosiyasi məqsədlərini daha açıq şəkildə nümayiş etdirməyə başlayır. Fransız qoşunlarının məğlub edilməsində və 1815-ci il Vyana Konqresinin çağırılmasında həlledici rol oynamış Rusiya dünyanın böyük imperiya dövlətləri ilə rəqabət aparmağa başlayır və öz geosiyasi ambisiyalarını, müstəmləkəçilik siyasətini getdikcə daha açıq formada reallaşdırmağa başlayır. Rusiyanın geosiyasi hədəfləri sırasında Fars körfəzi ətrafını və İranın himayəsində olan əraziləri işğal etmək, Qara dəniz sahillərini, Aralıq dənizindəki əhəmiyyətli boğazları ələ keçirmək və s. xüsusi yer tuturdu. Rusiya bu məqsədlərin bir qismini əsrin əvvəlində İranla apardığı iki müharibə nəticəsində nail olur, lakin 1854-cü ildə Avropa dövlətlərinin də Türkiyəyə yaxından köməyi ilə Krım müharibəsində ciddi məğlubiyyətə uğrayır.

Rusiyanın Krım müharibəsində Osmanlı imperiyasına qarşı müharibədə (əslində Avropanın birləşmiş qüvvələrinə qarşı) biabırçı məğlubiyyəti bu ölkənin geostrateqlərini uzun müddət rahat buraxmırdı. Xüsusən, türklərin Bizans imperiyasına məxsus pravoslav-xristian Avropasını, Balkan slavyanlarını, Cənub-Şərqi Avropanı öz hakimiyyəti altına alması bu torpaqları ələ keçirmək niyyətində olan rusları ciddi narahat edir. Türklərin Qafqaz və Qara dəniz ətrafındakı müstəmləkələrini, Avropa və Asiya arasındakı dəniz boğazlarını, o cümlədən Fars körfəzində işğaldan kənarda qalan digər torpaqları ələ keçirmək onların geosiyasi və geostrateji hədəfləri sırasın-

da ən mühüm vəzifələr hesab olunurdu. XlX əsrin ortalarından etibarən rus qoşunları Sibir və Uzaq Şərqə, Qafqaz və Orta Asiyaya, o cümlədən Cənubi Qafqaza üz tuturlar və təxminən 70 il müddətinə bu torpaqları tamamilə ələ keçirirlər.

XX əsrin əvvəllərindən Rusiyada kapitalizmin inkişafı ilə dövlətin yeni-yeni ərazi, xammal və digər iqtisadi resurs tələbatlarının ortaya çıxması ilə Avrasiyada yeni geosiyasi reallıqlar meydana gəlməyə başlayır. Xüsusən, l Dünya müharibəsi ərəfəsində Rusiya sənayesi və iqtisadiyyatı üçün yaranan xammal və ucuz işçi qüvvəsi ehtiyacları bu dövləti geosiyasi, geoiqtisadi və hərbi-geostrateji cəhətdən daha ciddi regional və beynəlxalq fəaliyyətə sövq edir. Öz geosiyasi ambisiyalarının nəticəsi olaraq bu dövlət 1914-18-ci illərdə Antanta tərəfindən Birinci Dünya müharibəsinə qoşulur və onun əsas iştirakçılarından birinə çevrilir. 20-dən artıq dünya dövlətini və planetin milyard yarım əhalisini əhatə edən bu müharibə Avropa və Avrasiyanın bütün əsas ölkələrini, geostrateji oyunçularını yeni hərbi-siyasi doktrinalar hazırlayıb həyata keçirməyə sövq edir.

Avrasiyanın əhəmiyyətli bölgələrindən hesab olunan Xəzər hövzəsinin ikinci dəfə Rusiya və dünya üçün xüsusi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji məkana çevrilməsi də məhz kapitalizmin inkişafı dövrünə- XIX əsrin sonu XX əsrin əvvəllərinə təsadüf edir. Həmin dövr həm də Bakı neftinin kəşf olunması və neft məhsullarının dünyada kapitalizmin inkişafı məqsədilə istifadəsinin genişlənməsi ilə xarakterizə olunur. O vaxtdan başlayaraq SSRİ-nin yaranmasına qədərki dövrdə Bakı və Xəzər hövzəsi özünün zəngin neft yataqları ilə məşhurlaşır və həm Rusiya, həm də dünya geosiyasi güclərinin diqqət mərkəzinə çevrilir. Xüsusilə, I Dünya müharibəsi ərəfəsində Xəzər hövzəsi, Bakı nefti və onun dünya bazarlarına daşınmasında istifadə olunan bölgənin Batumi kimi liman şəhərlərinə sahiblik uğrunda mübarizəsi transmilli bir məsələyə çevrilir.

SSRİ-nin süqutundan sonrakı dövrdə Rusiyanın Avrasiyada yürütdüyü geosiyasətin xarakteristikası

Rusiyanın Xəzər hövzəsində növbəti geosiyasi fəallıq dövrü SSRİ-nin dağılmasından sonrakı dövrə təsadüf edir. Məlumdur ki, 1920-1991-cı illərdə əksər Avrasiya məkanı kimi, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz da tam olaraq SSRİ-nin nəzarətində idi və həm beynəlxalq, həm də regional rəqabətdən kənar məkan hesab olunurdu. Lakin SSRİ-nin dağılmasından sonra bir müddət Rusiyanın bütövlükdə Avrasiya siyasəti, o cümlədən Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsində nümayiş etdirdiyi fəaliyyət həm beynəlxalq, həm də regional dairələrdə ciddi anlaşılmazlıq yaratmışdı. Çünki SSRİ-nin dağılması və müstəqilliyinin elan edilməsindən sonrakı dövrdə Rusiyanın xarici və daxili siyasətində onun həm beynəlxalq, həm də regional geosiyasi mövqelərini zəiflədən və siyasi ədəbiyyatda *geosiyasi risklər* kimi dəyərləndirilən ciddi neqativ hallar müşahidə olunurdu. Belə hallara tədqiqatçılar, həmin dövrdə regionda SSRİ-dən ayrılan bir çox keçmiş müttəfiq ölkələrlə qeyri-jeffektiv və ziddiyyətli münasibətlərin yaradılmasını, daxildə federal hakimiyyətlə regionlardakı muxtar qurumlar arasındakı "mərkəz-region müharibəsi"nin genişlənməsini və iqtisadi, siyasi, sosial məsələlərlə bağlı ciddi anlaşılmazlıqların baş verdiyini və s. halları qeyd edirlər. Belə neqativ amillər həm beynəlxalq və regional münasibətlərdə Rusiya haqqında mənfi rəy formalaşdırır, həm də ölkəyə o dövr üçün hava və su kimi tələb olunan xarici investisiya mühitini pozurdu. Xüsusilə, Rusiyanın Xəzər bölgəsindəki əksər ərazilərinin bəhs olunan dövrdə etnik separatçı, mafioz-quldur və kriminal dairələr tərəfindən idarə olunması (Dağıstan, Çeçenistan, Şimali Qafqazın digər ərazilərindəki qaynar nöqtələr nəzərdə tutulur) və bu dairələr tərəfindən müxtəlif səpkili münaqişələrin, terror aktlarının törədilməsi, cinayətkar dəstələrin sayının

günü-gündən artması və s. Rusiyanın həm beynəlxalq, həm də regional geosiyasi mövqelərini xeyli zəiflədirdi.

Mütəxəssislərin fikrinə görə, SSRİ-nin dağılması nəticəsində xarici və daxili təsərrüfat əlaqələrinin, region və dünya ölkələri ilə iqtisadi münasibətlərin pozulması Rusiya üçün həm də ciddi iqtisadi-ticarət problemləri yaradaraq daxili böhranı getdikcə dərinləşdirirdi. Dünyanın transmilli bazarlarında öz mövqelərini itirməsi, xammal və əmtəə ticarətinin qismən pozulması, maliyyə, makro-iqtisadi sistemin böhran vəziyyətinə düşməsi və s. öz müstəqilliyini qazanmış digər qonşu dövlətlər kimi Rusiyanın özünü də ciddi problemlər məngənəsində sıxırdı. Rusiya Şərqi Avropa, Yaxın və Orta Şərq, Latın Amerikası, Cənubi-Şərqi Asiya, Cənubi Qafqaz və bütün postsovet məkanının bazarlarından, xammal mənbələrindən sıxışdırılmış və öz monopolist mövqelərini itirməyə başlamışdı. Onun ənənəvi olaraq istifadə etdiyi çoxsaylı xarici və daxili nəqliyyat-kommunikasiya vasitələri, limanlar, bərələr, dəhlizlər artıq xarici ölkələrin ərazisində qalmış və onların istifadəsi üçün pul ödəmək tələb olunurdu.

Bundan başqa Rusiyanın hərbi-geostrateji məsələlər və milli təhlükəsizliklə bağlı da ciddi problemləri meydana çıxmışdı. Ölkənin həmin dövrdə milli təhlükəsizliyinə əsas təhdidlər əvvəlki illərdə güman edildiyi kimi daha çox xaricdən-ABŞ və Qərb dövlətlərindən deyil, ölkədaxili milli-etnik separatizm meyillərinin artmasından, daxili anarxiya və özbaşınalıqdan, kütləvi cinayətkarlıq hallarının artmasından və s. qaynaqlanırdı. Xüsusilə, 1990-cı illərin birinci yarısında Rusiyada demokratik qüvvələr, kommunist-sovet nomenklaturası və federal strukturlar arasında ölkənin sərvətlərinə və hakimiyyət mexanizmlərinə sahiblik uğrunda başlanan ölüm-dirim mübarizəsi, mərkəzlə əyalətlər və oliqarxik strukturlar arasında yaranan ciddi problemlər, "azad, müstəqil Rusiya tərəfdarları" ilə "SSRİ-ni bərpa etmək istəyən qüvvələr", korrupsiyalaşmış

polis-hüquq mühafizə sistemi ilə "alverçi qruplar", kriminallaşmış iş adamları arasındakı "mübarizə" və işbirliyi, qərbyolu və imperiyapərəst siyasi hərəkatlar arasındakı münasibətlər və s. ölkənin daxili geosiyasi həyatının əsas xüsusiyyətlərini təşkil edirdi. Rusiyanın milli inkişaf və təhlükəsizliklə bağlı siyasi prioritetləri ilk növbədə şaquli idarəçilik sisteminin möhkəmləndirilməsini, ölkədə milli müstəqillik və suverenlik uğrunda mübarizə aparan muxtar respublikalarla münasibətlərin tənzimlənməsini, ölkənin parçalanmasının qarşısının alınmasını və s. tələb edirdi.[98]

Bəzi rus politoloqlarının fikrincə, SSRİ-nin süquta uğradığı ilk illərdə Rusiyanın Xəzər siyasəti praqmatik geoiqtisadi niyyətlərdən daha çox onun ənənəvi imperiya yanaşmasına söykənən geosiyasi və geostrateji maraqları ilə bağlı olmuşdur. Yeni minilliyin başlanğıcından Xəzər siyasətində Rusiya əsasən öz geoiqtisadi maraqlarının təmin olunmasına diqqət çəkərək bu istiqamətdə sərgilədiyi əvvəlki geosiyasi fəaliyyətə bir çöx düzəlişlər etmişdir. Bu düzəliş nəticəsində Rusiya Xəzərətrafı ölkələrlə ilk növbədə satış bazarı, dünya enerji təminatı sahəsində öz monopolist mövqelərini qorumaq sahəsində rəqabətə başlamış, bölgənin mövcud enerji resurslarının istifadəsinə və tranzitinə nəzarət uğrunda mübarizəni gücləndirmişdir.[99]

Bir çox tədqiqatçılar SSRİ-nin dağılmasından sonrakı illərdə baş verən əksər neqativ prosesləri Rusiyada demokratik dəyərlərin bərqərar olması kimi qələmə verir və bu dövrü ölkənin demokratik inkişafı dövrü kimi şərh edirlər. Onlar ölkədə 1993-cü ildə yeni Konstitusiyanın qəbul olunmasını, çoxpartiyalı sistem əsasında seçkilərin keçirilməsini, Rusiyanın dünya birliyinə inteqrasiya xətti seçməsini və digər məsələləri demokratik inkişafın əsas göstəriciləri kimi təqdim edirlər.[100]

---

[98] Bax: "Полис", 2002, №7, c.71-73.

[99] Жильцов С.С., Зонн И.С., Ушков. А.М. Геополитика Каспийского региона. М., 2009, s.52.

[100] Маринченко А.В. Геополитика. Москва, 2009. с. 84-97.

2000-ci ildə Rusiyada baş verən hakimiyyət dəyişikliyi ilə həm daxildə iqtisadi-siyasi idarəetmənin qaydaya salınmasına, daxili hərc-mərcliyin, ziddiyyətlərin və qeyri-müəyyənliyin aradan qaldırılmasına ciddi səy göstərildi, həm də ölkənin xarici siyasətində ciddi dəyişikliklər baş verdi. Qısa müddətdə bütün ölkədə mərkəzləşmiş iqtisadi, siyasi, sosial, maliyyə və hərbi-strateji idarəçilik sistemi qaydaya salındı və dövlət nəzarəti möhkəmləndirildi. Bütün ölkə ərazisində mərkəzi hakimiyyət strukturları gücləndirildi, daxili anarxiya və hərc-mərcliyiyin qarşısı alındı və digər qətiyyətli addımlar atıldı.

Rusiya prezidenti V. Putinin dövlətin idarəçilik sisteminin yenidən qurulması, ölkənin federal dairələrə bölünərək xüsusi qubernatorluq sisteminin yaradılması, milli-etnik separatizmlə qətiyyətli mübarizə aparması və s. sahələrdə həyata keçirdiyi tədbirlər həm Rusiyada ictimai-siyasi təhlükəsizliyin təmin edilməsinə mühüm təsir göstərdi, həm də ölkənin beynəlxalq və regional geosiyasi mövqelərinin möhkəmlənməsində ciddi rol oynadı.

V.Putin əvvəlki kriminallaşmış və strukturlaşmış hüquq-mühafizə və hərbi-oliqarxik sistemi dağıdaraq, federal səviyyədə güclü icra-nəzarət sistemi yaratdı. Rusiyada milli-etnik zəmində ölkənin ərazi bütövlüyünə qarşı yönəlmiş bütün təhdidlər qətiyyətlə aradan qaldırıldı. Əvvəlki prezident B. Yeltsinin dövründə yaradılmış psevdo-demokratik institutların zərərli fəaliyyəti getdikcə məhdudlaşdırıldı. Federal və yerli səviyyələrdə idarəçilik qabiliyyəti olmayan təsadüfi adamların parlamentə və yüksək dövlət postlarına irəli çəkilməsi praktikasına son qoyuldu. Xüsusən, mərkəzi idarəçilik sistemində sərt qaydalar tətbiq edildi, monosentrist dövlət nəzarəti yaradıldı və s.

Aşkar müşahidə olunan bir reallıq da ondan ibarət idi ki,1993-2000-ci illərdə Rusiyanın daxilində cərəyan edən neqativ proseslər bu ölkənin yaxın qonşuları ilə münasibətlərinə

ciddi formada mənfi təsir göstərirdi. Rusiya keşmiş postsovet məkanında müxtəlif istiqamətlərdə öz hegemon mövqelərini qorumaq məqsədilə SSRİ-nin imperiyapərəst siyasətini davam etdirməyə çalışır, müxtəlif "agent dövlətlərdən" və "separatizm mənbələrindən" istifadə edərək MDB ölkələrini təsir altında saxlamaq istəyirdi.

Cənub Qafqaz istiqamətində Rusiya bu illərdə xüsusi fəallıq göstərərək regionda etnik separatizm meyillərini qızışdırır, xalqları və dövlətləri bir-birinə qarşı qoyaraq regionu öz təsir dairəsində saxlamaq siyasəti yürüdürdü. Bundan başqa, Cənubi Qafqaz ölkələrinin (xüsusən Azərbaycanın) kənd təsərrüfatı məhsullarının ənənəvi bazarının məhz Rusiya olmasını, bu ölkələrin vətəndaşlarının müəyyən hissəsinin işçi qüvvəsi kimi müvəqqəti olaraq bu ölkədə yaşamasını da Rusiyanın bəzi dairələri Azərbaycana qarşı əlavə təsir mexanizmi kimi istifadə etməyə çalışırdı. Qeyd edək ki, həmin dövrdə Rusiya bölgə ölkələrinə cəlbedici heç nə təklif edə bilmirdi, bu sahədə ABŞ və Qərblə rəqabətdə daim uduzurdu. Odur ki, bəzi dairələr vəziyyətdən çıxış yolunu məhz region ölkələrində milli-etnik münaqişələri qızışdırmaq, bu zəmində separatçılıq və mərkəzdənqaçma meyillərini gücləndirmək, Rusiyada yaşayan milli azlıqları sıxışdırmaq, onlara məxsus əmlak və mülkləri ələ keçirmək, yaxud müsadirə etmək və s. təzyiq vasitələrindən istifadə etməkdə görürdü. Çünki, həmin dövr üçün Rusiyanın nə iqtisadi imkanları, nə texnoloji, nə də ki, geosiyasi vəziyyəti imkan vermirdi ki, bölgədə transmilli qərb strukturları ilə ciddi rəqabət aparsın.

Prezident V.Putinin hakimiyyəti illərində ölkənin daxilində sərt və ciddi qayda-qanunun yaradılması, mərkəzi idarəçilik sisteminin nizama salınması və s. tədbirlər, həm də Rusiyanın beynəlxalq və regional geosiyasi, geoiqtisadi və hərbi-geostrateji təhlükəsizlik maraqlarının təmin olunması istiqamətində mühüm addımların atılmasına zəmin yaratdı. Onun həyata

keçirdiyi xarici siyasət Avrasiya regionunda[101] yerləşən qonşu ölkələrlə münasibətlərə də müsbət təsir göstərdi. Rusiyada "yaxın xaric" kimi təqdim olunan qonşu dövlətlərlə münasibətdə prezident Boris Yeltsin dövrünün "imperiyapərəst davranış tərzi" nisbətən yumşaldıldı və xarici siyasət xəttində bəzi praqmatik düzəlişlər edildi.

Rusiyanın Avrasiya siyasətinin hazırkı vəziyyəti və əsas tendensiyaları

Tədqiqatçıların fikrinə görə SSRİ-nin dağılması, Şərqi Avropanın sosialist ölkələrinin nəzarətdən çıxması, Rusiyanın dünya dövlətlərinə 20-ci əsr ərzindəki təsir mexanizmlərinin aradan qalxması hazırda bu ölkənin xarici siyasəti qarşısında bir neçə təxirəsalınmaz vəzifələr qoymuşdur. Bunlar:

- bütün metod və vasitələrlə ABŞ, Avropa İttifaqı və NATO-nun hərbi-geostrateji sahədə Şərqə- postsovet məkanına doğru genişlənməsinin qarşısını almaq;
- Qərb dövlətlərinin iqtisadi və siyasi cəhətdən bu məkanda möhkəmlənməsinə və yeni müstəqil dövlətlərin Qərbə meyillənməsinə mane olmaq;
- Rusiya Federasiyasının bütövlüyünü qorumaq, onun milli təhlükəsizliyini və dövlət maraqlarını bütün vasitələrlə təmin etmək və s. ibarətdir

1990-cı ilin əvvəlində **Müstəqil Dövlətlər Birliyinin (MDB)** və **Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT)** yaradılması da mütəxəssislərin fikrinə görə, *ilk növbədə Rusiyanın keçmiş SSRİ məkanında öz geosiyasi, geoiqti-*

[101] «Avrasiya» termini altındakı məkana Rusiyalı ekspertlər əsasən hazırkı MDB ölkələrini, Avropa və Asiyanın həmsərhəd dövlətlərini, Türkiyə, İran, Əfqanıstan və Monqolustanı aid edirlər (SSRİ dövründə bura Şərqi Avropanın sosialist ölkələri də daxil olunurdu).

sadi və hərbi-geostrateji təsirini qorumaq, dövlət və milli maraqlarını təmin etmək, bu məkanda mərkəzdənqaçma tendensiyalarının qarşısını almaq, Qərbin qonşu dövlətlər üzərindəki getdikcə artan təsirini zəiflətmək, yenicə müstəqillik qazanmış qonşu ölkələrin xarici siyasətini mümkün qədər koordinasiya etmək (ittifaq tipli müxtəlif təşkilatlar yaratmaq, sərhədləri birgə mühafizə etmək və s. tədbirlər vasitəsilə) məqsədi güdürdü. Çünki rus geostrateqlərinin fikrinə görə, həmin dövrdə postsovet məkanında Rusiyanın geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqları bu ərazilər üzərində hərtərəfli nəzarətin və təsir dairəsinin təmin edilməsindən keçirdi. Məsələn, Ukrayna və Belarus respublikalarının ərazisindən Qərbə Rusiyanın əsas nəqliyyat kommunikasiya xətləri, qaz və neft kəmərləri keçir, Baltikyanı ölkələrdən Kalininqrad vilayətinə kontinental hərəkət təmin edilirdi. Yaxud, Rusiyanın təhlükəsizlik mahiyyəti kəsb edən qərb sərhədləri Belarusdan, cənub sərhədləri Tacikistan, Qırğızıstan və Özbəkistandan, o cümlədən Azərbaycan, Ermənistan və Gürcüstandan keçirdi. Rusiya bu ərazilərin əldən verilməsini özünün hərbi-geostrateji təhlükəsizliyinə xələl gətirə bilən faktor kimi dəyərləndirirdi.

Bundan başqa, bəzi rus tədqiqatçıları hesab edirdi ki, Orta Asiya, Xəzər hövzəsi, Qara dəniz ətrafı və Cənubi Qafqazı itirməklə Rusiya bütün Avrasiyanın, o cümlədən dünyanın enerji, nəqliyyat-kommunikasiya sistemindəki mövcud təsirini itirəcəkdir. Odur ki, onlar Rusiya hökumətini Avrasiya regionunda bütün mümkün vasitələrlə *"öz həyati maraqlarını"* və təsir dairəsini qorumağa və təmin etməyə çağırırdılar. Rusiya hökuməti həm də MDB üzvü olan ölkələrin ətraf aləmlə geosiyasi, geoiqtisadi və hərbi-geostrateji münasibətlərini, İran, Türkiyə, Çin və ümumiyyətlə, dünyanın aparıcı dövlətləri ilə əlaqələrini də müəyyənləşdirməyə və idarə etməyə səy göstərirdi.

Hazırda beynəlxalq münasibətlər sisteminin inkişaf meylləri dünya siyasətində Rusiyanın rolunu xeyli azaltsa da, Gürcüstanla 2008, Ukrayna ilə 2014-cü ildə yaşanan hərbi qarşıdurma göstərdi ki, onun Avrasiya regionundan sıxışdırılması çox mürəkkəb məsələdir. Geosiyasi və geostrateji xarakteristikasına görə dünyanın ən nəhəng dövlətlərindən hesab olunan Rusiya çox zəngin təbii ehtiyatlara[102] malikdir, nəhəng hərbi potensialı (nüvə texnologiyası, atom silahları və strateji raketdaşıma kompleksləri), Avropaya, dünyanın istənilən quru, hava və su keçidlərinə çıxış imkanları vardır.

Rusiyanın iqtisadi, siyasi, hərbi, mədəni, sosial, maliyyə təsiri bütün MDB məkanında ciddi hiss olunur. Rusiya MDB məkanında ciddi ictimai-siyasi və informasiya mexanizmlərinə malikdir. Bu qurumda təmsil olunan ölkələrin ərazisində həm də 25 milyondan çox rusdilli əhali yaşayır, Rusiyanın kütləvi informasiya vasitələri postsovet məkanında sərbəst yayılır və ictimai rəyə ciddi təsir göstərir. MDB ölkələri Rusiya üçün əsas ixracat bazarıdır (*rus malları bu ölkələrdə üstünlük təşkil edir*). Eyni zamanda, Rusiya MDB ölkələrində istehsal olunan kənd təsərrüfat məhsulları üçün böyük bazar rolunu oynayır və mühüm əmək miqrasiyası məkanıdır. MDB dövlətlərinin əhalisi azalmaqda olan Rusiyanın işçi və əmək ehtiyaclarının xeyli hissəsini ödəyir. 1990-cı ilin əvvəllərindən Rusiya MDB ölkələri üzərində hüquqi nəzarətini itirsə də, iqtisadi və siyasi təsirini saxlamaqda və genişləndirməkdə davam edir. Region dövlətlərinin bəziləri keçən müddətdə Qərblə Rusiya arasında manevrlər edərək, öz suverenliklərinin və təhlükəsizliklərinin, iqtisadi-sosial maraqlarının təminatı və digər problemlərinin həllinə çalışır. Digərləri isə Ermənistan kimi bu ölkənin for-

[102] Rusiya öz enerji ehtiyaclarını 100 % ödədiyi halda, Yaponiya bu sahədə 82%, Almaniya və Fransa 50%, ABŞ isə 23% xarici aləmdən asılıdır.

postu statusu ilə kifayətlənərək, yarıasılı, yarımüstəqil formada- yaşamaqda davam edirlər.

Bəzi tədqiqatçıların fikrinə görə Rusiya 1991-1997-ci illərdə Avrasiyada regional münaqişələr yaradaraq, yerli hakimiyyətlərə təzyiqlər göstərmək, dövlətləri üz-üzə qoymaqla ətraf ölkələr üzərində hegemon mövqelərini qorumağa çalışırdısa, bu cür münaqişələrin tədricən Rusiyanın öz ərazisinə keçməsi təhlükəsindən sonra, 2000-ci ildən Moskva postsovet məkanındakı münaqişələri dondurmağa və öz siyasətini tədricən dəyişməyə məcbur oldu. Rusiyalı analitiklərin fikrincə, 1997-2000-ci illərdə Rusiya Avrasiya məkanı ölkələrinə münasibətdə yeni siyasi yanaşma axtarışlarına başlayır. Bu dövrün əsas səciyyəvi xüsusiyyəti Rusiyanın regional siyasətinin əsasında iqtisadi əməkdaşlığın dayanması, qeyri-sivil siyasi təzyiqlərin tədricən gündəlikdən çıxması və s. hesab oluna bilər.

V.Putinin hazırkı əsas geosiyasi missiyası SSRİ-nin dağılmasından sonrakı illərdə zəifləmiş ölkəni yenidən dünya səviyyəli qüdrətli dövlətə və güc mərkəzinə çevirməkdir. Rəsmi Moskvanın yürütdüyü siyasət göstərir ki, bunun üçün V.Putin administrasiyası indiyədək uğursuz şəkildə tətbiq olunan güc amilindən əl çəkərək, daha çox iqtisadi və enerji amilinə üstünlük verir. Rusiyanın xarici siyasətdə prioritet kimi Qərblə inteqrasiyaya üstünlük verən bəzi postsovet ölkələri ilə münasibətdə enerji asılılığı amilini qabartması, paralel olaraq özünün Avropanın əsas enerji mənbəyi olduğunu nəzərə çarpdırması belə düşünməyə əsas verir ki, dünyada enerji daşıyıcılarına tələbatın gündən-günə artdığı bir şəraitdə Rusiya bu prosesin mərkəzində duran güc mərkəzinə çevrilməkdədir. Tədqiqatçıların fikrinə görə, Ukrayna və Gürcüstana qarşı iqtisadi təzyiqlərin gücləndirilməsi, Moldovaya qaz nəqlinin azaldılması, Dnestryanı bölgədən Rusiya qoşunlarının çıxarılmasının dayandırılması və s. Kremlin həmin siyasətinin tərkib hissəsidir. Təbii ki, bu siyasət Qərbdə böyük narahatlıqla izlənir. Son

vaxtlar NATO rəhbərliyinin Kiyevə səfərlərinin intensivləşməsini və Ukrayna ilə Şimali Atlantika Alyansının əlaqələrinin möhkəmləndirilməsini Qərbin Rusiyanın artan aktivliyinə cavabı kimi də qəbul etmək olar. Analitiklər əmindirlər ki, Ukrayna rəhbərliyinin ölkənin NATO-ya qəbulu məsələsinin hələlik gündəmdə olmaması haqda bəyanatları əsasən Rusiyanı sakitləşdirməyə yönəlmişdir.

Beləliklə, Rusiyanın Avrasiya siyasətinin kökündə dayanan *əsas məqsədlərdən biri,* göründüyü kimi ABŞ-ın yürütdüyü "yeni təkqütblü dünya" nizamına postsovet regionunu buraxmamaqdır. Məlum olduğu kimi, SSRİ-nin süqutundan sonra Moskvanın öz əvvəlki mövqelərini əldən verməsi və Birləşmiş Ştatların hərbi, iqtisadi qüdrətinin daha da artması bu gün dünyada "təkqütblülüyü" şərtləndirən əsas amillərdən birinə çevrilmişdir. Ötən əsrin 90-cı illərinin əvvəlində Rusiya baş verənləri kənardan izləmək məcburiyyətində qalmışdı. O, ABŞ-ın nəinki təkcə dünyadakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji prosesləri təkbaşına idarə etmək siyasətinə qarşı real müqavimət göstərə bilmirdi, həm də getdikcə ciddi və cəlbedici amilə çevrilən bu dövlətlə Avrasiya regionunun özündə belə rəqabətə tab gətirməkdə çətinlik çəkirdi. Lakin son illər Rusiya bu "təkhakimiyyətliliyə" son qoymaq üçün konkret addımlar atmağa başlayıb. Əlbəttə, Rusiya SSRİ-nin varisi olsa da, Sovet İttifaqı kimi fövqəldövlət statusuna iddia edə bilməz. Buna onun nə iqtisadi, nə də hərbi potensialı imkan verir. Əslində, dünyada bu gün SSRİ zamanında olduğu kimi "ikiqütblülük" yaratmaq da faktiki olaraq qeyri mümkün görünür. Amma Moskva daha çox "ikiqütblülüyə" deyil, "çoxqütblülüyə" can atır. Bunun üçün də təkqütblü dünya konsepsiyasını qəbul etməyən və buna müqavimət göstərmək istəyən digər böyük ölkələri və geosiyasi güc mərkəzlərini öz ətrafında birləşdirməyə çalışır. Məlumdur ki, hazırda dünyada müxtəlif səbəblərdən "təkqütblülüyün" qarşısını almaqda maraqlı görünən Avropa

İttifaqı, Çin, Yaponiya, İran, Hindistan, Pakistan, bəzi ərəb dövlətləri və s. geosiyasi subyektlər mövcuddur. Əlbəttə, ABŞ-ın dünyadakı prosesləri təkbaşına həll etmək cəhdləri bu mərkəzlərin hər birini Rusiya ilə daha sıx təmas qurmağa məcbur edə bilər. Lakin, onların hamısını mövcud məsələdə Rusiyanın tərəfdaşı hesab etmək olmaz. Çoxqütblülük tərəfdarlarının hər biri bu prosesdə daha çox öz maraqlarını təmin etməyə çalışır. Məsələn, Rusiya Avropa İttifaqı və Yaponiyaya iqtisadi və texnoloji sponsor, İran və Hindistana Cənubda hərbi-siyasi müttəfiq kimi baxdığı kimi, onların da hər biri Rusiya ilə birgə alyansdan öz maraqları naminə istifadə etmək istəyir.

Mütəxəssislərin fikrinə görə, hazırda Avrasiyada Rusiyanın əsas geosiyasi, geoiqtisadi və hərbi-geostrateji rəqibi qismində Avropa Birliyi və ABŞ çıxış edir. Xüsusən, keçmiş SSRİ-dən ayrılmış və müstəqilliyinə qovuşmuş Ukrayna, Belarus, Azərbaycan, Gürcüstan, Moldova və Ermənistanın gələcəkdə daha çox kimin geosiyasi təsirində qalacağı və kiminlə tərəfdaş koalisiyasına daxil olacağı məsələsində tərəflər arasında kompromissiz mübarizə müşahidə olunur. Məsələn, Avropa Birliyinin „Şərq tərəfdaşlığı“na daxil olan bu altı ölkə rəhbərləri ilə reallaşdırdığı lll Vilnüs Sammiti ərəfəsində bu mübarizə açıq müstəvidə özünü göstərdi. Sammit ərəfəsində həm Avropa dövlətləri və ABŞ, həm də Rusiya müxtəlif metod və vasitələrlə bu ölkələrin gələcək əməkdaşlıq seçiminə ciddi-cəhdlə təsir göstərməyə cəhd edirdi. Rusiya qonşularını, xüsusən də düşərgələrarası mövqelərini tam açıq formada ortaya qoymayan Ukrayna və Azərbaycanı Avropa Birliyi ilə Assosiasiya Sazişini imzalamaqdan çəkindirmək üçün bir neçə ay əvvəldən başlayaraq müxtəlif mexanizmlərini işə salmışdı. Üzdə görünən addımlardan biri kimi, onlar Rusiyada yaşayan Azərbaycanlı iş adamlarının və müvəqqəti əmək miqrantlarının kütləvi şəkildə sıxışdırılması və ölkədən çıxarılmasını, Rusiya prezidentinin bu ərəfədə Ermənistana təmtəraqlı səfəri və bu

ölkədəki rus hərbi kontingentinin gücləndirilməsi görüntüsünü, ümumiyyətlə Cənubi Qafqazda Rusiyanın geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqelərinin möhkəmləndirilməsi istiqamətində bir çox nümayişkəranə addımları və s. qeyd edirlər.

Bundan başqa, yayılan xəbərlərdən görünür ki, son zamanlar Rusiyada "qeyri-rus"lara, xüsusən də azərbaycanlılara qarşı həyata keçirilən təqib kampaniyası bir sıra hallarda, hətta dinc sakinlərə qarşı terror həddinə çatdırılmışdır. Bununla, mütəxəssislərin fikrinə görə, rəsmi Kreml qonşularına açıq şəkildə mesajlar verir ki, onların Avropa Birliyi ilə sıx əməkdaşlığına kənardan sakit tərzdə baxmaq fikrində deyil.

Hazırda Rusiya qonşularını Avropa Birliyinə alternativ kimi yaratdığı - Avrasiya İqtisadi Birliyinə (AvrasİB) qoşmaq üçün bütün vasitələri işə salıb. AvrasİB-in ən önəmli strukturu Gömrük İttifaqıdır və bu, mahiyyət etibarilə keçmiş SSRİ-nin iqtisadi sərhədlərinin bərpası anlamına gəlir. Bir çox keçmiş sovet resbublikaları, o cümlədən Azərbaycan, Ukrayna və Moldova bu struktura üzv olmaqdan imtina edirlər. Bu baxımdan Vilnüs sammiti müəyyən mənada AvrasİB-lə Avropa Birliyi Şərq Tərəfdaşlığı Proqramı arasında toqquşmadır. [103]

Rusiya prezidentinin özü də 02 dekabr 2013-cü ildə Ermənistana rəsmi səfəri çərçivəsində Gümrüdəki rus hərbi bazasındakı çıxışı zamanı açıq şəkildə bəyan etmişdir ki, biz Zaqafqaziyadan getməyə heç vaxt hazırlaşmamışıq. Əksinə, biz buradakı mövqelərimizi möhkəmləndirmək haqqında düşünürük və ona hazırlaşırıq. V.Putin Cənubi Qafqazda Rusiyanın regional geosiyasi və hərbi-geostrateji mövqelərini möhkəmləndirərkən keçmiş sələflərindən qalan yaxşı nə varsa ona, eyni zamanda bütün bölgə ölkələri ilə, xüsusən də Ermənistanla strateji tərəfdaşlıq münasibətlərinə əsaslanacaqlarını vurğulamışdır. O, həmçinin əmin olduğun bildirmişdir ki, Ermənista-

[103] Bax: "Bizim yol" qəzeti, №222, 29.11.2013. s.9.

nın Avrasiya inteqrasiya layihəsinə (Gömrük İttifaqına) qoşulması onun iqtisadi potensialını ciddi şəkildə möhkəmləndirəcək, bu ölkədə investisiya mühitini yaxşılaşdıracaq və birbaşa işgüzar əlaqələrin inkişafına şərait yaradacaqdır.[104]

Siyasi analitiklər hesab edir ki, b*ir sıra MDB* ölkələrinin, xüsusən də Ukraynanın Avropaya inteqrasiyası yolunda növbəti mərhələ kimi gözdən keçirilən bu Sammit bir tərəfdən Rusiyanın qonşu ökələrə qarşı ciddi təzyiqləri ilə müşayiət olunmuş, digər tərəfdənsə, postsovet məkanında geosiyasi meyillərin aydınlaşmasına və gələcək hədəflərin müəyyənləşməsinə təkan vermişdir. [105]

Rusiyanın Avrasiyada regional təhlükəsizlik siyasəti

Rusiyanın Avrasiyanın, o cümlədən Cənubi Qafqaz və Xəzər-Qara dənizi hövzəsinin təhlükəsizlik mühitinə yanaşması və təhlükəsizliklə bağlı bəyan etdiyi planlar müstəqilliyinin ilk on ilində Cənubi Qafqazda yalnız bir dövlət – Ermənistan tərəfindən "tam razılıqla" qarşılanırdı. Bu da onun bölgədəki təhlükəsizlik siyasətinin səmərəli olması üçün kifayət etmirdi. Bölgə ölkələrinin keçən əsrin 90-cı illərində müəyyən mənada Rusiyadan üz döndərərək, regionda və dünyada özlərinə daha etibarlı geostrateji tərəfdaşlar axtarmağa başlaması, Cənubi Qafqazın təhlükəsizlik dairəsinə "bölgədənkənar geosiyasi oyunçular" və güc mərkəzləri cəlb etməsi, tədqiqatçıların fikrinə görə, Rusiyanın bütün postsovet məkanında olduğu kimi, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda da öz "maraqlarını və təsir imkanlarını" qoruyub saxlamaq üçün ənənəvi olaraq daxili münaqişələrdən istifadəyə üstünlük verməsi, açıq, yaxud dolayı yolla davakar etnik separatizmi dəstəkləməsi,

[104] Bax: "Kaspi" qəzeti, №230, 03.12.2013. s.7.
[105] Yenə orada

ölkələrin ərazi bütövlüyünün pozulmasına biganə qalması və s. kimi amillərlə bağlı idi.[106] ABŞ və Şimali Atlantika Alyansının regiondakı hərbi-strateji nüfuzunun artmasının, mövqelərinin möhkəmlənməsinin və bölgə ölkələrinin bu struktura meyillənməsinin əsas səbəblərindən biri və birincisi də məhz *Rusiyanın 2000-ci ilə qədər həyata keçirdiyi ikili regional təhlükəsizlik siyasəti* ilə bağlı idi.

Rusiyanın Cənubi Qafqaz və Xəzər hövzəsindəki 2001-ci ildən başlayaraq həyata keçirdiyi hərbi-geostrateji və təhlükəsizlik siyasəti daha yumşaq və cəlbedicidir. Bu siyasət "daha praqmatik formada regionun bütün ölkələr ilə hərbi-geostrateji tərəfdaşlıq münasibətləri qurmaq yolu ilə" onları "kənar təsirlər" altına düşməkdən qorumağa yönəlmişdir. Hazırda bu ölkənin bölgədə yürütdüyü geosiyasət və region ölkələrilə qurduğu hərbi təhlükəsizlik sahəsindəki ikitərəfli münasibətlər yaxşılığa doğru xeyli dəyişmişdir. Belə ki, Rusiya bölgə ölkələrinin hərbi-strateji mövqelərini, transmilli mənafelərini, geosiyasi, geoiqtisadi və milli-mədəni hüquqlarını anlaşıqlı qarşılamağa başlamışdır. Siyasətşünaslar Rusiyanın bu addımını, bir tərəfdən, ölkədə baş verən siyasi dəyişiklik və hakimiyyətə Vladimir Putin başda olmaqla daha konstruktiv, praqmatik düşüncəli siyasətçilərin gəlməsi, digər tərəfdənsə, bu dövlətin "bölgənin siyasi, iqtisadi, hərbi və təhlükəsizlik nöqteyi-nəzərindən həm Qərbin, həm də bütöv dünyanın inkişaf etmiş ölkələrinin maraq dairəsinə daxil olması reallığını" qəbul etməsi ilə bağlayırlar. Məlumdur ki, NATO və Avropa İttifaqı artıq bölgənin sərhədlərinə qədər genişlənmişdir, Yaxın Şərq və Fars körfəzinin ətraf dövlətləri (İraq, Əfqanıstan, Pakistan və b.) tamamilə qərbin təsiri altına keçmişdir. Bölgədə qloballaşma, demokratik-

[106] Bax: Dispatch: Russia"s Control of the Naqorno-Karabakh issue. http://www.stratfor.com; Эйвазов Дж. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, 2004.c.194-146 və.b.

ləşmə və transmilli siyasət dönməz xarakter almışdır ki, bu da, müvafiq olaraq, əksər bölgə ölkələrindən özlərinin Avrasiya siyasətlərini getdikcə daha praqmatik əsasda qurmağı tələb edir.

Rusiya hazırda bütün mümkün vasitələrlə Qərbin Cənubi Qafqaza, Xəzər-Qara dəniz hövzəsinə və Mərkəzi Asiyaya geosiyasi. Geoiqtisadi və hərbi-geostrateji müdaxiləsinin, ABnin iqtisadi tərəfdaşına çevrilməsinin, "NATO-nun Şərqə doğru genişlənmə təhlükəsinin" və bölgə ölkələrinin müxtəlif sahələrdə bu qurumlara meyillənməsinin qarşısını almaq istiqamətində fəaliyyət göstərir. 2008-ci ildə Rusiyanın Gürcüstanla Cənubi Osetiya əhalisinin, 2014-cü ildəsə Ukraynadakı rusdilli əhalinin müdafiəsi adı altında hər iki ölkənin ərazisinə qoşun yeritməsi, Cənubi Osetiyanı, Krımı öz tərkibinə birləşdirməsi faktı göstərdi ki, bu ölkə lazım gələrsə bütün mümkün vasitələrdən istifadə etməklə Cənubi Qafqazda, Xəzər-Qara dəniz hövzəsində, Mərkəzi Asiyaya və digər postsovet məkanında öz maraqlarını qoruyacaqdır.

2009 və 2010-cu illərdə qəbul etdiyi "Rusiya Federasiyasının 2020-ci ilədək Milli Təhlükəsizlik Strategiyası" və Hərbi Doktrinasında [107] Rusiya "lazım gəldikdə öz təhlükəsizliyini təmin etmək məqsədilə" başqa region dövlətlərinin sərhədləri daxilində "hərbi güc tətbiq etmə hüququ"nu təsbit etmişdir. Bu müddəanın mövcudluğu, mütəxəssislərin fikrincə, postsovet, xüsusən də Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsinin dövlətləri üçün Rusiyanın hərbi-geostrateji təhlükə mənbəyi olaraq qalmasının göstəricisi hesab oluna bilər. Onların fikrincə, əslində, mövcud yanaşma ilə Rusiya beynəlxalq hüququn müstəqil ölkələr üçün tanıdığı - "öz inkişafını, daxili və xarici siyasətini, milli təhlükəsizlik məsələlərini sərhədləri daxilində sərbəst müəyyən etmək" və s. kimi hüquqlarına mə-

[107] Bu sənədlərlə http://nvo.ng.ru və http:// www.rg.ru saytlarında tanış olmaq olar.

həl qoymadan, Avrasiya ölkələrinin NATO təhlükəsizlik sisteminə çıxışını çətinləşdirmək, Qərblə hərbi inteqrasiyasını və bu sahədə hər hansı formada sərbəst siyasət yürüdülməsi prosesini əngəlləmək məqsədini ortaya qoymuşdur. Başqa müstəqil dövlətlərin milli ərazilərini və azad seçimini hər hansı digər bir dövlətin "öz həyati maraqlarına daxil etməsini və məhdudlaşdırmasını", yaxud "bir ölkənin təhlükəsizlik və digər həyati maraqlarının, eyni statuslu başqa müstəqil dövlətlərin müvafiq haqlarının hesabına təmin edilməsini" mütəxəssislər birmənalı şəkildə beynəlxalq hüquqa və BMT Nizamnaməsinə zidd sayırlar.[108]

Rusiya hazırda Xəzər hövzəsi və Cənubi Qafqazdakı bütün hərbi-geostrateji yüklü məsələləri bir qədər fərqli metod və vasitələrlə, Xəzərdə tarixi rəqibi olan İranın, Cənubi Qafqazda Türkiyənin, həmçinin hər iki məkanda yeni rəqibləri olan ABŞ, NATO və Avropa İttifaqının iştirakı olmadan həll etmək istəyir. Lakin Rusiyanın Xəzərdə 5 hövzə ölkəsinin birbiri ilə daha konstruktiv mövqedə olmasına söykənən – hövzədə "kənar müdaxilə olmadan" beşliyin birgə təhlükəsizlik missiyasını yaratmaq siyasəti müəyyən nəticə versə də, Gürcüstanla yaranmış problemlər və Ermənistanın işğalçılıq siyasəti, hələ ki, ona Cənubi Qafqazın regional məsələlərini «3+1» formulu – *3 Cənubi Qafqaz ölkəsi və Rusiya formulu* əsasında həll etməyə imkan vermir. «*Qafqaz dördlüyü*» adlandırılan bu format 90-cı illərin ortalarından geosiyasi müstəviyə çıxarılmışdır. Cənubi Qafqazın təhlükəsizliyi və s. adlar altında ölkə prezidentləri, təhlükəsizlik şurası sədrləri, dini liderlər və b. səviyyəsində müxtəlif görüşlər və məsləhətləşmələr keçirilsə də, Rusiyanın bölgədə "etnik separatizm və ərazi bütövlüyü" ilə bağlı nümayiş etdirdiyi əvvəlki mövqeyə görə bu sahədə ciddi irəliləyiş baş verməmişdir.

[108] Bax: газ. "Зеркало", 2 сентября 2010 г.

Geosiyasətçilər hesab edir ki, Cənubi Qafqazdan fərqli olaraq, Xəzər hövzəsinin hərbi-geostrateji və təhlükəsizlik məsələlərində Rusiya daha praqmatik geosiyasət yürüdərək, iyirmi illik "geriçəkilmə geosiyasətinə" son qoymuş və öz hərbi-geostrateji təsirini bərpa etmək istiqamətində ciddi irəliləyişə nail ola bilmişdir. Rusiya Xəzərdə ən güclü hərbi-dəniz qüvvələrinə, hərbi-geostrateji mövqelərə malikdir və buradakı üstünlüklərini kiminsə xeyirinə məhdudlaşdırmaq, yaxud kiminləsə bölüşmək haqda qətiyyən düşünmür. Odur ki, o, İranın da NATO "təhlükəsindən", yaxud "nə vaxtsa Xəzər ərazisindən ona qarşı hərbi məqsədlər üçün istifadə edilə bilməsi ehtimalından" istifadə edərək, Xəzərin hüquqi statusu məsələsini ciddi qabartmadan, 5 hövzə ölkəsi rəhbərlərini "hər hansı kənar qüvvələrin Xəzərdə hərbi iştirakını və yaxud hövzə ölkələrinin ərazisindən kiməsə qarşı hərbi-strateji istifadəni qadağan edən" Birgə Saziş bağlamağa razı sala bilmişdir. Bu məqsədlə son illərdə Rusiya hövzə ölkələri içərisində "Xəzərin təhlükəsizliyi və ümumi istifadəsi" ideyasını fəal şəkildə təbliğ etmiş, Qara dəniz hövzəsi və müəyyən qədər Cənubi Qafqazda qərb ölkələrinə və Türkiyəyə getdiyi güzəştləri, itirdiyi geosiyasi və geoiqtisadi mövqeləri Xəzərdə bərpa edə bilmişdir. Xəzəryanı ölkələrin dövlət başçılarının 19 noyabr 2010-cu il tarixli Bakı sammitində Rusiyanın təşəbbüsü ilə Xəzər hövzəsinin təhlükəsizliyi, dənizin "hərbiləşdirilməsinin" qarşısının alınması və dinc məqsədlər üzrə birgə istifadəsi, enerji resurslarının istismarı, ekoloji vəziyyəti və s. məsələlərlə bağlı Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistan prezidentləri "Xəzərdə təhlükəsizlik sahəsində əməkdaşlığa dair" Saziş və Birgə Bəyanat imzalamışlar.[109] Göründüyü kimi, Rusiya Xəzər ölkələrini öz təhlükəsizlik dairəsində birləşdirərək, bir tərəfdən, hövzədə İranın və digər ölkələrin silahlanmasına, hərbi-geo-

[109] Bax: "Azərbaycan" qəzeti, 19 noyabr 2010-cu il

strateji sahədə müstəqil hərəkət etməsinə maneçilik törətmiş, digər tərəfdənsə, NATO və s. kənar hərbi blokların hansısa yollarla Xəzər hövzəsinə buraxılmasının qarşısını almağa nail olmuşdur. İmzalanmış sənəd bütövlükdə əksər hövzə ölkələrinin milli maraqlarına cavab versə də, hövzənin bir çox təhlükəsizlik məsələləri bu sazişdə də sona qədər öz həllini tapmamışdır. Bu sıraya hövzə ölkələrinin Xəzərdə hərbi-dəniz qüvvələri, sahil hərbi bazaları, digər silah-sursat saxlamaq hüququ və onların kvotası məsələlərini; regiondankənar dövlətlərin və hərbi blokların Xəzər hövzəsində, ətraf ölkələrin ərazisində və hava məkanında hərbi iştirakını və onun prinsiplərini; hərbi gəmilərin hövzə ölkələrinin milli sektorundan keçməsi normalarını; dənizin demilitarizasiyası və regional güc balansının saxlanılması və s. məsələləri aid etmək olar.

Mütəxəssislərin fikrinə görə, Xəzər hövzəsi və Cənubi Qafqazda öz praqmatik təhlükəsizlik siyasətini günü-gündən gücləndirən, hərbi iştirakını artıran və onu region ölkələrinin təhlükəsizliyi ilə əlaqələndirməyə çalışan Rusiya, həm də keçən illərdə onun yaratdığı KTMT-yə fərqli münasibət nümayiş etdirən, digər hərbi bloklarla tərəfdaşlıq edən Azərbaycana, Ukraynaya, Moldovaya, Gürcüstana və Orta Asiyanın bəzi dövlətlərinə müəyyən ümidverici siqnallar ötürür. Bütün müsbət işlərin fonunda, Rusiyanın ən çox anlaşılmazlıq yaradan fəaliyyəti Cənubi Qafqazda bir vaxtlar onun da ciddi cəhdi ilə region ölkələrinin "qoşulduğu" və az qala "bu ölkələr üçün beynəlxalq öhdəliklərin əsas tələbi kimi" dəyərləndirilən ATƏT-in "Regional Təhlükəsizlik Məsələləri üzrə" adi silahlara dair Cinah Sazişinə əməl olunmasına münasibəti ilə bağlıdır. Hazırda ATƏT-in bu sazişini heç kim diqqətə çatdırmır. Rusiyanın özü onun tələblərini nəzərə almadan, münaqişə bölgələrinə - Cənubi Osetiya, Abxaziya, Dağlıq Qarabağ və Ermənistana istədiyi qədər qeyri-qanuni hərbi texnika və silah göndərir, hərbi bazalar yaradır və silahlı qüvvələr yerləşdirir. Bundan

başqa, bütün məsələlərdə, xüsusən dənizin su səthində özünə "tam sərbəst hərəkət azadlığı" tələb edən Rusiya digər ölkələrin gəmilərinin Volqa çayı vasitəsilə ətraf sulara məhdudiyyətsiz keçidinə xüsusi maraq göstərmir və s.

Rusiya, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və bölgə ölkələrinin hərbi-geostrateji maraqları

1992-ci ildə keçmiş SSRİ-nin mövcud olduğu Avrasiyanın əhəmiyyətli geosiyasi məkanlarına hər hansı xarici və kənar güc mərkəzlərinin daxil olmasının qarşısını almaq üçün Rusiya bəzi keçmiş sovet respublikalarının iştirakı ilə **Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı**[110] adlanan hərbi blok yaratmış və hazırda onu daha da genişləndirmək kursu yürüdür.

Yarandığı gündən KTMT-nin və onun əsas himayədarı olan Rusiyanın Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsindəki regional təhlükəsizlik siyasətinin əsasında *bölgə ölkələrini hərbi-təhlükəsizlik sahəsində NATO və Qərbin təsirindən qorumaq, onları vahid hərbi-strateji çətir altında saxlamaq* vəzifəsi dayanmışdır. Əvvəllər özünü daha çox müxtəlif bəyanatlar verməklə təsdiq etdirməyə çalışan və üzv ölkələrin təhlükə-

[110] KTMT 1992-ci ilin mayında Daşkənddə MDB-yə üzv olan 6 ölkə - Rusiya, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın iştirakı ilə, üzv ölkələrin təhlükəsizliyini təmin etmək məqsədilə, kollektiv hərbi qurum kimi yaradılmışdır. Quruma sonradan Azərbaycan (24 sentyabr 1993-cü il), Gürcüstan (9 dekabr 1993-cü il) və Belarus (31 dekabr 1993-cü il) müşahidəçi qismində qoşuldular. Digər MDB üzvləri - Ukrayna, Moldova və Türkmənistan ümumiyyətlə bu qurumda iştirakdan imtina etdilər. Bir qədər sonra, KTMT-nin prinsipləri, məramı və şərtləri Azərbaycan və Gürcüstanı qane etmədiyindən, hər iki ölkə bu təşkilatla əməkdaşlıqdan imtina etdi, 1999-cu ildən isə qurumda müşahidəçi qismində iştiraklarını da dayandırdı. Eyni addımı az sonra Özbəkistan da atdı, lakin sonradan bu dövlət yenidən KTMT-yə qayıtdı.

sizliyini təmin etmək anlamında heç bir təşkilati strukturu və yaxud hüquqi səlahiyyəti olmayan KTMT, 2003-cü ilin oktyabrından konkret hərbi-siyasi blok adı ilə çıxış edir. Həmin il oktyabrın 7-də MDB-nin Kişinyov sammitində Rusiya, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan prezidentləri Kollektiv Təhlükəsizlik Müqaviləsi (KTMT) Təşkilatının "vahid təhlükəsizlik qüvvələrinin" yaradılması haqda müqavilə imzaladılar.

Rusiyalı bəzi politoloqlar fəaliyyət göstərdiyi 18 il ərzində postsovet regionunda səmərəli kollektiv təhlükəsizlik strukturuna çevrilə bilməmiş "KTMT"-ni "Avrasiya hərbi-siyasi blokunun yaradılması" kimi təqdim edirlər. Lakin müstəqil ekspertlərin fikrincə, KTMT-nin bugünkü fəaliyyəti nə üzv dövlətləri tam qane edir, nə səmərəli bir təşkilat kimi digər ölkələr üçün cəlbedicidir, nə də ki, əksər postsovet ölkələrinin vahid təhlükəsizlik maraqlarına cavab verir. Məsələn, Cənubi Qafqaz və Qara dəniz ətrafı ölkələrindən yalnız Ermənistanın blokda təmsil olunmasına, KTMT-nin tərkibindəki əksər ölkələrin Rusiya ilə mövcud geosiyasi və geoiqtisadi münasibətlərinə, təşkilat daxilindəki real vəziyyətə nəzər salan politoloqlar KTMT-ni vahid bir təhlükəsizlik bloku kimi qəbul etmirlər. Təşkilatın əsas üzvləri olan Rusiya, Belarus, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Ermənistan arasındakı həqiqi dostluq münasibətləri, hərbi maraqların tarazlığı və ortaq təminatı məsələsi də bir çox müstəqil ekspertlərdə ciddi şübhə doğurur. Onların fikrincə, təşkilata üzv olan ölkələr arasında bütün sahələr üzrə mövcud olan geosiyasi, hərbi və iqtisadi ziddiyyətləri gizlətmək mümkün deyildir. Məsələn, Rusiya ilə Belarusun münasibətləri ciddi hərbi-geostrateji müttəfiqlik və tərəfdaşlıqdan çox uzaqdır. Yaxud Orta Asiya ölkələrinin, Belarus və Qırğızıstanın, Rusiya və Tacikistanın, Rusiya və Özbəkistanın ikitərəfli münasibətlərinin mövcud vəziyyətini, Özbəkistan, Tacikistan, Qırğızıstan arasındakı mübahisəli etnik

məsələləri və s. faktları mütəxəssislər KTMT-nin ciddi problemlər yaşamasının göstəricisi hesab edirlər.[111]

Rəsmi Moskva son zamanlar Ukrayna, Azərbaycan, Moldova və Gürcüstanın da bu blokda təmsil olunmasına çalışır. Lakin adı çəkilən hər bir ölkənin bloka qoşulmamasının öz səbəbi mövcuddur. Azərbaycan Respublikasını KTMT-yə qoşmaq istiqamətində göstərilən sonuncu cəhd 2004-cü ilin payızında - MDB dövlət başçılarının Astanada keçirilən sammitində baş vermişdir. Lakin rəsmi Bakı Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə və ölkənin ərazi bütövlüyü bərpa olunmayana qədər özünün regional təhlükəsizlik məsələləri ilə bağlı mövqeyində hər hansı dəyişiklik etməyə, hansısa hərbi bloka qoşulmağa heç bir əsas olmadığını bəyan edərək, KTMT-yə qoşulmaqdan imtina etmişdir.

Cənubi Qafqazın digər ölkəsi - Gürcüstan da dəfələrlə bu hərbi-siyasi bloka üzv olmaq niyyətində olmadığını bildirərək, əksinə, öz ərazisindəki Rusiya hərbi bazalarının ölkədən çıxarılması tələbi ilə çıxış etmiş və sonrakı illərdə buna nail olmuşdur.

O ki qaldı Moldova və Ukraynaya sonuncu hadisələrdən sonra, onların həm NATO, həm də KTMT ilə münasibətləri qeyri- müəyyən olaraq qalır. Bundan başqa, KTMT-nin rəsmi üzvü olan Özbəkistan da neçə illərdir ki, prezident səviyyəsində qurumun sammitlərini boykot edir. Bu da təşkilatın "vahid hərbi-strateji blok olması" fikrini şübhə altına alır.

KTMT-nin 2010-cu ilin dekabrında Moskvada keçirilən sammitində Özbəkistan prezidentinin çox ciddi narazılığı və səsləndirdiyi bəyanat göstərdi ki, hazırda KTMT-yə üzv dövlətlər arasında mövcud olan ziddiyyətli və ayırıcı məqamlar onları birləşdirən və hərbi-geostrateji müttəfiq kimi bir-birinə

[111] Bax: газ. "Зеркало", 24 сентября 2010 г.

bağlayan məqamlardan çoxdur. Rusiya son zamanlar çalışır ki, qurumun nizamnaməsinə bəzi dəyişikliklər edərək onu digər üzv dövlətlərin daxili münaqişələrini həll etmək üçün "operativ hərbi təşkilat"a çevirsin və lazım gələndə KTMT-nin ümumi hərbi missiyasından istifadə edərək, üzv dövlətlərin suverenliyi, ərazi bütövlüyü və daxili sabitliyi ilə bağlı yerli və xarici təhlükələrin qarşısını alsın. Məlumatlara görə, Özbəkistan prezidenti İslam Kərimov Moskva sammitində təşkilatın nizamnaməsinə olunan dəyişikliyə etiraz edərək bildirmişdir ki, KTMT-nin əsas vəzifəsi heç də MDB, yaxud KTMT çərçivəsində mövcud olan ölkələrarası və ölkədaxili ziddiyyətləri, münaqişələri nizamlamaq deyil, üzv ölkələri xarici təhlükələrdən qorumaqdan ibarətdir. Özbəkistan prezidenti öz ölkəsinin yeni nizamnamə dəyişikliyinə və KTMT çərçivəsində yaradılacaq hər hansı "operativ kollektiv müdaxilə" qurumuna qoşulmayacağı haqqında ciddi bəyanat vermişdir.[112] Lakin Özbəkistan və başqa üzvlərin etirazına baxmayaraq, KTMT-yə postsovet məkanında daxili və ölkələrarası münaqişələrə de-yure müdaxilə etmək səlahiyyəti verən dəyişikliklər qəbul edilmişdir. Mütəxəssislərin fikrincə, Rusiya NATO təcrübəsindən istifadə edərək, KTMT-ni regionun vahid hərbi-strateji təşkilatına çevirmək, bölgədə baş verən əksər hərbi, strateji, siyasi və s. hadisələri öz nəzarəti altında saxlamaq istəyir. Lakin:

- üzv ölkələrin hərbi gücünün, hərbi-geostrateji maraqlarının və bu təşkilata təsir etmə imkanlarının tamamilə fərqli olmasından;
- MDB-nin digər üzv ölkələrinin ayrı-ayrı səbəblərdən bu təşkilatda iştirakdan imtina etməsindən;
- üzv ölkələrin hərbi-siyasi liderlik anlamında vahid məqsədlərinin olmaması və fərqli vəzifələrə xidmət etməsi

[112] Bax: газ. "Зеркало", 14 декабря 2010 г.

səbəbindən Rusiya de-fakto bu məqsədlərinə nail ola bilmir.

Əlbəttə, Rusiya KTMT-ni gücləndirmək və onun idarəçiliyini əlində saxlamaqla, həm də hərbi-geostrateji plan kimi Avrasiyada NATO-nun mövqelərinin zəiflədilməsini və öz təsirinin gücləndirilməsini də təmin etmək istəyir. Bundan başqa, regionda Qərblə texnologiya, iqtisadi və investisiya baxımından tam yarışa bilməyən Moskva, heç olmazsa, hərbi-siyasi sahədə bölgədəki üstünlüyünü qorumağa çalışır. Bəzi mütəxəssislər hesab edir ki, əgər ABŞ nə zamansa yenidən, hər hansı postsovet ölkəsini öz hərbi-strateji təsiri altına salmağa cəhd göstərsə, o zaman Rusiya yerli ictimai-siyasi və digər dairələri də işə qoşmaqla, ona sərf edən hakimiyyəti, idarəçilik rejimini müdafiə etmək və yaxud əleyhinə çıxmaqla məqsədlərinə nail olmaq üçün hərəkətə keçəcəkdir.

KTMT-nin gələcək inkişafı və davamlı mövcudluğu ilə bağlı hazırda ortada hər hansı ciddi bir konsepsiya və strategiya mövcud deyildir. Bunu qurumun ayrı-ayrı dövrlərdə Ukrayna, Azərbaycan, Gürcüstan, Özbəkistan, Moldova, Belarus və başqa postsovet ölkələri ilə bağlı reallaşdırdığı ziddiyyətli geosiyasətin məzmunu və nəticələri də sübut edir. Məsələn, adıçəkilən bu ölkələrdən biri və yaxud hamısı nə zamansa yenidən Qərbə, yaxud onun hərbi strukturlarına üz tutsa, KTMT-nin hansı addımları atacağı, yaxud Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunandan sonra təşkilatın Qafqazda bu iki ölkəyə münasibətinin daha hansı manevrlər üzərində reallaşacağı və s. bu kimi məsələlər nə KTMT-nin, nə də Rusiyanın hazırkı hərbi-geostrateji planlarında öz əksini tapmamışdır.

Hazırda Rusiya əksər postsovet ölkələrini KTMT-yə qoşmaq və onların NATO-ya meyillənməsini önləmək üçün ciddi tədbirlər görür. Qərbin ikili standartlara söykənən tələblərinə o qədər də ciddi reaksiya vermədən, Rusiya Avrasiyanın məqsə-

dəuyğun hesab etdiyi bütün bölgələrində, bütün məqbul vasitələrlə "öz həyati maraqlarını" qorumaqda və geosiyasi təsir mexanizmlərini saxlamaqda davam edir. Son illərdə bu ölkənin bəzi siyasi dairələrinin dilindən "böyük ölkələrin regional maraq dairələrinin və geosiyasi təsir zonalarının" tanınması və qorunması, belə demək mümkünsə, planetar məkanların "Jirinovski sxemi" üzrə, "müxtəlif iri dövlətlərin təsir və maraq dairələrinə bölünməsi", kiçik ölkələrin hüquqlarının nəzərə alınmaması hesabına "böyüklərin təhlükəsizlik maraqlarının dönməz şəkildə təmin edilməsi" və s. kimi beynəlxalq hüquqa zidd çağırışlar səslənməkdədir. Bir faktı qeyd etmək lazımdır ki, "dünyanın maraq dairələri üzrə faktiki olaraq yenidən bölünməsini" rəsmən bəyan edən və "planetin yeni təhlükəsizlik memarlığı" adlanan belə geostrateji plan və mülahizələrə, rəqib hərbi bloklara və ölkələrə meyil göstərən dövlətləri və xalqları müxtəlif iqtisadi, siyasi, sosial və s. təzyiq vasitələri ilə sıxışdırmaq cəhdinə bütün böyük ölkələrin timsalında rast gəlmək mümkündür. Tədqiqatçıların fikrincə, son zamanlar bir çox kiçik ölkələrin regiondakı müstəqil geosiyasi amil kimi çıxış etməsinə mane olan əsas səbəblər onların böyük ölkələrdən strateji sahələr üzrə - təhlükəsizlik, enerji, iqtisadi, ərzaq və s. sferalarda asılılığı hesab olunur.

Rusiyanın Avrasiya siyasətində Azərbaycan Respublikasının yeri və rolu haqqında

Rusiyanın Avrasiya siyasətində Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz ölkələri, o cümlədən də Azərbaycan mühüm yer tutur. Hələ çar Rusiyası dövründə Xəzər dənizinə çıxış, Azərbaycanın işğalı və bu ərazidən İran, Türkiyə və digər Şərq dövlətlərinə müdaxilə və təsir vasitəsi kimi istifadə edilməsi rus imperatorlarının fəaliyyətində xüsusi yer tutmuşdur.

Sovet hakimiyyəti illərində də Azərbaycan müsəlman Şərqinə və Türkiyəyə çıxış üçün qapı rolunu oynamış və ondan Şərqə təsir üçün forpost kimi istifadə edilmişdir.

1991-ci ildə SSRİ dağılandan sonra Rusiya digər postsovet respublikaları kimi Azərbaycanla da müstəqil dövlət olaraq ikitərəfli və çoxtərəfli münasibətlər yaratdı. Düzdür, Azərbaycanın Qərb ölkələri və Türkiyə ilə sıx münasibətləri, xüsusən də Qərbə inteqrasiya meyili ilə bu ölkənin bəzi dairələri uzun müddət barışa bilmirdi. Odur ki, Azərbaycanın "bərabərhüquqlu əsasda, qarşılıqlı faydalı əməkdaşlıq şəraitində, beynəlxalq hüquqa və mehriban qonşuluq münasibətlərinə uyğun" əlaqələr qurmaq istəyinə bu ölkənin bəzi dairələri ciddi-cəhdlə mane olurdu. Əslində, müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasının siyasi rəhbərləri də Rusiya ilə bərabərhüquqlu qarşılıqlı-faydalı münasibətlər yaratmağa ciddi cəhd göstərməmiş və yaxud buna nail ola bilməmişdir. Odur ki, mütəxəssislər 1991-1997-ci illərdə iki ölkə arasındakı münasibətləri qeyri-normal qiymətləndirmişlər.

Bəhs olunan dövrdə Azərbaycanı öz təsirində saxlamaq üçün Rusiya hökuməti, bir tərəfdən bütün vasitələrlə bu ölkənin daxilində milli birlik və sabitliyin pozulmasına nail olmuş, etnik separatizmi, siyasi və vətəndaş qarşıdurmasını qızışdırmış, iqtisadi böhran yaratmış və onu günü-gündən dərinləşdirməyə çalışmışdır. Digər tərəfdən, açıq və yaxud dolayı yollarla Azərbaycanın ətrafında geosiyasi və geoiqtisadi blokada yaratmaq, Ermənistanın işğalçı siyasətini dəstəkləmək, Rusiyada yaşayan azərbaycanlıları sıxışdırmaq, beynəlxalq aləmdə Azərbaycanın milli maraqlarına zərbə vurmaq, Xəzər dənizinin statusu məsələsini qabartmaq, Qərb ölkələrinin Azərbaycanla əlaqələrini pozmaq və s. kimi geosiyasi vasitələrlə ona xaricdən zərbə vurmağa çalışmışdır. Bu işdə Rusiyanın bəzi siyasi dairələri, Xarici İşlər, Müdafiə və Təhlükəsizlik nazirlikləri xüsusi rol oynamışlar.

XX əsrin sonlarından dünyada yaranan yeni geosiyasi vəziyyət, o cümlədən planetin enerji təhlükəsizliyi məsələsinin getdikcə aktuallaşması Rusiyanın həm Xəzər siyasətinə, həm də Azərbaycanla münasibətlərinə öz praqmatik təsirini göstərməyə başlamış və nəticədə ruslar da "total təzyiq" siyasətindən bir qədər əl çəkərək, digər dünya gücləri kimi öz maraqlarını təmin etmək üçün bölgənin zəngin neft-qaz ehtiyatları, əlvan və qara metal yataqları uğrunda geoiqtisadi mübarizəyə başlamışlar. Məlumdur ki, müstəqilliyinin ilk dövründə digər postsovet respublikaları kimi Rusiya da ağır iqtisadi və siyasi böhran keçirdiyinə görə, Xəzər bölgəsində Azərbaycanın həyata keçirdiyi transmilli enerji layihələrindən bir qədər kənarda qalmış, ciddi geosiyasi və geoiqtisadi fəaliyyət nümayiş etdirə bilməmiş və rəqabət qabiliyyətinə görə regiona marağı olan ABŞ və Qərb dövlətlərinə uduzmuşdu. Odur ki, Rusiya qonşu ölkələrə, xüsusilə, ABŞ və Qərb dövlətləri ilə strateji əməkdaşlıq münasibətləri yaradan Azərbaycan və Gürcüstana daha çox əsassız təzyiq siyasəti yürüdürdü. Mütəxəssislərin fikrinə görə, həmin dövrdə Rusiyanın Xəzər hövzəsində yürütməyə çalışdığı enerji siyasətinin əsas vəzifəsi Cənubi Qafqaz və Mərkəzi Asiyanın enerji daşıyıcılarının Avropa istehlakçılarına birbaşa satış imkanlarına əngəl yaratmaq, regiondan Avropaya alternativ iri tranzit yollarının çəkilişinə mane olmaq, ABŞ-ın, AB-nin və Çinin regionun enerji sektoruna təsirini məhdudlaşdırmaq və s. ibarət idi. Bütün bunlar göstərirdi ki, bu region qarşıdakı bir neçə il ərzində Xəzəryanı dövlətlərin enerji ehtiyatlarını əldə etmək uğrunda rəqabət aparan supergüclərin amansız mübarizə meydanına çevriləcəkdir. [113]

1997-ci ildən etibarən Rusiyanın hakim dairələrində baş verən kadr dəyişiklikləri, Azərbaycanın müstəqil dövlət kimi

[113] Иноземцев В.Л. Особенности энергетического транзита inozemtsev.net/index.php?m=vert&menu=sub2&pr=107

Qərblə tərəfdaşlıq əlaqələrinin inkişafı, Prezident Heydər Əliyevin Moskvaya ilk rəsmi dövlət səfəri və keçirdiyi çoxsaylı görüşlər Rusiyanın mövqeyində ciddi dəyişikliklərə səbəb oldu. 1997-2000-ci illərdə tədricən iki ölkə arasındakı etimadsızlıq mühiti və "soyuq müharibə" praqmatik əlaqələrlə əvəz olunmağa başladı. 2001-ci ilin başlanğıcında Rusiyanın yeni seçilmiş prezidenti Vladimir Putinin Azərbaycana rəsmi səfəri bu yöndə mövcud olan problemlərin həllinə müsbət təsir göstərdi. Baxmayaraq ki, iki dövlət arasında diplomatik əlaqələr 1992-ci ilin 4 aprelində qurulmuş və həmin ildə iki ölkə arasında səfirlik mübadiləsi yaradılmışdı.

V.Putinin hakimiyyətə gəlişindən sonra Rusiyanın Xəzər hövzəsi ölkələri ilə bağlı geosiyasətində də yeni xüsusiyyətlər özünü göstərməyə başladı. Belə ki, Rusiya dövləti qarşısında regionla bağlı geosiyasi məqsədlərə nail olmaq üçün əsasən iki vəzifə müəyyənləşdirildi: 1) ABŞ və Qərb dövlətlərinə məxsus neft şirkətləri və korporasiyaların regionda fəaliyyət göstərməsinin qarşısını almaq və bununla da əvvəlki illərdə olduğu kimi, regionun bütün enerji mənbələrini təkbaşına istismar etmək; 2) Xəzər hövzəsi ölkələrinin bazarlarına xarici dövlətlərin təsirini zəiflətmək və regionda yalnız öz sənaye məhsullarının rəqabətsiz satışını təmin etmək. Göstərilən vəzifələrin yerinə yetirilməsi isə son nəticədə Xəzər hövzəsi ölkələrini Rusiyanın sərt geosiyasi təsir dairəsində saxlamağa istiqamətlənmişdir.

V.Putin Xəzər hövzəsində Rusiyanın geosiyasi və geostrateji təsirini gücləndirmək və geoiqtisadi maraqlarını təmin etmək məqsədilə əvvəlki hakimiyyətin dövründən fərqli olaraq, yerli hökumətlərlə real və praqmatik münasibətlər yaratmaq, onlarla birgə layihələr həyata keçirmək və s. xəttini seçdi. Məhz elə həmin illərdə Xəzərin karbohidrogen ehtiyatlarının mənimsənilməsi, transxəzər neft və qaz kəmərləri, Xəzərin statusu və s. məsələlərlə bağlı Rusiya Azərbaycan və Qazaxıstan-

la ortaq mövqelər axtarmağa başladı. Bu sahədəki anlaşılmazlıqları aradan qaldıraraq, hövzə ölkələri ilə normal münasibətlər yaratdı. 2001-ci ilin əvvəlində V. Putinin Bakıya rəsmi səfəri Rusiya ilə Azərbaycan arasındakı münasibətlərin nizamlanmasında xüsusi rol oynadı və rəsmi Moskvanın Xəzər siyasətində ciddi dönüş yaratdı.[114]

2001-ci il yanvar ayının 8-9-da Rusiya Federasiyasının prezidenti V. Putinin Azərbaycan Respublikasına rəsmi səfəri zamanı müzakirə edilən vacib məsələlərdən biri də Xəzərin statusu məsələsi oldu. Tərəflər iki dövlət arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" 3 iyul 1997-ci il tarixli Müqavilənin prinsiplərini rəhbər tutaraq Xəzər dənizinin sektorlara – zonalara bölünməsi haqqında razılığa gəlmişlər. Qeyd edə ki, bundan bir qədər əvvəl, Rusiya 1998-ci il iyulun 6-da Qazaxıstan Respublikası ilə də eyni məzmunda müqavilə imzalamışdı. Hər iki müqaviləni Xəzərin hüquqi statusunun həllinə doğru növbəti müsbət addım kimi qiymətləndirmək olar. Rusiya Federasiyasının rəsmi siyasətində Xəzərlə bağlı bütün mübahisəli məsələlərin danışıqlar masası arxasında konstruktiv şəkildə həll edilməsinə üstünlük verilməsi meyili artmaqdadır.

Rusiyanın Xəzər hövzəsi və Azərbaycanla bağlı yeni minillikdə yürütdüyü geosiyasətin mahiyyətini şərh edən tədqiqatçıların bəziləri hesab edir ki, bu ölkə Qərb ölkələrinin Xəzər bölgəsinə gəlişi və burada möhkəmlənməsi, hövzənin transmilliləşməsi və dünya iqtisadi-enerji layihələrinin mərkəzinə çevrilməsinə mane olmağa yönəlmişdir. Bundan başqa, Rusiya hərbi-geostrateji baxımdan regionunun NATO-nun strateji maraq dairəsinə daxil olmasından, NATO-nun bölgədə yerli ölkələr hesabına genişlənməsindən, alyansın strateji mövqelərinin möhkəmlənməsindən ciddi narahatlıq keçirir. Lakin buna bax-

[114] Дегоев В.В. Большая игра на Кавказе. М., 2001, с. 430-434.

mayaraq, hazırda Rusiya həm Xəzər hövzəsi və Cənubi Qafqazın transmilliləşməsi və üçüncü minillikdə dünya geosiyasətinin əsas mərkəzlərindən birinə çevrilməsi faktı ilə barışmış, həm Azərbaycanın müstəqil maraqları və suveren hüquqlarının mövcud olmasını qəbul edərək, onu Qafqaz bölgəsinin nüfuzlu, perspektiv imkanları olan dövləti kimi tanıyır. Ən əsası isə Rusiyanın mövcud hakimiyyəti Azərbaycanla bütün sahələrdə praqmatik münasibətlər yaratmaq əzmi nümayiş etdirir.

Azərbaycan bir neçə meyara görə Xəzər hövzəsi və Cənubi Qafqazda Rusiya üçün xüsusi önəm kəsb edir:

- Azərbaycan müsəlman Şərqinə və Türkiyəyə çıxış üçün, Yaxın və Orta Şərqdə baş verən proseslərə təsir imkanlarına görə əhəmiyyətlidir.
- Azərbaycan Şərq-Qərb nəqliyyat kommunikasiyaları və dəhlizlərinin mərkəzində yerləşir və bu baxımdan Rusiyanın rəqibidir.
- Azərbaycanın zəngin karbohidrogen yataqları mövcuddur ki, bunların istismarı, istehsalı və ixracına Rusiya biganə qala bilmir. Bu sahədə də Azərbaycan Rusiyanın dünya bazarında rəqibidir .
- Azərbaycan Rusiya malları üçün satış bazarıdır, kənd təsərrüfatı məhsulları ilə isə təminatçı rolunu oynayır.
- Azərbaycanda çoxsaylı rusdilli əhali, Rusiyada isə azərbaycanlılar yaşayır ki, bu faktor da Rusiyanın maraqlarını əks etdirir.
- Azərbaycanın əraziləri Rusiyanın təhlükəsizliyi baxımından çox böyük əhəmiyyət kəsb edir.

Rəsmi məlumatların təhlili göstərir ki, bu gün Azərbaycanla Rusiya arasındakı münasibətlər yüksələn xətlə inkişaf edir. Prezident İlham Əliyevin Moskvaya, Rusiya Prezidentinin isə Azərbaycana səfərləri çərçivəsində iki ölkə arasında müxtəlif sahələr üzrə əlaqələrdə ortaq mövqelərə nail olunub.

Xüsusən, Xəzər dənizinin sektorlar üzrə bölgüsü, iqtisadi, malticarət dövriyyəsinin yaxşılaşdırılması, enerji mübadiləsi və s. sahələr üzrə dövlətlərarası və hökumətlərarası müqavilələr bağlanmışdır. Əlbəttə, bu tədbirlər iki ölkə arasındakı bütün problemləri aradan qaldırmamışdır. Rusiya və Azərbaycanın regionda tranzit, nəqliyyat-kommunikasiya, neft-boru kəmərləri, enerji daşıyıcılarının ixracı və satışı və s. məsələlərlə bağlı maraqları bəzən üst-üstə düşmür. Bundan başqa, iki ölkənin Qərbə inteqrasiya, Cənubi Qafqazın dünya təhlükəsizlik sistemində iştirakı, transmilli korporasiyaların Xəzərə və Cənubi Qafqaza investisiya qoymalarına baxışları da fərqlidir. Məsələn, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Ərzurum qaz kəmərlərinin çəkilişi Rusiyalı mütəxəssislərin fikrinə görə, bu ölkənin maraqlarına uyğun deyil. Azərbaycan da öz növbəsində neftini Rusiyanın əlverişsiz və bahalı Novorossiysk kəməri vasitəsilə nəql etmək, Rusiyanın neft-qaz ixracı kəmərlərindən asılı vəziyyətdə qalmaq istəmir. Yaxud, Rusiya ABŞ və NATO-nun Azərbaycanda hərbi baza yaratmasını, Azərbaycan isə Rusiyanın Ermənistanda analoji addımlarını məqbul saymır. Lakin bütün bunlara baxmayaraq, həm Azərbaycan, həm də Rusiya rəhbərliyi son illərdə praqmatik düşüncə nümayiş etdirərək, bir-biri ilə münasibətlərin ortaq nöqtələrini taparaq tərəfdaşlıq əlaqələrini sahmana sala bilmişlər. İki ölkənin iqtisadi, siyasi, təhlükəsizlik, sərhəd, sosial, mədəni və s. təşkilatları arasında qarşılıqlı əlaqələri nizamlayan çoxsaylı müqavilə və sazişlər imzalanmışdır.

Rusiya ilə Azərbaycan arasında iqtisadi və humanitar sahələrdə böyük uğurlar əldə edilmişdir. Məsələn, 2011-ci ildə Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə ticarət dövriyyəsinin həcmi 2.828,45 mln. ABŞ dolları, o cümlədən idxalın həcmi 1.641,09 mln. ABŞ dolları, ixracın həcmi isə 1.187,36 mln. ABŞ dolları təşkil etmişdir. 2011-ci ildə Rusiya Federasiyasının Azərbaycan Respublikasının xarici ticarət

dövriyyəsindəki payı 7,79 faiz, o cümlədən idxalda 16,82 faiz, ixracda isə 4,47 faiz təşkil etmişdir. 2010-cu illə müqayisədə, 2013-cü ildə Rusiya Federasiyası ilə ticarət dövriyyəsi 47,43 faiz, o cümlədən idxal 43,33 faiz, ixrac isə 53,5 faiz artmışdır.

Azərbaycanla Rusiya arasında humanitar əməkdaşlıq əsasən humanitar sahədə əməkdaşlıq proqramları ilə tənzimlənir. İki ölkə arasında "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2000-2002-ci illər üzrə mədəniyyət, elm və təhsil sahələrində uzunmüddətli əməkdaşlıq proqramı", "2004-2006-cı illər üzrə humanitar sahədə əməkdaşlıq Proqramı" və "2007-2009-cu illər üzrə humanitar sahədə əməkdaşlıq proqramı" uğurla icra olunmuşdur. Tezliklə "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2015-ci ilədək humanitar sahədə əməkdaşlıq proqramı"nın imzalanması planlaşdırılır.[115]

2013-cü il avqustun 13-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana səfər etməsi iki dövlət arasındakı qarşılıqlı münasibətlərin inkişafında mühüm hadisə oldu. Dövlət başçılarının görüşlərində Azərbaycan-Rusiya münasibətlərinin mövcud inkişaf səviyyəsini yüksək qiymətləndirildi. Qeyd olundu ki, Rusiya Azərbaycan ilə ticarət-iqtisadi əlaqələr sahəsində liderlərdəndir və ikinci yeri tutur, ticarət dövriyyəsi artır, iki ölkə arasındakı əlaqələr şaxələndirilmiş xarakter daşıyır və təşəbbüslərin çoxluğu, o cümlədən Azərbaycan tərəfindən humanitar sahənin inkişafı istiqamətində atılan addımlar təqdirəlayiqdir. Bu səfər çərçivəsində "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə "Neftyanaya kompaniya "Rosneft" Açıq Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında" Saziş, "Rusiya-Azərbaycan dövlət sərhədindən "Samur" (Azərbaycan Respublikası) - "Yaraq-qazmalar" (Rusiya Federasiyası) buraxılış məntəqələri rayonunda Samur çayı üzərindən avtomobil körpüsü tikilməsi haqqında Azərbaycan

[115] http://www.mfa.gov.az/files/file/Az%C9%99rbaycan%20-%20Rusiya.pdf

Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Saziş və "2015-ci ilə qədər olan dövrdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında humanitar sahədə Əməkdaşlıq Proqramının imzalanması ölkələr arasında iqtisadi-humanitar münasibətlərin daha da inkişaf etməsi üçün geniş perspektivlər açdı.

Regional təhlükəsizlik müstəvisində xüsusi maraq və mənafeləri və iddiaları ilə təmsil olunan Azərbaycan özünün bütün geosiyasi məkan xarakteristikası, iqtisadi, siyasi və hüquqi varlığı ilə nəinki təkcə Cənubi Qafqazın, Xəzər-Qara dəniz hövzəsinin, həm də Avrasiyanın, bütövlükdə qlobal dünyanın mühüm geosiyasi, geoiqtisadi və hərbi-geostrateji hədəflərindən biri kimi çıxış edir. Onun beynəlxalq və regional təhlükəsizliyindən, milli maraqlarının qorunmasından və milli təhlükəsizliyinin təmin olunmasından bəhs edərkən Prezident Heydər Əliyev bildirmişdir ki, bir dövlət olaraq Azərbaycanın milli maraqları və təhlükəsizliyi beynəlxalq aləmin, Avropanın, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizliyindən, dünyanın və regionun ümumi maraqlarından ayrıca, təcrid olunmuş şəkildə təmin oluna bilməz.[116] Bütün bunlar göstərir ki, Azərbaycanın beynəlxalq, regional və milli təhlükəsizlik maraqlarının öyrənilməsi və təmin olunması vəzifəsi yerli tədqiqatçılardan, həm də bütövlükdə beynəlxalq və regional geosiyasi, hərbi-geostrateji və s. məsələlərin geniş şəkildə araşdırılmasını tələb edir.

Təhlükəsizlik maraqları çərçivəsindən yanaşdıqda, birmənalı şəkildə təsdiq etmək olar ki, Azərbaycanın milli mənafeləri Rusiya ilə rəqiblik deyil, əksinə, bərabərhüquqlu, qarşılıqlı faydalı və strateji tərəfdaşlıq münasibətlərinin yaradılması və

[116] Daha ətraflı bax: Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın regional təhlükəsizlik siyasəti // Heydər Əliyev irsi və Azərbaycanın davamlı inkişaf strategiyası. Bakı, 2006, s. 59-76

inkişafını tələb edir. Xüsusən, 2001-ci ildən etibarən, iki ölkənin prezidentləri arasında yaranan qarşılıqlı münasibətlərin yüksək siyasi səviyyəsi müvafiq olaraq dövlətlərarası əlaqələrin bütün sahələrində hərtərəfli əməkdaşlığın və tərəfdaşlığın inkişafını şərtləndirir. Təhlükəsizlik sahəsində regional əməkdaşlığın möhkəmləndirilməsi, iki dövlət arasında transsərhəd təhlükəsizliyi, transmilli cinayətkarlığa qarşı birgə mübarizə, Xəzər dənizi və müştərək quru sərhədlərin təhlükəsizliyi və mühafizəsi kimi məsələlərdə tərəfdaşlıq proseslərinin dərinləşdirilməsi hər iki ölkənin qarşılıqlı mənafelərinə xidmət edir. Bundan başqa, təhlükəsizlik sahəsində çoxtərəfli regional münasibətlərin yaradılması, həm Rusiya, həm də digər bölgə ölkələri ilə sivil ticarət-iqtisadi, investisiya, elmi, mədəni və digər əlaqələrin qurulması Azərbaycanın milli təhlükəsizlik maraqlarına tam cavab verir.

Hazırda Cənubi Qafqazda bitərəf təhlükəsizlik siyasəti yürüdən Azərbaycan həm Rusiya və KTMT, həm də ABŞ və NATO ilə tərəfdaşlıq münasibətləri saxlamağa çalışır. Bu sahədə Rusiya ilə yaranan yeganə problem onun Cənubi Qafqazda Ermənistan kimi militarist bir ölkəyə göstərdiyi hərtərəfli hərbi yardımla bağlıdır. Bəzi mütəxəssislərin fikrinə görə, Rusiyanın hazırkı təhlükəsizlik maraqları "Dağlıq Qarabağı nə Ermənistana vermək, nə də Azərbaycana qaytarmaq" məqsədinə uyğundur. Çünki Moskva bu münaqişədən bəhrələnərək hər iki ölkənin beynəlxalq fəaliyyətini və regional siyasətini öz təsiri altında saxlamaq istəyir. Onların fikrincə, Cənubi Qafqaz respublikalarındakı mövcud ziddiyyətlərin və münaqişəli halların birdəfəlik həll edilməsi və bu regionda əbədi sülhün bərqərar olması Rusiyanın regional təhlükəsizlik siyasətinin uzunmüddətli məqsədlərinə qətiyyən cavab vermir.[117]

[117] Bax: Dispatch: Russia"s Control of the Naqorno-Karabakh issue…

Cənubi Qafqazın Rusiya modeli ilə planlaşdırılan təhlükəsizlik sistemində Azərbaycanı qane etməyən əsas cəhət məhz Rusiyanın bölgədə hamını qane edəcək *səmərəli kollektiv təhlükəsizlik mexanizmlərinin yaradılması* əvəzinə, Ermənistanla kollektiv təhlükəsizlik və hərbi-strateji müttəfiqlik çərçivəsində Azərbaycanın suveren dövlət hüquqlarına, milli təhlükəsizlik maraqlarına və Cənubi Qafqazın regional güc tarazlığına mənfi təsir göstərən bəzi addımları hesab oluna bilər. Azərbaycanın, əsasında Rusiya və onun yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı dayanan MDB təhlükəsizlik sisteminə qoşulmaqdan imtina etməsinin səbəbi də, ilk növbədə, məhz bu məsələ ilə bağlıdır. Rusiya ilə Ermənistan arasında 1995-ci ildə imzalanmış "hərbi-strateji tərəfdaşlıq haqqında" müqaviləyə uyğun olaraq, Rusiya Ermənistanda öz hərbi-geostrateji maraqlarını və təhlükəsizliyini təmin etmək məqsədilə "25 il müddətinə 102-ci hərbi bazasını saxlamaq və onunla razılaşdırılmış, əlaqələndirilmiş birgə regional təhlükəsizlik, xarici siyasət fəaliyyəti yürütmək" haqqında "dövlətlərarası razılığa gəlmişdir". Mütəxəssislər bu sazişi əslində siyasi, iqtisadi, hərbi gücü və vəziyyəti heç də "bərabərhüquqlu və qarşılıqlı təhlükəsizlik" müqaviləsi imzalamağa imkan verməyən, qeyri-bərabər statuslu iki ölkənin "təhlükəsizlik imitasiyası", Qərbin Cənubi Qafqazda hərbi-geostrateji maraqlarının artması və bölgə ölkələrinin NATO-ya həvəs göstərməsi fonunda Rusiyanın "forpostu" olmaqdan başqa heç bir ciddi potensial nümayiş etdirmək qabiliyyəti olmayan Ermənistanın "xarici və təhlükəsizlik maraqlarını müdafiə etmək" adı altında öz suveren dövlət hüquqlarını birtərəfli qaydada güzəştə getməsi kimi qiymətləndirirlər. Onların fikrinə görə, Cənubi Qafqazda Rusiyanın Ermənistana güclü iqtisadi və hərbi yardım göstərməsi, onun işğalçı ordusunu təmənnasız silahlandırması, bir tərəfdən işğalçı ölkənin siyasi rəhbərliyini Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllindən yayındırır, danışıqlarda qeyri-konstruk-

tivliyə təşviq edir, digər tərəfdənsə Azərbaycanın beynəlxalq təhlükəsizlik siyasətinə, regional hərbi-geostrateji seçiminə fərqli təsir göstərir. Odur ki, Dağlıq Qarabağ münaqişəsi hazırda həm Ermənistana, həm də Azərbaycana təsir göstərmək üçün Rusiyanın əlində ciddi bir mexanizmdir.

Əlbəttə, torpaqlarının bir qismi Ermənistanın işğalı altında olan Azərbaycan, ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsi ətrafında sülhyaratma proseslərinə cəlb edilmiş Rusiyanın rəqib ölkə ilə "hərbi-strateji tərəfdaşlığına", bu ölkədə xüsusi hərbi baza saxlamasına və işğalçı erməni ordusunu təmənnasız silah-sursatla təmin etməsinə biganə qala bilməz. Odur ki, Azərbaycan rəsmiləri bu sazişə etiraz edərək Rusiyanın Cənubi Qafqazdakı regional təhlükəsizlik sahəsindəki fəaliyyətinin "bitərəf qalmaq öhdəliyi" ilə bir araya sığmadığını bildirmiş, bu məsələni beynəlxalq aləmin diqqətinə çatdırmışlar.

Rusiya Cənubi Qafqazda yürütdüyü təhlükəsizlik siyasətini və Ermənistan kimi işğalçı dövlətə göstərdiyi hərbi dəstəyi onunla izah etməyə çalışır ki, guya Ermənistanda yerləşən və ona məxsus 102-ci hərbi baza bu ölkəni müdafiə etmək, yaxud hər hansı bölgə dövlətinin təhlükəsizliyini təhdid etmək üçün deyil, yalnız Rusiyanın bölgədəki "hərbi-geostrateji" maraqlarını təmin etmək məqsədilə saxlanılır. Hətta öz mövqeyinin inandırıcı görünməsi üçün Rusiyanın bəzi siyasi və hərbi dairələri eyni məzmunlu müqaviləni Azərbaycan və Gürcüstanla da imzalamağa, onlarla da hərbi-strateji müttəfiqlik münasibətləri yaratmağa hazır olduqlarını bildirirlər.

Azərbaycan rəsmiləri dəfələrlə bəyan etmişlər ki, onların ölkəsi Rusiya və KTMT ilə hər hansı ikitərəfli və çoxtərəfli əməkdaşlığın, hərbi-strateji tərəfdaşlığın əleyhinə deyil. Azərbaycanın Rusiya və KTMT ilə əməkdaşlığına bilavasitə təsir göstərən ən əsas məsələ onun pozulmuş ərazi bütövlüyünün bərpası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi-

nin həlli sahəsindəki fəaliyyətlə bağlıdır. Azərbaycanın torpaqlarını açıq-aşkar işğal edən, Cənubi Qafqazda qonşu ölkələrə qarşı ərazi iddiası irəli sürən, sabit millətlərarası və dövlətlərarası regional mühiti pozan Ermənistanın hərəkətlərinə beynəlxalq hüquqa əsaslanan prinsipial münasibət bildirmək istəməyən, əksinə, işğalçı ölkə ilə hərbi müttəfiqlik edən, Qafqazda mövcud olan digər region ölkələrinin siyasi-hərbi təhlükəsizliyinə, ərazi bütövlüyünə və regional sülhə təminat verməyən qurumla strateji tərəfdaşlıq etmək bu gün üçün mümkün görünmür. Azərbaycan Rusiyanın rəhbərliyi altında yaradılan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə əməkdaşlığın əksər üzv ölkələrin təhlükəsizlik və xarici siyasət suverenliyinin təmin olunmasına maneçilik törətmək deyil, köməklik göstərmək istiqamətində olmasını arzulayır. Əslində, bəhs olunan Rusiya-Ermənistan hərbi müttəfiqlik müqaviləsindən bir az keçməmiş Rusiyanın erməni ordusuna bir milyard dollar dəyərində "təmənnasız" hərbi texnika, silah-sursat bağışlaması ətrafında yaranmış beynəlxalq hay-küy də göstərdi ki, bu ölkənin Cənubi Qafqazdakı hərbi-strateji fəaliyyəti hələ də anlaşılmaz olaraq qalır. Odur ki, Azərbaycan öz regional təhlükəsizliyi ilə bağlı həm Rusiya, həm ABŞ, NATO və Türkiyə, həm də digər strukturlarla, ayrı-ayrı maraqlı ölkələrlə fərdi tərəfdaşlıq siyasətini davam etdirir.

Rusiya ilə münasibətdə Azərbaycanın həyata keçirdiyi regional təhlükəsizlik siyasəti ona əsaslanır ki, bu ölkə bölgədə həlledici söz sahibidir və bu gün onu Azərbaycanın maraqlarına uyğun siyasət yürütməyə məcbur etmək mümkün deyilsə, deməli, bu ölkənin mövcud siyasətinin verdiyi imkanlardan maksimum bəhrələnərək, Azərbaycanın milli, regional və beynəlxalq təhlükəsizliyi sahəsində qarşıda duran digər milli vəzifələri həyata keçirmək lazımdır. Regional təhlükəsizlik sahəsində Rusiya ilə Azərbaycanın üst-üstə düşən maraqları sırasında, əsasən, onların müştərək sərhədlərə malik olması və

həmsərhəd bölgələrdə sabitliyin qorunması, hər ikisinin etnik separatizmdən əziyyət çəkməsi, bir-birinə sabitliklə bağlı yardım etməsi və s. göstərilir. Hər iki ölkə həm də ortaq təhlükəsizlik təhdidlərinə - terrorçuluq, ekstremizm, radikal islam təmayülləri, mütəşəkkil cinayətkarlıq, narkotik qaçaqmalçılığı və silah alveri kimi problemlərə qarşı da birgə mübarizə maraqlarına malikdir. Bu sahədə hər iki ölkənin təhlükəsizlik orqanları sıx və səmərəli əməkdaşlıq edirlər.

Rusiya Cənubi Qafqazda Azərbaycanın NATO və Türkiyə ilə istənilən hərbi-geostrateji əlaqələrini, əməkdaşlıq cəhdlərini ciddi qısqanclıqla qarşılayır. Bu ölkə bütün Qafqaza, o cümlədən də Azərbaycanın suveren ərazisinə "öz milli təhlükəsizlik zonası" kimi baxır və bu əraziyə hər hansı kənar dövlətin hərbi-geosiyasi nüfuzunu qəbul etmir. Bu da iki ölkənin təhlükəsizlik siyasətinin üst-üstə düşməyən məqamları sırasına daxildir. Azərbaycan dövləti bütün bunları nəzərə alaraq NATO-ya üzvlük haqqında indiyə qədər heç bir bəyanat verməmiş və onunla yalnız Rusiyanın özünün də həyata keçirdiyi "hərbi-geostrateji əməkdaşlıq" əlaqələri yaratmışdır. Azərbaycan eyni zamanda, Rusiyaya və onun yaratdığı KTMT-yə də indiyə qədər "üzvlük formasında" münasibətlərə deyil, yalnız "hərbi təhlükəsizlik sahəsində bərabərhüquqlu əməkdaşlıq" etməyə müsbət cavab vermişdir.

Lakin bir faktı da qeyd etmək lazımdır ki, 1992-2000-ci illərdəkindən fərqli olaraq, Rusiyanın Cənubi Qafqazdakı bugünkü regional təhlükəsizlik siyasətində və Azərbaycanla hərbi-geostrateji münasibətlərində müsbətə doğru ciddi dəyişikliklər hiss olunmaqdadır. Məsələn, indiyədək dəfələrlə sınaqdan keçirilmiş "etnik münaqişələr" taktikasına yanaşmada Rusiyanın mövqeyindəki müsbət dəyişikliklər hələ 1994-cü ildən - Çeçenistan münaqişəsi alovlanandan sonra hiss olunmağa başlamışdır. Həmin il Rusiya Prezidenti Boris Yeltsinin Federasiya Şurasındakı çıxışında verdiyi "Rusiya sərhədləri

yaxınlığındakı münaqişə ocaqları, MDB ölkələrindəki iqtisadi və dövlətçilik böhranları Rusiya üçün real təhlükədir" bəyanatı bundan xəbər verirdi. Lakin bu sahədə ciddi dəyişikliklər daha çox Vladimir Putinin prezident seçilməsi və ali hakimiyyətə gəlməsindən sonra baş vermişdir. Bəzi mütəxəssislər hesab edirlər ki, istənilən halda, Rusiyanın regional proseslərə və Cənubi Qafqazın təhlükəsizlik problemlərinə yanaşması əsrlər boyu bu ölkədə formalaşmış "parçala, hökm sür" strategiyasından kənara çıxmır. Onların fikrincə, Dağlıq Qarabağ münaqişəsi yaranan vaxtdan Rusiyanın açıq, yaxud gizli formada Ermənistanı dəstəkləməsi onun Azərbaycanla münasibətlərinə birmənalı mənfi təsir göstərmişdir. Azərbaycan Rusiyanın belə siyasətinə qarşı bəzən Avroatlantik strukturlarına inteqrasiya yolunu tutmaq, öz təhlükəsizliyinin təmin olunmasında alternativ yollar axtarmaq, ABŞ, Türkiyə və digər NATO üzvlərinə, onların təsir imkanlarına arxalanmaq kimi addımlar atmağa məcbur olur ki, bu da Rusiyanı qane etmir. Bundan başqa, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olduğundan, Rusiya ilə hərbi-strateji müttəfiqlik münasibətləri yaradaraq öz ərazisində bu ölkənin hərbi bazalarını yerləşdirmişdir. Rusiya Ermənistanı ucuz enerji ehtiyatları və təmənnasız olaraq silahlarla təmin edir. Bu da Azərbaycanın regional təhlükəsizliyinə müəyyən təhdidlər yaradır. Rusiya həm də Azərbaycanın Cənubi Qafqazda hərbi-strateji cəhətdən güclənməsinə, Türkiyə, ABŞ və NATO ilə təhlükəsizlik sahəsində tərəfdaşlıq əlaqələrinin yaranmasına qısqanclıqla yanaşır və maneçilik törədir. Bütün bunlar da iki ölkə arasındakı münasibətlərə mənfi təsir göstərir.[118]

Regionun *enerji təhlükəsizliyi sahəsində* də Rusiyanın Azərbaycanla tam üst-üstə düşməyən bir çox geoiqtisadi ma-

[118] Aleksandr Raar, Sebastian Riider. Azərbaycanın Qara dəniz-Xəzər hövzəsi regionunda geosiyasi rolu// "Azerbaijan Focus" jurnalı, №1, 2009-cu il, s. 45

raqları mövcuddur. Əsas siyasəti dünya enerji bazarında bugünkü aparıcı mövqelərini və Xəzər hövzəsinin enerji ehtiyatları üzərində ənənəvi təsir mexanizmlərini qorumaq və davamlı şəkildə saxlamaqdan ibarət olan Rusiya Cənubi Qafqaz və Xəzər hövzəsində mövcud sahədə onunla rəqabət yaradan Azərbaycanın enerji ixracatçısı kimi çıxış etməsindən bir qədər narahat görünür. Rusiya həm də ABŞ, Avropa Birliyi, Çin və başqa ölkələrin sərbəst şəkildə, onun iradəsindən kənarda bölgəyə daxil olmasının və Xəzər hövzəsinin zəngin neft-qaz ehtiyatlarına çıxışının, bu məhsulların Azərbaycan, Gürcüstan, Türkiyə vasitəsilə Avropa və Asiya bazarlarına çatdırılmasının tərəfdarı deyil. Üçüncü minillikdə Xəzər və Orta Asiyanın enerji mənbələri uğrunda gedən qlobal mübarizənin tərkib hissəsi sayılan bu prosesdə Azərbaycanın enerji təhlükəsizliyi maraqları daha çox azad bazar münasibətlərini təşviq edən ölkələrinki ilə üst-üstə düşür. Mütəxəssislər hesab edirlər ki, Xəzər hövzəsində Rusiyanın enerji maraqları, hər şeydən əvvəl, özünün enerji təhlükəsizliyini möhkəmləndirməyə yönəlib və qonşu ölkələrin adekvat maraqları ilə üst-üstə düşmür. Rusiyanın Azərbaycanla üst-üstə düşməyən enerji və nəqliyyat təhlükəsizliyi siyasətinin əsasında Cənubi Qafqaz və Mərkəzi Asiyanın enerji daşıyıcılarının Avropa istehlakçılarına birbaşa satışına, regiondan Avropaya Rusiya ərazisindən yan keçməklə reallaşdırılan nəqliyyat-tranzit yollarına, neft-qaz kəmərlərinin tikintisinə münasibət məsələsi, "kənar qüvvələrin" Azərbaycan vasitəsilə regionun enerji və transmilli nəqliyyat sektoruna çıxışını məhdudlaşdırmaq xətti dayanır. Rusiyanın Xəzər hövzəsini Avropanın enerji bazarları ilə bağlayan köhnə ixrac kəmərlərindən əvvəlki illərdə olduğu kimi istifadəni davam etdirmək və onun iradəsi xaricində yeni müstəqil marşrutlar yaradılmasına mane olmaq siyasəti Azərbaycanı və onun tərəfdaşlarını qane etmir.

§1.4. Amerika Birləşmiş Ştatlarının Avrasiya siyasəti və Azərbaycanla geosiyasi münasibətlərinin xarakteristikası

Avrasiya bölgəsi anqlo-saks geosiyasət məktəbinin nümayəndələrinin diqqətini və dövlət rəsmilərinin geosiyasi marağını hələ orta əsrlərdə cəlb etsə də, bölgəyə fəal müdaxilə faktı yalnız fransız imperatoru Napoleonun XlX əsrin əvvəllərində Avrasiyaya düzənlədiyi işğalçılıq yürüşləri, daha sonra isə Rusiya – Osmanlı, Rusiya-İran müharibələri (əsrin əvvəlində Qafqazda, Anadoluda və Xəzər hövzəsində, əsrin ortalarında isə Qara dəniz hövzəsində və Krımda) fonunda baş vermişdir. Bunun ardınca, Birinci dünya müharibəsi ərəfəsində- XX əsrin başlanğıcında amerikalılar yenidən öz diqqətlərini Avrasiyaya yönəltsə də, nə bu ölkənin özü, nə də ki, qərb düşərgəsini təmsil edən digər dövlətlər və bloklar XXI əsrin əvvəllərinə qədər, əvvəl Rusiya imperiyasının, sonra isə SSRİ-nin təsiri güclü olduğundan, bölgədə heç bir ciddi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji forpost yarada, yerli ölkələrinin regional işlərinə müdaxilə edə bilməmişdir.

SSRİ süquta uğradıqdan sonra Rusiya ilə yanaşı Avrasiyanın regional geosiyasi proseslərinə ən çox maraq göstərən və müdaxilə edən, bölgədə ən fəal xarici siyasət yürütməyə cəhd edən ikinci əsas mərkəz məhz ABŞ olmuşdur. Bütövlükdə Avrasiyada, o cümlədən Cənubi Qafqaz və Xəzər hövzəsində ABŞ-ın yürütdüyü hazırkı geosiyasət və nümayiş etdirdiyi geosiyasi mövqe bu dövlətin 1992-ci ildə qəbul etdiyi və reallaşdırmağa başladığı *«Yeni geosiyasət»* adlanan strateji kursun və həyata keçirməyə başladığı geosiyasi fəaliyyət proqramının tərkib hissəsini təşkil edir. Yeni geosiyasət terminini də dövriyyəyə ilk dəfə amerikalı analitik Qrem Fuller gətirmişdir. Onun 1992-ci ildə çapdan çıxmış "Mərkəzi Asiya: yeni geosiyasət" adlı kitabında ölkənin Avrasiya məkanındakı geosiyasi

maraqlarının müdafiəsi naminə atılması zəruri olan bir çox addımlarla bağlı Ağ Evə xüsusi tövsiyələr ünvanlanmışdır.

Q.Fuller ABŞ-ın bölgədəki yeni geosiyasətinin 5 əsas müddəasını irəli sürmüşdür. Bunlar:

- Rusiyanın hərbi-strateji cəhətdən Cənubi Qafqaza və bütövlükdə bölgəyə qayıtmasına və möhkəmlənməsinə imkan verməmək;
- bölgədə islam radikalizmi və fundamentalizminin güclənməsinin qarşısını almaq, vətəndaş cəmiyyətlərinin yaranmasını və inkişafını dəstəkləmək;
- kütləvi qırğın silahının yayılmasının və nəzarətsiz silahlanmanın qarşısını almaq və bu sahəyə diqqəti gücləndirmək;
- Xəzər neftinə tam nəzarət üçün tələb olunan geosiyasi, geoiqtisadi və geostrateji rəqabət mühitini formalaşdırmaq;
- yerli hakimiyyətlərə demokratik təzyiq imkanlarını artıraraq, regionu geosiyasi nəzarətdə saxlamaq və s. ibarət idi.

ABŞ-ın bölgədə yürütdüyü regional geosiyasətin əsasını təşkil edən daha bir sənəd həmin dövrdə qəbul edilmiş *«Madlen Olbrayt doktrinası»* adlanır. Bu doktrina Rusiyanın bölgədən qismən təcrid olunmasını, onun iştirakı olmadan Orta Asiya və Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatlarının beynəlxalq bazarlara nəqlini, Moskvanın bölgədəki siyasi, iqtisadi və hərbi nüfuzunun azaldılmasını, bununla paralel olaraq, Rusiya ilə İranın anti-qərb platformasında strateji yaxınlaşmasının qarşısının alınmasını və s. nəzərdə tuturdu.

ABŞ-ın 1994-cü ildən başlayaraq regionda həyata keçirdiyi geosiyasət məhz bu doktrinada qarşıya qoyulmuş məqsədlərə nail olmağa yönəlmişdir. Keçən müddətdə ABŞ bəhs edilən geosiyasi doktrina əsasında bir çox postsovet ölkələrini,

o cümlədən Orta Asiya, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz dövlətlərini öz tərəfinə çəkmək məqsədilə fəal regional siyasət yürütməyə başladı. Orta Asiya və Cənubi Qafqazın geosiyasi əhəmiyyətinin yüksək dəyərləndirilməsinin nəticəsi olaraq ABŞ Dövlət Departamentində, NATO və s. qurumların tərlkibində bu region ölkələri ilə əlaqələr üzrə xüsusi idarələr, xidmətlər və s. yaradıldı. Həmin dövrdən etibarən ABŞ-ın Orta Asiya və Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazla əlaqələrinin intensivləşdirilməsi üçün yüzlərlə mütəxəssis bölgəyə göndərildi.[119]

Amerika keçən illərdə xüsusi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji layihələr çərçivəsində region ölkələrinin müstəqilliyinin möhkəmlənməsi, iqtisadiyyatının liberallaşması, daxili cəmiyyət həyatının demokratikləşməsi və bütün bu sahələr üzrə avrointeqrasiya xəttinin intensivləşdirilməsi məqsədilə müxtəlif istiqamətli geniş tədbirlər həyata keçirmişdir. Bu tədbirlər region ölkələrində tezliklə qərbyönümlü demokratik dövlət quruculuğu xəttinin sürətlənməsinə, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin stimullaşdırılmasına, siyasi plüralizmin genişlənməsinə, hüquqi dövlət mexanizmlərinin yaradılmasına, bazar iqtisadiyyatı münasibətlərinin inkişafına və s. proseslərə təkan vermişdir.

ABŞ-ın müasir Avrasiya siyasətində aşağıdakı prioritet istiqamətlər müşahidə olunur:

- bölgədə öz hərbi-strateji bazalarını yerləşdirmək və NATO-nun təsirini artırmaqla mövcud hərbi balansı öz xeyrinə dəyişmək, beynəlxalq terrorizmə qarşı mübarizə, regional təhlükəsizlik və dünyada sülhün, əmin-amanlığın və demokratik dəyərlərin qorunması

[119] Bax: Чернявский С.И. Кавказская стратегия Вашингтона// Международная жизнь, 1999, №31, с. 23.

adı altında Avrasiyanın yeni müstəqillik qazanmış ölkələrini Rusiyanın hərbi-geostrateji təsir dairəsindən çıxararaq, NATO sisteminə cəlb etmək;

- regionun liberal iqtisadi inkişafı və bazar iqtisadiyyatı mexanizmlərinin bərqərar olmasına yardım etməklə, yerli ölkələrin yeni siyasi elitasının formalaşdırılması və idarə edilməsi, ölkələrin yerli idarəçiliyinin sovet dövründən qalmış avtoritar xarakterinin, bəzi ölkələrdə isə radikal islamın təsirinin azaldılması;[120]
- Avrasiya regionu ilə Qərb arasındakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji layihələri, xüsusən, Orta Asiya, Xəzər, Qara və Aralıq dənizləri hövzəsini birləşdirən, Rusiyadan yan keçməklə bölgə ölkələrinin transmilli geoiqtisadi əməkdaşlığını stimullaşdıran, regionun enerji daşıyıcıları istehsalını, neft və qaz məhsullarının Qərb bazarlarına sərbəst daşınmasını, çoxşaxəli tranzit yollarının salınmasını və s. qlobal layihələri dəstəkləmək;
- Avrasiyada transmilli demokratikləşmə siyasətinə rəvac verərək bölgə dövlətlərində daxili idarəçilik rejimlərinin demokratik transformasiyası, vətəndaş cəmiyyətlərinin formalaşması, siyasi plüralizmin və insan hüquqlarının hərtərəfli təmin edilməsi işinin dəstəklənməsi və s.

Yuxarıda göstərilən prioritet vəzifələri həll etmək məqsədilə ABŞ özünün və Avropa Birliyi ölkələrinin rəsmi dövlət strukturları vasitəsilə Avrasiya bölgəsində fəal xarici siyasət

[120] Bu məqsədlə həmin illərdə ABŞ və Avropanın transmilli kompaniyaları, beynəlxalq QHT-lər, Dünya Bankı və onun təsiri altında olan investisiya korporasiyaları Avrasiya ölkələrində bazar iqtisadiyyatı prinsiplərinə söykənən iqtisadi struktur islahatlarına, bank, maliyyə, vergi, gömrük işinin standartlaşdırılmasına, nəqliyyat-kommunikasiya sisteminin təkmilləşdirilməsi və yeniləşməsinə, enerji, rabitə və s. sahələrin inkişafına dəstək verirməyə başlayır.

yürüdərək, hərtərəfli fəaliyyət göstərir. Bundan başqa, Vaşinqton bu istiqamətdə həm də yerli və xarici təşəbbüsləri, ictimai cəhətdən fəal insanları dəstəkləmək üçün həm ABŞ-da, həm də Avropada xüsusi institutlar yaradılır və onların fəaliyyətinə hərtərəfli dəstək verilir. Məsələn, ABŞ-ın özündə Beynəlxalq İnkişaf Agentliyi (USAİD) adlanan xüsusi bir qurum yaradılmışdır ki, onun maliyyə yardımı ilə hər il bölgənin yerli QHT-lərinə, siyasi partiyalara, vətəndaş cəmiyyəti institutlarına on milyonlarla dollarlıq yardım siyasəti həyata keçirirlər. Bu və Avropada yaradılmış digər yedək QHT qurumları vasitəsilə ABŞ-ın regionda reallaşdırdığı qlobal geosiyasətlə yanaşı, Avropa ölkələri də ATƏT-in İnsan Hüquqları və Demokratik təsisatlar Bürosunun, NATO-nun "Sülh naminə tərəfdaşlıq", Avropa İttifaqının "Qonşuluq siyasəti", Avropa Şurasının "Demokratik transformasiya", "Hüquqi standartlaşdırma" və digər beynəlxalq qurumların müxtəlif proqramları çərçivəsində Avrasiyada məqsədyönlü geosiyasi, hərbi-geostrateji və geoiqtisadi siyasət yürüdürlər. Bu siyasətlə onlar regionunu Rusiya, İran, Çin və bölgənin digər aparıcı ölkələrinin geosiyasi təsirindən çıxarmağa çalışırlar.

Göründüyü kimi, Avrasiya regionu bütün geosiyasi ölçüləri ilə ABŞ üçün mühüm əhəmiyyət kəsb edir. Odur ki, onun bölgə ölkələrinə meyl göstərməsi, burada həyata keçirdiyi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji layihələr ilk növbədə özünün məxsusi maraqları ilə bağlıdır. Qeyd edək ki, ABŞ-ın bütün bu proseslərdə eyni layihələri reallaşdıran və öz milli dövlət maraqlarını güdən digər dünya və region ölkələrindən fərqlənən məxsusi yanaşmaları da vardır. Məsələn, Rusiya və İran kimi dövlətlər bəzən öz təsir dairəsini qeyri-sivil və rəqabətdənkənar yollarla - yerli ölkələrə təzyiqlər göstərmək, onları daxili problemlər içərisində boğmaq (etnik, dini separatizmi qızışdırmaq, daxili milli, dini və sosial qarşıdurma və iğtişaşlar törətmək, iqtisadi blokadaya almaq və s.), xarici rəqiblərin re-

giona daxil olmasını çətinləşdirmək kimi vasitələrlə möhkəmlətməyə çalışdığı halda, ABŞ bir qayda olaraq öz üstün maliyyə-texniki imkanlarına söykənərək, bölgədə sabit rəqabət şəraiti yaratmağa, ölkələrarası iqtisadi əməkdaşlığı genişləndirməyə, etnik-milli münaqişələri səhmana salmağa və s. səy göstərir. Lakin yerli hakimiyyətləri nəzarətdə saxlamaq və onların daxili-xarici siyasətini idarə etmək üçün bu Amerikanın da öz təsir mexanizmləri mövcuddur. Bu dövlət "insan hüquq və azadlıqlarının vəziyyəti", "siyasi plüralizm, siyasi fəaliyyət və media azadlığı" və s. kimi fundamental insan hüquqlarını beynəlxalq münasibətlərin əsas şərtləri sırasına çıxararaq, qərbin yaratdığı beynəlxalq, regional və lokal mətbuat-informasiya vasitələrinin, QHT və siyasi partiyaların imkanlarından da bəhrələnməklə "üçüncü dövlətlər"in daxili işlərinə özünəməxsus formada qarışır və siyasi iradəsinə təsir göstərməyə çalışır. Odur ki, Avrasiyada öz geosiyasi marağını qorumağa çalışan yeni müstəqil dövlətlər, müvafiq olaraq bəhs olunan düşərgələrarası sağlam və qeyri-sağlam rəqabət, bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq və təzyiq siyasəti arasında seçim qarşısında qalırlar. Bu da bölgədə geosiyasi münasibətlərə, ölkələrin xarici siyasət seçimlərinə və hədəflərinə ciddi təsir göstərir**.**

Avrasiya bölgəsinə geosiyasi nəzarət bu gün də ABŞ-ın strateji regional planlarının əsasını təşkil edir. İngilis geosiyasətçisi Makkinderin söylədiyi məşhur *«Avrasiyaya nəzarət edən, dünyaya nəzarət edir»* kəlamı bu gün də Amerika və bütövlükdə qərb cəmiyyətində olduqca aktualdır. Bu düşərgənin Avrasiyadakı geosiyasi *fəaliyyətinin ən aktual və çətin vəzifəsi* burada hələ də güclü təsiri ilə seçilən Rusiyanı ənənəvi mövqelərindən sıxışdırmaq, bölgəni onun hərbi-geostrateji, geoiqtisadi və nəhayət geosiyasi nəzarətindən çıxarmaq, bununla da Avrasiyada əsrlər boyu formalaşmış geosiyasi münasibətlər sistemini öz xeyrinə dəyişdirməkdən ibarətdir. SSRİ zamanında regiondakı prosesləri kənardan izləyən və hadisələrin inki-

şafına yalnız müxtəlif bəyanatlar verməklə təsir göstərməyə çalışan ABŞ və onun NATO müttəfiqləri hazırda regionda gedən geosiyasi məsələlərə ən fəal müdaxilə edən, transmilli geosiyasi və geoiqtisadi hədəfləri diqqət mərkəzində saxlayan beynəlxalq aktor hesab olunur. ABŞ-ı təmsil edən rəsmilər açıq formada bəyan edirlər ki, Sovet İttifaqı dağıldıqdan sonra onların siyasətimizin əsas istiqamətlərindən biri keçmiş sovet ölkələrinin və xüsusilə də Orta Asiya, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz regionunda yerləşən ölkələrin müstəqilliyinin və suverenliyinin dəstəklənməsi olub.[121]

Bir faktı da qeyd etmək lazımdır ki, ABŞ bu məkanda daim təkcə özünün deyil, bütün Avropa Birliyi və NATO-nun, qərb düşərgəsinin ümumi maraqlarının təmin olunması yönündə fəal geosiyasət yürüdür.

ABŞ-ın Avrasiyada yürütdüyü hərbi-geostrateji, regional təhlükəsizlik və enerji siyasəti

ABŞ özünün NATO müttəfiqləri ilə Avrasiyanın, xüsusən də Cənubi Qafqaz bölgəsi və Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizliyi ilə bağlı Rusiyadan fərqli olan ikinci əsas beynəlxalq mövqenin daşıyıcısı hesab olunur. Bu düşərgənin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı təhlükəsizlik siyasətini məzmununa görə dörd mərhələyə bölmək olar.

Birinci mərhələ - 1990-1993-cü illəri əhatə edir. Bu mərhələdə ABŞ öz müttəfiqləri ilə bölgəni geosiyasi, hərbi-geostrateji və geoiqtisadi cəhətdən tədqiq edir, Orta Asiya və Xəzərin enerji ehtiyatlarının həcmini, onlara çıxışın təmin edilməsi yollarını, müstəqil marşrutlarla dünya bazarlarına ixracı imkanlarını öyrənir, Qara-Xəzər dənizləri hövzəsinin, Cənubi Qafqazın dünya siyasətində, Şərq-Qərb geoiqtisadi əlaqələrin-

[121] Bax: APA-nın xəbər bülleteni, 28 oktyabr, 2013-cü il.

də yerini və rolunu, tranzit-nəqliyyat imkanlarını qiymətləndirir və məxsusi regional təhlükəsizlik siyasətini planlaşdırır. Bu mərhələdə ABŞ bölgədə daha çox NATO üzvü olan bəzi ölkələrin daxili qeyri-hökumət strukturları və xüsusən də Türkiyə təşkilatları vasitəsilə fəaliyyət göstərir.

İkinci mərhələdə - 1993-1994-cü illərdən etibarən Xəzər-Qara dəniz hövzəsinin, Cənubi Qafqazın geosiyasi, hərbi-geostrateji və geoiqtisadi əhəmiyyətini nəzərə alan ABŞ və onun NATO üzrə müttəfiqləri bu regionda fəal geosiyasət yürütməyə başlayırlar. 1993-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzələrinin transmilli təhlükəsizliyi və region ölkələrinin milli ordu quruculuğu işinə cəlb edilməsi, 1994-cü ildən Xəzər hövzəsi və Orta Asiyanın enerji ehtiyatlarının Qərbin enerji təhlükəsizliyi ilə əlaqələndirilməsi, Rusiyanın bölgə üzərində hegemon geosiyasi və geoiqtisadi mövqeyinin zəiflədilməsi istiqamətində müxtəlif proqramların reallaşdırılması və s. tədbirlər həyata keçirilir. Mütəxəssislərin fikrincə, bu dövrdə ABŞ və müttəfiqlərinin regional geosiyasətinin dörd əsas hədəfi var idi:

1. Bölgə üzərində Qərbin geosiyasi, geoiqtisadi və hərbi-strateji təsirini artırmaq və onu Rusiyanın inhisarından çıxarmaq;

2. Xəzər hövzəsinin enerji mənbələrinin birgə istismarını, Qara dəniz və Avropaya müstəqil marşrutlarla sərbəst ixracını təmin etmək, ixrac marşrutlarını şaxələndirmək, bölgənin əsas karbohidrogen ehtiyatları üzərində geosiyasi və geoiqtisadi nəzarəti ələ almaq;

3. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz ölkələri ilə hərbi-geostrateji əməkdaşlıq əlaqələri qurmaq, onların milli ordu quruculuğunu dəstəkləmək, NATO standartlarına uyğunlaşdırmaq;

4. Bu ölkələr üçün Alyansın təhlükəsizlik sisteminə gələcək strateji tərəfdaşlıq yolunu açmaq.

Bu mərhələdə ABŞ artıq NATO, Avropa Birliyi və Türkiyə ilə yanaşı, ortaq maraqlar əsasında bölgədə bəzi yerli tərəfdaşlarla - Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova, Özbəkistan, Qırğızıstan və s. kimi qərbyönümlü siyasət yürüdən ölkələrlə birlikdə hərəkət etməyə başlayır.

1994-2001-ci illərdə ABŞ özünün və müttəfiqi olan Avropa dövlətlərinin enerji təhlükəsizliyini təmin etmək, Qərbin artan enerji ehtiyaclarının ödənilməsini Rusiyanın bu sahədəki ənənəvi asılılığından qurtarmaq, yanacaq təchizatını şaxələndirmək məqsədilə Xəzərin və Orta Asiyanın karbohidrogen ehtiyatlarının birgə istismarına və birbaşa nəqlinə xüsusi diqqət ayırır. Bu sahədə Azərbaycan və Qazaxıstanla strateji tərəfdaşlıq münasibəti yaradaraq, Xəzərdə Qərb şirkətləri ilə birgə neft-qaz istehsalına, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin və b. enerji dəhlizlərinin yaradılmasına, Xəzərin enerji ehtiyatları ilə Avropa bazarlarının birbaşa əlaqələndirilməsinə ciddi kapital qoymağa başlayır. Xəzər dənizinin zəngin neft-qaz ehtiyatlarının Rusiya və İrandan asılı olmayan yollarla Avropaya nəqli həm bölgənin enerji istehsal edən və tranzit ölkələrinin, həm də ABŞ və AB-nin regional geosiyasi maraqlarına uyğun idi. Çünki ABŞ hesab edirdi ki, BTC kəməri Rusiyanın və İranın regionda enerji sektoruna nəzarət etməsinin qarşısını alacaqdır.[122]

90-cı illərin ortalarında B. Klinton administrasiyası Xəzər-Qara dəniz regionu və Cənubi Qafqazı özünün həyati maraqlar zonası elan edir və Avropa ilə birlikdə onun gələcək təhlükəsizlik arxitekturasının planlaşdırılmasına başlayır. 1994-cü ildən Azərbaycan və Gürcüstan NATO-nun "Sülh

[122] Bax:Papava V."Qafqaz Tandemi"nin yaradılması və inkişafı // "Azerbaijan Focus" jurnalı, №1, 2009-cu il, s. 86

Naminə Tərəfdaşlıq" proqramına cəlb edilir və hər iki ölkənin gələcəkdə Şimali Atlantika Alyansına cəlb edilməsi yolları aranmağa başlayır. Regionun ABŞ üçün geosiyasi əhəmiyyətini nəzərə alaraq, Prezident Administrasiyasında Xəzər-Qara dəniz regionu üzrə ayrıca şöbə yaradılır, Prezidentin və dövlət katibinin Xəzər regionunda enerji məsələləri üzrə xüsusi müşaviri vəzifəsi təsis edilir. Amerika və Avropa Birliyinin dəstəyi ilə Azərbaycan, Türkiyə və Gürcüstan kimi ölkələr bölgənin geosiyasi və geoiqtisadi həyatında həlledici amilə çevrilərək, Qərbin əsas tərəfdaşları elan edilirlər. Xüsusən enerji, nəqliyyat-kommunikasiya və yeni ixrac marşrutları məsələsində Azərbaycanın mövqelərini ciddi şəkildə dəstəkləməyə başlayırlar. BTC və BTƏ boru kəmərləri layihələrinin reallaşması ilə bağlı Azərbaycanın ortaya qoyduğu milli iradənin reallaşmasına ABŞ və Türkiyənin verdiyi real dəstək, bu sahədə onların beynəlxalq aləmdə yürütdükləri fəal siyasət həlledici rol oynayır.

Üçüncü mərhələ: ABŞ-ın və Şimali Atlantika Alyansının dünyada, o cümlədən Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda həyata keçirdiyi təhlükəsizlik siyasətindəki *üçüncü mərhələ* 2001-ci ilin 11 sentyabr hadisələrindən başlayır və 2008-ci ildə ABŞ-da Barak Obamanın hakimiyyətə gəlməsinə qədər davam edir. Bu mərhələdə ABŞ və NATO Cənubi Qafqazda, Xəzər-Qara dəniz hövzəsi və Mərkəzi Asiyada fəal hərbi-geostrateji fəaliyyətə və təhlükəsizlik siyasətinə başlayır. Alyans öz diqqətini bölgənin beynəlxalq və regional təhlükəsizlik məsələlərinə, Rusiyanın tədricən Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzələrindən sıxışdırılmasına, NATO-nun bölgə ölkələri hesabına Şərqə doğru genişləndirilməsinə və s. yönəldir. Cənubi Qafqaz, Qara dəniz hövzəsi və bəzi Orta Asiya ölkələrinin "Fərdi tərəfdaşlıq proqramı" çərçivəsində NATO və blok üzvü olan əsas müttəfiq dövlətlərlə hərbi-geostrateji əlaqələrini yaradır, alyansın bölgədə hərbi-geostrateji

cəhətdən möhkəmlənməsinin qayğısına qalır. Həmin tədbirlər sırasında ABŞ və NATO qoşunlarının bölgənin strateji, hərbi-geosiyasi hədəflərinə, hərbi hava yollarına sərbəst çıxışının təmin edilməsi, bölgə ölkələri ilə və qurumlarla hərbi tərəfdaşlıq münasibətlərinin yaradılması, onların dünyanın münaqişəli bölgələrindəki beynəlxalq sülhyaratma proseslərinə cəlb edilməsi s. kimi məsələlər diqqəti çəkirdi.

Dördüncü mərhələ: ABŞ-ın təhlükəsizlik siyasətində *müasir dövr kimi xarakterizə edilə biləcək dördüncü mərhələ,* analitiklərin fikrincə, Barak Obamanın 2008-ci ildə hakimiyyətə gəlişindən sonra başlanır. Bu dövrdə ölkənin dünya və regional siyasətində, Milli Təhlükəsizlik Strategiyasında əsaslı dəyişikliklər edilmiş və onun çoxstandartlılığı bir qədər də gücləndirilmişdir. 26 may 2010-cu ildə dərc olunaraq rəsmi elan edilmiş həmin sənəddə Corc Buş administrasiyasının 2002-ci ildə qəbul etdiyi təhlükəsizlik strategiyasının "milli təhlükəsizliyin təmin olunması naminə, lazım gələndə bütün dünyada əksər təhlükə mənbələrinə hücumetmə" prinsipindən tam imtina edilmiş, ölkənin planetar sülhyaratma və ABŞ-ın təhlükəsizliyini qoruma siyasətinə əsaslı düzəlişlər olunmuşdur.

Mütəxəssislərin dəyərləndirmələrinə görə, yeni strategiyada ABŞ-ın həm dünyaya geosiyasi baxışı, ona təsir etmə siyasəti, həm də tətbiq edəcəyi metod və vasitələr dəyişmiş, milli təhlükəsizliyin təminatı ilə bağlı əvvəlki yanaşmalar köklü şəkildə yenilənmişdir. Məsələn, əvvəlki yanaşmasında formal şəkildə olsa da, ABŞ dünya ölkələrinin böyüklüyü və yaxud kiçikliyindən asılı olmayaraq, coğrafi məkanlar üzrə "hansısa böyük dövlətlərin maraq dairəsinə" daxil edilməsinin və təhlükəsizliklə bağlı müstəqil seçimlərinin məhdudlaşdırılmasının əleyhinə çıxırdı. Bu sahədə postsovet məkanında Rusiyanın nümayiş etdirdiyi siyasəti "hegemonluq siyasəti" kimi dəyərləndirərək, beynəlxalq hüquqla daban-dabana zidd hərəkət

kimi tənqid edirdi. ABŞ-ın rəsmi mövqeyinə görə, Rusiya da daxil olmaqla, əksər dünya ölkələrinin Cənubi Qafqaz və digər regionlardakı "milli maraqları və onların qorunması cəhdləri" öz dövlətinin ərazisi çərçivəsindən kənara çıxmamalı, beynəlxalq hüququn subyekti olan başqa müstəqil ölkələrin eyni maraqlarına toxunmamalı və onların hesabına təmin olunmamalıdır. Göründüyü kimi, təhlükəsizlik və milli maraqların təmin olunmasında ABŞ hökuməti rəsmi formada "hər hansı coğrafi məkan, region, bölgə prinsipi" və s. bölgüləri qəbul etmirdi. Bu yanaşmada hər bir konkret ölkənin, yaxud ölkələr blokunun "məxsusi coğrafi əraziləri çərçivəsində" öz milli və təhlükəsizlik maraqlarını təmin edə bilməsindən söhbət gedirdi. ABŞ və NATO rəsmiləri öz açıqlamalarında həm "Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinin sərbəst şəkildə istədikləri hərbi bloka daxil olmaq" hüququnu, həm də "NATO kimi hərbi blokların yeni ölkələrin üzv qəbul edilməsi ilə bağlı öz şərtlərini müstəqil müəyyən etmək hüququnu" məqbul hesab edirdilər. Onların fikrincə, müasir beynəlxalq münasibətlərdə bu hüquqların (ölkələrin sərbəst seçim etmək, təşkilatların isə məxsusi şərtlər irəli sürmək hüququndan söhbət gedir - Ə.H.) üstündə digər hər hansı bir "kənar hüquq", "kənar maraq", yaxud "maraq dairəsi" və s. mövcud deyildir. Lakin praktikada, mütəxəssislərin fikrincə, ABŞ da Rusiya kimi "öz milli təhlükəsizliyinin təminatını" hansısa xarici ölkələrin ərazisinə, ayrı-ayrı regionlardakı obyektlərə BMT-nin sanksiyasını almadan təkbaşına hücum etməklə, hərbi zərbələr endirməklə, dünyada yeni-yeni hərbi qarşıdurma ocaqları yaratmaqla, bütöv regionları, ölkələri və xalqları terrorçu elan edərək, onlarla yeni-yeni müharibələrə başlamaqla həyata keçirirdi.

Mütəxəssislər hesab edir ki, yeni strategiyada ABŞ bir tərəfdən və daha çox öz ölkəsinin daxili dinamik inkişafı haqqında düşünür, digər tərəfdənsə xarici aləmlə razılaşdırılmış və uzlaşdırılmış təhlükəsizlik siyasəti yürütməyi, münasibətlərini

dialoq, diplomatik danışıqlar və ortaq maraqların tapılması yolu ilə tənzimləməyi hədəfə götürür.

Amerikanın hazırkı milli təhlükəsizlik strategiyasında ABŞ və NATO-nun dünyadakı maraqları, onların təmin edilməsində toqquşduğu, tərəfdaşlıq etdiyi və rəqabətə girdiyi ölkələrin təsnifatı və s. məsələlər də əvvəlkindən ciddi şəkildə seçilir. Məsələn, ABŞ öz beynəlxalq və regional təhlükəsizlik siyasətinə ciddi düzəlişlər edərək, əsas diqqətini Avrasiyanın Xəzər-Qara dəniz hövzəsi, Mərkəzi Asiya və Cənubi Qafqaz kimi bölgəsindən çəkərək, Əfqanıstan, İran kimi Cənubi Asiya və Şimali Afrikanın ərəb ölkələrinə yönəldir. Əvvəlki strategiyada ABŞ və onun Şimali Atlantika bloku üzrə müttəfiqləri Avrasiya subregionunda İranı özlərinə təhlükə, Rusiya və Çini rəqib, Türkiyə, Ukrayna, Azərbaycan, Gürcüstan və Orta Asiya ölkələrini tərəfdaş kimi qiymətləndirərək, Qərbin maraqlarını təmin etmək məqsədilə ikincilərin bölgədəki mövqelərinin gücləndirilməsini, Rusiyanın geosiyasi təsirindən çıxarılmasını və tədricən Qərbin iqtisadi-siyasi, NATO-nun təhlükəsizlik sisteminə yaxınlaşdırılmasını əsas geostrateji vəzifə hesab etdikləri halda, yeni strategiyada, əksinə, ABŞ keçmiş regional tərəfdaşları hesab olunan bölgənin kiçik ölkələrinin təhlükəsizliyinə və beynəlxalq hüquqlarına, o cümlədən regionda müstəqil siyasət yürütmək istəklərinə "hörmətlə yanaşdığını" və "dəstək verdiyini" formal olaraq bəyan edir. Faktiki olaraq isə Avrasiyanın Xəzər-Qara dəniz hövzəsi, Mərkəzi Asiya və Cənubi Qafqaz kimi əhəmiyyətli geosiyasi məkanlarında ABŞ Rusiya ilə siyasi, geoiqtisadi və hərbi-geostrateji qarşıdurmadan imtina edərək iki ölkənin qarşılıqlı maraqlarına əsaslanan tərəfdaşlıq xətti götürmüşdür. Yeni kursa müvafiq olaraq bu ölkə, Gürcüstan istisna olmaqla, Avrasiyada neçə illərdir ki, üstün diqqət ayırdığı digər tərəfdaşlarını, o cümlədən Azərbaycanı öz geostrateji məsələləri və problemləri ilə üz-üzə buraxmışdır.

Yeni sənəddə əsas diqqət dünyanın və ayrı-ayrı regionların NATO bloku xaricində mövcud olan böyük gücləri, regional liderləri və geosiyasi təsir mərkəzləri ilə - Rusiya, Çin, Hindistan, İndoneziya, Braziliya, Cənubi Afrika Respublikası və s. ölkələrlə tərəfdaşlıq münasibətlərinə yönəldilmişdir. Bundan başqa, ABŞ dünyada mövcud olan "böyük yeddilər" formatını "böyük iyirmilər" formatına qaldırmaq, onların dəstəyi ilə dünyada və regionda baş verən hadisələri idarə etmək, "böyük iyirmilər"ə sərf edən yeni ortaq maraqlar sistemi tapmaq və bütün sahələr üzrə dövlətlərarası münasibətləri inkişaf etdirmək, planetdə sülh və təhlükəsizliyi təmin etmək və möhkəmləndirmək vəzifəsini də yeni strategiyasında hədəfə almışdır. Bu sənəddə ABŞ-ın ənənəvi müttəfiqləri hesab olunan Avropa Birliyi ölkələrinin, Yaponiya və Cənubi Koreyanın, Qərb yarımkürəsində Kanada və Meksikanın, Yaxın Şərqdə İsrailin maraqlarına dəstək, bir çox ərəb ölkələri ilə təhlükəsizlik və enerji sahəsində reallaşdırılan ortaq tərəfdaş mövqeyi istisna olmaqla, qalan dünya ölkələri ilə münasibətlərə yalnız öz ölkəsinin milli maraqları çərçivəsində yanaşma taktikası öz əksini tapmışdır. Mütəxəssislər hesab edirlər ki, Rusiyanın son illərdə yenidən "dünya dövləti" statusunu geri qaytarmaq və 1991-ci ildən sonra Avrasiyada itirdiyi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji təsirini bərpa etmək cəhdləri fonunda ABŞ-ın dünyada reallaşdırdığı sönük və qeyri-prinsipial siyasət, planetin yeganə fövqəldövləti statusunu tədricən itirməsi və s. dünyada yeni geosiyasi reallıq yaradaraq, əksər dövlətləri öz xarici siyasət xəttinə, xarici ölkələrlə, hərbi, siyasi, iqtisadi birlik və bloklarla münasibətlərinə yenidən baxmaq məcburiyyəti qarşısında qoyur. Məsələn, ABŞ və NATO-nun Avrasiyadakı ən etibarlı, əhəmiyyətli və vacib müttəfiqi hesab olunan Türkiyənin, ABŞ-ın Cənubi Amerikadakı müttəfiqi Braziliyanın və digər bir çox dövlətlərin son zamanlar nümayiş etdirdiyi geosiyasi və xarici siyasət strategiyası bunun əyani sübutudur.

ABŞ-ın "The Heritage" Fondunun Avrasiya, Rusiya və beynəlxalq enerji təhlükəsizliyi üzrə eksperti Ariel Koen prezident Barak Obama və onun administrasiyasını Cənubi Qafqaz və Orta Asiyada yürütdüyü siyasətə, bölgənin strateji önəm kəsb edən Azərbaycan, Gürcüstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və s. kimi ölkələri ilə zəif hərbi-geostrateji əlaqələr yaratması, öz geostrateji tərəfdaşlarını Rusiyaya güzəştə getməsi və s. addımlarına görə ciddi tənqid etmiş və yazdığı məqalədə hökumət rəsmilərini ABŞ-ın milli maraqlarını pozmaqda günahlandırmışdır. A.Koen öz ölkəsinin hərbi strukturlarını Cənubi Qafqazın adı çəkilən iki dövlətinə ən müasir silahlarla kömək göstərərək, onların hərbi-geostrateji müstəqilliyinə dəstək verməyə çağırmışdır.[123]

Mütəxəssislərin fikrincə, ABŞ-ın hazırda təhlükəsizlik sahəsində nümayiş etdirdiyi mövqe və konkret olaraq Cənubi Qafqaz siyasətinin mahiyyəti *beynəlxalq hüquqa uyğun olaraq, "Rusiyanı bölgədə birtərəfli şəkildə güc tətbiq etməkdən çəkinməyə, dünya birliyinin ayrılmaz tərkib hissəsi kimi davranmağa, Avrasiyada baş verən hadisələrə konstruktiv formada və sülh missiyası yaratmaq məqsədilə reaksiya verməyə, postsovet respublikalarının, o cümlədən Cənubi Qafqaz ölkələrinin suveren milli və beynəlxalq haqlarına, təhlükəsizlik və s. sahələrdə müstəqil siyasət yürütmək və seçim etmək hüquqlarına, hər bir ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşmaq" haqqında çağırışlardan* ibarətdir. Bunu 15 sentyabr 2011-ci ildə Vaşinqtondakı Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində keçirilən və Cənubi Qafqazdakı müasir geosiyasi vəziyyətə həsr edilən konfransdakı çıxışında ABŞ Dövlət Departamentinin Cənubi Qafqaz məsələləri və Regional münaqişələr idarəsinin rəhbəri Justin Fridmanın fikirləri də təsdiq edir. O, konfransdakı çıxışında bildirmişdir ki, son 20 ildə Birləşmiş Ştatların regionda

[123] Bax: газ. "Зеркало", 3 ноября 2010 г.

yürütdüyü siyasətin ən mühüm dilemması və sınağı "Cənubi Qafqaz siyasəti ilə Rusiya siyasəti arasında ortaq nöqtə tapmaq və balans yaratmaq olub" ki, buna da ABŞ Administrasiyası son illərdə nail olub. Onun sözlərinə görə, ABŞ-ın bu siyasəti birtərəfli kompromis deyil, balans və tarazlıq siyasətidir. Bu siyasət çərçivəsində ABŞ Rusiya ilə elə davranır ki, nə yerli ölkələrin suverenliyinə xələl gəlsin, nə də ki, Rusiya ilə qarşıdurma yaransın.[124]

ABŞ-ın NATO, Rusiya və digər yerli Avrasiya ölkələrinin hərbi-geostrateji maraqları arasında ortaq balans yaratmaq siyasəti çərçivəsindəki son addımı bu ölkənin Konqresinin qəbul etdiyi qərarda öz əksini tapmışdır. Konqresin "Rusiyanın Avrasiyadakı hərbi təcavüzünün qarşısının alınması" məqsədilə 2014-cü ilin iyul ayının ortalarında qəbul etdiyi son qərarda prezident Obamaya bu yaxınlarda Avropa Birliyi ilə "assosiativ üzvlük müqaviləsi" sənədini imzalayan Ukrayna, Gürcüstan və Moldovanın NATO-ya üzv qəbul edilmədən ABŞ-ın və Şimali Atlantika Alyansının müttəfiqləri, Azərbaycan, Bosniya və Herseqovina, Makedoniya, Çerneqoriya və Serbiyanı isə tərəfdaşları elan edilməsini, onların hərbi təhlükəsizliyinə hərtərəfli dəstək verilməsini tövsiyə etmişdir.[125]

Göründüyü kimi, hazırda bəhs olunan "hərbi balans" siyasəti çərçivəsində ABŞ Rusiya ilə elə davranır ki, nə özünün və NATO üzrə müttəfiqlərinin hərbi-geostrateji maraqlarına və Avrasiyanın yerli ölkələrin suverenliyinə və təhlükəsizliyinə xələl gəlsin, nə də ki, Rusiya ilə qarşıdurma yaransın. Əlbəttə, ABŞ-ın bu mövqeyi rəsmi formada beynəlxalq hüquqa tam uyğundur və milli təhlükəsizliyi tam təmin olunmamış, eyni zamanda həm Rusiya, həm də ABŞ-la strateji tərəfdaşlığa can

[124] Bax: "Bizim yol" qəzeti, 17 sentyabr 2011-ci il
[125] Bax: APA informasiya agentliyinin xəbər bülleteni, 18 iyul 2014-cü il.

atan Azərbaycanın geosiyasi maraqlarına tam cavab verir. Lakin təəssüf ki, bütün sahələrdə, o cümlədən də təhlükəsizlik sahəsində ABŞ-ın rəsmi şəkildə bəyan etdiyi "bərabərhüquqluluq" prinsipi əksər dövlətlərarası məsələlərdə "keçərli" deyildir. Çünki ABŞ və NATO ölkələrinin maraqlarına "uyğun olmayan" məsələlərdə, bir qayda olaraq, kiçik ölkələrin beynəlxalq haqları Qərbin ciddi etirazını doğurmadan pozulur. Məsələn, ABŞ və onun müttəfiqlərinin İraqda, Liviyada və b. ərazilərdə BMT-nin qətnaməsinə istinadən, insanların təhlükəsizliyinin təmin olunması marağından çıxış edərək qətiyyətli və prinsipial fəaliyyət göstərməsi faktı, Dağlıq Qarabağ münaqişəsi zamanı Ermənistanın Azərbaycan torpaqlarının işğalına son qoymasına, dinc əhalinin kütləvi qırğınına, didərgin salınmasına və s. qeyri-insani aksiyalara qarşı həmin BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin yerinə yetirilməsinə də tətbiq olunsaydı, Qərb ölkələri onların marağını əks etdirən məsələdə olduğu kimi, bütün beynəlxalq hüquq normalarının pozulmasına prinsipial yanaşsaydılar, o zaman heç bir ölkə dünyanın ayrı-ayrı bölgələrində qeyri-qanuni addımlar atmazdı, Ermənistan kimi forpost bir ölkə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in hüquq normaları və prinsiplərinə, beynəlxalq aləmin sülh çağırışlarına açıq-aşkar meydan oxuya bilməzdi. ABŞ-ın dövlət katibi Hillari Klintonun Barak Obama administrasiyasının yeni xarici siyasət kursundan narazı olan Azərbaycan və Gürcüstan ictimaiyyətini nisbətən sakitləşdirməyə, bölgə ölkələrini daim ABŞ-ın "diqqətində olduqlarına" inandırmağa hesablanmış 4-5 iyul 2010-cu il tarixdə Cənubi Qafqaza səfəri də Rusiyanın Cənubi Qafqazdakı son inamlı hərəkətləri və ABŞ-ın bölgədəki münaqişəli məsələlərə dırnaqarası yanaşması fonunda əvvəlcədən qeyri-ciddi və səmərəsiz nəticələrdən xəbər verirdi.

Şimali Atlantika Müqaviləsi Təşkilatı - NATO-nun Avrasiyadakı hərbi-geostrateji siyasəti

Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik sisteminin formalaşmasında ABŞ və Avropa Birliyi ölkələrinin maraqları çərçivəsindən çıxış edən əsas güc mərkəzi *Şimali Atlantika Müqaviləsi Təşkilatı - NATO* bloku hesab olunur. Bu qurumun Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yürütdüyü təhlükəsizlik siyasəti onun region ölkələri ilə 1993 və 1998-ci ilərdə imzaladığı *"Sülh naminə tərəfdaşlıq" və "Fərdi tərəfdaşlıq"* kimi iki proqram çərçivəsində həyata keçirilir. Lakin mütəxəssislərin fikrinə görə, nə bəhs olunan proqramlar, nə də ki, bütövlükdə blokun regionda yürütdüyü təhlükəsizlik siyasəti bölgə ölkələrinin təhlükəsizlik ehtiyaclarına və Şimali Atlantika bloku ilə dərin hərbi-geostrateji inteqrasiyasına səmərəli və praktik təsir göstərməmişdir. Bu bloku keçən müddətdə *bölgədə daha çox region ölkələrinin təhlükəsizlik, hərbi-geostrateji maraqları və ehtiyacları deyil, Qərb ölkələrinin bölgənin zəngin enerji mənbələrinə, nəqliyyat-kommunikasiya vasitələrinə, satış bazarlarına sərbəst və təhlükəsiz çıxışı, regionun sabitliyi, transmilli layihələrin, Qərbin maliyyə yatırımlarının təhlükəsizliyi və s. kimi məsələlər düşündürmüşdür.*

NATO bir tərəfdən, bölgə ölkələrini *Rusiyanın geosiyasi və hərbi-geostrateji təsirindən çıxararaq öz maraqları çərçivəsində istifadə etmək istəyir, digər tərəfdənsə bu prosesi asanlaşdırmaq məqsədilə onların siyasi-hərbi idarəçilik strukturlarını, hərbi kontingentlərini Avropa və NATO standartlarına uyğunlaşdırmağa, siyasi rejimlərini qərbin təzyiq və təsiri altında saxlamağa cəhd göstərir.*

Region ölkələrinin və bütövlükdə Cənubi Qafqaz bölgəsinin təhlükəsizlik məsələsinə yanaşmada NATO-nun fəaliyyəti Alyansın birbaşa komandanlığı və Türkiyə hərbi qüvvələri

çərçivəsində bölgə ölkələrini bəzi kollektiv hərbi əməkdaşlıq proqramlarına qoşmaqdan, onların milli ordusunun qərb standartlarına uyğunlaşdırılmasına metodik dəstək verməkdən, bölgədə birgə hərbi təlimlər həyata keçirməkdən və s. tədbirlərdən uzağa getmir. Çünki hazırkı dövrdə ABŞ kimi, NATO da region ölkələri ilə hərbi-geostrateji münasibətləri dərinləşdirərək Rusiya ilə münasibətlərini korlamaq istəmir.

Lakin NATO, eyni zamanda, Cənubi Qafqazın, Xəzər-Qara dəniz hövzəsinin bütövlükdə Rusiyanın hərbi-geostrateji nəzarətində qalması faktı ilə də barışa bilmir.

Mütəxəssislər hesab edir ki, NATO-nun Cənubi Qafqazdakı hərbi təhlükəsizlik siyasətini fərqləndirən əsas əlamətlərdən biri, Rusiyadan fərqli olaraq, regional münaqişələrin həllində və region ölkələrilə bərabərhüquqlu tərəfdaşlıqda daha maraqlı görünməsidir. Ancaq NATO bu marağın təmin olunmasına nə ciddi səy göstərir, nə də ki, bunu Rusiyasız edə bilir. Bütün bunların əsasında isə, mütəxəssislərin fikrincə, Alyans üzvü olan əsas Qərb ölkələrinin geosiyasi iradəsizliyi, qeyri-obyektivliyi və ikili yanaşması dayanır. Baxmayaraq ki, Azərbaycan, Gürcüstan və Ukraynanın Qara-Xəzər dənizləri arasındakı və Qafqazdakı geostrateji mövqeləri Avropanın və bütövlükdə NATO-nun təhlükəsizlik maraqları ilə tamamilə üst-üstə düşür və bu qurumla hərbi-strateji tərəfdaşlıq münasibətlərini şərtləndirir. Çünki bu ölkələrin iştirakı və razılığı olmadan, Avropa ölkələri və NATO-nun həm Orta Asiya və Xəzər-Qara dəniz bölgəsinə çıxışı, həm də Avropanın hər şeydən çox narahat olduğu enerji təhlükəsizliyinin təminatı, nəqliyyat-kommunikasiya təhlükəsizliyi və s. məsələlər tam həll oluna bilməz.

Cənubi Qafqaz və Qara dəniz hövzəsinin bəzi ölkələrinin NATO-ya qəbulu, region ölkələrinin təhlükəsizliyinə beynəlxalq təminatların verilməsi, NATO-nun Şərqə doğru genişləndirilməsi və s. məsələlərdə Alyans üzvlərinin rəyi haçalanır. Birlik ölkələrinin bəziləri, məsələn, Ukrayna, Gürcüstan, Azər-

baycan kimi dövlətlərin NATO-ya üzvlük məsələsini həll etməklə, Alyansı Rusiyanın qarşısında və eyni zamanda, bölgədəki regional münaqişələrin içərisində görmək istəmir. Odur ki, "bitərəf hakim" görüntüsü yaradaraq, onlar Rusiyanın Cənubi Qafqazdakı hərbi-strateji addımlarını seyr etməklə kifayətlənirlər.

Etnik-separatçılıq münaqişələrinə cəlb olunmuş Cənubi Qafqaz və digər postsovet ölkələrinin özünün NATO-nun regional təhlükəsizlik siyasətinə münasibətinə gəldikdə, qeyd etmək olar ki, onların əksəriyyəti NATO-nun dünyadakı münaqişəli məsələlərə müdaxiləsi və regional sülhyaratma prosesində iştirakı imkanlarından bəhrələnərək öz ərazi bütövlüklərini və suveren hüquqlarını bərpa etməyə çalışırlar. Müstəqilliyinə qovuşduğu andan indiyə qədər separatçılıq zəminində daxili münaqişələrə cəlb olunan əksər ölkələr - Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova və başqaları bu və ya digər yolla Şimali Atlantika blokunu hansısa formada həmin münaqişələrin həllinə cəlb etmək, onun köməkliyi ilə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə, beynəlxalq hüquq normalarının bərpasına nail olmaq istiqamətində daim fəaliyyət göstərmişlər. Lakin məlum olduğu kimi, NATO bütün bu münaqişələrdə "bitərəf" mövqe tutaraq, onların daha çox BMT, ATƏT çərçivəsində danışıqlar və dialoq yolu ilə həllinə üstünlük verdiyini bəyan etmişdir. Bir faktı da qeyd etmək lazımdır ki, Alyans ABŞ-ın iradəsi ilə və öz maraqlarına uyğun olanda dünyanın digər regionlarında, o cümlədən, Yaxın və Orta Şərqdə, Balkanlarda, Cənubi Asiyada və s. yerlərdə münaqişələrin aradan qaldırılması, "günahkarların cəzalandırılması" və "sülhyaratma" proseslərində dəfələrlə iştirak etmişdir. Bu da onu göstərir ki, NATO hazırda dünyada yalnız ABŞ və Alyans üzvlərinin maraqları çərçivəsində bu və ya digər münaqişələrə müdaxilə edir və sülhyaratma proseslərinə qoşulur. Cənubi Qafqaz münaqişələrinə gəldikdə isə, NATO rəs-

miləri dəfələrlə bu və ya digər müraciətlərə cavab olaraq "bu məsələ NATO-nun səlahiyyətlərinə daxil deyil" - deyərək boyun qaçırmışlar.

Hazırda NATO-nun bəyan etdiyi *yeni beynəlxalq təhlükəsizlik strategiyası,* həmin strategiyanın müəyyən etdiyi gələcək vəzifələr və fəaliyyət istiqamətləri də dünya mütəxəssislərində fərqli fikirlər yaratmışdır. Onların *bir qismi* hesab edir ki, NATO gələcəkdə əsas diqqətini öz təyinatına müvafiq olaraq üzv ölkələrin və tərəfdaşların hərbi təhlükəsizlik məsələlərinə yönəltməli, Şərqə doğru genişlənməli və dünyanın əsas təhlükəsizlik strukturuna çevrilməlidir. *İkinci qrup* hesab edir ki, NATO təkcə üzv ölkələrin hərbi təhlükəsizliyi ilə kifayətlənməməli, həm də planeti təhdid edən digər beynəlxalq və regional təhlükələrlə mübarizə aparmalı, insanların təhlükələrdən xilas edilməsi prosesində aparıcı rol oynamalıdır. Bu sahədə NATO-nun missiyasına onlar kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasını, regional və yerli münaqişələrin dayandırılmasını, beynəlxalq terrorizmə, narkotik və nəzarətsiz silah alverinə qarşı mübarizə aparılmasını və s. aid edirlər. *Üçüncü qrupun* fikrincə, NATO bundan sonra əsas diqqətini Avropa Birliyinin enerji təhlükəsizliyinin təminatına, dünyada enerji dəhlizləri və strateji kəmərlərin təhlükəsizliyinin təmin olunmasına və digər geoiqtisadi təhlükəsizlik məsələlərinə yönəltməlidir.

NATO-nun Cənubi Qafqazda həyata keçirdiyi hazırkı regional təhlükəsizlik siyasətini mütəxəssislər *"səmərəsiz və qətiyyətsiz siyasət"* kimi dəyərləndirərək vurğulayırlar ki, NATO keçən müddətdə bölgədə öz təhlükəsizlik siyasətinin əsas tələbi kimi yerli münaqişələrin həllinə, müasir demokratik dövlətlərin sayının artırılmasına, onların Qərb yolu ilə inkişafına və ənənəvi geosiyasi təsirlərdən azad olmalarına lazımi dəstək verə bilmədi. Onun həyata keçirdiyi "Sülh naminə tərəfdaşlıq", "Fərdi tərəfdaşlıq" proqramları və 2001-ci ildən

yürütdüyü "Şərqə doğru genişlənmə" taktikası öz uzunmüddətli səmərəsini itirdi. Ona görə ki, NATO bölgə ölkələrilə bağlı birtərəfli, qeyri-səmimi və qeyri-prinsipial siyasət yürüdür. Məsələn, Şimali Atlantika Alyansının strateji fəaliyyət konsepsiyasının mühüm məsələlərindən birini Rusiya ilə münasibətlər və öz təsir dairəsini dünyada "genişləndirmə" siyasəti təşkil etdiyi halda, Cənubi Qafqazdakı digər ölkələrin, xüsusən tərəfdaş dövlətlətin milli təhlükəsizliyini təhdid edən beynəlxalq, regional və yerli problemlər onun diqqətindən tamamilə kənarda qalır. Məlum olduğu kimi, bu sahədə blokun iki il bundan qabaq yürütdüyü rəsmi təhlükəsizlik siyasəti ilə 2010-cu ildə - son Lissabon sammitində ortaya qoyduğu mövqe arasında ciddi uyğunsuzluq müşahidə olunur. Əgər iki il bundan qabaq - Rusiya və Gürcüstan müharibəsi ərəfəsində, Alyans ciddi iradə nümayiş etdirərək Gürcüstanı, Ukraynanı, mümkün olarsa, bəlkə Azərbaycanı və digər əhəmiyyətli Avrasiya ölkələrini blokun sıralarına qatmaq, yaxud strateji əməkdaşlığa cəlb edərək təhlükəsizliklərinə ciddi dəstək vermək siyasəti yürüdürdüsə, Lissabonda yeni ABŞ - Rusiya münasibətləri fonunda təşkilat öz mövqelərindən bir qədər geri çəkilmiş və "Alyansın Şərqə doğru genişlənməyə ciddi ehtiyacı yoxdur", - bəyanatını səsləndirərək, Rusiya ilə "geostrateji münasibətləri gərginləşdirmək" taktikasından imtina etmişdir. Bu kurs müasir dünya siyasətinin və beynəlxalq münasibətlərin yaxşılaşmasına xidmət göstərməli olduğu halda, Cənubi Qafqazda, əksinə, işğalçı Ermənistan kimi ölkələrin və onların beynəlxalq havadarlarının cəzasızlıq şəraitində öz irticaçı siyasətlərini gücləndirməsinə və bundan sonra da davam etdirməsinə xidmət göstərdi. Rusiya ABŞ-ın və NATO-nun son dövrdəki loyal münasibətindən, Qərbin Cənubi Qafqazdakı səmərəsiz hərbi inteqrasiya siyasətindən praqmatik formada bəhrələnərək, bölgənin ölkələri ilə tərəfdaşlıq münasibətlərini daha da dərinləşdirdi və hərbi-geostrateji təsir dairəsini genişləndirdi.

ABŞ və NATO-nun Avrasiya siyasətində Azərbaycan Respublikasının yeri və rolu

ABŞ Avrasiyada öz geosiyasi fəaliyyət doktrinasını 1992-ci ildə elan etsə də, Cənubi Qafqaz, Xəzər hövzəsi və Orta Asiya regionunda təmsil olunan real milli marağını rəsmi olaraq məhz 1994-cü ildə ortaya qoymuş və elan etmişdir. Həmin ilin aprelində Birləşmiş Ştatların Senatı 1995-ci ilin dövlət büdcəsinə ABŞ ilə postsovet respublikalarının münasibətlərinə təsir göstərə biləcək müəyyən düzəlişlər etdi. Düzəlişlər ilk növbədə ABŞ tərəfindən SSRİ-nin keçmiş müttəfiq respublikaları ilə iqtisadi, hərbi və digər sahələrdə həyata keçilən regional inteqrasiyasının dəstəklənməsinə yönəlmişdi. Cəmi 5 aydan sonra, 1994-cü ilin sentyabr ayında Bakıda Qərbin aparıcı neft şirkətləri ilə Azərbaycan hökuməti arasında *«Əsrin müqaviləsi»* adlanan transmilli neft-qaz sazişinin imzalanması göstərdi ki, Qərb və xüsusilə də ABŞ regionda öz geoiqtisadi planlarını reallaşmaq məsələsində ciddi addımlar atmağa hazırdır.

Həmin dövr ərzində ABŞ bölgədəki fəal geosiyasi mövqeyini yalnız qərbin geoiqtisadi maraqları və artan enerji ehtiyacları ilə izah edir və regiondaxili siyasi proseslərə müdaxilədən bir qədər çəkinirdi. Ümumiyyətlə, bu bölgədə həyata keçirdiyi regional geosiyasət daha çox bölgənin iqtisadi cəhətdən müstəqilliyi və regional təhlükəsizliyiniin təmin olunmasına yönəlmişdi. ABŞ və onun tərəfdaşları bu istiqamətdəki maraqlarının reallaşması yolunda əlbəttə, uzun müddət bölgədə rəqabətdənkənar hegemonluq edən və aparıcı mövqelərini qoruyub saxlamağa çalışan Rusiyanın təsir imkanlarını azaltmağa çalışırdılar. Bu geosiyasi kurs 1997-ci ildə Ağ evin qəbul etdiyi *"Yeni minillikdə yeni təhlükəsizlik strategiyası"* adlı sənəddə də öz əksini tapmış və ABŞ-ın Xəzər-Qara dəniz hövzəsi, Orta Asiya və Cənubi Qafqazdakı geosiyasi fəaliyyət strategiyasına daxil edilmişdir.

Bunun ardınca, 1999-cu ilin yanvarında ABŞ Prezidentinin milli strateji təhlükəsizliyə dair Konqresə ünvanlandığı məruzədə ABŞ-ın Avrasiya regionundakı maraqları bir daha önə çəkilir, Xəzər regionunun, xüsusən "Əsrin kontraktı" çərçivəsində Azərbaycandan tədarük edilmiş enerji resurslarının dünya bazarlarına nəqli ilə bağlı "Bakı-Tbilisi-Ceyhan" neft, "Bakı-Tbilisi-Ərzurum" qaz kəmərləri layihələrinə sərmayə qoyuluşuna dəstək verilməsi xahiş olunurdu. Məruzədə həmçinin bildirilirdi ki, Qafqaz və Orta Asiya ölkələrində sabitlik və inkişaf Xəzər regionundakı enerji daşıyıcılarının gələcəkdə dünya bazarlarına çıxarılması üçün əsas şərtdir. Bunun üçün Dağlıq Qarabağ və Abxaziya münaqişələrinin həlli çox vacibdir. Xüsusi vurğulanırdı ki, Xəzərin enerji daşıyıcılarının dünya bazarına çıxarılması Avropanın enerji təhlükəsizliyinin təmin olunması baxımından da zəruridir.

ABŞ-ın Cənubi Qafqaz, Xəzər və Azərbaycanla bağlı nümayiş etdirdiyi geosiyasətdə daha bir köklü dəyişiklik 2001-ci ilin 11 sentyabr hadisələrindən sonrakı dövrə təsadüf edir. Bu hadisə ümumilikdə beynəlxalq aləmdə və dünya birliyi qarşısındakı prioritet vəzifələrdə ciddi dəyişikliklər etdi. Beynəlxalq terrorizmlə mübarizəyə dair koalisiyanın formalaşdırılması prosesi Cənubi Qafqaz və Xəzər hövzəsi regionundakı geosiyasi vəziyyətə də təsirsiz ötüşmədi. Yeni geosiyasi reallıq ABŞ-ın Orta Asiya və Cənubi Qafqazdakı fəallığını xeyli artırdı. 11 sentyabr hadisələri yalnız beynəlxalq terrorizmin deyil, həmçinin Qərbin Fars körfəzi ölkələrinin neft ehtiyatlarından asılılığının da ABŞ-ın geosiyasi maraqları üçün ciddi təhlükə olduğunu bir daha təsdiqlədi. Bu isə Fars körfəzinə alternativ kimi baxılan Xəzər hövzəsinin geosiyasi və geoiqtisadi əhəmiyyətini daha da artırırdı. 11 sentyabr faciəsindən cəmi 1 ay sonra - 2001-ci ilin oktyabrında ABŞ Konqresindəki dinləmələr zamanı ABŞ-ın Cənubi Qafqaz, Xəzər hövzəsi və Orta Asiya regionundakı maraqları qısaca olaraq belə göstərilmişdi:

- Xəzər regionunun OPEK üzvü olmayan ölkələrinin enerji daşıyıcılarından Fars körfəzinin ehtiyatlarından alternativ kimi istifadə edilməsi;
- Əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən ölkələrlə əlaqələrin möhkəmləndirilməsi;
- Cənubi Qafqaz və Orta Asiya ölkələrinin müstəqilliyinə dəstək, onların demokratikləşməsinə yardım göstərmək.

Göründüyü kimi, bu maraqlar təkcə Azərbaycanı deyil, bütün regionu əhatə edirdi. Düzdür, ABŞ-ın Özbəkistanla münasibətlərində yaranmış müəyyən gərginlik Birləşmiş Ştatların regional siyasətində ciddi nöqsan kimi təqdim olunurdu. Çıxışlarda qeyd olunurdu ki, ABŞ Özbəkistanın Rusiya ilə sıx hərbi-siyasi alyans yaratmasına mane ola bilməmiş və hətta, əksinə, özü buna şərait yaratmışdı. İndi isə ABŞ-ın əsas məqsədi regionda Moskva-Pekin-Tehran alyansının yaranmasının qarşısını almaqdır. Lakin ABŞ bu siyasətin Rusiya ilə münasibətlərə xələl gətirən formada aparılmamasına xüsusi diqqət yetirməlidir. Çünki, regionda sabitliyin qorunması naminə ABŞ «Moskva faktoru» ilə hesablaşmağa və Rusiya ilə əməkdaşlığa getməyə məcburdur.

Qeyd edək ki, 1997-ci ildə ortaya atılmış və ABŞ-ın Mərkəzi Asiyadakı siyasətinə dair Amerikanın proqramı kimi qəbul edilən *"Telbott doktrinası"nın* əsasını da məhz elə bu müddəalar təşkil edirdi. Xatırladaq ki, S.Telbottun irəli sürdüyü formula çox sadə idi: A*merika regiona öz bayrağını sancmağı düşünmür, amma eyni zamanda, başqasına da burada öz bayrağını yüksəltməyə imkan verməyəcək.* Amma mütəxəssislərin fikrinə görə, 11 sentyabr hadisəsindən sonra bu doktrina öz aktuallığını itirdi və ABŞ-ı daha fəal siyasət yeritməyə çağıran yeni doktrinalar üzə çıxdı. Məsələ bundadır ki, 2001-ci ilin ortalarınadək regionda Rusiya, ABŞ və Çinin timsalında

üçtərəfli geosiyasi balans var idi. Lakin 2001-ci ildə ABŞ-ın Əfqanıstanda hərbi əməliyyatlar aparması bu balansı pozdu.

ABŞ Əfqanıstanda hərbi əməliyyata başlamaqla və 2001-2002-ci illərdə Mərkəzi Asiyada hərbi bazalar yerləşdirməklə Avrasiyanın mərkəzində əsas hərbi hakim rolunu öz üzərinə götürdü.

Qeyd edək ki, bu mərhələdə həm ABŞ, həm də Azərbaycan özlərinin təhlükəsizlik siyasətini və milli geosiyasi maraqlarını müəyyən qədər uzlaşdırmağa və regiondakı ortaq geoiqtisadi maraqları nəzərə almağa çalışmışlar. Mütəxəssislərin fikrincə, əgər 1990-cı illərin ortalarından başlayaraq 2001-ci ilin 11 sentyabr hadisələrinədək ABŞ-ın Cənubi Qafqazda Azərbaycanla bağlı həyata keçirdiyi siyasətində daha çox enerji maraqları üstünlük təşkil edirdisə, sonrakı mərhələdə həm də regional təhlükəsizlik meyilləri özünü göstərməyə başladı. Xüsusilə, qlobal terrorizmə qarşı mübarizədə, Cənubi Qafqazın regional təhlükəsizliyinin təmin olunmasına münasibətdə onlar arasında müəyyən tərəfdaşlıq münasibətləri yaranmağa başladı. Azərbaycan regionda ABŞ-ın beynəlxalq terrorizmə qarşı apardığı siyasəti fəal şəkildə dəstəkləyən ölkələrdən biri, müsəlman dövlətləri içərisindəsə birincisi oldu. Azərbaycanın hərbi hissələrinin Əfqanıstan, Kosova və İraqda beynəlxalq sülhyaratma qüvvələrinin tərkibində ABŞ-la yanaşı iştirak etməsi isə iki ölkə arasında təhlükəsizlik sahəsində sonrakı strateji tərəfdaşlığa ciddi təkan verdi.

Keçən müddətdə Azərbaycan öz təhlükəsizlik taleyini Şimali Atlantika bloku ilə bağlamamaq şərti ilə, ABŞ-ın bəhs olunan dövrdəki fəal regional təhlükəsizlik siyasətinə, beynəlxalq və regional sülhyaratma təşəbbüslərinə, hərbi və siyasi tərəfdaşlıq çağırışlarına hərtərəfli dəstək vermiş və müxtəlif formalarda:

1. ABŞ və NATO ilə "Sülh naminə tərəfdaşlıq" və "Fərdi tərəfdaşlıq" proqramları çərçivəsində ikitərəfli

və çoxtərəfli hərbi-strateji əməkdaşlığı gücləndirmişdir;
2. Əfqanıstana və İraqa ABŞ və NATO təyyarələrinin sərbəst uçuşu üçün hərbi hava dəhlizi açmışdır;
3. ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizə koalisiyasına qoşularaq, onunla birlikdə dünyanın ayrı-ayrı münaqişə bölgələrində sülhyaratma proseslərində iştirak etmişdir və s.

11 sentyabr hadisəsindən sonra Cənubi Qafqaz ölkələrinin, o cümlədən Əfqanıstana göndərilən hərbi karvanın yolu üzərində yerləşən Azərbaycanın belə tərəfdaşlıq mövqeyi sərgiləməsi onun ABŞ və NATO ilə hərbi-strateji tərəfdaşlıq məsələlərinə öz müsbət təsirini göstərdi. Azərbaycan və Gürcüstanla yanaşı, Ermənistanın da anti-terror koalisiyasına qoşulması, İraqa hərbi qüvvə göndərməsi Birləşmiş Ştatların regiondakı mövqelərinin xeyli güclənməsi demək idi. 11 sentyabr hadisələrindən sonra ABŞ-ın müdafiə naziri Donald Ramsfeldin *«Azərbaycanın bizim üçün geosiyasi və hərbi-geostrateji əhəmiyyəti daha da artdı»* bəyanatını verməsi təsadüfi deyildi. Ərazicə İraq və İrana yaxın olan region ölkələri ilə hərbi-strateji tərəfdaşlıq həmin dövrdə və bu gün Birləşmiş Ştatlar üçün olduqca önəmli məsələdir.

Bununla paralel olaraq, ABŞ və NATO Avrasiyada öz fəaliyyətlərini gücləndirmiş ki, bu da regionun hərbi-siyasi tarazlığında əhəmiyyətli dəyişiklik yaratmışdır. ABŞ və NATO Gürcüstanla hərbi-geostrateji tərəfdaşlığı dərinləşdirməklə yanaşı, Azərbaycan və Ermənistanla da adekvat münasibətlər qurmaq istəyini ortaya qoydu. Birləşmiş Ştatların sərhəd xidməti həmin vaxt Gürcüstanın xarici sərhədlərinin mühafizəsində yaxından iştirak edir, gürcü ordusunun maddi-texniki təchizatı üçün yardım göstərirdi və s. 2002-ci ildə ABŞ-la Gürcüstan arasında «Təlim keç və təchiz et» hərbi yardım proqramı-

nın imzalanması, ABŞ-ın 2 minə yaxın gürcü xüsusi təyinatlısına təlim keçməsi, Əfqanıstandakı anti-terror əməliyyatı çərçivəsində Orta Asiya ərazisində ABŞ hərbçilərinin yerləşdirilməsi yalnız Rusiya ilə Birləşmiş Ştatların geosiyasi və hərbi-geostrateji maraqlarının kəsişməsi deyil, həm də uzun əsrlər Rusiyanın nəzarətində olan regionda keyfiyyətcə yeni geosiyasi və hərbi-geostrateji vəziyyətin yaranmasının göstəricisi idi. Müasir dünya qarşısında dayanan terror təhlükələri artıq ənənəvi düşərgələrarası rəqabəti siyasi və iqtisadi kontekstdən çıxararaq, beynəlxalq terrorizmə qarşı mübarizə, nüvə silahının yayılmasının qarşısının alınması, narkotrafik və qaçaqmalçılıqla mübarizə və s. fonunda yeni sahələrə də şamil edirdi. Yaranmış vəziyyətin özünəməxsusluğu həm də ondan ibarət idi ki, yeni vəziyyət ABŞ-Rusiya rəqabəti ilə yanaşı, zahirən onlar arasında əməkdaşlığın nümunəsi kimi də təqdim olunurdu. Moskvanın amerikalıların Orta Asiyaya hərbi-geostrateji müdaxiləsinə göz yumması, əsrlər boyu mövcud olan stereotiplərin beynəlxalq təhlükələr qarşısında qismən də olsa dəyişməsi demək idi. Terrorizmə qarşı beynəlxalq koalisiyanın mövcudluğu da məhz bu amillə bağlı idi.

Hazırda Amerikanı təmsil edən müxtəlif analitiklər və beyin mərkəzləri ABŞ-ın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı yeni geosiyasətinin və hərbi-geostrategiyasının konturlarını hazırlayaraq, qarşıya çıxan əsas problemləri müzakirə edir, görüləcək işləri araşdırırlar. Görüləcək işlər sırasında onlar ilk növbədə, ABŞ administrasiyasının son illər müsəlman şərqində həyata keçirdiyi və bir çox ölkələrdə daha çox daxili siyasi sabitliyin pozulmasına, vətəndaş müharibəsinin alovlanmasına, yerli qüvvələrin üz-üzə qoyulmasına xidmət edən fəaliyyət nəticəsində regionda artan kütləvi narazılığın və anti-amerika əhval-ruhiyyəsinin qarşısının alınmasını, bölgədəki dövlətlərin daxili həyatını gələcəkdə idarə edəcək amerikanpərəst siyasətçilərin formalaşdırılmasını, yerli milli elitaların

"ABŞ dəyərləri"nə uyğunlaşdırılmasnı və s. tədbirləri aid edirlər.

Xəzər-Qara dəniz hövzəsi, Cənubi Qafqaz bölgəsi və Azərbaycanın ABŞ üçün mühüm geostrateji əhəmiyyət daşıdığı həmişə dünyanın tanımış politoloqlarının diqqət mərkəzində olmuşdur. Məsələn, 1992-ci ildə Prezident Corc Buşun köməkçisi olmuş M.Olkott bildirmişdir ki, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsində yaranan yeni respublikaları müstəqil, ilk növbədə isə Rusiyadan asılı olmadan yaşamağa öyrətmək lazımdır.

1993-cü ildə amerikalı senator A.Krenston qeyd etmişdir ki, ABŞ-ın bölgədəki maraqları birbaşa Türkiyə və onun təsirinə daxil olacaq Cənubi Qafqaz respublikaları ilə bağlıdır. Onun fikrinə görə Vaşinqton Türkiyənin Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri üçün bir model kimi qəbul edilməsinə nail olmalıdır.

1998-ci ildə ABŞ-ın keçmiş dövlət katibi C. Beyker vurğulayırdı ki, "Xəzər indi nə geosiyasi, nə geoiqtisadi, nə də ki, texniki maraq dairəsi deyil, bu bölgə artıq ABŞ-ın həyati əhəmiyyət kəsb edən geoməkanıdır". Yaxud, ABŞ prezidentinin yeni müstəqil dövlətlər üzrə müşaviri S. Sestanoviç bəyan edirdi ki, ABŞ-ın Xəzərdən enerji daşınması sahəsindəki strategiyasının əsasını təkcə dünyanın enerji təhlükəsizliyinin təmin olunmasına dəstək vermək deyil, həm də bölgə ölkələrinin öz resurslarını sərbəst şəkildə dünyaya çıxarmaq işinə yardımçı olmaq vəzifəsi təşkil edir. Müəllifin fikrinə görə, bu ilk növbədə onların müstəqilliyini möhkəmləndirir, vətəndaş cəmiyyətini inkişaf etdirir və bu ölkələrdəki demokratikləşmə prosesini sürətləndirir.[126]

ABŞ-ın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsindəki maraqlarını şərh edən keçmiş enerji naziri Riçardson

[126] Bax: Чернявский С.И. Кавказская стратегия Вашингтона, Вашингтона// Международная жизнь, 1999, №31, с. 23.

qeyd edirdi ki, onun ölkəsinin Xəzər hövzəsindəki maraqları təkcə geosiyasi deyil, həm də geoiqtisadi xarakter daşıyır. Qərbin kommersiya və siyasi dəyərləri, maraqları bu bölgələrin əhalisinə tam uyğun gəlir. ABŞ Xəzərdən Qərbə yeni və daha etibarlı müstəqil enerji dəhlizləri yaratmaq istəyir.[127]

Tanımış politoloq Z.Bjezinski ABŞ-ın Orta Asiya regionundakı mövqeyini belə şərh edir: "ABŞ Avrasiyanın bu ərazisində dominantlıq etmək iqtidarında deyil, çünki regiondan çox uzaqda yerləşir. Amma bununla belə, buradakı proseslərə müdaxilə etməyə də bilməz,çünki çox güclüdür".

Mütəxəssislərin fikrinə görə, Azərbaycanın Xəzər hövzəsində ABŞ və NATO üçün həm də ciddi hərbi-geostrateji əhəmiyyəti vardır. Azərbaycanın geosiyasi və hərbi-geostrateji əhəmiyyəti ilə bağlı Z.Bjezinski qeyd edirdi ki, "Ərazisinin məhdudluğu və əhalinin sayının azlığına baxmayaraq, böyük enerji resurslarına malik Azərbaycan geosiyasi mənada ciddi əhəmiyyət daşıyır. Xəzər hövzəsi və Orta Asiyanın zəngin ehtiyatlarının açarı məhz Azərbaycandır. Azərbaycan tamamilə Moskvanın nəzarətində olduğu təqdirdə Orta Asiya ölkələrinin müstəqilliyi yalnız nisbi xarakter daşıyacaq».

Z.Bjezinskinin bu fikri ümumilikdə ABŞ və Qərb dövlətlərinin Azərbaycana yanaşmasının əsasını təşkil edir. Bu fikirləri ABŞ-ı təmsil edən müxtəlif ranqlı dövlət rəsmiləri də dəfələrlə təsdiq etmişlər. Onlar ABŞ-n Azərbaycanla əlaqələrinin ən əsas prioritetləri sırasına bu dövlətin müstəqilliyinin və suverenliyinin dəstəklənməsini, onunla regional təhlükəsizlik, beynəlxalq terrorizmlə mübarizə, enerji təminatı və təhlükəsizliyi, iqtisadi diversifikasiya və s. kimi mühüm sahələrdə tərəfdaşlıq münasibətlərinin davam etdirilməsini aid etmişlər.[128]

[127] "The New York Times", 1998, November.
[128] Bax: APA-nın xəbər bülleteni, 28 oktyabr, 2013-cü il.

Mütəxəssislərin fikrinə görə, Azərbaycanın hərbi-geostrateji sahədəki əhəmiyyətini artıran əsas amillərdən biri Xəzərə birbaşa çıxışı və İranla qonşu dövlət olmasıdır. Keçən müddətdə ABŞ-ın siyasi rəhbərliyi və NATO təhlükəsizlik strukturları Alyansın İranla münasibətlərinin son böhran halına çata biləcəyi halda, Azərbaycanın hava məkanından bu ölkəyə hərbi hücum məqsədilə istifadə edəcəklərini düşünürdü. Lakin Azərbaycanın "İrana hücum olacağı halda qonşuluq münasibətlərini nəzərə alaraq, öz ərazisindən digər dövlətin hərbi məqsədlər üçün istifadəsinə icazə verməyəcəyi" bəyanatı ABŞ-ı məyus etmişdir.[129]

Döğrudan da, prezident İlham Əliyevin "Azərbaycan heç zaman nə ABŞ və NATO-nun, nə də ki, başqa ölkələrin regiondakı hərbi-geostrateji münaqişələri üçün "meydan" olmayacağı, İrana, yaxud digər qonşu ölkəyə hər hansı üçüncü qüvvənin hücumuna dəstək verməyəcəyi, qonşularla etibarlı tərəfdaşlıq münasibətlərini daim qoruyacağı və ərazisindən digər dövlətin hərbi məqsədlər üçün istifadəsinə icazə verməyəcəyi" haqqındakı birmənalı bəyanatı, öz müstəqil iradəsini ortaya qoyması və sona qədər bu mövqeyə sadiqlik nümayiş etdirməsi ABŞ və NATO rəhbərliyini məyus edərək, 2001-ci ildən sonra Azərbaycanla sonuncular arasındakı formalaşmış hərbi-strateji tərəfdaşlıq münasibətlərinə müəyyən mənfi təsir göstərdi. Lakin, bu qətiyyətli mövqe əvəzində Azərbaycanın bölgə ölkələri ilə, ilk növbədə qonşu Rusiya və İranla tərəfdaşlıq münasibətlərinin korlanmasının qarşısını aldı.

Azərbaycan-ABŞ münasibətlərinin inkişafında Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci ilin yayında ABŞ-a ilk rəsmi səfəri mühüm əhəmiyyət daşıyır. Səfər çərçivəsində Prezident Heydər Əliyevlə ABŞ prezidenti Bill Klinton arasında

[129] Rayner Fraytaq-Virminqhaus. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti // "Azerbaijan Focus" jurnalı, №1, 2009, s. 101.

keçirilən görüşdə ABŞ-Azərbaycan münasibətlərinin mövcud durumu və gələcək inkişaf istiqamətləri ətraflı müzakirə olunmuş və iki ölkə arasındakı strateji münasibətlərin ortaq konturları müəyyən edilmişdir. Dövlət başçıları ABŞ - Azərbaycan əməkdaşlığının gücləndirilməsi, Xəzərdə böyük neft layihələrinin həyata keçirilməsində Amerika neft şirkətlərinin Azərbaycan hökuməti ilə birgə fəaliyyətinin istiqamətləri, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ABŞ-ın mümkün yardımı məsələləri barədə də ətraflı söhbət aparmışlar. Eyni zamanda, Azərbaycan Prezidentinin ABŞ hökuməti və ictimaiyyətinin təmsilçiləri, o cümlədən ABŞ-ın dövlət katibi Stroub Talbott, ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nyut Qinqriç, bir qrup konqresmenlər və senatorlarla, xüsusilə keçmiş dövlət katibi Madlen Olbraytla görüşlərində də iki ölkə arasındakı münasibətlərin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdı.

2006-cı il aprelin 25-28-də Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a rəsmi səfəri ABŞ-Azərbaycan münasibətlərinin inkişafında yeni mərhələnin əsasını qoydu. Prezident İlham Əliyevin ABŞ Prezidenti Corc Buşla, dövlət nazirləri, eyni zamanda ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvləri, həmçinin Milli Demokratiya İnstitutu, Beynəlxalq Respublikaçılar İnstitutu və digər QHT təmsilçiləri ilə görüşlərində ABŞ-la Azərbaycan arasında müxtəlif sahələri əhatə edən qarşılıqlı münasibətlərin daha da inkişaf etdirilməsi geniş müzakirə olundu.

ABŞ-ın Xəzər hövzəsi və Cənubi Qafqaz siyasətində Azərbaycanın rolu və yerinə dair ən son mövqeni prezident İlham Əliyevə ünvanlandığı təbrik məktubunda ABŞ prezidenti Barak Obama ifadə etmişdir. Məktubda keçən on ildə-Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə həm ikitərəfli formatda, həm də son illər BMT Təhlükəsizlik Şurası çərçivəsində iki ölkə arasında yaranmış və yüksələn

xətlə inkişaf edən strateji tərəfdaşlıq əlaqələrini dünyada və regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın bərqərar olması baxımından yüksək qiymətləndirilib. Hazırda da Azərbaycanın dünya birliyi tərəfindən etiraf edilən uğurlu sosial və iqtisadi tərəqqi dövrünü yaşadığını, mühüm nailiyyətlər əldə etdiyini yüksək qiymətləndirən ABŞ Prezidenti, öz administrasiyasının bir çox ortaq çağırışlar üzrə iki ölkə arasındakı əməkdaşlığı daha da dərinləşdirmək istədiyini və yaxın gələcəkdə bu istiqamətdə yeni-yeni təşəbbüslərin yer alacağına ümid etdiyini vurğulamışdır.

Təbrik məktubunda Azərbaycanın beynəlxalq aləm və regiondakı mövcud geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeyi ilə bağlı da xüsusi vurğulamalar öz əksini tapmışdır. O, Azərbaycanın regionda və dünyada sülh, sabitlik və təhlükəsizliyin təmin olunmasına, beynəlxalq terrorizmə qarşı mübarizəyə verdiyi mühüm töhfələri xüsusi qeyd etmiş, Bakının təşəbbüsü ilə regionun, Avropanın enerji təhlükəsizliyinin təminatında vacib rol oynayan enerji layihələrinə toxunmuş və bu layihələrin həyata keçirilməsinə öz ölkəsinin verdiyi dəstəyi ifadə etmişdir. [130]

Prezident B. Obamanın təbrik məktubunda Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinə xüsusi toxunulub. ABŞ Prezidenti öz ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycan Prezidenti ilə əməkdaşlıq etməyə hazır olduğunu ifadə edib və qarşıdan gələn dövrdə Azərbaycan və Ermənistan dövlət başçılarının görüşmək barədə qərarlarını alqışlayıb. Mütəxəssislər münaqişənin həlli ilə bağlı vasitəçilik siyasətini həyata keçirən və ATƏT-in Minsk qrupunun həmsədri olan ABŞ Prezidentinin öz məktubunda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı xüsusi qeydlər etməsini, onun münaqişənin həlli ilə bağlı Azər-

[130] Bax: "Kaspi" qəzeti, N 204, 08.11.2013. s.2. www.kaspi.az

baycanın səylərini dəstəkləməsi və münaqişə ilə bağlı hazırkı status-kvonu qəbul etməməsi kimi dəyərləndirmişlər. Onların fikrinə görə, ABŞ prezidenti Barak Obamanın prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda öz əksini tapmış fikirlər, həm də Amertikanın da Azərbaycanı əsas sahələr üzrə öz strateji tərəfdaşı hesab etdiyinin göstəricisidir ki, bu da bəzi anti-Azərbaycan qüvvələrinin bilərəkdən ortaya atdığı spekulyasiyalara baxmayaraq, qarşıdakı illərdə də ABŞ-Azərbaycan strateji tərəfdaşlıq münasibətlərinin yüksələn xətlə inkişaf edəcəyini sübut edir.

B. Obamanın məktubunda qeyd olunun məqamlara əsaslansaq, əlbəttə, bundan sonrakı proseslərdə ABŞ-ın Azərbaycana yaxından dəstək verəcəyini iddia etmək olar. Çünki Prezident Obama mühüm transmilli enerji layihələrinin reallaşdırılmasında, iqtisadiyyatın şaxələndirilməsində, regional sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsində və digər məsələlərin həllində Prezident İlham Əliyevlə sıx əməkdaşlıq siyasətinə sadiqliyini ifadə edib və bunun davam etdirilməsini səbirsizliklə gözlədiyini vurğulayıb. Bütün bunlarsa, mütəxəssislərin fikrinə görə, ABŞ-ın regionun ən güclü dövləti hesab olunan Azərbaycanla hərtərəfli əməkdaşlığa və strateji tərəfdaşlığa xüsusi önəm verdiyinin və Prezident B. Obamanın bütün istiqamətlər üzrə ikitərəfli əlaqələrin inkişafına öz töhfəsini verməyə hazır olduğunun göstəricidir. 2013-cü il prezident seçkilərindən sonra yaydığı rəsmi bəyanatında bu ölkənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri R. Morninqstar da mütəxəssislərin fikrini təsdiqləmiş və Amerika Birləşmiş Ştatlarının yeni prezidentlik müddətində prezident İlham Əliyev və Azərbaycan hökuməti ilə sıx əməkdaşlıq etməyi səbirsizliklə gözlədiyini ifadə etmişdir. Onun fikrinə görə istənilən tərəfdaşlar arasında olduğu kimi ABŞ və Azərbaycan arasında da çoxlu ortaq maraqlar mövcuddur. Bu sıraya regional təhlükəsizlik, terrorizmlə mübarizə, enerji təhlükəsizliyi, iqtisadi diversifika-

siya və s. kimi məsələlər daxildir. Səfir növbəti beş ildə Azərbaycan xalqı və hökuməti ilə öz ölkəsinin əlaqələrini genişləndirməyə və dərinləşdirməyə ümid etdiyini xüsusi vurğulamışdır.[131]

Lakin bütün bu məqamlarla yanaşı, son zamanlar Azərbaycanın həm rəsmi, həm də ictimai dairələri ABŞ-in ümumən Cənubi Qafqaz siyasətindən, o cümlədən də Azərbaycanla bağlı nümayiş etdirdiyi mövqedən müəyyən qədər narazıdırlar.[132] Çünki, müstəqillik illərində bütün dünya ölkələri ilə normal, bərabərhüquqlu tərəfdaşlıq əlaqələrin tərəfdarı olan Azərbaycan planetin super dövləti olan ABŞ-la münasibətdə də eyni siyasi xətti yürüdür və bunun qarşılığında rəsmi Vaşinqtondan adekvat münasibət gözləyir. Məlumdur ki, 1993-cü ildən bu yana Azərbaycanın ABŞ-la bir sıra regional və beynəlxalq məsələlərdə münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır. Bu ölkənin birbaşa geosiyasi və geoiqtisadi marağını əks etdirən Xəzərin enerji resurslarının birgə istismarı və yeni alternativ marşrutlarla Avropaya ixracı, Avropanın etibarlı enerji təhlükəsizliyinin təminatı birbaşa Azərbaycanın gücü ilə təmin edilib. 2001-ci ildən ABŞ-ın rəhbərlik etdiyi beynəlxalq antiterror koalisiyasında, beynəlxalq terrorizmlə mübarizədə müsəlman dünyasının bütün narazılığına baxmayaraq Azərbaycan ilk gündən prinsipial mövqe nümayiş etdirərək, Amerikanın yanında yer almışdır. Xüsusən, son dövrlərdə Əfqanıstanla bağlı hərbi-geostrateji məsələlərin həllində ABŞ üçün Azərbaycanın əhəmiyyəti xüsusilə əvəzolunmaz olmuşdur. Azərbaycan bu iştiqamətdə ABŞ-a bütün lazımı köməkliyi göstərmiş və indinin özündə də göstərməkdədir. Belə ki, 2001-ci ildən bəri on minlərlə hərbçi məhz Azərbaycanın hava məkanından istifadə edərək Əfqanıstana yollanıb. Hər il ABŞ-ın

[131] Bax: APA informasiya agentliyinin xəbər bülleteni, 21 oktyabr 2013-cü il.
[132] Bax:Trend İA-nın xəbər bülleteni,11 oktyabr 2013. www.trend.az

minlərlə hərbçisi bu yolla cəbhəyə və geriyə daşınır. İndiyə qədər bütün ABŞ və NATO avadanlığının təxminən dörddə biri Əfqanıstana məhz Azərbaycan vasitəsilə daşınıb. ABŞ Azərbaycandan tək hava nəqliyyatı vasitəsi ilə deyil, quru yolu vasitəsilə də yüklərin daşınmasını həyata keçirir.[133]

Bundan başqa, ABŞ-ın xüsusi marağında olan Şərq-Qərb nəqliyyat-kommunikasiya və tranzit dəhlizlərinin yaradılması və fəaliyyətində ən önəmli rolu Avropa ittifaqı ilə birgə Azərbaycan oynamış və bu gün də oynamaqdadır. Cənubi Qafqaz və Xəzər bölgəsində Azərbaycan bütün qlobal problemlərin həllində ABŞ-ın yaxın müttəfiqi və etibarlı tərəfdaşı kimi çıxış edir. Göründüyü kimi, bütün sadalanan məsələlər daha çox ABŞ-ın maraqlarına uyğundur və Azərbaycan keçən dövrdə öz strateji tərəfdaşlıq missiyasını lazımınca yerinə yetirmişdir.

Mütəxəssislər Azərbaycanın etibarlı bir tərəfdaş kimi son illər alternativ yollarla Avropanın enerji təhlükəsizliyinin təmin edilməsindəki rolunu da xüsusi qiymətləndirirlər. Çoxsaylı təzyiqlərə baxmayaraq, Xəzər dənizindən çıxarılan neft və qaz məhsullarının Avropaya çatdırılması ilə bağlı ardıcıl siyasət nümayiş etdirməsi, Avropanın enerji təminatında mühüm rol oynayacaq yeni TAP, TANAP və s. kimi transmilli layihələrin reallaşması istiqamətində ciddi iş aparması və s. Azərbaycanın Qərb partnyorları qarşısında öz tərəfdaşlıq siyasətinə sadiq qaldığının xüsusi göstəricisi hesab olunur. Təbii ki, bu tipli layihələrin icra olunmasında ABŞ kimi böyük dövlətlərin dəstəyinin də xüsusi rolu olub.

Lakin, Azərbaycanın bütün səylərinə, strateji əhəmiyyətinə, regionun açar dövləti funksiyasını oynaması və s. bütün bunlardan ABŞ-n yetərincə bəhrələnməsinə baxmayaraq, mütəxəssislərin fikrinə görə, son illərdə ABŞ bu ölkə ilə münasi-

[133] Bax: "Kaspi" qəzeti, N198, 31 oktyabr 2013. S. 4. www.Kaspi.az

bətlərini adekvat səviyyədə saxlamağa o qədər də ciddi səy göstərmir, Azərbaycan tərəfinin öz strateji tərəfdaşlıq vəzifəsinə yanaşması ilə ABŞ-ın yanaşması arasında zaman-zaman ciddi fərqlər ortaya çıxmaqdadır. ABŞ Konqresinin 1992-ci ildə Azərbaycan əleyhinə bədnam "907-ci düzəlişi" qəbul etməsindən ötən müddət ərzində bu ölkənin Cənubi Qafqazda həyata keçirdiyi regional təhlükəsizlik siyasətində və Azərbaycan-ABŞ münasibətlərində ən anlaşılmaz məqam da məhz müasir mərhələyə - Barak Obamanın prezidentliyi dövrünə təsadüf edir. Bu dövrdə, mütəxəssislərin fikrinə görə, ABŞ-ın həm bütövlükdə Cənubi Qafqazda yürütdüyü təhlükəsizlik siyasəti, həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində nümayiş etdirdiyi passiv fəaliyyət, həm də ikitərəfli əməkdaşlıq və strateji tərəfdaşlıq sahəsində atdığı praktik addımlar Azərbaycanı qane edə bilməzdi. Məsələn, ABŞ 2010-cu ildə Rusiyanın Ermənistanla bağladığı hərbi müttəfiqlik müqaviləsinin vaxtını yenidən uzatmasını və bu dövləti Cənubi Qafqazda lazım olduğundan artıq silahlandıraraq militarist ölkəyə çevirməsini "iki ölkənin daxili məsələsi" kimi qiymətləndirdi ki, bu da Azərbaycan tərəfinin haqlı narazılığına səbəb oldu.[134] Əslində, bu mövqeyi ilə ABŞ indiyə qədər bölgədə həyata keçirdiyi siyasətin qeyri-səmimi olduğunu və yalnız öz maraqlarına söykəndiyini nümayiş etdirdi. Bir vaxtlar SSRİ Kuba ilə təxminən belə bir müqavilə imzalayarkən, ABŞ bütün dünyanı beynəlxalq və regional təhlükəsizliyin pozulacağı həyəcanı ilə SSRİ-yə qarşı çıxmağa təhrik etmişdi. Bundan başqa, 90-cı illərin axırında Azərbaycan ATƏT-in Cənubi Qafqazdakı adi döyüş silahları ilə bağlı "Cinah sazişi"nə *1992-ci ildə onun ədalətli kvota (saxlaya biləcəyi hərbi texnika və adi silahların miqdarı) haqlarının pozulmasına görə* yenidən qoşulmaqdan və öz öhdəliklərini təsdiq-

[134]Bax: газ. "Зеркало", 27 августа 2010 г.

ləməkdən imtina etdiyi zaman ABŞ-ın tutduğu mövqe ilə Rusiyanın indiki hərəkətlərinə biganəliyi arasında o qədər açıq-aşkar ziddiyyət mövcud idi ki, bunu izah etmək çox çətin idi. O zaman ABŞ-ın böyük təhdidlərlə Azərbaycanı, Gürcüstanı, Ermənistanı və Rusiyanı Avropada təhlükəsizlik adı altında ATƏT-in Cənubi Qafqaz üçün hazırladığı cinah məhdudiyyəti sazişinə qoşulmağa vadar etməsini və hal-hazırda Rusiyanın həmin müqaviləni pozaraq, Cənubi Qafqazda öz silahlarını artırmasına və ermənilərı sürətlə silahlandırmasına Vaşinqtonun münasibətini bölgədə Amerikanın strateji tərəfdaşı hesab edilən Azərbaycanda və Gürcüstanda anlamaq çox çətin idi.

Azərbaycan ictimaiyyəti həmin vaxt həm ABŞ və NATO-nu, həm də Türkiyəni Cənubi Qafqazda Ermənistanın militaristləşməsinə və öz silahlı qüvvələrini beynəlxalq sanksiya olmadan bölgədə istədiyi kimi istifadə etməsinə etiraz bildirməyə çağırırdı. Lakin bütün bunlar baş vermədi. Bu da onu göstərdi ki, günün birində "ermənilərı qorumaq" adı ilə hər hansı bir ölkə yenə də beynəlxalq sanksiya olmadan Dağlıq Qarabağa və Azərbaycanın digər ərazilərinə qoşun çıxarsa, bu ölkələr heç bir ciddi addım atmayacaqlar. Mütəxəssislər hesab edirlər ki, ABŞ Ermənistanın təhlükəsizliyinin birmənalı təmin edilməsi funksiyasını öz əlinə alan, münaqişəli bölgədə tərəflərdən birini açıq-aşkar silahlandıran və dəstəkləyən, öz geosiyasi təsirini bu formada başqa ölkələrin ərazisində təmin edən Rusiyaya qarşı ən azı öz etiraz səsini qaldırmalı idi. Heç olmazsa, "bu onların daxili işidir" - bəyanatını səsləndirməməli idi. Çünki bəhs olunan hadisə beynəlxalq hüquqa, ATƏT-in beynəlxalq və regional siyasətinə, münaqişə edən tərəflərin sülh danışıqlarına başlaması və razılığa gəlməsi siyasətinə daban-dabana zidd idi.

2008-ci ildən sonrakı mərhələdə regional təhlükəsizlik sahəsində Azərbaycanın ABŞ və NATO ilə strateji tərəfdaşlığına mənfi təsir göstərən bir neçə digər məqamlar da mövcud ol-

muşdur. Bunların sırasında, mütəxəssislərin fikrincə, ilk növbədə NATO-nun və ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi ABŞ-ın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bir qədər məsafə saxlamasını, münaqişənin həlli üçün qətiyyətli addımlar atmamasını və beynəlxalq hüququn tələblərinə biganə münasibətini qeyd etmək olar. Qeyd etmək lazımdır ki, ABŞ-ın bu məsələyə, ümumiyyətlə başlanğıcdan qeyri-prinsipial və ikili yanaşması Azərbaycanın geniş ictimai rəyində həmişə mənfi qarşılanmışdır ki, bu da iki ölkə arasındakı hərbi təhlükəsizlik və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsinə öz mənfi təsirini göstərmişdir. Mütəxəssislərin fikrincə, Azərbaycan ictimaiyyəti ABŞ-ın Dağlıq Qarabağ siyasətini həmişə mənfi dəyərləndirmiş və bu ölkənin fəaliyyətini "Cənubi Qafqazda sadəcə öz enerji ehtiyaclarını ödəmək, neft boru kəmərlərinin təhlükəsizliyini təmin etmək, Rusiyanı bölgədən sıxışdırmaq və Azərbaycanı İrana qarşı meydan kimi istifadə etməkdən ibarət" praqmatik bir mövqe kimi qəbul etmişdir. [135]

Müşahidələr göstərir ki, bütün dövrlərdə Azərbaycanın strateji tərəfdaşlığa verdiyi töhfənin müqabilində, son dövrlərdə ABŞ tərəfi nəinki onun bu cür etibarlı tərəfdaş mövqeyini lazımınca dəyərləndirmir, əksinə, erməni lobbisinin təsiri altında rəsmi Vaşinqton yeni-yeni anti-Azərbaycan addımları atır. Məsələn, son dövdrə erməni lobbisinin basqısı altında uzun müddət Azərbaycana yeni səfir göndərməkdə çətinlik çəkən ABŞ-ın Bakıdakı elçiliyi xeyli müddət başsız qalmışdı. Bu isə strateji tərəfdaşlıq münasibətlərin müəyyən mənada soyumasına səbəb olmuşdu. Lakin zaman göstərdi ki, ən azından özünün strateji maraqları naminə ABŞ mühüm geosiyasi, geoiqtisadi və hərbi-geostrateji əhəmiyyətə malik olan Azərbaycanla mü-

[135] Bax: Rayner Fraytaq-Virminqhaus. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti//"Azerbaijan Focus" jurnalı, №1, 2009-cu il, s. 103

nasibətlərini uzun müddət belə qeyri-müəyyən vəziyyətdə saxlaya bilməz. Odur ki, bir qədər keçməmiş həm səfir məsələsi öz əksini tapdı, həm də Əfqanıstanda ABŞ hərbi kontingentinin təchizatı ilə bağlı, o cümlədən digər regional təhlükəsizlik məsələlərini müzakirə etmək məqsədilə ABŞ-ın müdafiə nazirlərinin Azərbaycana bir neçə səfəri baş tutdu. Bunlardan Pentaqon rəhbəri Robert Qeytsin 2010-cu ildəki səfəri xüsusi əhəmiyyətə malik olmuşdur. Onun Bakıya səfərindən öncə bir sıra Qərb mətbu orqanları ABŞ-ın Azərbaycana marağının azalması haqqında müxtəlif yazılar dərc edirdilər. Əslində bu tip yazılara müəyyən əsaslar da var idi. Belə ki, qeyd etdiyimiz kimi, Vaşinqton uzun müddət idi ki, Bakıya səfir təyin etmək məsələsində tərəddüdlər göstərirdi. Hər iki tərəfdə rəsmi və qeyri-rəsmi səviyyədə biri-birindən narazılıqlar səslənirdi. Kuliminasiya nöqtəsi isə Azərbaycan-ABŞ birgə hərbi təlimlərinin ləğv olunması idi. Pentaqon rəhbərinin bəhs olunan səfəri pozulmaqda olan tərəfdaşlıq münasibətlərinin normallaşmasına ciddi təsir göstərdi. Bakıda yüksək səviyyədə keçirilən görüşlərdə diqqət ona yönəldi ki, ABŞ Azərbaycanla ikitərəfli münasibətlərin normallaşmasında və davam etməsində bundan sonra da maraqlıdır. Bu məsələ bir qədər sonra ABŞ prezidenti Barak Obamanın prezident İlham Əliyevə ünvanladığı məktubda da öz təsdiqini tapdı. Məktubda açıq şəkildə göstərilirdi ki, ABŞ Azərbaycanla bütün sahələrdə strateji tərəfdaşlıq münasibətlərini davam etdirmək fikrindədir. Xüsusən, Azərbaycanı daha çox düşündürən Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsinin ABŞ üçün prioritet təşkil etməsinin qeyd edilməsi mühüm əhəmiyyət daşıyırdı və bir tərəfdaş kimi Ağ evin indiki rəhbərliyinin Azərbaycanın tələbini qəbul etdiyini, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsuliyyətindən yaxasını kənara çəkmədiyini göstərir.

Bu gün etibarlı bir tərəfdaş olaraq öz öhdəliklərini məsuliyyətlə yerinə yetirən Azərbaycan ABŞ-dan müəyyən məsələlər üzrə adekvat addımlar gözləyir və buna onun tam haqqı var. Xüsusən, Bakı rəsmi Vaşinqtondan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində irəliləyiş gözləyir. Bu məsələ elə Dövlət Departamentinə də aiddir. Lakin reallığa gəldikdə, mütəxəssislərin fikrinə görə, ABŞ-ın bəzi strukturları, xüsusən də Dövlət Departamentinin məmurları ikitərəfli münasibətlərin normal səviyyədə saxlanmasına ciddi səy göstərmirlər. ABŞ-ın uzun müddətdir ki, Minsk qrupunun üzvü kimi fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycanın ərazi bütövlüyü məsələsində qətiyyətli mövqe nümayiş etdirməməsi ciddi narahatçılıq yaradır. Həmçinin işğalçı Ermənistana və onun terrorist fəaliyyətinə göz yumması və mütəmadi olaraq həm ona, həm də Dağlıq Qarabağdakı separatçı rejimə hərtərəfli dəstək göstərməsi də strateji tərəfdaş kimi Azərbaycanda narazılıqla qarşılanır. Halbuki, Ermənistan ABŞ-ın prioritet elan etdiyi demokratik ənənələrdən uzaq bir dövlət olmaqla yanaşı, regionda onun mili maraqlarına birbaşa zidd olan fəaliyyəti ilə də diqqəti cəlb edir. Belə ki, Ermənistanın Gömrük İttifaqına qoşulmaqla bağlı cəhdləri, İranla yaxından əməkdaşlığı və s. ABŞ-ın mili maraqlarına birbaşa təhlükədir. Lakin ABŞ bütün bunların müqabilində Ermənistana öz yardımlarının miqdarını getdikcə artırmaqdadır. Əksinə, daim ABŞ-la strateji partnyorluq prinsiplərinə sadiq olan Azərbaycanla münasibətlərdə isə mütəmadi olaraq ciddi səhvlər buraxılır. Artıq ABŞ Dövlət Departamentindəki bir sıra diplomatlar bu məqamlara həssaslıqla yanaşmağın vaxtının çatdığını dərk etməlidir. Çünki ikili standartlar sonda iki mühüm strateji tərəfdaş arasında münasibətlərin pisləşməsinə səbəb ola bilər. Yuxarıda sadalanan faktlardan da görünür ki, Azərbaycanla geosiyasi münasibətlərin qaydasında olması daha çox ABŞ-a lazımdır.

Azərbaycanın NATO ilə hərbi-geostrateji münasibətlərinin xarakteristikası

Azərbaycan 1994-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq", 2008-ci ildənsə "Fərdi tərəfdaşlıq" proqramları çərçivəsində Alyansla və onun ayrı-ayrı üzvləri ilə əməkdaşlıq edir, öz milli ordusunun modernləşdirilməsi və dünya standartlarına çatdırılması işini həyata keçirir. Lakin bütün bunlarla yanaşı, Azərbaycan NATO-nun ayrı-ayrı illərdə Cənubi Qafqaz və Xəzər hövzəsində həyata keçirdiyi "genişlənmə", "möhkəmlənmə" və Rusiyanın təqdir etmədiyi digər siyasi addımlarına, fərqli istək və tələblərinə bir qədər ehtiyatla yanaşaraq, bu sahədə Gürcüstan və Ukraynadan ciddi şəkildə fərqlənmişdir. Məsələn, NATO istəyirdi ki, Cənubi Qafqaz ölkələrinin hər üçü və Ukrayna özlərinin milli və hərbi təhlükəsizlik doktrinalarını qəbul edərək, ordu və müdafiə sənayesini, milli müdafiə siyasətini NATO-nun tələblərinə uyğunlaşdırsın və bu quruma hərbi inteqrasiyanı öz rəsmi strateji kursları kimi bəyan etsin. Lakin Azərbaycan o zaman Gürcüstan və Ukraynadan fərqli olaraq, "NATO-ya üzvlüyü özünün əsas hədəfi və məqsədi kimi" deyil, "ölkənin beynəlxalq və regional təhlükəsizliyini təmin etmək vasitəsi" kimi qəbul etmiş və bu qurumla tərəfdaşlıq münasibətlərinin davam etdirilməsini ona üzvlük məsələsindən daha üstün tutmuşdur.

Bəzi mütəxəssislərin fikrincə, Azərbaycan ötən illərdə bu quruma üzvlüyün mənfi və müsbət tərəflərini dəqiq proqnozlaşdırmadan və Alyansın ölkənin təhlükəsizliyinə gətirəcəyi müsbət və mənfi məqamları dəqiq müəyyənləşdirmədən üzvlük məsələsindən çəkinmişdir. Əslində isə Azərbaycan Gürcüstan və Ukraynanın bu quruma üzv olmaqla bağlı çalışmalarını izləyərək, bir qədər səbirli davranmış və NATO-nun yeni üzvlərlə bağlı öz daxilindəki fikir ayrılığını aradan qaldırmasını gözləmək qərarını vermişdir. 2009-cu ilin aprelində Buxarest-

də Almaniya və Fransanın Gürcüstan və Ukrayna məsələsində nümayiş etdirdiyi fikir ayrılığı Azərbaycanın bu taktikasının doğru olduğunu sübut etdi və hələ də NATO-da postsovet ölkələrinin bu quruma üzvlüyü ilə bağlı vahid mövqenin olmadığını nümayiş etdirdi.

Lakin bütün cəhdlərinə baxmayaraq, indiyə qədər Azərbaycan həm ABŞ və NATO-dan, həm də Rusiya və KTMT-dən Cənubi Qafqazda sabit sülhün yaradılması, işğalçı Ermənistana təzyiq göstərilməsi və Azərbaycanın beynəlxalq hüquqlarının bərpa olunması ilə bağlı gözlədiklərini ala bilməmişdir. NATO başlanğıcdan Azərbaycanın onu Dağlıq Qarabağ münaqişəsinin həllinə cəlb etmək istəyindən boyun qaçırmış və bu münaqişədə öz bitərəfliyini qoruyub saxlamağa üstünlük vermişdir. Bu qurum ən yaxşı halda Cənubi Qafqazda sülh və sabitlik yaradaraq bölgənin təhlükəsizliyinə müsbət təsir göstərə biləcəyini, region ölkələrilə sülh naminə tərəfdaşlıq edə biləcəyini bəyan etmişdir. Hətta Gürcüstan və Ukraynanın bu təşkilata qəbulla bağlı müraciətlərinə də NATO çox ehtiyatla yanaşaraq, onların qəbulunu uzatmağa çalışmışdır.

Azərbaycanın NATO həyata keçirdiyi təhlükəsizlik siyasətinin əsasında ölkənin beynəlxalq və regional təhlükəsizliyinə, ərazi bütövlüyü və suveren dövlət hüquqlarının qorunmasına beynəlxalq təminat almaq, Dağlıq Qarabağ probleminin həllinə, pozulmuş ərazi bütövlüyünün bərpasına, malik olduğu enerji ehtiyatlarının sərbəst istifadəsinə, dünya bazarlarına azad və əlverişli marşrutlarla çıxarılmasına və s. həyati əhəmiyyət kəsb edən milli siyasət məsələlərinə əlavə dəstək qazanmaq vəzifəsi dayanır.

Azərbaycan müstəqilliyə qovuşduqdan sonra beynəlxalq, regional və milli təhlükəsizlik sahəsində MDB, KTMT çərçivəsində Rusiya, Ukrayna, Belarus və b. ölkələrlə əməkdaşlıq etdiyi kimi, 1994-cü ildən "Sülh naminə tərəfdaşlıq", 1998-ci ildən isə "Fərdi tərəfdaşlıq" proqramı vasitəsilə NATO hərbi

bloku və onun ABŞ, Türkiyə və s. üzvləri ilə də əməkdaşlıq edir. Bu əməkdaşlıq həm bütövlükdə bloklar çərçivəsində, həm də müxtəlif ölkələrlə ayrı-ayrılıqda həyata keçirilir və Azərbaycan ordusunun hərbi hazırlığının, döyüş qabiliyyətinin yüksəldilməsi, milli ordunun beynəlxalq standartlara uyğunlaşdırılması, ölkənin quru və su sərhədlərinin, dəniz sahillərinin mühafizəsi sisteminin yaradılması və s. ilə bağlı texniki əməkdaşlığını əhatə edir.

§1.5. Avropa İttifaqının Avrasiya siyasəti və Azərbaycanla geosiyasi münasibətlərinin xarakteristikası

Beynəlxalq münasibətlər sisteminin formalaşmağa başladığı orta əsrlərdən başlayaraq yaşadığımız müasir dövrə qədər Avrasiya bölgəsi həmişə Avropanın böyük dövlətlərinin geosiyasi maraq dairəsinə daxil olmuşdur. Lakin, onlar da əvvəllər regionda Rusiya imperiyasının, sonralarsa SSRİ-nin güclü mövqeyi fonunda ciddi geosiyasi fəaliyyət sərgiləyə bilməmiş və müdaxilə imkanlarından məhrum olmuşlar. Ayrı-ayrı dövrlərdə ingilislərin və türklərin bölgədəki geosiyasi fəaliyyəti istisna olmaqla, Avropa dövlətləri Avrasiyanın ən əhəmiyyətli məkanlarında- Xəzər-Qara dəniz hövzəsi, Orta Asiya və Cənubi Qafqazda heç zaman uzun müddətli zaman kəsiyində möhkəmlənə bilməmişlər. Buna baxmayaraq, avropalılar bölgədəki geosiyasi, geostrateji və geoiqtisadi məqsədlərindən də heç zaman əl çəkməmişlər.

SSRİ-nin süqutundan sonra Avrasiya bölgəsinə ən çox can atan və geosiyasi fəaliyyət göstərən strukturlardan biri məhz köhnə qitə dövlətlərini öz tərkibində birləşdirərək dünyanın aparıcı geosiyasi güc mərkəzi kimi çıxış edən, müasir

dünyada ən nümunəvi iqtisadi, siyasi və sosial birlik modeli kimi çıxış edən Avropa İttifaqı oldu.[136]

Mütəxəssislərin hesablamalara görə, hazırda istehsal olunan ümumdünya məhsulunun 20 faizi və dünya ticarətinin 40 faizi Avropa İttifaqının payına düşür. Aİ getdikcə əmtəə istehsalını və buna müvafiq olaraq dünyadakı iqtisadi-ticarət fəaliyyətini genişləndirərək öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Avronun dövriyyəyə buraxılmasından sonra Aİ-nin iqtisadi qüdrəti daha da artıb. Bu da əlbəttə ki, Aİ-nin dünyanın geosiyasi həyatına müdaxiləsini getdikcə daha da aktuallaşdırır. Hazırda Avropa İttifaqında vahid vergi siyasətinə keçid məsələsi müzakirə olunur. Bundan başqa, Aİ ölkələri vahid daxili və xarici siyasət yürütmək planı üzərində düşünür, ilk dəfə qurum çərçivəsində vahid çoxmillətli hərbi struktur yaradılır və s. Bir sözlə, Aİ yalnız iqtisadi deyil, həm də hərbi-siyasi alyans formasını almağa başlayır. Təhlillər göstərir ki, həm demoqrafik, həm də iqtisadi göstəricilərinə görə, Aİ getdikcə Şimali Amerika Azad Ticarət Zonası birliyini üstələyəcəkdir. Son vaxtlar bir sıra Şərqi Avropa ölkələrini də öz sıralarına qəbul edərək iki dəfə genişlənən bu qurum dünyada

[136] Əgər ötən əsrdə Avropa İttifaqı (Birliyi) dedikdə, Avropa qitəsinin yalnız bir hissəsi nəzərdə tutulurdusa, bu gün faktiki olaraq bütün Avropa bu birliyin tərkibində birləşir. Artıq "Avropa Birliyi"," Avropa İttifaqı" və "Avropa" ifadələri sinonimə çevrilməkdədir. Sovet İttifaqı dağılana qədər Avropa İttifaqı ilə ABŞ geosiyasi ədəbiyyatda ümumilikdə "Qərb" termini ilə ifadə olunaraq, əslində eyni strateji xətt yeridirdi. Avropa İttifaqını bəzən mütəxəssislər hətta, ABŞ-ın siyasi qərarlarını mütləq formada dəstəkləyən, beynəlxalq aləmdə onun "əlavəsi" kimi çıxış edən bir mərkəz kimi də dəyərləndirirdilər. Lakin bugünkü geosiyasi ədəbiyyatda "Qərb" termini artıq bütövlükdə ABŞ və Avropa İttifaqının vəhdətini ifadə etmir. Bu termin altında Birləşmiş Ştatlarının öz, Avropa İttifaqının isə öz məxsusi maraqları ifadə olunur. Müşahidə və təhlillər göstərir ki, son zamanlar bu maraqlar arasında müəyyən ziddiyyətlər daha qabarıq şəkildə üzə çıxmağa başlayır. Avropa İttifaqında vahid valyutanın – avronun dövriyyəyə buraxılması artıq "köhnə qitə"nin amerikalıların siyasi və iqtisadi dominantlığı qarşısında birləşdiyinin ifadəsidir.

gedən proseslərə daha fəal müdaxilə etməyə başlayıb ki, bu da özünü həm də Avrasiyada cərəyan edən proseslərdə göstərir. Avropa İttifaqının dünyada cəlbedici bir modelə çevrilməsi və planetin aparıcı geosiyasi mərkəzlərindən biri kimi çıxış etməsi həm də üzv ölkələrin son onilliklərdəki dinamik inkişafı ilə bağlıdır.

Avropa İttifaqı dünya nizamının SSRİ-nin dağılmasından sonrakı dövrünün geosiyasi reallığından çıxış edərək planetdə yaşanan geosiyasi proseslərdə öz yerini möhkəmləndirmiş və rolunu artırmışdır. Avrasiya məkanında gedən geosiyasi və geoiqtisadi proseslər kontekstindən yanaşdıqda Avropa İttifaqı ilə tərəfdaşlıq əlaqələri bütövlükdə həm region, həm də ayrı-ayrı yerli ölkələr üçün mühüm əhəmiyyət kəsb edir və hər iki tərəfin təşəbbüsü ilə reallaşır. Qeyd edək ki, 1990-cı ilin ikinci yarısından başlayaraq "Avropa ilə Asiya arasında dialoq" adlandırılaraq həyata keçirilən yeni əməkdaşlıq kursu ildən-ilə daha geniş forma alaraq İttifaqla region ölkələri arasında geniş tərəfdaşlıq platformasına çevrilməkdədir.

İttifaq SSRİ-nin dağılmasının ardından- 1992-ci ildən bir çox postsovet ölkələri, o cümlədən Qara dəniz hövzəsi və Cənubi Qafqaz dövlətləri ilə regional əlaqə qurmuş və tərəfdaşlıq münasibətləri yaratmağa çalışmışdır. Onun bəhs olunan dövlətlərlə geosiyasi münasibətləri daha çox iqtisadi-texniki proqramlar - *"Bəzi MDB ölkələrinə texniki yardım" (TACİS), "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizinin yaradılması və inkişafı proqramı" (TRACECA), "Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram" (İNOGATE), "Humanitar yardım" (ECHO) və s.* çərçivəsində inkişaf etdirilmişdir.

1994-cü ildə Avropa İttifaqının təşəbbüsü ilə hazırlanan "Yeni Asiya strategiyası" adlı məruzədə birliyin Avrasiya ölkələri ilə münasibətlərinə dair çoxsaylı yeni ideyalar irəli sürülmüşdü. Bu məruzədə əsas diqqət Asiya-Avropa ümumi iqtisadi-ticarət bazarının formalaşdırılması yollarının tapılması,

Avrasiya ölkələrinin iqtisadiyyatının və daxili bazarlarının liberallaşdırılması, bu məkandakı mövcud makro-iqtisadi siyasətin koordinasiya edilməsi kimi sahələrə yönəldilmiş, qitələrarası nəqliyyat-kommunikasiya əlaqələrinin genişləndirilməsi layihəsi vacib hesab edilmişdir.

1996-cı ildən bu istiqamətdə Avropa Birliyi ilə Avrasiyanın yerli ölkələrinin liderləri arasında başlanmış dialoq sonradan iki qitənin iqtisadi-ticarət əlaqələrinin inkişafına ciddi təkan vermişdir.

İttifaqının Avrasiya siyasətində *Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsi* xüsusi önəm daşıyır. Tədqiqatçılar İttifaqın bu məkanda reallaşdırdığı regional geosiyasətinin bir sıra fərqli xüsusiyyətlərini qeyd edirlər. Bu xüsusiyyətlər bir tərəfdən, əlbəttə, Aİ-nin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsindəki regional proseslərə can atmasının məqsəd və məramı ilə izah olunursa, digər tərəfi həmin proseslərin mahiyyətindən, region ölkələrinin yürütdüyü siyasətin xarakterindən yaranır. Mütəxəssislərin fikrinə görə, ABŞ və NATO-dan fərqli olaraq, Aİ-nin Xəzər regionu və Cənubi Qafqazdakı geosiyasi maraqlarına daha çox region ölkələri ilə iqtisadi, siyasi və sosial münasibətlər yaradaraq onların idarəçilik sistemləri, ictimai-siyasi dairələr və cəmiyyətlər üzərində müəyyən təsir qazanmaq, bölgənin zəngin karbohidrogen yataqlarına yol tapmaq, onların birgə işlənməsi və Avropaya ixracına nail olmaq, Qərbin getdikcə artan enerji, nəqliyyat-dəhliz və sərbəst ticarət təhlükəsizliyi məsələlərində regionun imkanlarından istifadə etmək və s. daxil idi. Avropanın enerji, nəqliyyat-dəhliz təhlükəsizliyi məsələsi isə bu siyasətin prioritet istiqamətini təşkil edirdi.

Məlumdur ki, Aİ-nin regionda öz geosiyasi və geoiqtisadi maraqları olduğu kimi, yerli ölkələrin də İttifaqla əməkdaşlıqda öz maraqları mövcud idi. Məsələn, Aİ öz qlobal və transmilli sənayesi üçün bölgədə yeni-yeni xammal mənbələri, satış

bazarları və ixrac-idxal marşurutları axtarırdısa, Azərbaycan və Gürcüstan kimi Cənubi Qafqaz ölkələri Avropa İttifaqını bölgədə yaşanan dövlətlərarası münaqişələrin həlli prosesinə cəlb etməyə, ittifaqın maliyyə-texniki imkanlarından bölgə iqtisadiyyatının inkişafı, Avropa ilə Asiyanı birləşdirən yeni nəqliyyat-kommunikasiya sisteminin yaradılması və s. istiqamətlərdə bəhrələnməyə çalışırdı.

Müşahidələr göstərir ki, 90-cı illərin ortalarında Avropa İttifaqı region üçün nəzərdə tutduğu transmilli iqtisadi layihələrin yalnız yerli münaqişələrin həllindən sonra reallaşmasını mümkün sayırdısa, bölgədəki münaqişələrin həllini gözləməyə və sonradan bərpa prosesində və iqtisadi inteqrasiyada yaxından iştirak etməyə hazırlaşırdısa, az sonra ittifaqı təmsil edən strukturlar həm öz transmilli iqtisadi layihələrini reallaşdırmağa başlayır, həm də münaqişələrin nizamlanması prosesində birbaşa iştirak etmək təşəbbüsü göstərirlər. Xüsusilə, Dağlıq Qarabağ probleminin həlli istiqamətində Avropa İttifaqının daxilində məsləhətləşmələrin intensivləşməsi hiss olunmağa başlayır. Digər tərəfdən, Avropa İttifaqı Türkiyənin Ermənistanla münasibətlərinin nizamlamasına nail olmağa çalışır və s.

Avropa İttifaqının Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz regionundakı geosiyasətinə mane olan bir sıra ciddi məqamlar da vardır. Məsələn, ABŞ-dan fərqli olaraq bu qurum Cənubi Qafqazın yerli ölkələri ilə ayrı-ayrılıqla deyil, bütövlükdə regional əməkdaşlıq siyasəti yürüdür. Regiondakı 3 dövlətin fərqli geosiyasi maraqlardan çıxış etdiyini nəzərə alsaq, Avropa İttifaqının mövcud təşəbbüsü bu gün üçün o qədər də real görünmür.

Mütəxəssislərin fikrinə görə, Avropa İttifaqının Avrasiya regionuna marağı ötən əsrin 90-cı illərinin əvvəllərindən yaransa da, bölgədə aktivliyi əsasən üçüncü minilliyin başlanğıcından sonraya təsadüf edir. Mütəxəssislər bunu Avropa İttifaqının genişlənməsi, Şərqi Avropanın bu quruma qoşulmasın-

dan sonra Cənubi Qafqazın və Xəzər dənizi hövzəsinin vahid Avropanın sərhədlərinə bir qədər də yaxınlaşması və s. səbəblərlə izah edirlər. Məlumdur ki, öz sərhədləri yaxınlığında hər hansı qeyri-sabitliyin mövcudluğu Avropa İttifaqı üçün də ciddi təhlükə mənbəyi yarada bilər. Buna görə, Avropa İttifaqı ölkələrinin rəsmiləri bəyan edirlər ki, bölgədə maraqları olan digər güc mərkəzlərindən fərqli olaraq, ittifaq strukturları regionda təkcə geosiyasi maraqlar güdmür, həm də sabitliyin bərqərar olması yollarını axtarır. Onlar Gürcüstan, Azərbaycan, Ermənistanın və digər postsovet ölkələrinin də «Yeni qonşuluq» proqramına cəlb olunmasını, məhz bu amillə izah edirlər.

Mütəxəssislər Avropa İttifaqının Cənubi Qafqazdakı münaqişə ocaqlarına son zamanlar diqqəti bir qədər artırmasını da yuxarıda göstərilən tendensiyanın tərkib hissəsi kimi qiymətləndirirlər. Onların fikrinə görə, indiyədək digər güc mərkəzlərinin regiondakı qeyri-sabitlik mənbəyi olan etnik münaqişələri həll etmək cəhdlərinin uğursuz olduğunu nəzərə almaqla, Avropa İttifaqının bu sahədəki fəallığını yeni minillikdə qurumun bölgə maraqlarının daha qabarıq təzahürü kimi dəyərləndirmək olar.

1999-cu ilin oktyabrında Avropa İttifaqı *«Cənub-Şərqi Avropada sabitlik paktı»* adlı sənəd qəbul etmişdir. Bu sənəd keçmiş Yuqoslaviya ərazisindəki münaqişələrin nəticələrinin aradan qaldırılmasını nəzərdə tuturdu. Elə o zaman Avropa İttifaqının aparıcı üzvü olan Almaniyanın Xarici İşlər Nazirliyi Qafqaz üçün də analoji institutun formalaşdırılması təşəbbüsünü irəli sürdü. O vaxtdan *«Qafqaz paktı»* ideyası fəal müzakirə obyektinə çevrilib. 2000-ci ildə Belçikada fəaliyyət göstərən Avropa Siyasi Təhqiqatlar Mərkəzi *«Qafqazda sabitliyə dair pakt»* adlı layihə hazırlayıb. Bu sənəd Cənubi Qafqazın gələcəkdə Avropa İttifaqına inteqrasiyasına dair analitik təhlildir

və əsas diqqət ilk növbədə regional münaqişələrin dinc yolla həllinə və sabitliyin təmin olunmasına yönəlmişdir.

Aİ-nin yeni müstəqil dövlətlərə dəstək çərçivəsində reallaşdırdığı çoxsaylı təşəbbüslər, onların çərçivəsində həyata keçirdiyi tədbirlər, göstərdiyi maliyyə-texniki yardımlar və s. zəngin təbii ehtiyatlara və strateji coğrafi əraziyə malik olan Cənubi Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa ölkələrinin regional və milli təhlükəsizliyinin qorunmasına, enerji təminatının və tranzit potensialının səmərəli istifadəsinə yönəlmiş fəaliyyətin dəstəklənməsinə, bu sahədə geniş istifadə olunan infrastrukturların yenidən qurularaq genişləndirilməsinə müsbət təsir göstərmişdir. Bu proqramların nəticəsində Avropadan Qara dəniz və Cənubi Qafqaz vasitəsilə Mərkəzi Asiyaya və əks istiqamətdə yeni, daha müstəqil, təhlükəsiz və səmərəli nəqliyyat-kommunikasiya, enerji ixracı dəhlizi və s. yaradıldı. Həm bu layihələr, həm də AB-nin 2000-ci ildən bölgədə reallaşdırdığı "Qonşuluq siyasəti" və 2008-ci ildən həyata keçirdiyi "Şərq tərəfdaşlığı" proqramı beynəlxalq və regional təhlükəsizliyin təmin olunmasına müəyyən təsir göstərmiş və indi də öz təsirini davam etdirir.

İttifaq son dövrlərdə "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində bölgənin 6 yerli ölkəsi ilə həm çoxtərəfli əlaqələrin genişləndirilməsi yönündə öz səylərini artırmış, həm də üzv ölkələr vasitəsilə regionun ucuz enerji resurslarının əldə olunması, yerli bazarlara mal ixrac edilməsində və digər məsələlərdə ikitərəfli fəaliyyətini genişləndirmişdir. Aİ regionda sabitliyin təmin olunmasında, demokratiyanın, bazar iqtisadiyyatı sisteminin inkişafında və s. xüsusi maraq nümayiş etdirir və Şərq-Qərb əlaqələrinin qurulmasına və inkişafına mütəmadi dəstək verir, bu sahəyə maliyyə vəsaiti yönəldir. İttifaqı təmsil edən böyük transmilli korporasiyalar bölgədə bütün geoiqtisadi layihələrdə yaxından iştirak edirlər. Ümumiyyətlə, Avropa İttifaqı inkişaf etməkdə olan ölkələrdə donor rolunu oynayır və bu

dövlətlərə əsasən texniki-maliyyə və humanitar yardımlar ayırır. Hazırda inkişaf etməkdə olan ölkələrdə reallaşan layihələrin 10 faizindən çoxunu məhz Avropa İttifaqı maliyyələşdirir. Avropa İttifaqı ticarət və istehsalat, sosial təminat, nəqliyyat, yeyinti resursları, kənd təsərrüfatı, idarəçilik orqanları və hüquq normalarının qorunması sahələrinə xüsusi diqqət yetirir, yoxsulluğun azaldılmasına böyük önəm verir. İqtisadi layihələrdən kənarda isə əsas prioritet insan haqlarının qorunması və münaqişəli vəziyyətlərin həlli məsələsidir.

Aİ Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsinin hərbi-geostrateji həyatında və regional təhlükəsizliyində də mühüm rol oynamağa cəhd göstərir. Birliyin aparıcı üzvləri ABŞ-ın təşəbbüsü ilə 1993-cü ildən başlayaraq Cənubi Qafqazda və Avrasiyada yenicə müstəqillik əldə etmiş Azərbaycan, Gürcüstan və Ukrayna kimi ölkələrin müstəqilliyinin və milli təhlükəsizliyinin təminatının yaxşılaşdırılmasına, geosiyasi mövqelərinin möhkəmlənməsinə müəyyən dəstək vermişlər. Mütəxəssislərin fikrincə, Xəzərin karbohidrogen ehtiyatlarının istismarı və dünya bazarlarına nəqli ilə bağlı Azərbaycan, Gürcüstan, Türkiyə, ABŞ və Avropa Birliyinin eyni mövqedən çıxış etməsi onlar arasında bir çox sahələrdə, o cümlədən regional təhlükəsizlik sahəsində strateji tərəfdaşlıq münasibətlərinin yaranmasını şərtləndirmişdir. Bu tərəfdaşlığın nəticəsində BTC və BTƏ kimi layihələrin həyata keçməsi və təhlükəsizliyinin təmin edilməsi mümkün olmuşdur. Lakin Avropa Birliyi başqa sahələrdə olduğu kimi, Cənubi Qafqazın təhlükəsizliyi məsələsində də *əsas diqqətini hər hansı bir bölgə ölkəsinin konkret regional və beynəlxalq təhlükəsizliyinin təmin edilməsinə deyil, hər üç ölkə ilə tərəfdaşlıq münasibəti quraraq, əslində Birliyin məxsusi iqtisadi və təhlükəsizlik maraqlarının təmin edilməsinə yönəldir. Bu maraqlar regional sabitlik, enerji-nəqliyyat və kommunikasiyaların beynəlxalq təhlükəsizliyinin, Xəzər-Qara dəniz hövzəsinə Qərb ölkələrinin Rusiya iradəsindən asılı*

olmayan sərbəst çıxışının təmin edilməsi üzərində qurulmuşdur.

Aİ-nin enerji təhlükəsizliyi siyasətində Azərbaycan, Gürcüstan və bəzi Orta Asiya ölkələrinin, Rumıniya, Türkiyə, Yunanıstan, İtaliya və b. Avropa dövlətlərinin iştirakı ilə reallaşdırmağa hazırlaşdığı Cənub neft və qaz ixracı marşurutları çərçivəsində- TAP, TANAP və s. kimi layihələr mühüm yer tutur. Bu kəmərlər vasitəsilə Xəzər hövzəsindən "Şahdəniz 2" layihəsi çərçivəsində istehsal olunacaq təbii qazın Azərbaycan və Türkiyə vasitəsilə İtaliya və Yunanıstana, oradan da digər Avropa ölkələrinə çatdırılması nəzərdə tutulur. ABŞ tərəfindən də dəstəklənən TAP, TANAP kimi layihələr Rusiyanın qaz asılılığından xilas olması və idxal mənbələrinin şaxələndirilməsi strategiyasının tərkib hissəsidir. Bəhs olunan istiqəmətdə gələcəkdə Azərbaycan qazı ilə bərabər, ikinci əsas mənbə kimi Türkmənistan qazının tədarük edilməsi də nəzərdə tutulur ki, bunun da reallaşması daha çoz Transxəzər qaz xəttinin çəkilməsindən asılıdır. Transxəzər qaz kəmərinin çəkilişi bu gün üçün daha çox Xəzərin hüquqi statusu ilə əlaqələndirilir ki, onun da həlli getdikcə uzanır.

Avropa İttifaqının bölgədəki geosiyasi və təhlükəsizlik maraqları yalnız öz sərhədləri yaxınlığında sabitliyin qorunub saxlanması ilə yekunlaşmır. Avropa ölkələri bunu açıq bəyan etməsə də, köhnə qitənin Xəzər regionuna *potensial enerji dayağı* kontekstindən yanaşdığı şübhə doğurmur. Xüsusilə, Avropa İttifaqı ilə ABŞ arasındakı ziddiyyətlərin getdikcə artdığı bir vaxtda, bəzi ekspertlər müvafiq analogiya da aparırlar: *Fars körfəzi ABŞ iqtisadiyyatı üçün əsas enerji mənbəyi rolunu oynadığı kimi, Xəzər hövzəsi də Avropa üçün analoji funksiyanı icra edə bilər.* Amma mütəxəssislərin fikrinə görə, ABŞ-dan fərqli olaraq, Avropa İttifaqının bu məqsədə nail olması heç də asan olmayacaqdır. Çünki:

əvvəla, ABŞ-dan fərqli olaraq, Avropa İttifaqı bu regionun təhlükəsizliyinə görə hərbi-siyasi məsuliyyət daşımaq istəmir. Bu isə Avropanın bölgədəki hadisələrə fəal müdaxilə etmək şanslarını xeyli azaldır;

ikincisi, Avropa İttifaqı hələlik yekcins güc mərkəzinə çevrilə bilməyib. Buradakı bir sıra dövlətlərin dünyadakı qlobal proseslərə fərqli mövqedən yanaşması Avropa İttifaqının vahid geostrategiyasının formalaşdırılmasına mane olur və nəticədə, Avropa geosiyasi mərkəz kimi ABŞ və ya Rusiyaya real alternativ kimi çıxış etməkdə çətinlik çəkir;

üçüncüsü, İraq probleminə yanaşmada Almaniya ilə Fransanın tutduğu mövqe Avropa İttifaqında vahid geostrategiyanın formalaşmaq üzrə olduğunu nümayiş etdirsə də, vahid Avropa Konstitusiyası ətrafında cərəyan edən proseslər, bunun tam əksini sübut etdi. Məlum oldu ki, bu gün Avropa hələlik öz gələcəyinə dair yekdil rəyə gələ bilməyib;

dördüncüsü, Xəzər hövzəsindəki enerji layihələrində ən fəal iştirak edən Avropa dövləti Böyük Britaniyadır. Bu dövlətin regiondakı geostrategiyası isə Avropa İttifaqının deyil, ABŞ-ın mövqelərinin möhkəmlənməsinə yönəlib və s.

Bütün bunları nəzərə alsaq, Avropa İttifaqının regiondakı geosiyasətinin ilk növbədə iqtisadi-sosial layihələr ətrafında cəmlənəcəyini düşünmək olar. Beynəlxalq terrorizmlə mübarizə, bölgədə regional təhlükəsizlik sisteminin yaradılması, etnik münaqişələrin həlli və s. qlobal əhəmiyyətli sahələrə gəldikdə, ABŞ bu istiqamətdə daha fəal görünür. Bəzi Avropa ölkələri ABŞ-ın Avrasiyadakı artan nüfuzu qarşısında müəyyən narahatlıq keçirsələr də, Aİ bölgədə öz təsirini artırmaq üçün hələ ki, konkret təklif irəli sürə və vahid strategiyadan çıxış edə bilmir. Çünki üzv dövlətlərin fərqli maraqları və baxışları ittifaqa yekdil mövqedən çıxış etmək imkanı vermir. Bununla belə, artıq Aİ-nin aparıcı dövlətləri olan Fransa ilə Almaniya

təşkilatın Avrasiya və ümumilikdə dünyadakı geosiyasi mövqeyinin hansı önəm daşıdığını dərk edir.

Aİ-nin Cənubi Qafqaz və Xəzər hövzəsində həyata keçirdiyi regional geosiyasəti dəyərləndirən bir çox mütəxəssislər hesab edir ki, geoiqtisadi fəaliyyət istisna olmaqla, *Aİ-nin bölgədə indiyə qədər həyata keçirdiyi ümumi regional geosiyasət hələ ki, gözlənilən səmərəni verməmiş, region ölkələrini Birliyin etibarlı əhatəsinə, vahid tərəfdaşlıq sisteminə daxil edərək ciddi müttəfiqinə çevirə bilməmişdir.*

Avropa İttifaqının Avrasiya siyasətində Azərbaycanın rolu və yeri

Avropa İttifaqı ilə Azərbaycan arasındakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji münasibətlərə gəldikdə qeyd etməliyik ki, İttifaqın Azərbaycanla bağlı nümayiş etdirdiyi siyasət onun Xəzər regionu və Cənubi Qafqazda yürütdüyü ümumi siyasət çərçivəsində reallaşdırılır və üzv ölkələrin maraqlarına uyğunlaşdırılmış vahid geosiyasət əsasında aparılır. Aİ-nin Cənubi Qafqaz və Xəzər geosiyasətinin əsas prinsipləri 1990-cı ildə qəbul olunmuş ATƏT-in Paris Xartiyasında öz əksini tapmışdır. Bu sənəddə Cənubi Qafqaz və Azərbaycan Avrasiyanın, Qara və Xəzər dənizləri hövzəsinin əhəmiyyətli bir məkanı kimi qiymətləndirilmiş və birliyin xarici siyasət strategiyasında «ümumavropa maraqları» çərçivəsinə daxil edilmişdir.

Avropa İttifaqının birbaşa Azərbaycanla əməkdaşlığı ölkəmizin müstəqillik elan etməsindən dərhal sonra- 1991-ci ildən başlayıb. Bu qurumun Azərbaycanı əhatə edən ilk iri layihəsi 1992-ci ildə qəbul olunan TASİS layihəsi olmuşdur. 1992-ci ildən etibarən Azərbaycan və digər MDB ölkələrində həyata keçirilən fərqli iqtisadi, nəqliyyat-kommunikasiya proqramları çərçivəsində Aİ regionda 4 milyard avrodan artıq vəsait xərcləmişdir. Təkcə 1994-97-ci illərdə TASİS proqramı xətti ilə

Azərbaycanda enerji sistemi, nəqliyyat infrastrukturu və telekommunikasiyaların inkişafına 30 milyon avrodan artıq vəsait sərf edilib. Qeyd edək ki, bu layihə çərçivəsində əməkdaşlıq həm Avropa İttifaqının, həm də Azərbaycanın maraqlarına cavab verir. TASİS-in əsas layihələrindən biri 13 dövləti birləşdirən TRASEKA layihəsidir.[137]

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında münasibətlərin hüquqi əsası 1996-cı il aprelin 22-də Lüksemburqda imzalanmış «Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında" Saziş ilə qoyulmuşdur. Saziş onu imzalamış bütün dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra 1999-cu il iyulun 1-də qüvvəyə minmişdir. İttifaqla Azərbaycan arasında bir sıra digər mühüm müqavilələr, ikitərəfli əməkdaşlığa dair sazişlər və s. imzalanmışdır. [139] Bu sənədlər qurumla Azərbaycan arasında siyasi, iqtisadi və mədəni məsələlərə dair ikitərəfli dialoqun aparılması üçün hərtərəfli zəmin yaratmışdır.

Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi Azərbaycanla Avropa Ittifaqı, onun üzv dövlətləri arasında ticarət, investisiya, iqtisadi qanunvericilik və mədəni əməkdaşlıq, immiqrasiya, qeyriqanuni ticarətin qarşısının alınması və digər sahələrdə münasibətləri əhatə edən ümumi sənəddir. Sazişə əsasən, Azərbaycanla Avropa İttifaqı arasında ikitərəfli mütəmadi dialoqun aparılması məqsədilə Əməkdaşlıq Şurası, Əməkdaşlıq Komitəsi, Parlamentlərarası Əməkdaşlıq Komitəsi, Ticarət, İqtisadiyyat və Hüquqi Məsələlər üzrə Alt-komitə, Enerji, Nəqliyyat və Ətraf Mühit Məsələləri üzrə Alt-komitə kimi strukturlar yaradılmalıdır. Əməkdaşlıq Şurası əməkdaşlığın əsas istiqamətlərini müəyyənləşdirir, Əməkdaşlıq Komitəsi isə Şuraya tövsiyələr verməklə ona yardım edir. Ticarət, İqtisadi və Hüquqi Mə-

[137] Bu layihələr haqda daha ətraflı məlumatlar növbəti fəsillərdə öz əksini tapmışdır.

sələlər, həmçinin Enerji, Nəqliyyat və Ətraf Mühit Məsələləri üzrə Alt-komitələr Əməkdaşlıq Komitəsinin nəzdində fəaliyyət göstərirlər.

Sazişdə siyasi inkişaf, demokratiya və insan haqlarının qorunmasına aid müddəalar üstünlük təşkil etsə də, ümumilikdə Avropa İttifaqı Azərbaycanla əlaqələrdə əsas prioriteti iqtisadi sahəyə verdiyini gizlətmir. Bu saziş çərçivəsində indiyədək ikitərəfli əlaqələrə dair 3 layihə- TASİS-in texniki yardım layihəsi, TRASEKA regional layihəsi və İNOGTE hazırlanıb.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Aİ Azərbaycanın enerji istehsalına, milli iqtisadiyyatının fərqli sahələrinə yardım göstərən və kapital yatıran əsas donorlardan biri olmuşdur. Aİ Azərbaycanla çoxtərəfli əlaqələri, xüsusən də, enerji, nəqliyyat və iqtisadi təhlükəsizlik sahəsində transmilli və regional əməkdaşlığı inkişaf etdirməyə daim maraq göstərmişdir. 1992-2003-cü illər ərzində İttifaq xətti ilə Azərbaycana 400 milyon avroya yaxın yardım göstərilmiş və bu istiqamətdə 150-dən artıq fərdi layihə reallaşdırıb. Bu müddət ərzində Aİ ilə münasibətlər "MDB ölkələrinə texniki yardım" (TACIS), "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRACECA)[138], "Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram" (INOGATE)[139]. "Humanitar yardım" (ECHO) və

[138] «Yeni İpək Yolu» adlandırılan TRACECA proqramı Mərkəzi Asiya, Qafqaz və Avropa ölkələri arasında nəqliyyat əlaqələrini inkişaf etdirən proqramdır. TRACECA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) 1993-cü il mayın 3-də Brüsseldə keçirilmiş 8 təsisçi dövlətin (5 Mərkəzi Asiya və 3 Cənubi Qafqaz ölkələri) ticarət və nəqliyyat nazirlərinin konfransında təsis olunmuşdur. Proqramın məqsədi qeyd edilən dövlətlərin siyasi və iqtisadi müstəqilliyini dəstəkləməklə onların alternativ nəqliyyat yolları vasitəsilə Avropa və dünya bazarlarına çıxış qabiliyyətini yüksəltmək, Avropadan Qara Dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya, həmçinin əks istiqamətdə ən tez və ucuz nəqliyyat dəhlizinin yaradılmasından ibarətdir.

[139] INOGATE (Avropaya dövlətlərarası neft və qazın ixracı) Aİ-nin yeni müstəqil dövlətlərə maliyyə dəstəyi çərçivəsində həyata keçirilən əsas regional

digər proqramlar çərçivəsində inkişaf etdirilmişdir. [140] Qeyd edək ki, Qafqaz və Orta Asiyanın postsovet ölkələri arasında bu qurumdan ən çox yardım alan dövlətlərdən biri məhz Azərbaycandır.

2004-cü ildən Avropa İttifaqı ilə Azərbaycan arasında Energetika və Nəqliyyat Komitəsi fəaliyyət göstərir. Həmçinin, Avropa İttifaqı tərəfindən Azərbaycanda «Ərzaq təhlükəsizliyi layihəsi», ANAMA – ərazilərin minalardan təmizlənməsi və digər böyük layihələr həyata keçirilir.

Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın yeni mərhələyə daxil olması 2004-cü ildən "Avropa Qonşuluq Siyasəti" Proqramı ilə başlamışdır. Aİ Şurasının 2004-cü il 14 iyun tarixli qərarı ilə Azərbaycan da bir çox postsovet ölkələri kimi "Avropa qonşuluq siyasəti" proqramına daxil edilmişdir ki, bu da ikitərəfli və çoxtərəfli münasibətlərin tərəfdaşlıq istiqamətində inkişafına müsbət təsir göstərmişdir. Bu siyasət çərçivəsində Aİ üzvü olan dövlətlərlə Azərbaycan arasında hazırda güzəştli ticarət əlaqələri, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə, investisiyaların cəlb edilməsi və digər sahələr üzrə əməkdaşlıq münasibətləri yaradılır. Mütəxəssislərin fikrinə görə, Azərbaycanın Xəzər hövzəsi və Cənubi Qafqazdakı geosiyasi və geoiqtisadi nüfuzunun möhkəmlənməsinə, müvəffəqiyyətli transmilli enerji

---

təşəbbüslərdən biridir. 1999-cu ilin iyul ayında 15 dövlətin (Azərbaycan Respublikası da daxil olmaqla) iştirakı ilə imzalanan dövlətlərarası neft və qaz ixracını nəzərdə tutan Çərçivə Sazişi INOGATE-in hüquqi bünövrəsini təşkil edir. Aİ Avropa Qonşuluq Siyasətinə daxil olan ölkələrlə birlikdə bütün maraqlı tərəfdaşların dəstəyi əsasında enerji sahəsində əməkdaşlığı genişləndirməkdədir. Bu əməkdaşlıq "Bakı Prosesi" ilə güclənmişdir. "Bakı Prosesi" (və ya "Bakı Təşəbbüsü") 2004-cü il noyabrın 13-də Bakıda enerji nazirliklərinin konfransında Aİ, Qara Dəniz və Xəzər dənizi hövzəsi ölkələri arasında enerji sahəsində əməkdaşlığı gücləndirmək məqsədi daşıyan siyasi dialoq şəklində başlamışdır.

[140] http://www.mfa.gov.az

və nəqliyyat-dəhliz siyasəti yürütməsinə Avropa Birliyi ilə səmərəli əməkdaşlığına və tərəfdaşlığına mühüm təsiri olmuşdur.

Avropa Qonşuluq Siyasəti Azərbaycan üçün aşağıdakı perspektivlər yaratmışdır:

- siyasi, iqtisadi və inzibati islahatların həyata keçirilməsi və birgə dəyərlərə hörmət edilməsi sahəsində konkret irəliləyişə nail olunması müqabilində Aİ-nin daxili bazarında müəyyən paya sahib olmaq imkanı;
- əmtəələrin, xidmətlərin və kapitalın sərbəst dövriyyəsini təmin etmək üçün inteqrasiya və liberallaşma proseslərində iştirak;
- Avropa İttifaqının üzvü olan ölkələrlə daha səmərəli siyasi dialoq və əməkdaşlıq, güzəştli ticarət əlaqələri və açıq bazar, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq, sərmayələrin təşviqi, yeni maliyyə mənbələrinin əldə edilməsi, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzv olmasının dəstəklənməsi və s.

Avropa Qonşuluq Siyasətinin əsas mexanizmini ikitərəfli qaydada razılaşdırılan Avropa Qonşuluq Siyasətinin Fəaliyyət Planı təşkil edir. Bu sənəd 2006-cı il noyabrın 14-də Brüsseldə Azərbaycan Respublikası-Avropa İttifaqı Əməkdaşlıq Şurasının iclasında qəbul edilmişdir. Sənəddə iqtisadi və siyasi islahatlar, onların həyata keçirilməsi istiqamətdə atılacaq konkret addımlar müəyyənləşdirilmişdir.

Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin prioritet istiqamətlərindən birini enerji sahəsində əməkdaşlıq təşkil edir. 2006-cı il noyabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Brüsselə səfəri zamanı imzalanmış "Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" Azərbaycanla Avropa İttifaqı arasında enerji məsələlərinə dair dialoqun genişləndirilməsi yönündə yeni imkanlar yaratmışdır. Bu

Memorandumun əsas məqsədləri sırasında Aİ-nin enerji təchizatının şaxələndirilməsi və təhlükəsizliyi, həmçinin Azərbaycanın enerji infrastrukturunun inkişafı və müasirləşdirilməsi, enerjidən səmərəli istifadə, enerjiyə qənaət və bərpa olunan enerji mənbələrinin istifadəsi kimi məsələlər mühüm yer tutur. Mütəxəssislərin fikrinə görə, Aİ bu sənədi imzalamaqla özünün Mərkəzi Asiya enerji strategiyasında yeni mərhələnin əsasını qoydu və Azərbaycanla münasibətlərin dərinləşməsinə əlavə təkan verdi.

2009-cu il mayın 7-də Praqada Avropa İttifaqının keçmiş SSRİ-nin 6 ölkəsi- Ukrayna, Moldova, Belarus, Gürcüstan, Azərbaycan, Ermənistan ilə yeni əməkdaşlıq layihəsi «Şərq Tərəfdaşlığı» Proqramının təqdimatı üzrə Sammit keçirilmişdir. «Şərq Tərəfdaşlığı» Proqramı Aİ-nin 2004-cü ildə qəbul etdiyi «Avropa Qonşuluq Siyasəti» Proqramının yeni mərhələsidir. Bu proqramın əsas məqsədlərini iqtisadi əməkdaşlıq, demokratiyanın inkişafı, viza rejiminin sadələşdirilməsi və s. təşkil edir.

Praqa Sammitində Azərbaycan, Gürcüstan Ermənistan və Ukraynanın prezidentləri iştirak etmiş, Moldova və Belarus dövlətləri isə baş nazirlərin müavinləri səviyyəsində təmsil olunmuşdur. 2011-ci il sentyabrın 30-da Azərbaycan Prezidenti İlham Əliyev İttifaqın Varşavada keçirilən "Şərq tərəfdaşlığı" Sammitində iştirak etmişdir. Sammitin keçirilməsində əsas məqsəd "Şərq tərəfdaşlığı" ölkələrinin Avropaya inteqrasiyasının sürətləndirilməsi və qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi olmuşdur.

27-28 dekabr 2013-cü ildə Aİ-nin "Şərq tərəfdaşlığı" proqramının icra vəziyyəti və gələcək vəzifələrinə həsr olunmuş növbəti sayca üçüncü Sammiti Vilnüsdə keçirilmişdir. Sammitdə AB üzvlərinin və "Şərq tərəfdaşlığı" proqramının iştirakçısı olan ölkələrin rəhbərləri və digər rəsmi şəxsləri, iqtisadi və biznes strukturlarının nümayəndələri iştirak etmişlər.

AB-nin genişlənmə və Avropa qonşuluq siyasəti üzrə komissarı Ştefan Füle öz çıxışında bəyan etmişdir ki, Vilnüs sammiti "Şərq tərəfdaşlığı" proqramının inkişafında vacib addım olacaq. O, proqramın yaradılmasından keçən üç il ərzində-2010-2013-cü illərdə Avropa Komissiyasının tərəfdaş ölkələrdə regional və ikitərəfli proqramlar çərçivəsində 2,5 milyard avro miqdarında qrantlar ayırdığını, Avropa maliyyə institutlarından isə əlavə olaraq 4,1 milyard avro vəsait cəlb olunduğunu söyləmişdir. Ş.Fülenin fikrinə görə, ötən əsrin 90-cı illərində bu cür saziş imzalamış ölkələrdə Ümumi Daxili Məhsulun əhalinin sayına nisbətində artım həcmi 57%, yatırımlar 61%, ixrac məhsulları isə müvafiq olaraq 65% artıb. Assosiasiya sazişinin imzalanması, onun fikrinə görə, tərəfdaş ölkələrə böyük transformasiya üstünlükləri gətirəcək.[141]

Sammit ərəfəsində Azərbaycan XİN-in müavini A.Əzimov mövcud proqram çərçivəsində İttifaqla ikitərəfli əməkdaşlıq münasibətlərindən narazılıq ifadə edərək bəyan etmişdir ki, „Şərq tərəfdaşlığı" proqramı lap əvvəldən qeyri-müəyyən, rəsmi şəkilə salınmamış coğrafi, siyasi və iqtisadi çərçivəyə malik olmuşdur. Bu proqram çərçivəsində sadəcə, postsovet respublikalardan biri kimi seçilməyimizi doğru hesab etmirik. Çünki proqrama cəlb olunan ölkələr qrupunda müxtəlif imkan, resurs, start mövqeyi və məqsədlərə malik dövlətlər vardır. Ona görə də bizi hansısa ümumi çərçivəyə salmaq o qədər də doğru qərar deyildi. A.Əzimov bildirmişdir ki, Azərbaycan hesab edir ki, Avropa İttifaqı ilə münasibətlər ümumi regional yanaşmaya əsaslanmamalıdır. Biz Azərbaycana bir tərəfdaş kimi həmişə Avropa İttifaqından daha əsaslı münasibət gözləmişik. Digər sahələrdə də bizim münasibətlərimiz 2006-cı ildə İttifaqla imzaladığımız enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun müəyyən etdiyi genişləndirilmiş dialoq səviyyəsində olmalıdır. Xüsusən, nəzərə al-

[141] Bax: "Yeni Musavat" qəzeti, №317. 29.11.2013.s.9.

saq ki, enerji tətəfdaşlığı sahəsində belə bir təcrübə mövcuddur. Həmin təcrübəni iqtisadiyyat, nəqliyyat-kommunikasiya, tranzit, mədəni-informasiya və s. də daxil olmaqla, daha geniş sahələrə yaymaq olar. [142]

Hazırda Avropa İttifaqı Rusiyanın bütün səylərinə baxmayaraq, altı keçmiş sovet respublikasının- Ukrayna, Belarus, Azərbaycan, Gürcüstan, Moldova və Ermənistanın "Şərq tərəfdaşlığı" proqramı üzrə Avropaya inteqrasiyasının sürətləndirilməsi və qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi siyasətinə xüsusi diqqət yönəldir. Bu işə İttifaqın nə qədər ciddi önəm verdiyini qurumun əsas hərəkətverici qüvvəsi hesab olunan iki böyük Avropa dövləti rəhbərinin- Almaniyanın federal kansleri A. Merkelin və Fransa prezidenti F. Olandın 2013-cü prezident seçkilərində qələbə çalması münasibətilə prezident İlham Əliyevə ünvanladığı məktubdakı fikirlər də sübut edir. Onların hər ikisi, o cümlədən ABŞ prezidenti B.Obama prezident İlham Əliyevi"Şərq tərəfdaşlığı" proqramı çərçivəsində öz ölkəsinin Avropa İttifaqı ilə əməkdaşlığını dərinləşdirməyə, ittifaqın potensialından tam istifadə etməyə və Azərbaycanla Avropa İttifaqı arasındakı gələcək yaxınlaşmaya hərtərəfli dəstək verməyə çağırmışlar.[143]

Mütəxəssislərin fikrinə görə, Vilnüs Sammiti ərəfəsində təkcə ABŞ və aparıcı Avropa dövlətləri deyil, Rusiya da müxtəlif metod və vasitələrlə AB ilə "qonşuluq siyasətinə" qoşulmuş Ukrayna, Belarus, Gürcüstan, Azərbaycan, Moldova və Ermənistanın Birliklə gələcək əməkdaşlıq seçiminə təsir göstərməyə cəhd edirdi. Rusiya qonşularını, o cümlədən Ukrayna və Azərbaycanı Avropa Birliyi ilə Assosiasiya Sazişini imzalamaqdan çəkindirmək üçün bir neçə ay əvvəldən başlayaraq müxtəlif təzyiq mexanizmlərini işə salmışdı.

[142] Bax; AzərTAc. Informasiya agentliyinin xəbər bülleteni, Bakı, 21 oktyabr 2013-cü il.
[143] Yenə orada 25-26 oktyabr 2013-cü il.

Azərbaycan Prezidenti İlham Əliyevin Vilnüs Sammitində iştirakı Cənubi Qafqazdakı bir çox gələcək geosiyasi məsələlərə aydınlıq gətirdi. Düzdür, Ukrayna, Gürcüstan və Moldovadan fərqli olaraq, Azərbaycanın bu Sammitdə Assosiasiya və azad ticarət sazişlərinə qoşulmayacağı əvvəlcədən bəlli idi. O da bəllidir ki, Azərbaycan, eyni zamanda Belarus və Ermənistan kimi Avrasiya İqtisadi Birliyinə və Gömrük İttifaqına da qoşulmaq fikrində deyil. Avropa Birliyi də hələ ki, Azərbaycanın bəhs olunan sazişlərə qoşulmasında israrlı deyil. Mütəxəssislərin fikrinə görə, AB üzvləri Azərbaycan Assosiasiya və azad ticarət sazişlərini imzalayacağı təqdirdə, Kremlin ona qarşı onsuz da ara verməyən təzyiqlərinin daha da artacağını yaxşı anlayırdılar. Odur ki, hazırkı mərhələdə Azərbaycan Avropa Birliyi ilə "Viza sadələşdirilməsi və Riadmisiya„ haqqında ikitərəfli saziş imzalamaqla qənaətləndi. Bu saziş Birlik ölkələri tərəfindən ratifikasiya olunandan sonra bəlli qrup Azərbaycan vətəndaşları sadələşdirilmiş viza rejimindən istifadə edərək Avropa ölkələrinə sərbəst gedə biləcəklər. Mütəxəssislərin fikrinə görə, Azərbaycanla AB arasında bu sazişin imzalanması təkcə birincinin vətəndaşları üçün Şengen vizasının sadələşdirilməsi baxımından deyil, həm də Azərbaycanın Avropaya yaxınlaşması, Birlik standartlarına uyğunlaşması istiqamətində yeni bir mərhələnin başlanğıcı olacaq. Sazişin imzalanması Azərbaycanın AB-yə gələcək assosiativ üzvlüyünə doğru atılan çox mühüm bir addım oldu.[144]

Siyasi analitiklər hesab edir ki, bir sıra MDB ölkələrinin, xüsusən də, Ukraynanın Avropaya inteqrasiyası yolunda növbəti mərhələ kimi gözdən keçirilən bu Sammit bir tərəfdən Rusiyanın qonşu ökələrə qarşı ciddi təzyiqləri ilə müşayiət olunmuş, digər tərəfdənsə, postsovet məkanında geosiyasi me-

[144] Bax: "Yeni Müsavat" qəzeti, №318, 30.11.2013. s.7.

yillərin aydınlaşmasına və gələcək hədəflərin müəyyənləşməsinə təkan vermişdir. [145]

Sammit bir daha təsdiq etdi ki, Avrasiyada Avropa İttifaqı ilə Rusiya arasında hegemonluq uğrunda geosiyasi rəqabət mövcutdur və bundan sonra da davam edəcək. Bundan başqa, Aİ, ABŞ və Rusiya ilə yanaşı bu mübarizəyə hazırda çətin seçim qarşısında qalmış altı postsovet respublikası da cəlb edilib. Sonuncular hazırda iştirak etdikləri, yaxud qoşulmağa çalışdıqları beynəlxalq və regional mərkəzlərin heç birini narazı salmayacaq üçün yeni əməkdaşlıq forması və variantının axtarışını davam etdirirlər. Belə bir universal variant ortada olmadığına görə, mövqelərini hələ ki, tam açıq formada ortaya qoymayan Azərbaycan və Ukrayna bu prosesdən müəyyən qədər vaxt udmağa çalışacaqlar.

Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlərin sonrakı taleyinə təsir göstərə biləcək növbəti addım isə Avropa Komissiyasının sədri J. M. Barrozunun 1914-cü ilin iyun ayının 14-də Azərbaycana səfəri çərçivəsində imzalanan çərçivə sazişi hesab oluna bilər. Çərçivə sazişini iyunun 14-də Azərbaycan prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra AB-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri və Azərbaycanın Aİ yanında daimi nümayəndəliyinin rəhbəri imzalayıblar. Azərbaycan Respublikasının Avropa İttifaqının proqramlarında gələcək iştirakının ümumi prinsiplərini müəyyən edən həmin saziş bir tərəfdən Azərbaycan, digər tərəfdən Aİ və onun üzvü olan dövlətlər arasında tərəfdaşlıq və əməkdaşlıq Sazişinin rəsmi Protokolu hesab olunur.[146]

[145] Bax: "Yeni Müsavat" qəzeti, №318, 30.11.2013. s.7.

[146] Bax; AzərTAc. Informasiya agentliyinin xəbər bülleteni, Bakı, 14 iyun 2014-cü il.

Qeyd etmək lazımdır ki, Azərbaycanın Aİ ölkələri ilə bağlı siyasətində iki əsas cəhət xüsusi yer tutur. Bunlardan biri, Aİ ölkələri ilə iqtisadi və siyasi münasibətləri tərəfdaşlıq istiqamətində inkişaf etdirməklə öz iqtisadi inkişafını və iqtisadi təhlükəsizliyini təmin etməkdirsə, digəri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün onların dəstəyindən yararlanmaqdır.

§1.6. Türkiyənin Avrasiya siyasəti və Azərbaycanla geosiyasi münasibətlərinin xarakteristikası

Avrasiya regionunun böyük dövlətləri içərisində regional geosiyasi maraqları aydın sezilən ölkələrdən biri də Türkiyədir. Coğrafi ərazisinə görə Yaxın Şərqdə yerləşməsinə baxmayaraq, Türkiyə geosiyasi cəhətdən daha çox Avropa (Avrasiya) dövləti hesab olunur. Onun 780,6 min kv. km ərazisinin cəmi 23,7 min kv. km-i Avropada yerləşsə də, yeni respublika quruluşunun bərqərar olduğu 1923-cü ildən başlayaraq Avropa inkişaf xətti seçmiş və son illərə qədər qərbi təmsil edən beynəlxalq, regional qurumlara sıx əməkdaşlıq etmişdir. Təbii ehtiyatlarla o qədər zəngin olmasa da, Türkiyənin insan resursları həddən artıq genişdir. Bu ölkənin illik artımı 2,2 faiz təşkil edən 70 milyondan atrıq əhalisi vardır.

Tarixi faktlar göstərir ki, Türkiyə orta əsrlərdən başlayaraq bütün dövrlərdə Avrasiyanın Yaxın - Orta Şərq, Qafqaz, Orta Asiya, Qara - Xəzər dənizləri hövzəsi və digər məkanlarının ən fəal geosiyasi və hərbi-geostrateji oyunçularından biri kimi çıxış etmişdir. Osmanlı Türkiyəsinin Qafqaza və Xəzər hövzəsinə açıq geosiyasi müdaxiləsi XV-XVI əsrlərdən başlayıb və sonrakı bütün dövrlərdə davam edib. XV əsrin ortalarından bu region əvvəl Osmanlı İmperiyası ilə İran şahları arasındakı, XVlll əsrdən isə Rusiya ilə saysız-hesabsız müharibələrin

və qarşıdurmaların episentrinə çevrilib. Avrasiya məkanı uğrunda Osmanlı İmperiyası ilə Çar Rusiyası arasındakı müharibələr uzun müddət davam etmiş və nəticədə regionun Xəzər hövzəsi və Cənubi Qafqaz kimi strateji məntəqələri ikincinin nəzarətinə keçmişdir.

İkinci Dünya müharibəsindən sonra Avrasiyada yaşanan geosiyasi və hərbi-geostrateji mübarizəyə kapitalist və sosialist düşərgələri arasındakı ciddi rəqabət də əlavə olunur. 1952-ci il fevralın 18-də Türkiyə bu mübarizədəki seçimini kapitalizm düşərgəsinin xeyrinə edərək NATO-ya daxil olmuş və o zamandan Qərbin Avrasiya regionuna- Sovet İttifaqına, xüsusən də, Orta Asiya, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaza yönəlmiş geosiyasətinin, xüsusən də, hərbi-geostrateji mövqelərinin fortpostuna və əsas dayaq nöqtəsinə çevrilmişdir. 1974-cü ildə Türkiyə həm də İslam Konfransı Təşkilatına daxil olmuş, Yaxın və Orta Şərqdə özünün və müttəfiqi sayıldığı Qərbin ümumi geosiyasi mənafelərinin reallaşmasında önəmli rol oynamışdır. Türkiyənin Avrasiyada öz fəal geosiyasi mövqeyini nümayiş etdirməyə çalışdığı regional müstəvilərdən biri də 1985-ci ildə İran və Pakistanla birlikdə yaratdığı İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO) məkanı hesab olunur.

Geosiyasi anlamda Türkiyənin Avrasiyadakı, xüsusən də, Xəzər-Qara dəniz hövzəsi və Qafqazdakı əsas regional üstünlüyü həm də region xalqlarının çoxunun dünyəvi inkişaf yolu seçməsi, dillərinin, dinlərinin və mədəniyyətlərinin oxşarlığı baxımından bu ölkəyə daha yaxın olması ilə bağlı idi. Bundan başqa, Türkiyədə Qafqazdan olan milyonlarla mühacirin yaşaması da rəsmi Ankaranın bölgədəki mövqelərinin möhkəmlənməsinə xidmət edir. Təxmini hesablamalara görə, hazırda Türkiyədə 7 milyona qədər qafqazlı mühacir yaşayır və fəaliyyət göstərir.[147]

[147] См:Международный Кавказский Конгресс в Стамбуле (13 мая 2012) http://www.kavkazcenter.com/russ/content/2012/05/13/90554.shtml

Lakin, Qərbin Türkiyəni bölgədə lider dövlətə çevirmək cəhdləri regionda, xüsusən, Orta Asiyada Rusiya, Çin, İran, Hindistan, Pakistan və digər dövlətlərin ciddi geoiqtisadi müqaviməti ilə üzləşirdi. Hazırda türk iş adamları bölgədə Çinlə yüngül sənaye və gündəlik tələbat malları bazarında ciddi rəqabət aparır və bu sahədə qabaqcıl mövqelərini getdikcə itirir. Bundan başqa, "Böyük ipək yolu"nun bərpası, Qərb-Şərq nəqliyyat-kommunikasiya və enerji daşıyıcıları dəhlizinin yaradılmasında Türkiyə Rusiya və İrana qalib gəldi. Düzdür, bu işdə Azərbaycanın, Qərbin və ABŞ-ın dəstəyi həlledici rol oynadı. Türkiyə Orta Asiya və Cənubi Qafqazda ideoloji vasitələr, televiziya, mətbuat, məktəb-universitet şəbəkəsi, tələbə mübadiləsi və s. sahələrdə Rusiya və İranla ciddi rəqabət aparır və bu sahədə müəyyən irəliləyişlərə nail olmuşdur.

Üçüncü minilliyin başlanğıcından NATO-nun "Şərqə doğru genişlənmə" siyasəti fonunda Türkiyə ABŞ-ın dəstəyi ilə Qafqazın, Orta Asiya və Xəzər hövzəsinin ən təsirli hərbi-geostrateji oyunçularından biri rolunu oynamağa başlayır. SSRİ-nin süqutundan sonra bu ölkə, ümumiyyətlə həm müstəqil şəkildə, həm də üzvü olduğu NATO hərbi blokunun strategiyası çərçivəsində Xəzər-Qara dəniz hövzəsinin, xüsusən, Cənubi Qafqazın regional geosiyasi münasibətlər sistemində öz mövqelərini gücləndirməyə başlayır. Bu istiqamətdə rəsmi Ankaranın fəaliyyətində həm beynəlxalq strateji maraqlar (NATO blokunun ümumi strateji maraqları), həm öz milli mənafeləri, həm regional-etnik (Qafqazda yaşayan türkdilli xalqların dəstəyini qazanmaq, onlara lazımi himayə göstərmək), həm də dini amillər (Qafqazın müsəlman əhalisinin İranın təsirinə düşməsinin qarşısını almaq) özünü qabarıq şəkildə büruzə vermişdir. Hətta, bəzən Türkiyə özünün strateji və milli maraqlarını təhlükə altına qoyaraq, açıq şəkildə etnik-dini təəssübkeşlik nümayiş etdirmiş (Qərb dövlətləri buna görə Türkiyəni qınamış və belə dövlətə güvənməyin qeyri-mümkün olduğuna eyham

vurmuşlar) və nəticədə öz Qərb müttəfiqləri ilə münasibətlərinə sərinlik gətirmişdir. SSRİ-nin mövcud olduğu və bugünkü türk-müsəlman xalqlarının hələ milli müstəqillik əldə etmədiyi dövrdə Qərb dövlətləri Türkiyənin belə hərəkətlərini müəyyən qədər dəstəkləyir və təbii qəbul edirdi. Çünki Qərb özü SSRİ-nin tərkibində yaşayan müsəlman-türk əhaliyə təsir göstərmək, həmin xalqları Moskvadan narazı salmaq və onlarla "iş aparmaq" üçün imkan axtarırdı. Hazırda isə Avropalılar Türkiyənin Qafqaz və Orta Asiyada möhkəmlənməsi və güclənməsini, yerli əhalinin etnik-dini yaxınlığından istifadə edərək öz ətrafında birləşdirməsini, Avrasiyada getdikcə geosiyasi mövqelərini daha da artırmasını türk-müsəlman birliyinin gələcək real təhlükəsi kimi qiymətləndir və buna heç bir vəchlə yol vermək istəmir. Odur ki, Qərb dövlətləri Türkiyənin Qafqazda, Orta Asiyada "NATO-nun ümumi maraqlarını qorumaq" adı altında vaxtı ilə dəstəklənən sərbəst və təkbaşına fəaliyyətini hazırda qəbul etmir.

ABŞ-la strateji müttəfiqliyi və NATO üzvü olması Türkiyənin regionda hərbi-geostrateji cəhətdən möhkəmlənməsini şərtləndirən əsas amillərdən biridir. Çünki Qərbin siyasi, iqtisadi və hərbi sistemləri ilə inteqrasiyaya can atan region ölkələri bu məsələdə onların müttəfiqi olan Türkiyə ilə əlaqələrə xüsusi önəm verirlər. ABŞ və Qərb də regionda öz hətbi-geostrateji fəaliyyətini həm birbaşa, həm də Türkiyə vasitəsilə həyata keçirir, Türkiyənin bölgədəki mövqelərini gücləndirərək, İran və Rusiya ilə rəqabət apara bilməsi üçün müəyyən yardımlar göstərirlər. Məsələn, son dövrə qədər ABŞ-ın Gürcüstandakı bütün hərbi layihələri – hərbi məsləhətçilərin gətirilməsi, Gürcüstan ordusuna maddi-texniki yardımın göstərilməsi, gürcü hərbçilərinə təlim keçirilməsi və s. birbaşa Ankaranın iştirakı ilə reallaşdırılırdı. Gürcüstanın silahlı qüvvələri son ildə əsasən Türkiyənin yardımı ilə formalaşdırılıb. Qeyd

edək ki, 1998-ci ildə Türkiyə ilə Gürcüstanın müdafiə nazirlikləri arasında hərbi əməkdaşlığa dair memorandum imzalanmışdır.

Lakin, mütəxəssislərin fikrinə görə, keçmişdə bölgədəki prosesləri əsasən NATO-nun mənafeyi prizmasından izləyən Türkiyə yeni dövrdə, xüsusən, son on ildə Avrasiyada "Şimali Atlantika Alyansının maraqlarının müdafiəçisi" olmaq və "ABŞ-ın strateji müttəfiqi kimi" çıxış etmək rolundan imtina etmədən, həm də öz fərdi roluna, məxsusi nüfuzuna, geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mənafelərinə diqqət yetirməyə başlayır. Ankara ABŞ və Avropa İttifaqının bəzi təzyiqlərini hesaba almadan, XXl əsrin başlanğıcından regionda bir qədər fərqli geostrateji xətt yürütməyə başlayır. Xüsusən, ABŞ-ın Avrasiyada yürütməyə çalışdığı "Böyük Yaxın Şərq" siyasətinə qarşı açıq çıxış edən Türkiyə Qərbin İraq siyasətinə, Rusiya-Gürcüstan müharibəsinə, Qərb-İran qarşıdurmasına, Misir, Tunis, Liviya hadisələrinə, yaxud İsrail-Fələstin, Ermənistan-Azərbaycan münaqişəsinə fərqli yanaşma sərgiləyir ki, bunu mütəxəssislər "Türkiyənin müstəqil siyasət yürütməsi və məxsusi maraqlarını qoruması istəyi" kimi dəyərləndirir. Mütəxəssislərin fikrinə görə, SSRİ dağılandan sonra Türkiyənin 1992-ci ildə "etnik birliyə" söykənən "Türkdilli dövlətlər birliyi" adlı yeni bir qurum yaratması, birlik çərçivəsində region ölkələrinə 1,5 milyard ABŞ dolları həcmində kredit ayırması və yaxud sərmayə yönəltməsi, ilk növbədə bu ölkənin öz məxsusi mənafelərinin təmin olunmasına istiqamətlənmişdi. Düzdür, yenə də mütəxəssislərin fikrinə görə, onun bəzi məxsusi təşəbbüsləri gözlənilən praqmatik nəticəni vermədi. Lakin, qeyd olunmalıdır ki, Türkiyənin bölgə ilə bağlı həyata keçirdiyi heç bir təşəbbüs regionda geosiyasi nəticəsiz və izsiz qalmamış, zaman-zaman öz müsbət izlərini buraxmışdır. Bu təşəbbüslər ilk növbədə, Türkiyəni regionun kifayət qədər nüfuzlu, əhali arasında

rəğbət bəslənən bir dövlətinə çevirmişdir. Xüsusən, Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova kimi dövlətlərdə bu ölkənin geosiyasi mövqeyi həddən artıq güclənmiş və möhkəmlənmişdir.

Bir fakt da nəzərə alınmalıdır ki, bəzi məsələlərdə Türkiyənin maraqları ABŞ və AB-nin siyasəti ilə uzlaşmasa da, ABŞ-ın Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsi və Orta Asiyada fəallaşması, NATO-nun müxtəlif proqramları çərçivəsində bölgədə regional hərbi-geostrateji iştiraka can atması onun maraqlarına tam cavab verir. Çünki Türkiyə Birləşmiş Ştatların bu geosiyasi məkandakı hərbi-geostrateji maraqlarının reallaşmasında bundan sonra da "əsas müttəfiq" roluna iddialıdır və həmin rolu icra edərək, həm də ABŞ-dan xeyli maliyyə yardımı almağı nəzərdə tutur. Ümumiyyətlə, Türkiyə hələ SSRİ vaxtından bütün Avrasiya məkanında ABŞ-ın ən yaxın müttəfiqi və etibarlı dostu hesab olunub. ABŞ həmin dövrdən bu günə kimi Cənubi Qafqaz, Orta Asiya və Avrasiyanın digər bölgələrində özünün hərbi-geostrateji planlarını əsasən Türkiyə vasitəsilə həyata keçirir.

Mütəxəssislərin fikrinə görə, Ankaranın rəsmi formada Qərbin maraqlarının təmsilçisi statusundan imtina etmədən, öz milli maraqlarının, geoiqtisadi və geosiyasi mənafeyinin təmin olunmasına üstünlük verməsinin əsas səbəblərindən biri bəzi Qərb ölkələri ilə ABŞ və Türkiyə arasındakı münasibətlərdə özünü son illərdə aşkar büruzə verən ziddiyyətlərlə bağlıdır. Avropanın iqtisadi, siyasi və təhlükəsizlik məkanında fəaliyyət göstərməsinə baxmayaraq, Türkiyə əsasən ABŞ-la razılaşdırılmış xarici siyasət yürüdür ki, bu da müvafiq olaraq onun Avropa dövlətləri ilə münasibətlərinə mənfi təsir göstərir. Məsələn, rəsmi Ankaranın Avrasiya regionunu təmsil edən yerli dövlətlərlə tərəfdaşlıq münasibətləri yaratması ABŞ tərəfindən dəstəklənsə də, bəzi Qərb müttəfiqləri ilə müəyyən problemlər

yaradır. Bundan başqa, Yaxın və Orta Şərqdə baş verən geosiyasi proseslərdə fərqli addımlar atması, Yunanıstanla yaşadığı Kipr problemi, yaxud Türkiyənin islam aləminə mənsub olması, əhali resurslarının genişliyi, sürətli demoqrafik artım və digər məsələlər də bəzi Avropa dövlətlərinin bu ölkəyə qısqanc və ehtiyatlı münasibətini yaratmışdır. Bu da uzun illərdir ki, Türkiyənin Avropa Birliyinə tamhüquqlu üzv qəbul olunmasını əngəlləyir. Türkiyənin region dövlətləri ilə tərəfdaşlıq münasibətləri bəzən onu Qərb müttəfiqləri ilə üz-üzə qoyur. Türkiyənin Avropa İttifaqına qəbulunu əngəlləyən əsas problemlərdən biri kimi, mütəxəssislər məhz onun ABŞ-la yaxşı, Avropa dövlətləri ilə sərin münasibətlərə malik olmasını göstərirlər. Bəzi Avropa dövlətləri ABŞ-ın yaxın müttəfiqinin Aİ-yə qoşulmasını Vaşinqtonun qurum daxilində mövqelərinin möhkəmlənməsi kimi qiymətləndirir və bu ölkəyə ikili münasibət bəsləyirlər.

Mövcud reallığın təhlili göstərir ki, ümumiyyətlə həm XX yüzillikdə, həm də hal-hazırda bəzi NATO üzvlərinin öz hərbi müttəfiqləri hesab olunan Türkiyəyə münasibəti birmənalı olmamışdır. Bunun əsas səbəbləri, bir tərəfdən Osmanlı türklərinin keçmiş tarixi, Avropadakı işğalçılıq yürüşləri və hakim mövqeləri, islam dininə sitayiş etmələri, yunan, erməni və s. xristian xalqları ilə ənənəvi mənfi münasibətləri Ilə bağlı idisə, müasir dövrdə bu dövlətin bölgədə və dünyada reallaşdırmağa çalışdığı, geosiyasi ədəbiyyatda bəzi dairələr tərəfindən *"yeni osmanlı siyasəti"* kimi dəyərləndirilən *"fəal regional liderlik"* diplomatiyası ilə bağlıdır. Xüsusən, Türkiyənin son illərdə iqtisadi cəhətdən həddən artıq güclənməsi və yürütdüyü *"regional lider" siyasəti*, Qərbin razılığını almadan Rusiya ilə sərbəst tərəfdaşlıq münasibətləri yaratması, İsrail-Fələstin münaqişəsində sərgilədiyi "Fələstinə tam dəstək" siyasəti, "dünyanın ərköyün balası" hesab etdiyi İsrailə qarşı çıxması və s. dünya

yəhudi diasporunun mövqelərinin güclü olduğu əksər ölkələrdə ciddi anti-türk kompaniyasına rəvac vermişdir.

Mütəxəssislərin fikrincə, Türkiyənin Avrasiyadakı hazırkı geosiyasi vəziyyətini müəyyən edən amillər sırasında regionun iri və kiçik ölkələri ilə onun münasibətləri də mühüm rol oynayır. Türkiyəni əhatə edən dövlətlərlə münasibətlərə nəzər salsaq görərik ki, onun Yunanıstanla tarixi qarşıdurma və Kiprin türklər yaşayan ərazisinə münasibət səbəbindən, Suriya və İraqla PKK-nı dəstəklədiklərinə görə, İranla ideoloji və regional maraq çərçivəsində, Rusiya ilə keçmişdən miras qalmış tarixi rəqiblik və regional maraqların fərqliliyi üzündən, Ermənistanla onun ərazi bütövlüyünü tanımadığı və Azərbaycana qarşı işğalçı siyasət yürütdüyünə görə və s.- münasibətləri arzu olunan səviyyədə deyil.

Lakin mütəxəssislər hesdab edir ki, hansı siyasət yürütməsindən asılı olmayaraq, *Türkiyənin dünyanın ən mühüm geosiyasi məkanında yerləşməsi, transmilli geoiqtisadi və hərbi-geostrateji dəhlizlərə, dəniz yollarına nəzarət etməsi, bəzi məsələlər üzrə Rusiyanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı təsirini zəiflətməsi, son zamanlara qədər İranın radikal islam fundamentalizminin qarşısında "milli və dini sipər" rolunu oynaması və s.* onun Qərb üçün bundan sonra da əvəzedilməz müttəfiq kimi qalmasını şərtləndirir. ABŞ politoloqu Zbiqnev Bjezinski açıq şəkildə yazır ki, "Türkiyə Rusiyanın Cənub sərhədlərində Almaniyanın ABŞ üçün vaxtilə Orta və Şərqi Avropada oynadığı geosiyasi rolu oynayır". Z. Bjezinski Türkiyənin regionda önəmini qısa olaraq aşağıdakı amillərlə əsaslandırır:

- Türkiyə Qara dəniz regionunda vəziyyətin sabit qalmasında mühüm rol oynayır;
- Aralıq dənizindən Qara dənizə keçidləri nəzarətdə saxlayır;

- Rusiyanın Qafqazdakı mövqelərinin güclənməsinə imkan vermir;
- İslam fundamentalizminə qarşı sipər rolunu oynayır;
- NATO-nun Cənubdakı dayağıdır və s.

Sonuncu məqam – NATO amili Türkiyə üçün Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda xüsusi vacib təsir mexanizmi hesab olunur. Rəsmi Ankara bu istiqamətdə Alyans daxilindəki rolunu daim artırmağa çalışır və bunun avtomatik olaraq, həm də onun bölgədəki nüfuzunun güclənməsinə müsbət təsir göstərəcəyinə ümid edir. Məsələn, bir neçə il əvvəl Türkiyə rəhbərliyi İstanbulda NATO-nun Çevik Qüvvələr Qərargahının yaradılması təşəbbüsü ilə çıxış edərək Balkanlar, Qafqaz və Orta Asiya kimi geostrateji məkanı "yeni yaradılacaq qərargahın təsir zonasına daxil etməyi" təklif edirdi.

Türkiyə son beş ildə ABŞ və NATO-nun Avrasiyanın regional təhlükəsizlik məkanında, əsasən də Yaxın Şərqdə, Qara dəniz hövzəsi, Orta Asiya və Cənubi Qafqazda mövcud olan geosiyasi və təhlükəsizlik mövqelərinin möhkəmlənməsində mühüm rol oynayırdı. Xüsusən, Vaşinqton o dövrdə təhlükəsizlik və enerji sahəsində öz regional siyasətini məhz Türkiyə vasitəsilə həyata keçirir, regiondakı bütün transmilli hərbi-geostrateji və enerji layihələrini birbaşa onun iştirakı ilə reallaşdırırdı. Bundan başqa, ABŞ Gürcüstan silahlı qüvvələrinin formalaşdırılmasını, NATO tərəfindən ona bir çox hərbi yardımların göstərilməsini və s. məsələləri də əsasən Türkiyənin vasitəsilə həyata keçirirdi. Lakin, qeyd edildiyi kimi Türkiyənin son illərdə nümayiş etdirdiyi özünəməxsus müstəqillik və fərqli geosiyasət, planetar və regional münasibətlərdə "öz geosiyasi maraqlarını" Qərbinkindən daha aşkar formada fərqləndirməsi tam olaraq nə ABŞ-ı, nə də ki, onun NATO üzrə müttəfiqlərini qane etmir.

Türkiyənin Cənubi Qafqazda və Xəzər hövzəsindəki regional maraqları və geosiyasi aktorlarla münasibətlərinin xarakteristikası

Cənubi Qafqaz və Xəzər hövzəsi Türkiyənin məxsusi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının birbaşa təmsil olunduğu və digər geosiyasi aktorlarla tez-tez üzləşdiyi bölgə hesab olunur. Türkiyənin Xəzər hövzəsi və Orta Asiyanın zəngin enerji resursları və əhəmiyyətli geosiyasi məkanına, türk dövlətləri və xalqlarına, öz sənaye malları üçün geniş satış bazarlarına təminatlı çıxışı və Cənub-Şərqi Asiyaya ilə kontinental əlaqəsi ilk növbədə Cənubi Qafqaz və Xəzər hövzəsi vasitəsilə həyata keçirilir. Xəzər hövzəsi Türkiyənin illik, orta hesabla 55 milyon tonluq neft və 40-50 milyard kub metrlik təbii qaz ehtiyacını təmin edə biləcək, üçüncü minillikdə Avropanın alternativ transmilli neft-qaz ixracı marşrutlarının mərkəzinə çevrilməklə küllü miqdarda maddi və geoiqtisadi dividentlər qazandıra biləcək bir regiondur.

NATO çərçivəsində Xəzər hövzəsi və Cənubi Qafqazda yürütdüyü koordinasiyalı geosiyasi fəaliyyətin xaricində, Türkiyənin özü də ayrıca olaraq bölgənin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji sabitliyində, enerji istehsalı və transmilli ixrac marşrutlarının genişlənməsində, nəqliyyat-kommunikasiya və enerji infrastrukturların təhlükəsiziyinin tənin olunmasında və s. məsələlərdə maraqlı ölkə hesab olunur.

Bundan başqa, Rusiya ilə məlum regional tarixi rəqabətin diskomfort, Ermənistanın öz beynəlxalq (dünya xristian təəssübkeşliyi və erməni diasporası) və regional havadarlarına (Rusiya və onun yaratdığı regional hərbi blok- Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) söykənərək Türkiyəyə qarşı birbaşa ərazi iddiası irəli sürməsi və milli təhlükəsizliyini təhdid etməsi, bu ölkənin bütövlüyünü pozmağa çalışan etnik-separatçı qüvvələri dəstəkləməsi, antitürkiyə elementlərinin böl-

gədəki sərbəst fəaliyyətinə şərait yaratması və s. məqamlar da rəsmi Ankaranı Cənubi Qafqaz və Xəzər hövzəsində ciddi narahat edir.

Türkiyənin fəal NATO üzvü olması faktı da onu Avrasiyada, xüsusən də Orta Asiya və Qafqazda istər-istəməz Rusiya və İran kimi regional rəqiblərlə üz-üzə gətirir və geosiyasi fəaliyyətinə ciddi maneçilik yaradır. Bu dövlətlər onun bölgədəki hər bir geosiyasi, geoiqtisadi və hərbi-geostrateji təşəbbüsünü qısqanclıqla qarşılayır və müvafiq əks-tədbirlər görməyə çalışırlar. Belə vəziyyətdə Türkiyənin digər bölgə ölkələri və regionda təsiri olan geosiyasi aktorlarla strateji tərəfdaşlıq münasibətləri yaratmaq, bölgədə xüsusi düşünülmüş, hərtərəfli ölçülüb-biçilmiş siyasət yürütmək, başqa dövlətlərin, regional və beynəlxalq birliklərin xüsusi qısqanclıq və narazılığına səbəb olmayan fəaliyyət nümayiş etdirmək ehtiyacı yaranır.

Türkiyə 90-cı illərin əvvəlindən bütün regional maneələrə baxmayaraq, Cənubi Qafqazda Azərbaycan və Gürcüstanla, Xəzər hövzəsində isə Qazaxıstan və Türkmənistanla geosiyasi, geoiqtisadi və hərbi-geostrateji tərəfdaşlığın möhkəmlənməsi yönündə ciddi addımlar atmağa nail olmuşdur. Xüsusən, Türkiyə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində həm Azərbaycan, həm də Gürcüstanda ordu quruculuğu, onların milli ordusunun Qərb standartlarına uyğunlaşdırılması, sərhəd təhlükəsizlik sistemlərinin yaradılması və s. sahəsində bir çox strateji işlər həyata keçirmişdir. 2002-ci ildə Trabzonda Türkiyə-Azərbaycan-Gürcüstan arasında *"hərbi əməkdaşlıq, silah qaçaqmalçılığı, sərhəd pozuculuğu, narkotik maddələrin dövriyyəsi və transmilli cinayətkarlığa qarşı birgə mübarizə" haqqında*, 2007-ci ildə isə *"təhlükəsizlik sahəsində regional əməkdaşlıq"*, Bakı-Tbilisi-Qars dəmiryolunun çəkilməsi və istifadəsi haqqında bir neçə saziş imzalanmışdır. Bütün bunlar regionun üç dövləti arasında sərhəd-keçid rejiminin sadələşdirilməsi, nəqliyyat-tranzit təhlükəsizliyi və transmilli cinayət-

karlıqla mübarizə sahəsində milli fəaliyyətlərin əlaqələndirilməsi və s. əməkdaşlıq tədbirlərini təmin etmişdir.

Bundan başqa, Türkiyə Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan BTC neft, BTƏ qaz və BTK dəmir yolu, TAP, TANAP, Şahdəniz 2 və b. transmilli təbii qaz layihələrinə hərtərəfli köməklik göstərməklə, özünün və Cənubi Qafqazdakı tərəfdaşı Gürcüstanın uzunmüddətli tranzit gəlirləri ilə təmin olunmasına, Avropanın Rusiyanın enerji asılılığından, Azərbaycanınsa ixrac və alternativ nəqliyyat təsirindən qurulmasına dəstək vermişdir. Bu transmilli layihələr Türkiyə, Gürcüstan və Azərbaycanın enerji, transmilli nəqliyyat-kommunikasiya və dəhliz tələbatlarının ödənilməsi problemlərini həll etməklə yanaşı, həm də beynəlxalq enerji-nəqliyyat qovşağı kimi hər üç ölkənin dünyadakı geosiyasi və geoiqtisadi nüfuzunu artırmış, Avrasiyanın hərbi, geostrateji və təhlükəsizlik mühitindəki daimi təmsilçiliklərini təmin etmişdir. Bu layihələr avtomatik olaraq Türkiyənin regiondakı lider, aparıcı dövlət statusunu möhkəmləndirmiş, onun Azərbaycan və Gürcüstanla strateji regional tərəfdaşlıq münasibətlərini gücləndirmişdir. Tədqiqatçılar hesab edir ki, Türkiyə hazırda bu kəmər və dəhlizlərdən maksimum istifadə etməklə, Avropanın transmilli enerji, xammal və əmtəə bazarının, Şərq-Qərb tranzit-daşıma sistemlərinin əsas oyunçusuna və regionun enerji-nəqliyyat və loqistika mərkəzinə çevrilmişdir. Ankara hazırda Xəzər hövzəsi və Orta Asiyanın enerji daşıyıcılarının transmilli nəqli üçün tranzit mərkəz mövqeyini möhkəmləndirməklə, Avropa İttifaqına daxil olmaq şanslarını artırmağa çalışır.[148]

Türkiyənin Cənubi Qafqaz və Xəzər hövzəsindəki əsas geosiyasi, geoiqtisadi və hərbi-geostrateji *rəqibi* bölgənin ener-

[148] Bax: Жизнин С.З. В поисках баланса интересов (Геополитические и экономические аспекты каспийских нефти и газа) // «Независимая газета», 12 января 2010 г.

ji qaynaqları ilə zəngin olan iki ölkəsi- *Rusiya və İrandır*. Türkiyə adıçəkilən ölkələrlə bütün sahələrdə regional rəqabət aparır və bu rəqabətdə bəzən məxsusi enerji resurslarının yoxluğu, o cümlədən Rusiyadan fərqli olaraq Cənubi Qafqazdakı hərbi-geostrateji təsir mexanizmlərinin zəifliyi səbəbindən qeyri-əlverişli vəziyyətdə qalır.

Türkiyənin Cənubi Qafqaz siyasətindəki *əsas müttəfiqi* rolunda *Azərbaycan, tərəfdaşı qismində isə Gürcüstan* çıxış edir. Azərbaycan regionun bütün geosiyasi, geoiqtisadi və hərbi-geostrateji məsələlərində Türkiyəyə birbaşa dəstək verməsi, Rusiya və İran kimi regional güc mərkəzləri ilə rəqabətdə onun gücünü artırır. Təsadüfi deyil ki, Azərbaycan "Əsrin müqaviləsi"ni reallaşdırarkən, Türkiyənin bölgədəki enerji maraqlarını öz maraqları ilə bağlayaraq, həm Rusiya ilə, həm də İranla bu sahədə ciddi qarşıdurma ehtimalından çəkinmədən, böyük iradə və səy nümayiş etdirərək Türkiyənin Orta Asiya və Xəzər hövzəsinin zəngin enerji ehtiyyatlarına çıxışını təmin etdi. Mütəxəssislərin fikrinə görə, hazırda Türkiyənin Avrasiyadakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqelərinin güclənməsi, Xəzər hövzəsi və Orta Asiyanın zəngin karbohidrogen ehtiyatlarının Avropaya ixracı marşrutlarının mərkəzinə və əsas tranzit ölkəyə çevrilməsi ilk növbədə, Cənubi Qafqazda Azərbaycan və Gürcüstan kimi müttəfiqlərinin mövcudluğu və bütün sahələrdə rəsmi Bakının bu ölkəyə verdiyi dəstəklə bağlıdır.

Xəzər hövzəsi və Cənubi Qafqazda Türkiyənin həm NATO üzvü olaraq, həm də ayrıca bir region ölkəsi kimi təmsil olunan hərbi-geostrateji və təhlükəsizlik maraqları da birbaşa Azərbaycan və Gürcüstanla, bu ölkələrin bölgədəki geosiyasi və hərbi-geostrateji mövqeləri ilə bağlıdır. Azərbaycan bir tərəfdən Türkiyənin bölgədəki əksər geosiyasi, geoiqtisadi və təhlükəsizlik maraqlarının təmsilçisi və birbaşa müdafiəçisi qismində çıxış edir, digər tərəfdənsə onun Mərkəzi Asiya ilə

əlaqələrinin əsas bağlayıcısı funksiyasını yerinə yetirir. Mütəxəssislər hesab edir ki, hazırda Azərbaycan Cənubi Qafqazın regional təhlükəsizliyi ilə bağlı məsələlərdə nə Qafqazın yeganə hərbi bloku hesab olunan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının, blok üzvü olan Rusiya və Ermənistanın, nə də ki, öz məxsusi hərbi maraqlarını təmin edən, geostrateji məsələlərdə daha çox Rusiya ilə hərbi tərəfdaşlığa meyil göstərən İranın mövqeyini deyil, daha çox hərbi-geostrateji müttəfiqi hesab olunan Türkiyənin maraqlarını dəstəkləyir. Gürcüstanla birlikdə Azərbaycan bölgədəki bəlli geosiyasi qarşıdurmada Türkiyənin və Qərbin tərəfdaşı kiim çıxış etməklə, hazırda nəinki təkcə Türkiyənin regional vasitəçilik rolunu gücləndirir, həm də onun məxsusi təhlükəsizliyi üçün yeganə platsdarm rolunu oynayır. Azərbaycan Türkiyə ilə dünyada və bölgədə ortaq təhlükəsizlik maraqlarını uzlaşdıraraq, vahid hərbi-geostrateji, transmilli enerji və tranzit-ixrac siyasəti yürüdür. O ki, qaldı Türkiyəyə, bu ölkə də öz növbəsində Azərbacanın və Gürcüstanın müstəqilliyini, ərazi bütövlüyü və suverenliyini həm birbaşa dəstəkləyir, həm də onların Avroatlantik təhlükəsizlik strukturları ilə əlaqələrini təmin edir, bu istiqamətdə Cənubi Qafqaz və Xəzər hövzəsində reallaşdırılan transmilli maraqlarının müdafiəsinə lazımi beynəlxalq dəstək verir.

Mütəxəssislər hesab edir ki, Türkiyə həm Azərbaycan və Gürcüstanın vasitəsilə Cənubi Qafqazın təhlükəsizlik arxitekturasının qurulmasında birbaşa iştirak edir, həm də bu ölkələrin müstəqilliyinin və təhlükəsizliyinin əlavə qarantı kimi çıxış edir. Bundan başqa, Türkiyə Şimali Atlantika bloku vasitəsilə hər iki ölkənin müstəqilliyinə və milli təhlükəsizliyinə əlavə dəstək verir, Cənubi Qafqazın bütövlükdə Rusiyadan asılılığını minimuma endirir. Onların fikrinə görə, əgər Türkiyə və onun üzvü olduğu NATO Cənubi Qafqazda Azərbaycanın, Gürcüstanın təhlükəsizliyinə dəstək verməsə idi, hətta bu məsələdə neytral mövqe tutsa idı, o zaman bölgədə heç bir hərbi-geo-

strateji proqramlar, yaxud Rusiya və İranın razı olmadığı transmilli geoiqtisadi layihə reallaşa bilməzdi.[149]

Türkiyənin Xəzər-Qara dənizləri hövzəsi və Cənubi Qafqazdakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqları bölgə ölkələri içərisində tam olaraq Azərbaycan və Gürcüstanla, Qara dəniz hövzəsində isə daha çox Ukrayna və Moldova ilə üst-üstə düşür. Nəzərə alınsa ki, hələ də Xəzər hövzəsi və Orta Asiya dövlətlərində Rusiyanın hərbi-geostrateji və geoiqtisadi təsiri çox güclüdür, yaxın gələcəkdə hətta bütün sahələr üzrə ortaq maraqlarının üst-üstə düşməsi reallığına söykənərək, Türkiyənin bu bölgənin təhlükəsizlik arxitekturasının qurulmasında yaxından iştirakı istisna olunur.

Hazırda Türkiyə Ermənistan istisna olmaqla regionun bütün ölkələri ilə, o cümlədən özünün keçmiş geostrateji rəqibləri sayılan Rusiya və İranla konstruktiv əməkdaşlıq xətti yürüdür. Bir müddət əvvəl Rusiya ilə Gürcüstan arasında silahlı münaqişə baş verəndə, bu ölkə *"Qafqaz sülh platforması"* adlı xüsusi bir təşəbbüslə çıxış edərək Cənubi Qafqazda və bütövlükdə regionda baş verən münaqişələrin "Rusiya, Türkiyə və üç Qafqaz dövləti ilə birgə" həllinə nail olmağa cəhd göstərdi. Bu platforma region ölkələrinin və Qərb dövlətlərinin "xüsusi rəğbətini" qazana bilmədiyi, Türkiyənin hazırda bölgədə xüsusi nüfuz qazanmasının onların maraqlarına uyğun gəlmədiyi üçün hərtərəfli dəstək qazanmadı və deməli, gözlənilən müsbət nəticələri də vermədi.

Türkiyə həm də təkcə Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yaşanan geosiyasi, geoiqtisadi və hərbi-geostrateji proseslərində deyil, bütövlükdə Avrasiyanın əksər taleyüklü regional məsələlərində- İran-Qərb qarşıdurmasında, Suriyada, Misirdə, Liviyada, İsrail-Fələstin münaqişəsində və s.

[149] Вах: Эйвазов Дж. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, 2004.с. 201-204.

proseslərdə fəal mövqe nümayiş etdirir. Rəsmi Ankara öz fəallığı ilə hələ ki, regionda sabitlik yaradılması istiqamətində ciddi nəticələr əldə edə bilməsə də, özünün bölgədəki lider mövqelərini getdikcə gücləndirməkdədir.

Bəzi siyasətşünaslar Türkiyənin regiondakı hazırkı geosiyasi davranışını "ABŞ-ın başda prezident Barak Obama olmaqla Avrasiyada yürütdüyü prinsipsiz və dişsiz siyasət" dən doğan *"qeyri-sabit və qütblərarası gəzişmə siyasəti"* kimi dəyərləndirirlər. Xüsusən, 2010-cu ilin oktyabr ayında Türkiyənin qəbul etdiyi yeni Milli Təhlükəsizlik konsepsiyasında İran, İraq, Suriya, Yunanıstan və Ermənistanın bu ölkənin xarici təhlükə mənbələri siyahısından çıxarılmasını, keçmiş hərbi-siyasi tərəfdaşı hesab olunan İsraili xarici təhlükə, Rusiyanı isə xarici tərəfdaş ölkələr sırasına aid etməsini həmin yanaşmanın nümunəsi kimi qiymətləndirirlər. Bu siyasəti analitiklər həm də ABŞ və NATO-nun qeyri-prinsipial mövqeyi qarşısında *"Rusiyanın Türkiyəni öz regional geosiyasi tərəfdaşları sırasına daxil etməsi və bu istiqamətdə onun xarici siyasət strategiyasının qələbəsi kimi"* təqdim edir, bundan sonra Türkiyənin daha çox Cənubi Qafqaz və Mərkəzi Asiyanı tamamilə Rusiyanın öhdəsinə buraxaraq, Yaxın və Orta Şərqdə, Afrikada, bütövlükdə müsəlman dünyasında fəal geosiyasət yürüdəcəyi ilə bağlı proqnozlar verirlər.[150]

Son illərdə bölgədə möhkəmlənmək, "regional lider" statusu qazanmaq, özünün *yeni xarici siyasət prinsiplərinə* uyğun olaraq qonşularla münasibətlərini səhmana salmaq üçün Türkiyə regionun bütün ölkələri ilə, hətta işğalçı Ermənistanla da tərəfdaşlıq münasibətləri yaratmağa çalışır. Rəsmi Ankaranın Avrasiyada həyata keçirdiyi "qonşularla maksimum inteqrasiya, minimum problem" taktikası hazırda regionda Ermənistanla sərhədlərin açılması, İran, Suriya, İraq və digər qonşu ölkə-

[150] Bax: газ. "Зеркало", 2010, 3 ноября.

lərlə münasibətlərin nizama salınması yönündə fəallıq nümayiş etdirir. Azərbaycanla birbaşa quru sərhədi olmayan (təcrid edilmiş Naxçıvan istisna olmaqla) Türkiyənin rəsmi dairələrinin və bir çox mütəxəssislərin fikrinə görə, bu ölkənin Cənubi Qafqazda və bütövlükdə bölgədə təhlükəsizlik sahəsində tam hərəkət sərbəstliyi qazanmasına və ayrıca olaraq təsirli amilə çevrilməsinə, bir tərəfdən NATO üzvü olması və "bütün addımlarını onunla razılaşdırmaq tələbi" mane olursa, digər tərəfdən, bölgəyə çıxış üçün Gürcüstanla mövcud olan quru sərhədlərinin məhdud imkanları səbəb olur. Odur ki, rəsmi Ankara neçə illərdir ki, qonşu Ermənistanla da regional münasibətlərinin sahmana salınması və sərhədlərin açılması istiqamətində iş aparır. Müşahidələrə görə, Türkiyə geoiqtisadi anlamda- regionun transmilli enerji, nəqliyyat və dəhliz layihələrindəki mövqeyinə görə, yerli ölkələrin daxili siyasətinə təsir imkanları ilə 90-cı illərin sonundan başlayaraq bölgədə həlledici mövqelər qazanmış və Rusiyanı qismən də olsa sıxışdırmağa nail olmuşdur. Lakin, Ermənistanla münasibətlərdəki problemlər və Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin uzanması səbəbindən regionun hərbi-geostrateji həyatında yaxından iştirakı məsələsində, bölgəyə hərbi nəzarət etmək uğrundakı mübarizədə Rusiyadan xeyli geridə qalır. Bu da mütəxəssislərin fikrinə görə, guya ondan irəli gəlir ki, Türkiyənin Cənubi Qafqazın üç ölkəsindən biri ilə- Ermənistanla diplomatik, iqtisadi və siyasi əlaqələri yoxdur və bu baxımdan regiondakı manevr imkanları da məhduddur.

Lakin bir faktı da qeyd etməliyik ki, Türkiyənin Azərbaycanın ərazilərini işğal faktı aradan qalxmamış hər hansı formada Ermənistanla sərhədləri açması, yaxud onunla "dostluq və əməkdaşlıq münasibəti" yaratması müvafiq olaraq Azərbaycanla strateji müttəfiqlik münasibətlərinə mənfi təsir göstərir. Bir dost və müttəfiq kimi, Azərbaycan Türkiyədən "Dağlıq Qarabağ münaqişəsi həll olunmayınca işğalçı ölkə ilə sər-

hədləri açmamaq və iqtisadi-siyasi münasibətlər yaratmamaq" tələbi ilə çıxış edir və bu tələb hər iki qardaş ölkənin geniş ictimaiyyətinin dəstəyini qazanır. Hazırda Türkiyə hökuməti "Azərbaycanın işğal edilmiş torpaqları azad edilmədən Ermənistanla münasibətlərin nizamlamasının qeyri-mümkünlüyü" reallığına əməl edir. Əslində, Ermənistanla diplomatik əlaqələrin qurulması və sərhədlərin açılması tələbi təkcə Türkiyənin "hər hansı regional maraqlarının tələbi", yaxud " bu ölkəni təmsil edən bəzi dairələrinin istəyi" deyil, bu iş həm də Avropa İttifaqının və ABŞ-ın bu sahədəki Ankaraya göstərdikləri mövcud təzyiqlərdən xilas olmaq cəhdi idi.

Türkiyənin Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərinin xarakteristikası

Türkiyə ilə Azərbaycan arasındakı qarşılıqlı əlaqələrin hüquqi-normativ bazasının yaradılması, beynəlxalq, regional və ikitərəfli strateji dostluq və qardaşlıq münasibətlərinin qurulması və s. mühüm addımlar 1993-cü ildə Heydər Əliyev yenidən hakimiyyətə qayıdışından sonra baş verdi. İki dövlət arasındakı münasibətləri "tək millət, iki dövlət" formulu əsasında yenidən formalaşdırmağa başlayan Heydər Əliyev tezliklə Azərbaycanın milli dövlətçiliyinin bərpası və inkişafında, siyasi-iqtisadi və sosial-mənəvi maraqlarının reallaşmasında, beynəlxalq aləmə inteqrasiyasında, Cənubi Qafqaz və Xəzər hövzəsinin regional təhlükəsizliyinin təminatı və s. strateji məsələlərdə dost və qardaş Türkiyənin imkanlarından istifadə etməyə, bütün sahələr üzrə qarşılıqlı tərəfdaşlıq kursu yürütməyə başladı.

Mütəxəssislər bu ölkələrin strateji müttəfiqlik münasibətlərini, bütün beynəlxalq məsələlərdə nümayiş etdirilən vahid mövqedən çıxış etmə taktikasını yüksək qiymətləndirərək, qeyd edirlər ki, Gürcüstan da daxil olmaqla, Cənubi Qafqazda

üç ölkə arasında 90-cı illərin ortalarından yaranan təbii müttəfiqlik münasibətləri, bölgənin bütün transmilli geoiqtisadi, enerji və nəqliyyat layihələrində vahid strategiya ilə iştirak taktikası, beynəlxalq və regional təşkilatlarda eyni mövqedən çıxış etmə ənənəsi hər üç ölkənin geosiyasi birliyini bölgənin əsas güc mərkəzlərindən birinə çevirmişdir.

Türkiyə ilə Azərbaycan arasında səmərəli işbirliyinin möhkəm təməli bəhs olunan illərdə həm də təkcə ikitərəfli əlaqələrdə deyil, regional və beynəlxalq təşkilatlar çərçivəsində yaradıldı. Hər iki dövlət BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Birliyi, EKO, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlarda qarşılıqlı mənafelərin qorunması sahəsində ardıcıl və razılaşdırılmış xarici siyasət xətt yeritməyə başlamışdır. İkitərəfli və çoxtərəfli strateji əlaqələrin möhkəmlənməsi və inkişafı getdikcə Azərbaycanla Türkiyə arasındakı regional tərəfdaşlığı möhkəmləndirdiyi kimi, həm də Cənubi Qafqazda regional əməkdaşlığın ümumi dairəsini genişləndirdi və bölgəyə öz müsbət geosiyasi təsirini göstərdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən Türkiyə Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun haqlı tələblərini ardıcıl müdafiə etmiş, respublikanın ərazi bütövlüyünün və suveren hüquqlarının təmin olunması üçün böyük səylər göstərmişdir. Münaqişənin həlli yolunu yalnız Azərbaycanın razılaşacağı şərtlər çərçivəsində qəbul edəcəyini bildirən Türkiyə münaqişə nizamlanana qədər Ermənistanla hər hansı formada diplomatik münasibətlər qurmayacağı və iqtisadi əlaqələr yaratmayacağı barədə öz qətiyyətli mövqeyini ortaya qoymuşdur.

XX əsrin 90-cı illərində Türkiyənin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda həyata keçirilən transmilli enerji, nəqliyyat-kommunikasiya və digər layihələrə qoşulması bu

ölkəyə çox ciddi beynəlxalq və regional dividentlər gətirdi, Xəzər hövzəsinin enerji resurslarının Avropaya ixracı, yeni yaradılmaqda olan Cənubi Qafqaz nəqliyyat-kommunikasiya və tranzit dəhlizlərinin istismarı sahəsində xüsusi status qazandırdı, onun həm dünyadakı, həm də Avrasiyadakı geosiyasi və geoiqtisadi mövqelərini gücləndirdi. Həmin dövrdə bəhs olunan layihələrin bir tərəfində dünyanın aparıcı dövlətləri və transmilli şirkətləri, digər tərəfindəsə Azərbaycan hökuməti dayanırdı. Prezident Heydər Əliyevin iradəsi ilə 1994-cü il sentyabrın 20-də Azərbaycanla Qərbin aparıcı neft-qaz şirkətləri arasında imzalanan "Əsrin müqaviləsi"ndə Türkiyənin iştirakı təmin edildi, yaradılan neft konsorsiumunda "Türk petrolları" şirkəti də yer aldı. Türkiyənin 1994-cü ildən sonra Cənubi Qafqazda reallaşdırılan əksər transmilli layihələrdə təmsil olunması və əsas geosiyasi amillərdən biri kimi çıxış etməsi Azərbaycanın bu ölkə ilə bağlı nümayiş etdirdiyi strateji tərəfdaşlığın birbaşa təzahürü idi.

Bunun ardınca Azərbaycan TRASEKA layihəsi çərçivəsində Cənubi Qafqaz və Xəzər hövzəsində həyata keçirilən Şərq-Qərb transmilli nəqliyyat-kommunikasiya layihələrinin gerçəkləşdirilməsində Türkiyənin yaxından iştirakına və aparıcı ölkələrdən birinə çevrilməsinə nail oldu. Avropa ilə Şərq ölkələri arasında nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılması sahəsində mühüm əhəmiyyət kəsb edən Böyük İpək Yolunun bərpasına dair 1998-ci il sentyabrın 8-9-da Bakıda keçirilmiş beynəlxalq konfransda Türkiyə prezidenti S. Dəmirəl də iştirak etmişdir. Bu layihənin həyata keçirilməsi iki ölkə arasında strateji tərəfdaşlığın dərinləşməsinə yeni stimul vermişdir.

Ümumiyyətlə, Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsi təkcə onun Türkiyə ilə strateji tərəfdaşlıq münasibətlərinin daha da dərinləşməsinə deyil, həm də bütövlükdə Avrasiyada, Cənubi Qafqazda regional sabitliyin möhkəm-

lənməsi və yerli ölkələr arasında tərəfdaşlığın genişlənməsinə xüsusi təkan vermişdir. Bu sahədə ardıcıl siyasət yürüdən Azərbaycan Respublikası Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün əsas marşrutun müəyyən olunmasında da ilk növbədə özünün və qardaş Türkiyənin mənafelərinə tam cavab verən qərar qəbul etmişdir. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair" Saziş imzalamışlar. Həmin gün, eyni zamanda "Şahdəniz" yatağından hasil olunan təbii qazın Bakı-Tbilisi-Ərzurum marşrutu üzrə Türkiyəyə nəql olunması üçün qaz boru kəmərinin də inşasını həyata keçirmək haqqında qərar qəbul etmişlər. Bu layihələrin reallaşması bir tərəfdən Azərbaycan və Türkiyənin sosial-iqtisadi inkişafına, regional təhlükəsizliklərinin möhkəmlənməsinə, ikitərəfli və çoxtərəfli qarşılıqlı əlaqələrinin güclənməsinə və dünya birliyinə hərtərəfli inteqrasiyasına təkan verdi, digər tərəfdənsə hər iki ölkənin bütün bölgədəki və dünyadakı geosiyasi mövqelərini gücləndirdi, onları enerji, nəqliyyat-kommunikasiya və digər transmilli sahələr üzrə Avropanın əsas aparıcı tərəfdaşlarından birinə çevirdi.

Keçən müddətdə iqtisadi, siyasi, beynəlxalq və regional münasibətlər sahəsində inkişaf edən Azərbaycan Türkiyə münasibətləri hərbi-geostrateji sahədə də həyata keçirilmiş və öz bəhrələrini vermişdir. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı ildən-ilə genişlənmiş- milli ordu üçün zabit kadrlarının hazırlanması, hərbi təlimlərin keçirilməsi, ordunun maddi-texniki bazanın möhkəmləndirilməsi və NATO standartlarına uyğunlaşdırılması sahəsində davam etdirilmişdir. 1999-2002-ci illər-

də hərbi əməkdaşlıqla bağlı imzalanmış bir sıra sənədlər iki ölkə arasında əlaqələrin daha dolğun, əməli xarakter kəsb etməsində, Azərbaycan ordusunun potensialının yüksəlməsində mühüm rol oynamışdır. Bu sahədə həyata keçirilən tərəfdaşlığın əsas istiqamətlərindən biri də 1999-cu ildə iki ölkə arasında imzalanmış sazişə əsasən Azərbaycan hərbi kontingentinin Türkiyə hərbi hissələrinin tərkibində Kosovoda sülhməramlı missiya yerinə yetirilməsi olmuşdur. Bu addım Azərbaycanın ümumavropa təhlükəsizlik sisteminə qoşulması əzmini təsdiq edirdi.

Türkiyə ilə ikitərəfli geosiyasi, geoiqtisadi və hərbi-geostrateji münasibətlərin ildən-ilə möhkəmlənməsi hələ 1999-cu ilin noyabrında ATƏT-in İstanbul Zirvə toplantısında Prezident Heydər Əliyevə Türkiyənin iştirakı ilə Cənubi Qafqazda "Qafqaz paktı" adlanan regional sülh platformanın yaradılması ideyası ilə çıxış etməsinə imkan vermişdir. Bu ideyanın həyata keçirilməsində növbəti addım 2002-ci il aprelin 29-30-da Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin Trabzonda keçirilən Zirvə görüşündə atılmışdır. Görüşdə aparılan müzakirələrdən sonra Azərbaycan, Türkiyə və Gürcüstan arasında "Terrorizm, mütəşəkkil cinayətkarlıq, qanunsuz narkotik və psixotrop maddələrin qaçaqmalçılığı, qeyri-qanuni yollarla əldə olunmuş vəsaitin yuyulması, silah və insan alveri və digər mühüm cinayətlərlə mübarizə haqqında" müqavilə imzalanmışdır. Bu müqavilə Türkiyənin Cənubi Qafqazın geosiyasi həyatı ilə yanaşı, həm də hərbi-strateji və təhlükəsizlik arxitekturasının qurulmasındakı iştirakını təmin edirdi.

Türkiyə ilə Azərbaycan arasındakı ikitərəfli strateji tərəfdaşlıq münasibətlərinin bugünkü müttəfiqlik səviyyəsinə yüksəlməsində 2009-cu ilin avqust ayının 16-da prezidentlər İlham Əliyev və Abdullah Gülün Bakıda imzaladığı "Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə" mühüm rol oynamışdır. Müqaviləyə əsasən,

tərəflər bundan sonra bir-birilərinin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının təmin olunmasında və qorunmasında sıx əməkdaşlıq edəcək, təhdid və təhlükələrin aradan qaldırılması istiqamətində görülə biləcək tədbirlər barədə təxirə salınmadan məsləhətləşmələr aparacaqlar. Müqavilə, həmçinin tərəflərdən birinin üçüncü dövlət və ya bir qrup dövlətin silahlı basqın və ya hərbi təcavüzünə məruz qalması halında bir-birinə qarşılıqlı yardım göstərməsini nəzərdə tutur və bu sahədə birgə fəaliyyətin hüquqi bazasını yaradır.[151]

Azərbaycan prezidenti İlham Əliyevin 12-13 noyabr 2013-cü il tarixlərində Ankaraya gerçəkləşdirdiyi rəsmi səfər Türkiyə-Azərbaycan ikitərəfli münasibətlərinin inkişafına xüsusi təsir göstərmişdir. Türkiyə ilə Azərbaycan arasındakı dostluq, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin müasir dövrdə həm regional, həm də beynəlxalq müstəvidə ikitərəfli, həm də çoxtərəfli əsasda müvəffəqiyyətlə davam etməsini vurğulayan prezident İlham Əliyev qeyd etmişdır ki, Türkiyənin getdikcə güclənməsi və ciddi regional güc mərkəzinə çevrilməsi təkcə türk xalqını deyil, həm də azərbaycan xalqını qürurlandırır. Türkiyə nə qədər güclü olsa, Azərbaycan da bir o qədər güclü olacaqdır. Türkiyə Azərbaycan üçün ən yaxın dost, qardaş və müttəfiq ölkədir.[152]

Mütəxəssislərin fikrinə görə, 2009-cu ildə Türkiyə ilə Azərbaycan arasındakı yaşanan "Sürix protokolu" böhranından sonra prezident İlham Əliyevin Ankaraya bu səfərindən sonra bütün sahələr üzrə ikitərəfli münasibətlərin yeni mərhələsi başlanmışdır.[153] Analitiklərin təhlilləri göstərir ki, 2009-cu

[151] Bax: "Kaspi" qəzeti, № 207, 14.11.2013.s.3.
[152] Bax: "Azərbaycan" qəzeti, N249,13.11.2013.
[153] 2009-cu ildə Türkiyə və onun Qərb tərəfdaşları tərəfindən İsveçrənin Sürix şəhərində Ermənistanla sərhədlərin açılmasına göstərilən uğursuz cəhddən sonra Azərbaycan-Türkiyə münasibətlərində müəyyən problemlər ortaya çıxdı

ildən sonra Azərbaycan-Türkiyə münasibətləri iki istiqamətdə dəyişib; birincisi, ikitərəfli münasibətlərdə ictimai qurumların, siyasi partiyaların, QHT-lərin, mətbuatın, ziyalıların və elm adamlarının rolu artıb; ikincisi, münasibətlər strukturlaşdırılıb. Bütün bunların təsiri altında, 2010-cu ildə tərəflər arasında çoxdan gözlənilən və ehtiyac duyulan Strateji Müttəfiqlik Haqqında və Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması barədə razılığa gəlinib və 15 sentyabr 2010-cu ildə bu barədə İstanbulda Prezident İlham Əliyev ilə Başbakan Rəcəb Tayyib Ərdoğan tərəfindən müqavilə imzalanıb. Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası Türkiyə ilə Azərbaycan arasındakı ikitərəfli münasibətlərdə bütün sahələrin ortaq problemlərini müzakirə edə biləcək və tərəfdaşlıq yolları axtaracaq üstün səlahiyyətli bir strukturdur. Mütəxəssislərin fikrinə görə, Strateji Əməkdaşlıq Şurası ikitərəfli münasibətlərdəki indiyə qədərki koordinasiya çatışmazlıqlarını aradan qaldırma və minimuma endirmə fürsəti yaradıb.[154]

Azərbaycan-Türkiyə münasibətlərinin strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlməsini ekspertlər və nüfuzlu analitiklər dünyada ən sıx və möhkəm müttəfiqlik münasibətlərinə malik olan əlaqə kimi dəyərləndirirlər. Onların fikrinə görə, iki ölkə arasındakı istər iqtisadi-siyasi və sosial-mədəni, istərsə də hərbi-strateji tərəfdaşlıq münasibətləri bir-biri üçün xüsusi önəm daşıyır. Azərbaycan Türkiyə üçün Cənubi Qafqazda daha geniş və hərtərəfli əməkdaşlıqların formalaşdırıl-

və ciddi böhran yaşandı. Bu böhran Azərbaycanda müasir Türkiyə, onun məxsusi milli maraqları və xarici siyasətinin reallıqları ilə bağlı emosiyalardan uzaq daha dolğun və praqmatik düşüncənin və məlumat bazasının yaradılması ehtiyacını, Türkiyədə isə Dağlıq Qarabağ məsələsində Azərbaycan xalqının ciddi həssaslığının düzgün dərk edilməsinin vacibliyini ortaya qoydu. Beləliklə, hər iki tərəf gələcək ikitərəfli münasibətlərin, ilk növbədə qarşılıqlı maraqlara söykənən əlaqələrin qurulması və yeni praqmatik tərəfdaşlıq mərhələsinə keçmənin zəruriliyini dərk etdi.

[154] Bax: "Azərbaycan" qəzeti, N249,13.11.2013.

ması üçün xüsusi əhəmiyyətə malik ölkədir. Onun təşəbbüsü və ciddi səyi ilə regionda Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum kimi transmilli qaz kəmərlərinin işə salınması, Çin və Orta Asiyanın Avropaya çıxışına imkan verəcək Bakı-Tbilisi-Qars beynəlxalq dəmir yolunun inşasının həlledici mərhələyə qədəm qoyması və s. layihələr Türkiyəni həm regionda, həm də beynəlxalq aləmdə strateji baxımdan ən önəmli ölkələrdən birinə çevirmişdir. Bu müstəvidə də Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycanın beynəlxalq əhəmiyyət daşıyan tranzit məntəqə rolunu oynaması və strateji baxımdan əvəzedilməz mövqeyə malik olmasını Türkiyədə yüksək qiymətləndirirlər. Çünki, istər müxtəlif enerji layihələrinin reallaşdırılması, istərsə də regional əməkdaşlıqlar baxımından Azərbaycanın mövqeyi Türkiyə üçün olduqca vacibdir. Türkiyə də öz növbəsində Azərbaycan üçün zəruri strateji önəmə malik tərəfdaşdır. İstər Dağlıq Qarabağ münaqişəsinin həlli, istərsə də sülh və sabitliyin təmin olunması bölgədə yeni əməkdaşlıq platformalarının formalaşdırılması, qlobal miqyasda milli və transmilli maraqların müdafiəsi məsələlərində olduqca böyük əhəmiyyət daşıyır.

Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həlli istiqamətində bütün müstəvilərdə Azərbaycana dəstək nümayiş etdirməkdədir. 1993-cü ildə erməni quldur dəstələri tərəfindən Azərbaycanın Kəlbəcər rayonunun işğal edilməsindən sonra BMT Təhlükəsizlik Şurasının Ermənistana qarşı "işğal olunmuş torpaqların qeyd-şərtsiz azad edilməsi" tələbi ilə növbəti Qətnaməsi qəbul edilmişdir. Türkiyə bu tələbə qoşularaq işğalçı Ermənistanla "işğal edilmiş Azərbaycan torpaqları azad edilməyənə qədər" sərhədlərini bağlamışdır. O vaxtdan başlayaraq Türkiyənin Ermənistanla sərhəddi açması üçün irəli sürdüyü əsas şərt BMT qətnamələ-

rinə uyğun olaraq və beynəlxalq hüququn tələbi kimi: erməni silahlı birləşmələrinin işğal etdikləri Azərbaycan ərazilərindən geri çəkilməsi, qaçqın və məcburi köçkünlərin öz əvvəlki yaşayış yerlərinə qaytarılması və Cənubi Qafqazda etibarlı regional sülhün yaradılması şərtini irəli sürmüşdür. Bu müstəvidə Baş nazir R. T. Ərdoğan bir neçə il öncə Azərbaycana səfəri zamanı Milli Məclisdəki çıxışında öz ölkəsinin mövqeyinə bir daha aydınlıq gətirmişdir. Ermənistanla sərhədlərin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsindən sonra bağlandığını xatırladan Baş nazir "sərhədlərin yalnız işğal faktı ortadan qalxandan sonra açıla biləcəyi etimalını" parlament üzvlərinin diqqətinə çatdırmışdır.[155]

Hazırda Azərbaycan Türkiyəyə hökumətindən "Ermənistanın işğalçılıq siyasətinə son qoyulmayınca, Dağlıq Qarabağ münaqişəsi həll olunmayınca və Cənubi Qafqazda etibarlı regional sülh və təhlükəsizlik mühiti yaranmayınca Ermənistanla sərhədləri açmamaq, işğalçı ölkə ilə heç bir diplomatik əlaqə yaratmamaq" tələbində israr edir və öz istəyinə hələ ki, nail olur.

Mütəxəssislərin fikrinə görə, Azərbaycanla Türkiyə arasındakı ikitərəfli strateji müttəfiqlik münasibətlərinin qurulmasında son zamanlar Şərq-Qərb əlaqələrindəki Cənub dəhlizi çərçivəsində mövcud və inşası davam edən transmilli tranzit və enerji layihələri üzrə ortaq tərəfdaşlıq maraqları mühüm rol oynamışdır. Bu layihələrdən ikisi hazırda dünya mediasında haqqında geniş bəhs olunan TANAP və TAP-dır. Azərbaycan ərazisindən başlayaraq Gürcüstan və Türkiyəni, eləcə də Avropanın Adriatik dənizi sahillərini birləşdirəcək "Kiçik Nabucco" adlandırılan Trans-Anadolu Təbii Qaz Xətti (TANAP) və

[155] Bax: Dadaşov T. Türkiyə-Azərbaycan: Möhkəm təməllər üzərində dayanan strateji tərəfdaşlıq // "Kaspi" qəzeti, № 207, 14.11.2013.s.3.
[155] Yenə orada

Trans Adriatik Layihəsi (TAP) Türkiyə-Azərbaycan münasibətlərində yeni bir mərhələdir və üçüncü dövlətin təsiri olmadan onların birgə səyinin nəticəsində ortaya çıxıb. Türkiyə və Avropanın təbii qaz ethiyacını ödəməyə və regionda enerji ehtiyatı çeşidliliyi yaratmağa yönələn bu xəttlər Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurumun (BTE) ardından gələn ən vacib strateji layihələrdir. Regionun enerji balansında köklü dəyişikliyə səbəb olacaq bu layihələr Azərbaycan və Türkiyənin ortaq əməkdaşlığı nəticəsində həyata keçmişdir. TANAP və TAP vasitəsi ilə iki müttəfiq ölkə regionun və Avropanın enerji bazarında ortaq enerji siyasəti planlaşdırır. SOCAR-ın xaricdəki ən vacib strateji layihəsi olan bu qaz xəttləri Türkiyənin ümumavropa "enerji qovşağı" statusunu daha da möhkəmləndirir. TANAP və TAP xaricində, Azərbaycan Türkiyədə Star neftayırma zavodunun inşasına və digər iqtisadi-enerji layihələrinə 2017-ci ilə qədər bütövlükdə 17 milyard dollar vəsait yatıracaqdır. [156]

Göründüyü kimi, Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərinin strateji tərəfdaşlıq xarakteri kəsb etməsi həm Cənubi Qafqazda, həm də bütövlükdə Avrasiyada, bir tərəfdən hər iki dövlətin məxsusi mənafelərini təmin edir, digər tərəfdənsə regional sabitliyin qorunması, ölkələr arasında inteqrasiya proseslərinin intensivləşməsi və bölgə xalqlarının sosial-iqtisadi tərəqqisi üçün əlverişli şəraitin yaradılmasına mühüm təsir göstərir.

Mütəxəssislər Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasındakı hazırkı mövcud münasibətləri dünya təcrübəsində tək-tək rast gəlinə bilən, bəlkə də analoqu olmayan strateji müttəfiqlik kimi xarakterizə edirlər. Onların fikrinə görə, bu münasibətlərin kökündə ilk növbədə etnik yaxınlıq amili

[156]Yenə orada

dayansa da, əlaqələr yalnız etnik birlik amilinə söykənmir. Azərbaycanla Türkiyə arasında həm də müxtəlif sahələrdə qarşılıqlı milli dövlət maraqlarından qaynaqlanan ciddi və praqmatik tərəfdaşlıq münasibətləri mövcuddur.

Azərbaycan və Türkiyə münasibətlərinin hərtərəfli təhlili göstərir ki, etnik yaxınlıq və eyni zamanda ümumi strateji milli maraqların mövcudluğu, regiondakı geosiyasi vəziyyətlərinin, hərbi- geostrateji və geoiqtisadi mənafelərinin ümumiliyi, həmçinin bir çox regional və beynəlxalq məsələlərin həlli ilə bağlı ümumi baxışlar iki ölkə arasındakı strateji müttəfiqliyin və beynəlxalq aləmdə vahid mövqedən çıxış etmənin ən başlıca şərtidir. Çünki yaxın və uzaq keçmişin tarixi təcrübəsi sübut edir ki, istənilən iki müttəfiq dövlətdən biri digərinin mənafeyini öz milli maraqlarının imkan vermədiyi məqamda nəzərə almaya bilər.[157]

Fikrimizcə, iki ölkə arasındakı münasibətlər ilk növbədə, etnik-dini təəssübkeşlik rəngindən azad, sivil dövlətlərarası münasibətlərə cavab verən, qarşılıqlı faydalı əlaqələrə əsaslanan və sıx müttəfiqlik telləri ilə bağlanan dövlətlərarası münasibət şəklində davam etdirilməlidir. Təbii ki, Türkiyənin bölgədəki geosiyasi perspektivləri və bu sahədə qazanacağı uğurlar ilk növbədə və birbaşa Azərbaycanla bağlıdır. Lakin, iki ölkə arasındakı strateji tərəfdaşlığı şərh edərkən, bəzən yerli şərhçilər daha çox etnik birlik və ümumi dil amilini xüsusi qabardırlar. Əslində, Türkiyə-Azərbaycan əlaqələrində bu amildən qaçmaq da mümkün deyil. Lakin, müasir dünyada ölkələr arasındakı müttəfiqlik və tərəfdaşlığın kökündə təkcə bu amillər dayana bilməz. Müasir beynəlxalq münasibətlər şəraitində xalqların və dövlətlərin etnik-mədəni birliyi həm də qarşılıqlı-faydalı münasibətlərə söykənməli, ortaq mənafelərə uyğunlaşdırıl-

[157] Bax: "Kaspi" qəzeti, №207,14.11.2013, s.3.

malı, geosiyasi maraqların balansı prizmasından qiymətləndirilməli və bu maraqların üst-üstə düşməsi təmin edilməlidir.

O ki qaldı Türkiyənin Qafqaz siyasətinə, fikrimizcə bu siyasət elə qurulmalı və Azərbaycanla münasibətləri hərtərəfli hüquqi-normativ baza əsasında elə həyata keçirilməlidir ki,

əvvəla, bu münasibətlər bərabərhüquqlu, qarşılıqlı-faydalı olsun. Hər iki dövlətin siyasi, iqtisadi, mədəni, sosial, təhlükəsizlik maraqlarına cavab versin və onların sivil beynəlxalq münasibətlərə tam uyğunluğu açıq-aşkar seçilsin;

ikincisi, iki dövlət arasındakı əlaqələr müttəfiqlik prinsiplərinə söykənməklə yanaşı, həm də Bakı ilə Ankaranın başqa ölkələrlə əlaqələrinə xələl gətirməməlidir. Hər bir dövlət özünün üçüncü dövlətlə və yaxud dövlətlərlə münasibətlərində sərbəst olmalı və həmin subyektlərlə münasibətlərindən bir-birinin ortaq mənafelərinin qorunması məqsədi ilə istifadə etməlidir;

üçüncüsü, Türkiyə-Azərbaycan münasibətləri hər iki dövlətin müstəqil dövlətçiliyinin, konstitusiya quruluşunun qorunmasına və inkişafına, ərazi bütövlüyünün saxlanmasına xidmət etməli, hər birinin dövlət və milli atributlarına, milli dəyərlərinə hörmət üzərində qurulmalı, bir-birinin daxili işlərinə, xalqlarının strateji və cari seçimlərinə, tutduqları yola müdaxiləni istisna etməli;

dördüncüsü, beynəlxalq aləmdə bir-birinin təəssübünü çəkməli, maraqlarını qorumalı, eyni zamanda bunu yalnız beynəlxalq hüquq normalarına uyğun şəkildə etməlidirlər.

Cənubi Qafqazın hazırkı geosiyasi vəziyyətindən çıxış etsək, iki ölkə arasındakı tərəfdaşlıq münasibətlərinin tələbi həm də ondan ibarətdir ki, Türkiyə Qafqazda öz geosiyasi fəaliyyətini Azərbaycanın maraqlarını nəzərə almaqla və dəstəyini qazanmaqla həyata keçirsin, Azərbaycan isə özünün Qərb tərəfdaşları ilə transmilli enerji və nəqliyyat- kommunikasiya əlaqə-

lərini eyni prinsipləri gözləməklə həyata keçirsin. Azərbaycan Türkiyə üçün Cənubi Qafqazda olduğu kimi, həm də Orta Asiya və Xəzər bölgəsində digər dövlətlərlə, xüsusən, türkdilli ölkələrlə, islam dininə mənsub xalqlarla əlaqə üçün mühüm vasitə rolunu oynaya bilər və oynayır.

Türkiyənin Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsində malik olduğu geosiyasi mövqe həm də bu ölkənin regionun Rusiya, İran, Ukrayna və Gürcüstan kimi ölkələri ilə qarşılıqlı münasibətlərdən asılıdır. Bu istiqamətdə də Türkiyə özünün regional maraqlarını elə gerçəkləşdirməlidir ki, Cənubi Qafqazda Rusiya, İran və Ukrayna ilə üz-üzə gəlməsin, sağlam rəqabət şəraitində mümkün qədər ortaq maraq və mənafelərə cavab versin. Bundan başqa, Türkiyənin regional siyasəti Rusiya, İran və Ukraynanın milli maraqlarının Azərbaycan və Gürcüstanın milli və strateji maraqları ilə üst-üstə düşməsinə, qarşılıqlı faydalı xarakter kəsb etməsinə də dəstək verməlidir. Ən əsası isə, Türkiyənin regional siyasəti Cənubi Qafqazın ən əhəmiyyətli geosiyasi bölgəsində yerləşən Azərbaycan və Gürcüstanın ikitərəfli əlaqələrinin strateji müttəfiqlik prinsipləri üzərində qurulmasına və inkişafına təkan verməlidir. Əks halda, Azərbaycan-Türkiyə münasibətlərinin taleyi daim Rusiya, Ukrayna, İran və Ermənistanın bu məsələyə münasibətindən asılı olacaq və dəyişkən xarakter daşıyacaq. Türkiyə regionun digər maraqlı dövlətləri ilə münasibətlərini qurarkən, Azərbaycan və Gürcüstanın maraqlarını nəzərə almalı, bu iki müttəfiq ölkənin bir tərəfdən Türkiyə, o biri tərəfdənsə digər region dövlətləri arasında məcburi seçim qarşısında qalmasına yol verməməlidir. Əks təqdirdə, maraqlar mübarizəsi daim həm Türkiyəni, Azərbaycanı, həm də onlarla strateji müttəfiqlik marağı olan Gürcüstanı təhdid edəcək və onların mövqeyinə zərbə vuracaq.

Bir sözlə, Türkiyənin Qafqaz siyasəti İran, Rusiya, Ukrayna, ABŞ, Avropa dövlətləri arasındakı ortaq və kəsişən maraqlar sistemi, Cənubi Qafqazın yerli ölkələrinin milli mənafeləri

və regiona marağı olan beynəlxalq, regional güc mərkəzləri arasındakı münasibətlərin bütün incəliklərini nəzərə almaqla həyata keçirilməlidir. Yalnız o zaman Türkiyə Qafqazda tam müvəffəqiyyətli geosiyasət həyata keçirə, Azərbaycanın və onun Qafqaz müttəfiqi olan Gürcüstanın geosiyasi maraqlarını ifadə edə bilər.

Türkiyənin Cənubi Qafqazdakı keçmiş, indiki və gələcək geosiyasi, geoiqtisadi və hərbi-geostrateji uğurları, yaxın perspektivdə əldə edə biləcəyi müsbət nəticələr, fikrimizcə onun bu məkandakı əsas strateji müttəfiqləri hesab olunan Azərbaycan və Gürcüstanla koordinasiya edilməklə, ayrı-ayrılıqda həm bölgənin Rusiya və İran kimi ölkələri, həm də beynəlxalq güclərlə- ABŞ və Qərblə qarşılıqlı münasibətlərinin daha da çevikləşdirilməsi, ciddi risklərə getmədən, daim səhmanda saxlanılması, iqtisadi tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi, işgalçı ölkə olan Ermənistanın davamlı olaraq təzyiq altında və bölgədə reallaşdırılan transmilli layihələrdən kənarda saxlanılması, Ukrayna, Moldova, Orta Asiya ölkələrini tədricən öz tərəfinə çəkərək, onlarla regional müttəfiqlik münasibətlərinin inkişaf etdirməsindən keçir.

§ 1.7. İranın Avrasiya siyasəti və Azərbaycanla geosiyasi münasibətlərinin xarakteristikası

Orta əsrlərdən başlayaraq Avrasiya regionunun öz məxsusi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji davranışı və maraqlar sistemi ilə seçilən əsas ölkələrindən biri də İran İslam Respublikası (İİR) hesab olunur. İİR siyasi sistemi islam dəyərlərinə söykənən və konstitusiya quruluşu Ali Ruhani Şura tərəfindən mühafizə olunan teokratik dövlətdir. 1979-cu il inqilabından sonra təxminən son yarım əsrə yaxın müddətdə bu ölkə beynəlxalq aləmdə, əsasən zəngin neft və qaz ehtiyat-

larına malik olması, islam dininin şiə məzhəbinin daşıyıcısı və anti-amerikan siyasəti ilə tanınır. ÜDM-inn 80%-ni neft və qaz ixracından əldə edən İİR-in sənaye məhsullarının istehsalı ilk növbədə, daxili ehtiyacların ödənilməsinə hesablanıb və qonşu müsəlman ölkələrinin bazarlarında satılır.

Tarixi və coğrafi baxımından İran Avrasiyanı həmişə öz milli maraqlarının təmsil olunduğu region (zona) elan edib. Bu dövlətin regiondakı geosiyasi, geoiqtisadi və hərbi-strateji mövqeləri çox əlverişlidir. İran ərazisi bir tərəfdən Qafqaza, digər tərəfdən Fars körfəzinə, üçüncü tərəfdənsə Orta Asiyaya əlverişli çıxış imkanlarına malikdir. Avrasiya İran üçün önəmli regional əhəmiyyət daşıyır və rəsmi Tehran özünün kommunikasiya və geoiqtisadi problemlərini məhz bu məkandan yararlanmaqla həll etməyə çalışır.

1979-cu il inqilabından sonra İran rejiminin ABŞ və digər Avropa ölkələri ilə kəskin münasibətini nəzərə alaraq beynəlxalq transmilli şirkətlər, xüsusən, Qərb investorları bu ölkəyə kapital qoyuluşunu dayandırmış və hazırda da onunla iqtisadi münasibətləri riskli hesab edirlər. Qərbin İranla ehtiyatlı davranışı həm də onunla şərtlənir ki, 1979-cu ildən başlayaraq ABŞ bu ölkəyə qarşı iqtisadi təcridetmə siyasəti yürüdür. Bütün bu amillər İranın beynəlxalq siyasi və iqtisadi əlaqələrinə ciddi maneələr yaratmışdır.

SSRİ-nin süqutundan sonra İran bölgənin yeni müstəqil dövlətlərinin siyasi, iqtisadi və mənəvi həyatına ən çox təsir və təzyiq göstərən regional güc mərkəzlərindən birinə çevrildi, yerli ölkələrlə, ölkədaxili dini, etnik və sosial cəmiyyətlərlə hərtərəfli əlaqələr yaratdı. Tehran regiondakı geosiyasi mövqelərini və təsirini təkcə ikitərəfli əlaqələr vasitəsilə deyil, həm də ənənəvi olaraq nüfuzunun güclü olduğu İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı və digər regional qurumlar vasitəsi ilə möhkəmləndirməyə çalışırdı.

Rusiya, ABŞ və Türkiyədən fərqli olaraq, İran bölgə ölkələrində gedən daxili siyasi proseslərdə daim tərəfsiz siyasi mövqe nümayiş etdirməyə çalışmış, əsasən yerli icmalar içərisində yaxın tərəfdarlar toplayaraq, daha çox özünə dini və sosial dayaqlar yaratmaqla seçilmişdir. Bu istiqamətdə onun əsas üstünlüklərindən biri region ölkələrinin və xalqlarının çoxunun müsəlman olması idi ki, Tehran bu amildən məharətlə istifadə etməyə çalışır.

İran Cənub-Şərqi Asiya ölkələri və Rusiya ilə əlaqə baxımından Avrasiyaya həm də tranzit region kimi xüsusi diqqət yönəldir. Lakin bu ölkə də Rusiya kimi, Avropa istiqamətində öz tranzit imkanlarına xələl gətirməmək üçün digər region dövlətlərinə – xüsusən, Azərbaycan, Gürcüstan və Türkiyəyə ciddi rəqib kimi yanaşır. İranın bu istiqamətdəki tranzit planları ona yönəlib ki, qlobal dünyanın alternativ istiqamətdə qurmağa çalışdığı Şərq-Qərb əlaqələri, TRASEKA tipli nəqliyyat-kommunikasiya marşrutları Cənubi Qafqazdan yan keçməklə, Çindən başlayaraq Orta Asiya-İran-Fars körfəzi vasitəsi ilə Aralıq dənizinə qədər uzansın. Bu məqsədlə 1996-cı ildə onun iştirakı və xüsusi dəstəyi ilə Türkmənistan-İran (Məşhəd-Tezcan-Sərahs) dəmiryolu da inşa edilmişdir.

İran bölgənin lider dövləti və dünyadakı şiə məzhəbli müsəlman rejimlərinin "əsas himayəçisi" statusuna iddia edərək, Avrasiyanın Orta Asiya və Cənubi Qafqaz bölgəsində, Rusiyanın müsəlman əhalisi olan bölgələrində, Türkiyə, İraq, Əfqanıstan və s. müsəlman dövlətlərində özünün maddi, mənəvi, strateji, ideoloji, informasiya və s. maraqlarını, geosiyasi təsir mexanizmlərini daim genişləndirməyə cəhd edir. Onun xarici siyasətinin əsas prioritetləri də məhz bu vəzifələrin reallaşdırılması üzərində cəmlənmişdir. Xəzər hövzəsi və Cənubi Qafqaz İran üçün Yaxın və Orta Şərq, Fars körfəzi ilə yanaşı, geosiyasi proseslərin cərəyan etdiyi ən mühüm məkanlardan biridir.

Geosiyasi cəhətdən İran bu bölgədə ayrı-ayrılıqda nə ABŞ və Qərbin, nə də ki, Rusiya, Türkiyə və Çinin möhkəmlənməsinin və geosiyasi təsirlərini artırmasının tərəfdarıdır. Hərbi-siyasi sahədə o, ABŞ və Qərb dövlətlərindən, yaxud onların tərəfdaşı hesab olunan Türkiyədənsə Rusiya və Çinlə geniş regional ünsiyyətə can atır. Həm Qərbin bölgədə getdikcə artan nüfuzunu azaltmaq, həm də eyni zamanda bu düşərgə ilə öz tərəfdaşlıq münasibətlərini qoruyub saxlamaq məqsədi güdən Rusiyadan fərqli olaraq, İran ABŞ-ın regionda yürütdüyü siyasətə qarşı açıq və birmənalı əks mövqe sərgiləyir. Bu ölkənin nüvə proqramı üzərində həyata keçirdiyi fəaliyyəti Qərbin tələbi ilə dayandırmaqdan imtina etməsi də bu sərtliyin göstəricisidir.

Mütəxəssislərin fikrinə görə, bütün regional geosiyasi və geoiqtisadi məsələlərdə İranın əsas müttəfiqi Rusiya hesab olunur. İran Azərbaycan və Türkiyəyə rəqib kimi baxır, Qazaxıstan və Türkmənistanla isə tərəfdaşlığı gücləndirməyə, onların mövcud imkanlarından istifadə etməyə çalışır. İran ABŞ və Qərb ölkələrinin onun ətrafında yaratdığı iqtisadi izolyasiyanı region dövlətləri hesabına aradan qaldırmağa və onların nəqliyyat-energetika dəhlizlərindən istifadə edərək dünya bazarlarına çıxmağa səy göstərir. Nəqliyyat-kommunikasiya dəhlizləri məsələsində İran Azərbaycan, Gürcüstan, Rusiya və Çinlə rəqibdir. Əlbəttə, bu ölkə istəyir ki, bütün enerji məhsulları dünya bazarlarına Cənubi Qafqaz dəhlizi vasitəsilə deyil, Fars körfəzi vasitəsilə çıxarılsın. İran bununla yanaşı, həm özünün tranzit gəlirlərini artırmaq, həm də enerji resurslarının ixracı məsələlərinə geosiyasi təsir göstərmək məqsədi güdür.

İranın regional geosiyasətində Rusiya amilini şərh edən mütəxəssislərin fikrinə görə, İranla Rusiyanın Cənubi Qafqazdakı geosiyasətinin bir çox məqamları üst-üstə düşsə də, Orta Asiyaya münasibətdə vəziyyət bir qədər fərqlidir. Belə ki, İran Rusiyanın Cənubi Qafqazdakı mövqelərinin möhkəmlənməsin-

də maraqlı görünür, çünki Qərb və Türkiyənin regionda fəallaşmasına qarşı təkbaşına müqavimət göstərmək iqtidarında deyil. Orta Asiyada isə İranın artıq öz strateji planları var və bu regionda Rusiya İran üçün ciddi rəqib rolunda çıxış edir. Mütəxəssislərin fikrinə görə İranın əsas məqsədi Orta Asiya regionunu özünün geoiqtisadi maraqları çərçivəsinə daxil etmək və ilk növbədə nəqliyyat-kommunikasiya layihələrində fəal rol oynamaqdır. Bu istiqamətdə İran bir sıra uğurlar əldə edib, çünki region ölkələri bu dövlətin tranzit-nəqliyyat magistrallarından istifadə etməkdə maraqlıdırlar. Amma, hələlik bu dəhlizlərdən enerji daşıyıcılarının nəqli üçün istifadə olunmadığından, həmin layihələr ciddi geostrateji əhəmiyyət daşımır. Buna görə də hazırda İran Qazaxıstan neftinin və Türkmənistan qazının öz ərazisindən nəqlinə nail olmaq istiqamətində xüsusi fəaliyyət sərgiləyir. Bu məsələdə isə İrana əsas rəqib kimi məhz Rusiya çıxış edir. Təsadüfi deyil ki, Rusiyanın «Transqaz» şirkətinin Qazaxıstan neftinin, «Qazprom»un isə Türkmənistan qazının Rusiya ərazisindən uzunmüddətli nəqlinə dair əldə etdikləri ilkin razılaşmalar İranda açıq narazılıqla qarşılanır.

İran OPEK üzvü olan ölkə kimi Qərb bazarlarına Azərbaycan, Qazaxıstan və Türkmənistan neftinin çıxarılmasının da əleyhinədir. Xəzər hövzəsinin ABŞ və Qərb dövlətlərinin geosiyasi maraqlarına daxil olması İranı ciddi şəkildə narahat edir. Buna görə də İran səy göstərir ki, Xəzər hövzəsində enerji resursları ilə bağlı məsələlər region dövlətlərinin birgə müəyyən etdiyi birlik tərəfindən həyata keçirilsin.[158]

İranın Avrasiya ölkələri ilə geosiyasi münasibətlərinin strategiyasını tədqiq edən ABŞ-ın «Karneqi» Fondunun qənaətinə görə, rəsmi Tehran hələ də özünün Cənubi Qafqaz və Orta Asiya siyasəti ilə bağlı uzunmüddətli geosiyasi konsepsi-

[158] Вишняков В. Россия-Иран и региональная стабильность// Международная жизнь, 1998 №11-12, с.120.

yaya malik deyil. İİR hazırda yalnız nisbətən sabit münasibətləri olan ölkələlər – Türkmənistan, Tacikistan və Ermənistanla bağlı ardıcıl siyasət yürüdür. Özbəkistan, Gürcüstan və Azərbaycanla münasibətlərində isə İran bir qədər ehtiyatlı mövqe tutur. Qazaxıstan və Qırğızıstanla əlaqələrə gəldikdə, «Karneqi» Fondunun analitikləri hesab edirlər ki, bu dövlətlərlə münasibətdə İran müəyyən uğurlar əldə edib. Bu, ilk növbədə onunla bağlıdır ki, Astana və Bişkek Türkiyənin siyasi müttəfiqinə çevrilməyib.

İranın regional siyasətində Orta Asiya, Cənubi Qafqaz və Xəzər hövzəsinin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji hədəfləri xüsusi yer tutur. Orta Asiya və Xəzər hövzəsində İran sadəcə olaraq öz sərfəli geoiqtisadi mövqelərindən çıxış edərək, Rusiya ilə yanaşı bölgənin ikinci əsas lider dövləti statusuna sahib olmaq istəyir. Mütəxəssislər bu ölkənin regional siyasətii ilə bağlı əsas geosiyasi və geoiqtisadi vəzifələrini aşağıdakı kimi qruplaşdırırlar:

- Qərb ölkələrini və onlara məxsus transmilli şirkətləri nəyin bahasına olursa-olsun Xəzər regionuna buraxmamaq və onların bölgədəki əsas tərəfdaşı hesab olunan Türkiyəni öz mövqelərindən sıxışdırmaq;
- Rusiya ilə regional geosiyasi məsələlərdə müttəfiqlik etmək, lakin onunla rəqabət aparılan sahələrdə öz mövqelərini əldən verməmək;
- regionda istənilən yolla öz mövqelərini gücləndirmək, Xəzərin bərabər əsasla - 20% olmaqla 5 yerə bölünməsini təmin etmək və digər hövzə ölkələri ilə dəniz sərhədi yaratmaq;
- bölgəni dini təsir altına almaq məqsədilə müxtəlif dini-ideoloji düşərgələr təşkil etmək;
- Azərbaycan və Türkiyə kimi rəqib ölkələrin iqtisadi, siyasi, sosial və mədəni inkişafını əngəlləmək, bunun-

la da onların İrandakı əsas əhali (azərbaycanlılar) üçün cəlbediciliyini azaltmaq;

- bölgədə Qərb ölkələrinə məxsus dəyərlərin, iqtisadi, siyasi, ideoloji təsisatların fəaliyyətinin güclənməsinə və Xəzər hövzəsində demokratik rejimlərin bərqərar olmasına və İran cəmiyyəti üçün "yad proseslərin" vüsət almasına mane olmaq.[159]

Bu gün İran Xəzər hövzəsindən Qərb ölkələrinin transmilli şirkətlərini çıxarmağa, onları regiona buraxmamağa çalışır. Bu istiqamətdə bütün digər əsas təsir mexanizmlərindən məhrum olan İran yenə də XX əsrin 90-cı illərində Rusiya ilə birlikdə ortaya atdıqları "Xəzərin hüquqi statusu" adlı qondarma məsələdən yararlanmağa cəhd edir. Bu məsələdə baxmayaraq ki, Rusiya əvvəlki qeyri-konstruktiv mövqelərindən imtina edib, Azərbaycan və Qazaxıstanla ortaq razılığa gəlib, rəsmi Tehran isə hələ də qonşu Türkmənistanı özünə qoşaraq Azərbaycanın "dənizin orta xətt üzrə bölünməsi" təklifinə etiraz edir. İran Xəzər hövzəsi dövlətlərini həm də OPEK-ə cəlb etməyə, onların enerji mənbələrini öz iqtisadi nəzarəti altında Fars körfəzi vasitəsilə dünya bazarlarına çıxarmağa cəhd edir. Həm də bu ölkə Xəzər hövzəsi dövlətlərinin Qərbə meyillənməsindən və regionda hərbi-geostrateji mövqelərinin zəifləməsindən narahatdır. İran hesab ki, NATO nə vaxtsa Azərbaycan və Qazaxıstan vasitəsilə Xəzər hövzəsinə daxil ola bilər, bu isə Əfqanıstan, İraq, Türkiyə dövlətlərinin ərazisində yerləşən Qərb qoşunlarının İranı Xəzərdən tam hərbi blokadaya alması demək olardı[160].

İranın iqtisadi-siyasi maraqları və regional geosiyasəti digər Xəzərətrafı ölkələrdən ciddi şəkildə fərqlənir. İranın

[159] Жоламанова Г.Е. Современные геополитические интересы «ключевых» игроков в Каспийском регионе // http://www.analitika.org

[160] Хуморская В.В. Каспийский регион и ИРИ// Исламская революция в Иране. М., 1999, с.102.

Xəzər hövzəsində yerləşən MDB üzvü olan dövlətlərdən fərqli geosiyasi mövqeyinin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, həmin ölkələr arasında sıx iqtisadi, siyasi əlaqələr, azad gediş-gəliş rejimi mövcuddur və onlar SSRİ dövründən qalma bəzi milli, mədəni və s. birgəyaşayış normalarına malikdir. Bununla bağlı, Xəzərətrafı digər dörd dövlət MDB çərçivəsində bir-biri ilə müəyyən kollektiv inteqrasiya münasibətlərinə girsə də, İran bu sistemdən kənarda dayanaraq, ayrı-ayrılıqda bu dövlətlərlə öz maraqları çərçivəsində əməkdaşlıq etməyə çalışır.

İran bölgənin enerji qaynaqları ilə zəngin, sərt siyasi-ideoloji idarəçiliyə malik, hərbi cəhətdən güclü ölkələrindən biridir. İranın Fars körfəzi və Xəzər dənizində zəngin neft-qaz ehtiyatları mövcuddur və hər iki məkanda Tehran rejimi ciddi geoiqtisadi aktivlik nümayiş etdirir. İranın əsas zəngin neft və qaz yataqları onun cənub bölgəsində - Fars körfəzinə yaxın ərazilərdə yerləşir. Ölkənin şimal-şərq hissəsi daha çox sənaye bölgəsi hesab olunur. Odur ki, Şərq əraziləri onun neft və qaz sənayesindən uzaqdadır və bu anlamda İran, Türkmənistan və Azərbaycandan enerji resursları ixrac etməkdə maraqlıdır.

Son illər Qafqaz və Xəzər hövzəsində Qərbin mövqelərinin güclənməsinin qarşısını ala bilməyən İran hazırda öz diqqətini daha çox Şərq regionuna yönəldir. Qeyd etmək lazımdır ki, bu istiqamətdə İranın «qaz diplomatiyası» ciddi uğurlar əldə edib. Buna İranın Hindistan və Pakistanla dəyəri 4 milyard ABŞ dolları həcmində olan yeni qaz kəmərinin tikintisinə dair razılıq əldə etməsini göstərmək olar. Öz növbəsində, enerji daşıyıcılarına tələbatı gündən-günə artan Çin də İrandan qaz almaq niyyətindədir və bunun üçün Tehranla 25 illik müqavilə imzalamışdır. Çinin hazırda Avrasiyada əsas geosiyasi oyunçularından biri olduğunu nəzərə alsaq, İranın onu öz geosiyasi tərəfdaşına çevirməklə regiondakı mövqelərini xeyli möhkəmləndirə biləcəyini demək olar.

İranın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın *hərbi-geostrateji məsələlərinə və regional təhlükəsizliyinə* yanaşması da digər bölgə ölkələrininkindən ciddi şəkildə fərqlənir. Avrasiyanın, xüsusən də Xəzər-Qara dəniz hövzəsi, Cənubi Qafqaz və Orta Asiyanın regional təhlükəsizlik və hərbi-geostrateji məsələlərində həmişə özünəməxsus rolu və funksiyası ilə seçilən bölgə dövlətlərindən biri də İrandır. SSRİ-nin dağılması və Xəzər ətrafında yeni-yeni müstəqil dövlətlərin yaranması iki əsrə yaxın müddətdə bu ölkə ilə Rusiya arasında mövcud olan *vahid geosiyasi və hərbi-geostrateji sərhədləri pozdu* və onların tarixi strateji tərəfdaşlıq, eyni zamanda geosiyasi rəqiblik əlaqələrinə müəyyən sədd yaratdı. Azərbaycanın öz müstəqilliyini bərpa etməsi nəticəsində Rusiya ilə İranı birləşdirən birbaşa quru sərhədi aradan qalxdı. Bu fakt iki böyük region ölkəsinin Cənubi Qafqaz və Avrasiya məkanındakı birgə geosiyasi və hərbi-geostrateji planlarının reallaşmasını xeyli çətinləşdirdi. Üstəlik, Qərbin Azərbaycan vasitəsilə Cənubi Qafqaz və Xəzərin transmilli iqtisadi layihələrinə daxil olması İranla Rusiya arasında nəinki təkcə Azərbaycanın, eyni zamanda "strateji rəqiblər hesab olunan kənar qüvvələrin" də mövcudluğunu şərtləndirdi. Mütəxəssislərin fikrincə, hazırda Tehran ilə Moskvanın Qərbin timsalında regiona getdikcə güclü müdaxilə edən "kənar qüvvələrə" qarşı birgə müqavimət göstərməsinin kökündə də məhz, bu amil dayanır.

İran bu gün Xəzər hövzəsi və Cənubi Qafqazda yaranmış geosiyasi vəziyyəti öz hərbi-geostrateji maraqları və milli təhlükəsizliyi üçün əsas və ən ciddi təhdid hesab edir. Rəsmi Tehran Cənubi Qafqaz, Xəzər hövzəsi və Orta Asiyadakı hazırkı sabitliyə əsas təhlükəni məhz Qərbdən gözləyir və ABŞ-ın regional siyasətini, regionda artan hərbi-siyasi nüfuzunu təhlükəli sayır. Amma İranın bütün cəhdlərinə və müqavimətinə

baxmayaraq, ABŞ artıq onun sərhədlərinə qədər yaxınlaşa bilib. İranla sərhədyanı ölkələrin əksəriyyətində – Türkiyə, Pakistan, Əfqanıstan və İraq, həmçinin Fars körfəzinin sahilyanı ölkələrində ABŞ-ın hərbi kontingenti yerləşdirilib. Hazırda Birləşmiş Ştatların hərbi kontingenti olmayan İranla yeganə həmsərhəd dövlətləri Azərbaycan və Türkmənistandır. Bu amil hər iki ölkənin İran üçün hərbi-geostrateji əhəmiyyətini daha da artırır. Mütəxəssislərin fikrinə görə, İraq müharibəsindən sonra İranın Azərbaycanla ikitərəfli münasibətlərə daha həssas diqqət yetirməsinin kökündə məhz bu amil dayanır.

İranın Fars körfəzi və Xəzər dənizində zəngin neft-qaz ehtiyatları mövcuddur. Bu ölkənin ən zəngin neft-qaz yataqları Fars körfəzində yerləşir və buna görə də Xəzər şelfindəki ehtiyatların istifadəsi İran üçün ikinci dərəcəli məsələdir. Lakin buna baxmayaraq, Tehran özünün Xəzər dənizindəki geoiqtisadi, hərbi-geostrateji və təhlükəsizlik maraqlarına görə ciddıı narahatlıq keçirir və bu maraqları qətiyyətlə müdafiə etməyə hazırdır. Onun hövzədəki geosiyasəti yalnız Xəzərin enerji ehtiyatlarından birgə istifadə ilə məhdudlaşmır, həmçinin regionda öz geoiqtisadi, hərbi-geostrateji mövqelərini gücləndirməyə xidmət edir.

Mütəxəssislər İranın Xəzər hövzəsindəki hərbi-geostrateji maraqlarını əsasən aşağıdakı kimi təsnif edirlər:

- Mərkəzi Asiya və Cənubi Qafqazda bütövlükdə sabitliyi, təhlükəsizliyi dəstəkləməklə və islam dinini fəal şəkildə yaymaqla özünün Şimal bölgəsi və Xəzər dənizi üzrə sərhədlərinin təhlükəsizliyini və dayanıqlılığını təmin etmək;
- beynəlxalq təcridetmədən çıxmaq siyasəti çərçivəsində region dövlətləri ilə qarşılıqlı münasibətləri qaydaya salmaq;

- bölgədən kənar dövlətlərin və hərbi blokların Mərkəzi Asiya və Cənubi Qafqaza, xüsusən də, Xəzər hövzəsinə daxil olmasının qarşısını almaq və s.[161]

İranın Mərkəzi Asiya, Xəzər hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik məsələlərinə, bölgənin hərbi-geostrateji problemlərinə və yerli ölkələrlə təhlükəsizlik sahəsində münasibətlərə öz tarixi yanaşması vardır. Bu dövlətin istət keçmiş, istərsə də hazırkı mövqeyində hər hansı ciddi dəyişiklik müşahidə olunmur. Mütəxəssislərin fikrinə görə, İran bütövlükdə bölgədə yerli ölkələr arasında hər hansı kəskin münaqişələrin, bu zəmində yaranan qeyri-sabitliyin mövcudluğunda o qədər də maraqlı görünmür. Çünki bu ölkədə yaxşı bilirlər ki, ən yeni tarixdə, məsələn Balkanlarda və s. regionlarda yaşanan istənilən münaqişə, baş verdiyi məkanlara və ölkələrə, bir qayda olaraq kənar qüvvələrin müdaxiləsi üçün zəmin yaratmışdır. Məlumdur ki, Cənubi Qafqaz, yaxud Xəzər bolgəsində də ciddi münaqişənin mövcudluğu «regiondan kənar» qüvvələrin, ilk növbədə ABŞ, ATƏT, Avropa İttifaqı, NATO, KTT və s. kimi beynəlxalq və regional aktorların hadisələrə müdaxiləsinə və onların bölgədəki hərbi-geostrateji mövqelərinin möhkəmlənməsinə şərait yarada bilər. Buna görə İran dəfələrlə istər Xəzər-Qara dəniz hövzəsi və Orta Asiya ölkələrinə, istərsə də Cənubi Qafqaz respublikalarına "bölgədəki təhlükəsizliyin qorunması və münaqişələrin tənzimlənməsi üçün birgə kompleks tədbirlər" görülməsi məqsədilə öz xidmətlərini təklif etmiş, «regiondan kənar» qüvvələrin proseslərə müdaxiləsini yolverilməz hesab etmişdir.

Xəzər hövzəsi və Cənubi Qafqazda ayrı-ayrılıqda vahid təhlükəsizlik sisteminin yaradılması ilə bağlı ilk təşəbbüsü 1990-cı illərdə məhz İran irəli sürmüşdür. Bunun üçün rəsmi

[161] Жоламанова Г.Е. «Современные геополитические интересы «ключевых» игроков в Каспийском регионе».http://www.analitika.org

Tehran region ölkələrinə- Xəzəryanı beş ölkəsinin iştirakı ilə, Cənubi Qafqazda isə "3+2" formulu (3 Cənubi Qafqaz respublikası, Rusiya və İran) əsasında kollektiv təhlükəsizlik münasibətlərinin yaradılmasını təklif etmişdir.

Regional təhlükəsizlik və xarici siyasət sahəsində *"kənar qüvvələrin" iştirakı olmadan, yalnız bölgə ölkələrinin səylərinin birləşdirməsi, birgə əməkdaşlığının yaradılması ideyasını* da ilk dəfə İran irəli sürmüşdür. Əlbəttə ki, 3+2 formulunu təklif edərək, İran regiondakı əsas geosiyasi oyunçulardan olan Türkiyəni bu sistemdən kənarda qoymağı düşünürdü. Bununla o, nəinki yalnız öz "tarixi rəqibi olan Türkiyəni", proseslərdən kənarda saxlayırdı, həm də açıq-aşkar bu ölkənin üzvü olduğu NATO-nu, hərbi müttəfiqi saydığı ABŞ-ı proseslərə təsir göstərmək imkanından məhrum etmək niyyətini bildirirdi. Tehranın bu təklifi həmin dövrdə region ölkələri tərəfindən birmənalı qarşılanmadı. Məsələn, rəsmi Bakı öz təhlükəsizlik problemlərini "Dağlıq Qarabağ probleminin həlli və Ermənistanın işğallarına son qoyulması" ilə əlaqələndirərək, "bu işə yardım edəcək hər bir qurumla və blokla" əməkdaşlığa hazır olduğunu bəyan etmişdi. Digər bölgə ölkələri, beynəlxalq, regional və milli təhlükəsizliklə bağlı "sərbəst tərəfdaş seçmək hüququnun saxlanılmasını", ikitərəfli, çoxtərəfli əlaqələr və beynəlxalq təşkilatlarla əməkdaşlığı daha üstün tutaraq, İranın "regional təhlükəsizlik formuluna" ciddi əhəmiyyət və birbaşa dəstək vermədilər.

Bundan sonra İran rəhbərliyi Cənubi Qafqazın regional təhlükəsizlik sistemi ilə bağlı başqa bir təşəbbüslə - "3+3" formulu ilə çıxış etməyə başladı. Burada artıq söhbət üç Cənubi Qafqaz respublikası, Rusiya, İran və Türkiyədən gedirdi. Mütəxəssislərin fikrincə, İran bu təklifi ilə bir tərəfdən bölgədə Türkiyənin ən yaxın tərəfdaşı olan Azərbaycanın dəstəyini qazanmağa, digər tərəfdənsə ABŞ-ın regiona gəlişini əngəlləmək üçün "Vaşinqtonun ən güclü müttəfiqi və Tehranın əsrlər boyu

regiondakı rəqibi olan" Türkiyənin özünü regional təhlükəsizlik sahəsində birgə əməkdaşlığa qoşmağa can atırdı. Rəsmi Tehran bu sistem daxilində, yenə də Xəzər hövzəsindən beş, Cənubi Qafqazda isə altı dövlətin Təhlükəsizlik Şuralarının katibləri, parlament sədrləri, həmçinin iqtisadiyyat və maliyyə nazirləri səviyyəsində ayrı-ayrı görüşlərin keçirilməsini və ümumi baxışların formalaşdırılması yolu ilə "birgə təhlükəsizlik haqqında saziş" imzalanmasını təklif edirdi. Lakin bu təşəbbüs də əksər region dövlətlərinin, xüsusən də Rusiyanın və Türkiyənin ciddi dəstəyini qazanmadı. Bu bir daha göstərdi ki, İranın regional təhlükəsizlik məsələsinə baxışı digər regional ölkələrinin mövqeyi ilə tam üst-üstə düşmür.

İranın regional təhlükəsizlik sisteminə dair daha bir təklifi 2003-cü ilin aprelində gündəmə gəldi. Bu ölkənin xarici işlər naziri Kamal Xərrazinin "regionun birgə təhlükəsizlik qüvvələrinin yaradılması təşəbbüsü" yenə də bölgə dövlətlərinin tam dəstəyini qazanmadı.

İran özünün Cənubi Qafqaz regionundakı geostrateji məqsədlərini gizlətmir. Bu məqsədlər:

- kənar qüvvələrin (ABŞ, NATO və Avropa İttifaqı və s.) Cənubi Qafqazda iştirakını mümkün qədər məhdudlaşdırmaq, onların İran sərhədlərinə yaxınlaşmasına imkan verməmək;
- regional problemləri yalnız bölgədəki dövlətlərin birgə səyləri ilə həll etmək;
- Xəzər hövzəsi və Cənubi Qafqaz ölkələrinin İranın iradəsindən kənar addımlarını maksimum məhdudlaşdırmaq və proseslərdə birgə iştiraka nail olmaq üçün mexanizm tapmaq;
- Qərbyönümlü siyasət yürüdən region dövlətləri ilə münasibətləri yüksək səviyyədə quraraq onlara təsir mexanizmlərini müəyyənləşdirmək;

- Hərbi-geostrateji maraqları İranla üst-üstə düşən region ölkələri ilə təhlükəsizlik sahəsindəki əməkdaşlığı daha da möhkəmləndirmək və s. ibarətdir.

İran İslam Respublikası və Azərbaycan Respublikası arasındakı geosiyasi münasibətlərinin qısa xronikası

Son iyirmi ildə mütəxəssislərin diqqətini ən çox çəkən məsələlərdən biri də İranın Xəzər hövzəsi və Cənubi Qafqazda həyata keçirdiyi regional geosiyasət və onun Azərbaycan-İran münasibətlərinə təsiri məsələsidir. İki qonşu ölkənin xalqlarının uzunmüddətli müştərək tarixə malik olmaları, dil, din, mədəni-mənəvi dəyərlər baxımından bir-biri ilə yaxınlığı, İranda yaşayan çoxmilyonlu etnik azərbaycanlıların mövcudluğu və s. amillər bu dövlətlərin ikitərəfli geosiyasi münasibətlərinə həmişə ciddi təsir göstərmiş və özünəməxsus xüsusiyyətlər yaratmışdır.

Qeyd edək ki, Azərbaycanın müstəqillik əldə etməsindən əvvəl də- SSRİ tərkibində olarkən İranla müxtəlif xarakterli əlaqələri mövcud olmuşdur. Həmin dövrdə Bakıda İranın konsulluğu fəaliyyət göstərirdi. Lakin, bu münasibətlər İranın təşəbbüsü ilə SSRİ-nin daxilində mövcud olan subyektlərdən biri ilə qurulduğundan qətiyyən bərabərhüquqlu dövlətlərarası xarakter daşımırdı. Azərbaycanın müstəqilliyə qovuşmasından sonrakı münasibətlər isə BMT-nin iki bərabərhüquqlu üzvü arasında qurulan münasibətlərdir və onun həm statusu, həm də xarakteri dəyişmiş, bərabərhüquqlu dövlətlərarası əlaqəyə çevrilmişdir. İki ölkənin qarşılıqlı münasibətlərindəki müəyyən ziddiyyətlər məhz Azərbaycanın müstəqil dövlətə çevrilməsindən sonra başladı ki, mütəxəssislər bunu *ilk növbədə,* İranın bölgədə yaranmış *yeni geosiyasi vəziyyətə adekvat reaksiyası* kimi qələmə verirlər.

Qeyd edilməlidir ki, 1992-ci ildə Cənubi Qafqazda ən gərgin münasibət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə yanaşı məhz İranla Azərbaycan arasında yaşanmışdı. Həmin dövrdə hər iki ölkəni təmsil edən rəsmilər, ictimai-siyasi dairələr və kütləvi informasiya vasitələri bir-birinə qarşı beynəlxalq hüquqa və mehriban qonşuluq münasibətlərinə zidd bəyanatlar səsləndirir və müvafiq siyasət yürüdürdülər. Tədqiqatçıların fikrinə görə bəhs olunan dövrdə İranın Azərbaycanla bağlı yürütdüyü siyasətin, həyata keçirdiyi fəaliyyətin və bu qonşu ölkə ətrafında baş verən bütün proseslərə yanaşmasının ümumi tendensiyası mənfi və qərəzli idi. Bu ölkənin rəsmi dairələri, eləcə də xaricdə fəaliyyət göstərən pan-iranist müxalifət müstəqil Azərbaycan Respublikasını "İran üçün ciddi təhlükə mənbəyi" kimi qiymətləndirir və ona qarşı tədbirlər görülməsini təklif edirdilər. Belə mənfur siyasət həm də İranın bütün Xəzər və Cənubi Qafqaz siyasətini əhatə edirdi. Məsələn, İslam inqilabının qələbəsindən sonra İranın xüsusi xidmət orqanlarının qurulmasında yaxından iştirak etmiş Əkbər Gənci adlı siyasi xadimin 1992-ci ildə "Comhuriye-Eslami" qəzetində dərc etdirdiyi məqaləsində "əgər dünyada bir qarış torpaq Azərbaycan adı ilə dövlət sayılırsa, o bizim milli təhlükəsizliyimizə təhdiddir və biz buna qarşı mütəmadi mübarizə aparmalıyıq", kimi fikir ifadə etməsi bunun əyani sübutu hesab oluna bilər.[162]

Həmin dövrdə Azərbaycanda da rəsmi səviyyədə İranla bağlı beynəlxalq hüquqa, dostluq münasibətlərinə və qarşılıqlı maraqlara zidd bəyanatlar səsləndirilir, bu ölkədə yaşayan etnik azərbaycanlıların milli-vətəndaş hüquqlarının təmin edilməsi, Cənubi Azərbaycanın İrandan ayrılması və s. kimi antiİran çağırışları edilirdi. Həm İranın, həm də Azərbaycanın o dövrkü ictimai fikrində qarşılıqlı olaraq bir-birinin milli

[162] Bax: "Olaylar" qəzeti. 25.10.2013. http: www.olaylar.az/news/politics /58724

dövlətçiliyə zidd tələblər səsləndirilir və daxili işlərinə müdaxilə cəhdləri edilirdi. Mütəxəssislər, ümumilikdə 1992-93-cü illəri İran-Azərbaycan münasibətlərinin ən gərgin dövrü kimi xarakterizə edirlər.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikası digər qonşuları ilə yanaşı, İranla da ikitərəfli münasibətləri səhmana salmaq üçün xüsusi düşünülmüş fəaliyyət ortaya qoydu və qısa zaman kəsiyində mövcud vəziyyəti keyfiyyətcə yeni səviyyəyə yüksəltdi. 1993-2000-ci illərdə iki ölkə prezidentlərinin bir neçə qarşılıqlı səfərləri çərçivəsində aparılmış danışıqlar və imzalanmış çoxsaylı sənədlər İran-Azərbaycan münasibətlərinin mehriban qonşuluq və qarşılıqlı-faydalı əməkdaşlıq prinsipləri əsasında yenidən qurulmasına ciddi təkan verdi və dövlətlərarası əlaqələrin sonrakı müsbət fonunu yaratdı.

Lakin, hər iki ölkə arasında qarşılıqlı əlaqələrin inkişaf etməsinə baxmayaraq, sonrakı illərdə İranın bəzi dairələri Azərbaycan-İran müsibətlərinə xələl gətirə biləcək bir çox arzuolunmaz hallara yol verdilər. Belə ki, 2001-ci il iyulun 23-də İranın hərbi hava qüvvələrinə məxsus təyyarə Xəzər dənizinin Azərbaycan sektorunda tədqiqat aparan "Geofizik – 3" və "Əlif Hacıyev" adlı gəmilərin üzərində iki saat ərzində qanunsuz uçuşlar etdi. İranın hərbi dəniz qüvvələrinə məxsus gəmi Azərbaycan gəmisinə yaxınlaşaraq ultimatum verdi, daha sonra İranın hərbi hava və dəniz qüvvələrinə məxsus təyyarə və gəmilər Azərbaycan sərhədlərini bir neçə dəfə pozaraq Xəzərin Azərbaycan sektoruna daxil oldu. İranın Azərbaycana məxsus "Alov", "Araz", "Şərq" strukturlarına əsassız iddia etməsi həmin yataqlarda qazma işi aparan BP şirkətinin öz fəaliyyətini dayandırması ilə nəticələndi. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan dövləti İranla tarixən formalaşmış dostluq və mehriban qonşuluq münasibətlərini qoruyub saxlamağa, Xəzər dənizinin karbohidrogen yataqları ilə bağlı məsə-

lələrin qarşılıqlı etimad şəraitində müzakirə olunması və həllinə üstünlük verərək, vəziyyətin beynəlxalq hüquq çərçivəsində beynəlxalq məhkəməyə çıxarılmasından imtina etdi.

2002-ci il mayın 18-də Prezident Heydər Əliyevin İrana rəsmi səfəri çərçivəsində ölkələrarası münasibətlərin nizamlanması və mövcud problemlərin aradan qaldırılmasına növbəti cəhd göstərildi. Düzdür, Prezidentin bu səfəri iki ölkə arasındakı bütün mübahisəli məsələləri, xüsusən, Xəzərin statusu məsələsini həll etməsə də, Azərbaycan-İran münasibətlərindəki mövcud anlaşılmazlıqları aradan qaldırdı və gələcək konstruktiv əməkdaşlıq üçün zəmin yaratdı. Səfərin yekunu olaraq, 2002-ci il may ayının 20-də iki ölkə arasında çoxdan gözlənilən *"dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri"* haqqında memorandum imzalandı.

Xəzərin statusu məsələsi iki ölkə arasındakı fikir ayrılığına səbəb olan əsas məsələlərdən biri kimi, İran prezidenti M.Hatəminin 2004-cü ilin avqustunda Azərbaycana rəsmi səfəri zamanı Prezident İlham Əliyevlə keçirdiyi görüşlərdə də əsas müzakirə mövzularından biri olmuşdur. Səfər zamanı Azərbaycanla İran arasında Xəzərin hüquqi statusu məsələsi istisna olmaqla, digər sahələr üzrə- enerji, ətraf mühitin mühafizəsi, mədəniyyət, nəqliyyat, təhlükəsizlik, hüquq-mühafizə fəaliyyəti və s. əməkdaşlığa və tərəfdaşlığa dair ortaq razılıq əldə olundu və sənədlər imzalandı. Səfərdən bir müddət sonra uzun illərdən bəri həllini gözləyən - Təbrizdə Azərbaycan Respublikasının Baş Konsulluğunun açılması problemi aradan qalxdı.

Prezident İlham Əliyevin 2005-ci il yanvarın 24-26-da İrana rəsmi səfəri ikitərəfli münasibətlərin inkişafına öz müsbət təsirini göstərdi. İlham Əliyev İranın Prezidenti, Ali Dini Rəhbəri, Dövlət Məsləhət Şurasının Sədri və digər rəsmi şəxslərlə görüşlər keçirdi. Səfər zamanı sərhədyanı rayonlarda yaşayan vətəndaşların sadələşdirilmiş sərhəd keçidi rejimi, Azərbaycan Respublikasına İranın bir milyon ABŞ dolları həc-

mində qrant ayırması, Təhsil və Səhiyyə nazirlikləri arasında əməkdaşlıq, Araz çayının hidroenergetika potensialından birgə istifadə, mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi və s. haqqında saziş və memorandumlar imzalandı.

Sonrakı dövrlərdə, İran Prezidenti Mahmud Əhmədinejadın 2007-ci il avqust 21-22-də və 2010-cu il noyabrın 17-də Azərbaycana, Azərbaycan Prezidenti İlham Əliyevin isə 2009-cu il martın 10-da və 2014-cü il aprelin 9-da İrana qarşılıqlı səfərləri İran-Azərbaycan münasibətlərinin inkişafına təkan verdi.

İranın Xəzər hövzəsi və Cənubi Qafqazda həyata keçirdiyi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji siyasət

Göründüyü kimi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsi ilə yanaşı, SSRİ dağılandan sonra Xəzər hövzəsi və Cənubi Qafqazın ən mürəkkəb geosiyasi, geoiqtisadi və hərbi-geostrateji münasibətləri həm də İran və Azərbaycan arasında yaşanmışdır. Hazırda bütün əsas sahələr üzrə ortaq maraqlar tapılsa da, bir çox məsələlər üzrə hələ də fikir ayrılıqları doğuran bəzi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji yanaşmalar qalmaqdadır. Onların sırasında mütəxəssislər: *Xəzərin hüquqi statusunu, Xəzər dənizi və Otra Asiyanın karbohidrogen ehtiyatlarının transmilli şirkətlərlə birgə işlənməsi və dünya bazarlarına çıxarılması yollarını, Xəzər hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə yanaşmanı, Azərbaycanın Qərb və İsraillə münasibətlərinə İranın, İranınsa işğalçı Ermənistanla münasibətləri və Dağlıq Qarabağ probleminə yanaşmasına Azərbaycanın münasibətini, İran və Azərbaycan arasındakı bir-birinin daxili işlərinə qarışmamaq, vətəndaşlarının dini və dünyəvi davranış normalarına əməl etməsinə münasibət və s.* məsələləri qeyd edirlər.

Bundan başqa, mütəxəssislərin fikrinə görə, 1992-ci ildə olduğu kimi, indinin özündə də İranda bəzi dairələr Azərbay-

can dövlətinə "təhlükə və qorxu mənbəyi" kimi baxır, onun yürütdüyü müstəqil daxili və xarici siyasətə şübhə ilə yanaşır, yaxud bu ölkənin suveren hüquqlarına, daxili və xarici siyasətinə müdaxilə etmək istəyir. Belə yanaşmalar, onların fikrinə görə, bəzən rəsmi Tehranın Azərbaycan dövlətinə münasibətdə yürütdüyü regional geosiyasətə də mənfi təsir göstərir. Məsələn, son illərdə regionda Azərbaycan Respublikasının əleyhinə aparılan bir çox siyasi təxribatlarda İranın "Aran Beynəlxalq Araşdırmalar və Mədəniyyət İnstitutu"nun adı keçir. Yaxud, İranı təmsil edən rəsmi və ictimai strukturların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kimi həssas bir məsələdə tez-tez ziddiyyətli mövqe nümayiş etdirməsi, bu ölkənin Ermənistanla münasibətlərinin strateji səviyyəyə çatdırılması və iki ölkə arasındakı iqtisadi, mədəni, hərbi və təhlükəsizlik sahəsində tərəfdaşlığın rəsmi İrəvan tərəfindən Azərbaycana qarşı istifadə edilməsi və s. istər-istəməz Azərbaycan ictimaiyyətinin narazılığını yaradır. Araşdırmalar göstərir ki, İran Ermənistanın Cənubi Qafqazda dövlət kimi mövcud olmasına və işğalçı siyasət yürütməsinə zəmanət verən bir çox layihələrə hərtərəfli dəstək göstərir. Təsadüfi deyil ki, Ermənistan rəhbərliyi dəfələrlə İranı öz ölkəsinin "regiondakı ən sadiq tərəfdaşı" adlandırmış, Qarabağ məsələsində nümayiş etdirdiyi "balanslaşdırılmış" mövqeyə görə ona xüsusi minnətdarlıq etmişdir. Keçmiş prezidentlər L.T. Petrosyan "İran sərhədi bir neçə gün bağlasaydı, xilas yolumuz qalmayacaqdı" söyləmiş, R. Köçəryan isə müharibə zamanı İranın yardımlarının xüsusi əhəmiyyətə malik olduğunu vurğulamışdır. S. Sarkisyan İranla sərhədi "xilas və həyat qapısı" adlandırmışdır. Erməni KİV-lərinin məlumatına görə müharibə dövründə İran Ermənistanı daim yanacaqla və ən zəruri ərzaq malları ilə təmin etmişdir.[163]

[163] Bax: "Olaylar" qəzeti. 25.10.2013.http: www.olaylar.az/news/politics /58724

Iranın Azərbaycana və onun torpaqlarını işğal etmiş Ermənistana münasibətini əks etdirən növbəti göstərici- bu ölkənin İrəvandakı səfiri Məhəmməd Rəisinin "İranın maraqları Ermənistanın, Ermənistanın maraqları isə İranındır" bəyanatı hesab edilə bilər.[164]

İranda Həsən Ruhani prezident seçildikdən sonra rəsmi Tehran regionda Azərbaycan və Ermənistanla münasibətləri balanslı şəkildə inkişaf etdirməyə çalışır. Son bir ildə İranla hər iki ölkənin rəsmiləri arasında görüşlərin dinamikası artıb. Lakin mütəxəssislərin fikrinə görə, İran-Azərbaycan münasibətlərindəki dinamika İranın Ermənistanla münasibətinə görə hələ də arzu olunan səviyyədə deyil. Düzdür, bu ölkədə H. Ruhani prezident seçiləndən sonra Azərbaycan prezidenti İlham Əliyevin 9 aprel 2014-cü ildə İrana gerçəkləşdirdiyi rəsmi səfər İran-Azərbaycan münasibətlərinə müsbət anlamda ciddi təsir göstərmişdir. Prezidentin İranın rəsmi və ali dini rəhbərliyi ilə keçirdiyi görüşlər, apardığı konstruktiv dialoq iki ölkə arasında mövcud olan çoxsaylı qarşılıqlı narazılıqları aradan qaldırdı və münasibətlərə ciddi dinamizm gətirdi. Lakin bütün bunlara baxmayaraq, siyasətşünasların fikrinə görə, hələ də İranda bəzi dairələr Azərbaycanı, Azərbaycanda isə İranı öz ölkələri üçün təhlükə mənbəyi sayırlar. Xüsusən, İranda həmin qüvvələr Azərbaycanı ABŞ və İsrailin bölgədəki əsas platsdarmı sayır (Türkiyədən fərqli olaraq-Ə.H.), onunla isti münasibətlər qurmağın əleyhinə çıxış edir, bu ölkəni müstəqil və cəlbedici bir dövlət kimi görmək istəmir, onu daim təsir və təzyiq altında saxlamağa çağırır və s. Mütəxəssislərin fikrinə görə, Azərbaycanla yaxşı münasibətlərdən çəkinmənin əsas səbəblərindən biri İrandaxili Güney Azərbaycan amili ilə bağlıdırsa (Bakı ilə yaxınlığın Güney Azərbaycanda insan və milli hüquqların qabardılmasına şərait yarada biləcəyi təhlükəsi – Ə.H.), digəri

[164] Yenə orada

iki ölkə arasındakı tərəfdaşlıq münasibətlərinin regionun və dünyanın bəzi güc mərkəzlərinə sərf etməməsidir. Həmin mərkəzlər İran-Azərbaycan münasibətlərində qarşıdurma yaratmaq məqsədilə neçə illərdir ki, davamlı iş aparırlar.[165]

İranın ayrıca olaraq Cənubi Qafqazda yürütdüyü *"region dövlətləri ilə hərtərəfli əlaqələr yaradaraq, onları öz geosiyasi və hərbi-geostrateji təsiri altında saxlamaq"* siyasəti də, mütəxəssislərin fikrinə görə, Azərbaycanla münasibətlərinin timsalında açıq-aydın özünü göstərir. Müstəqilliyinin ilk illərindən başlayaraq İranın islam dövləti kimi Azərbaycana, onun müsəlman əhalisinə, rastlaşdığı problemlərə, o cümlədən Dağlıq Qarabağ məsələsinə yanaşması yalnız sözdə "birmənalı açıq dəstək" üzərində qurulmuşdur.

Regional təhlükəsizlik məsələlərinə yanaşmada İran Azərbaycanın regional təhlükəsizlik siyasətini bir neçə prinsipial məqama görə qəbul etmir. *Bunlardan birincisi,* Azərbaycan təhlükəsizlik sahəsində həyata keçirdiyi regional siyasət və dünyanın mövcud təhlükəsizlik strukturları ilə tərəfdaşlıq münasibətləri yaratmasıdır. İran müstəqilliklərini qazandıqları andan Azərbaycan və Gürcüstanın Cənubi Qafqazın təhlükəsizliyi ilə bağlı yürütdükləri siyasəti və həyata keçirdiyi fəaliyyəti ciddi narahatlıqla qarşılamışdır. Xüsusən, onların Türkiyə, ABŞ və NATO ilə hərbi-geostrateji əməkdaşlığını, Qərbə siyasi və iqtisadi inteqrasiya yolunu tutmalarını heç bir halda məqbul saymamışdır.

İkinci amil, İranın bölgədəki erməni etnik separatizminə, bu əsasda yaşanan yerli və regional münaqişələrə- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminə münasibəti ilə bağlı olmuşdur. Rəsmi Tehranın bu həssas məsələyə münasibəti və yanaşması Azərbaycanı heç zaman qane etməmiş və edə də bilməzdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi-

[165]Bax: www.Qafqazinfo.az. 12.11.2013

nin həllində İran sözdə özünü "sülh və ədalət" tərəfdarı kimi göstərək, hər iki tərəfə vasitəçilik təklif etsə də, münaqişənin qarşısının alınması və işğalçı Ermənistana qarşı təsirli regional təzyiqlərin göstərilməsi istiqamətində indiyə kimi heç bir əməli tədbir görməmişdir. Bəzi beynəlxalq geostrateqlərin fikrinə görə, SSRİ dağılandan sonra *İran 1990-cı illərdən başlayaraq Cənubi Qafqazda Ermənistan-Azərbaycan münaqişəsi fonunda Ermənistanla öz münasibətlərini, xüsusən də hərbi-strateji əlaqələrini möhkəmləndirərək, bu ölkəni yeri gələndə həm Azərbaycana qarşı istifadə edir, həm də Türkiyə-Azərbaycan-Mərkəzi Asiyanın türk dövlətləri arasında regional bufer kimi saxlayır, onların birliyinə və əlaqələrinə mane olmağa çalışır. Onların fikrinə görə, Rusiya və İran Ermənistanın əsas sponsorlarıdır, İran onu yanacaqla və digər həyati məhsullarla, Rusiya isə hərbi silahla təmin edir*.[166]

İran bütün beynəlxalq təşkilatlarda Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar çıxdığını, bu ölkənin ərazi bütövlüyünü tanıdığını müxtəlif tribunalardan bəyan edir, qaçqın-köçkünlərə maddi yardım göstərir. Lakin bununla yanaşı qonşu Ermənistandan işğal olunmuş Azərbaycan ərazilərini azad etmək tələbini də heç zaman səsləndirmir, əksinə bölgədə açıq-açkar işğalçı siyasət yürüdən, Dağlıq Qarabağı, digər rayonları işğal edən, bir milyondan artıq müsəlman əhalini iyirmi ildir ki, öz yurdundan didərgin salaraq, dözülməz məhrumiyyətlərə düçar edən bu ölkəyə hərtərəfli, o cümlədən, iqtisadi və geostrateji yardım göstərir. Bütün dünyada özünü "şiə müsəlmanlarının hüquqlarının əsas müdafiəçisi" kimi təqdim edən, Fələstin torpaqlarını işğal etməsi səbəbindən İsraili "yer üzündən silməklə" hədələyən İran, nədənsə Cənubi Qafqazda ortodoks Ermənistan

[166]Bax:Ariel Cohen.Ethnic Conflicts Threaten US Interests in the Caucasus// Herritage Foundation Backgrounder, №1222, September 25, 1998, s.4

dövlətinin əksəriyyəti şiə sayılan bir milyon müsəlmana- azərbaycanlı əhaliyə divan tutmasına göz yumur.[167]

Mütəxəssislər *İranın Azərbaycan dövlətinə belə fərqli yanaşmasını və bu ölkə ilə bərabərhüqüqlu tərəfdaşlıq münasibətlərindən boyun qaçırmasını da* bir neçə amillə izah etməyə çalışırlar. Onların fikrinə görə, bu siyasət *ilk növbədə*, İran rəsmilərinin "Azərbaycan dövlətinin mövcudluğu faktını öz daxili hərbi-geostrateji durumlarına və regional təhlükəsizlik sahəsindəki fəaliyyətlərinə mənfi təsir göstərən amil kimi dəyərləndirirməsi" ilə bağlıdır. Bu ölkənin, təxminən 70 milyonluq əhalisinin 40% türklərdən (azərbaycanlılardan), 50% farslardan, 9% isə digər xalqlardan ibarətdir. İran hökuməti etnik tərkibdən qaynaqlanan və bu əsasda daxildə yarana biləcək gələcək təhlükələri ilk növbədə Azərbaycan dövlətinin varlığı və inkişafı ilə bağlayır, etnik azərbaycanlıların onun ərazi bütövlüyünü və sabitliyini nə zamansa poza biləcəyini proqnozlaşdırır. ABŞ alimi C. Kornel yazır ki, İranın təhlükəsizliyi Azərbaycan dövlətinin və bu ölkədə yaşayan çoxsaylı etnik azərbaycanlıların vəziyyəti ilə birbaşa bağlıdır. Cənubi Azərbaycan məsələsi İranın onsuz da dağılmaqda olan çoxmillətli dövlət strukturuna ciddi təhlükə hesab olunur. Bu ölkə Azərbaycanın müstəqilliyinə gələcəkdə Cənubi Azərbaycanla birləşmək istiqamətində ciddi təhlükə kimi yanaşır. Müəllifin fikrincə, İranın təhlükəsizliyi və ümumiyyətlə, gələcəkdə mövcudluğu, birbaşa Azərbaycan dövləti və İranda yaşayan azərbaycanlıların məsələsi ilə bağlıdır.[168]

Bəzi mütəxəssislər hesab edir ki, İranın rəsmi dairələri Cənubi Qafqazda Azərbaycanın mövcudluğuna, demokratik ölkə kimi inkişaf edərək cəlbedici dövlətə çevrilməsinə nəinki

[167] Bax: "Bakı xəbər" qəzeti, №41, 7 mart 2012-ci il.ş.5.
[168] Bax: Svante E. Cornell. Small Nations and Great Powers. A. Study of Ethnopolitical Conflict in the Caucasus // Curzon Press, 2001, p.391

təkcə qısqanclıqla yanaşır, həm də belə təhlükənin baş verəcəyi təqdirdə Rusiya-Ermənistan cütlüyünün köməyinə arxalanmaq istiqamətində bəzi kombinasiyalar haqqında da düşünür. İran Ermənistan və Rusiyanı öz təhlükəsizliyinin təminatı kimi Azərbaycanın birbaşa zəiflədilməsi, Şimali və Cənubi Azərbaycan məsələsində rəqib olaraq aradan qaldırılması, Türkiyənin və Qərbin bölgədən sıxışdırılması məqsədilə istifadə edir.[169]

İranın regional təhlükəsizliyinə birbaşa təsir göstərən *ikinci əsas amil* mütəxəssislərin fikrinə görə, bu ölkənin xarici geosiyasi əhatəsi ilə bağlıdır. İranın coğrafi və əhali məskunlaşması xəritəsinə diqqət yetirsək görərik ki, Türkiyənin yerləşdiyi məkan da daxil olmaqla, Cənubi Qafqaz və Xəzər hövzəsində bu ölkəni əhatə edən ərazilərin əksəriyyətində türk kökənli əhali və xalqlar məskunlaşmışlar. Ölkənin daxili və sərhədboyu əhali strukturu, yerli azərbaycanlıların kompakt yaşaması və sayca çoxluğu, ətrafdakı türk mənşəli xalqların və dövlətlərin mövcudluğu bu ölkəni daim narahat etmiş və bu gün də etməkdədir. ABŞ tədqiqatçısı B. Şaferin fikrinə görə, İranın qeyri-fars əhalisi xarici aləmin təsirinə həddindən artıq həssasdır, çünki onlar özlərinin etnik qohumluq əlaqələrində olan xalqlar və dövlətlərlə bağlıdırlar. Həmin xalqların və dövlətlərin güclənməsi, bir araya gəlməsi və xüsusən də Türkiyənin onlar üzərində təsirinin artması İranı tarix boyu narahat etmiş və indi də etməkdədir.[170]

Tədqiqatçılar hesab edirlər ki, İran etnik quruluşundan və türk kökənli etnoslarla əhatə olunmasından gələn təhlükələri önləmək üçün bir tərəfdən ciddi cəhdlə Azərbaycan və Türkiyəni, bu iki müttəfiq ölkənin bölgədəki hərbi-geostrateji

[169] Bax: Эйвазов Дж. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, 2004. с. 200.
[170] Bax:Brenda Shaffer. The Formation of Azerbaijani Collective Identity in Iran, Nationalities Papers , Volume 28,№3, 2000, s.449.

tərəfdaşları hesab olunan ABŞ, NATO və Qərbi təqib edir, onlara qarşı alternativ hərbi-geostrateji bloklar yaratmağa çalışır, yaxud belə bloklarla əməkdaşlıq edir. Digər tərəfdənsə bölgədə şiə-sünnü faktorunu xüsusi qabardaraq türk kökənli və digər ölkələrin əhalisini məzhəblərarası qarşıdurmaya sövq edir, ayrımçılıq siyasəti yürüdür.[171]

İranın Xəzər hövzəsi və Cənubi Qafqazda yürütdüyü regional təhlükəsizlik siyasətinə birbaşa təsir göstərən *amillərdən üçüncüsü* bölgədəki hərbi-geostrateji qüvvələr balansının onun ziyanına dəyişə biləcəyi ehtimalından yaranan təhlükə hesab olunur. Hazırda Cənubi Qafqazda Türkiyə, o cümlədən onların hərbi müttəfiqi olan ABŞ və NATO İranın birbaşa rəqibi hesab olunur. Bölgədə tərəfsiz və balanslı hərbi-geostrateji siyasət yürüdən Azərbaycan və NATO-ya üzv olmaq istəyini açıq bəyan edən Gürcüstansa Qərbin hərbi-geostrateji tərəfdaşları kimi dəyərləndirilir. İranın ən çox qorxduğu məsələ isə bu qurupun Azərbaycan vasitəsilə nə zamansa Xəzərə daxil olması və onun təhlükəsizliyinə birbaşa təhlükə yaratması ehtimalıdır. Adı çəkilən aktorlara qarşı İran özünün "Moskva-İrəvan-Tehran" geosiyasi oxu üzrə özünün ehtiyat hərbi-geostrateji müttəfiqlik fəaliyyətini yaratmağa, bölgənin təhlükəsizlik arxitekturasında iştirakını daha da artırmağa və Rusiya ilə uzlaşdırmağa çalışır. Mütəxəssislər SSRİ dağılandan sonra İranın Mərkəzi Asiya, Xəzər hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik arxitekturasına həssas yanaşmasını, sərgilədiyi ehtiyyatlı və fərqli mövqeni də məhz bununla izah etməyə çalışırlar.

Bəzi mütəxəssislər hesab edirlər ki, İranın regiondakı geostrateji duruma təsir imkanları azaldıqca, işğalçı Ermənistanla və onun hərbi müttəfiqi Rusiya ilə müttəfiqlik, "dost və qardaş" Azərbaycan və Türkiyə ilə isə rəqiblik münasibətləri

[171] Bax: Эйвазов Дж. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики.с. 199

güclənəcəkdir. Onlar buna misal kimi, həm İran, həm də Ermənistan və tərəfdaşlarının birləşərək keçən əsrin 90-cı illərinin ortalarında Azərbaycanın təşəbbüsü və Türkiyənin bilavasitə iştirakı ilə Xəzər dənizində həyata keçirilən transmilli enerji layihələrinə, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinə, Bakı-Tbilisi-Qars dəmir yoluna, Şərq-Qərb nəqliyyat kommunikasiya dəhlizinə və s. mane olmaq istədiklərini göstərirlər. Həmin vaxt bu ölkələr Azərbaycana və onun tərəfdaşlarına Qərbin dəstəyi ilə reallaşdırılan transmilli enerji, nəqliyyat və ixrac layihələrinə mane olmağa çalışdılar və özlərini həmin layihələrdə iştirakdan məhrum etdilər. Baxmayaraq ki, Azərbaycan həmin dövrdə "bölgədə beynəlxalq hüquq normalarına hörmətlə yanaşacaqları, özgə torpaqlarına iddia etməyəcəkləri, regional sülhə və əməkdaşlığa xidmət edəcəkləri təqdirdə" hər bir bölgə ölkəsini bu transmilli layihələrdə iştiraka çağırırdı. Lakin o zaman həm İran, həm də Ermənistan öz günahları ucbatından bölgədəki əksər iqtisadi-enerji layihələrindən kənarda qaldılar.

Azərbaycanın Xəzər hövzəsi və Cənubi Qafqazda İranla bağlı yürütdüyü geosiyasi, geoiqtisadi və və hərbi-təhlükəsizlik siyasətinin mahiyyıti və əsas cəhətləri

Azərbaycanın İranla bağlı yürütdüyü geosiyasi, geoiqtisadi və və **hərbi-təhlükəsizlik siyasətinə** gəldikdə, qeyd etmək lazımdır ki, keçən dövrdə bu ölkə Xəzər hövzəsi və Cənubi Qafqazda xüsusi hərbi-geostrateji təsiri olan hər üç güc mərkəzli - ABŞ-NATO-Türkiyə, Rusiya-KTMT və ayrıca olaraq İranla özünün mövcud tarazlaşdırılmış regional təhlükəsizlik siyasətini qorumuş, onların hər biri ilə ayrı-ayrılıqda, qarşılıqlı maraqlar zəminində tərəfdaşlıq münasibətləri yaratmağa, ikitərəfli əlaqələri tarazlı vəziyyətdə saxlamağa çalışmışdır. Mütəxəssislərin fikrincə, Azərbaycanın regiondakı *geosiyasi, hərbi-*

geostrateji maraqları üst-üstə düşməyən ayrı-ayrı dövlət və dövlət birliklərinin hər biri ilə "təhlükəsizlik sahəsində qarşılıqlı münasibətlər yaratması və eyni zamanda onların hər birini bəlli məsafədə saxlaması" onun geosiyasi və hərbi-geostrateji mövqeyinin möhkəmlənməsinə mühüm təsir göstərmiş və bu gün də göstərməkdədir.

Müstəqilliyə qovuşduğu ilk gündən, xüsusən, 1993-cü ildən Azərbaycan qonşu İranla regional təhlükəsizliyik sahəsindəki münasibətlərə xüsusi həssaslıqla yanaşmışdır. Bu, bir tərəfdən, bölgənin ən böyük iki islam dövlətindən biri sayılan, Azərbaycanla müştərək tarixi keçmişi, din və mədəniyyət birliyi olan, on milyonlarla azərbaycanlının yaşadığı İranın Cənubi Qafqazın geosiyasi sabitliyinə, regional sülh və tərəfdaşlıq mühitinə göstərə biləcəyi müsbət təsirlə əlaqəli idisə, digər tərəfdən, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının geri qaytarılması, Dağlıq Qarabağ münaqişəsinin həlli, bir milyondan çox müsəlman qaçqın və köçkünün problemlərinə yardım edilməsi və s. ilə bağlı onun hərtərəfli dəstəyini qazanmaq istəyindən irəli gəlirdi.

İslam Konfransı Təşkilatı, EKO (İqtisadi Əməkdaşlıq Təşkilatı), Türkdilli Dövlətlər Birliyi və s. kimi təşkilatlara üzv olması da Azərbaycana bir tərəfdən müstəqillik yolunda əlavə beynəlxalq təminat mahiyyəti kəsb edirdisə, digər tərəfdən regional təhlükəsizliyin, Dağlıq Qarabağ probleminin və s. milli problemlərin həllində islam-türk dünyasının köməyini qazanmaq məqsədi güdülürdü.

Əlbəttə, bütün xristian dünyasının dəstəyinə söykənərək, Cənubi Qafqazda Azərbaycana qarşı açıq-aşkar işğalçılıq siyasəti yürüdən, onun müsəlman əhalisini soyqırımına məruz qoyan Ermənistana qarşı mübarizədə Azərbaycanın islam dünyası və İrandan dəstək gözləməsi və bunu umması da təbii idi. Xüsusən, bütün parametrləri ilə bölgədə Azərbaycana ən yaxın iki müsəlman dost ölkəsindən biri hesab edilən, əhalisinin 40%-

nin azərbaycanlılardan ibarət olan İrandan özünün haqlı mübarizəsində hərtərəfli dəstək gözləməyə haqqı da çatırdı. Lakin, mütəxəssislərin fikrincə, Azərbaycanın regional təhlükəsizliyinin ən əsas problemi hesab olunan Dağlıq Qarabağ münaqişəsinin həllində İrandan yardım gözləməsi əbəs idi. Çünki, İran da bu və ya digər səbəblərdən bəzi digər region ölkələri kimi Azərbaycanın Ermənistanla münaqişəsinin tezliklə başa çatmasında, Dağlıq Qarabağın və işğal altındakı digər torpaqların geri qaytarılmasında, qonşuluğunda inkişaf etmiş, müstəqil qərbyönlü siyasət yürüdən, demokratik və dünyəvi ölkə kimi tanınan Azərbaycan dövlətinin mövcudluğunda maraqlı görünmürdü. Əslində Tehran bu münaqişənin uzanmasını Azərbaycanın Qərbə meyillənməsi yolunda maneə yaradan və Qərb ölkələri ilə hərbi-strateji tərəfdaşlığı əngəlləyən amil kimi də qiymətləndirirdi.

Azərbaycan İranla təkcə dostluq və qonşuluq münasibətlərinin qorunub saxlanılmasında maraqlı deyildi, həmçinin Rusiya, Türkiyə, Gürcüstan və b. həmsərhəd ölkələrlə olduğu kimi onunla da regional təhlükəsizlik məsələlərində tərəfdaşlıq münasibətləri yaratmağa çalışırdı. Lakin bu ölkə ilə ortaya çıxan bəzi geosiyasi problemlər- işğalçı Ermənistana hərtərəfli yardım etməsi, Xəzərin hüquqi statusu məsələsi, Azərbaycanın xarici siyasətinə, beynəlxalq aləmlə müstəqil əlaqələrinə, daxili idarəetmə işlərinə və cəmiyyət həyatına arzuolunmaz müdaxilə cəhdləri fonunda neçə illərdir ki, regional təhlükəsizlik sahəsində bu ölkə ilə ciddi tərəfdaşlıq münasibətləri yaratmaq mümkün olmamışdır.

Yeni əsrin başlanğıcından, xüsusən də körfəzdəki ABŞ-İraq müharibəsindən sonra İran Azərbaycana, onun Xəzər hövzəsi və Cənubi Qafqazda nümayiş etdirdiyi transmilli siyasətə, öz təhlükəsizliyinin təmin edilməsi ilə bağlı həyata keçirdiyi beynəlxalq və regional fəaliyyətə, xüsusən, Qərblə, Türkiyə və İsraillə yaratdığı hərbi-geostrateji münasibətlərə, təhlükəsizlik

sahəsindəki tərəfdaşlıq meyillərinə ciddi qısqanclıqla yanaşmağa başladı. Həmin dövrdən rəsmi Tehranın Azərbaycanla geosiyasi münasibətlərə, onun xarici aləmlə strateji əlaqələrinə daha çox diqqət yetirməsini ekspertlər ikincinin son illərdə getdikcə güclənməsi, regionda və dünyada söz sahibinə çevrilməsi, İran əhalisinin bu ölkənin dünyəvi inkişafına rəğbətinin və meyilinin artması ilə əlaqələndirirlər. Lakin bəzi mütəxəssislər hesab edirdi ki, İran ətrafında son dövtlərdə sıxlaşan həlqənin getdikcə onun daha çox sıxışdırılması və dünyadan təcrid edilməsi istiqamətində inkişaf edəcəyi, Amerikanın bu ölkəyə hərbi-geostrateji təzyiqlərinin intensivləşəcəyi və real təhlükə kəsb edəcəyi, Azərbaycanın öz neytrallığını sona qədər qoruyub saxlayacağı və ərazisini anti-İran qüvvələrinin ixtiyarına verməyəcəyi təqdirdə, rəsmi Tehran Azərbaycanla münasibətlərini yaxşılaşdırmağa cəhd edəcək, hətta iki ölkə arasında indiyə qədər həllini tapmayan bir çox məsələlər, o cümlədən Xəzərin statusu məsələsi müsbət həll ediləcəkdir. Lakin bu proqnozlar İranın "spesifik davranışı" üzündən və bəzi digər səbəblərdən nəinki özünü doğrultmadı, əksinə bu ölkədə anti-Azərbaycan istiqamətli fəaliyyətə bir qədər də rəvac verdi. İranın ətrafındakı hərbi mühasirə daraldıqca, o bütün beynəlxalq hüquq normalarını, suveren dövlət hüquqlarını unudaraq Azərbaycana "hansı xarici ölkələrlə hərbi əməkdaşlıq münasibətləri yaratmaq, müdafiə qüdrətini artırmaq məqsədilə kiminlə hərbi-texniki əməkdaşlıq qurmaq, ölkədən gediş-gəlişin hansı normalarını tərbiq etmək və s." kimi- müstəqil dövlərin suveren hüquqlarına aid edilən məsələlərə müdaxilə etməyə başladı.

Son illərdə nüvə texnologiyasına yiyələnən və bu faktordan istifadə edərək dünyada öz təsirini artırmağa çalışan İran siyasi sahədə olduğu kimi, hərbi-geostrateji müstəvidə də ABŞ və onun Qərb dünyasındakı müttəfiqləri ilə ciddi qarşıdurma

yaşayır. "Nüvə texnologiyasına sahib olmaqla Yaxın və Orta Şərqin, Xəzər hövzəsi və Cənubi Qafqazın super dövlətinə çevrilmək" istəyi, "dünyada islam ölkələrinin lideri, əsas söz və nüfuz sahibi qismində çıxış etmək" və s. taktikası onun dünya təhlükəsizlik sisteminin nüfuzlu Qərb Alyansı ilə qarşıdurmasını son həddə qədər kəskinləşdirib. Tehranın ciddi müqavimətinə baxmayaraq, ABŞ və NATO artıq ölkənin sərhədlərinə yaxınlaşmışdır. İranla sərhədyanı ölkələrin əksəriyyətində - Türkiyə, Pakistan, Əfqanıstan, İraq, Qırğızıstan, həmçinin Fars körfəzində və sahilyanı ölkələrində ABŞ-ın hərbi qüvvələri yerləşdirilmiş və gücləndirilmişdir. Birləşmiş Ştatların hərbi iştirakı olmayan İranla yeganə sərhəd dövlətləri Azərbaycan və Türkmənistandır. Bu amil məntiqə görə Azərbaycanın İran üçün tərəfdaşlıq əhəmiyyətini daha da artıraraq, onlar arasındakı münasibətləri yaxşılaşdırmalıdır. Lakin İran, əksinə ABŞ, Qərb və İsraillə qarşıdurma zəminində, onların əksər regional tərəfdaşlarını, o cümlədən Türkiyə və Azərbaycanı hərbi müdaxilə ilə ciddi təhdid edərək, yaxınlaşan münaqişəyə öz tərəfindən qatmağa çalışır. Bunu da tədqiqatçılar, **ilk növbədə** İranın bölgədə özünü daha "güclü ölkə" hesab edərək, qarşılıqlı faydalı və bərabərhüquqlu regional münasibətləri pozması, kicik qonşularına öz "liderliyini", iradəsini və maraqlarını zorla qəbul etdirməsi, qonşu ölkələrin daxili və xarici fəaliyyətlərinə müdaxilə etməsi və s. kimi beynəlxalq hüquqa zidd tələblər irəli sürməsi ilə bağlayırlar. Məsələn, İran Azərbaycanın müstəqil bir dövlət olaraq həyata keçirdiyi regional və beynəlxalq siyasətə, öz milli maraqlarına söykənən daxili və xarici fəaliyyətə, qonşularına bəslədiyi və müvafiq olaraq onlardan tələb etdiyi "bir-birinin suveren dövlət idarəçiliyinə, daxili işlərinə qarışmamaq" tələbinə, bərabərhüquqlu əməkdaşlıq istəyinə, Cənubi Qafqaz və Xəzər hövzəsinin indiki və

gələcək regional təhlükəsizlik məsələsinə yanaşmada nümayiş etdirdiyi fərqli baxışa, bəzi məsələlər üzrə mövcud olan prinsipial fikir ayrılığına görə rəsmi Bakının birmənalı tərəfdaşlıq çağırışlarını cavabsız qoyur..

İranın Qərblə hərbi-geostrateji qarşıdurma fonunda qonşu ölkələri, xüsusən də Azərbaycan və Türkiyəni təhdid etməsi cəhdlərini mütəxəssislər, daha bir neçə amillə izah edirlər. Onların fikrinə görə, İran **əvvəla,** öz ətrafında yaranmış çox çətin geosiyasi və hərbi-geostrateji mühasirədən çıxmaq istəyir və bu istiqamətdə "təhdid etmə yolu ilə" qonşularını anti-qərb, antiamerika və antiisrail cəbhəsinə sürükləməyə, özünə qoşmağa və onları gələcək hərbi qarşıdurmada "tərəfdaş" etməyə çalışır. Bu ölkə son günlərdə Qərbin əksər beynəlxalq və regional tərəfdaşlarına belə hücumlar həyata keçirir. **İkincisi,** İran Qərbin Xəzər hövzəsi və Cənubi Qafqazdakı transmilli geoiqtisadi və enerji maraqlarını təhdid etmək, hədələmək məqsədilə onların bölgədəki əsas geoiqtisadi tərəfdaşı qismində Azərbaycanı hədələyir. **Üçüncüsü,** İran hədə-qorxu yolu ilə Türkiyə və Azərbaycanın bu qarşıdurmada hər hansı formadasa dəstəyini qazanmaq, ən azından onların əks düşərgə ilə mümkün ola biləcək əməkdaşlıqdan, antiiran fəaliyyətindən çəkindirmək məqsədi güdür. Rəsmi Tehran gözəl anlayır ki, Türkiyə və Azərbaycan da öz ərazilərindən ABŞ və onun müttəfiqlərinə İrana hücum məqsədilə istifadəyə icazə versələr, o zaman bu ölkənin onsuz da ağır olan hərbi vəziyyəti bir qədər də pisləşə bilər.

ABŞ-ın Kanzas Universitetinin professoru, Vaşinqton Xarici Əlaqələr Şurasının siyasi şərhçisi D. Hersprinqin fikrinə görə, İrana qarşı həyata keçirilməsi getdikcə reallığa çevrilən müharibənin ağır nəticələri bütün bölgəyə, ilk növbədə isə Azərbaycana, Türkiyəyə və Cənubi Qafqaza dəyə bilər. İran son günlər Azərbaycanı İsrailin kəşfiyyat strukturlarına guya

öz ərazisndə İrana qarşı fəaliyyət üçün şərait yaratmaqda suçlayaraq, hətta onu hədələməkdən belə çəkinmir. D. Hersprinq hesab edir ki, "İran özünü kifayət qədər dalaşqan ölkə hesab edərək" düşünür ki, bir bəyanatla Bakını öz iradəsinə tabe etdirə biləcəkdir. [172]

Azərbaycanı, regionu və beynəlxalq aləmi təmsil edən bir çox müşahidəçilər və hərbi mütəxəssislər də hesab edir ki, İrana qarşı reallaşdırılması gözlənilən hərbi əməliyyatlar bölgə ölkələrinə ciddi xətər yetirə bilər. Azərbaycanın rəsmi dairələri də dəfələrlə bəyan ediblər ki, onlar İranın dinc nüvə texnologiyasına sahib olması hüququnu tanıyır, beynəlxalq aləmin bu sahədə həyata keçirdiyi anti-İran kompaniyasında iştirak etmir, bütün bölgədə, o çümlədən Azərbaycanda humanitar fəlakətə yol açа bilən İrana qarşı hər hansı silahlı müdaxiləni dəstəkləmir, öz ərazilərindən bu ölkəyə qarşı hər hansı əməliyyəta və s. heç zaman imkan verməyəcək, bu problemin danışıqlar yolu ilə, dinc vasitələrlə həll edilməsinə tərəfdardır.[173]

İran-Azərbaycan münasibətlərində real gerçəkilk ondan ibarətdir ki, rəsmi Bakı heç zaman İranın daxili və xarici siyasətinə qarışmamış, bu qonşu ölkə ilə münasibətləri daim səhmanda saxlamağa cəhd etmiş, amma eyni zamanda İranın da onun milli təhlükəsizliyi və maraqlarına aid olan məsələlərə, daxili və xarici siyasətinə, beynəlxalq aləmlə ikitərəfli və çoxtərəfli münasibətlərə müdaxilə etməsinə yol verməmişdir. Azərbaycan bəzən Qərb, ABŞ və İsrailin bu istiqamətdəki bütün istək və arzularına, geostrateji təzyiqlərinə sinə gərərək, onların Azərbaycan və onun ərazisi vasitəsi ilə İrana təzyiq göstərmək, yaxud təsir etmək istəklərini rədd etmişdir. Lakin,

[172] Bax: Deyl Herspringin APA informasiya agentliyinə müsahibəsi //APA bülleeni, 28 fevral 2012. WWW. APA. AZ.
[173] Bax: "Xalq qəzeti", 9 dekabr 2011-ci il. yaxud Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011.s.268-275.

eyni zamanda İranın da anti-qərb, anti-İsrail hərəkətlərinə qoşulmamış və dəstək verməmişdir. Çünki Azərbaycan gözəl anlayır ki, regional balansı poza biləcək belə hərəkətlər ya İranı açıq şəkildə Ermənistanla birləşməyə, Azərbaycana qarşı hərbi-geostrateji blok yaratmağa və birgə mübarizə aparmağa sövq edə bilər, ya da ki, Qərbi və İsraili Azərbaycanın milli maraqlarına qarşı çevirə bilər.

Nüvə texnologiyalarına sahib olması fonunda İranın ABŞ və Qərblə yaranan hərbi-geostrateji qarşıdurmasına, Azərbaycanın bu prosesdəki roluna toxunan prezident İlham Əliyev bəyan etmişdir ki, "Hazırda bölgədə vəziyyəti qarışdırmaq istəyən bəzi xarici və daxili qüvvələr Azərbaycanı öz qonşuları, o cümlədən İranla üz-üzə qoymaq, onlar arasındakı mehriban qonşuluq və dostluq münasibətlərini pozmaq istəyirlər... Azərbaycanın öz qonşuları ilə münasibətlərinin tarixi köklərə söykəndiyini, Ermənistan istisana olmaqla, bütün bölgə ölkələri ilə hərtərəfli dostluq və tərəfdaşlıq münasibətlərinin yarandığını və getdikcə gücləndiyini xüsusi qeyd edən ölkə başçısı, ölkəsinin indiyə qədər olduğu kimi, bundan sonra da heç vaxt başqalarının hansısa regional münaqişələrində, bu yönlü planlarında iştirak etməyəcəyini birmənalı şəkildə bəyan etmişdir... "Mən hələ birinci prezidentlik dövrünün əvvəlində demişəm və indi də təkrar edirəm: "Azərbaycan heç bir regional və beynəlxalq qarşıdurma arenasına çevrilməyəcəkdir. Kim olur-olsun Azərbaycanın regional qarşıdurmalara cəlb edilməsinə, ərazilərindən qonşularına qarşı mənfi planda istifadə edilməsinə və münaqişə mərkəzinə çevrilməsinə biz heç vaxt imkan verməyəcəyik".[174]

İlham Əliyev onu da təəssüflə qeyd etmişdir ki, son vaxtlar Azərbaycan-İran münasibətlərini gərginləşdirmək və iki ölkə arasında qarşıdurma yaratmaq sahəsində beynəlxalq sə-

[174] Bax: "Azərbaycan" qəzeti, 17 aprel 2012-ci il.

viyyədə informasiya təxribatlarından geniş istifadə edilir və bəzən ən mötəbər, transmilli mətbu orqanlarda belə yalan informasiyalar yayılır, məqalələr dərc edilir. Sonra bu yalanlar əsasında rəy formalaşdırmağa çalışırlar ki, guya Azərbaycan bölgədə hansısa başqa mənfi istiqamətli planlara malikdir. Bizim bir istəyimiz var: "bölgədə sülh, sabitlik, əmin-amanlıq olsun. Qonşularla münasibətlər səhmanda saxlanılsın. Biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Mən qonşulardan da Azərbaycana qarşı adekvat münasibət görürəm və buna da çox şadam." [175]

İran Azərbaycan münasibətlərin kəskinləşdirilməsi həm də bu ölkədə yaşayan milyonlarla azərbaycanlının vəziyyətinə və həyatına mənfi təsir göstərə bilər. Bundan başqa, İran Azərbaycanın ən böyük qonşularından biridir və bu ölkənin onun milli təhlükəsizliyinə vura biləcəyi ziyanı da gözdən qaçırmaq olmaz. Və nəhayət, İran Naxçıvana Azərbaycanın yeganə quru bağlantı yoludur ki, bunun da taleyi iki ölkə arasındakı münasibətlərdən asılıdır.

§ 1.8. Digər aparıcı dünya dövlətlərinin Avrasiya siyasəti və Azərbaycanla geosiyasi münasibətlərinin xarakteristikası

Çİn Xalq Respublikası. Avrasiya regionu ənənəvi və yeni geosiyasi oyunçularla yanaşı, bölgədə gedən prosesləri daim diqqətlə izləyən Çin Xalq Respublikası üçün də cəlbedici məkandır. Hazırda Çin Avrasiya regionunda baş verən geosiyasi proseslərə getdikcə öz təsirini artırmaqdadır. Bu dövlət regionu hərtərəfli tədqiq edərək, onun xammal mənbələrinə, nəqliyyat-kommunikasiya imkanlarına, satış bazarlarına daxil

[175] Bax: "Azərbaycan" qəzeti, № 82, 17 aprel 2012-ci il.s.4.

olmanın və bölgədə təmsilçiliyin məxsusi strategiyasını hazırlamışdır.

Çin Avrasiyaya həm satış bazarı, həm öz vətəndaşları üçün yeni iş yerləri, həm də Qərbə, İran körfəzi və Yaxın Şərqə çıxış məqsədi ilə tranzit region kimi baxır. Eyni zamanda, Çin Avrasiyaya onu enerji daşıyıcıları, dağ-mədən sənayesi məhsulları, metal və s. xammalla təmin edə biləcək əsas bölgələrdən biri kimi də yanaşır.

Hazırda Çin Qərbin Asiyada hərbi-geostrateji, geosiyasi və geoiqtisadi cəhətdən öz mövqelərini möhkəmləndirməsinə qarşı çıxış edir və məxsusi geosiyasi maraqlarından irəli gələrək Rusiya və İranla strateji regional münasibətlər qurmağa çalışır. Lakin, Avrasiyada Qərbin hərbi-geostrateji iştirakına qarşı çıxan Çin eyni zamanda, Rusiyanın bölgədə artan hərbi təsirinə də qısqanclıqla yanaşır. Mütəxəssislərin fikrinə görə, Çinin hərbi-geostrateji maraqlarına "xarici qoşun və hərbi bazalardan azad Orta Asiya və Cənubi Qafqaz" uyğun gəlir ki, bu amil də *Çin-Azərbaycan münasibətlərinin* müsbət dinaikasına mühüm təsir göstərir.

Avrasiyada bir sıra qlobal enerji istehsalı və ixracı, nəqliyyat-kommunikasiya layihələrinin reallaşması Çinin geosiyasi və geoiqtisadi mənafelərinə uyğun gəlir. Bu ölkənin diqqətini cəlb edən əsas tranzit sahə, əlbəttə ki, Şərq-Qərb tranzit dəhlizinin Avrasiyadan Çinə qədər olan hissəsinə düşən layihələrdir. Rəsmi Pekin hətta, Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinə böyük maraq göstərmiş və onun maliyyələşdirilməsində iştirak etməyə hazır olduğunu bəyan etmişdir. Çünki bu dəhliz Çin və Orta Asiya məhsullarının qısa vaxt ərzində Avropaya daşınmasına imkan yaradacaqdır.

Çinin Avrasiyada ən çox maraq göstərdiyi layihələr Qazaxıstanla bağlıdır. Artıq Qazaxıstan Çinin iştirakı ilə "Transqazax neft və qaz layihəsi"ni reallaşdırmaqdadır. Qazaxıstan prezidenti Nursultan Nazarbayevin Çinə səfəri zamanı Xəzərdən

Çinə dəmir yolunun çəkilməsi haqqında da sənəd imzalanmışdır. Çəkilişi 5 milyard ABŞ dollarına başa gələcək və 4 min km uzunluğunda olan bu dəmir yolu İran, Türkmənistan və Qazaxıstan ərazisindən keçərək Çini Avrasiya ilə birləşdirəcəkdir. Bundan başqa, iki ölkə arasında Qazaxıstan-Çin neft kəmərinin tikintisinə dair razılıq da əldə olunub. Bu kəmər vasitəsilə mütəxəssislərin fikrinə görə, gələcəkdə Xəzər neftinin də bir hissəsinin Çinə nəql olunması mümkündür. lakin bu layihə son zamanlar ABŞ-da ciddi narahatlıqla qarşılanmışdır, çünki ABŞ Xəzər neftinin «Asiya marşrutu» ilə Çin və Hindistana daşınacağından ehtiyat edir. Göründüyü kimi, Cənubi Asiya ölkələrində və Çində enerji daşıyıcılarına ehtiyacın getdikcə artması onları Xəzər nefti uğrunda ABŞ-ın və AB-nin əsas rəqiblərinə çevirir.

Avrasiya regionunda Çinin diqqət mərkəzində dayanan əsas bölgələrdən biri də şübhəsiz ki, Xəzər hövzəsidir. Ekspertlərin fikrincə, hazırda sürətlə inkişaf edən Çin gələcəkdə xammal və ilk növbədə enerji çatışmazlığı təhlükəsi ilə üzləşə bilər. Hesablamalara görə, 1993-cü ildən başlayaraq Çin neft idxalını ilbəil artırır və ildə təxminən 100 milyon tona yaxın neft alır. Çin üçün əsas enerji mənbəyi sayılan Fars körfəzində geosiyasi vəziyyətin mürəkkəbliyini nəzərə alsaq, bu halda rəsmi Pekinin Xəzər hövzəsindən alternativ mənbə kimi istifadə etməkdə maraqlı olduğunu görərik.

Çinin Xəzər hövzəsində fəallaşmasına Rusiyanın münasibəti həmişə qeyri-müəyyən xarakter daşımışdır. Qeyd edək ki, bir tərəfdən Çin Rusiyanın strateji tərəfdaşıdır, digər tərəfdən isə o, Rusiyanın geoiqtisadi maraqları olan zonada əsas rəqiblərindən biri kimi çıxış edir. Əgər Çinin bugünkü inkişaf templərinə nəzər salsaq və yaxın gələcəkdə onun dinamikası haqqındakı proqnozları göz önünə gətirsək, əlbəttə ki, bu dövlətin hazırkı "neytrallıqdan" nə zamansa ciddi fəal hərəkətə keçəcəyinə heç bir şübhə yeri qalmır. Analitiklərin rəyinə görə,

Çin 2030-cu ilə qədər Avrasiya regionundakı geoiqtisadi mövqelərini ciddi şəkildə möhkəmləndirərək, geosiyasi və geostrateji məsələlərdə əsas söz sahiblərindən birinə çevriləcəkdir.

Çin Orta Asiya və Xəzər hövzəsində həm Rusiya və İranın, həm də Qərb ölkələrinin ən çox çəkindikləri və onlarla ciddi rəqabət aparmağı bacaran bir dövlətdir. Eyni zamanda, bu ölkə regionun kiçik dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri yaratmaqdan da qətiyyən çəkinmir və narahat da deyil. Müasir dövrdə Çinin apardığı xarici siyasətə nəzər salsaq görərik ki, bu dövlət tərəfdaşlıq etdiyi ölkələrə hər hansı iqtisadi, siyasi və beynəlxalq xarakterli problemlər yaratmağa meyilli görünmür. Çin Xəzər hövzəsinin və Orta Asiyanın enerji və xammal ehtiyatlarına azad giriş şəraiti yaratmaq məqsədilə bölgə ölkələri ilə münasibətləri inkişaf etdirməyə çalışır. Çin bir çox region ölkələrindən fərqli olaraq, bölgədə transmilli nəqliyyat-enerji dəhlizlərinin çoxvariantlılığı və təhlükəsizliyində, hövzə dövlətlərinin həm Rusiyanın, həm də Qərb ölkələrinin geosiyasi təsirindən azad olmalarında maraqlıdır ki, bu da onu regional münasibətlərdə yerli ölkələr üçün cəlbedici tərəfdaşa çevirir.

Region dövlətləri ilə ideoloji, iqtisadi-siyasi əlaqələr yaratmaq baxımından da Çin sərfəli tərəfdaş hesab olunur. Bu ölkə bir qayda olaraq, tərəfdaşlıq etdiyi dövlətlərin daxili siyasi və ideoloji həyatına müdaxilə etmir, daha çox onlarla iqtisadi və mədəni əməkdaşlıq, ölkələrarası dostluq münasibətləri yaratmağa meyil göstərir. Avrasiya məkanında digər beynəlxalq və regional aktorlarla, geosiyasi və geoiqtisadi rəqiblərlə münasibətlərini Çin bir qayda olaraq təmkinli, münaqişəsiz, birbaşa üz-üzə gəlməkdən, toqquşmadan yayınmaqla və ən əsası ərazisində fəaliyyət göstərdiyi ölkənin milli maraqlarını nəzərə almaqla reallaşdırır. Bəzi analitiklər yaxın on illiklər ərzində Qərbin dünya hegemonluğuna qarşı mübarizədə Çinin İslam dünyası ilə müttəfiq olmasını da mümkün sayır.

Pakistan. Hazırda Avrasiya regionunda nisbətən fəallıq göstərməyə çalışan bölgə dövlətlərindən biri də Pakistandır. Qeyd edək ki, nüvə silahına sahib çıxandan sonra Pakistanın dünya birliyindəki hərbi-geostrateji çəkisi xeyli artmış və bu amil onun regional siyasətində də özünü göstərir. Pakistanın bölgə geosiyasətinin əsasını onun Hindistan və İranla rəqabəti, Türkiyə və Azərbaycanla isə geosiyasi tərəfdaşlıq münasibətləri təşkil edir.

Azərbaycan-Pakistan regional və ikitərəfli münasibətləri ilk növbədə hərbi-siyasi sahəni əhatə edir. Məlum olduğu kimi, Pakistan 1991-ci ildə Türkiyədən sonra Azərbaycanın müstəqilliyini tanıyan və hərtərəfli dəstək verən ikinci ölkə olub. 1992-ci il iyunun 9-dan isə iki ölkə arasında diplomatik münasibətlər qurulub. Pakistanı tam əminliklə həm də Azərbaycanın hərbi-strateji müttəfiqi adlandırmaq olar. Çünki bütün sahələrdə, o cümlədən Dağlıq Qarabağ məsələsində də Pakistan Azərbaycana birmənalı şəkildə dəstək verən ölkələrin önündə gedir. Təsadüfi deyil ki, 1993-cü ilin aprelində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında erməni işğalçı qoşunlarının Azərbaycan ərazisindən çıxarılmasını tələb edən 822 saylı qətnamənin qəbulu zamanı Təhlükəsizlik Şurasına məhz Pakistan sədrlik edirdi.

Pakistan-Azərbaycan münasibətlərinin strateji müttəfiqlik səviyyəsinə çatmasında ümummilli lider Heydər Əliyevin 1996-cı ildə İslamabada rəsmi səfəri mühüm rol oynamışdır. Bundan başqa, 2004-cü ildə Pakistan Prezidenti Pərviz Müşərrəfin Bakıya, 2005-ci ilin aprelində isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İslamabada rəsmi səfərləri də ikitərəfli əlaqələrin möhkəmlənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu gün tərəflər BMT, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, regional qurumlarda eyni mövqedən çıxış edirlər. Hər iki dövlət Kəşmir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problem-

lərinə eyni mövqedən yanaşır və bu münaqişələrin beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdar olduqlarını bildirirlər. Qeyd etmək lazımdır ki, Pakistan indiyədək işğalçı Ermənistanla diplomatik münasibətlər qurmayıb və ən müxtəlif tribunalardan işğalçı ordunun Azərbaycan ərazilərindən çıxarılmasını tələb edir. Öz növbəsində, Azərbaycan da Kəşmir problemində Pakistanın mövqeyini dəstəkləyir və TRASEKA layihəsində müşahidəçi kimi iştirak edən bu dövlətə hərtərəfli dəstək verir. Bundan başqa, rəsmi Bakı üçün Pakistanın Azərbaycan hərbçilərinin hazırlığında oynadığı rol və islam ölkələrinə təsir imkanları da vacib amildir. 2005-ci ildə Azərbaycanın işğal edilmiş ərazilərində erməni əhalisinin qeyri-leqal məskunlaşdırılması məsələsinin BMT-də müzakirəsi zamanı da Pakistan rəsmi Bakının təklif etdiyi Qətnaməni birmənalı şəkildə dəstəkləmişdir.

Təkrar və məşğələ sualları:

1. Avrasiyanın coğrafi və geosiyasi məkan xarakteristikası haqqında nə bilirsiniz və SSRİ dağılandan sonra bölgədə hansı geosiyasi dəyişikliklər baş verdi?

2. Avrasiyanın ən əhəmiyyətli bölgələri hansılardır və nəyə görə? Dünya geosiyasət xadimlərinin bu məkan haqqındakı fikirilərini şərh edin.

3. Avrasiyanın regional geosiyasi vəziyyətinə təsir göstərən əsas maraqlar çərçivəsini təhlil edin. Bölgədəki transmilli, regional və milli hədəflər haqqında nə deyə bilərsiniz?

4. Avrasiyanın ən böyük dövləti kimi Rusiyanın bölgədəki mövqelərini və siyasətini xarakterizə edin, bu sahədə Azərbaycanın yerini və rolunu necə qiymətləndirirsiniz?

5. Rusiyanın Avrasiyadakı regional təhlükəsizlik siyasəti və bu sahədə Azərbaycanla münasibəti haqında nə deyə bilərsiniz?

6. ABŞ-ın Avrasiyada yürütdüyü geosiyasəti təhlil edin və ABŞ-Azərbaycan münasibətlərinin xarakteri haqqında danışın.

7. ABŞ və NATO-nun Avrasiyada yürütdüyü hərbi-geostrateji, regional təhlükəsizlik siyasəti haqqında nə demək olar və bu sahədə Azərbaycanın rolu nədən ibarətdir?

8. Avropa Birliyinin Avrasiyada yürütdüyü geosiyasətin əsas mahiyyəti haqqında danışın və Birliyin Azərbaycanla enerji sahəsindəki tərəfdaşlıq münasibətlərini şərh edin.

9. Türkiyənin Avrasiyada yürütdüyü geosiyasəti təhlil edin və Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərini şərh edin.

10. İranın Avrasiya siyasəti və Azərbaycan-İran regional geosiyasi münasibətləri haqqında nə bilirsiniz?

11. Azərbaycanın Avrasiyada yürütdüyü geosiyasətin əsas hədəflərini, tərəfdaş və rəqiblərini göstərin və təhlil edin.

II FƏSİL
POSTSOVET MƏKANININ ÜMUMİ GEOSİYASİ XARAKTERİSTİKASI: MDB ÖLKƏLƏRİ VƏ RUSİYA: FƏRQLİ MARAQLAR VƏ REGİONAL GEOSİYASİ FƏALİYYƏTİN ƏSAS XÜSUSİYYƏTLƏRİ


§ 2.1. Postsovet məkanında SSRİ-nin dağılmasından sonrakı geosiyasi proseslər: MDB-nin yaranması və fəaliyyəti, qurumdaxili qruplaşma meyillərinin əsas səbəbləri və istiqamətləri

Sovet İttifaqının süqutunun qaçılmaz olduğu aydınlaşandan sonra postsovet məkanında keçmiş müttəfiq respublikalar arasındakı siyasi, iqtisadi, sosial və mədəni inteqrasiya proseslərini hansısa formada qorunub saxlanması obyektiv bir zərurət kimi meydana çıxmağa başladı. (Bax: Xəritə 8) Bu istiqamətdə ilk təşəbbüs Rusiya, Ukrayna və Belarus Respublikaları başçılarının 1991-ci il dekabrın 8-də Belovejskdə imzaladıqları üçtərəfli Sazişə əsaslanan və Avrasiyada gələcək subregional inteqrasiya proseslərinin formalaşmasının mərkəzində dayanan dövlətlərarası təşkilat - *Müstəqil Dövlətlər Birliyi* (MDB) adlanan qurumun yaradılması oldu. MDB-nin yaradılması haqqında üç dövlətin imzaladığı sazişdə bəyan edilirdi ki, bundan sonra SSRİ beynəlxalq münasibətlərin və beynəlxalq hüququn subyekti kimi öz fəaliyyətini dayandırır, onun yerində isə üç müstəqil dövlətin bərabərhüquqlu əsasda birləşdiyi MDB fəaliyyətə başlayır.[176]

[176] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan nəşriyyatı, 2005, s.620.

1991-1993-cü illərdə İttifaqın keçmiş on beş respublikasından on biri - Rusiya, Ukrayna, Belarus, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Gürcüstan, Moldova, Tacikistan, Ermənistan və ən sonda Azərbaycan bu təşkilatın üzvlüyünə daxil oldu. Keçmişdə SSRİ üzvü olan üç Baltikyanı respublika Avropaya və onun hökumətlərarası təşkilatlarına (NATO, Avropa Birliyi və s.) tam inteqrasiya olunmaq istəyi ilə, Türkmənistan isə ayrıca "bitərəf dövlət" kursu yürütmək məqsədilə bəhs olunan quruma üzv olmaqdan imtina etdilər.[177]

POSTSOVET MƏKANI



Xəritə 8.

Sonrakı illərdə MDB müstəqil dövlətə çevrilə bilmədi və əslində üzv ölkələrin geosiyasi maraqları və onlara uyğun olaraq apardıqları siyasət buna imkan da vermirdi. Lakin, MDB Rusiyanın mütləq liderliyini təmin edərək, böyük Avrasiya məkanında onun vahid iqtisadi, siyasi, sosial, mənəvi və hərbi

[177] Yenə orada

inteqrasiya kursunu davam etdirmək missiyasını öz üzərinə götürərək *regional-beynəlxalq geosiyasi inteqrasiya təşkilatı* kimi çıxış etməyə başladı.

SSRİ-nin yoxluğu şəraitində MDB üzvləri ilk növbədə öz aralarındakı daxili sərhədlərin müəyyən olunması məsələsini həll etmək məcburiyyətində qaldılar. Müəyyən müzakirələrdən sonra əksər respublikalar ölkələrarası sərhədləri SSRİ tərkibində 1991-ci ilə qədər mövcud olan keçmiş inzibati bölgülər çərçivəsində saxlamağı qərara aldılar.[178] Süni şəkildə yaradılmış bəzi etnik-separatçı meyillər və onun əsasında da Ermənistan kimi ölkələrin yaratdığı qondarma separatçı rejimlərin qonşulara qarşı ərazi iddiaları istisna olmaqla, əksər ölkələr sonrakı dövrdə də məhz bu prinsiplə - SSRİ zamanında müttəfiq respublikalar arasında mövcud olmuş inzibati sərhəd bölgüsü çərçivəsində özlərinin müstəqil, milli dövlət atributlarını yaratmağa və qarşılıqlı münasibətləri qaydaya salmağa başladılar.

Əlbəttə, hadisələrin sonrakı gedişi göstərdi ki, MDB artıq nə SSRİ kimi dünyada beynəlxalq hüquq subyektinə, nə də daxildə birləşdirici, idarəedici dövlətüstü quruma çevrilə bilməyəcək. Çünki onun tərkibinə daxil olan keçmiş ittifaq respublikaları artıq öz müstəqilliklərini bəyan edərək, müstəqil dövlət quruculuğu prosesinə başlamışdı. Müstəqil respublikalar bütövlükdə regional inteqrasiyanı, keçmiş iqtisadi, siyasi, sosial və mədəni əlaqələri yeni formada davam etdirməyin əleyhinə olmadıqlarını qəbul etsələr də, hansısa formada yenidən öz üzərlərində dövlətüstü hakimiyyəti, kənardan idarəetməni qəbul etmək istəmədiklərini açıq şəkildə bəyan edirdilər. Odur ki, üzv ölkələr 1991-ci ildən başlayaraq "dünyada beynəlxalq münasibətlərin və beynəlxalq hüququn subyekti kimi" yaratdıqları MDB-nin deyil, müstəqil dövlət kimi məhz özlərinin tanınmasına və məxsusi geosiyasi maraqları çərçivəsində fəaliyyət göstərməyə cəhd edirdilər.

[178] Yenə orada, s.620.

Yarandığı gündən MDB çərçivəsində fəaliyyət göstərən dövlətlər öz geosiyasi, geoiqtisadi və geostrateji maraqlarına uyğun olaraq bir-biri və Rusiya ilə münasibətlərə fərqli (diferensial) yanaşma nümayiş etdirməyə başladılar. Məsələn, MDB-nin kollektiv hərbi-təhlükəsizlik məsələlərinə dair Rusiyanın təşəbbüsü ilə 1992-ci ildə yaradılmış Kollektiv Təhlükəsizlik Müqaviləsi təşkilatına (KTMT) Azərbaycan, Gürcüstan və Türkmənistan ümumiyyətlə qoşulmadı, Ukrayna, Moldova və Özbəkistan isə tamhüquqlu üzv deyil, müşahidəçi statusunda iştirak etməyə razılıq verdilər.

Azərbaycan, Gürcüstan və Moldova iki səbəbə görə KTMT-yə qoşulmaqdan imtina etdilər. Birinci səbəb, bu sistemin başında dayanan Rusiyanın müəyyən dairələrinin bu ölkələrin ərazisində etnik separatizmə verdiyi gizli, yaxud açıq dəstək və bu fonda yaranan münaqişələrin həllində qeyri-obyektiv mövqe nümayiş etdirməsi hesab olunurdusa, ikinci səbəb bu dövlətlərin Qərbə və onun təhlükəsizlik sisteminə inteqrasiya meyili, yaxud bitərəf qalma siyasəti yürütmələri idi. Məsələn, SSRİ dağılan kimi, Türkmənistan postsovet məkanında heç bir təhlükəsizlik sisteminə qoşulmayacağı və bitərəf dövlət mövqeyi tutacağını bəyan etmişdi.

MDB tərkibində ayrı-ayrı geosiyasi məsələlərə, xüsusilə də hərbi-strateji və təhlükəsizlik üzrə dərinləşdirilmiş inteqrasiya proseslərinə ehtiyatlı yanaşma siyasəti, bir çox dövlətlərin yürütdüyü müstəqil xarici siyasət kursunun tələblərindən irəli gəlirdi. Rusiya təşkilata üzv ölkələrin hər biri ilə münasibətlərini və onlar üzərindəki geosiyasi və geostrateji təsirini daha çox MDB-nin dövlətüstü hüquq və idarəetmə mexanizmləri vasitəsilə deyil (əslində MDB-nin hər hansı dövlətüstü mexanizmi və hüququ da yox idi), daha çox üzv ölkələrlə ikitərəfli münasibətləri dərinləşdirmək vasitəsilə reallaşdırmağa çalışırdı. Məsələn, ABŞ administrasiyasının 2008-ci ildən Avrasiya bölgəsindən qismən çəkilməsi və bunun yaratdığı müəyyən

geosiyasi boşluq Rusiya tərəfindən bəzi MDB üzvlərinə öz təsirini artırmaq və təzyiqlərini gücləndirmək baxımından istifadə olundu.

Mütəxəssislərin fikrinə görə, hazırda Rusiya əvvəlki illərdən fərqli olaraq MDB ölkələrini ciddi şəkildə və fərqli metodlarla təhdid etmək yolu ilə deyil, başqa, daha cəlbedici və praqmatik metod və vasitələrdən yararlanmaqla, onları sərfəli seçim qarşısında qoymaqla öz geosiyasi və geostrateji təsiri altına salmağa çalışır. Ölkələrin bəziləri ilə münasibətlərində özünün geoiqtisadi rıçaqlarından, digərləri ilə enerji, yaxud hərbi-geostrateji, üçüncülərlə əmtəə-ticarət, məşğulluq, miqrasiya və s. sahəsindəki üstünlüklərindən istifadə edərək onları Qərbin geosiyasi və NATO-nun hərbi-geostrateji təsirindən, Avropa Birliyi və digər böyük dünya ölkələrinin geoiqtisadi-enerji, nəqliyyat-kommunikasiya və s. tərəfdaşı sırasından çıxarmağa səy göstərir. Məsələn, Rusiya Gürcüstanı, Latviyanı iqtisadi blokadaya salmaqla, Ukrayna və Belarusu qaz və neft məhsulları ilə, Azərbaycanı diaspora, etnik separatizm və bir çox iqtisadi təzyiqlərlə, Türkmənistanı və Qazaxıstanı xaricə enerji ixracını çətinləşdirməklə, Ermənistanı öz hərbi və iqtisadi təsir dairəsinə daxil etməklə və s. rəsmi Moskvanın regional geosiyasi hegemonluğunu möhkəmləndirməyə çalışır. Bəzi tədqiqatlara görə, hazırda Rusiya Ermənistanda bütün yerli biznesi və işləyən müəssisələri öz kampaniyalarının əlinə keçirərək, bu ölkəni faktiki olaraq əyalət kimi idarə edir. O ki, qaldı MDB-nin müstəqil, regional-beynəlxalq təşkilat kimi fəaliyyətinə və gələcək perspektivlərinə, Rusiyanın və digər üzv dövlətlərin ona münasibətinə, bu sahədə bir neçə ***həlledici geosiyasi amil və məqam*** özünü büruzə verir.

- *İlk növbədə,* qeyd edilməlidir ki, MDB üzvü olan dövlətlərin hər biri öz geosiyasi maraqlarını təmin etmək üçün ayrılıqda dünyanın qabaqcıl və inkişaf etmiş ölkələri – ABŞ, Avropa Birliyi, Yaponiya, Çin və s. ilə ikitərəfli və nüfuzlu bey-

nəlxalq qurumlarla çoxtərəfli əlaqələrə can atır. Onlar MDB üzvlüyünə və onun çərçivəsində dərinləşmiş inteqrasiyaya daxil olmaqla, beynəlxalq aləmlə əlaqələrinə xələl gətirə biləcəklərindən ehtiyat edirlər;

- *ikincisi,* MDB-də əsas və aparıcı rolu Rusiya oynayır. Bu qurumun sədrliyi də yarandığı gündən məhz Rusiyaya məxsusdur. Bu amil bir tərəfdən digər üzv dövlətlərin MDB tərkibində hüquqlarının faktiki olaraq qeyri-bərabər olduğunu, digər tərəfdən isə siyasi, iqtisadi və digər inteqrasiya proseslərində üzvlər arasında qeyri-bərabər şəraitin mövcudluğunu göstərir. Odur ki, MDB dövlətləri öz aralarında bütün ölkələrin bərabərhüquqlu əlaqələrini təmin edən xarici subregional birliklərlə geosiyasi əlaqələrə daha çox üstünlük verirlər;

- *üçüncüsü,* MDB çərçivəsində formalaşdırılan ümumi xarici və daxili siyasət, dünyada, regionda və üzv dövlətlərin ərazisində baş verən geosiyasi xarakterli hadisə və proseslərə yanaşmalar bir qayda olaraq üzv ölkələrin milli maraqlarını tam əks etdirmir. Məsələn, ABŞ-ın İraqa qoşun yeritməsi, NATO-nun tərkibinin genişləndirilməsi, ATƏT-in bölgədə yürütdüyü siyasət və digər hallara qarşı MDB-nin adından bəyan edilən ümumi mövqe, yaxud səsləndirilən bəyanat ayrı-ayrı üzv dövlətlərin mövqeyi ilə üst-üstə düşmür. Odur ki, bu dövlətlər həmin bəyanat və mövqelərə ya qoşulmur, ya da ki, xüsusi qeydlərlə qoşulurlar. Məhz bu səbəbdən, məsələn, MDB tərkibində xarici və daxili siyasət kursları və geosiyasi baxışları üst-üstə düşən ölkələr GUAM kimi yeni-yeni geosiyasi təşkilatlar yaradırlar;

- *dördüncüsü,* MDB tərkibində həyata keçirilən regional inteqrasiyanın sürəti, dərinliyi və başqa geosiyasi məsələlərlə bağlı üzv ölkələrin maraq və mənafeləri ciddi fərqlənir. MDB-nin hərbi-geostrateji məsələlərlə, təhlükəsizlik və müdafiə sahəsi ilə bağlı dərinləşdirilmiş inteqrasiya planları bir qrup üçün məqbul, digəri üçün isə qeyri-məqbul hesab olunur. Bu halda

da geosiyasi və geostrateji marağı üst-üstə düşən ölkələr yığışaraq öz aralarında subregional inteqrasiya təşkilatları yaradırlar;

- *beşincisi,* MDB beynəlxalq aləmdə Avrasiya subregional inteqrasiya təşkilatı kimi tanınsa da, beynəlxalq münasibətlər və hüquq sistemində öz vahid səsi, yeri və rolu olan qurum – hüquqi şəxs statusu ilə tanına bilməyib. Odur ki, bu təşkilat vasitəsilə beynəlxalq aləmdə özünün hansısa marağını, problemini təmin edə bilməyən üzv ölkənin ayrı-ayrılıqda MDB-yə deyil, başqa beynəlxalq statuslu təşkilata üz tutacağı əvvəlcədən tədqiqatçılarda şübhə doğurmurdu.

Göründüyü kimi, bu və digər səbəblərdən MDB Avrasiya məkanında öz üzərinə götürmək istədiyi geosiyasi missiyanı – keçmiş müttəfiq respublikalar arasında Avropa Birliyi təcrübəsi ilə dərinləşdirilmiş geosiyasi, hərbi-strateji və geoiqtisadi inteqrasiya proseslərini reallaşdırmaq planını əksər üzv ölkələrin gözlədiyi formada həyata keçirə bilmədi. Hazırda MDB çərçivəsində hansısa effektli və dərinləşmiş, bütün tərəfləri heç olmazsa qismən qane edən geosiyasi inteqrasiya proseslərinin getdiyini söyləmək mümkün deyil. Belə inteqrasiyaya yalnız MDB üzvü olan və əsas geosiyasi maraqları üst-üstə düşən bəzi dövlətlər arasında subregional birliklər səviyyəsində cəhd edilir. Nə qədər ziddiyyətli və subyektiv olsa da, Rusiya "öz ətrafında regional inteqrasiya siyasəti" ni davam etdirməkdə israrlı görünür. Xüsusən, son zamanlar rəsmi Moskvanın Avrasiya İttifaqı və Gömrük İttifaqı adı altında həyata keçirməyə çalışdığı "ittifaq siyasəti" ciddi beynəlxalq rezonans doğurmaqdadır. Ukraynanın, Azərbaycanın və digər bölgə ölkələrinin Rusiyanın yaratdığı yeni ittifaqlara, yoxsa Avropa İttifaqına üzvlük məsələsi ətrafında cərəyan edən hadisələr və yaşanan mübarizə yaxın onilliklərdə Avrasiyada "sakit mühit" proqnozlarını arxa plana keçirir.

§2.2. Postsovet məkanındakı geosiyasi, geoiqtisadi və hərbi-strateji münasibətlərin əsas meyilləri və tendensiyaları

SSRİ-nin dağılması ilə Avrasiyanın məkanının geosiyasi xəritəsi də ciddi dəyişikliklərə məruz qaldı. Məsələn, uzun müddət vahid geosiyasi, geoiqtisadi və hərbi-geostrateji məkan xarakteri daşıyan SSRİ ərazisi sovet imperiyasının dağılması nəticəsində fərqli maraqları ilə seçilən ayrı-ayrı müstəqil dövlətlərin və digər geosiyasi aktorların təmas nöqtəsinə, milli, regional və beynəlxalq mənafelərin qarşılaşdığı geostrateji əraziyə çevrildi. Bəzi respublikaların avrointeqrasiya xətti götürməsi, bəzilərinin Rusiya ətrafında yenidən qruplaşmaya can atması, digərlərinin bitərəf regional siyasət nümayiş etdirməsi və s. fərqli meyllər bölgədə geosiyasi fəaliyyətin hədləri və hədəflərini ciddi dəyişilkiklərə məruz qoydu. Sovet dövləti kimi dünyanın ən nəhəng ideoloji imperiyasının süqutu və neçə-neçə xalqların, dövlətlərin birdən-birə müstəqillik qazanması təkcə milli və region səviyyədə deyil, həm də transmilli dünya üçün qlobal geosiyasi hadisə idi. Odur ki, 1990-cı ilin əvvəllərində SSRİ-nin dağılmasının obyektiv, yoxsa subyektiv səbəblərdən qaynaqlanmasına, daxili, yaxud xarici faktorlardan asılı olmasına toxunmadan, onun süqutu prosesinin bəzi geosiyasi aspektlərini araşdırsaq bir nüçə mühüm nəticəyə gəlmək olar.

İlk növbədə qeyd olunmalıdır ki, on illərlə vahid hüquqi, siyasi, iqtisadi, sosial və mənəvi məkanda yaşamış xalqların və respublikaların illərlə formalaşmış keçmiş iqtisadi, siyasi, mədəni və s. əlaqələrinin birdən-birə kəsilməsi və mövcud qarşılıqlı münasibətlərin birdən-birə dayandırması əksər ölkələr üçün nə geosiyasi, nə də ki, geoiqtisadi, geostrateji baxımdan heç bir müsbət perspektiv vəd etmirdi. Uzun illər ərzində bu ölkələrin əmək və istehsal resursları, maliyyə-bazar münasibətləri, makro və mikro-iqtisadi mexanizmləri vahid bir sistem

tərkibində elə birləşdirilmişdi ki, bunu birdən-birə dağıtmaq hamı üçün fəlakətli nəticə verə bilərdi. Odur ki, postsovet məkanında sovet imperiyasından ayrılmış ölkələrin öz aralarındakı keçmiş ictimai-siyasi, iqtisadi-ticarət, sosial-etnik, mədəni-mənəvi və s. əlaqələri hansısa formada davam etdirməsi, çoxtərəfli və ikitərəfli inteqrasiya qurumlarının yaradılması, onlar arasındakı mövcud regional münasibətlərin davam etdirməsi 1990-cı illərin obyektiv zərurətindən doğurdu**.**

1991-ci ildə Müstəqil Dövlətlər Birliyinin yaradılması bəhs etdiyimiz obyektiv reallıqdan irəli gələn ilk real nəticələrdən biri oldu. Lakin, SSRİ-nin dağılmasından sonra postsovet məkanında müstəqillik qazanmış və yeni əsaslarla regional geosiyasi münasibətlərə qatılmaq istəyən ölkələrin hər biri MDB-yə və SSRİ-nin varisi hesab olunan Rusiya ilə əlaqələrə, regionda cərəyan edən geosiyasi inteqrasiya proseslərinə fərqli yanaşma nümayiş etdirirdilər. Bunlardan ***birincisi,*** tədqiqatçıların fikrinə görə, bəzi MDB üzvlərinin *Rusiya ətrafında daha dərin inteqrasiya proseslərinə daxil olmaq meyili* ilə bağlı yanaşma idi. Həmin qrup ölkələr MDB-yə qoşulduqları 1992-ci ildən öz müstəqilliklərinə, dövlətlərinin suveren beynəlxalq hüquqlarına müəyyən mənada formal yanaşaraq, öz dövlət müstəqilliklərini daxili idarəçilik suverenliyi kimi təsəvvür edir və beynəlxalq aləmlə müstəqil xarici siyasətə o qədər də ciddi meyil göstərmirdilər. Məhz bu ölkələrin təşəbbüsü ilə Rusiya ətrafında daha dərin inteqrasiya prosesini sürətləndirmək məqsədi ilə "Avropa Birliyi nümunəsi"ndə simmetrik konfederativ əlaqələr yaratmaq, "daha az müstəqillik və daha çox birgə maraqlardan" çıxış etmək cəhdləri edilirdi. 1992-ci ildə həmin qrupun üzvləri- Rusiya, Belarus, Ermənistan və bir neçə Orta Asiya dövləti keçmiş İttifaqı yeni formada, konfederativ əsasla «mövcud olan vahid bir dövlət kimi» xilas etməyə cəhd də göstərmiş, lakin buna nail ola bilməmişlər. (*qeyd edək ki,*

Azərbaycan da 1992-ci ilin mayına qədər bu qrupa aid idi). Məhz elə bu qrupa daxil olan ölkələr keçən müddətdə bölgədə müxtəlif adlar altında - Avrasiya İttifaqı, Beşlər İttifaqı, Ümumi İqtisadi Məkan, Rusiya-Belarus İttifaqı, Kollektiv Təhlükəsizlik Müqaviləsi və s. kimi regional qurumlar yaradaraq fərqli səviyyəli, bəzən ziddiyyətli, qeyri-bərabər süni inteqrasiya proseslərini həyata keçirməyə cəhd göstərmişlər. Rusiya başda olmaqla həmin ölkələr keçən müddətdə bölgədə müxtəlif adlar altında fəaliyyəti müşahidə olunmayan müxtəlif regional inteqrasiya qurumları yaratmışlar. Mütəxəssislərin fikrincə, əslində bütün bu qurumlarda həmin ölkələrin "bərabərhüquqlu" üzvlük norması formal xarakter daşıyır və əksər təşkilatlar Rusiyanın hegemon və aparıcı mövqeyi üzərində bərqərar olmuşdur. Məsələn, milyonlarla əsgər və zabitdən təşkil edilmiş güclü transmilli ordu strukturuna, nüvə texnologiyalı nəhəng silah arsenalına, güclü strateji raket kompleksinə və mükəmməl hava qüvvələrindən mühafizə sisteminə malik olan Rusiya kimi dünya dövləti ilə, cəmi bir neçə min əsgəri, az sayda köhnə hərbi texnikası olan Tacikistan, Qırğızıstan, Ermənistan və b. ölkələrin "bərabərhüquqlu kollektiv təhlükəsizlik sistemi" yaratması imkanı sadəcə mümkün deyil. Rusiyaya bu ölkələri "kollektiv təhlükəsizlik" sisteminə qoşmaqla onların xarici sərhədlərinə nəzarət etmək və həmin hüdudlardan gələ biləcək hərbi-geostrateji təhlükələri aradan qaldırmaq məqsədi güdür. Bu qrupa daxil olan digər ölkələrin isə Rusiya ilə "hərbi birlik yaratmaq" siyasəti yürütməkdə öz geosiyasi maraqları var.

Postsovet məkanında müşahidə olunan inteqrasiyanın *ikinci əsas meyili və buna müvafiq xarakterik xüsusiyyəti isə,* mütəxəssislərin fikrinə görə, ayrı-ayrı MDB üzvü olan dövlətlərin heç bir dövlətüstü qurumu qəbul etmədən, Rusiya və digər tərəfdaş ölkələrlə ikitərəfli, çoxtərəfli müqavilələr əsasında assimmetrik "mülayim" konfederativ əlaqələrə girmək istəyi

və daha çox öz müstəqillik maraqlarından çıxış etmək cəhdi idi.[179] Bu qrupa daxil olan ölkələr MDB-yə daha çox öz müstəqil geosiyasi maraqlarını təmin etmək məqsədilə qoşulmuş və regional inteqrasiya siyasətlərini "daha çox müstəqillik, daha az inteqrasiya" devizi üzərində qurmuşdur. Bu qrupun MDB tərkibindəki əsas hərəkətverici qüvvəsi Ukrayna, Gürcüstan, Azərbaycan, bir qədər passiv formada isə Özbəkistan və Moldova idi. Bu ölkələr MDB-yə *"müstəqil dövlətlərin könüllü və bərabərhüquqlu əsasda yaratdığı hökumətlərarası qurum kimi yanaşır, ona dövlətlərin daxili və xarici siyasətinə müdaxilə hüququnun verilməsini qeyri-mümkün sayır, qurumun yalnız müstəqil ölkələr arasında iqtisadi, siyasi, sosial-mədəni əməkdaşlığa şərait yaradan bir subyekt rolunu icra etməsini"* təkid edirdilər. Bu ölkələrin hər biri birinci qrupa daxil olan dövlətlərdən fərqli olaraq, müstəqil siyasət yürüdür, öz daxili və xarici əlaqələrini sərbəst qurmağa reallaşdırmağa çalışır, MDB-yə yalnız milli və dövlət maraqlarının, üzv ölkələrin birgə mənafelərinin təmin edilməsi mexanizmi kimi baxırdılar. Təsadüfi deyil ki, bu ölkələr bir qədər sonra ABŞ-ın dəstəyi ilə bir araya gələrək, üzv dövlətlərin daxili işlərinə qarışmayan, tam bərabərhüquqlu ölkələrin birliyi kimi təsis olunan *GUÖAM* adlı qurum yaratdılar və öz geosiyasi fəaliyyətlərini bu təşkilat çərçivəsində əlaqələndirməyə başladılar.

Mütəxəssislər ikinci qrupun mövqeyini "onların postsovet məkanındakı inteqrasiya proseslərinin başında dayanan və faktiki olaraq onun əsasını müəyyən edən Rusiyaya ehtiyatla yanaşması və ona etibar etməməsi" ilə bağlayırlar. Əks təqdirdə, onların fikrincə, məsələn, *Beşlər İttifaqı* adlanan regional inteqrasiya təşkilatının tərkibində həyata keçirilən dərinləşmiş inteqrasiyanı (hərbi-strateji ittifaq, gömrük birliyi və s.) əksər

[179] Вах. Тузиков А. Р. Основы Геополитики. М., 2004, s.62.

ölkələrin iştirakı ilə elə MDB çərçivəsində həyata keçirmək olardı. Məsələn, Azərbaycanın İttifaqdan kənarda qalmasına rus sərhədçilərinə, yaxud MDB-nin "birgə sərhəd missiyasına" öz sərhəd-keçid məntəqələrini etibar etməməsi və xarici siyasət, sərhədboyu ticarət və s. sahəsində öz müstəqil siyasətini yeritməsi səbəb olmuşdur. Yaxud, Gürcüstan, Moldova, Ukrayna da «İttifaqa» təxminən, oxşar səbəblərdən qoşulmamış və müstəqil xarici ticarət siyasəti yürütməyə üstünlük vermişlər. Əslində, Beşlər İttifaqının dərinləşdirilmiş geoiqtisadi inteqrasiyası da nəzərdə tutulan effekt vermir. Bu dövlətlərdən Qırğızıstan Ümumdünya Ticarət Təşkilatına üzv qəbul olunduğundan, öz ticarət və xidməti bazarını digər dövlətlər üçün açıq elan edib. Nəticədə, Rusiya bu ölkə ilə azad ticarət əlaqələrinə məhdudiyyət qoymaq məcburiyyətinə qalıb.

Göründüyü kimi, MDB tərkibində təmsil olunan postsovet respublikalarının bir qrupu başda Rusiya olmaqla, üzv dövlətlərin daxili problemləri və çətinliklərindən istifadə edərək, onları yeni bir konfederativ dövlətin tərkibinə birləşdirməyə çalışırdısa, digər qrupu isə bütün gücü ilə öz müstəqilliyini qorumağa, müstəqil dövlətlərini qurmağa, bu yolda mövcud olan problem və çətinliklərin həllində MDB-nin gücündən və imkanlarından yararlanmağa, başqa üzv ölkələrlə birlikdə müstəqilliyə doğru irəliləməyə çalışırdı.

MDB məkanınının postsovet geosiyasi həyatını xarakterizə edən bir neçə *amil və tendensiya* da mütəxəssislərin diqqətindən yayınmamışdır. Bu amillərdən biri, fikrimizcə, üzv ölkələrin geosiyasi və geostrateji təhlükəsizlik hədəfləri, geoiqtisadi əlaqələri və siyasi transformasiya istiqamətləri sahəsindəki maraq fərqləri ilə bağlı idi. MDB ölkələri arasında özünü ciddi formara göstərən həmin maraq fərqi bu günün özündə də regionun geosiyasi xarakteristikasının əsas göstəricilərindən və ölkələrarası münasibətlərin əsas tendensiyalarından biri hesab olunur. Bu tendensiya onunla ölçülür ki, postsovet məkanında

eyni subregional təşkilata üzv olan ölkələrin geosiyasi, geoiqtisadi, hərbi-geostrateji və s. maraqları və inkişaf istiqamətləri bir-birindən ciddi şəkildə fərqlənir.

MDB özv ölkələrin fərqli maraq və mənafe dairəsi, xarici siyasət hədəfləri və istiqamətləri ilə yanaşı, həm də dövlət idarəçilik sistemləri, milli-vətəndaş cəmiyyətləri və s. baxımından da mürəkkəb bir təşkilatdır. Qurumun tərkibinə daxil olan ölkələrin yerləşdiyi ərazi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji baxımdan çox əhəmiyyətli və əlverişli yer hesab olunduğundan, bölgədə Avropa İttifaqı, ABŞ, Rusiya, Cənub-Şərqi Asiyanın böyük ölkələri, İran, Türkiyə və başqa dövlətlərin maraqları toqquşur. Odur ki, regionun qloballaşması və iqtisadi liberallaşmasında, demokratik transformasiya və bölgədaxili inteqrasiyasında müxtəlif mərkəzləri təmsil edən onlarla dövlət, hökumətlərarası birliklər və digər geosiyasi aktorlar iştirak edir.

Əslində, eyni məqsəd və məram, siyasi və iqtisadi kurs yürütməyi qarşıya məqsəd qoymuş MDB tipli hər hansı bir hökumətlərarası təşkilatın tərkibində üzv ölkələrin daxili, regional və beynəlxalq proseslərə yanaşmasında bu qədər prinsipial fikir ayrılıqları müşahidə olunursa, deməli həmin qurumun gələcək perspektivləri şübhə altına düşür. MDB çərçivəsində hazırda üzv ölkələr "qərbpərəst", "rusiyapərəst", yaxud "heç kimə qoşulmamaq" kimi fəaliyyət sərgiləmək, beynəlxalq münasibətlərdə, regional transmilli geosiyasi, geoiqtisadi və hərbi-strateji məsələlərdə hansı düşərgə ilə daha dərin tərəfdaşlıq etmək, yaxud digərləri ilə gələcək ittifaqlara qoşulma və s. baxımından ciddi seçim qarşısındadırlar. Bu ölkələrin "qərbpərəstliyinin", yaxud "rusiyapərəstliyinin", öz ölkələrinin dövlət maraqlarını daha çox hansı qlobal və regional güclərlə əlaqələndirməsinin obyektiv şərtləri ilə yanaşı, bir çox başqa subyektiv səbəbləri də var. Məsələn, bir neçə MDB üzvü olan

ölkənin ərazisində *etnik separatizm* hərəkatlarının mövcud olmasını, bu hərəkatların onların suverenliyini, ərazi bütövlüyü və milli-təhlükəsizliyini təhdid etməsini, beynəlxalq və regional güclərin bu məsələlərə açıq və yaxud gizli dəstəyini və s. həmin subyektiv amillərə aid etmək olar. Belə ölkələr nə Rusiyaya, nə də ki, Qərbə sona qədər etibar etmir və öz gələcək geosiyasi təhlükəsizlikləri və müstəqilliklərinin təminatına alternativ dayaqlar axtarırlar. Məsələn, MDB çərçivəsində mövcud olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Rusiya, Qazaxıstan, Belarus, Ermənistan, Tacikistan və Qırğızıstanın hərbi-strateji maraqlarını təmin etdiyi halda, Azərbaycan, Gürcüstan, Ukrayna, Türkmənistan və Moldovanı qane etmir. İkincilər öz təhlükəsizliklərinin, ərazi bütövlüklərinin və suveren hüquqlarının qorunmasının daha etibarlı alternativlərini axtarır, digər təhlükəsizlik sistemləri ilə əməkdaşlıq münasibətləri yaradır, yaxud da müstəqil şəkildə fəaliyyət göstərirlər.

Yaxud, MDB tərkibindəki ölkələrin bəziləri daha çox Qərbə inteqrasiya, gələcəkdə Avropa Birliyinə üzv olmaq istiqamətində fəaliyyət göstərərək, Avropa Şurası tərkibində demokratik, hüquqi dövlət quruculuğuna üstünlük verdiyi halda, digərləri Rusiya, İslam dünyası, yaxud Çinlə siyasi, iqtisadi inteqrasiyaya daha çox meyil göstərir. Odur ki, dərinləşmiş geosiyasi və geoiqtisadi inteqrasiyanı hər bir ölkə bütün Avrasiya regionunu birləşdirə biləcək böyük, "Vahid Birlik" çərçivəsində deyil, daha çox mövqeləri üst-üstə düşən dövlətlərin qruplaşdığı kiçik subregional qurumlar çərçivəsində həyata keçirməyə çalışır. Bu amil bütövlükdə həm regional geosiyasi inteqrasiyaya ciddi mənfi təsir göstərir, həm də bölgə ölkələri arasındakı qarşılıqlı etimadı və inamı zəiflədir. MDB üzvü olan ölkələr bir-birinə sona qədər etibar etmədiyi üçün vahid bir təşkilat çərçivəsində öz əl-qollarının bağlanmasından qorxur və eyni zamanda, daha çox beynəlxalq, regional qurumlara

üzv olmağa can atır. Məsələn, MDB məkanında elə bir geosiyasi şərait yaranıb ki, hər dövlət öz müstəqilliyinin təminatını və dəyər ölçüsünü daha çox beynəlxalq və regional təşkilata üzvlükdə görür, özlərinin beynəlxalq münasibətlər sistemindəki yerini, rolunu daha çox təşkilata üzv olmaları ilə qiymətləndirirlər. Məsələn, son 10-12 ildə MDB üzvü olan ölkələrdən Azərbaycan 37, Gürcüstan 33, Ermənistan 37, Özbəkistan 37, Qazaxıstan 35, Türkmənistan 34 beynəlxalq və regional quruma üzv olub. Ayrı-ayrı ölkələrin, məsələn, eyni zamanda həm MDB-yə, Avropa İttifaqına, İslam Konfransı Təşkilatına, İqtisadi Əməkdaşlıq təşkilatına və s. can atması və öz xarici geosiyasi, geoiqtisadi əlaqələrini şaxələndirmələri (diversifikasiya etmələri) məhz onların müstəqilliklə bağlı narahatlığından irəli gəlir.

Bütövlükdə Avrasiyada, o cümlədən postsovet məkanı və MDB çərçivəsində müşahidə olunan ikinci *əsas geosiyasi tendensiya* regional geosiyasi, geoiqtisadi və hərbi-strateji inteqrasiyasının "müxtəlif səviyyəli" və "müxtəlif sürətli" subregional birliklər çərçivəsində həyata keçirilməsi və hər bir subregional təşkilata regionun aparıcı dövlətlərdən birinin başçılıq etməsi amili ilə bağlıdır. Bölgədəki subregional geosiyasi birliklərin hər birinin inteqrasiya dairəsi və dərinliyi də əsasən ona başçılıq edən aparıcı dövlət tərəfindən müəyyən edilir. Məsələn, MDB-nin hərəkətverici qüvvəsini və onun çərçivəsində inteqrasiyanın mahiyyətini Rusiya müəyyən edirsə, İqtisadi Əməkdaşlıq Təşkilatında bu vəzifəni İran, Mərkəzi Asiya Əməkdaşlığı Təşkilatında Qazaxıstan və Özbəkistan, Şanxay Əməkdaşlıq Təşkilatında Çin və Rusiya, Türk Dövlətləri Birliyində Türkiyə, GUAM-da Ukrayna, ABŞ və s. ölkələr yerinə yetirir.

MDB məkanında cərəyan edən *üçüncü əsas tendensiya* regionun əsas ölkələri ilə yanaşı, dünyanın onlarla aparıcı dövləti və digər geosiyasi aktorlarının da bu məkanda özlərinin

geosiyasi, geoiqtisadi, hərbi-strateji, informasiya, nəqliyyat-kommunikasiya, mədəni-mənəvi və s. maraqlarını ifadə etməsidir. Mütəxəssislərin fikrincə, MDB ölkələrinin hər birinin fərqli geosiyasi davranış nümayiş etdirməsinin öz səbəbləri və xarakterik xüsusiyyətləri vardır. Məsələn, Rusiya bölgədəki ənənəvi üstün mövqelərini qorumaq və öz maraqlarını kənar təsir olmadan, regionun digər müstəqil ölkələrinin yeni geosiyasi mənafeləri ilə uyğunlaşdırmaq istəyir. İran xarici güclərin, xüsusən də fərqli siyasi idarəçilik və dini dəyərləri ilə seçilən ABŞ və Avropa ölkələrinin regiona gəlişinə, Xəzərin digər sahilində yerləşən və əsas əhalisi azərbaycanlı - müsəlman olan Azərbaycan adlı bir dövlətin vasitəsi ilə transmilli layihələr həyata keçirməsinə və bu ölkənin cəlbedici bir dövlətə çevrilməsinə qısqanclıqla yanaşır. Yaxud, Türkmənistanın bəzi qeyri-müəyyən geosiyasi qərarlarını və davranışlarını tədqiqatçılar, onun sərbəst şəkildə dünya enerji bazarlarına çıxmaq və özünə əlverişli mövqe qazanmaq cəhdi kimi dəyərləndirirlər.

Xəzərətrafı ölkələr içərisində ən aydın, anlaşıqlı, bölgənin ortaq maraqlarına cavab verən, beynəlxalq hüquq normalarına söykənən və heç bir qonşu ölkənin milli geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarını pozmayan siyasəti Azərbaycan və Qazaxıstan yürüdür. Onlar həm Rusiya, Türkiyə İran kimi böyük bölgə ölkələrinin, həm də Qərb və aparıcı dünya dövlətlərinin şirkətlərini Xəzər dənizi hövzəsi və Cənubi Qafqazda həyata keçirmək istədikləri enerji, nəqliyyat-kommunikasiya və b. transmilli layihələrə cəlb etmək məqsədilə, texnoloji və kapital qoyuluşu sahəsində azad geoiqtisadi rəqabət şəraiti və iştirak imkanı yaradan beynəlxalq və regional davranış nümayiş etdirirlər. Bu iki ölkə həm də demokratik siyasi idarəçilik və bazar iqtisadiyyatı kursunu seçərək, qlobal inteqrasiya və transformasiya çağırışlarına qoşulmaq siyasəti yürüdürlər.

§2.3. MDB çərçivəsində çoxtərəfli inteqrasiya proseslərinin xarakteristikası

MDB əksər keçmiş müttəfiq respublikalar arasında dərinləşdirilmiş geosiyasi, geoiqtisadi və hərbi-strateji inteqrasiya proseslərini reallaşdıra bilmədi. Belə inteqrasiyaya MDB üzvü olan və əsas maraqları üst-üstə düşən bir qrup dövlətlərin yaratdığı subregional birliklər səviyyəsində cəhd edilir. Məsələn, *Rusiya-Belarus İttifaqı, Beşlər İttifaqı, Avrasiya İqtisadi Birliyi, Mərkəzi Asiya Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Birliyi (TDB), GUAM, İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və s.* dərinləşmiş inteqrasiya proseslərində MDB-dən xeyli irəli gediblər.

Postsovet məkanında əsl *geosiyasi ittifaq nümunəsini* Rusiya və Belarus dövlətləri ortaya qoyub. Lakin İttifaq tərkibindəki dərinləşdirilmiş inteqrasiyaya, vahid geoiqtisadi məkan, vahid valyuta, enerji təminatı, ümumi dövlətüstü qurumlar və digər proseslərə hələ ki, başqa dövlətlər qoşulmaq istəmirlər. Bundan başqa, dərinləşdirilmiş inteqrasiya cəhdini *Dördlər və Beşlər İttifaqı* adlanan təşkilatlar çərçivəsində Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistan kimi ölkələr irəli sürüb bu istiqamətdə müəyyən addımlar atırlar. Lakin bu ölkələrin də bəhs olunan İttifaqlar çərçivəsində reallaşdırdığı dövlətlərarası geoiqtisadi, hərbi-geostrateji layihələrə başqaları hələ ki, ehtiyatla yanaşır.[180] Məsələn, «Beşlik» çərçivəsində 1998-99-cu illərdə bağlanan *Vahid İqtisadi Məkan və Gömrük İttifaqı* bu günə qədər tam gücü ilə fəaliyyət göstərə bilmir. Bunun da əsas səbəbi üzv dövlətlər arasında iqtisadi maraq və qarşılıqlı mənafe sisteminin sona qədər, dərk olunmuş şəkildə işlənib hazırlanmamağıdır. Dərinləşmiş geoiqtisadi inteqrasiyaya qərar

[180] 1999-cu ildə Tacikistan bu ittifaqa qoşulandan sonra o, Beşlər İttifaqı adlanmağa başlayır.

verən ölkələr bir tərəfdən xarici aləmlə sərbəst iqtisadi və ticarət əlaqələri qurmaq, digər tərəfdən isə öz aralarında inteqrasiyaya girmək istəyirlər. Bu iki bir-birinə zidd istəyin reallaşmasının forma və metodları isə hələ ki, sona qədər düşünülməyib.

2000-ci ildə bəhs olunan beş ölkə öz aralarında yeni bir geoiqtisadi təşkilat - *Avrasiya İqtisadi Birliyi* yaratsalar da, bu qurum göstərilən səbəblərdən irəli gələrək eyni taleni yaşamağa məhkum olmuşdur. Üç dövlət (Rusiya, Belarus və Qazaxıstan) arasında yaradılmış *«Gömrük İttifaqı»* sonradan Qırğızıstan və Tacikistanın da qoşulması *Avrasiya Beynəlxalq İqtisadi Birliyinə* çevrilmişdir. Birliyin əsas vəzifələri əksər MDB ölkələrini də öz sıralarına cəlb etməklə üzv ölkələr arasında ümumi gömrük sərhədlərinin müəyyənləşdirilməsi, vahid gömrük tarifinin tətbiqi, azad ticarət və xidmət rejiminin yaradılması və s. hesab edilir.[181] Düzdür, təşkilatın 2000-ci ildən qəbul etdiyi qərarların çoxu bu günə qədər kağız üzərində qalır və praktiki nəticələr müşahidə olunmur. Lakin buna baxmayaraq, ümumiyyətlə, MDB məkanında mövcud olan subregional geosiyasi inteqrasiya mərkəzləri içərisində ən real işlər məhz Avrasiya İqtisadi Birliyi çərçivəsində həyata keçirilir. Bu təşkilatın üzvü olan dövlətlər öz aralarında və xarici aləmlə iqtisadi-ticarət, gömrük-vergi sisteminin hətta, kağız üzərində qalmış olsa belə, razılaşdırılmış ümumi rejimini yaratmış və ortaya mühüm geoiqtisadi birlik nümunəsi qoymuşdur.

Hazırda bu qurum Ukrayna, Azərbaycan və Türkmənistanı da öz sıralarına cəlb etməklə, MDB çərçivəsində *Azad İqtisadi Zona* və sərbəst ticarət rejiminin yaradılması layihəsi üzərində iş aparır. Bu planın məqsədi gələcəkdə Avropa Birliyi nümunəsində MDB məkanında əmtəə, kapital, işçi qüvvəsi, əmək resursları, xidmət sahəsində azad iqtisadi zona yaradılması və müvafiq sahələrin dərinləşdirilmiş inteqrasiyasına nail

[181] "Kaspi" qəzeti, 20 dekabr 2012, s. 2.

olunmasından ibarətdir. Lakin yenə də Rusiyanın müəyyən məsələlərdə öz geosiyasi maraqlarını üstün tutması, enerji siyasəti, tranzit məsələlərində başqa üzv dövlətlərə geoiqtisadi təzyiq göstərməsi və s. bu sistemin səmərəli fəaliyyət göstərməsinə mane olur.

MDB üzvlərinin yaratdığı regional geosiyasi qurumlarda, yaxud onların iştirakı ilə Avrasiya məkanında yaranan beynəlxalq geosiyasi təşkilatlarda (*məsələn İKT, ŞƏT, TDB, GUAM və s.)* həm üzv dövlətlər fərqli maraq və mövqe nümayiş etdirir, həm də hər bir təşkilatda regionun və dünyanın böyük ölkələrindən biri aparıcı rol oynayır. Məsələn, Rusiyanın hegemon olduğu regional geosiyasi, hərbi-strateji və geoiqtisadi qurumlara daxil olan MDB dövlətləri regionda daha az müstəqil xarici siyasət yürüdən, passiv geosiyasi fəaliyyət nümayiş etdirən və bütün məsələlərdə "böyük şimal qonşusu ilə razılaşdırılmış mövqe sərgiləyən dövlətlər hesab olunur. Bəzən bu tipli ölkələr Rusiyanın maraqlarını nəzərə almaq şərti ilə öz aralarında da müəyyən regional qurumlar yaradır, özlərinin və onun milli maraq dairəsinə daxil olan geosiyasi yüklü məsələlərin həllinə çalışırlar. Bu baxımdan, MDB üzvü olan Mərkəzi Asiya ölkələrinin yaratdığı subregional inteqrasiya təşkilatı - *Mərkəzi Asiya İqtisadi Birliyi* (MAİB) buna misal ola bilər. Bu təşkilat 1993-cü ildə üzv ölkələr arasında azad ticarət və iqtisadi birlik yaratmaq, iqtisadi, sosial və mədəni inteqrasiya sahəsində onların birgə səyini koordinasiya etmək məqsədilə Qazaxıstan və Özbəkistan prezidentlərinin təşəbbüsü ilə Orta Asiyada yaradılıb. 1994-cü ildə Qırğızıstan, 1998-ci ildə isə Tacikistan quruma daxil olub. Gürcüstan, Türkiyə, Ukrayna və Rusiya müəyyən tədbirlərdə müşahidəçi statusu ilə təşkilatın işində iştirak edirlər.

MAİB çərçivəsində 1994-cü ildən 3 ölkənin - Qazaxıstan, Özbəkistan və Qırğızıstanın birgə yaratdığı *Mərkəzi Asiya Əməkdaşlıq və İnkişaf Bankı* fəaliyyət göstərir ki, bu da

dövlətlər arasında maliyyə-konvertasiya və ödəmə işlərinin standartlaşdırılmasına yardım göstərir. Bu günədək MAİB çərçivəsində 200-dən çox müxtəlif yönümlü, ən iddialı və cəsarətli geosiyasi və geoiqtisadi qərarlar qəbul edilsə də, hələ ki, təşkilat çərçivəsində dərinləşdirilmiş inteqrasiyanın real nəticələri görünmür.

MDB çərçivəsində daha çox müstəqil siyasət yürüdən və Qərbə meyilliliyi ilə seçilən ölkələrin 1997-ci ildə təsis etdiyi *G U A M* adlanan qurumun yaranması isə regiondakı geosiyasi proseslərin digər əsas göstəricilərindən hesab oluna bilər. Tədqiqatçıların fikrinə görə, GUAM-ın yaranması MDB daxilində cərəyan edən tendensiyaların və yaşanan proseslərin ən obyektiv və qanunauyğun nəticələrindən biri idi. Çünki yarandığı gündən MDB adından bəyan edilən, əslində isə Rusiyanın mövqeyini əks etdirən bəzi qərarlara, yanaşmalara münasibətdə GUAM üzvü olan dövlətlər (Ukrayna, Azərbaycan, Gürcüstan və Moldova) həmişə fərqli mövqelərdən çıxış ediblər.

GUAM ölkələrinin prezidentləri öz çıxışlarında və bəyanatlarında ölkələrinin demokratiya, qanunun aliliyi, insan hüquq və azadlıqlarına hörmət prinsiplərinə sadiqliyini və öz xalqlarının firavanlığı naminə GUAM dövlətləri arasında tam bərabərhüquqlu əlaqələrin, iqtisadi əməkdaşlığın inkişaf etdirilməsinə səy göstərdiklərini bildiriblər. Dövlət başçıları beynəlxalq terrorizm və ekstremizmlə, bu tipli transmilli geosiyasi problemlərin doğurduğu mənfi hallarla – narkotiklərin qanunsuz dövriyyəsi, qlobal mütəşəkkil cinayətkarlıq, insan alveri, qeyri-leqal miqrasiya, qanunsuz silah alveri, çirkli pulların yuyulması və korrupsiya ilə mübarizədə öz dövlətlərinin səylərini birləşdirməyin və əməkdaşlığı daha da möhkəmləndirməyin zəruriliyini dəfələrlə təsdiqləyiblər.

GUAM Qərb istiqamətli geosiyasət yürüdən, Qərbi Avropa nümunəsində regionda siyasi, iqtisadi, sosial, mədəni inteqrasiyaya nail olmağa çalışan və ən əsası, bütün bu proseslərdə

bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq istəyən dövlətlərin birliyi hesab olunur. Bu təşkilatın perspektivlərinə Avropa Birliyi və ABŞ-da da inananların sayı kifayət qədərdir. Son dövrdə Türkiyə, Bolqarıstan, Rumıniya, Litva və Polşa kimi dövlətlər bu təşkilata maraq göstərirlər. 2005-ci il aprelin 22-də Moldova paytaxtı Kişinyovda keçirilmiş zirvə toplantısı zamanı Azərbaycan Prezidenti İlham Əliyev, Ukrayna prezidenti Vladimir Yuşşenko, Gürcüstanın dövlət başçısı Mixail Saakaşvili və Moldova prezidenti Vladimir Voroninlə yanaşı, Rumıniyanın lideri Troyan Besesku, Litva prezidenti Valdan Adamkus, ABŞ Dövlət Departamentinin Avrasiya məsələləri üzrə böyük məsləhətçisi Stiven Mənn, ATƏT-in baş katibi Yan Kubiçin iştirakı da bu təşkilata olan marağın göstəricisidir. Qurumun 2006-cı ilin may ayında Kiyevdə keçirilmiş Sammitində isə təşkilat yeni status və ad qazandı – «Demokratiya və İqtisadi İnkişaf – GUAM».

Kişinyov sammitində GUAM dövlətlərinin başçıları təşkilat üçün enerji məsələlərinin prioritet olduğunu bəyan etdilər. Ukrayna Prezidenti Viktor Yuşenko Azərbaycanın unikal neft çıxaran ölkə, Ukraynanın isə unikal tranzit imkanına malik dövlət olduğunu vurğulayaraq, bu amillərin birləşdirilməsini vacib sayıb. Rusiyalı ekspertlər əmindirlər ki, bu açıqlama GUAM-ın Rusiyaya alternativ enerji mənbəyi yaratmaq planlarından xəbər verir.

GUAM-da birləşmiş dövlətlərin geosiyasi yönlərinin Qərbə istiqamətlənməsi həm də müəyyən obyektiv səbəblərlə bağlıdır. Məsələn, Dağlıq Qarabağ, gürcü-osetin, gürcü-abxaz, Dnestryanı münaqişələrə, Krımda separatçılıq hərəkatına və s. məsələlərə yanaşmada Rusiyanın nümayiş etdirdiyi mövqe bir tərəfdən Azərbaycan, Gürcüstan, Ukrayna və Moldovanın Rusiya ilə münasibətlərinə mənfi təsir göstərir, digər tərəfdən isə bu ölkələrin özünümüdafiə instinktlərini gücləndirərək, onları birləşməyə və etnik separatizmə qarşı birgə müqavimət göstər-

məyə istiqamətləndirir. Bundan başqa, Qərbi Avropa ilə iqtisadi və təhlükəsizlik sahəsində əməkdaşlıq əlaqələrinin qurulması, Şərq-Qərb nəqliyyat kommunikasiya dəhlizinin yaradılması, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının mənimsənilməsi və dünya bazarlarına çıxarılması və s. məsələlərə münasibətdə də GUAM dövlətlərinin fikri və mövqeyi Rusiya ilə üst-üstə düşmür.

Qərb və Rusiya analitikləri Avrasiyanın bölgəsində GUAM-ın regional kollektiv təhlükəsizlik sistemi yaradaraq, NATO-ya inteqrasiya olunmaq perspektivlərini təhlil edirlər. Bu da müvafiq olaraq Rusiyanı qıcıqlandırır və bu təşkilatla onun münasibətlərinə təsir edir. Xüsusən, 2000-ci ildə Vaşinqtonda GUAM ölkələri başçılarının görüşü, ABŞ hökumətinin bu təşkilatın fəaliyyəti üçün 45 milyon dollar vəsait ayırması, Avropa Birliyinin onu dəstəkləməsi Rusiyanın narahatlığına səbəb olmuşdu.

Bəzi ekspertlər isə GUAM-ı daha çox MDB məkanındakı digər subregional təşkilat olan *Vahid İqtisadi Zonaya* alternativ kimi görürlər. Bakı, Kİyev, Tbilisi və Kişinyovun azad ticarət zonasının yaradılmasına dair əldə etdiyi razılıq da bu rəqabətdən xəbər verir. Qeyd edək ki, Rusiyada GUAM-ın Moskva üçün rəqibə çevrilmə ehtimalını real saymayanlar da var. Onlar Mərkəzi Asiya ölkələrinin, xüsusən də Qazaxıstanın öz enerji daşıyıcılarını GUAM dəhlizi vasitəsilə Avropaya nəql edəcəyinə inanmırlar. Həmin analitiklərin fikrincə, Özbəkistan kimi digər ölkələr də Rusiya ilə münasibətləri korlamamaq üçün bu perspektivdən imtina etməli olacaq. Amma 2006-cı il iyunun 17-də Astanada Azərbaycan və Qazaxıstan prezidentləri İlham Əliyevlə Nursultan Nazarbayevin Qazaxıstan neftinin bir hissəsinin Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəqlinə dair sənəd imzalaması bu proqnozların doğrulmadığını sübut etdi. Artıq Qazaxıstan öz enerji daşıyıcılarının Qərb bazarlarına çıxarılmasını iqtisadi cəhətdən daha sərfəli olan marşrutla - Azərbaycan və

Gürcüstan ərazisindən, «GUAM dəhlizi» vasitəsilə nəql etməyi qərara almışdır. Bu isə, həm Bakı-Tbilisi-Ceyhan layihəsinin əhəmiyyətini, həm də GUAM-ın önəmini daha da artırır.

Bəzi ekspertlər əmindirlər ki, GUAM təşkilata üzv ölkələrin Rusiya nefti və qazından asılılığını aradan qaldırmaqla yanaşı, həm də Avropa Birliyi dövlətlərini strateji enerji daşıyıcıları ilə təmin edən Rusiyaya real alternativə çevrilə bilər. Lakin, GUAM-ın tərkibində də bəzi dövlətlərin MDB-də olduğu kimi, öz siyasi yönlərinə köklü dəyişikliklər etmək təcrübəsinə rast gəlinir. Məsələn, buna Özbəkistanı nümunə göstərmək olar. Məlum olduğu kimi, Özbəkistan başlanğıcda GUAM-a qoşulsa da, sonradan bir müddət onun fəaliyyətində ümumiyyətlə iştirak etmədi və az sonra özünün qurumu tərk etmək niyyətini açıqladı. Amma müəyyən müddətdən sonra bu ölkə yenidən GUAM-da fəallaşmağa başladı. Buna baxmayaraq Özbəkistan yekunda GUAM-ı tərk etmək qərarı verdi.

MDB və bəzi digər region ölkələrinin iştirakı ilə təsis edilən ən mühüm subregional geosiyasi təşkilatlarından biri *Şanxay Əməkdaşlıq Təşkilatıdır* (ŞƏT). Bu qurum 2001-ci ildə yaranan zaman özündə 5 MDB üzvü ilə birlikdə, həm də Çin Xalq Respublikasını birləşdirirdi. Təşkilatın yaradılmasının əsas məqsədi kimi Mərkəzi Asiyada sülh və əmin-amanlığın qorunub saxlanılması, üzv dövlətlər arasında dostluq və qonşuluq münasibətlərinin qorunması, siyasi, iqtisadi, mədəni sahələrdə geosiyasi əməkdaşlığın möhkəmlənməsi göstərilirdi.

ŞƏT əhatə etdiyi ərazi və əhali sayına görə, nəinki təkcə Avrasiyanın, həmçinin dünyanın ən nəhəng geosiyasi strukturlardan hesab olunur. Onun əhatə dairəsi (30 mln. 189 min kv.km) Avrasiyanın 3/5-nü əhatə edir. Təşkilata üzv ölkələrdə yaşayan əhalinin sayı isə (1,4 milyard 445 milyon nəfər) yer kürəsi əhalisinin təxminən 25 faizini təşkil edir. ŞƏT-in iki nümayəndəsinin (Rusiya və Çin) BMT Təhlükəsizlik Şurasının daimi üzvü olduğunu nəzərə alsaq, bu təşkilatın hər bir region

ölkəsi, o cümlədən də Azərbaycan üçün nə qədər vacib və perspektivli olduğunu, dünya siyasətində hansı əhəmiyyət daşıdığını sübut etməyə ehtiyac qalmır.

Təşkilat 2001-ci ilin iyununda yaransa da, onun əsası 1990-cı illərin ortalarında qoyulub. 1996-cı il aprelin 26-da Çinin Şanxay şəhərində Rusiya prezidenti Boris Yeltsin, Çin lideri Tsyan Tzemin, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Qırğızıstanın dövlət başçısı Əsgər Akayev və Tacikistan prezidenti İmaməli Rahmon "*Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan və Tacikistan arasında sərhədyanı rayonlarda hərbi sahədə etimadın möhkəmlənməsinə dair" ciddi bir geostrateji s*azişi imzaladılar. Adından da göründüyü kimi, söhbət ilk növbədə hərbi-strateji əməkdaşlıqdan gedirdi. Bu sazişə görə, tərəflər öz silahlı qüvvələrindən bir-birinə qarşı istifadə etməmək, hərbçilərinin şəxsi heyətinin sayı, hərbi texnika və 100 kilometr boyu sərhədyanı zonadakı hərbi texnika və silahlı qüvvələrin hər hansı hərəkəti haqda bir-birinə məlumat vermək haqda öhdəlik götürdülər. Bundan başqa, sazişə imza atan 5 dövlət bir-birinə qarşı yönəlmiş hərbi təlimlərdən imtina etmək, 100 kilometrlik sərhədyanı zonada keçirilən istənilən təlimlərdə şəxsi heyət və texnikanın sayına razılaşdırılmış məhdudiyyət qoymaq və s. haqda da öhdəlik götürürlər.

Beləliklə, "beşliyin" imzaladığı bu sazişdə daha çox regional iqtisadi və siyasi əməkdaşlıq deyil, məhz hərbi-strateji planlar və qarşılıqlı öhdəliklər əks olunmuşdu ki, bu da sonradan ŞƏT kimi fəaliyyətə başlayan nəhəng geosiyasi strukturun əsl mahiyyəti haqda dünya siyasətşünaslarında geniş mülahizə və mübahisə doğurmuş, fərqli fikirlər yürütmək üçün meydan açmışdır.

1997-ci il aprelin 24-də Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Çin rəhbərliyi artıq Moskvada görüşərək "*Sərhədyanı rayonlarla hərbi qüvvələrin qarşılıqlı şəkildə ixtisarına dair*" yeni bir geostrateji Saziş imzaladılar. İmzalanma

mərasimində Rusiya prezidenti Boris Yeltsin etiraf etmişdi ki, bu saziş üzərində iş çoxdan aparılırdı və sənəd 7 illik gərgin müzakirələrin nəticəsidir. Onun fikrincə, saziş nəticəsində "tarixdə ilk dəfə olaraq, sabitlik və qarşılıqlı etimad zonası" yaradılacaqdır.

"Beşliyin" sayca üçüncü görüşü 1998-ci ilin iyulunda Qazaxıstanda keçirildi. Bu dəfə tərəflər heç bir hərbi-strateji sənəd imzalamadılar. Lakin bu görüşdə ilk dəfə olaraq, üzv ölkələr transmilli geoiqtisadi nəqliyyat-kommunikasiya mövzusu ətrafında müzakirələr keçirərək, Çinin lideri Tzyan Tzemin təklifi əsasında "Şanxay beşliyi"nin iştirakı ilə Asiya-Avropa transmilli nəqliyyat körpüsünün salınmasını – Pekin, Qazaxıstan, Qırğızıstan, Rusiya və Tacikistana Cənubi-Şərqi Asiyanın dənizlərinə doğru ən qısa yolun çəkilməsini təklif edir.

1999-cu ildə Qırğızıstanın paytaxtında keçirilən ŞƏT-in 4-cü toplantısında isə artıq beynəlxalq geosiyasi vəziyyət, regional hərbi-strateji təhlükəsizlik sistemlərinin fəaliyyəti və perspektivləri, Avrasiyada geoiqtisadi əməkdaşlığın imkanları və s. məsələlər əsas müzakirə obyekti oldu. 2000-ci ildən etibarən "beşlik" ölkələrinin xarici işlər nazirlərinin iclasları mütəmadi keçirilməyə və ənənə halını almağa başladı. Nəhayət, 2001-ci il iyunun 15-də yenidən Şanxayda bir araya gələn dövlət başçıları öz sıralarına "Şərqlə-Qərb arasında mövqelərini sona qədər müəyyən edə bilməyən" Özbəkistanı da quruma qəbul etmək qərarına gəldilər. Elə həmin toplantıda Şanxay Əməkdaşlıq Təşkilatının yaradılması haqda Bəyannamə rəsmi olaraq imzalandı. Beləliklə, 1996-cı ildə "beşlik" kimi yaranan bu qurum artıq "altılığa" çevrildi və regional geostrateji, geosiyasi və geoiqtisadi təşkilat kimi fəaliyyətə başladı. 2002-ci ilin iyunundan artıq ŞƏT-in hərbi-strateji strukturu – Regional Antiterror mərkəzi fəaliyyətə başladı. 2004-cü ildə Monqolustan, 2005-ci ilin iyulundan isə Pakistan, İran və Hindistan ŞƏT-də müşahidəçi statusu qazandı. Müasir dövrdə ŞƏT-in taktika və

strategiyasında da ciddi dəyişikliklərin baş verdiyinin şahidi oluruq. Məsələn, təşkilat Qərbə və onun hərbi-geostrateji alyansı olan NATO-ya yanaşmada 2005-ci ilədək "mülayim və kompromisə meyilli" göründüyü halda, 2005-ci ildən sonra "heç bir kompromisə getmək istəməyən və ultimatum dilində danışan" qurum təsəvvürü yaradır.

Əlbəttə ki, ŞƏT-in Qərbin, ilk növbədə ABŞ-ın regional nüfuzunun artmasına qarşı yönəldiyi şübhə doğurmasa da, fəaliyyətinin ilk illərində bu təşkilat Vaşinqtonun əleyhinə açıq bəyanatlar verməkdən çəkinir və daha çox ümumi regional təhlükəsizlik problemlərini qabardırdı. Bunun əsas səbəbi isə 2001-ci ilin 11 sentyabr terrorundan sonra yalnız regionda deyil, dünyada da geostrateji vəziyyətin köklü şəkildə dəyişməsi idi. 11 sentyabr hadisəsindən sonra ABŞ ordusunun Mərkəzi Asiyada peyda olması, Özbəkistan və Qırğızıstana hərbi bazalar yerləşdirməsi, Çin və Rusiyada geostrateji narahatlıqla qarşılansa da, ilkin mərhələdə bu dövlətlər bəzi Orta Asiya ölkələrinin "qərbpərəst münasibəti" fonunda (xüsusən, Özbəkistan və Qırğızıstanın ABŞ-la demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu imitasiyası siyasəti nəticəsində) amerikalıların təşəbbüsünə mane ola bilmədilər. Rusiya bu ölkələri incitməmək və regionda öz "hegemon" imicini xilas etmək məqsədilə, hətta, ABŞ-ın bu bölgəyə müvəqqəti olaraq baza yeritməsinin "Moskvanın da maraqlarına cavab verdiyini" bəyan etməyə başladı.

Lakin, 2005-ci ilin iyununda Astanada keçirilən ŞƏT dövlət başçılarının növbəti zirvə toplantısında, ilk dəfə olaraq, ABŞ-ın ünvanına regiondakı hərbi bazaların çıxarılması ilə bağlı konkret tələb və şərtlər irəli sürülməyə başladılar. Təşkilatın bəyanatında deyilirdi ki, artıq Əfqanıstanda vəziyyət sabitləşdiyindən, ABŞ-ın regiondakı hərbi bazalarına ehtiyac qalmayıb və "*ŞƏT üzvü olan ölkələrin ərazilərindəki hərbi kontingentlərinin qalması (əlbəttə Qərb kontingentindən söhbət*

gedirdi.-Ə.H.) və infrastrukturlardan istifadənin son müddətinin müəyyənləşdirilməsi zəruridir". Göründüyü kimi, Orta Asiya ölkələri rəhbərlərinin daxili siyasətinə, reallaşdırdığı idarəçilik sisteminin mahiyyətinə və xarakterinə heç zaman "qarışmayan" Rusiya və Çin, 2003-2005-ci illərdə ABŞ-ın Buş administrasiyasının Ukraynada, Gürcüstanda və bütövlükdə Avrasiyada həyata keçirdiyi, reallaşdırmaq istədiyi və Orta Asiya rejimlərinin maraqlarına qətiyyən cavab verməyən tələsik "rəngli inqilablar", "vahid standartlı transmilli demokratikləşmə və insan haqları" siyasətindən məharətlə bəhrələnməyə macal tapmışdılar. Əlbəttə, Orta Asiyanın praqmatik dövlət başçıları Qərb və Şərqin həm regionun, həm onların ölkəsinin geosiyasi və geostrateji təlükəsizlik maraqlarına, müstəqil dövlət mənafelərinə verdiyi töhfəni ayıq başla qiymətləndirməyi bacarırdı, həm də özlərinin şəxsi hakimiyyətlərinə yaratdığı, yaxud perspektivdə yarada biləcəyi təhlükələri gözəl hesablayırdılar. Odur ki, onların bu əhval-ruhiyyəsi ŞƏT-in aparıcı dövlətlərinin - Rusiya və Çininki ilə üst-üstə düşərək, ortaya ciddi anti-qərb geosiyasi və geostrateji mövqe qoydu.

Bu bəyannamədə yalnız ABŞ-dan Mərkəzi Asiyadakı hərbi bazalarını çıxarmaq tələb olunmadı, həm də Birləşmiş Ştatların irəli sürdüyü demokratiya tələblərinə və ümumbəşəri dəyərlərə alternativ mövqelər irəli sürüldü. Məsələn, Bəyannamədə deyilirdi ki, "dövlət başçıları bərabərlik və qarşılıqlı hörmət, suveren dövlətlərin daxili işlərinə qarışmamaq prinsipləri əsasında yaradılan beynəlxalq münasibətləri ardıcıl dəstəkləyir, ideoloji və ictimai quruluşlardakı fərqlərdən asılı olmayaraq, beynəlxalq ictimaiyyəti qarşılıqlı inam, qarşılıqlı səmərə və bərabərliyə əsaslanan yeni təhlükəsizlik konsepsiyasının formalaşmasına çağırır". Daha sonra Bəyannamədə qeyd olunur ki, "hər bir xalqın öz inkişaf yolu ilə getmək hüququ tam təmin olunmalıdır". Analitiklər bu müddəaları ABŞ-ın bütün dünya-

da demokratiya və Qərb dəyərlərinin yayılması siyasətinə ŞƏT üzvlərinin etirazı kimi dəyərləndirirlər.

ŞƏT-də aparıcı rol oynayan Çin və Rusiya təşkilatın əsl məqsədinin Qərbin getdikcə Avrasiyada artan nüfuzunun qarşısını almaq, regiondakı ənənəvi güc balansının pozulmasına yol verməmək və onun tarixən Rusiya və Çinin maraq dairəsi olduğunu bir daha "kənar qüvvələrə" xatırlatmaq olduğunu gizlətmir. ŞƏT-in 2006-cı il iyunun 15-də Şanxayda keçirilən toplantısında onun 5 illiyini qeyd edildi. Toplantıda bildirildi ki, *siyasi və sosial sistemlər, inkişaf yolları, mədəniyyət və adət-ənənələrdəki tarixən formalaşmış fərqlər dövlətlərin daxili işlərinə qarışmaq üçün bəhanə ola bilməz. İctimai inkişaf modelləri başqa xarici ölkələrə ixrac obyekti olmamalıdır* və s.

Beləliklə, göründüyü kimi, ŞƏT üzvü olan ölkələrin Avrasiyada geostrateji, geoiqtisadi və geosiyasi məsələlərin ABŞ-ın və NATO-nun iştirakı olmadan həll edilməsi mövqeyi və ona uyğun iddiaları getdikcə açıq-aydın bəyan edilir, bu isə digər qrup region ölkələrinin narazılığına səbəb olur. ŞƏT-in Avrasiyadakı özünəməxsus geosiyasi inteqrasiya planları artıq ABŞ-ı və onun Qərb müttəfiqlərini də ciddi narahat etməyə başlayıb.

Avrasiya subregionunda MDB üzvlərinin də bir qrupunun iştirakı ilə yaradılan geoiqtisadi qurumlardan biri də *İqtisadi Əməkdaşlıq Təşkilatıdır* (İƏT). Bu təşkilatın üzvləri arasındakı geoiqtisadi əməkdaşlıq və inteqrasiya vahid regiona mənsub olmaqla yanaşı, həm də onların dini, etnik və mədəni yaxınlıq amilinə söykənib. Bu təşkilat regionun böyük müsəlman dövlətlərinin iştirakı ilə hələ ötən əsrin 60-70-ci illərində Asiya Ölkələri İqtisadi əməkdaşlıq Təşkilatı adı ilə fəaliyyət göstərib və İranda 1979-cu ildə baş verən islam inqilabından sonra öz fəaliyyətini dayandırıb. İƏT-in yenidən, lakin bu dəfə Avrasiya ölkələrinin regional iqtisadi inteqrasiya təşkilatı statusu ilə meydana çıxması 1985-ci ildə İran, Pakistan və Türkiyə dövlət başçılarının ümumi qərarı ilə mümkün olub.

SSRİ dağılandan sonra İƏT postsovet məkanının müsəlman dövlətləri ilə intensiv əlaqə yaradaraq, 1992-ci ildə Qazaxıstan, Azərbaycan, Türkmənistan, Özbəkistan, Tacikistan və Qırğızıstanla danışıqlara başladı. Əlbəttə, yenicə müstəqillik əldə etmiş bu dövlətlər bütün dünya ölkələri, o cümlədən qonşu müsəlman dövlətləri ilə əməkdaşlıq etməkdə çox maraqlı idilər. İran, Türkiyə və Pakistan vasitəsilə həm Qərb, həm də Şərq ölkələrinə, bütün dünyaya çıxmaq, müstəqil dövlət quruculuğu prosesində onların köməyindən yararlanmaq, bu yolda mövcud olan geosiyasi və geostrateji təhlükəsizlik problemlərinin aradan qaldırılmasında böyük müsəlman dövlətlərinə arxalanmaq, o dövrdə bu ölkələrin ictimaiyyətinin də tez-tez səsləndirdiyi tələblər sırasında idi.

1992-93-cü illərdə İƏT ölkələri arasında mövqeləri razılaşdırmaq, əməkdaşlıq üçün ortaq maraqları tapmaq, inteqrasiya strategiyasının istiqamətlərini müəyyənləşdirmək məqsədilə intensiv danışıqlar başladı. 1993-cü ildə təşkilat üzvləri qarşılıqlı faydalı əməkdaşlıq sahəsində «Kventin planı"nı və nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi üzrə «Almatı Proqramı»nı imzaladılar. Hazırda İƏT İran, Pakistan, Türkiyə, Azərbaycan, Əfqanıstan və Orta Asiyanın 5 dövlətini öz tərkibində birləşdirməklə, böyük bir Avrasiya subregional geoiqtisadi inteqrasiya qurumuna çevrilib. Üzv ölkələrin geniş iqtisadi, siyasi potensiala və əmək resurslarına - ümumilikdə 342 milyon əhaliyə, 7 milyon kvadrat metr əraziyə, zəngin enerji qaynaqlarına və təbii sərvətlərə malik olması, Xəzər-Qara dəniz, Fars körfəzi, Avropa-Asiya qovşağı kimi strateji əhəmiyyətli geosiyasi açar məkanında yerləşməsi İƏT-i hazırda dünyanın sayılan təşkilatları sırasında xüsusi tanıtdırıb. Hazırda İƏT Hindistan və Çinlə əlaqələri genişləndirərək, onların bu quruma üzvlük məsələsini müzakirəyə çıxarmağa çalışır.

Avrasiya məkanındakı etnik yaxınlığa söykənən subregional geosiyasi təşkilatlardan biri də *Türkdilli Dövlətlər Birliyi*

(TDB) adlanan qurum hesab olunur. Bu təşkilat öz tərkibində bölgənin Türkiyə və Azərbaycanla yanaşı, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan kimi türkdilli ölkələrini birləşdirir. TDB SSRİ dağılandan və İttifaqa daxil olan 5 türkdilli respublika müstəqillik qazandıqdan sonra formalaşmağa başlayıb. Birliyin əsas məqsədi, adından da göründüyü kimi, türkdilli dövlətlər arasında geosiyasi, geostrateji və geoiqtisadi həmrəyliyi möhkəmləndirmək, iqtisadiyyat, ticarət, ekologiya, elm, təhsil və mədəniyyət sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməkdir.

TDB-nin təsis edilməsində Türkiyə xüsusi fəallıq göstərib. Məhz Türkiyə rəhbərliyinin səyləri nəticəsində yenicə müstəqillik qazanmış və özünə xarici aləmdə tərəfdaş axtaran türkdilli dövlətləri, xüsusən də Rusiyanın tam təsir dairəsində olan Mərkəzi Asiya respublikalarını birliyə cəlb etmək mümkün olub. O cümlədən, TDB-yə xüsusi əhəmiyyət verən, beynəlxalq aləmdə türkdilli dövlətlərin yerinin möhkəmlənməsinə və nüfuzunun artmasına çalışan Azərbaycan Respublikası üzv ölkələrin dövlət başçılarının mütəmadi görüşlərinin keçirilməsinə həmişə xüsusi səy göstərib, birliyin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı praktiki təkliflər irəli sürüb və Türkiyəyə ciddi dəstək verib.

TDB-nin indiyədək keçirilən Zirvə toplantılarında türkdilli dövlətlərin geosiyasi və geoiqtisadi inteqrasiyasına xidmət edən mühüm qərarlar qəbul edilib. Lakin, yuxarıda adı çəkilmiş bütün hökumətlərarası qurumlarda olduğu kimi, TDB çərçivəsində də müəyyən addımlar atılsa da, qəbul olunmuş qərarların bir çoxu yalnız kağız üzərində qalmışdır. Türkiyə-Azərbaycan münasibətləri istisna olmaqla, türkdilli ölkələrin MDB və TDB çərçivəsində reallaşdırdığı geoiqtisadi, geosiyasi, hərbi-strateji, sosial və mədəni inteqrasiya qənaətbəxş hesab oluna bilməz.

Beləliklə, göründüyü kimi, həm MDB, həm də bütövlükdə Avrasiya çərçivəsində və onun ətrafında cərəyan edən geosiyasi, geostrateji və geoiqtisadi inteqrasiya prosesləri Avrasiya məkanında mövcud olan bütün dövlətləri əhatə etmişdir. Tədqiqatçılar bu prosesləri şərtləndirən əsas obyektiv faktorlar sırasına bütün region ölkələrinin inteqrasiyada maraqlı olmasını, coğrafi yaxınlığı, qarşılıqlı iqtisadi əlaqələrə olan ehtiyacı, sosial və mədəni maraqların üst-üstə düşməsini, əmək resurslarının geniş potensiala malik olmasını və s. aid edirlər. Bu münasibətlərin əhatəsi və xarakteri yalnız obyektiv səbəblərlə, yaxud ölkələrin təbii ehtiyacları ilə deyil, həm də bəzi subyektiv amillərlə bağlıdır. Bu amillər sırasına:

- regiondakı fərqli geosiyasi mənafelərin, transmilli və milli maraq dairələrinin toqquşmasını;
- Xəzər hövzəsinin zəngin enerji qaynaqlarına sahiblik uğrunda planetar geosiyasi mübarizənin artmasını;
- Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizi ətrafında mövqelərin kəsişməsini;
- yeni dünya nizamı şəraitində bəzi ölkələrin dünyada və Avrasiyada hegemonluğa can atmasını;
- bölgə ölkələrinin dünyada mövcud olan təhlükəsizlik sistemlərinə fərqli münasibətini;
- dünyada dinlər və sivilizasiyalararası münasibətlərin kəskinləşməsini və s. məsələləri aid etmək olar.

Azərbaycan, Qazaxıstan, Belarus, Orta Asiya dövlətləri, Gürcüstan, Ukrayna, Moldova və Ermənistan kimi ölkələr Avrasiyada və MDB-də bu və ya digər regional qurumlara, geosiyasi və geoiqtisadi təşkilatlara, hərbi-siyasi bloklara daxil olarkən, ilk növbədə, öz milli maraqlarını, ikincisi, Rusiya, ABŞ, Avropa Birliyi kimi supergüclərin, üçüncüsü isə, ənənəvi müttəfiqlərinin, din, dil və sərhəd birliyi əsasında onlara yaxın olan ölkələrin maraq və mənafelərini nəzərə almaq məcburiy-

yəti qarşısında qalırlar. Regionun böyük dövlətləri – Rusiya, Çin, Türkiyə, İran və başqaları, bir qayda olaraq, təmsil olunduqları təşkilatlarda mexaniki olaraq daha üstün statusla çıxış edir və əsasən, öz milli maraqlarını təmin etməyə çalışırlar.

Göründüyü kimi, Avrasiya regionunun geosiyasi həyatında iştirak edən və müxtəlif maraqların daşıyıcısı olan əksər təşkilatlarda ölkələr öz geosiyasi kateqoriyası və statusları ilə "böyük" və "kiçik" olmaqla iki qrupa bölünürlər. Bu da regionda həyata keçirilən geosiyasi və geoiqtisadi əməkdaşlıq məsələlərini, məsələn, Avropa Birliyi çərçivəsində gedən bərabərhüquqlu geoiqtisadi və geosiyasi inteqrasiya proseslərdən ciddi surətdə fərqləndirir. Avrasiya regionunda, xüsusən də MDB daxilində dövlətlərin «əsas» və «ikinci dərəcəli» qruplara bölünməsi halları hələ də müşahidə olunur. İkinci dərəcəli dövlətlər regionun bütün maraq dairələrini və onlar arasındakı balansı nəzərə almağa və ona əməl etməyə məcbur olunduğu halda, böyük ölkələr onların milli mənafelərini tez-tez inkar edirlər. Məsələn, 1991-93-cü illərdə Azərbaycan, Gürcüstan və Moldova özlərinin regional və dünya siyasəti sahəsindəki müstəqil fəaliyyətləri ilə bu ənənəni pozmağa cəhd göstərmişdilər. Nəticədə, onların suverenliyi və müstəqil dövlətçiliyi yolunda elə ciddi problemlər yaradılmışdır ki, 10 il keçəndən sonra da bunları aradan qaldırmaq mümkün olmamışdır. Halbuki, SSRİ dağılan zaman milli-etnik və dövlət-ərazi problemləri baxımından ən əlverişsiz və mürəkkəb vəziyyət bu üç dövlətin geosiyasi həyatında deyil, məsələn, Qazaxıstanda özünü göstərə bilərdi. Amma, Qazaxıstan prezidenti Nursultan Nazarbayevin düşünülmüş, balanslaşdırılmış siyasət aparması onun ölkəsini müstəqillik yolunda ən əlverişli vəziyyətə malik olan bir dövlətə çevirdi.

III FƏSİL
ORTA ASİYA VƏ XƏZƏR HÖVZƏSİNİN ÜMUMİ GEOSİYASİ XARAKTERİSTİKASI: YERLİ, REGİONAL VƏ TRANSMİLLİ MARAQLAR SİSTEMİ

§ 3.1. Orta Asiya, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geosiyasi xarakteristikası, müasir dünya siyasətindəki yeri və rolu haqqında

Ərazisinin mühüm geosiyasi, geoiqtisadi və hərbi-geostrateji xarakteristikası, zəngin təbii və mineral qaynaqları, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat-kommunikasiya və enerji dəhlizlərinin üzərində yerləşməsi və digər unikal coğrafi xüsusiyyətləri Orta Asiya və Xəzər dənizi hövzəsini Cənubi Qafqazla birlikdə XX əsrin sonlarından başlayaraq Kontinental Avrasiyanın əsas açar məkanlarından və xüsusi əhəmiyyətli geosiyasi bölgələrindən birinə çevrmişdir. (Bax: Xəritə 9)

Əvvəllər Orta Asiya və Xəzər hövzəsində baş verən hadisələr, etnik-milli münaqişələr yalnız SSRİ-yə və qismən də İrana aid daxili məsələ hesab edilirdisə, hazırda bölgədəki əksər dövlətlərin mövcud rejimləri, onların daxilində və aralarında mövcud olan münasibətlər region çərçivəsini aşaraq bütövlükdə beynəlxalq aləmin diqqətini özünə cəlb edir. Müasir dövrdə burada bütün vasitələrlə öz milli maraqlarını təmin etməyə çalışan bölgənin müstəqil ölkələri ilə yanaşı, regionda özünün ənənəvi üstün mövqelərini qorumağa şalışan Rusiya ilə bərabər, bura xüsusi meyil göstərən Avropa Birliyi, ABŞ, Türkiyə, İran, Çin, Yaponiya və s. kimi ölkələr də özlərinə müxtəlif sahələr üzrə mövqelər qazanmaq uğrunda mübarizə aparırlar.

Onların hər biri bölgənin bir çox geosiyasi, geoiqtisadi və geostrateji mövqelərinə yiyələnərək, özlərinin və müttəfiqlərinin maraqlarını təmin etmək istəyirlər.

QAFQAZ VƏ ORTA ASİYA



Xəritə 9.

Orta Asiya və Xəzər dənizi hövzəsi Cənubi Qafqazla birlikdə 20-ci əsrin sonlarından başlayaraq əsas transmilli mübarizə obyekti kimi ilk növbədə:

- bölgənin zəngin enerji və karbohidrogen ehtiyatlarına çıxış əldə etmək;
- əhəmiyyətli geosiyasi və hərbi-geostrateji mövqelərinə (strateji dəhlizlər, neft-qaz kəmərləri, dəmir və avtomobil yolları və s.) yiyələnmək;
- yerli ölkələrin siyasi rejimlərinə və ictimai dairələrinə təsir etmək, onların iqtisadi, sosial, dini, etnik, mədəni və informasiya mühitini öz təsiri altında saxlamaq və s. dayanır.

Bölgənin müasir geosiyasi reallıqları həm də onunla şərtlənir ki, böyük dövlətlər Orta Asiya və Xəzər hövzəsində bir tərəfdən sanki bərabərhüquqlu ikitərəfli və çoxtərəfli əməkdaşlıq yolları axtarır, digər tərəfdən isə özlərinin geosiyasi, geoiqtisadi maraqları naminə fəal rəqabət və mübarizə aparırlar. Orta Asiya və Xəzərin enerji resurslarının dünya bazarlarına çıxarılması ilə bağlı layihələr ətrafında yaranan geosiyasi gərginlik də bununla xarakterizə olunur ki, regional və regiondan kənar dövlətlərin bölgədəki enerji resurslarının istifadəsi ilə bağlı fərqli geoiqtisadi maraqları toqquşur.

Geosiyasi baxımdan bir qədər qapalı məkan hesab edilən Orta Asiyadan fərqli olaraq, Xəzər hövzəsi Avropa və Asiyanın kəsişməsində yerləşən və geniş ərazini əhatə edən, nəqliyyat-kommunikasiya imkanları ilə dünyaya daha açıq məkan hesab olunur. Bu məkana geosiyasi ədəbiyyatda ilk növbədə beş Xəzəryanı dövlətin ərazisini, əlavə olaraq Şimali və Cənubi Qafqazı, o cümlədən Mərkəzi Asiyanın bir çox regionlarını da aid edirlər. Bir sıra ekspertlər tərəfindən Xəzər hövzəsinə, hətta dənizlə birbaşa sərhədi olmayan Özbəkistan və Gürcüstan da aid edilir. Türkiyə isə hələ 1997-ci ildə özünü Xəzəryanı dövlət elan etmişdir.

Xəzər hövzəsində dünyanın böyük dövlətlərinin yürütdüyü siyasəti şərti olaraq iki dövrə ayırmaq olar:

- *Birinci dövr* - 1980-ci ilin sonu və 90-cı ilin əvvəlindən başlayaraq SSRİ-nin dağılması ilə dünya siyasi arenasına "Xəzəryanı" region adlanan yeni bir geosiyasi məkan daxil olur. Əgər SSRİ dövründə Xəzər dənizini yalnız iki dövlət – SSRİ və İran bölüşürdüsə, SSRİ-nin süqutundan sonra artıq Xəzərdə dörd yeni müstəqil dövlət meydana gəldi. Düzdür, bu dövrdə Xəzərin enerji resurslarından, onun istismarından hələ ki, danışan yox idi. Əslində hövzənin karbohidrogen

ehtiyatlarının həcmi ilə bağlı dəqiq hesablamalar aparılmasa da, artıq BP kimi nəhəng kompaniyalar bu haqda düşünməkdə idi.

- *İkinci dövr* - 1990-cı ilin ortalarından başlayaraq 1994-cü ilə qədər və ondan sonrakı mərhələni əhatə edir. Bu dövrdə geosiyasi ədəbiyyatda "Xəzərin geosiyasi oyunçuları" adlanan termin meydana çıxır və dünya siyasətşünaslığında geniş şəkildə təhlil olunmağa başlayır. 1993-cü ildən Azərbaycan dövləti yeni neft strategiyası həyata keçirməyə başlamaqla dünyanın aparıcı dövlətlərinə və transmilli şirkətlərinə Xəzərin zəngin neft-qaz ehtiyatlarına və Avropanın enerji təhlükəsizliyini təmin edə biləcək miqdarda alternativ karbohidrogen yataqlarına malik olduğunu bildirdi. Məhz elə həmin dövrdən başlayaraq Azərbaycanın təşəbbüsü ilə nəhəng neft-qaz şirkətlərinin qoşulduğu "Əsrin kontraktı" adlanan neft müqavilələri hazırlanaraq 1994-cü ildə imzalandı. Bu müqavilənin imzalanması, dünyanın əksər aparıcı ölkələrinin və nəhəng transmilli şirkətlərin ona qoşulması nəticəsində beynəlxalq aləmin Xəzər regionu ilə bağlı geosiyasi maraqlarında böyük dönüş baş verdi. Region həmin vaxtdan etibarən böyük dövlətlərin, region ölkələrinin və transmilli şirkətlərin geoiqtisadi rəqabət meydanına çevrildi.

Düzdür, SSRİ-nin süqutundan sonra bir müddət bəzi qüvvələr "Xəzərin hüquqi statusu" adlı süni problemi ortaya ataraq "bölgədə ciddi regional problemlərin mövcud olması haqqında" beynəlxalq ictimai rəy formalaşdırmağa, regionun xarici aləmlə iqtisadi əməkdaşlığına əngəl törətməyə və s. cəhd göstərdilər. Lakin, Azərbaycanın əksər sivil dünya ölkələri və geosiyasi aktorlar tərəfindən dəstəklənən konstruktiv, ədalətli

enerji strategiyası və regional geosiyasəti nəticəsində Xəzər hövzəsindəki gərgin dövlətlərarası münasibətləri nisbətən sabitləşdirmək və sağlam regional əməkdaşlıq mühiti formalaşdırmaq mümkün olmuşdur.

Xəzər hövzəsinin hazırkı geosiyasi statusu və geniş geoiqtisadi, tranzit-dəhliz imkanları həm əksər region ölkələrinin sağlam rəqabət maraqlarına cavab verir, həm də bütün dünya ölkələrini bölgənin iqtisadi və siyasi həyatına maliyyə yatırmağa, yerli ölkələrlə hərtərəfli iqtisadi əməkdaşlıq etməyə ruhlandırır. Əlbəttə, ABŞ, Rusiya və Qərb dövlətləri bölgədə öz geosiyasi maraqlarını təmin etməyə çalışır və onların istənilən fəaliyyəti region ölkələri ilə müəyyən rəqabət şəraitində həyata keçirilir. Lakin əsas məsələ ondadır ki, region dövlətləri əvvəlki illərdən fərqli olaraq hazırda həm qonşu ölkələrlə, həm də xarici aləmlə öz iqtisadi münasibətlərini sərbəst müəyyənləşdirmək, onlar arasında praqmatik seçim etmək imkanı qazanmışlar.

Bölgədə müasir transmilli maraqların daşıyıcısı rolunda ABŞ, Avropa İttifaqı dövlətləri, Çin, Yaponiya, Cənubi Koreya kimi böyük ölkələr və onları təmsil edən qlobal korporasiyalar çıxış edirlər. Orta Asiya və Xəzər hövzəsində regional maraqların ənənəvi daşıyıcısı və öz təsirini nəyin bahasına olursa-olsun qorumağa çalışan əsas dövlət Rusiyadır. Rusiyadan başqa, bölgədə fəal regional siyasət yürüdən və öz maraqlarının pozulması ilə barışmayan digər böyük ölkələr İran və Türkiyədir. Bölgədə Çin, Yaponiya və Pakistan kimi böyük Asiya dövlətləri müəyyən fəaliyyət göstərsələr də, onlar buranın ənənəvi geosiyasi oyunçuları hesab olunmurlar. Bölgədə özünün geosiyasi və geoiqtisadi maraqları uğrunda Orta Asiya və Xəzər hövzəsinin yerli dövlətləri ilə yanaşı, Ukrayna, Gürcüstan, Belarus və bəzi Şərqi Avropa ölkələri (Polşa, Rumıniya və Bolqarıstan və s.) də çıxış edirlər.

§ 3.2. Orta Asiya və Xəzər hövzəsi dövlətlərinin geosiyasi, hərbi-strateji və geoiqtisadi maraqlar sistemi və Azərbaycanla münasibətlərinin xarakteristikası

Avrasiyanın əsas geosiyasi bölgələrindən biri hesab olunan Orta Asiya və Xəzər hövzəsinin əraziləri[182] mühüm geostrateji əhəmiyyəti, enerji resursları, zəngin karbohidrogen yataqları, Şərq-Qərb nəqliyyat-kommunikasiya imkanlarına, tranzit və enerji dəhlizlərinə malik olmaları ilə həmişə dünya ölkələrinin diqqətini cəlb etmişdir. Avrasiyanın mühüm geosiyasi, geoiqtisadi və hərbi-geostrateji əhəmiyyətli bölgələrindən biri sayılan Orta (Mərkəzi) Asiya dünya xəritəsində geniş ərazisi (4 milyon km.2), 60 milyona yaxın islam dininə sitayiş edən və əksəriyyəti türkdilli hesab olunan əhalisi ilə tanınan beş dövlətdən – Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Tacikistandan ibarətdir.

Geosiyasi xarakteristikasına görə Orta Asiya Şərqlə (Cənub-Şərqi Asiya və Çin) Qərbi (Şərqi və Qərbi Avropa) birləşdirən ən əlverişli nəqliyyat dəhlizinin keçdiyi məkan hesab olunur. Şərq-Qərb geoiqtisadi əlaqələrində ən qısa və əlverişli nəqliyyat marşrutları, kommunikasiya, enerji dəhlizi və s. bu bölgəki ölkələrin ərazisindən keçir.

Orta Asiya regionun digər əraziləri ilə birlikdə geosiyasi anlamda həm də "strateji planetar məkan" əhəmiyyəti kəsb edərək (geostrateji kod) özünün dünyadakı ərazi-coğrafi xarakteristikası, zəngin təbii qaynaqları, xüsusən enerji daşıyıcıları (neft, qaz), qiymətli metal (qızıl, mis, uran, alüminium, sink və

[182] Bu məkanı Rusiyasız Avrasiya kimi də təqdim etmək olar. Bundan sonra dərslikdə "Avrasiya bölgəsi" kimi istifadə olunacaq termin altında Rusiya ərazisi istisna olmaqla bütün Qara və Xəzər dənizi hövzəsi ölkələrini, Şərqi Avropanın Qara dəniz sahillərində yerləşən ölkələrini, Ukrayna, Belarus, Moldova və Türkiyəni, Orta Asiya və İranı, Cənubi Qafqaz dövlətləri və s. geosiyasi aktorların yerləşdiyi məkan nəzərdə tutulacaq.

s.) ehtiyatları ilə daim dünya güclərinin maraq dairəsində olmuşdur. Onun geoiqtisadi, geostrateji və geosiyasi əhəmiyyəti bütün dövrlərdə Qərb (ABŞ, Avropa dövlətləri), Şərq (Çin, Cənubi Koreya, Yaponiya, Hindistan, Pakistan) və Rusiya, Türkiyə, İran kimi böyük region ölkələri arasında maraqlar mübarizəsini şərtləndirmişdir.

Avrasiyanın mühüm geosiyasi, geoiqtisadi və geostrateji məkanı hesab olunan bu bölgədə beynəlxalq münasibətlər və dövlətlərarası əlaqələr xüsusi dinamizmi, ciddi problemləri, maraq toqquşmaları və uzlaşmaları ilə xarakterizə olunur. Orta Asiya ölkələrin siyasi idarəçilik rejimləri bir-birinə kifayət qədər yaxındır. Əksər ölkələrdə siyasi idarəçilik qismən avtoritar mahiyyət kəsb edərək, daha çox milli liderlərinin güclü icra hakimiyyətinə əsaslanır, demokratik institutların fəaliyyəti müəyyən çərçivəyə salınaraq tənzimlənir ki, bu da regionun ümumu geosiyasi ab-havasına təsirsiz ötüşmür. Siyasi rejimlərin xarakteri bu ölkələrin təkcə daxili həyatı ilə məhdudlaşmır, həm də onların bir-biri, region ölkələri və xarici aləmlə geosiyasi münasibətlərinə də öz təsirini göstərir.

Orta Asiya ölkələri arasındakı münasibətlər bəzi regional və regiondankənar qüvvələrin də müəyyən təsiri altında mürəkkəb, ziddiyyətli, bəzən də münaqişəli, rəqabətli və kompromissiz xarakter daşıyır. Onlar arasında bəzi məsələlər üzrə kifayət qədər yaxın dost və tərəfdaşlıq münasibətləri olsa da, digər siyasi və geostrateji məsələlərdə kifayət qədər kompromissiz fikir ayrılığı və kənardan qızışdırılan ərazi, etnik, dini və s. münaqişələr mövcuddur. Pozulması daha çox xarici təsirdən asılı olan bu tipli həssas geosiyasi münasibətlər, əlbəttə, həm Orta Asiyanın ümumi geosiyasi vəziyyətinə və xarici investisiyalar üçün cəlbedicilik əmsalına mənfi təsir göstərir, həm də ölkələr arasında hər an alovlana bilən və sonradan acı

fəsadları on illərlə yaşanan sərhəd-ərazi, etnik-milli və dini münaqişələr üçün münbit şərait yaradır. Tanınmış politoloq Z. Bjezinski Xəzər regionu və Orta Asiyanın geosiyasi durumunu və perspektiv imkanlarını təhlil edərkən "daha çox yerli dövlətlərin avtoritar idarəçilik rejimlərinin xarakterindən qaynaqlanan bu kompromissiz ziddiyyətlərə" diqqət yönəltməyi tövsiyə edirdi.[183]

Müasir dövrdə bölgənin yerli, regional və transmilli inkişaf meyilləri mürəkkəb və ziddiyyətli xarakter daşıyır. Bu məkanın hazırkı geosiyasi statusu və geniş geoiqtisadi, tranzit-dəhliz imkanları həm əksər region ölkələrinin sağlam rəqabət maraqlarına şərait yaradır, həm də bütün dünya dövlətlərini bölgənin iqtisadi və siyasi həyatına maraq göstərməyə, yerli ölkələrlə hərtərəfli əməkdaşlığa sövq edir. Əlbəttə, Rusiya və digər böyük region dövlətləri kimi, Qərb dövlətləri də bölgədə geoiqtisadi maraqlarını təmin etməyə çalışır.

Orta Asiyada ənənəvi olaraq (SSRİ dağılandan sonra da) Rusiyanın geosiyasi, geostrateji və geoiqtisadi mövqeləri üstünlük təşkil etmişdir. Əlbəttə, SSRİ-nin dağılması və bölgə dövlətlərinin müstəqillik qazanması bir tərəfdən Rusiyanı yeni geosiyasi şəraitlə üz-üzə qoydu, onu bölgəyə artan xarici maraqlarla hesablaşmaq məcburiyyəti ilə üzləşdirdi. Digər tərəfdən, bölgədə ABŞ, Qərb dövlətləri, Çin, Yaponiya, İran və Türkiyənin illərdən bəri planlaşdırdığı, lakin reallaşdırılması mümkün olmayan geostrateji fəaliyyətlərini sürətləndirdi.

Müstəqilliklərinin ilk illərində Orta Asiya dövlətləri Qərblə (əsasən Türkiyə vasitəsilə) Rusiya arasında müəyyən mənada seçim qarşısında qalmışdılar. Bu ölkələr Qərblə əlaqələrə daha çox iki anlamda meyil göstərirdilər:

[183] Бжезинский З.К. Великая шахматная доска. Господства Америки и его геостратегические императивы. с.151.

- öz müstəqilliklərinin daimi olmaları üçün təminat almaq;
- postsovet məkanında mövcud olan iqtisadi böhrandan çıxmaq, Qərb ölkələrindən maliyyə dəstəyi almaq və onların qabaqcıl texnologiyalarını öz iqtisadiyyatlarına cəlb etmək.

Əslində, ikinci faktor əsasında 1992-1998-ci illərdə Orta Asiya ölkələri ilə Qərb dövlətləri xeyli yaxınlaşdı və bunun fonunda Rusiya getdikcə bölgədə, bütövlükdə Xəzər hövzəsində öz geosiyasi təsirini sürətlə itirməyə başladı. Lakin 1990-cı illərin sonundan etibarən Orta Asiya dövlətləri geosiyasi və geoiqtisadi maraqlarını Rusiyaya doğru yönəltdi. Bu "geosiyasi dönüş" əsasən onunla bağlı idi ki, Qərbin transmilli demokratiya institutları və rəsmi dairələri bu ölkələrdə möhkəmləndikcə yerli hakimiyyət strukturlarına qarşı tədricən müxalif mövqe sərgiləməyə və onları ABŞ-da işlənib hazırlanmış "dünyanın vahid demokratikləşmə dalğası" adlanan sürətli axına qoşmağa başlayırlar. Bütün ölkələri qısa müddətdə, eyni standartla "demokratikləşdirmək istəyi" bu ölkələrdə aparılan siyasi və islahatların tez bir zamanda başa çatmasını nəzərdə tuturdu. Əlbəttə, bu ölkələrin milli və vətəndaş maraqları ilə, siyasi elitasının şəxsi hakimiyyət maraqları arasında uyğunsuzluq açıq-aşkar sezilirdi. Orta Asiya dövlətlərinin əksər siyasi elitası hakimiyyətin maraqlarını "Qərbin şübhəli və müəyyən mənada qeyri-səmimi demokratiya tələblərindən" daha üstün tutaraq, daha çox Rusiyaya meyllənməyə başlayırlar.

ABŞ və Qərb dövlətlərinin Orta Asiyada elçisi sayılan Türkiyəyə münasibətdə də 1990-cı illərin sonlarından etibarən bölgə ölkələri praqmatik yanaşma nümayiş etdirməyə başladılar. Onlar Türkiyənin ciddi texnoloji və maliyyə imkanları, qabaqcıl iqtisadi quruluşu və demokratiya sahəsindəki təcrübəsinə bir o qədər də əhəmiyyət vermədən Rusiya ilə strateji əməkdaşlıq münasibətlərini dərinləşdirmək yolunu tutdular. Beləliklə, 90-cı ilin sonundan Orta Asiya dövlətləri Qərblə Rusiya arasındakı balanslaşdırılmış siyasətlərini tədricən ikincinin

xeyrinə dəyişməyə başladılar. 2000-ci ildən başlayaraq Rusiyanın Orta Asiya ilə bağlı geosiyasətində yeni meyillər özünü göstərməyə başladı. Rusiya bölgə ölkələrinin hərbi-strateji mövqeləri istisna olmaqla, geosiyasi, geoiqtisadi və milli-mədəni sahələrdəki maraqlarına sayğı ilə yanaşmaq yolunu tutdu. Politoloqlar Rusiyanın bu cür mövqe tutmasını V.Putinin hakimiyyətə gəlməsi ilə əlaqələndirirlər. Hazırda Orta Asiyada regional maraqların ənənəvi daşıyıcısı və öz təsirini nəyin bahasına olursa-olsun qorumağa çalışan dövlət Rusiyadır. Bu dövlətdən başqa, bölgədə fəal regional siyasət yürüdən və öz geosiyasi maraqlarını təmin etməyə çalışan ölkələr İran və Türkiyədir. Baxmayaraq ki, bu bölgədə Çin və Pakistan kimi böyük dövlətlər də mövcuddur, lakin onlar buranın ənənəvi siyasi oyunçuları hesab edilmirlər.

Orta Asiyanın və əslində bütün bölgə dövlətlərinin milli maraqları ilk növbədə regionun sabitliyindən, xarici investisiyaların və texnologiyaların azad rəqabət şəraitində bölgəyə yönəldilməsindən, bütün qonşu dövlətlərlə (Rusiya, Çin, İran, Türkiyə, Pakistan) və Qərb dünyası ilə qarşılıqlı faydalı əməkdaşlıqdan keçir. Lakin, Rusiyanın regiondakı üstünlüyü ilə bölgə ölkələrinin milli maraqları həmişə üst-üstə düşmür. Bəzən Çin, Cənubi Koreya, Yaponiya və Qərb ölkələrinin daha əlverişli şərtlərlə təklif etdiyi qlobal layihələri Rusiya müxtəlif təzyiqlərlə rəqabətdən kənar əldə edir və öz niyyətlərini region dövlətlərinin mənafeləri hesabına təmin edir. Artıq qeyd olunduğu kimi, son zamanlar dünyada transmilli maraqların kəskinləşdiyi və geoiqtisadi münasibətlərin şəffaflaşdığı bir şəraitdə Rusiya bölgənin iqtisadi layihələrində xarici aləmlə eyni şərtlər altında daha praqmatik rəqabət aparmağa sövq edilir ki, bu da həm region dövlətlərinin, həm də bütün transmilli tərəfdaşların maraqlarına cavab verir.

Orta Asiya ölkələrinin hamısı MDB-nin üzvləridir, bundan başqa, onlar öz aralarında "Mərkəzi Asiya Əməkdaşlıq

Təşkilatı" adlı vahid geoiqtisadi bir qurum da yaradıblar. Orta Asiya dövlətləri digər qonşu ölkələrlə birgə İqtisadi Əməkdaşlıq Təşkilatında (İran, Türkiyə, Pakistan və Azərbaycan da bu qurumun üzvləridir), Şanxay Əməkdaşlıq Təşkilatında (Türkmənistan istisna olmaqla), NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində Qərblə çoxtərəfli əlaqələrdə iştirak edirlər. Əlbəttə, Orta Asiya ölkələri bu çoxtərəfli əlaqələrə, beynəlxalq və regional qurumlara üzvlüyə müstəqil dövlətçilik maraqlarını təmin etmək, gələcəkdə Rusiya, yaxud digər ölkələr tərəfindən suverenliklərinə qarşı yarana biləcək təhlükələrdən sığortalanmaq məqsədilə qoşulmuşlar. Məsələn, vaxtilə Özbəkistan və Qırğızıstan öz ərazilərində ABŞ qoşunlarının və hərbi bazalarının yerləşdirilməsinə milli müstəqilliklərinə müsbət təsir göstərə biləcək əlavə faktor kimi baxırdılar.

1992-2009-cu illərdə Orta Asiyada mühüm geosiyasi yükə malik bir çox qlobal və transmilli layihələr həyata keçirilib ki, onların reallaşmasında Rusiya, İran, Çin və Cənub-Şərqi Asiyanın inkişaf etmiş bir sıra ölkələri ilə birlikdə, ABŞ və Avropa dövlətləri də iştirak ediblər. Belə layihələrdən Narın və Vaxış çayları üzərində tikilən nəhəng su elektrik stansiyalarını, Çinə, İrana, Türkiyəyə, Azərbaycan və Gürcüstana TRASEKA və b. layihələr çərçivəsində, quru, dəmir yolu, Xəzər və Qara dəniz vasitəsilə çıxan nəqliyyat-kommunikasiya xətlərini, Çin-Qazaxıstan, Türkmənistan və İran arasındakı dəmir və avtomobil yollarını, Buxara-Ural-Orta Asiya qaz kəmərini, Türkmənistan-Rusiya Xəzərboyu qaz kəmərini və inşa edilməsinə başlanılan Türkmənistan-Çin qaz kəmərini göstərmək olar. Bütün bu nəqliyyat-kommunikasiya xətləri region ölkələrinə həm geosiyasi və geoiqtisadi anlamda, həm də özlərinin beynəlxalq əlaqələrində daha optimal, sərfəli marşrutlar seçmək imkanı yaratmışdır. Eyni zamanda, Qərb-Şərq əlaqələrində həlledici bir həlqəyə çevrilməklə, region ölkələri öz müstəqillikləri və

milli maraqlarının qorunması baxımından əlverişli beynəlxalq dəstəyə də nail olmuşlar.

Hazırda Orta Asiyanın neft, qaz və qiymətli metal yataqlarına Əfqanıstan, Hindistan, Pakistan, Çin, Yaponiya və digər Asiya dövlətləri ilə yanaşı, Qərb ölkələri və ABŞ da ciddi maraq göstərirlər. Onlar Cənubi Qafqazdan Aralıq dənizinə uzanan magistral neft və qaz kəmərləri ilə Qazaxıstan və Türkmənistanın karbohidrogen ehtiyatlarını daşımaq üçün ciddi səy göstərirlər. Bundan başqa, Qərb ölkələrinin planlaşdırdığı və region dövlətlərinin də can atdığı Termez-Məzari Şərif-Herat (Əfqanıstan) dəmir və avtomobil yolu layihəsi (neft və qaz kəmərləri istisna olmaqla bu yolun İranın Bəndərabbas limanına – Fars körfəzinə qədər uzadılması Çin və Hindistanın strateji planına daxildir), Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi və s. Orta Asiyanın xarici aləmlə bütün əsas nəqliyyat-tranzit əlaqələrinə çoxvariantlı şərait yaradır.

Geosiyasi baxımdan Orta Asiya ölkələri Rusiyanı bitərəfləşdirmək və onun təsir dairəsini yarmaqla Azərbaycan və Gürcüstan vasitəsi ilə Qara və Aralıq dənizinə açılan neft və qaz kəmərləri, nəqliyyat-kommunikasiya xətləri vasitəsilə Qərb ölkələrinə, Sarı və Cənubi Çin dənizinə uzanan geosiyasi dəhlizlə Şərq ölkələrinə, Fars körfəzinə və İrana uzanan xətlə isə Cənubla özünün geostrateji və geoiqtisadi əlaqələrini qurmağa və dünyaya sərbəst çıxmağa müvəffəq ola bilərlər. Region ölkələrinin planlaşdırdığı layihələrdən - Orta Asiyadan Hindistan və Pakistana qədər uzanacaq (bu kəmər çox güman ki, Əfqanıstan ərazisindən çəkiləcək) və Qazaxıstandan Çinə çəkiləcək neft-qaz boru kəmərlərini də qeyd etmək olar.

Orta Asiya ölkələrinin Rusiya ilə geosiyasi yaxınlığını və ona bağlılığını şərtləndirən bir neçə əsas məqam var ki, bölgədə strateji marağı olan və onu dönmədən reallaşdırmaq əzmi ilə yaşayan hər bir dövlət, yaxud digər geosiyasi aktor bunu mütləq şəkildə nəzərə almalıdır. Özü də bu maraqların bəzisi

yalnız Rusiyanın, digərləri isə Orta Asiya ölkələrinin, bəziləri isə hər iki tərəfin mənafelərinə aid edilə bilər. Məsələn, Orta Asiya dövlətlərinin xarici sərhədlərinin qorunması bütövlükdə həm Rusiyanın, həm də bu ölkələrin təhlükəsizlik maraqlarına cavab verdiyi halda, regionun təbii qazının ucuz qiymətə alınaraq baha qiymətə Qərb ölkələrinə satılması əsasən Rusiyanın geoiqtisadi maraqlarına xidmət edir. Yaxud KTT-yə daxil olmaqla Orta Asiya ölkələri demək olar ki, öz geostrateji təhlükəsizlik problemlərini rus ordusunun hesabına həll edir və müvafiq olaraq, hər il ordu quruculuğuna, sərhədlərin mühafizəsinə və. s küllü miqdarda pul xərcləmək qayğısından azad olurlar. Lakin, bu ölkələr istənilən anda Rusiya tərəfindən törədilə biləcək geosiyasi, geostrateji və geoiqtisadi təxribatları və ondan irəli gələn digər strateji təhlükələri də göz önünə almaq məcburiyyətindədirlər.

Göründüyü kimi, Orta Asiya həm Asiyanın, həm də Avropa və Amerikanın həyati maraqlarının əks olunduğu ən əhəmiyyətli bir geosiyasi regiondur ki, burada ayrı-ayrı maraqların kəsişməsi təbii, real və gözlənilməndir. Bu region Cənubi Qafqaz, Qara və Xəzər dənizi ətrafı ölkələri ilə birlikdə "Avrasiya" adlanan geosiyasi, geostrateji və geoiqtisadi məkanın ən zəngin, əhəmiyyətli və əlverişli ərazisi hesab olunur.

1990-cı ilin əvvəllərində Orta Asiya, Xəzər hövzəsi və Cənubi Qafqazda, bütövlükdə bölgənin hər bir ölkəsinin həyatında ayrılıqda müşahidə olunan geosiyasi risklər ilk növbədə ölkələrin siyasi idarəçilik rejimlərinin xarakterindən doğurdu. Region ölkələrinin sabit idarəçiliyi, cəmiyyətin daxili strukturunun yetkinliyi və demokratik dəyərlər əsasında formalaşması, hakimiyyətlə cəmiyyət arasında anlaşıqlı münasibətlərin mövcudluğu, ölkədaxili ictimai-siyasi münasibətlərin xarakteri və s. amillər geosiyasi riskləri ya yüksəldir və yaxud da əksinə, azaldırdı. Geosiyasi risklərin digər qrupu bəhs olunan region ölkələrinin dünya iqtisadi sisteminə zəif inteqrasiyası, daxili

vergi sistemlərinin qeyri-təkmilliyi, ölkədaxili cinayətkarlığın artması, qanunvericilik normalarının zəifliyi və s. ilə bağlı idi. Geosiyasi risklərin yüksəkliyi xarici investisiyaların regiona kapital qoyuluşu prosesini hiss olunacaq dərəcədə zəiflədirdi. Orta Asiya və Xəzərətrafı ölkələrin daxili həyatında baş verən hər hansı çaxnaşmalar, üsyan və yaxud inqilablar (nəzərə alınsa ki, belə hallar keçid dövrünü yaşayan istənilən postsovet ölkəsinin həyatında baş verə bilərdi), hakim komandanın tərkibindəki tez-tez həyata keçirilən kadr dəyişiklikləri, ölkədaxili siyasi və sosial münaqişələrin mövcudluğu və s. kimi hallar 1990-1999-cu illəri əhatə edən geosiyasi risklərin sırasına daxil idi.

Xəzər hövzəsi ölkəsi kimi region dövlətləri içərisində mühüm geosiyasi, hərbi-strateji və geoiqtisadi maraqları olan dövlətlərdən biri Azərbaycandır. Əsasən 1993-cü ildən etibarən Azərbaycan bölgədəki mövcud geosiyasi vəziyyəti nəzərə alıb, geosiyasi maraqlarını və onların həyata keçirilməsi istiqamətlərini müəyyənləşdirərək, regionda fəaliyyət göstərən bütün dövlətlər və geosiyasi aktorlarla qarşılıqlı əlaqələr qurmuşdur. Azərbaycan Avrasiyada yerləşdiyindən onun daxili və xarici vəziyyəti də regionda baş verən hadisələr, region dövlətləri arasındakı münasibətlər və dünyanın aparıcı dövlətlərinin regionda həyata keçirdiyi transmilli siyasətdən birbaşa asılıdır.

Azərbaycanın MDB və digər regional qurumlarla əlaqələrinin maraqlı tarixi vardır. Məsələn, Azərbaycanın kommunist rəhbərliyi 1991-92-ci illərdə MDB-nin «SSRİ tipli yeniləşmiş bir dövlət» statusunda olmasında maraqlı idi. 1992-93-cü illərdə, AXCP hakimiyyəti dövründə isə əksinə, MDB-yə və onun üzvlərinə qarşı mənfi münasibət formalaşmışdı. Hər iki dövrdə Azərbaycanın apardığı siyasət onun geosiyasi maraqlarına uyğun deyildi. Birinci dövrdəki "kommunist yanaşması" respublikamızın müstəqil dövlətçilik maraqlarına daban-dabana zidd idisə, ikinci dövrdəki "cəbhəçi yanaşması" onun həm regionda

gedən proseslərdən təcrid edilməsinə, illərlə yaradılmış iqtisadi-təsərrüfat əlaqələrinin, istehsal, istehlak sisteminin pozulmasına və nəticədə ölkədə ciddi iqtisadi böhranın başlamasına xidmət edirdi. Bu isə Azərbaycanın dövlət müstəqilliyi yolunda arzuolunmaz problemlərin yaranmasına və Ermənistan kimi geosiyasi rəqibin üstün mövqelər qazanmasına gətirib çıxarırdı. Azərbaycanın bölgədəki özünütəcrid siyasəti, vahid bir məkanda yaşadığı qonşu dövlətlərlə münasibətlərini əsassız gərginləşdirilməsi, onların ünvanına yeri gəldi-gəlmədi rəsmi, yaxud qeyri-rəsmi ittihamlar yağdırması 1993-cü ildə hakimiyyət dəyişikliyinin baş verməsinə gətirib çıxaran səbəblərdən biri oldu.

1992-ci ilin iyun ayından MDB-dən çıxan Azərbaycan və eyni zamanda E.Şevardnadzenin hakimiyyətə qayıdışından sonra Gürcüstan yenidən 1993-cü ilin sentyabr-dekabr aylarında bu təşkilata qayıtdılar. Beləliklə, MDB tərkibində müstəqillik siyasəti yürüdən və bu qurumun "dövlətüstü təşkilata" çevrilməsinə mane olan dövlətlərin sayı bir qədər də artdı. Bu missiyanı MDB çərçivəsində əvvəl yalnız Ukrayna və Moldova həyata keçirirdisə, 1993-cü ildən Azərbaycan, Gürcüstan və Özbəkistan da onların sırasına qoşuldu. Məhz bu dövlətlərin birgə səyi ilə MDB-nin Nizamnaməsinə bu qurumun hökumətlərarası təşkilat olduğu, üzv dövlətlərin daxili və xarici siyasətinə müdaxilə etmək səlahiyyətinə malik olmadığı, beynəlxalq münasibətlərin subyekti kimi çıxış etmədiyi və dövlət, yaxud dövlətüstü qurum mahiyyəti daşımadığı haqqında müddəa salındı.

Sonradan MDB üzvü olan və tam müstəqil siyasət yürütməyin tərəfdarı kimi çıxış edən bu 4 dövlətin GUAM təşkilatını yaratması MDB daxilindəki siyasi və iqtisadi səmtləşmənin tamamilə fərqli olduğunun göstəricisi idi. Geosiyasi mövqelərinə görə, Qərb dövlətləri ilə siyasi və iqtisadi əlaqələrə, dünyanın ən inkişaf etmiş və güclü maliyyə-texnoloji imkan-

ları olan ölkələri ilə Xəzər hövzəsinin karbohidrogen yataqlarının işlənməsi və sərbəst şəkildə dünya bazarlarına çıxarılması, ixracat marşrutlarının müəyyən edilməsi, MDB və NATO təhlükəsizlik sistemlərinə, transmilli Şərq-Qərb enerji, nəqliyyat və kommunikasiya layihələrinə və s. münasibətdə bəhs edilən «dördlük» həmişə MDB-nin (Rusiyanın) mövqelərinə fərqli yanaşma nümayiş etdirib və alternativ layihələr irəli sürüb ki, bunu Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən regional dəstək hesab etmək olar. Azərbaycanın bölgədəki geosiyasi, geoiqtisadi və hərbi-strateji maraqları müəyyən məsələlərdə regionun Rusiya, Ermənistan və İran kimi dövlətləri istisna olmaqla, əksər ölkələrlə, beynəlxalq maraqları isə dünyanın ABŞ, Avropa Birliyi, Çin, Yaponiya kimi böyük ölkələrin mənafeləri ilə əsasən üst-üstə düşür.

Geostrateji və hərbi təhlükəsizliklərinin təmin olunması, regional və beynəlxalq təhlükəsizlik sistemlərinə yanaşmalarındakı bəzi fərqlər istisna olmaqla, Orta Asiya ölkələri, Ukrayna, Gürcüstan, Türkiyə və s. region dövlətləri ilə Azərbaycanın milli maraqları əsasən üst-üstə düşür. Qeyd edək ki, Azərbaycan Ermənistanla hər hansı vahid təhlükəsizlik blokunda fəaliyyət göstərmək və torpaqlarının işğal faktına beynəlxalq hüquqa əsaslanan prinsipial hüquqi-siyasi qiymət verməyən Kollektiv Təhlükəsizlik Müqaviləsi (KTM) adlanan təşkilatda təmsil olunmaq istəmir. Lakin, Türkmənistan istisna olmaqla (bu ölkə hər hansı xarici təhlükəsizlik sistemlərinə qoşulmamaq siyasəti yürüdərək, özünü bitərəf ölkə elan etmişdir), Orta Asiya dövlətlərinin əksəriyyəti Rusiyanın təşəbbüsü ilə yaradılmış KTM-in üzvləridir və öz milli təhlükəsizliklərinin qorumasını da bu quruma etibar ediblər (yalnız Özbəkistan hələlik KTM-in üzvü deyil, tərəfdaşıdır).

Azərbaycan eyni zamanda, həm də Türkiyənin üzv olduğu, bölgə ölkələrindənsə Ukrayna və Gürcüstanın ciddi-cəhdlə can atdığı, beynəlxalq təhlükəsizlik sahəsində önəmli mövqeyə

malik NATO-ya da üzv olmaq üçün xüsusi fəaliyyət nümayiş etdirmir. Rəsmi Bakı çox güman ki, özünün əsas geostrateji problemi olan Dağlıq Qarabağ məsələsini həll etməyincə, "hərbi bloklara qoşulmamaq" mövqeyini saxlayacaqdır. Ola bilsin ki, dünyada mövcud olan təhlükəsizlik bloklarından hər hansı biri Azərbaycana onun ərazi bütövlüyünün təmin olunması ilə bağlı ciddi yardım göstərsə və milli təhlükəsizliyinə təminat versə, o zaman ölkəmiz öz bitərəfliyinə yenidən baxa bilər.

Geoiqtisadi parametrlərinə və bu sahədə yürütdükləri siyasətə görə İran, Rusiya, Ermənistan və bəzi məsələlərdə Türkmənistan istisna olmaqla (bu ölkə Xəzər dənizinin milli sektorlara bölünməsi və Azərbaycana məxsus sektordakı bəzi yataqların mənsubiyyəti ilə bağlı fərqli yanaşma nümayiş etdirir), bəhs olunan region ölkələri ilə Azərbaycanın geoiqtisadi maraqları bütövlükdə üst-üstə düşür. Məlum olduğu kimi, Xəzər dənizinin enerji resurslarının işlənməsi, dünya bazarlarına çıxarılması və sərbəst satışı, Şərq-Qərb nəqliyyat-kommunikasiya əlaqələrinin qurulması və s. ilə bağlı Rusiya və İran Azərbaycandan fərqli mövqe nümayiş etdirir ki, bu haqda dərsliyin müvafiq bölmələrində geniş məlumat verilir. Qərbin qabaqcıl texnologiyasına və maliyyə yatırımlarına, onlarla bərabərhüquqlu tərəfdaşlığa, öz enerji məhsullarını sərbəst şəkildə, ucuz və əlverişli marşrutlarla dünya bazarlarına çıxarmağa və sərbəst qiymətə satmağa həm Qazaxıstan, Türkmənistan və Özbəkistan, həm də Azərbaycan ehtiyac duyur. Bu işdə Türkiyə, Gürcüstan, Ukrayna, Azərbaycan və Orta Asiyanın bəhs olunan dövlətləri geoiqtisadi cəhətdən tərəfdaş (baxmayaraq, Ukrayna enerji marşrutları məsələsində Türkiyə ilə rəqibdir), Rusiya isə Avrasiyada malik olduğu üstün mövqelərə söykənərək rəqib qismində çıxış edir.

Rusiya Avrasiyadakı ənənəvi üstün təsir imkanlarını qorumaq, İran isə yeni-yeni geosiyasi mövqelər qazanmaq məqsə-

dilə bölgənin digər ölkələrinə, onların malik olduğu resurslar üzərində nəzarəti ələ almalarına və Qərb dövlətlərinin Xəzər dənizi və Orta Asiyada reallaşdırdığı transmilli layihələrə qısqanclıq nümayiş etdirərək, bu dövlətlərə ciddi iqtisadi, siyasi və strateji təzyiq göstərirlər.

Strateji tərəfdaşlıq münasibətlərinə malik olmaq və onu ciddi şəkildə qorumaq Azərbaycana və onun vəziyyətində olan region ölkələrinə həm bölgənin Rusiya, Çin, İran, Türkiyə və başqa böyük dövlətləri, həm də Avropa Birliyi, ABŞ, Yaponiya və s. qarşısındakı müqavimət gücünü artıra bilər, öz milli maraqlarını və geostrateji mənafelərini təmin etmək işində onlara əlavə dəstək olar. Avrasiya ölkələri, xüsusən də Orta Asiya və Cənubi Qafqaz dövlətləri arasında mübahisəli məsələlərin həll edilməsi və strateji müttəfiqlik münasibətlərinin qurulması ayrı-ayrılıqda hər bir ölkənin və bütövlükdə regionun geosiyasi maraqlarına cavab verir və tərəflərə eyni dərəcədə vacibdir. Bu müttəfiqlik qarşısında Qərb və Şərq, həm də bölgənin və dünyanın istənilən geosiyasi gücü ehtiram göstərməyə və hesablaşmağa məcburdur. Bu baxımdan ABŞ politoloqu Z. Bjezinskinin dərslikdə təqdim olunmuş fikirləri ilə razılaşmamaq qeyri-mümkündür. Z.Bjezinski ABŞ-ın geosiyasi maraqlarına uyğun olaraq, haqqında söhbət gedən "ölkələrin yerləşdiyi məkana sahib olan dövlətin bütövlükdə Avrasiyaya, Avrasiyaya sahib olanın isə bütün dünyaya sahib ola biləcəyin" bildirirdi. Düşünürük ki, bu əraziyə sahib olmaq hüququ ilk növbədə, məhz elə bu ərazidə yaşayan xalqlara və onların mənsub olduğu dövlətlərə məxsusdur. Bu hüququ qazanmaq və qorumağın yolu isə sözsüz ki, bərabərhüquqlu birlik və müttəfiqlikdən keçir. Azərbaycanın yuxarıda göstərdiyimiz hərbi-geostrateji, geoiqtisadi və geosiyasi maraqları cəhətdən Orta Asiya və Cənubi Qafqazın hər bir ölkəsi ilə tam üst-üstə düşən, uzlaşdırılması mümkün olan və yaxud olmayan maraqlar sistemi də mövcuddur.

Məsələn, Orta Asiya dövlətlərinin geostrateji və geoiqtisadi maraqları əsasən üst-üstə düşsə də, onların hər birinin regionla bağlı konkret milli maraqları vardır. Bu baxımdan Orta Asiya dövlətlərinin hər birinin regionla bağlı geosiyasətlərinin mahiyyətini və onların Azərbaycanla tərəfdaşlıq münasibətlərinin ümumi istiqamətlərini aşağıdakı kimi şərh etmək olar:

Qazaxıstan: Bu dövlət SSRİ dağılarkən postsovet məkanında ən əlverişsiz geosiyasi vəziyyətlə üzləşməsinə baxmayaraq (həmin dövrdə ruslar Qazaxıstanın 5 böyük vilayətinə iddia irəli sürürdü və ümumiyyətlə bu ərazidə qazaxlara məxsus milli dövlətin formalaşması ciddi problemlərlə üzləşirdi), Rusiya ilə münasibətlərini tənzimləyə bildi. Qazaxıstanın paytaxtının Alma-Atadan Astanaya köçürülməsi mühüm geosiyasi və geostrateji əhəmiyyət kəsb edən hadisə oldu. Məlum olduğu kimi, bu şəhər əvvəllər Akmulinsk vilayəti adlanırdı və Qazaxıstanın şimalı hesab olunan bu məkanın bütün əhalisi və iqtisadi strukturları Rusiya və onun sərhəd əyalətlərinə bağlı idi. Lakin Nazarbayev bu çox əhəmiyyətli geostrateji, geosiyasi gedişi Rusiya ilə heç bir problem yaratmadan, əksinə onun dəstəyini qazanaraq həyata keçirə bildi.[184] Qazaxıstan həm Qərb dövlətləri, həm də Rusiya, Çin və digər bölgə ölkələri ilə kifayət qədər yaxşı əlaqələr yaratmışdır. Bu dövlət ətraf ölkələrin geoiqtisadi maraqlarını uzlaşdıraraq, onların siyasi və strateji dəstəyini qazana bilmişdir. Bu gün Qazaxıstan bölgədəki geosiyasi mənafelərini ABŞ və Rusiyanın maraqları ilə uzlaşdırmaq siyasəti yeridir. Bu siyasət Qazaxıstana regiondakı mövqeyini möhkəmləndirməyə və müxtəlif dövlətlərin geosiyasi baxışları fonunda neytral mövqe tutmağa imkan verir.

Rusiya ilə strateji münasibətləri inkişaf etdirmək Qazaxıstanın xarici siyasətində prioritet məsələlərdən biridir. Qeyd edək ki, Rusiyanın postsovet məkanında irəli sürdüyü hər bir

[184] Медведев Р.А. Казахстанская модель: Евразия, июнь 2006, с. 76-77.

təşəbbüs, əsasən, Qazaxıstanın dəstəyi ilə reallaşıb. Son bir neçə il ərzində ABŞ, Böyük Britaniya, Türkiyə, Almaniya kimi ölkələr Qazaxıstana külli miqdarda sərmayə qoymuşdur. Bir faktı qeyd etmək lazımdır ki, Qazaxıstanın neft yataqlarındakı kəşfiyyat işlərinin 73 faizi Qərb şirkətləri tərəfindən aparılır.

Qazaxıstanın Qərb dövlətləri, xüsusilə, ABŞ-la əməkdaşlığı 1997-ci ildə prezident Nursultan Nazarbayevin Vaşinqtona səfərindən sonra daha da möhkəmlənib. Həmin səfər zamanı iki ölkə arasında siyasi və iqtisadi əməkdaşlığa dair proqram imzalanıb və Qazaxıstan ABŞ-ın strateji tərəfdaşı elan edilib. Bununla paralel olaraq, 1998-ci ildə Rusiya ilə «XXI əsrdə daimi dostluq və müttəfiqlik haqda» Bəyannamə imzalamaqla, rəsmi Astana ABŞ-la əməkdaşlığın Moskvanın geosiyasi maraqlarına qarşı yönəlmədiyini nümayiş etdirib. Qazaxıstan Qərb və Şərq ölkələri, xüsusən, Çinlə birgə layihələrin hazırlanmasında yaxından iştirak edir. Artıq bu dövlət Çinin iştirakı ilə "Transqazax neft və qaz layihəsi"ni hazırlayır. Qazaxıstan prezidenti N.Nazarbayevin Pekinə səfəri zamanı Xəzərdən Çinə qədər (Rusiyaya alternativ) dəmir yolunun çəkilməsi haqqında sənəd imzalanmışdır. 4 min km. uzunluğunda olan magistral yol 5 milyard dollara başa gələcək və Çin, Qazaxıstan, Türkmənistan, İran ərazisindən keçərək Fars körfəzinə çıxacaq. Bu dəmiryolu xətti Rusiyadan yan keçməklə Çinlə Xəzər hövzəsini birləşdirəcək. Eyni zamanda, Qazaxıstanla Çin arasında neft kəməri tikintisinə dair razılıq da əldə olunub ki, bu da Xəzər neftinin yenə də Rusiyadan yan keçməklə Çinə nəqli deməkdir. Lakin bu layihə təkcə Rusiyada deyil, ABŞ-da da ciddi narahatlıqla qarşılanmışdır. Belə ki, ABŞ Xəzər neftinin "Asiya marşrutu" ilə Çin və Hindistana daşınacağından ciddi ehtiyat edir. Bu ölkələrdə enerji daşıyıcılarına ehtiyacın getdikcə artması, onları Xəzər nefti uğrunda ABŞ-ın əsas rəqibinə çevirir.

Məlum olduğu kimi, Qazaxıstan Xəzər ölkələri içərisində nəqliyyat-tranzit problemləri baxımından ən ağır geosiyasi mövqeyə malik bir ölkə hesab edilir. Bu dövlətin xarici okeanlara birbaşa çıxışı yoxdur. Qazaxıstanın dünya okeanlarına yeganə çıxışı ya bir neçə ölkə, ya da yalnız Rusiya vasitəsi ilə mümkündür. Odur ki, Qazaxıstan öz xammal resurslarını birbaşa xarici bazara çıxararaq real dəyərə satıb mənfəət əldə etmək imkanından məhrumdur və məcburdur ki, öz məhsullarını ya Rusiya vasitəsi ilə uzaq və əlverişsiz marşrutla, ya da ki, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsi ilə Qərbə nəql etsin.

Qazaxıstan xarici investisiyaların həcminə görə Xəzərətrafı ölkələrin içərisində adambaşına düşən investisiya miqdarına görə Azərbaycandan sonra birinci yerdədir. Bu ölkə xarici investisiyaları cəlb etmək məqsədi ilə 1992-ci ildən başlayaraq iqtisadi həyatın liberallaşdırılması, xarici investisiyaların qorunması və biznes mühitinin sərbəstləşdirilməsi ilə bağlı çoxsaylı qanunlar qəbul etmişdir.[185] Dünyanın "Şevron", "Mobil", BP" və "BritişQaz" "Total", "ACİP", LUKoyl" "İmpeks", "Kitaypetrol" və s. kimi məşhur transmilli neft və qaz şirkətləri Qazaxıstanda ciddi investisiya qoymuşdur. Transmilli şirkətlər Qazaxıstanda 2010-2015-ci illərdə 170 mln. ton neft istehsal etməyi planlaşdırır ki, bunun da təxminən 100 milyon tonu xaricə ixrac edilməlidir.[186] Hazırda Qazaxıstanın zəngin "Tengiz" yataqlarının neft ehtiyatları dünyanın transmilli yanacaq şirkətlərinin diqqət mərkəzinə çevrilibdir. Bu yataqlarda 6 mlrd. ton neft məhsulunun olduğu proqnozlaşdırılır. Bundan başqa, bu ölkənin "Karaçaqanaka" yatağında 1.35 trln. kub metr qaz və 1.2 mlrd. neft və qaz kondensatı ehtiyatı vardır.[187]

[185] Нефтегазовая вертикаль., 2001, №11, с.103-106

[186] Шмелев Н.П. Страны Каспия и Закавказья – государства СНГ: перспективы устойчивого роста// Европа и Россия: проблемы южного направления. Средиземноморье – Черноморье – Каспий. Москва, 1999, с.583-500

[187] http://neftegaz.ru/en/tech_library/view/4450

Qazaxıstan Azərbaycanın ən yaxın müttəfiqi və strateji tərəfdaşı rolunda çıxış edir. Xəzərin digər sahilyanı ölkələrindən fərqli olaraq, Qazaxıstanın Azərbaycanla münasibətləri yalnız yüksələn xətt üzrə inkişaf edib və müttəfiqlik səviyyəsinə qalxıb. Hər iki ölkə həm Xəzərin hüquqi statusu, həm də enerji daşıyıcılarının hasilatına xarici kapitalın cəlb edilməsi və dünya bazarlarına çıxarılması məsələsində eyni və ya oxşar mövqedən çıxış edərək, bir-birinin maraqlarını qarşılıqlı şəkildə təmin edirlər.

Hazırda Azərbaycan, Rusiya və Qazaxıstanın Xəzərin dibinin bölünməsinə dair imzaladığı ikitərəfli sazişlər problemin həlli istiqamətində vacib amilə çevrilib. 2004-cü ilin mart ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana rəsmi səfəri zamanı Xəzərin statusu məsələsinin həllində məhz Bakı, Moskva və Astananın imzaladığı ikitərəfli sazişlərin əsas götürülməsini vacib sayıb. Azərbaycan-Qazaxıstan münasibətləri yalnız Xəzərin statusu ətrafındakı məsləhətləşmələrlə yekunlaşmır. Son illər iki ölkə arasında iqtisadi əlaqələr görünməmiş intensivliklə inkişaf edir. Qazaxıstan Prezidenti N.Nazarbayevin 2005-ci ildə Azərbaycana, Azərbaycan Prezidenti İlham Əliyevin isə 2007-ci il avqustun 7-8-də Qazaxıstana rəsmi səfəri dövlətlərarası çoxşaxəli əlaqələrin dərinləşməsində mühüm rol oynamışdır.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəməri və TRASEKA hər iki ölkənin əməkdaşlıq etdiyi transmilli layihələrdir. Bakı ilə Astana Avropa İttifaqının dəstəyi ilə TRASEKA layihəsi çərçivəsində Asiya-Qafqaz-Avropa nəqliyyat dəhlizi və Böyük İpək Yolunun bərpası layihələrində də əməkdaşlıq edirlər. Azərbaycanla Qazaxıstan arasında müxtəlif sahələri əhatə edən çoxsaylı dövlətlərarası və hökumətlərarası sazişlər imzalanmışdır. Onların arasında Xəzərin dibinin bölünməsinə dair ikitərəfli saziş, həmçinin Qazaxıstan prezidenti Nursultan Nazarbayevin 2005-ci il mayın 24-də Bakıya rəsmi səfəri zamanı imza-

lanan «Strateji əməkdaşlıq və tərəfdaşlıq haqda" Saziş xüsusi əhəmiyyət daşıyır. Bundan başqa, tərəflər arasında azad ticarət, turizm, neft-qaz maşınqayırması, terrorizmlə mübarizə və s. sahələrə dair sazişlər də imzalanmışdır.

Özbəkistan: Orta Asiyanın şimal-qərb və mərkəzi hissəsində yerləşən Özbəkistan regionun ən strateji əhəmiyyətli ölkəsi sayılır. 447,4 min kv.metr sahəsi olan Özbəkistan əhalisinin sayına görə (29 milyon nəfərdən çox) regionun ən böyük dövlətidir. Özbəkistanın regional liderliyini təmin edən digər amil ölkənin zəngin təbii ehtiyatlara və iqtisadi potensiala malik olmasıdır. Neft, qaz, qızıl və kömür ehtiyatları ilə zəngin olan Özbəkistanın əsas enerji ehtiyatı təbii qazdır. Hazırda çıxarılan qazın həcminə görə, dünyada 8-ci yerdə olan Özbəkistanın yataqlarında 2,44 trilyon kub metr qaz ehtiyatı var. Neft ehtiyatları isə 600 milyon bareldən artıqdır. Ümumilikdə ölkədə 51 neft, 27 qaz yatağı kəşf olunub. Asiyanın ən böyük qızıl mədəni Özbəkistanda yerləşir. Qızıl ehtiyatlarına görə respublika dünyada dördüncü, onun hasilatına görə isə – 7-ci yeri tutur, mis ehtiyatlarına görə – Özbəkistan dünyanın 10-cu ölkəsidir (hasilata görə - 11-ci), uran ehtiyatlarına görə isə 7- ci (hasilata görə, 11-ci) yeri tutur.

Özbəkistan Mərkəzi Asiyada aparıcı mövqelərə iddia etdiyini gizlətmir. Onun bu sahədə perspektivini şərtləndirən bir sıra vacib amillər vardır. Onlardan əsası ölkənin **iqtisadi potensial**ıdır. Bu gün Özbəkistan Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı və digər beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlıq edir. Özbəkistan regionun aparıcı nəqliyyat dəhlizidir: bu gün ölkədən 10 nəqliyyat dəhlizi keçir. Bundan başqa, Türkiyə, İran, Əfqanıstan, Azərbaycan və Mərkəzi Asiyanın 5 ölkəsinin daxil olduğu İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində Termez (Özbəkistan)-Qeran-Kandaqar (Əfqanıstan)-Çaman (Pakistan) dəmiryolu xəttinin Qerat-Kuşka (Türkmənistan)-Qerman-Zahidan(İran)-Astara (Azərbaycan)-Van

(Türkiyə) xəttinə birləşməsi nəzərdə tutulur. Özbəkistanın geosiyasi əhəmiyyətini şərtləndirən əsas faktorlardan biri onun **coğrafi durum**udur. Belə ki, Mərkəzi Asiyanın tam mərkəzində yerləşən Özbəkistanın Qazaxıstan, Qırğızıstan, Tacikistan, Əfqanıstan və Türkmənistanla sərhədi var. Həm də nəzərə almaq lazımdır ki, yalnız region deyil, ümumilikdə dünya üçün terror və narkotik qaçaqmalçılığı sahəsində ciddi problem yaradan Əfqanıstanın Özbəkistanla sərhədi dağlıq ərazidən yox, Amudəryadan keçir. Yəni, regionun digər ölkələrinə keçməyə çalışan Əfqanıstandakı terrorçu dəstələr və narkotik qaçaqmalçıları əsas diqqəti məhz keçidi daha asan olan Özbəkistan sərhədinə yönəldir. Bu isə o deməkdir ki, hər hansı təhlükənin bütövlükdə regiona yayılmasının qarşısını almaq üçün Özbəkistan-Əfqanıstan sərhədinə nəzarət strateji məsələdir. Bu gün Qərbin Özbəkistanda möhkəmlənmək cəhdinin əsasında dayanan səbəblərdən biri məhz budur.

Hazırda Özbəkistanın Avrasiya regionundakı mövqeyi qeyri-sabitdir və bu, ilk növbədə, ölkənin stabil olmayan xarici siyasi kursu ilə bağlıdır. Məsələ bundadır ki, ABŞ-ın regiondakı siyasətində Özbəkistana xüsusi yer ayrılıb. Ötən əsrin 90-cı illərinin sonundan inkişaf etməyə başlayan ABŞ-Özbəkistan əlaqələri 11 sentyabr terrorundan sonra strateji xarakter aldı. 2001-ci ildən isə Özbəkistan ərazisində ABŞ-ın hərbi-hava bazası dislokasiya olunmağa başladı. Politoloq Zbiqnev Bjezinski Öbəkistanı regionun ən strateji əhəmiyyətli dövləti hesab etdiyini bildirmişdi. Onun fikrincə, *«hazırda ABŞ-ın Mərkəzi Asiyada diqqətini cəlb edən iki əsas ölkə var. Bunlardan biri dinamik inkişaf edən Qazaxıstan, digəri isə regiondakı strateji önəm daşıyan Özbəkistandır».*

ABŞ-ın Özbəkistana olan marağının kökündə həm də İran faktoru dayanır. Məsələ bundadır ki, region ölkələri arasında İranla münasibətlərdə problemlə üzləşən yeganə dövlət Özbəkistandır. Bunun əsas səbəbi isə odur ki, rəsmi Daşkənd Teh-

ranın regionda güclənməsinin, avtomatik olaraq, tacik mədəniyyəti və millətçiliyinə də təkan verəcəyini düşünür. Rəsmi Daşkənd, İranın təsiri altında Buxara və Səmərqənddə yaşayan tacik azlıq arasında separatizm meyillərinin yarana biləcəyindən ehtiyatlanır. Yeri gəlmişkən, bu gün Tacikistan rəsmi şəkildə, hətta prezident səviyyəsində Buxara və Səmərqəndə iddialarını gizlətmir.

Bütün bunlar, Özbəkistan-İran münasibətlərində gizli gərginlik mənbəyi olaraq qalır. Bu baxımdan, Tehranın regiondakı mövqelərinin möhkəmlənməsinə qarşı olan Birləşmiş Ştatlar Daşkəndə bu istiqamətdə aktiv müttəfiq qismində baxır. Təsadüfi deyil ki, 1995-ci ildə ABŞ Konqresi İrana qarşı sanksiyalar tətbiq etdikdə, postsovet ölkələrindən bu sanksiyaları birmənalı şəkildə dəstəkləyən yeganə respublika məhz Özbəkistan olmuşdu. Özbəkistan müstəqillik qazandıqdan sonra xarici siyasətində həmişə ziddiyyətli mövqeyi, qeyri-ardıcıl geosiyasi fəaliyyəti və rolu, fəaliyyət prioritetləri və istiqamətləri ilə çoxlarını heyrətləndirən addımlar atır. Bu gün əksər analitiklər hesab edir ki, güc mərkəzlərinin Özbəkistandakı maraqlarına əsas təhlükələrdən biri rəsmi Daşkəndin ziddiyyətli xarici siyasət kursu yeritməsidir. Bu isə təbii ki, ilk növbədə ölkənin və regionun geosiyasi vəziyyətinə təsir göstərir. Özbəkistanın xarici siyasətinin qeyri-ardıcıl olması onun yuxarıda qeyd etdiyimiz üstünlüklərdən lazımınca yararlanmasına imkan vermir. Buna misal kimi, Özbəkistanın GUAM-a və bölgədəki güc mərkəzlərinə münasibətindəki ziddiyyətləri göstərmək olar. Məlum olduğu kimi, Özbəkistan GUAM-a qoşulsa da, bir müddət onun fəaliyyətində ümumiyyətlə iştirak etmədi və az sonra qurumu tərk etmək niyyətində olduğunu açıqladı. Amma, müəyyən müddətdən sonra bu ölkə yenidən GUAM-da fəallaşmağa başladı. Buna baxmayaraq Özbəkistan sonradan qurumu tərk etmək qərarı verdi.

Bununla paralel olaraq, 1999-cu ildən ABŞ-la hərbi-siyasi əlaqələri möhkəmlədən və 2001-ci ildən sonra Vaşinqtonun regiondakı müttəfiqi qismində qəbul edilən Özbəkistan, 2005-ci ildə xarici siyasi kursunda yenidən köklü dəyişiklik etdi. Artıq qeyd etdiyimiz kimi, bu gün Özbəkistan yenidən Rusiyanı strateji tərəfdaş kimi gördüyünü açıq bəyan edir. Özbəkistanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində fəallaşması, prezident İslam Kərimovun Moskva və Pekinə səfərləri, ŞƏT-in 2005-ci ildəki toplantısında regiondakı ABŞ hərbi qüvvələrinin çıxarılmasını tələb edən bəyanata imza atması və buna nail olması da bu dəyişikliyin görünən tərəfləridir. Özbəkistan hazırda iqtisadi sahədə də Rusiya və Çinə üstünlük verəcəyini nümayiş etdirir. Digər tərəfdən, Rusiyanın «Qazprom» və «Lukoyl» şirkətləri Özbəkistanda fəaliyyətini genişləndirib. Bütün bunlar istər regiondakı geosiyasi vəziyyətin, istərsə də Özbəkistanın bölgədəki güc mərkəzləri ilə münasibətlərinin ziddiyyətli olmasına gətirib çıxarır.

2005-ci ilin mayında Əndijan şəhərində baş vermiş qanlı hadisələrdən sonra ABŞ-ın tutduğu mövqe Özbəkistan rəhbərliyini öz xarici siyasi kursu və istiqamətini dəyişməyə vadar etdi. Nəticədə, Özbəkistan nümayişkarcasına GUÖAM-ı (Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan, Moldova) tərk etdi, ardınca ərazisindəki ABŞ hərbi bazasını ölkədən çıxardı, Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatına qoşuldu, daha sonra isə MDB Kollektiv Təhlükəsizlik Müqaviləsinə üzvlüyünü bərpa etdi. Bütün bunlar ABŞ-ın ümumilikdə Mərkəzi Asiyadakı mövqelərinə böyük zərbə oldu.

Özbəkistan rəhbərliyi hesab edir ki, regionun coğrafi baxımdan təcrid və qapalı olması bölgə üçün ciddi problemdir. Məhz buna görə, Daşkənd Mərkəzi Asiyanın "dezanklavizasiyası" üçün alternativ nəqliyyat-kommunikasiya dəhlizlərinin yaradılması istiqamətində aktivlik göstərir. Bu mənada, Hind okeanındakı dəniz kommunikasiyalarına yol açan trans-əfqan

marşrutu daha perspektivli görünür. Özbəkistan rəhbərliyi hesab edir ki, digər dövlətlərin iştirakı və donor-ölkələrin köməyi ilə bu layihənin reallaşdırılması yalnız region dövlətlərinin inkişafına deyil, həm də Mərkəzi Asiyanın geoiqtisadi xəritəsini köklü şəkildə dəyişməsinə təkan verərdi.

Azərbaycanın Özbəkistanla münasibətlərinə gəldikdə, digər ölkələrlə olduğu kimi, bu dövlətlə də dostluq münasibətləri yalnız Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonrakı dövrə təsadüf edir. Dövlət müstəqilliklərinin ilk illərində Özbəkistanla Azərbaycan arasındakı münasibətlər ciddi böhran keçirib. 1992-93-cü illərdə Azərbaycan rəhbərliyinin bu ölkəyə qarşı düşünülməmiş siyasət yeritməsi nəticəsində ikitərəfli münasibətlər tamamilə pozulmuş və hətta 1993-cü il oktyabrın 2-nə qədər ölkələrarası diplomatik əlaqələr belə qurulmamışdır. Yalnız 1993-cü ildən sonra Prezident Heydər Əliyevin Orta Asiya regionunun lideri adına iddialı olan Özbəkistanla münasibətləri bərpa etdi. 1996-cı ilin mayında Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun Azərbaycana rəsmi səfəri iki ölkə arasında münasibətlərin inkişafında mühüm əhəmiyyət daşıdı. İki ölkənin dövlət və hökumət rəhbərləri arasında aparılmış danışıqlar, imzalanmış sənədlər Azərbaycan-Özbəkistan əlaqələrini daha da möhkəmləndirmişdir.

Cəmi bir ildən sonra – 1997-ci ilin iyununda isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Özbəkistana rəsmi səfər etdi. Azərbaycanın Orta Asiya ölkələrindəki ilk səfirliyinin məhz Özbəkistanda açılması da bu ölkənin regionda oynadığı rolun göstəricisidir. Özbəkistan Prezidenti İ.Kərimov 1998-ci il sentyabrın 7-8-də TRASEKA proqramı çərçivəsində Bakıda keçirilmiş tarixi Böyük İpək Yolunun bərpasına həsr edilmiş Beynəlxalq Konfransda iştirak etmişdir.

2004-cü il martın 23-24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasına rəsmi səfər etmişdir. Səfər zamanı "Azərbaycan Respublikası ilə Özbəkis-

tan Respublikası arasında strateji əməkdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə" də daxil olmaqla, altı mühüm dövlətlərarası və hökumətlərarası sənəd imzalanmışdır. Azərbaycan Prezidentinin Daşkəndə rəsmi səfəri zamanı bir daha bəyan edilib ki, dövlətlərin regional və beynəlxalq məsələlərə dair mövqeləri üst-üstə düşür. Prezident İslam Kərimov Azərbaycanı Özbəkistanın Cənubi Qafqazda əsas tərəfdaşı adlandıraraq, Bakı ilə Daşkəndin geosiyasi vəziyyətində oxşarlıq olduğunu bildirib. Bu, hər iki ölkənin dünyanın aparıcı geosiyasi güc mərkəzlərinin diqqətində olmasından irəli gəlir. Özbəkistanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi də Azərbaycanı tam qane edir. Prezident İslam Kərimov birmənalı şəkildə bəyan edib ki, Özbəkistan problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində dinc yolla həllinə tərəfdardır, ATƏT və BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı indiyədək qəbul etdiyi qərarların yerinə yetirilməsini vacib sayır. Özbəkistan Prezidenti İslam Kərimovun 2008 və 2012-ci illərdə Azərbaycana, Azərbaycan Prezidenti İlham Əliyevin isə 2010-cu ildə Özbəkistana rəsmi səfəri dövlətlərarası münasibətlərin inkişafında yeni prespektivlər açmışdır.

Qeyd edək ki, ölkələrin birgə iştirak etdiyi beynəlxalq layihələr, o cümlədən TRASEKA çərçivəsində əməkdaşlıq da münasibətlərin inkişafına təkan verən mühüm faktordur. Tərəflər iki ölkə arasında ticarət dövriyyəsinin artması üçün Avropa-Qafqaz-Asiya marşrutunu vacib amil sayırlar. Ölkələr arasındakı iqtisadi əməkdaşlıqda əsas prioritet dəmiryolu nəqliyyatı, ərzaq məhsulları və kənd təsərrüfatına verilir.

Türkmənistan: Bu dövlət Orta Asiya və Xəzər bölgəsinin ziddiyyətli geosiyasi xarakteristikaya malik olan ölkələrindən biridir. SSRİ dağılandan sonra Türkmənistan özünü bölgənin bitərəf dövləti elan edərək, heç bir ölkə ilə siyasi, hərbi və digər geosiyasi bloklara qoşulmayacağını bəyan etdi. Türkmənistan çox zəngin neft, qaz yataqlarına və digər yanacaq-energeti-

ka resurslarına malik olduğu üçün onun daxili həyatda aparılan dövlət siyasəti müəyyən qədər beynəlxalq aləmin ciddi müqaviməti ilə rastlaşmadı. Düzdür, həm Qərb ölkələri, həm regionun Rusiya, Çin, Türkiyə, İran kimi dövlətləri Türkmənistanda geoiqtisadi maraqlarını reallaşdırmaq uğrunda mübarizəyə başladılar. Q. Berdiməhəmmədov hakimiyyətə gələndən sonra, Türkmənistan özünün təkcə neft və qaz ehtiyatlarından deyil, digər geosiyasi və geoməkan üstünlüklərindən istifadə etmək məqsədi ilə bəzi tədbirlər həyata keçirməyə başladı. Məsələn, Türkmənistan İran, Türkiyə, Rusiya, ÇİN, Pakistan və ABŞ-la transmilli layihələr reallaşdırmaqda maraqlıdır. Qeyd edək ki, Türkmənistanın proqnozlaşdırılan qaz ehtiyatlarının təxminən 11 trilyon kub metr, neft ehtiyatlarının isə 5,5 milyard ton olduğu göstərilir. Bəzi proqnozlara görə, Türkmənistanın qaz ehtiyatları bütün dünyada mövcud olan qaz ehtiyatının 30%-ni təşkil edir. Türkmənistanın iqtisadi inkişafının təmin olunmasında "Neft-qaz sənayesinin 2020-ci ilə qədərki inkişafı haqqında" Dövlət Proqramının mühüm əhəmiyyəti vardır.[188]

Son illər Türkmənistan Xəzərin ona məxsus sektorunun enerji potensialından istifadə etmək məqsədilə müəyyən addımlar atır. Xarici investisiyaları cəlb etmək üçün Türkmənistan bir neçə dəfə hətta mübahisəli yataqlarla bağlı tender elan etmiş, lakin Azərbaycanın müdaxiləsindən sonra bu tenderləri dayandırmağa məcbur olmuşdur. Buna baxmayaraq, Türkmənistan Xəzərin mübahisəli yataqlarında neft-qaz istehsal etmək fikrindən hələ də daşınmamışdır. Xarici investisiyaları ölkəyə cəlb etmək üçün Türkmənistan iqtisadiyyatının liberallaşdırılması istiqamətində yeni qanunlar ("Təbii ehtiyatlar haqqında", "Xarici investisiyalar haqqında", "İnvestisiya fəaliyyəti haqqında" və s. qanunlar) qəbul edilib.[189] Türkmənistan qaz və

[188] "Нефть и капитал", 2000 № 2 с.27-56.
[189] "Новости Туркменистана", 2000, 3 января

neftini xarici bazarlara hələ ki, yalnız Rusiya marşrutu ilə ixrac edir. Lakin, yaxın illərdə türkmən qazının böyük hissəsinin İran və Çinə idxal ediləcəyi də planlaşdırılır.

Hazırda Xəzər dənizinin hüquqi statusu və milli sektorlarının sərhədləri ilə bağlı Türkmənistanın nümayiş etdirdiyi mövqe onun Xəzər bölgəsi ölkələri ilə münasibətlərində müəyyən anlaşılmazlıq yaradır. Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və xarici bazarlara çıxarılması məsələsində də Türkmənistanın qeyri-ardıcıl mövqe tutması bu ölkənin tərəfdaş imicinə ciddi xələl gətirir. Azərbaycan bütün məsələlər üzrə Türkmənistanla konstruktiv dialoq aparmağa, anlaşılmazlıqları aradan qaldırmağa, dostluq və tərəfdaşlıq münasibətlərinə xələl gətirən sərt addımlardan çəkinməyə dəfələrlə cəhd göstərsə də, onun bu səylərinə qarşı tərəfdən adekvat münasibət göstərilməmişdir. Xəzər dənizində ən yaxın qonşu hesab olunan, milli, regional və transmilli layihələrdə maraqları Azərbaycanla üst-üstə düşən Türkmənistanla münasibətlərə rəsmi Bakı çox ciddi maraq göstərir və yəqin ki, yaxın illərdə bu istiqamət xarici siyasətdə prioritet olaraq qalacaqdır.

Azərbaycanla Türkmənistan arasında diplomatik münasibətlər 1992-ci il iyunun 9-da yaradılmışdır. 1994-cü ildə Türkmənistan Bakıda, 1998-ci ildə isə Azərbaycan Aşqabadda öz səfirliyini açmışdır. Lakin 1998-ci ildə Türkmənistan maliyyə problemlərini əsas gətirərək, Bakıdakı səfirliyinin fəaliyyətini müvəqqəti olaraq dayandırmışdır. Ötən dövrdə iki ölkə arasında çoxsaylı rəsmi səfərlər həyata keçirilmiş və onların çoxsaylı hökumətlərarası və müəssisələrarası hüquqi-normativ sənədlər imzalanmışdır.

İkitərəfli münasibətlərin inkişafında dövlət rəhbərlərinin, xüsusilə prezidentlərin qarşılıqlı səfərləri mühüm rol oynamışdır. Bu səfərlər sırasında Prezident Heydər Əliyevin 1994-cü ilin mayında İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Aşqabad-

da keçirilən Zirvə toplantısında, 1994-cü il oktyabrın 26-27-də Türkmənistanın müstəqillik günü münasibəti ilə keçirilən tədbirlərdə və 2002-ci ilin aprelində Xəzəryanı Dövlətlərin Sammitində iştirakını xüsusi qeyd etmək lazımdır. Bundan başqa, 1996-cı il martın 18-19-da Türkmənistan Prezidenti S.Niyazovun Bakıya rəsmi səfərini və iki ölkə arasındakı münasibətlərin inkişafına dair əldə olunmuş razılaşmaları yüksək qiymətləndirmək olar. Həmin danışıqların yekunu olaraq Azərbaycan və Türkmənistan arasında "Dostluq və əməkdaşlıq haqqında" müqavilə imzalanmışdır. Azərbaycan-Türkmənistan ikitərəfli əlaqələrinin inkişafında 2000-ci il aprelin 8-9-da Türkdilli Dövlət Başçılarının Zirvə görüşündə və "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubiley tədbirlərində iştirak etmək üçün Türkmənistan Məclisinin sədri S.Muradovun başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfərini və Azərbaycan rəhbərləri ilə keçirdiyi görüşləri də əhəmiyyətli hesab etmək olar. 2008-ci il mayın 19-20-də Türkmənistan Prezidenti Q.Berdımuxamedovun Azərbaycana, həmin il il noyabrın 28-29-da isə Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənstana rəsmi səfər etməsi iki dövlət arasında qarşılıqlı münasibətlərin inkişafında mühüm əhəmiyyət daşıyır. Ötən dövrdə iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi, o cümlədən Xəzər dənizinin statusu məsələsinin həlli ilə bağlı xarici işlər nazirlərinin və digər müvafiq dövlət nümayəndələrinin çoxsaylı görüşləri keçirilmişdir.

Qırğızıstan: Dənizə çıxışı olmayan Qırğızıstanın qonşuları şimalda Qazaxıstan, qərbdə Özbəkistan, cənub-qərbdə Tacikistan və cənub-şərqdə Çin Xalq Respublikasıdır. Tanrı dağları ölkənin 80%-ini əhatə etdiyi üçün ölkəni bəzən "Mərkəzi Asiyanın İsveçrəsi" adlandırırlar. Qırğızıstan Respubliikası Mərkəzi Asiyada, okeanlardan uzaq, materik daxilində yüksək dağlıq regionda – Tyanşan, Talas, Qırğız, Türküstan dağlarında

yerləşir. Qırğızıstanda əlvan metallar – mis, molibden, dəmir filizi, qızıl, civə, qurğuşun yataqları, dağarası çökəkliklərdə isə neft və kömür ehtiyatları mövcuddur. Qırğızıstanda əmək ehtiyatlarının sürətlə artması əhalinin işlə təmin edilməsini çətinləşdirir.

Qırğızıstan Mərkəzi Asiyada Ümumdünya Ticarət Təşkilatına daxil olan yeganə ölkədir. Burada istehsal olunan əlvan metalların 40%-dən çoxu ixrac olunur. Qırğızıstanın Qazaxıstan, Tacikistan, Özbəkistan, ABŞ, Türkiyə, AFR, Çin, Rusiya, İsveçrə və s. dövlətlərlə ticarət əlaqələri vardır. Bu ölkə bir sıra beynəlxalq və regional təşkilatların – BMT, MDB, Avrasiya İqtisadi Birliyi, Mərkəzi Asiya Əməkdaşlığı Təşkilatı və s. üzvüdür.

Orta Asiya regionunda Azərbaycanın Qırğızıstanla dövlətlərarası ikitərəfli əlaqələri nisbətən ardıcıl inkişaf yolu keçmişdir. İki dövlət arasında diplomatik əlaqələr 1993-cü il yanvarın 19-da qurulmuşdur. 1995-ci ilin avqustunda Azərbaycan Prezidenti Heydər Əliyev Qırğızıstanda Türkdilli Dövlət Başçılarının üçüncü sammitində iştirak etmiş, Qırğızıstan Prezidenti Əsgər Akayev isə 1997, 1998 və 2000-ci illərdə Azərbaycanda səfərdə olmuşdur. Dövlət başçılarının səfərləri çərçivəsində qarşılıqlı maraq kəsb edən ikitərəfli, regional və beynəlxalq məsələlər müzakirə olunmuş, 14 sənəd, o cümlədən "Azərbaycan Respublikası ilə Qırğızıstan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə" imzalanmışdır. Ötən illər ərzində ikitərəfli əlaqələrin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. 2009-cu il 2 oktyabrın 2-də Qırğızıstan Prezidenti K.Bakiyev Naxçıvan şəhərində keçirilən Türkdilli ölkələrin Dövlət Başçılarının IX zirvə görüşündə iştirak etmiş, 2012-ci il mart 30-31-də isə Azərbaycanda rəsmi səfərdə olmuşdur. Hazırda Azərbaycan və Qırğızıstan arasındakı dostluq və tərəfdaşlıq münasibətləri sabit məcrada inkişaf edir.

Azərbaycan Respublikası ilə Qırğızıstan Respublikası arasında 34 sənəd imzalanmışdır.[190]

Tacikistan: SSRİ dağıldıqdan sonra dəhşətli vətəndaş müharibəsi ilə üzləşmiş Tacikistan postsovet dövrünü ən ağır keçirən respublikalardandır. Tacikistan hidroresurslarla zəngin dövlətdir və yalnız bir faktı söyləmək kifayətdir ki, bütün Orta Asiya regionundakı su və hidroenerji resurslarının 70 faizi məhz Tacikistanın payına düşür. Bu gün bu ölkədə 6 hidroelektrik stansiyası fəaliyyət göstərir. Bundan başqa, Tacikistan aparıcı pambıqçılıq regionudur və MDB məkanında istehsal olunan nazik lifli pambığın 43 faizi Tacikistanda istehsal edilir.

Tacikistanın Əfqanıstan, Pakistan, Çin kimi dövlətlərlə həmsərhəd olması onun geosiyasi əhəmiyyətini artırır. Belarus olduğu kimi, Tacikistan da Rusiyanın geostrateji maraqları baxımından vacib mövqeyə malikdir və bu da təsadüfi deyil. Belə ki, bu gün Rusiyanın İran və Hindistana çıxışı məhz Tacikistan vasitəsi ilə mümkündür. Tacikistanın coğrafi mövqeyi dünyanın aparıcı geosiyasi oyunçularının nəzərini ona yönəldir. Tacikistan çox nadir postsovet ölkələrindəndir ki, burada böyük dövlətlərin maraqları baxımından Rusiyanın mövqelərinə heç bir ciddi təhlükə yoxdur. Hazırda minlərlə tacik işləmək üçün İrana və yaxud Çinə deyil, əsasən Rusiyaya üz tutur. Eyni zamanda, Tacikistan üzləşdiyi əsas problemlərin (radikal islamçılıq, narkotik tranziti və s.) həllində bir qayda olaraq Rusiyaya arxalanır.

Bununla belə, Tacikistanın Mərkəzi Asiyada yeganə irandilli dövlət olması Rusiyanın xarici siyasətində daim diqqət mərkəzində saxlanılır. Əsas səbəb isə İranın Tacikistanda möhkəmlənməsi üçün apara biləcəyi siyasətlə bağlıdır. İstənilən halda, Tacikistan birmənalı olaraq Rusiyaya meyilli siyasət

[190] http://www. mfa. gov. az

yeridir, onu dəyişmək haqqında düşünmür və bunun aşağıdakı səbəbləri vardır:

- radikal islam və narkotik tranziti təhlükəsinə qarşı mübarizədə Tacikistan yalnız Rusiyanın dəstəyinə ümid edir;
- vətəndaş müharibəsindən sonrakı dövrdə də Tacikistanda yeni münaqişə təhlükəsi daim realdır. Ölkə daxilində və xaricində hakimiyyəti devirmək və dini dövlət qurmaq uğrunda mübarizə aparan çoxsaylı dairələrin olduğunu nəzərə alsaq, rəsmi Tacikistan Rusiyanın dəstəyi olmadan təkbaşına buna qarşı davam gətirə bilmir;
- Rusiyada mövcud olan çoxsaylı tacik diasporu ölkənin xarici siyasətinə kifayət qədər təsir göstərmək iqtidarındadır və s.

Unutmaq olmaz ki, Tacikistandakı vətəndaş müharibəsinin dayandırılmasında əsas rolu da məhz Rusiya oynayıb. 1992-ci ilin noyabrında Tacikistanın ölkədə yaranmış problemin həlli üçün kollektiv sülhməramlı qüvvələrin yaradılması ilə bağlı xahişinə Rusiya müsbət cavab verdi. O vaxt Rusiya ilə yanaşı, Qazaxıstan, Qırğızıstan və Özbəkistan da bu qüvvələrin yaradılmasında iştirak etdi. Amma təbii ki, bu prosesin təşkilatçısı və rəhbəri məhz Rusiya idi.

Tacikistanın geosiyasi prioritetləri sırasında Rusiya ilə hərbi ittifaq xüsusi yer tutur. Bu sahədə ilk sənədi tərəflər hələ 1993-cü il mayın 25-də imzalamışlar. Həmin dövrdə imzalanmış dostluq və qarşılıqlı yardım haqqında sənəd çərçivəsində Rusiyanın hərbi bazalarının Tacikistanda yerləşdirilməsi faktiki olaraq rəsmiləşdirildi. Tacikistan regionda yeganə dövlətdir ki, hələ də NATO ilə "Sülh naminə tərəfdaşlıq" proqramını imzalamamışdır. Tacikistan rəhbərliyinin mövqeyinə görə, hazırda ölkənin bu proqrama ehtiyacı yoxdur.

1994-cü ildə Tacikistanda hökumət nümayəndələri ilə silahlı müxalifət arasında danışıqlar prosesinin Moskvada başlaması da Rusiyanın bu ölkəyə təsir imkanlarının genişliyini göstərir. Bütün bunlara görə, Tacikistan regionda Rusiyanın ən sadiq müttəfiqi rolunda çıxış edir. Geosiyasi baxımdan Rusiya və Tacikistanın prioritetlərini müəyyənləşdirən sənəd 1998-ci il oktyabrın 12-də Daşkənddə imzalanıb. Rusiya, Özbəkistan və Tacikistan arasında imzalanmış və islam ekstremizminə qarşı birgə mübarizəni nəzərdə tutan Bəyannamədə tərəflər bu problemin həlli üçün hərtərəfli əməkdaşlığa dair öhdəliklər götürüblər. 1999-cu ilin aprelində Prezident E.Rəhmanun Moskvaya səfəri zamanı iki ölkə arasında "XXI əsrdə müttəfiqlik haqqında" Müqavilə, Tacikistan ərazisindəki Rusiya hərbi bazasının statusu və şərtləri haqqında sənədlər imzalanmışdır.

Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında diplomatik əlaqələr 1992-ci il mayın 29-da yaradılmışdır. Bu ölkənin rəhbərliyi ilə Azərbaycanın dövlət və hökumət başçıları əsasən MDB, regional və beynəlxalq tədbirlər çərçivəsində keçirilən toplantılarda görüşmüşlər. Belə görüşlərdən biri 2001-ci il avqust ayında Soçi şəhərində MDB ölkələrinin dövlət başçılarının qeyri-rəsmi toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon arasında keçirilmişdir. Görüşdə ikitərəfli əməkdaşlığın perspektivləri və maraq doğuran digər məsələlər müzakirə edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev 2007-ci il martın 15-16-da Tacikstanda rəsmi, həmin il oktyabrın 4-5-də isə MDB Dövlət Başçıları Şurasının toplantısında iştirak etmək üçün işgüzar səfərdə olmuşdur. Tacikstan Prezident Emoməli Rəhmonun isə 2012-ci ildə Azərbaycana rəsmi və işgüzar səfər etmişdir.

Hazırda iki ölkə arasında əlaqələr MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO), İslam Konfransı təşkilatı və s. beynəlxalq və regional təşkilatlar çərçivəsində davam etdirilir.

Ölkələrin xarici işlər, müdafiə, daxili işlər, dəmir yol nazirləri və başqa nümayəndələri müxtəlif toplantılarda qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmişlər. Buna baxmayaraq, Azərbaycan-Tacikistan münasibətləri, hələlik arzuolunan səviyyədə deyil. Təsadüfi deyil ki, Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında yalnız iki (iki ölkənin milli təhlükəsizlik nazirlikləri arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqda saziş və DİN-lər arasında analoji saziş) sənəd imzalanmışdır. 2000, 2001 və 2002-ci illərdə ardıcıl olaraq üç dəfə BMT Baş Məclisinin 55, 56 və 57-ci sessiyalarında "BMT ilə ATƏT arasında əməkdaşlıq" haqqında Qətnamə layihəsində Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasına mənsubluğunu təsdiqləyən düzəlişinə səsvermədə əvvəlki illərdən fərqli olaraq, Tacikistan Respublikası iştirak etməmişdir.

Qeyd edək ki, Tacikistan Ermənistanla geniş ikitərəfli əlaqələrə malikdir. Hətta 2003-cü ilin noyabrında Tacikistan Prezidenti E.Rəhmonun Ermənistan Respublikasına rəsmi səfəri həyata keçirilmişdir. İki ölkənin prezidentləri arasında keçirilən görüş zamanı hər iki dövlətin üst-üstə düşən mövqeləri haqqında bəyanat səsləndirilmişdir. Görüşdən sonra keçirilən mətbuat konfransında iki ölkə başçıları Ermənistan və Tacikistan arasında ciddi dialoqun 2003-cü ilin aprel ayında Prezident R.Koçaryanın Düşənbəyə rəsmi səfəri zamanı başladığını vurğulamışlar. Səfər zamanı Prezident E.Rəhmon 1915-ci ildə Osmanlı dövlətində "soyqırıma" məruz qalmış ermənilərin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək əklil qoymuş, xatirə ağacı əkmiş, "genosid" muzeyini gəzmiş və fəxri qonaqlar kitabını imzalamışdır. Bütün bunlar göstərir ki, Orta Asiyanın yeganə qeyri-türkdilli müsəlman ölkəsi olan Tacikistan Azərbaycandan fərqli olaraq, Ermənistanla münasibətlərə daha çox əhəmiyyət verir. Göründüyü kimi, bu, həmin dövlətin Ermənistanın Cənubi Qafqazda olduğu kimi, Orta Asiyada da Rusiyanın əsas "forpostu" rolunu icra etməsi, xarici siyasətdə daha

çox Moskvanın mövqeyinə uyğun olaraq hərəkət etməsi ilə bağlıdır. Azərbaycanla Tacikistan arasında ikitərəfli əlaqələrin qurulması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibət baxımından bu ölkənin bitərəfləşdirilməsi, beynəlxalq tədbirlərdə onun səsinin və dəstəyinin qazanılması Azərbaycanın xarici siyasətinin həll edilməmiş problemlərindən biri kimi qiymətləndirilə bilər.

IV FƏSİL
QARA DƏNİZ HÖVZƏSİ VƏ CƏNUBİ QAFQAZIN REGİONAL GEOSİYASİ XARAKTERİSTİKASI VƏ TRANSMİLLİ MARAQLAR SİSTEMİ

Avrasiyanın digər "strateji planetar məkan" kodu daşıyan və mühüm geosiyasi əhəmiyyətə malik hissəsi Qərb və Şərq əlaqələrində körpü rolunu oynayan Qara dəniz hövzəsi və birlikdə Cənubi Qafqazdır. Bölgənin Xəzər hövzəsi və Orta Asiya tərəfi Avropa və Asiya nəqliyyat-kommunikasiya dəhlizinin Asiya hissəsini, Qara dəniz hövzəsi və Cənubi Qafqaz tərəfi isə bir çox həmsərhəd bölgə ölkələrinin əraziləri ilə birgə (Türkiyə, Rumıniya, Bolqarıstan, Ukrayna - Qara dəniz və quru məkanları vasitəsilə; İran quru və Fars körfəzi boyunca; Cənubi Qafqaz respublikaları - Azərbaycan, Gürcüstan və Ermənistan aralıq keçidləri, quru və dəniz kommunikasiyaları vasitəsilə) onun Avropa hissəsini təşkil edir.

Avrasiyanın Avropa hissəsinin və Qafqazın ən böyük dövləti Rusiyadır. Rusiyadan başqa bu bölgədə Türkiyə, Ukrayna, Rumıniya, Bolqarıstan, Azərbaycan, Gürcüstan və Ermənistan yerləşir. Hövzə ölkələrindən Polşa, Rumıniya, Bolqarıstan və Türkiyə Şərqi Avropa dövlətləri çərçivəsində bütün parametrlər üzrə Qərbin iqtisadi, siyasi və hərbi təhlükəsizlik sisteminə inteqrasiya olunmuş hesab edilir.

Beləliklə, göründüyü kimi, Orta Asiya və Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz həm Asiya, Avropa, ABŞ və Rusiyanın həyati maraqlarının əks olunduğu əhəmiyyətli geosiyasi regiondur. Burada müxtəlif regional və transmilli beynəl-

xalq maraqların kəsişməsi təbii və real xarakter daşıyır. ABŞ politoloqu Z.Bjezinskinin ifadə etdiyi kimi, Orta Asiya və Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz Kontinental Avrasiya bölgəsinin ən önəmli məkanı hesab olunur və "dünya siyasətinin həll edildiyi böyük şahmat lövhəsini" xatırladır.[191]

XƏZƏR-QARA DƏNİZ HÖVZƏSİ VƏ QAFQAZ REGİONU



Xəritə 10.

Qara dəniz hövzəsinin geosiyasi maraqlar sistemində keçmiş sovet respublikalarından ilk növbədə Ukrayna, Gürcüstan, Belarus və Moldovanın özünməxsus yeri və rolu mövcuddur. Bu dövlətlərin hər biri yerləşdiyi geosiyasi məkanın xarakterindən, məxsusi milli maraqlarından və s. amillərdən çıxış edərək öz xarici siyasətlərinin prioritetlərini müəyyənləşdirir və həyata keçirir, region və dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli geosiyasi təmaslar qururlar. Mütəxəssislərin fikrinə görə, adı çəkilən hər bir ölkə Azərbaycanla ikitərəfli və çoxtərəfli

[191]Бжезинский З.К. Великая шахматная доска. Господства Америки и его геостратегические императивы. М., 1998, с.232-234.

əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsində ciddi maraq nümayiş etdirir. Ayrı-ayrılıqda bu dövlətlərin hər birinin həm, ümumi regional və beynəlxalq geosiyasi maraqları, həm də, həmin maraqların təmin olunması istiqamətində həyata keçirdikləri siyasətin özünəməxsus xüsusiyyətləri mövcuddur.

§ 4.1. Qara dəniz hövzəsinin beynəlxalq və regional maraqlar sistemində Ukraynanın geosiyasi və hərbi-geostrateji mövqeləri: Azərbaycan-Ukrayna münasibətlərinin xarakteristikası

2014-cü il hadisələrinə qədər Rusiyadan sonra postsovet məkanınının və Xəzər-Qara dəniz hövzəsinin əsas regional geosiyasi oyunçuları- "liderləri" sırasında mütəxəssislər, bir qayda olaraq Ukraynanın adını çəkirdilər. Lakin onlar bu dövlətin "regional lider" statusuna ciddi mane olan obyektiv və subyektiv səbəbləri də qeyd edirdilər və belə səbəblərdən ən əsası kimi, Rusiyadan enerji asılılığını göstərirdilər.

Son on ildə Ukrayna Cənubi Qafqazda özünün geosiyasi və geostrateji mövqeyini əsasən Gürcüstanın vasitəsilə reallaşdırmağa çalışmışdır. İki ölkə prezidentinin 2005-ci ilin əvvəlində Ukrayna ilə Gürcüstanın Avropaya inteqrasiyasına dair Karpat bəyannaməsini imzalaması ilə Gürcüstan regionda rəsmi Kiyevin "geosiyasi və geostrateji maraqlarının" təmin olunmasının mühüm tərəfdarlarından birinə çevrilmişdi.

Ukraynanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda həyata keçirdiyi regional geosiyasətin, xüsusən də geoiqtisadiyyatının əsas məqsədlərindən biri özünün getdikcə daha qabarıq şəkildə Rusiyadan asılı vəziyyətə düşən yanacaq-enerji tələbatı üçün alternativ mənbələrin tapılması və Ukraynanın

sənaye məhsulları üçün bu bazarın qoruyub saxlamaqdan ibarət olmuşdur.

Bəzi analitiklər Ukraynanın yeni regional siyasətini- "tədricən Rusiyadan uzaqlaşmaqla, Qərb inteqrasiya kursunu gücləndirmək" xəttini əsasən keçmiş prezident Viktor Yuşşenkonun hakimiyyəti illəri ilə əlaqələndirsə də, bu, əslində, belə deyil. Məsələ ondadır ki, hələ V. Yuşenkoya qədərki prezident Leonid Kuçma Ukraynanın gələcək strateji kursunun, ilk növbədə, regionda Avropa İttifaqına. Təhlükəsizlik sahəsində isə NATO sisteminə inteqrasiyadan ibarət olduğunu bəyan etmişdir. 90-cı illərin ortalarında ABŞ və Avropa Birliyinin Ukraynaya öz iqtisadi və maliyyə yardımlarını artırmasından sonra, rəsmi Kiyev Rusiya ilə münasibətləri tədricən təftiş etməyə başlayır. Rusiya Avropaya satdığı neftin və qazın qiymətini qaldırdıqca, Ukrayna da müvafiq olaraq bu ölkənin onun ərazisindən keçən enerji daşıyıcılarının tranzit qiymətini artırmağa başladı. Mütəxəssislərin hesablaşmalarına görə, 1994-cü ildə ölkə ərazisindən keçən hər 1 ton Rusiya neftinə görə 3,75 dollar tranzit haqqı alan Ukrayna, 1995-ci ildə bu rəqəmi 4,53 dollara, 1996-cı ildənsə 5,2 dollara qaldırmışdı. Bütün bunlar Ukraynada Qərbə istiqamətlənmək tendensiyasının hələ 10 il əvvəl başladığını göstərir.

Hazırda həm ABŞ və AB, həm də Rusiya politoloqları ayrı-ayrılıqda Ukrayna ilə məhz onların ölkəsinin milli maraqlarının üst-üstə düşdüyünü iddia edir və onunla "geosiyasi, geoiqtisadi və hərbi-geostrateji blokda" olmağın zəruriyyətini əsaslandırmağa çalışırlar. Məsələn, ABŞ politoloqu Z.Bjezinskinin "Avrasiya Doktrina"sına görə, Rusiyanın fövqəldövlət statusunu itirərək, adi bir dövlətə çevrilməsi prosesinin əsasında Ukrayna dayanır. Onun fikrinə görə, Rusiyanın hazırda fövqəldövlət statusunu bərpa etməsinə mane olmağın ən optimal yolu Ukraynanın Moskvadan asılılığını aradan qaldırmaq və Kiyevin timsalında Rusiyaya alternativ geostrateji mərkəz

formalaşdırmaqdır. Z.Bjezinski öz doktrinasında Ukraynanın ABŞ üçün geosiyasi əhəmiyyətini belə şərh edir: «Müstəqil Ukraynanın yaranması XX əsrin üç vacib geosiyasi hadisəsindən biridir. Çünki müstəqil Ukrayna Rusiya imperiyasının sonu deməkdir».[192]

Göründüyü kimi, SSRİ-nin süqutundan sonra Avropada ərazisinə görə ikinci, əhalisinin sayına görə beşinci olan Ukraynanın müstəqillik qazanması nəinki təkcə Avrasiya regionunda ümumi geosiyasi situasiyaya həlledici təsir göstərdi, bu hadisə həm də Rusiya ilə Qərb arasındakı gələcək regional qarşıdurmaların əsas hədəflərindən birinə çevrildi. Amerika politoloqu Barri Pouzenin qeyd etdiyi kimi, "orta miqyaslı müstəqil dövlət statusuna iddia etmək üçün Ukrayna kifayət qədər əhaliyə, sənaye potensialı və xammal resurslarına malikdir".[193]

ABŞ-ın digər tanınmış ictimai xadimi Henri Kissincer də bildirmişdir ki, Ukraynanın ABŞ üçün geosiyasi rolu çox önəmlidir. Onun fikrincə, Rusiya daxili islahatlara start versə də, onun rəhbərlərinin öz qonşularına yönəlik ekspansionist ənənələrdən əl çəkdiyinə ciddi şübhələr hələ də qalır.[194]

Ukraynanın Qərb üçün əhəmiyyətini sübut etmək məqsədi ilə, hətta ABŞ-ın Strateji və Beynəlxalq Təhqiqatlar Mərkəzi Birləşmiş Ştatların Administrasiyasına Ukraynaya dair xüsusi tövsiyələr hazırlamışdır. Məlumata görə, bu sənədin hazırlanmasında ABŞ-ın 3 sabiq dövlət katibi – Madlen Olbrayt, Zbiqnev Bjezinski və Henri Kissincer iştirak ediblər. Layihənin rəhbəri isə Mərkəzin Rusiya və Avrasiyanın tədqiqi proqramının direktoru Selesta Uollander olubdur. Sənəddə göstərilir ki, Ukraynanın bazar iqtisadiyyatlı demokratik dövlətə çevrilməsi

[192] Бжезинский З.К. Великая шахматная доска. Господства Америки и его геостратегические императивы, göstərilən əsəri, c. 98.
[193] Вах: Радио «Голос Америки», «Украина во главе ОБСЕ: вызовы и геополитические головоломки», 27 ноября 2012
[194] Киссинджер Г.А. Дипломатия. М., 1997, с. 748.

və siyasi-iqtisadi baxımdan Avropaya istiqamətlənməsi ABŞ-ın xarici siyasətinin strateji prioriteti olmalıdır. Ukraynanın Avropa, Qara Dəniz və Qafqaz regionunun qovuşduğu məkanda yerləşən böyük dövlət olduğunu nəzərə alan sənəd müəllifləri həmçinin qeyd ediblər ki, bu ölkə Avropa ilə Asiya arasında potensial ticarət dəhlizidir.

UKRAYNANIN QARA DƏNİZ HÖVZƏSİNDƏKİ COĞRAFİ VƏ GEOSİYASİ MÖVQEYİ



Xəritə 11.

ABŞ-ın Avrasiyada yeni nəqliyyat dəhlizlərinin formalaşdırılması və idarə edilməsi planında da, mütəxəssislərin fikrinə görə, Ukraynaya xüsusi yer ayrılıb.

Bundan başqa, NATO-nun «Strateji Konsepsiyası»nın 37-ci maddəsində deyilir ki, Ukrayna Avroatlantik regionda təhlükəsizlik baxımından mühüm rol oynayır, sabitliyin və ümumdemokratik dəyərlərin qorunması baxımından vacib tərəfdaşdır.

Tanınmış Almaniya politoloqu Karl Qrobe isə Ukraynanın Rusiya və Qərblə tərəfdaşlıq münasibətlərinə fərqli rakur-

sadan qiymət verməyə çalışır. O hesab edir ki, Qərbyönümlü Ukraynanın mövcudluğu Rusiya üçün də əlverişli ola bilər. Belə ki, «Qərbə istiqamətlənmiş Ukrayna keçmiş SSRİ-nin «problemli» regionları üçün də sabitlik mənbəyinə çevrilə bilər. Bu isə Rusiya üçün də əlverişlidir».

Z. Bjezinskinin Ukrayna haqqındakı fikirlərini Rusiya politoloqları da bölüşür və Ukraynanın bundan sonra da öz ölkələrinin təsiri altında qalmasını regionda strateji əhəmiyyət daşıyan bir ehtiyac kimi- "Rusiyanın həyati əhəmiyyət kəsb edən geosiyasi, geoiqtisadi və hərbi-geostrateji vəzifəsi" olmasını öz arqumentləri ilə əsaslandırırlar. Z. Bjezinski kimi rusiyalı politoloqlar da öz nöqteyi nəzərlərindən çıxış edərək Ukraynanın postsovet məkanındakı geosiyasi mövqelərini lazımi səviyyədə dəyərləndirərək, yeni geosiyasi şəraitdə onun Moskva üçün də, "Vaşinqton üçün olduğu kimi həyati əhəmiyyət kəsb etdiyini" iddia edir və Ukraynanı Qərbin və ABŞ-ın yanında deyil, məhz Rusiyanın yanında "olması ehtiyacını" heç də qərb politoloqlarından pis əsaslandırmırlar.[195]

Rusiyalı mütəxəssislərin fikrinə görə, məhz Z.Bjezinski doktrinasının tələblərinə uyğun olaraq, 1994-95-ci illərdən etibarən ABŞ və AB-nın Ukraynaya iqtisadi-maliyyə və həbigeostrateji yardımlarının həcmi ilbəil artmaqdadır. Hazırda Ukrayna İsrail, Misir və bir sıra digər ölkələrlə yanaşı, ABŞ-dan ən çox maliyyə-texniki yardım alan dövlətlər sırasındadır.

SSRİ dağılandan sona Rusiyanın xarici siyasətində Ukrayna ilə bağlı məsələlərə həmişə xüsusi diqqət yetirilmişdir. Rusiya uzun illər təsir dairəsi altında saxladığı keçmiş SSRİ respublikaları ilə yaxın münasibətlərini qorumaq niyyətini, xüsusən Xəzər- Qara dəniz hövzələrindəki ənənəvi üstün geosiyasi mövqelərini kiməsə güzəştə getməmək fikrini daim açıq

[195] Bax: Дугин А.Г. Основы геополитики. Геополитическое будущее России. Москва, 2000. 804.с.

formada bəyan etmişdir. Çünki,Ukrayna və Belarus Rusiyanın «yaxın xarici» ölkələrlə bağlı xarici siyasət strategiyasının formalaşdırılmasında ən əsas mexanizmlərdəndir. Bu ölkələrlə müttəfiqlik münasibətlərinin yardılması və qorunub saxlanması Rusiya üçün təkcə, politoloqların dili ilə "böyük geosiyasi əhəmiyyət" kəsb etmir. Bu əlaqələr, həm də ciddi hərbi-geostrateji, geoiqtisadi, nəqliyyat-tranzit və transmilli enerji ixracı əhəmiyyəti daşıyır.Ukrayna və Belarusla ittifaq Rusiyaya Şərqi Avropa və Baltikyanı dövlətlərinə, Qara Dəniz hövzəsinə, Balkanlara, Yaxın Şərq və ümumilikdə Avrasiyaya çıxış deməkdir. Xüsusi qeyd olunmalıdır ki, Ukrayna Rusiya üçün ilk növbədə strateji enerji tranziti ölkəsidir. Rusiyanın Qərbi Avropaya enerji ixrac edən bütün marşrutları məhz Ukrayna ərazisindən keçir.

Mütəxəssislərin fikrinə görə, hazırda Ukrayna ətrafında cərəyan edən Qərb-Rusiya qarşıdurması və bu fonda regionda yaranmış geosiyasi, hərbi-geostrateji durum nə Rusiyanın, nə Qərbin, nə də ki, Ukraynanın özünün milli maraqlarına cavab vermir. ABŞ və Avropanın xarici siyasət strategiyası Ukraynanın birmənalı olaraq Qərbpərəst siyasət yürütməsini, Kiyevin GUAM-da aparıcı mövqe tutmasını və öz ətrafında Avropa Qonşuluq Siyasətinə qoşulmuş keçmiş SSRİ respublikalarını səfərbər etməsini, Sevastopol, Krım, Qara dəniz və s. strateji məkanların ABŞ-ın təsiri altına düşməsini, Ukraynanın Rusiya ilə yalnız beynəlxalq hüquqa və ikitərəfli əlaqələrə əsaslanan rəsmi münasibətlərə malik olmasını tələb edir. Rusiyanın Ukrayna ilə bağlı yürütdüyü siyasətsə, Qərbin yürütdüyünün tam əksinə olaraq, ABŞ, NATO, Avropa Birliyi və digər "yad maraq daşıyıcılarını" Qara dəniz hövzəsi və Ukraynanın ətrafına buraxmamaq, rəsmi Kiyevi tamamilə və bütövlükdə Moskvanın orbitində saxlamaq məqsədi daşıyır. Rusiya neçə illər idi ki, öz siyasətini Ukraynanı iqtisadi cəhətdən sıxmaq və onun enerji asılılığından istifadə etmək yolu ilə reaallaşdırır-

dısa, hazırda bunun üçün başqa vasitələrdən də silahlı müdaxilə, etnik separatizmi dəstəkləmək, hakimiyyət böhranını dərinləşdirmək və s. istifadə edir.

Ukrayna Cənubi Qafqaz siyasətində ilk növbədə Azərbaycan və Gürcüstana arxalanır, üzləşdiyi enerji problemlərini Azərbaycanın, Qara dəniz bölgəsindəki hərbi-geostrateji məsələləri isə Gürcüstanın hesabına həll etməyə çalışır. Bu amillər Azərbaycan və Gürcüstanın Cənubi Qafqazda Ukrayna üçün geosiyasi və geoiqtisadi əhəmiyyətini bir qədər də artırır.

Ukraynanın Cənubi Qafqaz və Qara dəniz hövzəsində hərbi-geostrateji cəhətdən Rusiyaya alternativ kimi çıxış etməsi rəsmi Moskvanın münaqişələrlə bağlı tutduğu ikili mövqedən narazı qalan Azərbaycan və Gürcüstan üçün cəlbedici amil kimi görünür. Ukraynanın birmənalı şəkildə Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünü dəstəkləməsi, müvafiq olaraq bu ölkələrin də Ukraynanın problemlərinə, bölgədəki geosiyasi və geoiqtisadi maraqlarına adekvat yanaşmasını şərtləndirir. Lakin, son böhranlı hadisələr baş verənə qədər də, Ukraynanın ciddi səylərinə baxmayaraq, o, Cənubi Qafqazda ciddi geosiyasi amil kimi özünü göstərə bilmirdi və Türkiyə, İran, Rusiya, ABŞ, Avropa İttifaqının fəal regional siyasəti fonunda bu ölkə həmişə passiv müşahidəçi rolunda çıxış edirdi. Məsələn, indiyədək region ölkələri tərəfindən Cənubi Qafqazda təhlükəsizlik sisteminin formalaşdırılmasına dair bir sıra təkliflər səslənsə də, bu "formatların" heç birində Ukraynanın iştirakı nəzərdə tutulmamışdı. Yalnız bir dəfə 2000-ci ildə Türkiyə Prezidenti Süleyman Dəmirəl Ukraynanın da regiondakı təhlükəsizlik sisteminin yaradılmasındakı iştirakını təklif etmişdi ki, bu da sonradan Ukrayna tərəfinin ciddi maraq göstərməməsi səbəbindən baş tutmamışdır.

Düzdür, Ukraynanın regional geosiyasətində postsovet məkanındakı mövcud «regional münaqişə ocaqları»nın söndürülməsində iştirak meyili özünü büruzə verirdi. Lakin, mütə-

xəssislərin fikrinə görə, Ukrayna Rusiyanın nəzarətində olan, məsələn Dağlıq Qarabağ kimi regional münaqişələrin, xüsusən də etnik separatizmlə bağlı olan konfliktlərin həll edilməsində nə ciddi siyasi, nə də ki, hərbi güc faktoruna çevrilə bilməyib.

Mütəxəssislər Avrasiyanın və dünyanın qlobal **regional hərbi-geostrateji və təhlükəsizlik sistemində də Ukraynanın rolunu** və mövqeyini mühüm sayırlar. Bu ölkə ərazisinə və əhalisinin sayına görə Avropanın ən böyük dövlətlərindən biri kimi Xəzər-Qara dəniz hövzəsinin və Cənubi Qafqazın regional hərbi-təhlükəsizik arxitekturasının yaradılmasında, gələcəkdə regionda hərbi-strateji blokların formalaşmasında və digər geostrateji məsələlərin həllində böyük əhəmiyyət daşıyır.

Bu ölkə 1998-ci ildən başlayaraq, Qara dəniz hövzəsinin digər yeni dövləti olan Gürcüstanla birlikdə, bir tərəfdən Qərbin təzyiq və təsiri, digər tərəfdənsə Rusiya ilə gərgin enerjinəqliyyat münasibətlərinin təsiri altında özünün qərbyönümlü hərbi-geostrateji prioritetlərini və NATO blokunun xeyrinə təhlükəsizlik siyasətini müəyyənləşirdi. Ukrayna NATO ilə əməkdaşlığa dair son illərdə qəbul edilmiş dövlət proqramında NATO-nu "Avropada kollektiv təhlükəsizliyin ən effektiv strukturu" adlandıraraq, 2009-cu ildə Gürcüstanla birgə bu bloka daxil olmaq üçün rəsmi müraciət etdi.

Lakin, mütəxəssislərin fikrinə görə, hazırda regionda müşahidə olunan mövcud geosiyasi fəallıqdan, ölkədaxili siyasi böhrandan, Rusiya ilə gərgin münasibətlərdən və s. hallardan çıxış edərək Ukraynanın tutduğu mövqe Rusiya və Qərbin geostrateji qarışdırmaları fonunda qeyri-müəyyən vəziyyət yaratmışdır. Ölkədə de-fakto Krımın ayrılmasına və Rusiya Federasiyasına birləşməsinə səbəb olan sonuncu çaxnaşmalara qədərki dövrdə Kiyevin həm rəsmi siyasəti və daxili vəziyyəti, həm də bu ölkənin geosiyasi, geoiqtisadi və geostrateji mövqeləri onun yürütdüyü təhlükəsizlik siyasətinin "Qərbyönlü" və yaxud "Rusiyayönlü" olmasını birmənalı şəkildə qiymətləndir-

məyə imkan vermirdi. Əsl reallıqda, Ukrayna Gürcüstanla birlikdə Qara dəniz hövzəsində və Cənubi Qafqazda NATO yönlü hərbi-geostrateji siyasət həyata keçirməklə və bu səbəbdən də Rusiya ilə regional münaqişəyə daxil olmaqla, yaranmış mürəkkəb situasiyada nə ABŞ-dan, nədə ki, NATO-dakı tərəfdarlarından, xüsusilə, Fransa və Almaniyadan lazımi dəstək ala bilmədi. Ekspertlərin fikrincə, hazırda Qərb dövlətlərinin özləri Rusiyanın "beynəlxalq hüquqa zidd" hərəkətlərinə kəskin və adekvat mövqe nümayiş etdirmək gücündə deyillər. Əlbəttə, dünya siyasətində bu cür gedişlər və münasibətlər heç vaxt izsiz ötüşmür və müvafiq olaraq digər region ölkələrinin (məsələn, Özbəkistan, Azərbaycan, Moldova, Qırğızıstan və s.) sonrakı geostrateji fəaliyyətlərinə, hərbi bloklarla bağlı milli seçiminə real təsir göstərir. Çünki, yaxınlara qədər Ukraynanın Cənubi Qafqazda Rusiyanın hərbi-geostrateji alternativi kimi çıxış etməsi, müəyyən mənada regionda mövcud olan münaqişələrə rəsmi Moskvanın yanaşmasından razı qalmayan ölkələr-Azərbaycan, Gürcüstan və Moldova üçün cəlbedici göründü. Odur ki, 1990-cı ilin sonlarında bu dörd dövlət GUAM adlanan hökumətlərarası təşkilat yaradaraq regionda təhlükəsizlik və əməkdaşlıq məsələlərinin həllində öz güclərini birləşdirmişdilər. QUAM üzvü olan dövlətlərin hər biri qurumun işində fəal iştirak edir və özlərinin regional geosiyasi maraqlarının reallaşması üçün təşkilatın imkanlarından yararlanmağa çalışırdılar.

Ukraynanın regional təhlükəsizlik məsələlərinə və separatizm zəminində yaranan münaqişələrə yanaşması GUAM üzvü olan dövlətlərin hər birinin maraqlarına birmənalı şəkildə cavab verirdi. Belə ki, rəsmi Kiyev Azərbaycanın və Gürcüstanın ərazi bölüvlüyünü rəsmi şəkildə dəstəkləyir, Dağlıq Qarabağ, Cənubi Osetiya, Abxaziya və Dnestryanı münaqişələrin "dövlətlərin BMT tərəfindən tanınmış ərazi bütövlüyü çərçivəsində" həllinin tərəfdarı kimi çıxış edirdi.

Ukraynanın bütün dövrlərdə çoxlarının "qeyri-sabitlik qurşağı" kimi adlandırdığı Qara dəniz regionunun əsas hərbi-geostrateji oyunçularından biri kimi çıxış etmək istəyi tamamilə başa düşüləndir. Bu ölkə həm ərazisinə, həm də əhalisinin sayına görə GUAM-da üstün mövqeyi olan dövlətdir və indiyə qədər dəfələrlə bu təşkilatda özünün aparıcı rolunu nümayiş etdirməyə çalışmışdır. Hələ 1993-cü ildə Ukrayna ilə Gürcüstan arasında imzalanmış "Dostluq, əməkdaşlıq və qarşılıqlı kömək haqqında" hərbi-geostrateji müqaviləyə əsaslanaraq, dəfələrlə rəsmi Kiyev "BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri olarsa, gürcü-abxaz münaqişəsi zonasında sülhyaratma əməliyyatlarında iştirak etməyə hazır olduğunu" bəyan etmişdir. Bu ideyanı 2003-cü ilin aprelində Gürcüstan prezidenti E.Şevarnadzenin Kiyevə səfəri zamanı həmin dövrdə Ukraynanın dövlət başçısı olan Leonid Kuçma "Abxaziya münaqişəsinin tənzimlənməsində BMT-nin və BMT Təhlükəsizlik Şurasının qərarları ilə üst-üstə düşən istənilən çərçivədə iştirak etməyə hazır olduğunu" bildirərkən irəli sürmüşdür.[196]

Son illərdə Ukraynanın regional münaqişələrə münasibətdə nümayiş etdirdiyi mövqe dəyişməmiş, əskinə, daha prinsipial xarakter almışdır. "Ukraynanın milli təhlükəsizliyinin əsasları haqqında" 2003-cü ilin iyun ayında qəbul olunmuş Qanunda göstərilir ki, potensial gərginlik ocaqları, regional səviyyədə hərbi münaqişələr Ukraynanın hərbi və milli təhlükəsizliyi üçün ciddi təhdid hesab olunur.

2003-2005-ci illər inqilabı nəticəsində baş vermiş hakimiyyət dəyişikliyindən sonra da Kiyev Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz ölkələrinə münasibətdə eyni mövqedə dayandı. Prezident Viktor Yuşenkonun 12 fevral 2007-ci il ta-

[196] Bax: Агентство Политических Новостей, «Украинский кризис в кавказском зеркале», 22 сентября 2008 года

rixli "Ukraynanın milli təhlükəsizlik strategiyası haqqında" Fərmanında qeyd olunur ki, münaqişələrin tənzimlənməsində fəal iştirak Baltik-Qara-Xəzər dənizi regionunda regional əməkdaşlığın prioritetlərindən biridir. Sənəddə Ukraynanın sərhədləri yaxınlığında "dondurulmuş" münaqişələrin eskalasiyası və yeni regional münaqişələrin meydana gəlməsi ölkənin təhlükəsizliyinə real təhdid kimi qiymətləndirilir.[197]

2008-ci ilin avqustunda Rusiya-Gürcüstan böhranı zamanı Ukrayna bölgədə fəal geosiyasi oyunçu mövqeyindən çıxış edərək, regional münaqişələrin tənzimlənməsində iştirak etmək niyyətində olduğunu nümayiş etdirdi. Həmin vaxt prezident V.Yuşenko nəinki rəsmi Tbilisini dəstəklədiyini açıq bəyan etdi, həm də fəal surətdə Rusiya ilə Gürcüstan arasındakı qarşıdurmanın gedişinə təsir göstərməyə cəhd göstərdi. Rusiyanın "Gürcüstanı sülhə məcbur etmək" əməliyyatında Qara dəniz donanmasının gəmilərindən istifadə edərkən, rəsmi Kiyev Krım yarımadasının ərazisində Qara dəniz donanmasının yerləşməsinə yenidən baxılması təşəbbüsünü irəli sürdü. Eləcə də, 2008-ci il avqustun 10-da – "Gürcüstanı sülhə məcbur etmək" əməliyyatının başlanmasından iki gün sonra Ukraynanın Xarici İşlər Nazirliyi Qara dəniz donanmasını Gürcüstana qarşı yönəlmiş əməliyyatlardan çəkinməyə çağıran rəsmi bəyanatla çıxış etdi. Avqustun 13-də isə prezident Yuşenko Qara dəniz donanmasının yer dəyişməsinin hakimiyyət strukturları ilə razılaşdırılması Qaydalarını təsdiq etdi.[198]

Ukraynanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik arxitekturasına ciddi təsir göstərmək istiqamətindəki mövqeyi onun Rusiya ilə sonrakı münasibət-

[197] Bax: Материалы Совета национальной безопасности и обороны Украины, 12 февраля 2007 года

[198] Bax: газета «Известия», «Ющенко подписал указы о деятельности ЧФ России», 13 августа 2008 года

lərini kəskinləşdirdi. RF-nın Xarici İşlər Nazirliyi Kiyev hakimiyyətinin yeni təşəbbüslərinə etiraz olaraq bəyan etdi ki, "bu birtərəfli addım Qara dəniz donanması probleminə dair danışıqlar prosesinə, geniş planda isə - ikitərəfli münasibətlərin bütün kompleksinə növbəti zərbə ola bilər".[199]

Ukrayna ilə Gürcüstan arasındakı ikitərəfli münasibətlərə toxunarkən, qeyd etmək vacibdir ki, 2010-cu ilin yanvarında Kiyevdə hakimiyyət dəyişikliyindən sonra bu münasibətlər bir qədər soyudu. Lakin Gürcüstan ərazisindəki münaqişələr məsələsində Kiyevin mövqeyi xüsusi olaraq dəyişmədi və bunun bariz nümunəsi 2010-cu il iyunun 4-də prezident Yanukoviçin Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımağa hazırlaşmadığını bildirən bəyanatı hesab oluna bilər.[200] Yanukoviç qeyd edirdi ki, "beynəlxalq normalar var, beynəlxalq qanunlar və normalara görə bu və ya digər dövlətin ərazi bütövlüyünün pozulması qadağan olunmuşdur. Biz dünyada bu və ya digər dövlətin ərazi bütövlüyünün pozulması proseslərini alqışlaya bilmərik".[201]

2011-ci ilin iyul ayında Ukrayna Xarici İşlər Nazirliyinin İnformasiya siyasəti departamentinin direktoru Oleq Voloşin Kiyevin bu məsələdə mövqeyini növbəti dəfə təsdiq etdi: "Ukrayna Gürcüstanın ərazi bütövlüyünün tərəfdarı olaraq qalır. Ukrayna Kosovonun müstəqilliyində olduğu kimi, Abxaziya və Cənubi Osetiyanın öz müstəqilliklərini bəyan etmələrini tanımır. Biz Gürcüstana postsovet məkanında mühüm tərəfdaş və dost ölkə kimi baxırıq".[202]

---

[199] Bax: Агентство РИА Новости, 14 августа 2008 года

[200] Bax: сайт Lenta.ru, «Янукович отказался признавать независимость Абхазии и Южной Осетии», 4 июня 2010 года

[201] Yenə də orada

[202] Bax: Агентство УНИАН, «Украина не будет признавать независимость Абхазии и Южной Осетии», 12 июля 2011 года

Ukraynanın Azərbaycan və digər Cənubi Qafqaz ölkələri ilə geosiyasi, geoiqtisadi və hərbi-geostrateji münasibətlərinin xarakteristikası

Ukrayna ilə Azərbaycan arasındakı münasibətləri təhlil edərkən əminliklə demək olar ki, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığının dəstəklənməsi Kiyev üçün xarici siyasət kursundan və Ukrayna hakimiyyətinin seçimindən asılı olmayaraq prioritet prinsip olaraq qalır. Regional əməkdaşlıq üçün münaqişələrin tənzimlənməsində iştirakçılığın prioritetliyinə əsaslanaraq, rəsmi Kiyev dəfələrlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində Bakının mövqeyini rəsmi şəkildə dəstəkləmişdir. Ukrayna Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi istiqamətində daim fəal mövqe nümayiş etdirmiş və onun bu məsələdə tutduğu mövqe rəsmi Bakının mövqeyi ilə tam üst-üstə düşmüşdür.

Ukraynanın regional geosiyasətində Azərbaycan həmişə mühüm yer tutmuş, onlar arasında enerji təminatı, nəqliyyat-kommunikasiya, tranzit-keçid, hərbi-strateji və s. sahələrdə tərəfdaşlıq münasibətləri mövcud olmuşdur. Mütəxəssislərin fikrincə, Ukraynanın həm keçmiş illərdə, həm də indiki dövrdə Cənubi Qafqazda maraqları ilk növbədə onun enerji və nəqliyyat təhlükəsizliyi sahəsindəki regional maraqlara cavab verən layihələrlə bağlıdır. Qeyd olunduğu kimi, bu layihələr uzun əsrlər boyu Ukraynanın Rusiyadan enerji asılılığına son qoymağa imkan verən yeganə alternativ çıxış yoludur. Demək olar ki, enerji asılılığı məsələsində Gürcüstan və Moldova da Ukrayna kimi eyni vəziyyətdədirlər.

Mütəxəssislər hesab edir ki, məhz enerji təhlükəsizliyi maraqları Xəzər-Qara dəniz hövzəsində və Cənubi Qafqazda son illərdə GUAM üzvlərini və Belarusu Azərbaycanla birləşdirən əsas faktorlardan biri kimi çıxış edir. Məsələn, Ukrayna,

Belarus və Moldova Azərbaycanın Xəzərdə isehsal etdiyi transmilli neftin Qara dənizdən keçməklə Avropaya ixracında, kəmərlərdən birinin Odessa-Brodı marşrutu üzrə çəkilməsinə nail olmaqda, eləcə də neft məhsullarının ilk əldən alınması alternativlərinin tapılmasında maraqlıdır. Buna görə bu ölkələrlə Azərbaycanın münasibətlərində əsas rolu enerji məsələsi oynayır. Azərbaycan GUAM üzvləri, xüsusən də Ukrayna üçün hazırda neft və neft məhsullarının, gələcəkdə isə həm də təbii qazın əsas təchizatçısı qismində çıxış edə bilər. Nəzərə alsaq ki, Azərbaycan Xəzər regionunun ən böyük dövlətidir və enerji resurslarının böyük ehtiyatına malikdir, Ukrayna isə enerjidən daha çox asılı dövlətdir, bu tərəfdaşlıq təbiidir.

Ukraynanın Avrasiya regionundakı zəif geosiyasi mövqeyinin əsa səbəblərini də mütəxəssislər daha çox bu ölkənin enerji daşıyıcılarına olan ciddi ehtiyacı ilə izah edirlər. Ukraynanın Yerli İnkişaf İnstitutunun hesablamalarına görə, 10 il ərzində Rusiya ilə sərhəddə qazın qiyməti 3-4 dəfə artmışdır və 2020-ci ilə qədər qiymətlər 1000 kubmetrə görə 800 dollara çatacaqdır.[203] Neft və qazın qiymətlərinin sürətlə qalxması isə enerji siyasətində radikal dəyişikliklər aparmağı tələb edir və istisnasız olaraq bütün iqtisadiyyata təsir göstərir. Proqnoza görə, energetika sahəsində Azərbaycanla tərəfdaşlıq münasibətləri Kiyev üçün strateji xarakter daşıyır. 2013-cü il iyunun 6-da prezident V.Yanukoviç Ali Radaya göndərdiyi illik müraciətində bəyan etmişdir ki, Ukrayna Qazaxıstan və Azərbaycana neft və qaz sahəsində alternativ mənbələr kimi baxır. O, Azərbaycandan təbii qazın Ukraynaya çatdırılmasının alternativ marşrutu olan "Ağ axın" qaz kəməri xətti layihəsinə baxmağı təklif etmişdir.[204]

[203] Bax: Сайт Института местного развития. http:www.pe.com.ua

[204] Bax: Агентство Ukranews, «Янукович предложил вернуться к проекту газопровода «Белый поток», 6 июня 2013 года

Ukrayna neçə illərdir ki, Rusiyadan öz enerji asılılığını aradan qaldırmaq və əlavə tranzit gəlirləri əldə etmək məqsədi ilə Bakı-Supsa neft kəmərinin Odessa-Brodı marşurutu üzrə davam etdirilməsinə çalışır. Bu və ya digər transmilli neft-qaz ixracı layihələrində iştirakla bağlı rəsmi Kiyev Azərbaycanın dəstəyinə xüsusi əhəmiyyət verir. Məlumdur ki, Odessa-Brodı-Qdansk neft ixracı layihəsinin baş tutması, ilk növbədə Azərbaycan və Qazaxıstandan asılıdır. Çünki bu kəmər yalnız Xəzər neftini dünya bazarına çıxaracağı təqdirdə strateji cəhətdən əhəmiyyətli, iqtisadi cəhətdən rentabelli ola bilər. Məhz bu səbəbdən, rəsmi Kiyev Bakı və Astananın bu layihəyə müsbət münasibətini təmin etmək üçün bir sıra iqtisadi-diplomatik addımlar atmaqda davam edir. 2004-cü ildə Ukrayna Azərbaycan və Qazaxısan rəhbərliyinə müraciət edərək bu ölkələri Xəzər neftinin Avropa bazarlarına həm də bu marşrutla (Bakı-Supsa kəmərinin davamı kimi) nəqlinə dəstək verməyə çağırıb. Lakin Azərbaycan həmin dövrdə üstünlüyü Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəmərinə verdiyindən, Odessa-Brodı-Qdansk layihəsinin taleyi hələ ki, müəyyən qədər sual altında qalmışdır.

Rəsmi Kiyev həm də 2010-cu ilin sentyabrında Azərbaycan, Gürcüstan və Rumıniyanın prezidentləri, Macarıstanın Baş naziri tərəfindən başladılan AGRİ enerji layihəsinə (Azerbaijan, Georgia, Romania İnterconnection) öz marağını gizlətmir. Bu layihə Azərbaycan qazının Kulevi terminalına (Gürcüstan) daxil olmasını nəzərə tutur. Qaz burada mayeləşdirilərək, tankerlərlə Konstantsada (Rumıniya) terminalına nəql edildikdən sonra yenidən qaz konsistensiyasına çevriləcəkdir. Ukraynanın həmin dövrdəki Energetika və Kömür Sənayesi naziri İqor Kryuşin bəyan etmişdir ki, "Ukrayna mayeləşdirilmiş qazın Gürcüstanın Kulevi limanına daşınması ilə bağlı AGRİ layihəsi çərçivəsində terminalın tikintisində Azərbaycanla hərtərəfli əməkdaşlığa hazırdır. 2015-ci ildə Ukrayna

Azərbaycan tərəfindən 5 mlrd. kub metr həcmində qaz almaq niyyətini də gizlətmir". Baş nazirin müavini Yuri Boyko isə bəyan etmişdir ki, onun ölkəsi "AGRİ" çərçivəsində Odessada terminal tikiləndə ildə 10 mlrd. kubmetr Azərbaycandan mayeləşdirilmiş təbii qaz almağa hazırdır".[205]

Bundan başqa, Azərbaycan və Gürcüstan Ukrayna üçün Mərkəzi Asiya və Cənubi Qafqazı Avropa ilə birləşdirən alternativ nəqliyyat-kommunikasiyası körpüsü sayılır. Mütəxəssislərin fikrinə görə, "bütün dörd dövlət – GUAM üzvləri Rusiyaya alternativ olan, Avropadan Asiyaya qədər uzanan "İpək yolu" layihəsinin (TRACEKA) reallaşmaşına ciddi ehtiyac duyur və bu işdə əhəmiyyətli rol oynayırlar".[206]

Ukrayna ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin mühüm sektorlarından biri olan **hərbi-geostrateji tərəfdaşlığa** gəldikdə isə, Ukrayna bu sahədə çoxdan özünü etibarlı tərəfdaş kimi tanıtmış və Azərbaycanın hərbi-sənaye kompleksi üçün əsas təchizatçılardan birinə çevrilmişdir. Artıq 20 ildir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi fonunda Azərbaycan fəal şəkildə özünün hərbi-sənaye kompleksini qurur. Son illərdə Azərbaycanın hərbi büdcəsi demək olar ki, 10 dəfə artmışdır: əgər 2003-cü ildə hərbi büdcə cəmi 163 mln. dollar təşkil edirdisə, hazırda bu rəqəm 3.8 mlrd. ABŞ dollarına çatmışdır. Rəsmi Bakı özünün silahlı qüvvələrinin texnika, artilleriya və digər avadanlıqlarla tam təmin olunması kursunu yürüdərək, ölkənin hərbi-sənaye kompleksini inkişaf etdirir. Əlbəttə, Ukrayna hərbi-sənaye kompleksinin tikintisi sahəsində böyük təcrübəyə malik olmaqla Azərbaycan üçün çox mühüm tərəfdaşdır. Xatırlamaq lazımdır ki, hətta regionda aparıcı hərbi dövlət – Rusiya Federasiyası

[205] Bax: "ANS" Televiziyası 16 aprel 2011-ci il

[206] Svante E.Cornell/ Geopolitics and strategic alignments in the Caucasus and Central Asia // journal of International Affairs, June – August 1999

Ukraynanın hərbi-sənaye kompleksinin potensialından istifadə edir. Belə ki, Rusiya Federasiyasının "nüvə sipəri" olan ballistik raketlər Ukraynada istehsal olunur və onlara Ukraynalı mütəxəssislər xidmət göstərir. Ukraynada Rusiya vertolyotları və nəqliyyat təyyarələri, hətta hərbi gəmilər üçün mühərriklər və qaz-turbin mühərrikləri buraxılır. Məsələn, Rusiya vertolyotlarının mühərriklərinin 70 faizə qədəri məhz Ukraynada buraxılır".[207]

Azərbaycan hərbi-sənaye kompleksinin tikintisi sahəsində Ukraynanın malik olduğu təcrübəni nəzərə alaraq, sözsüz ki, silah-sursat istehsalını təşkil etmək üçün Ukraynalı mütəxəssisləri cəlb etməkdə maraqlıdır. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Ukrayna bizim üçün etibarlı tərəfdaşdır, Azərbaycanın güvənə bildiyi dost ölkədir".[208]

Ukraynanın regional siyasətini, onun Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz ölkələri ilə hərbi-geostrateji münasibətlərini təhlili göstərir ki, Kiyevin Ermənistanla mövcud sahədəki münasibətləri Gürcüstan və Azərbaycanla münasibətlərindən daha zəifdir. Açıq şəkildə görünür ki, Ukraynanın xarici siyasətinin Cənubi Qafqaz vektoru region dövlətlərinə münasibətdə prioritetlərin dəqiq bölgüsü ilə xarakterizə olunur və Ermənistan üç Cənubi Qafqaz respublikaları sırasında ən axırıncı yerdə dayanır. Buna uyğun olaraq, öz əhəmiyyətinə görə Ukraynanın regionda əsas prioriteti Azərbaycan, ikinci isə Gürcüstandır. Yuxarıda deyilənlərin praktiki təsdiqi kimi Ukraynanın Cənubi Qafqaz ölkələrinin hər biri ilə əmtəə mübadiləsinin həcmini, siyasi dialoqun intensivliyini, nəhayət, hərbi-texniki əməkdaşlığın miqyasını müqayisə etmək kifayət-

[207] Bax: Радио Би-Би-Си, «Обойдется ли Россия без ракет и двигателей с Украины?», 4 апреля 2014 года
[208] Bax: Azərtac, 18 noyabr 2013-cü il

dir.[209] Mütəxəssislərin hesablamalarına görə, Ukraynanın Ermənistanla və regionun digər iki ölkəsi ilə əməkdaşlığı arasındakı böyük fərqlər əhəmiyyətli dərəcədə onunla şərtlənir ki, Ermənistanın əhalisi və dövlət büdcəsinin həcmi Azərbaycan və Gürcüstanla müqayisədə çox cüzidir. Bunun nəticəsi olaraq, Ukraynada Ermənistanla hansısa sahədə qarşılıqlı münasibətləri gələcəkdə gücləndirməyə və əhəmiyyətli nəticə əldə etməyə ciddi şübhə yaranır". [210]

Kiyev Avroatlantik Əməkdaşlıq İnstitutunun analitikləri də təsdiq edir ki, "Postsovet ölkələrindən Ukrayna ilə ən zəif diplomatik münasibətlərdə olan ölkə Ermənistandır".[211]

Ermənistanın Cənubi Qafqazda yürütdüyü təcavüzkar siyasət və Azərbaycanın ərazilərini işğal etməsi, regionda Gürcüstan və Türkiyəyə qarşı da açıq ərazi iddiası irəli sürməsi və s. Ukrayna ilə də bu ölkənin ünsiyyətini çətinləşdirir. Mütəxəssislərin fikrinə görə, nə qədər ki, Ukrayna Azərbaycanın strateji tərəfdaşıdır, Kiyevlə Yerevan arasındakı münasibətlər o qədər səthi olacaqdır. Təsadüfi deyil ki, 2011-ci il iyulun 1-də Ermənistan prezidenti Serj Sarkisyanın Kiyevə səfəri 2001-ci ildən başlayaraq Ermənistan prezidentlərinin Ukraynaya ilk rəsmi səfəri idi.

Ukrayna ilə Ermənistan arasındakı münasibətlərin sönüklüyü yuxarıda göstərdiyimiz səbəblərlə yanaşı, həm də Ermənistan hərbi-geostrateji, geosiyasi, iqtisadi və s. sahələrdə Rusiyadan tam asılılığı, müstəqil xarici siyasət həyata keçirmək imkanlarının olmaması, nəzəri olaraq Moskvada narazılıq yarada biləcək hər hansı addım atmaq imkanlarının məhdudluğu

[209] Украинское информационно-аналитическое издание "Odnarodyna", «Украинско-армянские «Украинско-армянские отношения: реалии и перспективы», 24 октября 2012 года

[210] Yenə də orada

[211] Bax: Изд. «Обозреватель», «С Арменией у Украины слабые дипломатические отношения», 14 мая 2012 года

və s. ilə də bağlıdır. Çünki, Ukraynanın Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsi ölkələri ilə qarşılıqlı münasibətlərinə, eyni zamanda kəskin mürəkkəbliyi ilə seçilən Ukrayna-Rusiya münasibətlərinin tərkib hissəsi kimi baxmaq olar.[212]

Cənubi Qafqaz ölkələri Ukrayna ilə əməkdaşlıq və tərəfdaşlıq yaradarkən bir reallığı da nəzərə almalıdır ki, Kiyevin hazırkı Avrointeqrasiya xətti onun Moskva ilə münasibətlərini köklü şəkildə pisləşdirmiş və onlar arasında faktiki müharibə vəziyyəti yaratmışdır. Belə situasiyada Moskvanın forpostu adlandırılan Ermənistanın manevr imkanları Cənubi Qafqazın digər ölkələri ilə müqayisə oluna bilməz. Həqiqi müstəqilliyinin və müstəqil xarici siyasət kursunun yoxluğu əvvəlcədən Ermənistanı məğlub vəziyyətdə qoyur və bunun bariz ifadəsi BMT Baş Assamleyasında Krımın Rusiya Federasiyasına birləşdirilməsi ilə bağlı "keçirilən referenduma" münasibət zamanı ortaya çıxdı. Ermənistanın Rusiyanın xeyirinə BMT-nin "ölkələrin ərazi bütövlüyünün zorla dəyişdirilməsini qadağan edən" əsas prinsiplərindən birinin əleyhinə səs verməsi Ukrayna-Ermənistan münasibətlərində axırıncı böhran oldu. Səsvermədən dərhal sonra Ukraynanın Ermənistandakı səfiri bu ölkəni tərk etdi, Ukraynanın Xarici İşlər Nazirliyi isə bəyan etdi ki, Ermənistanın bu məsələdə nümayiş etdirdiyi mövqe "Ukrayna-Ermənistan münasibətləri üçün mənfi nəticələr yaradacaqdır".[213]

Göründüyü kimi, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz Ukrayna üçün elə bir məkandır ki, burada onun hərbi-geostrateji və təhlükəsizlik maraqları Qərb, müxtəlif xarici qüvvələr, regional mərkəzlər və yerli ölkələrin maraqları ilə üst-üstə düşür, kəsişir və toqquşur. Beynəlxalq və regional

[212] Bax: Журнал «Кавказ и глобализация», «Взаимоотношения Украины с государствами Кавказа в контексте ее политики в Черноморско-Каспийском регионе», № 4, 2009 год

[213] Bax: Газета «Украинская правда», 21 марта 2014 года

təhlükəsizlik mərkəzlərinin, bu məkanda geosiyasi maraqları kəsişən və üst-üstə düşən region və dünya dövlərlərinin hər biri özünün milli və qrup maraqları çərçivəsində müvafiq beynəlxalq, regional və milli təhlükəsizik siyasəti həyata keçirir.

Ukraynadakı mövcud daxili-siyasi böhran hazırda milli və regional səviyyədən dünya miqyasına qalxaraq, həm birbaşa Ukrayna dövlətinin taleyində, onun milli, regional və qlobal təhlükəsizlik maraqlarında öz əksini tapır, həm də dolayısı ilə təhlükəsizlik sahəsində qlobal təhlükəsizlik arxitekturasının vəziyyətinə mənfi təsir göstərir. Mütəxəssislərin fikrinə görə, yalnız bu böhranın son nəticələri göstərəcək ki, Ukrayna "kifayət qədər əhaliyə, sənaye və xammal resurslarına malik olan, orta miqyaslı müstəqil Avropa dövləti statusuna iddia edə biləcəkmi?".

Azərbaycan Ukrayna ilə münasibətlərində, ilk növbədə iqtisadi, siyasi, enerji, regional hərbi-geostrateji əməkdaşlığa xüsusi əhəmiyyət verir. 1997-ci ildən iki ölkənin müdafiə nazirlikləri və hökumətləri arasında hərbi və hərbi-texniki əməkdaşlığa dair bir neçə saziş imzalanıb. Ukraynanın hərbi-sənaye kompleksi, tədris və hərbçilərin ixtisas artırma mərkəzləri və s. Azərbaycan Silahlı Qüvvələrinin daha da güclənməsi üçün strateji əhəmiyyət daşıyır.

Azərbaycan dövlət müstəqilliyinə nail olduqdan sonra Ukrayna ilə çoxtərəfli intensiv əlaqələr qurub. 1992-ci il yanvarın 31-də iki ölkə arasında diplomatik əlaqələr yaradılıb. 1995-ci ilin iyulunda Ukrayna Prezidenti Leonid Kuçmanın Azərbaycana, Azərbaycan Prezidenti Heydər Əliyevin isə 1997-ci ilin martında Ukraynaya rəsmi səfəri qarşılıqlı əlaqələrin hüquqi-normativ bazasının yaranmasında və münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində mühüm rol oynamışdır. 1996-cı ildə Ukraynanın Azərbaycanda, 1997-ci ildə isə Azərbaycanın Ukraynada səfirliklərinin açılması münasibətlərin inkişafına əlavə stimul vermişdir. 1998-ci ilin sentyabrında Uk-

rayna Prezidenti L.Kuçma Böyük İpək Yolunun bərpasına həsr edilmiş beynəlxalq Bakı konfransında, 1999-cu ilin sentyabrında isə Azərbaycan Prezidenti H.Əliyev Yaltada keçirilmiş "Baltik-Qara dəniz əməkdaşlığı" beynəlxalq konfransında iştirak etmişdir. Yüksək səviyyəli dövlət rəhbərlərinin iştirakı ilə keçirilmiş bu konfranslar ölkələrarası və regional iqtisadi inteqrasiyanın dərinləşməsi baxımından mühüm əhəmiyyət daşıyırdı.

Ümumiyyətlə, Azərbaycan-Ukrayna əlaqələrini səciyyələndirən xüsusiyyətlərdən biri ölkə rəhbərlərinin, o cümlədən prezidentlərin rəsmi və işgüzar səfərlərinin müntəzəm xarakter almasıdır. Ukraynada Azərbaycana, Azərbaycanda isə Ukraynaya həmişə böyük maraq və diqqət olmuşdur.

Müstəqillik əldə etdikdən sonra dəfələrlə Ukrayna Prezidenti Azərbaycana, Azərbaycan Prezidenti isə Ukraynaya rəsmi və işgüzar səfərlər etmişdir. Xüsusilə, 2010-cu il oktyabrın 28-də və 2013-cü il noyabrın 17-18-də Prezident İlham Əliyevin Ukraynaya, 2011-ci il aprelin 28-də isə Ukrayna Prezidenti Viktor Yanukoviçin Azərbaycana rəsmi səfərləri yadda qalan olmuş və ölkələrarası strateji münasibətlərin dərinləşməsinə mühüm təsir göstərmişdir.

Ötən illər ərzində Ukrayna-Azərbaycan hökumətlərarası iqtisadi komissiyasının iclasları müntəzəm olaraq keçirilmişdir. Bundan başqa, həm Azərbaycanı, həm də Ukraynanı təmsil edən nazirliklərin, ayrı-ayrı müəssisə rəhbərlərinin, hökumət və qeyri-hökumət təşkilatlarının, kütləvi-informasiya vasitələrinin, vətəndaş cəmiyyəti institutlarının da keçən illərdə kifayət qədər intensiv əlaqələri olmuşdur. Ukraynada çoxsaylı Azərbaycan diasporu yaşayır və bu ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında yaxından iştirak edir. İki ölkə arasındakı münasibətlərin inkişafında və yaxşılaşmasında bu amil də xüsusi rol oynayır. Azərbaycan-Ukrayna münasibətləri iqtisadi, siyasi, enerji və geosiyasi layihələr çərçivəsində inkişaf edir və

möhkəmlənir. İki ölkə arasındakı əlaqələri strateji müttəfiqlik səviyyəsinə qaldırmaq üçün hər iki tərəfdən düşünülmüş addımlar atılır. Hər iki ölkə arasında ikitərəfli əlaqələrdən əlavə, müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli tərəfdaşlıq da qarşılıqlı münasibətlərin strateji istiqamətdə inkişafını şərtləndirir. Xüsusilə, GUAM, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmasını nəzərdə tutan TRASEKA layihəsi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və s. çərçivəsində qarşılıqlı əlaqələr yüksək səviyyədə qurulub.

§ 4.2. Qara dəniz hövzəsinin geosiyasətində Belarus və Moldovanın rolu və Azərbaycanla geosiyasi tərəfdaşlıq meyilləri

Belarus. Öz coğrafi vəziyyətinə görə, Belarus da Şərqi Avropa ilə Rusiya arasında Ukrayna kimi geosiyasi körpü rolunu oynayır. Amma, tam əminliklə söyləmək olar ki, bu rol Belarusun özündən çox Rusiyanın işinə yarayır və onun geosiyasi mövqelərinin güclənməsinə xidmət edir. Rusiya ilə Belarus ilk növbədə geosiyasi amillərlə şərtlənən ikitərəfli inteqrasiyanın vacibliyini nəzərə alaraq, 1995-ci il yanvarın 6-da birgə Gömrük İttifaqı yaratmaq haqqında saziş imzaladılar. Elə həmin ilin fevralında artıq iki ölkə arasında dostluq və əməkdaşlıq haqda müqaviləyə də imza atıldı. 1995-ci il mayın 26-da isə Rusiya ilə Belarus arasındakı inteqrasiyanı nümayiş etdirən simvolik addım atıldı: iki ölkə arasında sərhəd xətti götürüldü və faktiki olaraq, dövlət sərhədi ləğv olundu. İki dövlətin birləşdirilməsini nəzərdə tutan Rusiya-Belarus İttifaqının əsası isə 1996-cı il aprelin 2-də qoyulmuşdur. İki ölkə prezidentinin bununla bağlı imzaladığı müqavilədən sonra hər il aprelin 2-si Rusiya və Belarus xalqlarının birliyi günü kimi qeyd edilir.

Belarusun xarici siyasət kursu tamamilə Rusiya ilə razılaşdırılmış şəkildə həyata keçirilir. İstər NATO-nun Şərqə doğru genişlənməsinə, istərsə də postsovet məkanında gedən geosiyasi proseslərə münasibətdə Rusiya ilə Belarus eyni mövqedən çıxış edir. Belarusun xarici siyasəti ABŞ-ın postsovet məkanındakı dominantlığına qarşı yönəlmişdir.

Qeyd edək ki, Belarus SSRİ-nin dağılmasından sonra şərqi slavyan sivilizasiyasının beynəlxalq arenada zəifləmiş mövqelərinin möhkəmlənməsində maraqlıdır. Rusiya-Belarus İttifaqı Moskva ilə Qərb arasında "sanitar dəhliz"in yaradılmasına mane olmaq, Avropa ilə Asiya arasında strateji maraqlar və kommunikasiyaların təhlükəsizliyini təmin etmək, vahid müdafiə məkanını formalaşdırmaq məqsədi güdür.

Birmənalı şəkildə Rusiyapərəst siyasət yeritdiyinə baxmayaraq, Belarus Qərblə münasibətlər qurmağa da çalışıb. Hələ 90-cı illərdən Belarusun NATO ilə fərdi əməkdaşlıq proqramı üzrə konkret addımlar atılırdı. Amma Belarusun bu əməkdaşlığa meyilliliyi NATO-nun genişlənməsinə qarşı çıxması ilə müşayiət olunur. Prezident Aleksandr Lukaşenko ölkənin xarici siyasətinin çoxqütblü olduğunu bildirməklə, əslində Minskin birmənalı olaraq Moskvaya meyllənmədiyini nümayiş etdirmək istəyir. Belarusun xarici siyasətinin əsas konturlarını açıqlayan A.Lukaşenko qeyd edib ki, onun ölkəsi öz ərazisini "sülh zonası" elan edir, Avropanın nüvə silahı olmayan zona elan edilməsinin tərəfdarıdır və istənilən güc bloklarının genişlənməsinə qarşı çıxır. NATO-nun genişlənməsinə dair Belarusun rəsmi mövqeyi ilk dəfə 1997-ci ildə keçirilmiş NATO sammitində elan olunmuşdur.

Belarusdakı siyasi duruma beynəlxalq aləmin münasibəti ziddiyyətli olsa da, onun sosial-iqtisadi vəziyyətinə yanaşma birmənalı deyil. Belə ki, dünya birliyindən təcrid olunmuş, Qərblə bütün münasibətləri dondurulmuş və onun maliyyə institutlarının yardımlarından məhrum edilmiş Belarus, gözlənil-

diyinin əksinə olaraq, çox dinamik şəkildə inkişaf edir. Belarusun seçdiyi "özəl iqtisadi yol"un real nəticələr verdiyini Qərb, o cümlədən Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı kimi nüfuzlu strukturlar da etiraf edirlər. Yalnız bir faktı söyləmək kifayətdir ki, 1997-98-ci illərdə Belarus sənaye artımının həcminə görə bütün Avropada lider ölkə olmuşdur. Həmçinin, ölkə iqtisadiyyatının inkişafı fonunda Belarusun xarici dövlət və təşkilatlara borcunun olmaması da diqqəti cəlb edir.

Azərbaycanla Belarus arasında diplomatik əlaqələrin yaradılması haqqında Protokol 1993-cü il iyunun 11-də imzalanmışdır. 1998-ci ilin sentyabr ayında Azərbaycan və Belarus xarici işlər nazirləri Nyu-Yorkda BMT-nin Baş Məclisinin 53-cü iclasında görüşmüş və iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi yollarını müzakirə etmişlər. Bunun ardınca, qarşılıqlı əlaqələri intensivləşdirmək, "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında ikiqat verginin aradan qaldırılması, gəlirlərə və əmlaka görə vergiləri ödəməkdən yayınmanın qarşısının alınması haqqında Konvensiya" və "Malların (işlərin, xidmətlərin) idxalı və ixracı zamanı vasitəli vergilərin tutulması prinsipləri haqqında Saziş" layihələrini razılaşdırmaq üçün Azərbaycanın ekspertlər qrupu 1998-ci ildə Minsk şəhərinə ezam olunmuşlar. Danışıqlar zamanı hər iki layihənin razılaşdırılması barədə tərəflər Memorandum və Protokol imzalamışlar.

1998-ci və 2000-ci ilin avqust aylarında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko arasında MDB dövlət başçıları Şurasının iclasları zamanı Yaltada, 2000-ci ilin yanvar və iyun aylarında MDB dövlət başçıları Şurasının Moskva toplantısında, 2000-ci ildə Minskdə və Davosda Dünya İqtisadi Forumundakı görüşləri xüsusi qeyd etmək lazımdır. Azərbaycan-Belarus münasibətlərində ciddi dönüş 2001-ci ilə təsadüf

edir. 2001-ci il avqustun 8-9-da Azərbaycana rəsmi səfər etmiş Belarusun Baş naziri V.Yermaşov ölkə rəhbərləri ilə çoxsaylı görüşlər keçirmiş və danışıqların yekunu olaraq Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında "Malların (işlərin, xidmətlərin) idxalı və ixracı zamanı vasitəli vergilərin tutulması prinsipləri haqqında", "Yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında", "İkiqat verginin aradan qaldırılması, əmlaka münasibətdə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında" bir neçə Saziş imzalanmışdır.

İki ölkə arasında münasibətlərin yaxşılaşmasına və qarşılıqlı əlaqələrin güclənməsinə müsbət təsir göstərən növbəti addım 2004-cü il 30 mart – 1 apreldə Azərbaycanın Baş naziri A.Rasizadənin başçılığı ilə nümayəndə heyətinin Belarusa rəsmi səfəri olmuşdur. Səfər çərçivəsində Azərbaycan-Belarus münasibətlərinin aktual məsələləri müzakirə edilmiş. İki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın perspektiv istiqamətləri müəyyənləşdirilmişdir. Səfər zamanı ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus hökumətlərarası komissiyasının ilk iclası keçirilmişdir. İclasın yekunlarına əsasən, protokol imzalanmış, sənaye, kənd təsərrüfatı, nəqliyyat, elm, mədəniyyət, idman və turizm sahəsində bir sıra birgə layihələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

2004-cü il noyabrın 5-7-də Belarusun Baş naziri S.Sidorskinin Azərbaycana rəsmi səfəri zamanı Prezident İ.Əliyev və Baş nazir A.Rasizadə ilə görüşlərdə iki dövlət arasında maraq kəsb edən məsələlər müzakirə etmişdir. Bu, Belarus Baş nazirinin Azərbaycana ikinci səfəri idi. Səfər zamanı S.Sidorski Heydər Əliyev Fondu, "Bakı Şampan Şərabları" Açıq Səhmdar Cəmiyyəti ilə tanış olmuş, "Azərbaycan-Belarus" Biznes Forumunda və kənd təsərrüfat avadanlığı və texnikasının sərgisində iştirak etmişdir. Səfər çərçivəsində ticarət-iqtisadi əməkdaşlıq

üzrə Azərbaycan-Belarus hökumətlərarası komissiyasının ikinci iclası keçirilmiş və 7 mühüm sənəd imzalanmışdır.

2004-cü ilin dekabrında Belarus Respublikasının müdafiə naziri L.Maltsevin başçılığı ilə nümayəndə heyəti Azərbaycana rəsmi səfər etmiş, ölkəmizin müdafiə naziri S.Əbiyev, xarici işlər naziri E.Məmmədyarov ilə görüşmüş və Prezident İ.Əliyev tərəfindən qəbul edilmişdir. Görüşlər zamanı ikitərəfli hərbi əməkdaşlıq və digər maraq kəsb edən məsələlər müzakirə olunmuş və "Azərbaycan Respublikası hökuməti və Belarus Respublikası hökuməti arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq haqqında" Saziş imzalanmışdır. Azərbaycan Prezidenti İlham Əliyev 2006, 2009 və 2012-ci ildə Belorusa, Ukrayna Prezidenti A.Lukaçenko isə 2007 və 2010-cu illərdə Azərbaycana rəsmi səfər etmişdir. Bu səfər hər iki dövlət arasındakı münasibətlərin inkişafına böyük stimul vermişdir. Göründüyü kimi, keçən illərdə Azərbaycan-Belarus münasibətlərinin inkişafı intensiv xarakter daşımışdır. Lakin təəssüflə qeyd edək ki, Belarus Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin haqlı mövqeyini heç zaman müdafiə etməmişdir. Məsələn, 2000-ci ildən başlayaraq, hər il BMT Baş Məclisinin sessiyalarının iclaslarında "BMT ilə ATƏT arasında əməkdaşlıq" haqqında Qətnamə layihəsində Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasına mənsubluğunu təsdiqləyən düzəlişə səsvermədə Belarus bir qayda olaraq ya iştirak etməmiş, ya da ki, bitərəf qalmışdır. MDB üzvü olan dövlətlərdən Rusiya və Tacikistanla yanaşı, Belarus da bu məsələdə hələlik bitərəf mövqe nümayiş etdirməyə üstünlük verir.

Moldova. Azərbaycanla Moldova arasında diplomatik əlaqələrin yaradılması haqqında Protokol 1992-ci il mayın 18-də imzalanmışdır. 1996-cı ilə qədər iki ölkə arasındakı münasibətlər əsasən beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən əməkdaşlıqdan, ölkələri təmsil edən rəsmi və qeyri-rəsmi

strukturların nümayəndələrinin ayrı-ayrı fərdi əlaqələrindən ibarət olmuşdur. Dövlətlərarası əlaqələr isə 1997-ci il noyabrın 26-27-də Moldova Prezidenti P.Luçinskinin Azərbaycana rəsmi səfərindən sonra yaradılmışdır. Səfər çərçivəsində Azərbaycan və Moldova Respublikaları arasında "Dostluq və Əməkdaşlıq haqqında" Müqavilə, bir neçə hökumətlərarası Saziş və digər hüquqi-normativ sənədlər imzalanmışdır.

2004-cü ildə Moldova özünün Ukraynadakı səfirini eyni zamanda Azərbaycana da təyin etmiş, Azərbaycan isə 2005-ci ilin martında Moldovada öz səfirliyini açmışdır. İkitərəfli əlaqələrin inkişafı baxımından 2004-cü il oktyabrın 26-27-də Moldovanın Prezidenti V.Voroninin Azərbaycana rəsmi səfəri mühüm rol oynamışdır. O, Azərbaycan Prezidenti İ.Əliyevlə danışıqlar aparmış və siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələrin inkişafı məsələlərini müzakirə etmişdir. Səfər zamanı 9 sənəd, o cümlədən "Azərbaycan Respublikası Prezidentinin və Moldova Respublikası Prezidentinin Birgə Bəyannaməsi" imzalanmışdır.

Keçən illərdə iki ölkə arasında çoxsaylı dövlətlərarası, hökumətlərarası və müəssisələrarası hüquqi-normativ sənədlər imzalanmışdır. 2005-ci il aprelin 21-də Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin Moldovaya rəsmi səfəri zamanı iki ölkə arasında daha 5 sənəd imzalanmışdır. 2005-ci il iyunun 16-da Azərbaycan Prezidenti İ.Əliyev beynəlxalq investisiya forumunda iştirak etmək üçün Ukraynaya səfəri çərçivəsində yenidən Moldova Prezidenti V.Voroninlə görüşmüş, qarşılıqlı əlaqələrin vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparmışdır. Onu da qeyd edək ki, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı beynəlxalq tədbirlərdə Moldova həmişə Azərbaycanın mövqeyini dəstəkləmişdir. 2008-ci ilin aprel Moldova prezidenti V.Voronin Azərbaycana rəsmi səfər etmiş, 2009-cu il oktyabrın 9-da isə Prezident İ.Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək məqsədilə Moldovada

işgüzar səfərdə olmuşdur. Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında 53 ikitərəfli sənəd imzalanmışdır.[214]

§ 4.3. Cənubi Qafqazın regional geosiyasi maraqlar sistemi: Azərbaycan, Gürcüstan və Ermənistan arasındakı münasibətlərin və dinc-yanaşı yaşamanın əsas şərtləri və tələbləri

Bəhs olunduğu kimi Avrasiyanın "strateji planetar məkan" kodu daşıyan və mühüm geosiyasi əhəmiyyətə malik olan ərazilərindən biri də Qərb və Şərq əlaqələrində körpü rolunu oynayan Cənubi Qafqazdır. Cənubi Qafqaz respublikaları - Azərbaycan, Gürcüstan və Ermənistan Qərb və Şərq əlaqələrində dənizlərarası aralıq keçidləri, quru və dəniz kommunikasiyaları vasitəsi ilə onun Avropa hissəsini təşkil edir.

Cənubi Qafqaz ölkələri siyasi inkişaf, demokratik transformasiya və Qərbə inteqrasiya baxımından Orta Asiya dövlətlərindən həm əlverişli vəziyyətdədir, həm də yuxarıda qeyd olunduğu kimi, bir qədər irəlidədirlər.

Cənubi Qafqaz da Orta Asiya və Xəzər hövzəsi ilə birlikdə özünün enerji resursları və karbohidrogen ehtiyatları (Azərbaycan), Şərq-Qərb quru, hava, su yolları və nəqliyyat-kommunikasiya dəhlizləri, satış bazarları, geosiyasi və geostrateji əraziləri və s. ilə transmilli geostrateji və geoiqtisadi maraqların kəsişdiyi və toqquşduğu əsas məkanlardan biri hesab olunur. NATO-nun və Avropa İttifaqının Şərqə doğru genişlənməsi və Qara dəniz hövzəsi, Cənubi Qafqaz ölkələrinin Qərbin yeni qonşusuna çevrilməsi avtomatik olaraq bu bölgənin Avropanın siyasi, iqtisadi və hərbi maraq dairəsinə düşməsinə səbəb oldu. Rusiya və İran yerli ölkələrinin Qərbə hərtərəfli

[214] http://www.mfa.gov.az/files/file/Az%C9%99rbaycan%20-%20Moldova.pdf

inteqrasiyasında maraqlı deyil və bütün gücləri ilə yerli dövlətləri öz təsirləri altında saxlamağa çalışırlar. Onların bu işdə əsas müttəfiqi Ermənistandır.

CƏNUBİ QAFQAZ VƏ ONUN GEOSİYASİ ƏHATƏSİ



Xəritə 12.

Cənubi Qafqazın Orta Asiya və Xəzər-Qara dəniz hövzəsi ilə birlikdə geosiyasi əhəmiyyəti son illərdə mütəxəssislər tərəfindən ilk növbədə üç əsas faktorla dəyərləndirilir:

- *birinci,* bölgənin Şərq-Qərb və Şimal-Cənub əlaqələrində bağlayıcı məkan rolunu icra etməsi və mühüm su, quru, hava və dəmir yolları qovşağında yerləşməsi;
- *ikinci,* dünyanın artan enerji tələbatı qarşısında zəngin karbohidrogen ehtiyatlara malik olması;
- *üçüncü,* fərqli sivilizasiyaların və keçmişdə bir-birinə rəqib olan geosiyasi blokların təmas xəttində yerləşməsi və s.

Bölgənin qeyd olunan transmilli üstünlükləri və cəlbedici xarakteristikası ilə yanaşı, onun yerli geosiyasi vəziyyətini

şərtləndirən bir neçə digər amillər də mütəxəssislərin diqqətini daim özünə cəlb edir. Bu amillərdən b*irincisi,* region ölkələrinin maraqlarından və daxili mühitindən qaynaqlanan, yerli xalqlar və icmalar, onların milli mənafelərinin təminatından doğan beynəlxalq və regional münasibətlər hesab olunur. Məsələ burasındadır ki, Cənubi Qafqaz da Orta Asiya, Xəzər-Qara dəniz hövzəsinin digər bölgələri ilə birlikdə özünün beynəlxalq dəyəri, zəngin və əhəmiyyətli geosiyasi, geoiqtisadi və geostrateji resursları ilə yanaşı, həm də müxtəlif yerli *xalqların yaşadığı konkret sivilizasiya meydanı, milli-etnik yaşayış məskəni və coğrafi məkandır.* Hər bir ölkə bölgədə milli maraqlarını təmin etmək məqsədi ilə özünün xarici siyasətini aparır, başqa dövlətlərlə siyasi, iqtisadi, hərbi, mədəni bloklar yaradır, transmilli və regional inteqrasiya proseslərində iştirak edir. Təbii ki, ölkələrin bəzən bir-biri ilə və regionda marağı olan digər dövlətlərlə geosiyasi, hərbi-strateji və geoiqtisadi maraqları toqquşur, dövlətlərarası münaqişələr yaranır və nəticə etibarı ilə regionda qruplaşma, qarşıdurma və bloklaşmaların şahidi oluruq.

Bundan başqa, Cənubi Qafqaz ölkələrinin beynəlxalq aləmdə baş verən hadisələrə yanaşmaları, öz ölkələri daxilində cərəyan edən qlobal inkişafın yeni çağırışlarına - siyasi plüralizm və vətəndaş cəmiyyəti quruculuğu, iqtisadiyyatın modernləşdirilməsi və liberallaşdırılması, bazar iqtisadiyyatı, azad rəqabət və s. kimi məsələlərə münasibəti bir-birindən fərqidir. Bu maraq və yanaşma fərqləri müvafiq olaraq həm bölgənin ümumi geosiyasi vəziyyətinə, həm də ölkələrarası münasibətlərə öz təsirini göstərməkdədir. Məsələn, hazırda bir qrup dünya və region ölkəsi bölgədə daha çox Rusiyayönlü siyasət apararaq, Qərbin yerli ölkələrlə dərin əlaqələrə girməsini əngəlləməyə çalışırsa, digər qrup ölkə iqtisadi, siyasi və hərbi təhlükəsizlik sahəsində daha çox Qərblə inteqrasiyaya üstünlük verir, öz mənafelərini onun maraqları ilə uzlaşdırmağa çalışır-

lar. NATO və onun genişlənməsi, yaxud KTMT-nin bölgədəki hərbi-geostrateji planları, AB-nin Avrasiya ilə yeni qonşuluq siyasəti və s. transmilli təşəbbüslərə yanaşma da bu ölkələrin bir-biri ilə geosiyasi münasibətlərinə təsir göstərir.

Gürcüstan Cənubi Qafqazın mühüm dövləti kimi: Azərbaycan-Gürcüstan geosiyasi tərəfdaşlığının əsas şərtləri və regional tələbləri

Cənubi Qafqazın geosiyasi arxitekturasının müəyyən olunmasına Azərbaycanla yanaşı ciddi təsiri olan ikinci əsas ölkə Gürcüstandır. Tədqiqatçıların fikrincə, Cənubi Qafqazda yerli dövlətlər içərisində geosiyasi maraqları strateji cəhətdən bir-biri ilə ən sıx bağlı olan ölkələr də məhz Azərbaycanla Gürcüstan, o cümlədən onların regional tərəfdaşı hesab olunan Türkiyədir. Bu ölkələrin ərazisi Xəzər-Qara dəniz hövzəsi arasındakı geosiyasi cəhətdən çox əhəmiyyətli hesab olunan quru dəhlizinin və ümumiyyətlə Şərq-Qərb quru, dəniz və hava nəqliyyatı, digər kommunikasiya əlaqələrinin, əlverişli ticarət yollarının birləşdirici həlqəsini təşkil edir. Onların tərəfdaşlığı və müttəfiqliyi, bir tərəfdən hər üç ölkənin strateji inkişafında, milli və təhlükəsizlik maraqlarının təmin olunmasında, digər tərəfdənsə alternativ Şərq-Qərb geoiqtisadi əlaqələrinin mövcudluğunda mühüm rol oynayır.

Gürcüstan, Azərbaycan və Türkiyə həm də keçən əsrin 90-cı illərindən başlayaraq Qərb ölkələri ilə birlikdə Xəzər hövzəsinin enerji resurslarının birgə istismarının və Rusiyadan yan keçməklə alternativ transmilli layihələr vasitəsilə Avropa bazarlarına ixracının əsas təşəbbüskarları və tərəfdarları kimi çıxış edirlər. Bu üç ölkənin birgə transmilli maraqlarının qorunması və hər üçünün geoiqtisadi təhlükəsizliyini təmin edilməsində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və

qaz kəmərlərinin, o cümlədən, Bakı-Tbilisi-Qars dəmir yolunun xüsusi rolu olmuşdur.

Tədqiqatçılar hesab edir ki, ümumiyyətlə, Gürcüstanın Cənubi Qafqazda siyasi, iqtisadi və hərbi cəhətdən Qərb ölkələri tərəfindən dəstəklənməsinin əsasında da ilk növbədə, onun Azərbaycanın təşəbbüsü ilə Xəzər hövzəsində reallaşdırılan enerji resurslarının ixracı marşurutunun və Şərq-Qərb alternativ nəqliyyat-kommunikasiya dəhlizlərinin üzərində yerləşməsidir. Onların fikrinə görə, Gürcüstan və Azərbaycan Şərq və Qərbi birləşdirən dəhlizin əsasında dayanır. Bu ölkələrin əraziləri Qara və Aralıq dənizi hövzəsini, Qərbin inkişaf etmiş ölkələrini Xəzər bölgəsinin, Avrasiyanın zəngin enerji resursları ilə bağlayır və Şərq-Qərb əlaqələrini öz təsirində saxlamaq istəyən Rusiyaya alternativlik yaradır.[215]

Cənubi Qafqazın regional geosiyasi münasibətlər sisteminin mövcud konfiqurasiyası çərçivəsindən yanaşdıqda Azərbaycan, Gürcüstan və Türkiyənin milli maraqları bir-biri ilə tam üst-üstə düşür və bir-birini tamamlayır. Bəzi mütəxəssislər regionun geosiyasi sistemindəki təxminən oxşar xarakteristikasına görə bu ölkələrin strateji birliyinə alternativ kimi "Rusiya-Ermənistan-İran üçlüyünü" təqdim edirlər.[216]

Gürcüstan müstəqilliyinin ilk günündən Qərb ölkələrinin təmsil olunduğu siyasi, iqtisadi və təhlükəsizlik strukturlarına istiqamət götürərək özünün regional maraqlarının təmin olunmasında nə bölgənin ən iri ölkəsi olan Rusiyanın və onun rəhbərliyi ilə yaranan KTMT-nin, nə də ki, İranın deyil, birmənalı olaraq "regiondan kənar qüvvələr"in - ATƏT, Avropa İttifaqı və NATO-nun imkanlarından istifadə edilməsinə üstünlük verir. Onun rəsmi yanaşmasna görə Cənubi Qafqazda

[215] Ariel Cohen.Ethnic Conflicts Threaten US Interests in the Caucasus// Herritage Foundation Backgrounder, №1222, September 25, 1998, s.56.
[216] C. Eyvazov. Göstərilən əsəri. c.186.

Gürcüstanın əsas siyasi tərəfdaşı ABŞ və Avropa dövlətləri, iqtisadi tərəfdaşı Avropa Birliyi, hərbi-strateji tərəfdaşı isə NATO hərbi bloku və blokun üzvü olan ölkələrdir.

Adı keçən bu ölkələrin və qurumların da hər biri öz növbəsində bölgədə Gürcüstana strateji tərəfdaş kimi yanaşır və onun vasitəsilə həm Cənubi Qafqazda genişlənməyə və möhkəmlənməyə, həm də Rusiyaya, İrana qarşı alternativ istinad mərkəzi yaratmağa çalışır. Bu istiqamətdə, mütəxəssislərin fikrinə görə Gürcüstanla Azərbaycanın regional geosiyasi yanaşması və mövqeləri qismən fərqlənir. Məlumdur ki, Azərbaycan Avropa Birliyi, NATO və onların üzvü olan dövlətlərlə Cənubi Qafqazda müxtəlif proqramlar çərçivəsində əməkdaşlıq və tərəfdaşlıq etsə də, Gürcüstan qədər açıq formada bu qurumlara üzv olmaq haqqında bəyanatlar səsləndirmir, eyni zamanda digər dünya və region ölkələri ilə də geosiyasi, geoiqtisadi və hərbi-geostrateji əməkdaşlıq sahəsindəki münasibətlərini də qoruyub saxlamağa üstünlük verir. Cənubi Qafqazın regional geosiyasi konfiqurasiyasında Gürcüstan və Azərbaycanın Qərb üçün strateji əhəmiyyəti daha çox Rusiyanın və İranın bölgədəki təsirini zəiflətmək və Qərb üçün Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda möhkəmlənmək imkanı yaratması ilə ölçülür.

Gürcüstanın müstəqil ölkə olaraq Cənubi Qafqazda inkişafı və qüdrətlənməsi, bölgədə daha müstəqil, sərbəst siyasət yürütməsi, hərbi-strateji cəhətdən getdikcə güclənməsi Azərbaycanın, sonuncunun eyni uğuru isə müvafiq olaraq Gürcüstanın geosiyasi maraqlarına cavab verir. Gürcüstan hərbi-strateji cəhətdən Azərbaycan üçün də Rusiya ilə Ermənistan arasındakı birbaşa quru əlaqələrinin pozdulması anlamında ciddi əhəmiyyət daşıyır. Bu və digər xüsusiyyətləri nəzərə alaraq, iki ölkə arasındakı birgə hərbi və təhlükəsizlik maraqlarını şərh edən ABŞ alimi S. Kornel yazır ki, Gürcüstanın hazırkı hərbi təhlükəsizliyinin təminatı daha çox Azərbaycanın, Türkiyənin

və NATO-nun Cənubi Qafqazdakı güclü geostrateji mövqeyə malik olmasından və regionda Rusiya-Ermənistan blokunun hərbi gücünə balans yaratmasından asılıdır. Onun fikrinə görə, birincilərin hərbi-geostrateji cəhətdən güclənməsi Gürcüstanın xeyrinə, ikincilərin güclənməsi isə ziyanınadır.[217]

Gürcüstan son beş ildə davamlı olaraq ABŞ meyilli geosiyasi və hərbi-geostrateji kurs nümayiş etdirir və NATO-ya üzv olmaq üçün məqsədyönlü milli strategiya reallaşdırır. Bu dövlət Cənubi Qafqazın regional təhlükəsizliyi ilə bağlı hazırda nə Rusiyanın, nə İranın, nə də qeyri NATO üzvü olan hər hansı digər ölkənin təkliflərini aktual sayır və müzakirəsinə qoşulur. Müşahidələr göstərir ki, Gürcüstanın qərbyönümlü siyasi kurs yürütməsi heç də bu ölkədəki son siyasi dəyişiklik və ABŞ-ın dəstəklədiyi Mixail Saakaşvilinin hakimiyyətə gəlməsi ilə bağlı deyildir. Əslində, Gürcüstanın təhlükəsizlik sahəsində NATO-ya birmənalı inteqrasiya xətti götürməsi keçmiş prezident Eduard Şevardnadzenin vaxtından - 1997-ci ildən başlamışdır. Həmin ildə ölkə parlamenti Gürcüstanın milli suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün bərpası, daxil sabitliyin qorunması və möhkəmlənməsini nəzərdə tutan Milli İnkişaf və Təhlükəsizlik Konsepsiyasını qəbul edərək özünün Avropa yönlü inkişaf prioritetlərini və təhlükəsizlik siyasətini müəyyənləşdirmişdir. Konsepsiyanın müəllifləri Avropa Birliyi və NATO-nun dünyadakı, o cümlədən, Cənubi Qafqazdakı geosiyasi, geoiqtisadi və geostrateji mövqelərini, təsiri və rolunu nəzərə alaraq Gürcüstanın gələcəkdə hər iki quruma üzv olmasını bu ölkənin milli maraqları baxımından təqdirəlayiq hesab etmişlər.

Son on ildə Gürcüstanın iqtisadi sahədə AB, təhlükəsizlik sahəsində isə ABŞ və NATO ilə əməkdaşlığı daha da genişlən-

[217] Svante E.Cornell, Conflict Theory and the Nagorno Karabakh Conflict: Guidelines for Political Solution//Stockholm, Triton publishers, 1997, p. 394

mişdir. NATO-nun assosiativ üzvlüyünə qəbul ediləndən və AB ilə tərəfdaşlıq müqaviləsi imzalayandan sonra bu ölkə hər iki blokla fərqli proqramlar çərçivəsində geniş siyasi, İqtisadi və hərbi əməkdaşlığa başlamış, onun çərçivəsində çoxsaylı tədbirlərə qatılmış, o cümlədən, öz ərazisində Rusiyanın narazılığı ilə qarşılaşan genişmiqyaslı hərbi-dəniz təlimləri keçirmişdir. Bütün bunlar, o cümlədən də Gürcüstanın Rusiyanı regionun geosiyasi və geostrateji proseslərindən kənarda qoymağa yönəlmiş birmənalı siyasəti, müvafiq olaraq iki ölkə arasında münasibətləri getdikcə gərginləşdirmişdir. Bölgədəki əsas güc mərkəzlərindən sayılan Rusiya ilə gərgin münasibətlər bir tərəfdən bu ölkədə məskunlaşmış yüz minlərlə gürcünün vəziyyətini ağırlaşdırmış, Cənubi Osetiya və Abxaziyadakı münaqişələrin uzanmasına, Cavaxetiya kimi bölgələrdə anti-gürcü meyillərinin qızışdırılmasına səbəb olmuş, həm də müvafiq olaraq regional sabitlik və sülh üçün müəyyən problemlər yaratmışdır.

Bu gün Moskva ilə Tbilisi arasındakı əsas problem, tərəflər arasında bir-birinə inamın və etimadın olmamasıdır. Moskvada əmindirlər ki, yaxın vaxtlarda Gürcüstan öz ərazisini ABŞ-ın hərbi bazası üçün açıq elan edəcək ki, bu Rusiya üçün Qafqazdakı geostrateji mövqelərini tamamilə əldən verilməsi hesab olunacaqdir. Belə olacağı təqdirdə, mütəxəssislərin fikrinə görə Rusiyada məskunlaşmış yüz minlərlə gürcünün mümkün deportasiyası, Cənubi Osetiya və Abxaziyadakı dondurulmuş, Cavaxetiyada isə potensial münaqişələrin qabardılması taktikası Moskvanın gündəminə gələ və regiona başqa dövlətlərin hərbçilərinin gətirilməsinə mane olmağın mümkün vasitəsi kimi baxıla bilər. Bununla paralel olaraq, rəsmi Moskva qabaqlayıcı tədbir kimi Gürcüstana öz iqtisadi təzyiqlərini artıraraq bu ölkədən Rusiyaya meyvə-tərəvəz, mineral su və çaxır ixracını qadağan edib. Diqqət yetirsəniz, qadağan olunan məhsullar Gürcüstanın xaricə ixracatının əsasını təşkil edir.

Gürcüstanın Rusiya ilə siyasi və hərbi qarşıdurması Azərbaycanı da məsələyə olduqca həssas yanaşmağa sövq edir. Rəsmi Bakı öz strateji tərəfdaşı hesab olunan Gürcüstanla, eyni statuslu strateji tərəfdaşlıq münasibəti yaratmaqda olduğu Rusiya arasındakı gərginlikdə maksimum bitərəf mövqe tutmaq və hər iki dövlətlə münasibətləri daha da inkişaf etdirmək kursunu davam etdirir. Ölkənin geostrateji maraqları baxımından, bu, yeganə düzgün variant hesab oluna bilər.

Gürcüstan Cənubi Qafqazın regional təhlükəsizliyi sahəsində və qarşılıqlı milli təhlükəsizliklərinin təminatı məsələsində Azərbaycanın ən yaxın strateji tərəfdaşlarından biri hesab olunur**.** Lakin İki ölkə arasındakı münasibətlərdə əsas məqsədlər və maraqlar üst-üstə düşsə də, onların yürütdüyü regional və beynəlxalq siyasi kurs, malik olduğu geoiqtisadi şərait, ölkədaxili ictimai-siyasi və sosial vəziyyət, milli hərbi təhlükəsizlik taktikası və s. məsələlərə yanaşmasında müəyyən fərqlər müşahidə olunur. Bakı ilə Tbilisinin regional və xarici siyasi kursundakı əsas fərqli cəhət, mütəxəssislərin fikrinə görə onunla bağlıdır ki, Azərbaycan bölgədə marağı və nüfuzu olan bütün ölkələrlə dostluq və tərəfdaşlıq əlaqələri saxlamaqla, regional münasibətləri daha tarazlı və balanslı vəziyyətə gətirmək yolunu tutduğu halda, Gürcüstan rəhbərliyi yalnız onların Qərblə inteqrasiya kursunu dəstəkləyən dövlətlərlə əməkdaşlığa üstünlük verir. Gürcüstanın indiki hakimiyyəti Qərblə siyasi, iqtisadi və hərbi inteqrasiya kursunu ali məqsəd kimi elan edib.

Gürcüstan özünün Cənubi Qafqaz siyasətində Türkiyə və Azərbaycanla yanaşı Ermənistanla da yaxşı münasibətlər qurmağa çalışır. Düzdür, o, Ermənistanla münasibətlərdə Azərbaycan və Türkiyədən fərqli olaraq, daha praqmatik əməkdaşlığa üstünlük verilir.

Cənubi Qafqazın regional geosiyasi həyatında Ermənistan faktoru: qonşu ölkələrə qarşı ərazi iddiasının bu dövlət üçün yaratdığı geosiyasi perspektivlər

Cənubi Qafqazın ümumi geosiyasi və geoiqtisadi nizamını, regional təhlükəsizlik sisteminin dinamizmini və hər üç yerli ölkənin bir-biri ilə sıx bağlı olan geosiyasi maraqlarını davamlı olaraq pozan və təhdid edən ölkə Ermənistandır.

Regional səpgidən yanaşılsa bölgənin həm böyük dövlətləri- Rusiya, İran və Türkiyə, həm də Cənubi Qafqazın digər ölkələri- Azərbaycan və Cürcüstanla münasibətlərində Ermənistanın yalnız birinci ikisi ilə ciddi regional problemi müşahidə olunmur. Qalan bütün qonşu ölkələrlə bu dövlətin münasibətləri "qonşularına qarşı işğalçılıq siyasəti yürütməsi", "açıq, yaxud gizli ərazi iddiaları ilə çıxış etməsi" və "regional münasibətlərdə beynəlxalq hüquqa zidd addımlar atması" fonunda daim ciddi problemlərlə müşahidə olunmuşdur.

Mütəxəssislər Ermənistanın Azərbaycan və Türkiyəyə qarşı açıq, Gürcüstana qarşı isə gizli ərazi ilddiaları irəli sürməsi faktını Qafqaz bölgəsində regional geosiyasi sabitliyi və sülh mühitini təhdid edən əsas amillərdən biri kimi dəyərləndirirlər. Onların fikrincə, Ermənistan günü-gündən silahlanaraq bölgədə militarist dövlətə çevrilir. Bu vəziyyət faktiti olaraq ona gətirib çıxarır ki, hər üç dövlət ya Ermənistanın ərazi iddiaları tələblərinə göz yummalı və bu tələblər qarşısında öz təhlükəsizliyinin təhdidinə dözməli, ya da ki, Ermənistanla yanaşı sürətli silahlanmaya davam etməlidir.[218] Göründüyü kimi, Cənubi Qafqazda əslində qeyri-müstəqil siyasət yürüdən və "sifarişli" missiya həyata keçirən Ermənistan regional sülhün və təhlükəsizlik sisteminin yaradılması yolunda ən ciddi maneədir.

[218] C. Eyvazov. Göstərilən əsəri.

Azəprbaycanın geosiyasi maraqlarının, milli təhlükəsizliyinin ermənilər və onların regional, beynəlxalq havadarları tərəfindən təhdid edilməsi, ərazilərinin ələ keçirilməsi və azərbaycanlıların davamlı olaraq etnik təmizlənməyə məruz qalması, faktiki olaraq son iki əsr çərçivəsində davamlı olaraq baş vermişdir. Ermənilər müxtəlif beynəlxalq və regional himayədarlarının dəstəyi ilə İran, Türkiyə və Yaxın Şərqdən köçürülərək, tədricən Cənubi Qafqaza- Azərbaycan ərazilərinə yerləşdirilmiş, burada yerli əhalini sıxışdırmaq, zaman-zaman soyqırımına məruz qoymaq yolu ilə Ermənistan adlanan dövlət yaratmışlar. Bunun əsası, Rusiya və İran arasında Azərbaycan torpaqlarının iki hissəyə parçalanmasını rəsmiləşdirən müqavilələrlə qoyulmuş və sonrakı illərdə davam etdirilmişdir. Təkcə keçən əsrdə onlar tərəfindən üç dəfə- 1905-1920; 1948-1955 və 1988-1993-cü illərdə İrəvan, Naxçıvan. Zəngəzur, Qarabağ, Gəncəbasar, Bakı, Şirvan, Quba və b. tarixi Azərbaycan ərazilərində yerli əhalinin əksəriyyətini təşkil edən azərbaycanlılara qarşı kütləvi soyqırımı və "təmizləmə" əməliyyatı həyata keçirmiş, milyonlarıa dinc əhali qətlə yetirilmiş, yaxud öz ata-baba yurdundan didərgin salınmışdır. Azərbaycanın Zəngəzur, Dağlıq Qarabağ, Naxçıvan və b. tarixi torpaqlarına birbaşa ərazi iddiaları irəli sürərək, zaman-zaman yaranan əlverişli şəraitdən istifadə etmiş və bu bölgələri ələ keçirməyə cəhd göstərmişdir.

XX əsrin 1918-20-ci illərində Rusiya imperiyasının dağılmasından və Cənubi Qafqazda yaranan əlverişli şəraitdən istifadə edərək Azərbaycanın keçmiş İrəvan xanlığını ələ keçirmiş, Türkiyə ilə ərazi birliyini pozmuş, yerli əhalini tədricən tarixi torpaqlardan təmizləməyə başlamışlar. Bunun ardınca, neçə il sonra sovet hökuməti və bolşevik-daşnak hakimiyyəti nümayəndələrinin dəstəyindən bəhrələnərək Zəngəzur mahalını ələ keçirmiş, Azərbaycanın Naxçıvan və Türkiyə ilə quru əlaqələrini tam kəsmiş, bu torpaqlardan istifadə edərək özünə

İranla geosiyasi dəhliz yaratmışdır. Həmin illərdə ermənilər həm də Azərbaycanın tərkibində Dağlıq Qarabağa "erməni muxtar vilayəti" statusu verdirməyə nail omuş və gələcək yeni ərazi iddialarının, separatçı çıxışların təməlini qoymuşlar.

SSRİ-nin dağılması ərəfəsində ittifaq səviyyəsində yaranmış hakimiyyət böhranından, sovet hökuməti rəhbərliyinin ermənipərəst mövqeyindən və başqa əlverişli şəraitdən istifadə edən erməni separatçıları Dağlıq Qrabağ vilayətini və ətrafdakı daha yeddi rayonu işğal edərək, yerli azərbaycanlı əhalini kütləvi surətdə qətlə yetirmiş, yaxud öz torpaqlarından didərgin salmışlar. O vaxtdan bəri- iyirmi ildən artıqdır ki, bu ölkə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış və BMT tərəfindən qəbul olunmuş ərazi bütövlüyünü pozaraq, 20% ərazisini işğal altında saxlayır, dövlətin bu ərazilər üzərindəki milli suveren hüquqlarını, əhalisinin ümumi təhlükəsizliyini birbaşa pozmaqda davam edir.

Hazırda Ermənistan bölgədə Rusiyanın "forpostu" funksiyasını yerinə yetirərək, Cənubi Qafqazın ümumi geosiyasi, geostrateji və geoiqtisadi məsələlərinə təsir etmək istiqamətində "vasitə" kimi istifadə olunur. Ermənistanın bütün regional geosiyasi, geoiqtisadi və hərbi-təhlükəsizlik məsələlərinə yanaşması bu "statusa" müvafiq olaraq, formal xarakter daşıyır və sadəcə olaraq "digər bölgə ölkələrindən geridə qalmamaq" xatirinə "müstəqil dövlət" imitasiyası kimi həyata keçirilir. Rusiyanın hərbi qüvvələrini öz ərazisində yerləşdirən, onun yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi təşkilatının heç bir tələbindən kənara çıxa bilməyən bir ölkənin müstəqil geosiyasət, yaxud təhlükəsizlik siyasəti yürütməsi, sadəcə olaraq mümkün deyildir.

Rusiya Ermənistanı özünün Cənubi Qafqazdakı yeganə «etibarlı strateji müttəfiqi» (forpostu) hesab edir və onunla hərbi, siyasi və iqtisadi əlaqələrə dair indiyə qədər 160-dan çox hüquqi sənəd imzalamışdır. Bunların arasında bəziləri strateji

əhəmiyyət daşıyır və Ermənistanın Rusiyadan tam asılılığını rəsmiləşdirir. Məsələn, 1997-ci il avqustun 29-da imzalanmış "Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilə, 2001-ci il sentyabrın 15-də imzalanmış "2010-cu ilədək uzunmüddətli iqtisadi əməkdaşlığa dair" müqavilə, XXI əsrdə Rusiya ilə Ermənistan arasında müttəfiqliyə dair bəyannamə, 2010-cu ildə həmin hərbi müqavilənin yenidən uzun müddətə uzadılması və s. Ermənistanın Rusiyadan siyasi, hərbi və iqtisadi cəhətdən tam asılılığını təmin etmişdir.

Ermənistanın geostrateji mövqeyi, işğalçılıq siyasəti və iqtisadi potensialının səviyyəsi bu ölkənin regiondakı proseslərdə müstəqil iştirakını mümkünsüz edir və Rusiya ilə eyni mövqedən çıxış etməsini şərtləndirir. Bu gün Ermənistan Rusiyanı öz müstəqilliyinin və təhlükəsizliyinin yeganə təminatçısı hesab edir. Bu ölkə bütün sahələrdə, xüsusilə də hərbi sahədə Rusiyanın inhisarındadır. MDB Kollektiv Təhlükəsizlik Müqaviləsinin cənub istiqamətində əsas və yeganə tərəfdaşı funksiyasını icra edən Ermənistanın hava məkanını, İran və Türkiyə ilə sərhədini də rus hərbçiləri qoruyur.

Ermənistan Rusiya ilə hərbi müttəfiqliyə söykənərək, Azərbaycan və Gürcüstanın Cənubi Qafqazın regional təhlükəsizliyi ilə bağlı bütün təşəbbüslərinə, bölgədə davamlı sülhün bərqərar olmasına ciddi maneçilik törədir.[219] Regiondakı geosiyasi vəziyyətin gərginləşdirilməsi, qüvvələr nisbətinin bu

[219]İki ölkə arasında hərbi müttəfiqliyin bünövrəsi 1992-ci il avqustun 21-də prezidentlər Boris Yeltsin ilə Levon Ter-Petrosyanın imzaladığı "Ermənistan ərazisindəki Rusiya hərbi qüvvələrinin hüquqi statusuna dair" müqavilə ilə qoyulmuşdur. 1995-ci ilin martında isə prezidentlər Moskvada Ermənistan ərazisindəki hərbi bazaya dair 25 illik daha bir müqavilə imzalayıblar. Sənəd Ermənistandakı 102-ci hərbi bazanın 2020-ci ilədək ölkə ərazisində qalmasını nəzərdə tutur. Bundan başqa, Rusiya-Ermənistan birgə hərbi qruplaşması yaradılmışdır, Ermənistan MDB-nin havadan vahid müdafiə sisteminə qoşulmuşdur, Kollektiv Təhlükəsizlik Müqaviləsinin fəal üzvüdür, Rusiya Ermənistana silah və hərbi texnikanı güzəştli qiymətlə "satır" və s.

ölkənin xeyrinə dəyişməsi və Dağlıq Qarabağ probleminin həllinin uzanması da bilavasitə bu hərbi müttəfiqliyin fəsadları hesab oluna bilər.

Ermənistanın Cənubi Qafqazda regional təhlükəsizliyin bərqərar olmasındakı qeyri-konstruktivliyinin əsas səbəblərindən biri də mütəxəssislərin fikrincə, onun İranla olan yaxın münasibətləri, rəsmi Tehranın bu işğalçı ölkəyə verdiyi hərtərəfli siyasi, iqtisadi və hərbi-geostrateji dəstək hesab olunur. Mütəxəssislər Cənubi Qafqazda İran, Rusiya və Ermənistanın geostrateji müttəfiqliyini onların anti-NATO, anti- Türkiyə və anti Aərbaycan mövqeləri ilə əlaqələndirirlər. Xüsusən, son zamanlar NATO-nun "Şərqə doğru genişlənmə" planı çərçivəsində Türkiyənin bölgədə fəallaşması hər 3 dövləti anti-türk mövqeyində birləşdirərək, rəsmi Ankaranın bölgədə möhkəmlənməsinin qarşısını almağa səfərbər etmişdir. Bu dövlətlər Türkiyənin regiondakı türkdilli və qərbyönümlü xalqları öz ətrafında birləşdirəcəyi, xüsusən də Azərbaycanı NATO-ya istiqamətləndirəcəyi ehtimalından qorxur və bu perspektivin onların regiondakı mövqelərinə ciddi zərbə ola biləcəyini proqnozlaşdırırlar.

Ermənistanın Cənubi Qafqazdakı bugünkü rolu da ötən əsrin əvvəlində çar Rusiyası parçalanandan sonra ermənilərin bölgədə tutduğu mövqeni və göstərdiyi fəaliyyəti xatırladır. Cənubi Qafqaz ölkələrindən birinin (Azərbaycan) ərazisinin 20 faizini işğal etmiş və digər dövlətə Gürcüstana qarşı da gizli ərazi iddiaları ilə çıxış edir. Bundan başqa, Ermənistan bölgədə Türkiyənin ərazi bütövlüyünü təhdid edir və ona qarşı açıq ərazi iddiaları irəli sürür, bu dövlətə "tarixi düşmən" kimi yanaşır və beləliklə, regionda qeyri-sabitliyin əsas mənbəyi kimi çıxış edir.

Rusiya ilə hərbi-siyasi müttəfiqlikdən, beynəlxalq aləmdəki himayədarlarından və dünyadakı erməni lobbisinin dəstəyindən sui-istifadə edən Ermənistan uzun illərdir ki, beynəlxalq

hüquqa, qlobal və regional təhlükəsizlik strukturlarının tələblərinə meydan oxuyur və bun görə heç bir ciddi məsuliyyətə cəlb edilmir. Lakin bu gün dünyada və regionda yaranmış yeni geosiyasi durum, terrorizmlə, dağıdıcı ekstremizm və etnik separatizmlə mübarizənin bəşəriyyət üçün ciddi prioritetə çevrilməsi Ermənistan kimi pozucu mövqe nümayiş etdirən ölkələrə də öz təsirini göstərməkdədir.

Ermənistanın regionda ikitərəfli münasibətlərin inkişafına xüsusi əhəmiyyət verdiyi ölkələr Rusiya və İrandır. Hərbi və iqtisadi sahədə daha çox Rusiyaya sığınan Ermənistan üçün coğrafi və geoiqtisadi baxımdan İranla əlaqələr də mühüm əhəmiyyət kəsb edir. Çünki Türkiyə və Azərbaycanla sərhədi bağlı saxlanılan və hərbi-siyasi müttəfiqi Rusiya ilə birgə sərhədə malik olmayan Ermənistan İranı özünün «həyat dəhlizi» adlandırır. Orta Asiya, Çin və Yaxın Şərqə məhz İran vasitəsilə yol tapan Ermənistan üçün Tehranla əlaqələrin pozulması xarici aləmdən tam təcrid olunmaq deməkdir. Bundan başqa, Ermənistan Tehranın regiondakı geosiyasi mövqelərinin güclənməsini, ABŞ-ın köməyi ilə bölgənin əsas transmilli aktorlarına və tranzit dövlətlərinə çevrilən Azərbaycan-Gürcüstan-Türkiyə üçlüyünün regional geosiyasi mövqelərinin zəiflədilməsi yolunda əsas vasitələrdən biri hesab edir.

Rusiya ilə Ermənistanın əlaqələri daha çox iqtisadi, təhlükəsizlik və hərbi strateji əməkdaşlıq xarakteri daşıdığı halda, İranla münasibətlər daha çox geoiqtisadi, enerji, nəqliyyat, kənd təsərrüfatı, maşınqayırma, yüngül və yeyinti sənayesi sahələrini əhatə edir. Hər iki ölkə Ermənistanın əsas xarici partnyoru və sərmayədarı hesab olunur. Məlumatlara görə, indiyədək Ermənistan iqtisadiyyatına qoyulmuş xarici sərmayənin 70 faizdən çoxu məhz bu iki ölkənin payına düşür. Bu ölkədə reallaşdırılan hərbi, strateji və digər layihələr Rusiyanın, digərləri, məsələn, qaz kəmərinin çəkilişi, Mehri-Qacaran tunelinin

tikintisi və başqa layihələr isə yalnız İrəvanın deyil, həm də Tehranın maraqlarına xidmət edir.

Cənubi Qafqaz regionunda keçən əsrin 90-cı illərində həyata keçirilmiş transmilli enerji, nəqliyyat-kommunikasiya və alternativ neft-qaz ixracı layihələri, Xəzər dənizinin Azərbaycan, Qazaxıstan və Türkmənistan zonalarında və bitişik sahil ərazilərindəki transmilli geoiqtisadi proseslər bölgədəki qüvvələr nisbətini son 15 ildə xeyli dəyişmişdir. Nəticədə, faktiki olaraq həm Rusiya və Ermənistan, həm də İran özlərinin qeyri-adekvat siyasəti, Qərbi Xəzərə buraxmamaq istiqamətindəki fəaliyyətləri nəticəsində reallaşdırılan əsas transmilli layihələrdən kənarda qalmışlar. Ermənistanın yürütdüyü işğalçılıq siyasətinə görə Azərbaycan, Rusiyanı öz iddiaları, İranı isə Qərb və ilk növbədə, ABŞ bu proseslərdən təcrid etmişdir. Belə olan halda, bu üç ölkənin alternativ olaraq reallaşdırmağa çalışdığı birgə regional layihələr- İranla Ermənistan üçün "daha çox beynəlxalq təcridolmadan xilas olmağa" xidmət etdiyi halda, Rusiya üçün, sadəcə, Qafqaz siyasətində "Ermənistanı dəstəkləməkdən" başqa bir şey deyildi. Bu gün rəsmi İrəvan Rusiya və İranla sıx əməkdaşlığı da, əsasən, bu kontekstlərdən əsaslandırmağa çalışır. Ermənistanın rəsmi siyasəti bundan ibarətdir ki, Türkiyə və Azərbaycanın tətbiq etdiyi "blokada" şəraitində, İrəvan Rusiya və İranla hərtərəfli strateji əməkdaşlığa məhkumdur. Qeyd etmək lazımdır ki, uzun illər Qərb dairələri Cənubi Qafqazda "Moskva-İrəvan-Tehran" əməkdaşlığını təqdir etməsələr də, bu problemə ciddi mane də olmayıblər. Lakin son bir neçə ildə dünyada və regionda yaranmış geosiyasi vəziyyət, bu məsələyə fərqli yanaşma meyili yaradıb. 11 sentyabr 2001-ci il hadisələrindən sonra işğalçı imici qazanmış və qlobal layihələrdən təcrid olunmuş Ermənistan «ikili oyun» oynamaq imkanından qismən məhrum olub. Bir neçə il əvvəl ABŞ Dövlət Departamentinin İranla qeyri-leqal əməkdaşlıqda təqsirli bilinən Ermənistanın kimya şirkətlərindən birinə qarşı

sanksiyalar tətbiq etməsi və Ağ Evin İran-Ermənistan qaz kəmərinin çəkilişinə olduqca sərt reaksiya verməsi də bunun göstəricisidir.

2005-ci ildən başlayaraq Ermənistanın dünyada və bölgədə üzləşdiyi əsas geosiyasi, geoiqtisadi və hərbi-geostrateji problemləri aşağıdakı kimi xarakterizə etmək olar:

- Dünya birliyi artıq əvvəlki illərdə olduğu kimi Ermənistanın işğalçı siyasətinə, BMT Qətnamələrinə məhəl qoymamasına açıq-aşkar göz yummur. Əsas beynəlxalq təşkilatlar- BMT, ATƏT, Avropa Birliyi, Avropa Şurası, İKT, ayrı-ayrı nüfuzlu ölkələr Azərbaycan torpaqlarının işğal faktını qəbul etmiş və beynəlxalq hüquq normalarına müvafiq olaraq Ermənistanı işğalçı ölkə elan etmişdir. Belə vəziyyətdə Ermənistanın öz siyasətini beynəlxalq aləmdə pərdələmək cəhdləri getdikcə çətinləşir, adekvat olaraq nüfuzu və imici pisləşir;
- Beynəlxalq terrorizmlə mübarizə çərçivəsində ABŞ-la əməkdaşlıqdan imtina edə bilməyən Ermənistan, bununla paralel olaraq İran və Rusiya ilə strateji müttəfiqlik münasibətlərini aşkar şəkildə davam etdirməkdə çətinlik çəkməyə başlayıb. Rəsmi Vaşinqtonun İran-Ermənistan hərbi əməkdaşlığına, xüsusən, Ermənistan vasitəsilə bu ölkəyə qadağan olunmuş ayrı-ayrı hərbi ləvazimatların ötürülməsinə, iki ölkə arasında qaz kəməri və s. enerji layihələrinin planlaşdırılmasına qarşı sərt bəyanatla çıxış etməsi və s. bunun əyani sübutu hesab oluna bilər;
- Öz işğalçı siyasəti ilə qonşu Türkiyə və Azərbaycanla bütün münasibətlərini pozması və nəticədə regionda həyata keçirilən əksər qlobal enerji, nəqliyyat-kommunikasiya layihələrindən kənarda qalması Ermənistanın onsuz da məhdud olan iqtisadi inkişaf resursla-

rını tükətmiş, onu çətin sosial-iqtisadi vəziyyətə salmış, əhalisinin rifah halını bir qədər də pisləşdirmişdir. Azərbaycanın geosiyasi, geoiqtisadi, hərbi qüdrəti artdıqca və bölgənin lider dövlətinə çevrildikcə, Gürcüstanla birlikdə beynəlxalq və regional proseslərə təsir imkanları genişləndikcə, Ermənistanınkı aşağı düşür və perspektivi olmayan bir ölkəyə çevrilir ki, bu da ölkə vətəndaşlarının kütləvi şəkildə xarici dövlətlərə köç etməsinə səbəb olur;

- Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərinin açılışından, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin işə düşməsindən sonra Azərbaycan-Gürcüstan-Türkiyə strateji əməkdaşlığı və regional müttəfiqliyi daha da möhkəmlənəcəkdir. Bu vəziyyət avtomatik olaraq Ermənistanın Gürcüstanla münasibətlərində getdikcə sərinlik yaradacaqdır;
- Nəhayət, özünün işğalçı siyasəti və ərazi iddiaları ilə qonşu Azərbaycan, Türkiyə və Gürcüstanla münasibətlərini pozan, bölgədə bu ölkələrin iştirakı ilə reallaşdırılan bütün beynəlxalq və regional layihələrdən kənarda qalan Ermənistanın getdikcə bütün inkişaf resursları tükənir, fəaliyyət müstəvisi daralır. Bu ölkə Cənubi Qafqazda Rusiyanın miskin "forpostuna", bölgənin ən zəif, etibarsız, arzuolunmaz militarist dövlətinə çevrilir.

2013-cü ilin sentaybr ayının 3-də Ermənistanın rəsmi dairələri Rusiyanın rəhbərliyi altında yaradılan Gömrük İttifaqına (GI) və Avrasiya İqtisadi Birliyinə (Avras.IB) daxil olmağa hazırlaşdıqlarını bəyan ediblər. Baxmayaraq ki, bir qədər əvvəl-16 may 2012-ci ildə ölkənin bu ölkənin Baş naziri Tiqran Sarkisyan "Vedomosti" qəzetində dərc etdirdiyi "Ermənistan Avropaya baxır" adlı yazısında qeyd edirdi ki, Gömrük İttifaqına daxil olmaq onların geosiyasi maraqlarını əks etdirmir. Onun

fikrincə, Rusiya, Qazaxıstan və Belarusla ümumi sərhədlərin olmaması, Ermənistanın bu birliklərdə təmsil olunmasını qeyri-mümkün edir.[220]

Lakin, göründüyü kimi Ermənistan Rusiyanın rəhbərliyi altında yaradılan hər iki quruma daxil olmaq haqqında "qərar vermişdir". 13 fevral 2014-cü ildə "Sibilitas" Fondunun təşkilatçılığı ilə "Ermənistan: bu gün və sabah" mövzüsunda təşkil olunan və keçmiş üç xarici işlər nazirinin iştirakı ilə həyata keçirilən toplantıda Ermənistanın bu cür ittifaqlara daxil olmasına müxtəlif yanaşmalar ortaya qoyulmuşdur. Keçmiş xarici işlər naziri Vahan Papazyan qeyd etmişdir ki, Gİ-na qoşulması Ermənistanın Avropa ilə, o cümlədən Cənubi Qafqazın yerli ölkələri - Gürcüstan və Azərbaycanla münasibətlərinə tam mənfi təsir göstərəcək. Onun fikrinə görə, hazırkı ölkə rəhbərliyi "Gömrük İttifaqına daxil olmanın məsuliyyətini dərindən dərk etmir və bu addımın Cənubi Qafqazın vahid birlik arxitekturasını necə pozacağının fərqində" deyil. Papazyan hazırda Ermənistanın müstəqil siyasət yürütmək üçün hec bir resursa malik olmadığını da xüsusi vurğulamış və hətta, "Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində belə onun müstəqil siyasət yürüdə bilməməsini" diqqətə çatdırmışdır.[221]

Digər keçmiş xarici İşlər naziri Vardan Oskanyan bildirmişdir ki, "Cənubi Qafqaz dövlətlərinin birliyini şərtləndirən yeganə amil, onların Avropaya inteqrasiyaya can atması idi ki, bu da Ermənistanın Gömrük İttifaqına daxil olmaq qərarları ilə aradan qalxdı." Onun fikrincə, Ermənistanın bu addımı onun İran və Gürcüstanla münasibətlərinə də xələl gətirəcəkdir.

[220] См: Саркисян Т. Армения смотрит на Европу. Газета «Ведомости», 16.05.2012г.//www.vedomosti.ru/opinion/news/1745680/vremya_sobirat_edinye_standart)

[221] Проблемы внешней политики Армении бывшие министры иностранных дел предлагают решить «демократией». ИА Regnum, 13.02.2014 г.//www.regnum.ru/news/fd-abroad/1766723.html)

“Artıq Ermənistan nə qonşuları, nə də digər dövlətlərlə müstəqil xarici ticarət əlaqələri qurmaq səlahiyyətində deyil.”[222]

Başqa keçmiş Xarici İşlər naziri A. Arzumanyanın fikrincə, Ermənistan Gömrük İttifaqına daxil olmaqdansa, Avropa Birliyinin Assosiativ üzvlüyünə imza atmalı idi. Onun fikrinə görə, Ermənistanın milli maraqları hazırda qonşu Gürcüstan və Türkiyə ilə tərəfdaşlıq münasibətlərinin qurulmasını diqtə edir... “Amma Gömrük İttifaqına daxil olandan sonra bizi bu ölkələrlə birləşdirən heç nə qalmır”... Arzumanyan, o cümlədən Dağlıq Qarabağ probleminin həllində Ermənistanın mütləq güzəştə getməli olacağını da bəyan etmişdir.[223]

Toplantıda çıxış edənlərin ümumi fikri ondan ibarət olmuşdur ki, Ermənistan rəhbərliyi keçən müddətdə Cənubi Qafaqzda çox əlverişsiz geosiyasət yürütmüşdür ki, bu da nəticədə ölkəni təcrid vəziyyətinə salmışdır.

Bütün bu amillər Ermənistanın son 20 ildə regionda yürütdüyü geosiyasətin nə qədər effektsiz və perspektivsiz olduğunu nümayiş etdirir. Vaxti ilə SSRİ tərkibində dotasiya ilə yaşayan Ermənistan, müstəqillik əldə etdikdən sonra da öz inkişafını əsasən xarici aləmdən gələn yardımlar üzərində qurmuşdur ki, bu da ölkədə davamlı sosial-iqtisadi böhran yaratmışdır. Nəticədə həm bu ölkədən miqrasiya edənlərin sayı fəlakətli səviyyəyə çatmış, həm də əhalinin təbii artımı tam dayanmışdır.

Ermənistan İnzibati İdarəetmə Nazirliyinin qaçqın və məcburi köçkünlərlə iş üzrə agentliyinin rəsmi statistik göstəricilərinə görə, 1990-2010-ci illərdə bu ölkəni 1,5 milyon nəfər insan tərk edib. Ölüm səviyyəsinin doğum səviyyəsindən yüksək olması və miqrasiya prosesi hər il ölkə əhalisinin təqribən 100 min nəfər azalması ilə nəticələnir.

[222] Yenə orada
[223] Yenə orada

Xarici beynəlxalq humanitar təşkilatların Ermənistanın ayrı-ayrı bölgələrinin insan resurslarına dair hesabatlarına görə, əksər rayonlarda yaşayan əhalinin 40 faizi 55-70 yaş qrupuna daxil olanlar, 25 faizi isə 18 yaşa çatmamış uşaqlar, digər 35 faizi qadınlardan ibarətdir.

Ölkəni tərk etmiş vətəndaşlar arasında əmək qabiliyyətli əhali qrupu 80% təşkil edir. Bu, həm də hərbi xidmətə yararlı olan vətəndaşların təqribən 70 faizi deməkdir. ABŞ-ın USAİD təşkilatının Ermənistanda miqrasiya proseslərinə dair araşdırmaları göstərir ki, bu ölkədən xarici ölkələrə axın edən əhalinin ən çoxu 10 faizi geri dönür.

Müxtəlif mənbələr Ermənistan əhalisinin 50 faizdən çoxunun ölkəni tərk etdiyini, başqa ölkələrə mühacirət etdiyini bildirir. Ən müxtəlif beynəlxalq təşkilatların hesablamalarına görə, hazırda Ermənistanda yaşayan real əhalinin sayı rəsmi bəyan olunan rəqəmdən 2 dəfə azdır, yəni 1.5 mln. nəfərdir.

ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Ermənistanda apardığı sorğunun nəticələrinə görə, hərbi xidmətə yararlı 15-49 yaş qrupuna daxil olan vətəndaşların əksər hissəsi başqa ölkələrə köçüb, yaşı 18-ə çatan vətəndaşların 70 faizi isə yaxın bir il ərzində ölkəni tərk etməyə hazırlaşır. Digər tərəfdən, ölkədən getməyə hazırlaşan hər 5 vətəndaşdan 2-si Ermənistanı birdəfəlik tərk edəcəyini bildirir.

Bu, miqrasiya probleminin ölkənin demoqrafik vəziyyətinin kəskinləşməsinə ciddi təsir göstərdiyinə əyani sübutdur. Miqrasiyaya səbəb olan 2 problemin- ağır sosial-iqtisadi vəziyyət və Azərbaycanla müharibə vəziyyəti ölkədən xaricə axının hələ uzun illər davam edəcəyini proqnozlaşdırmağa əsas verir.[224]

[224] Bax: Bayramlı E. Gündəlik Teleqraf qəzeti, N5, 07 fevral 2012.s10.

§ 4.4. Azərbaycanın Qara dəniz hövzəsi və Cənubi Qafqaz ölkələri ilə geosiyasi münasibətlərinin xarakteristikası

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi- regional geosiyasətinin də mahiyyəti, konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş Konstitusiyasında, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin və prezident İlham Əliyevin ayrı-ayrı çıxışlarında öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsində göstərilir ki, Azərbaycan başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurur.[225]

Azərbaycanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda öz geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının təminatı istiqamətində yürütdüyü regional siyasətin mahiyyəti, vəzifələri və istiqaməti haqqında müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyev və prezident İlham Əliyev dəfələrlə çıxış etmiş, müxtəlif beynəlxalq tribunalardan öz fikirlərini səsləndirmişlər.

Azərbaycan prezidenti Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında qeyd etmişdir ki, xarici siyasət sahəsində respublikanın qarşısında duran əsas vəzifələrdən biri dünyada və regionda Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etməkdən, milli mənafelərini qorumaqdan, dünya və region ölkələri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının mövqe-

[225] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2009.s. 8

lərini möhkəmlətmək, həm də iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir.[226]

Azərbaycan dövlətinin regional geosiyasətdə rəhbər tutduğu əsas vəzifələri aşağıdakı kimi təsnif etmək olar:

- ölkənin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü təmin etmək, onun milli təhlükəsizliyini regional və beynəlxalq təhlükəsizlik sistemləri ilə sıx əlaqələndirmək;
- Azərbaycanın geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarına cavab verən regional təşkilatlara qoşulmaq, regional münasibətlərin qurulması və inkişafında fəal iştirak etmək;
- regionun və dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq və tərəfdaşlıq münasibətləri yaratmaq, bu münasibətlərdən respublikanın geosiyasi, geoiqtisadi və hərbi-gestrateji maraqlarının təmin olunmasında istifadə etmək;
- mənafeyi Azərbaycanın milli və regional mənafeləri ilə tam uyğun gələn dövlətlərlə və dövlətlər birliyi ilə strateji müttəfiqlik münasibətləri yaratmaq, respublikanın beynəlxalq və regional mövqelərinin möhkəmlənməsi sahəsində onların dəstəyindən bəhrələnmək;
- respublika əhalisinin əsas hüquq və azadlıqlarının qorunması, ölkənin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə irəliləməsi, müstəqil daxili və xarici siyasət yürütməsi üçün əlverişli regional şəraitin yaradılmasına nail olmaq;
- Cənubi Qafqazın militaristləşdirilməsinin, hərbi bloklararası qarşıdurma və münaqişə mərkəzinə çevrilmə-

[226] Bax: Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005,s.220.

sinin qarşısını almaq, dövlətlərin bir-birinə ərazi iddiaları, etnik separatizm, dini-milli-sosial qarşıdurma və s. zəminində yaranmış regional gərginliyi aradan qaldırmaq və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək;

- Azərbaycana hər hansı xarici təzyiqlərin qarşısını alan və ya onları minimuma endirən beynəlxalq himayə mexanizminin yaradılmasına nail olmaq;
- dövlətin əksər beynəlxalq və regional qurumlarda təmsilçiliyinə, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. təşkilatlarda fəal iştirakına, yaxud qarşılıqlı tərəfdaşlığına çalışmaq və s.

Bütün bu vəzifələr və onların həyata keçirilməsi ilə bağlı konkret səylər Azərbaycan dövlətinin keçən iyirmi ildə beynəlxalq, regional və dövlətlərarası münasibətlər sahəsində atdığı əksər praktiki addımlarda, bağlanan ikitərəfli və çoxtərəfli müqavilələrdə öz əksini tapmışdır.

Müstəqil Azərbaycan dövlətinin regional geosiyasəti öz məqsədləri və xüsusiyyətləri ilə də seçilir:

- regional geosiyasi münasibətlər sahəsində Azərbaycan dövlətinin yürütdüyü siyasətin əsas məqsədi Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda beynəlxalq hüquq normaları və prinsipləri ilə tənzimlənən sivil regional münasibətlərin yaradılması, dövlətlərarası əlaqələrin bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə söykənməsi, mövcud regional münaqişələrin beynəlxalq hüquq normaları, sülh və danışıqlar yolu ilə həll edilməsi, dövlətlərarası mübahisəli məsələlərin ölkələrin suveren hüquqlarına, ərazi bütövüyü və təhlükəsizlik maraqlarına hörmətlə yanaşılması kimi beynəlxalq hüququn fundamental prinsipləri əsasında həll edilməsi və s. ibarətdir.

- geoiqtisadi sahədə Azərbaycan Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda azad regional və beynəlxalq rəqabətə əsaslanan bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olunmasını, ölkələr arasında qarşılıqlı-faydalı əməkdaşlıq mühitinin yaradılmasını, regional geoiqtisadi maraqların uzlaşdırılmasını, uyğunlaşdırılmasını və qarşılıqlı təmin olunmasını təqdir edir.

Hərbi-geostrateji sahədə - Azərbaycan Xəzər hövzəsi və Cənubi Qafqazın militaristləşdirilməsinin, hərbi bloklararası qarşıdurma və münaqişə zonasına çevrilməsinin əleyhinə çıxış edir, dövlətlərin bir-birinə qarşı əsassız ərazi iddiaları irəli sürməsini pisləyir, etnik separatizm, dini-milli-sosial qarşıdurma və s. zəminində yaranmış regional qarşıdurmaları aradan qaldırmağa, bölgə dövlətləri və xalqları arasında qarşılıqlı etimad və mehriban qonşuluq münasibətlərinə əsaslanan tərəfdaşlıq mühiti yaratmağa səy göstərir.

Azərbaycanın regional geosiyasətinin xüsusiyyətlərindən bəhs edərkən beynəlxalq, regional və dövlətlərarası münasibətlərin inkişaf tendensiyasına uyğun çevik, praqmatik və tarazlı olmasını, qonşu ölkələrlə və dünya siyasətinə əhəmiyyətli təsir gücü olan böyük dövlətlərlə əlaqələrə üstün yer verməsini, həmin ölkələrlə tərəfdaşlıq münasibətlərinin yaradılmasını ön plana çıxarmasını, xarici aləmlə Azərbaycanın strateji mənafelərinin uzlaşdırılması zərurətini dərk etməsini və s. mühüm amilləri də xüsusi qeyd etmək lazımdır.

Azərbaycan demokratik və hüquqi dövlət quruculuğu yolu tutduğundan onun regional geosiyasəti də dünya təcrübəsinin bütün mütərəqqi nailiyyətlərini, sivil beynəlxalq normaları özündə əks etdirir və hər cür etnik və dini məhdudiyyətləri inkar edir.

Azərbaycanın müasir regional geosiyasəti açıq və demokratik prinsiplər əsasında qurulmuş, xalqın və dövlətin mənafe-

lərinə, mentalitetinə zidd olmayan bütün beynəlxalq normaları özündə birləşdirmişdir.

Mütəxəssislər Azərbaycanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yürütdüyü regional siyasətin *prioritet vəzifələri sırasına*, *ilk növbədə* bölgənin əsas geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqları üzrə regional və beynəlxalq tərəfdaşlarla qarşılıqlı maraqlara söykənən ikitərəfli və çoxtərəfli münasibətlərin qurulması və tərəfdaşlıq səviyyəsinə qaldırılması siyasətini aid edirlər. Keçən müddətdə Azərbaycan bu istiqamətdə Ermənistan istisna olmaqla, həm regionun bütün yerli ölkələri- Rusiya, Türkiyə, İran, Ukrayna, Gürcüstan və s., həm də dünya dövlətləri- ABŞ, Çin, Yaponiya, Cənubi Koreya, Avropa Birliyi və İslam konfransı təşkilatı ölkələri və s. ilə ikitərəfli və çoxtərəfli regional tərəfdaşlıq əlaqələri qurmağa nail olmuşdur. Azərbaycanın regionda həyata keçirdiyi effektli siyasət və nümayiş etdirdiyi aktiv fəaliyyət nəticəsində dünyanın bir çox transmilli qlobal məsələlərinin həllində ciddi amilə çevrilməyi bacarmışdır. Məsələn, öz prinsipal və etibarlı regional siyasəti ilə Azərbaycan hazırda Avropanın enerji təhlükəsizliyinin təminatı, Şərq-Qərb nəqliyyat-kommunikasiya əlaqələrinin həyata keçirilməsi, dünyanın və regionun hərbi-geostrateji təhlükəsizlik arxitekturasının qurulmasında həlledici amilə çevrilmişdir. Yaxud, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarlarına daşınması ilə bağlı, Azərbaycanın Gürcüstan, Türkiyə, ABŞ və Avropa Birliyini ilə eyni mövqedən çıxış etməsi onlar arasında *enerji sahəsində strateji tərəfdaşlıq münasibətləri* yaratmışdır. Bu tərəfdaşlığa söykənərək Azərbaycan regionda BTC və BTƏ kimi transmilli layihələri həyata keçirmiş, TANAP, TAP, Şahdəniz 2 və s. transmilli layihələr üzrə beynəlxalq və regional tərəfdaşlar qazanmışdır.

Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda reallaşdırılan bütün bu layihələrin həyata keçirilməsi ilə bağlı Azərbay-

canın göstərdiyi milli iradənin reallaşmasına ABŞ, Avropa Birliyi, Türkiyə və s. ölkələrin, onlara məxsus aparıcı transmilli şirkətlərin verdiyi dəstək həlledici rola malik olmuşdur. Xüsusilə, yenicə müstəqillik əldə etmiş Azərbaycan, XX əsrin sonlarında regionda yaranmış çox gərgin bir geosiyasi vəziyyətdə ABŞ və Avropa Birliyi dövlətlərinin hərtərəfli dəstəyinə söykənərək, "Xəzər dənizinin hüquqi statusu" kimi mürəkkəb bir problemi aradan qaldırmış, hövzənin karbohidrogen ehtiyatlarını Qərb şirkətləri ilə birgə istehsal etməyə nail olmuş, bölgənin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji həyatında öz prinsipial mövqelərini qoruyub saxlaya bilmişdir.

Bir qədər sonra, ABŞ və AB-nin dəstəyi ilə Cənubi Qafqaz və Xəzər hövzəsində reallaşdırılan TRASEKA nəqliyyat-kommunikasiya layihəsinin ardınca, yeni bir transmilli layihəsinin - Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişi ilə bağlı müqavilənin imzalanması və yolun inşasına başlanması, bir tərəfdən Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı *nəqliyyat-kommunikasiya sahəsində strateji tərəfdaşlıq əlaqələrni* daha da gücləndirmiş, digər tərəfdənsə onların Şərq-Qərb nəqliyyat-kommunikasiya sistemindəki rolunu xeyli artırmışdır. Qeyd edək ki, Azərbaycan layihənin Gürcüstan hissəsinin tikinti xərclərini ödəmək üçün ona ilkin olaraq 200 milyon ABŞ dolları kredit verib, tikintinin başlanmasına şərait yaratmışdır. Bu layihə Türkiyə ilə Gürcüstanı, geniş anlamda Avropa ilə Asiyanı birləşdirən ilk dəmir yolu olduğundan mühüm beynəlxalq strateji əhəmiyyətə malikdir.

ABŞ-ın 1990-cı ilin ortalarından başlayaraq Xəzər dənizi hövzəsinin geostrateji əhəmiyyətini nəzərə alıb, bu regionla bağlı fəal geosiyasət aparması, Avropanın enerji təchizatının şaxələndirilməsi və Xəzərin karbohidrogen ehtiyatlarının nəqli üzərində Rusiyanın nəzarətini azaltmaq üçün BTC və BTƏ kimi enerji dəhlizləri layihələrini fəal şəkildə dəstəkləməsi də təsadüfi deyildi. Çünki, mütəxəssislərin fikrinə görə, Azərbay-

canın təşəbbüsü və milli iradəsi ilə reallaşdırılan Xəzər dənizinin zəngin neft-qaz resurslarının Rusiya və İrandan asılı olmayan alternativ yollarla Avropaya nəqli həm bölgənin enerji istehsal edən ölkələrinin, həm də ABŞ və AB-nin regional geosiyasi maraqlarına uyğun idi. ABŞ hesab edirdi ki, BTC və BTƏ Rusiya və İranın regionun enerji ehtiyatlarına nəzarət etməsinin qarşısını ciddi şəkildə alır, Türkiyə isə ABŞ-ın investisiya şirkətlərinə regionda sərmayə qoymasına dəstək verir. [227]

Azərbaycanın Xəzər hövzəsi və Cənubi Qafqazdakı nüfuzunun möhkəmlənməsinə, müvəffəqiyyətli transmilli enerji və nəqliyyat-dəhliz siyasəti yürütməsinə onun *Avropa Birliyi ilə çoxtərəfli, və Birliyin ayrı-ayrı üzvləri ilə ikitərəfli* dinamik əməkdaşlığı da mühüm təsir göstərmişdir. Qeyd edək ki, Azərbaycanın AB ölkələri ilə bağlı siyasətində iki əsas cəhət xüsusi yer tutur. Bunlardan biri AB ölkələri ilə iqtisadi və siyasi münasibətləri inkişaf etdirməkdirsə, digəri Dağlıq Qarabağ probleminin həlli üçün onların dəstəyindən yararlanmaqdır. Qərb tədqiqatçıları hesab edir ki, "Bakı ilə faydalı tərəfdaşlıq etmək istəyən qurum onun Dağlıq Qarabağ problemi ilə bağlı prioritetlərini nəzərə alınmalıdır və reallıq onu göstərir ki, qərbyönümlü regional inteqrasiya, iqtisadi rifah və Qara dəniz – Xəzər regionunda Rusiyanın müdaxiləsini məhdudlaşdırmaq kimi məsələlər yalnız Qarabağ münaqişəsinin nizamlanmasından sonra öz həllini tapa bilər". [228]

Ortaq maraqlar əsasında Azərbaycanın Xəzər hövzəsi və Cənubi Qafqazda həyata keçirdiyi regional siyasəti, irəli sürdüyü bütün geosiyasi, geoiqtisadi və hərbi-geostrateji təşəbbüsləri birmənalı dəstəkləyən bölgə ölkəsi *dost və qardaş Türkiyə hesab olunur*. Bu da, mütəxəssislərin fikrinə görə, təsadüfi deyil. Məsələn, bu ölkənin ictimaiyyəti yaxşı bilir ki, bütün

[227] Vladimir Papava. "Qafqaz Tandemi"nin yaradılması və inkişafı // "Azerbaijan Focus" jurnalı, №1, 2009, s. 86.
[228] Alexandros Petersenin göstərilən məqaləsi, s.197.

regional təzyiqlərə baxmayaraq, Xəzər hövzəsinin zəngin neft və qaz məhsullarının dünya bazarlarına məhz *Türkiyə* vasitəsilə ixrac olunması ideyasının əsasında Azərbaycan dövləti dayanır. Bu strateji seçim enerji-nəqliyyat qovşağı kimi Türkiyənin Avrasiyadakı və dünyadakı geosiyasi, geoiqtisadi rolunu və nüfuzunu artırmışdır. Azərbaycan Türkiyəni regionda özünə ən etibarlı, strateji tərəfdaş hesab etdiyindən, özünün Qərblə bütün transmilli enerji, nəqliyyat-kommunikasiya və digər əlaqələrini məhz bu ölkə vasitəsilə reallaşdırmağa qərar vermişdir. BTC və BTƏ kimi neft-qaz kəmərləri layihəsinin reallaşması, TANAP, TAP kimi yeni transmilli qaz kəmərlərinin gələcək dividentləri, Şahdəniz 2 fazası çərçivəsində istehsal olunacaq zəngin qaz ehtiyatları və s. nəinki təkcə Türkiyənin enerjiyə olan tələbatlarının ödənilməsi, həm də bu ölkənin regionda geosiyasi mövqeyinin möhkəmlənməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bundan başqa, Bakı-Tbilisi–Qars dəmir yolu, TRASEKA və s. nəqliyyat-kommunikasiya arteriyaları də Türkiyəni Şərq-Qərb əlaqələrinin mərkəzinə çevirir.

Mütəxəssislərin fikrinə görə, Türkiyə Azərbaycanın ona Cənubi Qafqazda yaratdığı əlverişli vəziyyətdən yararlanaraq, Gürcüstanla da regional strateji tərəfdaşlıq yarada bilmişdir. Xüsusən, NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində Gürcüstanın hərbi sisteminin NATO standartlarına uyğunlaşdırılması prosesində Türkiyə fəal iştirak edir. Onların fikrinə görə, hazırda Türkiyə Avropanın enerji bazarının əsas oyunçusu, regionun isə "böyük enerji terminalı" funksiyasına iddia edir. Türkiyə günü-gündən güclənən geoiqtisadi mövqeyindən, Xəzər hövzəsindən istehsal olunan neft və qazın nəqli üçün tranzit mərkəzə çevrilməsindən bəhrələnməklə, Avropa İttifaqına daxil olmaq şanslarını artırmaq istəyir.[229]

[229]Жизнин С.З. В поисках баланса интересов (Геополитические и экономические аспекты каспийских нефти и газа) // Независимая Газета, 12.01.2010 http://www.ng.ru/printed/235472

Azərbaycan Xəzər hövzəsi və Cənubi Qafqazda ABŞ, AB, Türkiyə və s. kimi Qərb tərəfdaşları ilə yanaşı, *regionun MDB kimi regional birlikləri, ayrıca Rusiya, Ukrayna, Belarus, Qazaxıstan, Özbəkistan, Türkmənistan kimi ölkələri ilə* də hərtərəfli tərəfdaşlıq münasibətlərin yaradılması və inkişaf etdirilməsində maraqlıdır. Çünki, dövlətlərarası münasibətlərin yüksək siyasi səviyyəsi- ölkə prezidentlərinin isti münasibətləri bütün digər hökumətlərarası səviyyələr üzrə də əməkdaşlığın inkişafını şərtləndirir. Xüsusən, hazırda MDB çərçivəsində regional iqtisadi, siyasi, sosial-mədəni, mənəvi, ticarət, investisiya və s. sahələrində ikitərəfli və çıxtərəfli tərəfdaşlığa, hərbi və sərhəd təhlükəsizliyi ilə bağlı münasibətlərin səhmana salınmasına bu dövlətlərin hər birinin xüsusi ehtiyacı vardır.

Azərbaycanla Rusiya arasında bütün əsas sahələr üzrə tərəfdaşlıq münasibətlərinin inkişaf etməsinə baxmayaraq, tərəflər arasında bir sıra regional məsələlərlə bağlı geosiyasi maraqların üst-üstə düşməməsi halı da özünü büruzə verir. Belə hal, xüsusən, Cənubi Qafqazda Ermənistana və onun qonşu ölkələrə qarşı həyata keçirdiyi işğalçılıq siyasətinə münasibətdə daha açıq şəkildə müşahidə olunur. Mütəxəssislərin fikrinə görə, Dağlıq Qarabağ münaqişəsi yaranan vaxt Rusiyanın Ermənistanı dəstəkləməsi açıq-aşkar şəkildə özünü göstərirdi. Bu hal mütəxəssislərin fikrinə görə, Azərbaycan Avroatlantik strukturlara inteqrasiya yolunu tutmasına, öz təhlükəsizliyinin təmin olunmasında ABŞ və Qərb dövlətlərinin təsir imkanlarına arxalanmasına təkan verdi. [230]

Ermənistan Kollektiv Təhlükəsizlik Şurasının üzvü olduğundan onunla Rusiya arasında strateji əməkdaşlıq münasibətləri mövcuddur. Ən başlıcası, Ermənistan ərazisində Rusiyanın hərbi bazaları yerləşir. Bundan əlavə Rusiya Ermənistanın

[230] Aleksandr Raar, Sebastian Riider. Azərbaycanın Qara dəniz – Xəzər hövzəsi regionunda geosiyasi rolu // "Azerbaijan Focus" jurnalı, №1, 2009, s. 45.

enerji və silahlarla təmin olunmasında əsas yer tutur. Rusiya Azərbaycanın Cənubi Qafqazda aparıcı yer tutmasının qarşısını almağa və ABŞ-ın regiona təsir imkanlarını zəiflətməyə çalışır.[231]

Azərbaycanın Xəzər hövzəsi və Cənubi Qafqaz siyasətinin *əsas prioritet istiqamətlərindən birini* Xəzər hövzəsi və Orta Asiyanın Qazaxıstan, Türkmənistan və Özbəkistan kimi türkdilli dövlətləri ilə ikitərəfli və çoxtərəfli qarşılıqlı münasibətlərin yaradılması və inkişaf etdirilməsi vəzifəsi təşkil etmişdir. Azərbaycan da daxil olmaqla türkdilli dövlətlər arasında mədəni, siyasi və iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi məqsədilə keçən illərdə Türkdilli Dövlətlər Birliyi, Türkdilli Dövlətlərin və İcmaların Dostluq, Qardaşlıq və Əməkdaşlıq Konqresi, Türkdilli Dövlətlərin Parlament Assambleyası və s. kimi çoxtərəfli tərəfdaşlıq strukturları qurulmuş və fəaliyyətə göstərmişdir.

Azərbaycan, mütəxəssislərin fikrinə görə, eyni zamanda Mərkəzi Asiya neftinin Avropaya daşınması üçün perspektivli dəhliz rolunu oynayır. O, Mərkəzi Asiya ölkələrinin yalnız Qərbə çıxışını deyil, eyni zamanda onların karbohidrogen ehtiyatlarının Qara dəniz və Aralıq dənizi limanlarına çıxışını təmin edir. Gələcəkdə Rusiyanın Mərkəzi Asiya qazından asılılığının artacağı təqdirdə, Azərbaycan Mərkəzi Asiyanın karbohidrogen ehtiyatlarının tranziti marşrutunun əsas alternativ operatoru olaraq Xəzər regionunun enerji bazarında mövqeyini möhkəmləndirəcəkdir. Bu halda ən mühüm məsələ enerji ehtiyatlarının nəqli marşrutlarının və əsas alıcı tərəfin müəyyən edilməsidir. Xəzərin hüquqi statusunun müəyyən olunmaması Qazaxıstandan Bakıya sualtı neft kəmərinin, eləcə də Türkmənistanın maraq göstərdiyi Transxəzər qaz xəttinin çəkilməsinə problem yaradır. BTC və BTƏ kəmərləri tikiləndə nəzərə

[231] Aleksandr Raar, Sebastian Riiderin göstərilən məqaləsi, s. 46.

alınmışdı ki, Xəzərin hüquqi statusu məsələsi həll olunduğu halda onun vasitəsilə Qazaxıstanın və Türkmənistanın enerji resursları da bu marşrutlarla daşınacaq.

Bundan başqa, Azərbaycan Bakı-Axalkalaki-Tbilisi-Ceyhan dəmir yolu ilə vasitəsilə gələcəkdə bu ölkələrin Avropa ilə ticarət əlaqələrində də mühüm rol oynayacaqdır.

Azərbaycanın Xəzər hövzəsi və Cənubi Qafqaz siyasətinin *əsas istiqamətlərdən birini* qonşu İran və digər müsəlman ölkələri ilə münasibətlərin inkişaf etdirilməsi təşkil edir. Bu siyasət, bir tərəfdən din və mədəniyyətlərin ölkənin geosiyasi roluna mühüm təsiri ilə əlaqədardırsa, digər tərəfdən Dağlıq Qarabağ münaqişəsinin həlli üçün islam dövlətlərinin siyasi dəstəyini qazanmaq ehtiyacından irəli gəlir. Azərbaycanın İslam Konfransı kimi nüfuzlu təşkilata üzv olması və üzv ölkələrlə tərəfdaşlıq siyasəti yürütməsi də göstərdiyimiz amillərlə sıx şəkildə bağlıdır.

Azərbaycan İranın Xəzərin hüquqi statusu məsələsində fərqli mövqedən çıxış etməsinə baxmayaraq, bu qonşu dövlətlə yalnız dostluq və tərəfdaşlıq münasibətləri yaratmaqda maraqlı olduğunu daim nümayiş etdirir.

Azərbaycanın Xəzər hövzəsi və Cənubi Qafqaz siyasətinin mühüm bir istiqamətini də ayrıca olaraq Ukrayna, Gürcüstan və Moldova ilə üzv olduğu *GUAM çərçivəsində tərəfdaşlıq münasibətlərini davam və inkişaf etdirməkdən* ibarətdir. Hazırda Azərbaycan neftinin və qazının gələcəkdə birbaşa olaraq Avropa dövlətlərinə nəql etməyə imkan verəcək Odessa-Brodı boru kəmərinin Qdanska (Polşa) qədər uzadılması GUAM-ın diqqət mərkəzində dayanan əsas məsələlərdəndir. Ukrayna və Moldova Xəzər neftinin Qara dəniz vasitəsilə Avropaya ixracında kifayət qədər maraqlıdır, Azərbaycan və Gürcüstan isə Qafqaz dövlətlərini Avropaya bağlayan körpüdür. “Bu dörd dövlət Rusiya marşrutlarına alternativ olan, Avropadan Asiya-

ya qədər uzanan "İpək Yolu"nun – Traseka layihəsinin bərpasında əsaslı rol oynayacaqlarına ümid edirlər".[232]

Azərbaycanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının təminatı istiqamətində yürütdüyü regional siyasətin *ikinci əsas prioritet vəzifəsi* regional münasibətlərdə fərqli maraqların qarşıdurma meydanına deyil, əməkdaşlıq mərkəzinə çevrilməsi xətti hesab oluna bilər. Azərbaycan 1993-cü ildən etibərən bölgənin bütün geosiyasi, geoiqtisadi və hərbi-geostrateji məsələlərində öz prinsipial maraqlarını ön plana çəkərək, ölkələrarası sülh və tərəfdaşlıq siyasəti yürüdür. Rəsmi Bakı, bir tərəfdən MDB, Rusiya və İranla, bu məkanda fəaliyyət göstərən digər regional mərkəzlərlə qarşılıqlı-faydalı əlaqələri inkişaf etdirir, tərəfdaşlıq münasibətlərini qoruyub saxlayır, digə tərəfdənsə ABŞ, Türkiyə, Avroatlantik strukturları və AB ilə strateji tərəfdaşlıq münasibətləri yaradır. Mütəxəssislərin fikrinə görə, geosiyasi maraqları üst-üstə düşməyən ayrı-ayrı dövlətlərin hər biri ilə qarşılıqlı münasibətləri inkişaf etdirməsi, öz ətrafında ortaq maraqlar zəminində onları birləşdirmək cəhdi Azərbaycanın regional geosiyasi mövqelərinin möhkəmlənməsinə mühüm təsir göstərir.

Təkrar və məşğələ sualları:

1. Postsovet məkanının ümumi geosiyasi xarakteristikasını verin və SSRİ-nin süqutundan sonrakı prosesləri – MDB-nin yaranması və fəaliyyətinin geosiyasi aspektlərini, qurumdaxili qruplaşma meyillərinin səbəbi və istiqamətlərini şərh edin.

[232] Svante E.Cornell. Geopolitics and strategic alignments in the Caucasus and Central Asia // Journal of İnternational Affairs, June – August 1999 www.sam.gov.tr/perceptions/Volume4/June-August1999/cornell.pdf

2. MDB çərçivəsindəki iyirmi illik dövlətlərarası münasibətlərin və çoxtərəfli inteqrasiya proseslərinin əsas meyillərini və xarakteristikasını verin, Azərbaycanın bu prosesdə iştirakının əsas məqsədləri və nəticələri haqqında danışın.

3. Orta Asiya və Xəzər hövzəsinin ümumi geosiyasi xarakteristikasını verin, hövzə dövlətlərinin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlar sistemini şərh edin və Azərbaycanla tərəfdaşlıq münasibətlərini təhlil edin.

4. Qara dəniz hövzəsinin regional geosiyasi xarakteristikası haqqında nə bilirsiniz, bölgə ölkələri – Ukrayna, Belarus, Gürcüstan və digərlərinin Azərbaycanla geosiyasi münasibətlərinin əsas məqamlarını təhlil edin.

5. Cənubi Qafqazın ümumi geosiyasi mənzərəsini təsvir edin, Azərbaycanın region ölkələri ilə – Gürcüstanla strateji tərəfdaşlığının, Ermənistanla isə hərbi qarşıdurmasının əsas səbəblərini və xarakteristikasını şərh edin.

6. Azərbaycanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yürütdüyü geosiyasi, geoiqtisadi və hərbi-geostrateji kursun mahiyyətini, nəticələrini və bu sahədə bölgə ölkələri ilə yaranmış münasibətlərin xarakterini təhlil edin.

III BÖLMƏ

AZƏRBAYCANIN BEYNƏLXALQ ALƏMLƏ GEOİQTİSADİ MÜNASİBƏTLƏRİ

I FƏSİL
XƏZƏR HÖVZƏSİ VƏ CƏNUBİ QAFQAZIN GEOİQTİSADİ XARAKTERİSTİKASI: BEYNƏLXALQ, REGİONAL, YERLİ MARAQLAR SİSTEMİ. AZƏRBAYCANIN REGİONAL GEOİQTİSADİ MARAQLARI VƏ ENERJİ STRATEGİYASI

§ 1.1. Transmilli dünya güclərinin və yerli dövlətlərin Xəzər hövzəsi və Cənubi Qafqazdakı geoiqtisadi maraqları və fəaliyyətinin xarakteristikası

XX əsrin son onilliyində və XXl əsrin başlanğıcından dünyada gedən ictimai-siyasi və beynəlxalq əhəmiyyətli hadisələr nəticəsində Xəzər dənizi və Qafqaz regionu yenidən öz əhəmiyyətinə görə dünyada mərkəzi yerlərdən birini tutdu. Planetin artan enerji ehtiyacı və ticarət əlaqələrinin genişləndirilməsi tələbatı qarşısında Xəzər hövzəsi və Cənubi Qafqaz özünün zəngin karbohidrogen ehtiyatları, Şərq-Qərb, Şimal-Cənub əlaqələrində, nəqliyyat-kommunikasiya sahəsindəki imkanları ilə bütün transmilli dünyanın nəzər diqqətini özünə cəlb edərək geoiqtisadi maraqların kəsişmə nöqtəsinə çevrilmişdir.

Mütəxəssislərin hesablamalarına görə, Xəzər dənizi dünyanın ən zəngin karbohidrogen ehtiyatlarına malik olan bölgələrindən biridir. Bu faktor bölgənin ümumi geosiyasi və geoiqtisadi ab-havası, dünya ölkələrinin bölgəyə can atmsı və s. transmilli proseslərlə yanaşı, həm də Xəzərətrafı ölkələnin birbiri ilə regional münasibətlərinə, bütövlükdə xarici siyasətlərinə, daxili ictimai-siyasi vəziyyətinə və regional dövlətlərarası

münasibətlərin xarakterinə də ciddi təsir göstərmişdir. Bir tərəfdən xarici siyasət və geosiyasi yönlərindəki fərqlər, digər tərəfdən dövlət idarəçiliyi və siyasi sistemlərinin müxtəlifliyi, bölgədəki geosiyasi, geostrateji gücləri və imkanları, maraq və mənafe ambisiyaları arasındakı üst-üstə düşməyən məqamlar, beynəlxalq aləmin müəyyən təhrikləri də daxil olmaqla XX əsrin son onilliyindən başlayaraq Xəzər hövzəsi ölkələrini ciddi geoiqtisadi qarşıdurmaya süvq etməyə başladı. Xüsusilə, sonuncu faktor- bəzi xarici dairələrin təhriki ilə bölgə ölkələrində qızışdırılan milli, dini və vətəndaş müharibələri, etnik separatizm, siyasi böhran və daxili hərc mərclik, süni şəkildə qaldırılmış sərhəd-ərazi çəkişmələri, Xəzər dənizinin statusu kimi məsələlər hövzəni ciddi dövlətlərarası regional və dövlətdaxili milli-vətəndaş münaqişələri ocağına çevirdi.

Bu gün dünyanın müxtəlif güc mərkəzlərinin Avrasiyada geosiyasi maraqlarının kəsişməsindən danışarkən, ilk növbədə enerji resursaları ilə zəngin olan Xəzər hövzəsi və Qərb-Şərq, Şimal-Cənub geosiyasi münasibətlərinin, onların iqtisadi-ticarət və digər əlaqələrinin üzərində yerləşən Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz göz önünə gəlir. Bu bölgə əvvəlki dövrlərdə özünün xüsusi geosiyasi, geostrateji və geoiqtisadi xarakteristikası ilə XVlll əsrin sonu – XlX əsrin əvvəllərindən Rusiya imperiyası və Osmanlı dövlətinin, XX əsrin əvvəllərindən Avropa imperiyalarının və ABŞ-ın, SSRİ dağılandan sonra- XX əsrin sonlarından bütün transmilli qlobal dünyanın diqqətinə isə cəlb etməyə başlamışdır. Region ümumi xarakteristikasına görə Avrasiyanın böyük geosiyasi oyunlar məkanı hesab edilsə də, ilk növbədə neft-qaz amili və transmilli əlaqə imkanları onu güc mərkəzlərinin diqqətinə cəlb etmişdir.

Xəzərin təbii ehtiyatları haqqında müxtəlif mənbələrdə müxtəlif məlumatlar verilir. Bəzi hesablamalara görə, bu hövzədə dünyanı yüz il müddətində fasiləsiz təmin etmək gücündə olan milyardlarla ton neft və trilyonlarla kub metr qaz ehtiyatı

var. Məsələn, "Nyu-York Tayms" qəzetinin 6 avqust 1997-ci il tarixli sayında göstərilir ki, Xəzərin sənaye və ya karbohidrogen ehtiyatları indiki qiymətlərlə 4 trilyon ABŞ dolları məbləğində qiymətləndirilən 200 milyard barrel neftdən, habelə bir o qədər də qaz ehtiyatlarından ibarətdir.[233]

Xəzər regionunun regionda geosiyasi və geoiqtisadi əhəmiyyəti həm bölgənin əsas güc mərkəszi hesab olunan Rusiya üçün, həm regionda "yeni transmilli güc mərkəzi" omaq istəyən Qərb üçün, həm də digər maraqlı ölkələr üçün şübhəsizdir. Əvvəla, Rusiya buradakı SSRİ dövründən qalmış ənənəvi rəqabətdənkənar üstün mövqelərini, bölgənin geosiyasi, geoiqtisadi, hərbi-geostrateji hədəfləri, transmilli nəqliyyat-kommunikasiya sistemi, Xəzər hövzəsi ölkələrinin mövcud karbohidrogen sərvətləri üzərindəki təsirini qoruyub saxlamaq istədiyi kimi, Qərb də eyni sahələr üzrə regiona daxil olmaq və möhkəmlənmək, buradakı əlavə təbii ehtiyatlar hesabına Avropanı yeni yüzillikdə "qeyri-sabit Yaxın Şərq" və "monopolist mövqeyə malik Rusiya"nın neft-qaz asılılığından qurtarmaq istəyir. İkincisi, regionda möhkəmlənməklə, Rusiya yenə də özünün ənənəvi hərbi-geostrateji mövqelərini qorumağa çalışdığı halda, ABŞ və onun NATO üzrə müttəfiqləri Xəzər-Qara dəniz hövzəsində, Mərkəzi və Orta Asiyayada yeni-yeni təsir mexanizmləri qazanmağı, geosiysi, geoiqtisadi və hərbi-geostrateji cəhətdən öz mövqelərini gücləndirməyi və əsrlər boyu bu regionda davam edən Rusiya hegemonluğunu azaltmağı düşünür. Hər iki tərəf bu regionunu öz milli təhlükəsizlik maraqları zonasına daxil edərək buradakı mövqelərini getdikcə gücləndirməyə çalışırlar. Həmin düşərgələri təmsil edən diplomatik mənbələr bu prosesi "beynəlxalq hüquq normaları", "milli dövlət maraqlarının tələbləri" və s. kimi ümumişlək terminlərlə, müxtəlif geosiyasi arqumentlərlə əsaslandırmağa çalışsalar da,

[233] Bu haqda daha geniş materiallarla növbəti bömələrdə tanış olmaq olar

bu ölkələrin rəsmi hərbi-geostrateji strukturlarının qəbul etdiyi Milli Təhlükəsizlik və Hərbi Doktrinalar əsil geosiyasi mətləbləri ortaya qoyur.[234]

Xəzər hövzəsində Rusiya və Qərbin mövcud geoiqtisadi maraqları xaricində, həm də digər yerli böyük və kiçik ölkələrin milli maraqları təmsil olunur. Bunların sırasına digər dörd Xəzər hövzəsi ölkələrini- İranı, Azərbaycanı, Qazaxıstanı, Türkmənistanı, ayrıca bölgənin əsas geosiyasi oyunçusu hesab olunan Türkiyəni, bölgədən kənar ölkə hesab olunan Çini və Cənubi Qafqazda xüsusi strateji ərazi xarakteristikası ilə seçilən Gürcüstanı qeyd etmək olar. Bu qrupa daxil olan ölkələr ya İran kimi öz fərqli maraqları ilə çıxış edir və yalnız onu təmin edən ayrıca geoiqtisadi tələblər irəli sürür, yaxud da Qərblə Rusiya arasında müəyyən seçim edərək, bu düşərgələrdən biri ilə öz geoiqtisadi maraqları çərçivəsində uzlaşdırılmış tərəfdaşlıq siyasəti yürüdür.

Geoiqtisadi parametrlər üzrə qiymətləndirmə aparsaq Xəzər hövzəsindəki düşərgələrarası rəqabətin əsas hədəfləri ilk növbədə:

- Xəzər hövzəsinin enerji ehtiyatlarına sahiblənmək, yaxud onlardan istifadə sahəsində üstün mövqeyə malik olma;
- hövzənin enerji resurslarının istehsalı və dünya bazarlarına çıxarılmasında iştirak;
- enerji istehsalında istifadə edilən texnologiya və maliyyə vəsaitinə sahiblik, yaxud malik olmaq;
- hasilatın pay bölgüsü;
- bölgənin enerji ixracı marşrutlarının və nəqliyyat-kommunikasiya sistemlərinin seçiminə təsir etmək və onların fəaliyyətinə nəzarət;

[234] Bu sənədlərlə və onların şərhi ilə regional təhlükəsizliyə həsr olunmuş bölmədə tanış olmaq olar

- neft-qaz istehsalı, istehlakı və ixracı sahəsindəki digər geoiqtisadi dividentlərə sahib olma və s. ibarətdir.

Yeni minillliyin başlanğıcından dünyada geoiqtisadi rəqabətyaradıcı amillərdən biri də Azərbaycan, Qazaxıstan və Türkmənistanın malik olduğu zəngin enerji ehtiyatlarının dövriyyəyə buraxılmasının, bu ölkələrin enerji ixrac edən digər əsas transmilli aktorlara qoşularaq dünya bazarlarına alternativ neft-qaz məhsulları çıxarmasının dünyada yaradacağı geoiqtisadi ortamın Rusiya, ABŞ, Avropa Birliyi ölkələri, İran və s. ökələr üçün yardacağı rəqabət, yaxud qazandıracağı dividentlər məsələsidir. Odur ki, Rusiya və Qərbin energetika üzrə ekspertləri gələcəkdə Xəzər nefti və qazının OPEK-in və Rusiyanın dünya bazarındakı mövcud nüfuzunu zəiflətmək gücündə olduğunu proqnozlaşdıraraq bu sahədə öz ölkələrinə müvafiq tövsiyələr verirlər.

Həm ABŞ, həm də Rusiya politoloqları Xəzər hövzəsini öz ölkələrinin əsas maraq dairəsi və geosiyasi hədəfi hesab edir. Xüsusən, məşhur ABŞ alimi-politoloqu Zbiqnev Bjezinskii və rus alimi-politoloqu Aleksandr Duqin çoxsaylı əsərlərində Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz onların təmsil etdikləri ölkələrin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqları çərçivəsində müvafiq olaraq geniş təsnif və tədqiq olunur, bu dövlətlərin milli maraqlarının reallaşdırılması yönündə yol xəritələri tərtib edilir və tövsiyələr verilir. Məsələn, A.Duqin öz əsərlərində Xəzər hövzəsi və Cənubi Qafqazı ABŞ və Rusiya maraqlarının keçmişdə, indi və gələcəkdə daim toqquşduğu bölgə kimi dəyərləndirir. Onun fikrinə görə, "bölgənin geosiyasi xarakteristikası və əsas həlledici koordinatları tələb edir ki, burda mütəmadi olaraq Rusiyanın ABŞ və NATO Alyansı ilə geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqları toqquşmalıdır".[235] Xüsusən, o, Xəzər neftinin istehsalına və

[235] Дугин А.Г. Основы геополитики. Геополитиеское будущее России. М., 2000 с.804.

Qərbə ixracı marşrutlarına nəzarəti bu iki geosiyasi güc arasındakı mübarizənin əsas hədəfi hesab edir. Onun fikrinə görə, həmin hədəflərə nəzarəti ABŞ öz əlinə keçirə bilsə, o zaman dünya hegemonluğu tam təmin ediləcəkdir. [236]

A. Duqin öz əsərlərində, həm də bölgədə ABŞ hegemonluğunun qarşısının alınması və Rusiyanın maraqlarının təmin olunması məqsədiilə özüməməxsus vasitə və metod da təklif edir. O hesab edir ki, Xəzər hövzəsi və Cənubi Qafqazdakı qlobal qarşıdurmada Rusiya heç nə qarşısında dayanmadan ən "düzgün yolu seçməlidir". Bu yol onun fikrincə, həm "ənənəvi olaraq bölgədəki ölkələrin daxilindəki Rusiyameyilli elitaları mükafatlandırmaq", həm də "ölkədaxili ziddiyyətlərdən yeni metodlarla, qeyri-ənənəvi vasitələrlə istifadə etməkdən" ibarət olmalıdır. O, SSRİ dövründə Xəzər hövzəsi ölkələrinin bir qayda olaraq iqtisadi cəhətdən zəifliyinin və ictimai-siyasi vəziyyətinin ziddiyyətli olmasından doğan qərbmeyilliliyi və anti-Rusiya əhval- ruhiyyəsini yeni metodla aradan qaldırmağı təklif edir. Onun fikrincə "Rusiya SSRİ-nin yaratdığı bu reallığı – anti-Rusiya və qərbyönümlü meyili aradan qaldırmaq üçün, xüsusən də Xəzərin müsəlman ölkələrində, ilk növbədə İranı dəstəkləməli, onunla bu istiqamətdə birgə fəaliyyət qurmalı və strateji müttəfiqlik yaratmalıdır". Bundan başqa, o hesab edir ki, İranla siyasi və strateji pakt imzalayaraq "Türkiyənin təsiri altında olan qərbmeyilli ölkələrdə daxili ictimai-siyasi vəziyyəti qarışdırmaq, etnik-dini mənsubiyyət və digər amillər üzrə vətəndaşlar arasındakı münasibətləri gərginləşdirmək, Rusiya və İranmeylli ölkələrdə isə əksinə, "maksimal dərəcədə daxili vəziyyəti sabitləşdirmək və bu ölkələrin inkişafına dəstək vermək" lazımdır.[237] Hətta A. Duqin o dərəcəyə qədər eyforiyaya qapılır ki, açıq-aşkar "Rusiyanı qonşu ölkələrin

[236] Yenə orada. s.811.
[237] Yenə orada. s. 809-813.

daxilində İranmeyilli separatçı və dini-fanatik meyilləri dəstəkləyəmək, qızışdırmaq, Rusiyaya sərf edəcək geosiyasi vəziyyət yaratmaq kimi mənfur metodları belə utanmadan" təklif edir.[238] Beləliklə, göründüyü kimi, Rusiyanın ən məşhur geosiyasətçi alimi öz ölkəsinin Xəzər hövzəsindəki geoiqtisadi maraqlarını belə qeyri-humanist metodlarla təmin etməyi təklif edir.

A. Duqin və onun Rusiya geosiyasətindəki digər tərəfdarları müasir sivil beynəlxalq münasibətlərin əsasını təşkil edən aktorlararası açıq, liberal və ədalətli rəqabət şəraitində yarışmanı ağıllarına belə gətirmədən, Xəzər hövzəsində "onlarla olmayan, qərbmeyilli, Rusiyaya praqmatik yanaşma nümayiş etdirən yerli ölkələri sıxmaq, dağıtmaq, onların daxili həyatındakı sabit vəziyyəti qarışdırmaq, vətəndaşlarını bir-birinə salışdırmaq, milli-dini qarşıdurmanı qızışdırmaq və regionda gərgin vəziyyət yaratmaqla" Rusiyanın burdakı maraqlarını qorumağı təklif edir.

Digər rus alimləri də A.Duqinin Xəzər hövzəsində Rusiyanın İranla müttəfiqliyi ehtiyacını, Xəzər hövzəsi və Cənubi Qafqazda ABŞ-ın və Qərbin planlarına qarşı ciddi dirəniş siyasətini dəstəkləsə də, bu siyasəti "yerli ölkələrin daxili vəziyyətini gərginləşdirmək" planına qarşı çıxırlar.[239] Bunların sırasında N. Nartovu, İ.Yejiyevi, İ.Vasilenkonu və digərlərini qeyd etmək olar. Məsələn, N. Nartov yazır ki, əlbəttə, "Rusiya Xəzər hövzəsi və Cənubi Qafqazda öz milli maraqlarını təmin etməlidir. Lakin bu, həmin ölkələrdə daxili münaqişəli vəziyyətlər yaratmaqla deyil, daha çox bu ölkələrlə sıx qonşuluq münasibətləri yaratmaqla, əməkdaşlıq etməklə həyata keçirilməlidir."[240]

[238] Yenə orada.
[239] Bax: Нартов Н.А. Геополитика. М.,1999.с.163-164; Эжиев. И.Б. Геополитика Каспийского региона. М.,2007. с. 13-14 и.т.д.
[240] Bax: Нартов Н.А. Геополитика. М.,1999.с.163-164

N. Nartov öz əsərinin nəticə hissəsində qeyd edir ki, ABŞ və onun müttəfiqlərinin Xəzərin Qərb hissəsinə-Cənubi Qafqaza can atması ilk növbədə Rusiyanı bu bölgədən sıxışdırmağa hesablanıb. Lakin Rusiya ABŞ-ın geniş və cəlbedici maliyyə-texniki imkanları, təklifləri ilə rəqabət aparmaq, Qərbin bölgədə möhkəmlənməsinin qarşısını almaq üçün ilk növbədə həmin bölgədəki yerli ölkələrlə- Zakavkaziya respublikaları ilə möhkəm hərbi-geostrateji, iqtisadi və ticarət tərəfdaşlığı yaratmalıdır.[241]

Yaxud, İ. Yejiyev hesab edir ki, Xəzər hövzəsində Rusiya öz maraqlarını istifadə etmək üçün "yerli ölkələrin daxili vəziyyətin gərginləşdirmək və bu işdə İrandan istifadə etmək siyasəti deyil, əksinə, İranın imkanlarından Qərbə qarşı istifadə etmək siyasəti həyata keçirməlidir".[242] Bundan başqa, İ. Yejiyev də N.Nartovun fikirlərini bölüşərək, Rusiyanın Xəzər hövzəsi və Cənubi Qafqazda Qərblə rəqabət aparmaq üçün bölgə ölkələri ilə daha sıx əməkdaşlıq münasibətləri yaratması, öz hərbi-geostrateji və iqtisadi gücünü artırması zərurətini qeyd edir.[243]

Xəzər hövzəsində digər əsas xarici transmilli maraq daşıyıcısı hesab olunan düşərgə ABŞ və onun müttəfiqləri hesab olunan Avropa Birliyi ölkələridir. Bu düşərgəni təmsil edən geosiyasətçilərin ümumiləşmiş geosiyasi, geoiqtisadi və hərbi-geostrateji baxışlarını, Qərbin əsas geoiqtisadi maraqlarını, onların təmin olunması yolları və vasitələrini rus geopolitiklərinin tam əleyhinə olan konsepsiya ilə özünün çoxsaylı əsərlərində ABŞ alimi Z. Bjezinski irəli sürür.[244]

---

[241] Yenə orada.
[242] Эжиев. И.Б. Геополитика Каспийского региона. М.,2007. с. 14.
[243] Yenə orada. s. 16,177.
[244] Бжезинский З.К. Великая шахматная доска. М., 2003; его же, Выбор. Мировое господство или глобальное лидерство. М., 2004; и.т.д.

Z.Bjezinski "Seçim. Dünya hakimi, yaxud qlobal liderlik" adlı əsərində yazır ki, XXl əsrdə Qərbin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının təmsil olunduğu əsas bölgə Avrasiyanən Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsidir. Onun fikrinə görə bu bölgədə Qərbin maraqları yerli regional liderlərlə- ilk növbədə Rusiya, İran və qismən də Türkiyə ilə kəsişir. Z. Bzejinskiyə görə bölgədə ayrı-ayrılıqda bu dövlətlərin heç biri öz iradələrini yerli ölkələrə qəbul etdirmək gücündə deyillər. O ki qaldı onların birinin, yaxud bir neçəsinin bu istiqamətdə birləşməsinə, buna Amerika və Avropa Birliyi imkan verməməlidir və verməyəcək də.[245]

Z.Bjezinski özünün "Böyük şahmat taxtası" adlı əsərində qeyd edir ki, Qərb və Amerika ilk növbədə bu bölgədə müstəqil siyasət yürütmək meyili nümayiş etdirən yerli dövlətləri dəstəkləməli, onları Rusiyanın geosiyasi və hərbi-geostrateji təsirindən çıxarmalı, malik olduqları milli sərvətlərini sərbəst istifadə etmək, öz maraqlarını təmin etmək gücünə gətirməlidir. O, müstəqil siyasət yürüdən ökələrdən Azərbaycanı, Özbəkistanı və Gürcüstanı, o cümlədən Moskvaya meyilli fəaliyyət nümayiş etdirən Qazaxıstanı dəstəkləməyi tövsiyə edərək, bu ölkələrin bölgə siyasətində Qərbin xüsusi marağında olduğunu bəyan edir və müxtəlif amillərlə əsaslandırır. [246]

Z.Bjezinskinin fikrinə görə, Xəzər hövzəsi və Cənubi Qafqazın gələcək taleyi ilk növbədə Azərbaycan və Qazaxıstanın Rusiyadan asılılığının azaldılması və dəstəkləyərək Qərbə inteqrasiyasının gücləndirilməsindən asılıdır. Çünki, onun fikrincə, Azərbaycanın mövqeyinin güclənməsi gələcəkdə Rusiyanın Gürcüstan və Ermənistandakı, Qazaxıstanın mövqeyinin güclənməsi isə Orta Asiyanın, xüsusən də Qərbin ciddi enerji

[245] Bax: Бжезинский З.К. Выбор. Мировое господство или глобальное лидерство...s.135
[246] Бжезинский З.К. Великая шахматная доска...s.175-180.

marağında olan Türkmənistanın mövqeyinə ciddi təsir göstərəcək, bu ölkənin və Azərbaycanın enerji resurslarının sərbəst istehsalı və alternativ marşrutla Qərbə çıxarılması istiqamətində transmilli layihələrin reallaşmasını təmin edəcəkdir.[247]

Z.Bjezinski hesab edir ki, Amerikanın mlli maraqları Xəzər- Qara dəniz hövzəsi və Cənubi Qafqz bölgəsində "Rusiyadan xilas olub müstəqil siyasət yürütmək istəyən" ölkələrin maraqları ilə üst-üstə düşür. O hesab edir ki, bunun üçün Amerika və Qərb bölgədə elə vəziyyət yaratmalıdır ki, maneəsiz olaraq bütün dünya ölkələri bura daxil olmaq, öz maliyyə və texnoloji imkanlarını yerli iqtisadi layihələri yönəltmələrini təmin etsin, heç bir yerli böyük dövlət bu bölgə üzərində rəqabətdən əlavə üstünlüyə malik olmasın.[248]

Müasir dünyada Xəzər hövzəsinin rolu, hövzənin enerji ehtiyatlarının istehsalı, və ixracı marşrutları ilə bağlı öz geosiyasi fikirlərini "Sivilizasiyaların toqquşması" adlı əsərində digər məşhur ABŞ alimi C. Hantinqton da söyləmişdir. O, Avrasiyanı, xüsusən də Xəzər hövzəsini XXl əsrdə dünyada yaşanacaq əsas geoiqtisadi münaqişə bölgələrindən biri kimi dəyərləndirir və hesab edir ki, hövzədə əsas qarşıdurma obyekti Xəzər neftinin sərbəst istehsalı, bölüşdürülməsi və Avropa bazarına çıxarılması ilə bağlı olacaqdır. Burada əsas mübarizə bölgənin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqelərinə sahib olma və bu sahələrdə üstünlük qazanma uğrunda aparılacaqdır. [249]

Digər məşhur ABŞ politoloqu və diplomatı, keçmiş dövlət katibi H. Kisincer də öz əsərində[250] Xəzər hövzəsi və Cənubi Qafqazdakı Qərb-Rusiya geosiyasi maraqlarının toqquşması, bölgənin müasir hərbi-geostrateji, geoiqtisadi və digər maraq-

[247] Yenə orada. s. 180.
[248] Yenə orada. s. 178.
[249] Bax: Хантингтон С. Столкновение цивилизаций. М., 203. с. 392-394.
[250] Кисинсер. Г. Дипломатия. М., 1997. с.743.

ları ətrafında cərəyan edən proseslərdən bəhs etmişdir. O yazır ki, müasir dövrdə Rusiya bütün keçmiş postsovet məkanında öz milli təhlükəsizlik maraqlarını yerli ölkələrin təhlükəsizlik maraqlarını nəzərə almadan, onların daxili işlərinə qarışmaqla təmin etmək istəyir. H. Kisincer hesab edir ki, Rusiya hələ də özünün imperiya ambisiyalarını yaşadaraq, qonşu dövlətlərlə bu və ya digər geosiyasi məsələlərini güc yolu ilə, onların ərazisinə müdaxilə etməklə həll etməyi düşünür. Amma o getdikcə müasir dünyanın tələbləri ilə razılaşmaq və imperiya ambisiyalarından imtina etmək məcburiyyətində qalacaqdır.

Göründüyü kimi, həm Rusiya, həm də Amerika alimləri içərində bölgənin geosiyasi və geoiqtisadi vəziyyətini obyektiv və qeyri-obyektiv qiymətləndirən, yerli ölkələrlə geoiqtisadi münasibətlərə dair konstruktiv və qeyri-konstruktiv, daha məqbul və qeyri-məqbul təkliflər irəli sürən politoloqlar, geosiyasətçilər və dövlət xadimləri mövcuddur.

§1.2. Xəzər hövzəsi və Cənubi Qafqazın enerji mənbələri və onun bölgədə yaratdığı müasir geoiqtisadi vəziyyət. Xəzərin neft-qaz ehtiyatlarının Avropanın enerji təhlükəsizliyindəki rolu

Bəzi müstəqil tədqiqatçıların araşdırmalarına görə, Xəzər hövzəsinin və Orta Asiya bölgəsinin karbohidrogen ehtiyyatları hər hansı kənar təsirlərdən xilas edilsə və sərbəst şəkildə Avropa bazarlarına ixrac olunsa üçüncü minillikdə Qitənin enerji tələbatını azı 100 il müddətində fasiləsiz təmin etmək və Rusiyanın bu sahədəki hazırkı monopoliyasından xilas etmək mümkündür. (Bax:Xəritə) Odur ki, hövzənin alternativ karbohidrogen məhsullarına sahiblənmək, yaxud daha münasib qiymətlərlə, uzunmüddətli müqavilələr əsasında onu əldə etmək istəyi SSRİ dağılandan sonra dünyanın ABŞ və Avropa Birliyi

XƏZƏR HÖVZƏSİ, FARS KÖRFƏZİ VƏ YAXIN ŞƏRQİN
ƏSAS ENERJİ MƏNBƏLƏRİ: 1. NEFT YATAQLARI, 2. QAZ MƏNBƏLƏRİ



Xəritə 13.



Xəritə 14.

kimi aktorlarını, regionda aparıcı mövqe sahibi olan Rusiya kimi dövlətlərini, Çini, İranı, Türkiyəni və s. ölkələri ciddi regional geoiqtisadi fəaliyyətə sövq etmişdir. Bəhs olunan dövrdə bölgənin Azərbaycan, Türkmənistan, Qazaxıstan və s. kimi zəngin enerji ehtiyatlarına malik ölan yeni ölkələrinin ən mühüm geosiyasi problemi isə qabaqcıl Qərb texnologiyası əsasında öz neft-qaz yataqlarını işə salmaq, istehsal edilən məhsulları sərbəst şəkildə dünya bazarlarına çıxarmaqdan ibarət idi. Xəzərin dərin qatlarındakı zəngin neft-qaz məhsullarını çıxarmaq, sərbəst şəkildə dünya bazarlarına nəql etmək və satmaq üçün bu ölkələrə 1990-cı illərin əvvəlindən başlayaraq çoxlu başlanğıc maliyyə vəsaiti və texniki yardım tələb olunurdu. Belə imkanlara nə həmin dövlətlərin özü, nə də ki, bu məhsullara rəqabətdənkənar sahib olmaq istəyən Rusiya, İran və Türkiyə kimi region ölkələri malik deyildilər.

Bu miqdrarda maliyyə və texniki imkanlara yalnız varlı ABŞ və Qərb ölkələri, Yaponiya, Çin kimi dövlətlər, onların təsiri altında olan beynəlxalq maliyyə qurumları malik idi. Həmin ölkələr və qurumlar isə bir qayda olaraq, öz maliyyə və texniki imkanlarını o sahəyə yönəldir ki, gələcəkdə onun verəcəyi iqtisadi dividentləri aşkar formada görsünlər və bu dividentlər üçün beynəlxalq qarantiya əldə etsinlər. Belə qarantiyanı yalnız, neft və təbii qaz ehtiyatları ilə zəngin ölkələrin geosiyasi və geoiqtisadi müstəqilliyi, sərbəst ixrac marşrutlarına, sabit ictimai-siyasi həyata, liberal iqtisadiyyata malik olması və Avropa strukturlarına inteqrasiyası nəticəsində əldə etmək olardı. Qərb mütəxəssisləri o dövrdə xüsusilə qeyd edirdilər ki, nə qədər ki, bu ölkələr Rusiyanın geosiyasi təsirindən tam azad olmayıb, Qərbin geosiyasi dairəsinə inteqrasiya olunmayıb, onların qarantiyalı gələcəyinə ümid azdır.

Planetin əksər bölgələrinin, o cümlədən də Xəzər hövzəsi və Orta Asiyanın enerji ehtiyatlarının və ehtiyaclarının, dünyadakı neft-qaz istehsalı və istehlakının həcmi ilə bağlı məlumatlar çox vaxt gizlədilir, yaxud bilərəkdən səhv göstərilir, müxtəlif subyektiv mənbələrə istinad edilərək fərqli şəkildə təqdim olunur. Bəzən eyni ölkənin təbii ehtiyatlarının miqdarı, gündəlik neft-qaz istehsalı, daxili ehtiyacı və ixracı ilə bağlı bir neçə fərqli rəqəm səsləndirilir. Bu fərqi rəqəmləri hansısa vahid bir metodoloji yanaşma və amillə izah etmək çox çətindir. Burada, hər il yeni-yeni yataqların kəşfi və istehsala cəlb olunması, dünyada təbii ehtiyatlarının həcminin müəyyənləşdirilməsi zamanı istifadə edilən fərqli metodoloji yanaşma və s. obyektiv səbəblərlə yanaşı, ayrı-ayrı maraqlı aktorların subyektiv geosiyasi, geoiqtisadi maraqlarından irəli gələn, bilərəkdən yol verilən saxtalaşdırmalara da, məqsədyönlü əks-təbliğat istəyi və s. də rast gəlmək olar. Məsələn, bütün parametrlərinə görə Xəzər hövzəsinin ən böyük ölkəsi hesab olunan Rusiya alimləri on il bundan əvvəl- 1997-ci ildə öz qaz ehtiyatlarını, təxminən 50, (dünya qaz ehtiyatlarının 34.3%), İranınkını 21, (14%), qalan Xəzər hövzəsi və Orta Asiya ölkələrinin ehtiyatlarını isə, cəmi 6-7 trln kub metr (4%) miqdarında dəyərləndirirdilər. Bundan da Türkmənistanınkı 3,6, (2%), Qazaxıstanınkın 1,95 (1,3%), Azərbaycanınkın isə 0,9 (0,7%)) miqdarında göstərilirdi.[251] Halbuki həmin dövrün Qərb ekspertlərinin məlumatında bu rəqəmlər azı iki-üç dəfə artıq- təxminən 20-28 mlrd. kub metr miqdarında (dünya qaz ehtiyyatlarının 12-16% qədər) göstərilirdi.

[251]Bax: Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона... с.135.



Xəritə 15.

Eyni məsələni bölgənin neft ehtiyatları haqqında da söyləmək olar. Bəzi rus geoloqlarının proqnozlarına görə, Xəzər hövzəsindəki neft ehtiyatlarının ümumi həcmi 7 milyard tondur (təxminən 50 milyard barel).[252] Başqa rus mənbələri bu rəqəmin 13 milyard ton və daha artıq olduğunu qeyd edirlər. Qərb ekspertlərinə gəldikdə isə qeyd etməliyik ki, hələ SSRİ zamanında ingiltərəli və amerikalı mütəxəssislər hesab edirdilər ki, Xəzər bölgəsində neft ehtiyatlarının həcmi, sovet geoloqlarının təqdim etdiyi rəqəmlərdən qat-qat artıqdır. Məsələn, ABŞ dairələrinin Xəzəryanı ölkələrdən Qazaxıstan, Azərbaycan və Türkmənistanın enerji ehtiyatlarının həcmi haqda səsləndirdikləri rəqəmlər, Rusiya mütəxəssislərinkindən, azı 2-7

[252] Bax: “Каспий: статус, нефть, уровень» ”// www.caspiy.net

dəfə artıqdır.[253] Bu ölkənin Dövlət Departamentinin və Milli təhlükəsizlik Şurasının məruzəsində Xəzər hövzəsinin hazırkı neft ehtiyyatları, təxminən 200 milyard barel (təxminən 27,5 milyard ton) miqdarında göstərilir.[254]

Lakin həm xarici, həm Rusiya mütəxəssislərin, həm də yerli mənbələrin bəyan etdiyi rəqəmlər tez-tez dəyişir və mövcud ehtiyatların miqdarı ilə bağlı vahid metodoloji yanaşmaya söykənmir. Bəzi rusiyalı mütəxəssislər ABŞ və Rusiyanın bölgənin karbohidrogen ehtiyatlarına yanaşmasındakı kəskin fərqə diqqət çəkərək qeyd edirlər ki, "Xəzər neftinin həcmi haqda bu iki düşərgənin göstəriciləri çox fərqlidir. Amerikalı mütəxəssislər olduqca nikbin, rusiyalı ekspertlər isə olduqca bədbin proqnozlar səsləndirirlər."[255]

Göründüyü kimi, dünyanın və Xəzər hövzəsinin təbii ehtiyatlarının həcmi haqda beynəlxalq, regional və milli mənbələrdə səsləndirilən rəqəmlər bir-birindən xeyli fərqlənir. Mütəxəssislərin fikrinə görə bu fərqlər həm də müəyyən geosiyasi və geoiqtisadi amillərinin təsiri ilə formalaşır Lakin həmin subyektiv təsirlər informasiya mənbələrinin metodologiyasında müəyyən fərqlər yaratsa da, ciddi geoloji araşdırmaların nəticələrini şübhə altına ala bilmir. Dünyanın enerji mənbələri və qaynaqları, enerji ehtiyacı, istehsalı və istehlakı ilə bağlı mövcud vəziyyəti qısaca olaraq belə xarakterizə etmək olar: *mütəxəssislər bu rəqəmləri və xəritəni dəqiq müəyyən edə bilmir, siyasətçilər isə yaranmış vəziyyətdən asılı olaraq, həmin xəritə və rəqəmlərlə manipulyasiya edir.*

[253] Bax:"Каспий: зачем он Западу?"// www.caspiy.net
[254] Bax: "Каспий: статус, нефть, уровень» "// www.caspiy.net.
[255] Bax: "Проблемы безопасности Каспийского региона"*//www.cpf.az.*

Dünyanın əksər bölgələri kimi, Xəzər hövzəsinin ümumi və ayrı-ayrı ölkələr üzrə malik olduğu enerji qaynaqları haqqında əsaslandırılmış rəqəmləri ilk növbədə geoloqlar verir. İngiltərənin məşhur Britiş Petrolium (BP) şirkətinin hesablamalarına görə, dünyadakı neft ehtiyatlarının ümumi həcmi 2010-cu ildəki son geoloji kəşflər nəticəsində təxminən 700 milyon barel artaraq, 1383,2 milyard barelə çatıb. Dünyanın mövcud təbii qaz ehtiyatlarının həcmi isə 187,1 trln. kub metr miqdarında göstərilir ki, bu da 2009-cu ildə göstərilən rəqəmdən 2,21 trln kub metr artıqdır. Hər gün dünyada, təxminən 82 milyard barel neft, 3.192 milyard kub metr qaz istehsal və istehlak olunur. [256]

Hazırda dünyanın və Xəzər hövzəsi ölkələrinin təsdiq olunmuş və ehtimal olunan neft və qaz ehtiyyatları aşağıdakı cədvəllərdəki kimidir: (neft- milyard barel; qaz- trln. kub metr)

Xəzəryanı ölkələrdəki mövcud enerji ehtiyatları, neft və qaz istehsalı, hazır məhsulun istehlakı və satışı ilə bağlı müxtəlif mənbələrdən əldə edilmiş rəqəmlərin ölkələr üzrə şərhinə nəzər salsaq görərik ki, vəziyyət aşağıdakı kimidir:

AZƏRBAYCAN: Azərbaycanın mövcud karbohidrogen ehtiyatlarının miqdarı məsələsi uzun müddət bölgənin və dünyanın maraqlı dairələrinin geniş müzakirə obyektinə çevrilmiş, hətta bəzi qüvvələr onu geosiyasi manipulyasiya məqsədi ilə istifadə etmişlər. 1991-ci ildə müstəqillik qazanmasından başlayaraq, Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşdığı və Azərbaycan neftinin bu marşrutla Aralıq dənizinə daxil olduğu günə qədər olan vaxt çərçivəsində bir sıra xarici ölkələrdə davamlı olaraq Azərbaycanın neft ehtiyatlarına dair bədbin, çaşdırıcı və aldadıcı proqnozlar səsləndirilir, ölkənin yaydığı rəsmi məlumatlar şübhə altına alınır və real rəqəmlərin həqiqətə uyğun olmadığı iddia edilirdi. Prezident İlham Əliyevin 2010-cu il

[256] Bax: 2010-cu il dünya energetikasının illik statistik icmalı // BP Statistical Review of World Energy 2009; 2010, // bp.com/statisticalreview

oktyabrın 28-də Ukraynaya səfəri ərəfəsində bu ölkənin mətbuat orqanlarına müsahibəsində də bildirdiyi kimi, "bir vaxtlar bəzi KİV-lər Azərbaycanda neftin olmadığı, BTC layihəsinin

Rəsmi məlumatlara görə:

Cədvəl 1

	təsdiq olunmuş		**ehtimal olunan**	
	neft mlrd. barel	**qaz trln.kub metr**	**neft mlrd. barel**	**qaz trln.kub metr**
Bütün dünyada	1383,2	187.1	--	--
Rusiya	160,0	47,0	200,0	50,0
İran	150,3	33,1	150,3	33,1
Azərbaycan	11,0	2,55	22,0	5-7
Qazaxıstan	5,5	3,00	5,5	5,0
Türkmənistan	8,4	20,0	--	--

Britaniyanın BP şirkətinin məlumatına görə:

Cədvəl 2

	təsdiq olunmuş		**ehtimal olunan**	
	neft mlrd. barel	**qaz trln.kub metr**	**neft mlrd. barel**	**qaz trln.kub metr**
Bütün dünyada	1383,2	187.1	--	--
Rusiya	77,4	44,8	--	--
İran	137,0	29,6	--	--
Azərbaycan	7,0	1,3	--	--
Qazaxıstan	39,8	1,8	--	--
Türkmənistan	0,6	8,0	--	--

heç vaxt reallaşmayacağı və s. haqqında subyektiv rəy formalaşdırmağa çalışırdı. Amma zaman bütün bu iddiaların əsassızlığını sübut etdi. BTC kəmərinin inşa olunduğu zaman Azərbaycan ildə 15-16 milyon ton neft hasil edirdisə, hazırda bu rəqəm 50 milyon tondan artıqdır. Eyni sözləri qaz ehtiyatları haqda da söyləmək olar: bəzi xarici mənbələrin bu ehtiyatların çox az olması haqda iddialarına rəğmən, bu gün Azərbaycan ildə 30 milyard kub metrə yaxın qaz hasil etməklə, regionun əsas qaz ixracatçılarından birinə çevrilmişdir.[257]

Azərbaycanın quruda və dənizdə təsdiq ounmuş və ehtimal olunan **qaz ehtiyatlarının** miqdarını Avropa mütəxəssisləri 2011-ci ildəki son kəşflərə qədər, təxminən 1,3 (təsdiq olunmuş) və 3 (ehtimal olunan), ölkə rəsmiləri (2010-2011-ci illərdə yeni kəşf olunmuş "Ümid" və "Abşeron" yataqlarındakı ehtiyatlar da daxil olmaqla-Ə.H.) müvafiq olaraq 2,55 və 5-7, Rusiya mənbələri 0,9 və 1,2 trln. kub metr həcmində göstərirlər. Göründüyü kimi Azərbaycanın bölgənin qaz təminatı sahəsindəki rolunu kiçiltmək məqsədilə, onun mövcud təbii ehtiyatlarının miqdarını rus mənbələri daha az göstərirlər. Hazırda ölkədə istehsal olunan illik 30 milyard kub metr qazın, təxminən 8-10 milyardı daxili ehtiyaclar üçün istifadə olunur. Qalan hissə isə Gürcüstana, Türkiyəyə, Yunanıstana, Rusiya və İrana satılır. Azərbaycan bölgənin əsas qaz ixrac edən ölkələrindən (Türkmənistan, Qazaxıstan, Özbəkistan, İran və s.) fərqli olaraq, qaz ixracı sahəsində hazırda hər hansı ciddi problemə malik deyil. Onun Bakı-Tbilisi-Ərzurum qaz kəməri vasitəsilə Gürcüstan və Türkiyəyə, Bakı-Astara-İran və Bakı-Qroznı xətti ilə müvafiq olaraq İran və Rusiyaya ixrac kəmərləri mövcuddur. Hazırda Avropa Birliyi Türkiyədən keçməklə Avropa

[257] Bax: Azərbaycan Prezidenti İlham Əliyevin Ukraynanın DEN, PROFİL və Birinci milli televiziya kanalına müsahibəsi // www.president.az

bazarlarına istiqamətlənən NABUKO transmilli qaz kəməri üçün Azərbaycandan 15-20 milyard kub metr maye qaz istəyir. Bundan başqa Avropanın Rumıniya, Bolqarıstan, Macarıstan və b. ölkələri də Bakı-Gürcüstan-Rumıniya marşurutu üzrə ixracı razılaşdırılan və yaxın zamanlarda inşasına başlanılacaq marşrut üzrə ildə təxminən 7-10 milyard kub metr Azərbaycan qazını gözləməkdədirlər.

Mütəxəssislərin fikrinə görə, bir neçə il sonra Azərbaycan özünün illik qaz hasilatını 40 və ya 50 milyard kub metrə çatdıra bilər. Amma bunun üçün Şahdəniz qaz yataqlarının ikinci fazasını işə salmaq, müvafiq bazarlar tapmaq, satış müqavilələri bağlamaq və s. təşkilati işlər görülməlidir.[258]

Bəzi xarici mütəxəssislərin fikrinə görə, Azərbaycanı sonuncu marşrutun xeyirinə qərar verməyə və qaz ixracında yeni alternativlər axtarmağa Türkiyənin son zamanlar bu ölkənin qazının NABUKO vasitəsilə tranzitinə və Türkiyəyə satış qiymətinə yönəlmiş bir qədər əlverişsiz təklifi məcbur etmişdir. Mütəxəssislərin fikrinə görə, Türkiyənin Avropa ilə Xəzər regionu arasındakı enerji əlaqələrində daha çox Rusiyanın maraqlarına cavab verən mövqe nümayiş etdirməsi, xarici siyasətdə öz üstün prioritetlərinə baxmayaraq, Azərbaycanı yeni-yeni variantlar axtarmağa məcbur etmişdir. [259]

Azərbaycan rəsmiləri və geoloqları ölkələrinin quruda və dənizdə kəşf olunmuş **neft ehtiyatlarının** miqdarını 1-1,5 milyard ton, (təxminən 7-11 milyarad barel) ehtimal olunan miqdarını isə 2-3 milyard ton (14 - 21 milyard barel) və daha çox olduğunu söyləyirlər. **[260]**

[258]Bax: Azərbaycan Prezidenti İlham Əliyevin Ukraynanın DEN, PROFİL və Birinci milli televiziya kanalına müsahibəsi // www.president.az

[259] Bax: Alexandros Petersen. Azərbaycanın Avroatlantik baxışları // Azərbaycan focus.N2. s.19-8-199.

[260] Bax: "Trend" informasiya agentliyi, 24. avqust 2010.

BP şirkətinin 2010-cu ilə olan dünya energetikasının illik statistik icmalında[261] və ABŞ mənbələrində Azərbaycanın sübut olunmuş neft ehtiyatlarının həcmi 7 milyard barel (1 milyard tondan artıq), qaz ehtiyatları isə 1,3 trln. kub metr səviyyəsində göstərilir. Bu rəqəmlər Azərbaycan Dövlət Neft Şirkəti də təsdiq edir.[262] Lakin şirkət rəsmiləri həmin rəqəmləri bir qədər köhnəlmiş hesab edirlər. Belə ki, ARDNŞ-in geologiya, geofizika və yataqların kəşfiyyatı üzrə birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə bildirmişdir ki, hazırda Azərbaycanın sübut olunmuş neft ehtiyatları 1,5 milyard ton *(təxminən 11 milyard barel.)* təşkil edir və perspektivdə bu göstəricinin 3 milyard tona çatması gözlənilir *(təxminən 22 milyard barel-Ə.H.).*[263]

RUSİYA: Rusiya dünyanın neft və qaz ehtiyyatları ilə ən zəngin beş ölkəsindən biri hesab olunur. Bu ölkənin neft və qaz ehtiyyatlarının da həm təsdiqlənmiş, həm də ehtimal olunan miqdarı ilə bağlı bir-birindən fərqli rəqəmlər mövcuddur. Artıq qeyd etdiyimiz kimi, rusların özü ölkələrinin təsdiqlənmiş enerji ehtiyyatlarını təxminən 160 milyard barel neft (təxminən 23-24 milyard ton), 47-50 trln. kub metr qaz miqdarında dəyərləndirirlər.[264] Bu məlumat ölkənin enerji nazirliyinin, Qazprom şirkətinin rəsmi internet saytlarında öz əksini tapıb. Lakin, çıxışlarından birində bu ölkənin enerji naziri S. Şmatko etiraf edib ki, Rusiyanın karbohidrogen ehtiyatları beynəlxalq təsnifata görə, bu rəqəmlərdən 2 dəfə azdır. Bunun səbəbini o, beynəlxalq standartlardan fərqli olaraq, Rusiyada istehsalın iqtisadi məqsədəuyğunluğu amilini hesaba almamaları ilə izah edib. S.Şmatkonun sözlərinə görə, əgər Rusiya da xammal ehtiyatlarının hesablanmasında beynəlxalq standartlara keçsə,

[261] Bax: Statistical Review of World Energy, iyun 2010, s.22
[262] Bax: http://www.socar.az/neftehtiyyati.html
[263] Bax: "Trend" informasiya agentliyi, 24.08.10.
[264] Bax: www.gazpromquestions.ru.

onda RF-in karbohidrogen ehtiyatları, hazırkı rəqəmdən, azı, 2 dəfə az olacaq.[265]

Rusiyanın Baş naziri Vladimir Putin də 2010-cu ilin oktyabrında Samara şəhərində keçirilən müşavirədəki çıxışında, Rusiya şirkətlərini xammal ehtiyatlarının auditi məsələsində beynəlxalq hesablama standartlarına keçməyə çağırıb: "Rusiyalı istehsalçılar da enerji ehtiyyatlarının qiymətləndirilməsində bütün dünyada qəbul olunmuş meyarlardan istifadə etməlidirlər".[266]

BP şirkətinin 2010-cu ilə olan dünya energetikasının illik statistik icmalına (Statistical Review of World Energy) əsasən Rusiyada təsdiq olunmuş neft ehtiyatlarının ümumi miqdarı 77,4 milyard barel (təxminən 10-11 milyard ton), təbii qaz ehtiyatları isə 44,8 trln. kub metr təşkil edir. Rusiyanın neft və qaz ehtiyatlarına dair RF və beynəlxalq təsnifatlardakı fərqi anlamaq üçün, bu ölkənin aparıcı şirkətlərinin təqdim etdiyi rəqəmlərə nəzər yetirmək kifayətdir. Belə ki, "Rosneft", "Rusneft" və TNK-BP şirkətlərinin hesablamaları ilə, beynəlxalq hesablamalar arasında fərq çox böyükdür. Məsələn, TNK-BP şirkətinin neft ehtiyatları, Rusiya təsnifatına görə, 4,06 milyard ton göstərildiyi halda, beynəlxalq təsnifata görə, bu rəqəm cəmi 1,16 milyard tondur. Beləliklə, şirkətin Rusiya təsnifatı ilə hesablanmış ehtiyatları, beynəlxalq auditin göstəricilərindən 3,5 dəfə çoxdur. Eyni hala digər şirkətlərdə də rast gəlinir. "Rosneft"in ehtyatlarına dair yerli ekspertlərin təqdim etdiyi göstərici, xarici hesablamalardan 2,98 dəfə, "Rusneft"in göstəriciləri isə, 2,93 dəfə artıqdır.[267]

Qeyd edək ki, neft ehtiyatlarına dair Rusiya və Qərb mənbələrindəki fərqin bilərəkdən yaradıldığını bildirənlər də var.

[265] Bax: "İnterfaks" agentliyinin bülleteni, 28.10.10.
[266] Yenə orada
[267] Bax: "İnterfaks" agentliyinin bülleteni, 01.11.10.

Məsələn, belə bir rəy var ki, Rusiyanın neft ehtiyatlarının miqdarını süni şəkildə artıran yerli şirkətlər, bununla, öz səhmlərinin qiymətinin artmasına çalışırlar.[268]

2009-cu ildə enerji nazirliyinin rəsmi məlumatına görə Rusiyada 494 milyon ton neft, 663 mlrd. kub metr isə qaz istehsal olunub. Hesabatda göstərilir ki, Rusiyada 2008-ci illə müqayisədə, neft hasilatı 1,5% artdığı halda, Səudiyyə Ərəbistanında il ərzində 10,6% aşağı düşüb. Bununla da, Rusiyanın 2009-cu ildə dünyada neft hasilatındakı payı 12,9%, Səudiyyə Ərəbistanının payı isə 12% təşkil edib. Göründüyü kimi, Rusiya təbii qazla yanaşı, illik neft istehsalına görə də əvvəllər dünyada birinci olan Səudiyyə Ərəbistanını ötərək, lider ölkəyə çevrilib.

Baş nazir Vladimir Putin son zamanlar bəyan edib ki, 2010-cu ildə Rusiyada illik neft hasilatı artıq 500 milyon tona çatıb. Energetika Nazirliyinin rəyinə görə, Rusiya bu hasilat səviyyəsini, ən azı, 40 il təmin etmək iqtidarındadır. Amma V.Putin qeyd edib ki, Rusiya qarşıdakı 10 il ərzində neft hasilatını hazırkı həcmdə saxlamaq üçün 8,6 trilyon rubl (*təxminən, 280 milyard ABŞ dolları*) sərmayə qoymalıdır.[269]

Son hesablamalara görə, Rusiyada mavi qazın illik hasilatı və Xəzər hövzəsi ölkələrindən uzunmüddətli müqavilələr əsasında tədarük edilən həcmi [270] son iki ildə ümumilikdə 12,1%, (təxminən 74,2 milyard kub metr) aşağı düşüb və 2010-

[268] Bax Сверхдержава наносит ответный удар//:«Война и мир» Геополитический триллер: 04.04.07.

[269] Bax: "İnterfaks" agentliyinin bülleteni, 28.10.10.

[270] Məlumat üçün bildirək ki, Rusiya 2008-ci ildə bu ölkələrdən ümumilikdə 66,2; 2009-cu ildə 37,3; 2010-cu ildə isə 38 mird. kub metr qaz alaraq öz daxili tələbatına sərf edib, yaxud xarici alıcılara satıb. Ölkələr üzrə bu rəqəm Türkmənistandan illər üzrə 42,3; 11,8; 10,5; Özbəkistandan 14,2; 15,4; 15,5; Qazaxıstandan orta hesabla ildə10; Azərbaycandan isə 2010-cu ildə 1, 2011-ci ildən isə 2 mlrd. kub metr qaz alıb.

cu ildə cəmi 588,9 mlrd kub metr təşkil edib.[271] Bunu mütəxəssislər ilk növbədə, son dövrlərin ciddi maliyyə böhranı ilə əlaqədar Rusiyanın özündə, ətraf ölkələrdə (Ukrayna, Belarusiya və s.) və bir sıra Avropa dövlətlərində təbii qaza ehtiyacın və onun istehlakının azalması, digər tərəfdən isə, Avropanın daha ucuz qiymətə satılan mayeləşdirilmiş təbii qaza üstünlük verməsi ilə bağlıdır.[272]

Rusiyada hasil olunan neft və maye qazın orta hesabla 60 %-ə yaxını ölkənin daxili tələbatının ödənilməsinə - əsasən, sənaye və energetika sahələrinin ehtiyaclarına yönəlib.

İRAN: Enerji ehtiyatlarına görə İran dünyanın üç ən zəngin ölkəsindən biridir. Hazırda Rusiya və Səudiyyə Ərəbistanından sonra neft istehsalına görə dünyanın üçüncü, qaz hasilatına görəsə beşinci dövləti İrandır. Neft və qaz ehtiyatlarının miqdarına dair bu ölkənin rəsmi rəqəmlərində tez-tez dəyişikliklər müşahidə olunur. Son vaxtlara qədər İran hökuməti ölkənin ümumi enerji ehtiyatlarının həcmini 138 milyard barel neft (təxminən 20 milyard ton), 28 mlrd. kub metr isə təbii qaz miqdarında göstərirdi. 2010-cu ilin oktyabrında İranın neft naziri Masud Mirkazımi bildirib ki, ölkənin neft və qaz ehtiyatları 9% artıb və indi bu rəqəm 150,31 milyard barel neft, 33,1 mlrd.kub metr isə qaz təşkil edir. Lakin bu da hələ son deyil. Mirkazıminin sözlərinə görə, 2010-cu ilin sonuna qədər

[271] Bax: Statistical Review of World Energy, iyun 2010.

[272] Qazprom son beş ildə orta hesabla Avropa bazarına ildə 150 milyard kub metr qaz ixrac edir ki, bundan da 6o milyard ABŞ $ dəyərində gəlir əldə edir. 2010-cu ildə bu rəqəm 138 milyard kub metrə qədər azalıb. Rusiya bunu Şərqi və Qərbi Sibirdən çəkilməsi 2011-ci ildə başlanan və 2015-ci ildə başa çatması gözlənilən yeni Altay qaz ixracı kəməri ilə Cinə, təxminən ildə 50-60 milyard kub metr rus qazı satmaqla əvəzləmək istəyir. Lakin cinlilər Rusiyadan avropalılardan fərqli olaraq hər min metr kub təbii qazı 335 deyil, orta Asiya və Avstraliyadan aldığı kimi 235 ABŞ dollarına almaq istıyir. Odur ki, hazırda Rusiya Cin ilə qaz sazişini gündəmdə saxlamaqla yanaşı, Avropa və postsovet məkanında da yeni qaz alıçıları axtarışını intensivləşdirib.(Bax:NEWS.ru.com)

ölkənin neft ehtiyatlarının həcminə dair ən son rəqəmlər açıqlanacaq və bu zaman, göstəricinin bir qədər də artacağı istisna deyil.[273]

İranın neft və qaz ehtiyatlarında baş vermiş həmin artımla bağlı məlumatlar bir qədər sonra açıqlandı və məlum oldu ki, 2010-cu ildə iranlı neftçilər 85 milyard dollar dəyərində ehtiyata malik olan yeni neft və qaz yataqları aşkar ediblər. Məlumata görə, İranın yeni kəşf olunmuş Sumar neft yatağında, təxminən 70 milyon barel neft, Halqan qaz yatağından isə 50 milyard kub metr qaz çıxarmaq mümkün olacaq.[274] Əlbəttə, bunlar İranın özünün elan etdiyi rəqəmlərdir. Maraqlıdır ki, xarici mənbələrin açıqladığı göstəricilər rəsmi Tehranın rəqəmlərindən ciddi şəkildə fərqlənmir. Məsələn, Böyük Britaniyanın BP şirkətinin məlumatlarına əsasən, İranın təsdiqlənmiş neft ehtiyatları 2010-cu il məlumatına görə 137,0 milyard barel, təbii qaz ehtiyatları isə 29,6 trln. kub metr təşkil edir. İranın təbii qazı dünya qaz ehtiyatlarının 14%-ni təşkil edir ki, bunun da böyük əksəriyyəti quruda, təxminən 20% isə Xəzər dənizindədir.[275]

İranda hazırda Türkmənistandan və b. ölkələrdən alınan qazla birlikdə ildə, təxminən 138 mlrd. kub metr qaz tədarük olunur, bunun da əsas hissəsi daxili bazarın daimi artan tələbatının ödənilməsinə sərf olunur, cüzi hissəsi isə Türkiyəyə satılır.[276]

*S*on illər ərzində İranda neft hasilatı aşağı düşməkdədir. İslam İnqilabına kimi (1979) bu ölkədə sutkada neft hasilatı 6 milyon barel təşkil edirdi. Hazırda bu göstərici 4,3 milyon bareli ötmür, ki onun da 2,7 milyonu xaricə ixrac olunur.[277]

[273] Bax: www.lenta.ru/news/2010/10/11/oilfields/.
[274] Bax: www.aze.az/.../news_iran_povysil_ocenku_42838.html
[275] Bax:Statistical Review of World Energy, iyun 2010.
[276]Yenə orada
[277] Yenə orada

Neft hasilatının azalmasının əsas səbəbləri qismində mütəxəssislər yenilənmiş neft-qaz infrastrukturunun olmamasını, investisiya çatışmamazlığını, neftli qatlarda təzyiqin saxlanılması məqsədilə qaz hasilatının kifayət etməməsi və s. göstərirlər.[278]

QAZAXISTAN: 1997-2006-cı illərdə xarici sərmayədarların Qazaxıstanın cənub ərazilərində və Xəzərin bu ölkəyə aid sektorunda apardığı geoloji-kəşfiyyat işləri nəticəsində zəngin Tengiz neft yataqları aşkarlanmış və Qazaxıstanın sübut olunmuş neft ehtiyatlarının həcmi, rəsmi məlumatlara görə təxminən 1,6 dəfə, qaz ehtiyatları isə 1,5 dəfə artaraq, müvafiq olaraq 5,6 mlrd ton neft (təxminən 40-42 milyard barel) və 3,2 trln. kub metr qaz olmuşdur.[279]

Hazırda Qazaxıstanın Enerji və Mineral Ehtiyatlar Nazirliyinin məlumatına əsasən, ölkənin sübut olunmuş neft ehtiyatları 5,5 milyard ton, qaz ehtiyatları isə 3 trilyon kub metr göstərilir. Qeyd edək ki, bu rəqəmlər BP şirkətinin 2010-cu ildə təqdim etdiyi- müvafiq olaraq 39,83 milyard barel (5,6 milyard ton) və 1,82 trln.kub metr qaz rəqəminə yaxın olsa da, təbii qazın miqdarı ilə bağlı üst-üstə düşmür. Qazaxıstan ildə, təxminən 33,6 mlrd. kub metr qaz, 80 milyon ton (560 milyon barel) isə neft istehsal edir.[280]

TÜRKMƏNİSTAN: Dünyanın və Xəzər hövzəsinin enerji ehtiyatları ilə ən zəngin ölkələrindən biri də Türkmənistandır. Bu ölkə qaz ehtiyatlarına görə Rusiya, İran və Qatardan sonra dünyada 4-cü yerdədir. Türkmənistan hökumətinin rəsmi məlumatında ölkənin qaz ehtiyatlarının miqdarı 20 trln. kub metr, neft ehtiyatının həcmi isə 1,2 milyard ton (təxminən 8 milyard barel) göstərilir.[281]

---

[278] Bax:"Trend" informasiya agentliyinin bülleteni, 14.10.10.

[279] Bax: "Состояние и перспективы развития нефтегазового сектора Казахстана"//www.vipstd.ru

[280] Bax: 2010-cu il dünya energetikasının illik statistik icmalı // BP Statistical Review of World Energy 2009; 2010, // bp.com/statisticalreview.

[281] Bax: "Oil & Gas News" jurnalı, 21.09.09.

Son zamanlar ”Türkmengeologiya” Dövlət Şirkətinin mütəxəssisləri Cənubi Eloten-Osman yataqlarında apardıqları geoloji kəşfiyyat işlərindən sonra bəyan ediblər ki, bu yataqlarda 21 trln. kub metrdən artıq qaz ehtiyatı var.[282] Amma xarici mənbələr rəsmi Aşqabadın səsləndirdiyi göstəricilərə ciddi şübhə ilə yanaşır. Bəzi Rusiya və Qərb ekspertlərinin proqnozlarına görə, Türkmənistanın sübut olunmuş, işlənən və proqnozlaşdırılan qaz yataqlarındakı ümumi ehtiyatlarının həcmi 15,5 trilyon kub metr qaz və 0,6 milyard barel neftdən artıq deyil. Rusiyanın “Vremya novostey” qəzeti 13 oktyabr 2009-cu il tarixli sayında yazır ki, Türkmənistan Cənubi Eloten-Osman yatağındakı ehtiyatlara dair məlumatları saxtalaşdırıb. Aşqabaddakı yerli mənbələrə istinad edən qəzetin yazdığına görə, Türkmənistanın səsləndirdiyi rəqəmlər, real göstəricidən, ən azı, 2-3 dəfə artıqdır. Məqalədə vurğulanır ki, Türkmənistan prezidenti artıq ona saxta məlumatlar vermiş günahkar məmurları cəzalandırıb və neft-qaz sənayesinin bütün rəhbərliyini işdən azad edib.[283]

Böyük Britaniyanın BP şirkətinin illik hesabatında Türkmənistanın mövcud neft və qaz ehtiyatları bu ölkənin rəsmi rəqəmlərindən bir neçə dəfə az – qaz ehtiyyatları 2010-cu il hesablamalarına görə 8,0 trln. kub metr, neft ehtiyatları isə 0,6 milyard barel miqdarında göstərilib.[284]

Beləliklə, göründüyü kimi, Türkmənistanın neft və təbii qaz ehtiyatlarına dair məlumatlar bir qədər ziddiyyətlidir.

İstehsalata gəldikdə qeyd etməliyik ki, Türkmənistan 2009-cu ilin maliyyə böhranına qədər ildə orta hesabla 70-80 mlrd. kub metr təbii qaz hasil edirdi ki, onun da, təxminən 14,4

[282] Bax: http://www.turkmenistan.ru/ru/articles/35359.html .
[283] Bax: http://www.vremya.ru/2009/188/5/239444.html.
[284]Bax: 2010-cu il dünya energetikasının illik statistik icmalı // BP Statistical Review of World
Energy 2009; 2010, // bp.com/statisticalreview.

mlrd. kub metrini daxildə istehlak edibdir. 2010-cu ildə bu istehsal 30% aşağı düşüb və cəmi 42,4 mlrd. kub metr təşkil edib. 2009-cu ilə qədər ölkənin gündəlik neft hasilatı, təxminən 170 min barel təşkil edirdi ki, bunun da əksər hissəsi daxili tələbata, 40 000 barelə yaxını isə xaricə satılırdı. 2010-cu ildə bu rəqəm bir qədər artaraq, gündə 216 min barelə (illik, təxminən 10 milyon tona) yüksəlibdir. [285]

Türkmənistan öz milli gəlirinin 50% dən çoxunu məhz qaz satışından əldə edir.[286]

ÖZBƏKİSTAN: Xəzərlə birbaşa sərhəddi olmasa da mütəxəssislər hövzənin geosiyasi dəyərləndirilməsində Özbəkistanın da təbii sərvətlərini, xüsusən qızıl, neft-qaz ehtiyatları və s. diqqətdən kənarda qoymurlar. Bu ölkənin də neft və qaz ehtiyatları ilə bağlı informasıya və məlumatlar mövcud mənbələrdə və ədəbiyyatda birmənalı deyil, ziddiyyətlidir. Ölkənin milli mətbuatında, regional və beynəlxalq mənbələrdə əks olunan rəqəmlər və yanaşmalar birmənalı deyil və üst-üstə düşmür. Tədqiqatçılar bunun əsas səbəbini uzun müddət Özbəkistanın strateji neft və qaz ehtiyatları haqda açıq mənbələrdən informasiya əldə etməyin qeyri mümkünlüyü ilə bağlayırdılar. Onların fikrinə görə, yalnız son illərdə, yerli hakimiyyət xarici sərmayədarları ölkənin yanacaq-enerji sisteminə cəlb etmək məqsədilə ölkənin enerji ehtiyatları haqqında məlumatları artırmış və onlarla tanış olmaq imkanı yaratmışdır.

BP-nin 2010-cu il üçün dünya energetikasının statistik icmalına əsasən, Özbəkistanın təsdiq olunmuş təbii qaz ehtiyatlarının həcmi 1,68 trilyon kub metrdir.[287] Digər bir mənbədə-Çin Xalq Respublikasının Qazaxıstandakı səfirliyinin saytında dərc olunmuş "Özbəkistanın Mərkəzi Asiyada regional təhlü-

[285]Yenə orada
[286] Bax: http://www.crudeaccountability.org.
[287] Bax: 2010-cu il dünya energetikasının illik statistik icmalı // BP Statistical Review of World Energy 2009; 2010, // bp.com/statisticalreview.

kəsizlik məsələlərinə baxışı" başlıqlı məqalədə bu ölkənin neft ehtiyatları 530 milyon ton, qaz ehtiyatları isə 3,4 trilyon kubmetr həcmində göstərilir.[288]

Özbəkistanın özündə isə neft-qaz ehtiyatları ilə bağlı fərqli rəqəmlər səslənir. Məsələn, ölkənin qanunvericilik saytında təbii qaz ehtiyatı 2 trilyon kubmetr həcmində göstərilib.[289]

O ki, qaldı Özbəkistanın neft ehtiyatlarına, BP şirkətinin icmalında bu rəqəm 600 milyon ton göstərildiyi halda,[290] ölkənin 2007-ci ildə açıqladığı rəsmi məlumata əsasən bu rəqəm 850 milyon ton təşkil edir. Həmin məlumatda respublikada ehtimal olunan təbii qaz təqribən 6 trilyon kubmetr, qaz kondensatı isə 380 milyon tona yaxındır.[291]

Göründüyü kimi, rəqəmlər müxtəlifdir. Amma əksər mənbələr bir məsələdə yekdildirlər: Özbəkistanda 2004-cü ildən etibarən hasilat azalmağa başlayıb. Məsələn, 1997-ci ildən 2003-cü ilədək Özbəkistanda neft hasilatı, təxminən, 8 milyon ton idisə, sonrakı ildən bu rəqəm ciddi şəkildə aşağı düşmüş və 2008-ci ildə cəmi 4,8 milyon ton təşkil etmişdir. Nəticədə, Özbəkistan Rusiya və Qazaxıstandan əlavə neft almaq məcburiyyətində qalmışdır.[292]

Tədqiqatçıların verdiyi məlumatlara əsasən hazırda Rusiyanın nəhəng şirkətləri Özbəkistanın neft-qaz sektorunda çox aktiv işləyirlər. Əgər 90-cı illərdə Özbəkistanın neft-qaz sektorunda rusiyalı sərmayədarlara rast gəlinmirdisə, bu gün artıq "Qazprom", "LUKOYL", "Soyuzneftqaz" kimi şirkətlər bu

[288] Bax: http://kz.china-embassy.org. 27.05.10 .
[289] Bax: http://www.uz.spinform.ru.
[290] Bax: 2010-cu il dünya energetikasının illik statistik icmalı // BP Statistical Review of World Energy 2009; 2010, // bp.com/statisticalreview.
[291] Bax: Нефтегазовый комплекс Узбекистана в международной системе энергообеспечения. http://www.vipstd.ru/gim
[292] Bax: "Российские нефтегазовые проекты в Узбекистане: современное состояние" http://www.easttime.ru 05.10.09.

ölkədə çox fəaldırlar. 2009-cu ilin əvvəlinə olan məlumata əsasən, bu şirkətlər Özbəkistanın neft-qaz sektoruna 900 milyon dollaradək sərmayə qoyublar və 2012-ci ilədək bu rəqəmin 4-6 milyard dollar arası olacağı gözənilir.[293] Müşahidələr göstərir ki, Özbəkistan hökuməti də bu sahəyə investisiyalar qoyulmasına çox böyük önəm verir. "Geologiya və neft-qaz yataqlarının kəşfiyyatı institutu" Səhmdar Cəmiyyətinin direktoru Qeybulla Abdullayevin sözlərinə görə, 2010-2015-ci illərdə rəsmi Daşkənd neft və qaz yataqlarının kəşfiyyat işlərinə 2 milyard dollara yaxın sərmayə qoymağa hazırlaşır.[294] Ümumiyyətlə, 2016-cı ilədək Özbəkistan daha çox neft və qaz hasil etmək fikrindədir. Qəbul olunmuş Dövlət Proqramına uyğun olaraq, 2016-cı ildə bu göstərici, 2009-cu ildəkindən 11% çox olmalıdır. Hazırda Özbəkistanın "Özbəkneftqaz" milli holdinq şirkəti ildə 70 milyard kubmetr qaz və 8 milyon ton neft hasil edir.

§1.3. Xəzərin hüquqi statusu: problemin tarixi, müasir geosiyasi yanaşmalar və Azərbaycanın geoiqtisadi maraqları

Xəzərin hüquqi statusunun təxminən 300 illik tarixi mövcuddur. XVlll əsrin sonlarından başlayaraq Xəzər sahilində Rusiya, Osmanlı və Böyük Britaniya imperiyaları arasında Azərbaycana məxsus tarixi ərazilər, Dərbənd, Bakı, Rəşt, Mazandərən, Astara kimi şəhər və xanlıq mərkəzləri, türk xalq və etnoslarının məskunlaşdığı digər Xəzərətrafı məkanlar uğrunda bir neçə çoxillik və qısa müddətli qanlı müharibələr yaşanmışdır. (Bax: Xəritə 16)

[293] "Российские нефтегазовые проекты в Узбекистане: современное состояние" . http://www.easttime.ru 05.10.09.
[294] www.gazeta.kz, 26.05.10.

QAFQAZ VƏ MƏRKƏZİ ASİYANIN GEOSİYASİ VƏZİYYƏTİ



Xəritə 16.

Xəzərsahili ərazilərin bölüşdürülməsi və Azərbaycan torpaqlarının gələcək "hüquqi statusu və mənsubiyyəti" ilə bağlı ilk dövlətlərarası sənəd Rusiya ilə İran arasında rus çarı I Pyoturun 1722-1723-cü illərdə 80 min qoşunla Xəzər hövzəsinə ilk yürüşü və Dərbənd, Bakı, Pəşt, Şirvan, Gilan, Mazandəran kimi şəhər və əyalətləri işgal etməsindən sonra Sankt-Peterburqda imzalanmışdır. Bunun ardınca ruslar 1724-cü ildə Türkiyə hökumətini də diplomatik yolla Araz çayı sərhəd olmaqla işğal etdikləri "bütün Şimali Azərbaycan torpaqlarının Rusiyanın hakimiyyəti altına keçməsi" faktı ilə barışmağa razı sala bilmişlər.

Xəzərətrafı Azərbaycan torpaqlarının statusu ilə bağlı Rusiya və İran arasında növbəti saziş 1732-ci ildə Rəşt şəhərində imzalanmışdır. Bu sazişə görə, Rusiya İranla 1722-1723-cü illər müharibəsi zamanı ələ keçirdiyi Xəzərin Cənub sahillərini

geri qaytarır və əvəzində Xəzər dənizində sərbəst üzmək, İranla məhdudiyyətsiz ticarət aparmaq hüququ əldə edirdi.

1735-ci ildə Gəncədə Nadir şah hökuməti ilə Rusiya arasında ikinci görüş keçirilmiş və iki ölkə arasında daha əsaslı sənəd- "əbədi dostluq" haqqında sülh sazişi imzalanmışdır. Ruslar həmin vaxt Nadir şahın təkidi ilə işğal etdikləri Bakı, Astara və Dərbənd ətrafındakı ərazilərlə birgə, bütün Şimali Azərbaycan torpaqlarını geri qaytarır və həmin torpaqlar üzərində Nadir şah hökumətinin suveren hüquqlarını tanıyırlar.

1747-ci ildə Nadir şahın ölümündən sonra mərkəzi Azərbaycan dövlətinin zəifləməsindən istifadə edən rus imperiya qoşunları 1813-cü ildə Gülüstanda və 1828-ci ildə Türkmənçayda Azərbaycan şahlarını, 1929-cu ildəsə Osmanlı imperatorunu Azərbaycan torpaqları və Xəzərətrafı ərazilərlə bağlı yeni müqavilə bağlamağa məcbur etmişdir. Həmin sazişlərə uyğun olaraq ruslar Şimali Azərbaycanla birlikdə Xəzərin bütün Cənub-Qərb hissəsində yerləşən torpaqları yenidən öz əllərinə keçirmişlər. 1813-cü ildə Gülüstanda bağlanan müqaviləyə görə bütün Şimali Azərbaycan, Dağıstan və Gürcüstan Rusiyaya birləşdirilir, 1828-ci ildə Türkmənçayda bağlanan müqavilə ilə isə, həmin əraziləri öz əlində saxlamaqla bərabər, Rusiya, eyni zamanda, Xəzər dənizində istisnasız hərbi donanma saxlamaq və İranla müstəsna ticarət etmək hüququ əldə edir.[295] Hər iki müqavilə o zaman üçün ayrı-ayrı xanlıqlara parçalanmış Azərbaycan ərazilərinin – Şmali və Cənubi Azərbaycan adlandırılmaqla, Xəzərin Cənub və Şimal sahilləri də daxil olmaqla iki hissəyə ayrılmasını və bölüşdürülməsini rəsmiləşdirən, onun "hüquqi mənsubiyyətini" müəyyənləşdirən növbəti beynəlxalq sənədlər idi.

[295] Bax: Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона. М., 2003.с.66.

1921-ci ilin 26 fevralında Rusiya ilə İran, 25 mart 1940-cı ildə isə SSRİ ilə İran arasında Xəzərlə bağlı beşinci və altıncı müqavilələr bağlanır. Həmin müqavilələrə uyğun olaraq Xəzər dənizində yalnız Rusiya və İran gəmi saxlaya, sərbəst üzə və balıqçılıqla məşğul ola bilərdilər. Müqavilədə SSRİ-nin Xəzərdəki payı 86%, İranınkı isə 14% müəyyənləşmişdir.

Öz iştirakı olmadan, Azərbaycan torpaqlarının hüquqi mənsubiyyətinin və Xəzərin statusunun müəyyən edilməsinə növbəti cəhd XX əsrin əvvəlində – (1907-ci ildə) işğalçı ingilis və rus imperiyaları arasında "İran, Əfqanıstan və Tibet ərazilərində müstəmləkəçilik fəaliyyəti" ilə bağlı imzalanan Birgə Konvensiyada göstərilmişdir. Konvensiyaya görə bütün Azərbaycan (İran) əraziləri Şimal və Cənub olmaqla iki hissəyə ayrılırdı ki, bunlar da müvafiq olaraq İngiltərə və Rusiyanın təsir dairəsinə daxil edilirdi. Bu müqavilədən başlayaraq Rusiya Xəzərin Cənub-Qərb və Şimal sahillərində yerləşən Azərbaycan ərazilərini, Bakı, Astara və Dərbənd kimi iri şəhərlərini öz təsir dairəsinə salaraq, imperiya ərazilərinə qatmışdır. 1917-1921-ci illər arasındakı qısa zaman kəsiyi istisna olmaqla, bu ərazilər SSRİ dağılana qədər şəriksiz şəkildə Rusiyanın təsir dairəsində olmuşdur.[296]

Birinci dünya müharibəsinin nəticələrinə və Versal (1919) sülhünün şərtlərinə görə dünyada və Xəzər regionunda baş verən geosiyasi və coğrafi dəyişikliklər, Rusiyada bolşevik inqilabının baş verməsi, Osmanlı imperiyasının süqutu, Fars körfəzi, Orta Asiya, Cənubi Qafqaz və Avrasiyanın digər bölgələrində yaşanan ciddi beynəlxalq proseslər 1921-ci ildə *sovet Rusiyası ilə hövzənin digər böyük ölkəsi hesab olunan İran şahlığı arasındakı Xəzər bölgəsinin statusu məsələsinə yenidən*

[296] Bax: Гиззатов В.Х. Правовой статус Каспийского моря: проблемы и перспективы сотрудничества прикаспийских государств//Политика.-1995.N3.-с.15.

qayıtmaq və Azərbaycanın taleyini həll etmək məsələsini aktuallaşdırdı. O zaman müharibənin qalib dövlətləri, ilk növbədə Böyük Britaniya tərəfindən ciddi təzyiqlərə və geostrateji basqılara məruz qalan hər iki tərəf həmin ildə bağladıqları müqavilə ilə "hər hansı bir xarici dövlətin gəmilərini Xəzər dənizinə buraxmamaq" haqqında qarşılıql öhdəlik götürərək, faktiki olaraq Xəzərin əvvəlki (1828-ci il) bölgüsü xəritəsini- Şimal və Cənub təsir dairələrinə ayrılmasını və müvafiq olaraq idarə edilməsini yenidən təsdiq etdilər. Müqavilənin şərtlərinə görə hər iki ölkə Xəzərdə müstəsna hüquq qazanır, birgə balıqçılıq fəaliyyəti həyata keçirmək, xarici gəmiləri dənizə buraxmamaq öhdəliyi götürürdü. Bundan başqa, müqaviləyə görə, əgər İran öz ərazilərini xarici müdaxilələrdən müstəqil şəkildə qorumağa qadir olmazsa və bu ərazilərdən hansısa xarici qüvvələr istifadə edərək Rusiyaya təhlükə yaradarsa, o zaman rus qoşunlarının İrana daxil olmaq və öz mənafelərini qorumaq hüququ təsbit olunurdu.

Mütəxəssislərin fikrinə görə, bu müqavilə faktiki olaraq Rusiya və İranın xarici ölkələrə qarşı birgə mübarizə aparmaq haqda "strateji müttəfiqliyini" təsbit edərək, Xəzəri yalnız iki ölkənin birgə istifadə edə biləcəyi geosiyasi məkana və daxili dənizə çevirirdi. Razılaşmaya müvafiq olaraq Xəzərin Cənubunda İran, qalan bütün sahillərində isə sovet Rusiyası ətraf ərazilərin və xalqların taleyini istədiyi kimi həll etmək imkanı qazanırdı.[297]

Fikrimizcə, bu müqavilə həmin vaxt xarici qüvvələr qarşısında təxminən eyni çətin geosiyasi durumda və geostrateji təhlükə qarşısında qalan bolşevik Rusiyası və İranın kifayət qədər düşünülmüş və uzaqgörən strateji razılaşması idi. Bu müqavilə hər iki tərəfə o zaman ciddi cəhdlə müstəqilliyə can

[297] Bax: Илинский Г.П. Иран в период обшего кризиса мировой капиталистический систеы. М.,1953. с. 14-18.

atan Azərbaycan Xalq Cümhuriyyətini boğmaq imkanı qazandırırdı. Ayrıca olaraq İran bu sazişdən qonşuluğunda yarana biləcək və əsas əhalisi azərbaycanlı və müsəlman olan yeni bir dövlətin mövcudluğundan xilas olmaq və tarixi rəqibi olan Türkiyənin bölgədəki əsas dayaqlarını zəiflətmək imkanı əldə edirdi. O ki, qaldı Rusiyaya bu dövlət üçün Azərbaycan Xalq Cümhuriyyətinin ərazilərini sovet Rusiyasına birləşdirmək, onun əhəmiyyətli və unikal geosiyasi məkanlarını və neftlə zəngin Bakı kimi paytaxtını ələ keçirmək, rusların ənənəvi rəqibi sayılan Türkiyəni və İngiltərəni bu bölgədən uzaqlaşdırmaq çox vacib bir strateji vəzifə hesab olunurdu. Göründüyü kimi, hət iki tərəfin Azərbaycan torpaqlarında və Xəzərətrafı məkanda öz geosiyasi maraqları mövcud idi ki, bu da onları belə düşünülmüş və hesablanmış, geostrateji cəhətdən çox ciddi dəyəri olan "müttəfiqlik müqaviləsi" imzalamağa sövq etmişdi.

Təxminən elə həmin vaxt sovet Rusiyası ilə Atatürk Türkiyəsi arasında Cənubi Qafqazın (o cümlədən də Şimali Azərbaycanın) taleyi və rus-türk münasibətlərinin gələcəyi ilə bağlı, İranla imzalanan müqaviləyə oxşar bir sənəd imzalanır. Beləliklə, Rusiya bölgənin İran və Türkiyə kimi böyük ölkələri ilə, müvafiq olaraq Azərbaycanın, Xəzərətrafı ərazilərin və Cənubi Qafqazın gələcək taleyini və "hüquqi mənsubiyyətini" müəyyən edən ortaq razılıga gəlir və bu əraziləri yenidən işğal edərək sovet Rusiyasının tərkibinə daxil edir.

Xəzərin hüquqi statusu ilə bağlı 1921-ci il Rusiya-İran müqaviləsi SSRİ yaradılandan sonra da, 1931-ci ilə qədər öz hüquqi qüvvəsini olduğu kimi saxlamış və müvafiq olaraq SSRİ - İran razılaşması kimi fəaliyyət göstərmişdir. 27 oktyabr 1931-ci ildə iki Xəzəryanı ölkə olan SSRİ və İran arasında *"Xəzər dənizinə daxil olma, ticarət və gəmiçilik"* haqqında yeni bir sənəd- Konvensiya imzalanmışdır. Konvensiyanın 16-cı

maddəsində qeyd edilir ki, Xəzər dənizi yalnız onun sahillərində yerləşən SSRİ və İrana məxsus olduğuna görə, onun sularında da yalnız bu ölkələrə məxsus, yaxud onların bayrağı altında üzən gəmilər daxil ola bilər. Konvensiyanın şərtlərinə görə hər iki ölkə onun sahil sərhədlərindən dənzin içinə doğru 10 dəniz mili məsafəsində balıqçılıqla sərbəst məşğul olmaq hüququna malik idi. [298]

Təxminən eyni məzmunlu hüquqi müqavilə 1935 və 1940-cı illərdə iki ölkə rəsmilərinin imzaladığı iki hökumətlərarası müqavilədə öz əksini tapmışdır. 1940-cı ildə İkinci dünya müharibəsi təhlükəsi hər iki ölkənin astanasında dayanan zaman, *SSRİ-nin təşəbbüsü ilə İranla Xəzər hövzəsinin hüquqi statusu və iki ölkə arasındakı münasibətlərlə bağlı müqaviləyə yenidən baxılmışdır.* Bu müqavilələrdə qeyd olunmasa da, SSRİ və İran arasında öz sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədi ilə *Xəzər dənizi faktiki olaraq iki hissəyə (milli sektorlara) bölünmüşdü. İranın sahil sərhədlərindən dənizin orta xəttinə qədər olan hissə (təxminən bütün dəniz səthinin 14 faizi İrana, 86 faizi isə Sovet İttifaqına düşmüşdü) İranın, qalan hissə isə SSRİ-nin ərazisi hesab olunurdu.* Yuxarıda qeyd olunduğu kimi, sahildən 10 dəniz mili məsafəsində hər ölkə sərbəst balıqçılıqla, qalan ərazilərdə isə qarşılıqlı razılaşma əsasında gəmiçilik və s. iqtisadi fəaliyyətlə məşğul olmaq olardı.[299]

İki ölkə arasında 1954, 1956 və 1957-ci illərdə həyata keçirilmiş sərhəd demorkasiyası zamanı da yuxarıda göstərilən bölgü əsas götürülmüş və İranın Xəzər sərhədlərinin başlanğıcı Azətbaycanın Astara - Türkmənistanın Həsənqulu yaşayış məntəqələrindən- dənizin orta xəttinə qədər- düz xətt üzrə

[298] Bax: Ежиев И.Б. Геополитика Каспийского региона. М., 2007. s.84.
[299] Bax Барсегов Ю.Г. Каспий: вопросы международного права // Европа и Россия: проблемы южного направления. М., 1999.с.324

müəyyən edilmişdir. O dövrün bütün siyasi xəritələrində bu bölgü prinsipal olaraq sərhəd hüdudu olaraq göstərilmişdir. SSRİ isə öz daxili qaydalarına müvafiq olaraq (eyni orta xətt prinsipi üzrə) Xəzər dənizinin ona aid olan 86%-lik ərazisini milli təsərrüfat işləri aparmaq və s. məqsədlərlə 1970-ci ildə dörd Xəzərətrafı respublika arasında - Rusiya (19%), Qazaxıstan (29%), Azərbaycan (21%) və Türkmənistan (16%) olmaqla milli sektorlara bölmüş, hər bir müttəfiq respublikanın dəniz ərazilərini (sektorlarını) müəyyən etmişdir. (Bax xəritə 18)

1992-ci ildə SSRİ dağılır və Xəzər ətrafında SSRİ-nin tərkibindən çıxmış 4 yeni müstəqil dövlət meydana gəlir. (Bax xəritə) Xəzər hövzəsi öz geosiyasi və geoiqtisadi xarakteristikasına görə nəinki təkcə bölgə ölkələri üçün həyati əhəmiyyətli məkana, eyni zamanda, mühüm planetar bir faktora çevrilir. Xəzər dənizinin yeni geosiyasi statusu onun karbohidrogen yataqlarının mənsubiyyətini, su hövzəsində iş aparmaq hüququnu və üstün mövqe haqqını, dənizin xəzərətrafı ölkələr arasında bölüşdürülməsini və bu bölüşdürmənin metodikasını və s. kimi çoxsaylı dövlətlərarası geosiyasi məsələlərin həllini də gündəmə gətirdi. Əlbəttə, Xəzərin zəngin mineral və bioresurslarının effektiv istifadəsi, unikal təbii balansının saxlanması, dənizin bölgə ölkələrinə sülh və təhlükəsiz həyat, burada yaşayan insanlara rifah gətirməsini planlaşdırmaq və həyata keçirmək həm bölgə ölkələrinin, həm də regionda marağı olan kənar güclərin maraq dairələrinin müxtəlifliyi ucbatından o qədər də asan məsələ deyildi. Odur ki, həm keçmişdə dənizdə hökmran mövqedə olan Rusiya və daim bunu arzu edən İran, həm bölgənin digər böyük və kiçik ölkələri, həm də beynəlxalq güclər qısa müddətdə Xəzər hövzəsində özlərinin geosiyasi strategiyasını formalaşdırmağa başlayırlar.

XƏZƏR DƏNİZİ VƏ HÖVZƏ ƏTRAFINDAKI ÖLKƏLƏR



Xəritə 17.

Bundan başqa, Xəzər hövzəsinin gələcək dünya siyasətindəki geosiyasi yeri və mövqeyi, dənizin təbii enerji qaynaqlarının, bioresurslarının istifadəsi, hövzədə dövlətlərarası münasibətlərin qurulması və idarə olunması və bu kimi digər mühüm geostrateji məsələlərdə bölgə ölkələrinin fərqli təklif və mülahizələri ortaya çıxmağa başlayır. Əsas fikir ayrılığı İran, Rusiya və Azərbaycan arasında müşahidə olunduğuna görə, ilkin fərqli təkliflər və bir-birini təkzib edən mövqelər də dəməhz bu üç ölkə rəsmilərindən gəlirdi. Məsələn, həmin 1992-ci ildə İran Tehranda keçirilən Xəzəətrafı ölkələrin birgə konfransında belə bir təşəbbüslə çıxış edir ki, Xəzərətrafi ölkələr aralarında birgə əməkdaşlıq haqqında yeni müqavilə hazırlansın və hövzədəki hər hansı iqtisadi fəaliyyətlə bağlı bütün ətraf

ölkəlr ümumi razılığa gəlsinlər. Bu təklif o dövrdə Xəzərdə ən aparıcı ölkə hesab olunan Rusiya tərəfindən dəstəklənmədiyinə görə, digər dövlətlər də ona ciddi maraq göstərmədilər. Əslində, Azərbaycan istisna olmaqla həmin dövrdə Xəzərdə heç bir ölkə hər hansı bir ciddi layihə reallaşdırmaq gücündə və imkanında deyildi və belə bir fəaliyyətlə də məşğul olmurdu.

Xəzər hövzəsində transmilli enerji layihələri ilə bağlı ilk təklif Azərbaycandan gəlmişdir. 1992-1993-cü illərdə Azərbaycanın Xəzər dənizində xarici transmilli şirkətlərlə birgə enerji layihələri həyata keçirmək istəyini bəyan edir və dərhal da bəzi bölgə ölkələrinin etirazı ilə qarşılanır. Azərbaycanın Xəzərlə bağlı gələcək geoiqtisadi niyyətləri açıqlanar-açıqlanmaz Rusiya və İran buna etiraz etməyə və öz etirazlarını müxtəlif amillərlə əsaslandırmağa cəhd göstərdilər. Onlar özlərinin milli geoiqtisadi və geosiyasi "maraqlarının" pozulması bəhanəsi ilə və Azərbaycanı "bu işdən çəkindirmək" məqsədilə Xəzərdən istifadə qaydalarına dair müxtəlif əsassız və ziyanlı təkliflər irəli sürməyə başlayırlar. Həmin ziyanlı və perspektivsiz təkliflərdən biri və ən mühümü məhz **"Xəzərin hüquqi statusu"**, daha doğrusu bu statusa yenidən baxılması məsələsi idi.

Əslində bu məsələnın "mühümlüyünü" şərtləndirən əsas amil, bütün qüvvəsi ilə Azərbaycanın öz xarici tərəfdaşları ilə dənizdə reallaşdırdığı və həyata keçirmək istədiyi nəhəng enerji layihələrinə mane olmaq, xüsusən də bu işə qoşulmaq istəyən ABŞ və Qərb ölkələrinin Xəzər hövzəsinə daxil olmasının qarşısını almaq stəyən Rusiya və İranın bəzi dairələrinin bu problemi süni şəkildə şişirtmələri və təkidlə gündəmə gətirmələri idi. Xəzərin statusu və onun ətrafında cərəyan edən adi və gündəlik məsələlər həmin dairələr tərəfindən əsassız olaraq *bölgənin gələcək geosiyasi taleyi və region ölkələrinin fərqli inkişaf meyilləri, fərqli inteqrasiya istiqamətləri ilə əlaqələndirilərək, beynəlxalq statuslu milli maraq mübarizələri hədəfinə cevrilmiş və regional münasibətləri gərginləşdirmişdir*.

Xəzərin hüququ statusuna dair hövzə ölkələrinin müasir geosiyasi yanaşmaları və beynəlxalq hüququn tələbləri

Xəzərin statusunun ciddi şəkildə ortaya atılması və onun ətrafında regional və beynəlxalq münaqişə yaratmaq cəhdini ilk dəfə 1993-cü ildə Rusiyanın bəzi diplomatik dairələri göstərmişlər. Həmin vaxt Rusiya Xarici işlər nazirliyi belə bir bəyanat verir ki, Rusiya SSRİ-nin yeganə varisi olduğu üçün, İranla bağlanmış 1921 və 1940-cı illər müqaviləsinə uyğun olaraq "Xəzər dənizində həyata keçirilən hər hansı fəaliyyətə görə mütləq şəkildə onun və İranın razılığı alınmalıdır". Varislik məsələsində ruslar 21 dekabr 1991-ci ildə "MDB-nin yaranması" və "SSRİ-nin öhdəliklərinin yerinə yetirilməsi haqqında" MDB dövlət başçılarının imzaladığı sazişə istinad edirdilər. Bu sənəddə o vaxt Rusiya belə bir maddə yerləşdirmişdi ki, Rusiya SSRİ-nin yeganə varisdir və onun bütün beynəlxalq öhdəliklərinin yerinə yetirilməsini öz üzərinə götürür.

Azərbaycanın mövqeyi: Rusiyanın bu dövrdəki Xəzərin statusu ilə bağlı bütün qeyri-konstruktiv cəhdlərinə ardıcıl və davamlı şəkildə sinə gərən yeganə ölkə Azərbaycan Respublikası olmuşdur. Bu məsələ ətrafında ümumiyyətlə əsas mövqe toqquşması da bu iki ölkə arasında yaşanmışdır.

Azərbaycan Rusiyanın bəzi bəlli dairələrini qeyri-konstruktiv və imperiya düşüncəli hərəkətlərinə öz konstruktiv təklifləri və beynəlxalq hüquqa söykənən mövqeyi ilə cavab verməyə, Xəzər dənizində həyata keçirdiyi fəaliyyətin istər beynəlxalq hüquqa, istərsə də Xəzər hövzəsi ölkələrinin söykəndiyi dövlətlərarası hüquqa və praktikaya tam uyğunluğunu sübuta yetirməyə çalışırdı. O israrla sübut edirdi ki, bəzi iddiaların əksinə olaraq bütün hallalarda - istər Xəzər "qapalı su hövzəsi" hesab edilsin, istər beş ölkənin sərhədində yerləşən "qapalı dəniz" olsun, Azərbaycanın reallaşdırmaq istədiyi layihə-

ləri və həyata keçirdiyi fəaliyyəti qətiyyən inkar etmir. Əgər BMT-nin ”Beynəlxalq dəniz hüquqları haqqındakı” Konvensiyasına əsaslanılarsa, o zaman “ortaq dənizdə” hər sahil dövlətinin öz “iqtisadi zonasına” malik olmaq və bu zonada ayrıca, yaxud başqa dövlətlərlə birgə sərbəst fəaliyət göstərmək hüququ mövcuddur.

Azərbaycan həm də bəyan edirdi ki, əlbəttə o bütün bu işləri reallaşdırarkən ilk növbədə öz milli maraqlarını təmin etmək məqsədi daşıyır. Lakin Xəzərdə enerji layihələri reallaşdırarkən, Azərbaycan hər zaman region ölkələrinin ortaq milli maraqlarını və beynəlxalq hüququ əsas tutmuşdur. Buna görə də Azərbaycanın fəaliyəti heç bir Xəzərətrafı ölkənin iqtisadi-siyasi maraqlarını pozmur, əksinə, bölgədə hamı üçün bərabər, rəqabətə əsaslanan əməkdaşlıq şəraiti yaradaraq, bu layihələrdə iştirak etmək və onlardan öz xalqının maraqları üçün istifadə etmək, iqtisadi dividentlər qazanmaq imkanı təmin etmişdir.

Azərbaycan Rusiyanı istinad etdiyi və beynəlxalq hüquqi əsası olmayan heç bir “öhdəliyi” və “dövlətüstün hüququ” qəbul etmirdi və bundan sonra da etməyəcəyini birmənalı şəkildə bəyan edirdi. O qeyd edirdi ki, “istər keçimş SSRi-İran sazişləri, istər SSRİ-nin varisi olan Rusiyanın indiki hərəkətləri, bunlar hamısı keçmişdə qalmışdır və bütün bunlar Azərbaycanın müstəqil dövlət olaraq öz ərazisinin bir parçası hesab olunan və 1995-ci ildən onun Konstitusiyasına salınmış, Xəzər dənizinin ona məxsus mitlil sektoru üzərindəki fəaliyyət azadlığını məhdudlaşdıra bilməz. Azərbaycanın beynəlxalq hüquqla qorunan milli ərazisi və onun üzərindəki suveren haqları heç bir beynəlxalq müqavilə və dövlətlərarası sazişlərin, birgə və ayrıca fəaliyyətlərin predmetinə çevrilə bilməz.” Mütəxəssislərin fikrinə görə, əslində Azərbaycanın bu mövqeyi, yanaşması və müvafiq tələbləri sonrakı illərdə Xəzərin statusu ilə bağlı

imzalanmış Rusiya- Qazaxıstan birgə sazişinin əsas qayəsini təşkil etmişdir.[300]

Bundan başqa, Azərbaycan yuxarıda istinad olunan SSRİ-İran sazişinə o dövkü bəzi Rusiya rəsmi dairələrinin yanaşmasını da birmənalı şəkildə pisləyərək, bəyan edirdi ki, "1921-1940-cı illərdə bağlanmış SSRİ-İran müqaviləsi Xəzərin statusunu bu gün bəzilərinin təqdim etdiyi və şərh etdiyi kimi heç də mürəkkəbləşdirmir, əksinə onu daha aydın vəziyyətə gətirir. Bu da ondan ibarətdir ki, SSRİ zamanında İran Xəzərdəki öz 14%-lik payını alır və beləliklə də ona aid dəniz sərhədlərini təsdiqləyir. O ki, qaldı SSRİ-nin tərkibindən çıxan digər 4 Xəzəryanı ölkənin milli sektoru və dəniz sərhədlərinə, bununla bağlı da hələ 1970-i ildə SSRİ zamanında birgə müqavilə imzalanmış və Xəzərin bu məkanda qalan 86%-lik su hövzəsi orta xətt üzrə dörd hissəyə- sektorlara bölmüşdür. (Bax: Xəritə 18) Deməli SSR-nin varisi olan Rusiya da bu ölkənin öhdəliyini və qərarlarını təmin etməyə borcludur. Məhz bu hüquqi vəziyyətdən çıxış edən Azərbaycan, öz milli haqqı kimi Xəzərin ona məxsus sektorunda istənilən fəaliyyətlə məşğul ola bilər. Bu fəaliyyət nə beynəlxalq, nə də ki, hər hansı Xəzəryanı ölkənin hüququnu pozmur".

Ruslar, əlbəttə o dövrdə öz mövqelərinin əsassız olduğunu bilirdilər, lakin Azərbaycanın bu sahədə nümayiş etdirəcəyi ciddi, əsaslandırılmış mövqeni və möhkəm milli iradəni, o cümlədən də beynəlxalq aləmin bu işdə ona verəcəyi dəstəyi gözləmirdilər. Bəzi dairələr Azərbaycanın bu təzyiqlər qarşısında sona qədər davam gətirə bilməyəcəyinə ümid bəsləyərək, ondan öz xeyirlərinə "yeni-yeni güzəştlər" qoparmaq haqqında düşünürdülər. Odur ki, 1997-ci ildə həmin dairələr İranın 1992-ci ildə irəli sürdüyü və o zaman nədənsə diqqətdən kənarda qalan "Xəzərdə birgə razılaşdırılmış regional əməkdaşlıq"

[300] Bax:Федоров Ю.Э. Правовой статус Каспийского моря. М., 1996, с.36.

Xəzərin orta xətt üzrə sektor bölgüsü layihəsi (Azərbaycanın təklifi—bu təklif SSRİ dövründə həm İranla, həm də dörd Xəzərətrafı müttəfiq respublika arasında aparılmış bölgüyə əsaslanır- Ə.H)



Xəritə 18:

ideyasını yenidən ortaya atır və bütün Xəzərətrafı ölkələri buna qoşmağa cəhd göstərirməyə başlayırlar. Əlbəttə, Azərbaycan Xəzər hövzəsi ölkələrinin enerji sahəsində regional əməkdaşlığının əleyhinə deyildi və reallaşdırmaq istədiyi bütün layihələrdə onların hər birinin yüksək səviyyədə iştirakını arzu edirdi. Lakin o öz milli hüququnu və maraqlarını hansısa təzyiq yolu ilə kiməsə güzəştə getmək fikrindən də uzaq idi. Ona görə də Azərbaycan bəyan edirdi ki, biz regional əməkdaşlığın əleyhinə deyilik. Lakin, regional əməkdaşlıq heç bir ölkəyə öz milli sekitorunda ayrıca və başqaları ilə birlikdə sərbəst fəaliyyət göstərmək imkanını məhdudlaşdırmamalıdır. Istənilən ölkə ona məxsus sektorda, iqtisadi səmərəliliyindən asılı olaraq həm Xəzərətrafı ölkələrlə, həm də digər beynəlxalq qurumlarla sərbəst iş aparmaq, birgə fəaliyət göstərmək hüququna malik olmalıdır.

Azərbaycan öz geosiyasi və geoiqtisadi mövqeyini həm də onunla əsaslandırırdı ki, SSRİ-nin dağılması və onun yerində dörd yeni müstəqil ölkələrin yaranması ilə Xəzərin hüquqi statusu hövzəətrafı beş ölkənin qarşılıqlı və birgə məsələsi olmaqla yanaşı, həm də BMT-nin 1982-ci ildə qəbul edilmiş və bütün üzv dövlətlər üçün məcburi hüquqi öhdəlik yaradan "Dəniz hüquqları Konvensiyasına" əsaslanmalıdır və deməli həm də beynəlxalq məsələdir. Bəhs olunan Konvensiyada dənizlər və su hövzələri- açıq, yarım qapalı, qapalı olmaqla üç qrupa bölünür. Su hövzəsinin dəniz kimi qəbul olunmasının meyarı onun Okeanla, yaxud başqa su hövzələri ilə birbaşa, boğazlar və çaylar vasitəsi ilə birləşməsi hesab olunur. Konvensiya sahildən 12 millik su hövzəsini dövlətin tam "suveren ərazisi", 200 millik hövzəni onun "iqtisadi suveren zonası", ölkələrarası milli sərhədlərini isə qarşı dövlətlə dənizin ortaq xətti üzrə müəyyən edir. "İqtisadi suveren zonada" hər bir dövlət müstəqil şəkildə elmi tədqiqat işləri aparmaq, iqtisadi fəaliyyətlə məşğul olmaq, mövcud ərazinin təbii sərvətlərini mənimsəmək

və Konvensiya ilə qadağan olunmayan digər işlər görmək hüququna malikdir.[301]

Azərbaycanın bəhs olunan dövrdə "Xəzərin statusunun əvvəlki illərdə formalaşmış praktikaya uyğun şəkildə olduğu kimi" saxlanılması tələbini və "bu məsələni süni şəkildə qabardaraq yenidən baxılmasının yolverilməzliyi ilə bağlı" mövqeyini Rusiya və İrandan başqa bütün Xəzərətrafı ölkələr və beynəlxalq mütəxəssislər də müdafiə edirdilər. Beynəlxalq müşahidəçilərin və dəniz hüquqları üzrə mütəxəssislərin fikrinə görə, Xəzərin hüquqi statusu ilə bağlı həm SSRİ və İran arasında imzalanmış tarixi müqavilələr və dövlətlərarası sazişlər, həm SSRİ daxilində Xəzərin keçmiş müttəfiq respublikalar arasında bölünməsi və mövcud sərhədlərin, real sektorların neçə illərdir bütün ətraf dövlətlər tərəfindən qəbul edilməsi, həm də bütün bu reallıqların 1982-ci il "Beynəlxalq Dəniz hüquqları Konvensiyasına" uyğun gəlməsi Xəzər dənizinin statusuna yenidən baxılmasını tamamilə əsassız və mənasız edirdi. Onlar hesab edirdi ki, hazırda statusa yenidən baxılması üçün heç bir ciddi regional və beynəlxalq əsas yoxdur. Olsa-olsa hazırkı vəziyyətdə Xəzərətrafı ölkələr BMT Konvensiyasından çıxış edərək, öz aralarında "Xəzərdən birgə istifadə haqqında" hər hansı ikitərəfli və çoxtərəfli sazişlər imzalaya, yaxud onu əvəz edən digər razılaşmalarla öz aralarındakı quru və dəniz sərhədlərini demorkasiya edə bilərlər. Bundan başqa, sahilyanı dövlətlərin hər birinin kifayət qədər karbohidrogen ehtiyatlarına malik olmasını nəzərə alan mütəxəssislər həm də regiona istiqamətlənən hər hansı xarici investisiyanın, qabaqcıl texnologiyanın və həyata keçirilən transmilli enerji-nəqliyyat layihələrinin ortaq mənafelər çərçivəsində və sağlam rəqabət şəraitində bölgənin hər bir ölkəsinə müsbət dividentlər gətirəcəyi qənaə-

[301] Bax: Организация Обьединенных Наций. Основные факты. M.,2000.c.321.

tində idilər. Odur ki, Xəzərin statusu kimi süni problemlərin qaldırılması yalnız bölgənin dövlət və xalqlarına yeni münaqişə və qarşıdurmalar gətirərək, enerji ehtiyatlarının istismarını, sahilyanı dövlətlərin milli maraqlarının təmin olunmasını ciddi şəkildə cətinləşdirə bilərdi.

O ki, qaldı Rusiya və İranın o dövrdə Xəzərin hüquqi statusu müəyyən olunmayana qədər Azərbaycandan öz sektorunda apardığı işləri dayandırmaq tələbinə, azərbaycanlı mütəxəssislər bunun da heç bir hüquqi əsası olmadığını sübut edirdilər. Məsələ ondadır ki, Beynəlxalq Dəniz hüquqları Konvensiyasına görə, Xəzəryanı ölkələr arasında milli sərhədlərin demorkasiya edilməməsi, yaxud bu məsələnin sadəcə gecikməsi ətrafdakı beş ölkədən hər hansı birinə, sahildən dənizin orta xəttinə qədər olan hövzədə, yaxud öz ərazisindən dənizin ortasına qədər olan 200 millik məsafədə (məsafə hesablanarkən qarşı dövlətlə arada qalan ortaq məsafə nəzərə alınır – Ə.H.) hər hansı iqtisadi fəaliyyətlə məşğul olmağı qadağan etmir. Odur ki, bəzi Rusiya və İran dairələrinin, elm və siyasət adamlarının etirazlarının, siyasi mülahizələrinin əksinə olaraq, Azərbaycan 1994-cü ildə Xəzərin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının mənimsənilməsi ilə bağlı xarici neft şirkətləri ilə "Əsrin müqaviləsini" imzalayarkən "heç bir ölkənin milli haqlarını, yaxud beynəlxalq hüquq normalarının tələblərini pozmamış, əksinə öz iqtisadi zonasında bütün bölgə və dünya ölkələrinin maraqlarına müsbət təsir göstərən və qanuni fəaliyyət nümaiyiş etdirmişdir. Bu haqda həmin mərasimdə çıxış edən Azərbaycan prezidenti Heydər Əliyev bəyan etmişdir.[302]

Rusiyanın mövqeyi: Xəzərin statusu ilə bağlı əsas davakar mövqeni 90-cı illərin sonunda Rusiya nümayiş etdirirdi. Bu

[302] Bax: Heydər Əliyev. ARDNŞ ilə Xarici neft şirkətləri arasında neft müqaviləsinin imzalanması mərasimindəki nitqindən- 20 sentyabr 1994-cü il //www. preslib.az

məsələdə onun sərgilədiyi geosiyasəti şərh edən politoloqlar etiraf edir ki, onilliklər boyu Rusiya Xəzər hövzəsinə yalnız geoiqtisadi deyil, həm də və daha çox geosiyasi və hərbi-geostrateji maraqlar prizmasından yanaşmışdır. XX əsrin sonlarına qədər həmişə hövzədə Rusiyanın hegemonluğu digər beynəlxalq və regional güc mərkəzləri tərəfindən etiraf olunub və Xəzərdə yalnız iki geosiyasi oyunçu – SSRİ (oxu-Rusiya) və İran mövcud olub. SSRİ dağıldıqdan sonra isə, bütün dünyada olduğu kimi, Xəzər hövzəsində də yeni-yeni maraq dairələri, geosiyasi aktorlar meydana çıxır və regionun ənənəvi təbii monopolistlərini yeni geoiqtisadi reallıqları qəbul etməyə, sağlam rəqabətə, qarşılıqlı marağa söykənən tərəfdaşlığa və s. dəvət etməyə başlayır. Bəhs olunan dövrdə Rusiyanın bəzi rəsmi dairələri və analitikləri bu vəziyyəti nəzərə alaraq ölkənin maraqları üçün ən ciddi təhlükəni məhz Xəzər regionunu ölkələrinin getdikcə sərbəstləşməsi, özlərinə məxsus milli maraq nümayiş etdirməsi, onların dəvəti ilə regiona daxil olan beynəlxalq güc mərkəzlərinin Rusiyanın hövzədəki rəqabətsiz hegemonluğuna etiraz etməsi və s. ilə bağlayırdılar.

Xəzər probleminə yanaşmada ilk illərdə Rusiya ilə İran bir çox məsələlərlə bağlı eyni mövqedən çıxış edirdilər ki, bunu da tədqiqatçılar onların üst-üstə düşən ortaq maraqları ilə izah edirlər. Bu dövlətlər sahilyanı ölkələrin Xəzərdəki suverenliyini məhdudlaşdırmaqla, yeni müstəqil dövlətlərin Qərblə aktiv əməkdaşlığına mane olmaq, Qərbin transmilli şirkətlərinin Xəzər dənizi hövzəsi, Orta Asiya və Cənubi Qafqaza daxil olmasının, regiondakı neft-qaz layihələrindəki iştirakının və bölgədəki geostrateji planlarının reallaşmasının qarşısını almağa çalışırdılar. Hazırda o qədər əhəmiyyətli problem mahiyyəti kəsb etməsə də, keçən əsrin 90-cı illərinin ortalarından başlayaraq tam altı il müddətində bu məsələ Xəzər hövzəsində yerləşən dövlətlər arasında çox gərgin bir geosiyasi və geoiqtisadi

vəziyyət yaratmış, regional inteqrasiya və qarşılıqlı-faydalı əməkdaşlığa ciddi zərbə vurmuşdur.

Tədqiqatçılar Xəzərin statusu ilə bağlı Rusiyanın 1992-ci ildən bəri nümayiş etdirdiyi mövqeyini 3 əsas mərhələyə bölürlər:

Birinci mərhələ, 1992-95-ci illəri əhatə edir və bu dövrü "Rusiyanın öz geosiyasi maraqlarını xarici ölkələrin ərazisində axtarması" faktından çıxış edərək, politoloqlar "post-imperiya" yanaşması kimi xarakterizə edirlər. Onların fikrinə görə, Rusiyanın bəzi dairələrinin həmin mərhələdəki fəaliyyəti az qala Xəzərdə ciddi münaqişə yaradaraq, region səviyyəsində lokal müharibəyə səbəb olacaqdı.

Bu mərhələdə Rusiyanın nümayiş etdirdiyi mövqeni tədqiqatçılar barışmaz və bir qədər aqressiv münasibət kimi xarakterizə edirlər. Xəzərin hüquqi statusunun 1921 və 1940-cı illərdə SSRİ ilə İran arasında imzalanmış "sazişlərə uyğun müəyyənləşdirilməsini" tələb edən Moskva, bir tərəfdən bu sazişləri bilərəkdən öz subyektiv mülahizələrinə söykənərək, qeyri-obyektiv şərh edir, digər tərəfdənsə BMT-nin "Dəniz hüquqları" Konvensiyasına əsaslanan beynəlxalq hüququn prinsipləri ilə spekulyativ davranış nümayiş etdirirdi. Məsələ ondadır ki, beynəlxalq qanunvericiliyə görə, hər hansı obyektdən istifadə edən subyektlərin birinin tərkibinin dəyişməsi, (burada söhbət SSRİ-nin dağılması və Xəzər ətrafında onun dörd varisinin meydana gəlməsindən gedir.-Ə.H.) həmin obyektin mövcud hüquqi statusuna yenidən baxılmasını tələb etmir. Xəzərə tətbiq ediləndə bu formula, yuxarıda qeyd etdiyimiz kimi, İranın dənizdəki 14%-lik payına toxunmadan, SSRİ-nin 86%-lik payının bölünməsini irəli sürür ki, bu da hələ sovet hökumətinin varlığı dövründə – 1970-ci ildə həyata keçirilmişdi. Rusiya həmin dövrdə irəli sürdüyü əsassız tələb ilə faktiki olaraq statusu, sərhədləri və milli sektorları bəlli olan sahilyanı ölkələri yenidən süni

qarşıdurmaya və "status oyunlarına" qataraq, əslində onun iradəsi xaricində Xəzərdə reallaşdırılan hər hansı layihəni "qanunsuz" elan etmək xətti yürüdürdü. Rusiyanın bəhs olunan dövrdəki tələbindən belə bir məntiqi nəticə ortaya çıxırdı ki, Xəzərdə iqtisadi fəaliyyətlə məşğul olmaq istəyən hər bir sahilyanı ölkə öz addımlarını Moskva və Tehranla razılaşdırmalı idi.

Tədqiqatçılar bu mərhələdə Azərbaycanın Xəzərdəki fəaliyəti ilə bağlı Rusiya Xarici işlər nazirliyinin BMT-yə nota göndərməsini, onu beynəlxaq hüquq normalarını pozmaqda günahlandırmasını, Xəzərdə həyata keçirilən layihələri tanımayacağı haqqında bəyanatlar səsləndirməsini və s. heç bir beynəlxalq gücə malik olmadığını, əsasən xarici tərəfdaşları Azərbaycanla birgə fəaliyyətdən çəkindirmək məqsədi güddüyünü qeyd edirdilər.

Rusiyanın statusla bağlı fəaliyyətinin **İkinci mərhələsi** 1995-97-ci illəri əhatə edir və mütəxəssislər tərəfindən "parqmatik yanaşma" dövrü kimi xarakterizə edilir. Bu mərhələdə Rusiya, Xəzərin statusu ilə bağıl diplomatik hücum və hərbi güc tətbiq etmə çağırışlarından imtina edir, siyasi və iqtisadi yollarla hadisələrin gedişinə təsir göstərməyə çalışır. İkinci mərhələni həm də şərti olaraq, rus politoloqları «ilkin kompromis» dövrü adlandırırlar.

Bu mərhələdə sahilyanı ölkələrlə ziddiyyətlərin getdikcə artdığını anlayan Moskva 1996-cı ildə öz barışmaz mövqeyindən tədricən çəkilərək yeni "barışdırıcı" ideyalarla çıxış etməyə başlayır. Həmin ildə Rusiya hökuməti bu ölkənin Xarici işlər nazirliyindəki bəzi dairələrdən fərqli olaraq sektor məsələsində Azərbaycanın haqlı olduğunu etiraf edərək, o zamankı Baş Nazir V. Çernomırdinin dili ilə Xəzərdə həyata keçirilən enerji layihələrinin qanuni olduğunu bəyan edir.[303]

[303] Bax: qaz. «Сегодня», 1996, 13 ноября.

Rusiya Federasiyasının Xəzərin statusu il bağlı bir neçə yeni ideya və təklifləri də məhz həmin mərhələdə irəli sürülür. Həmin təkliflərdən birində Rusiya *hər bir sahilyanı ölkənin dənizin ona aid 45 millik sahilyanı zonasına nəzarət etmək hüququ ilə yanaşı, həm də bu zonaya daxil olmayan, lakin artıq neft çıxarılan yataqlar üzərindəki hüququnu təsdiq etməyə, həmin ölkələrin, yaxud şirkətlərin hüququnu da tanımağa hazır olduğunu bəyan edir.*

Bundan başqa, rəsmi Moskva Tehranın 1992-ci ildə irəli sürdüyü "Xəzərdə regional əməkdaşlığa dair" birgə sazişin bağlanması və bu məqsədlə xüsusi bir təşkilatın yaradılması təşəbbüsünü də dəstəkləməyə başlayır.

Lakin bütün bunlara baxmayaraq, Xəzərin statusu ilə bağlı Rusiya uzun müddət öz korporotiv maraqlarını əsas tutaraq, Azərbaycanı beynəlxalq hüquqa söykənən mövqedən çəkindirməyə, onu yeni-yeni kompromislərə məcbur etməyə cəhd etmişdir. Məsələn, 1997-ci ildə bu ölkənin bəzi dairələri bir daha Xəzərin sektor bölgüsünü gündəmə gətirərək, məsələ ilə bağlı xüsusi hesablanmış yeni bir "kompromis" təkliflə çıxış edirlər. Bu layihə müəllifləri Xəzəri beş ölkənin daxili gölü hesab edərək, onun yalnız 12 millik sahil ərazisinin dibinin və su səthinin milli sektorlara bölünməsini, bundan sonra gələn 25 millik dəniz dibi və su səthinin "iqtisadi zona" kimi tanımasını, dənizin qalan bütün su hövzəsiin və həmin radiusda da dibinin yalnız "ümumi istifadə" edilməsini irəli sürürlər. Mütəxəssislərin fikrinə görə, layihə müəllifləri bu təklifi hazırlayarkən Xəzərin karbohidrogen yataqlarının xəritəsi ilə bağlı xüsusi tədqiqat aparmışlar. Çünki, layihədə göstərildiyi kimi, əgər hər bir hövzə ölkəsi yalnız 12 millik sektorlara tam sahib olurdusa və qalan 25 millik sektorda "iqtisadi zona" da olduğu kimi fəaliyət göstərmək hüququ qazanırdısa, o zaman Xəzərin əsas enerji resursları (o cümlədən Azərbaycanın konsorsium çərçi-

vəsində fəaliyyət göstərdiyi bugünkü əsas neft və qaz yataqları. - Ə.H.) "ümumi istifadədə" qalırdı. Bu layihə Xəzərin karbohidrogen yataqlarını təxminən, aşağıdakı kimi bölür və planlaşdırırdı: Azərbaycanın 12 millik sektorunda təxminən 0,5 mlrd. ton neft, 0,5 trlrd. kub metr qaz, Rusiyanın eyni məsafəli sektorunda müvafiq olaraq 0,2/0.3, Qazaxısıtanınkında 0.6/04, Türkmənistanınkında 1/0.2 enerji resursu mövcud idi. Sonrakı 25 milik "iqtisadi zonada" Azərbaycanın müvafiq olaraq 1.5/1.5, Rusiyanın 1/05, Qazaxıstanın 2/1, Türkmənistanın isə 0.5/0.5 mildarında enerji resursu proqnozlaşdırılırdı. Bəhs olunan bölgü ilə Azərğbaycanın indiki milli sektorundakı təxminən 2.5 mlrd. ton neft və 1.5/2 trln. kub metr qaz, Rusiyanın müvafiq olaraq 1/1, Qazaxıstanın 3/1.5, Türkmənistanın 0.5/1 miqdarında yanacaq resursu "birgə zonada" qalırdı.

Bu bölgüdən göründuyü kimi ruslar Azərbaycanın zəngin neft və qaz yataqları olan sektorundakı əraziləri ümumi istifadədə saxlamaqla, onları gələcəkldə öz əlinə keçirmək və Azərbaycanı bu resurslaradan məhrum etmək istəyirdi. Lakin Azərbaycan Prezidenti Heydər Əliyevin o zaman nümayiş etdirdiyi polad iradə, beynəlxal hüququn və beynəlxalq aləmin Azərbaycanın tərəfində olması onların bu planlarını alt-üst etdi. Əslində, Rusiyanın təklif etdiyi bu layihədə Azərbaycan istisna olmaqla, bütün Xəzər hövzəsi ölkələrin milli sektorlarındakı ehtiyatlar onların öz ərazisində qalırdı. Yalnız Azərbaycan öz zəngin Günəşli, Çıraq, Azəri və b. yataqlarından məhrum edilirdi.

Sonrakı illərdə bu layihənin də keçmədiyini anlayan ruslar və iranlılar Xəzərin statusu ilə bağlı yeni-yeni müxtəlif manevrlər həyata keçirsə də ciddi bir şeyə nail ola bilmədilər və sonda Azərbaycanın ədalətli və haqlı mövqeləri ilə barışmağa məcbur oldular.

1997-ci ilin dekabrında Rusiya, nəhayət ki, Azərbaycanın nümunəsinə uyğun olaraq, Xəzərin ona məxsus milli sektorun-

dakı neft-qaz yataqlarının öyrənilməsi və birgə işlənilməsi haqqında beynəlxalq tender elan etdi. Bu faktı həmin dövrdə tədqiqatçılar rəsmi Moskvanın "Xəzərin statusu müəyyən olanadək, hər hansı birtərəfli addımların yolverilməzliyi" haqda Rusiya-İran «cütlüyü»nün dəfələrlə səsləndirdiyi əsassız ideyalardan imtina etməsi kimi qiymətləndirdilər.

Rusiyanın status fəaliyyətindəki **üçüncü mərhələ,** 1998-ci ildən başlanır və mütəxəssislər tərəfindən "konstruktiv yanaşma" dövrü kimi dəyərləndirilir. Bu dövrdə faktiki olaraq Rusiya Azərbaycanın Xəzərdə reallaşdırdığı bütün layihələri rəsmi şəkildə tanıyır və həmin layihələrdən özünə pay almaq üçün rəqabət şəraitində fəaliyyət göstərməyə cəhd göstərir.[304]

1998-ci ilin yanvarında Rusiya ilə Qazaxıstan prezidentlərinin Xəzərin statusu ilə bağlı qəbul etdiyi "Birgə Bəyanat" iki ölkənin orta xətt üzrə Xəzərin dibinin sektorlara bölünməsinə dair razılığa gəldiyini göstərirdi. Həmin ilin iyulunda isə Moskvada Rusiya ilə Qazaxıstan arasında «Xəzərin Şimal hissəsinin dibinin bölünməsinə dair» Birgə Saziş imzalandı. Bundan bir qədər sonra Rusiya Azərabycanla da Xəzərin dibinin orta xətt üzrə milli sektorlara bölünməsi haqqında danışıqlara başlayır və müvafiq şazişlərin hazırlanması tapşırığını verir ki, bu da faktiki olaraq "Xəzərin hüquq statusu" məsələsini bölgə ölkələrinin və beynəlxalq aləmin geosiyasi gündəmindən çıxarır.

Rusiyanın mövqeyindəki status məsələsindəki konstruktiv dəyişikliklər, müvafiq olaraq dərhal Rusiya Azərbacan münasibətlərinə öz müsbət təsirini göstərməyə başlayır ki, bu da bütün hövzəyə konstruktiv bir ovqat gətirir. Rusiya prezidenti V.Putinin 8-9 yanvar 2001-ci ildə Azərbaycana rəsmi dövlət səfəri çərçivəsində Azərbaycan prezidenti Heydər Əliyevlə imzala-

[304] Bax: Конопляник А.А. Каспийская нефть на Евразийском перекрестке. М., 1998, с.140.

dığı "Xəzər dənizində birgə fəaliyyət" haqqında Bəyanatda Azərbaycanın başlanğıcdan təklif etdiyi "Xəzərin orta xətt üzrə milli sektorlara bölünməsi" prinsipi cüzi dəyişikliklərlə öz əksini tapdı. Təxminən bir il sonra- 23 sentyabr 2002-ci ildə prezident Heydər Əliyevin Moskvaya səfəri çərçivəsində iki ölkə başçıları arasında imzalanan dövlətlərarası sazişin əsasına da məhz bu prinsip qoyulmuşdur. Beləliklə, üçüncü mərhələdə Rusiyanın mövqeyində müşahidə olunan konstruktivlik faktiki olaraq "Xəzərin statusu" kimi ortaya atılmış, özündə ciddi geosiyasi təhlükə yükü daşıyan ziyanlı və süni problemi üç ölkə- Rusiya, Kazaxıstan və Azərbaycan üçün həll etdi. Az keçməmiş, 2003-cü il mayın 14-də Astanada Azərbaycan, Rusiya və Qazaxıstan arasında "Xəzərin dibinin ora xətt üzrə milli sektorlara bölünməsi, su səthinin ümumu istifadəsi" haqqında üçtərəfli saziş imzalandı və tərəflər, Xəzərin dibinin bölünməsinə dair yekun razılığa imza atdılar. Üçtərəfli sazişə görə, orta xətt üzrə Xəzərin dibinin 18,7 faizi Rusiyanın, 19,5 faizi Azərbaycanın, 29,6 faizi isə Qazaxıstanın nəzarətində qaldı.

Qeyd edək ki, orta xətt prinsipini qəbul etməyən digər hövzə dövlətlərinin- İranın payı bu bölgü üzrə 13,8%, Türkmənistanınkı isə 18,4% təşkil edir.

Xəzərin statusu ilə bağlı imzalanmış üçtərəfli saziş, dənizdəki qüvvələr nisbətini köklü şəkildə dəyişdi və hələ 1992-ci ildə yaranmış «geosiyasi bloklaşma» prosesinə Azərbaycanın xeyirinə müsbət təsir göstərərək, yeni geosiyasi vəziyyət yaratdı. Rusiya status məsələsində artıq İranla deyil, Azərbaycan və Qazaxıstanla ümumi dil tapmağa üstünlük verdi. Qeyd edək ki, Rusiyanın Xəzərin statusuna yanaşmasındakı dəyişikliklər Moskvanın özündə də birmənalı qarşılanmadı. Bir sıra şovinist-ekstremist və millətçi dairələr, erməni kökənli politoloqlar, millətçi cərəyan tərəfdarları, jirinovskilər və s. Moskvanı "Xəzərdəki mövqelərini itirməkdə" günahlandıraraq, Putin

hökumətinin siyasətinə qarçı ciddi etiraz nümayiş etdirməyə cəhd göstərdilər.

Tədqiqatçıların fikrinə görə, Rusiyanın Xəzərlə bağlı mövqeyindəki dəyişikliyin bir sıra başqa səbəbləri var idi.

Əvvəla, Rusiya ilə sahilyanı postsovet ölkələri arasındakı ziddiyyətlər gücləndikcə, həmin dövlətlər Moskvanın təsir dairəsindən daha sürətlə uzaqlaşmaq kursunu seçərək, başqa dünya güclərinə üz tuturdu. Artıq bunun ilkin əlamətləri də göz önündə idi.

İkincisi, bir neçə il Qərbin bölgəyə gəlişinin qarşısını ciddi-cəhdlə almağa çalışan Rusiya əks effektlə qarşılaşaraq, nəinki uğursuzluğa düçar olmuşdu, həm də, bölgənin neft-qaz ehtiyatlarının «bölüşdürülməsi» prosesindən kənarda qalmaq təhlükəsi ilə üzləşirdi.

Bir sözlə, Rusiyanın Xəzər probleminə yanaşmasındakı dəyişikliklər daha çox obyektiv səbəblərlə bağlı idi. Lakin bu məsələdə Azərbaycanın tutduğu mövqeni də tədqiqatçılar nəzərdən qaçırmırlar. Tam əminliklə söyləmək olar ki, Rusiyanın Xəzər siyasətindəki dəyişikliklərə Azərbaycanın bölgədə yeritdiyi birmənalı konstruktiv, ədalətli və beynəlxalq hüquqa söykənən prinsipial siyasətin təsiri olmuşdur. Tədqiqatçılar hesab edir ki, *əvvəla,* sahilyanı ölkələr arasında öz milli sektorundakı neft və qaz yataqlarında xarici tərəfdaşlarla işləməyə başlayan ilk ölkə məhz Azərbaycan olmuşdur. Yalnız rəsmi Bakının bu təşəbbüsündən sonra Qazaxıstan, Türkmənistan və Rusiya da anoloji addımlar atmağa başlayırlar.

İkincisi, 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi» Azərbaycanın Qərbdəki, Qərbin isə Xəzər hövzəsindəki mövqelərini xeyli möhkəmləndirdi və rəsmi Bakı Rusiya ilə İranı real geosiyasi vəziyyət qarşısında qoydu. Bu müqaviləni aqressiv qarşılayan Rusiya, sonda onu tanımağa və özü həmin müqavilələrdən bəhrələnməyə başladı.

Üçüncüsü, Xəzərin statusuna dair danışıqların getdiyi bir vaxtda- 1995-ci ildə Azərbaycanın yeni qəbul olunmuş Konstitusiyası ölkə vətəndaşlarının iradəsinə söykənərək, Xəzərin ona aid hissəsini hüquqi cəhətdən "tam rəsmiləşdirdi və xarici şirkətlərə Xəzərdə tam milli təminat verdi". Azərbaycan Konstitusiyasının 11-ci maddəsində deyilir ki, ölkənin daxili suları, Xəzərin ölkəyə məxsus sektoru və bu ərazi üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

1995-ci ilin aprelində ABŞ prezidenti Bill Klinton Azərbaycanın dövlət başçısı Heydər Əliyevə məktub göndərərək, Xəzərin sektorlara bölünməsi ilə bağlı bu ölkənin mövqeyini dəstəklədiyini bəyan edir. Bu addım rəsmi Bakının geosiyasi xəttinin digər sahilyanı ölkələrin siyasətini üstələməsinə dəlalət edən vacib məqam idi ki, bu da ümumən "status mübarizəsinə" təsirsiz ötüşmədi. Yaranmış əlverişli vəziyyətdən istifadə edən Azərbaycan dövləti Xəzərdəki sərhədlərini yeni Konstitusiyada əks etdirməklə öz milli sektoruna iddiasını tam rəsmiləşdirdi və beləliklə, danışıqlar zamanı əlavə hüquqi üstünlüklər əldə etdi.

Üstəlik, bir vacib məqama da diqqət yetirmək lazımdır: rəsmi Bakının Xəzərin milli sektorlara bölünməsinə dair təşəbbüsü Azərbaycanın hövzədəki mövqelərini daha da möhkəmləndirir və digər sahilyanı dövlətlərlə müqayisədə, onun üçün daha əlverişli beynəlxalq geosiyasi dəstək vəd edirdi. Belə ki, bu cür bölgü zamanı sahilyanı ölkələr arasında dəqiq dəniz sərhədləri yaranırdı. Bu isə o demək idi ki, Rusiya avtomatik olaraq İran və Türkmənistanla, Türkmənistan Rusiya ilə, İran Qazaxıstan və Rusiya ilə, Qazaxıstan isə İranla ümumi dəniz sərhədlərini itirirdi. Yalnız Azərbaycan bütün sahilyanı ölkələrlə ümumi sərhədə malik olurdu.

Amma təbii ki, Azərbaycan, Qazaxıstan və Rusiyanın Xəzərin hüquqi statusuna dair üçtərəfli saziş imzalaması və dənizin dibinin milli sektorlara bölünməsi ilə bağlı razılığa gəlməsi, ümumilikdə bu problemin tam həlli demək deyil. 1995-ci

ilin yanvar-fevralında Aşqabad, iyununda Tehran, sentyabrında Almatı, 1996-cı ilin mayında Tehran, noyabrında Aşqabad, 1997-ci ilin mayında Almatı, 1998-ci ilin dekabrında Moskva, sonrakı – 2010-cu ilə qədərki dövrdə digər ölkələrin şəhərlərində Xəzərin statusu lə bağlı keçirilən konfranslarda bu "problem" hərtərəfli müzakirə olunsa da, yekun rəyə gəlmək mümkün olmayıb. Buna görə əsas məsuliyyət daşıyan ölkələrdən biri və əsası İrandır.

Hazırda Rusiya son bir neçə il ərzində Xəzər hövzəsində itirdiyi mövqeləri geri qaytarmaq üçün sivil formada öz iqtisadi və siyasi aktivliyini xeyli artırıb. Üçüncü minilliyin başlanğıcında dünyada və bölgədə yaranmış yeni geosiyasi və geoiqtisadi reallıqlar Moskvanın və Tehranın geostrateji maraqları baxımından arzuolunmaz istiqamətdə cərəyan etsə də, Barak Obamanın hakimiyyətə gəlişindən sonra son illərdə ABŞ-n bölgədə öz fəaliyyətini nisbətən zəiflətməsi, geosiyasi və geoiqtisadi mövqelərini bir-birinin ardınca Rusiyaya güzəştə getməsi, bu ölkələrin Xəzər hövzəsindəki mövqe və davranışlarında da müvafiq dəyişikliklər yaradıb. Rusiya bölgədə itirdiyi geoiqtisadi təsir mexanizmlərini bərpa etmək məqsədilə İran və Türkmənistanın Xəzərdəki fərqli davranışlarından, özünün bölgə üzərindəki hərbi-geostrateji üstünlüklərindən, Azərbaycan və Qazaxıstanla yaranmış əlverişli tərəfdaşlıq münasibətlərindən bəhrələnmək istəyir.

Tədqiqatçılar hesab edir ki, Rusiya *əvvəla,* Xəzərdə ən güclü hərbi-dəniz qüvvələrinə və hərbi-geostrateji mövqelərə malikdir və buradakı üstünlüklərini, kiminsə xeyirinə məhdudlaşdırmaq, yaxud kiminləsə bölüşmək haqda qətiyyən düşünmür. Odur ki, o, İranın da NATO "təhlükəsindən", yaxud nə vaxtsa Xəzər ərazisindən ona qarşı hərbi məqsədlər üçün istifadə edilə bilməsi ehtimalından istifadə edərək, Xəzərin hüquqi statusu məsələsi ilə beş hövzə ölkəsinin "hər hansı kənar qüvvələri Xəzərdə hərbi iştirakı və yaxud hövzə ölkələrinin

ərazisindən kiməsə qarşı hərbi-strateji istifadəni qadağan edən" Birgə Sazişlə bağlamaq istəyir.

İkincisi, Rusiya Avropanın neft və qaz bazarında öz inhisarçı mövqelərini tam möhkəmlətməyincə, bu sahədə ABŞ, Avropa Birliyi və bəzi region ölkələrinin alternativ enerji ixracı məhsulları, bazarları və kəmərləri axtarışı cəhdlərini, məsələn Transxəzər, Nabuko kimi "təhlükələri" aradan qaldırmayınca müxtəlif bəhanələrlə Xəzərin statusunu uzatmağa, milli sektorların təbii sərvətlərinin istifadəsi, ölkələrin müstəqil hüquqları və s. ilə bağlı əvvəllər razılaşdırılmış məsələlərə yenidən baxmağa cəhd göstərir. Xüsusən, sektor bölgüsü, Xəzərdə ayrı-ayrılıqda və xarici tərəfdaşlarla birgə sərbəst iş aparmaq və s. ilə bağlı Azərbaycanın 90-cı illərin sonunda sərt şəkildə ortaya qoyduğu, beynəlxalq aləmin dəstəyi ilə müdafiə etdiyi və reallaşdırdığı mövqelərini yumşaltmaq, xarici şirkətlərin və ölkələrin bundan sonra Xəzərə yolunu bağlamaq sahəsində Rusiya və İranın yeni kursu aydın sezilməkdədir. Bu yöndə Rusiya İranın anti-qərb əhval ruhiyyəsindən istifadə edərək, Xəzərdə ABŞ, Avropa Birliyi ölkələrinə, Yaponiya, Türkiyə və s. dövlətlərə məxsus şirkətlərin sonrakı fəaliyyətini, Avropa enerji bazarlarına çəkiləcək yeni-yeni neft-qaz layihələrini əngəlləmək, Türkmənistan və Qazaxıstanın Transxəzər marşrutuna qoşulmasına, Xəzərin dibi ilə sualtı neft və qaz kəmərlərin çəkilişinə mane olmaq üçün müxtəlif tədbirlərə əl atır. Bu tədbirlərdən biri Azərbaycan, Türkmənistan və Qazaxıstanın bütün ixrac qazını almaq, digəri yeni salınacaq kəmər və ixrac marşurutlarının perspektivsizliyi ilə bağlı geniş təbliğat aparmaq və nəhayət, beş Xəzərətrafı dövlətlə "Xəzərdə Birgə İqtisadi Əməkdaşlıq Konsorsiumu" yaratmaqla bölgədən kənar ölkələrin dənizin geoiqtisadi zonasına daxil olmasını, xüsusən, onun enerji mənbələrinə çıxışını əngəlləməkdən ibarətdir. Qeyd olunduğu kimi, Rusiya ABŞ-ın eyni sahədəki əvvəlki fəal mövqelərinin zəifləməsindən istifadə edərək, Xəzər höv-

zəsində öz geoiqtisadi fəaliyyətlərini ciddi şəkildə gücləndirmiş və mövqelərini sərt formada qorumağa başlamışdır. Rusiya prezidenti Dmitri Medvedevin 22 oktyabr 2010-cu ildə Türkmənistana səfəri çərçivəsində Xəzərdə həyata keçiriləcək iqtisadi fəaliyyət və enerji layihələri ilə bağlı "beş hövzə ölkəsinin razılığı, birgə gücü və iştirakı ilə" səsləndirdiyi tezis və verdiyi bəyənatlar bunun əyani sübutudur. O öz çıxışında qeyd etmişdir ki, "yalnız beş ölkə Xəzərin təbii sərvətlərinin fəaliyyətdə olan və gələcəkdə yaradılacaq istifadəsi rejiminə cavabdeh olmalıdır".[305]

Xəzərin hüquqi statusu məsələsində İranın mövqeyi: İranın Xəzərin bölünməsi ilə bağlı indiyə qədər iki əsas təklifi səslənmişdir. Bunlardan **birincisi,** heç bir beynəlxalq və regional hüquqa söykənməyən, tarixdə analoqu olmayan və coğrafi cəhətdən reallaşdırılması çox çətin olan- dənizin dibinin 20% olmaqla beş sahil ölkəsi arasında "bərabər bölünməsi", səthininsə ümumi istifadədə saxlanılması variantı idi. (Bax:Xəritə 19, 20)

İkinci təklif, bəzi İran mütəxəssislərin təqdim etdiyi kimi, "kompromis variant" adlanır və Xəzərin yeni bölgüsü prinsipini nəzərdə tutur. Bu layihəyə görə İran, Xəzərdən hər bir sahilyanı dövlətə öz ərazisindən dənizin ortasına doğru 20 millik- "sahil ərazi suları zonası" və 20 millik "iqtisadi zona" ayırır. Təklifdə sahil ərazi suları hövzə ölkələrinin sərhədlərini müəyyən etdiyinə görə, bu məkanda Xəzərin həm dibi, həm səthi, həm də hava məkanı dövlətlərin tam nəzarətində saxlanılır. O ki qaldı, İqtisadi zonaya, burada hər bir dövlətə dənizin bioloji və mineral ehtiyatlarının qorunub saxlanması və kəşfiyyatı məqsədilə sərbəst fəaliyyət hüququ tanınsa da, digər sahilyanı ölkələrin bu ərazinin hava məkanından və su səthindən istifadə etməsi hüququ da tanınır. Nəhayət, 40 millik zonadan kənarda

[305] Bax: газ. "Зеркало", №194, 23 октября 2010 г.с.11.

İRANIN TƏKLİF ETDİYİ 20% BÖLGÜ LAYİHƏSİ



Xəritə 19.



Xəritə 20.

qalan Xəzərin orta hissəsi bütün sahilyanı ölkələrin "ümumi istifadəsində" qalır və "konsensus" yolu ilə idarə olunur.

Mütəxəssislərin fikrinə görə, Xəzər dənizinin statusuna yanaşmasında İranın hər iki mövqeyi iki əsas amilə söykənirdi. Bunlardan biri, Qərb ölkələrinin dənizdə nə hərbi-geostrateji, nə də ki, geoiqtisadi iştirakına imkan verməmək, digəri isə, yeni yaranmış şəraitdən istifadə edərək, Xəzər dənizində öz geosiyasi mövqelərini gücləndirmək, bölgənin müsəlman ölkələrində dominantlıq qazanmaq və mümkün qədər Rusiyanı bu məkandan sıxışdırmaqdan ibarət idi. Göründüyü kimi, İranı öz iqtisadi

maraqlarından daha çox, geosiyasi mənafeləri düşündürür. Çünki rəsmi Tehranı bu məsələdə maraqlandıran əsas məqam Xəzərin "dəniz", yaxud "göl" kimi qəbul olunması deyil, İranın geostrateji təhlükəsizliyinin təmin edilməsi və regionda aktivləşmiş Qərb ölkələrindən qaynaqlanan "potensial təhlükələrin" qarşısının alınmasıdır. İqtisadi maraqlar isə Tehran üçün ən azı ona görə ikinci dərəcəlidir ki, onun Fars körfəzində, digər quru ərazilərində Xəzərdəkindən qat-qat üstün və zəngin enerji qaynaqları, hazır istehsal infrastrukturları mövcuddur.

Mütəxəssislərin fikrinə görə, İranın Xəzərin statusu və yeni əsaslarla onun bölünməsinə dair nümayiş etdirdiyi mövqe yalnız bu ölkənin geosiyasi maraqlarına yönəlib və digər sahilyanı dövlətlərin mənafelərinə qətiyyən cavab vermir. Çünki onun təklif etdiyi variant bölgədə qeyri-müəyyən geosiyasi şərait yaratmağa hesablanmışdır ki, bu da digər ölkələr öçün qətiyyən qəbul edilməzdir. Mütəxəssislər həm də İranın bu mövqeyini, təkcə Xəzər dənizinin yeraltı ehtiyatlarının mənimsənilməsinə törətdiyi maneə kimi qiymətləndimir, həm də dənizdə gəmiçiliyin, balıqçılığın inkişafına, sahilyanı ölkələr arasında sərhədlərin müəyyən edilməsinə və s. ciddi problemlər yaradacağına işarə vuraraq, onun mövqeyi ilə heç bir Xəzər ölkəsinin razılaşa bilməyəcəyini proqnozlaşdırırlar. Tədqiqatçılar bu ölkənin Xəzərin statusu ilə bağlı nümayiş etdirdiyi mövqeyinin aşağıdakı bir neçə prinsipə əsaslandığını qeyd edirlər.

1. İran istəyir ki, dəniz sahilyanı ölkələr arasında bölünsə də, hər hansı ölkə digər sahilyanı dövlətlərin razılığını almadan öz sularından sərbəst istifadə edə bilməsin;
2. Qonşu ölkələrin əksəriyyəti ilə İranın birbaşa dəniz sərhədi yaransın;
3. Xəzərin hərbiləşdirilməsinə yol verilməsin;
4. Ekoloji problemlər adı ilə Xəzərin dibi ilə neft-qaz kəmərlərinin çəkilməsinə mane olunsun;
5. Sahilyanı ölkələr arasındakı problemlərin həllində regiondankənar dövlətlərin iştirakı məhdudlaşsın;

6. İranla ideoloji və siyasi ziddiyyəti olan Qərb dövlətlərinin hövzədə möhkəmlənməsinin qarşısı alınsın və s.

İran həm də Xəzər bölgəsində Azərbaycanın reallaşdırdığı transmilli enerji layihələrinə və xarici şirkətlərin bu işdəki iştirakına çox həssas yanaşır. Təbii ki, bu məsələdə onun daha çox Azərbaycanla deyil, Qərb ölkələri ilə, xüsusən də ABŞ-la kəskin münasibətləri əsas rol oynayır. İranla Rusiyanın regiondakı geosiyasi proseslərə yanaşmada uzun müddət eyni mövqedən çıxış etməsi də əsasən son amillə bağlıdır. İran da Rusiya kimi istəyir ki, Xəzərin hüquqi statusu məsələsi nə qədər mümkündürsə uzansın, bu ölkənin Qərblə münasibərlərinin taleyi tam aydın olmayana qədər bəhs olunan məsələ həll edilməsin və deməli, başqa Xəzərətrafı dövlətlərin geoiqtisadi maraqları İranın Qərblə əlaqələrinin girovuna çevrilsin.

Bir faktı da qeyd etmək lazımdır ki, İranın Xəzərin statusu ilə bağlı mövqeyində 1992-ci ildən indiyədək demək olar ki, heç bir ciddi dəyişiklik baş verməmişdir.

Xəzər sahilinin Mərkəzi Asiya hissəsini iki Orta Asiya ölkəsi- Qazaxıstan və Türkmənistan təmsil edir. **Qazaxıstanın** Xəzərdəki karbohidrogen ehtiyatlarının miqdarı ilə bağlı birbirini təkzib edən rəqəmlər olmasına baxmayaraq, mütəxəssislərin fikirinə görə - bu ölkənin Xəzərdəki milli sektoru öz karbohidrogen resursları ilə digərlərinə nisbətən daha zəngindir. Təkcə onun Xəzərdəki "Tengiz" yatağının neft ehtiyatları bir çox mütəxəssislər tərəfindən 6-9 milyard barel miqdarında qiymətləndirilir.

Xəzərin statusu məsələsində 1993-cü ildən başlayaraq Azərbaycanın ən yaxın müttəfiqi qismində Qazaxıstan Respublikası çıxış edir. Digər sahilyanı ölkələrdən fərqli olaraq, Qazaxıstanın Azərbaycanla münasibətləri keçən dövrdə yalnız yüksələn xətt üzrə inkişaf etmiş və hər iki ölkə həm Xəzərin hüquqi statusu, bölgənin yeni transmilli ixrac kəmərləri məsələsi, həm də dənizin mineral ehtiyatlarının istismarı və enerji

daşıyıcılarının dünya bazarlarına çıxarılması sahəsində eyni və ya oxşar mövqedən çıxış etmişlər.

Bu gün məhz Azərbaycan, Rusiya və Qazaxıstanın Xəzərin dibinin bölünməsinə dair imzaladığı ikitərəfli və üçtərəfli sazişlər, problemin həlli istiqamətində vacib amilə çevrilib. Təsadüfi deyil ki, 2004-cü ilin mart ayında Qazaxıstana səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzərin statusu məsələsinin həllində məhz Bakı, Moskva və Astananın rəsmi mövqelərinin, üç ölkə başçılarının imzaladığı ikitərəfli və üçtərəfli sazişlərin əsas götürülməsini vacib saymışdır.

Xəzərin statusu məsələsində Qazaxıstanın mövqeyi sadə və konkretdir. Qazaxıstana görə, dənizin dibi ölkənin quru ərazisinin geoloji davamıdır və onun milli suverenliyin tətbiq olundu ərazisi hesab olunmalıdır. O ki, qaldı dənizin dibinin böyüklüyünə (sərhədinin ölçülərinə), bu koordinatlar hər bir ölkənin sərhədinin- sahil xəttinin uzunluğuna adekvat olmalıdır. Yəni, dəniz dibinin sərhədləri quru sərhədlərinin davamıdır. Qazaxıstan hesab edir ki, BMT-nin 1982-ci ildə qəbul etdiyi "Dəniz hüquqları haqqında" Konvensiyanın əsas müddəaları Xəzərdə tətbiq oluna bilər. Onun Barents, Baltik, Qara dəniz, Fin körfəzi və başqa sututarlarda tətbiq olunan "bərabər məsafə metodu" sadədir və praktik olaraq Xəzərdə həyata keçirilə bilər.

Qazaxıstanın Xəzər dənizinin geosiyasi məsələləri ilə bağlı Azərbacandan əsas fərqi bu məkanda reallaşdırdığı bütün işləri bir qədər ehtiyatlı şəkildə həyata keçirməsi, quruda və dənizdə xarici şirkətlərlə birgə reallaşdırdığı transmilli layihələrə Rusiyanı yaxından cəlb etməsi və bütün fəaliyyətini müəyyən mənada bu dövlətlə razılaşdırmasıdır.

Xəzərin hüquqi statusuna dair ölkələr arasında uzun müddət qeyri-müəyyən vəziyyətin hökm sürməsində **Türkmənistanın** nümayiş etdirdiyi rəsmi mövqenin də mühüm rolu olmuşdur. Məlum olduğu kimi, Türkmənistan bölgədə, ilk növbədə, özünün dünya əhəmiyyətli zəngin təbii qaz ehtiyatları ilə

tanınır. Xəzərin statusu və Qərb investisiyalarının bölgəyə gəlməsinə münasibətdə Türkmənistanın maraqları və mövqeyi Azərbaycanınkı ilə tam üst-üstə düşür. Düzdür, bu ümumilik yalnız xarici şirkətlərlə birgə iş aparmaq və öz məhsullarını sərbəst şəkildə dünya bazarlarına çıxarmaq ehtiyacında müşahidə olunur. Lakin Xəzərin statusu, milli sektorların sərhədləri, xarici kapital cəlb etmə və s. məsələlərdə iki ölkə arasında həm də rəqabət və fikir ayrılıqları mömvcuddur.

Türkməinstan Xəzərin hüquqi statusu məsələsində ilk dövrlərdə Rusiya və İranla birləşərək bəyan edirdi ki, "Xəzər beş ölkənin daxili gölüdür və burada heç bir xarici dövlət yaxud region ölkəsi təkbaşına, hamının razılığını almadan hər hansı bir iş apara bilməz". Bu yanaşma İran və Rusiyadan əxz olunmuş mövqe idi və Türkmənistanın onu niyə müdafiə etməsi hələ də mütəxəssislər üçün qaranlıq olaraq qalır. Çünki, həmin dövrdə Türkmənistan Xəzərdə təkbaşına fəaliyyətin əleyhinə çıxış etməklə yanaşı, həm də özü hamıdan əvəvəl, 1993-cü ildə ölkənin dövlət sərhədləri haqqında qəbul etdiyi bəzi qanunvericilik aktlarında Xəzərin 12 millik sahil ərazilərini ("Dəniz hüquqları haqqında" BMT Konvensiyasına əsaslanaraq) "Türkmənistanın milli ərazisi", orta xəttinə qədər olan digər su hövzəsini isə "iqtisadi zona" elan etmişdi. Bu hadisədən cəmi bir il keçməmiş S. Niyazov Rusiya prezidenti B. Yeltsinin bu məsələ ilə bağlı emosional vəziyyətdə səsləndirdiyi fiikrlərini dəstəkləyərək, bəyan edirdi ki, "Xəzərin nə dibi, nə də su səthi heç kim tərəfindən bölünə bilməz."[306]

Sonrakı illərdə Tükmənistan Rusiya və İrana qoşularaq, Azəbaycan və Qazaxı stanı Xəzərdə xarici şirkətlərlə birgə sərbəst fəaliyyət göstərməkdən çəkindirmək üçün 1996-cı ildə "Üç ölkənin sahil sərhədlərində birgə kəşfiyyat və qazıntı işlərinin aparılması" haqqında təhrikedici bir memorandum da

[306] Bax: "Независимая газета", 6 декабря 1995.

imzalamış və guya kimlərləsə Xəzərdə birgə fəaliyyətə başlamaq haqqında ortaq razılığa da gəlmişlər. Bu "memorandum" mütəxəssislərin fikrinə görə, əslində üç ölkənin Azərbaycana qarşı birgə təxribatından başqa bir şey deyildi və heç bir ciddi beynəlxalq hüquqa əsaslanmırdı.[307]

1999-cu ildə Türkmənistan prezidenti Xəzərin statusu ilə bağlı yenidən "milli sektor" mövqeyindən çıxış etməyə başlayır. Xəzər dənizinin Türkmənistana "məxsus" milli sektorundakı neft-qaz məhsullarının mənimsənilməsini öz ölkəsinin əsas vəzifələrindən biri elan edən o zamankı Türkmənistan prezidenti, "ölkəsinin iqtisadi resurs bazasını artırmaq məqsədilə dənizin Türkmənistan sektorunda xarici şirkətlərlə birgə iş aparmağın əhəmiyyətindən" danışmağa başlayır və hətta, mütəxəssisləri Azərbaycan sektorundakı bəzi yataqların da "mənsubiyyətini" araşdırmağa çağırır.[308]

Göründüyü kimi, Türkmənistan Xəzərin statusuna dair danışıqların ilkin mərhələsində qeyri-müəyyən mövqe nümayiş etdirirdi. O, bir tərəfdən Xəzərin milli sektorlara bölünməsinin vacibliyini bəyan edir, digər tərəfdənsə "dənizdən birgə istifadə" (kondominum) prinsipinin əsas götürülməsi ideyalarını dəstəkləyirdi.

1997-ci ildən etibarən Türkmənistan birgə istifadə ideyasını gündəmdən çıxararaq, bu sahədə yalnız milli sektorlara bölünmə təşəbbüslərini dəstəkləməyə başlayır. Lakin onun Azərbaycandan "milli sektor" yanaşmasındakı əsas fərqi Xəzərin bölünməsi zamanı istifadə edilməsi nəzərdə tutulan "orta xətt" prinsipinə özünəməxsus tərzdə yanaşmasıdır. Türkmənistan hazırda vaxti ilə Azərbaycanın irəli sürdüyü və Rusiya, Azərbaycan və Qazaxıstan arasındakı sazişlərin əsasını təşkil edən "orta xətt" metodikasını bəyənmir və onu öz ölkəsi üçün

[307] Bax: "Российская газета", 7 декабря 1997.
[308] Bax: "Нейтральный Туркменистан", 14 августа 1999.

qeyri-məqbul hesab edir. Məhz bu fərqə görə də, bu ölkə uzun müddətdir ki, sahilyanı dövlətlərin status istiqamətindəki bütün hərəkətlərini "birtərəfli və beynəlxalq hüquqa zidd addım" kimi dəyərləndirir.

Xəzərin statusunun müəyyən edilməsində Türkmənistanın Xəzərdəki bəzi yataqlarla bağlı Azərbaycana qarşı bir sıra iddialarla çıxış etməsi də, gərginliyin əsas mənbələrindən birini təşkil edir. Qeyd edək ki, hələ 1997-ci ilin yayında İslam Konfransı Təşkilatının Aşqabadda keçirilən Sammitində Türkmənistan rəhbərliyi Azərbaycan tərəfinə guya sovet dönəmindən qalmış "dəniz sərhədlərinin delimitasiyası" xəritəsini təqdim edərək, «Azəri» və «Çıraq» yataqlarının Azərbaycanın deyil, Türkmənistanın sektorunda olduğunu sübut etməyə çalışmış və müəyyən kompensasiya müqabilində bu yataqlara iddiadan əl çəkməyə hazır olduğunu bildirmişdir. Əsas iddia isə, türkmənlərin «Sərdar» adlandırdıqları «Kəpəz» yatağı ilə bağlı idi. Qeyd edək ki, təxmini hesablamalara görə, bu yataqda 80 milyon tondan artıq neft ehtiyatı vardır. 1997-ci ilin yayında Azərbaycan Dövlət Neft Şirkəti ilə Rusiyanın «Lukoyl» və «Rosneft» şirkətləri arasında «Kəpəz»in istismarına dair sazişin imzalaması o dövrdə rəsmi Aşqabadın sərt reaksiyası ilə qarşılanmışdı. Həmin il avqustun 31-də Rusiya hakimiyyəti Türkmənistanın iradlarını nəzərə alaraq, Azərbaycanla imzaladığı müqaviləni birtərəfli qaydada dondurdu. Cəmi 1 gün sonra – sentyabrın 1-də Türkmənistan həmin yatağın istismarına dair qeyri-qanuni tender elan etdi və ABŞ-ın «Mobil» şirkətini guya "tenderin qalibi" elan etdi. Amma bu dəfə rəsmi Bakı anlaşmanın reallaşmasına imkan vermədi və Azərbaycanla münasibətləri korlamaq istəməyən «Mobil» şirkəti Türkmənistanla hər hansı saziş imzalamaqdan imtina etdi.

Türkmənistanla Azərbaycan arasında yaranmış problemin aradan qaldırılması üçün hər iki ölkənin rəhbərliyi bir sıra addımlar atsa da, danışıqlar bu günə qədər nəticə verməyib.

1997-ci ilin dekabrında iki ölkə prezidentlərinin Tehrandakı görüşündə sərhədlərin müəyyənləşdirilməsinə dair ikitərəfli komissiyanın yaradılması qərara alındı. Prezident Heydər Əliyevin 1998-ci il yanvarın 16-da imzaladığı sərəncamla Türkmənistanla danışıqlara dair xüsusi ekspert qrupu yaradıldı, yanvarın 18-də isə türkmən prezidenti Saparmurad Niyazov analoji sərəncam imzaladı. 1998-ci il fevralın 5-də ekspert qrupunun Aşqabadda ilk görüşü baş tutdu. Lakin nə Aşqabad görüşü, nə də martın 30-da Bakıda keçirilmiş danışıqlar heç bir ciddi nəticə vermədi. Sonrakı illərdə də iki ölkə arasında aparılan danışıqlar "Kəpəz"in taleyinə heç bir aydınlıq gətirmədi. 2007-2009-cu illərdə Azərbacan prezident İlham Əliyev və Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında keçirilmiş görüşlər və danışıqlar münasibətlərə müəyyən konstruktivlik gətirsə də, hələ də iki ölkə arasındakı münasibətlərdə Xəzər dənizi ilə bağlı ortaq nöqtələr tapılmayıb. Hazırda tərəflər arasında "Kəpəz" in birgə istismarı və orta xəttin müəyyən edilməsi ilə bağlı kompromis bir variant müzakirə edilməkdədir. Proqnozlara görə bu ideya ətrafında gələcəkdə iki ölkə arasında razılığa gəlinəcəyi real görünməkdədir. Türkmənistan-Azərbaycan münasibətlərindəki hazırkı qeyri-müəyyən durumda Azərbaycanın geosiyasi, geoiqtisadi və beynəlxalq mövqeləri daha möhkəm görünür. Rusiya və Qazaxıstanla su sərhədlərini müəyyənləşdirmiş Azərbaycan, Türkmənistanla bu sahədəki bəzi problemlərə baxmayaraq, Xəzərdə öz geoiqtisadi maraqlarına uyğun addımlar atmaqda daha iradəli, imkanlı və sərbəstdir. Rusiya ilə Qazaxıstanın da bu mübahisədə faktiki olaraq, Azərbaycanın qeyri-rəsmi müttəfiqi rolunda çıxış etməsi Aşqabadın manevr imkanlarını bir qədər məhdudlaşdırır.

Beləliklə göründüyü kimi, Xəzərin statusunun müəyyən olunması ilə bağlı keçən illərdə bütün hövzə ölkələrinin maraqlarına toxunan və onların iştirakı ilə müzakirə olunan bir neçə

əsas və bir neçə qeyri-əsas yanaşma mövcud olmuşdur. Bunlardan ən çox diqqət çəkən dörd təklif aşagıdakılardır:

- Azərbaycanın təklif etdiyi **birinci** yanaşmaya görə, Xəzər ətrafda yerləşən beş ölkənin milli ərazilərini birləşdirən, xarici su hövzələri ilə çay vasitəsilə əlaqəsi olan, unikal bir dənizdir. Müvafiq olaraq BMT-nin "Dəniz hüquqları haqqında" Konvensiyasının bütün tələbləri onun statusunun müəyyən olunmasına və Xəzərətrafı ölkələrin milli hüquqlarının həyata keçirilməsinə tətbiq edilməlidir. Bu yanaşmaya görə dənizin dibi və səthi orta xətt prinsipi üzrə milli sektorlara bölünməli və hər bir ölkə öz sektorunda beynəlxalq hüquqa uğun olaraq fəaliyyət azadlığı əldə etməlidir.
- **İkinci** yanaşma, Rusiya və İranın irəli sürdüyü yanaşma idi. Bu təklif tərəfdarları Xəzəri «qapalı su hövzəsi» adlandıraraq, "Dəniz hüquqları haqqında" BMT Konvensiyasının tələblərinin ona tətbiq edilməsinin qeyri mümkünlüyünü iddia edir, hər hansı ölkənin öz iqtisadi zonasında müstəqil fəaliyyət göstərməsini qəbuledilməz sayır və bütün sahilyanı ölkələrdən su hövzəsinin "ümumi istifadəsi tələblərinə" əməl etmələrini tələb edirlər.
- **Üçüncü** təklif, İran tərəfindən irəli sürmüş və Xəzərin beş bərabər hissəyə bölünməsini hədəfləyən, müəyyən məqamlarda Türkmənistanın da dəstəyini qazanmış abstrakt bir layihə idi. Bu variant nəinki heç bir yerli və beynəlxalq hüquqa uyğun gəlmirdi, həm də mütəxəssislər tərəfindən "ümumiyyətlə reallaşdırılması coğrafi cəhətdən mümkün olmayan" təklif kimi dəyərləndirilmişdir.
- Nəhayət, **dördüncü** yanaşma, kompromis kimi Rusiyanın və İranın sonradan təklif etdiyi və yenə də heç bir beynəlxalq və yerli hüquqa söykənməyən "kom-

promis variant" adlanırdı. Bu varianta görə Xəzərdə hər bir sahilyanı ölkə 12 millik sahil zonası üzərində suveren hüquqa malik olur (İran variantında rəqəmlər bir qədər fərqlidir-Ə.H.), bundan sonrakı 25 mil ərazi «iqtisadi zona» kimi qəbul edilir, dənizin ortasındakı qalan ərazilərsə 5 sahilyanı ölkənin ümumi istifadəsinə verilirdi.

1992-ci ildən başlanmış bu günə qədə hər dörd yanaşma tərəfdarları bəzi kiçik dəyişikliklərlə öz mövqelərini müdafiə etməkdədirlər. İndiyə qədər aparılan danışıqlar hələ ki, hamının qəbul edəcəyi ciddi bir nəticə verməmiş və yəqin ki, yaxın gələcəkdə də verməyəcəkdir. Lakin buna baxmayaraq tərəflərin məsələyə yanaşması və müvafiq olaraq nümayiş etdirdiyi fəaliyyət yaxşılığa doğru xeyli dəyişmişdir. Ən azından, bu gün nə Rusiya, nə də ki, İran Azərbaycanı Xəzər dənizinin ona məxsus milli sektorunda xarici tərəfdaşlarla birgə transmilli layihələr həyata keçirdiyinə görə, 1994-1998-ci illərdə olduğu kimi, müharibə, yaxud ona bərabər tutula biləcək digər fəaliyyətlə hədələmirlər.

Status yanaşmasında, əgər yuxarıda göstərilən birinci təklif beynəlxalq hüquqa və Xəzərin bölgüsü ilə bağlı mövcud reallıqlara söykənərək, sahilyanı dövlətlərin öz milli sektorlarında hər hansı kənar və region dövlətindən asılı olmadan müstəqil fəaliyyət göstərməsini ehtiva edirsə, ikinci təklif Xəzərdəki təbii ehtiyatlardan "birgə istifadəni", qlobal transmilli layihələrin həyata keçrilməsi zamanı "hamının konsensusunun" alınmasını, formal olaraq problemin həll edilməsi adı ilə suveren dövlətlərin Xəzər dənizindəki haqlarının qorunması imitasiyasını nümayiş etdirir. O ki, qaldı İranın nümayiş etdirdiyi "bərabər bölgü" prinsipinə, tədqiqatçıların fikrinə görə bu təklifin heç bir perspektivi yoxdur və gələcəkdə İranın ondan imtina edərək, Rusiya, Qazaxıstan və Azərbaycanın bu gün nümayiş etdirdiyi mövqeyə qoşulmaqdan başqa heç bir çarəsi qalmır.

Keçən müddət ərzində bəzi sahilyanı ölkələrin, xüsusən də Rusiyanın və Türkmənistanın məsələyə yanaşmasında baş verən proqressiv dəyişikliklər göz önündədir. Bəzi tədqiqatçılar Xəzərətrafı ölkələrin mövqeyindəki bu dəyişiklikləri Azərbaycanın məsələ ilə bağlı keçən müddətdə nümayiş etdirdiyi ciddi geosiyasi iradə və bu iradənin həm də, bölgə ölkələrinin hamısının ümümi maraqlarına uyğun gəlməsi ilə əlaqələndirirlər.

Son zamanlar Xəzərin statusu yenidən sahil dövlətlərinin nümayəndələrindən təşkil olunmuş işçi qrupları səviyyəsində müzakirə edilsə də, hələ ki yaxın gələcəkdə konkret qərar qəbul ediləcəyi ehtimalı hiss olunmur. Lakin bu vəziyyət dənizdə Azərbaycanla Türkmənistan arasındakı "Kəpəz" və İranın qeyri-real tələblərinə görə Azərbaycan-İran sərhədində istismarı dondurulmuş "Alov" yatağı istisna olmaqla, Xəzərdə hər hansı bir sahilyanı ölkənin iqtisadi fəaliyyət həyata keçirməsinə ciddi maneə də yaratmır.

Xəzərin hüquqi statusu ilə bağlı son real nəticəsi olan görüş 29 sentyabr 2014-cü ildə Rusiyanın Həştərxan şəhərində küçirilən Xəzəryanı dövlət başçılarının lV Sammitində baş tutmuşdur. Sammitdə Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran prezidentləri bir araya gələrək Xəzərin hüquqi statusu, hövzə ölkələri arasında regional təhlükəsizlik və əməkdaşlıq məsələlərini müzakirə etmiş və birgə siyasi bəyanat imzalamışlar. 19 maddədən ibarət olan bu sənəddə tərəflərin Xəzər dənizindəki birgə fəaliyyətinin əsas prinsipləri əks olunub. Müddəalardan birində Xəzərin milli sektorlara bölünməsinin bəzi hüquqi tərəfləri ilə bağlı ölkə başçılarının ümumi yanaşması öz əksini tapıb. Belə ki, birgə bəyanatda ilk dəfədir ki, Xəzərin su səthinin sahildən başlayaraq orta xətt üzrə 15 millik məsafəsi ölkələrin suveren ərazisi kimi təsdiq edilib, digər 10 millik (ümumi uzunluq 25 mil-Ə.H.) məsafədə isə dənizin bioloji resurslarının (balıq ovu və s.-Ə.H.) hasilatı sahəsində dövlətlərin müstəsna hüququ təsdiqlənir. Həştərxan bəyanatında,

gələcəkdə Xəzər dənizinin dibinin və səthinin hamı tərəfindən qəbul olunmuş prinsiplər əsasında milli sektorlara bölünməsi zərurəti də öz əksini tapıb.

Sammitdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bəyan edib ki, 2010-cu ildə Bakıda keçirilmiş III Xəzər sammiti zamanı Xəzər dənizinin hüquqi statusuna dair başlıca məsələlərin, xüsusilə də milli zonaların eni və dənizin bioloji resurslarının mühafizəsi üzrə ümumi razılığa gəlinməsi sonrakı danışıqlar prosesinə ciddi təkan verdi. Dənizin dibinin və səthinin milli sektorlara bölünməsi ilə bağlı Azərbaycan- Qazaxıstan, Azərbaycan-Rusiya, Qazaxıstan və Rusiya arasında indiyə qədər razılaşdırılmış ikitərəfli əlaqələrin, eləcə də Xəzər dənizinin dibinin bölünməsi üzrə Azərbaycan, Qazaxıstan və Rusiya üçtərəfli sazişinin rolunu xüsusi qeyd edən, Azərbaycan Prezidentinin sözlərinə görə, bu sazişlər Xəzərin hüquqi statusunun hərtərəfli nizamlanması üçün vacib rol oynayır: "Azərbaycan hesab edir ki, bu sazişlərdə yer almış prinsiplər bütün Xəzəryanı dövlətlər arasında dəniz dibinin bölünməsi üzrə razılaşmaların əldə olunması üçün yaxşı əsas ola bilər. Biz Xəzər dənizinə dostluq, sülh, təhlükəsizlik və əməkdaşlıq dənizi kimi baxırıq. Azərbaycan Xəzəryanı ölkələrlə qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli əlaqələrin inkişafına xüsusi diqqət yetirir. Xəzəryanı ölkələr arasında sıx dostluq əlaqələri və çoxsahəli əməkdaşlıq regionumuzda sabitlik, əmin-amanlıq və təhlükəsizliyin rəhnidir".

Son sammitdəki razılaşmaları şərh edən politoloqların fikrinə görə, imzalanan sənədlər və birgə bəyanat gələcəkdə Xəzərin statusu ilə bağlı mövcud problemlərin aradan qaldıracağına ümid yaradır.[309]

[309] Bax: "Şərq" qəzeti, 30 sentyabr 2014-cü il, s.3.

§1.4. Azərbaycanın karbohidrogen ehtiyatlarının sərbəst istehsalı və ixracı siyasətinin beynəlxalq və regional geoiqtisadi nəticələri

Hazırda dünya geosiyasətinin və geoiqtisadiyyatının ən aktual mövzularından biri Xəzər hövzəsinin zəngin karbohidrogen yataqlarının azad və açıq rəqabət şəraitində işlənməsi, dünyanın artan enerji tələbatına cəlb edilməsi və bu məhsullar hesabına Avropa enerji bazarlarında Rusiyanın monopolist mövqelərinin qismən zəiflədilməsdir.

Məlum olduğu kimi, Xəzər hövzəsinin neft və qaz ehtiyatları ilə ən zəngin sektor Azərbaycan Türkmənistan və Qazaxıstana məxsus olsa da, dənizdə ilk kəşfiyyatı, qazıntı və hasilat işlərini keçmiş SSRİ zamanında yalnız Azərbaycan başlamış və həyata keçirmişdir. SSRİ zamanında hövzədəki bütün neft və qaz ehtiyatlarının sahibi sovet hakimiyyəti idisə, o dağılandan sonra müstəqilliyini elan edən milli respublikalar, o cümlədən Azərbaycan öz ərazisindəki bütün yeraltı və yerüstü sərvətlərin sahibinə çevrilir.

Mütəxəssislərin fikrinə görə XX əsrin sonlarında Xəzərin dünyaya açılmasında, maliyyə və texnoloji cəhətdən planetin inkişaf etmiş dövlətlərinin diqqətinin bölgəyə yönəldilməsində, hövzənin zəngin karbohidrogen ehtiyatlarının kəşf edilməsi və istehsalında, müstəqil marşurutlarla dünya bazarlarına nəql edilməsində və bütövlükdə geosiyasi əhəmiyyətinin artırılmasında ən önəmli rol Azərbacana məxsusdur. Azərbaycanın 1994-cü ildə "Əsrin müqaviləsi" adlanan transmilli çoxtərəfli sazişin imzalanması ilə əsasını qoyduğu və keçən müddətdə dönmədən həyata keçirdiyi **yeni neft-qaz strategiyası** bu istiqamətdə əsas və həlledici amil omuşdur.

Müstəqilliyə qovuşduqdan sonra prezident Heydər Əliyev 1993-cü ildən başlayaraq ciddi xarici geosiyasi müdaxilələrə, kəskin daxili ictimai-siyasi, iqtisadi və mənəvi böhrana, günü-

gündən güclənən milli-vətəndaş qarşıdurması və s. neqativ hadisələrə baxmayaraq, müstəqil Azərbaycanın milli dövlətçiliyini qoruyub saxladı, onun gələcək inkişaf resurslarının müəyyən edilməsi və istifadəsi strategiyasını irəli sürdü. 1993-1996-cı illərdə inkişafın əsas şərti olan ölkədaxili milli-vətəndaş qarşıdurması dayandırıldı, ictimai-siyasi sabitlik bərpa edildi, yeni və ardıcıl daxili, xarici, milli dövlət quruculuğu və sosial-iqtisadi siyasət yürüdüldü, 1994-cü ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində müvəqqəti atəşkəsə nail olundu. Bütün bu proseslər Azərbaycan prezidentinə öz xalqının gələcəyi ilə bağlı həyati əhəmiyyət kəsb edən çoxsaylı strateji layihələri, o cümlədən də iqtisadi və enerji siyasətini həyata keçirməyə imkan yaratdı.

Lakin Prezident Heydər Əliyev yaxşı başa düşürdü ki, yalnız ölkənin iqtisadi inkişafına nail olmaqla, daxili iqtisadi böhrandan çıxarmaqla və ictimai-siyasi sabitliyi təmin etməklə respublikanın real müstəqilliyinə, daxili və xarici problemlərinin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq olar. O dövrdə bütün bu vəzifələrin həlli milli iqtisadiyyatının inkişafı üçün lazım olan külli miqdarda *sərmayənin, qabaqcıl texnologiyanın tapılması və ölkə iqtisadiyyatına, xüsusən də əsas inkişaf resursu hesab olunan neft sənayesinə cəlb edilməsindən* keçirdi. Belə sərmayə və texnologiya bəhs olunan zaman çərçivəsində nə Azərbaycanın özündə, nə Qərb dövlətlərinin Xəzərə daxil olmasına ciddi etiraz edən Rusiya və İranda, nə də ki, Azərbaycanın müttəfiqi olan Türkiyədə var idi. Yalnız aparıcı Qərb dövlətlərində belə imkan var idi və nəyin bahasına olursa-olsun onları Azərbaycanın neft sənayesinə, iqtisadi inkişaf layihələrinə sərmayə qoyuluşuna cəlb etmək lazım idi.

Heydər Əliyevin rəhbərliyi altında 1993-cü ildən başlayaraq qısa zaman kəsiyində ölkənin çoxsaylı problemləri həll edildi. Daxili həyatda bazar iqtisadiyyatı mexanizmləri yaradıl-

dı, dövlət mülkiyyəti özəlləşdirildi və biznes mühiti liberallaşdırıldı. Azərbaycanın beynəlxalq əlaqələrində xarici aləmlə hərtərəfli işgüzar münasibətlər quruldu, respublika iqtisadiyyatına hava-su kimi lazım olan xarici investisiya və texnologiyalar cəlb edildi, Xəzər dənizinin neft-qaz yataqlarının birgə istismarı təşkil edildi, inkişaf etmiş Qərb dövlətləri və onları təmsil edən qabaqcıl şirkətlərlə Azərbaycanın bərabərhüquqlu, qarşılıqlı-faydalı tərəfdaşlıq əlaqələri yaradıldı və s. milli geosiyasi vəzifələr həll edildi.

Müstəqilliyə qovuşduqdan sonra Azərbaycan 1993-cü ildə yeni təşəbbüslə çıxış edərək, Azərbaycanın neft və qaz ehtiyatlarına maraq göstərən, respublika iqtisadiyyatına sərmayə qoymaq istəyən, dənizin dərin qatlarında neft və qaz çıxarmaq üçün qabaqcıl texnologiyaya malik olan hər bir dövlətlə əməkdaşlıq istəyini bəyan edir. Göründüyü kimi, Azərbaycan Xəzər dənizinin ona məxsus milli sektorundakı enerji yataqlarının istehsalını artıq təkbaşına deyil, (əslində buna onun nə maddi, nə də ki, texnoloji imkanları cavab verirdi) həm bölgə, həm də dünyanın aparıcı ölkələrini, onları təmsil edən transmilli neft şirkətlərini də cəlb etməklə istismar etmək iradəsi ortaya qoyur. Ortada həm də təkcə Xəzər dənizinin Azərbaycana məxsus sektorundakı karbohidrogen yataqlarının mənimsənilməsi deyil, eyni zamanda hasil olunan neftin alternativ yollarla dünya bazarlarına çıxarılması niyyəti mövcuddur. Tezliklə Azərbaycan bu işdə yeni-yeni beynəlxalq tərəfdaşlar tapmaq istiqamətində ciddi fəaliyyətə başlayır. Bununla bağlı qısa müddətdə bütün səviyyələrdə xarici maraqlı dairələrlə, böyük və imkanlı dövlətlərlə, transmillienerji şirkətləri ilə çoxsaylı görüşlər keçirildi və danışıqlar aparıldı. Nəticədə 1994-cü ildə bəhs olunan neft-qaz müqaviləsi imzalandı.

Bəhs olunan dövrdə Azərbaycana, eləcə də Xəzər regionunun neft və qaz ehtiyatlarına ən çox maraq göstərən və tələb olunan maliyyə-texniki imkanlara cavab verən, müasir stan-

dartlarla Xəzər dənizinin dərin qatlarında neft-qaz çıxarmaq gücündə olan dövlətlər ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, Norveç, o cümlədən bu ölkələrə məxsus dövlət və özəl şirkətlər idi. Bütün dünyada aparıcı iqtisadi-siyasi nüfuza malik olan bu dövlətlərin hər biri SSRİ dağıldıqdan sonra öz enerji ehtiyacları və maraqları çərçivəsində Azərbaycanın və bütövlükdə Xəzər regionun zəngin karbohidrogen ehtiyatlarına maraq göstərirdilər. Lakin bölgədəki qeyri-sabit və əlverişsiz vəziyyət, Rusiya və İran kimi region ölkələrinin həmin vaxt öz qarşılarında "kənar" ölkələri görmək istəməməsi və bölgədə ciddi geosiyasi təsirə malik olmaları xarici aktorların bölgəyə daxil olmasının qarşısını kəsirdi.

Azərbaycan həmin dövrdə Qərbin inkişaf etmiş ölkələri ilə enerji sahəsində transmilli əlaqələr yaratmaqla, öz təbii sərvətlərinin bir hissəsini onların xeyirinə güzəştə getməklə bir tərəfdən özünün geosiyasi mövqelərini möhkəmlətmək, dövlət müstəqilliyini dönməz etmək, üzəldiyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin ədalətli həllinə nail olmaq, Azərbaycanın haqlı mövqelərinin dəstəklənməsini təmin etmək, müəyyən mənada Qərbin hərbi-siyasi yardımını almaq niyyəti güdürdü, digər tərəfdənsə millii iqtisadi potensialını gücləndirmək, dövlət idarəçilik institutlarını, milli ordusunu yaratmaq, sosial-iqtisadi islahatlar aparmaq, demokrik, hüquqi dövlət qurmaq və s. sahələrində xarici dəstək almaq istəyirdi. Azərbaycan eyni zamanda, bölgənin Rusiya, Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Gürcüstan, Ukrayna kimi dövlətlərini və onlara məxsus aparıcı şirkətləri də Xəzər dənizində və Cənubi Qafqazda reallaşdırılan transmilli layihələrə cəlb etməyə və bununla da bölgədə mehriban dostluq və qonşuluq münasibətləri yaratmağa çalışırdı. Lakin bu ölkələrin bəzilərinin bu sahədə Azərbaycanla və Qərblə geoiqtisadi tərəfdaşlıq etmək niyyəti yox idi, digərlərinin isə buna texniki-maliyyə imkanı yetmirdi. Buna baxmayaraq, Heydər Əliyev iradəsinin gücü və diploma-

tiyasının məharəti ilə Azərbaycan əksər region ölkələrini, hətta ən qatı opponentləri belə bu layihədə iştiraka razı sala bildi.

20 sentyabr 1994-cü ildə Bakının Gülüstan sarayında "Əsrin müqaviləsi" adlanan ilk transmilli neft sazişi imzalandı. Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yatağının birgə işlənməsi haqqında ilk sazişin imzalanması ilə Azərbaycanın neft sənayesi tarixində tamamilə yeni bir dövr başladı. Bu tarixi sənədin imzalanma mərasimində 7 ölkənin 11 neft şirkəti təmsil olunurdu. Müqaviləyə əsasən, dünyanın ABŞ, Rusiya, Fransa, Türkiyə, Böyük Britaniya, Norveç kimi dövlətlərinə məxsus olan aparıcı şrikətlər 10 milyard ABŞ dollarına bərabər ortaq vəsait yatırmaqla, Xəzər dənizinin Azərbaycan sektorundan 30 il müddətinə dəyəri 50 milyard dollara bərabər olan 511 milyon ton neft çıxarmağı hədəfə alırdılar. Müqaviləyə görə, ümumi investisiya qoyuluşu 7,4 milyardını Qərb şirkətləri qoymalı idi.

Layihədə investisiya qoyuluşu üzrə iştirakçı şirkətlərin payı aşağıdakı kimi idi:

Şirkətlər		**İnvestisiya payı**
British Petroleum (Böyük Britaniya)	-	17,12%
Amoko (ABŞ)	-	17, 01%
LUKoyl (Rusiya)	-	10%
Penzoil (ABŞ)	-	9, 81%
Exxon (ABŞ)	-	8,00%
Statoyl (Norveç)	-	8, 56%
Itochu Slodzi (Yaponiya)	-	7,45%
Ramko Energy Group (Böyük Britaniya)	-	2.0825%
Unocal (ABŞ)	-	11,2%
Turkish Petroleum Cor. (Türkiyə)	-	5%
Delta Nimur Kharar (Səudiyyə Ərəbistanı)	-	1,68%
ARDNŞ (Azərbaycan)	-	5%

Göründüyü kimi, qoyduqları vəsaitin miqdarına müvafiq olaraq aparıcı Qərb dövlətlərini təmsil edən şirkətlərə "Əsrin müqaviləsi"ndə ən çox pay ayrılmışdı. Bu dövlətlər içərisində ən mühüm pay isə ABŞ və Böyük Britaniya şirkətlərinə məxsus idi. "Əsrin müqaviləsi" layihəsində aparıcı Qərb dövlətləri ilə yanaşı, Azərbaycan hökuməti bölgədə böyük nüfuza malik olan Rusiya Federasiyasına məxsus olan "LUKoyl" şirkətinə də 10 faizlik pay ayırmışdı. Baxmayaraq ki, İran neft şirkətlərinin konsorsiumda iştirakına ABŞ və bəzi Qərb dövlətləri açıqdan-açığa etiraz edirdilər. Lakin, Azərbaycan rəhbərliyi bütün bunları bitərəfləşdirərək müqavilədə İran şirkətinin təmsilçiliyinə də şərait yaratdı.

"Əsrin müqaviləsi" sazişinin Azərbaycanın təşəbbüsü ilə, guya onlarla razılaşdırılmadan hazırlandığına görə həmin dövrdə bir sıra Rusiya və İran dairələrini narazı salmışdı. Bu ölkələri təmsil edən müəyyən qüvvələr "Xəzər dənizi bütün Xəzəryanı dövlətlər üçün ümumidir və onu milli sektorlara bölmək olmaz", "Azərbaycanın birtərəfli qaydada neft müqavilələri bağlamaq və "Azəri", "Çıraq", "Günəşli" yataqlarından neft çıxarmaq hüququ yoxdur" və s. şəklində bəyanatlar səsləndirərək, müqavilənin bağlanmasına və həyata keçirilməsinə ciddi cəhdlə mane olmağa çalışırdılar.

Müqavilə imzalandıqdan dərhal sonra bəzi xarici qüvvələrin iştirakı ilə Azərbaycan Respublikasının daxilində də bir çox anti-dövlət aksiyalarına əl atıldı, siyasi hakimiyyət çevrilişinə, bəzi hakimiyyət nümayəndələrinə qarşı sui-qəsdlərə və s. cəhd göstərildi Lakin, Azərbaycan Respublikası bütün bu sınaqlardan, çətinliklərdən dəyanətlə çıxdı, təzyiqləri aradan qaldıra bildi və xarici müqavimətlərə sinə gərdi. Eyni zamanda məhz dünyanın aparıcı dövlətlərinin, onları təmsil edən neft şirkətlərinin müstəqil Azərbaycan dövlətinə göstərdiyi etimad və ardıcıl dəstək nəticəsində tezliklə imzalanmış neft-qaz müqaviləsinin həyata keçirilməsinə şərait yaratdı.

Mütəxəssislərin fikrinə görə "Əsrin müqaviləsi" çərçivəsində həyata keçirilən transmilli layihələr Cənubi Qafqaz və Xəzər hövzəsinin digər dövlətləri ilə müqayisədə *Azərbaycanın beynəlxalq aləm üçün geosiyasi və geoiqtisadi dəyər ölçülərini xeyli artırdı, regional və beynəlxalq perspektivini yüksəltdi, xarici aləmlə tərəfdaşlıq münasibətlərinə və milli inkişafına ciddi təsir göstərdi.* Ölkənin təbii-mineral ehtiyatlarından, Qərblə-Şərq, Şimalla-Cənub arasındakı siyasi, hərbi, ticarət və s. əlaqələrə müsbət təsir göstərən coğrafi mövqeyindən, mövcud nəqliyyat-kommunikasiya və tranzit imkanlarından düzgün bəhrələnərək, formalaşdırdığı və yürütdüyü yeni geoiqtisadi siyəsət ölkəni dünya siyasətinin mərkəzinə çıxardı. Azərbaycanla və onun enerji daşıyıcıları ilə bu gün təkcə bölgənin Rusiya, İran, Türkiyə kimi ölkələri deyil, həmçinin ABŞ, Avropa Birliyi, Yaponiya, Çin və bir çox inkişaf etmiş digər Qərb və Şərq dövlətləri ciddi maraqlanırlar.

Bu sazişlərin imzalanması tezliklə planetin əsas fövqəlgüclərinin, aparıcı maliyyə və iqtisadi institutlarının, beynəlxalq transmilli təşkilatların diqqətini, maliyyə-texniki imkanlarını və inkişaf resurslarını həm Azərbaycana, həm də bütövlükdə Xəzər hövzəsinə yönəltdi. Bu vəziyyət bölgə ölkələrinə qabaqcıl dünya şirkətləri ilə qarşılıqlı-səmərəli əməkdaşlıq üçün əlverişli şəraiti yaratdı. Neft müqavilələri bağlandıqdan sonra təkcə xarici ölkə rəsmilərinin deyil, həm də əksər dünya siyasətçilərinin, biznesmenlərinin, politoloqlarının nəzər diqqəti Azərbaycana və Cənubi Qafqaza yönəldi. Bu müqavilələrlə və ötən müddətdə aparılan uğurlu enerji siyasətinin nəticəsində Azərbaycan Respublikasının dövlət müstəqilliyi daha da möhkəmləndirildi. Respublikanın təhlükəsizliyinin, dinamik inkişafının və gələcək tərəqqisinin möhkəm təməli qoyuldu. Aparılan ardıcıl neft siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsi sayəsində Qərb dünyasının Azərbaycana olan etimadı

artdı. Aparıcı dünya dövlətləri ilə Azərbaycan arasında olan qarşılıqlı etimad və tərəfdaşlıq əlaqələri dərinləşdi.

Azərbaycanın yeni neft strategiyası 1996-cı ildən başlayaraq tədricən öz müsbət nəticələrini verərək, ölkəyə dünya iqtisadiyyatına və siyasətinə inteqrasiya istiqamətində ciddi addımlar atmağa imkan yaratdı. Xüsusən, *"Əsrin müqaviləsi" bir dövlət olaraq Azərbaycanın dünyada və regionda geosiyasi və geoiqtisadi əhəmiyyətini artırdı, bölgədə və dünyada arzuolunan iqtisadi tərəfdaşa çevrildi.* Mövcud şərait Azərbaycan hökumətinə ölkə daxilində dinamik sosial-iqtisadi, siyasi və mədəni inkişaf kursu həyata keçirməyə imkan yaratdı ki, bu da geosiyasi anlamda Azərbaycanın regional və beynəlxalq əhəmiyyətini, geoiqtisadi dəyərini yüksəltdi, müstəqil dövlət olaraq perspektivlərini artırdı. O vaxta qədər Cənubi Qafqaz və Xəzər hövzəsinin ən problemli, daxili münaqişələrin, etnik-milli, sosial və dini qarşıdurmaların tüğyan etdiyi ölkəsi sayılan Azərbaycan, tezliklə regionda *geosiyasi və geoiqtisadi cəhətdən ən əhəmiyyətli bir ölkəyə, arzuolunan iqtisadi tərəfdaşa və ciddi persrektivlər vəd edən dövlətə* çevrildi. Digər iki Cənubi Qafqaz respublikası- Gürcüstan və Ermənistandan fərqli olraq, böyük iqtisadi, əmək resursları və insan potensialına, zəngin enerji mənbələrinə, əlverişli coğrafi mövqeyə və ən əsası, tam müstəqil, balanslı, təkmil daxili və xarici siyasət kursuna, aydın geostrateji, geoiqtisadi mövqeyə malik olması- *Azərbaycana regionun vahid liderinə çevrilməsi imkanı yaratdı.*

Azərbaycan Respublikasının yürütdüyü yeni neft strategiyası və enerji təhlükəsizliyi siyasəti uğurla həyata keçirildikcə ölkənin beynəlxalq nüfuzu da keçən müddətdə ardıcıl olaraq yüksəlmişdir. Birinci müqavilədən keçən bir neçə il ərzində Azərbaycanın yeni neft strategiyası çərçivəsində dünyanın 14 dövlətinə məxsus 32 aparıcı şirkətlə daha 20 yeni neft-qaz müqavilələri bağlandı. Bu müqavilələr əsasında 30 il müddətinə

Azərbaycanın təkcə neft-qaz sənayesinə 60 milyarddan çox dollar həcmində xarici investisiya qoyulması nəzərdə tutulurdu. Verilən rəsmi məlumatlara görə keçən müddətdə yalnız "Əsrin müqaviləsi" çərçivəsində Azərbaycan iqtisadiyyatına qoyulan xarici sərmayələrin həcmi 6 milyard manatdan çox və neft sənayesinə qoyulan sərmayələrin ümui həcmi isə 20 milyarda yaxın olmuşdur. Sovet İttifaqının keçmiş respublikaları içərisində adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan birinci yeri tutur və bir çox Şərqi Avropa ölkələrini ötüb keçir.

Əlbəttə, bütün bu keyfiyyətlərin qazanılması Azərbaycan dövlətinə və onu idarə edənlərə heç də, asan və rahat başa gəlməmişdir. Prezident Heydər Əliyevin nümayiş etdirdiyi böyük iradə, ortaya qoyduğu ciddi zəhmət və düşünülmüş siyasət olmasaydı, yəqin ki, dünya ekspertləri bu ölkə haqqında hazırda tamamilə fərqli fikirdə olacaqdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqillik əldə edildikdən sonra Azərbaycanın keçdiyi geosiyasi inkişaf yolunu xarakterizə edərək söyləmişdir ki, 1993-cü ildən sonrakı dövrdə Azərbaycanının milli dövlətçiliyi qorunub saxlandı və yenidən quruldu, onun inkişaf strategiyası müəyyənləşdi, ölkə özünü bütün dünyaya perspektivli və etibarlı tərəfdaş, ləyaqətli dövlət kimi təqdim edə bildi.[310]

Yeni neft strategiyası ilk öncə Azərbaycanın ABŞ və Avropa Birliyi ölkələri ilə münasibətlərinə xeyli müsbət təsir göstərdi. Xüsusən, ABŞ hökuməti keçən müddətdə Azərbaycanın enerji siyasəti, yeni neft-qaz ixracı təşəbbüslərini, eləcə də Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizi yaratmaq istiqamətindəki əksər səylərini ardıcıl olaraq dəstəkləmiş və bütün transmilli layihələrin təkcə Azərbaycana deyil, bütün regiona

[310] Bax: " Azərbaycan" qəzeti, 26 may 2012-ci il

fayda gətirməsinə yardım etmişdir. ABŞ-ın sabiq Prezidenti Uilyam Klintonun 20 sentyabr 1994-cü ildə göndərdiyi teleqramda Azərbaycanın təşəbbüsü ilə imzalanan neft sazişinin önəmini belə dəyərləndirirdi: "Birləşmiş Ştatlar tarixdə bir növ sazişlər arasında ən böyüyü olan bu müqaviləni alqışlayır. O, bütün tərəflər üçün mənfəətli olacaq və ölkələrimiz arasında artmaqda olan iqtisadi-ticarət əlaqələrinin möhkəmlənməsinə xidmət edəcəkdir. [311]

ABŞ administrasiyası bu gün də Azərbaycanın və eləcə də Xəzəryanı bölgənin iqtisadi cəhətdən güclənməsinə, region dövlətlərinin azadlığının və suverenliynin möhkəmləndirilməsinə olduqca böyük dəstək verir, bölgədəki transmilli layihənin həyata keçirilməsinə hər vasitə ilə yardım edir. Sabiq prezident C. Buş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə ünvanladığı 14 iyun 2001-ci il tarixli məktubunda yazırdı: "Həyata keçirilən neft-qaz layihələrinin Azərbaycanı tezliklə güclü, sabit və dinamik inkişaf edən iqtisadiyyata malik dövlət edəcəyinə qəti əminəm". Sevindirici haldır ki, istər ABŞ hökumətinin sabiq prezidenti B. Klintonun, istərsə də hazırkı rəhbərliyinin başda C. Buş olmaqla, digər senator və konqresmenlərinin Azərbaycanın enerji siyasətinə münasibətdə dəyişməz mövqe nümayiş etdirməsi bu siyasətin gələcək uğurlarına da inam yaradır.

Azərbaycanın enerji siyasəti Böyük Britaniya, Fransa, Türkiyə, Yaponiya, Norveç, Almaniya kimi digər nüfuzlu dövlətləri tərəfindən də tam rəğbətlə qarşılanır. Onlar son dövrlər ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsi sahəsində əldə etdiyimiz nailiyyətlərə yüksək qiymət verir, həyata keçirilən islaahtların təşəkkül tapmasına və bazar iqtisadiyyatı yolunda daha böyük uğurlar əldə olunmasına dəstək verirlər.

[311] Bax: AzərTac-ın xəbər bülleteni, 21 sentyabr, 1994-cü il.

Azərbaycanın həyata keçirdiyi yeni neft strategiyası və onun təşəbbüsü ilə reallaşdırılan çoxsaylı transmilli enerji, nəqliyyat-kommunikasiya və dəhliz layihələrinin işə düşməsi faktiki olaraq bu ölkəni Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın lider dövlətinə çevirdi. Bəzi nüfuzlu qərb tədqiqatçıların fikri ilə ifadə etsək: *"Azərbaycana Cənubi Qafqazda ətraf ölkələrin geosiyasi kursunu müəyyən edən" lider dövlət mövqeyi qazandırdı*. Əlbəttə, bütün bunlar regional və beynəlxalq səviyyədə müəyyən iqtisadi, siyasi, sosial-mənəvi üstünlüklər qazandırmaqla yanaşı, həm də ölkə qarşısında daxili həyatda, yerləşdiyi Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda, o cümlədən bütün dünyada xüsusi düşünülmüş və davamlı geosiyasi fəaliyyət göstərmək kimi vacib tələblər qoydu.

Mütəxəssislərin fikrinə görə, yeni yüzillikdə Azərbaycan enerji siyasəti qarşısında dayanan əsas geoiqtisadi vəzifələrdən biri bölgədə və dünyada yeni-yeni enerji ixracı marşrutlarının, xüsusən sərfəli təbii qaz satış bazarının axtarışı, enerji ixracının şaxələndirilməsi siyasətini davam etdirilməsi və s. ibarət idi. Bu istiqamətdə Azərbaycan prezidenti İlham Əliyevin ciddi səyi ilə bir neçə il idi ki, regional və beynəlxalq aləmlə tərəfdaşlıq istiqamətində xüsusi düşünülmüş fəaliyyət həyata keçirilirdi. Həmin fəaliyyətin nəticəsi kimi 2013-cü ilin dekabr ayının 17-də Bakıda "Şahdəniz" layihəsinin ikinci mərhələsi üzrə Azərbaycan Dövlət Neft Şirkəti ilə British Petrolium arasında investisiya sazişi və "Cənubi qaz dəhlizi" barədə Azərbaycan, Albaniya, Xorvatiya və Çernoqoriya dövlətləri arasında anlaşma memorandumu imzalanmışdır.[312]

Bundan əvvəl Azərbaycan «Şahdəniz-2» layihəsi çərçivəsində yaradılmış «Şahdəniz» konsorsiumunun hasil ediləcək təbii qazın Avropaya çatdırılması üçün boru kəmərinin seçilməsi ilə bağlı qəbul etdiyi qərarı iyunun 28-də rəsmən açıqla-

[312]Bax: APA xəbər agentliyinin bülleteni, 17.12.2013/www.apa.az

mışdı. Məlumata görə konsorsium son iki il ərzində gələcəkdə istehsal ediləcək qazın Avropaya nəqli üçün boru kəmərinin bir neçə variantını nəzərdən keçirmiş və TAP (Trans Adriatic Pipeline) üzərində dayanmışdır. Uzunluğu 870 km olacaq TAP kəmərinin "Şahdəniz 2" layihəsi üzrə istehsal olunacaq Azərbaycan qazının Türkiyə, Yunanıstan və Albaniya ərazisi ilə İtaliyaya çatdırılacağı nəzərdə tutulur ki, bu layihənin ümumi dəyərinin təxminən 2,2 mlrd. ABŞ dolları təşkil edəcəyi proqnozlaşdırılır.[313]

Müqavilədə «Şahdəniz 2» tərəfdaşlarının payı aşağıdakı kimi planlaşdırılır: BP (operator - 28,8%), ARDNŞ (16,7%), «Statoil» (15,5%), «Total» (10%), «LUKoil» (10%), NICO (10%) və TPAO (9%). «BOTAŞ» və BP-nin TANAP-da 2014-cü ildə başa çatması gözlənilən iştirak paylarının alınması əməliyyatından sonra TANAP tərəfdaşları bu şirkətlər olacaq: ARDNŞ, (operator - 68%), «BOTAŞ» (20%) və BP (12%).

TAP tərəfdaşları aşağıdakı şirkətlərdir: ARDNŞ (20%), BP (20%), «Statoil» (20%), «Fluxys» (16%), «Total» (10%), E.ON (9%) və «Axpo» (5%).[314]

Layihədə ümumi uzunluğu 3500 kilometrdən artıq olan Azərbaycan və Gürcüstanı birləşdirən Cənubi Qafqaz Boru Kəməri infrastrukturunun genişləndirilməsi, Türkiyənin şərqindən qərbinə qədər davam edəcək TANAP (Trans-Anadolu boru kəməri) kəmərinin inşası və Yunanıstan, Albaniya, İtaliyanı birləşdirəcək TAP (Trans-Adriatik boru kəməri) kəmərinin çəkilişi nəzərdə tutulur.

Mütəxəssislərin fikrinə görə ümumi dəyəri 45 milyard ABŞ dolları həcmində qiymətləndirilən „Şahdəniz 2" sazişi dünyanın indiyə qədər imzalanmış ən nəhəng enerji layihəsi

[313] "Şahdəniz" yatağı 1999-cu ildə kəşf olunub. Azərbaycan 2006-cı ildən etibarən "Şahdəniz-1" layihəsi çərçivəsində Gürcüstan və Türkiyəyə qaz ixrac edir.

[314] Bax: APA xəbər agentliyinin bülleteni, 17.12.2013 /www.apa.az

hesab olunur. Bu layihə həm də Azərbaycan tarixində bir layihəyə nəzərdə tutulan ən böyük birbaşa investisiya yatırımıdır. Layihə mövcudluğu təsdiq edilmiş 3 trilyon kubmetr Azərbaycan qazını 100 il müddətinə birbaşa Avropa bazarına çıxararaq, ölkəni dünyada həm neft, həm də mühüm qaz ixracatçısına çevrir. Bu uzun illər Azərbaycanın milli gəlirlərinin formalaşmasının diversifikasiyasını təmin edir.

XXl əsrin sazişi kimi dəyərləndirilən „Şahdəniz 2“ layihəsinin icrası çərçivəsində ölkə daxilində 30 mindən çox yeni iş yerinin açılması planlaşdırılır ki, bu da mütəxəssislərin fikrinə görə müasir mühəndis və menecerlərə yeni imkanlar yaratmaqla Azərbaycanda yeni nəsil insan kapitalının inkişafına böyük təkan olacaqdır.

Bu layihə siyasətşünasların fikrinə görə, həm də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüskar, müstəqil və cəsarətli siyasətini dünyada ön plana çıxardır və Azərbaycanın dünyada etibarlı tərəfdaş ölkə kimi rolunu yüksəltmişdir. Əgər 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanda XX əsrin layihəsi hesab edilirdisə, şübhəsiz ki, 17 dekabr 2013-cü ildə imzalanmış "Şahdəniz-2" layihəsi üzrə investisiya qərarı Azərbaycan və bütöv region üçün XXI əsrin önəmli layihəsidir. İqtisadi əhəmiyyəti qədər siyasi əhəmiyyəti də böyük olan bu layihə ilə Qafqaz - Balkanlar, Qafqaz - Cənubi Avropa, Xəzər bölgəsi və Avropa ölkələri arasında əməkdaşlıq yeni müstəviyə qədəm qoyacaq və Azərbaycanın qlobal önəmi daha da artacaq.[315]

Layihənin birinci mərhələsi 2019-cu ilin əvvəlindən etibarən işə düşəcək və hər il 10 milyard kubmetr Azərbaycan qazı Cənubi Avropaya, 6 milyard kubmetr isə Türkiyəyə ixrac ediləcək. 2019-2025-ci illərdə layihənin imkanları genişləndik-

[315] Bax: “Azərbaycan” qəzeti, N 280,19 dekabr 2013, s.4.

dən sonra başqa şirkətlərin və ölkələrin də bu layihəyə qoşulacağı ehtimal olunur.

Azərbaycanın həyata keçirdiyi transmilli enerji siyasətinin əsas istiqamətlərindən biri də yerləşdiyi Avrasiya bölgəsində- *Qara-Xəzər dənizi hövzəsi də daxil olmaqla, əksər postsovet məkanının enerji ehtiyaclarının təmin olunmasında yaxından iştirak etməkdən ibarədir.* Azərbaycan keçən dövrdə ona məxsus neft və qaz məhsullarını sərfəli qiymətlərlə və müstəqil ixrac marşrutları ilə Türkiyə və Avropa bazarlarına çıxarmaqla, bu bazarlarda özünə yer tutmaqla yanaşı, həm də onu əhatə edən, keçmişdə onunla bir geosiyasi məkanı bölüşən ölkələrin daxili bazarlarında mövqe qazanmaq və yer tutmaq uğrunda fəaliyyətə qoşulmuşdur.

Məlum olduğu kimi, bu məkanın əksər neft və qaz kəmərləri, yanacaq bazaları və təminat strukturları keçmişdə SSRİ-yə, sonrakı illərdə isə Rusiyaya məxsus olmuşdur. Lakin, mütəxəssislərin fikrinə görə Rusiyanın son zamanlar öz inhisarçı mövqeyindən sui-istifadə edərək tez-tez yerli ölkələri qiymət şişirtmələri ilə sınağa çəkməsi, onlara bu və ya digər geosiyasi, geoiqtisadi təzyiqlər göstərməsi bir tərəfdən, keçmiş postsovet ölkələrini özünə daha etibarlı və səmərəli enerji mənbələri axtarmağa sövq etmişdir. Digər tərəfdən, Azərbaycanın bölgədə reallaşdırdığı yeni enerji siyasəti həmin ölkələrə Rusiyadan fərqli olaraq, daha əlverişli şərait yaratmış və etibarlı, səmərəli, bərabərhüquqlu tərəfdaşlıq imkanı qazandırmışdır. Nəticədə bu ölkələr getdikcə Rusiyanın enerji təsirindən qurtulmaq və öz təhlükəsizliyini təmin etmək üçün üzlərini Azərbaycana tutmağa məcbur olmuşlar. Son beş ildə Rusiyanın Gürcüstan, Ukrayna, Belarus, Moldova və Baltikyanı respublikalarla münasibətində müşahidə olunan ziddiyyətli və qeyri-sabit vəziyyət Azərbaycanın daha geniş formada postsovet enerji bazarına daxil olmasına əlverişli şərait yaratmışdır.

Mütəxəssislər, Azərbaycanın bu istiqamətdə reallaşdırdığı enerji siyasətinin gələcək perspektivlərini yüksək qiymətləndirirlər. Məsələ burasındadır ki, son zamanlar Azərbaycanın bölgədə və dünyada qazandığı "etibarlı tərəfdaş" imici, həyata keçirdiyi enerji ixracının şaxələndirilməsi siyasəti, bəhs olunan ölkələrin Rusiyanın geosiyasi təzyiqlərindən xilas olaraq öz enerji təhlükəsizliyini daha etibarlı şəkildə təmin etmək istəyi və s. də onun xeyirinə işləmiş və bu dövlətlərin üzünü Xəzərin Cənub sahillərinə çevirmişdir. Hazırda həm Ukrayna, həm də Belarus Azərbaycan neftinin və qazının Gürcüstan ərazisindən keçməklə müxtəlif vasitələrlə- kəmərlər və sıxılaraq tankerlərlə Ukrayna ərazisinə daşınması, oradan da köhnə Odessa-Brodı və s. kimi mövcud neft-qaz kəmərlərinin imkanlarından istifadə edərək, öz ölkələrinin enerji ehtiyaclarının təmin olunması üçün ciddi iş aparırlar. Keçən illərdə Gürcüstanın, bu yaxınlarda isə Belarusun Rusiya ilə yaranmış enerji münaqişəsinin həll etmək və ölkələrini böhrandan çıxarmaq məqsədilə Azərbaycana müraciət etməsi və qarşı tərəfdən onlara göstərilən müsbət münasibət, Ukrayna hökumətinin öz daxili neft və qaz ehtiyaclarını Azərbaycanın neft-qaz məhsulları ilə təmin etmək istəyi və s. məsələlər bunun əyani sübutudur. Hazırda, hər iki dövlətin rəsmiləri ildə təxminən 4 milyon ton neft və gələcəkdə 5-8 mlrd. kub. metr qaz almaq, Qara dənizin Gürcüstan limanlarından Ukrayna limanlarına, oradan da mövcud infrastrukturlarla bu ölkələrə ixrac etmək məsələsi ətrafında Azərbaycan hökuməti ilə danışıqlar aparmaq istəyini bəyan edirlər. Gözlənilir ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2010-cu ilin oktyabr ayında Ukraynaya reallaşdıracağı rəsmi səfər çərçivəsində "Ukrtatnafta" ilə ADNŞ arasında hər ay 240 min ton Azərbaycan neftinin Ukraynaya ixracı, ADNŞ-in Ukraynada yanacaqdoldurma məntəqələrinin açılması və enerji əməkdaşlığı sahəsində digər müqavilələr imzalansın. Ukrayna tərəfinin bəyanatlarına görə, bu ölkə gələcəkdə hər ay orta hesabla Azərbaycan-

dan 400 min tona qədər xam neftin alınması və Ukraynanın neftayırma zavodlarında işlənərək ölkənin ehtiyaclarına yönəlməsi marağındadırlar. Son zamanlar Belarus hökuməti də təxminən oxşar fəaliyyəti həyata keçirmək niyyətində olduğunu bəyanat etmişdir.[316]

Azərbaycanın postsovet məkanında həyata keçirdiyi enerji siyasətinin ən perspektivli istiqaməti, mütəxəssislərin fikrincə, gələcəkdə maye qazın Gürcüstan üzərindən Qara dənizin dibi, o cümlədən tankerlər vasitəsilə Ukraynaya nəqli, oradan da Ukrayna və Belarusun həm daxili ehtiyacları üçün istifadəsi, həm də bu ölkələrin Avropaya mövcud olan transmilli qaz kəmərləri vasitəsilə Qərb bazarlarına göndərilməsi ideyasıdır. Son aylarda Rusiyanı ən çox narahat edən də məhz bu məsələdir. Rusiyanın Ukrayna və Belarusla yaranmış qaz münaqişəsi zəminində bu ölkələrin tez-tez Azərbaycan, Türkmənistan və Qazaxıstanın adını hallandırması və dar məqamda onlara üz tutması Rusiyanın rəsmi dairələrini getdikcə daha çox qıcıqlandırır və narahatlığını artırır,

Bundan başqa, Azərbaycanın qaz ixracının şaxələndirilməsi çərçivəsində son zamanlar Gürcüstan, Rumıniya, Bolqarıstan və Macarıstanla sıxılmış qazın Cənub-Şərqi Asiya ölkələrinə ixracı layihəsi çərçivəsində imzaladığı müqavilələr əsasında Qara dəniz hövzəsində yaradılacaq qazpaylayıcı stansiyalardan Ukrayna, Belarus və Moldovanın da gələcəkdə qaz almaq imkanları müzakirə olunur.

Beləliklə, göründüyü kimi, Azərbaycanın həm bölgədə, həm də dünyada fəal şəkildə həyata keçirdiyi transmilli neft və qaz siyasəti getdikcə Rusiyanı narahat etməkdədir. Bunun əsas səbəbi, mütəxəssislərin fikrinə görə, Azərbaycan neftinin və qazının Rusiyanın ənənəvi inhisarında olan məkanlara daha çox miqdarda daxil olması və onun inhisarını pozmasıdır.

[316] Bax: gaz. "Зеркало", №184, от 9 октября 2010 г.

Azərbaycan və digər enerji ölkələri Rusiyanın bu məkanda istədiyi qiymətə neft və qaz məhsulları satmasına mane olur. Odur ki, son zamanlar Rusiya Azərbaycanın artan enerji ixracı məhsullarını yerindəcə alaraq, bölgənin neft-qaz məhsullarını bir əldən dünya bazarlarına çıxartmaq siyasəti yürüdür. Rusiya dünya enerji bazarında öz qiymət siyasətini qorumaq üçün, Azərbaycanın malik olduğu neft və qaz məhsullarını daha çox miqdarda əldə etməklə, onun dünya bazarına yolunu bağlamaq istəyir.

Əksər geosiyasətçilər hesab edir ki, Azərbaycanın malik olduğu enerji ehtiyatlarının xarici transmilli aktorlarla birgə işlənmək, istehsal edilən məhsulların sərbəst və alternativ yollarla maneəsiz olaraq dünya və bölgə bazarlarına çıxarmaq təşəbbüsü, dünya ölkələri ilə enerji təhlüəsizliyi sahəsində yaratdığı möhkəm tərəfdaşlıq münasibətləri həm də bunun bölgənin geosiyasi və geoiqtisadi vəziyyətini kökündən dəyişdi. Bu layihələr təkcə bu gün deyil, bütün XXl əsrdə Avropanın enerji təhlükəsizliyinə həlledici təsir göstətməklə yanaşı, həm də əksər Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz ölkələrinin inkişafına, bölgə xalqlarının sabit və firəvan həyatına xidmət edəcəkdir. Fikrimicə, reallaşdırılması yüz illəri əhatə edəcək bu layihələrin getdikcə Xəzər hövzəsi və Cənubi Qafqazı daha sürətlə transmilliləşdirməsi və dünya orbitasına daha sıx bağlaması, nəticədə həm də bütün regional münaqişələrin səhmana düşməsinə, o cümlədən Azərbaycan- Ermənistan, Dağlıq Qarabağ münaqişənin həllinə, Dağlıq Qarabağda və Cənubi Qafqazın digər məkanlarında uzun müddətdir sürən etnik-separatçı meyillərin aradan qalxmasına öz müsbət təsirini göstərəcəkdir.

II FƏSİL
XƏZƏR-QARA DƏNİZ HÖVZƏSİ VƏ CƏNUBİ QAFQAZIN TRANSMİLLİ ENERJİ İXRACI SİSTEMİ: BEYNƏLXALQ, REGİONAL VƏ YERLİ MARAQLAR, AZƏRBAYCANIN ENERJİ İXRACININ ŞAXƏLƏNDİRİLMƏSİ SİYASƏTİ VƏ ONUN REGİONUN ÜMUMİ GEOİQTİSADİ VƏZİYYƏTİNƏ TƏSİRİ

§2.1. Xəzər-Qara dəniz hövzəsi ölkələri və digər siyasi dairələrin enerji ixracı maraqları və bunun bölgənin ümumi geoiqtisadi vəziyyətinə təsiri

SSRİ-nin dağılması, Orta Asiya və Xəzər hövzəsinin zəngin enerji resurslarının dünyaya açılması, xarici ölkələrin və transmilli şirkətlərin bölgəyə ciddi maraq göstərməsi və s. nəticəsində regionda yeni geosiyasi və geoiqtisadi vəziyyət yarandı. Bir vaxtlar istisnasız olaraq yalnız SSRİ-nin istifadəsində, geosiyasi monopoliyasında olan və vahid mərkəzdən dünya bazarlarına ixrac olunan Orta Asiya və Xəzər hövzəsi ölkələrinin təbii resursları, bölgənin enerji ehtiyatları və s. strateji hədəflər qısa zaman kəsiyində dünya siyasəti və beynəlxalq transmilli münasibətlərin gündəminə çıxır, müstəqillik əldə etmiş region ölkələrinin enerji ehtiyatları dünyanın üzünə açılır, hövzə beynəlxalq enerji, nəqliyyat-kommunikasiya və s. layihələrin mərkəzinə çevrilir.

SSRİ-nin dağılması həm də bölgədə öz maraqları ilə çıxış edən yeni-yeni müstəqil dövlətlərin Xəzər dənizinin karbohid-

rogen yataqlarına sahiblənməsinə və ondan öz maraqları çərçivəsində istifadə etməsinə şərait yaratdı. Həmin dövrdən başlayaraq yerli dövlətlər arasında bölgənin digər mühüm geosiyasi məsələləri ilə yanaşı, *öz ərazilərindəki neft-qaz resurslarına sahib çıxmaq, onları sərbəst şəkildə istehsal etmək, hasil olunan məhsulları müstəqil marşrutlarla dünya bazarlarına çıxarmaq və satmaq məsələsində fikir ayrılıqları, mənafe fərqləri və rəqabət mühiti meydana çıxır.* Hər bir bölgə ölkəsi və onun xarici iqtisadi tərəfdaşları öz maraqları çərçivəsində malik olduğu enerji resurslarını sərbəst hasil etmək və dünya bazarlarına təhlükəsiz daşımaq, iqtisadi və təhlükəsizlik baxımından yeni-yeni səmərəli neft-qaz ixracı kəmərləri və dəhlİzləri yaratmaq kimi məsələləri beynəlxalq geoiqtisadi münasibətlərin müstəvisinə çıxarmağa və həll etməyə başlayır.

Beynəlxalq tədqiqatçılar Orta Asiya, Xəzər hövzəsi və Cənubi Qafqazda reallaşan transmilli enerji dəhliz və kəmərlər siyasətinin bir neçə əsas xarakterik xüsusiyyətini və geosiyasi məziyyətini qeyd edirlər. Bu məziyyətlər **ilk növbədə,** Xəzər hövzəsi ölkələrinin daxilində, bölgənin enerji layihələrində iştirak edən transmilli kompaniyalar və digər aktorlar arasında aşkarlanmış zəngin neft və qaz yataqlarının işlənməsi, məhsulun dünya bazarlarına çıxarılması marşrutlarının seçilməsi, satış qiymətlərinin tənzimlənməsi, Şərq və Qərb istiqamətində dəhliz və ixrac kəmərlərinin çəkilməsi və s. məsələsində yaranan ciddi fikir ayrılıqları və maraq toqquşmalarının mövcudluğu ilə bağlı idi.

SSRİ dağıldığı andan müstəqilliyinə qovuşan ölkələr içərisində ilk dəfə olaraq Azərbaycan özünün məxsusi enerji siyasəti və geoiqtisadi maraqlarına uyğun olaraq, sərbəst şəkildə seçdiyi beynəlxalq və regional tərəfdaşlarla Xəzər dənizinin ona məxsus sektorundakı neft-təbii qaz yataqlarının istehsalı və ixracı iradəsini ortaya qoymuşdur ki, bu da yeni şəraitdə bütövlükdə Avrasiya regionunda və dünyada enerji siyasəti üzə-

rində qurulmuş yeni geosiyasi münasibətlərin hərəkətverici qüvvəsinə çevrilmişdir. Bunun ardınca, yeni transmilli enerji layİhələri ilə bağlı olan hər bir Xəzərətrafı ölkə öz geoiqtisadi maraqlarına müvafiq olaraq bu və ya digər bloklaşmaya (qruplaşmaya) qoşularaq, bir-biri ilə ciddi geoiqtisadi rəqabət aparmağa, regional, yerli və beynəlxalq maraq dairələri arasında müəyyən manevrlər etməyə başladılar. Belə vəziyyətdə, təbii olaraq tezliklə hər bir blokun və maraq dairəsi üzrə həyata keçirilən geoiqtisadi qruplaşmanın öz aparıcı və köməkçi dövlətləri (aktorları) meydana çıxır.

XXl əsrdə Xəzər hövzəsinin geoiqtisadi və geostrateji xarakteristikasına təsir göstərən **ikinci** əsas əsas amil kimi- siyasətşünaslar Orta Asiya ölkələrinin dünyaya çıxış imkanlarının məhdudluğu, Cənubi Qafqazın yeni şəraitdə ənənəvi Rusiya marşurutlarına alternativ olaraq, bu bölgənin enerji ixracına, bütövlükdə Şərq-Qərb əlaqələrinə alternativi dəhliz kimi çıxış etmək imkanlarının yaranması, köhnə və təzə neft-qaz ixracı dəhlizlərinin, transmilli kəmərlərin istiqamətləri, geoiqtisadi təyinatı və s. kimi məsələləri aid edirlər. Bu məsələlər, fikrimizcə üçüncü minillikdə, həm də ümumiyyətlə dünya geosiyasətinin və qlobal enerji siyasətinin əsas aktual məsələləri, aparıcı prioritetləri hesab olunur.

Xəzər hövzəsində həyata keçirilən müasir dəhliz və kəmər siyasətinin xarakteristikasına təsir göstərən **üçüncü** əsas amil bu kəmərlərə konkret olaraq hansı ölkələrin necə yanaşması, onların hansı məqsədlər güdməsi- öz məhsullarını sərbəst şəkildə dünya bazarlarına çıxarmaq, satmaq və ölkəsini inkişaf etdirmək, yoxsa kəmərlər üzərindəki üstün statusundan istifadə edərək qonşu dövlətlərə, dünya ölkələrinə geosiyasi təsir göstərmək istəməsi və s. idi. Bəzi region və dünya ölkələri (Azərbaycan, Türkiyə, Orta Asiya ölkələri, Gürcüstan və Qərb ölkələri) dəhliz və kəmər məsələsinə əsasən özlərinin və tərəfdaşla-

rının geoiqtisadi maraqlarından çıxış edərək, iqtisadi cəhətdən, daha ucuz qiymətə və səmərəli yolla enerji ixrac və idxal etmək istəyindən yanaşdıqları halda, digərləri (Rusiya və İran) dünyadakı mövcud qiymət siyasəti üzərindəki əvvəlki təsirlərini qorumaq, dünyada və regionda öz üstün mövqelərini davam etdirmək, başqa ölkələrin dünya enerji bazarlarına təsirini azaltmaq, onların bu sahədə alternativ və müstəqil aktor kimi çıxış etmələrinə mane olmaq və s. qeyrisağlam məqsədilə istifadə etmək istəyirdi.

Xəzər hövzəsində Azərbaycan və onun tərəfdaşlarının həyata keçirdiyi yeni enerji dəhlizləri və kəmərləri siyasətinə bilavasitə təsir göstərən **dördüncü** əsas amil, mütəxəssislərin fikrinə görə, hövzənin XXl əsrdə bölgə və dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasında, iqtisadi, siyasi, geosiyasi maraqlarına birbaşa və dolayısı ilə təsir göstərməsində oynaya biləcəyi alternativ rolla bağlıdır. Çünki son on ildə Xəzər regionu və Orta Asiyanın neft və təbii qaz ehtiyatlarının Qərbin artan enerji tələbatının ödənilməsinə yönəldilməsi siyasəti, dünyanın qlobal enerji təhlükəsizliyinin təmin edilməsində Yaxın Şərq və Rusiyanın alternativi kimi istifadə edilməsi planı birmənalı olaraq planetar geosiyasətin və geoiqtisadiyyatın transmilli məsələlərindən birinə çevrilib. Xəzər hövzəsinin zəngin neft-qaz ehtiyatlarına malik olması müasir transmilli dünyada bu bölgənin geoiqtisadi və geosiyasi dəyərini artırır, planetin müasir enerji təhlükəsizliyinin və strateji yanacaq ehtiyaclarının təminatının əsas həlqələrdən birinə çevirir.[317]

Xəzər hövzəsində yürüdülən enerji dəhlizləri və ixrac siyasətinə təsir göstərən **beşinci** əsas amil kimi mütəxəssislər Xəzər hövzəsi və Orta Asiyada neft-qaz ehtiyatları ilə zəngin

[317] Bax: Максаковский В.П. Каспий – Европа, из новой книги. Москва, 2002, с.13.

olan əksər ölkələrin istehsal etdikləri strateji enerji resurslarını əsasən xarici ölkələrə satış üçün nəzərdə tutmaları ilə bağlayırlar. Çünki hasil edilən neftin və təbii qazın dünya bazarlarına çıxarılması, etibarlı və səmərəli daşıma vasitələrinə, ixrac boru kəmərlərinə malik olmaq, təhlükəsiz marşrutların seçilməsi və s. kimi məsələlər həm yerli enerji istehsal edən, həm tranzit ölkələr, həm də öz enerji təhlükəsizliyini bölgənin nefti və təbii qazı ilə bağlayan istehlakçılar üçün strateji əhəmiyyət, həyati və transmilli mahiyyət kəsb edir. Zəngin enerji ehtiyatına malik olan hər bir ölkə istəyir ki, öz məhsulunu sərbəst şəkildə, əlverişli marşrutlarla, etibarlı kəmərlər vasitəsi ilə dünya bazarlarına çıxarsın və mövcud dünya qiymətlərinə satsın. Eyni zamanda, bölgənin neft-qaz ehtiyatlarından faydalanan xarici dövlətlər və digər alıcılar da istəyir ki, bu məhsulu birinci əldən, heç bir kənar vasitəçi ilə təmasa girmədən, sabit təminat şərti ilə daha ucuz qiymətə alsın. Hər iki tərəf həm də bu vəzifələri hər hansı kənar subyektlərin, öz məxsusi maraqları ilə seçilən ölkələrin təsirinə məruz qalmadan təmin etmək istəyirlər. Bu mənada, faktiki olaraq Orta Asiya, Xəzər hövzəsi və Cənubi Qafqazda çoxsaylı neft-qaz kəmərlərinin, ixrac marşrutlarının movcudluğu və onların çoxvariantlılığı öz aktuallığı baxımından, heç də neft-qaz ehtiyatlarına malik olmaqdan az əhəmiyyət kəsb etmirdi.

Beləliklə, göründüyü kimi, Xəzər hövzəsi və Cənubi Qafqazda mövcud enerji ixracı kəmərlərinin istifadəsi, alternativ dəhlizlərin, daha müstəqil marşrutlarının yaradılması və s. yerli neft-qaz ölkələrinin dünya enerji bazarlarına, xarici tərəfdaşlarınsa hövzəyə sərbəst, müstəqil geosiyasi aktor kimi daxil olmasını nəzərdə tutan transmilli siyasətdir. Bu siyasət müvafiq olaraq, həm bölgənin birbaşa geoiqtisadi durumunu, yerli ölkələrin milli maraq dairəsini və ona uyğun da geosiyasi davranışını, həm də Avropa enerji təhlükəsizliyinin geosiyasi xarakte-

ristikasını ciddi şəkildə dəyişir. Xatırladaq ki, son illərdə Rusiya dəfələrlə bir tərəfdən bölgənin neft-qaz satan və tranzit ölkələrini, digər tərəfdənsə Avropanın enerji məhsulları istehlak edən dövlətlərini müxtəlif təzyiq və təhdidlərə məruz qoymuş, dünya enerji bazarında özü haqqında etibarsız tərəfdaş imici yaratmaqdan belə çəkinməyərək, neft və qazdan xarici aləmə geosiyasi təsir vasitəsi kimi istifadə etmiş və öz geosiyasi niyyətlərini həyata keçirmişdir. O öz addımlarını enerji resurslarının satış qiymətinin artırılmasından tutmuş, nəql edilən həcminin azaldılmasına qədər- müxtəlif vasitələrlə həyata keçirmişdir. Rusiya ilə Ukrayna, Türkmənistan, Belarus arasında baş vermiş sonuncu yanacaq böhranı bunun əyani sübutu hesab oluna bilər. Hesablamalara görə, sonuncu böhran nəticəsində şaxtalı havada qazsız qalan Avropa ölkələrinə təxminən, 2-3 milyard dollar məbləğində zərər dəyib. Odur ki, Rusiyanın ildən-ilə enerji vasitələrindən həm regionda, həm də dünyada geosiyasi təsir vasitəsi kimi istifadə etməsi, digər tərəfdənsə, son illər Avropanın əsas yanacaq növlərindən sayılan təbii qaza tələbatın artması Xəzər bölgəsindəki alternativ enerjiyə və onların nəqlini reallaşdıran yeni kəmərlərə, marşurutlara ehtiyacı daha da artırmaqdadır. Həm də bu istiqamətdə səylərin atrması təkcə Avropanın düçar olduğu son qaz böhranı ilə bağlı deyil. Məsələ ondadır ki, yaxın 20 il ərzində təkcə Avropada qaza olan illik tələbatın 450-dən, təxminən 600 milyard kubmetrə çatacağı proqnozlaşdırılır. Bütün dünyada təbii qaza tələbatın günü-gündən artması isə, bu sahədə inhisarçı mövqedən çıxış edən Rusiya kimi ölkələrdən asılılığın daha da güclənməsi anlamına gəlir. Hazırda Avropa ölkələri öz tələbatının yalnız üçdən birini (təxminən, 150 milyard kub metrini) Rusiyadan alınan "mavi yanacaq" hesabına ödəyir və intensiv şəkildə yeni-yeni enerji mənbələri axtarışını davam etdirir.

§2.2. Xəzər hövzəsinin mövcud və perspektiv neft-qaz kəmərləri, region və dünya ölkələrinin transmilli enerji ixracı siyasətinin xarakteristikası

Xəzər hövzəsinin dünya bazarları ilə neft və qaz kəmərləri layihələrinin şaxələndirilməsi işi SSRİ dağılandan sonra vüsət almağa başladı. O vaxta qədər Xəzər hövzəsinin İrana aid olan 14%-lik hissəsi istisna olmaqla, dənizdən və sahil respublikalarının ərazisindən çıxarılan enerji resurslarının əksər hissəsinin dünya bazarlarına nəqli SSRİ-nin vahid enerji ixracı siyasəti çərçivəsində həyata keçirilirdi və bütün ixrac siyasəti bir mərkəzdən idarə olunurdu. fəaliyyətə sövq edən mühüm amil hesab oluna bilər.

XƏZƏR HÖVZƏSİ, FARS KÖRFƏZİ VƏ YAXIN ŞƏRQİN FƏALİYYƏTDƏ OLAN VƏ PLANLAŞDIRILAN NEFT-QAZ İXRACI ŞƏBƏKƏSİ



Xəritə 21.

SSRİ dağılandan sonra hövzənin Azərbaycan, Qazaxıstan və Türkmənistan kimi ölkələri də Rusiya ilə yanaşı, öz enerji məhsullarını dünya bazarlarına çıxarmaq məqsədilə boru kəmərləri rəqabətinə qoşulur, Qərb ölkələri ilə müstəqil geoiqtisadi münasibətlər yaratmaq, bu sahədə Rusiyanın geoiqtisadi təsirindən çıxmaq yerli ölkələrə həm öz məhsullarına sahib olmaq, onu əlverişli şərtlərlə dünya bazarlarına çıxarmaq və gəlir əldə etmək anlamında, həm də müəyyən mənada müstəqilliklərinin təmin olunmasında əlavə qarant kimi istifadə etmək baxımından lazım idi. Əlbəttə, Rusiya onların bu istəklərinə və cəhdlərinə müqavimət göstərərək, özünün enerji resursları və ixrac kəmərləri vasitəsilə bu ölkələrin həm Cənub-Şərq (Çin, Yaponiya, İran və s.), həm də Qərb (Aralıq dənizi və Avropa) istiqamətindəki əksər təşəbbüslərinə qısqanmağa, onların enerji istehsalı və ixracı sahəsindəki istənilən fəaliyyətini öz təsiri altında saxlamağa, ən azından bu ölkələrin enerji resurslarını Rusiya ərazisi vasitəsi ilə həyata keçirməyə çalışırdı.[318]

Hövzənin karbohidrogen ehtiyatlarının dünyaya açılması və sərbəst istifadəsi qarşısıalınmaz prosesə çevrildikdən sonra istehsal olunacaq alternativ məhsulların dünya bazarlarına ixracı ilə bağlı fərqli mövqelər və müxtəlif təkliflər ortaya çıxmağa başladı. Həmin dövrdə mütəxəssislər daha çox iki əsas ideya və istiqamət üzərində müzakirə aparırdılar. Bunlardan**, birincisi-** şərti olaraq Rusiya variantı adlandırılan layihə idi. Bu ideyanı bölgədə təkidlə Rusiya irəli sürürdü və bölgə ölkələrinin dəstəyini qazanmaqla reallaşdırmağa çalışırdı. Rusiya hövzəsi SSRİ dövründən fəaliyyət göstərən köhnə neft kəmərlərini bəzi sahələr üzrə qismən genişləndirmək və yenidən qurmaq yolu ilə, Xəzərin hər iki sahilində hasil ediləcək əsas neft məhsulla-

[318] Жильцов С.С. Трубопроводы Каспийского региона: Состояние и перспективы // Каспий- территория развития. Материалы международной конференции «Каспий- территория развития». Г. Астархан, 15 марта 2011 г. С.54-57.

rını Novorossiyskdəki limana, oradan da Qara dəniz boğazları vasitəsilə Avropaya ixrac etməyi təklif edirdi. Həmin variant çərçivəsində Xəzərin Azərbaycana aid Cənub hissəsindən istehsal edilən əsas neftin ixracını köhnə **Bakı-Novorossiysk** , Orta Asiya neftini isə **Tengiz-Novorossiysk** və **Uzen-Samara** neft kəmərləri təmin etməli idi. (Bax: Xəritə)

Rusiya Azərbaycanın Xəzər dənizində çıxartdığı neft və qaz resurslarını Bakı-Novorosiysk istiqamətinə yönəldərək, bir tərəfdən onların ixracından gələn tranzit haqlarına şərik çıxmaq, digər tərəfdən isə Azərbaycanın Qərblə enerji əlaqələrini öz əlində saxlamaq istəyirdi. Məsələ burasındadır ki,vaxti ilə Xəzər hövzəsində, ilk növbədə, Bakıda hasil edilən neft və qaz ehtiyatları SSRİ-nin daxili tələbatını ödəmək üçün istifadə edildiyindən, bu məhsullar müxtəlif daxili vasitələrlə və kəmərlərlə yalnız Rusiyaya və digər sovet respublikalarına daşınırdı. SSRİ-nin süqutundan sonra da Moskva bölgənin enerji daşıyıcılarının nəqli üçün ənənəvi marşrutların saxlanılmasına və bununla da, bütün bölgə ölkələri üzərində özünün mövcud geoiqtisadi təsir mexanizmlərinin qorunub saxlanmasına çalışırdı. Ona görə də ilk gündən Rusiya Xəzər hövzəsinin zəngin enerji ehtiyatları üzərində nəzarəti saxlamaq üçün müxtəlif vasitələrdən və yollardan istifadə etməyə çalışırdı. Azərbaycan və Qazaxıstanın Qərb şirkətləri ilə Xəzərin hər iki sahilində transmilli neft-qaz layihələrini həyata keçirməyə başlaması və birincinin Avropa bazarları istiqamətində alternativ ixrac marşurutlarının yaradılması istiqamətində nümayiş etdirdiyi fərqli mövqe ilk gündən Rusiyanın ciddi müqaviməti ilə üzləşdi. Bu ölkənin bəzi xarici və daxili siyasət strukturları, rəsmi və qeyri rəsmi dairələri bir-birinin ardınca müxtəlif anti-Azərbaycan bəyanatları səsləndirməyə başladılar. Həmin dövrdə Azərbaycan tərəfinin ciddi səyi və bəzi iqtisadi güzəştlərə getməsi ilə Rusiya dairələrinin aqressiv mövqeyini bir qədər yumşaltmaq mümkün oldu. Rusiyanın tranzit və geosiyasi maraqlarını tə-

min etmək məqsədilə, *"Bakı-Novorossiysk kəmərinin yenidən istifadəsi" ilə bağlı 1997-ci ildə Rusiya ilə Azərbaycan arasında xüsusi Şaziş bağlandı.* Bakı-Novorossiysk kəməri o dövrdə Azərbaycana qətiyyən lazım deyildi və onun tranzit şərtləri nə onu, nə də ki, Xəzərdə birgə iş apardığı digər tərəfdaşları qane etmirdi. Bu kəmər nə iqtisadi, nə də ki, geosiyasi cəhətdən sərfəli deyildi. Onun *həm tranzit xərcləri çox yüksək idi, həm Azərbaycanın təmiz və keyfiyyətli neft brendi Novorossiyskdə Qazaxıstanın Tengiz yataqlarından daxil olan az keyfiyyətli və kükürdlü neftlə qarışdırılaraq brend qiymətindən salınırdı, həm də ki, Rusiya ərazisi ilə gələcəkdə əsas neftin ixracı ideyası nə Azərbaycana, nə də ki, Avropalı tərəfdaşlara heç bir yaxşı geosiyasi divident vəd etmirdi, əksinə daimi geosiyasi təzyiq mexanizmi yaradırdı.* Odur ki, Rusiya ilə neft ixracına dair bağlanan bu müqavilə sadəcə olaraq bu ölkəni qismən sakitləşdirmək və Xəzərdə həyata keçirilən nəhəng transmilli layihələrə mane olmaqdan çəkindirmək məqsədi daşıyırdı.

Əslində Rusiya 90-cı illərin sonunda Azərbaycanın dünyanın aparıcı dövlət və neft şirkətləri ilə Xəzər hövzəsində reallaşdırdığı transmilli layihələrə və yeni neft-qaz kəmərləri ideyasına dünya səviyyəsinə ciddi maneçilik göstərmək iqtidarında deyildi. Həmin dövrdə xüsusi beynəlxalq dəstək qazanan Azərbaycana qarşı çox ciddi təzyiqlər göstərmək də çətin idi. Odur ki, Rusiyanın bəzi praqmatik düşüncəli dairələri Bakı-Novorossiysk kəməri ilə bağlı heç olmasa onun üzərinə bəzi öhdəliklər yükləmək istiqamətində çalışırdı. Məhz elə bu məqsədlə Rusiya 1997-ci ildə təkidlə tələb edirdi ki, Azərbaycan öz neftinin heç olmasa bir hissəsini (təxminən ildə 10 milyon ton) on beş illik məcburi öhdəlik götürməklə, Rusiya tərəfinin müəyyən etdiyi tariflə Novorossiysk marşrutu ilə dünya bazarlarına çıxarmaq öhdəliyi götürsün. Əlbəttə, Azərbaycan bu şərtləri qəbul edib, öz geosiyasi maraqlarını asanlıqla güzəştə gedə bilməzdi. Çünki *həmin dövrdə nə Rusiyanın müəyyən*

etdiyi tarif sərfəli deyildi, nə də ki, Azərbaycanın Novorossiysk kəmərinə istiqamətləndirəcəyi əlavə ixrac nefti yox idi. Lakin, eyni zamanda hansısa yolla olursa-olsun Rusiyanı qismən sakitləşdirmək lazım idi. Odur ki, *Azərbaycan tərəfi bütün əsas amilləri və mövcud şəraiti nəzərə alaraq, bu ölkə ilə kompromis xarakterli bir saziş imzalamağa razılıq verdi*. Sazişdə, Rusiyanın təkidlə tələb etdiyi "ixrac ediləcək neftin miqdarı və 15 illik müddət" formulu dəyişdirərək "illik 5 milyon tona qədər olmaqla və uzunmüddətli istifadə" ifdadəsi ilə əvəz etdi. Beləliklə, bəzi Orta Asiya dövlətlərindən fərqli olaraq Azərbaycan Rusiya ilə gərginləşən geosiyasi və geoiqtisadi münasibətlərini, öz üzərinə hər hansı ciddi və konkret öhdəlik götürmədən və əl-qolunu bağlamadan yoluna qoya bildi.[319]

Bakı-Novorossiysk marşrutunun əsas mənfi cəhəti yuxarıda qeyd edilən amillərlə yanaşı, *həm də keçdiyi Şimali Qafqaz ərazilərinin kriminallaşması və qeyri-sabitliyi, Rusiyanın özünün tərəfdaş kimi qeyri-etibarlılığı, Qara dənizin İstanbul boğazlarının buraxılış gücünün zəifliyi və ixrac imkanlarını məhdudluğu* və s. ilə də bağlı idi. Bu günün özündə də bu kəmərin təhlükəsizliyinə və davamlı fəaliyyətinə heç kim, hətta Rusiyanın özü belə qarantiya verə bilmir. 1977-ci il müqaviləsinə görə, Rusiya hər ton Azərbaycan neftinin bu marşrutla Novorosiyskə qədər tranziti üçün 15,67 ABŞ dolları tranzit haqqı alır.[320]

Bundan başqa neftin gəmi ilə Aralıq dənizinə daşınmasının da haqqını (təxminən hər tona 4 ABŞ dolları) əlavə etsək (həmin dövrdə neftin dünya bazarlarındakı qiymətləri 30 ABŞ dollarından aşağı idi), o zaman bu marşrutun nə qədər bahalı və səmərəsiz olduğunu aydın görmək olur.

[319] Bax: "Независимая газета", 2004, 10 февраля.
[320] Bax: Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона...с.112.

Oxşar siyasəti Rusiya həm də Xəzərin digər sahilində yerləşən Türkmənistan, Qazaxıstanın enerji resursları ilə bağlı həyata keçirirdi. (Bax: Xəritə 1) Burada Rusiyanın təkidlə istismarını davam etdirməyə çalışdığı və tamamilə onun nəzarətində olan digər köhnə ixrac kəmərləri- SSRİ zamanında inşa edilmiş, Xəzərin Şimal hissəsinin (Orta Asiya) neftini Novorossiysk limanına ixrac edən **Tengiz (Qazaxıstan)- Novorosiysk marşrutu** idi. *Bu kəmər Bakı-Novorossiysk kəmərinin Azərbaycan üçün yaratdığı bütün mənfi fəsadları, geosiyasi nəticələri və geoiqtisadi problemləri eyni ilə Qazaxıstan və Türkmənistan üçün yaradırdı və yaratmaqda davam edir*. Kəmər vasitəsi ilə Qazaxıstanın Tengiz yataqlarından hasil olunan neft məhsulları Novorosiyskə, orada Azərbaycandan gələn neftlə qarışdırılaraq tankerlər vasitəsi ilə Türkiyə boğazları vasitəsi ilə Aralıq dənizinə çıxarılır və "qarışıq neft" adı ilə satılır. Bu kəmər də Bakı-Novorossiyskdə olduğu kimi, eynilə *həm həddən artıq bahalı və iqtisadi cəhətdən səmərəsizdir, həm Rusiyanın əlində Qazaxıstana və digər Orta Asiya respublikalarına qarşı ciddi təsir mexanizmidir, həm də onların zəngin neft məhsullarından "öz samballı payını" almaq vasitəsidir.*

Əlbəttə, Rusiyanın bu münasibəti yerli ölkələri qane etmirdi. Hər ölkə istəyirdi ki, bir tərəfdən öz enerji resurslarını müstəqil şəkildə və daha əlverişli şərtlərlə dünya bazarlarına çıxartsın, digər tərəfdən Rusiyanın geosiyasi və geoiqtisadi təsirindən xilas olaraq bölgədə müstəqil enerji siyasəti yürütsün və müvafiq olaraq dünya ilə əlaqələrini qursun, öz müstəqilliklərinə əlavə qarantiya əldə etsinlər. Rusiya Xəzər dənizinin Cənubi Qafqaz hissəsində reallaşdırdığı fəallığı həmçinin, Şərq istiqamətində, Xəzərin Şərq sahilində Qazaxıstan və Türkmənistanın müstəqil şəkildə öz zəngin qaz və neft ehtiyatlarını Çinə, İrana və başqa Cənub-Şərqi Asiya ölkələrinə ixracı sahəsində tətbiq edirdi. Qazaxıstan və Türkmənistan ilk növbədə, Çinlə geoiqtisadi münasibətlər quraraq bu ölkənin neft-qaz

ehtiyacını ödəmək məqsədi ilə bir neçə ixrac kəmərləri tikməyi planlaşdırırdı. Lakin həm onların mövcud enerji resurslarının miqdarı, həm də gələcək Cənub-Şərq kəmərlərinin buraxılış gücü və Çinin onlardan alacağı enerji resurslarına ehtiyacı məsələsi bu ölkələri qane edə bilməzdi. Odur ki onlar Trans-Xəzər ixrac marşrutu vasitəsi ilə gələcəkdə Cənubi Qafqaz üzərindən Aralıq dənizinə və bütün dünyaya neft və qaz ixracı kəmərlərinin yaradılması ideyasını dəstəkləyirdilər.

XƏZƏR DƏNİZİNİN HƏR İKİ SAHİLİNİ XARİCİ ALƏMLƏ BİRLƏŞDİRƏN NEFT-QAZ KƏMƏRLƏRİ



Xəritə 22.

Lakin bəzi tədqiqatçıların fikri ilə ifadə etsək, ciddi iradə nümayiş etdirərək, Gürcüstan və Türkiyə ərazisindən istifadə etməklə, Aralıq dənizinə Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərini reallaşdıran Azərbaycandan

fərqli olaraq, Orta Asiya ölkələri Rusiyanın enerji təsirindən tam azad olaraq, müstəqil ixrac siyasətini, "yalnız Çin və İrana çəkdikləri bir-iki kəmərlə məhdudlaşdırmaq zərurətində qaldılar".[321]

Rusiya 1992-ci ildə Qazaxıstan və Türkmənistanı öz təsiri altında olan Tengiz-Novorossiysk ixrac kəmərləri ilə daimi bağlamaq məqsədilə, ciddi cəhdlə onlarla "Xəzər kəmərləri konsorsiumu" (CPC) adlı birgə qurum yaratmaq haqqında dövlətlərarası saziş imzaladı. Bundan sonra həmin ölkələri özlərinin bütün neft məhsullarını mövcud kəmər vasitəsi ilə Rusiyanın müəyyən etdiyi tariflə ixrac etməyə sövq etdi və bu məqsədlə onlarla ciddi "iş" apardı. Tengiz-Novorossiysk kəmərinin sonrakı statusu 1993-cü ildə Rusiya-Qazaxıstan və Rusiya-Türkmənistan arasında imzalanmış "Birgə kəmər konsorsiumu" haqqında Sazişə müvafiq olaraq müəyyən olunmuşdur. Sazişə görə, Qazaxıstan və Türkmənistan öz neft məhsullarını azı 40 il müddətinə bu kəmərlə ixrac etmək öhdəliyi götürmüşlər.

Mütəxəssislərin fikrincə, *Tengiz-Novorossiysk kəməri yarandığı gündən heç bir məcburi öhdəliyini yerinə yetirə və nəzərdə tutulan miqdarda nefti ixrac edə bilməmişdir. Qazaxıstanla Türkmənistan bu kəmərin geosiyasi risklərini və yaratdığı problemləri daim öz üzərində daşıyır. Onun vasitəsi ilə neft ixracının həddən artıq baha və uzun zaman itirməklə başa gəlməsi bir yana, Rusiya həm də bu kəmərlə bağlı götürdüyü öhdəlikləri yerinə yetirmir, nəzərdə tutulan illik 60-70 mln. ton neftin ixracını həyata keçirə bilmir. Kəmərin bu və ya digər problemlər üzündən illik buraxılış gücü indiyə qədər heç zaman 35 mln. tonu aşmamışdır.*

[321] Жильцов С.С. Трубопроводы Каспийского региона: состояние и перспективы. // Каспий – территория развития. Материалы межд. конференции. Астрахань, 15 март, 2011. с. 54-57

Rusiyanın dəstəklədiyi köhnə marşrutlardan biri də Xəzər hövzəsini bu ölkənin mərkəzi əyalətləri ilə birləşdirən Qazaxıstanın Uzen şəhərindən Rusiyanın Samara vilayətinə qədər uzanan **Uzen-Samara** neft kəməri idi. Bu kəmərin SSRİ dövründə əsas vəzifəsi Orta Asiya ölkələrinə məxsus neftin Rusiyanın mərkəzi rayonlarına çıxarılması və orada emal edilərək, yerli ehtiyacın ödənilməsindən ibarət idi. Hazırda onun illik ötürücülük gücü təxminən 30 mln. ton nəzərdə tutulsa da, indiyə qədər heç vaxt 10 mln. tonu aşmamışdır.

Xəzər hövzəsi və Orta Asiyanın karbohidrogen məhsullarının dünya bazarlarına ixracı ilə bağlı yuxarıda artıq qeyd edildiyi kimi, **ikinci layihəni** Azərbaycan irəli şürmüşdü. Bu ideyanın əsasında *Xəzər dənizi ilə dünyanın enerji bazarlarını və regionun əsas enerji istehlakçılarını birləşdirəcək çoxvariantlı yeni enerji dəhlizləri və ixrac kəmərlərinin çəkilməsi təşəbbüsü dayanmışdı*. Bu istiqamətdə Azərbaycanın təklif etdiyi əsas variant **Bakı-Tbilisi-Ceyhan** neft, **Bakı-Tbilisi-Ərzurum** qaz kəmərləri idi. (Bax Xəritə 23) Azərbaycanın yeni təşəbbüslərini həmin dövrdə Rusiya və İrandan başqa bütün region ölkələri- Türkiyə, Gürcüstan, Qazaxıstan, Ukrayna, Türkmənistan, dünyanın aparıcı dövlətləri- ABŞ, Avropa Birliyi və s. aparıcı ölkələri də dəstəkləyirdi. *Yeni dəhliz və kəmərlər vasitəsilə Xəzər dənizi və Orta Asiyanın gələcəkdə hasil ediləcək və Rusiyanın Novorossiyskdəki Qara dəniz limanının və İstanbul boğazlarının imkanlarına qətiyyən sığmayan on milyonlarla ton neft və milyardlarla kub metr qazın Avropa və dünya bazarlarına daşınması nəzərdə tutulurdu*.

Xəzər hövzəsinin enerji ehtiyatları sırasında mühüm paya malik olan türkmən qazının Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan alternativ yollarla Avropa bazarlarına ixracı məsələsi də hövzənin geoiqtisadi münasibətlər sistemində və transmilli ixrac siyasətinin formalaşmasında xüsusi önəm daşıyır. Türkmənistan Rusiyadan və İrandan sonra Orta Asiya və Xəzər böl-

gəsinin üçüncü qazla ən zəngin və əsas dövlətidir. Odur ki, Xəzərətrafı ölkələr içərisində Türkmənistan bölgənin və dünyanın qaz sahəsində mühüm geosiyasi oyunçulardan biri hesab olunur. Lakin bir faktı da vurğulamaq lazımdır ki, Türkmənistan həm də istehsal etdiyi qazın birbaşa xarici bazarlara ixracı ilə bağlı bölgədə ən zəif geoiqtisadi və tranzit mövqeyinə malik olan, bu sahədə ən çox problemlə rastlaşan ölkə hesab olunur. Ümumi qaz ehtiyatlarının, bəzi beynəlxalq ekspertlər tərəfindən təxminən 8-10 trln. kub metr qiymətləndirildiyi və bunun da 80-90%-inin ixrac üçün nəzərdə tutulduğu Türkmənistanda Rusiyadan tam geoiqtisadi asılılığın və tranzit alternativsizliyinin hansı problemlər yaratdığını təsəvvür etmək çox da çətin deyil.

Müstəqilliyə qovuşduqdan sonra, 1992-ci ildə Türkmənistan prezidenti S. Niyazov İran və Türkiyə ilə danışıqlara başlayaraq, İrandan keçməklə Türkiyə və Avropaya uzanan, təxminən 4-5 mlrd. dollar dəyərində yeni bir transmilli qaz kəmərinin çəkilməsi haqqında razılığa gəlir. Lakin həmin dövrdə ABŞ və Qərb ölkələrinin İrana olan mənfi münasibəti nəticəsində bu kəmərin maliyyələşdirilməsinə beynəlxalq dəstək verilmədi. Kəmərin maliyyələşməsi üçün lazım olan maliyyə vəsaiti həmin dövrdə Türkiyə, İran və Türkmənistanın özündə olmadığına görə, onu reallaşdırmaq mümkün olmadı. Digər tərəfdən həmin illərdə Türkmən qazının İran üzərindən Qərbə ixracı ideyasına Rusiya da ciddi maneçilik törətdi.

Türkmənistanın qaz ixracı sahəsindəki geosiyasi problemlərindən istifadə edən Rusiya, həm də o dövrdə nəinki təkcə bu ölkənin xaricə alternativ ixrac marşrutları yaratmaq planını pozdu, eyni zamanda "Türkmənistanın bütün ixrac qazının 2000-ci ilə qədər, hər min kub metri 42 ABŞ dolları olmaqla Rusiyaya satılması haqqında" S.Niyazovla dövlətlərarası müqavilə bağlamaqla, müəyyən müddətə qaz ixracı sahəsində onun bütün xarici iqtisadi əlaqələrini dayandırdı. Beləliklə, Ru-

siya həm uzun müddətə Xəzər hövzəsini xarici aləmlə birləşdirən yeni kəmər ideyasını arxa plana keçirdi, həm də Türkmənistanın bütün strateji qaz məhsulunu öz əlinə keçirdi.

1996-cı ildə ABŞ, Türkiyə və Azərbaycanın ciddi səyi nəticəsində Türkmənistan prezidenti S. Niyazovu gələcəkdə bu ölkənin qazını yeni çəkiləcək Azərbaycan, Gürcüstan və Türkiyə marşrutu ilə dünya bazarlarına çıxarmağa və Xəzərin dibi ilə çəkiləcək Transqafqaz kəməri ilə Türkiyəyə (o zaman Türkiyə təxminən 10 mird. kub metr türkmən qazını alacağına söz verirdi) birbaşa ixrac eməyə razı sala bildilər. Lakin, bir tərəfdən bu ölkənin qeyri-prinsipial və dalğın enerji siyasəti, digər tərəfdən yenə də rusların müdaxiləsi Türkmənistanı, onun üçün sözün həqiqi mənasında, "geoiqtisadi cəhətdən strateji qurtuluş" hesab oluna biləcək belə bir addım atmaqdan çəkindirdi. Həmin dövrdə, Rusiya bir tərəfdən "Xəzərin statusu və ekoloji məsələlərini" ortaya ataraq ətraf ölkələri, o cümlədən də Türkmənistanı ciddi təhdid etməyə başladı. Digər tərəfdə isə, Türkiyə ilə separat danışıqlar apararaq, bu ölkənin türkmən qazına olan ehtiyacını "tam bağlamaq" üçün, "Mavi axın" (Bax xəritə 23) adlanan ölkələrarası qaz alqı-satqısı müqaviləsinə onu imza atmağa inandıra bildi. Türkiyənin maye qaza olan ehtiyacını məhz elə həmin Türkmənistandan ucuz qiymətə aldığı qazla təmin etmək məqsədi ilə, ruslar yenidən Türkmənistanla danışıqlara başlayır və qısa vaxtda onu şirnikləndirici qiymətlərlə türkmən qazının **Xəzər dənizi boyunca salınacaq yeni marşrutla Rusiyaya ixracı** ilə bağlı 50 il müddətinə strateji müqavilə bağlamağa razı salır. Beləliklə, həm türklər türkmən qazını əvvəl əldə edəcəkləri qiymətdən (Rusiyanın xeyrinə olmaqla) azı bir dəfə baha almağa "məcbur olur", həm də türkmənlər Türkiyəyə satacaqları qazdan əldə edəcəyi gəlirlərin azı yarısından uzun müddətə (yenə də Rusiyanın xeyirinə) məhrum olurlar. Bundan başqa, Rusiya və onun müttəfiqlərinin dəstəyi ilə dünyada Transxəzər və Transqafqaz qaz kəmərlərinın pers-

pektivsizliyi, iqtisadi cəhətdən səmərəsizliyi ilə bağlı ciddi kompaniya başlanır. Lakin həm türklərin, həm də rusların bu işdə yaratdığı düşünülmüş, yaxud sadəcə uzağı görməyən fəaliyyətlərinə baxmayaraq, Transxəzər qaz kəmərinin çəkilişi yubansa da, Azərbaycan, Gürcüstan və Qərb ölkələrinin səyi ilə Transqafqaz kəmərinin (Bakı-Tbilisi-Ərzurum) çəkilişinə start verildi.

Alternativ ixrac variantına daxil olan və hazırda bölgənin perspektivli layihəsi kimi müəyyən dairələrində geniş müzakirə olunan neft-qaz ixracı marşurutlarından biri də, çəkilişi üçün maraqlı tərəflərin sərmayə imkanları araşdırılan və Rusiyanın xüsusi müqaviməti ilə üzləşən **Transxəzər** layihəsidir. (Bax: Xəritə 23)

FƏALİYYƏTDƏ OLAN BAKI-NOVOROSSİYSK, BAKI-SUPSA, BAKI-CEYHAN, BAKI-ƏRZURUM NEFT-QAZ KƏMƏRLƏRİ VƏ PLANLAŞDIRILAN MAVİ AXIN, TRANSXƏZƏR, TANAP, TAP və s. LAYİHƏLƏRİ



Xəritə 23.

Mütəxəssislərin fikrinə görə, Xəzərin dibi ilə Qazaxıstanın Aktau, Türkmənistanın Türkmənbaşı limanından və Xəzərin Şimalındakı digər perspektivli neft-qaz yataqlarından Azərbaycana, oradan da Gürcüstan və Türkiyə vasitəsilə Aralıq dənizinə, Avrop ölkələrinə istiqamətlənməsi planlaşdırılan bu layihənin işə salınması bölgədə tamamilə yeni bir geoiqtisadi ortam yarada bilər. Ümumiyyətlə, mütəxəssislər bu marşrutu Xəzərin enerji resursları sahəsində xüsusi payı və yeri olan Qazaxıstan və Türkmənistan üçün gələcəkdə ən perspektivli ixrac yolu kimi dəyərləndirirlər. Onların fikrinə görə, bu gün Rusiyanın təzyiqi ilə reallaşması qeyri-mümkün görünən bu layihə gələcəkdə Xəzər hövzəsinin enerji məhsullarını Rusiyanın geosiyasi asılılığından qurtararaq Avropanın enerji bazarı ilə birləşdirəcəkdir. Xəzər hövzəsindən Baltikyanı bəlgələrə və Şərqi və Qərbi Avropaya neft-qaz ixracı perspektivlərindən bəhs edərkən artıq fəaliyyət göstərən BTC, BTƏ, Bakı-Supsa və b. fəaliyyətdə olan kəmərlərlə yanaşı, həm də reallaşdırılmasına çalışılan NABUKO, TANAP, TAP, gələcəkdə çəkilməsi düşünülən Bakı-Gürcüstan-Bolqarıstanın (Burqas), Bakı-Gürcüstan-Rumıniya (Konstanta), Bakı-Gürcüstan-Ukrayna (Odessa) və s. marşrutlarını da qeyd edirlər. Xüsusən, Türkmən qazının Transxəzər marşrutu ilə Avropaya ixrac edilməsi istiqamətində çox ciddi çalışmalar mövcuddur.

Transxəzər marşrutunun reallaşması və Türkmənistanın enerji ehtiyatlarının ona qoşulması istiqamətində əsas cəhdi 1997-ci ildən ABŞ, Türkiyə, Avropa Birliyi göstərir. Son zamanlar Xəzərin dibi ilə Türkmənistan qazının Bakıya, oradan da Bakı-Tbilisi-Ərzurum vasitəsi ilə Türkiyəyə və Nabuko kəməri ilə Avropaya ixracı artıq təkcə Türkmənistanın, yaxud Xəzər hövzəsinin geoiqtisadi məsələsi deyil, həm də Avropanın enerji təhlükəsizliyinin qlobal təminatı kimi müzakirə olunur. Bir qədər əvvəl bu məsələ ilə bağlı Türkmənistan prezidenti və ABŞ-ın vitse-prezidenti arasında hətta kommersiya

müqaviləsi də imzalanmışdır. ABŞ müqaviləyə uyğun olaraq, bu işin texniki layihələndirilməsi üçün lazımi vəsait də ayırmışdır. Kəmərin təxmini uzunluğu Bakıya qədər 200 km, buraxılış gücü 30 mlrd. kub metr olmalı idi. Lakin neçə illərdir ki, Rusiya və İranın Xəzərin statusu ilə bağlı məsələni bilərəkdən uzatmaları, Türkmənistanın Transxəzər ətrafında nümayiş etdirdiyi zəif iradə və s. nəticəsində bu kəmərin inşasına başlamaq mümkün olmamışdır. Hətta 1998-ci ildə Türkmənistanla Türkiyə arasında 30 il müddətində, ildə 16 mlrd. kub metr Türkmənistan qazını Transxəzər və Transqafqaz marşrutu ilə Türkiyəyə göndərilməsi haqqında saziş də imzalanmaqdır. Lakin bütün bunlara baxmayaraq, hələ ki, Türkmənistanın Transqafqaz qaz kəmərinə qoşulması sual olaraq qalmaqdadır. Umumiyyətlə, Türkənistanın zəngin qaz ehtiyatlarının istehsalı və dünya bazarlarına ixracı Xəzər hövzəsinin əsas transmilli məsələlərindən biri hesab olunur və Transxəzər layihəsi çərçivəsində daim müzakirə olunur.

Türkmənistan hələ Sovet hakimiyyəti illərində ildə, təxminən 80-90 mlrd. kub metr qaz istehsal edirdi ki, bunun da cəmi 10%-ini öz daxili istifadəsinə yönəldirdi. O zaman türkmən qazının böyük hissəsi **Türkmənistan-Özbəkistan-Qazaxıstan-Rusiya marşrutu** üzrə SSRİ-nin daxili ehtiyaclarının təminatı üçün nəql edilirdi və müəyyən qədər də **Rusiyaya-Ukrayna** və **Rusiya-Belarusiya** marşrutu vasitəsi ilə Şərqi Avropa ölkələrinə ixrac edilirdi. Bu çox uzun məsafəli və bahalı bir marşrut idi. (Bax: Xəritə 24)

Türkmənistan qeyd edilən və edilməyən bir çox səbəblər üzündən Transxəzər qaz kəmərinin çəkilişini həyata keçirə bilməsə də, onun müstəqil enerji maraqlarının təminatı üçün həyati əhəmiyyət kəsb edən iki yeni qaz ixrac kəmərinin çəkilişinə nail ola bildi. Bunlardan biri **Türkmənistan- İran arasında çəkilən**, uzunluğu 200 km., buraxılış gücü, təxminən

8 mlrd. kub metr olan və 1997-ci ildə istifadəyə verilmiş qaz ixrac kəməridir.[322]

ORTA ASİYA ÖLKƏLƏRİNİN RUSİYA, İRAN, ÇİN, ƏFQANISTAN, HİNDİSTAN və s. ÖLKƏLƏRƏ MÖVCUD VƏ PERSPEKTİV NEFT-QAZ İXRACI SİSTEMİ



Xəritə 24.

Türkmənlərin uzun müddət çəkilişinə ciddi ümid bağladığı və bu yaxınlarda reallaşdırdığı ikinci marşurut- bu ölkəni

[322] Kəmərin açılışı ərəfəsində Türkmənistan İranla "25 il müddətində Türkmənistan qazının hə r il 8 mlrd. kub metr olmaqla İrana satılması" haqqında müqavilə imzalayaraq, ciddi bir geoiqtisadi öhdəlik götürmüşdür. Hazırda, Türkmənistan bu kəməri böyütmək və gələcəkdə onun vasitəsilə Türkiyəyə, oradan da Avropaya uzunluğu 3.200 km olan, illik buraxılış gücü 25-30 mlrd. kub metr təşkil edən yeni kəmər çəkməklə bağlı iş aparır və İranla birgə ciddi fəaliyyət göstərir. Lakin yenə də Türkiyənin bu məsələdə qeyri müəyyən tranzit və ikili mövqeyi, eyni zamanda ABŞ-in İran marşurutuna olan mənfi münasibəti fonunda hər hansı ciddi nəticə görünmür.

Çinlə birləşdirən **Transasiya qaz kəməri** hesab oluna bilər. Buraxılış gücü, təxminən 7-8 mlrd. kub metr olan, uzunluğu 3350 km. təşkil edən bu kəmər türkmən qazını birbaşa Çinə ixrac edir ki, bunun da gələcəkdə genişləndirilməsi layihəsi üzərində düşünülür. Türkmənlər istəyir ki, gələcəkdə **Əfqanıstan üzərindən Pakistanın Karaçi şəhərinə, ordan da Hindistana** qədər uzanan yeni bir qaz kəməri çəksinlər. Bu işlə bağlı hətta Türkmənistan son illərdə ABŞ və Səudiyyə Ərəbistanını təmsil edən bir çox kompaniyalarla konsorsium da yaratmış və dəyəri 3-3.5 mlrd. dollar, illik buraxılış gücü 20 mlrd. kub metr olan yeni kəmərin çəkilişi haqqında razılığa gəlmişdir.[323] Lakin Əfqanıstan və Pakistandakı mövcud qeyri-sabit vəziyyət bu qaz kəmərinin çəkilişinə hələ ki, imkan vermir. (Bax: Xəritə 25)

TÜRKMƏNİSTANIN İRAN, ƏFQANISTAN, HİNDİSTAN, RUSİYA, ÇİN və s. ÖLKƏLƏRƏ QAZ İXRACI



Xəritə 25.

[323]Bax: Газ: «Нейтральный Туркменистан», 1997, 16 августа.

Türkmən qazının digər bir qismi 1999-cu ildən inşasına başlanılmış və qısa müddətdə başa çatdırılmış **Türkmənistan-Rusiya-Xəzərboyu kəməri** vasitəsilə Rusiya nəqli prosesi həyata keçirilir. Türkmənistan 50 il müddətinə öz qazını bu kəmərlə ildə 20 mlrd. kub metr olmaqla, razılaşdırılmış qiymətlə Rusiyaya satmaq, Rusiya isə o qədər qazı Türkmənistandan almaq öhdəliyi götürsə də, sonradan Rusiya razılaşdırılmış qiyməti Türkmənistana ödəməkdən imtina etmişdir.

Türkmənlər 2015-ci ildən başlayaraq ildə, təxminən 200 mlrd. kub metr mavi qaz çıxarmağı hədəfə alıblar ki, bunun üçün də onlara hava və su kimi həm Qərb, həm də Şərq bazarlarına uzanan yeni ixrac kəmərləri və marşrutları lazımdır. Məhz ixrac imkanları məhdud olduğuna görə, türkmənlər bu gün xarici partnyorları da cəlb etməklə, nəzərdə tutulan miqdar qazı istehsal edə bilmirlər.

Azərbaycanın zəngin qaz ehtiyatlarının dünya bazarlarına ixracı marşrutları da son illərə qədər müxtəlif regional və beynəlxalq dairələrdə geniş müzakirə olunurdu. 2012-ci ildə Türkiyə ilə Azərbaycan qazının Avropa bazarlarına müştərək ixracını hədəfləyən TANAP layihəsi imzalandıqdan sonra bu mövzu bölgənin energi geoiqtisadiyyatı və Avropanın enerji təhlükəsizliyi fonunda artıq real gerçəklik kimi təhlil edilir. Azərbaycan hazırda ildə, təxminən 30 milyard kub metr qaz istehsal edir. Bölgənin digər əsas qaz istehsal edən ölkələrindən (Türkmənistan, Qazaxıstan, Özbəkistan, İran və s.) fərqli olaraq, Azərbaycan qaz ixracı sahəsində hazırda hər hansı bir problem yaşamır. Onun **Bakı-Tbilisi-Ərzurum** qaz kəməri vasitəsi ilə Gürcüstan və Türkiyəyə, **Bakı-İran** və **Bakı-Qroznı** xətti ilə müvafiq olaraq İran və Rusiyaya qaz ixrac kəmərləri mövcuddur. Hazırda ölkənin istehsal etdiyi təxminən 30 milyard kub metr qazın 10-12 milyardı daxili istifadəçilərə verilir, 14-16

milyardı isə üç istiqamət üzrə xarici ölkələrə satılır. Hazırda Avropa Birliyi Türkiyədən keçməklə Avropa bazarlarına istiqamətlənən kəmərlər üçün Azərbaycandan 15-20 milyard kub metr maye qaz istəyir. Bundan başqa Avropanın Rumıniya, Bolqarıstan, Macarıstan və b. ölkələri də Bakı-Gürcüstan və Rumıniya marşrutu üzrə ixracı razılaşdırılan və yaxın zamanlarda inşasına başlanılacaq marşrut üzrə ildə təxminən 7-10 milyard kub metr Azərbaycan qazını gözləməkdədirlər. Mütəxəssislərin fikrinə görə, Azərbaycanı sonuncu marşurutun xeyirinə qərar verməyə və qaz ixracında yeni-yeni alternativlər axtarmağa son zamanlara qədər Türkiyənin Azərbaycan qazının NABUKO vasitəsilə tranzitinə və Türkiyənin daxilindəki satış qiymətində sərgilədiyi ədalətsiz mövqeyi məcbur etmişdir. Türkiyənin Avropa ilə Xəzər regionu arasındakı enerji əlaqələrində Rusiyanın maraqlarına cavab verən mövqe nümayiş etdirməsi, xarici siyasətdə öz üstün prioritetlərinə baxmayaraq, Azərbaycanı yeni-yeni variantlar axtarmağa məcbur etmişdi.[324] Lakin Türkiyə ilə Azərbaycan qazının Avropa bazarlarına ixracına dair əldə olumuş son razılaşmalardan sonra bu marşrutlardan hər hansı birinəsə Azərbaycanın dəstək verəcəyi artıq şübhə doğurur.

Bölgənin əsas qaz ixrac edən ölkələrindən biri hesab olunan İranın neft-qaz ixracı sistemi əsasən Fars körfəzi və Hörmüz böğazı vasitəsi ilə həyata keçirilir. Bundan başqa, bu ölkənin Türkiyə, Azərbaycan və Türkmənistanla birbaşa qaz ixrac kəmərləri mövcuddur. Hazırda, İranın qaz ixrac etdiyi əsas ölkə Türkiyəyədir (ildə 10 mlrd. kub metr bu ölkəyə qaz ixrac edlir).

[324] Bax: Alexandros Petersen. Azərbaycanın Avroatlantik baxışları // Azərbaycan focus .N2. s.198-199.

Digər dünya və region ölkələrinin neft-qaz ixracı maraqlarının xarakteristikası

Əsas ideya müəllifinin Azərbaycan olduğu, "**Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatlarının Avropanın enerji bazarlarına alternativ ixracını təmin edən yeni Transqafqaz neft-qaz marşrutu"** ideyası Rusiya variantı hesab olunan **"köhnə kəmərləri qismən genişləndirmək və yenidən qurmaq yolu ilə ixracı ənənəvi marşrutlarala həyata keçirmək"** ideyası üzərində qalib gələrək reallığa çevriləndən sonra, 1995-ci ildə Rusiya və İran istisna olmaqla, bu işə aidiyyatı olan əksər dünya və region ölkələrinin razılığı ilə, əsas neft və qaz marşrutu kimi Qərb istiqamətində **Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa** neft və **Bakı-Tbilisi-Ərzurum** qaz kəməri variantının üzərində dayanıldı. (Bax: Xəritə 26) Həmin vaxtdan başlayaraq yeni kəmər və marşrutların region və dünya

FƏALİYYƏTDƏ OLAN BAKI-NOVOROSSİYSK, BAKI-TBİLİSİ-CEYHAN, BAKI-TBİLİSİ-SUPSA NEFT, BAKI-TBİLİSİ-ƏRZURUM QAZ KƏMƏRLƏRİ VƏ PLANLAŞDIRILAN TRANSXƏZƏR VƏ TANAP QAZ LAYİHƏLƏRİ



Xəritə 26.

üçün kəsb etdiyi geoiqtisadi əhəmiyyət, enerji dəhlizlərinin marşrutları, dəhliz sisteminə daxil olan ölkələrin ərazi, əhali və geosiyasi xarakteristikası, Qara, Aralıq və Baltik dənizlərinə çıxış və yolların təhlükəsizlik ölçüləri və s. bu kimi məsələlər ət3rafında həm bölgədə, hə də dünyada geosiyasi və geoiqtisadi diskssialar başlandı. Dünya geosiyasətşünasları bu layihələri region və dünya ölkələrinin, beynəlxalq transmilli aktorların neft-qaz ixracı maraqları çərçivəsində təhlil edir, yeni transmilli ixrac kəmərləinin və ölkələrin maraqlarının xarakteristikasını verməyə çalışırlar.

Avrasiyanın zəngin karbohidrogen ehtiyyatlarını Qərblə bağlayan köhnə və yeni alternativ enerji ixracı marşrutlarının hansının daha səmərəli, geosiyasi, geoiqtisadi, kommersya, ekoloji və təhlükəsizlik baxımından daha əlverişli və səmərəli olması məsələsi XX əsrin 90-cı illərinin ortalarından başlayaraq regional və dünya siyasətinin aparıcı mövzularından, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda reallaşdırılan enerji geoiqtisadiyyatının əsas məsələlərindən biri kimi müzakirə olunur. Xəzəryanı və qeyri-Xəzəryanı dövlətlərin hər biri neft kəmərlərinin onun ərazisindən və yaxud, ona əlverişli olan ərazilərdən keçməsinə çalışır. Bu dövlətlər içərisində Azərbaycan, Türkiyə, İran, Rusiya, Rumıniya, Bolqarıstan, Gürcüstan, Ukrayna, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Ermənistan və digər region dövlətləri ilə bərabər, həm də ABŞ, Yaponiya, Çin və bir çox aparıcı Qərb dövlətlərinin maraqları diqqəti cəlb edir. Mütəxəssislərin fikrinə görə Xəzər hövzəsində Rusiya ilə Türkiyə, İran və Türkiyə, ABŞ- İranla münasibəti, Rusiyanın Qafqazda və Asiyada öz geosiyasi mövqelərini qoruyub saxlamaq istəyi, Gürcüstanın daxilində yaşanan proseslər, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi, Türkiyədə kürd terrorizminin canlanması və s. kimi amillər də həm neft kəmərləri layihələrinə təsir edir, həm də bilavasitə bu layihələrlə bağlıdır. Məsələn, Rusiyanın ənənəvi neft kəmərləri marşrutlarına

nəzarəti öz əlində saxlamaq cəhdi Çeçenistan münaqişəsinin siyasi vasitələrlə aradan qaldırılmasının uzanması ucbatından xeyli çətinləşdi. Azərbaycan hökuməti və dünya neft şirkətləri Rusiya hüdudlarından yan keçən yeni ixrac kəmərlərinin çəkilməsi ideyasını gündəmə gətirərək reallaşdırdılar.

Tədqiqatçıların fikrincə, yalnız Rusiyanın geosiyasi və geoiqtisadi maraqlarına xidmət edən, bu ölkəylə bağlı səmərəsiz köhnə kəmər və dəhlizlərin istifadəsinin davam etdirilməsi, yeni marşurutların çəkilməsi və istifadəsinə mane olmaq siyasəti, Azərbaycanla yanaşı digər region və dünya ölkələrinin də geosiyasi və geoiqtisadi tələblərinə cavab vermirdi. Bunu onlar bir neçə əsas amillə izah edirdilər.

Əvvəla, Xəzər hövzəsi və Orta Asiyada qaz ehtiyatları ilə zəngin olan ölkələrin əksəriyyəti həmin strateji enerji resursunun çox cüzi bir qismini daxili istifadə üçün, qalan əksər hissəsini isə xarici ölkələrə satış məqsədilə istehsal edir. Odur ki, hasil edilən təbii qazın dünya bazarlarına çıxarılması, etibarlı və səmərəli ixrac boru kəmərlərinə malik olmaq, təhlükəsiz marşrutların seçilməsi və s. kimi geoiqtisadi məsələlər bu ölkələr üçün strateji əhəmiyyət, öz enerji təhlükəsizliyini bu bölgənin təbii qazı ilə bağlayan istehlakçılar üçünsə həyati və transmilli planetar mahiyyət kəsb edir. Zəngin neft-qaz ehtiyatına malik olan hər bir Xəzər hövzəsi ölkəsi istəyir ki, öz məhsulunu sərbəst şəkildə, əlverişli və ucuz marşrutlarla, etibarlı kəmərlər vasitəsilə dünya bazarlarına çıxarsın və mövcud dünya qiymətlərinə satsın. Eyni zamanda, bölgənin neft-qaz ehtiyatlarından faydalanan əksər xarici dövlətlər və digər alıcılar da istəyir ki, bu məhsulu birinci əldən, heç bir kənar vasitəçi ilə təmasa girmədən, sabit təminat şərtilə daha ucuz qiymətə alsın. Hər iki tərəf həm də bu vəzifələri hər hansı kənar subyektlərin, öz məxsusi maraqları ilə seçilən ölkələrin təsirinə məruz qalmadan təmin etmək istəyirlər. Bu mənada, faktiki olaraq Orta Asiya və Xəzər hövzəsinin zəngin neft-qaz ehtiyatlarını Avro-

pa bazarları ilə birləşdirən alternativ kəmərlərinin movcudluğu və onların çoxvariantlılığı, təkcə bölgənin enerji ixrac edən ölkələri üçün deyil, həm də bu məhsulları əldə etmək istəyənlər üçün də həyati əhəmiyyət kəsb edir. Odur ki, tədqiqatçıların fikrinə görə, Xəzər hövzəsinin enerji məhsullarının Qərbə ixracı ilə bağlı yuxarıda qeyd edilən variantlardan birincisi yalnız Rusiyanın geosiyasi və geoiqtisadi maraqlarını təmin edərək, digər region və dünya ölkələrinin geosiyasi və geoiqtisadi tələblərinə qətiyyən cavab vermirdi.

İkincisi, reallaşacağı təqdirdə Rusiya variantı bu ölkənin həm bölgənin enerji resursları, həm də digər Xəzərətrafı ölkələrin dövlət müstəqilliyi üzərindəki əvvəlki geosiyasi təsirini bir qədər də artırır və Avropa enerji bazarında hegemon mövqeyini ciddi şəkildə gücləndirirdi ki, bu da ABŞ və Qərb ölkələrini qətiyyən qane edə bilməzdi. Ümumiyyətlə, XXl əsrdə Avropanın getdikcə artan enerji tələbatı çərçivəsində Rusiyanın əvvəlki illərdə olduğu kimi Orta Asiya və Xəzər regionunun zəngin neft və qaz məhsullarına sahib olması, bu strateji xammalın istehsalı və ixracı üzərindəki əsassız monopoliyasına son qoyulması Qərb ölkələrinin mühüm geosiyasi vəzifələrindən birini təşkil edirdi.

Üçüncüsü, Orta Asiya və Xəzər hövzəsinin Azərbaycan, Qazaxıstan, Türkmənistan və Özbəkistan kimi ölkələri öz karbohidrogen ehtiyatlarını sərbəst şəkildə, Rusiyanın geosiyasi təsir və təzyiqinə rast gəlmədən dünya bazarlarına çıxarmaq istəyirdi. Odur ki, Rusiyadan asılı olmayan, alternativ enerji və kəmərlər siyasəti yürütmək istəyən bu ölkələr gələcəkdə ciddi iqtisadi gəlirlər götürmək, qabaqcıl dünya sisteminə inteqrasiya olunmaq, bu istiqamətdə maraqlı olan ayrı-ayrı dünya ölkələri və transmilli şirkətlərlə sərbəst tərəfdaşlıq münasibətləri yaratmaq istəyirdilər.

Dördüncüsü, Xəzər hövzəsi və Orta Asiyanın neft-qaz layihələrində iştirak edən və münasib tranzit imkanlarına malik

olan ölkələr də yeni çəkiləcək marşrutlardan və neftin ixracından müəyyən gəlir götürmək və əlavə geosiyasi təsir mexanizmləri qazanmaq istəyirdilər. Bu sıraya kəmərlərin öz ərazisindən keçməsini istəyən İranı, Gürcüstanı, Türkiyəni, Azərbaycanı, bəzi Şərqi Avropa dövlətlərini, Ukraynanı və s. aid etmək olar ki, onlar da Rusiyanın ixrac monopoliyasına qarşı mübarizədə iştirak edirdilər.

O ki, qaldı Rusiyaynın özünə, bu ölkə dünya enerji siyasətinin əsas geosiyasi oynçularından biridir. Onu bu mənada, daha çox Xəzər hövzəsi ölkələrinin neft və qaz məhsullarını öz ərazisindən dünya bazarlarına ixrac etməklə tranzit gəlirləri deyil, dünya bazarlarında öz enerji məhsullarını rəqabətdən kənar satmaq, bölgənin neft-qaz ixrac edən ölkələrini və onlara məxsus beynəlxalq alıcıları öz geoiqtisadi təsiri altında saxlamaq düşündürür. Mütəxəssislərin hesablamalarına görə, Rusiya üçün Azərbaycan, Qazaxıstan və Türkmənistana məxsus neft-qaz məhsullarının dünya bazarlarına çıxışının qarşısını bir həftə almaqla əldə etdiyi iqtisadi və geosiyasi divident, onun bu məhsulların bir illik tranzitindən əldə etdiyi dvidentdən xeyli yüksək olardı.

Bundan başqa, yenə də mütəxəssislərin fikrinə görə Rusiyanın malik olduğu mövcud neft-qaz ixrac marşurutları və kəmərlər hövzənin zəngin potensialına nə cavab vermir, nə etibatlı və təhlükəsiz deyil, nə də ki iqtisadi cəhətdən səmərəli deyil. Bundan başqa, fəaliyyət göstərdiyi bütün dövrlərdə bu kəmərlər nə öz iqtisadi, tranzit öhdəliklərini icra edə bilmiş, nə də ki, iqtisadi cəhətdən kimisə qane edə bilmişdir. Məsələn, Çeçenistan müharibəsi dövründə Bakı-Novorossiysk neft və Bakı-Mozdok qaz kəmərləri dəfələrlə partladılmış, günlərlə, həftələrlə Azərbaycanın xarici aləmlə enerji mübadiləsi pozulmuş, ona məxsus enerji məhsullarının ixracı dayandırmışdır. Yaxud, bir ton Bakı neftinin Rusiya marşurutu üzrə Aralıq

dənizinə ixracı, Bakı- Tbilisi-Ceyhan xətti ilə ixrac edilən məhsuldan, təxminən 70% baha başa gəlir.

Rusiya marşrutu, həm də fəaliyyət göstərdiyi bütün dövrlərdə daim özündə ciddi risklər, transmilli təhlükələr daşımış və bölgə ölkələrinin geoiqtisadi maraqlarını, marşrut boyu keçdiyi su hövzələrinin ekoloji təhlükəsizliyini təhdid etmişdir. Məsələn, İstanbulun ekoloji təhlükəsizliyi- Novorossiyskidən tankerlərə daşınan gündəlik təxminən 100 milyon barel rus neftinin təhdidi altındadır. Buna Orta Asiya və Xəzər bölgəsinin də təxminən o qədər neftini əlavə etsək, vəziyyətin nə qədər fəlakətli olacağını təsəvvür etmək çətin olmaz.

O ki, qaldı Azərbaycanın təklif etdiyi ikinci varianta- *yeni kəmərlər və dəhlizlər məsələsinə,* kəmərlərin şaxələndirilməsi siyasətinə, mütəxəssislərin fikrinə görə bu nəinki bölgənin sağlam rəqabətə can atan əksər neft-qaz ölkələri və onların xaricdəki tərəfdaşlarını, eyni zamanda enerji resurslarının əsas istehlakçılarını qane edir, yeni kəmərlər gələcəkdə Rusiyanın özü üçün də çox səmərəli və etibarlı ixrac marşrutu hesab oluna bilər. Bunu Rusiya və digər Xəzər ölkələrinə məxsus neftin Qara dəniz və Bosfor-Dardanel boğazlarının məhdud buraxılış imkanları nəticəsində vaxtlı-vaxtında dünya bazarlarına daşına bilməməsi, tanker daşımaçılığının boru daşımaçılığından qat-qat baha başa gəlməsi və s. səbəblərindən də izah etmək olar. Mütəxəssislərin ehtimalına görə, bəzi təbii hadisələr və s. nəticəsində Qara dəniz və əsas neft daşınan digər dəniz boğazlarında elə ciddi hal yarana bilər ki, Rusiyanın özü Bakı-Ceyhana ciddi ehtiyac hiss edər və onun dünya enerji bazarlarına çıxışı yalnız bu marşrutla mümkün olar.

Bir faktı da qeyd etmək lazımdır ki, Rusiya Cənubi Qafqazın mövcud reallıqlarını, bütün dünya tərəfindən dəstəklənən Azərbaycanın transmilli enerji layihələrinin qarşısıalınmazlığını dərk edərək 2001-ci ildən bölgənin alternativ nəqliyyat-dəhliz və neft-qaz ixracı marşrutlarına nəzarət etmək iddiala-

rından faktiki olaraq əl çəkmişdir. Lakin, göründüyü kimi Orta Asiyanın, xüsusən də Qazaxıstan və Türkmənistanın enerji məhsullarının sərbəst şəkildə dünya bazarlarına çıxarması üzərindəki əvvəlki monopoliyasından hələ də imtina etməmişdir. İndi də bu ölkə Xəzərin hüquqi statusu və təhlükəsizliyi məsələlərindən, Transxəzər boru xəttinin mövcud olmamasından, bölgənin digər iqtisadi-siyasi-sosial amillərindən istifadə edərək, Orta Asiyadakı ənənəvi mövqelərini qoruyur, Xəzərin Asiya hissəsinin geosiyasi və geoiqtisadi mühitinə Qərbin, digər "kənar qüvvələrin" hər hansı müdaxiləsinin qarşısını ala bilir.

Xəzərin Avropa hissəsində və Cənubi Qafqazda Rusiya bir qədər praqmatik hərəkət edərək, bölgənin mövcud nəqliyyat, dəhliz, neft-qaz icraçı marşrutlarına və s. geoiqtisadi təsir mexanizmlərinə daha cəlbedici və rəqabət qabiliyyətli alternativlər yaratmağa çalışır. Bununla yanaşı, mütəxəssislərin fikrinə görə, Rusiya Cənubi Qafqazın bəzi geosiyasi təsir mexanizmlərindən gələcəkdə istifadənin yeni taktiki variantları üzərində işləyir. Xüsusən, Ukrayna və Belarus ilə ayrı-ayrı zamanlarda yaranmış münaqişələr nəticəsində Qərbə qaz çıxartmaq problemi ilə üzləşəndən sonra, Rusiyada bəzi dairələr Azərbaycanın neçə illərdir ki, böyük iradə ilə həyata keçirdiyi alternativ neft-qaz ixracı marşrutlarının şaxələndirilməsi siyasətinin əhəmiyyətini özləri üçün dərk etməyə və bu layihələrə əlavə variant kimi maraq göstərməyə başladılar. Məsələ ondadır ki, Xəzərin enerji Cənubi Qafqazda yaradılmış mövcud ixrac kəmərlərinə, yeni infrastrukturlara alternativ resurslarının Qərbə çıxarılmasının ən qısa, sərfəli və etibarlı yolu Cənubi Qafqazdan keçir. Odur ki, hazırda həm Cənubi Qafqaz, həm Şərq-Qərb, həm də Fars körfəzi istiqamətindəki ixrac infrastrukturlarının istifadə perspektivlərini Rusiyanın bəzi maraqlı dairələri də araşdırır. Mütəxəssislər hesab edir ki, əgər hazırda ABŞ müqavimət göstərməsəydi, Rusiya Azərbaycandan İrana və Fars körfəzi istiqamətinə həm enerji nəqli, həmi də nəqliy-

yat-kommunikasiya sistemlərini çoxdan yaratmış və orada öz aparıcı mövqelərini təmin etmişdi.

ABŞ, Avropa Birliyi, Xəzər neft-qaz məhsullarından istifadə edən digər aparıcı dünya ölkələri də yeni kəmərlərə etibarlı enerji təminatı kimi yanaşaraq, Azərbaycanın mövqeyini dəstəkləyirlər. Qlobal dünyanın çeşidli geoiqtisadi və getdikcə yüksələn enerji təhlükəsizliyi maraqları Xəzər və Orta Asiyanın zəngin enerji resurslarının istehsalı və ixracının hər hansı bir ölkənin monopoliyasından çıxarılmasını və diversifikasiyasını (şaxələndirilməsini) təmin etməyi tələb edir və onun liberal bazar və rəqabət mühitinə salınmasını, ayrı-ayrı subyektiv faktorlardan asılılığının aradan qaldırılmasını tələb edirdi. Bu sırada ABŞ-ı, Avropa və dünyanın inkişaf etmiş dövlətləri və onlara məxsus nəhəng transmilli şirkətləri qeyd etmək olar.

Xəzərin karbohidrogen məhsulları ilə öz enerji təhlükəsizliyini bağlayan Qərb ölkələri və onlara məxsus transmilli şirkətlər məhz yeni kəmər və dəhlizlər variantına, dünyada xüsusi enerji geosiyasəti həyata keçirən Rusiya kimi ölkələrin iradəsindən asılı olmayan, tam müstəqil neft-qaz ixrac marşrutuna üstünlük verirlər. Həm də, belə müstəqil marşurut nəinki təkcə region ölkələrinin və onların enerji məhsullarından asılı olan dünya dövlətlərinin geoiqtisadi risklərini azaldır, həm də iqtisadi baxımdan da çox səmərəli və rus marşrutu ilə müqayisədə kifayət qədər ucuz başa gəlir.

Xəzərətrafı ölkələrindən Azərbaycanla yanaşı **Qazaxıstan və Türkmənistan** üçün yeni kəmər öz məhsullarını sərbəst şəkildə, heç bir təsir dairəsinə daxil olmadan dünya bazarlarına çıxarmaq anlamında, həm də həyati əhəmiyyət kəsb edir. Məsələ ondadır ki, Xəzər hövzəsində neft-qaz ixracı ilə bağlı ən əlverişsiz vəziyyətdə olan ölkələr məhz Türkmənistan və Qazaxıstan hesab olunur. Tədqiqatlar göstərir ki, bu ölkələr yaxın illərdə yeni kəşf olunmuş zəngin neft-qaz yataqlarından istehsal olunan məhsulun xarici bazarlara çıxarılmasında ciddi

problemlərlə üzləşəcəklər. Məsələn, yaxın onillikdə Qazaxıstanın Kaşaqan yataqlarından, təxminən ildə 100 mln. tona yaxın neft hasil edəcək ki, bunun da ixracı ilə bağlı bu ölkənin hazırda heç bir müstəqil, etibarlı və təhlükəsiz transmilli marşrut qarantiyası yoxdur. Əgər, yaxın gələcəkdə Qazaxıstan öz ixrac potensialını 100 milyona çatdırarsa, o zaman bu məhsulun xarici bazarlara ixracı əsl problemlə üzləşəcəkdir. Mütəxəssislərin hesablamalarına görə Qazaxıstan və Türkmənistan bugünkü bütün mövcud kəmərlər və ixrac dəhlizlərinin imkanlarından istifadə edə bilsə belə, ən yaxşı halda Rusiya ərazisi ilə- Tengiz-Novorossiysk və Uzen-Samara xətləri vasitəsilə, təxminən ildə 30-40 mln. ton, gəmilər və dəmir yolu vasitəsilə Azərbaycan ərazisindən keçməklə- Bakı-Supsa kəməri və digər yollarla maksimum 10-20 mln. neft ixrac edə bilərlər. Nəzərə alınsa ki, hər iki ölkənin ixrac nefti hazırda həm Rusiyaya, həm də Azərbaycan ərazisindən Qara dənizə qədər, oradan isə gəmilərlə əsasən İstanbul vasitəsi ilə Aralıq dənizinə çıxarılır, o zaman hazırda İstanbuldan keçən 80-100 mln. tonluq neft karvanına Qazaxıstan və Türkmənistanın 50-100 mln. ton ixrac neftinin əlavə olunacağı təqdirdə, bu boğazın düçar olacağı acınacaqlı vəziyyəti təsəvvür etmək o qədər də çətin olmaz. Türkmənistanın qaz ixracı ilə vəziyyəti də getdikcə çətinləşir və bu ölkənin tələbatına qətiyyən cavab vermir.

Son zamanlar Qazaxıstan və Türkmənistan da Azərbaycan kimi, neft-qaz kəmərlərinin şaxələndirilməsi siyasətinə üstünlük verərək, Qərbi Qazaxıstan ərazisindən Çinə və Türkmənistan ərazisindən İrana, hər iki ölkə ərazisindən Xəzərin dibi ilə Azərbaycana və Cənubi Qafqaz vasitəsi ilə Avropaya yeni neft-qaz kəmərlərinin çəkilişi ətrafında müvafiq maraqlı ölkələr və dairələrlə iş aparır. Mütəxəssislərin fikrinə görə, bütün bu kəmərlərin çəkilişi üçün həm ciddi ehtiyac duyulur, həm də bölgənin gələcək neft-qaz istehsalı proqnozları nəzərə alınmaqla, onların iqtisadi səmərəliliyinə heç bir şübhə yeri

qalmır. Orta Asiya və Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına kütləvi axınının qarşıdakı 50-100 il müddətinə nəzərdə tutulmasını nəzərə alsaq, doğrudan da bölgənin çoxsaylı transmilli kəmər ehtiyacını hər an hiss etmək olar.

Əslində yeni neft və qaz kəmərləri Xəzər hövzəsi və Orta Asiya ölkələrinin neft-qaz məhsullarını öz nəzarəti altında Fars körfəzi vasitəsilə dünya bazarlarına çıxarmaq istəyən **İran üçün** də ciddi dividentlər gətirə bilərdi. Lakin, bu o vaxt mümkün olardı ki, həmin kəmərlər onun ərazisndən keçməklə, Fars körfəzi vasitəsilə dünya bazarlarına çıxsın. Xəzər hövzəsinin ikinci böyük ölkəsi olan İran ilk gündən Xəzər hövzəsinin və Orta Asiyanın zəngin neft-qaz resurslarının Rusiyanın ənənəvi kəmər və marşrutlarından yan keçməklə dünya bazarlarına ixracının fəal tərəfdarı kimi çıxış etməyə və bu yöndə Azərbaycanın təşəbbüsünü dəstəkləməyə başlayır. Lakin, *İran bu işə bölgənin neft ölkələrinin milli maraqlarını və onların neft-qaz məhsullarını səbirsizliklə gözləyən Avropa ölkələrinin ehtiyacını ödəmək baxımından deyil, öz geosiyasi və geoiqtisadi maraqları baxımından çalışırdı. İranın yeni kəmər və dəhlizlərdən geosiyasi və geoiqtisadi nəticələri ciddi hesablanmış bir necə gözləntisi var idi.* Bunlardan biri və birincisi transmilli kəmərlər vasitəsilə öz ölkəsini neçə illərdir ki, ABŞ və onun Qərb tərəfdaşları tərəfindən salınmış iqtisadi təcridetmədən çıxarmaq idi. İkincisi isə, İran Xəzərdəki transmilli enerji layihələrinə və Qərb ölkələrinin hövzəyə daxil olmasına mane ola bilməyəcəyinə əmin olandan sonra, heç olmasa onların ixrac edəcəyi məhsullar üzərində hər hansı formada nəzarət mexanizmləri əldə etmək istəyirdi. Üçüncüsü, İran öz ərazisindən çəkiləcək yeni kəmərlərlə bölgədə (xüsusən Xəzərətrafı ölkələrdə) Rusiyanın təsir dairələrini zəiflətmək, özününkünü isə gücləndirmək istəyirdi. Nəhayət, dördüncüsü, İran da digər ölkələr kimi Xəzərin enerji resurslarının ixracından müəyyən iqtisadi dividentlər, tranzit gəlirləri götürmək istəyirdi. Odur ki, Azər-

baycanın Beynəlxalq Konsorsiumla birgə Xəzərdən istehsal edilən əsas neftin və qazın dünya bazarlarına çıxarılması marşurutlarını çəkmək ideyası ortaya çıxanda, İran öz ərazisini və Fars körfəzi variantını təklif edir.

Mütəxəssislərin fikrinə görə, əslində İranın əraziləri digər təklif olunan marşrutlardan iqtisadi xarakteristikasına görə daha sərfəli idi. Lakin İranın siyasi rejimi, yürütdüyü geosiyasəti və dövlətnin xarici aləmlə əlaqələri layihədə söz sahibi olan ölkə və şirkətləri qane etmirdi. Odur ki, bütün üstünlüklərinə baxmayaraq, ABŞ və onun Qərb tərəfdaşları İran variantını birmənalı şəkildə yaxına buraxmadılar. Bu ölkənin bütün cəhdlərinə və çalışmalarına baxmayaraq, Türkmənistandan çəkilmiş kiçik bir qaz kəməri istisna olmaqla, İran Xəzər hövzəsini Qərblə birləşdirən bütün əsas yeni kəmər və marşrutlardan kənarda qaldı. Bunun əsas səbəbi, əlbəttə ki, qeyd etdiyimiz kimi, heç də bu ölkənin geosiyasi məkanının əlverişsizliyi ilə deyil, daha çox Qərb ölkələrinin, xüsusən, ABŞ-ın İrana etibar etməməsi, onunla planetar müstəvidə mübarizə aparması və buna uyğun olaraq bu ölkəni beynəlxalq iqtisadi təcridetməyə salması idi.

İran Qərb ölkələrinin yaratdığı iqtisadi blokadadan çıxmaq üçün Azərbaycan, Qazaxıstan və Türkmənistanla (həm də sonuncuların xaricə neft-qaz ixracı ilə bağlı mövcud problemlərindən istifadə edərək) enerji sahəsindəki əlaqələrini genişləndirməyə və onların artıq neft və qaz məhsullarını alaraq, Fars körfəzi vasitəsilə dünya bazarlarına çıxarmağa çalışır. Lakin, burada İranın əsas problemi bu məhsulları almaq və ixrac etmək üçün nə lazımi miqdarda kəmərlərə, nə də ki, digər dəniz nəqliyyat vasitələrinə və limanlara malik olmamasından yaranır. İran ərazisindən keçməklə, hər hansı transmilli neft-qaz kəməri ideyasını, iqtisadi və məsafə baxımından nə qədər sərfəli olsa belə, həm də bu ölkənin siyasi və idarəçilik rejiminə inamlarının və etibarlarının olmaması baxımından ABŞ və

onun Qərb partnyorları ilk gündən birmənalı şəkildə rədd etdilər.

Xəzərdən dünya bazarlarına yeni kəmər çəkilişi ideyasını bölgə ölkələrindən **Gürcüstan, Ukrayna və Türkiyə, Ukrayna, Şərqi Avropa dövlətlərindən Bolqarıstan, Rumıniya, Polşa, əksər Baltikyanı ölkələr** də dəstəkləyirdi. Laki onların hər birinın marşrutların istiqaməti və keçdiyi ərazilərlə bağlı öz məxsusi maraqları, bəzən bir-biri ilə rəqabət yaradan mövqeləri mövcud idi. Məsələn, Azərbaycan və Qazaxıstan neftinin daşındığı Bakı-Supsa neft kəmərinin Supsadan davamı kimi, tanker daşımaçılığı deyil, Qara dənizin dibi ilə Avropaya yeni kəmər çəkilməsi ideasını bu ölkələrin müvafiq olaraq hərəsi bir cür görür. Ukrayna bu kəmərin davamını Qara dənizdəki ona və Rumıniyaya məxsus Odessa-Brodiyə, Bolqarıstan Burqasa, Rumıniya Konstantaya çəkilməsini arzu edir.

Hazırda bölgədə yeni neft-qaz kəmərləri və marşrutları ideyasını, ixrac marşrutların sonrakı şaxələndirilməsini (çoxvariantlılığını) Azərbaycan və Qazaxıstan, yuxarıda adı çəkilən digər ölkələr fəal şəkildə dəstəklədiyi halda, öz enerji və tranzit maraqlarından çıxış edən Türkiyə buna müsbət yanaşmır. **Türkiyənin neft-qaz kəmərləri və enerji dəhlizi siyasətinə** nəzər salsaq görərik ki, bu ölkə Azərbaycanın yeni kəmər və dəhliz təşəbbüsünün reallaşmasından bütün əsas parametrlər- iqtisadi, siyasi, geostrateji, bölgə üzərində və dünyada əlavə geosiyasi təsir mexanizmləri qazanmaq, İstanbulun ekoloji fəlakətdən qismən xilas edilməsi və s. üzrə ən çox divident qazanan dövlət hesab olunur. Türkiyə BTC-nin reallaşması nəticəsində bir vaxtlar Rusiyanın Xəzər hövzəsi və Orta Asiyanın zəngin neft və qaz məhsulları, bunun əsasında da bölgənin enerji ixrac edən ölkələri üzərində malik olduğu təsir mexanizmlərini öz əlinə keçirdi. Bundan başqa, Türkiyə özünün Rusiya, İran və İraqdan enerji asılılığını BTC-nin hesabına büsbütün aradan qaldırdı, Orta Asiya və Xəzərin zəngin neft-qaz məhsullarını

öz ərazisindən keçirməklə dünya enerji siyasətinin mərkəzi ölkələrindən birinə çevrildi, Qara və Aralıq dənizləri arasında əsas tranzit ölkəsi kimi Avropa və Avrasiya ölkələri üzərində ciddi geosiyasi təsir mexanizmləri qazandı. 2012-2013-cü illərdə Azərbaycanla imzaladığı Trans Anadollu qaz ixracı haqqında sazişlər- TANAP və TAP layihələri bu ölkəyə həm də bölgənin əsas ixrac qazı üzərində əlverişli mövqe qazandıracaqdır.

Mütəxəssislərin fikrinə görə, BTC-nin fəaliyyətə başlaması ilə Rusiyanın Xəzər hövzəsi və Cənubi Qafqaz üzərindəki geosiyasi və geoiqtisadi təsiri, dəhliz və transmilli neft-qaz ixracı monopoliyası nə qədər zəiflədisə, Türkiyəninki bir o qədər gücləndi. Rusiya bölgə ölkələrinin strateji enerji məhsullarının onun iradəsi xaricində dünya bazarlarına ixracına nəzarəti itirdi, Türkiyə isə belə nəzarət imkanlarını əldə etdi. Bununla bərabər Türkiyə, həm də Rusiyanın Avrasiyadakı zəifləyən mövqelərindən istifadə edərək öz regional geosiyasi təsirini möhkəmlətdi, enerji mübadiləsi üzrə geoiqtisadi maraqlarını təmin etdi, geosiyasi, geoiqtisadi, yanacaq-enerji, tranzit və s. sahəsində həm Rusiya, həm də Avropa birliyi ilə illərdən bəri arzu etdiyi bərabərhüquqlu əlverişli mövqelər qazandı, müqavilə və sazişlər bağladı. Və nəhayət, Türkiyə Rusiya ilə Avropa Birliyi ölkələri arasındakı enerji mübadiləsi və neft-qaz tranziti sistemində həlledici vəsilələrdən birinə çevrildi. Mütəxəssislərin fikrinə görə, Rusiyanın həmin dövrdə Ukrayna, sonrakı illərdə isə Belarusiya ilə ziddiyyətli və qeyri-sabit münasibətləri fonunda, Türkiyə bu ölkənin Avropa ilə neft-qaz mübadiləsi sisteminin aparıcı tranzit ölkəsinə çevrilmək siyasətini hədəfə almışdır.

Xəzərin və Mərkəzi Asiyanın neft-qaz məhsullarını dünya bazarlarına daşıyacaq kəmərlərlə bağlı maraqlı dünya və regional dövlətlərin münasibətini şərtləndirən **digər əsas amil**, həmin kəmərlərin və nəqliyyat-kommunikasiya dəhlizlərinin daha çox hansı meyarlara söykənməsi- geoiqtisadi, geosiyasi,

yoxsa başqa mahiyyət kəsb etməsi ilə bağlıdır. Məsələn, Rusiya hökuməti və siyasətşünasları heç bir ciddi arqument gətirmədən, daim və təkidlə onun ərazisindən keçən əksər ixrac marşurutlarının "bütün parametrlər üzrə digərlərindən üstünlüyünü" sübut etməyə, başqa Transqafqaz və Transxəzər və s. neft-qaz kəmərlərini isə "geosiyasi mahiyyət daşımaqda" günahlandırır və müvafiq olaraq onlara qarşı çıxış etmişdir.

Digər ölkələrin, məsələn, Azərbaycanın da köhnə və yeni kəmərlərlə və ixrac marşrutları, enerji dəhlizləri üzrə öz əsaslı arqumentləri və məxsusi yanaşmaları mövcuddur. Rusiyanın mövqeyini yalnız ona yaxın Ermənistan və İran kimi ölkələr dəstəklədiyi halda, Azərbaycanın yanaşması əksər dünya ölkələrinin və qarşılıqlı maraqları üstün tutan digər geoiqtisadi aktorların mövqeləri ilə eynilik təşkil edir. Çünki bu yanaşma-Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft, Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP qaz, TRASEKA nəqliyyat-kommunikasiya dəhlizi və Bakı-Tbilisi-Qars dəmir yolu kimi transmilli layihələr həm iqtisadi və siyasi, həm də təhlükəsizlik anlamında bütöv dünya və region ölkələrininin sağlam ehtiyaclarına və ayrı-ayrılıqda hər bir geosiyasi aktorun ortaq maraqlarına cavab verir. Bundan başqa, bəhs olunan transmilli layihələr, həm də özünün etibarlılığı, müstəqilliyi və heç bir geosiyasi oyunçudan asılı olmaması ilə də fərqlənir.

§2.3. Azərbaycanın enerji ixracının şaxələndirilməsi siyasəti və onun regionun ümumi geoiqtisadi vəziyyətinə təsiri

90-cı illərin əvvəllərindən başlayaraq Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geosiyasi vəziyyətinə və strateji hədəflərinə, o cümlədən Azərbaycanın milli maraqlarına birbaşa təsir göstərən əsas amillərdən biri enerji sahəsində xarici

aləmlə tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi, bölgənin mövcud enerji və karbohidrogen ehtiyatlarının müstəqil yollarla birbaşa dünya bazarlarına çatdırılması, daha etibarlı, təhlükəsiz və iqtisadi cəhətdən səmərəli marşrutların təmin edilməsi hesab olunur. Mütəxəssislərin fikrinə görə, XX əsrin sonlarından etibarən sərbəst enerji ixracı problemi Avrasiyada təkcə Azərbaycanın deyil, SSRİ-nin dağılması ilə öz müstəqilliyinə qovuşmuş əksər neft-qaz istehsal və ixrac edən ölkələrinin, eyni zamanda Xəzərdə enerji sahəsində işləyən transmilli aktorların əksəriyyətinin əsas geosiyasi və geoiqtisadi qayğılarından birini təşkil edir.

Xəzər hövzəsi ölkələri içərisində uzumnüddətli strateji hədəf kimi alternativ ixrac marşrutları məsələsini də real olaraq ilk dəfə məhz Azərbaycan gündəmə gətirmiş və öz tərəfdaşlarının köməyi ilə tədricən reallaşdırmağa başlamışdır. Hövzənin, o cümlədən Orta Asiya bölgəsinin karbohidrogen məhsullarının dünya bazarlarına ixracı ilə bağlı Azərbaycanın irəli südüyü və Rusiyanın mövqeyindən fərqlənən bu plan Rusiya və İran istisna olmaqla demək olar ki, bütün region ölkələri - Türkiyə, Gürcüstan, Qazaxıstan, İran, Ukrayna, Türkmənistan, dünyanın aparıcı dövlətləri - ABŞ, Yaponiya, Çin, Avropa Birliyi ölkələri və s. tərəfindən də dəstəklənmişdi.

Azərbaycanın ixrac siyasətinin və bu istiqamətdə irəli sürdüyü təşəbbüslərin əsasında *Xəzər dənizi və Orta Asiya ilə dünyan enerji bazarlarını, regionun əsas enerji istehlakçılarını birləşdirəcək alternativ, müstəqil, çoxvariantlı enerji dəhlizləri və ixrac kəmərlərinin çəkilməsi* ideyası dayanırdı. Yeni dəhliz və kəmərlər Xəzər dənizi və Orta Asiyadan hasil ediləcək və Rusiyanın Novorossiyskdəki Qara dəniz limanının, ixrac kəmərlərinin, İstanbul boğazlarının və s. mövcud infrastrukturların imkanlarına qətiyyən sığmayacaq on milyonlarla ton neft və milyardlarla kub metr qazın gələcəkdə Avropa və dünya bazarlarına daşınmasını nəzərdə tuturdu.

Prezident Heydər Əliyev ölkənin yeni enerji strategiyası tərkibində ilk gündən Xəzər hövzəsinin zəngin karbohidrigen məhsullarının dünya bazarlarına çıxarılmasına- *şaxələndirilmiş və çoxvariantlı enerji dəhlizləri və marşrutları məsələsinə* ciddi önəm verirdi. O, bu təşəbbüsə və ideyaya Azərbaycanın regionda və dünyada aparıcı mövqeyini nümayiş etdirən, onun enerji sahəsində geoiqtisadi təhlükəsizliyi baxımından mühüm rol oynayan amil kimi baxırdı. Odur ki, Azərbaycan hökuməti 1994-cü ildən başlayaraq Xəzər dənizinin ona məxsus sektorundakı enerji ehtiyatlarını "Əsrin müqaviləsi" çərçivəsində Qərbə məxsus aparıcı şirkətləri ilə birgə işləmək və hər hansı bir kənar qüvvənin geosiyasi təsiri olmayan sərbəst yollarla dünya bazarına çıxarmaq istiqamətində xüsusi fəaliyyətə başlayır. Azərbaycan sonrakı illərdə də yeni-yeni enerji ixracı marşrutları və satış bazarlarının axtarışını, onların şaxələndirilməsi siyasətini davam etdirmişdir.

Keçən dövrdə Azərbaycan ona məxsus neft və qaz məhsullarını sərfəli qiymətlərlə və müstəqil ixrac marşrutları ilə Türkiyə və Avropa bazarlarına çıxarmaqla yanaşı, həm də onu əhatə edən, keçmişdə onunla bir geosiyasi məkanı bölüşən ölkələrin daxili bazarlarında özünə yer tutmaq uğrunda fəaliyyətə qoşulur. Həmin fəaliyyət çərçivəsində onun həyata keçirdiyi transmilli enerji siyasətinin əsas istiqamətlərindən biri *Qara-Xəzər dənizi hövzəsi və digər postsovet məkanı ölkələrinin enerji ehtiyaclarının təmin olunmasında yaxından iştirak etməkdən ibarət olmuşdur.*

Enerji təhlükəsizliyində Azərbaycan hökuməti ikinci əsas amil kimi *ixrac dəhlizləri və kəmərlərin regional təhlükəsizliyi məsələsini* irəli sürürdü. Bu anlamda əsas şərt kəmərlərin marşrutunu düzgün müəyyənləşdirməkdən ibarət idi. (hansı məkanları əhatə etməsi, marşurutların etibarlı, sabit və dayanıqlı cəmiyyəti və daxili mühiti olan tərəfdaş ölkələrin ərazisindən keçməsi və s. nəzərdə tutulur- Ə.H.). Azərbaycan bu istiqamət-


də də öz tərəfdaşları ilə geniş məsləhətləşmələr keçirir və bütün maneələrə baxmayaraq, konsorsium çərçivəsində Xəzərdən istehsal olunacaq əsas neftin ən optimal və təhlükəsiz ixrac marşrutunu seçir.

Yeni transmilli neft və qaz marşrutların müəyyən edilməsi, alternativ kəmərlər və dəhlizlərin yaradılması variantları ətrafında, onların hansı ölkələrin ərazisindən keçməklə Qara, Aralıq və Baltik dənizlərinə çatdırılması və s. marşrutlarla bağlı bir neçə il həm bölgədə, həm də dünyada ciddi geosiyasi diskussiyalar aparılmış, dünya geosiyasətçiləri çoxsaylı fikir və mülahizələr söyləmişlər. Nəhayət, uzun müzakirələrdən sonra 1995-ci ildə Rusiya və İran istisna olmaqla,[325] əsas neft və qaz marşrutu kimi, əksər aidiyyatı dünya və region ölkələrinin, transmilli şirkətlərin razılığı ilə *Qərb istiqamətində- Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri variantının üzərində dayanılmışdır.* (Bax: Xəritə 27)

Azərbaycanın həyata keçirdiyi yeni enerji dəhlizi və kəmər siyasətinin əsasında dayanan əsas meyarlardan biri də *bu layihələr ətrafında bölgədə ortaq dövlətlərarası konsensusun tapılması və tərəfdaşlıq mühitinin yaradılması, yeni kəmərlərin və dəhlizlərin regional gərginliyin yumşaldılmasına, bütün bölgə əhalisinin rifahına xidmət göstərməsi, Xəzər hövzəsinin enerji istehsal edən ölkələrinə Qərblə bərabərhüquqlu əməkdaşlıq üçün hərtərəfli şəraitin təmin edilməsi* ideyası olmuşdur. Lakin Azərbaycanın hövzədə Qərb şirkətləri ilə transmilli neft-qaz layihələrinin həyata keçirilməsinə başlaması və müstəqil, alternativ ixrac marşrutlarının yaradılması istiqamətində fərqli mövqe nümayiş etdirməsi ilk gündən Rusiyanın ciddi müqaviməti ilə üzləşmişdi. Rusiyanın bəzi xarici və daxili siyasət

[325] İran əvvəlcə prinsipcə Azərbaycanın irəli sürdüyü yeni kəmərlər ideyasını dəstəkləsə də, sonradan ixrac marşurutlarının onun ərazisindən yan keçəcəyini yəqin edəndən sonra, onlara mane olmaq yolunu tutdu.

XƏZƏR HÖVZƏSİ VƏ CƏNUBİ QAFQAZIN ENERJİ ISTEHSALI VƏ İXRACI



Xəritə27.

strukturları, rəsmi və qeyri rəsmi dairələri bir-birinin ardınca müxtəlif anti-Azərbaycan bəyanatları səsləndirməyə başlamışdılar. Həmin dövrdə məhz Azərbaycan tərəfinin ciddi səyi və bəzi güzəştlərə getməsi nəticəsində Rusiyanın barışmaz mövqeyini bir qədər yumşaltmaq mümkün oldu. Bu ölkənin neft ixracı və tranzit maraqlarını təmin etmək məqsədi ilə, *1997-ci ildə "Bakı-Novorossiysk kəmərinin yenidən istifadəsi" ilə bağlı Rusiya Azərbaycan Birgə Şazişi bağlandı.* Bakı-Novorossiysk kəməri o dövrdə Azərbaycana qətiyyən lazım deyildi və onun tranzit şərtləri heç bir xarici tərəfdaş dövləti qane etmirdi. Azərbaycanın Rusiya ilə neft ixracına dair bağladığı bu müqavilə sadəcə olaraq Xəzərdə həyata keçirilən transmilli layihələr ətrafında konsensus yaratmaq, bölgədəki bir qədər gərgin dövlətlərarası münasibətləri yumşaltmaq və tərəfdaşlıq istiqa-

mətinə yönəltmək istəyindən irəli gəlirdi. Bakı-Novorossiysk kəməri o illərdə Azərbaycan və onun tərəfdaşları üçün nə iqtisadi, nə də ki, geosiyasi cəhətdən sərfəli deyildi. Bu kəmərin həm tranzit xərcləri çox yüksək idi, həm Azərbaycanın təmiz və bahalı nefti Novorossiyskdə Qazaxıstanın Tengiz yataqlarından daxil olan ucuz və kükürdlü neftlə qarışdırılaraq keyfiyyətdən salınırdı, həm də ki, Rusiya ərazisi ilə gələcəkdə əsas neftin ixracı ideyası Azərbaycana yaxşı heç bir geosiyasi dividend vəd etmirdi, əksinə, ölkə üzərində daimi geosiyasi təzyiq mexanizmi yaradırdı.

Mütəxəssislər hesab edir ki, əslində Rusiya 90-cı illərin sonunda Azərbaycanın dünyanın aparıcı dövlət və neft şirkətləri ilə Xəzər hövzəsində reallaşdırdığı transmilli layihələrə və yeni neft-qaz kəmərləri ideyasına dünya səviyyəsinə ciddi maneçilik göstərmək iqtidarında da deyildi. Həmin dövrdə xüsusi beynəlxalq dəstək qazanan Azərbaycana qarşı çox ciddi təzyiqlər göstərmək də çətin idi. Sadəcə olaraq, Rusiyanın bəzi dairələri Bakı-Novorossiysk kəməri ilə bağlı Azərbaycanın üzərinə heç olmasa bəzi öhdəliklər yükləmək istiqamətində çalışırdı. Məhz elə bu məqsədlə Rusiya 1997-ci ildə təkidlə tələb edirdi ki, Azərbaycan öz neftinin heç olmasa bir hissəsini (təxminən ildə 10 milyon tondan söhbət gedirdi- Ə.H), rus tərəfinin müəyyən etdiyi tariflə, on beş illik məcburi öhdəlik götürməklə Novorossiysk marşrutu ilə dünya bazarlarına çıxarmaq öhdəliyi götürsün. Əlbəttə, Azərbaycan bu şərtləri qəbul edib, öz geosiyasi maraqlarını bu qədər asanlıqla güzəştə gedə bilməzdi. Çünki o zaman üçün nə Rusiyanın müəyyən etdiyi tarif qətiyyən sərfəli deyildi, nə də ki, Azərbaycanın Novorossiysk kəməri ilə ixrac edəcəyi əlavə neft yox idi. Lakin, Azərbaycan tərəfi bütün əsas amilləri və mövcud şəraiti nəzərə alaraq, Rusiya ilə kompromis xarakterli bir saziş imzalamağa razılıq verdi. Sazişdə, Rusiyanın təkidlə tələb etdiyi "ixrac ediləcək neftin miqdarı və 15 illik müddət" formulunu, dəyişdirərək "il-

lik 5 milyon tona qədər olmaqla və uzunmüddətli istifadə" ifdadəsi ilə əvəz etdi. Beləliklə, bəzi Orta Asiya dövlətlərindən fərqli olaraq Azərbaycan Rusiya ilə gərginləşən geosiyasi münasibətlərini, onun qarşısında hər hansı ciddi və konkret öhdəlik götürmədən və öz "əl-qolunu bağlamadan" yoluna qoya bildi.[326]

Bakı-Novorossiysk marşrutunun əsas mənfi cəhəti yuxarıda qeyd etdiyimiz amillərlə yanaşı, həm də keçdiyi Şimali Qafqaz ərazilərinin kriminallaşması və qeyri-sabitliyi, Rusiyanın özünün o dövrdə tərəfdaş kimi etibarsızlığı, Qara dənizin İstanbul boğazlarının buraxılış gücünün zəifliyi və ixrac imkanlarını məhdudluğu və s. ilə də bağlı idi. Bu günün özündə də bu kəmərin təhlükəsizliyinə və davamlı fəaliyyətinə heç kim, hətta Rusiyanın özü belə qarantiya verə bilmir. 1977-ci il müqaviləsinə görə, Rusiya hər ton Azərbaycan neftinin bu marşrutla Novorosiyskə qədər tranziti üçün 15,67 ABŞ dolları tranzit haqqı alır.[327]

Bundan başqa neftin gəmi ilə Aralıq dənizinə daşınmasının da haqqını (təxminən hər tona 4 ABŞ dolları) əlavə etsək (həmin dövrdə neftin dünya bazarlarındakı qiymətləri 30 ABŞ dollarından aşağı idi), o zaman bu marşrutun nə qədər bahalı və səmərəsiz olduğunu aydın görmək olar.

Beləliklə, göründüyü kimi Xəzər hövzəsində dövlətlərarası konsensus yaratmaq və Rusiyanın yeni ixrac kəmərləri ilə bağlı nümayiş etdirdiyi narazılığı yumşaltmaq üçün, Azərbaycan öz ilkin neftini heç bir iqtisadi meyara cavab verməyən Rusiya marşrutu ilə - ixrac etməyə razılıq verir. Xəzər dənizinin Azərbaycan sektorunda istehsal olunan neftin Qara dənizə çıxarılmasını təmin edən ilk dövlətlərarası transmilli kəmər də

[326] Bax: "Независимая газета", 2004, 10 февраля.
[327] Bax: Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона...с.112.

məhz Bakı-Tbilisi-Ceyhan deyil, Bakı-Novorossiysk xətti olur.[328] SSRİ dağılandan və Rusiya xam neftinin emal üçün Azərbaycanın neftayırma zavodlarına göndərilməsi dayandırılandan sonra, qarşılıqlı razılaşma əsasında ilk dəfə Bakı-Novorossiysk kəmərindən geriyə - Bakıdan Novorossiyskə Azərbaycanın xam neftinin çıxarılması və oradan da tankerlər vasitəsi ilə dünya bazarlarına daşınması məqsədi ilə istifadə edilməyə başlanır. Əslində həmin illərdə bu kəmər *Gürcüstanın Qara dəniz limanlarına dəmir yolu vasitəsi ilə neft daşıması* istisna olmaqla, həm də Azərbaycanın neftinin xarici bazarlara çıxarılması üçün yeganə çıxış yolu idi. O dövrdə Azərbaycanın xaricə satılası neft məhsulunun cüzi miqdarda olmasını nəzərə alsaq, Rusiyanın bu kəmərin tranzitindən gələn cüzi gəlirə o qədər ciddi marağı da yox idi. Lakin buna baxmayaraq, Rusiya Azərbaycandan xaricə neft çıxarması üçün dünya standartlarından xeyli yüksək- hər ton üçün 15,67 ABŞ dolları tranzit haqqı alırdı. Mütəxəssislərin fikrinə görə, Rusiyanı o dövrdə Azərbaycan neftindən əldə edəcəyi tranzit haqqı deyil, daha çox "müstəqil xarici və enerji siyasəti yürütməyə cəhd edən bir ölkəyə qarşı" dünya bazarlarına yeganə çıxış olan Novorossiysk ixrac kəmərindən geosiyasi təzyiq vasitəsi kimi istifadə etmək imkanı düşündürürdü. Rusiya bu kəmər vasitəsi ilə istədiyi vaxt Azərbaycanın xaricə neft ixracını dayandıra və özündən asılı vəziyyətə sala bilirdi.

[328] Bakı-Novorossiysk kəməri SSRİ zamanında tikilmiş və əsasən Rusiya neftinin Azərbaycanın neftayırma zavodlarına daşınması və emal olunmuş hazır neft məhsullarının digər Zaqafqaziya respublikalarına, Şimali Qafqaza və İrana göndərilməsi məqsədilə istifadə edilirdi. Kəmərin ümumi uzunluğu 1535 kilometrdir ki, bunun 1300 km. Rusiya ərazisindən (270-i Dağıstan, 150-si Çeçenistan, 18-i İnquşetiya), qalan 235 km. isə Azərbaycan ərazisindən keçir. llik buraxılış gücü 18 milyon tona hesablansa da, bu kəmərin maksimum burxılış gücü 10 mln. tondur.

Novorossiysk marşrutunun bir sıra digər çatışmazlıqları da var idi ki, yeni şəraitdə onun istismarı Azərbaycan üçün qətiyyən sərfəli deyildi. Rusiya tərəfindən müstəqil Azərbaycanın geoiqtisadi maraqları üçün xüsusi təzyiq mexanizmi kimi istifadə edilməsi, yüksək ixrac rüsumu və nəqliyyat tariflərinə cəlb edilməsi, məhdud ötürücülük qabiliyyəti, Novorossiysk limanında bahalı Azərbaycan neftinin ucuz Sibir və Qazaxıstan nefti ilə qarışdırılması və s. bu kəmərin Azərbaycanın geoiqtisadi mənafeləri üçün ən ciddi qüsuru idi. Lakin artıq qeyd olunduğu kimi, Xəzər bölgəsində reallaşdırdığı yeni transmilli enerji siyasəti nəticəsində Rusiya ilə yaranmış bir qədər gərgin geoiqtisadi münasibətləri yumşaltmaq və kompromis xarakterli əməkdaşlıq mühiti yaratmaq məqsədi ilə, Azərbaycan öz iqtisadi marağına zidd olsa belə, xam neftinin bir qisminin bu kəmərlə nəqlinə razılıq verdi. Bununla bağlı 1997-ci il fevralın 16-da Bakıda Azərbaycan hökuməti, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) rəhbərliyi və Azərbaycan Dövlət Neft Şirkəti (ADNŞ) ilə Rusiyanın "Transneft" şirkəti arasında Bakı-Novorossiysk kəməri ilə neft ixracına dair tərəflərin öhdəliklərini konkretləşdirən bir sıra sazişlər imzalandı. Həmin sənədlər arasında "Azərbaycandan çıxarılacaq ilkin neftin Rusiya ərazisi vasitəsi ilə nəqli haqqında" Saziş və "Qarşılıqlı anlaşma haqqında" Memorandum da var idi.[329]

Azərbaycanın transmilli kəmər və dəhliz siyasətinə həmin dövrdə ABŞ və Avropa Birliyi ölkələri, Türkiyə və b. dövlətlər də dəstək verir ki, bu da bəhs olunan layihələrə mane olmaq istəyən qüvvələri, Rusiyanı, İranı və b. region ölkələrini bitərəfləşdirə bilir. 1997-ci il noyabrın 12-də Azərbaycanın pay-

329 Razılaşmaya əsasən Azərbaycan nefti Bakıdan başlayaraq Çeçenistanın Qroznı şəhərindən keçməklə, Rusiya ərazisi ilə Qara dənizə tərəf uzanan Bakı-Mahaçqala-Qroznı xətti ilə birləşib, Rusiyanın Novorossiysk limanına gedib çıxmalı idi. Kəmərin ümumi uzunluğu "Çıraq" platformasından Sənqəçal terminalı və Novorossiysk limanına qədər 1800 km-ə bərabər idi.

taxtı Bakı şəhərində Xəzər dənizindən Azərbaycan neftinin çıxarılması və nəqli münasibəti ilə təntənəli mərasim keçirildi. Həmin gün Xəzər dənizinin təkindən "Əsrin müqaviləsi" çərçivəsində istehsal olunan ilkin Azərbaycan nefti Bakı- Novorossiysk kəməri vasitəsi ilə dünya bazarlarına axıdılmağa başlandı. Bu, müstəqil Azərbaycan Respublikasının neft siyasətinin mühüm qələbəsi idi. Bakı-Novorossiysk boru kəmərinin işə düşməsi Rusiya-Azərbaycan münasibətlərinə müsbət təsir etdi və iki dövlət arasındakı ənənəvi dostluq və əməkdaşlığın qorunub saxlanmasına, Rusiyanın Azərbaycan neftindən gəlir götürməklə öz geoiqtisadi mənafelərini qismən təmin etməsinə şərait yaratdı.

Xəzərin Qərb hövzəsinin əsas neft ehtiyatlarını Azərbaycan hasil edir. Azərbaycan neftinin fərqli marşrutlarla dünya bazarlarına çıxarılması istiqamətində istifadə edilən ikinci əsas kəmər *Qərb İxrac kəməri adlandırılan- Bakı-Supsa marşrutudur.* Bu kəmər Azərbaycanın ilkin neftinin Gürcüstanın Qara dəniz limanlarına nəql olunmasını hədəfləyən və Bakı-Novorossiysk kəmərinə alternativ hesab olunan marşrutdur. [330]

İllik buraxılış gücü maksimum 10 mln. ton, uzunluğu təxminən 900 km. dəyəri 565 milyon ABŞ dolları olan Bakı-Supsa kəməri Avropa Birliyinin Trans-Avrasiya (TRASEKA) "İpək yolu layihəsi" nin Azərbaycan və Gürcüstanı birləşdirən ilk geoiqtisadi transmilli layihəsi hesab olunur. Kəmərlə hazırda əsasən Qazaxıstan və bir qədər də Azərbaycan nefti

[330] Kəmər SSRİ vaxtında tikilmiş və Azərbaycanı neft məhsullarının Cənubi Qafqaz və Qara dəniz ətrafı SSRİ respublikalarına çıxarılması məqsədilə istifadə edilmişdir. Sonrakı dövrdə bəzi səbəblərdən bu kəmərin fəaliyyəti dayandırılmış və demək olar ki, istifadəsiz vəziyyətə salınmışdır. Müstəqillik illərində, xüsusən 1994-cü ildən bu kəmərə yenidən ehtiyac yarandı və Azərbaycanın təşəbbüsü ilə ilkin neftin ixracını reallaşdırmaq məqsədilə onun yenidən qurulmasına başlanıldı. Kəmər bir neçə il müddətinə tam restavrasiya olunaraq işə salındı.

Gürcüstanın Qara dəniz limanı olan Supsaya, oradan da tankerlərlə Türkiyə, Ukrayna və Şərqi Avropa bazarlarına- Frakiya (Türkiyə), Burqas (Bolqarıstan) Odessa (Ukrayna) və s. daşınır. Son zamanlar kəmərin davamı kimi Qara dənizin dibi ilə Ukraynaya, Rumıniya və Bolqaristana yeni ixrac kəmərinin çəkilməsi ətrafında danışıqlar aparılır.

Azərbaycan Bakı-Supsa neft kəmərini yenidən bərpa edərək istismara buraxmaqla öz neft ixracını müəyyən mənada Rusiyanın geosiyasi təsir dairəsindən xilas etdi və "Əsrin müqaviləsi" çərçivəsində istehsal ediləcək əsas neftin hasilatına qədər öz ilkin neftini bu kəmər vasitəsi ilə ixrac etmək imkanı qazandı.

Bakı-Supsa xəttinin geosiyasi nəticələrindən bir də Gürcüstanın və Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə, Gürcüstanla Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq münasibətlərinin yaranması və inkişaf etdirilməsinə imkan yaratması oldu. Azərbaycanın strateji enerji daşıyıcılarının dünya bazarına etibarlı ixracını təmin edən və Xəzər hövzəsinin geosiyasi vəziyyətini, dünyanın enerji siyasətini büsbütün dəyişən əsas marşrut isə, "Əsrin müqaviləsi" çərçivəsində planlaşdırılan, 1999-cu ildə tikintisinə beynəlxalq sanksiya verilən və 2005-ci ildə istismara verilən Bakı-Tbilisi-Ceyhanın (BTC) əsas neft ixracı kəməri oldu. Xəzər hövzəsinin, xüsusən də dənizin Azərbaycan sektorundakı əsas neft məhsullarının dünya bazarlarına çıxarılması məqsədi ilə tikilən bu böyük transmilli neft kəmərinin əsas təşəbbüskarı, 1994-cü ildə dünyanın ən qabaqcıl neft şirkətləri ilə Xəzərin Azərbaycan sektorunda birgə neft və qaz çıxarılması ilə bağlı "Əsrin müqaviləsi adlanan neft kontraktları imzalayan Azərbaycan olmuş, sonrakı dövrdə onu ABŞ, Türkiyə, Qazaxıstan, Gürcüstan, Avropa Birliyi ölkələri dəstəkləmiş və çox ciddi səylərin nəticəsi olaraq onun tikintisinə beynəlxalq sanksiya verilmişdir.

BTC-nin çəkilişi başa çatana qədər onun ətrafında qızğın geosiyasi və geoiqtisadi diskussiyalar və dövlətlərarası danışıqlar aparılmışdır. Yeni kəmərin ideyası ortaya çıxandan sonra onun keçəcəyi marşrutlarla (marşrutun əhatə edəcəyi ölkələrin əraziləri) bağlı bir çox layihələr və ideyalar irəli sürülmüş, lakin əsas iqtisadi, geosiyasi və geostrateji göstəricilər və amillərə görə Bakı-Tbilisi-Ceyhan layihəsi seçilmişdir.

BTC ideyası ilk dəfə 1993-cü ildə Azərbaycan və Türkiyə arasında bağlanmış dövlətlərarası müqavilə ilə rəsmi şəkildə irəli sürülmüşdür. Təxminən, ildə 50 mln. ton buraxılış gücünə hesablanmış, 1920 km. ümumi uzunluğu olan bu kəmərin sonrakı dəstəklənməsi 1998-ci ildə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin Türkiyənin Samsun şəhərində imzaladıqları birgə bəyanatda öz əksini tapmışdır. Bunun ardınca 1998-ci ilin oktyabrında Azərbaycan, Türkiyə. Qazaxıstan, Gürcüstan, Özbəkistan prezidentləri və ABŞ-ın enerji naziri bu kəmərin dəstəklənməsi ilə bağlı növbəti sənədə - "Ankara deklarasiyası"na imza qoyurlar. Nəhayət, 1999-cu ildə - ATƏT-in İstanbul Sammitində BTC-nin çəkilişinin başlanması haqqında Azərbaycan, Türkiyə, Gürcüstan və ABŞ prezidentlərinin yuxarıda bəhs olunan hökumətlərarası sazişi imzalaması ilə bu ideyanın reallaşmasına beynəlxalq sanksiya verilir.

BTC-nin inşası Orta Asiya və Xəzər hövzəsinin, Cənubi Qafqazın və bütövlükdə Avrasiya bölgəsinin geosiyasi və geoiqtisadi vəziyyətini ciddi şəkildə dəyişdi, regionun neft məhsullarını, Qərbinsə enerji ehtiyaclarının ödənilməsini və təhlükəsiz təminatını qismən də olsa rusların geosiyasi təsirindən və asılılığından xilas etdi.

Azərbaycan illərdən bəri öz neftini və qazını xarici bazarlara sərbəst çıxarmaq arzusu ilə yaşayırdı. BTC bu arzunu, əsasən, təmin etdi və bu ölkənin gələcək geosiyasi, geoiqtisadi və geostrateji inkişafını Rusiyanın təsirindən azad etdi.

BTC Azərbaycanla yanaşı, Gürcüstanın və Türkiyənin də gələcək geosiyasi və strateji inkişafında çox mühüm rol oynadı. Kəmərlər ideyasına beynəlxalq sanksiya verilməsi və bu ölkələrin marşrut üzrə "əsas tranzit dövlət" seçilməsi, nəinki təkcə onların enerji təhlükəsizliyinə ciddi təsir göstərmiş, həmçinin daxili siyasi və iqtisadi həyatlarını yaxşılaşdırmış, onlara ciddi iqtisadi, siyasi dividentlər və beynəlxalq önəm qazandırmışdır. BTC, xüsusən, Gürcüstanı ciddi iqtisadi və daxili ictimai-siyasi böhrandan xilas etmiş, bu ölkəyə dünyada "etibarlı partnyor" imici qazandırmış və onun milli inkişafı ilə bağlı bütün bədbin proqnozları aradan qaldırmış, ölkənin gələcək geosiyasi və geoiqtisadi inkişafına dair aydın, real və nikbin ictimai ovqat yaratmışdır.

BTC həm də neçə illərdir ki, Azərbaycan kimi Rusiyanın geosiyasi təzyiqləri ilə üzləşən, öz neftinin ixrac taleyini bütövlükdə bu ölkənin iradəsindən asılı vəziyyətə salan Qazaxıstan və Türkmənistan üçün də alternativ ixrac imkanları yaratdı. BTC-nin fəaliyyətə başlamasından sonra bu ölkələrin rəsmi dairələri ciddi geoiqtisadi mexanizm əldə edərək, Rusiya qarşısında getdikcə daha cəsarətli davranış nümayiş etdirməyə başlayır.

Əsas ixrac kəmərinin aktuallığı ilk növbədə onun Rusiya marşrutuna alternativliyi, geosiyasi müstəqilliyi və heç bir kənar təsirdən asılı olmamasında idi. Bundan başqa, həm Bakı-Novorossiysk, həm də Bakı-Supsa kəmərlərinin buraxılış gücünün nə Azərbaycanın getdikcə artan ehtiyaclarını, nə də ki, gələcəkdə Orta Asiya ölkələrindən ixrac olunan neftin daşınmasını təmin edə bilməyəcəyi də bütün mütəxəssislərə məlum idi. Beləliklə, göründüyü kimi BTC-nin işə düşməsi və Xəzər hövzəsi ölkələrinin dünya enerji bazarlarına müstəqil bir aktor kimi ayaq açması həm bölgənin geoiqtisadi durumunu, yerli ölkələrin milli maraq dairəsini və ona uyğun da geosiyasi dav-

ranışını, həm də Avropa enerji təhlükəsizliyinin geosiyasi xarakteristikasını ciddi şəkildə dəyişdi.

BTC istifadəyə veriləndən sonra, Rusiyanın geosiyasət tədqiqatçıları A. Duqin və başqaları yazırdı ki, bəs Rusiya Xəzərlə Qara dəniz arasındakı çox əhəmiyyətli "geosiyasi açar məkanı" Türkiyəyə və Qərbə uduzaraq, dünyanın yeni enerji geosiyasətində oyundankənar vəziyyətdə qaldı. Guya bundan sonra nə Rusiya, nə də ki, İran bu bölgəyə bir daha daxil ola bilməyəcəklər... və ABŞ-la Türkiyənin hegemonluğu altında yeni bir "Qafqaz dövləti", yaxud "Qafqaz dövlətləri Birliyi" adlanan geosiyasi reallıq yaranacaqdır ki, İran və Rusiya bu birlikdən kənarda qalacaq".[331]

BTC və Bakı-Supsa marşrutu ilə yanaşı, hazırda istehsalı günü-gündən genişlənən Xəzər hövzəsinin neft məhsullarının Gürcüstanın Batumi, Qulevi və b. limanlarına çatdırılması məqsədilə *Bakı-Gürcüstan dəmir yolu marşurutunun* imkanlarından da geniş istifadə olunur. Bu marşrutla ildə orta hesabla 5-10 milyon ton neft ixrac olunur. Mütəxəssislər hövzənin zəngin neftinin Avropa və Cənub-Şərqi Asiya bazarlarına maneəsiz ixracını təmin etmək məqsədi ilə, qarşıdan gələn illərdə fəaliyyətdə olan *Bakı-Supsa neft kəmərinin genişləndirilməsi və Odessa-Brodı-Avropa, yaxud da Konstanta-Rumıniya-Avropa marşrutu ilə Avropaya çatdırılması* ideyasını geniş müzakirə edirlər.

Bakı-Tbilisi-Ceyhan və digər alternativ neft-qaz ixracı marşrutlarının reallaşması Azərbaycan və Qərb ölkələri üçün o qədər də asan başa gəlmədi. Bakı-Novorossiysk və Bakı-Supsa layihələrindən fərqli olaraq, bu kəmərin inşası regionun iki aparıcı geosiyasi gücü – Rusiya və İranın ciddi, açıq və dolayı müqaviməti ilə üzləşdi. İran kəmərin marşrutu ilə bağlı əsasən

[331] Bax: Дугин А.Г. Основы геополитки. Геополитическое будущее России, Москва, 2000, с.811.

öz ərazisinin istifadə edilməsini təklif etdiyi halda, Rusiya ümumilikdə Xəzər dənizindən hər hansı alternativ layihənin gerçəkləşməsinə bütün gücü ilə, xüsusən də Xəzərin statusunu qabartmaqla mane olmağa çalışırdı.

Azərbaycanın əsas neftinin xarici bazarlara tam təhlükəsiz və etibarlı yolla nəql edilməsi kimi ciddi geoiqtisadi və geostrateji məsələdə qətiyyət və prinsipiallıq nümayiş etdirən Prezident Heydər Əliyev mütəxəssislərin fikrinə görə, o zaman ən optimal variantı seçdi. Bundan başqa, o, regionun geosiyasi mənzərəsini və mövcud beynəlxalq münasibətlər sistemini nəzərə alaraq, əsas kəmərin keçəcəyi ölkələrin müəyyənləşməsi prosesində ən etibarl tərəfdaşların - Gürcüstan və Türkiyənin üzərində dayandı.

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə toplantısı gedişində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl tərəfindən "Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac bou kəməri vasitəsi ilə nəql edilməsinə dair saziş" imzaladılar. Eyni vaxtda, Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və ABŞ prezidentləri bu layihəni dəstəkləyən İstanbul bəyannaməsini imzaladı. 1999-cu il noyabrın 18-də İstanbulda keçirilmiş ATƏT-in Zirvə görüşü çərçivəsində "Bakı-Tbilisi-Ceyhan» Əsas ixrac boru kəməri vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən Xəzər dənizindən çıxarılan əsas xam neftin nəqli haqqında" Sazişin ABŞ Prezidenti Bill Klintonun iştirakı ilə Azərbaycan Prezidenti Heydər Əliyev, Türkiyə Prezidenti Süleyman Dəmirəl və Gürcüstan Prezidenti Eduard Şevardnadze tərəfindən imzalanması region ölkələrinin strateji əməkdaşlığı və Avropaya inteqrasiyası sahəsində ciddi addım idi.

Bütün çətinliklər və problemlərə baxmayaraq, 2002-ci il sentyabrın 18-də Azərbaycan, Türkiyə və Gürcüstan prezident-

lərinin iştirakı ilə dünyanın ən böyük enerji layihəsi olan BTC-nin əsası qoyuldu. 4 ildən sonra – 2006-cı il iyulun 13-də kəmər istifadəyə verildi. Uzunluğu 1760 km, buraxılış gücü ildə 50 milyon ton olan bu kəmərin tikintisi təqribən 2,95 milyard dollara başa gəlir.

Beləliklə, Azərbaycan Respublikası ilə bərabər Xəzər regionunda digər dövlətlərin də yaxından iştirakı ilə həyata keçirilən qlobal enerji ixracı layihəsi bir çox Qərb dövlətlərinin, xüsusən, ABŞ-ın yaxın dəstəyi ilə reallaşdı. Bununla da, bölgədə təkcə Azərbaycanın deyil, ümumilikdə regionun və Avropa məkanının enerji təhlükəsizliyinə xidmət edən geostrateji bir layihə əfsanədən gerçəkliyə çevrildi.

Qeyd edək ki, BTC-nin istismar müddəti 40 il nəzərdə tutulub ki, bunun sonuncu 15 ili yalnız Azərbaycanın tam mülkiyyəti kimi istifadə ediləcəkdir.

2007-ci il iyunun 16-da BTC layihəsinə rəsmən Qazaxıstan da qoşuldu. Həmin gün Almatıda Qazaxıstan və Azərbaycan prezidentləri Qazaxıstan neftinin Xəzər dənizi və Azərbaycan ərazisindən keçməklə Bakı-Tbilisi-Ceyhan vasitəsi ilə dünya bazarlarına çıxmasına dəstək və yardım barədə saziş imzaladılar. Bu razılaşma Qazaxıstan neftinin BTC ilə nəql olunması məqsədi ilə Aktau-Bakı daşıma sisteminin yaradılmasını nəzərdə tutur. Bundan başqa, 2010-cu ildən Türkmənistan da Xəzərdə istehsal etməyə başladığı neft məhsullarını BTC vasitəsilə Ceyhana ixrac etmək imkanları üzərində işləməyə başlayıb və hazırda bu kəmərlə müəyyən qədər neft ixracı həyata keçirir.

Qeyd edək ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri bilavasitə həm layihənin iştirakçısı olan dövlətlərin iqtisadi maraqlarını təmin edir, həm də müasir dünyanın son dərəcə aktual geoiqtisadi və geosiyasi məsələsi olan enerji təhlükəsizliyi probleminin həlli baxımından geniş imkanlar açır.

Məlum olduğu kimi, Qərb dövlətləri Xəzər hövzəsinin zəngin karbohidrogen yataqlarına sərbəst çıxış imkanı əldə

etmək və özlərinin neft və təbii qaza artan tələbatını bu bölgənin alternativ imkanları vasitəsilə həll etmək, dünyada movcud olan birqütblü enerji asılılığından azad olmaq istiqamətində son illərdə xüsusi fəallıq nümayiş etdirirlər. Qeyd etmək lazımdır ki, Azərbaycanın yeni neft siyasətinin Qərbin yanacaq təhlükəsizliyi geoiqtisadiyyatı ilə üst-üstə düşməsi və bu sahədə prezident Heydər Əliyevin qətiyyəti, prinsipiallığı və uzaqgörənliyinin hər iki tərəfin maraqlarına cavab verməsi Azərbaycanın enerji sahəsində bu ölkələrlə geostrateji tərəfdaşlığını şərtləndirmişdir. Bu amil Azərbaycanın Cənubi Qafqazdakı strateji mövqeyini və nüfuzunu da artırmış və respublikanın Avroatlantik məkanına inteqrasiyası üçün geniş şərait yaratmışdır.

Azərbaycanın yeni neft strategiyasına uyğun olaraq reallaşdırdığı transmilli neft-qaz ixracı marşurutları və kəmərlər siyasətinin mühüm bir hissəsini *Xəzərin ölkəmizə aid sektorundakı "Şahdəniz" yatağında təsdiqlənmş 2,6 trilyon kub metr təbii qazın istehsalı və sərbəst şəkildə dünya bazarlarına çıxarılması siyasəti təşkil edir.* Hazırda Xəzər hövzəsinin, xüsusən də Azərbaycan və Türkmənistanın zəngin qaz ehtiyatlarının Rusiya, Norveç və Şimali Amerikadan nəql edilən təbii qazla yanaşı alternativ olaraq Avropaya ixracı məsələsi dünyanın geosiyasi və geoiqtisadi gündəmini məşgul edən ən mühüm transmilli layihələrdən biridir. Odur ki, Xəzər hövzəsinin qaz ehtiyatlarını Avropa bazarları ilə birləşdirən və çəkilməsi layihələndirilən transmilli qaz kəmərlərinin hər biri əsas parametrlərinə və geoiqtisadi əhəmiyyətinə görə Bakı-Tbilisi-Ceyhan kimi əsas neft kəmərləri ilə müqayisə oluna bilər.

Xəzər hövzəsindən Avropaya alternativ qaz ixracı kəmərinin də əsas təşəbbüskarı və ilk reallaşdıranı məhz Azərbaycan olmuşdur. Bu istiqamətdə reallaşdırılan ilk layihə, hazırda tam gücü ilə istismar olunan və regionun birinci ən böyük transmilli qaz ixracı kəməri hesab olunan *Bakı-Tbilisi-Ərzurum (BTƏ)* qaz kəmərıdir. Bu kəmər olduqca strateji əhəmiyyətli

bir layihə olmaqla bərabər, həm də dünya ölkələrinə gələcək strateji qaz ixracı kəmərlərinin yeni-yeni alternativ marşurutlarını müəyyən etməyə imkan yaratmışdır. Bu gün Avropanın Rusiyadan öz təbii qaz asılılığını azaltma taktikası və Xəzərin Azərbaycan-Türkmənistan sektorunada aşkarlanan yeni-yeni zəngin qaz yataqları fonunda BTƏ kimi ixrac kəmərlərinin aktuallığı və əhəmiyyəti getdikcə daha da artır.

BTƏ qaz kəmərinin ilkin ideyası "Şahdəniz" yatağından istehsal olunan Azərbaycan qazının Gürcüstan və Türkiyəyə, oradan da Avropa bazarlarına nəqlindən ibarət idi. Kəmərin uzunluğu 690 kilometrdir. Onun 442 km Azərbaycan, 248 km isə Gürcüstan ərazisinə düşür. İlkin ötürmə qabiliyyəti ildə 7-8 mlrd, modernləşdirmədən sonrakı maksimal ötürücülük imkanı isə 20 mlrd kub.metr olan bu kəmər 2006-cı ildə istismara verilib. Artıq 2007-ci ilin sonundan BTƏ kəməri ilə ötürülən Azərbaycan qazı Gürcüstan və Türkiyə ilə yanaşı, həm də Türkiyə-İtaliya qaz sisteminin birləşməsi nəticəsində İtaliyaya ötürülməyə başlanıb.

Bakı-Tbilisi-Ərzurum qaz kəməri Azərbaycanın 1994-cü ildən başlayaraq həyata keçirdiyi çoxvariantlı transmilli neft-qaz ixracı və yeni kəmər siyasətinin mühüm tərkib hissəsidir. Bu kəmər Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geosiyasi, geoiqtisadi vəziyyətini Azərbaycanın xeyrinə bir qədər də dəyişib. Hazırda, Türkiyə, Gürcüstan və Azərbaycan dünya enerji şəbəkələrinin mərkəzləşmiş sisteminə daxil olaraq, onun həlledici vəsiləsinə cevrilib. BTƏ-nin mövcudluğu həm də Şərq-Qərb enerji dəhlizinin əhəmiyyətini xeyli artırıb.

Amma təbii ki, onilliklər boyu regionun enerji ehtiyatlarına nəzarət etmiş Rusiya BTC-nin inşası zamanı olduğu kimi, Xəzər hövzəsini Qərbin qaz istehlakçıları ilə birləşdirən BTƏ kimi alternativ qaz xəttlərinin inşasına da olduqca qısqanclıqla yanaşmışdır. Mütəxəssislərin fikrinə görə, Rusiya bununla həm xarici bazarlara sərbəst çıxışı olmayan Xəzərboyu ölkələrin

təbii qazını əvvəlki ucuz qiymətlərlə almaq üstünlüyünü, həm də lazım gələndə bu faktordan təzyiq vasitəsi kimi istifadə etmək imkanlarını itirməkdən qorxurdu. BTƏ Rusiyanın qaz istehsalçılarını Avropa bazarındakı əvvəlki inhisarçı mövqelərindən qismən məhrum etməli idi. Rusiya əvvəlki illərdə və indinin özündə də öz inhisarçı mövqeyindən istifadə edərək Xəzər regionunda istehsal olunan təbii qazı bazar qiymətlərindən ucuz qiymətə alaraq, Avropa bazarlarında və MDB məkanında daha baha qiymətlərə satır. Təkcə bunu qeyd etmək kifayətdir ki, 2003-cü ildə Rusiya və Türkmənistan arasında demək olar ki, bütün türkmən qazının 2009-cu ilədək Rusiya tərəfindən daxili qiymətlərlə alınması ilə bağlı saziş imzalanmışdır. Eyni sözləri Qazaxıstan və Özbəkistan haqda da söyləmək olar: bu ölkələrin də qaz yataqlarında işləmək hüququ, bəzi məlumatlara görə xarici ölkələrdən yalnız Rusiyaya məxsusdur.

AZƏRBAYCANIN ƏSAS NEFT-QAZ İXRACI KƏMƏRLƏRİNİN BURAXILIŞ GÜCÜ VƏ ÖLKƏLƏR ÜZRƏ UZUNLUĞU



	Bakı-Tbilisi-Ceyhan	Bakı-Tbilisi-Ərzurum	Bakı-Supsa	Bakı-Novorossiysk
Azərbaycan	443 km	442 km	460 km	231 km
Gürcüstan	249 km	248 km	377 km	
Türkiyə	1076 km	280 km		
Rusiya				1252 km
Cəmi	1768 km	970 km	837 km	1483 km
İllik həcmi	50-60 mln.ton	20 mlrd. m^3	6 mln.ton	6 mln.ton

Xəritə 28.

Bakı-Tbilisi-Ərzurum kəmərinin çəkilişi ilə Xəzər hövzəsində başlamış alternativ qaz ixracı siyasəti, regionun zəngin qaz ehtiyatlarının daha sərbəst və əlverişli yollarla Avropa bazarlarına çıxarılması, göründüyü kimi, həm əvvəlki geoiqtisadi və geoisiyasi vəziyyəti xeyli dəyişmiş, neft ixracı sahəsində olduğu kimi, qaz istehsal və ixracı ilə məşğul olan bölgə ölkələrinə qismən də olsa Rusiyanın nəzarətindən kənar ixrac marşrutundan istifadə etmək imkanı yaratmış, həm də Avropanın enerji təhlükəsizliyi məsələsində mühüm rol oynamasını hədəfləyən yeni-yeni kəmərlərin və transmilli layihələrin meydana çıxmasına təkan vermişdir.

2008-ci ilin noyabrında Bakıda keçirilən IV Enerji Sammiti Xəzər hövzəsindən Avropaya alternativ enerji ixracı dəhlizlərinin yaradılmasının bütün dünyanın geosiyasi və geoiqtisadi maraqlarına uyğun olduğunu bir daha nümayiş etdirdi. 21 ölkənin nümayəndələrinin və diplomatların, o cümlədən 6 dövlətin prezidentinin qatıldığı Sammitdə çıxış edən natiqlər birmənalı bəyan etdilər ki, inşası müzakirə olunan Cənub qaz ixracı dəhlizi (o zaman söhbət *"Nabucco"* layihəsindən gedirdi-Ə.H.) Avropanın gələcək enerji təhlükəsizliyinin təmin olunmasında həyati əhəmiyyət daşıyır və Avropa İttifaqı ilə Azərbaycan bu istiqamətdə sıx əməkdaşlıq etməlidir.[332]

Sammitdə Cənub dəhlizi çərçivəsində gələcək trans Asiya-Avropa qaz layihəsinin reallaşmasında Azərbaycanın əsas söz sahibi olduğu bir daha aydınlaşdı. Prezident İlham Əliyev Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən və Avropa ölkələrinin də geoiqtisadi maraqlarına cavab verən transmilli ixrac layihələrinə qiymət verərkən bildirdi ki, Azərbaycanda başlanmış enerji layihələri bu gün dünya ölkələri ilə daha geniş əməkdaşlıq üçün hərtərəfli imkanlar açır. Masa ətrafında Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa, Odessa-

[332] Bax: "Azərbaycan" qəzeti, 15 noyabr 2008-ci il.

Brodı-Plotsk-Qdansk və "Nabucco" layihələrinin iştirakçıları və digər nümayəndələr toplaşıblar. Bu layihələrin hamısı mühümdür və onların bir mənbəyi var - Xəzər dənizi, daha dəqiq desək, Azərbaycan".[333]

Bakı Sammitin yekunlarına dair qəbul olunmuş Birgə Bəyannamədə qeyd edilmişdir ki, Sammit iştirakçıları enerji resurslarının hasilatçı, tranzit və istehlakçı ölkələr arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəmlənməsinə və genişlənməsinə, enerji sahəsində regional investisiya layihələrinin həyata keçirilməsi üçün zəruri əlverişli şərait yaradılmasına tərəfdar olduğunu təsdiq edirlər. [334]

Bəyannamədə Azərbaycanın Xəzər hövzəsindən hasil edilən neftin və qazın dünya və Avropa bazarlarına çatdırılması yollarının şaxələndirilməsinə yönəlmiş siyasətinin dəstəklənməsinin vacibliyi vurğulanmış, iştirakçı dövlətlərin tələbatını daha dolğun təmin etmək məqsədilə Azərbaycan qazının Avropa bazarlarına nəqli və tranziti üçün çoxvariantlı qaz ixracı infrastruktlarının yaradılması layihələri bəyənilmişdir.

Cənub qaz ixracı dəhlizinin reallaşdırılması istiqamətində növbəti mühüm addım 2009-cu ilin yanvarında Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilmiş enerji Sammitində atılmışdır. Bu sammitdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ölkəsinin Avropanın enerji təhlükəsizliyi məsələsində mühüm rol oynadığını, Azərbaycan etibarlı tərəfdaş ölkə olduğunu və öz təbii sərvətlərini Xəzər hövzəsindən Avropaya nəql etdiyini bildirmişdir. Azərbaycanın alternativ qaz ixracı layihələrini həmişə dəstəklədiyini bildirən dövlət başçısı qeyd etmişdir ki, bu dəstək gələcəkdə də davam edəcək: "Bakıda keçirilən Sammitdə Azərbaycan öz mövqeyini ortaya qoymuşdur.

[333] Yenə orada
[334] Yenə orada

Bu layihədə iştirak edən bütün tərəflər əməkdaşlığa hazırdırlar. Bu gün Azərbaycan təkcə tranzit ölkə deyil, həm də enerji mənbələri ilə zəngin olan ölkədir. Layihə çərçivəsində yaxşı tərəfdaşlıq əlaqələrinin yaranacağına əmin olduğunu bildirən Prezident İlham Əliyev vurgulamışdır ki, Azərbaycan Avropa İttifaqına və Avratlantik məkana inteqrasiyaya üstünlük verir və bu siyasət bundan sonra da davam etdiriləcək". [335]

Qeyd edək ki, o zaman hələ Azərbaycanın sonradan irəli sürəcəyi TANAP və TAP layihələri mövcud deyildi. Söhbət dəyəri 8 milyard avro olan və ildə təqribən 26-32 mlrd kubmetr təbii qaz ötürmə qabiliyyətinə malik "Nabucco" kəmərindən gedirdi. Ümumi uzunluğu 3300 kilometr olacaq- (2000 km Türkiyə, 400 km Bolqarıstan, 460 km Rumıniya, 390 km Macarıstan, 46 km isə Avstriya ərazisindən keçəcməklə) bu kəmər Bakı-Tbilisi-Türkiyə-Avstriya marşrutu üzrə Avropa qazpaylayıcı (Baumqarten) məntəqəsinə qədər uzanmalı idi. İxrac olunacaq qaz həcmlərinin böyük bir hissəsi Rusiyadan Qara dənizin dibi ilə Türkiyə və Avropaya qaz ixracını hədəfləyən "Mavi axın" kəməri ilə bərabər Mərkəzi və Qərbi Avropada alternativ qaz təminatı imkanı yaratmalı idi. Bu kəmər vasitəsilə 2015-ci ildən Azərbaycan, sonra Qazaxıstan və Türkmənistan qazının nəqli nəzərdə tutulurdu. Növbəti mərhələdə, 2017-ci ildən sonra bu kəmərlə, həmçinin İran, İraq, Özbəkistan və Misir qazının nəqli də proqnozlaşdırılırdı. (Bax: Xəritə 29)

Mütəxəssislər "Nabucco" layihəsini dünyanın bir çox regionları arasında alternativ transmilli qaz təminatı yaratması baxımından yüksək dəyərləndirirdilər. Layihənin reallaşmamasının əsas səbəbindən danışarkən, mütəxəssislər ilk növbədə, Avropa Birliyi və ABŞ-ın kəmərin inşasının və maliyyələşdi-

[335] Yenə orada, 28 yanvar 2009-cu il.

rilməsinin üzərində israrla dayanmamasını, Xəzər hövzəsinin Türkmənistan və Qazaxıstan kimi ölkələrinin Rusiyanın təzyiqləri altında ona qoşulmaqdan yayınmasını və bu səbəbdən də lazımi qədər ixrac qazı mənbələrinin tapılmamasını, Türkiyənin Azərbaycan qazının bu kəmərlə tranziti ilə bağlı əsassız və şişirdilmiş qiymət təklif etməsini və digər kiçik məsələləri göstərirlər.

"NABUCCO" VƏ "MAVİ AXIN" QAZ İXRACI LAYİHƏLƏRİ



Xəritə 29.

Azərbaycan prezidenti İlham Əliyev 2010-cu ilin fevralında Münhendə keçirilən Dünya Təhlükəsizlik Konfransındakı çıxışı zamanı Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın rolu və Nabucco transmilli qaz layihəsinin perspektivi ilə bağlı bildirmişdir ki, bizim ixrac üçün böyük həcmdə təbii qazımız var və gələcəkdə də olacaq. Azərbaycanda minimal qaz ehtiyatları hazırda *2 trilyon kubmetr* hesab olunur, lakin bu rəqəm *5 trilyon kubmetr* də ola bilər. Bu qədər qaz nəinki bizim özümüzə və regional istehlakçılara, həmçinin Avropa istehlakçılarına ən azı yüz il kifayət edər. Prezident konfransda xüsusi vurğulamışdır ki, Azərbaycan istehlakçılar,

tranzit ölkələr və hasilatçılar arasında sazişlərə aid bütün zəruri məsələlərin həllini və Xəzərdə əlavə olaraq 20 milyard kub-metr qazı hasil etmək məqsədilə, 20 milyard dollar xarici sərmayələrin yeni mərhələsinin başlanmasını gözləyir... Sərmayə qoymazdan əvvəl biz istehlakçılarınızın kim olduğunu, tranzit haqlarını, qazın qiymətini, bazarın bizim üçün etibarlı olub-olmamasını və boru kəmərinin digər hissəsində olan tərəfdaşlarınızın nə dərəcədə ciddi və sadiq olduğunu bilmək istəyirik.[336]

Sonradan "Şahdəniz 2" layihəsinin işlənməsi, onun çərçivəsində faktiki olaraq "Nabucco"-nun alternativi hesab olunan TANAP və TAP kimi layihələrin əsas maliyyə ağırlığını və liderliyini öz üzərinə götürən Azərbaycan dövlətinin milli iradəsi sübut etdi ki, bu tipli transmilli layihələr yalnız ciddi səy və kollektiv dəstəklə reallaşa bilər. Azərbaycan prezidentinin hələ Münhen konfransında bəhs etdiyi ikinci faza üzrə istehsal olunacaq Sahdəniz qazının istehsalı, bölüşdürülməsi və ixracı üzrə tələb olunan qarantiya və əminlik məsələsi dünyanın aparıcı neft-qaz şirkətləri və bir çox Avropa ölkələri ilə həyata keçirilən uzunmüddətli danışıqlardan sonra 2013-cü ilin 17 dekabr tarixində Bakıda imzalanan "Şahdəniz-2" sazişi ilə əldə edildi. Bu layihə çərçivəsində istehsal olunacaq təbii qazın bölüşdürülməsi və ixracı üzrə tərəfdaş ölkələr və şirkətlər özlərinin yekun qərarlarınıı təsdiq etdilər. Mütəxəssislər tərəfindən XXl əsrin layihəsi adlandırılan "Şahdəniz-2" sazişi XXl əsrdə nəinki təkcə Azərbaycanın, o cümlədən Avropa və dünyanın enerji təhlükəsizliyinin təmin edilməsində önəmli rol oynayacaqdır.

"Şahdəniz-2" layihəsi Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsinə xidmət etməklə *Trans-Anadolu və Trans-Adriatik qaz boru kəmərlərinin* tikintisi ilə bağlı planların reallaşmasına təkan

[336] Bax: "Azərbaycan" qəzeti, 07 fevral, 2010-cu il.

verəcək və artıq öz əhəmiyyətini itirmiş Nabucco layihəsinə alternativ olaraq Avropaya yeni qaz dəhlizi açacaq.

Azərbaycan qazının Avropaya nəqli imkanlarını genişləndirən və Şahdəniz 2 layihəsinə yol açan əsas marşurutlardan biri də 2007-ci il noyabrın 18-də istifadəyə verilən *Türkiyə-Yunanıstan qaz kəməri* hesab olunur. Bu marşurutun açılması Azərbaycanla Avropa İttifaqı arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq imkanlarını genişləndirməklə yanaşı, həm də Xəzər hövzəsinin zəngin qaz ehtiyatları tranzitinin yeni istiqamətini yaradıb. Mütəxəssislərin fikrinə görə, bu kəmər Azərbaycan, Türkiyə və Yunanıstan üçün böyük geosiyasi əhəmiyyət daşımaqla bərabər, həm də enerji sahəsində bölgədə yeni transmilli iş birliyinin əsasını qoyur. Düzdür, son bir neçə il Türkiyənin Xəzər dənizi və Azərbaycandan hasil olunan qazın Avropaya ixracına və bu ölkənin özündə satınalma qiymətlərinə tərəfdaşları qane etməyən bitərəfi tarif və qiymət qoyması bu layihənin işə düşməsini bir qədər gecikdirsə də, 2011-ci ildə uzun müddətli ikitərəfli və çoxtərəfli danışıqlardan sonra, nəhayət ki, türk hökuməti öz əsassız mövqelərindən geri çəkilmiş və Azərbaycanla ortaq razılığa gəlmişdir.

Türkiyə-Yunanıstan qaz kəmərinin işə salınması və Şahdəniz 2 layihəsinin imzalanması ilə Avropa İttifaqı ilə Azərbaycan arasındakı qaz ixracı sahəsində birbaşa əməkdaşlıq başlanmışdır. Hazırda Yunanıstan Avropa İttifaqının üzvü olaraq, enerji sahəsində Azərbaycanla birbaşa əməkdaşlıq edir və onun az miqdarda olsa da ixrac qazını alır. 2013-cü ildə Şahdəniz 2 transmilli qaz layihəsi çərçivəsində bu əməkdaşlığa Böyük Britaniya (Britiş Petrolium şirkəri vasitəsilə-Ə.H.), Albaniya, Monteneqro, Xorvatiya və digər Avropa ölkələri də qoşuldu. Çünki bu məsələ enerji təhlükəsizliyinin təminatı baxımından ilk növbədə Avropa dövlətlərin geoiqtisadi maraqlarına cavab verir. Artıq Cənub dəhlizi çərçivəsində çəkiləcək qaz ixracı

kəmərinin Yunanıstandan İtaliya Albaniya, Monteneqro və Xorvatiya sərhədlərinə qədər uzanması barədə sənəd imzalanmışdır.

Şahdəniz 2 layihəsinə birbaşa yol açan və Azərbaycanın transmilli qaz ixracı siyasətinin əsas uğurlu addımlarından biri hesab olunan hadisə isə 2011-ci ildə baş vermişdir. 24 0ktyabr 2011-ci ildə İzmir şəhərində Azərbaycan və Türkiyə hökumətləri arasında uzun müddətdən bəri müzakirə edilən Xəzər hövzəsinin "Şahdəniz" yatağının ikinci faza layihəsi üzrə istehsal olunan və "Abşeron", "Ümid", "Babək", "Naxçıvan" kimi yataqlardan bir neçə il sonra mərhələlərlə, ümumilikdə təxminən illik gücü 50 milyard kub metrə çatacaq Azərbaycan qazının gələcəkdə daha təhlükəsiz, səmərəli və qısa yolla, razılaşdırılmış sərbəst tranzit şərtləri ilə Türkiyəyə və onun ərazisi vasitəsi ilə birbaşa Avropa bazarlarına çıxarılmasını şərtləndirən "Niyyət Protokolu" imzalanmışdır. Protokala görə Azərbaycan qazı: **1.**Türkiyənin mövcud kəmərlərindən, **2.** planlaşdırılan Cənub dəhlizinin imkanlarından, **3.** iki ölkənin birgə təşəbbüsü ilə, yeni yaradılacaq Konsorsium tərəfindən inşa ediləcək digər kəmərlər vasitəsi ilə Avropa bazarlarına ixrac olunacaq.

Bunun ardınca 2012-ci ildə Azərbaycan və Türkiyənin hökumət rəhbərlərinin iştirakı ilə *"Trans Anadolu qaz ixracı haqqında Saziş (TANAP layihəsi)* imzalanmış və iki ölkə arasında Azərbaycan qazının Türkiyə ərazisi ilə çəkiləcək yeni transmilli qaz kəməri vasitəsilə Avropa bazarlarına ixracının əsas şərtləri razılaşdırılmışdır. Layihəyə görə, BTƏ və başqa kəmərlər vasitəsilə Gürcüstan sərhədlərinə çatdırılan Azərbaycan qazının, oradan Türkiyənin Cənubundan- Qərbinə, Avropa ölkələrini birləşdirən sərhədlərə qədər çəkiləcək yeni *Cənub qaz kəməri* vasitəsilə sərbəst hərəkəti təmin ediləcəkdir.[337]

[337] Bax: газ. "Зеркало", 3 нобря 2011 г.

Göründüyü kimi, Azərbaycanın öz neft-qaz məhsullarını başqa alternativlərlə yanaşı, ilk növbədə strateji müttəfiqi hesab olunan Türkiyə üzərindən dünya bazarlarına ixrac etmək siyasəti ona yeni-yeni daha əlverişli və səmərəli ixrac yolları qazandırdığı kimi, Türkiyəyə də bölgənin əsas ixrac nefti və qazı üzərində əlverişli mövqe qazandırmaqdadır.

Keçən müddətdə Azərbaycanın alternativ qaz ixracı siyasəti əksər tərəfdaş ölkələr, xüsusən də Avropa Birliyi dövlətləri və ABŞ tərəfindən dəstəklənibdir. Azərbaycan transmilli dünyanın dəstəyi ilə həm regionun neft-qaz istehsalı və ixracı sahəsindəki geoiqtisadi mövqelərini gücləndirib, həm də özünün etibarlı tərəfdaş imicini qoruyub saxlayıb və bir qədər də möhkəmləndirib. 2006-cı ilin noyabrında Prezident İlham Əliyevin Belçikaya səfəri zamanı Azərbaycanla Avropa İttifaqı arasında enerji təhlükəsizliyi sahəsində birgə əməkdaşlıq iradəsi rəsmiləşdirilib. Noyabrın 7-də Azərbaycan Respublikası və Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıbdır. Sənəd Avropa İttifaqı ilə Azərbaycan arasında enerji tərəfdaşlıq münasibətlərini, Azərbaycanın Avropanın enerji bazarlarına daxil olmasını, Avropa Birliyinin enerji təhlükəsizliyini və Azərbaycanda enerji menecmentini nəzərdə tutmuşdur. Ekspertlər bu Memorandumun imzalanmasından sonra Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında, o cümlədən gələcəkdə inşası planlaşdırılan Xəzər-Avropa qaz ixracı layihələrinin reallaşmasında daha aktiv iştirak edəcəyini proqnozlaşdırırdılar.

Azərbaycan qazının Avropaya birbaşa nəqlini hədəfləyən "Şahdəniz-2", TANAP və TAP kimi yeni transmilli layihələr dünyanın ən iri enerji layihələrindən sayılır. Müqaviləyə əsasən layihəyə 45 milyard dollar məbləğində sərmayə cəlb ediləcək, marşrut boyu yerləşən ölkələrdə 30 mindən çox yeni iş yeri yaradılacaq. Layihə çərçivəsində 26 sualtı quyunun qazıl-

ması, həmçinin körpü ilə birləşdiriləcək 2 platformanın tikintisi, Səngəçal massivində yeni texniki emal və kompressor qurğularının inşası nəzərdə tutulur. 3500 kilometr məsafədə nəql olunacaq qaz Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və digər ölkələrdə milyonlarla istehlakçını təmin edəcək.[338]

Avropa ölkələri və aparıcı şirkətlərlə enerji sahəsindəki mövcud tərəfdaşlıq münasibətləri hazırda Azərbaycana malik olduğu böyük qaz ehtiyatlarını dünya enerji bazarlarına çıxarmaq imkanı yaratmışdır. Mütəxəssislərin fikrinə görə "Mərhələ-2" çərçivəsində işlənilməsi planlaşdırılan "Şahdəniz" yatağının əlavə ehtiyatlarından, bu yaxınlarda Xəzərdə kəşf edilmiş "Abşeron" və "Ümid" yataqlarının, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundakı dərin qaz ehtiyatlarının, olduqca perspektivli "Şəfəq-Asiman", "Babək", "Zəfər-Məşəl" və başqa strukturların potensialından tam istifadə ediləcək.

Məhz "Nabucco" layihəsinin düyünə düşməsi və getdikcə uzanması Azərbaycanı son illərdə onun alternativi sayıla biləcək "Şahdəniz 2" istiqamətində ciddi fəaliyyətə sövq etdi ki, bunun da nəticəsi bəhs olunan sazişin imzalanması ilə yekunlaşdı. Bu saziş həm maraqlı ölkələrin Şahdəniz qazı üzrə geosiyasi və geoiqtisadi mövqelərini qətiləşdirdi, maliyyələşmə, tranzit, etibarlı bazar və digər məsələlər üzrə prinsipial razılaşma əldə olundu, həm də Azərbaycan qarşıdan gələn uzun illər ərzində neft sahəsində olduğu kimi, təbii qaz təchizatında da Avropanın və dünyanın enerji təhlükəsizliyinin təmin edilməsindəki etibarlı tərəfdaş rolunu artırdı. 2014-cü il sentyabrın 20-də Bakıda- Səngəçal terminalında "Şahdəniz 2" layihəsi üzrə hasil ediləcək təbii qazın Cənub Qaz Dəhlizini genişləndirmək yolu ilə Türkiyəyə, oradan da TANAP və TAP vasi-

[338] Bax: "Azərbaycan" qəzeti, №280, 19 dekabr 2013-cü il.

təsilə Avropaya ixracını nəzərdə tutan yeni kəmərin təməlinin qoyulması bu prosesin başlanğıcı oldu. Təməlqoyma mərasimində Azərbaycan prezidenti İlham Əliyev, Bolqarıstan prezidenti Rosen Plevneliev, Yunanıstanın baş naziri Antonis Samaras, Gürcüstanın baş naziri İrakli Qaribaşvili, Monteneqronun baş naziri Milo Cukanoviç, Türkiyənin enerji və təbii qaynaqlar naziri Taner Yıldız, İtaliyanın iqtisadi inkişaf nazirinin müavini Klaudio Deviçenti, BP şirkətinin icraçı direktoru Robert Dadli və digər rəsmi şəxslər, şirkət nümayəndələri iştirak edirdilər. Mərasimdəki çıxışında Prezident İlham Əliyev qeyd edib ki, bu layihə Avropanın mövcud enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişəcək, müqavilə iştirakçısı olan bütün ölkələrə müsbət dividentlər bəxş edəcəkdir. Layihənin icrası istehsalçı ölkə kimi ilk növbədə Azərbaycana, o cümlədən tərəfdaşlarımıza, əksər istehlakçı və tranzit ölkələrə böyük faydalar gətirəcək... 20 il əvvəl neft sahəsində "Əsrin müqaviləsi"nin imzalandığını, daha sonra Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkildiyini xatırladan prezident İlham Əliyev qeyd etmişdir ki, bu gün biz yeni komanda ilə yeni layihənin əsasını qoyuruq. Təməli qoyulan bu yeni kəmər XXI əsrin layihəsidir və ən azı 100 il ərzində Xəzər hövzəsinin alternativ qaz resurslarını dünya bazarına çıxarmağa imkan verəcəkdir.[339]

Mütəxəssislərin fikrinə görə, 2009-cu ildən başlayaraq gündə təxminən bir milyon barel neft ixrac edən Azərbaycanın yaxın gələcəkdə böyük həcmdə qaz ixracatçısına çevrilmə ehtimalı Bakıda Cənub dəhlizi üzrə TANAP və TAP transmilli qaz ixracı kəmərlərinin təməlqoyma mərasimindən sonra tam reallığa çevrilmişdir.[340]

[339] Bax: Azər TAC-ın xəbər bülleteni, 20 sentyabr 2014-cü il.
[340] Bax: "Kaspi" qəzeti, 24 sentyabr 2014-cü il, s.4.

Tədqiqatçıların fikrinə görə, Xəzər hövzəsinin qaz və enerji geoiqtisadiyyatında mühüm rol oynayan və Cənub dəhlizinin uğurla işə düşməsinin əsas qarantlarından biri kimi çıxış edə biləcək layihələrdən biri də dünya mətbuatında geniş müzakirə hədəfinə çevrilmiş *Transxəzər qaz kəməri* layihəsidir.[341]

Xəzər və Cənubi Qafqazda baş verən son illərin geosiyasi hadisələri, müasir dövrdə dünyada və bölgədə müşahidə olunan yeni geosiyasi, geoiqtisadi reallıqlar və tendensiyalar onu sübut edir ki, Azərbaycan, Xəzər hövzəsinin Türkmənistan, Qazaxıstan və s. kimi zəngin qaz ölkələri, Avropa Birliyi dövlətləri və digər maraqlı dairələr yeni-yeni qaz ixracı marşrutları və kəmərlərinin çəkilməsinə, Avropa xammal bazarları ilə Xəzər hövzəsini birləşdirən etibarlı marşrutların yaradılmasına bundan sonra da xüsusi diqqət ayırmalıdırlar.[342]

CƏNUB DƏHLİZİ ÜZRƏ TANAP VƏ TAP QAZ İXRACI MARŞRUTLARI



Xəritə 30.

[341] Xəzərin dibi ilə Qazaxıstandan və Türkmənistandan Bakıya qədər çəkiləcək, təxminən 200 km. uzunluğu olan qaz kəmərindən söhbət gedir

[342] Bax: Həsənov Ə.M. Heydər Əliyevin geosiyasi təlimi: XXI əsrdə Azərbaycanın əsas geosiyasi vəzifələri və perspektivləri // "Geostrategiya" jurnalı, Bakı, aprel 2011. s.15-18.

Göründüyü kimi, ixrac marşrutlarının bundan sonra da şaxələndirilməsi və çoxvariantlılıq kursu hazırda Avropa enerji bazarında ciddi inhisarçı mövqeyə malik olan Rusiyadan başqa, bütün qaz ixrac və idxal edən ölkələrinin maraqlarına cavab verir. Rusiyanın öz inhisarçı mövqeyindən sui-istifadə edərək tez-tez yerli, region və Avropa ölkələrini qiymət siyasəti ilə sınağa çəkməsi, onlara bu və ya digər geosiyasi, geoiqtisadi təzyiqlər göstərməsi həmin ölkələri özünə daha etibarlı və səmərəli enerji mənbələri axtarmağa sövq etmişdir. Digər tərəfdən, Azərbaycanın bölgədə reallaşdırdığı alternativ enerji siyasəti həmin ölkələrə daha əlverişli şərait yaratmış və etibarlı, səmərəli, bərabərhüquqlu tərəfdaşlıq imkanı qazandırmışdır. Nəticədə, bu ölkələr getdikcə Rusiyanın enerji təsirindən çıxaraq, öz təhlükəsizliyini təmin etmək üçün Azərbaycana, Türkmənistana və s. ölkələrə üz tutmağa məcbur olmuşlar.

Son beş ildə Rusiyanın Gürcüstan, Ukrayna, Belarus, Moldova, Baltikyanı respublikalar, bəzi şərqi Avropa dövlətləri ilə münasibətində müşahidə olunan ziddiyyətli və qeyri-sabit vəziyyət Azərbaycanın postsovet enerji bazarına daxil olmasına əlverişli şərait yaratmışdır. Mütəxəssislər Azərbaycanın bu istiqamətdə reallaşdırdığı enerji və dəhliz siyasətinin perspektivlərini yüksək qiymətləndirir, bunun gələcəkdə həm də Türkmənistan, Qazaxıstan kimi dünya bazarlarına sərbəst çıxış imkanları məhdud olan ölkələrin geoiqtisadi vəziyyətinə müsbət təsir göstərəcəyini proqnozlaşdırırlar. Məsələ burasındadır ki, son zamanlar Azərbaycanın bölgədə və dünyada qazandığı "etibarlı iqtisadi və enerji tərəfdaşı" imici, həyata keçirdiyi enerji ixracının şaxələndirilməsi siyasəti, bəhs olunan ölkələrin də mövqeyinə müsbət təsir göstərmiş, onların Rusiyanın geosiyasi təzyiqlərindən xilas olaraq öz enerji təhlükəsizliyini daha etibarlı şəkildə təmin etmək istəyini artırmış və bu dövlətlərin üzünü Xəzərin Cənub sahillərinə çevirmişdir.

Hazırda bir tərəfdən Şərqi Avropa ölkələri, Ukrayna, Belarus, Baltikyanı dövlətlər Azərbaycan neftinin və qazının Gürcüstan ərazisindən keçməklə müxtəlif vasitələrlə (kəmərlərlə, sıxılaraq tankerlərlə və s.) Ukrayna, Rumıniya və Bolqarıstan ərazisinə daşınması, oradan da köhnə *Odessa-Brodı-Qdansk* kimi mövcud neft-qaz kəmərləri vasitəsi ilə həmin ölkələrinin enerji ehtiyaclarının təmin olunmasına yönəldilməsi, digər tərəfdənsə Türkmənistan və Qazaxıstandanda fəaliyyət göstərən neft-qaz şirkətləri, bu dövlətlərin rəsmi dairələri Azərbaycanın mövcud ixrac yolları və vasitələrindən bəhrələnmək istiqamətində ciddi iş aparırlar.

Bu gün Azərbaycanın Avropanın nəqliyyat-kommunikasiya, yükdaşıma sahəsində olduğu kimi, enerji ixracı və enerji təhlükəsizliyində də mühüm rol oynadığı hamı tərəfindən birmənalı etiraf olunur. Azərbaycan dövlətinin neft-qaz kəmərlərini şaxələndirməsi siyasəti təkcə ölkənin məxsusi enerji təhlükəsizliyinə xidmət etmir, eyni zamanda bölgədə transmilli enerji ixracının daha səmərəli və məqsədyönlü təşkilinə və regional əməkdaşlığın möhkəmlənməsinə əhəmiyyətli təsir göstərir, dünyada enerji ehtiyatlarının hasilatçı, istehlakçısı və tranzit ölkələrinin qarşılıqlı-faydalı maraqlarını təmin edir. Xəzər hövzəsindən neftin və qazın dünya bazarlarına çatdırılması yollarının şaxələndirilməsi, öz enerji təhlükəsizliyini bölgənin zəngin karbohidrogen ehtiyatları ilə bağlayan ABŞ və Qərb dövlətlərinin də geosiyasi maraqlarına tam cavab verir. Onlar Xəzəri Avropa bazarları, Qara, Aralıq və Baltik dənizləri ilə birləşdirən və Nabukko da daxil olmaqla, Gürcüstan, Türkiyə, Rumıniya, Bolqarıstan və s. kimi etibarlı, qeyri-asılı tranzit ölkələrinin ərazisi ilə yeni-yeni neft və qaz ixracı marşrutlarının yaradılması səylərini, alternativ neft-qaz kəmərləri ideyasını və təşəbbüslərini dəstəkləyirlər.

Azərbaycan hazırda regionda heç bir ölkədən ciddi enerji, nəqliyyat-kommunikasiya və s. geosiyasi asılılığı olmayan, öz tələbatını tam müstəqil şəkildə ödəməyə qadir ölkə kimi çıxış edir. Artıq həm region ölkələri, həm də fövqəldövlətlər "Azərbaycanın iştirakı olmadan regionda hər hansı transmilli enerji, dəhliz və nəqliyyat-kommunikasiya layihsinin gerçəkləşdirilməsi imkanına" şübhə ilə yanaşırlar. Onun iştirakı ilə yeni-yeni enerji layihələrinin həyata keçirilməsini hədəfləyən regional və beynəlxalq təşəbbüslərin sayı getdikcə artır.

Belə təşəbbüslərdən biri, 2007-ci ilin may ayında Krakov şəhərində baş tutmuşdur. Həmin şəhərdə təşkil olunmuş enerji Sammitində Azərbaycanın iştirakı ilə Avropanın enerji təhlükəsizliyinin təminatı məsələsinin bu qitə üçün getdikcə daha qlobal səciyyə daşıdığı, mühüm geosiyasi reallıqlarla şərtləndiyi növbəti dəfə təsdiqləmişdir. Polşa, Azərbaycan, Gürcüstan, Litva və Ukrayna prezidentlərinin, eləcə də Qazaxıstanın dövlət nümayəndələrinin iştirak etdiyi həmin sammitdə yeni subregional inteqrasiya modeli yaratmağın vacib olduğu ortaya çıxmışdır. Sammit çərçivəsində Qara dənizə çıxarılan Azərbaycan neftinin Odessa-Brodı-Qdansk marşrutu üzrə Baltik dənizi sahilinə çatdırılması, oradan Avropa və dünya bazarlarına daşınması ideyası irəli sürülmüş və müzakirə olunmuşdur.

Bunun ardınca 2007-ci ilin oktyabrında Litvanın paytaxtı Vilnüs şəhərində "Vilnüs enerji təhlükəsizliyi konfransı 2007: Məsul tərəfdaşlar üçün məsul energetika" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak edən dövlətlər Xəzər dənizinin karbohidrogen ehtiyatlarının Avropa bazarlarına daşınması üçün milli şirkətlərin iştirakı ilə yeni konsorsiumun – "**Sarmatiya"nın** yaradılması barədə razılığa gəlmişlər. Bu konsorsiumun əsas məqsədi Azərbaycan, Gürcüstan, Ukrayna və Polşanın ərazisindən keçməklə Xəzər dənizindən Avropaya və

beynəlxalq bazarlara gedən daşınma sistemlərinin müzakirəsi və reallaşdırılmasını təmin etməkdən ibarət idi.

Tədqiqatçıların fikrinə görə belə bir konsorsiumun yaradılması həm Avropa Birliyinin, həm də konsorsiumda birbaşa, yaxud dolayısı ilə iştirak edən region ölkələrinin enerji təhlükəsizliyi maraqlarına tam cavab verirdi. Keçən illərdə Gürcüstanın, bu yaxınlarda isə Belarusun Rusiya ilə yaranmış enerji münaqişəsinin həll etmək və ölkələrini böhrandan çıxarmaq məqsədi ilə Azərbaycana müraciət etməsi və qarşı tərəfdən onlara göstərilən dəstək, Ukrayna hökumətinin öz daxili neft və qaz ehtiyaclarını Azərbaycanın neft-qaz məhsulları hesabına təmin etmək istəyi və s. məsələlər bunun əyani sübutudur. Hazırda, Ukrayna ildə təxminən 4 milyon ton neft və gələcəkdə 5-8 mlrd. kub. metr qaz almaq, Qara dənizin Gürcüstan limanlarından Ukraynaya, oradan da mövcud infrastrukturlarla ətraf ölkələrə enerji resursları ixrac etmək məsələsi ətrafında Azərbaycan hökuməti ilə danışıqlar aparılır. Azərbaycan və Ukrayna prezidentlərinin qarşılıqlı səfərləri çərçivəsində "Ukrtatnafta" ilə ARDNŞ arasında Azərbaycan neftinin Ukraynaya ixracı, ARDNŞ-in Ukraynada yanacaqdoldurma məntəqələrinin açılması və enerji əməkdaşlığı sahəsində digər bir neçə müqavilələr imzalanmışdır. Ukrayna tərəfinin bəyanatlarına görə, bu ölkə gələcəkdə hər ay orta hesabla Azərbaycandan bir milyon tona qədər xam neftin alınması və Ukraynanın neftayırma zavodlarında işlənərək ölkənin daxili ehtiyaclarına yönəlməsi marağındadırlar. Son zamanlar Belarus hökuməti də təxminən oxşar fəaliyyəti həyata keçirmək niyyətində olduğunu bəyanat etmişdir.[343]

Azərbaycanın postsovet məkanında həyata keçirdiyi enerji siyasətinin ən perspektivli istiqaməti, mütəxəssislərin fikrincə,

[343] Bax: газ. "Зеркало", 9 октября 2010 г.

gələcəkdə maye qazın Gürcüstan üzərindən *Qara dənizin dibi, o cümlədən tankerlər vasitəsi ilə Ukraynaya nəqli, oradan da Ukrayna və Belarusun həm daxili ehtiyacları üçün istifadəsi, həm də bu ölkələrin Avropaya mövcud olan transmilli qaz kəmərləri vasitəsilə Qərb bazarlarına göndərilməsi ideyasıdır.* Son aylarda Rusiyanı ən çox narahat edən də məhz bu məsələdir. Rusiyanın Ukrayna və Belarusla yaranmış qaz münaqişəsi zəminində bu ölkələrin tez-tez Azərbaycan, Türkmənistan və Qazaxıstanın adını hallandırması və dar məqamda onlara üz tutması Rusiyanın rəsmi dairələrini getdikcə daha çox qıcıqlandırır və narahatlığını artırır,

Bundan başqa, 2010-cu ilin aprel ayında Buxarestdə, sentyabr ayında isə Bakıda - Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstan dövlət və hökumət başçılarının imzaladıqları müqaviləyə uyğun olaraq, *AGRİ layihəsi* çərçivəsində Azərbaycan qazının boru vasitəsilə Gürcüstanın Qara dəniz limanlarına çatdırılması, sonra sıxılaraq gəmilər vasitəsilə Rumıniya ərazisinə daşınması və oradan da Macarıstana, Rumıniya, Bolqarıstan və digər Cənub-Şərqi Asiya ölkələrinə göndərilməsi, Qara dəniz hövzəsində yaradılacaq qazpaylayıcı stansiyalardan bütün bölgə dövlətlərinin sərbəst şəkildə qaz almaq imkanları nəzərdə tutulur. Bu marşrutla gələcəkdə ildə təxminən 7 -10 milyard kub metr maye qazın ixracı planlaşdırılır. Nəzərə alınsa ki, Azərbaycan Bakı-Tbilisi-Ərzurum qaz kəməri vasitəsilə 2005-ci ildən başlayaraq Türkiyə və Gürcüstana, 2013-cü ildən başlayaraq həm də Yunanıstana, Bakı-Mozdok və Bakı-Astara kəmərləri ilə 2009-cu ildən Rusiya və İrana qaz ixrac edir, o zaman xarici bazarlara sərbəst çıxmaq və öz qazını müstəqil şəkildə ixrac etmək istiqamətində Azərbaycanın demək olar ki, enerji təhlükəsizliyi tam təmin olunubdur.

Azərbaycanın həm bölgədə, həm də dünyada fəal şəkildə həyata keçirdiyi transmilli neft və qaz siyasəti Rusiyanın bəzi

dairələrini narahat edir və onlar öz hökumətlərini bu ölkəyə qarşı "müəyyən qabaqlayıcı tədbirlər" görməyə çağırırlar. Belə "qabaqlayıcı tədbirlər" çərçivəsində son zamanlar Rusiya hökuməti Azərbaycanın artan enerji ixracı məhsullarını yerindəcə alaraq, bölgənin neft-qaz məhsullarını bir əldən dünya bazarlarına çıxartmaq siyasəti yürüdür. Rusiya dünya enerji bazarında öz qiymət siyasətini qorumaq üçün, Azərbaycanın və Orta Asiya ölkələrinin malik olduğu neft və qaz məhsullarını daha çox miqdarda əldə etməklə, onların dünya bazarlarına birbaşa və sərbəst yolunu bağlamaq istəyir. Lakin Azərbaycan hökuməti daim bəyan edir ki, dünya enerji bazarında biz Rusiyaya ilə rəqib deyil, tərəfdaşıq. Çünki, Rusiyanın və Azərbaycanın enerji resurslarının öz fərqli alıcıları mövcuddur. Azərbaycan Rusiyanın maraqlarını nəzərə alaraq Nabucco layihəsindən imtina etdi, öz neftini və qazınını daha çox bu ölkənin ənənəvi inhisarında olan məkanlara- Qərbi və Şərqi Avropaya deyil, Adriatik sahili ölkələrinə, Türkiyəyə, İtaliya və Yunanıstana istiqamətləndirdi. Həm də Azərbaycanın Avropa enerji bazarına ixrac etdiyi enerji məhsullarının miqdarı Rusiyanın inhisarının pozulması üçün yetərli deyil. Rusiyaya Avropanın və dünyanın artan enerji tələbatı çərçivəsində öz enerji məhsullarını istədiyi qiymətə satır.

Mütəxəssislərin fikrinə görə, yaxın illərdə planlaşdırılması və işə düşməsində Azərbaycanın önəmli rol oynadığı və oynayacağı TANAP, TAP, AGRİ, Odessa-Brodi-Qdansk və b. yeni-yeni qlobal neft-qaz ixracı layihələrinin reallaşması Rusiyanın maraqlarına ciddi şəkildə toxunmadan, Azərbaycanın özünün və geoiqtisadi tərəfdaşlarının milli maraqlarına xidmət göstərəcək və onun "bölgənin enerji ehtiyatlarının dünya bazarına nəqlində mühüm geostrateji önəm daşıyan ölkə" statusunu bir qədər də möhkəmləndirəcək.

Təkrar və məşğələ sualları:

1. Xəzər hövzəsi və Cənubi Qafqazın geoiqtisadi xarakteristikasını verin və XX əsrin sonlarından başlayaraq dünya ölkələrinin geoiqtisadi maraqları çərçivəsində artan əhəmiyyətini göstərin.

2. Xəzər hövzəsi və Cənubi Qafqazda təmsil olunan geoiqtisadi maraqlar və onların əsas hədəfləri haqqında nə demək olar?

3. Xəzər hövzəsinin enerji mənbələri və onun bölgədə yaratdığı geoiqtisadi vəziyyət haqqında nə deyə bilərsiniz? Xəzərin neft-qaz məhsullarının Avropanın enerji təhlükəsizliyindəki rolu necədir?

4. Xəzərin hüquqi statusu məsələsinə hövzə ölkələrinin münasibətini təhlil edin və tərəflərin mövqelərini qiymətləndirin.

5. Azərbaycanın Xəzər dənizinin karbohidrogen ehtiyatlarının sərbəst istehsalı və ixracı siyasətinin beynəlxalq və regional geoiqtisadi nəticələrini şərh edin.

6. Heydər Əliyevin yeni neft strategiyasının mahiyyəti və Azərbaycanın müasir inkişafındakı rolunu necə qiymətləndirmək olar?

7. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın transmilli enerji ixracı sistemini təsvir edin. Geoiqtisadi xarakteristikasını verin və XX əsrin sonlarından başlayaraq dünya ölkələrinin geoiqtisadi maraqları çərçivəsində artan əhəmiyyətini göstərin.

8. Region və dünya ölkələrinin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yürütdüyü enerji ixracı siyasətini xarakterizə edin.

9. Azərbaycanın enerji ixracının şaxələndirilməsi siyasəti və onun regionun ümumi geoiqtisadi vəziyyətinə təsiri məsələlərini araşdırın.

III FƏSİL
XƏZƏR-QARA DƏNİZ HÖVZƏSİ VƏ CƏNUBİ QAFQAZIN TRANSMİLLİ NƏQLİYYAT-KOMMUNİKASİYA SİSTEMİ: BEYNƏLXALQ, REGİONAL VƏ MİLLİ MARAQLAR. AZƏRBAYCANIN BEYNƏLXALQ ALƏMLƏ SƏRBƏST VƏ TƏHLÜKƏSİZ KOMMUNİKASİYA SİYASƏTİ

§3.1. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın mövcud və perspektiv transmilli nəqliyyat-kommunikasiya sistemi: beynəlxalq, regional və milli maraqların xarakteristikası

SSRİ-nin dağılmasından və vaxti İlə Sovet İttifaqının tərkibinə daxil olan respublikaların müstəqillik qazanmasından sonra Avrasiyanın tranzid-keçid arteriyaları və Şərq-Qərb, Şimal-Cənub nəqliyyat-kommunikasiya sistemi, enerji ixracı dəhlizləri və s. məsələlər bir ölkənin monopolist təsirindən çıxararaq beynəlxalq aləmin transmilli mübarizə hədəfinə çevirdi. Avrasiyanın transmilli nəqliyyat-kommunikasiya sisteminin ən vacib və həlledici həlqəsini və digər həmsərhəd ölkələrini bir-biri ilə birləşdirən əlverişli coğrafi və geoiqtisadi məkanı və malik olduqları nəqliyyat-yükdaşıma arteriyaları təşkil edirdi. Bölgə neçə əsrlərdir ki, Avrasiyanın nəqliyyat-kommunikasiya əlaqələrinin reallaşdırılmasında həlledici məkan rolunu oynayır. Aralıq dənizindən Sakit okeana qədər olan böyük bir məkanın nəqliyyat-kommunikasiya əlaqələrinin qurulmasında həm keçmiş SSRİ dövründə, həm də müasir dövrdə ən qısa və

əlverişli dəhliz məhz Xəzər-Qara dəniz hövzəsi, Orta Asiya və Cənubi Qafqaz hesab olunmuşdur. XX əsrin 90-cı illərindən başlayaraq bölgənin quru, su və dəmiryolu şaxələri bütün ətraf ölkələrin geosiyasi əlaqələndirmə xətlərinə çevrildi və Xəzər ətrafındakı beş yeni ölkə, xarici transmilli nəqliyyat korporasiyaları bu bölgənin nəqliyyat-kommunikasiya dəhlizlərindən istifadə etməyə və ona maraq göstərməyə başladılar.

Həmin dövrdə bütün postsovet regionunu cidd-cəhdlə öz nəzarətində saxlamağa və **TRANSAVRASİYA** marşrutu üzrə alternativ nəqliyyat-kommunikasiya dəhlizlərinin yaranmasına mane olmağa çalışan Rusiyanın müqavimətinə baxmayaraq, Amerika Birləşmiş Ştatları, Avropa Birliyi ölkələri, Çin, Yaponiya kimi beynəlxalq, Türkiyə, İran və s. kimi region dövlətləri, o cümlədən müstəqillik əldə etmiş yerli ölkələr daha təkidlə regionun transmilli nəqliyyat-kommunikasiya sisteminə müdaxilə edərək, getdikcə güclənən Şərq-Qərb ticarət-iqtisadi əlaqələrində bu marşrutu alternativ variant kimi təklif etməyə başladılar. Bu proses getdikcə güclənərək, müxtəlif transmilli şirkətlərin yerli ölkələrlə iş birliyi qurması nəticəsində qarşısıalınmaz beynəlxalq fəaliyyətə çevrilmişdir.

Müasir dövrdə Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizinin Rusiya ərazisindən keçən keçmiş marşrutuna əsas alternativ kimi məhz TRANSAVRASİYA nəqliyyat-kommunikasiya dəhlizini qəbul edirlər. Bu layihənin ortaya çıxmasında, yaranması və fəaliyyətində Avropa Birliyi və ABŞ-la bərabər, Azərbaycan, Gürcüstan, Türkiyə və Orta Asiya ölkələri mühüm rol oynamışlar. 1996-cı ildən başlayaraq *"TRACEKA"*[344] adlanan həmin beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizi ilə transmilli dünya Rusiya ərazisindən yan keçməklə Avropanı Asiya ilə birləşdirən və şərti olaraq "Böyük İpək yolu"

[344] Bu layihə "Trans-Europe-Caucasus-Asia" nəqliyyat-kommunikasiya dəhlizi adlanır.

adlandırılan yeni qlobal nəqliyyat-kommunikasiya sisteminin yaradılmasına və həyata keçirilməsinə start verilmişdir.

ASİYA İLƏ AVROPANI BİRLƏŞDİRƏN TRANSAVRASİYA DƏMİR YOLU LAYİHƏSİ



Xəritə 31.

Avrasiyanın qədim "İpək yolu"nun bərpası və istifadəsi ideyasını ilk dəfə 1990-cı ildə SSRİ-nin sonuncu Xarici İşlər naziri, sonradan müstəqil Gürcüstanın dövlət başçısı seçilmiş Eduard Şevardnadze Vladivostokda keçirilən "Asiya-Sakit okean regionu: dialoq, sülh və əməkdaşlıq" adlı beynəlxalq konfransda səsləndirmiş və SSRİ-nin ciddi böhran keçirən, iflas etməkdə olan mövcud nəqliyyat-kommunikasiya sistemini Şərq-Qərb əlaqələndirilməsi üçün bütün dünya üçün açıq elan edərək, onun birgə istifadəsini təklif etmişdir.[345] Lakin mövcud ideya yalnız SSRİ dağıldıqdan sonra, özü də əvvəlki ənənəvi marşrut üzrə deyil, yeni alternativ TRANSAVRASİYA layihəsi üzrə dünyanın müzakirəsinə çıxarılaraq, ABŞ və Avropa İttifaqının diqqətini çəkmiş və 1991-ci ildən onların maliyyə-

[345] Bax: Шеварднадзе Э.А. Мой выбор. В защиту демократиии и свободы, Москва, 1991, с. 271.

ləşdirdiyi *TASİS* proqramı çərçivəsində müzakirə edilməyə başlanmışdır.[346]

Sonradan məhz TASİS proqramı çərçivəsində, 1993-cü ildə Avropa İttifaqının təşəbbüsü ilə Brüsseldə keçirilən "Şərq-Qərb nəqliyyat təhlükəsizliyi" beynəlxalq konfransında TRACEKA layihəsi irəli sürülmüş, Cənubi Qafqaz və Orta Asiyanı təmsil edən səkkiz prezidentin iştirak etdiyi zirvə görüşündə müzakirə olunmuş və qəbul edilməsi haqqında "Brüssel bəyannaməsi" imzalanmışdır. Bəyannamədə, qədim Şərq-Qərb "İpək yolu" dəhlizinin yeni şəraitdə bərpası, TRANSAVRASİYA nəqliyyat-kommunikasiya infrastrukturlarının yenidən qurulması və inkişaf etdirilməsi vəzifəsi öz əksini tapmışdır.[347]

Bunun ardıca Avropa Birliyinin ayırdığı 300 milyon dollarlıq kredit hesabına proqramın reallaşdırılmasına qərar verilir və konfransda müəyyən edilmiş marşrut üzrə- Qazaxıstanın "Drujba" adlı dəniz dəmir yolu stansiyasından başlayaraq Daşkənd, Aşqabad, Türkmənbaşı, Bakı, Tbilisi, Poti, sonra bərə vasitəsi ilə Odessa-Bakı, Bolqarıstan, Rumıniya, Türkiyə, o cümlədən yenə də bərə vasitəsilə Atıray-Aktau-Bakı xətti ilə TRANSAVRASİYA yük daşıma sisteminin və dəhlizinin yaradılmasına başlanır.

Həmin ildən Avropa Birliyinin, Cənubi Qafqaz və Orta Asiyanın ayrı-ayrı ölkələrinin təşəbbüsü ilə, Şərq-Qərb nəqliyyat-kommunikasiya sisteminin yaradılması istiqamətində yeni-yeni təşəbbüslər irəli sürüldü və Avropa Birliyi tərəfindən dəstəklənməyə başlandı. Bu layihələrin reallaşdırılması qısa zaman kəsiyində Rusiya ərazisini yan keçməklə, Şərq-Qərb tica-

[346] TASİS proqramı (Technical Assistance to the Commouwealth of Independent States) ilə Avropa İttifaqı yeni, müstəqil dövlətlərdə birgə transmilli işlər aparmaq, onların daxilində başlanan demokratik islahatlara dəstək vermək, liberal bazar iqtisadiyyatı infrastrukturları yaratmaq, ölkələrarası ticarət, nəqliyyat, gömrük-keçid əlaqələrini inkişaf etdirmək niyyətini ortaya qoymuşdu.
[347] Bax: http: // www.traceca-org.org/

rət-iqtisadi əlaqələrinə müsbət təsir göstərərək, dünya transmilli nəqliyyat-kommunikasiya siyasətinə ciddi dəstək oldu. Azərbaycan, Gürcüstan, Ukrayna, Özbəkistan və Türkiyənin əlverişli geosiyasi və coğrafi mövqeyi, bu nəqliyyat-kommunikasiya dəhlizinin əsas mərkəz məntəqələrindən biri kimi çıxış etməsi, Şərq-Qərb dəhlizləri məsələsində yürütdüyü prinsipial siyasət və nümayiş etdirdiyi birmənalı münasibət həmin dövrdə TRACEKA layihəsinin reallaşmasına mühüm töhfə verdi.

1996-cı ildə Türkmənistanın Seraxs şəhərində Avropa Birliyi, Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistanın dövlət başçıları TRACEKA layihəsinin yaradılması haqqında birgə saziş imzalayaraq, Azərbaycanın, Türkmənistanın, Gürcüstanın, Qazaxıstanın, Türkiyənin, Rumıniyanın və Bolqarıstanın dəniz limanlarının, dəmir yolu və avtomobil yollarının yenidən qurulmasının maliyyələşdirilməsi, Şərq-Qərb dəhlizinin işə salınması üçün Bakıda xüsusi beynəlxalq konfransın keçirilməsi və s. məsələlər qərara alındı. 1997-ci ildən sonra bəzi Şərqi Avropa dövlətləri də Avropa Birliyinin bu layihəsinə ciddi maraq göstərməyə və ona qoşulmağa başlayır. Layihənin maliyyələşməsinə dünya beynəlxalq maliyyə qurumları – Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və başqaları maliyyə yardımı göstərməyə hazır olduqlarını bəyan edirlər.

1998-ci ilin sentyabrında TRACEKA layihəsi üzrə Bakıda çox mühüm bir tədbir – "İpək yolu layihəsinin dirçəlişi" adlı beynəlxalq konfrans keçirildi. Avropa Birliyinin dəstəyi ilə 32 dövlətin, 13 beynəlxalq təşkilatın, Rusiya və Qazaxıstandan başqa bütün ətraf dövlətlərin dövlət və hökumət rəhbərlərinin iştirak etdiyi bu konfransda- içərisində 8 prezident, 24 Baş nazir və nazirlərin də iştirak etdiyi nümayəndə heyətlərinin iştirakı ilə Şərq-Qərb (Avropa-Qafqaz-Asiya) çoxtərəfli nəqliyyat-kommunikasiya sisteminin inkişafı haqqında Çoxtərəfli Saziş imzalandı. Sazişə əlavə olaraq, beynəlxalq dənizçilik və

gəmi daşımaçılığı, gömrük-sərhəd keçid rejiminin sadələşdirilməsi və s. haqında birgə razılaşma və ümumi sənəd kimi Bakı Bəyannaməsi qəbul edilldi.[348] Birgə sazişə qoşulan ölkələr bir-birinin ərazisindən və bütün növ nəqliyyat infrastrukturlarının güzəştli şərtlərlə və üstün hüquqla istifadə etməklə, mal-əmtəə göndərməyə və bir-biri ilə üstün iqtisadi əlaqələr yaratmağa qarşılıqlı öhdəlik götürürlər.

Həmin ildə ABŞ TRACEKA-nı dəstəkləmək haqqında xüsusi strategiya proqramı hazırlayır və qəbul edir. Bu məqsədlə, Amerika hökuməti TASİS proqramı xətti ilə TRACEKA-nın maliyyələşməsinə dəstək verməyə başlayır. Mütəxəssislərin fikrinə görə, bəhs olunan konfransın keçirilməsində, sənədlərin ərsəyə gəlməsində və bu işdə ABŞ və AB-nin xüsusi dəstəyinin qazanılmasında Azərbaycan prezidenti Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Onların fikrinə görə, TRACEKA hökumətlərarası komissiyasının daimi katibliyinin mənzil-qərargahının Bakı şəhərində yerləşməsi də təsadüfi deyil, məhz Heydər Əliyevin ciddi səyinin nəticəsi idi.[349]

TRACEKA-nın katibliyinin yaradılması qısa müddətdə üzv ölkələrin nəqliyyət-kommunikasiya sisteminin əlaqələndirilməsi işini sürətləndirdi.. Katibliyin xətti ilə Şərq-Qərb marşurutu üzrə əmtəə-mal daşımaları, nəqliyyat-komunikasiya əlaqələrinin koordinasiyası həyata keçirilməyə başlanır. Bakı-Batum-Ukrayna-Bolqarıstan-Rumıniya-Türkiyə dəmir yollarının işi əlaqələndirilir. Əvvəlki TRANS-SİBİR dəmir yolundan (Rusiya ərazisindən Sibir vasitəsi ilə Uzaq Şərqə və Cənub Şərqi Asiya ölkələrinə gedən yoldan söhbət gedir) daha əlve-

[348] "Xalq qəzeti", №241-245, 09-12 sentyabr 1998-ci il.

[349] 21 fevral 2001-ci ildən Bakıda fəaliyyətə başlayan TRASEKA hökumətlərarası komissiyası daimi katibliyinin ofisi "Böyük İpək Yolu" boyunca hərəkət edən beynəlxalq yüklərin daşıma və hərəkətini tənzimləmək, Əsas Sazişə qoşulan ölkələrdə qanunvericilik və maliyyə-iqtisadi mühitlə bağlı məsələlərin həll edilməsinə kömək məqsədilə yaradılmışdır.

rişli hesab olunan yeni dəhliz layihəsi - Çin-Amsterdam (Hollandiya) dəniz yolu dəhlizi ideyası meydana gəlir. Hazırda istifadə olunan Bakı-Tbilisi-Qara dəniz yolu və tikintisinə rəvac verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu həmin bu ideyanın hissə-hissə reallaşdırılmasına xidmət edir.

TRACEKA LAYİHƏSİNİN AVRASİYA HİSSƏSİ ÇİNDƏN BAŞLAYARAQ ARALIQ DƏNİZİ SAHİLLƏRİNƏ QƏDƏR ALTERNATİV NƏQLİYYAT-KOMMUNİKASİYA SİSTEMİNİN İŞƏ SALINMASINI NƏZƏRDƏ TUTUR



Xəritə 32.

2000-ci ildə Tbilisidə TRACEKA sazişinə qoşulmuş ölkələrin hökumət rəhbərləri beynəlxalq konfransa toplaşırlar. Konfransda qeyd olunur ki, keçən iki il müddətində layihə çərçivəsində nəzərdə tutulmuş öhdəliklər və şərtlər liman və nəqliyyat xətlərinin yenidən qurulması, hökumətlərarası daşımaçılıqla bağlı müvafiq təlimatların qəbul olunması reallaşdırılmış və TRACEKA normal səviyyədə fəaliyyətə başlamışdır.

TRACEKA qısa zamanda Orta Asiya və Xəzərlə Qara-Aralıq dənizi sahillərini, Avropa bazarlarını bağlayan əsas enerji, ticarət və nəqliyyat dəhlizinə çevrilir.

Orta Asiya və Xəzər bölgəsinin neft və qeyri-neft məhsullarının Avropaya, yaxud Qərb ölkələrinə məxsus digər əmtəələrin Asiya bazarlarına daşınması məqsədi ilə Xəzər vasitəsi ilə Bakıya bərə daşıması, oradan isə Azərbaycan dəmir yolları vasitəsi ilə ilə Gürcüstanın Qara dəniz limanlarına, limanlardan gəmilər vasitəsilə yenidən Avropa bazarlarına daşıma işi sahmana salınmış, keçən müddətdə bu yolla yüz milyonlarla ton müxtəlif məhsullar daşınmışdır.

TRACEKA layihəsinin əsas məqsədləri fikrimizcə:

1. Avropa-Asiya arasında əvvəlki mövcud marşrutlardan daha yaxın, daha ucuz və daha müstəqil nəqliyyat dəhlizi yaratmaq;
2. Bölgə ölkələrinin və Avropa-Asiya əlaqələrinin müstəqilliyini təmin etmək, Rusiyanın geosiyasi asılılığından azad etmək;
3. Region və beynəlxalq əməkdaşlığı inkişaf etdirmək, Xəzər və Orta Asiyanın zəngin enerji resurslarının dünya bazarlarına çıxarılmasına dəstək verməkdən ibarət idi.

TRACEKA layihəsini reallaşdırmaqla Avropa İttifaqı ilk növbədə Cənub-Şərqi Asiyadan başlayaraq- Cənubi Qafqaz vasitəsi ilə Avropaya uzanan dəhliz boyu yerləşən dövlətlərin alternativ nəqliyyat-kommunikasiya dəhlizlərini birləşdirmək yolu ilə əlverişli ticarət dəhlizi yaratmaq istəyirdi. Bu məqsədlə AB həmin ölkələrin mövcud quru, dəniz və dəmir yolu nəqliyyatı sisteminin təkmilləşdirilməsini və bir-biri ilə əlaqələndirilməsini, nəqliyyat-keçid infrastrukturlarının yenidən qurulması və dünya standartlarına çatdırılmasını dəstəkləyirdi.

Avropa və Asiya ölkələri arasında siyasi, iqtisadi və ticarət əlaqələrinin sərbəstləşdirilməsi, müstəqil nəqliyyat dəhlizinin yaradılması və s. siyasəti həm də ətraf ölkələrin Rusiyadan tranzit asılılığının qarşısını almaq, regional əməkdaşlığın möhkəmlənməsinə şərait yaratmaq və beynəlxalq maliyyə mər-

kəzlərinin regiona sərmayə qoyuluşunu həvəsləndirmək məqsədi daşıyırdı.

TRASEKA LAYİHƏSİNİN CƏNUBİ QAFQAZ VƏ TÜRKİYƏ ƏRAZİLƏRİNDƏ NƏQLİYYAT-KOMMUNİKASİYA SİSTEMİ



Xəritə 33.

Beynəlxalq ekspertlərin fikrincə, TRACEKA dəhlizinin o vaxta qədər mövcud olan Rusiya TRANSSİBİR marşrutundan bir neçə üstünlüyü mövcud idi. Bu üstünlüklər,

1. həmin marşurutun tam müstəqilliyi, heç kimin geosiyasi təsiri və təzyiqi altında olmaması;
2. Çeçenistan, Şimali Qafqaz kimi kriminal, Sibir kimi qeyri-sabit hava şəraitinə malik ərazilərdən uzaq olması;
3. İştirakçı ölkələr tərəfindən mal daşımalarına qarışlıqlı güzəştlərin verilməsi;
4. Daşıma tariflərinin Rusiyanınkından 1,9 dəfə aşağı olması;
5. Daşıma məsafəsinin və daşıma müddətin Rusiya marşrutundun iki dəfə aşağı olması;
6. Qara dəniz limanlarının və İstanbul şəhərinin həddən artıq yüklənməsinin və ekoloji təhlükələrin qarşısını alması və s. ibarətdir.

Avropa-Qafqaz-Asiya ölkələri arasında daha əlverişli avtomobil, dəniz və dəmir yolu nəqliyyatı vasitəsi ilə tranzit yüklərin daşınmasını təmin edən TRACEKA layihəsi Avropa ilə Asiya arasında nəqliyyat yolunu qısaltmaqla, üzv ölkələrə və transmilli şirkətlərə külli miqdarda vəsaitə qənaət etmək imkanı yaradır.

Bu gün Avropa ilə Asiya arasında ticarət dövriyyəsinin həcmi 2 trilyon dolları ötür, nəqliyyat xərcləri isə ildə 200 milyard dollara çatır. Nəzərə alsaq ki, TRACEKA layihəsi çərçivəsində malların daşınması, hazırda Avropa ilə Cənubi Asiyanı birləşdirən Süveyş kanalından 20 gün tez başa gəlir, onda yaxın gələcəkdə Azərbaycan və Gürcüstanın dünyanın əsas tranzit ölkələrinə çevriləcəyini proqnozlaşdırmaq heç də çətin deyil.

2009-cu ildən Avropa Komissiyası TRACEKA proqramı çərçivəsində yeni üç layihənin reallaşdırılmasına başlayıb. Bunlardan birincisi "Qərbi MDB və Qafqaz ölkələri üçün beynəlxalq logistika mərkəzləri" layihəsidir. Bu layihənin əsas vəzifəsi logistika imkanlarının, şəbəkələrin və multimodal nəqliyyatın qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi yolu ilə beynəlxalq ticarət və malların TRASEKA dəhlizi ilə hərəkətinə yardım etməkdir. Layihə çərçivəsində TRACEKA dəhlizi üzrə logistika mərkəzləri şəbəkəsinin yaradılmasını nəzərdə tutan maliyyə, texniki, ekoloji və institusional şəraitin yaradılması, tədqiqatların aparılması planlaşdırılır. Bu layihə Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova və Ukraynanı birbaşa, Bolqarıstan, Rumıniya və Türkiyəni isə bilavasitə əhatə edəcək.

Bundan əlavə, "TRACEKA ölkələrində aviasiya sahəsində ictimai və texniki təhlükəsizlik" layihəsinin gerçəkləşdirilməsinə başlanılıb. Reallaşma müddəti 24 ay olan bu layihə Azərbaycan, Ermənistan, Bolqarıstan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rumıniya, Tacikistan, Türkiyə, Ukrayna və Özbəkistanı əhatə edəcək. Layihədə məqsəd Avropa İttifaqı ilə qonşu ölkələrdə, həmçinin Mərkəzi Asiya ölkələrində mülki aviasiya sahəsində beynəlxalq və Avropa standartlarına uyğun

hava nəqliyyatının ictimai və texniki təhlükəsizliyinin təkmilləşdirilməsidir.

Nəhayət, reallaşdırılmasına başlanılan üçüncü layihə "Qara və Xəzər dənizlərində dəniz magistralları" layihəsidir. Beş ölkəni - Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan və Ukraynanı əhatə edən layihədə məqsəd Qara və Xəzər dənizlərində qarşılıqlı fəaliyyət şəbəkəsinin təkmilləşdirilməsi və multimodal nəqliyyat yolu ilə Avropa-Qara dəniz regionu - Qafqaz-Mərkəzi Asiya dəhlizində ticarətə və nəqliyyata yardımın göstərilməsidir. Layihənin əsas vəzifəsi Qara dəniz və Xəzər dənizinin qonşu ölkələrini Avropa İttifaqının genişlənmiş ərazisi ilə birləşdirən "Dəniz magistralları" konsepsiyasına uyğun əlverişli intermodal yük nəqliyyatına təsir və dəstək göstərməkdən ibarətdir. Layihə başlıca olaraq, TRANSAVRASİYA (Bax Xəritə 34)

TRANSAVRASİYA DƏMİRYOL MARŞRUTUNUN ASIYA HISSƏSI



Xəritə 34.

Kontinental nəqliyyat-kommunikasiya marşurutu üzrə dəmiryolu, avtomobil və eləcə də İliçiyevck-Odessa-Poti-Bakı-

Aktau marşrutunu istifadə etməklə birgə daxili su nəqliyyatı sisteminin yaradılması və inkişafını nəzərdə tutur.

Həyata keçirilən transmilli nəqliyyat-kommunikasiya siyasəti nəticəsində hazırda bölgənin bütün nəqliyyat-kommunikasiya xətləri SSRİ dövründə olduğu kimi bir mərkəzə məxsus deyil, yaxud bir ölkənin təsirində deyil, regionlararası, dövlətlərarası nəqliyyat şaxəsinə çevrilmişdir. Son zamanlar, bu xətt üzrə Orta Asiya və Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatlarını dünya bazarlarına daşınması prosesini asanlaşdıran alternativ neft-qaz layihələrinin işə düşməsi də ciddi transmilli mahiyyət kəsb edərək, dünya geosiyasətinin və geoiqtisadiyyatının mərkəzi məsələlərindən birini həll etmişdir.

Hazırda Qərb və Şərq ölkələri bir-biri ilə iqtisadi əlaqələrini müstəqil və daha əlverişli yollarla, iqtisadi cəhətdən daha səmərəli hesab olunan marşrut və vasitələr ilə reallaşdırmaq üçün geosiyasi və geoiqtisadi cəhətdən azad olan nəqliyyat-kommunikasiya dəhlizlərini seçirlər. Son zamanlar bu istiqamətdə reallaşdıran nəqliyyat-kommunikasiya layihələri TRANSAVRASİYA və onun tərkib hissəsi olan TRANSQAFQAZ nəqliyyat-kommunikasiya marşrutları vasitəsilə reallaşdırılır ki, bu da Xəzər və Qara dəniz hövzəsində yerləşən Cənubi Qafqazın, o cümlədən, Xəzərlə Cənub-Şərqi Asiya arasında yerləşən Orta Asiya ərazilərinin (Bax Xətitə 35) dünyanın ən əhəmiyyətli geosiyasi məkanları sırasına daxil edilməsini şərtləndirir.

Orta Asiya və Xəzər hövzəsinin nəqliyyat-kommunikasiya dəhlizləri bir neçə əlaqəli sahənin inkişafı ilə bağlıdır. Bu ilk növbədə, bu istiqamətdə fəaliyyət göstərən, çəkilməkdə olan və planlaşdırılan dəniz yolları, dəniz nəqliyyatı və limanları, dəmir yolu daşımalarını təmin edən yollar və nəqliyyat vasitələri, avtomobil yolları və quru əlaqələri sistemlərindən ibarətdir.

TRASEKA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ORTA ASİYADA
NƏQLİYYAT-KOMMUNİKASİYA SİSTEMİ



Xəritə 35.

Üçüncü minilliyin ilk on ilində qlobal dünyanın geoiqtisadi tələblərini təmin etmək məqsədi ilə, qitələrarası yükdaşımanın yeni-yeni formalarının tapılması və effektiv təşkili məsələsi bu bölgədə də xüsusi önəm daşımaqdadır. Bu məqsədlə, Orta Asiya və Xəzər hövzəsinin müxtəlif nəqliyyat vasitələrinin – avtomobil, dəniz, çay nəqliyyatı və dəmir yolu imkanlarının birləşdirilməsi intermodal nəqliyyat sisteminin yaradılması, yeni minilliyin getdikcə aktuallaşan əsas məsələlərindən birinə çevrilməkdədir.[350]

[350] İntermodal nəqliyyat sisteminin yaradılması ideyası ilk dəfə, Avropa Birliyinə irəli sürülmüş və 1994-cü ildə Yunanıstanın Krit adasında birliyin nəqliyyat nazirlərinin toplantısında müzakirə olunaraq qəbul edilmişdir. PanAvropa intermodal nəqliyyat sistemi adlandırılan bu tədbirdə gələcəkdə

Mütəxəssislərin fikrincə, müasir dünyada beynəlxalq yükdaşımalar sahəsində ən effektli və rəqabətədavamlı sistemi "öz daxili və dövlətlərarası nəqliyyat sistemini intermodal idarəçilik əsasında quran, yükdaşımaları 20-30% ucuz və vaxt baxımından daha effektli təşkil edən ölkələr və yaxud ölkələr qrupu" yarada bilər. Məsələn, Avropa Birliyi və Cənubi Şərqi Asiya ölkələri hazırda bu sistemlə işləyir. O ölkələr ki, hələ də ayrı-ayrı nəqliyyat sahələrinin məxsusi maraqları və sahə prinsipləri çərçivəsində çalışırlar, (məsələn Rusiya) orada daşımalar həm baha, həm də effektsiz təmin olunur.

Mütəxəssislərin fikrinə görə, Xəzər dənizi və Mərkəzi Asiya Cənubi Qafqaz və Qara dənizlə birlikdə, Avropa Birliyinin intermodal nəqliyyat sisteminə uyğun gələn ən effektiv marşrut hesab oluna bilər.

Xəzərdən həm Avropaya, həm də Asiyaya bir neçə variantlı dəniz, dəmir və quru yollarının mövcudluğu, məhz belə bir intermodal sistemin yaradılmasına imkan verir. Təkcə TRANSAVRASİYA və TRASEKA layihələrinin Çindən Orta Asiyaya, oradan isə Cənubi Qafqaz vasitəsilə, Türkiyə və Aralıq dənizinə, İran, Fars körfəzi vasitəsi ilə yenə də Aralıq dənizi və Orta Şərqə, Rusiya, Ukrayna, Belorus vasitəsi ilə Avropaya, Həştərxan, Xəzər dənizi vasitəsi ilə Baltikayanı çıxış imkanları nəzərə alınsa, vahid intermodal sisteminin yaradılmasının nə qədər əhəmiyyətli olacağını gərmək olar.

Bu sistemin yaradılmasının əsas təşəbbüskarı Avropa Birliyi Azərbaycan və Gürcüstan olsa da, mütəxəssislərin fikrinə

---

birlik ölkələri ərazisindən keçən bütün nəqliyyat vasitələrinin fəaliyyətinin vahid idarəçilik sisteminin yaradılması və ən optimal marşrutlarının müəyyən edilməsi məqsədi ilə xüsusi bir işçi orqan da yaradılmışdır.

İntermodal nəqliyyat sisteminə görə, marşrutların və daşıma sistemlərinin müəyyən olunması xüsusi innovativ məlumatlar və coğrafi imkanları nəzərə almaqla, yük daşıma məntəqələri arasında ən qısa və effektiv yolları, marşrutları və vasitələri müəyyən etməli, marşrutlar üzrə bütün nəqliyyat imkanlarını səfərbər etməklə, vahid tarif və gömrük rejimi yaratmalı, vahid mərkəzdən bütü təşkilatı məsələləri həll edərək yükləri vaxtında məntəqələrə çatdırmaqdır.

görə, əslində, Rusiya və Mərkəzi Asiya ölkələri də bu layihədən ciddi xeyir götürə bilərlər.

TRASEKA LAYİHƏSİNİN AZƏRBAYCAN ƏRAZİSİNDƏ NƏQLİYYAT-KOMMUNİKASİYA SİSTEMİ



Xəritə36.

§ 3.2. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz ölkələrinin bölgənin alternativ TRANSAVRASİYA transmilli nəqliyyat- kommunikasiya sisteminə münasibəti, maraqları və iştirakı

Mərkəzi Asiya, Xəzər hövzəsi və Qafqazın əsas nəqliyyat-tranzit şaxələrinə malik ölkələrindən biri **Rusiyadır**. SSRİ zamanında- TRANSAVRASİYA, TRACEKA, TRANSQAFQAZ və s. alternativ nəqliyyat-kommunikasiya marşrutları və yük daşımaçılığı mövcud olmadığı dövrdə, Avropa ilə Asiya arasında bütün yük daşımaları, o cümlədən, enerji məhsulları-

nın ixracı və idxalı sovet hökumətinə (hazırda əsasən Rusiyaya-Ə.H.) məxsus kəmərlər, dəniz nəqliyyatı, avtomobil və dəmir yolları vasitəsi ilə təmin olunurdu. Son on ilə qədərki dövrdə Rusiyanın mülkiyyəti sayılan Rusiya-Belarus-Baltikyanı-Avropa, Rusiya-Türkiyə-Avropa, Rusiya-Ukrayna-Avropa, TRANSSİBİR-Qafqaz-İran-Fars körfəzi və Aralıq dənizi, Rusiya-Çin-Yaponiya-Sakit okean və digər marşrutlar- quru, dəmir yolu və dəniz nəqliyyatı, dəhlizlər və s. nə qədər əlverişsiz və uzaq olsa da, Qərblə Şərqi birləşdirən yeganə dəhliz sayılırdı. Rusiyanın TRANSAVRASİYA, TRACEKA, TRANSQAFQAZ nəqliyyat dəhlizlərinə bu qədər həssas yanaşmasının əsas səbəbi də, mütəxəssislərin fikrinə görə, bu marşrutların həm daha sərbəst və geosiyasi cəhətdən azad olması, həm iqtisadi və məsafə baxımından, həm də səmərəliliyinə görə daha əlveriçli olması, bu səbəblərdən də qlobal dünyanın diqqətini ciddi şəkildə özünə cəlb etmsi, beynəlxalq dəstək qazanmasıdır.

Rusiya, 90-cı illərin sonundan başlayaraq, TRANSAVRASİYA marşrutunun- Şərq-Qərb nəqliyyat-kommunikasiya əlaqələrində itirdiyi strateji mövqeləri bərpa etmək məqsədi ilə, yeni alternativ layihələr düşünməyə və reallaşdırmağa başlamışdır. Məsələn, Azərbaycanın Xəzər dənizindəki bərə daşımaçılığındakı üstün mövqelərini aradan qaldırmaq üçün, Rusiya Xəzər dənizindəki Mahaçqala və Həştərxan limanlarını yeniləşdirmək, bu limanlar vasitəsi ilə İranın Ənzəli və Nouşəhr limanları arasında bərə daşımasılığı yaratmaq, Fars körfəzi vasitəsi ilə Aralıq dənizinə çıxmaq üçün ciddi işlərə başlamışdır. Hazırda, Rusiya bu marşrutla ildə təxminən 10 mln. tona yaxın yükü İrandan Rusiyaya və digər Şimal ölkələrinə, Şimaldan isə İrana və Fars körfəzi vasitəsi ilə digər Aralıq dənizi ölkələrinə nəql edir. Rusiya həm də bu limanlar vasitəsilə, Qazaxıstanın zəngin neft ehtiyatlarını, xüsusən Tengiz yatalaqlarından çıxarılacaq nefti Mahaçqalaya, oradan də-

mir yolu vasitəsilə Novorossiysk limanına daşımaq istəyir. Baxmayaraq ki, Şimali Qafqaz və Çeçenistandakı kriminal və qeyri-sabit vəziyyət, hələ ki bu planı reallaşdırmağa imkan vermir. Hətta, Rusiya, 1997-ci ildə Çeçenistandan yan keçən 78 km. yeni yol çəkərək, TRANSQAFQAZ nəqliyyat dəhlizlərinə ciddi alternativ yaratmağa çalışırdı, lakin o layihələr də hələ ki, elə bir ciddi effekt verməyib.

Rusiyanın bu istiqamətdə əsas cəhdlərindən biri də Həştərxandan Elistaya (Kalmıkiya) qədər olan 220 km. məsafəni dəmir yolu vasitəsi ilə birləşdirmək və bu istiqamətdə Xəzər dənizi daşımaçılığını özünün mərkəzi dəmir yolu sisteminə birləşdirməyə yönəlibdir. Bu ideya Sovet hökuməti dövründə irəli sürülsə də, 80-ci illərdə onun reallaşdırılması dayandırıldı, hazırda Rusiya bu istiqamətdə işləri davam etdirir.

Bundan başqa, Rusiya Volqa çayının, Volqa-Don kanalının imkanlarından və geostrateji üstünlüklərindən istifadə etməklə, Həştərxanı Xəzərin əsas bərə və yük tranzit mərkəzinə çevirmək, İran və Cənubi Qafqazdan gələn yükləri bu limana yönəltmək və Həştərxandan dəmir yolu, yaxud Volqa-Xəzər kanalı ilə Asiyaya, Baltikyanı ölkələrə yönəltməklə məsələsində də xüsusi iş aparır. Bu məqsədlə, 1993-cü ildən Rusiyada xüsusi dövlət proqramı çərçivəsində iş gedir.

Rusiya, Həştərxan limanı ilə Ənzəli və digər İran limanları arasında xüsusi sərmayə qoyaraq, bu marşrut üzrə 1993-cü ildə həyata keçirilmiş cəmi 12 min ton mal daşımasını 2010-cu ildə təxminən 1 mln. tona çatdıra bilmişdir. Hazırda Həştərxanın 100 km.lik məsafəsində yeni bir böyük liman istifadəyə verilmişdir ki, ruslar bu liman vasitəsi ilə bərə daşımaçılığını inkişaf etdirmək və qeyd etdiyimiz kimi, mümkün olsa Orta Asiyanın neft məhsullarını öz ərazisi vasitəsi ilə ixrac etmək istəyirlər.

Digər yandan ruslar, həmçinin Bakı-Türkmənbaşı və Bakı-Aktau (Qazaxıstanı) limanlarını və dəniz daşımaçılıqları-

nın alternativlərini yaratmaq məqsədi ilə Həştərxanda bəzi inşaat-təşkilati işlər görməkdədirlər. Bunları etməkdə onların əsas məqsədi İrandan və Türkiyədən Azərbaycana gələn, oradan isə həmin limanlar vasitəsi ilə Mərkəzi Asiyaya- Çinə daşınan malları Həştərxana yönəltmək və oradan da öz nəqliyyat vasitələri ilə sonrakı ölkələrə ixrac etməkdir.

Hazırda Rusiyada bəzi ictimai dairələr, ölkənin TRANS-AVRASİYA, TRACEKA və xüsusən də, TRANSQAFQAZ nəqliyyat-kommunikasiya dəhlizlərinə alternativ yaratmaq məqsədi ilə xərclədiyi milyardlarla dollar vəsaitin səmərəsiz olması ideyasını irəli sürərək, Rusiyanın bu tipli layihələrə baş qoşmaqdansa, elə onlara qoşularaq bu layihələrdə ciddi pay sahibi olmasını, öz məhsullarını məhz bu marşrutla Avropaya və dünyaya daşımasını daha səmərəli hesab edir.

Rusiya və Ermənistan TRACEKA layihəsindən kənarda qalan yeganə iki ölkədir. Bu ölkələrdən Ermənistan Cənubi Qafqazda yürütdüyü işğalçılıq siyasətinə görə Azərbaycan tərəfindən layihədən kənarda saxlanılmışdısa, Rusiya bir rəqib kimi TRACEKA layihəsinin fəaliyyətinə qarşı çıxmış və onda iştirakdan imtina etmişdir. Halbuki, mütəxəssislərin fikrincə, TRACEKA nəqliyyat-kommunikasiya sisteminin mövcudluğu bəlkə də ən çox Rusiya üçün öz mallarını Avropa və Asiyaya göndərmək baxımından sərfəlidir. Rusiyalı geosiyasi analitiklər Qərbin, ilk növbədə isə Birləşmiş Ştatların və AB-nin Rusiyadan yan keçən qlobal alternativ Avrasiya nəqliyyat-kommunikasiya dəhlizi yaratması ideyasını faktiki olaraq, Moskvanın Avrasiyadakı nəqliyyat monopoliyasına son qoymaq cəhdi kimi qiymətləndirirlər. Onların bu dəyərləndirməsi əsaslıdır və 1995-ci ildə ABŞ-da nüfuzlu dünya siyasətçilərinin, politoloqların iştirakı ilə keçirilmiş beynəlxalq konfransda da açıq şəkildə bəyan edilmişdir ki, Rusiyanın planetin hazırkı transmilli infrastruktur dəhlizlərinə birtərəfli şəkildə nəzarət etmək planı, dünya siyasətində dominantlıq üçün əsas vasitə hesab olunur.

Mütəxəssislərin fikrinə görə, Rusiyanın yeni TRANSAVRASİYA layihələrinə müqavimətinin əsasında SSRİ dönəmində bölgənin nəqliyyat-kommunikasiya sistemində oynadığı geosiyasi və geoiqtisadi rolu getdikcə itirməsi faktı dayanır və bu səbəbdən də o, xarici aləmə ciddi müqavimət göstərməyə çalışır. Vaxtilə SSRİ Avropa ilə Asiyanı birləşdirən bütün nəqliyyat sisteminin təkbaşına sahibi idi və ildə yalnız Şərq-Qərb, Şimal-Cənub tranzit daşımalarından milyardlarla dollar gəlir götürürdü. Sovet İttifaqının dağılmasından sonra isə bu tranzit yollarının böyük əksəriyyəti keçmiş sovet respublikalarının, o cümlədən Azərbaycanın, Gürcüstanın, Ukraynanın və b. müstəqil ölkələrin ərazilərində qalmışdır. Yalnız bir faktı söyləmək kifayətdir ki, 1990-cı illə müqayisədə, Avrasiyanın ən böyük nəqliyyat sistemi hesab olunan TRANSSİBİR dəmir yolu ilə daşınan yüklərin ümumi həcmi 6 dəfə, konteyner daşımaları isə 8 dəfə azalıb. Digər tərəfdən, nəqliyyat-kommunikasiya sahəsində aparıcı mövqelərini bərpa etməyə çalışan Rusiya, artıq əvvəlki illərdəki monopolist imkanlarından məhrum olaraq dünya birliyi tərəfindən dəstəklənən yeni iri alternativ layihələrlə ciddi rəqabət aparmaq məcburiyyətində qalır.

TRASEKA-nın yaranmasına mane ola bilməyən Rusiya öz ərazisinin Avrasiya qitəsinin, təxminən, 30 faizini təşkil etdiyini nəzərə alaraq, Avropa ilə Asiya arasındakı ənənəvi nəqliyyat körpüsü rolunu və geosiyasi güc mərkəzi funksiyasını əlində saxlamaq üçün yeni-yeni cəlbedici və praqmatik təkliflərlə çıxış etmək zorunda qaldı. Məsələ burasındadır ki, Avropa Birliyinin fəaliyyət göstərən 9 beynəlxalq nəqliyyat dəhlizindən 3-ü məhz Rusiyanın ərazisindən keçir. Rusiyalı ekspertlərin hesablamalarına görə, bu ölkə Avropa-Asiya yükdaşımalarının təxminən, 15 faizini "nəzarətə götürmək" iqtidarındadır. İnkişaf etmiş ölkələrin illik ixracat həcminin 250 milyard dollara çatdığını nəzərə alsaq, söhbət külli-miqdarda vəsaitdən gedir. Odur ki, Moskva reallaşdırılan və onun ərazisindən yan

keçən istənilən yeni layihələrin "qeyri-rentabelli və effektsiz" olması haqda ictimaiyyətdə təsəvvür formalaşdırmaqla yanaşı, həm də yeni-yeni alternativ planlarla çıxış edir. Məsələn, Rusiya hökumətinin qəbul etdiyi "Beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı" federal proqramı bu ölkənin keçmiş aparıcı mövqelərinin başqa vasitələrlə bərpasına yönəlibdir.

ŞİMAL-CƏNUB NƏQLİYYAT-KOMMUNİKASİYA MARŞRUTUNUN BİRLƏŞDİRDİYİ ÖLKƏLƏR



Xəritə 37.

Yaxud, 2000-ci il sentyabrın 12-13-də Rusiyanın təşəbbüsü ilə Sankt-Peterburqda Nəqliyyat məsələlərinə dair II Beynəlxalq Avrasiya Konfransı keçirilib və burada 37 ölkədən 500-dən artıq nümayəndə iştirak edib.[351] Bu tədbirdə iştirak edən Rusiyalı ekspertlər və rusiyapərəst xarici mütəxəssislər bu ölkənin ərazilərindən istifadənin, onun nəqliyyat kommunikasiyaları və yükdaşıma imkanlarının Avrasiyanın transmilli

[351] Bax: http: // www.unece.org.

iqtisadi-ticarət əlaqələrinin möhkəmlənməsi baxımından əhəmiyyətini sübut etməyə ciddi cəhd göstəriblər. Bu konfransda Şərqi Avropanı Yaxın Şərq və Cənubi Asiya ilə birləşdirəcək **"Şimal-Cənub"** nəqliyyat dəhlizinin yaradılmasına dair sənəd imzalanıb. Qeyd edək ki, bu dəhliz TRACEKA-ya alternativ olaraq Rusiya, Hindistan və İran tərəfindən ortaya atılan bir layihədir. Lakin Azərbaycan öz geosiyasi və geoiqtisadi maraqlarından çıxış edərək bu layihəyə də qoşulmağa məmnuniyyətlə razılıq vermişdir.

Bəhs olunan nəqliyyat-kommunikasiya dəhlizi layihəsi Hindistandan gələn yüklərin gəmi vasitəsilə Süveyş kanalından keçərək, Ümid burnunu dolanmaqla İranın Bəndər-Abbas limanına çatdırılmasını, buradan da dəmiryolu vasitəsi ilə Azərbaycan ərazisindən keçməklə Rusiya və digər ölkələrə ötürülməsini nəzərdə tutur.

Avropa-Asiya nəqliyyat-kommunikasiya dəhlizlərinin TRANSQAFQAZ xətti üzrə yerləşən ən mühüm tranzit ölkələri **Azərbaycan** və **Gürcüstandır**. Gürcüstan Azərbaycan TRANSXƏZƏR magistralının Xəzərlə Qara dəniz ortasındakı heç bir kənar dövlətin geosiyasi təsirinə daxil olmayan müstəqil dəhlizinin Şərq, Gürcüstan isə Qərb hissəsini yardır. Gürcüstanı Azərbaycanla birləşdirən dəmir yolu və avtomobil yolları faktiki olaraq TRACEKA layihəsinin ən strateji və mühüm sahəsini təşkil edir. Onun Qara dənizdəki Poti, Batumi, Kulevi dəniz limanları bir tərəfdən, Azərbaycan və Orta Asiyanın neft məhsullarını, kənd təsərrüfatı və digər məhsullarını Avropaya daşımaq, digər tərəfdən Avropadan gələn sənaye mallarının Mərkəzi Asiya və Cənubi Şərqi Asiyaya daşınmasında mühüm bir vasitədir. 1993-ci ildən başlayaraq AB və ABŞ-ın TASİS, TPACEKA və b. proqramlarıı çərçivəsində Gürcüstanın dəmir və avtomobil yolları, dəniz limanları və digər nəqliyyat infrastrukturları yenidən qurulmuş və yeniləşmişdir. Son zamanlar, Azərbaycanın və Orta Asiya ölkələrinin neft və qazının Gür-

cüstan limanları hesabına təkcə Qara dəniz və borular vasitəsilə Türkiyəyə deyil, eyni zamanda, Ukraynaya, Bolqarıstan və Rumıniyaya, Bakı-Tbilisi-Odessa, Bakı-Tbilisi-Varna və Bakı-Tbilisi-Konstanta kimi gələcək marşrutlarla nəqli məsələsi də aktuallaşmaqdadır.

Orta Asiya və Xəzər hövzəsi ölkələrindən xarici aləmlə kommunikasiya imkanları həddən artıq məhdud olan **Türkmənistanın** da TRANSAVRASİYA beynəlxalq nəqliyyat-kommunikasiya sisteminin yaradılmasında və istifadəsində çox böyük maraq vardır. Enerji qaynaqları ilə həddən artıq zəngin olan bu Türkmənistan TRANSXƏZƏR sistemində həm əhəmiyyətli bir mövqeyə malikdir, həm də reallaşacağı təqdirdə öz maraqları çərçivəsində bu layihədən ən çox bəhrələnəcək ölkələrdən biri hesab olunur. Türkmənistanın geoiqtisadi maraqlarında həm Şərqə, həm də Qərbə çıxış, müstəqil nəqliyyat-kommunikasiya dəhlizlərinə malik olmaq, həm bu dəhlizlərin istifadəsindən tranzit gəlirləri əldə etmək, həm də ən əsası, öz məhsullarını beynəlxalq qarantiya altında heç bir kənar təsirə məruz qalmadan dünya bazarlarına çıxarmaq məsələsi mühüm yer tutur. Bu məqsədlə, 1993-cü ildə Türkmənistan prezidenti "Türkmənistan nəqliyyat infrastrukturunun inkişafı haqqında" xüsusi bir sərəncam imzalamış və öz ölkəsinin bütün şəhər və yaşayış məskənləri, dəniz və dəmiryolu limanları arasında yeni dəmir və avtomobil yollarının çəkilməsi, onların elektrikləşdirilməsi vəzifəsini irəli sürmüş və qısa müddətdə, təxminən min kilometrdən artıq təkcə dəmir yolu inşa etmişdir.

1998-ci ildə Türkmənistan Milli Məclisi "Dəmir yolları nəqliyyatı haqqında" Qanun qəbul etmişdir ki, bu qanuna görə, bütün ölkə ərazisində dəmir yollarının fəaliyyəti təkmilləşdirilmişdir. Bunun ardınca, Türkmənistan qısa müddət ərazində öz ərazisindən keçən bütün magistral avtomobil yollarını yenidən qurmuş və dünya standartlarına uyğunlaşdıraraq, öz ərazisi ilə Orta Asiyanın digər respublikalarına, oradan isə

Çinə və Cənub Şərqi Asiya ölkələrinə gedən nəqliyyat əlaqələrini təkmilləşdirmişdir. Bir sözlə, Türkmənistan TPACEKA layihəsi çərçivəsində Cənubi Qafqazla Cənub Şərqi Asiya və Orta Asiyanın digər respublikalarınə birləşdirən və ona məxsus olan bütün nəqliyyat infrastrukturlarını lazımi standartlara uyğunlaşdırmışdır.

Bundan başqa, Türkmənistan Xəzərin Çənub hissəsində, TRANSAVRASİYA xətti üzrə həsmsərhəd olan İranla 320 kilometrlik yeni Tecan-Sera-Məşhəd yolunu inşa etmişdir. Bu yol Türkmənistanın dəniz, quru və dəmiryolu nəqliyyat sistemi ilə Fars körfəzini birbaşa birləşdirərək, Asiya-İran və Aralıq dənizi reallaşmasına şərait yaratmışdır. Bəhs olunan marşrut, həm də Qazaxıstan, Özbəkistan, Türkmənistanı İran və Türkiyə ilə birləşdirmək üçün Cənubi Qafqaz yoluna alternativ bir marşrut hesab olunur. Yol 1996-cı ildə istifadəyə verilib ki, onun da 132 kilometri Türkmənistan ərazisindən keçir. Mütəxəssislərin hesablamalarına görə, bu yol vasitəsi ilə İstanbul-Tehran-Sera-Türkmənistan-Özbəkistan-Qazaxıstan-Çin marşrutu üzrə sutkada təxminən 150 vaqon, ildəsə orta hesabla 10 milyon tona yaxın yük daşınır.Türkmənistan öz ərazisindən Rusiya, Ukrayna, Belarus, Pribalitka və Qazaxıstandan gələn bir çox yükləri də həmin yol vasitəsi ilə İrana, Türkiyəyə və Fars körfəzi vasitəsilə Qara dənizə göndərir.

Türkmənistan həm TRANSAVRASİYA, həm də TRANSQAFQAZ sistemi çərçivəsində hazırda ciddi yükdaşımaları həyata keçirir. O, Cənubi Qafqaz ölkələrinin bəzi yüklərini də bəhs olunan yolla Xəzər dənizindən bərə vasitəsi ilə Türkmənbaşı limanına, orada isə dəmir yolu vasitəsilə ilə İrana, digər Orta Asiya respublikalarına və Çinə göndərmək istəsə də, Azərbaycan və Gürcüstan marşrutu ilə rəqabətdə nisbətən uzaq və bahalı olduğu üçün, həmin marşrut sərfəli hesab olunmur. Əvəzində, Türkmənistan Cənubi Qafqaz ölkələrinin bəzi mallarını bəhs olunan marşrutla Hindistan və Pakistana, sonun-

culardan gələn malları isə İran vasitəsilə Avropaya göndərmək istiqamətində ciddi iş aparır.

Orta Asiya və Xəzər hövzəsinin nəqliyyat-kommunikasiya infrastrukturunda mühüm mövqeyə malik olan dövlətlərdən biri də **Qazaxıstandır.** Qazaxıstan 90-cı illərdən başlayaraq, öz tranzit əhəmiyyətini saxlamaq və transmilli geoiqtisadiyyatda getdikcə mərkəzi mövqelərdən birini qazanmaq üçün, ona məxsus avtomobil və dəmir yollarının, daşıma vasitələrinin təkmilləşdirilməsi və yenidən qurulması, Xəzər dənizində mövcud olan liman və terminalların müvafiq standartlara gətirilməsi istiqamətində mühüm işlər həyata keçirir. 1996-cı ildə Qazaxıstanın beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizlərini inkişaf etdirmək və yeniləşdirmək haqqında xüsusi dövlət proqramı qəbul edilmiş və keçən müddətdə bu sahədə çox ciddi işlər görülmüşdür. Hazırda ölkənin paytaxtı Astananı Qazaxıstanın digər bölgələri ilə birləşdirən sürətli avtomobil və dəmir yolları, Qazaxıstanın dəmir yolu və dəniz limanlarını bir-biri ilə bağlayan Aktoköy-Dostluq dəmir yolu, Dostluq-Çinlə dövlət sərhədini birləşdirən dəmir və avtomobil yolu, Beynay-Manqışlaq dəmir yolu və s. beynəlxalq nəqliyyat-kommunikasiya infrastrukturlarının salınmasını qeyd etmək olar.

Qazaxıstan 1991-ci ildən başlayaraq, Dostluq stansiyasından Hindistan, Koreya və Vyetnam istiqamətinə Azərbaycan və Türkmənistandan gələn, o cümlədən Avropadan göndərilən yüklərin daşınması məqsədi ilə, xüsusi bir dəhliz açılışı üzərində iş aparır və bu yol demək olar ki, hazırda fəaliyyət göstərir. Bundan başqa, bu ölkənin və Çinin təşəbbüsü ilə, müstəqillik illərində reallaşan TRANSÇİN dəmir yolu bütün Mərkəzi Asiya ölkələrindən keçməklə, 1996-cı ildən başlayaraq, fəaliyyət göstərir və Rusiyanın TRANSSİBİR marşrutu üzrə mövcud olan TRANSAVRASİYA əlaqələrinin həm məsafəsini, həm də iqtisadi səmərəliliyini xeyli geridə qoymuşdur. Avropanı Uzaq Şərqlə birləşdirən ənənəvi yollardan fərqli olaraq TRANSÇİN

dəmir yolu, beynəlxalq yükdaşımalarda getdikcə mühüm əhəmiyyət təşkil edir.

Qazaxıstanın xarici aləmə dəniz çıxışını təmin edən əsas liman Aktaudur. Bu liman 1963-cü ildə SSRİ zamanında tikilib və Qazaxıstanın zəngin taxıl, uran və metal məhsullarını xarici ölkələrə daşımaq məqsədi ilə istifadə olunub. Hazırda isə qazaxlar, Xəzər dənizinin Tengiz neft yataqlarında aşkarlanan zəngin karbohidrogen ehtiyatların dünya bazarlarına daşınması üçün Aktau limanına xüsusi sərmayə qoyurlar. Limanda yeni terminallar, gəmilərin və bərələrin yanaşması üçün lazımi qurğular tikilir və istifadə olunur. Limanın modernləşdirilməsi və yenidən qurulması üçün 500 mln. dollara yaxın vəsait qoyulmuşdur. Bu limanın əsas üstünlüklərindən biri ondan ibarətdir ki, onun suyu heç vaxt donmur, dənizin dibi həddindən artıq dərin olduğuna görə istənilən gəmini qəbul etməyə imkan yardır. Rusiyanın Xəzərin dibi ilə Mərkəzi Asiyanın neft və qaz ehtiyatlarını Azərbaycana, oradan da Türkiyə və Avropaya nəql etmək layihələrinə ciddi maneçilik törətməsindən sonra, Qazaxıstan Aktau limanından səmərəli istifadə etmək və öz neft ehtiyatlarının böyük hissəsini bu liman vasitəsilə Azərbaycana, İrana və Qərbə ixrac etmək istəyirlər. Gələcəkdə illik həcmi 25 mln. tona çatacaq qazax neftinin ixracını təmin etmək üçün, Qazaxıstan hazırda Xəzər dənizində özünü həm gəmi daşımaçılığını, həm də bərə-barja daşımaçılığını yaratmaq, Azərbaycanın bu sahədəki monopolist mövqeyinə son qoymaq məqsədi ilə çalışır.

Orta Asiya və Xəzər hövzəsinin nəqliyyat-kommunikasiya sistemində **Özbəkistanın** da mühüm rolu vardır. Bu ölkə, həm Türkmənistan həm də Azərbaycan-Gürcüstan-Türkiyə vasitəsilə ilə öz məhsullarını TRANSAVRASİYA xəttinin Fars körfəzi istiqamətindəki xətti ilə dünya bazarlarına, TRANSQAFQAZ magistralı vasitəsi ilə isə Türkiyəyə və oradan Avropa ölkələrinə göndərir. Özbəkistan öz mallarının göndərilməsində

daha çox iqtisadi səmərəlilik faktoruna üstünlük verir və müvafiq olaraq həm Türkmənistan-İran marşrutu, həm də Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu ilə onların verdiyi müvafiq tariflərə uyğun olaraq mal göndərir.

Bundan başqa, Özbəkistandan Türkmənistan vasitəsi ilə TRANSAVRASİYA nəqliyyat sisteminə 78 kilometrlik çıxışı onu Səmərqənd-Səngəldi (Qazaxıstan stansiyası arasındakı dəmir yolu) vasitəsilə həm də TRANSQAFQAZ layihəsində əlaqələndirici ölkə vəziyyətinə gətirir.

Orta Asiya və Xəzər hövzəsinin nəqliyyat-kommunikasiya əlaqələrində **Tacikistan və Qırğızıstanın** da müəyyən rolu vardır. Düzdür, bölgənin digər ölkələri ilə müqayisədə onlar TRANSASİYA nəqliyyat sistemində mühüm və həlledici həlqə olmasalar da, bu ölkələrin hər birinin özünəməxsus rolu vardır. Hazırda, Tacikistan vasitəsilə ilə Çin və Pakistana dəmir yolu və avtomobil yolunun çəkilməsi layihələri həyata keçirilir ki, bu layihənin də əsas mahiyyəti Çinin və Pakistanın Hind okeanına və Hindistana nəqliyyat əlaqələrini təmin etməkdir. Lakin bəhs olunan layihə maliyyə çatışmazlığı ucbatından hazırda yalnız ideya olaraq qalır. O ki qaldı Qırğızıstana, bu ölkənin TRANSAVRASİYA və TRANSQAFQAZ beynəlxalq nəqliyyat sistemində iştirakı yaxın zamanlarda istifadəyə verilməsi gözlənilən 600 kilometrlik Oş-Çin avtomobil və dəmir yolunun inşası üzərində qurulub. Əsas maliyyəsinin 70%-ni Çinin ödədiyi və illik 5 mln. ton buraxılış gücü olacaq bu layihənin reallaşması gələcəkdə TRACEKA layihəsinin daha 35-40% daha yaxın və ucuz başa gəlməsinə şərait yarada bilər. Yolun uzunluğu 600 km. olacaq.

Avropa-Asiya əlaqələrindəki ənənəvi və alternativ transmilli nəqliyyat-kommunikasiya sistemindən çox əlverişli ərazisi olmasına baxmayaraq kənarda qalan yeganə bölgə ölkəsi **Ermənistandır.** Baxmayaraq ki, bu ölkənin ərazisi Azərbaycanı Türkiyə ilə birləşdirə biləcək ən əlverişli dəmir və avto-

mobil yolu, enerji ixracı marşrutu hesab oluna bilərdi, qonşularına qarşı yürütdüyü işğalçılıq siyasətinə və ərazi iddiasına görə Azərbaycan bu ölkəni demək olar ki, bütün nəqliyyat marşrutlarından kənarda qoymuşdur. Ermənistanın Türkiyə ilə Gürcüstan arasında da kifayət qədər əlverişli nəqliyyat-kommunikasiya və digər geoiqtisadi mövqeyə malik olmasına baxmayaraq, Türkiyə də bəlli səbəblər üzündən onu beynəlxalq yükdaşımalardan təcrid etmişdir.

Hazırda, bəzi erməni geostrateqləri öz fantaziyalarını işə salaraq, hansısa mövcud olmayan "Ermənistan-Mehri-İran ərazisi vasitəsi ilə guya Yaxın Şərqə, yaxud İran-Ermənistan-Gürcüstan vasitəsi ilə Cənub Şərq istiqamətinə, yenə Ermənistan-Mehri-İran vasitəsilə Mərkəzi Asiya ölkələrinə" nəqliyyat-kommunikasiya sistemlərinin layihələndirilməsi və həyata keçirilməsindən bəhs edirlər. Lakin Ermənistanın mövcud vəziyyəti, ərazilərinin xüsusi çətin dağlıq relyeflə əhatə olunması, xaricə çıxış sistemlərinin yoxluğu, nəqliyyat sisteminin bərbadlığı və s. kimi səbəblər bu layihələrin reallaşdırılmasına nəinki bu gün, heç gələcəkdə də heç bir imkan vermir.

§ 3.3. Azərbaycanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda həyata keçirdiyi transmilli nəqliyyat-kommunikasiya siyasəti və onun bölgənin geoiqtisadi vəziyyətinə təsiri

Orta Asiya, Xəzər-Qara dəniz hövzəsinin və Cənubi Qafqazın dünyaya açılan nəqliyyat-kommunikasiya sistemində ən mühüm həlqələrdən birini Azərbaycan Respublikası təşkil edir. Azərbaycanın dəniz, avtomobil yolları və dəmir yolu nəqliyyatı müstəqillik illərində ciddi yenidənqurmaya məruz qalmış və demək olar ki, əksər xarici ölkələrlə bu respublikanı bağlayan

nəqliyyat-tranzit infrastrukturları yenidən qurulmuş, və yaxud təzəsi ilə əvəzlənmişdir. *Hazırda Azərbaycanı Gürcüstan və Qara dənizlə birləşdirən Bakı-Tbilisi avtomobil və dəmir yolu, Bakı-Poti konteyner daşımaçılığı, İranla birləşdirən Bakı-Astara dəmir və avtomobil yolu, Bakı-Biləsuvar və Naxçıvan-Culfa avtomobil, dəmir yolu, Türkiyə ilə Gürcüstan vasitəsi ilə mövcud avtomobil yolu və hazırda çəkilişi reallaşdırılan Bakı-Tbilisi-Qars dəmir yolu, Orta Asiya ilə Azərbaycanı birləşdirən Bakı-Türkmənistan, Bakı-Qazaxıstan bərə daşımaçılığı* və s. bu ölkəyə imkan verir ki, Avropa ilə Asiya arasındakı nəqliyyat-kommunikasiya əlaqələrində öz strateji mövqeyini qoruyub saxlasın və davam etdirsin.

Avropa Birliyinin xətti ilə 1993-cü ildən reallaşdırılan TRACEKA layihəsinin mərkəzinin Azərbaycan olması da məhz onun bu əlaqələrdə oynadığı rol və malik olduğu mərkəzi mövqe ilə bağlıdır. İki ilə istifadəsi nəzərdə tutulan Bakı-Tbilisi-Qars dəmir yolunun illik istifadə gücü, təxminən 250 min ton planlaşdırılır ki, bu da Çindən Avropaya qədər olan bütün transmilli yükdaşımaların mühüm bir hissəsini təşkil edəcəkdir.

Azərbaycanın Avrasiyanın nəqliyyat-tranzit əlaqələrindəki əlverişli mövqeyi, həm də onunla ölçülür ki, bu ölkə, həm bütövlükdə TRANSAVRASİYA, həm də onun tərkib hissəsi olan TRACEKA, TRANSQAFQAZ və s. marşrutlarda iştirak etmək üçün əlverişli məkan xarakteristikasına və nəqliyyat-tranzit infrastrukturuna malikdir. Faktiki olaraq, Astara, Biləsuvar və Culfa stansiyasından İrana həm dəmir və avtomobil yolu imkanları, həm də Xəzər vasitəsilə İranın Ənzəli, Nouşəhr limanlarına çıxışı olan Azərbaycan, TRANSAVRASİYA xətti ilə Sakit okean, Çin və Hindistandan gələn yükləri, istər Türkmənistandan Xəzər bərə daşımaçılığı vasitəsi ilə, istərsə də İran-

dan dəmir, avtomobil və Xəzər su daşımaçılığı infrastrukturu ilə Rusiyaya, Gürcüstana, Qara dəniz limanlarına, oradan da Avropaya nəql etmək imkanına malikdir.

Azərbaycan TRANSQAFQAZ nəqliyyat infrastrukturunun mərkəzi ölkəsi kimi, eyni əlaqələri yenə də Gürcüstan, Xəzər dənizi, Türkmənistan və Orta Asiyanın digər ölkələri vasitəsi ilə Çinə və Cənub Şərqi Asiya ölkələrinə təmin etmək imkanına malikdir. Məhz elə bunun nəticəsidir ki, yaradılması ideyası ilk dəfə, hələ 90-cı illərdə irəli sürülən Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri məsələsinin ortaya qoyulduğu, Azərbaycanın, Özbəkistanın, Türkmənistanın, Gürcüstan prezidentlərinin iştirak etdiyi Seraxs toplantısında və Birgə Sazişin imzalanmasında Azərbaycan aparıcı ölkələrdən biri kimi iştirak etmiş, bəhs olunan sazişin yaradıcılarından birinə çevrilmişdir. Sonradan 92-ci ildə ideyası irəli sürülmüş və 96-cı ildə dövlətlərarası sazişlə təsdiq olunmuş bu layihə, sonrakı illərdə digər Mərkəzi Asiya ölkələrini, Ukrayna, Moldova, Belorus, Rumıniya və b. Qara dəniz hövzəsi ölkələrinin də diqqətini cəlb etmiş və onlar həmin sazişə qoşulmaq haqqında bəyanat vermişlər.[352] Azərbaycan həmçinin, son zamanlar Qazaxıstan və Çini birləşdirən dəmir yolu daşımaçılığında da əsas ölkələrdən biri kimi bu yüklərin sonrakı daşımaçılığı və Avropaya çatdırılmasında ən yaxın və əlverişli TransQafqaz nəqliyyat dəhlizinin üzərində yerləşir.

Mütəxəssislər hesab edir ki, hər bir ölkə kimi Azərbaycanın da milli maraqları əhəmiyyətli dərəcədə onun nəqliyyat-kommunikasiya və əlaqələndirmə infrastrukturlarının səviyyəsi və beynəlxalq sistemlərlə təhlükəsiz bağlılığından asılıdır. Bu həm də ölkənin nəqliyyat-dəhliz və infrastruktur maraqlarının dolğun təmin olunmasının əsas şərtini təşkil edir.

[352] Bax: "Независимая газета", 1997, 20 июня.

Geoiqtisadi anlamda nəqliyyat-kommunikasiya maraqlarının təhlükəsizliyi mövcud sahə üzrə milli maraqların əsas ölçülərinin müəyyənləşdirilməsini, dövlətin daxili və xarici aləmlə bağlayıcı nəqliyyat sisteminin ahənğdar işinin qurulmasını, ona təhlükə yaradan amillərin aşkarlanması və qarşısının alınmasını nəzərdə tutur. Nəqliyyat-kommunikasiya maraqlarının təhlükəsizliyinin təmin edilməsinin əsas məqsədi milli nəqliyyat kompleksinin sabit və təhlükəsiz inkişafına nail olunmasından, bu sahəyə hər hansı qanundankənar daxili və xarici müdaxilə imkanlarının qarşısının alınmasından və s. vəzifələrdən ibarətdir.

Qeyd olunduğu kimi, Azərbaycanın Xəzər-Qara dəniz dənizi hövzəsi və Cənubi Qafqazdakı əlverişli geostrateji və coğrafi mövqeyi ona həm Şərq-Qərb, həm də Şimal-Cənub əlaqələrində körpü kimi çıxış etməyə imkan verir. Lakin tarix boyu müstəqil dövlətinin olmaması və yaxud müstəqil siyasət yürüdə bilməməsi üzündən bu əlverişli mövqedən ölkənin ümumi geosiyasi və geoiqtisadi maraqlarına uyğun şəkildə istifadə etmək mümkün olmamışdı. Yalnız, 1991-ci ildə yenidən öz müstəqilliyinə qovuşduqdan sonra Azərbaycan özünün bu üstün geosiyasi və geoiqtisadi vəziyyətindən, ölkəsinin əlverişli coğrafi imkanlarından yararlanmağa başlamışdır.

1993-cü ildə respublikanın beynəlxalq əhəmiyyətli qlobal nəqliyyat-kommunikasiya xətlərinin və dəhlizlərinin kəsişdiyi əlverişli coğrafi məkanda yerləşməsini nəzərə alaraq, prezident Heydər Əliyev bu sahənin yenidən qurulması və modernləşdirilməsi siyasətini ölkənin inkişaf strategiyasının əsas prioritetlərindən biri kimi müəyyənləşdirdi və reallaşdırılması imkanlarını səfərbər etməyə başladı. Bu strateji geoiqtisadi kurs Azərbaycanın son illərdə yürütdüyü transmilli nəqliyyat-kommunikasiya dəhlizləri siyasətinin də əsasını təşkil etmişdir.

Prezident İlham Əliyevin imzaladığı 24 noyabr 2004-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanında və 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair" Dövlət Proqramında ölkənin bütün nəqliyyat-kommunikasiya şəbəkəsinin modernləşdirilməsinə və yenidən qurulmasına xüsusi diqqət ayrılıb.

2004-cü ildən etibarən Azərbaycan hökuməti daxili nəqliyyat-kommunikasiya infrastrukturunun inkişaf etdirilməsi, ölkəni xarici dövlətlərlə birləşdirən quru, dəniz, hava və dəmir yolu strukturlarının, yol və limanların, nəqliyyat və daşıma vasitələrinin yeniləşdirilməsi və yenidən qurulması üçün iri investisiya layihələri həyata keçirmiş və bu gün də keçirməkdədir. Təkcə 2008-ci ildə ölkədə yol-nəqliyyat və digər bu yönlü infrastrukturunun genişləndirilməsi və yenidən qurulmasına 2 milyard manatdan artıq vəsait ayrılmışdır.

Regionda və ümumilikdə dünyada gedən qlobal geoiqtisadi prosesləri nəzərə alan Azərbaycan hökuməti özünün beynəlxalq və regional inteqrasiya proseslərindəki mənafeləri baxımından olduqca vacib olan transmilli yükdaşıma, nəqliyyat-kommunikasiya dəhlizlərinin yaradılması prosesinə qoşulmaq işinə xüsusi önəm verir və Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin mərkəzində dayanmağa çalışır.

Azərbaycanın yerli, regional və transmilli nəqliyyat-kommunikasiya siyasətinin əsasları və vəzifələri "Nəqliyyat haqqında" Azərbaycan Respublikası qanununda və "Nəqliyyat sektorunun inkişafı Strategiyası"nda müəyyən edilmişdir. Həmin vəzifələr aşağıdakılardan ibarətdir:

- nəqliyyat təhlükəsizliyinin təmin olunması sahəsində normativ hüquqi bazanın yaradılması və təkmilləşdirilməsi;

- nəqliyyat sektoruna qarşı yönəlmiş təhdidlərin müəyyənləşdirilməsi;
- nəqliyyat infrastrukturu obyektlərinin və nəqliyyat vasitələrinin kateqoriyalar üzrə qruplaşdırılması;
- nəqliyyat təhlükəsizliyinin təmin olunması sahəsində mütəxəssislərin hazırlanması;
- nəqliyyat təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi;
- nəqliyyat təhlükəsizliyinin informasiya və elmi-texniki vasitələrlə təmin olunması.[353]

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan geosiyasi və geoiqtisadi anlamda Şərq-Qərb, Şimal-Cənub nəqliyyat, kommunikasiya və tranzit-keçid əlaqələrinin mərkəzində yerləşir, beynəlxalq "açar", transmilli "körpü-bağlayıcı" mövqeyinə malikdir. O, özünün üstün geostrateji imkanlarını xarici aləmlə tranzit əlaqələrindən səmərəli istifadə etməklə reallaşdırır və beynəlxalq nəqliyyat-tranzit dəhlizlərinin yaradılmasında əsas vəsilələrdən biri kimi çıxış edir.

Zəngin təbii sərvətlərə, xüsusən də enerji ehtiyatlarına malik olması, Avrasiya qitəsində əlverişli geostrateji məkanda, nəqliyyat-keçid infrastrukturlarının mərkəzində yerləşməsi Azərbaycanın nəqliyyat siyasətinin məqsəd və vəzifələrinin müəyyənləşməsinə də ciddi təsir göstərir.

Əvvəla, Azərbaycan Gürcüstanla birlikdə Cənubi Qafqazın, Rusiya, Qazaxıstan və İranla birlikdə isə Xəzər hövzəsinin əsas tranzit infrastrukturlarına sahibdir. Bu da öz növbəsində ölkənin nəqliyyat-yol və ötürücü-keçid infrastrukturlarını müəyyən standartlara salmağı tələb edir.

[353] Bax: Nəqliyyat haqqında Azərbaycan Respublikasının Qanunu; Azərbaycan Respublikasının Nəqliyyat Sektorunun İnkişafı Strategiyası //http://www.mot.gov.az

İkincisi, əhəmiyyətli coğrafi ərazi xarakteristikasına, beynəlxalq nəqliyyat-tranzit imkanlarına malik olması ona inkişaf üçün ciddi geosiyasi və geoiqtisadi üstünlüklər qazandırmaqla yanaşı, nəqliyyat siyasətinin təmin edilməsində özünəməxsus problemlər də yaradır.

Daxili və transmilli nəqliyyat dəhlizlərinin və infrastrukturlarının yaradılması, onların təhlükəsiz istifadəsi yönündə Azərbaycan dövlətinin yürütdüyü geoiqtisadi siyasət aşağıdakı bir çox vəzifələrin reallaşdırılmasını nəzərdə tutur:

- yüklərin və sərnişinlərin ölkə ərazisində maneəsiz hərəkətinin təmin olunması və Avropa-Asiya nəqliyyat sistemlərinin inteqrasiyası məqsədi ilə nəqliyyat infrastrukturunun razılaşdırılmış şəkildə inkişaf etdirilməsi;
- nəqliyyat sisteminin idarə olunmasında səmərəliliyin artırılması;
- intermodal nəqliyyat xətti üzrə ayrı-ayrı nəqliyyat növləri arasında qarşılıqlı əlaqənin səmərələşdirilməsi;
- beynəlxalq nəqliyyat dəhlizləri sahəsinə investisiya qoyulması üçün münbit şəraitin yaradılması;
- daxili daşımalarda milli nəqliyyat şəbəkəsinin yüklənmə dərəcəsinin artırılması;
- beynəlxalq turizmin inkişafına yardım edilməsi.[354]

Azərbaycanın qoşulduğu və yaxından iştirak etdiyi *TRANSAVRASİYA, TRACEKA, TRANSQAFQAZ, Şimal-Cənub beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi s.* transmilli layihələr

[354] Bax: Nəqliyyat haqqında Azərbaycan Respublikasının Qanunu; Azərbaycan Respublikasının Nəqliyyat Sektorunun İnkişafı Strategiyası //http://www.mot.gov.az

geosiyasi, geoiqtisadi və nəqliyyat-tranzit əlaqələrinin genişlənməsindəki roluna görə ölkənin milli maraqlarının təmin edilməsi sahəsində mühüm əhəmiyyətə malikdir.

Azərbaycan üçün geosiyasi və geoiqtisadi cəhətdən ən ciddi transmilli nəqliyyat-dəhliz əhəmiyyəti kəsb edən layihələrdən biri **TRACEKA** hesab olunur.[355] Bir çox dünya və region dövlətləri, Avropa İttifaqı ölkələri və beynəlxalq təşkilatlarla müştərək geoiqtisadi layihələrə qatılaraq, Şərqlə Qərbi birləşdirən qədim "İpək Yolu"nun üzərində qurulan bu transmilli layihədə onun iştirakı xüsusi regional əhəmiyyət daşıyır. Bu layihə Azərbaycana Avropa ilə öz strateji geoiqtisadi əlaqələrinin möhkəmləndirilməsi və genişləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiyası, beynəlxalq nəqliyyat qovşağının həlledici vəsiləsinə çevrilməsi və s. baxımından böyük imkanlar qazandırmışdır. Ötən illər ərzində TRACEKA proqramı çərçivəsində Azərbaycanın yaxından iştirakı ilə "Nəqliyyatın idarə edilməsinin treninqi", "Nəqliyyatın hüquqi və tənzimləyici çərçivəsi", "TRACEKA nəqliyyat dəhlizində vahid tarif siyasətinin tətbiqi", "Sərhəd-keçid qaydalarının sadələşdirilməsi", "Qafqaz dəmir yollarının bərpası" və onlarla digər texniki yardım və investisiya layihələri həyata keçirilmişdir.

Keçən müddətdə TRACEKA proqramı çərçivəsində çoxtərəfli sazişin şərtlərinin həyata keçirilməsi məqsədi ilə Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafı istiqamətində mühüm işlər görülmüşdür. Belə ki, TRACEKA nəqliyyat dəh-

[355] 1993-cü ilin may ayında 8 postsovet respublikasının (Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan və Ermənistan) iştirakı ilə Brüssel şəhərində Avropa Komissiyasının TRASEKA proqramının yaradılmasına dair konfrans keçirilmişdir ki, bunun da əsas təşəbbüskarları Azərbaycan və Gürcüstan olmuşdur. Konfransın yekunlarına əsasən, TRASEKA adlı nəqlyyat-kommunikasiya proqramının əsası qoyulmuş və iştirakçı dövlət rəhbərlərinin imzaladığı "Brüssel Bəyannaməsi" qəbul edilmişdir.

lizi üzrə beynəlxalq yük daşınması həcminin artırılması məqsədi ilə ölkənin su, quru, hava nəqliyyatı və dəmir yolu sektorunun texniki təchizatı yaxşılaşdırılmış, avtomobil magistrallarının, dəmir yolu xətlərinin, körpülərin bərpası və tikintisi, gəmilərin, bərələrin, liman qurğularının təmiri sahəsində mühüm addımlar atılmışdır. Bakı şəhərində ildə 10 milyon ton neft məhsullarının boşaldılıb yüklənməsinə imkan verən liman istifadəyə verilmişdir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının bərə terminalında yenidənqurma işləri aparılmışdır.

Avropa İttifaqı tərəfindən TRACEKA proqramının reallaşdığı dövr ərzində Azərbaycan Respublikasına investisiya layihələrinin maliyyələşdirilməsi üçün təxminən on milyonlarla avro həcmində vəsait ayrılmışdır. Proqramdan irəli gələn bu layihələrin həyata keçirilməsi məqsədi ilə ölkənin nəqliyyat-yol kompleksi üçün müxtəlif maliyyə institutlarından (Avropa Yenidənqurma və İnkişaf Bankı, Küveyt İqtisadi İnkişaf Fondu, İslam İnkişaf Bankı, Dünya Bankı və s.) yüz milyonlarla ABŞ dolları həcmində kreditlər alınmışdır.

Avropa-Qafqaz-Asiya ölkələri arasında alternativ, daha əlverişli avtomobil, dəniz və dəmir yolu nəqliyyatı vasitəsilə tranzit yüklərin daşınmasını təmin edən TRACEKA layihəsi keçən illərdə Azərbaycan iqtisadiyyatının inkişafında, ölkənin nəqliyyat infrastrukturunun formalaşmasında ciddi rol oynayıb. Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində aparıcı yer tutması respublikanın dünya ölkələri ilə geoiqtisadi inteqrasiyasının daha da dərinləşməsinə xidmət etmişdir. Bu isə nəinki iqtisadi, həm də siyasi sabitlik və təhlükəsizlik baxımından böyük əhəmiyyət daşımışdır.

Azərbaycanın həyata keçirdiyi transmilli tranzit-keçid dəhlizləri siyasəti sahəsində əldə olunmuş ən böyük geoiqtisadi

və geosiyasi uğurlardan biri də **Bakı-Tbilisi-Qars dəmir yolunun** inşası layihəsidir. Bu layihə ciddi regional əhəmiyyətə malik olmaqla yanaşı, XXI əsrdə Asiya ilə Avropanı birləşdirən ən mühüm transmilli nəqliyyat dəhlizinə çevriləcək və regionda təhlükəsizliyin daha da artırılmasına xidmət edəcək. (Bax: Xəritə 38)

ASİYA İLƏ AVROPANI BİRLƏŞDİRƏN TRANSMİLLİ DƏMİR YOLU LAYİHƏSİNİN BAKI-TBİLİSİ-QARS HİSSƏSİ



Xəritə38.

Ümumiyyətlə, bəhs olunan transmilli layihənin reallaşmasının əsasında Azərbaycan və onun maliyyə-texniki imkanları dayanmışdır. Layihənin meydana çıxması və inşası bir neçə mərhələdən keçmişdir. Belə ki, Türkiyə və Gürcüstan 1993-cü ilin ortalarından başlayaraq iki ölkə arasında dəmir yolunun birləşdirilməsi layihəsinin həyata keçirilməsini müzakirə edirdilər. Sonradan, 2002-ci ildə Türkiyə və Gürcüstanın nəqliyyat nazirlərinin İstanbul şəhərində keçirilmiş iclasında "Qars-Axalkalaki" adlanan dəmir yolu layihəsinin həyata keçirilməsi

barədə niyyət protokolu imzalanmışdır. Protokolda layihə üzrə hazırlıq işlərinə başlanılması nəzərdə tutulsa da, onun həyata keçirilməsi istiqamətində ciddi bir iş görülməmişdir. 14 iyun 2004-cü il tarixdə Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstana rəsmi səfəri zamanı Gürcüstandan Türkiyəyə qədər yeni dəmir yolunun çəkilməsi ideyasını irəli sürür və Azərbaycanın bu layihəyə hərtərəfli dəstək verməyə, layihədə iştirak etməyə hazır olduğunu bəyan etmişdir. Bunun ardınca, 2005-ci il mayın 25-də Bakı şəhərində, Azərbaycan, Gürcüstan və Türkiyənin prezidentləri Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısı layihəsinin həyata keçirilməsi işinin sürətləndirilməsi haqqında birgə bəyanat imzalamışlar. 2007-ci il yanvarın 12-13-də Tbilisi, 2007-ci il yanvarın 22-25-də isə Bakı şəhərində hər iki ölkənin müvafiq nazirliklərinin səlahiyyətli nümayəndələrinin iştirakı ilə görüşlər keçirilmişdir. Görüşlərdə "Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısı haqqında" və "Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda - Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında" hökumətlərarası saziş layihələrinin, həmçinin "Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsinin Marabda -Türkiyə Respublikası sərhədinə qədər dəmir yolu sahəsinin maliyyələşdirilməsi şərtləri haqqında kredit müqaviləsi" layihəsinin mətnləri müzakirə edilərək razılaşdırılmışdır.

Həmin dövrdə Azərbaycanın təkidi ilə Ermənistan bu layihədən kənarda saxlanılmışdır ki, bu da dərhal bəzi beynəlxalq təşkilatlar və dövlətlərin bu layihənin reallaşmasına mane olmaq üçün hərəkətə keçməsini şərtləndirmişdir. Ümumiyyətlə, Azərbaycanın iştirak etdiyi və Ermənistandan yan keçən bü-

tün beynəlxalq nəqliyyat-keçid və transmilli daşıma layihələrin reallaşmasına dünyada və regionda mane olmaq istəyən qüvvələr olub və bu gün də var. Amma Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri kimi transmilli enerji layihələri, əsasən, Rusiyanın müqaviməti ilə üzləşirdisə, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi erməni diasporunun təzyiqi nəticəsində Birləşmiş Ştatların bəzi dairələrinin də müqaviməti ilə üzləşdi: 2006-cı ildə ABŞ Prezidenti Corc Buş erməni lobbisinin təsiri ilə Qars-Axalkalaki-Bakı dəmir yolu layihəsinin maliyyələşdirilməsinə qadağa qoyan sənəd imzaladı.

Lakin Azərbaycan rəhbərliyinin prinsipiallığı və qətiyyəti bu dəfə də öz nəticəsini verdi və Prezident İlham Əliyevin diplomatik səyləri nəticəsində, 2007-ci ilin fevralında Tbilisidə bu dəmiryolunun tikintisinə dair çərçivə sazişi imzalandı və yolun inşasına başlandı.[356]

Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi, ilk növbədə TRASEKA-nın rəqabət qabiliyyətliliyini artırmaq üçün nəqliyyat daşımalarına tətbiq olunan rüsum və tariflərin rasional səviyyəsinin müəyyən edilməsini və ucuzlaşmasını təmin edəcək. Layihə çərçivəsində 105 km uzunluğunda yeni dəmiryolu (76 km Türkiyə və 29 km Gürcüstan ərazisindən keçməklə) qurulacaq. Bundan əlavə, Gürcüstanda dəmiryolunun 183 km-lik hissəsinin rekonstruksiya edilməsi, qatarların Gürcüstandakı mövcud dəmiryollarından sonra Avropa dəmiryollarında hərəkət edə bilməsi üçün Axalkalakidə keçid məntəqəsinin tikilməsi nəzərdə tutulur.

422 milyon, infrastrukturla birlikdə isə 600 milyon dollar həcmində dəyərləndirilən bu layihə reallaşdırılandan sonra yüklərin Türkiyəyə və Avropanın şimalı ilə Aralıq dənizi regionuna, Rusiya və Qazaxıstandan Azərbaycan vasitəsi ilə

[356] Bax:AzərTAC-ın informasiya bülleteni, 07 fevtal 2007-ci il.

Gürcüstana daşınmasına imkan yaranacaq. Analitiklərin fikrincə, ilk vaxtlar illik yük buraxılışı 5 milyon ton olacaq bu dəmir yolu, üç ildən sonra 10-15 milyon ton, tam gücü ilə işləməyə başlayanda isə 20 milyon ton yük daşıya biləcək.

Göründüyü kimi, Azərbaycan mühüm geosiyasi, geostrateji və geoiqtisadi əhəmiyyət kəsb edən bu dəmir yolu layihəsinin, demək olar ki, lokomotivi hesab olunur. Onun maliyyə dəstəyi nəticəsində həm Türkiyə sərhədindən Gürcüstana, həm də Gürcüstandan Azərbaycan sərhədinə qədər tikilməsi və modernləşdirilməsi nəzərdə tutulan dəmiryol layihəsi artıq reallaşmağa başlayıb. Yaranan maliyyə problemləri də birbaşa Azərbaycanın köməyi ilə həll olunur. Məsələn, Azərbaycan dəmir yolunun Gürcüstandan keçən hissəsinin tikintisinə 220 milyon ABŞ dolları həcmində kredit ayırıb. İllik 1 faizlə 25 il müddətinə verilən bu krediti Gürcüstan dəmir yolu işə düşəndən sonra özünün tranzit gəlirləri hesabına ödəyəcək.

Bakı-Tbilisi-Qars dəmir yolu xətti üzrə beynəlxalq layihənin həyata keçirilməsi və Bosfor boğazında sualtı dəmir yolu keçidinin inşası TRANSAVROPA və TRANSASİYA dəmir yolu şəbəkələrinin birləşdirilməsini, yük və sərnişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılmasını təmin etməyi nəzərdə tutur. Bu layihə Azərbaycanın dövlət müstəqilliyi və iqtisadi suverenliyinin möhkəmlənməsinə, xarici iqtisadi əlaqələrinin genişlənməsinə xidmət etməklə yanaşı, həm də region ölkələrinin tranzit potensialının artmasına, Avropaya inteqrasiya proseslərinin sürətlənməsinə, Avropa Qonşuluq Siyasəti çərçivəsində regional geoiqtisadi əməkdaşlığın inkişafına xidmət etməlidir.

Layihənin həyata keçirilməsi iqtisadi səmərəlilik, sürət və vaxt tezliyi, təhlükəsizlik və etibarlılıq baxımından da böyük

əhəmiyyətə malikdir. Gələcəkdə Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmir yolu vasitəsi ilə ən yaxın marşrutla, daha sərfəli qiymətlərlə, qısa zaman çərçivəsində hər iki istiqamətdə daşınması və s. imkanlar transmilli intermodal və konteyner daşımalarının həcmini artıracaqdır. Təbii ki, bütün bu addımlar – istər alternativ nəqliyyat-kommunikasiya, istərsə də enerji dəhlizlərinin açılması yük və enerji daşımalarında monopolist mövqeyindən məhrum ola biləcək Rusiyada narazılıqla qarşılandı. Çünki, "Böyük İpək Yolu"nun bərpasına dair TRASEKA layihəsinə görə, Avropa İttifaqından Cənubi Asiyaya aparılan yüklərin böyük hissəsi yeni marşurutla- Cənubi Qafqaz və Mərkəzi Asiya vasitəsilə daşınacaqdır. Bu mənada, Rusiya Avropa-Asiya geoiqtisadi əlaqələrində yeni formalaşan transkontinental nəqliyyat sistemi ilə ciddi rəqabətlə üzləşdiyinin fərqindədir.

Azərbaycanın öz transmilli nəqliyyat-dəhliz təhlükəsizliyini təmin etmək istiqamətində qoşulduğu və iştirak etdiyi regional nəqliyyat layihələrindən bir də **Şimal-Cənub** beynəlxalq nəqliyyat-dəhlizi layihəsidir. Bu layihə haqqında razılaşma Rusiya, İran və Hindistan arasında 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində bağlanmışdır. Razılaşmanın əsas məqsədi üzv ölkələrin nəqliyyat-dəhliz imkanlarının birləşdirilərək, bəhs olunan istiqamətdə yük daşımalarına əlverişli şəraitin yaradılması, tranzit yüklərin həcminin artırılmasına dəstək verilməsi, nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinin təmin olunması və razılaşdırılmış ortaq nəqliyyat siyasətinin həyata keçirilməsindən ibarətdir. Razılaşma bəhs olunan ölkələrin bütün nəqliyyat növlərinə: dəmir yolu, dəniz, avtomobil yolları, çay və hava nəqliyyatı ilə daşımaları təmin edən infrastruktura aiddir. Lakin burada Hindistan istisna təşkil

edir, çünki layihədə onun yalnız dəniz marşrutları ilə iştirakı nəzərdə tutulur.

Qeyd edək ki, Şimal-Cənub dəhlizinin katibliyi Tehran şəhərində yerləşir. Ötən illər ərzində Belarus Respublikası, Ermənistan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Oman və Suriya da bu layihəyə qoşulmuşdur. 2001-ci il dekabrın 21-də Azərbaycan Respublikasının bu layihəyə qoşulması üçün verdiyi rəsmi notaya 2005-ci ildə müsbət cavab verilmiş və o, həmin il sentyabrın 20-də "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi haqqında" sazişə qoşulmuşdur. Dəhlizin Azərbaycan ərazisindən keçən dəmir yolu hissəsinin uzunluğu 511 km.-ə bərabərdir.

Layihədə Rusiyanın Voronej şəhəri ilə İranın Tehran şəhəri və Rusiyanın Xəzər limanları ilə İranın Bəndər-Abbas dəniz limanı arasında dəmir yolu əlaqəsinin iki variantı təklif olunur. Bunlar, Xəzər dənizinin qərb sahili və daha sonra Azərbaycan ərazisi üzərindən- Rusiya ərazisi ilə dəmir yolu, Rusiyanın Xəzər limanları, xüsusən Həştərxan yaxınlığında inşa edilən Olya limanından İranın Bəndər-Abbas, Ənzəli və hazırda genişləndirilən Əmirabad, Nouşəhər limanlarına, oradan isə marşrut üzrə Fars körfəzindən keçməklə Aralıq dənizinə gəmi vasitəsilə nəzərdə tutulur.

Şimal-Cənub dəhlizi ilə daşımaların Azərbaycan ərazisindən keçməsi variantına digər alternativ marşrut da mövcuddur: Mərkəzi Asiya ölkələrindən (Qazaxıstan, Özbəkistan) keçməklə Türkmənistanın Seraxs şəhərinə, daha sonra dəmir yolu ilə İran ərazisinə və oradan da yuxarıdakı marşrut üzrə Avropa ölkələrinə.

Şimal-Cənub dəhlizinin mühüm bir qolunun Azərbaycan ərazisindən keçməsi perspektivdə onun iqtisadiyyatı və transmilli nəqliyyat təhlükəsizliyi üçün mühüm əhəmiyyət daşıyır.

Onun ərazisindən keçən dəmir yolu məsafəsinin qısalığı, daşımalara daha az vaxt və sərmayə sərf olunması, ölkənin inkişaf etmiş nəqliyyat infrastrukturuna malik olması və s. bəhs olunan istiqamətdə onun cəlbediciliyini və tərəfdaşlıq önəmini artırır ki, bu da müvafiq olaraq ölkənin nəqliyyat təhlükəsizliyini gücləndirir. Xüsusən, nəzərə almaq lazımdır ki, bu marşrutla transmilli yüklərin böyük əksəriyyətinin Azərbaycan üzərindən dəmir yolu vasitəsilə daşınması nəzərdə tutulur ki, bu da müvafiq sahənin inkişafına təkan verəcəkdir. Azərbaycanın Şimal-Cənub nəqliyyat dəhlizinə qoşulması, beynəlxalq yük və sərnişin daşımalarında fəal iştirakı həm də müvafiq olaraq, milli gəlirlərin artmasına, yerli nəqliyyat-dəhliz infrastrukturunun inkişafına, ölkə ərazisində yeni iş yerlərinin açılmasına, o cümlədən digər sosial-iqtisadi məsələlərin həllinə də münbit şərait yaradacaqdır.

Azərbaycanın "Şimal-Cənub" nəqliyyat dəhlizinə qoşulması rəsmi Bakının uzaqgörən və müstəqil geosiyasət yürütməsinin göstəricisi hesab olunur. Belə ki, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizində iştirak etməklə mühüm geosiyasi və geoiqtisadi dividentlər qazandı. **Əvvəla,** bu layihə ayrıca götürüldükdə Azərbaycan üçün ciddi geoiqtisadi və geosiyasi dividentlər qazandırmış və onu Şimal-Cənub dəmir və avtomobil yolları dəhlizinin mərkəzi ölkəsinə çevirmişdir. **İkincisi,** Azərbaycan layihəyə qoşulmaqla, Rusiya, İran və başqa qonşu ölkələrlə TRACEKA proqramı çərçivəsində yaranmış gərginliyi aradan qaldırmağa nail oldu. **Üçüncüsü,** bu nəqliyyat dəhlizindən əldə edəcəyi geosiyasi dividentlərdən, tranzit və gömrük rüsumları gəlirlərindən başqa, Azərbaycanı həm də daha çox perspektivdə Naxçıvan Muxtar Respublikasının blokadadan çıxarılması kimi mühüm geostrateji vəzifənin reallaşdırılması imkanı qazandı. Azərbaycan hazırda İran vasitəsilə Nax-

çıvanla dəmir yolu əlaqəsi qurmağa ciddi cəhdlə çalışsa da, buna hələ ki, nail ola bilmir.

Beləliklə, göründüyü kimi Azərbaycan özünün əlverişli coğrafi və geoiqtisadi mövqeyindən istifadə edərək, həm Şərq-Qərb, həm də Şimal-Cənub əlaqələrində əsas nəqliyyat-kommunikasiya dəhlizi və birləşdirici körpü rolunda çıxış etməyə başlayır. Faktiki olaraq hər iki nəhəng nəqliyyat dəhlizinə qoşulan Azərbaycan bu sahədə özünün geoiqtisadi müstəqilliyini artırmaqla yanaşı, həm də Avropa və dünya bazarlarına alternativ nəqliyyat marşrutları ilə çıxmaq imkanı əldə etdi, regiondakı müxtəlif tranzit yük axınlarını əlaqələndirmək üçün qovşaq rolunu öz üzərinə götürdü.

Azərbaycan Respublikasının tranzit potensialından istifadə edilməsi bu gün də onun davamlı inkişaf strategiyasının ayrılmaz tərkib hissəsidir. Hazırda ölkənin tranzit və xarici iqtisadi əlaqələri bir neçə geosiyasi ox üzrə həyata keçirilir. Bunlardan:

birincisi və ən mühümü Gürcüstan, Türkiyə vasitəsi ilə hava, quru, dəmiryolu, dəniz nəqliyyatı, eyni zamanda kəmərlər vasitəsi ilə Aralıq dənizinə və Avropaya,

ikincisi, Rusiya vasitəsi ilə dolayı yolla Qərbə və Uzaq Şərqə (bu çox uzun və iqtisadi cəhətdən səmərəsiz yoldur - Ə.H.),

üçüncüsü, İran və Fars körfəzi vasitəsi ilə Yaxın Şərq və Cənubi Asiya ölkələrinə,

dördüncüsü, Türkmənistan, Qazaxıstan, Özbəkistan vasitəsi ilə Çinə, Yaponiyaya və Cənub-Şərqi Asiyanın digər ölkələrinə, eyni zamanda bütün marşrutlar üzrə əks istiqamətədir.

Bəhs olunan istiqamətlərdən hələ ki, tam gücü ilə işləyən Şərq-Qərb istiqamətli- TRANSQAFQAZ dəhlizdir. Bu istiqamətdə Gürcüstan vasitəsi ilə Azərbaycan həm özünün neft-qaz

ehtiyatlarını Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri Türkiyəyə, oradan da Qərbə yönəltmiş, hava, quru, dəmiryolu və dəniz-su yolu ilə qərbə gedən neft və digər tranzit yüklərinin keçidini və daşınmasını təşkil etmişdir.

Bununla yanaşı, hazırda Azərbaycan həm də Rusiya marşrutu ilə Rusiyanın özünə və bir çox Şərqi Avropa ölkələrinə, İran vasitəsi ilə Orta və Yaxın Şərq ölkələrinə, o cümlədən əks istiqamətə müxtəlif yüklərin, nəqliyyat vasitələri, o cümlədən Bakı-Novorossiysk kəməri vasitəsilə neft məhsullarının göndərilməsini həll etmişdir.

Məlum olduğu kimi, həm ölkədaxili, həm də ölkələrarası nəqliyyat yolları və dəhlizlərini, birləşdirici kommunikasiya xətlərini bəzən həyat arteriyası adlandırırlar. Çünki bunlar olmadan, zəngin təbii resurslara malik dövlətlər belə öz iqtisadiyyatının dirçəlişi və inkişafını təmin edə, dünya ölkələri ilə sərbəst iqtisadi-ticarət əlaqələri qura bilməz. Odur ki, tranzit nəqliyyat və yükdaşıma sistemini beynəlxalq standartlara uyğun qurmaq, onların fasiləsiz fəaliyyətini təmin etmək, xarici ticarətə təsir imkanlarını ədə saxlamaq dünyanın əsas geoiqtisadi tələblərdən sayılır.Təsadüfi deyil ki, müxtəlif geosiyasi güc mərkəzləri arasında gedən beynəlxalq rəqabət yalnız təbii ehtiyatlar deyil, həm də bu ehtiyatları dünya bazarlarına çıxaracaq dəhlizlər, yollar, vasitələr - nəqliyyat və kommunikasiyalar uğrunda aparılır.

Azərbaycan Respubliksaı hökuməti ölkə ərazilərinin tranzit əhəmiyyətini nəzərə alaraq, son illərdə həm beynəlxalq yardımların (TASİS, TRACEKA və b. proqramlar çərçivəsində Avropa Birliyinin, Dünya Bankının, İslam İnkişaf Bankının və s.), həm də özünün maliyyə potensialı hesabına bütün tranzit istiqamətləri üzrə ölkədaxili magistral avtomobil və dəmir yol-

larının, dəniz limanlarının, yük terminallarının, digər daşıyıcı infrastrukturların yaradılmasını və yenidən qurulmasını təmin edə bilmişdir.

Azərbaycanın daxili və beynəlxalq nəqliyyat əlaqələndirilməsi siyasətinin müasir vəzifələri sırasına həm də:

- nəqliyyat sektorunda səmərəliliyin və rəqabət qabiliyyətinin artırılması istiqamətində islahatların aparılması;
- nəqliyyat sektorunda dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi;
- nəqliyyat xidmətləri bazarında sağlam rəqabət mühitinin yaradılması, tarif sisteminin təkmilləşdirilməsi;
- ölkənin sərhəd-keçid məntəqələri yaxınlığında yerləşən nəqliyyat infrastrukturlarının müasir tələblərə uyğun yeniləşdirilməsinə dair layihələrin həyata keçirilməsi;
- nəqliyyat infrastrukturunun və nəqliyyat vasitələri parkının müasir tələblərə uyğun yeniləşdirilməsi;
- Bakı və ölkənin digər şəhərlərində nəqliyyat infrastrukturunun müasir tələblərə uyğun qurulması;
- Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi üçün yolların buraxıcılıq qabiliyyətinin artırılmasını təmin edən proqramların işlənib hazırlanması;
- ölkə əhalisinin nəqliyyat xidmətlərinə olan tələbatının tam təmin edilməsi;
- ölkənin tranzit potensialından daha səmərəli istifadə edilməsi məqsədi ilə kompleks tədbirlərin davam etdirilməsi nəzərdə tutulur.[357]

[357] Azərbaycan Respublikasının nəqliyyat sektorunun inkişafı strategiyası http://www.mot.gov.az/index.php?mod=inside&lang=az&menu=138

Azərbaycanın əlverişli coğrafi məkanda yerləşməsi **avtomobil yolları şəbəkəsinin** beynəlxalq standartlara uyğun inkişafını və bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsini zəruri edir. Hazırda Azərbaycan Respublikasında istifadədə olan avtomobil yollarının ümumi uzunluğu cəmi 25.021 kilometrdir. Bunlardan 4.577 kilometri respublika əhəmiyyətli, qalanı isə yerli əhəmiyyətli yollardır. Ümumi istifadədə olan avtomobil yollarının 1.473 kilometri Naxçıvan Muxtar Respublikasının ərazisindədir. Bunların 274 kilometri respublika əhəmiyyətli, 1.199 kilometri isə yerli əhəmiyyətli yollardan ibarətdir.

Beynəlxalq tələblərə cavab verən müasir avtomobil yolları şəbəkəsinin formalaşdırılması, magistral yolların beynəlxalq yollar şəbəkəsi ilə uzlaşdırılması, ümumi istifadədə olan avtomobil yollarında nəqliyyatın hərəkətinin beynəlxalq təcrübəyə uyğun tənzimlənməsi və bu sahədə müasir avtomatlaşdırılmış sistemlərdən istifadə edilməsi- hazırda Azərbaycanın həyata keçirdiyi nəqliyyat təhlükəsizliyi siyasətinin başlıca istiqamətlərindən biri hesab olunur.

Bu gün ölkədə *nəqliyyat xidmətləri bazarı* formalaşmış, dövlət mülkiyyətində olan avtomobil nəqliyyatı müəssisələri özəlləşdirilmiş və nəqliyyat sahəsində dövlət idarəetməsi bazar iqtisadiyyatı münasibətlərinə uyğun olaraq qurulmuşdur. Ölkənin avtomobil yolları şəbəkəsi bir çox ölkələrə, iri limanlara, nəqliyyat qovşaqlarına və terminallarına çıxışı olan Avropa və Asiya subregional avtomobil yolları şəbəkəsinə inteqrasiya olunub. Azərbaycanın qeyd edilən magistral avtomobil yollarının uzunluğu 2,1 min kilometr təşkil edir.

Tranzit daşımaları, əsasən Avropa, MDB, Mərkəzi Asiya, Yaxın Şərq ölkələri arasında Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi, Ələt-Astara, Biləsuvar-İran, Culfa-Culfa (İran

İslam Respublikası), Bakı-Quba-Rusiya ilə dövlət sərhədi, Naxçıvan-Sədərək-Türkiyə ilə dövlət sərhədi, Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi, Bakı-Aktau, Bakı-Türkmənbaşı marşrutları üzrə həyata keçirilir.

Təkrar və məşğələ sualları:

1. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın transmilli nəqliyyat-kommunikasiya sistemini təsvir edin və mövcud sistem ətrafında cərəyan edən beynəlxalq, regional və milli maraqları şərh edin.

2. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın mövcud və perspektiv nəqliyyat-kommunikasiya sistemi ilə bağlı dünya və region ölkələrinin mövqelərini, siyasətini və praktiki fəaliyyətini şərh edin.

3. Alternativ TRANSAVRASİYA nəqliyyat-kommunikasiya sistemi ilə bağlı Azərbaycanın həyata keçirdiyi siyasətə region və dünya ölkələrinin münasibətinin əsaslarını və nəticələrini təhlil edin.

4. Azərbaycanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yürütdüyü alternativ nəqliyyat-kommunikasiya siyasəti və onun bölgənin ümumi geoiqtisadi vəziyyətinə təsiri məsələsini təhlil edin.

IV BÖLMƏ

AZƏRBAYCANIN XARİCİ ALƏMLƏ HƏRBİ-GEOSTRATEJİ MÜNASİBƏTLƏRİ: BEYNƏLXALQ, REGİONAL VƏ MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN ƏSASLARI

I FƏSİL
BEYNƏLXALQ TƏHLÜKƏSIZLIK SİSTEMİNİN ƏSASLARI VƏ GEOSİYASİ TƏLƏBLƏRİ. AZƏRBAYCANIN BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK SİYASƏTİ

§1.1. Beynəlxalq təhlükəsizlik sistemi: formalaşması, hüquqi əsasları, mahiyyəti, geosiyasi ölçüləri və tələbləri

Bəşəriyyət bugünkü beynəlxalq münasibətlər və təhlükəsizlik sistemini yaratmazdan əvvəl minillərlə davam edən çətin və keşməkeşli bir tarix yaşamışdır. İnsan cəmiyyətləri və birliklərinin sosial-siyasi xarakterindən, insanların maddi və mənəvi tələblərindən, ehtiyaclarının ödənməsi zərurətindən asılı olaraq onlar arasında müxtəlif xarakterli münasibətlər mövcud olmuş, iqtisadi, siyasi və mədəni əlaqələr yaranmış, bəzən uzunmüddətli müharibələr, qanlı döyüşlər yaşanmış, iri dövlətlər, imperiyalar qurulmuş, sonra da iflasa uğramışlar. Bütün bunlara baxmayaraq, planetimizdə həyat davam etmiş, insanlar ən çətin vəziyyətlərə uyğunlaşmağı, müxtəlif çıxış yolları tapmağı, irəliyə doğru inkişaf eməyi bacarmış, yeni-yeni yaşayış məskənləri – kəndlər, şəhərlər, ölkələr salmışlar. Əlbəttə, insanlıq uzun müddət təcrid vəziyyətində, bir-biri ilə əlaqəsiz yaşaya bilməzdi. Odur ki, yaşayış məskənləri həmişə öz aralarında müxtəlif əlaqələrə girmiş, ölkələr və xalqlar bir-biri ilə təmas yaratmış, müharibələr aparmış, barışmış, müəyyən şərtlər kəsmiş və gələcək münasibətlər haqqında razılığa gəlmişlər. Bütün bunlar bizim bu gün beynəlxalq münasibətlər və beynəl-

xalq təhlükəsizlik sistemi kimi xarakterizə etdiyimiz gerçəkliyi şərtləndirmişdir.

Beynəlxalq (kollektiv) təhlükəsizlik üzrə dövlətlərarası hüququn tarixi evolyusiyası da, beynəlxalq münasibətlər sisteminin yaranması prosesi kimi orta əsrlərdən başlayaraq bir çox Avropa ölkələrinin bu sahə üzrə müxtəlif beynəlxalq və regional təşkilatlarda birləşməsi, kollektiv iradəni təcəssüm etdirən "məcburedici hüquqi-normativ sənədlər" yaratması, həmin normaların əvvəlcə konkret olaraq Avropa məkanında, sonra isə müstəməlkəçiliyin vüsət aldığı dövrdə bütün dünyada tətbiq edilməsi yolu ilə baş vermişdir. İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra BMT çərçivəsində kollektiv təhlükəsizlik üzrə vahid beynəlxalq hüquq normaları yaradılana və qəbul edilənə qədərki dövrdə hər bir ölkə öz hərbi potensialına arxalanaraq milli təhlükəsizliyini fərdi yolla təmin etməyə çılışırdı ki, bu da ayrı-ayrılıqda heç bir dövlətin milli və beynəlxalq təhlükəsizliyinə tam zəmanət vermirdi.

Tarixin müxtəlif dövrlərində dövlətlər öz təhlükəsizlik maraqlarını qorumaq məqsədi ilə müxtəlif hərbi-siyasi ittifaqlar, koalisiyalar yaratmağa cəhd göstərmişlər, lakin belə birliklərin heç biri uzunömürlü olmamış, bəlli hadisələrdən sonra dağılmış, bir formadan digərinə keçmişdir. Hər bir dövrün geosiyasi və hərbi-geostrateji inkişafından irəli gələn tələblər və xüsusiyyətlər, təhlükəsizlik sahəsində mövcud olan təhdidlər, risk və çağırışlar öz növbəsində müvafiq yanaşmalar və mexanizmlər tələb edirdi ki, bu da ölkələrin yeni operativ addımlarını şərtləndirirdi. Məsələn İkinci Dünya Müharibəsindən sonra Birləşmiş Millətlər Təşkilatının, ondan bir qədər sonra kapitalizm və sosializm düşərgələri arasında başlanan "soyuq müharibə" fonunda NATO və Varşava Müqaviləsi Təşkilatı kimi hərbi birliklərin yaradılması, XX əsrin 70-ci illərində ATƏM-in (ATƏT) meydana gəlməsi və s. buna nümunə ola bilər.

Müasir beynəlxalq təhlükəsizlik sistemi və eyni adlı yeni bir geosiyasi tədqiqat sahəsi yalnız ikinci Dünya Müharibəsinin sonra- 1945-ci ildən sonra formalaşaraq dünya arenasına çıxdı. Birləşmiş Millətlər Təşkilatının yaranması və üzv dövlətlərin bir-biri ilə münasibətlərini tənzimləyən vahid nizamnamənin qəbul olunması geosiyasi ədəbiyyatda, həm də müstəqil tədqiqat obyekti kimi beynəlxalq təhlükəsizlik sahəsinin meydana çıxmasına səbəb oldu.

Keçən dövr ərzində Avropa məkanında Avropa Şurasının, Qərbi Avropa İttifaqının, Avropa Birliyinin yaranması, "tərksilah" və "kollektiv təhlükəsizliyə dair" bir sıra beynəlxalq sənədlərin qəbul edilməsi və s. tədricən Avropada regional təhlükəsizlik və əməkdaşlıq sisteminin meydana gəlməsinə imkan yaratdı. Nəticədə beynəlxalq təhlükəsizlik sistemi ideyası yeni modellər sayəsində daha da inkişaf etdi, Avropa Qitəsi isə, bəzi mütəxəssislərin fikri ilə ifadə etsək "dünyanın təhlükəsizlik laboratoriyasına" çevrildi. Mütəxəssislərin fikrinə görə, bu gün "kollektiv təhlükəsizlik", "qlobal təhlükəsizlik", "kooperativ təhlükəsizlik" "demokratik təhlükəsizlik" və s. kimi konsepsiyalar və anlayışlar bütün dünyada öyrənilir və təhlil edilir, "təhlükəsizliyin bölünməzliyi və vahidliyi" prinsipi isə hamı tərəfindən qəbul edilir.[358]

XX əsrin 90-cı illərinin əvvəllərindən etibarən ənənəvi beynəlxalq təhlükəsizlik məsələlərinə bir çox yeni yanaşmalar meydana çıxmağa başladı. Çünki, dünyada ikiqütblü dünya sisteminin və "soyuq müharibənin" sonu beynəlxalq münasibətlər sisteminin əvvəlki ümumi konfiqurasiyasını da dəyişməyə başlamışdı. Lakin bütün bunlar heç də dünyadakı bəzi ölkələrarası konfliktlərə, xalqlararası münaqişələrə son qoymadı, əksinə regional və lokal münaqişələrin sayının artması ilə müşahidə

[358] The Organization for Security and Co-operation in Europe (OSCE) (Global Institutions) by David J. Galbreath (Jun 20, 2007), p.65.

edildi. 1990-cı illərdən sonra dünya miqyasında müxtəlif etnik-separatçı, milli, dini və digər münaqişələrin sayı kəskin şəkildə artdı. Baxmayaraq ki, bu münaqişələrin çoxu daxili, lokal və regional xarakter daşıyırdı, lakin mahiyyət etibarı ilə onların hər birinin arxasında müxtəlif dövlətlər dayanırdı ki, bu da həmin münaqişələrin regional və beynəlxalq təsirindən xəbər verirdi. Çünki bu tipli lokal münaqişlər son məqamda ayrı-ayrı regionların, o isə öz növbəsində bütün dünyanın təhlükəsizlik mühitinə mənfi təsir göstərir. Məsələn, Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi uzun müddət bəzi erməni və ermənipərəst dünya mətbuatında Azərbaycanın daxili münaqişəsi kimi qələmə verilirdi. Lakin, əslində bu münaqişə başlanğıcdan bir ölkənin (Ermənistanın) digərinə (Azərbaycana) qarşı açıq ərazi iddiaları çərçivəsində həyata keçirdiyi hərbi təcavüz idi. Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi təkcə regionda deyil, bütövlükdə Avropada və dünyada siyasi sabitliyin və beynəlxalq təhlükəsizliyin əsası sayılan "*ərazi bütövlüyünü və milli sərhədlərin toxunulmazlığı"* prinsiplərini kobud şəkildə pozurdu.

Dünyada ikiqütblü dünya sisteminin süqutu "soyuq müharibəni" başa çatdırsa da, göründüyü kimi beynəlxalq münasibətlər sistemində bir çox ərazi-sərhəd problemlərinin, məhəlli və regional münaqişələrin, mütəşəkkil cinayətkarlıq hallarının, kütləvi qırğın silahlarının yayılması təhlükəsinin, dini, etnik ekstremizm, terrorizm kimi bəşəri təhlükələrin sayının artmasına şərait yaratdı. Bütün bunlar və 2001-ci ilin məlum 11 sentyabr terror hadisəsi beynəlxalq aləmdə yeni, daha çevik təhlükəsizlik modelinin yaradılması zəruriliyini üzə çıxardı, dünyanın aparıcı dövlətlərində təhlükəsizliyin mövcud beynəlxalq birliklər çərçivəsində inkişaf etdirilməsi, təkmilləşdirilməsi ideyasını gündəmə gətirdi.

Beynəlxalq hüquq sahəsindəki mövcud boşluqlar, xüsusilə qəbul olunmuş qərarların icra mexanizminin yoxluğu, hüquqi

prinsip və normaların doktrinal interpretasiyaları, "milli maraq" və "milli təhlükəsizlik" kimi anlayışların fərqli interpretasiyası və beynəlxalq iradənin subyektiv mülahizələr nəzərə alınmaqla tətbiqi və s. kimi məsələlər indinin özündə də beynəlxalq təhlükəsizlik sisteminə ciddi problemlər yaradır. Müasir beynəlxalq münasibətlərin qarşısında duran ən mühüm vəzifələrdən biri olan dayanıqlı beynəlxalq sülh şəraitinin yaradılmasını, etibarlı təhlükəsizliyin təmin edilməsini çətinləşdirir.

Hazırda geosiyasi ədəbiyyatda dünya dövlətlərinin ayrı-ayrılıqda milli inkişafı və milli təhlükəsizliyi, onların ölçüləri, təmin olunması dərəcəsi və s., bir qayda olaraq, beynəlxalq və regional müstəvidə cərəyan edən geosiyasi, hərbi-geostrateji və geoiqtisadi vəziyyətin, şəraitin, hadisələrin və dünya təhlükəsizlik mühitinin fonunda dəyərləndirilir.

Beynəlxalq təhlükəsizlik dedikdə, geosiyasətdə ilk növbədə, *beynəlxalq münasibətlər sisteminin və beynəlxalq hüququn müharibə və silahlı münaqişələrdən, dövlətlərarası qarşıdurma və qeyri-sabitlikdən qorunması, dünya sisteminin əsas subyektlərinin - dövlətlərin qarşılıqlı şəkildə tarazlaşdırılmış milli maraq və milli təhlükəsizliyinin təminatı sistemi başa düşülür*.

Beynəlxalq təhlükəsizliyin əsas qayəsi *insanların, cəmiyyətlərin və dövlətlərin təhlükəsizliyinin təmin edilməsindən* ibarət olduğuna görə, bu sistemə həm də *insan həyatına təsir göstərə biləcək mövcud təhlükələrin və təhdidlərin, potensial risklərinin aradan qaldırılması istiqamətindəki kollektiv fəaliyyət normaları və s.* daxildir.

Beynəlxalq təhlükəsizlik əhatə dairəsinə görə **qlobal** (bütün dünyanı əhatə edən), **regional** (planetin bəlli bir regionunda baş verən) və **kollektiv** (bir qrup ölkənin cəlb olunması ilə yaşanan) olmaqla üç qrupa ayrılır. Hər qrupda beynəlxalq təhlükəsizlik dedikdə, müvafiq olaraq ümumdünya, regional və yaxud konkret bir qrup dövlətin ölkələrarası münasibətlərinin,

beynəlxalq hüququn və s. birgəyaşayış normalarının böyük və kiçik müharibələrdən, silahlı qarşıdurmalardan, böhran və sabitsizlikdən qorunması, kollektiv səylər vasitəsilə hər bir dünya dövlətinin beynəlxalq hüquqa zidd əməllərdən çəkindirilməsi, yaxud hüququ pozulmuş ölkənin müdafiəsi nəzərdə tutulur.

Beynəlxalq təhlükəsizliklə bağlı dövlətlərin xarici siyasət fəaliyyətinin əsas ölçü meyarlarından birini *əlverişli beynəlxalq təhlükəsizlik mühitinin yaradılması, kollektiv və milli təhlükəsizliyin təminatı təşkil edir*. XX əsrin ortalarından başlayaraq Birləşmiş Millətlər Təşkilatına üzv olan dövlətlər beynəlxalq sistemdə əsasən öz milli maraqlarından çıxış etsələr də, BMT və onun ayrı-ayrı qurumları öz nizamnamələri çərçivəsində **ölkələrin ümumi və ortaq maraqlar sisteminin prinsiplərini hazırlamış və təmin edilməsi mexanizmlərini formalaşdırmışlar.** Beynəlxalq təhlükəsizlik sisteminin mahiyyəti bütün üzv dövlətləri açıq müharibələrdən, xarici hərbi basqınlardan, digər xarici təhlükə və təhdidlərdən qorumaq, şəxsiyyətin, cəmiyyətin təhlükəsizliyini və dövlətin suveren hüquqlarını kollektiv şəkildə təmin etməkdən ibarətdir.

Beynəlxalq təhlükəsizlik sisteminin əsas prinsipləri BMT Nizamnaməsinə müvafiq olaraq:

- dövlətlərin ortaq təhlükəsizlik maraqlarının tapılması və bu əsasda beynəlxalq sülhün təmin edilməsi;
- ölkələrarası münaqişə və silahlı toqquşmaların aradan qaldırılması və mübahisəli məsələlərin danışıqlar yolu ilə həll edilməsi;
- hər bir dövlətin milli təhlükəsizliyinin beynəlxalq təhlükəsizliklə əlaqələndirilməsi;
- kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması və tətbiqinin qadağan olunması;
- beynəlxalq təhlükəsizliyi təhdid edən etnik separatizm, terrorizm, silah qaçaqmalçılığı, narkotik maddə-

lərin qanunsuz dövriyyəsi və s. kimi hallarla mübarizə;

- bərabər hüquqlar əsasında xalqlararsı dostluq münasibətlərinin inkişaf etdirilməsi və ümumi sülhün möhkəmləndirilməsi üçün müvafiq addımların atılması;
- iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində əməkdaşlıq; ölkələrin iqtisadi təhlükəsizliyini təhdid edən hallarla kollektiv mübarizə və s. ibarətdir.[359]

BMT Nizamnaməsində açıq formada qeyd olunur ki, "mövcud nizamnaməyə qoşulmuş dünya dövlətlərinin hər biri bir-birilərinin və eləcə də digər dövlətlərin ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qəbul etməli, indi və ya gələcəkdə digər ölkələrin sərhədlərini pozacaq hərəkətlərə yol verməməli, digər iştirakçı dövlətlərin sərhədlərini pozaraq onun ərazilərinə iddia etmək və ya onu zəbt etməkdən çəkinməlidirlər."[360]

Dövlətlərin BMT tərəfindən tanınmış ərazi bütövlüyünün qorunması, sərhədlərinin toxunulmazlığı, ölkələrarası münaqişə və silahlı toqquşmaların aradan qaldırılması və mübahisəli məsələlərin danışıqlar yolu ilə həll edilməsi prinsipi ATƏT-in Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə 1975-ci ildə qəbul etdiyi, sonradan müstəqillik əldə etmiş digər Avropa dövlətlərinin, o cümlədən də Azərbaycanın qoşulduğu Helsink Yekun aktında da beynəlxalq hüququn əsas tələblərindən biri kimi təsbit edilmişdir.[361]

Yekun Aktında qeyd olunur ki, "bu sənədə qoşulmuş ölkələr digər ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşmalı və buna uyğun olaraq, BMT Nizamnaməsinin məqsəd və

[359]См: Устав Организации Объединенных Наций http://www.un.org/ru/documents/charter/intro.shtml
[360] Yenə orada
[361] http://www.osce.org/ru/mc/39505?download=true

prinsiplərini rəhbər tutmalı, üzv ölkələrin ərazi bütövlüyünü tanımalı, siyasi müstəqilliyini və ya bötövlüyünü heç bir şəkildə pozmamalı, xüsusilə də təhdid və ya bu kimi hərəkətlərdən çəkinməlidirlər."[362]

Sənəddə xüsusi vurğulanır ki, "beynəlxalq hüquq normalarını pozan və digər dövlətlərin ərazi bütövlüyünə xələl gətirən işgalçılıq siyasəti beynəlxalq ictimaiyyət tərəfindən heç bir zaman leqal olaraq qəbul edilməyəcəkdir. "[363]

Azərbaycan Respublikası və digər postsovet respublikalarının ATƏT-ə üzv qəbul olunduqları 1992-ci ildə imzaladıqları Yekun aktında dövlətlərin ərazi bütüövlüyü və suverenliyinin toxunulmazlığı ilə yanaşı beynəlxalq təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə ümumın 10 əsas prinsip öz əksini tapmışdır. Bunlar:

- Suveren bərabərlik və suverenliyə xas olan hüquqlara hörmət prinsipi;
- Təhdid və ya zor işlətməmək prinsipi;
- Sərhədlərin toxunulmazlığı prinsipi;
- Dövlətlərin ərazi bütövlüyü prinsipi;
- Mübahisələrin dinc yolla həll olunması prinsipi;
- Bir-birinin daxili işlərinə qarışmamaq prinsipi;
- İnsan hüquqlarına və əsas azadlıqlara hörmət prinsipi, o cümlədən düşüncə, vicdan, din və ya əqidə azadlığına hörmət edilməsi prinsipi;
- Xalqların öz müqəddəratını təyin etmə hüququ və bərabər hüquqluğu prinsipi;
- Dövlətlər arasında əməkdaşlıq prinsipi;
- Beynəlxalq hüquq çərçivəsində öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipindən ibarət idi.[364]

[362] Yenə orada.
[363] Yenə orada.
[364] Yenə orada.

SSRİ-nin dağılması ərəfəsində, ideoloji və sinfi qarşıdurmanın ən yüksək mərhələsində baş tutmuş ATƏT-in Paris Zirvə görüşündə – 1990-cı ildə beynəlxalq münasibətlər sisteminin, o cümlədən beynəlxalq təhlükəsizliyin əsas prinsip və normalarını müəyyən edən, "Yeni Avropa üçün Paris Xartiyası" adlı mühüm bir sənəd qəbul olunmuşdur. Bu sənəddə ATƏT qarşısında Avropada "soyuq müharibə"dən sonrakı vəziyyəti, təhlükəsizlik və əməkdaşlıq məsələlərini idarə etmək vəzifəsi qoyulmuşdur.

Paris Xartiyası: "Demokratiya, Sülh və Birlik üçün Yeni Dövr" adlandırılan birinci, "Gələcək üçün istiqamətləndirici prinsiplər" başlıqlı ikinci və "ATƏT-in təşkilatlandırılması müşavirəsi" adlanan üçüncü hissədən ibarət idi. Xartiyanın ikinci hissəsində Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri, bu sahədəki fəaliyyətin əsas prinsipləri öz əksini tapmışdır.

Sənəddə iştirakçı dövlətlər Avropadakı mövcud münaqişələri, suverenlik haqlarına qarşı qəsd hallarını, siyasi və iqtisadi müstəqilliyə təhlükələri və ərazi bütövlüyünə təhdidləri insanlıq üçün ümumi təhlükə mənbələri kimi qiymətləndirmiş və onların qarşısının alınması sahəsində birgə fəaliyyətin əsas istiqamətləri müəyyənləşdirilmişdir.

Paris Xartiyasında iştirakçı dövlətlər birmənalı şəkildə terrorizmin bütün formalarını pisləmiş və ona qarşı həm ikitərəfli, həm də çox tərəfli əməkdaşlıq vasitəsi ilə mübarizə aparmağı əsas prioritet olaraq hədəf götürmüşlər.

Bundan əlavə Paris Xartiyasında iştirakçı dövlətlərə bütün münaqişəli məsələləri sülh yolu ilə həll etməyi, bir-birinə qarşı təhdid və güc istifadəsindən çəkinməyi tövsiyə etmişlər. Xartiyada iştirakçı dövlətlərin üzərinə regionda və dünyada sülh və təhlükəsizliyin qorunması, münaqişələrin sülh yolu ilə və beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində bir sıra vəzifələr də qoyulmuşdur.[365]

[365] http://www.osce.org/ru/mc/39520?download=true

Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə ATƏT-in Paris Xartiyası ilə başlayan təşkilatlanma prosesi 1992-ci ildə Helsinkidə və 1994-cü ildə Budapeştdə, 1996-cı ildə Lissabonda, 1999-cu ildə İstambulda keçirilmiş Dövlət və Hökumət başçılarının yüksək səviyyəli Sammitində davam etdirilmiş və qəbul edilən sənədlərdə öz əksini tapmışdır.

Bu sammitlərdə Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə yeni mexanizmlər yaradılmış, təşkilatı bölmələr təsis olunmuş və təhlükəsizlik problemlərinin həlli üçün müəyyən ümumi prinsiplər formalaşdırılmışdır. 1994-cü ildə Budapeşt zirvə görüşündə iştirakçılar ATƏM-in müşavirə statusunu qaldıraraq, onu Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələləri üzrə daimi təşkilata (ATƏT) çevirdilər. Bu qərarlarla SSRİ-nin və Yuqoslaviya Sosialist Federativ Respublikasının (YSFR) dağılması ilə ortaya çıxan problem və narazılıqlardan doğan toqquşmaların qarşısını almaq üçün fəaliyyət imkanları genişləndirildi. 1992-ci ildə qəbul edilən Helsinki sənədi ATƏT-ə təhlükəsizlik məsələləri üzrə erkən xəbərdarlıq, silahlı münaqişələrin qarşısını almaq və böhranlı vəziyyətlərin idarə olunması kimi ciddi səlahiyyətlər verdi. Bununla da ATƏT soyuq müharibədən sonrakı dövrdə Avropada sülhün, təhlükəsizliyin və yeni dünya nizamı şəraitində əməkdaşlığın yaradılmasına yardım edə bilən vacib beynəlxalq-regional təşkilatlardan birinə çevrildi.

ATƏT-in təhlükəsizliyin təmin edilməsinə yanaşması hərtərəfli xarakter daşıyır və məsələlərin geniş dairəsi, o cümlədən silahlar üzərində preventiv diplomatiya, etimad və təhlükəsizliyin möhkəmləndirilməsi üzrə tədbirlər, insan hüquqları, seçkilərə nəzarət, eləcədə iqtisadi və ekoloji təhlükəsizlik məsələləri üzrə əməkdaşlığa əsaslanır. ATƏT-in fəaliyyətində iştirak edən bütün dövlətlər bərabər hüquqlara malikdirlər və qərarları konsensus əsasında qəbul edirlər.

ATƏT xüsusi statusa malikdir. Bir tərəfdən ATƏT çərçivəsində qəbul olunan qərarlar hüquqi deyil, daha çox siyasi xarakter daşıyır. Lakin, digər tərəfdən, ATƏT beynəlxalq təşkilatların əlamətlərini özündə birləşdirir: daimi orqanlara, daimi mənzil-qərargaha və qurumlara, daimi ştata, daimi maliyyə ehtiyatlarına və sahələr üzrə bölmələrə malikdir.

Dövlətlərin siyasi öhdəlikləri əks olunmuş əksər ATƏT sənədləri onun həyata keçirilməsi üçün beynəlxalq müqavilə formasına ehtiyac duyur. Belə ki, nə 1975-ci il Yekun Aktı, nə Paris Xartiyası, nə də ki, sonrakı sammitlərdə qəbul olunmuş sənədlər hüquqi mənada beynəlxalq müqavilə deyil və dövlətlər üçün məcburi xarakter daşımır. Lakin, ATƏT-in sənədləri beynəlxalq hüququn mənbələri kimi çıxış edir və onun prinsiplərini müəyyənləşdirir. Mahiyyət etibarı ilə isə, onlar beynəlxalq hüquqi deyil, yalnız siyasi öhdəlik qüvvəsinə malikdirlər.

Bununla yanaşı, ATƏT öhdəliklərinin məcburi hüquqi qüvvəsinin olmaması onların səmərəliliyini azaltmır. Ən yüksək siyasi səviyyədə imzalandıqlarından onlar beynəlxalq hüquq çərçivəsində beynəlxalq müqavilələr qədər yüksək əhəmiyyət daşıyır.

Bu gün ATƏT Avropada NATO və b. hərbi bloklar kimi təhlükəsizlik məsələləri ilə birbaşa məşğul olmasa da, əməkdaşlıq əsasında beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi prosesində aparıcı rol oynayır. Bu istiqamətdə ATƏT öz səylərini digər beynəlxalq və regional təşkilatlarla qarşılıqlı fəaliyyətdə və böyük miqdarda qeyri-hökümət təşkilatları ilə birbaşa əlaqədə həyata keçirir.

Hər bir dövlət üçün beynəlxalq təhlükəsizlik ilk növbədə onun ərazi bütövlüyünü, şəxsiyyət və cəmiyyətin təhlükəsizliyini, suveren dövlət hüquqlarını xarici hərbi müdaxilə və hücumlardan qorumaqdan və ən başlıcası, təhlükəsizliyinə beynəlxalq təminatın verilməsindən ibarətdir. Beynəlxalq təhlükəsizliyin əsas təminatçısı rolunda, göründüyü kimi BMT və

onun Təhlükəsizlik Şurası çıxış edir. Təhlükəsizlik Şurasında (TŞ) dünyanın nüvə silahına malik beş dövləti - ABŞ, Çin, Rusiya, Böyük Britaniya və Fransa daimi, daha iki dövləti isə iki ildə bir dəfə dəyişməklə müvəqqəti təmsil olunurlar. Dünya əhəmiyyətli bütün təhlükəsizlik məsələləri TŞ-də müzakirə olunur və qərarlar konsensus yolu ilə qəbul edilir. Hər hansı ölkəyə qarşı kollektiv güc, yaxud digər sanksiya tətbiq etmə, hansısa dövlətin təhlükəsizliyini kollektiv şəkildə qoruma, beynəlxalq sülhməramlı qüvvələr yaratma və müharibə bölgələrinə göndərmə, beynəlxalq təhlükəsizliyi təhdid edən təhlükələrin qarşısını alma və s. məsələlər də TŞ-nin ümumi qərarı ilə həll olunur.

Mütəxəssislər müasir beynəlxalq təhlükəsizlik sistemini həddən artıq qeyri-təkmil, fəaliyyətini isə səmərəsiz hesab edirlər. Onların fikrincə, BMT TŞ-nin qərarvermə prinsipləri və metodları münaqişəli halların qarşısının alınmasında, beynəlxalq və regional təhlükəsizliyə qarşı təhdidlərlə mübarizədə operativ müdaxilə imkanı vermir. Bu qurum həm də öz nizamnamə öhdəliyinə uyğun olaraq, nəinki ayrı-ayrı ölkələrə faktiki təhlükəsizlik, xarici hərbi müdaxilələrdən qorunma və s. sahəsində təminat verə bilmir, hətta özünün yürütdüyü səbatsız, müxtəlif standartlı, prinsipsiz siyasət nəticəsində, məsələn, Ermənistan kimi cırtdan bir ölkəni beynəlxalq hüququn ən əsas normasına tabe etdirə bilmir. Mütəxəssislər bu vəziyyəti onunla əlaqələndirirlər ki, BMT TŞ-nin hazırkı daimi üzvlərini öz milli maraqlarından və onlara bilavasitə aid olan məsələlərdən başqa heç nə düşündürmür.

BMT-nin təhlükəsizlik sisteminin təşkili konsepsiyasının və onun daimi Təhlükəsizlik Şurasının fəaliyyətinin yenidən qurulması ideyası necə illərdir ki, beynəlxalq aləmin gündəliyindədir. Tədqiqatçıların fikrincə, dünyada işğalçılıq siyasəti yürüdən dövlətlərə, beynəlxalq hüquq normaları və beynəlxalq təhlükəsizliyə hörmətsizlik edən, açıq-aşkar meydan oxuyan

ayrı-ayrı ölkələrə və onların birliyinə qarşı bütün dünya ölkələrinin kollektiv səyinin birləşdirilməsi və işlək mexanizmi düşünülməyincə, vahid prinsip əsasında bu iş təşkil olunmayınca, dünyada kollektiv təhlükəsizliyin təminatı sahəsindəki hazırkı yarıtmaz vəziyyət davam edəcək və hər ölkə öz təhlükəsizliyini bacardığı şəkildə təmin etməyə çalışacaqdır.

§ 1.2. Beynəlxalq təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasət strategiyası və fəaliyyəti

SSRİ-nin dağılmasının ardından Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsinin fərqli hərbi-geostrateji qruplaşmaları və geosiyasi mövqeləri, kəsişən maraqlar və ziddiyyətli fəaliyyətlər fonunda Azərbaycan dövlətinə öz beynəlxalq regional və milli təhlükəsizlik siyasətini formalaşdırmaq, regionun ümumi təhlükəsizlik məsələləri içərisində məxsusi təhlükəsizlik ölçülərini və meyarlarını müəyyənləşdirmək çox çətin oldu. Çünki SSRİ-nin dağılması ərəfəsində ərazisində etnik separatçılığın qızışdırılması və bu zəmində arzuolunmaz müharibəyə cəlb edilməsi, torpaqlarının Ermənistan tərəfindən işğal olunması və s. onun yenicə başladığı milli dövlət quruculuğunun təxirəsalınmaz daxili iqtisadi, siyasi və sosial problemləri sırasına həm də xarici hərbi müdaxilə və milli təhlükəsizlik kimi məsələləri də əlavə etmişdi. Erməni hərbi birləşmələri qısa zaman çərçivəsində bəzi xarici dövlətlərin köməkliyi ilə Azərbaycanın 20% ərazisini işğal edərək, milli təhlükəsizliyini ciddi sınaq qarşısında qoymuşdu. BMT-nin bütün tələblərini kobudcasına pozan və qəbul etdiyi qətnamələri icra etməyən Ermənistana qarşı milli müdafiə və beynəlxalq təsiretmə mexanizmlərinin səfərbər edilməsi, işğalın dayandırılması üçün təsirli tədbirlərin görülməsi, bu müstəvidə ölkənin haqlı beynəlxalq mövqelərini müdafiə edən hərbi-siyasi tərəfdaşların, müttəfiqlərin tapılması

və onların gücündən istifadə edilməsi ölkə rəhbərlərindən xüsusi düşünülmüş hərbi və milli təhlükəsizlik siyasəti tələb edirdi.

Azərbaycanın xarici təhlükəsizlik siyasəti və bu əsasda yaradacağı təhlükəsizlik strategiyası hərtərəfli düşünülmüş və çoxşaxəli olmalı, riskli və təhlükəli siyasi təşəbbüsləri istisna etməli idi. Ölkənin beynəlxalq mövqeyini möhkəmləndirmək, onu regionun lider dövlətinə çevirmək, ümumi strateji məqsədlər naminə regional təhlükəsizlik layihələrinin bütün iştirakçıları ilə bərabərhüquqlu əməkdaşlıq qurmaq, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağı, ona bitişik ətraf rayonları işğaldan azad etmək və s. bu strategiyanın ana xəttini təşkil edirdi.

Azərbaycanın xarici siyasət strategiyanın formalaşmasına təsir göstərən amilləri iki qrupa ayırmaq olar: *Birinci qrupa* beynəlxalq aləmdə mövcud olan, dövlətin strateji, həyati maraqlarının toxunduğu siyasi, iqtisadi və hərbi amillər daxildir və onlar digər ölkələrin hökumətlərinin, dövlətin mühüm tərəfdaşları və yaxud əleyhdarlarının fəaliyyəti nəticəsində yaranır. Bu amillər dünya siyasətinin əsas subyektlərinin iqtisadi, siyasi və hərbi gücünün nisbəti ilə, eyni zamanda həm qlobal, həm də regional səviyyələrdə beynəlxalq münasibətlərin formalaşması prinsipləri və mexanizmləri ilə müəyyənləşir. *İkinci qrup* amillərə isə Azərbaycanın milli sərhədlərindən kənarda fəaliyyətini şərtləndirən daxili hərəkətverici motivlər aiddir.

Ölkənin geosiyasi, geoiqtisadi və hərbi-strateji maraq dairələrinin, onların fonunda xarici dövlətlər və geosiyasi aktorlarla təhlükəsizlik sahəsində münasibətlərinin konseptual əsaslarının və strategiyasının hazırlanması, beynəlxalq aləmdəki müttəfiqlərinin, tərəfdaşlarının və rəqiblərinin təsnifatının aparılması, onlarla hərbi-geostrateji əlaqələrin xarakterinin müəyyənləşməsi və mümkün proqnozların verilməsi Azərbaycan dövlətindən təhlükəsizlik sahəsində öz *Xarici Siyasət Konsepsiyasının* yaradılmasını tələb edirdi.

Azərbaycan dövlətinin beynəlxalq, regional və milli təhlükəsizliklə bağlı xarici siyasət fəaliyyətinin təhlili göstərir ki, 1991-1993-cü illərin böhranlı dövlət quruculuğu prosesləri, hakimiyyətin rastlaşdığı bütün daxili və xarici problemlər həm də onun təhlükəsizlik siyasətinə və beynəlxalq əlaqələrinə öz mənfi təsirini göstərmişdi. SSRİ-nin və keçmiş sosialist düşərgəsinin ənənəvi təsirindən tezliklə qurtulmaq, milli inkişaf və təhlükəsizliklə bağlı müstəqil daxili və xarici siyasət kursu formalaşdırmaq, onun əsas prioritetlərini, məqsəd və vəzifələrini müəyyən etmək, beynəlxalq təhlükəsizlik siyasəti müstəvisinə çıxmaq və dünya sisteminə qatılmaq yeni və müstəqil dövlət üçün o qədər də asan iş deyildi. Bundan başqa, ərazi iddiası ilə Ermənistanın onun torpaqlarına işğalçı qoşun yeritməsi, birbirinin ardınca ərazilərini zəbt etməsi, əhalisini daimi yaşayış yerlərindən kütləvi şəkildə qovması və s. kimi ağırlaşdırıcı hallar da həmin dövrdə Azərbaycanın təhlükəsizlik sahəsində xarici siyasət fəaliyyətinin formalaşmasını çətinləşdirirdi. Odur ki, müstəqilliyinin ilk illərində ölkənin beynəlxalq təhlükəsizlik sahəsində xarici siyasət kursunda və hökumətin fəaliyyətində bir çox ciddi nöqsanlar buraxılmış, ziddiyyətli, qeyri-müəyyən və qeyri-ardıcıl qərarlar verilmişdi. Bu da onun həm daxili həyatına və müstəqil dövlət quruculuğu prosesinə, həm də region dövlətləri və beynəlxalq aləmlə münasibətlərinə ciddi təsir göstərmişdi. Azərbaycan uzun müddət xarici aləmlə səmərəli iqtisadi, siyasi, sosial-mədəni əlaqələr yarada bilməmiş, hakimiyyət strukturları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında beynəlxalq informasiya mübarizəsini uduzmuş, ölkənin xarici aləmdən qaynaqlanan milli təhlükəsizlik və geosiyasi vəziyyətini çətin duruma salmışdı.[366]

[366] Daha ətraflı materiallara bax: Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, 2005, s. 211-263

Azərbaycanın təhlükəsizlik sahəsində praktiki xarici siyasət fəaliyyətinin qurulması və formalaşması, onun əsas vəzifələrinin müəyyənləşdirilməsi Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun dövründə Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqelər qazanması üçün lazımi tədbirlər həyata keçirildi, ölkənin xarici aləm üçün kəsb etdiyi maraqlar dairəsi, geosiyasi və geoiqtisadi əhəmiyyəti düzgün dəyərləndirildi, beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda üst-üstə düşən, kəsişən maraq dairələri müəyyənləşdirildi. Beynəlxalq münasibətlərin və beynəlxalq təhlükəsizlik mühitinin vəziyyəti və yeni tələbləri, dövlətlərarası əlaqələrin prinsipləri, beynəlxalq hüququn təsir gücü və dairəsi, dünyanın böyük dövlətlərinin, regionun aparıcı ölkələrinin və beynəlxalq təşkilatların Cənubi Qafqaz və Azərbaycanla bağlı yürütdüyü, yaxud yürüdə biləcəyi siyasət, yarana biləcək təhlükələr və s. təhlil edildi.[367]

Prezident Heydər Əliyev daim qeyd edirdi ki, təhlükəsizlik sahəsində Azərbaycanın qarşısında duran əsas vəzifələr, ilk növbədə dövlət müstəqilliyinin qorunması, ərazi bütövlüyünün təmin olunması, əhalinin təhlükəsizliyinin təmin edilməsi və bu sahədə dünyanın və regionun bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələrin yaradılmasından ibarətdir.[368]

Azərbaycan 1993-cü ildən başlayaraq prezident Heydər Əliyevin rəhbərliyi altında öz praqmatik təhlükəsizlik siyasətini və tarazlaşdırılmış xarici siyasət fəaliyyətini formalaşdıraraq, ilk növbədə müstəqil bir dövlət kimi dünya sistemindəki məxsusi yerini, beynəlxalq münasibətlər sahəsində təmsilçiliyinin strateji məqsədlərini və taktiki vəzifələrini, xarici aləmlə əlaqələrinin, xarici təhlükəsizlik siyasətinin konturlarını, prio-

[367] Daha ətraflı materiallara bax: Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti: əsas məqsədi, vəzifələri və icra mexanizmləri //Heydər Əliyev və inkişafın Azərbaycan modeli. Bakı, 2010, s.32-48

[368] Yenə orada.

ritetlərini müəyyən etdi, qabaqcıl xarici ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq, dünya birliyinə hərtərəfli inteqrasiya, ölkənin geosiyasi təhlükəsizliyi ilə bağlı regionda və dünyada mövcud olan təhlükəsizlik sistemləri ilə əməkdaşlıq xəttini müəyyənləşdirdi.

Xarici təhlükəsizlik qurumlarının kəşfiyyat və xəfiyyə mübarizəsi meydanına çevrilmiş, siyasi, hərbi, dini, missioner təşkilatların dərin kök saldığı Azərbaycanın beynəlxalq və milli təhlükəsizlik məsələləri 1993-1995-ci illərdə qaydaya salındı, pozulmuş ərazi bütövlüyünün bərpası, işğalçıların Azərbaycan torpaqlarından çıxarılması, dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, regional və milli təhlükəsizliyin təmin edilməsi kimi vəzifələrin həllində beynəlxalq aləmin, ilk növbədə BMT, ATƏT, NATO və s. kimi nüfuzlu beynəlxalq təşkilatların, böyük ölkələrin dəstəyinin qazanılması yolları axtarılmağa başlandı.

Azərbaycan o dövrdə dövlətlərarası əlaqələri pozulmuş və geosiyasi münasibətləri gərginləşdirilmiş iri region dövlətləri – Rusiya və İran, erməni lobbisinin təsiri ilə Azərbaycana qarşı müxtəlif məhdudlaşdırıcı sanksiyalar qəbul etmiş ABŞ, Avropanın nüfuzlu ölkələri olan Fransa, Almaniya, İngiltərə, MDB üzvləri və Orta Asiyanın qonşu respublikaları, dünyanın və regionun başqa dövlətləri ilə təhlükəsizlik sahəsində tərəfdaşlıq münasibətləri yaratdı. Beynəlxalq və regional təşkilatlarla, o cümlədən təhlükəsizlik qurumları ilə əlaqələri intensivləşdirdi, onların imkanlarından ölkənin problemlərinin həlli istiqamətində istifadə etmək üçün tədbirlər həyata keçirdi.

Beynəlxalq təhlükəsizlikdə mühüm əhəmiyyət kəsb edən xarici təbliğat və informasiya fəaliyyətini qaydaya salmaq üçün ölkə daxilində mühüm işlər həyata keçirildi, xarici kəşfiyyat, informasiya və xəfiyyə orqanlarının Azərbaycandakı pozucu informasiya fəaliyyəti nəzarətə götürüldü.

Müstəqil Azərbaycan dövlətinin təhlükəsizlik sahəsində xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri müəyyənləşdirilərək Azərbaycan Respublikasının Konstitusiyasına, xarici siyasətlə bağlı qəbul olunmuş qanunvericilik aktlarına salındı və bu sahədə rəsmi siyasət formalaşdırıldı.

Həmin sənədlərdə beynəlxalq təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasətinin əsas vəzifələri: *müasir dünya sisteminə qatılmaq, dövlətin davamlı inkişafını, suveren dövlət hüquqlarını, ərazisinin və əhalisinin təhlükəsizliyini, dinc və firavan həyatını, milli ehtiyatları üzərində siyasi, iqtisadi və geostrateji nəzarəti təmin etmək məqsədi ilə yerləşdiyi bölgə və dünya dövlətlərinin, digər xarici aktorların imkanlarından səmərəli istifadə etməkdən ibarətdir.* Bu vəzifələrin təmin olunması, eyni zamanda bütün xarici aləmlə, ayrı-ayrı dövlətlərlə, beynəlxalq qurumlarla ikitərəfli və çoxtərəfli siyasi, iqtisadi, hüquqi, mədəni və s. əlaqələrin yaradılması - dövlətin xarici siyasət fəaliyyətinin əsasını təşkil edir.

Yuxarıda bəhs olunan mənbələrdə- BMT-nin Nizamnaməsində, ATƏT-in Zirvə Toplantılarının yekun qərarlarında, o cümlədən Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyalarda, imzaladığı dövlətlərarası əlaqələrə dair müqavilələrdə, reallaşdırdığı çoxtərəfli və ikitərəfli münasibətlərdə öz əksini tapmış beynəlxalq hüquq normalarından çıxış edərək, Azərbaycan dövlətinin təhlükəsizliklə bağlı xarici siyasətinin əsas *vəzifə və istiqamətlərini* aşağıdakı kimi təsnif etmək olar:

- Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarını azad etmək, dövlət müstəqilliyini, suverenliyini və beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü, əhalinin təhlükəsizliyini təmin etmək;
- Azərbaycanın beynəlxalq, regional və milli təhlükəsizlik maraqlarını sistemləşdirmək, onun təmin olunması

mexanizmlərini, vasitələrini müəyyənləşdirmək və beynəlxalq, regional təhlükəsizlik sistemi ilə əlaqələndirmək;

- milli təhlükəsizliyin tələblərinə cavab verən beynəlxalq və regional təhlükəsizlik təşkilatları ilə əməkdaşlıq etmək, beynəlxalq təhlükəsizlik tədbirlərində, təhlükəsizliklə bağlı dünyada cərəyan edən beynəlxalq və regional münasibətlərdə fəal iştirak etmək;
- dünya dövlətləri ilə təhlükəsizlik sahəsində bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri yaratmaq, bu əlaqələrdən ölkənin milli təhlükəsizliyinin təmin olunmasında səmərəli istifadə etmək;
- təhlükəsizlik maraqları Azərbaycanın maraqları ilə uyğun gələn beynəlxalq qurumlarla, ayrı-ayrı dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, respublikanın beynəlxalq və regional təhlükəsizliyinin təmin olunması üçün onların imkanlarından istifadə etmək;
- kənar müdaxilə olmadan respublikamızın seçdiyi demokratiya, azad bazar iqtisadiyyatı və Avropaya inteqrasiya kursu ilə təhlükəsiz irəliləmək, müstəqil daxili və xarici siyasət yürütmək və s. üçün əlverişli, təhlükəsiz beynəlxalq və regional şəraitin bərqərar olmasına çalışmaq;
- əhalinin təhlükəsiz həyatının, dinc yaşayış hüququnun qorunmasına yönəlmiş beynəlxalq normaların həyata keçirilməsinə şərait yaratmaq;
- Cənubi Qafqaz və Xəzər regionunda etnik münaqişələrin, milli qarşıdurmaların və ölkələrarası gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək;

- hər hansı xarici hərbi, siyasi, iqtisadi və s. təhdidlərin, təzyiqlərin və təsirlərin qarşısını alan və ya onları minimuma endirən beynəlxalq təminat mexanizminin yaradılmasına nail olmaq;
- ölkəmizin xarici iqtisadi fəaliyyət təhlükəsizliyinin təmin olunması, milli iqtisadiyyatın şah damarı hesab olunan enerji ehtiyatları istehsalının və ixracının təhlükəsizliyi ilə bağlı beynəlxalq təminatın gücləndirilməsi, Azərbaycanın dünya enerji təhlükəsizliyinin ayrılmaz tərkib hissəsinə çevrilməsi və beynəlxalq iqtisadi sistemə inteqrasiya üçün xarici amillərdən bəhrələnmək;
- təhlükəsizlik sahəsində xarici ölkələrlə hərbi-geostrateji, elmi, texniki və informasiya mübadiləsi mexanizmlərini yaradaraq işə salmaq və s.

Müstəqil Azərbaycan dövlətinin təhlükəsizlik sahəsində xarici siyasəti həm də özünəməxsus *səciyyəvi xüsusiyyətləri* ilə seçilir. Bu xüsusiyyət özünü ilk növbədə beynəlxalq hüquq normaları və prinsiplərinə söykənərək sivil dövlətlərarası münasibətlərə hörmət bəsləməkdə, beynəlxalq, regional və dövlətlərarası münaqişələri sülh və danışıqlar yolu ilə həll etməyə çalışmaqda, bütün dünya ölkələrinin suveren hüquqlarına və təhlükəsizlik maraqlarına hörmətlə yanaşmaqda və s. göstərir. Bundan başqa, təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasət fəaliyyətinin xarakterik xüsusiyyətləri sırasına həmçinin onun çevik, praqmatik və tarazlaşdırılmış təhlükəsizlik siyasəti yürütməsini, qonşu ölkələrlə ortaq təhlükəsizlik maraqlarının tapılmasına üstünlük verməsini, dünya təhlükəsizlik mühitinə əhəmiyyətli təsir göstərən böyük dövlətlərlə tərəfdaşlıq münasibətlərinin yaradılmasına çalışmasını, ayrı-ayrı sahələrdə onların təhlükəsizlik maraqları ilə öz strateji mənafelərini uzlaşdırmaq cəhdlərini və s. mühüm cəhətləri də air etmək olar.

Azərbaycan demokratik və hüquqi dövlət quruculuğu yolu tutduğundan, onun xarici təhlükəsizlik siyasəti həm də açıq və demokratik prinsiplər əsasında qurulmuş, beynəlxalq konvensiyalarda təsbit olunmuş transmilli hüquqi normalara, beynəlxalq təhlükəsizlik təşkilatlarının prinsiplərinə, dünyanın ümumi təhlükəsizlik maraqlarına və s. planetar sivil birgəyaşayış qaydalarına uyğunlaşdırılmışdır.

Təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasət *prinsipləri* də özünəməxsus səciyyə daşıyır. Azərbaycan Konstitusiyasında bununla bağlı qeyd edilir ki, "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun qurur". Beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər Azərbaycanın da üzv olduğu BMT və ATƏT-in nizamnamələrində, dünya ölkələrinin qoşulduğu çoxsaylı beynəlxalq konvensiyalarda və digər sənədlərdə öz əksini tapmışdır və həmin təşkilatların üzvü olan bütün dövlətlər üçün məcburi xarakter daşıyır. Bəşər cəmiyyəti bəhs etdiyimiz ortaq təhlükəsizlik prinsiplərini hazırkı beynəlxalq münasibətlər sisteminin və planetar birgəyaşayışın əsas hüquq normasına çevirmək üçün yüz illərlə davam edən, qanlı müharibə və dağıntılarla müşayiət olunan tarixi bir dövr keçmişdir. Odur ki, bütün dünya dövlətləri, beynəlxalq və məhəlli təşkilatlar BMT-nin Nizamnaməsində, beynəlxalq konvensiyalarda, ATƏT-in 1975-ci ildə imzalanmış "Helsinki Yekun Aktında", 1990-cı il "Paris Xartiyasında" və 1999-cu il "İstanbul Xartiyasında" öz əksini tapmış prinsip və normaları istər ayrı-ayrılıqda, istərsə də birgə qorumağa, onlara vicdanla əməl etməyə borcludurlar.

Beynəlxalq hüquq, beynəlxalq təhlükəsizlik normaları və prinsipləri hazırda dövlətlərarası münasibətlər praktikasında hamının qəbul edə biləcəyi, sivil dövlətlərarası münasibətlərin inkişafına və möhkəmlənməsinə bu və ya digər dərəcədə müsbət təsir göstərə biləcək yeni-yeni kollektiv sənədlərlə, müqa-

vilə və maddələrlə zənginləşdirilir. Azərbaycan müstəqillik illərində bir çox belə birgə sənədə imza atmış, özünün hüquqi fəaliyyət və öhdəlik dairəsini genişləndirmişdir.

Azərbaycanın təhlükəsizlik sahəsində xarici siyasət prinsipləri dünyada yaşanan geosiyasi proseslərin, beynəlxalq və regional təhlükəsizliklə bağlı müasir çağırışların, nüfuzlu beynəlxalq təşkilatların sənədlərində öz əksini tapmış əsas normaların tələbləri çərçivəsində formalaşmışdır. XX əsrin sonlarında Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra dünyada sülh, qarşılıqlı təhlükəsizlik, dostluq və əməkdaşlıq münasibətlərinə birmənalı tərəfdar olduğunu bu sahə üzrə mövcud olan əsas beynəlxalq sənədləri imzalamaqla ortaya qoymuşdur. Azərbaycan 1992-ci ildə BMT-nin Nizamnaməsi ilə yanaşı, həm də ATƏT-in Helsinki Yekun Aktını (1975) imzalamış bu sənəddə öz əksini tapmış 10 əsas prinsipə sadiqliyini nümayiş etdirdi.

Azərbaycan 1993-cü ilin dekabr ayında beynəlxalq və regional təhlükəsizliklə bağlı növbəti mühüm beynəlxalq sənədi - ATƏT-in Paris Xartiyasını imzaladı. Qeyd edək ki, 1990-cı ildə qəbul olunan bu sənəd "soyuq müharibə"dən sonra Avropada beynəlxalq münasibətlər sisteminin formalaşmasında özünəməxsus yer tutur və onu imzalayan dövlətlər ATƏT-in Helsinki Yekun Aktının 10 prinsipinə tam tərəfdar olduğunu və onların praktikada reallaşmaşında qətiyyət göstərəcəklərini bir daha bəyan etmişlər.

Bu sənədlərin qəbul edilməsindən sonra dünyada gedən geosiyasi proseslər göstərdi ki, beynəlxalq və regional təhlükəsizliyin təmin olunması məqsədilə yeni mexanizmlərin işlənilib hazırlanması vacibdir və dünyada etibarlı sülhün mövcudluğuna böyük təhdid olan beynəlxalq terrorizm, ekstremizm, mütəşəkkil cinayətkarlıq və narkotik maddələrin qaçaqmalçılığına qarşı birgə aparılması zəruridir. Bundan çıxış edilərək, ATƏT-in 1999-cu ildə İstanbulda keçirilən zirvə toplantısında yeni

xartiya qəbul olundu və təşkilata üzvü olan dövlətlər Avropada azad, demokratik məkanın formalaşmasına nail olmaq üçün yeni addımlar atmağı qərara aldılar və razılaşdılar ki, əməkdaşlığa əsaslanan təhlükəsizlik platforması qəbul etsinlər.369 Azərbaycan da ATƏT-in həmin zirvə toplantısında iştirak edərək İstanbul Bəyannaməsinə və Avropa Təhlükəsizliyi Xartiyasına qoşuldu.

Azərbaycanın təhlükəsizlik sahəsində *xarici siyasət fəaliyyətinin prioritetləri* də onun xarici siyasət konsepsiyasının ümumi vəzifələrinə uyğun şəkildə müəyyən olunur. Xarici siyasət konsepsiyası həm də təhlükəsizlik sahəsində ölkənin qarşısında dayanan *uzunmüddətli* beynəlxalq strateji vəzifələrin və ölkə xaricində həyata keçiriləcək *operativ cari* fəaliyyətin planlaşdırılması və təmin olunması metodikasını özündə əks etdirməlidir.

Təhlükəsizlik sahəsində uzunmüddətli xarici fəaliyyət proqramı *dövlətin hərbi gücü, qüdrəti, iqtisadi, siyasi və maliyyə ehtiyatları, dünya siyasətindəki rolu və yerindən asılı olaraq milli təhlükəsizliyinin məqsədləri, beynəlxalq və regional vəzifələri üzərində qurulur*. Bu vəzifələrin ən vacibi və həyati əhəmiyyət kəsb edənləri sırasına *ölkənin müstəqilliyinin qorunmasını, ərazisi və əhalisinin təhlükəsizliyinin, dövlətin suveren hüquqlarının təmin edilməsini, təhlükəsizliklə bağlı beynəlxalq təminatın alınmasını, milli təhlükəsizliyin beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirilməsini, beynəlxalq və regional təhlükəsizlik qurumları ilə tərəfdaşlıq münasibətlərinin yaradılmasını* aid edirlər. Xarici siyasət qurumlarının bu prosesdə əsas vəzifəsi isə qeyd olunan məsələlərin həyata keçirilməsinə xarici dəstəyin təmin olunması və beynəlxalq aləmin imkanlarının cəlb edilməsindən ibarətdir.

369 Bax:http://www.osce.org/ru/mc/39573?download=true

Uzunmüddətli xarici siyasət strategiyası *konkret zaman, məkan və şəraitə uyğun olaraq dövlətlərin təhlükəsizliklə bağlı cari xarici siyasət proqramının hazırlanmasını və yürüdüləcək siyasətin, görüləcək işlərin prioritetlərinin (mövcud zaman və məkan şəraitində reallaşdıracağı birinci dərəcəli vəzifələr) müəyyənləşdirilməsini tələb edir. Əslində, bu sahədəki prioritetlər dövlətin uzunmüddətli xarici fəaliyyətinin tərkib hissəsi, qarşısında duran vəzifələrin daha dəqiqləşdirilmiş, qruplaşdırılmış, təsnifatlaşdırılmış, mövcud məkan və zaman çərçivəsində önə çıxarılmış hissəsidir.*

Ölkənin xarici siyasət prioritetləri kimi, təhlükəsizlik sahəsində ən vacib vəzifələr də dövlətin rəsmi və qeyri-rəsmi institutlarının, vətəndaş cəmiyyətinin və ictimaiyyətin tələb və istəklərinin sintezi nəticəsində formalaşmış ümumi rəy əsasında müəyyən olunur. Ümumi rəyin fəaliyyət proqramına çevrilməsi və milli səviyyədə həyata keçirilməsinin əlaqələndirilməsini dövlət öz institutları, hüquqi və fiziki şəxsləri vasitəsi ilə reallaşdırır.

Beynəlxalq təhlükəsizliklə bağlı aparılan xarici siyasətin əlaqələndirilməsini həyata keçirən əsas institut Xarici İşlər Nazirliyi hesab olunsa da, ölkənin təhlükəsizlik strukturları da bu prosesdə birbaşa iştirak edir. *Təhlükəsizlik qurumları mövcud zaman və məkan çərçivəsində dövlətin təhlükəsizlik mühitini öyrənir, vəzifələri müəyyənləşdirir və müvafiq addımlarını planlaşdırır*. O ki qaldı xarici aləmlə təmasda həmin vəzifələrin reallaşmasına, bu proses artıq XİN-in rəhbərliyi tərəfindən və diplomatik vasitələrlə həyata keçirilir. Beynəlxalq təhlükəsizlik sahəsində milli proqramın hazırlanması prosesində isə həm xarici və daxili işlər, təhlükəsizlik, hərbi və s. üzrə qurumlar, həm də müvafiq institutlar və aidiyyati mütəxəssislər iştirak edirlər. Birgə hazırlanmış beynəlxalq təhlükəsizlik sənədi

dövlətin ali rəhbərliyinə təqdim edilir və həyata keçirilməsi üçün onun sanksiyası alınır. Beynəlxalq təhlükəsizlik siyasətinin reallaşması işində Xarici İşlər Nazirliyi həm dövlətin bütün mövcud ehtiyatlarını və gücünü, həm də ölkə vətəndaşlarının, dövlətə loyal münasibəti ilə seçilən siyasi partiya və ictimai təşkilatların, ayrı-ayrı hüquqi və fiziki şəxslərin imkanlarını səfərbər edir. Bu mənada, xarici siyasət və onun prioritet vəzifələrindən hesab olunan milli təhlükəsizlik məsələlərinin uğurlu həlli, bütövlükdə həm də ölkə daxilində milli və vətəndaş birliyinin vəziyyətindən asılı olur və əslində, belə birliyin yaranmasında stimul kimi çıxış edir. Xüsusən, böhran və müharibə vəziyyətlərində, ölkənin milli təhlükəsizliyi, ərazi bütövlüyü və xalqın həyatı üçün ciddi təhlükə yarandığı məqamlarda insanlarda vətənpərvərlik hisslərinin güclənməsi, maraqların və baxışların yaxınlaşması prosesi baş verir. Bu hisslərdən düzgün istifadə olunan, millətinin istək və arzuları mövcud şəraitə və zamana görə doğru istiqamətləndirilən, real iqtisadi, siyasi, hərbi, demoqrafik və s. imkanları nəzərə alınan ölkələrdə milli təhlükəsizlik vəzifələrini reallaşdırmaq daha asan və davamlı olur. Əks təqdirdə, bütövlükdə millət və onun ən fəal təbəqələri qeyri-real və avantürist yollara sövq olunur. Bu da onun başqa dövlət və xalqlarla ciddi qarşıdurmasına səbəb olur.

Ümumiyyətlə, *dövlətin beynəlxalq təhlükəsizliklə bağlı xarici siyasət fəaliyyətinin uğurlu həlli onun bu sahədəki mövcud ehtiyaclarının, milli ehtiyatlarının və imkanlarının obyektiv və düzgün dəyərləndirilməsindən, istək və arzularının real vəziyyətə uyğunlaşdırılmasından asılıdır.* Çünki beynəlxalq aləmin mövcud siyasi, iqtisadi, hərbi, demoqrafik, informasiya vəziyyəti, imkanları və şəraiti qlobal proseslərin təsiri altında elə bir vəziyyətə gətirilmişdir ki, nəyin beynəlxalq, yaxud milli

maraq dairəsinə uyğun gəlib-gəlməməsini müəyyənləşdirmək xüsusi səriştə və bilik tələb edir.

Ölkənin *xarici siyasət prioritetləri açıq diplomatiyaya aid edilsə də, beynəlxalq təhlükəsizliklə bağlı bir çox məsələlər, bir qayda olaraq, dövlət başçıları, ölkənin təhlükəsizlik şuraları, hərbi, təhlükəsizlik və xarici siyasət idarələrinin fəaliyyətində nəzərə alınmaq üçün hazırlanır.* Həmin prioritetlər haqqında, bir qayda olaraq, açıq danışılmır. Həm xarici siyasət, həm də beynəlxalq təhlükəsizlik sahəsində irəli sürülmüş prioritetlərin əsas istinad qaynağı, dünya ölkələrinin tarazlaşdırılmış ortaq maraqları fonunda hər bir ölkənin milli və dövlət maraqları hesab olunur. *Dövlətlərin beynəlxalq maraq çərçivəsini BMT-nin Nizamnaməsi və digər beynəlxalq hüquq normaları, milli maraq ölçüsünü isə hər bir ölkənin ali qanunu - konstitusiyası müəyyən edir.*

Dövlətin xarici təhlükəsizlik siyasətinin prioritetlərinin düzgün müəyyən olunması və təminatı *hər bir ölkənin milli maraqlarını, onu əhatə edən qonşu və region dövlətlərinin imkan və mövqelərini, dünya siyasəti və beynəlxalq münasibətlərin mahiyyətini və reallıqlarını, planetin birgəyaşayış normalarını müəyyən edən böyük dövlətlərin, beynəlxalq təşkilatların, güc mərkəzlərinin maraq və mənafe çərçivələrini, onlara təsir imkanlarını dəqiq qiymətləndirə bilməsindən asılıdır.*

Hakimiyyət dairələrində ölkənin xarici təhlükəsizlik mühiti və perspektivləri, xarici müdaxilələrdən qorunma gücü, dünya dövlətləri arasında tutduğu yer, geosiyasi mövqeyi və s. haqqında hay-küylü deyil, *real, praqmatik düşüncə* olmalı, dövlətin mövcud ehtiyatları, dünya dövlətləri üçün kəsb etdiyi iqtisadi, siyasi və mədəni əhəmiyyəti düzgün dərk edilməli, beynəlxalq münasibətlərin vəziyyəti, tendensiyaları, ölkələrin real təhlükəsizlik maraqları nəzərə alınmalıdır.

Azərbaycanın xarici təhlükəsizlik siyasətinin əsas prioritetləri

Dövlət müstəqilliyi bərpa olunduğu gündən Azərbaycanın xarici təhlükəsizlik siyasətinin əsas prioritetlərindən *biri dövlət müstəqilliyini qorumaq və möhkəmləndirmək, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalına son qoymaq və Dağlıq Qarabağ münaqişəsini həll etmək, ölkənin beynəlxalq və regional təhlükəsizliyini təmin etmək və bunun davamlı təminatını beynəlxalq təhlükəsizlik sistemi ilə bağlamaqdan ibarət olmuşdur.* Bu prioritet bu gün də xarici təhlükəsizlik siyasətinin və kursunun əsas vəzifələrindən birini təşkil edir. Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 sentyabr 2014-cü ildə NATO-nun İngiltərədə keçirilən sonuncu sammitindəki çıxışında bir daha təsdiq etmişdir. O, Azərbaycanın regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsindəki rolunu qeyd etməklə yanaşı bildirmişdir ki, hazırda Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə ən böyük təhlükə hələ də Azərbaycan ərazisinin iyirmi faizini- Dağlıq Qarabağ və yeddi ətraf rayonu işğal altında saxlayan Ermənistandan qaynaqlanır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirib və bunun nəticəsində 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Əfsuslar olsun ki, Ermənistan onlara məhəl qoymamaqda davam edir və münaqişə həll olunmamış qalır. [370]

Azərbaycanın dövlət müstəqilliyi yolunda mövcud olan əsas təhlükələr 1995-ci ildən başlayaraq əsasən aradan qaldırılsa da*, beynəlxalq təhlükəsizliyinin təmin olunmasının daimi*

[370] Bax: AzərTAC-ın xəbər bülleteni, 5 sentyabr 2014-cü il.

təminatı məsələsi hələ də açıq qalır. Çünki hələ də ölkə ərazisindən xarici işğalçı ordu çıxarılmamış, onun ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı ilə bağlı beynəlxalq hüquqları təmin olunmamış və təhlükəsizliyinə tam beynəlxalq təminat alınmamışdır.

Bundan başqa, *Azərbaycanın iqtisadi, siyasi, ekoloji, informasiya, ərzaq və s. təhlükəsizliyinin qorunması istiqamətində də xarici aləmlə işlər davam edir və onların ölkə daxilində reallaşdırdığı transmilli layihələr dövlətin milli təhlükəsizlik maraqlarına uyğunlaşdırılır.*

Azərbaycanın *müdafiə qabiliyyətinin yüksəldilməsi, ordu quruculuğunun müasir standartlara uyğunlaşdırılması və hərbi təhlükəsizliyinin təmin olunması sahəsində xarici ölkələrin imkanlarından istifadə edilməsi də prioritet vəzifə kimi gündəmdə durur.*

Azərbaycanın beynəlxalq təhlükəsizliyinin təmin olunması ilə bağlı *xarici siyasətinin əsas prioriteti sülh yolu ilə Ermənistanla münaqişə vəziyyətindən çıxmaq, Dağlıq Qarabağ problemini həll etmək, işğal altındakı torpaqları geri qaytarmaq, bütün ölkə ərazisində dövlətin suveren hüquqlarını bərpa etmək və sərhədlərinin təhlükəsizliyini təmin etməkdən ibarətdir.* Bu problemlərin həllində Azərbaycanın ədalətli və beynəlxalq hüquqa söykənən mövqeyini dəstəkləyən, həmçinin onun əleyhinə çıxış edən və bitərəf mövqe tutan dövlətlər, beynəlxalq və regional təşkilatlar mövcuddur. Əsas vəzifə, sözsüz ki, mövqelərimizi müdafiə edən ölkələrin sayını artırmaq, xarici siyasət fəaliyyətini gücləndirmək yolu ilə bu ölkələrlə, təşkilatlarla hərtərəfli iş aparmaq və qarşıda dayanan vəzifələrin həllində beynəlxalq dəstəyə nail olmaqdan ibarətdir. Beynəlxalq təhlükəsizlik siyasətinin prioritetləri sırasına, eyni zamanda, dünyada və Cənubi Qafqazda beynəlxalq hüquq normalarına əsaslanan sivil birgəyaşayış normalarının bərqərar olması üçün təsirli tədbirlərin görülməsi, beynəlxalq təşkilatların,

xüsusən BMT, ATƏT, NATO kimi qurumların bölgəmizdə sülhün və təhlükəsizliyin təmin edilməsində daha yaxından iştirakına nail olunması və s. məsələlər də daxildir.[371]

Müasir dövrdə Azərbaycan transmilli dünya siyasətində yaxından iştirak edir. Beynəlxalq münasibətlər sistemində baş verən bütün hadisələr və cərəyan edən meyillər dövlətin daxili və xarici vəziyyətinə bilavasitə təsir göstərir. Qloballaşma və dünya siyasətinin transmilliləşməsi, regional inteqrasiya, transmilli demokratikləşmə, liberallaşma və s. kimi proseslərdə ölkənin vahid strateji yanaşma nümayiş etdirməsi və iştirakı bütün dünyada izlənir və qiymətləndirilir. Odur ki, *həm bu istiqamətdə praktik addımların atılması, həm də görülən işlərin beynəlxalq aləmdə düzgün təqdim olunması xarici siyasətin əsas prioritetlərindən birini təşkil edir.* Nəzərə alınsa ki, ABŞ və Avropa İttifaqı dövlətləri müasir dövrdə öz xarici siyasətlərini dünya ölkələrinin demokratik dəyişilməsi üzərində qurur və hər bir ölkə beynəlxalq münasibətlər sistemində demokratik dəyərlərə münasibətinə görə qiymətləndirilir, onda bu işin nə qədər böyük əhəmiyyət daşıdığı məlum olur.

Azərbaycan dövləti dünyada yaşayan bütün azərbaycanlıların istinad yeri, qürur mənbəyi və doğma Vətənidir. Odur ki, ölkə daxilində olduğu kimi, bütün dünya ölkələrində yaşayan azərbaycanlıların**,** onlara məxsus əmlak və mülkiyyətin, soydaşlarımızın milli və vətəndaş haqlarının qorunması da beynəlxalq təhlükəsizlik sahəsində xarici siyasətin prioritet istiqaməti kimi diqqət mərkəzindədir. Xarici ölkələrdə yaşayan azərbaycanlılar eyni zamanda Azərbaycan dövləti üçün dünyanın ayrı-ayrı ölkələrində, regionlarda və bütövlükdə beynəlxalq aləmdə baş verən hadisələrə təsir etmək anlamında xarici siyasət və təhlükəsizlik resursu kimi çıxış edirlər. *Bu resursu qorumaq, imkanlarını artırmaq, bundan azərbaycanlıların hüquqlarının*

[371] Daha ətraflı materiallarla kitabın lV və V fəsillərində tanış olmaq olar.

dolğun şəkildə təmin olunmasında və Vətənimizin mənafelərinin qorunmasında düzgün istifadə etmək ən vacib prioritetlərdən biridir.

Azərbaycanın beynəlxalq təhlükəsizlik sahəsində xarici siyasət prioritetləri sırasına *regional təhlükəsizlik maraqlarının sistemləşdirilməsi və reallaşması istiqamətində görülən vacib işləri də aid etmək olar*. Məsələn, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etməklə yanaşı, Azərbaycan İran, Türkmənistan və Rusiya ilə kəsişən və toqquşan təhlükəsizlik maraqlarının ortaq nöqtəsini tapmaq və əlaqələri daha da yaxşılaşdırmaq, Türkiyə, Ukrayna, Gürcüstanla və strateji maraqları ölkəmizin maraqları ilə üst-üstə düşən digər region ölkələri ilə bu sahədə müttəfiqlik əlaqələrini daha da inkişaf etdirmək, Xəzər dənizinin statusu, TRACECA, Şərq-Qərb enerji-nəqliyyat-kommunikasiya layihələrinin təhlükəsizliyinin təmin olunmasında onlarla birlikdə çalışmaq kimi vəzifələri də həll etməlidir.

Bundan başqa, *Avrasiya məkanında həyata keçirilən beynəlxalq və regional inteqrasiyada layiqli yerini tutmaq, ölkənin beynəlxalq və milli təhlükəsizlik maraqlarını maksimum təmin etmək vəzifəsi Azərbaycandan xüsusi düşünülmüş və tarazlaşdırılmış təhlükəsizlik siyasəti yürütməyi tələb edir.* Bu siyasət regionda Rusiya başda olmaqla MDB, İran başda olmaqla İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkiyə başda olmaqla Türkdilli Dövlətlər Birliyi, ayrıca Avropa İttifaqı, Çin, ABŞ və başqa ölkələrlə əlaqələr sisteminin çox mürəkkəb və ziddiyyətli məqamlarını nəzərə almalıdır. Azərbaycan həm xarici siyasət, həm də təhlükəsizlik məsələlərində tarazlaşdırılmış regional siyasət yürütməyi xüsusi bir prioritet kimi davam etdirməlidir. Tarazlaşdırılmış regional siyasət ölkənin bugünkü təhlükəsizliyi və müstəqil gələcəyi üçün ən mühüm təminat rolunu oynaya biləcək amildir.

Xarici siyasət konsepsiyasında həm də *ölkənin beynəlxalq təhlükəsizliyi ilə bağlı xarici siyasət fəaliyyətinin təşkili, onun əsas mexanizmləri, xarici siyasət ehtiyatlarının müəyyənləşdirilməsi və istifadəsi taktikası da* əksini tapır. Azərbaycanın xarici siyasət fəaliyyətinin əsasları, mexanizmləri, təşkili, bu fəaliyyətdə iştirak edən mərkəzi və yerli hakimiyyət orqanlarının, qeyri - dövlət aktorlarının səlahiyyətləri, rolu və s. ölkənin konstitusiyasına və digər qanunlarına daxil edilmişdir.[372]

Beynəlxalq təhlükəsizlik sahəsində ölkənin malik olduğu və istifadə etdiyi *əsas resurslar* (ehtiyatlar) anlayışına dövlətin maddi və mənəvi həyatının bütöv varlığı (güc amillərinin cəmi) daxildir ki, beynəlxalq münasibətlər sistemində dövlət bu ehtiyatlara arxalanaraq öz təhlükəsizlik siyasətini yürüdür və bu sahədə məqsədyönlü fəaliyyəti həyata keçirir.

Xarici siyasət, o cümlədən təhlükəsizlik sahəsində istifadə olunan resursları tədqiqatçılar maddi və qeyri-maddi olmaqla iki qrupa ayırırlar.

Maddi resurslara:

- *coğrafi ehtiyatları* - dövlətin ərazisinin həcmini və geoməkan xarakteristikasını, hərbi-geostrateji mövqeyini, geoiqtisadi dəyərlərini, nəqliyyat kommunikasiyalarına yaxınlığını, bu ərazini əhatə edən xarici aləmin vəziyyətini;
- *demoqrafik ehtiyatları* - əhalinin sayını, milli-etnik tərkibini, artım sürətini, dövlətçilik mövqeyini, sosial vəziyyətini və keyfiyyət göstəricilərini, ölkənin miqrasiya və urbanizasiya meyillərini;
- *iqtisadi ehtiyatları* – ölkənin milli istehsal və təsərrüfat sistemlərinin vəziyyətini, başqa ölkələrdəki müva-

[372] Daha ətraflı bax: Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s. 247- 263

fiq sahələrlə müqayisədə iqtisadi üstünlüyünü və yaxud geriliyini, öz hərbi sənayesini təmin etmək qabiliyyətini, xarici ölkələrin iqtisadiyyatına təsir etmək imkanları və mexanizmlərini;

- *hərbi ehtiyatları* – ölkənin müdafiə qabiliyyəti və hərbi qüdrətini, sərhədləri xaricində güc tətbiq etmə imkanlarını və s. aid edirlər.

Qeyri-maddi ehtiyatlara:

- *siyasi ehtiyatlar* – dövlətin səmərəli siyasi-idarəçilik fəaliyyətini, xarici ittifaqlarda iştirakını, dünya siyasətinə təsir gücü olan dövlətlərlə mövcud münasibətlərini, beynəlxalq siyasi, hüquq və təhlükəsizlik institutlarında, təşkilatlarında iştirakını və yaxud onlarla əlaqələrini, qlobal və regional siyasətə təsir imkanlarını, səmərəli daxili və xarici siyasət mexanizmlərinə malik olmasını;
- *sosial ehtiyatları* – vətəndaşların daxili birliyinin vəziyyətini, yürüdülən xarici siyasətə münasibətini, dövlət maraqlarının qorunması naminə nümayiş etdirdiyi milli-vətəndaş iradəsini və əzmini;
- *nüfuz ehtiyatlarını* - dövlətin və onun siyasi liderinin beynəlxalq aləmdə təsdiq olunmuş nüfuzunu və onun dünya dövlətlərinin fəaliyyətinə təsir imkanlarını;
- *ideoloji-mədəni ehtiyatları* – başqa dövlətlərin ictimaiyyətinə göstərə biləcəyi intellektual, ideoloji və dini təsirini;
- *informasiya ehtiyatlarını* - qlobal informasiya məkanında iştirakını və ona təsir etmək, dünya informasiya axınını yönəltmək imkanlarını, müstəqil beynəlxalq informasiya ehtiyatlarına malik olmasını;

- *elmi, elmi-texniki və təhsil ehtiyatlarını* – intellektual potensialını və onun inkişaf perspektivlərini, öz iqtisadi, siyasi, hərbi və digər sahələrini ixtisaslı kadrlarla təmin etmək bacarığını və s. aid edirlər. [373]

Bəhs olunan milli resurslar beynəlxalq təhlükəsizliyin əsas məqsəd və vəzifələrinin yerinə yetirilməsinə həm müsbət, həm də mənfi təsir göstərə bilir.

Beynəlxalq münasibətlər və beynəlxalq təhlükəsizlik sisteminin formalaşması və inkişafının ayrı-ayrı dövrlərində ölkələrin xarici siyasət ehtiyatlarının oynadığı rol və onlara müvafiq olaraq formalaşan dövlətlərarası iyerarxik düzüm də dəyişkən olmuşdur. Bir mərhələdə ərazi, hərbi güc, təbii ehtiyatlar və əhalinin sayı mühüm amil kimi çıxış etmişsə, digər mərhələdə iqtisadi, elmi-texniki, informasiya və maliyyə axınına nəzarət daha böyük əhəmiyyət daşımışdır. Qloballaşmanın və transmilli siyasətin təsiri nəticəsində müasir dünya ölkələri xarici siyasət ehtiyatlarının əsas xəttini - təhlükəsizlik mühitinə daha çox təsir göstərən ənənəvi geniş ərazi və çoxsaylı hərbi qüvvəyə malik olmaq uğrunda mübarizələrini, hazırkı dövrdə daha çox transmilli maliyyə, intellektual, informasiya, nəqliyyat-kommunikasiya, enerji ehtiyatlarına və şəbəkələrinə malik olmaq sahəsinə yönəltmişlər.

Azərbaycanın *xarici siyasət və təhlükəsizlik resursları* əsasən respublikamız SSRİ tərkibində olarkən formalaşsa da, ondan müstəqil dövlət maraqlarının reallaşması istiqamətində istifadə edilməsi yalnız 1990-cı illərin əvvəllərində, müstəqilliyə qovuşduqdan sonra başlamışdır.

[373] См: Современные международные отношения и мировая политика. Москва, 2004, с.712-713

II FƏSİL
XƏZƏR-QARA DƏNİZ HÖVZƏSİ VƏ CƏNUBİ QAFQAZIN TƏHLÜKƏSİZLİK MÜHİTİ, AZƏRBAYCANIN REGİONAL TƏHLÜKƏSİZLİK SİYASƏTİ VƏ BEYNƏLXALQ ALƏMLƏ HƏRBİ-GEOSTRATEJİ MÜNASİBƏTLƏRİ

§2.1. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik mühiti: regional bloklaşma reallıqları və proqnozları, hərbi-geostrateji güclərin təsnifatı

SSRİ-nin dağılmasından sonra Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik mühiti dəyişdi, bu mühitə təsir edən regional və beynəlxalq aktorlararası münasibətlər kəskinləşməyə başladı. Bölgənin böyük ölkələri (Rusiya, Türkiyə, İran), regiondan kənar aparıcı dövlətlər (ABŞ, Avropa Birliyi ölkələri, Çin və s.), regionun digər ölkələri (Ukrayna, Azərbaycan, Gürcüstan, Ermənistan və s), transmilli geosiyasi, geoiqtisadi və hərbi-geostrateji aktorlar (BMT, ATƏT, Avropa Birliyi, NATO, MDB, İKT, TDB, transmilli neft-qaz, nəqliyyat, rabitə şirkətləri və s.) arasında məxsusi və kollektiv maraq dairələrinə uyğun yeni münasibətlər formalaşmağa başladı. Əsas həlledici mübahisələr: *region ölkələrinin ərazi bütövlüyü və bəzi dövlətlərin ərazi iddiaları, Xəzər hövzəsinin enerji resursları, neft-qaz ixracı marşrutları və təhlükəsizlik mexanizmlərinə sahib olmaq, Şərq-Qərb nəqliyyat-kommunikasiya və tranzit infrastrukturlarına, region ölkələrinin transmilli siyasi, iqtisadi və hərbi bloklarla münasibətinə təsir etmək istəyi və s.*

məsələlər ətrafında cərəyan edirdi. Bölgənin ayrı-ayrı ərazilərində, məsələn, Qara dəniz, yaxud Xəzər dənizi hövzəsində mübarizə daha çox nəqliyyat-kommunikasiya xətləri, ixrac marşrutları, yerli ölkələrin və transmilli infrastrukturların təhlükəsizliyi üzərində qurulmuşdusa, Orta Asiya və Xəzər ətrafında, əksinə, enerji resursları, hərbi-geostrateji yüklü məsələlər, Cənubi Qafqazda yerli ölkələri təsir dairəsində saxlamaq və onların ərazi bütövlüyü problemləri ilə manevr etməyə yönəlmişdi. Bölgənin geosiyasi maraqlar mübarizəsi müstəvisində hər ölkənin öz məxsusi mənafeləri və müvafiq iddiası var idi. Regionun mövcud qüvvələr balansı, yerli ölkələr arasındakı münasibətlər və bölgənin sabitliyi kimi həyati məsələlər, əsasən, bəhs olunan aktorlararası münasibətlərdən asılı idi.

Hazırda Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın hərbi-geostrateji əhəmiyyəti, beynəlxalq əlaqələrin və beynəlxalq təhlükəsizliyin təmin olunmasındakı yeri və rolu kimi geosiyasi məsələlərlə bağlı həm uzaq xarici ölkələri, həm də postsovet məkanını təmsil edən alimlər, strateqlər, geosiyasətçilər arasında fərqli fikirlər və müxtəlif yanaşmalar mövcuddur. Geosiyasi cəhətdən xüsusi əhəmiyyət kəsb edən bu məkanda qlobal, regional və milli təhlükəsizlik maraqlarının uzlaşdırılması taktikası, geosiyasi aktorların fərqli maraqlarının üst-üstə düşən, kəsişən məqamlarının tədqiqi uzun müddətdən bəri mütəxəssislərin və aidiyyati qurumların diqqət mərkəzindədir. Bütövlükdə Avrasiya bölgəsinin, Cənubi Qafqaz və onun əsas strateji ölkəsi hesab olunan Azərbaycanın geostrateji və hərbi problemləri, regional sülh və əməkdaşlığın təmin olunması, münaqişəli məsələlərin həlli yolları və vasitələri, qlobal və yerli maraqların uzlaşdırılması, region dövlətlərinin təhlükəsizlik siyasəti və s. kimi məsələlər son zamanlar təkcə xarici aləmin deyil, Azərbaycan kimi bölgə ölkələrinin də rəsmi dairələrini, mütəxəssislərini və ictimai fikrini ciddi düşündürməkdədir.

Xəzər-Qara dəniz hövzəsi, Cənubi Qafqaz və bütövlükdə Avrasiyanın hazırkı dövrdə dünya siyasətində oynadığı geosiyasi, hərbi-geostrateji və geoiqtisadi rolu Rusiyanın rəsmi və akademik dairələri ilə yanaşı, ABŞ-ı təmsil edən geosiyasi tədqiqatçılar da çox yüksək dəyərləndirmişlər. Məşhur amerikalı politoloq Zbiqnev Bjezinski yazır ki, qlobal dünyanın gələcək geostrateji, geoiqtisadi və transmilli siyasi maraqları Avrasiyada, xüsusən də Orta Asiya, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda həll olunur. ABŞ siyasətşünası bu bölgəni "dünya siyasətinin taleyinin həll olunduğu böyük şahmat lövhəsi" kimi təqdim edir və ABŞ-ı, Qərb dünyasını öz əsas güclərini bu bölgəyə yönəltməyə, regionun yeni müstəqil ölkələrinə dəstək verməyə, onları Rusiyanın geosiyasi təsir dairəsindən azad edərək, inkişaf etmiş Avropa ölkələri ilə inteqrasiya etdirməyə çağırır.[374] Bjezinskinin fikrincə, Qərb ilk növbədə bölgənin Azərbaycan, Ukrayna, Qazaxıstan, Gürcüstan, Özbəkistan kimi müstəqil siyasət yürüdən dövlətlərinin transmilli geosiyasi və geoiqtisadi layihələrini dəstəkləməli və onların vasitəsi ilə özünün bu bölgədəki strateji mövqelərini gücləndirməlidir.[375]

ABŞ diplomatı, görkəmli ictimai-siyasi xadim Henri Kissincer Avrasiyanın dünya geosiyasətindəki rolundan bəhs edərkən əsas diqqətini Rusiyanın bu bölgədə yürütdüyü siyasətə və onun gələcək mümkün hərbi-geostrateji nəticələrinə yönəltmişdir. Kissincer Rusiyanın "yaxın xaric" hesab etdiyi Orta Asiya və Cənubi Qafqazdakı geostrateji maraqlarının keçmiş SSRİ-nin digər ərazilərindəkindən daha vacib və strateji olduğunu qeyd etməklə yanaşı, onun "bu maraqları qeyri-sivil

[374] Bax: Бжезинский З.К. Выбор: мировое господство или глобальное лидерство. М., 2004, с.136-137

[375] Бжезинский З.К. Великая шахматная доска. Господство Америки и ее геостратегические императивы. М., 1998, с.232-234

norma və beynəlxalq hüquqa zidd yollarla təmin etməyə çalışdığına" da işarə etmişdir.[376]

Qeyd etmək lazımdır ki, SSRİ-nin süqutuna qədər bölgənin geosiyasi həyatı tam sabit idi və heç bir dövlətlərarası gərginlik müşahidə olunmurdu. Bunun əsas səbəbi bu regionun yalnız Sovet İttifaqının təsiri altında olması idi. O dövrdə ABŞ və NATO ölkələri regionda Türkiyə vasitəsilə öz maraqlarını reallaşdırmağa çalışsalar da, hər hansı ciddi müvəffəqiyyət qazana bilmirdilər. Öz regional siyasətində SSRİ ilə gərginlik yaratmamaq və onunla razılaşdırılmış siyasət yürütməyə üstünlük verən Çin, İran və s. kimi böyük dünya və region ölkələri isə Avrasiyanın bu bölgəsində ciddi və müstəqil aktor kimi çıxış etmirdilər.

Sovet İttifaqının süqutundan sonra bölgənin həm geosiyasi, həm də təhlükəsizlik mühitinin xarakteri və meyilləri köklü şəkildə dəyişdi. Artıq SSRİ-nin varisi kimi çıxış edən Rusiya mütəmadi olaraq bölgədə öz qarşısında dünyanın ABŞ, NATO, Türkiyə və s. kimi geosiyasi aktorlarını görməyə başladı. Bununla yanaşı, müstəqillik əldə etmiş və beynəlxalq hüququn subyektinə çevrilmiş yeni müstəqil dövlətlər də bölgədə öz maraqları çərçivəsində alternativ geosiyasi meyillər nümayiş etdirməyə və regional siyasət yürütməyə başladı. Bütün bunlar da, müvafiq olaraq, regionun geostrateji münasibətlərini mürəkkəbləşdirir və beynəlxalq əhəmiyyətini bir qədər də artırırdı.

Bəhs olunan ölkələr, müxtəlif hərbi-geostrateji bloklar istər kollektiv, istərsə də ayrılıqda region ölkələri ilə geosiyasi, hərbi-geostrateji xarakterli münasibətlər yaradaraq öz milli maraqlarını təmin etmək, regional təhlükəsizlik sistemlərini

[376] Bax: Киссинджер Г.А. Нужна ли Америке внешняя политика? // Геополитика. Антология. М., 2006, с.562-568

genişləndirmək və s. istiqamətində fəaliyyətə keçirlər. Bölgədə yerli ölkələri öz tərəfinə çəkməklə regional alyanslar formalaşdırmağı, onları siyasi, iqtisadi və hərbi cəhətdən dəstəkləməyi, məxsusi siyasi və iqtisadi dayaqlarını yaratmağı, ideoloji, mədəni, informasiya fəaliyyətini gücləndirməyi, bəzi etnik münaqişələri və separatçı meyilləri qızışdırmağı, digər geosiyasi hədəflərini müəyyənləşdirməyi həm bloklar, həm də böyük ölkələr öz regional və beynəlxalq təhlükəsizliyinin təmin edilməsi maraqları ilə əlaqələndirməyə başlayırlar. Lakin XX əsrin sonlarından etibarən dünyada geosiyasi vəziyyət elə sürətlə dəyişir ki, dövlətlər öz dayaq və hədəflərində ardıcıl olaraq çevik dəyişikliklər etmək məcburiyyətində qalırlar. Bəzi ölkələrin cəmi bir neçə il ərzində tamamilə fərqli prinsip və maraqlar əsasında yaradılmış təşkilatlarda təmsil olunması, mütəmadi olaraq öz xarici siyasi kursunu, prioritetlərini və hədəflərini dəyişməsi artıq adi hala çevrilmişdir.

Avrasiyanın mürəkkəb və kövrək geosiyasi mühiti bölgədə fəaliyyət göstərən beynəlxalq və regional təşkilatların da taktika və strategiyasına ciddi təsir göstərir və bəzi geosiyasi məsələlər üzrə onların mövqelərinin dəyişməsinə səbəb olurdu. Məsələn, Rusiya və Çinin hakim olduğu Şanxay Əməkdaşlıq Təşkilatı Avrasiyada hərbi-strateji maraqlarla bağlı 2005-ci ilədək ABŞ-ın Orta Asiyadakı hərbi bazalarına mülayim və anlaşıqlı yanaşsa da, 2005-ci ildən sonra, demək olar ki, öz mövqeyini tam dəyişmiş, sərtləşdirmiş və bunun tam əksinə çıxış etməyə başlamışdır. ABŞ-ın Orta Asiyadakı hərbi bazalarının fəaliyyətinin dayandırılması tələbi hal-hazırda bu təşkilatın birmənalı mövqeyi kimi elan edilir.

Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda təhlükəsizlik ölçüləri ilə bağlı bəzi məsələlər üzrə bölgənin kiçik və böyük dövlətlərinin milli maraqları ilə transmilli beynəlxalq maraqlar üst-üstə düşsə də, digər məsələlərdə mənafelər ciddi surətdə toqquşur. Bölgədə müasir transmilli maraqların daşıyı-

cısı rolunda ABŞ, Avropa Birliyi dövlətləri və hərbi-geostrateji anlamda onları təmsil edən NATO, ayrıca Çin, Yaponiya kimi böyük və inkişaf etmiş dünya ölkələri, onları təmsil edən qlobal korporasiyalar, regionun geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının əsas daşıyıcısı qismində isə Rusiya, Türkiyə, İran, Ukrayna, Azərbaycan və Gürcüstan kimi müstəqil ölkələr çıxış edirlər.

Cənubi Qafqaz və Xəzər hövzəsi dövlətlərinin xarici və təhlükəsizlik siyasəti, ilk növbədə, beynəlxalq güclərin, böyük ölkələrin fərqli məqsədlərlə, yollarla və vasitələrlə regiona müdaxiləsinə və bu məkanda nümayiş etdirdikləri hərbi-geostrateji maraqlara reaksiyadan irəli gəlmişdir. Bölgənin təhlükəsizlik mühitinə təsir göstərən belə güc mərkəzləri sırasına, əsasən, ABŞ-NATO-Avropa Birliyini, Rusiya, MDB və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT), ayrılıqda İran və Türkiyəni və s. geosiyasi aktorları aid edirlər. Bu mərkəzlər həm də bütövlükdə bölgənin geosiyasi mühitinin və regional təhlükəsizlik arxitekturasının əsas xarakteristikasını müəyyənləşdirir, ölkələrarası geosiyasi, geoiqtisadi və hərbi-geostrateji bloklaşmaya təkan verirlər.

Mütəxəssislərin fikrincə, Cənubi Qafqazın və Xəzər hövzəsinin regional təhlükəsizlik mühitinin vəziyyəti və dayanıqlılığı, region ölkələrinin beynəlxalq və milli təhlükəsizlik maraqlarının təminatı və s. kimi məsələlər hazırda, əsasən, bölgənin aparıcı ölkəsi olan Rusiyadan, Cənubi Qafqaz və Xəzər hövzəsində qismən həm də Türkiyə və İrandan, eyni zamanda bölgədənkənar ABŞ və Avropa Birliyindən asılıdır. Bölgənin bütün məsələləri üzrə cərəyan edən hadisələr bu ölkələrin və blokların iqtisadi, siyasi, hərbi maraqlarından qaynaqlanır.

Bir çox tədqiqatçılar Rusiyanın bölgədəki mövqeyini və maraqlarını İran və Ermənistanla eyni blokda təsnif edərək, onları bölgənin əsas hərbi-geostrateji qruplaşmalarından birincisinə, ABŞ, Avropa Birliyi, NATO və onların bölgədəki

tərəfdaşı kimi təqdim edilən Türkiyə, Azərbaycan, Gürcüstan və Ukraynanı isə ikinci hərbi-geostrateji qrupa- təhlükəsizlik xəttinə aid edirlər. Başqa bir qrup tədqiqatçı isə Xəzər-Qara dəniz hövzəsi və Qafqazda bir-birindən asılı və bir-biri ilə əlaqəli olan üç təhlükəsizlik xəttini – Rusiya, İran, NATO-nu fərqləndirir. Bu üç xəttin bir-biri ilə kəsişməsi, onların fikrinə görə, bölgədəki qeyri-sabitliyin və ziddiyyətli təhlükəsizlik mühitinin əsasında dayanır. Bu ziddiyət həm də regional münaqişəyə cəlb olunmuş Azərbaycan-Ermənistan münasibətlərinin "nə daimi sülh, nə də müharibə şəraiti"ndə davam etməsinə şərait yaradır, onların bir-birinə qarşı sürətlə silahlanmasına təkan verir, Dağlıq Qarabağ ətrafındakı sülhyaratma prosesini nəticəsiz edir, münaqişəyə beynəlxalq müdaxilələri gündəmə gətirir. Eyni regional kəsişmə, hazırda Gürcüstanı da zəif və qeyri-sabit vəziyyətdən çıxmağa qoymur.[377]

Lakin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik mühitinə bilavasitə və ciddi təsir göstərən digər amillər də mövcuddur. Bu amillər öz milli təhlükəsizliyini təmin etmək məqsədi ilə həm NATO və Qərblə, həm də Rusiya və KTMT ilə müəyyən məsafə saxlayan, yuxarıda adıçəkilən bütün "təsir qüvvələri" ilə tərəfdaşlıq və əməkdaşlıq meyili nümayiş etdirən *Azərbaycan,* bölgədə Rusiyaya, dünya erməni diasporuna söykənərək Cənubi Qafqazda açıq işğalçılıq siyasəti yürüdən *Ermənistan* və son zamanlar birmənalı şəkildə üzünü Rusiyadan Qərbə və NATO-ya çevirmiş *Gürcüstanla* bağlıdır.

Cənubi Qafqazın və Xəzər-Qara dəniz hövzəsinin təhlükəsizlik mühitinin *növbəti həlledici amili* yuxarıda adı keçən təsir dairələri və hərbi-geostrateji blokların bir-biri ilə münasi-

[377] Greg Hansen, Humanitarian Action in the Caucasus: A Guide for the Practitioners // The Thomas J. Watson Jr. Institute for International Studies, Brown University, USA, P.396/

bətləri, ilk növbədə isə ABŞ-Rusiya, NATO-KTMT münasibətlərinin xarakteri ilə bağlıdır. Bu müstəvidə tərəflərin ortaya qoyduğu açıq və gizli hərbi-geostrateji maraqlarla yanaşı, həmin bloklarla birbaşa və açıq formada bağlı olan müəyyən ölkələrin yürütdüyü hərbi-geostrateji siyasət də həlledici rol oynayır. Bölgədə hər hansı bir ölkənin yürütdüyü istənilən təhlükəsizlik siyasəti, hərbi-strateji sahədə atdığı addım, yaxud nümayiş etdirdiyi geosiyasi mövqe dərhal qarşı tərəfin analoji reaksiyasını doğurur.

Əlbəttə, şübhə yoxdur ki, dünya siyasəti və beynəlxalq təhlükəsizlik sahəsində Rusiya - ABŞ rəqabəti mövcuddur və bu rəqabət müvafiq olaraq həm də Avrasiyanın, xüsusən Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik münasibətlərinə öz təsirini göstərir. Bölgədə İran və Ermənistanı Rusiya ilə, Azərbaycan, Türkiyə, Ukrayna və Gürcüstanı isə ABŞ-la "geosiyasi tərəzinin" bir gözünə qoyan, onların gələcək hərbi-strateji bloklaşmasını proqnozlaşdıran siyasətşünasların da öz əsaslı dəlilləri vardır. Xüsusən, son illərdə Rusiya-Gürcüstan münaqişəsinin güclənməsi və açıq qarşıdurmaya keçməsi, prezident Viktor Yuşşenkonun hakimiyyəti illərində Ukraynanın regional proseslərdə nümayiş etdirdiyi açıq anti-Rusiya mövqeyi, Rusiya-Ermənistan hərbi müttəfiqlik müqaviləsinin 2010-cu ildə daha 49 il müddətinə uzadılması və iki ölkə arasında hərbi müttəfiqliyin möhkəmləndirilməsi kimi regional hadisələr siyasətşünaslara bəhs olunan "geosiyasi bloklaşma" ilə bağlı inandırıcı fikir söyləməyə kifayət qədər əsas verir. Əlbəttə, Rusiya, İran, Ermənistan kimi ölkələrin Cənubi Qafqazdakı geostrateji və hərbi-təhlükəsizlik maraqlarında üst-üstə düşən kifayət qədər ortaq nöqtələr müşahidə olunur ki, onları inkar etmək mümkün deyil. Lakin onların, xüsusən, İranın Rusiya ilə üst-üstə düşməyən və ciddi regional rəqabət yaradan məxsusi geomaraqlarını da nəzərdən qaçırmaq olmaz.

Eyni sözü digər qrup - Qərbin son zamanlara qədər ciddi dəstək verdiyi Türkiyə-Azərbaycan-Gürcüstan-Ukrayna (bəzən Moldova və Özbəkistanı da bu sıraya aid edirlər - Ə.H.) geosiyasi birliyi haqqında da söyləmək olar. Həmin ölkələrin də üst-üstə düşən kifayət qədər ortaq maraqları mövcuddur. Lakin bu maraqların və oxşar geostrateji təhlükəsizlik mənafelərinin onları nə zamansa həqiqi strateji tərəfdaşlığa, yaxud hərbi müttəfiqliyə sövq edəcəyinə, hansısa ciddi təşkilatlanmaya səbəb olacağına heç bir real əsas yoxdur. Bunu Ukraynanın siyasi həyatında və hərbi təhlükəsizliyi sahəsində baş vermiş son dövr hadisələri də sübut edir. Düzdür, məsələn, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu kimi transavrasiya layihələrinin təhlükəsizliyinin təmin edilməsi qərb ölkələrinin, Azərbaycan, Gürcüstan və Türkiyənin strateji müttəfiqliyini şərtləndirən əsas amillərdən birinə çevrilmişdir. Bununla yanaşı, Kiyevin Xəzər neftinin Odessa-Brodı-Qdansk kəməri vasitəsi ilə Avropa bazarlarına çıxarılması üçün göstərdiyi səylər Ukraynanın qlobal enerji layihələrində aparıcı mövqe tutmağa iddialı olduğunu göstərir.

Hazırda *bölgənin alternativ enerji, nəqliyyat-kommunikasiya və digər transmilli layihələrin təhlükəsizliyinin təmin edilməsi* regional təhlükəsizliyin ümumi problemlərinin ən həssas məsələsi hesab oluna bilər. Burada bütün məsələlər təkcə region ölkələrinin mövqeyindən deyil, həm də ABŞ-ın nümayiş etdirəcəyi geosiyasi fəaliyyətdən asılı olacaqdır. Bu ölkə, mütəxəssislərin fikrinə görə, gələcəkdə dünyada öz milli maraqlarını və NATO-nun hərbi mənafelərini təmin etməklə yanaşı, bir fövqəldövlət olaraq həm də Cənubi Qafqazdakı beynəlxalq və regional təhlükəsizlik sistemini açıq təhdid edən etnik münaqişə və davakar separatizm hallarına, Ermənistan kimi forpost dövlətlərin qonşularına qarşı yürütdüyü işğalçılıq siyasəti və ərazi iddialarına, BMT-nin Qətnamələrini yerinə

yetirməməsinə, beynəlxalq aləmlə "oynamasına" imkan verməməli, bu məsələlərlə bağlı ciddi və prinsipial mövqe müəyyənləşdirməli, özünün beynəlxalq statusuna uyğun fəaliyyət göstərməlidir. Yaxud Qafqazda Gürcüstan ilə Rusiya, Ermənistan-Azərbaycan münaqişələrinə ciddi yanaşmalı, yerli ölkələrin ərazi bütövlüyünün, suveren dövlət haqlarının beynəlxalq hüquqa uyğun müdafiəsinə qalxmalıdır.

Bundan başqa, bəzi mütəxəssislərin fikrinə görə, ABŞ Bakı-Tbilisi-Ceyhan və bu kimi transmilli enerji layihələrində geoiqtisadi məqsədlərinə çatandan sonra, bu işdə əsas rol oynayan Azərbaycan və Türkiyəyə diqqəti bir qədər azaldaraq, özünün bütün geostrateji planlarını Gürcüstan üzərində qurmaqla, ona ciddi beynəlxalq dəstək və maliyyə-texniki yardımlar göstərməklə Cənubi Qafqazda yeni-yeni strateji mövqelər qazanmağa çalışır.[378] Bu hal müvafiq olaraq, öz geosiyasi və geoiqtisadi maraqlarını təmin etmək üçün Azərbaycan və Türkiyənin digər istiqamətlərə (məsələn, Rusiyaya) üz tutmasına səbəb olur. Nəzərə alınsa ki, Gürcüstanın Qara dənizdə Türkiyə ilə bərabər malik olduğu strateji mövqeni və daşıdığı geosiyasi önəmi Azərbaycan Xəzər dənizi hövzəsində, Şərq-Qərb əlaqələrində, nəqliyyat-kommunikasiya və enerji daşıyıcıları tranzitində, Mərkəzi Asiya və İrana çıxışda oynayır, o zaman ABŞ-ın bu ölkəyə diqqətsizliyi təkcə Azərbaycanda və dünyada deyil, heç Amerikanın özündə də birmənalı qarşılanmır. Hər halda, Cənubi Qafqazdakı hadisələrə, Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinə və digər münaqişələrə, ölkənin rastlaşdığı beynəlxalq, regional və yerli problemlərə münasibətdə ABŞ-ın bu gün nümayiş etdirdiyi mövqe və göstərdiyi fəaliyyət Azərbaycanı tam qane

[378] Bax: Aleksandr Raar, Sebastian Riider. Azərbaycanın Qara dəniz-Xəzər hövzəsi regionunda geosiyasi rolu// "Azerbaijan Focus" jurnalı, №1, 2009-cu il, s. 44-46

etmir. Bu da, müvafiq olaraq, Azərbaycanın Xəzər hövzəsi və Cənubi Qafqazın geosiyasi, hərbi-geostrateji məsələlərində ABŞ-a güvənərək birmənalı qərar qəbul etməsinə mane olur.

Təxminən oxşar vəziyyət Rusiya-İran-Ermənistan geostrateji müttəfiqliyinə də aid edilə bilər. Rusiya və İranın bölgədə bəzən nümayiş etdirdiyi birtərəfli fəaliyyət, tez-tez dəyişən iqtisadi və siyasi tələblər, öz tərəfdaşları ilə lazım gələndə ədalətsiz davranış nümayiş etdirməsi və s. onların geosiyasi bloku haqqında birmənalı müsbət rəy söyləməyə imkan vermir. Hazırkı sürətlə dəyişən beynəlxalq münasibətlər fonunda bu blok daxilindəki sonrakı hadisələri proqnozlaşdırmaq da çox çətindir.

Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsində Rusiyanın, ABŞ və Avropa Birliyi ölkələrinin, dünyanın digər böyük dövlətlərinin, hərbi-geostrateji və geoiqtisadi aktorlarının yürütdüyü təhlükəsizlik siyasətini şərti olaraq üç dövrə ayırmaq olar.

Birinci dövrdə (1980-ci illərin sonu – 1990-cı illərin ortaları) dünyanın geosiyasi səhnəsinə "Qara və Xəzər dənizləri hövzəsi və Cənubi Qafqaz" adlanan yeni bir geosiyasi region çıxır. Əgər SSRİ dövründə Xəzər dənizini yalnız iki dövlət – Sovet İttifaqı və İran bölüşürdüsə, onun süqutundan sonra hövzədəki ölkələrin sayı beşə çatdı. Yaxud Qara dəniz hövzəsinə o zaman əsasən SSRİ, onun sosialist düşərgəsi üzrə müttəfiqləri - Rumıniya və Bolqarıstan, NATO-nu təmsil edən Türkiyə daxil idisə, yeni dövrdə bu sıra Ukrayna və Gürcüstan kimi yeni geosiyasi aktorlar hesabına bir qədər də genişlənmişdir. Birinci dövrdə Xəzərin enerji ehtiyatlarının həcmi və dünya bazarlarına çıxarılma imkanları, Qara və Xəzər dənizləri hövzəsinin və Cənubi Qafqazın dünya ticarəti və siyasətindəki yeri, planetar əhəmiyyəti haqqında geniş geosiyasi dəyərləndirmələr tam şəkildə aparılmamışdı.

İkinci dövrdə (1990-cı illərin ortalarından başlayaraq 2001-ci ilə qədər) "Xəzərin geosiyasi və hərbi-geostrateji

oyunçuları" termini meydana gəldi və region ABŞ, Rusiya, Avropa Birliyi ölkələrinin enerji, təhlükəsizlik, nəqliyyat-tranzit və s. sahələrdə transmilli rəqabət meydanına çevrildi. Bu dövrdə dünyanın aparıcı dövlətləri və geosiyasi aktorları Xəzər dənizinin zəngin neft-qaz və digər karbohidrogen ehtiyatlarına malik olması, Xəzər-Qara dəniz hövzəsinin və Cənubi Qafqazın əlverişli geosiyasi, geoiqtisadi, hərbi-geostrateji və tranzit-keçid regionu rolu oynaması haqqında tam məlumatlı idilər.

Üçüncü dövrdə (XXI əsrin əvvəlindən başlayan) dünyanın aparıcı dövlətlərinin regionla bağlı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarına yeni istiqamətlər əlavə olundu. 2001-ci il 11 sentyabr hadisələrindən sonra dünyada təhlükəsizliklə bağlı təsəvvürlərin və strateji şəraitin dəyişilməsi Xəzər-Qara dəniz hövzəsi, Cənubi Qafqaz və Mərkəzi Asiyada da geosiyasi vəziyyətə müvafiq təsir etdi.

Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizlik strukturu və gələcək perspektivlərini mütəxəssislər iki əsas mövqe ilə bağlayırlar. Bunlardan biri və *birincisi,* bölgədə ən mühüm hərbi-geostrateji təsirə malik olan *Rusiya* və onun nümayiş etdirdiyi regional təhlükəsizlik siyasəti; *ikincisi* isə "Qərb Alyansı" adlandırılan (ABŞ, NATO və Avropa Birliyi üçlüyü) düşərgənin regionda yeritdiyi təhlükəsizlik siyasəti ilə bağlıdır. Mütəxəssislərin fikrincə, SSRİ-nin dağılmasından sonra da (təxminən 1990-cı illərin sonuna qədər-Ə.H.) Rusiya bir müddət bölgə ölkələrinin geoiqtisadi, geosiyasi və hərbi-geostrateji maraqlarını ciddi şəkildə inkar edərək, postsovet məkanında özü üçün rəqabətdənkənar üstün hüquq və şərait tələb edirdi. O zaman Rusiyanın Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsində nümayiş etdirdiyi beynəlxalq və regional təhlükəsizlik siyasətinin kökündə bölgənin həyati əhəmiyyət kəsb edən bütün daxili strateji sahələri - hərbi-geostrateji mexanizmləri, nəqliyyat-kommunikasiya, enerji infra-

strukturları və xarici sərhədləri, gömrük-buraxılış sistemləri və s. üzərində SSRİ dövründən mövcud olan vahid təsir imkanlarını qorumaq, özünün yeni nəzarət mexanizmlərini yaratmaq və bütün bu sahələri idarə etmək kimi geosiyasi vəzifələr dayanırdı.

Rus siyasətşünasları Rusiya-ABŞ-NATO-Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsi ölkələrinin gələcək geostrateji bloklaşma fəaliyyətlərini üç əsas amillə əlaqələndirirlər:

1. Cənubi Qafqazdakı mövcud münaqişələrin (Dağlıq Qarabağ, Abxaziya-Gürcüstan və s.) həllində Moskvanın, Vaşinqtonun, Brüsselin, Ankara və Tehranın nümayiş etdirəcəyi mövqe;

2. Xəzərin gələcək hüquqi statusunun və dənizdə hərbi-strateji təhlükəsizlik məsələlərinin perspektivləri, buna müvafiq olaraq Azərbaycanın hansı hərbi blokla əməkdaşlığa üstünlük verməsi (burada Rusiyanı narahat edən əsas amil gələcəkdə NATO-nun Azərbaycan vasitəsi ilə Xəzər dənizində hərbi iştiraka nail olmaq məsələsidir);

3. Gürcüstan və Ukraynanın gələcək hərbi-strateji seçimi və bu ölkələr ətrafında cərəyan edən hadisələrə yuxarıda adı çəkilən dövlətlərin münasibəti və s.[379]

Tədqiqatçıların fikrincə, hər üç məsələdə Azərbaycanın nümayiş etdirəcəyi geosiyasi mövqe, özünün regional təhlükəsizlik sistemlərdəki iştirakı ilə bağlı qəbul edəcəyi strateji qərar və seçim həlledici rol oynayacaqdır.

2014-cü il ərzində Avrasiyada, xüsusən də Ukraynada baş verən regional geosiyasi proseslər, getdikcə güclənən Qərb-Rusiya qarşıdurması və s. fonunda Xəzər hövzəsininin lokal və beynəlxalq təhlükəsizlik məsələləri üzrə real nəticəsi olan son regional tədbir 29 sentyabr tarixində Rusiyanın Həştərxan

[379] Bax: Каспий не поделили, но объявили безопасной зоной //"Независимая газета", 19 ноября 2010 г.

şəhərində keçirilən Xəzəryanı dövlət başçılarının lV Sammitində baş tutmuşdur. Sammitdə Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran prezidentləri bir araya gələrək Xəzərin hüquqi statusu, hövzə ölkələri arasında regional təhlükəsizlik və əməkdaşlıq məsələlərini müzakirə etmiş və birgə siyasi bəyanat imzalamışlar. 19 maddədən ibarət olan bu sənəddə tərəflərin Xəzər dənizindəki birgə fəaliyyətinin, o cümlədən təhlükəsizlik sahəsindəki fəaliyyətinin bir şox prinsipləri ilk dəfə olaraq öz əks tapmışdır.

Birgə siyasi bəyanatda regional təhlükəsizlik məsələləri ilə bağlı vurğulanır ki, tərəflər həvzə dövlətlərinin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət edərək, birbirinə qarşı güc tətbiq etməmək, güc tətbiq etməklə hədələməmək barədə razılığa gəliblər.

Bəyanatda hövzədənkənar hərbi blokların və öıkələrin Xəzərə daxil olmasının yolverilməzliyi, hövzə ölkələrindən dənizdəki silahlanma prosesində sabit balansa riayət edilməsi və hərbi təyinatlı obyektlərin inşasının məntiqli və yetərli şəkildə gerçəkləşdirilməsi tələb olunur.

Sammitdə çıxış edən Rusiya prezidenti Vladimir Putin qeyd etmişdir ki, bizim ölkələrin Xəzərdəki birgə əməkdaşlığı regional təhlükəsizliyin möhkəmləndirilməsinə kömək edəcək, terrorizm, ekstremizim, narkotiklərin dövriyyəsi, digər hədələrlə mübarizədə effektivliyi artıracaq, iqtisadi inkişafa əlavə dinamika verəcək, dünya bazarında rəqabətə davamlılığı yüksəldəcəkdir.

Sammitdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bəyan etmişdir ki, 2010-cu ildə Bakıda keçirilmiş III Xəzər Sammiti zamanı Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında birgə sazişin imzalanması qaçaqmalçılıq, icazəsiz ov, qanunsuz miqrasiya, insan alveri, mütəşəkkil cinayətkarlıq və terrorçuluqla mübarizə sahəsində sərhəd xidmətləri və digər dövlət strukturları arasında vacib əməkdaşlıq və

qarşılıqlı fəaliyyət mexanizmi yaradıb. Prezident vurğulayıb ki, ötən dövr ərzində Xəzərdə əməkdaşlığın hüquqi bazasının möhkəmləndirilməsi üzrə xeyli iş görülüb: Tərəflər Xəzər dənizində fövqəladə halların xəbərdar edilməsi və nəticələrinin ləğv olunması sahəsində əməkdaşlıq haqqında sazişin razılaşdırılmasını başa çatdırıblar və imzalanmasını təklif ediblər. Bu sahədə Xəzəryanı ölkələrin əməkdaşlığının və qarşılıqlı fəaliyyətinin möhkəmləndirilməsi Xəzərdə daha səmərəli və təhlükəsiz fəaliyyətə xidmət edəcək.[380]

Tərəflər bu sənədi beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən BMT Nizamnaməsində təsbit edilən müstəqillik, suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, güc tətbiq etməmək, başqalarının işinə qarışmamaq kimi prinsiplərə əsaslanaraq qəbul ediblər. Tərəflər təhlükəsizliyin hərbi aspekti istisna olmaqla, başqa sahələrdə də əməkdaşlıq etmək niyyətlərini ortaya qoyublar.

Bir çox politoloqların fikrinə görə təhlükəsizlik sahəsində Xəzər hövzəsi ölkələrinin həm 2010-cu ildə Bakıda, həm də 2014-cü ildə Həştərxan sammitlərində imzaladıqları sənədlərin əsas mahiyyəti həm də (Bakı sammitində "Xəzərdə təhlükəsizlik üzrə əməkdaşlıq haqqında" müqavilə, Həştərxan sammitində isə birgə bəyanat imzalanıb-Ə.H.) Xəzər dənizinin və hövzə ölkələrinin təhlükəsizlik məsələlərini Xəzəryanı dövlətlərin müstəsna hüququ kimi tanıması ilə müəyyən olunur. Həştərxanda müzakirə olunan və imzalanan sənədlərdə Rusiya 4 Xəzəryanı ölkənin üzərinə öhdəlik qoydu. Bəyanatdan sonra regiona aid olmayan ölkələrin hərbi qüvvəsinin hövzəyə daxil olması qeyri mümkün olacaq. Həştərxanda imzalanan bəyanat, təhlükəsizlik sahəsində faktiki olaraq Azərbaycanın NATO və Türkiyə ilə hərbi əməkdaşlığına qarşı yönəlib. Türkiyə NATO-nun regiondakı ən böyük tərəfdaşıdır və Azərbaycanın həm

[380] Bax: AzərTAC-ın xəbər bülleteni, 29 sentyabr 2014-cü il.

onunla, həm də NATO ilə hərbi əməkdaşlığı Rusiya və İranı narahat etməyə bilməz.[381]

§2.2. Rusiya, ABŞ, NATO və Avropa İttifaqı arasındakı münasibətlərin Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizliyinə təsiri

Müasir beynəlxalq münasibətlərin ümumi vəziyyəti kimi Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizlik mühiti də, **bir tərəfdən,** *müasir dünya güclərinin-ABŞ, NATO, Rusiya, Çin və Avropa Birliyinin qarşılıqlı münasibətlərinin xarakterindən, BMT Təhlükəsizlik Şurasında qəbul edilən qərarlardan və həmin qərarların yerinə yetirilməsi vəziyyətindən,* **digər tərəfdənsə,** *həmin dövlətlərin və təhlükəsizlik maraqlarına toxunulan konkret məkanların, ayrı-ayrı regionların və ölkələrin əhalisinin yürüdülən təhlükəsizlik siyasətinə münasibəti və reaksiyasından* asılı olaraq formalaşır və dəyişir. Məsələn, mütəxəssislər hesab edirlər ki, Rusiya cəmiyyətində postsovet ölkələrində yürüdülən təhlükəsizlik siyasətinin mahiyyəti tam aydın olsa da, ABŞ və NATO hərbi blokunun dünyada və bəhs olunan məkanda yürütdüyü geosiyasətə və hərbi-geostrateji kursa münasibət hələ də birmənalı deyil. Qərbin iqtisadi və hərbi blokları ilə münasibətlərə dair bu ölkə rəsmilərində fərqli yanaşmaların mövcudluğu postsovet məkanındakı regional təhlükəsizlik siyasətinə də mənfi təsir göstərir. Bu günün özündə də Rusiyada ABŞ-ı, Avropa Birliyi və NATO-nu beynəlxalq terrorizmə qarşı mübarizə, etnik münaqişələrin həlli və müasir təhlükəsizliklə bağlı öz ölkələrinin bərabərhüquqlu tərəfdaşı qismində görənlərlə yanaşı, onlara "Avrasiya bölgəsində hərbi-siyasi cəhətdən möhkəmlənməyə

[381] Bax:"Bizim yol" qəzeti, 29 sentyabr 2014-cü il.

və Rusiyanın maraqlarına zərbə vurmağa can atan rəqib" kimi baxanlar da kifayət qədərdir. Məsələn, Rusiyalı ekspertlərin məlumatına görə, bir neçə il bundan əvvəl Rusiya Prezidenti Dmitri Medvedev öz ölkəsinin xarici siyasət prioritetləri sırasına əvvəlki illərdə olduğu kimi, daha çox MDB ölkələri ilə münasibətləri deyil, ilk növbədə ABŞ və Avropa ölkələri ilə konstruktiv əməkdaşlığı və tərəfdaşlığı daxil etmişdir. O, ABŞ-la son dövrlərdə imzalanan mühüm strateji müqavilələrin, ABŞ-ın 2010-cu ildə açıqladığı rəsmi Milli Təhlükəsizlik Strategiyasının və s. kimi addımların iki ölkə arasındakı keçmiş gərginliyi geridə qoyduğunu, gələcək münasibətlərdə ciddi tərəfdaşlığa, yeni konstruktiv əməkdaşlığa əsas yaratdığını, dünyada və Avropada onlar arasındakı qarşıdurmadan qaynaqlanan münaqişələrin tezliklə aradan qaldırılacağına inandığını bəyan etmişdir. Lakin bununla yanaşı, Rusiyanın bəzi digər dövlət rəsmiləri hələ də açıq-aşkar formada "ABŞ-ın postsovet məkanındakı siyasətinin və Rusiya ilə münasibətlərinin səmimiyyətinə inanmadıqlarını", fürsət düşən kimi "bu ölkənin Rusiyanın maraqlarına zərbə vurduğunu" iddia edirlər. Bundan başqa, Rusiyanın 2009-cu ildə qəbul etdiyi "Rusiya Federasiyasının 2020-ci ilə qədərki müddətdə Milli Təhlükəsizlik Strategiyası" [382] və 2010-cu ilin əvvəllərində qəbul etdiyi Hərbi Doktrinasında[383] ABŞ və NATO bloku bu ölkənin əsas "xarici təhlükə ocaqları" kimi təqdim olunur. Bəzi rus geostrateqləri iki ölkə arasında son dövrdə başlanan dialoq və formalaşan tərəfdaşlıq münasibətlərindən çıxış edərək, dünyada, o cümlədən Yaxın və Orta Şərqdə, Xəzər hövzəsi və Cənubi Qafqazda mövcud hərbi-geostrateji məsələlərin, regional təhlükəsizliyin və NATO-Rusiya rəqabətinin müsbət sonluqla, ortaq maraqlar

[382] « Стратегия национальной безопасности Российской Федерации до 2020 года» http://www.scrf. gov.ru/ documents/ 99.html

[383] «Военная Доктрина Российской Федерации» http://www.scrf. gov.ru/ documents/ 33.html

əsasında başa çatacağını proqnozlaşdırır və bütövlükdə Rusiya-ABŞ münasibətlərinin gələcək inkişafına inandıqlarını bəyan edirlər. Digərləri, məsələn, Rusiyanın Baş naziri Vladimir Putin 30 avqust 2010-cu ildə jurnalistlərə verdiyi müsahibəsində iki ölkə arasında münasibətlərdə ABŞ prezidentinin səyi ilə bəzi sahələr üzrə münasibətlərin sahmana salınmasını müsbət qiymətləndirsə də, digər sahələr üzrə hələ də iki ölkə arasında ciddi problemlərin mövcud olduğunu və həll edilməmiş qaldığını qabartmışdır. O, həll edilməmiş problemlər sırasına Rusiya ilə münaqişə vəziyyətində olan Gürcüstana silah verilməsini, Avropada raket əleyhinə müdafiə sistemləri və müşahidə radarlarının quraşdırılmasından hələ də tam imtina edilməməsini və s. aid etmişdir.[384]

ABŞ-ın yeni Milli Təhlükəsizlik Strategiyası ilə bağlı səsləndirdiyi açıqlamada təxminən oxşar mövqeyi Rusiyanın xarici işlər naziri Sergey Lavrov da nümayiş etdirmişdir. Göstərilən hallar, əlbəttə, Rusiyanın xarici siyasətində fərqli geosiyasi və hərbi- geostrateji mövqelərin mövcudluğundan xəbər verir ki, bu da Cənubi Qafqaz kimi həssas bölgənin regional təhlükəsizlik mühitinə mənfi təsir edir, bölgə ölkələrinin, o cümlədən Azərbaycanın təhlükəsizliklə bağlı birmənalı beynəlxalq və regional mövqe formalaşdırmasını, xarici geosiyasi aktorlarla sərbəst münasibət yaratmasını və öz maraqlarına uyğun addım atmasını bir qədər çətinləşdirir.

Bəzi mütəxəssislərin fikrinə görə, Cənubi Qafqazın təhlükəsizliyi və hərbi geostrateji məsələləri ilə bağlı ABŞ-ın yürütdüyü və Rusiya tərəfindən daim tənqid olunan regional siyasət (NATO-nun bəzi postsosialist və postsovet ölkələrinin iştirakı ilə Şərqə doğru genişləndirilməsi və Avropada raket əleyhinə müdafiə qurğuları yaratmaq cəhdləri, Gürcüstan və Ukraynanın ərazi bütövlüyü və suveren hüquqlarının ABŞ və

[384] Bax: газ. "Зеркало", 2 сентября 2010 г.

Şimali Atlantika bloku tərəfindən açıq müdafiə olunması bu dövlətlərə verilən hərbi dəstək və s.- Ə.H.) başqa formada Rusiyanın həmin regionda yeritdiyi təhlükəsizlik siyasətinin özündə də təkrar olunur. Məsələn, 2010-cu ildə qəbul etdiyi Hərbi Doktrinasında və Təhlükəsizlik Strategiyasında Rusiya açıq-aşkar ABŞ və NATO ölkələrinin dünyadakı fəaliyyətini özünün "xarici təhlükə mənbələri" sırasına aid edir. Yaxud bu ölkə "Rusiyanın milli və həyati təhlükəsizlik maraqlarının təmin edilməsi məqsədilə" lazım gəldikdə postsovet ölkələrinin ərazisinə birbaşa qoşun çıxarmaq "hüququnu" bəyan edir. Hər iki yanaşma, qeyd olunan mütəxəssislərin fikrincə, "nə bu ölkənin bəyan etdiyi ölkələrarası sivil tərəfdaşlıq təşəbbüslərinin ruhuna, nə də ki, beynəlxalq hüquq normalarına uyğun gəlir". Rusiya ABŞ-ı Cənubi Qafqazda onunla münaqişə vəziyyətində olan Gürcüstanı silahlandırmaqda, Avropada raket əleyhinə müdafiə sistemləri və müşahidə radarları yaratmaqda günahlandırır, ancaq özü Azərbaycan torpaqlarını işğal edən Ermənistanı açıq-aşkar silahlandırır, Cənubi Qafqazdakı Dağlıq Qarabağ və digər etnik separatçı rejimləri dəstəkləyir və onlara hər cür hərbi-texniki yardım edir. Odur ki, hər iki düşərgənin Cənubi Qafqazın regional təhlükəsizliyi ilə bağlı nümayiş etdirdiyi ikili standart müvafiq olaraq həm bölgənin təhlükəsizlik mühitinə, həm də bölgə ölkələri ilə münasibətlərə mənfi təsir göstərir.[385]

Rusiyanın son zamanlar yürütdüyü beynəlxalq və regional təhlükəsizlik siyasəti, Ukraynada həyata keçirdiyi hərbi-geostrateji kurs, bu ölkəni təmsil edən bəzi rəsmi dairələrin anti-Qərb və anti-NATO bəyanatları ABŞ, NATO və AB-nin rəsmi dairələrini ciddi narahat etsə də, bu ölkənin neçə illərdir ki, Cənubi Qafqazda işğalçı Ermənistana ATƏT-in nəzarətindən kənar çoxsaylı və təmənnasız hərbi yardım göstərməsi, Ermə-

[385] Bax: gaz. "Зеркало", 2 сентября 2010 г.

nistan vasitəsi ilə həm də dolayı yolla Dağlıq Qarabaqdakı separatçı rejimi silahlandırması faktı onlar tərəfindən sükutla qarşılanır. ABŞ və NATO, təbii ki, Rusiyanın 2010-cu ildə hazırladığı Hərbi Doktrinanın müəyyənləşdirdiyi "xarici təhlükə mənbələri" sırasında özlərini qətiyyən rahat hiss edə bilməzdilər və bununla bağlı NATO Baş katibi Andres Rasmussenin etirazı da özünü çox gözlətmədi. O, Rusiyanın yeni təhlükəsizlik strategiyası ilə bağlı "Röyter" agentliyinə açıqlamasında bildirmişdi ki, bu ölkənin yeni Hərbi Doktrinası dünyadakı müasir hərbi vəziyyəti qətiyyən doğru əks etdirmir və bizim bu ölkə ilə tərəfdaşlıq istiqamətindəki çalışmalarımızın ruhuna uyğun gəlmir. Çünki NATO bloku özünü qətiyyən Rusiyanın düşməni hesab etmir.[386]

Mütəxəssislərin fikrinə görə, B.Obama ABŞ-da prezident seçiləndən sonra bu ölkənin və NATO blokunun Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsində nümayiş etdirdiyi faktiki fəaliyyətsizlik, yaxud həyata keçirdikləri çox yumşaq təhlükəsizlik kursu fonunda Rusiya bölgədə həddən artıq fəallaşmışdır. Qərb dairələrinin bəhs olunan dövrdə Rusiya ilə münasibətləri yumşaltmaq istiqamətindəki ciddi fəaliyyətini, ABŞ və Rusiya prezidentləri arasında keçirilən bir çox görüşləri, imzalanan bəzi ölkələrarası sənədləri, ABŞ-ın Avrasiya siyasətində mülayim kurs nümayiş etdirməsini və bu bölgədəki ənənəvi geosiyasi maraqlarını Rusiyaya güzəştə getməsini mütəxəssislər birmənalı qiymətləndirmirlər. ABŞ-ın bu siyasətini "Rusiyanı Qərbə münasibətdə açıq qarşıdurma meyilindən çəkindirməyə hesablanmış siyasi kurs kimi" dəyərləndirənlərin sayı daha çoxdur. Onların fikrincə, Barak Obama hökumətinin həyata keçirdiyi yeni dünya siyasəti və təhlükəsizlik platforması, Rusiya - ABŞ münasibətlərindəki konstruktiv yaxınlaşma və tərəfdaşlıq xətti təkcə Amerikanın özünün deyil, həm də

[386] Bax: газ. "Зеркало" , 12 февраля 2010 г.

hegemon olduğu NATO blokunun, Avropa Birliyi ölkələrinin dünyada, o cümlədən Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı mövqeyinə, SSRİ dağılandan bəri nümayiş etdirdiyi birmənalı siyasətə ciddi təsir göstərmişdir. Bunu 19-20 noyabr 2010-cu ildə NATO-nun Lissabonda keçirilən sammitində üzv ölkələrin başçılarının Rusiya ilə bağlı nümayiş etdirdikləri münasibət və qəbul etdikləri yeni "Təhlükəsizlik Strategiyası" da aydın şəkildə göstərdi. NATO bundan qabaq, 1999-cu ildə qəbul etdiyi əvvəlki strategiyasından fərqli olaraq, növbəti 15 il üçün nəzərdə tutulan yeni strategiyasında artıq Rusiyanı bir çox başqa rəqib ölkələrlə yanaşı "Qərbin təhlükəsizliyinə təhdid mənbəyi" kimi deyil, əksinə, ümumavropa təhlükəsizliyi sahəsində "strateji tərəfdaş" kimi qiymətləndirmiş və onunla münasibətlərində fərqli taktika ortaya qoymuşdur. ABŞ Prezidenti Barak Obama sammitdəki çıxışında "Avropa və ABŞ-ın raket təhlükəsizliyi sisteminə Rusiyanı da qatacaqları" haqqında bəyanat verərək, bu haqda Rusiya Prezidenti Dmitri Medvedevlə danışıq apardığını iştirakçıların diqqətinə çatdırmışdır. ABŞ Prezidentinin bu bəyanatını və NATO-nun Lissabondakı mövqeyini dəyərləndirən rus mütəxəssisləri növbəti gün, sammitin bitməsini gözləmədən NATO-nu artıq Rusiya üçün təhlükə deyil, təhlükəsizlik sahəsində tərəfdaş və "mütərəqqi blok" kimi dəyərləndirməyə başlamışdılıar.[387]

Bir çox mütəxəssislər hesab edir ki, bəhs olunan dövrdə Avropa Birliyi və ABŞ-ın Rusiya ilə münasibətləri bərpa etmək və yaxşılaşdırmaq sahəsində həyata keçirdiyi xətt Avroatlantik Alyansın dünyadakı hərbi-geostrateji mövqeyinə ciddi təsir göstərmiş, hətta təşkilatın Qara və Xəzər dənizləri hövzəsində yerləşən bəzi ölkələr qarşısındakı öhdəliklərini ciddi sual altına almışdır. Rusiya-Gürcüstan müharibəsində Qərbin

[387] Bax: Прогрессивный блок НАТО //газ."Известия", 22 ноября 2010 г.

Gürcüstanın suveren hüquqlarını təmin etmək sahəsində ciddi bir iş görə bilməməsi NATO ilə strateji əməkdaşlığı möhkəmləndirən Ukraynanın, bu istiqamətdə nisbətən məsafə saxlayan Azərbaycanın, Orta Asiya dövlətlərinin mövqeyinə bilavasitə mənfi təsir göstərmiş və bu təsir indi də özünü büruzə verir.[388]

Son illər ərzində ABŞ ilə Şimali Atlantika blokunun Avropadan olan bəzi üzvləri arasında da beynəlxalq təhlükəsizliklə bağlı ciddi fikir ayrılıqları müşahidə olunmaqdadır. Rəsmi Vaşinqton NATO-dan bütün dünyada öz istəyinə uyğun və ona lazım olan məqamda hansısa ölkəni cəzalandırmaq, yaxud planetin hansısa bölgəsinə qoşun çıxararaq öz iradəsini reallaşdırmaq məqsədi ilə istifadə etməyə çalışır. Bu mövqeni Avropanın Fransa, Almaniya, Türkiyə və s. kimi böyük dövlətləri heç də hər zaman dəstəkləmir. Onlar Avropa Birliyinin müasir dünyada yürütdüyü liberal-demokratik siyasətə uyğun olaraq, həm ABŞ-ı öz yanlarında görməklə ondan Avropanın təhlükəsizliyinə əlavə təminat kimi istifadə etmək, həm də Avrasiya bölgəsində - Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda öz geoiqtisadi maraqlarını reallaşdırmaq, enerji təhlükəsizliklərini gücləndirmək və s. məqsədlər üçün bəhrələnmək istəyirdilər. Mütəxəssislərin fikrincə, bəzi Şərqi Avropa dövlətləri ABŞ və NATO-dan daha çox "qitənin enerji təhlükəsizliyinin təminatı" məqsədi ilə Rusiyaya təzyiq vasitəsi kimi istifadə etməyə çalışırlarsa, Qərbi Avropa dövlətləri və Türkiyə, əksinə, ABŞ və NATO-nu onların Rusiya ilə tərəfdaşlıq yaratmaq səylərinə mane olmaqdan çəkindirməyə cəhd göstərirlər. NATO-nun Baş katibi Andres Rasmussenin 2010-cu ildə bununla bağlı açıqlaması bu məsələyə kifayət qədər aydınlıq gətirir. O bəyan edirdi ki, NATO bloku ABŞ-ın ardınca Rusiya ilə öz münasibətlərindəki "gərginliyi aradan qaldırmalı", onunla tərəfdaşlıq

[388] Bax: Petersen A. Azərbaycanın Avroatlantik baxışları //"Azerbaijan Focus" jurnalı, №2, 2010-cu il, s.197

münasibəti yaratmalı və hətta lazım gəlsə, bu dövləti öz sıralarına qəbul etməlidir. [389] NATO Baş katibinin bu bəyanatı, təşkilatın Lissabon sammitində rəsmi olaraq ortaya qoyduğu "Rusiya ilə tərəfdaşlıq kursu" və s. blokun əksər üzvləri tərəfindən dəstəklənərək, sonrakı dövrdə NATO-nun yeni təhlükəsizlik strategiyasına, bütövlükdə Avrasiyada, o cümlədən Xəzər-Qara dəniz hövzəsindəki gələcək fəaliyyətinə də bir çox fərqli prinsiplər əlavə etdi. Həmin strategiyaya görə, Alyansın beynəlxalq təhlükəsizliyin təmin olunması sahəsində yaxın on il üçün əsas vəzifələrindən biri *dünyanın digər böyük dövlətləri, regional liderləri ilə münasibətləri sahmana salmaq və onlarla tərəfdaşlıq əlaqələrini gücləndirməkdən ibarətdir*. Mütəxəssislərin fikrinə görə, hazırda NATO-nun Cənubi Qafqazdakı hərbi-geostrateji və təhlükəsizlik strategiyası daha çox Qərbin enerji təhlükəsizliyi məsələlərinə yönəlmişdir.

Göründüyü kimi, ABŞ, Avropa Birliyi və NATO 1995-2008-ci illərdəkindən fərqli olaraq, 2008-2013-cü illərdə Xəzər-Qara dəniz hövzəsi və Cənubu Qafqaz ölkələrinin milli və təhlükəsizlik mənafelərini, onlarla əvvəlki illərdə qurulmuş geosiyasi, geoiqtisadi və hərbi-geostrateji münasibətləri, bəziləri ilə yaradılmış hərbi strateji tərəfdaşlığı və bölgədə yarana biləcək gələcək geosiyasi reallıqları nəzərə almadan Rusiya ilə, sonuncu isə öz növbəsində Qərblə bütün sahələrdə, o cümlədən geosiyasi, hərbi-geostrateji və geoiqtisadi məsələlərdə tərəfdaşlıq münasibətlərini öz xarici siyasətinin əsas prioritetlərindən biri kimi reallaşdırmağa çalışdı. Bu istiqamətdə hərbi-geostrateji əməkdaşlıq və tərəfdaşlığı hədəfləyən bir neçə düşərgələrarası sazişlər də imzalandı. Lakin, ziddiyyətli hal ondan ibarət idi ki, Gürcüstan, Ukrayna, Özbəkistan, Qırğızıstan, Azərbaycan və b. region ölkələrinin (Ermənistan istisna olmaqla) həmin dövrdə həm Qərblə, həm də Rusiya ilə analoji münasibəti,

[389] Bax: газ. "Зеркало", 22 июля 2010 г.

əməkdaşlıq və tərəfdaşlıq cəhdləri dərhal əks düşərgənin əsassız qısqanclığı ilə qarşılaşmağa başladı. O yerdə ki, Rusiya ilə Qərbin təhlükəsizlik məsələləri ilə bağlı münasibətlərinin gündəminə Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsi ölkələri çıxarıldı, həmin ölkələrlə münasibətlər müzakirə olundu, dərhal razılaşdırılmış bütün prinsiplər, imzalanmış tərəfdaşlıq sənədləri arxa plana keçdi, qarşılıqlı etimad itdi və gərginlik yarandı.

Rusiya ilə Qərb arasındakı bugünkü hərbi-geostrateji vəziyyəti təhlil edən mütəxəssislərin fikrinə görə, bu düşərgələri təmsil edən rəsmi qurumlar və hərbi bloklar (NATO və KTMT) arasında keçən müddətdə imzalanan müqavilələrin əksəriyyəti hazırda kağız üzərində qalmışdır və onlar arasındakı münasibətlərə heç bir pozitiv təsir göstərmir. Belə təəssürat yaranır ki, bir-biri ilə əməkdaşlıq üçün müvəqqəti maraq nümayiş etdirən tərəflərdən hər birinin əsas məqsədi heç də konstruktiv əməkdaşlıq deyilmiş, yalnız region ölkələrini öz təsirləri altına salaraq onların rəqib düşərgə ilə münasibətlərinə nəzarət etmək imiş. Həm Rusiya, həm də Qərb bölgə ölkələrinin bütün hərəkətlərini- siyasi, iqtisadi və hərbi fəaliyyətini nəzarət altında saxlamaq və idarə etmək istəyir.

Odur ki, Rusiya ilə Qərb arasındakı konstruktiv tərəfdaşlıq münasibətlərinin sərhədi bu düşərgələri təmsil edən birliklərlə (AB, MDB, Avrasiya İttifaqı, NATO, KTMT və s.) postsovet respublikalarının münasibətlərindən keçir. O yerdə ki, bu münasibətlər həmin ölkələrin bu birliklərdən hər hansı biri ilə tərəfdaşlığına, yaxud quruma üzvlüyünə əsas yaradır, bəhs olunan ölkələr dərhal əks tərəfin ciddi təzyiqlərinə məruz qalır və adekvat olaraq düşərgələrarası gərginlik artır. Bunun əyani sübutunu biz ABŞ, Avropa Birliyi, NATO və Rusiya, Avrasiya Birliyi, KTMT arasındakı Ukrayna ətrafında cərəyan edən hadisələrdə gördük. Məlum oldu ki, bir neçə il öncə tərəfdaş, az qala müttəfiq hesab olunan Rusiya, AB, ABŞ və s. Cənubi

Qafqaz, Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizliyi məsələsində, Avrasiyanın bu bölgəsinin indiki və gələcək geosiyasi, geoiqtisadi və hərbi-geostrateji arxitekturasının müəyyən olunmasında ciddi rəqibdirlər. Hazırda hər iki düşərgə yerli və region ölkələriniin imkanlarından, malik olduqları iqtisadi, siyasi və hərbi resurslardan və s. istifadə edərək regiondakı güc balansını öz xeyirinə dəyişmək istəyir. Bu da müvafiq olaraq yerli ölkələrin bir-biri və transmilli aktorlarla münasibətlərini pozur, regiondakı mövcud gərginliyi artırır, Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsinin geosiyai, geoiqtisadi və hərbi-geostrateji mühitinə mənfi təsir göstərir. NATO-nun informasiya bürosunun direktoru Robert Pşelin fikri ilə ifadə etsək:" düşərgələrarası əsas problemlərdən biri- qarşılıqlı etimadın itməsidir". [390]

Rusiya, ABŞ, NATO və AB-nin Cənubi Qafqazda və Xəzər-Qara dəniz hövzəsində reallaşdırdığı hazırkı hərbi-geostrateji və təhlükəsizlik siyasətini bu ölkələrin rəsmi və qeyri-rəsmi dairələri, ayrı-ayrı mütəxəssisləri və s. kimi, region ölkələrinin rəsmi və ictimai dairələri, ümumi əhalisi və ictimaiyyəti də birmənalı qiymətləndirmir. Məsələn, hazırda Qərb üçlüyünün Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsində yürütdüyü hərbi-geostrateji kurs və təhlükəsizlik siyasəti postsovet ölkələrindən yalnız Gürcüstan və Ukrayna, Rusiyanın yürütdüyü siyasət isə yalnız Ermənistan tərəfindən birmənalı şəkildə qəbul olunur və dəstəklənir. Birincilərin "region ölkələrinin təhlükəsizlik məsələləri ilə bağlı müstəqil seçim hüququnun tanınması və bunun əsasında dünyada yeni geosiyasi, hərbi-geostrateji vəziyyət yaratmaq" istəyini, Rusiyanınsa "təhlükəsizlik sahəsində birgə regional əməkdaşlıq prinsiplərinin yaradılması" təklifini bəzi istisnalarla Azərbaycan dəstəkləyir.

[390] См: Радио "Эхо Москвы", 20.02. 2011.

Hazırda Qərbi təmsil edən üçlük Cənubi Qafqazda Gürcüstanla yaratdıqları strateji tərəfdaşlıq münasibətlərini Xəzər-Qara dəniz hövzəsində Ukrayna, Azərbaycan və Moldova ilə yaratmaq, o cümlədən gələcəkdə Ermənistanı Rusiyadan qopararaq öz geosiyasi orbitinə çəkmək istiqamətində fəaliyyət göstərir, BTC-nin, BTƏ-nin təhlükəsizliyini, bölgədə Qərbin enerji maraqlarını qorumaq və təmin etmək məqsədi ilə Cənubi Qafqaz və Mərkəzi Asiyada sabitliyin yaradılmasını, bölgənin bütövlükdə NATO-nun hərbi-geostrateji və təhlükəsizlik dairəsinə daxil olmasını arzulayırlar. Bundan başqa, üçlük bölgədə özlərinin yanacaq-enerji maraqlarını reallaşdırmaq, Avropanın artan enerji təhlükəsizliyini Rusiyanın geoiqtisadi asılılığından xilas etmək, Xəzər-Qara dəniz hövzəsində və Cənubi Qafqazda geoiqtisadi cəhətdən möhkəmlənmək istiqamətində də ciddi fəaliyyətini davam etdirir. Lakin Cənubi Qafqazın regional təhlükəsizlik mühitinə və yerli ictimaiyyətin fikrinə ciddi təsir göstərən bir faktı da xüsusi vurğulamaq lazımdır ki, üçlük regionda bütün *bu məsələləri Rusiya ilə ciddi siyasi, iqtisadi və hərbi münaqişəyə girmədən həll etməyə* çalışır. Məsələn, ABŞ dövlət katibi Hillari Klintonun 2010-cu ilin iyul ayında Cənubi Qafqaz ölkələrinə rəsmi səfəri zamanı səsləndirdiyi bəyanatlar onu göstərdi ki, ABŞ bu regionu birdəfəlik tərk etmək və Rusiyanın ixtiyarına buraxmaq fikrində deyildir. Xüsusən Avropanın bölgədəki hərbi-geostrateji, enerji və nəqliyyat-dəhliz təhlükəsizliyinin təmin edilməsi məsələlərində rəsmi Vaşinqton Xəzər hövzəsinə, Orta Asiya və Cənubi Qafqaza, Azərbaycana və Gürcüstana ciddi əhəmiyyət verərək, bu bölgədə sabit regional mühit yaratmaq və dövlətlərin Rusiyadan asılı olmayan, müstəqil addımlarını dəstəkləmək istədiyini nümayiş etdirir. Lakin Rusiyanın son zamanlar regionda xeyli fəallaşması və Ukrayna ətrafında cərəyan edən hadisələrin doğurduğu yeni reallıqların da daha çox onun maraqlarına uyğun dəyişməsi həm ABŞ-ı, həm də onun AB və NATO üzrə müttəfiqlərini

yeni geosiyasi vəziyyətlə üz-üzə qoymuş və bir qədər fəallaşmağa məcbur etmişdir. Məhz elə həmin reallığa uyğun olaraq, Şimali Atlantika Alyansı Gürcüstan və Ukraynanın ərazi bütövlüyünü, suverenliyi və təhlükəsizliyini ön plana çıxarmaqla yanaşı, Rusiya ilə gərgin hərbi-geostrateji vəziyyəti yumşaltmaq məqsədi ilə bu ölkələrin NATO blokuna üzv olmasını hazırkı dövrdə qeyri-mümkün hesab etmişdir. Bununla da Qərb ölkələri və NATO bloku bir tərəfdən Ukrayna və Gürcüstanı çətin vəziyyətdən çıxarmaq istəyirlər, onları ciddi və prinsipial formada dəstəkləmək kursunu davam etdirir. Digər tərəfdənsə NATO-nun Şərqə doğru genişlənməsi anlamında onlar özlərinin Qara-Xəzər dənizi hövzəsi və Cənubi Qafqazdakı əvvəlki əlverişli geosiyasi mövqelərindən bir qədər geri çəkilməyə məcbur oldular.

Qərb ölkələrinin həm keçmişdə, həm də yeni şəraitdə Cənubi Qafqazın təhlükəsizliyi ilə bağlı yürütdüyü fərqli siyasət və Rusiya ilə qeyri-standart münasibətlər əksər region ölkələrinin, o cümlədən Azərbaycanın bu sahədəki milli təhlükəsizlik mövqelərinə və fəaliyyətinə adekvat təsir göstərmişdir. Məsələn, bu düşərgələr arasındakı 2008-2013-cü illərdəki şəraitə uyğun olaraq 18 noyabr 2010-cu ildə Rusiyanın təşəbbüsü ilə Xəzər hövzəsi ölkələrinin 3-cü Bakı sammiti keçirildi və Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistan prezidentləri "Xəzərdə təhlükəsizlik sahəsində birgə əməkdaşlıq" haqqında Sazişə imza atdılar. Bəhs olunan Saziş Xəzər hövzəsində birgə təhlükəsizliyin təmin edilməsi prinsipləri ilə yanaşı, həm də transsərhəd bölgələrdə terrorizmə, cinayətkarlığa, qaçaqmalçılığa və narkotiklərin dövriyyəsinə qarşı ümumi mübarizənin mexanizmlərini özündə əks etdirmişdir ki, onu mütəxəssislər bütövlükdə *"bölgədəki yeni geosiyasi və hərbi-geostrateji şəraitin əyani nəticəsi kimi"* dəyərləndirmişlər. Bəziləri Sazişin əsas xüsusiyyətlərindən biri kimi "Xəzər bölgəsinin təhlükəsizlik məsələlərinə hər hansı kənar qüvvələri buraxma-

dan, bilavasitə sahilyanı ölkələrin daxili potensialı hesabına regional sülhün və sabitliyin təmin edilməsi prinsipini" qeyd etmiş[391], digərləri "regionun təhlükəsizliyi məsələsində yerli və beynəlxalq amillərin tarazlığının yaradılmasını"[392] və s. ön plana çəkmişlər. Xəzərdə birgə təhlükəsizliklə bağlı imzalanan həmin dövlətlərarası Sazişi "NATO təhlükəsindən birdəfəlik xilas olmaq və region ölkələrinin bu quruma meyillənməsini durdurmaq məqsədilə Rusiya-İran cütlüyünün xüsusi səyi ilə ərsəyə gəlmiş və Azərbaycanın tarazlaşdırılmış siyasətinə mane olan" sənəd kimi dəyərləndirən mütəxəssislər də mövcuddur. Onların bir qismi, xüsusən Qərb ölkələrinin strateji mərkəzlərini təmsil edən mütəxəssislər hesab edir ki, 2008-2013-cü illərdə ABŞ və NATO-nun Rusiya qarşısından bir qədər geri çəkilməsi yerli ölkələrin heç də maraqlarına cavab vermir. Onların fikrinə görə, Xəzər hövzəsi və Cənubi Qafqazda "oyun qaydaları"nı müəyyənləşdirən Rusiya gələcəkdə region dövlətlərinin və beynəlxalq güc mərkəzlərinin müqaviməti ilə rastlaşacaq və "fərqli maraq dairələri üzərində yaradılmış" üstünlüklərindən geri çəkilməyə məcbur olacaqdır.

Bu gün həm Rusiya Federasiyasının, həm də Qərb dövlətlərinin Ukrayna ilə bağlı hərəkətlərində bir-birinə qarşı inamsızlıq hökm sürür. Məsələn, Böyük Britaniyanın "The Financial Times" qəzeti yazır: "Ruslara elə gəlir ki, Kiyevdəki nümayişlərin arxasında Qərbin xüsusi xidmət orqanları dayanır. Qərb isə hesab edir ki, Yanukoviç və onun ətrafındakılar Moskvanın marionetkasıdır".[393]

Təsadüfi deyil ki, hələ Ukraynada qanlı hadisələr başlamamış Rusiya Federasiyası və Avropa İttifaqı bir-birini Kiyevdə açıq şantajla ittiham edirdilər. Rusiya prezidenti Vladimir

[391] Bax: Период полураздела // газ."Коммерсант", 19 ноября 2010 г.
[392] Bax: Каспий не поделили, но объявили безопасной зоной //"Независимая газета", 19 ноября 2010 г.
[393] "The Finansial Times" jurnalı, 25.02.2014

Putin əmin idi ki, "Avropa İttifaqı Ukraynaya təzyiq göstərir və bu ölkəni şantaj edir", ona görə ki, onunla avrointeqrasiya haqqında müqavilə imzalasın.[394]

Öz növbəsində, Avropa İttifaqı da Ukrayna prezidenti Yanukoviçin bu qurumla Assosiasiya sazişini "Moskvanın təzyiqi ilə" imzalamaqdan imtina etdiyini bildirdi. Lakin, bununla bağlı Avropa İttifaqının prezidenti German Van Pompey açıq şəkildə bəyan etmişdir: "Biz təzyiqə tabe olmağa hazırlaşmırıq, xüsusilə də Rusiya tərəfindən".[395]

Ukraynada dinc aksiyalardan silahlı toqquşmalara keçidlə xarakterizə olunan qarşıdurmanın "qaynar fazalarının" başlanğıcı əsas geosiyasi oyunçuların mövqelərini daha da kəskinləşdirdi ki, tərəflər qarşılıqlı ittihamlardan açıq təhdidlərə və xəbərdarlıqlara keçdilər. Rusiya Federasiya Şurasının 2014-cü il martın 1-də Ukrayna ərazisinə qoşun yeridilməsi ilə bağlı prezident V.Putinin xahişini yerinə yetirməsi nəticəsində Krımın Rusiya Federasiyasına birləşdirilməsi təkcə postsovet məkanında deyil, həm də bütün dünyada geosiyasi oyunçuların qarşıdurmasının yeni mərhələsi oldu. Təsadüfi deyil ki, NATO Rusiyanın Ukraynaya qoşun yeritməsini "bütün Avropada sülhə təhdid" kimi qiymətlənirdi. ABŞ prezidenti Barak Obama isə açıq şəkildə xəbərdarlıq etdi ki, "Ukraynada istənilən hərbi müdaxilənin öz qiyməti olacaq".

Belə vəziyyətdə Avropa Birliyi də Rusiya ilə gələcək iqtisadi tətəfdaşlıq proqramlarına yenidən baxacağı ilə bağlı müəyyən siqnallar verir, açıq şəkildə "Cənub axını" qaz xəttinin tikintisinin uğurlu olacağına şübhə etməyə başlayırlar. Belə ki, İtaliyanın "Eni" kompaniyasının ("Cənub axını"nın tikintisi üzrə konsorsiumda 20 faiz paya malikdir) rəhbəri Paolo Skaroni hesab edir ki, "Cənub axını"nın gələcəyi Rusiya və Avro-

[394] "РБК" Agentliyi, 22.11.2013
[395] «Reuters" Agentliyi, 01.03.2014

pa İttifaqının Krım böhranından hansı çıxış yolunu tapacaqlarından asılıdır. "Əgər kompromis olarsa, Avropanın Rusiya qazından asılılığını azaltmaq üçün böyük cəhdlər etməyə ehtiyacı qalmayacaq". Söhbət ilk növbədə, Avropanın ərazisində qeyri-ənənəvi qazın hasil edilməsindən, mayeləşdirilmiş qazın, həmçinin Liviya, Əlcəzair və Norveçdən adi yanacağın idxalının artırılmasından gedir.[396]

Bir çox ekspertlər hesab edir ki, hər bir halda NATO ilə Rusiya arasındakı münasibətlərə yenidən baxmaq lazım olacaq. Artıq bu gün hətta Qərbdə qəbul etməyə başlayıblar ki, Rusiya tərəfinin inamsızlığı ilk növbədə bununla bağlıdır ki, faktiki olaraq NATO Şərqə doğru genişlənməməsi ilə bağlı verdiyi qeyri-rəsmi vədlərini yerinə yetirmədi. Buna görə də ""The Financial Times" yazır ki, Ukrayna böhranının həlli üçün ABŞ və Avropa İttifaqı öz üzərilərinə yazılı öhdəlik götürə bilərlər. Açıq şəkildə bəyan edərək ki, "Gələcəkdə Ukraynaya NATO-nun üzvlüyünə qəbul olmaq təklifi edilməyəcək".[397]

Bu cür mövqeyi uzun illərdir "anti-Rusiya birliyinin" əsas ideoloqu kimi tanınan Zbiqnev Bjezinski də dəstəkləyir. O, hələ 1997-ci ildə nəşr olunmuş "Böyük şahmat taxtası" kitabında yazırdı: "Ukraynasız Rusiya artıq Avrasiyanın hökmran dövləti deyil. Baxmayaraq ki, Rusiya sonra da imperiya statusuna çalışacaq, Ukraynasız Rusiya isə ilk növbədə Asiya imperiyası olacaq. Lakin, əgər Rusiya yenə Ukraynanı, onu 52 milyon nəfər əhalisi, əhəmiyyətli faydalı mədənləri və Qara dənizə çıxışı ilə nəzarət altına götürsə, onda Rusiyanın əlində Avropa və Asiyanı əhatə edən böyük imperiya olması üçün avtomatik vasitə yaranacaq".[398]

[396]"The Finansial Times" jurnalı, 23.04.2013
[397] "The Finansial Times" jurnalı, 25.02.2014
[398] Бжезинский З.К. «Великая шахматная доска». М; 1988, с. 33

Bjezinskinin fikrincə, Ukraynada işlərin hazırkı vəziyyəti elə təhlükəli situasiya yaratmışdır ki, bu gün Ukraynanın NATO-ya üzvlüyünü unutmaq lazımdır: "Ukraynanın köməyə ehtiyacı vardır. Lakin buz rusları inandıra bilərik ki, bizim məqsədimiz onların hərbi təhdid kimi baxdığı, Ukraynanı aldadıb NATO-ya gətirmək deyil. Eləcə də ukraynalıların böyük əksəriyyəti NATO-ya cəhd göstərmir, lakin onlar müstəqil olmaq istəyir. Beləliklə bütün bunlar siyasi reallıqla tam üst-üstə düşür". [399]

ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincer də hesab edir ki, Ukrayna NATO-nun üzvü olmalı deyil: "Qərb başa düşməlidir ki, Rusiya üçün Ukrayna heç vaxt adi xarici dövlət olmayacaq. Əgər Ukrayna yaşamaq və çiçəklənmək istəyirsə, o bir tərəfin digərinə qarşı forpostuna çevrilməməlidir. Ukrayna özünün siyasi və iqtisadi əlaqələrini azad seçmək hüququna malik olmalıdır, o cümlədən də Avropa ilə. Lakin Ukrayna NATO-ya daxil olmamalıdır". Kissincer xəbərdarlıq edir ki, "əgər bu və ya digər analoji elementlərin əsasında hansısa həll yolu tapılmasa, onda konfrontasiyalara sürüklənmə sürətlənəcəkdir".

Məhz bu kontekstdə həm də ABŞ Prezidenti Barak Obamanın 2014-cü il martın 26-da Brüsseldə verdiyi bəyanatına baxmaq olar. ABŞ Prezidenti orada açıq şəkildə bəyan etdi ki, "nə Ukrayna, nə də Gürcüstan NATO-ya üzvlük yolundadır". [400]

"The Daily Beast" qəzeti yazır ki, Gürcüstanda B.Obamanın sözlərini "sarsılmaqla və məyusluqla" qəbul etdilər. Lakin xatırladılır ki, ABŞ bu cür siyasəti artıq əvvəldən dəstəkləyirdi: "On ildən çoxdur ki, ABŞ Tbilisiyə ruhlandırıcı siqnallar göndərir, nə vaxt ki, Gürcüstanın NATO-nu dəstəkləməsi ABŞ

[399] Бжезинский З.К. Великая шахматная доска, с. 33
[400] "Euronews" televiziyası, 07.03.2014

üçün sərfəlidir. Amma nə vaxt ki, bu, artıq geosiyasi baxımdan əlverişli deyil, həmin qayda ilə də dəvət təxirə salınır... Bu cür templərlə ABŞ tezliklə Cənubi Qafqazda sadiq tərəfdarlarsız qala bilər və Azərbaycanla birlikdə Xəzər dənizini və onun neft ehtiyatlarını Qara dənizlə və Avropa ilə birləşdirən strateji gürcü dəhlizinə girişdən məhrum ola bilər".[401]

Ukrayna böhranının nəticəsindən asılı olmayaraq, demək olar ki, Rusiya ilə Qərbin qarşılıqlı münasibətlərində yeni mərhələ başlanmışdır ki, bir çox ekspertlər bunu "soyuq müharibə" dövrünə qayıdış adlandırırlar. Məsələn, NATO-nun baş katibi Anders Foq Rasmussen Rusiya ilə mülki və hərbi əməkdaşlıq səviyyəsində Alyansın bütün iclaslarının dayandırıldığını bəyan etmişdir".[402]

Prezident Barak Obama, ABŞ-ın nöqteyi-nəzərincə Ukraynadakı vəziyyəti gərginləşdirən Rusiya məmurlarına viza məhdudiyyətlərinin qoyulması və onların bank hesablarının dondurulması haqqında fərman imzalamışdır.

Öz növbəsində Rusiyanın Xarici İşlər Nazirliyi bəyan etdi ki, "Rusiya beynəlxalq arenada öz həmvətənlərinin hüquqlarını qorumaqda davam edir və onların pozulmalarına barışmaz reaksiya verəcəkdir". RF-nın Federasiya Şurası isə Rusiyaya qarşı sanksiyalar tətbiq olunacağı təqdirdə Avropa və ABŞ-ın kompaniyalarının əmlakı, aktivləri və hesablarının müsadirə olunmasını nəzərdə tutan qanun layihəsinin qəbul olunması mümkünlüyünü bəyan etdi. [403]

ABŞ və Avropa İttifaqının Rusiyanı mümkün siyasi və iqtisadi təcrid etmə ilə bağlı təhdid etməsi nəinki geosiyasi müstəvidə qüvvələr nisbətini, eləcə də regionda ticarət-iqtisadi vəziyyəti dəyişə bilər. Qərb kompaniyalarının əmlakının müsa-

[401] Euronews" televiziyası, 07.03.2014
[402] Euronews" televiziyası, 07.03.2014
[403] «РИА Новости» Agentliyi, 05.03.2014

dirə olunması ilə bağlı Rusiyanın cavab tədbirləri isə kapitalın və xarici investisiyaların ölkədən çıxmasına gətirə bilər. Artıq ekspertlər qeyd edirlər ki, Rusiyadan kapital çıxışı 2014-cü ilin I kvartalında 73-75 milyard dollar səviyyəsində olub. Baxmayaraq ki, bütünlükdə 2013-cü ildə kapital çıxışı 62.7 milyard dollar təşkil edib.[404] Bütün bunlar isə sözsüz ki, təhlükəsizliklə bağlı ümumregional vəziyyətə təsir göstərir.

Beləliklə, Ukrayna məsələsində Rusiya Federasiyası ilə Avropa İttifaqı-ABŞ arasındakı konfrontasiyalar bir daha sübut edir ki, region ölkələri üçün təhlükəsizlik məsələləri ilə bağlı birmənalı mövqe formalaşdırmaq və öz maraqlarına uyğun olaraq bütün geosiyasi oyunçularla münasibətlər qurmaq çox çətindir. Bu gün Ukrayna faktiki olaraq əsas geosiyasi oyunçuların – Rusiya və Qərbin münasibətlərindəki inamsızlığın qurbanına çevrilmişdir.

Bu aspektdə münasibətlərin oxşar kəskinləşməsi Cənubi Qafqaz və Xəzər regionunda qlobal qüvvələrin qarşılıqlı münasibətlərində də özünü göstərir.

Rusiya, ABŞ, NATO və Avropa İttifaqının Cənubi Qafqazda və Xəzər-Qara dəniz hövzəsində apardıqları hərbi geostrateji siyasət və təhlükəsizlik siyasəti Rusiyanın rəsmi və qeyri-rəsmi siyasi dairələri, ekspertlər, region ölkələrinin rəsmi nümayəndələri və ictimaiyyəti, bütövlükdə əhalisi tərəfindən birmənalı qarşılanmır. Məsələn, Cənubi Qafqazda və Xəzər-Qara dəniz hövzəsində Qərb ölkələrinin indiyə qədər apardığı hərbi-geostrateji kursu və təhlükəsizlik siyasətini, postsovet ölkələrindən Gürcüstan, Rusiyanın apardığı siyasəti isə yalnız Ermənistan dəstəkləyirdi. Bəzi düzəlişlərlə Azərbaycan və Ukrayna Qərbin "təhlükəsizlik məsələlərində region ölkələrinin azad seçim etmək hüququnu tanımaq və bu əsasda yeni geosiyasi, hərbi-geostrateji situasiya yaratmaq" arzusunu və Rusi-

[404] "РБК" Agentliyi, 18.03.2014

yanın "təhlükəsizlik sahəsində regional əməkdaşlığın birgə prinsiplərini yaratmaq" təklifini dəstəkləyirdilər.

§2.3. Azərbaycanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda yürütdüyü regional təhlükəsizlik siyasəti: təhlükəsizlik sahəsində Azərbaycan, Gürcüstan və Türkiyənin birgə tərəfdaşlıq platforması

1993-cü ildə Azərbaycanda yenidən hakimiyyətə qayıdan Heydər Əliyev, ilk növbədə, bölgə və dünya dövlətləri ilə Azərbaycanın geosiyasi, geoiqtisadi və hərbi-geostrateji münasibətlərini sahmana salmaq, onun beynəlxalq hüquqlarını müdafiə edən, müstəqil dövlət quruculuğu və geostrateji təhlükəsizliyini dəstəkləyən tərəfdaşlar, hərbi-siyasi müttəfiqlər axtarmaq, bölgədə və dünyada yaranmış anti-Azərbaycan meyillərini aradan qaldırmaq istiqamətində ciddi fəaliyyətə başlayır. Qısa müddətdə o, bu sahədə ciddi praktik addımlar atmış, regional sülh və təhlükəsizliklə bağlı bölgə və dünya dövlətlərinin, beynəlxalq təşkilatların rəhbərləri ilə çoxsaylı ikitərəfli, çoxtərəfli görüşlər keçirmişdir.

Heydər Əliyevin Azərbaycanın Cənubi Qafqazda həyata keçirmək istədiyi regional sülhyaratma və təhlükəsizlik siyasətinin mahiyyəti və əsasları haqqındakı ilk bəyanatı 1993-cü ilin sentyabrında əvvəl Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının, 1994-cü ildə isə ATƏT-in Budapeşt sammitinin tribunasından səslənmişdir.

Həmin dövrdə Azərbaycanın beynəlxalq və regional təhlükəsizlik siyasətinin formalaşdırılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkənin milli, hərbi, ərazi və geosiyasi təhlükəsizliyinin təmin edilməsi, ilk növbədə, Rusiyadan, onun rəhbərliyi altında fəaliyyət göstərən **Müstəqil Dövlətlər Birliyi** ilə qarşılıqlı əlaqələrdən keçirdi. Odur ki,

-postsovet regionunda yaşanan iqtisadi, siyasi, hərbi, təhlükəsizlik və s. proseslərin içində olmaq;

-keçmişdə Azərbaycanla bir məkanda və sistemdə yaşamış ölkələrlə yaranmış gərgin dövlətlərarası münasibətləri yumşaltmaq və tərəfdaşlıq əlaqələri qurmaq;

- Rusiyanın Ermənistana intensiv hərbi-texniki yardımını dayandırmaq və onun Cənubi Qafqaz ölkələrinin hərbi təhlükəsizlik məsələlərinə yanaşmasında müəyyən tarazlığa nail olmaq;

- MAB və Cənubi Qafqazdakı hərbi-geostrateji münasibətlərdə Azərbaycanın xeyrinə olmayan mənfi prosesləri aradan qaldırmaq;

- milli ordu quruculuğu, hərbi-texniki inkişaf və s. sahəsində Rusiya və digər postsovet ölkələrinin imkanlarından bəhrələnmək, və s. məqsədilə 1993-cü ilin sentyabrında Prezident Heydər Əliyev Müstəqil Dövlətlər Birliyinə və Rusiyanın yaratdığı regional təhlükəsizlik sisteminə - **Kəllektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına** (KTMT) qoşulmaq haqqında qərar qəbul etdi.

Bunun ardınca Azərbaycan dövləti özünün Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsindəki regional təhlükəsizlik siyasətinin formalaşdırılması və digər hərbi-geostrateji bloklarla münasibətlərinin səhmana salınması istiqamətində fəaliyyətə başlamışdır.

Lakin sonrakı proseslər göstərdi ki, həmin dövrdə Rusiya rəhbərliyinin KTMT-ni yaratmaqda əsas məqsədi heç də, bəyan olunduğu kimi, "keçmiş SSRİ-dən ayrılmış bərabərhüquqlu ölkələrin kollektiv və milli təhlükəsizliyini və hərbi-geostrateji maraqlarını təmin etmək" deyil, əksinə, onların xarici aləmlə təhlükəsizlik sahəsində bütün əlaqələrə nəzarət etmək, MDB üzvlərinin daxili və xarici siyasətini təsir altında saxlamaq, müstəqil dövlət hüquqlarına və mənafelərinə müdaxilə etməkdən ibarətdir. Rusiyanın 1993-1998-cı illərdə həyata ke-

çirdiyi regional təhlükəsizlik siyasəti, nəinki KTMT üzvü olan dövlətlərin milli və kollektiv təhlükəsizliyini təmin etmirdi, əksinə, onların müstəqilliyini məhdudlaşdırmaq, daha müstəqil siyasət yürüdən ölkələrin daxilində siyasi, etnik və sosial qarşıdurma yaratmaq, etnik separatizmi dəstəkləmək yolu ilə bu ölkələri təsir altında saxlamağa xidmət edirdi. Məsələn, Azərbaycanı MDB və KTMT-yə cəlb etmək məqsədilə Rusiya Prezidenti 1993-cü ildə "Dağlıq Qarabağ probleminin həllində Rusiya Federasiyasının vasitəçiliyinin əsasları"[405] haqqında xüsusi sərəncam imzalayaraq, öz üzərinə sözdə "tərəfsiz vasitəçilik missiyası, tərəflərin heç birinə hərbi yardım göstərməmək öhdəliyi" götürdüyü halda, işdə faktiki olaraq, birtərəfli qaydada Ermənistanı müdafiə edir, ona hərtərəfli hərbi-strateji yardım göstərirdi. Mütəxəssislərin araşdırmalarına görə, o illərdə bu ölkənin bəzi siyasi və hərbi dairələrinin - Baş nazir V. Çernomırdinin, müdafiə naziri P.Qraçovun, Baş Qərargah rəisi M.Kolesnikovun və b. yürütdüyü regional təhlükəsizlik siyasəti Azərbaycana öz fəaliyyətini bundan sonra da Rusiya və Ermənistanla bərabər KTMT-nin üzvü kimi davam etdirməyə heç bir əl yeri qoymadı. Rusiya müdafiə nazirinin o dövrkü mətbuat xidmətinin əməkdaşı polkovnik V.N. Baranets yazırdı ki, Azərbaycan tərəfinin bütün xəbərdarlığına və narahatlığına məhəl qoymayan Rusiya hərbi rəhbərliyi, hökumətin razılığı ilə Ermənistanı kütləvi şəkildə silahlandırmaqda davam edirdi.[406]

Göründüyü kimi, bəhs olunan dövrdə Azərbaycan nəinki, KTMT üzvlüyündən, Rusiya ilə "hərbi regional ittifaq"dan öz milli təhlükəsizliyi, erməni işğallarının nəticələrinin aradan qaldırılması və ərazi bütövlüyünün təmin edilməsi istiqamətində istifadə edə və gözlədiyi nəticəyə nail ola bilmədi, əksinə,

[405] Bax: газ. «Красная звезда», 1 марта 2003 г.
[406] Bax: Баранец В.Н. Генштаб без тайн. М., 1999

Rusiya bölgədə müstəqil geosiyasət yürütməyə can atan bu dövlətlə bərabərhüquqlu münasibətlərdən, hərbi-geostrateji əməkdaşlıqdan tam imtina etdi, ona hər hansı silah-sursat satmağa belə birtərəfli qaydada moratorium qoydu. Azərbaycan xarici sərhədlərinin qorunması və ərazilərində rus qoşunlarının yerləşdirilməsi ilə bağlı Moskvanın tələblərinə rədd cavabı verəndən sonra, Qəbələ RLS-in ortaq istifadəsi istisna olmaqla, Rusiya ilə onun "hərbi ittifaqı və tərəfdaşlığı" faktiki olaraq sona çatdı.

Prezident Heydər Əliyev 1993-1998-ci illərdə Azərbaycanın regional təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə müstəqil xarici və təhlükəsizlik siyasəti kursunu davam etdirərək, ölkənin beynəlxalq, regional və milli təhlükəsizliyinin, Ermənistan tərəfindən işğal olunmuş ərazilərinin geri qaytarılmasının alternativ yollarını və vasitələrini axtarmağa məcbur oldu. Bu istiqamətdə görülən işlər sırasına Rusiya və KTMT[407] ilə münasibətləri kəsmədən,

- NATO bloku və Türkiyə ilə;
- dünya siyasətində "Bitərəf ölkələr" bloku adlandırılan dövlətlərlə;
- Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsində Rusiya tərəfindən analoji regional münaqişələrə təhrik və cəlb edilən, ədalətsiz sınağa çəkilən Ukrayna, Gürcüstan, Moldova və s. kimi ölkələrlə tərəfdaşlığın yaradılmasını;
- bölgədə və dünyada yeni-yeni hərbi müttəfiqlərin, siyasi və hərbi tərəfdaşların axtarışını, onlarla ikitərəfli və çoxtərəfli

[407] Azərbaycan Özbəkistan və Gürcüstanla birlikdə 2 aprel 1999-cu ilə qədər formal olaraq KTMT-nin üzvü olaraq qalmışdır. 1997-ci ildə isə Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova MDB tərkibində Rusiyanın ədalətsiz regional təhlükəsizlik siyasətinə bir növ etiraz əlaməti olaraq GUAM adlanan regional əməkdaşlıq birliyini yaratmış və bölgədə tam bərabərhüquqlu münasibətlərin nümunəsini ortaya qoymuşlar. Bir qədər sonra bu birliyə Özbəkistan da qoşulmuşdur.

hərbi-texniki əməkdaşlıq münasibətlərinin qurulmasını, s. aid etmək olar.

Azərbaycanın regional təhlükəsizlik məsələlərinin nizama salınmasında o dövrdə dünyanın ən etibarlı və fəal hərbi-siyasi bloku hesab olunan Şimali Atlantika Alyansına- **NATO** ilə əməkdaşlığa xüsusi ümid bəslənilirdi. 1994-cü ildən NATO ilə dünyada və regionda sülh haminə əməkdaşlıq və tərəfdaşlıq kursu götürən Azərbaycan hökuməti, onun vasitəsi ilə işğalçı Ermənistana təsir göstərmək, Azərbaycanın beynəlxalq hüquq normaları ilə qorunan ərazi bütövlüyünü bərpa etmək və Cənubi Qafqazda etibarlı regional sülhə nail olmaq istəyirdi. Bəhs olunan dövrdə Cənubi Qafqaza xüsusi əhəmiyyət verən NATO da bölgə ölkələri ilə hərbi-siyasi tərəfdaşlığa maraq göstərirdi. Xüsusən Azərbaycan, Gürcüstan və Ukrayna ilə hərbi-geostrateji əlaqələrə ciddi önəm verən Alyans Rusiyanın və KTMT-nin regional fəaliyyətindən və bölgədəki münaqişələri sahmana salmaq sahəsindəki qeyri-səmərəli siyasətindən narazı qalan bu üçlüklə xüsusi regional tərəfdaşlıq münasibəti yaratmaq istəyi nümayiş etdirirdi. Məhz elə bu məqsədlə də NATO rəhbərliyi hər üç ölkəni özünün *"Sülh naminə tərəfdaşlıq"* proqramına qəbul etmişdi.

Azərbaycan NATO-nun tərəfdaşına çevriləndən sonra bu qurumun üzv dövlətlər üçün müəyyənləşdirdiyi ciddi məhdudiyyət rejiminə əməl edən, əvvəlki illərdə Azərbaycanın milli ordu quruculuğuna əhəmiyyətli hərbi-texniki yardım göstərə və onun torpaqlarının Ermənistan tərəfindən işğalına mane ola bilməyən Türkiyə, Azərbaycanın milli ordusunun Avropa standartlarına uyğunlaşdırılması sahəsində iş aparmaq imkanı qazandı.

Bəzi mütəxəssislər bu gün də hesab edirlər ki, Azərbaycanın o dövrdə təhlükəsizlik sahəsində Qərbə inteqrasiya və NATO-ya meyillənməkdən başqa yolu yox idi. Çünki Rusiya tərəfindən ədalətsiz münasibətə məruz qalan və Ermənistanla

müqayisədə bu ölkə ilə hərbi əməkdaşlıqdan faktiki olaraq kənarda saxlanılan Azərbaycanın o dövrdə həm müdafiə və texniki cəhətdən, həm də Bakı-Tbilisi-Ceyhan kimi transmilli kəmərlərin təhlükəsizliyinin təmin edilməsi baxımından hərbi əməkdaşlığa və hərbi dəstəyə, xüsusən, Qərbin inkişaf etmiş texnologiyalarına, NATO-nun təhlükəsizlik təlimlərinə və s. ciddi ehtiyacı var idi.[408]

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın NATO ilə əməkdaşlığı, xüsusilə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ABŞ və Qərb dövlətlərinin müxtəlif imkanlarından yararlanmaq istəyi bəzi region dövlətləri (xüsusilə Rusiya və İran) tərəfindən həmişə birmənalı şəkildə mənfi qarşılanıb və onlar buna özlərinin milli təhlükəsizlik maraqlarına cavab verməyən məsələ kimi yanaşıblar. Fikrimizcə, Azərbaycan-NATO münasibətləri və onun perspektivləri ilə bağlı politoloqların, siyasi analitiklərin müxtəlif yanaşmalarını iki əsas istiqamət üzrə qruplaşdırmaq olar. *Birinci istiqamətə görə*, Azərbaycan-NATO münasibətlərinin strateji xarakter alması ölkənin mili, regional və beynəlxalq təhlükəsizliyinə ciddi təminat verə bilər və onun geosiyasi mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirər. Hətta, onların fikrinə görə, NATO-ya daxil olan aparıcı dövlətlərin maraqlarına uyğun olaraq Türkiyə-Ermənistan sərhədlərinin açılması məsələsinin gündəliyə gəlməsi belə Ermənistanın tədricən Rusiyanın təsir dairəsindən çıxmasına və xarici siyasət kursunda dəyişikliklər aparmasına gətirib çıxara bilər. Bütün bunlar isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi üçün əlverişli imkanların yaranması demək olardı.

İkinci istiqamətə görə, Azərbaycanla NATO arasındakı münasibətlərin dərinləşməsi Rusiya və İranın regional təhlükə-

[408] Bax: Virminqhauz R.F. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti // "Azerbaijan Focus" jurnalı, №1, 2009-cu il, s.101

sizliyini ciddi şəkildə təhdidə məruz qoyur. Onlar hesab edir ki, NATO-nun regionda genişlənməsində təşkilat üzvü olan dövlətlərlə yanaşı, Azərbaycanın özü də maraqlıdır və "bu meylin təhlükəliliyi NATO-nun hərbi infrastrukturlarının Xəzər dənizi vasitəsilə Rusiyanın və İranın sərhədlərinə yaxınlaşması ilə şərtlənir.[409] Həmin politoloqların fikrinə görə, əgər Azərbaycan-NATO münasibətləri hərbi-strateji səviyyəyə qalxarsa, Rusiya hər vəchlə Azərbaycan və Ermənistan silahlı qüvvələrinin təmas xəttində növbəti münaqişənin yaranmasına çalışar, münaqişə iri miqyas aldığı təqdirdə isə müxtəlif bəhanələrlәı Dağlıq Qarabağın müstəqilliyini tanıyar və özünün silahlı birləşmələrini onun ərazisində yerləşdirə bilər. Digər tərəfdən, NATO-ya üzvlük, onların fikrinə görə, Azərbaycan Qərbin siyasi kursundan tam asılı vəziyyətə salır ki, bu da NATO-nun genişlənməsinə qarşı olan region dövlətlərinin ona qarşı düşmənçiliyini gücləndirər. İkinci istiqamət tərəfdarları "NATO ilə strateji əməkdaşlığın Azərbaycanın təhlükəsizliyinə hər hansı təminat verəcəyinə" şübhə ilə yanaşır və buna sübut olaraq 2008-ci ildə Gürcüstanda baş verən hadisələri nümunə gətirirlər. Onların fikrinə görə, Gürcüstanın NATO-ya daxil olmaq üçün ardıcıl cəhdlər göstərməsinə və qərbyönlü xarici siyasət aparmasına baxmayaraq, bu dövlət 2008-ci ilin avqust ayında Rusiyanın işğalı ilə təkbaşına üz-üzə qaldı. Başda ABŞ olmaqla NATO üzvü olan dövlətlər Gürcüstana ciddi dəstək vermədi və Rusiyanın beynəlxalq hüquqa zidd olan davranışları ilə razılaşmaq məcburiyyətində qaldılar.[410]

Məlumdur ki, 2008-ci ildə Rusiya ilə Gürcüstan arasındakı hərbi münaqişə Cənubi Qafqazın geosiyasi vəsiyyətində kəskin dəyişikliklər yaratdı və regionda qüvvələr nisbəti köklü

[409] См: Панин В.Н. Проблема региональной безопасности на Кавказе в ситуации турбулентности мирового политического процесса // Вестник Института стратегических исследований. – Вып. 1:– 2011, с. 48
[410] См: Панин В.Н. Göstərilən əsəri.

şəkildə dəyişdi. Bu hadisə Cənubi Qafqazın regional təhlükəsizliyi ilə bağlı regional və qlobal aktorların bir sıra yeni təşəbbüslərlə çıxış etməsinə səbəb oldu. Türkiyə tərəfindən *"Qafqazda sabitlik və əməkdaşlıq platforması*" adlanan, Rusiya, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan tərəfindən imzalanması nəzərdə tutulan yeni regional təhlükəsizlik layihəsi irəli sürüldü. Bu layihə 2008-ci ilin avqust ayında Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın Moskvaya səfəri çərçivəsində Rusiya prezidenti D.Medvedyevlə geniş müzakirə olundu. Hətta sonradan R.Ərdoğan layihənin formatı ilə bağlı danışıqlarda BMT-nin iştirakının da vacib olduğunu bəyan etdi. Həmin layihəni Azərbaycan və Ermənistan dəstəkləsə də, regional alyansa üzvlükdən yalnız Gürcüstan imtina etdi. Gürcüstan tərəfi öz mövqeyini belə əsaslandırdı ki, "onun ərazilərini işğal edən Rusiya ilə birlikdə eyni alyansda iştirakı qeyri-mümkündür" və proseslərin sonrakı gedişi göstərdi ki, adıçəkilən layihə uğur qazana bilmədi.

NATO ilə münasibətlərdə Azərbaycanın xarici təhlükəsizlik maraqlarına cavab verən ən mühüm faktorlardan biri bu təşkilatın *keçmiş sovet respublikalarının ərazi bütövlüyünü və suverenlik hüquqlarını müdafiə etməsidir*. NATO bu mövqeyini alyansın 2014-cü il sentyabrın 4-5-də keçirilmiş Uels sammitində qəbul edilən Bəyannaməsində bir daha ifadə edir. Sənəddə deyilir: "NATO Azərbaycan, Ermənistan, Gürcüstan və Moldovanın ərazi bütövlüyü və suverenliyinin müdafiəsi ilə bağlı öhdəliklərinə sadiqdir. Mövcud şəraitdə alyans Cənubi Qafqazda və Moldovada münaqişələrin beynəlxalq qanunvericilik əsasında və dinc yolla həllinə yönəlik səyləri dəstəkləməkdə davam edəcək". Bəyannamənin postsovet məkanındakı münaqişələrə aid hissəsində daha sonra bildirilir: "Bu konfliktlərin üzücü şəkildə davam etməsi hələ də xüsusi narahatlıq

doğurur, çünki belə vəziyyət bölgə sakinlərini Avroatlantik birliyin üzvü olmaq imkanından məhrum edir".[411]

Azərbaycan özünün regional və milli təhlükəsizliyini təmin etmək, Ermənistanın işğalına son qoymaq və Cənubi Qafqazda etibarlı sülh şəraiti yaratmaq üçün keçən müddətdə digər beynəlxalq və regional qurumlarla da iş aparmışdır. Belə qurumlar sırasında **BMT, ATƏT, Avropa Birliyi, Avropa Şurası, MDB, İslam Konfransı Təşkilatı, Türkdilli Dövlətlər Birliyini** və digərlərini qeyd etmək olar. Təsadüfi deyildir ki, Azərbaycanın haqq səsinə BMT-dən sonra əsas prinsipial münasibəti də məhz adı çəkilən həmin beynəlxalq qurumlar bildirmiş və onların bəziləri Ermənistanı işğalçı dövlət kimi tanımışlar. Bəhs olunan qurumlar və onların ayrı-ayrı üzvləri Azərbaycana daim öz siyasi, texniki və humanitar yardımlarını da göstərmişlər.

Son zamanlar Azərbaycan həm də dünya siyasətində, o cümlədən beynəlxalq təhlükəsizlik sahəsində ayrıca bir təsir dairəsi kimi çıxış edən **"bitərəf ölkələr"** bloku ilə öz əlaqələrini intensivləşdirərək, təşkilatın ayrı-ayrı üzvləri ilə təhlükəsizlik sahəsində əməkdaşlıq etməyə başlamışdır.[412] 2011-ci il 25-27 may tarixində təşkilatın xarici işlər nazirlərinin İndoneziyada keçirilən XVl konfransında isə Azərbaycan "bitərəf ölkələr" blokuna tam səlahiyyətli üzv qəbul edilmişdir.[413]

---

[411] http://www.nato.int/cps/en/natohq/official_texts_112964.htm

[412] "Bitərəf ölkələr" bloku beynəlxalq aləmdə kəskinləşən SSRİ-ABŞ qarşıdurmasına və "soyuq müharibəyə" qoşulmaq istəməyən ölkələr tərəfindən 1961-ci ilin sentyabr ayında Belqradda təsis edilmişdir. "Nə Qərb, nə Şərq" hərəkatı əsasında yaradılan bu blokun ilk təşəbbüsünü ingilis işğalından azad olmuş Hindistanda C. Neru başlamış, sonradan bloka Misir, Yuqoslaviya, Birma, Seylon və digər 20 dövlət qoşulmuşdur. Hazırda "hər hansı hərbi bloklarda iştirakdan imtina edən" "bitərəf ölkələrin" sayı 119-dur. Onlardan 38-i Asiyanı, 53-ü Afrikanı, 26-sı Latın Amerikasını və 2-si Avropanı (Belarus və Azərbaycan) təmsil edir. Müşahidəçi qismində blokun işində daha 14 dövlət iştirak edir.

[413] Bax: газ. "Зеркало", 20 мая 2011 г.

Mütəxəssislər tərəfindən birmənalı müsbət qiymətləndirilməyən bu addım, əslində, Azərbaycanın müstəqillik əldə etdiyi andan yürütdüyü beynəlxalq, regional və milli təhlükəsizlik siyasətinin məntiqi yekunu kimi də dəyərləndirilə bilər.

Azərbaycan keçən iyirmi ildə regional təhlükəsizlik sahəsində bütün hərbi-geostrateji bloklarla tərəfdaşlıq münasibətləri yaratsa da, ilk gündən birmənalı şəkildə öz prinsipləri ilə çıxış etmişdir. Rəsmi Bakı daim:

- Qafqazın militaristləşdirilməsinin, hərbi bloklar arasında qarşıdurmaya cəlb edilməsinin;
- xarici ölkələrə məxsus hərbi bazaların, orduların başqa dövlətlərin ərazisində yerləşdirilməsinin və s. qarşıdurma meyillərinin əleyhinə çıxış etmişdir.

Ərazilərinin işğal edilməsinə, qonşu Ermənistan tərəfindən hərbi irticaya və hərbi müdaxiləyə məruz qalmasına baxmayaraq, Azərbaycan nəinki Cənubi Qafqazda, həmçinin bütün postsovet məkanında və dünyada ən fəal sülh siyasəti və barış diplomatiyası nümayiş etdirən ölkə olmuşdur. Odur ki, əlbəttə, Cənubi Qafqazda hərtərəfli geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqları olan NATO, KTMT kimi hərbi-siyasi bloklarla, blokun ABŞ, Rusiya, Avropa Birliyi ölkələri, Türkiyə və s. üzvləri ilə təhlükəsizlik sahəsində kollektiv və fərdi əməkdaşlığı dayandırmadan, "bitərəf ölkələr" blokuna daxil olması Azərbaycanın son vaxtlarda atdığı ən məntiqli geosiyasi addımlardan biri sayıla bilər. Beynəlxalq və regional təhlükəsizliyin təmin olunmasında Azərbaycanın artan rolu və geosiyasi proseslərdə mühüm tərəf kimi çıxış etməsi, xüsusi əhəmiyyət kəsb edən enerji-nəqliyyat layihələrinin təşəbbüskarı olması və s. dünya birliyində onun nüfuzunun artmasına ciddi təsir göstərməkdədir. Bunun bariz göstəricilərindən biri Azərbaycanın 2011-ci ilin oktyabr ayında BMT üzvü olan ölkələrin 155 səsini toplayaraq 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi oldu.

Azərbaycanın balanslı və praqmatik regional təhlükəsizlik siyasətinin mahiyyəti və əsas tələbləri

Azərbaycan keçən müddətdə hər üç hərbi-geostrateji və siyasi blokla tərəfdaşlıq münasibəti yaradaraq, Xəzər hövzəsi və Cənubi Qafqazda özünün yürütdüyü tarazlaşdırılmış təhlükəsizlik konsepsiyasına tam sadiq qalmışdır. Rəsmi Bakı:

- Azərbaycanın təhlükəsizliyinə və ərazi bütövlüyünə real beynəlxalq təminat verilməyincə,

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilməyincə,

- Cənubi Qafqazda beynəlxalq hüquq normalarının bərpa olunmasına ciddi və prinsipial münasibət göstərilməyincə, hər hansı hərbi-siyasi bloka, o cümlədən NATO və KTMT-yə qoşulmayacağı haqqında" birmənalı bəyanat səsləndirərək, hər iki blokla həm bəlli məsafə saxlamış, həm də müəyyən çərçivədə əməkdaşlıq etmişdir.

Bundan başqa, Azərbaycan həm NATO blokunda hegemon mövqeyə malik olan ABŞ və onun Şimali Atlantika blokundakı müttəfiqləri ilə, həm də postsovet məkanında öz hərbi-geostrateji üstünlüyünü qoruyan Rusiya və KTMT üzvləri ilə təhlükəsizlik sahəsində özünün ikitərəfli münasibətlərini lazımi səviyyədə saxlamış və regional təhlükəsizlik məsələlərində onlarla tərəfdaşlıq münasibətləri yaratmağa çalışmışdır. Əslində, bəhs olunan hərbi bloklarla əməkdaşlıqda onun əsas məqsədi də hər hansı bloka üzv olmaq deyil, daha çox öz milli təhlükəsizliyinə, suveren dövlət hüquqlarının təmin olunmasına və ərazi bütövlüyünə beynəlxalq təminat almaqdan ibarət olmuşdur.

Azərbaycan bu müddətdə Cənubi Qafqazın beynəlxalq və regional təhlükəsizliyi ilə bağlı həm Qərb ölkələri bloku - ABŞ, NATO, AB, həm də Rusiya və MDB ölkələri ilə ayrı-

ayrılıqda və birgə fəaliyyətin, onlar arasında Cənubi Qafqazda münaqişəli vəziyyətin deyil, tərəfdaşlıq münasibətlərinin yaranmasının tərəfdaşı kimi çıxış etmiş və bu haqda dəfələrlə rəsmi bəyanatlar səsləndirmişdir. Onun həm Qərb ölkələri və NATO-dan, həm də Rusiya və KTMT-dən əsas tələbi *dünyada müxtəlif standartlı yanaşmalardan uzaq, obyektiv və real fəaliyyət göstərən, beynəlxalq hüquq normalarına əsaslanan, etibarlı və real təhlükəsizlik sisteminin formalaşdırılması, əksər müstəqil ölkələrin bərabər əsaslarla həmin sistemə qoşulmaq hüququnun tanınması, o cümlədən dövlətlərin beynəlxalq hüquqa əsaslanan ərazi bütövlüyü və milli təhlükəsizliyinin etibarlı təminatından ibarətdir.*

Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə münasibətdə *Azərbaycanın siyasəti bölgədə etnik separatizm və ərazi iddialarından qaynaqlanan münaqişəli hallara son qoyulmasına, region ölkələrinin bir-biri ilə sülh şəraitində dinc yanaşı yaşamasına, regionda suveren dövlət hüquqlarının qorunması istiqamətində real təhlükəsizlik tədbirlərinin görülməsinə, Xəzərin zəngin neft-qaz məhsullarının nəqli üçün istifadə olunan dəhlizlərin təhlükəsizliyinin təminatına və s. məsələlərə yönəlmişdir.* Lakin hazırda bu sahədə həm ayrı-ayrılıqda, həm də qarşılıqlı münasibətlərdə nə Qərbin, nə də Rusiyanın nümayiş etdirdiyi regional və beynəlxalq yanaşma, Cənubi Qafqazda yürütdüyü təhlükəsizlik siyasəti Azərbaycanın təhlükəsizlik tələblərinə tam cavab vermir. Qərb də, Rusiya da hazırda təhlükəsizlik sahəsində Cənubi Qafqazın və Azərbaycanın taleyüklü məsələlərinin həllində ciddi iradə nümayiş etdirmir, bölgədə hərbi-geostrateji münasibətləri gərginləşdirən Ermənistanın regiondakı işğalçılıq siyasətinin, qonşu dövlətlərə qarşı ərazi iddialarının qarşısını almaq, etnik münaqişələri və separatizmi dayandırmaq, Azərbaycanın pozulmuş ərazi bütövlüyünü bərpa etmək və s. kimi regional təhlü-

kəsizlik problemlərinin həlli istiqamətində ciddi səy göstərmirlər.

Azərbaycanın Xəzər dənizinə birbaşa çıxışı, İranla həmsərhəd ölkə olması və s. onu Cənubi Qafqazda ilk növbədə ABŞ və NATO üçün xüsusi əhəmiyyətli ölkəyə çevirmişdi. Məhz elə buna görə də ABŞ ordusunun Avropa Hərbi Komandanlığı və NATO generaliteti Azərbaycanla hərbi-texniki əməkdaşlığı daha da dərinləşdirmək, onu gələcəkdə alyansa daxil etmək istiqamətində intensiv iş aparırdı. Azərbaycan vasitəsi ilə Qərbin Xəzərə çıxışını əngəlləmək üçün, təxminən oxşar çalışmalar və səylər həm də Rusiya tərəfindən müşahidə olunurdu. Lakin yuxarıda qeyd olunduğu kimi, Azərbaycan öz təhlükəsizlik siyasətinin balans prinsiplərinə müvafiq olaraq həm ABŞ və NATO, həm də Rusiya və KTMT arasındakı hərbi əməkdaşlıq məsafəsini pozmadan, onlarla təhlükəsizlik sahəsindəki tərəfdaşlıq "normalarını" öz mənafelərinə uyğun şəkildə tənzimləyə bilmişdir. Azərbaycan həm ABŞ-ın, həm də Rusiyanın hərbi təhlükəsizlik sahəsində "dərinləşdirilmiş əməkdaşlıq və tərəfdaşlıq" istəyinə, ölkə ərazisində hərbi baza yerləşdirmək, yaxud onlarla bilavasitə hərbi bloklarda iştirak təkliflərinə "mədəni formada" rədd cavabı vermişdir. O cümlədən, Azərbaycan vasitəsilə ABŞ-ın İrana, Rusiyanın isə Gürcüstana və s. qonşu ölkələrə hər hansı formada hərbi müdaxilə istəkləri, geosiyasi və geoiqtisadi təzyiq imkanları, digər geostrateji təklifləri də birmənalı şəkildə rədd edilmişdir. Azərbaycan prezidenti İlham Əliyev Xəzər hövzəsinin regional təhlükəsizliyi məsələsinə Azərbaycanın yanaşmasına 29 sentyabr 2014-cü ildə Həştərxanda keçirilən Xəzəryanı ölkə başçılarının IV Sammitindəki çıxışında xüsusi toxunaraq qeyd etmişdir ki, Azərbaycan Xəzər hövzəsində hərbi və hərbi-texniki sahələrdə beynəlxalq tərəfdaşları ilə bərabər, həm də qonşuları ilə əməkdaşlığa mühüm önəm verir. Hesab edirik ki, Xəzər dənizində hərbi fəaliyyət bütün Xəzəryanı dövlətlərin

təhlükəsizliyinin bərabər təminatı prinsipi əsasında həyata keçirilməlidir. Bu, region dövlətləri arasında qarşılıqlı inamın güclənməsinə xidmət edər, hövzəni sülh, dostluq, əməkdaşlıq və mehriban qonşuluq zonasına çevirə bilər.[414]

Mütəxəssislər hesab edirlər ki, Xəzər-Qara dəniz həvzəsində, xüsusən də Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün bölgənin sülhyaratma proseslərində və təhlükəsizlik tədbirlərində yalnız region ölkələri deyil, həm də maraqlı beynəlxalq güc mərkəzləri yaxından iştirak etməlidirlər. Çünki Qafqazda sülh və sabitlik tələbləri yalnız bir-iki böyük ölkənin geostrateji mənafeyi və bu ərazilərin tarixi geostrateji əhəmiyyəti ilə şərtlənmir, həm də region ölkələrinin milli maraqları, regionda reallaşdırılan çoxsaylı transmilli enerji və nəqliyyat layihələrinin, ixrac kəmərləri və dəhlizlərinin təhlükəsizliyi, bu işə cəlb edilmiş çoxsaylı ölkə və nəhəng şirkətlərin sərmayələrinin qorunması və geoiqtisadi maraqları ilə ölçülür.

Bu gün Qafqazdakı postsovet ölkələrinin üçü etnik separatizm zəminində daxili münaqişələrə cəlb olunmuşdur. Dağlıq Qarabağ (Azərbaycan), Abxaziya, Cənubi Osetiya (Gürcüstan) və Çeçenistan (Rusiya) münaqişələri regiondakı nisbi sabitliyi hər an poza biləcək ciddi geosiyasi amilə çevrilmişdir. Ona görə, müasir dünyada, Avropada və bölgədə son zamanlar "Xəzər hövzəsi və Qafqazın regional təhlükəsizlik sistemi" prinsiplərinin müəyyən edilməsi və birgə təhlükəsizliyin yaradılması çağırışları daha təkidlə səslənir, bölgənin hər bir dövlətinin və bütövlükdə regionun sabitliyində marağı olan beynəlxalq geosiyasi aktorun diqqətini ciddi şəkildə cəlb edir.

Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildən başlayaraq ən mötəbər beynəlxalq tribunalardan dəfələrlə bəyan etmişdir ki, Cənubi Qafqazın və Xəzər hövzəsinin geosiyasi perspektivləri və bölgədəki ölkələrin inkişafı, ilk növbədə,

[414] Bax:Azər TAC-ın xəbər bülleteni, 29 sentyabr 2014-cü il.

münaqişələrin və regional təhlükəsizlik probleminin həllindən, bölgədəki sülh və sabitliyin təmin olunmasından asılıdır. Bu mənada, Qafqazdakı münaqişə ocaqlarının mövcudluğu bütün regionun sabit inkişafına, regional və beynəlxalq qurumların tammiqyaslı təhlükəsizliyinə və əməkdaşlığına ciddi maneədir.[415]

Azərbaycanın regional təhlükəsizlik siyasətinin mahiyyətinə gəldikdə, qeyd etmək lazımdır ki, Azərbaycan Xəzər hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik sistemi ilə bağlı daim birmənalı bəyanatlar vermiş, Qafqazın müxtəlif güc blokları arasında "bölünməsinin, hərbiləşdirilməsinin və bloklararası hərbi mübarizə meydanına çevrilməsinin" qəti əleyhinə çıxmışdır. Azərbaycanın ötən müddət ərzində əksər beynəlxalq və regional birliklərlə münasibətləri Cənubi Qafqazın digər iki ölkəsindən və Rusiyadan bir qədər fərqli olmuşdur. Azərbaycan, məsələn, Rusiya, Ukrayna, Gürcüstan və Ermənistandan fərqli olaraq Cənubi Qafqazın hər hansı formada bloklararası hərbi qarşıdurmaya sürüklənməsinin, xarici orduların bölgə ölkələrinin ərazisində yerləşdirilməsinin və bloklararası hərbi qarşıdurmanın birmənalı şəkildə əleyhinə çıxış etmişdir.

Azərbaycan Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsinin əmin-amanlığında, dinc və təhlükəsizlik həyatında maraqlı olan əksər dünya və bölgə ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərdə regional sülh və təhlükəsizlik siyasətini davam etdirmişdir. Ölkənin xarici siyasət, hərbi və təhlükəsizlik strukturları NATO hərbi bloku və alyansın bəzi üzvləri ilə, eləcə də Rusiya və MDB-nin bir sıra üzvləri ilə birgə və ayrı-ayrılıqda müxtəlif beynəlxalq, regional təhlükəsizlik proqramları və tədbirləri çərçivəsində çoxtərəfli hərbi-

[415] Bax: Əliyev İ.H. "Təbii sərvətlərin təhlükəsizliyi və dəyişən qlobal güc" mövzusunda keçirilən Münhen Beynəlxalq Təhlükəsizlik konfransında çıxış // "Azərbaycan" qəzeti, 7 fevral 2010-cu il

strateji əməkdaşlıq tədbirlərinə qatılır. Xüsusən NATO ilə milli ordu quruculuğunun dünya standartlarına yaxınlaşdırılması, beynəlxalq terrorizmə qarşı mübarizə, beynəlxalq və regional sülhyaratma, münaqişələrin qarşısının alınması və s. transmilli proseslərdə birgə iştirak edir. Lakin buna baxmayaraq, Azərbaycan indiyə qədər açıq şəkildə hansısa hərbi bloka üzv olmağa hazırlaşması haqqında heç bir rəsmi bəyanat verməmişdir. Ölkə rəsmiləri bir qayda olaraq daim bəyan edirlər ki, Azərbaycan dünyanın hərbi bloklar arasında qarşıduran düşərgələrə bölünməsinin və planetin hərbiləşdirilməsinin tərəfdarı deyildir, Yer kürəsində hamının beynəlxalq hüquq-normalarına və başqa ölkələrin milli haqlarına hörmətlə yanaşmasının, sülh və təhlükəsizlik tələblərinə hamının əməl etməsinin tərəfdarıdır.

Göründüyü kimi, bu yanaşmada Azərbaycan üçün hansısa hərbi bloklara üzvlük heç də əsas məqsəd daşımır, sadəcə, bütün dünya ölkələrinin, o cümlədən Azərbaycanın ərazi və əhalisinin təhlükəsizliyinin, dövlətlərin suveren hüquqlarının, regionda və dünyada sülhün və əmin-amanlığın təmin edilməsinə çağırış edilir. Nəzərə alınsa ki, bloka üzv olacağı təqdirdə hələlik həm NATO, həm də KTMT onun pozulmuş ərazi bütövlüyünün təmin olunacağına və sonrakı milli təhlükəsizliyinə təminat vermir, bölgədə və dünyada sülhün, sivil dövlətlərarası münasibətlərin bərqərar olacağına zamin durmur, o zaman bu təşkilatlara üzvlük Azərbaycana əlavə problem və öhdəlikdən başqa bir şey vəd etmir.

Azərbaycanın KTMT-yə qoşulmaqdan imtina etməsi yuxarıda bəhs olunan amillərlə, ölkənin geosiyasi maraqları və s. ilə yanaşı, həm də ilk növbədə, işğalçı Ermənistanın cəzasızlıq şəraitində bu qurumda təmsil olunması ilə bağlıdır. Üstəlik, sözügedən təşkilat Azərbaycanın əsas problemi olan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hər hansı səmərəli mexanizmə malik deyildir və bu sahədə ciddi bir addım atmaq da istəmir. Çünki KTMT yarandığı gündən birmənalı şəkildə bəyan

edir ki, bu təşkilat "daxili münaqişələrin" həllinə yox, "xaricdən yarana biləcək təhlükələrə qarşı" tədbir görəcəkdir. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini "daxili münaqişə" kimi qələmə verən belə bir hərbi quruma Azərbaycanın üzvlüyü tam mənasızdır. KTMT-nin mövcud yanaşması ilə "nə vaxtsa yarana biləcəyi proqnozlaşdırılan İran-Azərbaycan qarşıdurması" istisna olmaqla, bu təşkilat Azərbaycanın xarici təhlükəsizliyinə heç bir geostrateji təminat və hərbi divident vəd etmir. Əksinə, bu quruma üzvlük Cənubi Qafqazda xarici ölkələrin hərbi bazalarının yerləşdirilməsinə qarşı çıxan və tam bitərəf mövqe nümayiş etdirən Azərbaycanın Qərblə bərabərhüquqlu hərbi-geostrateji tərəfdaşlıq münasibətlərinə mənfi təsir göstərə bilər.

Bütün bunlarla yanaşı, Azərbaycanın regional təhlükəsizlik siyasəti bu gün əsasən Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun və ədalətli həlli ilə bilavasitə bağlıdır. Mütəxəssislərin fikrincə, hansı hərbi blok, ölkə, yaxud təşkilat bu məsələnin həllinə bilavasitə yardım göstərsə, Azərbaycanın beynəlxalq hüquq normalarına əsaslanan milli haqlarını müdafiə etsə, həmin qurum ölkənin təhlükəsizlik sahəsində gələcək geostrateji seçiminə əsaslı təsir göstərəcəkdir. Yaxud hansı təhlükəsizlik qurumu Azərbaycanın ərazi bütövlüyünün və suveren dövlət haqlarının bərpa olunmasına əməli yardım göstərsə və gələcəkdə də milli təhlükəsizliyinə təminat versə, Azərbaycanı hərbi müttəfiq kimi yanında görəcək, onun vasitəsi ilə Xəzər hövzəsi və Cənubi Qafqazda məxsusi geostrateji maraqlarını reallaşdıracaqdır. Lakin hələlik hər iki qurum (NATO və KTMT) və onların üzvü olan dövlətlər yalnız bəyanat şəklində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləsələr də, onun təmin olunması üçün ortaya ciddi iradə qoymurlar.

Bəzi Qərb geosiyasətçilərinin fikrincə, regional təhlükəsizlik məsələsində Azərbaycanın nümayiş etdirdiyi mövqe həm

kifayət qədər praqmatik və tarazlaşdırılmışdır, həm də bu gün üçün ən optimal siyasətdir. Belə ki, 1990-cı illərin ortalarından Azərbaycan əlverişli şəraitdən bəhrələnərək Avroatlantika və Qərbə inteqrasiya istiqamətində praqmatik siyasət həyata keçirmiş, Xəzər hövzəsinin zəngin enerji qaynaqlarını kənar dövlətlərin təsirindən xilas edərək Türkiyə və Gürcüstan ərazisindən keçən Şərq-Qərb ixrac marşrutu vasitəsi ilə dünyaya bağlamış, bununla da özünün və enerji qaynaqları ilə zəngin digər ölkələrin suverenliyini gücləndirmiş, müstəqil geoiqtisadi maraqlarını təmin etmişdir. Azərbaycan öz tarazlaşdırılmış təhlükəsizlik siyasəti ilə həm də bölgədə rəqib hesab olunan Rusiya və İran kimi ölkələri neytrallaşdıraraq, onlarla tərəfdaşlıq münasibətləri yarada və qoruyub saxlaya bilmişdir.[416]

Qərblə enerji təhlükəsizliyi sahəsində tərəfdaşlığın yaradılması, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz transmilli ixrac kəmərlərinin inşası, qabaqcıl Qərb texnologiyasının və kapitalının bölgəyə axını, mütəxəssislərin fikrincə, həm də ayrıca olaraq Azərbaycanın Cənubi Qafqazdakı geosiyasi mövqelərini gücləndirmiş, regional təhlükəsizliyinə və suveren hüquqlarının təminatına müsbət təsir göstərmişdir. Onun qazandığı yüksək geosiyasi nüfuz Xəzər hövzəsi və Cənubi Qafqaz siyasətində Rusiya kimi dövlətləri region ölkələrinin müstəqil seçiminə hörmətlə yanaşmağa, eyni zamanda, bölgədə ABŞ və Qərb amili ilə hesablaşmağa məcbur etmişdir.[417]

Lakin yuxarıda qeyd edilən bütün amillərə baxmayaraq, Gürcüstan-Rusiya müharibəsi ətrafında baş verən hadisələr göstərdi ki, Rusiyanın Cənubi Qafqazdakı geostrateji təsiri hələ də güclüdür və BMT-nin dünyadakı hazırkı zəif, müəyyən

[416] Bax: Petersen A. Azərbaycanın Avroatlantik baxışları //"Azerbaijan Focus" jurnalı, №2, 2010-cu il, s.198
[417] Yenə orada

qədər dişsiz fəaliyyəti fonunda onu nəzərə almamaq heç bir qonşu ölkəyə, xüsusən də Azərbaycan və Gürcüstana yaxşı geosiyasi perspektiv vəd etmir.

Regional təhlükəsizlik sahəsində Azərbaycan-Gürcüstan-Türkiyə birgə əməkdaşlığı

Türkiyə və Gürcüstan Cənubi Qafqazın regional təhlükəsizliyi sahəsində və qarşılıqlı milli təhlükəsizliklərinin təminatı məsələsində Azərbaycanın ən yaxın strateji tərəfdaşları hesab olunur**.** Gürcüstanla-Azərbaycan arasındakı əsrlər boyu mövcud olan qonşuluq və dostluq əlaqələri müstəqillik əldə edildikdən sonra siyasi, iqtisadi, elmi, təhsil, mədəni və digər sahələrdə yüksələn xətlə inkişaf etmiş və tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. SSRİ dağılandan sonra hər iki ölkə təcavüzkar etnik separatizm və ərazi bütövlüyünün pozulması təhlükəsi, iqtisadi böhran, vətəndaş qarşıdurması, suveren dövlət hüquqlarına kənar müdaxilələr və s. kimi oxşar problemlərlə üzləşmişdir. Hər iki ölkədə baş verən oxşar proseslər, daxili və xarici vəziyyətin eyniliyi, geosiyasi maraqların üst-üstə düşməsi və digər faktorlar onlar arasındakı tərəfdaşlıq münasibətlərinin yaranmasına və inkişafına təkan vermişdir.

Azərbaycan ilə Gürcüstan arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də yaradılsa da, regional təhlükəsizlik sahəsində birgə fəaliyyət və ciddi geostrateji əməkdaşlıq 1993-cü ildən başlamış, sonrakı illərdə bir sıra obyektiv amillərlə şərtlənərək davamlı xarakter almışdır. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul vermişdir. 1993-cü ildən başlayaraq Gürcüstanın dövlət başçısı Eduard Şevardnadzenin Azərbaycana, Azərbaycan Prezidenti Heydər Əliyevinsə Gürcüstana bir neçə rəsmi səfəri dövlətlərarası münasibətlərin hüquqi-norma-

tiv bazasının yaradılması və inkişafında mühüm rol oynamışdır. Ölkələrarası siyasi yaxınlaşma, birgə təhlükəsizlik maraqları və regional iqtisadi inteqrasiya fonunda yaranmış qarşılıqlı münasibətlər getdikcə inkişaf edərək strateji xarakter almışdır.

Ölkələrarası diplomatik münasibətlər qurulandan sonra istər regional, istərsə də qlobal məsələlərdə iki ölkə rəsmiləri həmişə oxşar mövqedən çıxış etmiş və regional sülhün, təhlükəsizlik mühitinin və qarşılıqlı iqtisadi əməkdaşlığın yaranmasına birgə çalışmışlar. Regional və milli təhlükəsizliyin təminatı ilə bağlı ölkələrarası ikitərəfli münasibətlər Azərbaycan Prezidenti Heydər Əliyevin 1996-cı ildə Tbilisiyə rəsmi səfərindən sonra daha da inkişaf etməyə başlamışdı. Həmin səfər zamanı tərəflər *«Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik»* və *«Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq»* haqda qarşılıqlı bəyannamələr imzalayıblar.

Azərbaycan Cənubi Qafqazın sülh və əməkdaşlıq bölgəsinə çevrilməsi, regional münaqişələrin danışıqlar yolu ilə həll edilməsi, xalqlar və dövlətlər arasında qarşılıqlı etimad, əməkdaşlıq və tərəfdaşlıq mühitinin yaradılmasında təhlükəsizlik maraqları onunla üst-üstə düşən Gürcüstanla birgə hərəkət edirdi. Odur ki, Prezident Heydər Əliyev özünün *"Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsində regional sülh platforması"* təşəbbüsünü[418] növbəti dəfə məhz 1996-cı ildə- Gürcüstana rəsmi səfəri zamanı irəli sürmüş və onun əsasında iki ölkə prezidentləri arasında **"Tbilisi bəyannaməsi"** adlanan birgə regional təhlükəsizlik sənədi imzalanmışdır.

[418] Azərbaycan öz regional təhlükəsizlik siyasətini, Cənubi Qafqazın hərbi-geostrateji perspektivləri və bölgənin gələcək dövlətlərarası münasibətləri ilə bağlı fikirlərini bundan əvvəl BMT-nin hər il keçirilən sessiyalarında, MDB və KTMT-nin toplantılarında, ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon sammitlərində, digər beynəlxalq təşkilatların yüksək tribunalarından dəfələrlə bəyan etmişdir.

Bu Bəyannamə həmin dövr üçün hər hansı hərbi-geostrateji öhdəlik yükünə malik olmasa da, mühüm geosiyasi və hərbi-geostrateji əhəmiyyət kəsb edirdi. "Tbilisi bəyannaməsi" bütün region ölkələrini "öz aralarındakı münaqişələri danışıqlar yolu ilə həll etməyə, bölgə xalqlarının və dövlətlərinin ümumi maraqlarından çıxış edərək, Cənubi Qafqazda uzunmüddətli sülh platforması yaratmağa və həmin ölkələri barış masasına dəvət edirdi. İki ölkə prezidentlərinin imzaladığı bu sənəd həmin dövrdə qoşulmaq üçün əksər region ölkələrinə açıq elan edilsə də, sonrakı illərdə yalnız Türkiyə hökuməti tərəfindən dəstəkləndi.

1998-ci il sentyabrın 7-8-də Bakıda keçirilmiş tarixi Böyük İpək yolunun bərpası üzrə Beynəlxalq Konfransın işində iştirak etmək üçün Gürcüstan Prezidentinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri, 1998-ci il oktyabrın 7-də Azərbaycanın Gürcüstanla sərhədində yeni körpünün açılışında Azərbaycan və Gürcüstan Prezidentlərinin, 1999-cu il aprelin 17-də isə Azərbaycan, Ukrayna və Gürcüstan dövlət başçılarının Bakı-Supsa neft kəmərinin təntənəli açılışı mərasimində iştirak etmələri bəhs ounan və digər sahələr üzrə qarşılıqlı əlaqələrin möhkəmlənməsinə və regional təhlükəsizlik sahəsində tərəfdaşlığın inkişafına təkan vermişdir.

1999-cu il noyabrın 18-də İstanbulda keçirilmiş ATƏT-in Sammiti çərçivəsində "Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəməri vasitəsi ilə Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası ərazilərindən xam neftin nəqli haqqında" Sazişin ABŞ Prezidenti B.Klintonun iştirakı ilə- Türkiyə Prezidenti S.Dəmirəl, Azərbaycan Prezidenti H.Əliyev və Gürcüstan Prezidenti E.Şevardnadze tərəfindən imzalanması region ölkələrinin enerji sahəsində strateji əməkdaşlığı və Avropaya birgə inteqrasiyası istiqamətində ciddi addım idi.

Sammitdə Prezident Heydər Əliyev Tbilisi regional sülh təşəbbüsünün ardınca, region ölkələrinin birgə iştirak edəcəyi

"Təhlükəsizlik və əməkdaşlıq Paktı"nın yaradılması ideyası ilə yenidən çıxış etdi.[419] Bu təşəbbüsə görə üç Cənubi Qafqaz ölkəsi - Azərbaycan, Gürcüstan, Ermənistan, iki bölgə lideri - Rusiya, Türkiyə və bir dünya lideri - ABŞ arasında "Qafqazda sülh və təhlükəsizlik Paktı" adlanan sənəd imzalanması, Cənubi Qafqazdakı bütün münaqişəli məsələlərin danışıqlar yolu və birgə səylərlə nizama salınması nəzərdə tutulurdu. Təəssüflər olsun ki, Azərbaycanın regional sülh və təhlükəsizlik təşəbbüsünü həmin dövrdə Rusiya, Ermənistan və İran dəstəkləmədi. O dövrdə Rusiya mövqeyini regiondan kənar dövlət olan və rəqib hesab etdiyi ABŞ-ın bölgədəki proseslərə cəlb edilməsi ilə bağlamağa çalışdığı halda, İran Azərbaycanın təklifində Cənubi Qafqazın regional təhlükəsizlik sistemindən kənarda qaldığı üçün etirazını bildirdi. Ermənistana gəlincə, bu dövlətin müstəqil iradəsi olmadığına görə o, Azərbaycanın təşəbbüsünə yalnız Rusiyanın mövqeyindən yanaşaraq etiraz etdi.

Azərbaycan prezidenti Heydər Əliyev Tbilisi və İstanbul təşəbbüsünün ardından 2002-ci ildə Cənubi Qafqazda regional sülh və təhlükəsizlik haqqında yeni bir təşəbbüs irəli sürmüşdür. Həmin ilin aprelində Türkiyənin Trabzon şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan daxili işlər nazirlikləri arasında **"Trabzon razılaşması"** adlanan və mühüm geostrateji sülhyaratma yükü olan bir sənəd də imzalanmışdır. Bəhs olunan tədbirdə region ölkələrinin dinc yanaşı yaşamaq və müstəqil inkişaf maraqlarını, enerji təhlükəsizliyi, bölgə əhalisinin dinc, firavan və təhlükəsiz həyat şəraitini təmin etmək məqsədilə 3 ölkənin daxili işlər nazirlərinin imzaladığı birgə sənəd terrorizm və təcavüzkar separatizmə qarşı mübarizədən tutmuş - çirkli pulların yuyulması və transmilli neft-qaz kəmərlərinin birgə mühafizəsinədək, kifayət qədər geniş ölkələrarası geostrateji sahələri əhatə edirdi. Bu sazişi mütəxəssislər, həm də

[419] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir... http://heydaraliyev.preslib.az

regionun üç dövlətinin strateji tərəfdaşlığını rəsmiləşdirən mühüm bir sənəd kimi qiymətləndirdilər.[420] Lakin o zaman regionun digər dövlətləri Azərbaycanın təklif etdiyi növbəti regional təhlükəsizlik və sülhyaratma təşəbbüsünü qəbul etmədilər. Burada söhbət ilk növbədə Rusiya, İran və Ermənistandan gedir.

Sonrakı dövrdə Gürcüstanda baş verən hakimiyyət dəyişikliyi Gürcüstanla Azərbaycan arasındakı regional tərəfdaşlığı nəinki zəiflətməmiş, əksinə, münasibətlərin daha da inkişafı üçün yeni addımlar atılmışdır. Belə ki, 2004-cü il martın 4-5-də Gürcüstanın yeni prezidenti Mixail Saakaşvilinin Bakıya rəsmi səfəri zamanı "Azərbaycan və Gürcüstan hökumətlərinin birgə bəyannaməsi", "Təhsil sahəsində əməkdaşlıq haqqında saziş", "Azərbaycan Respublikasının hökuməti ilə Gürcüstan hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında saziş" və s. sənədlər imzalanmışdır.

Bunun ardınca, 2004-cü ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana səfəri zamanı iki ölkə arasında ikitərəfli münasibətlər və beynəlxalq təşkilatlar çərçivəsində tərəfdaşlıq məsələləri müzakirə olunmuş, həmçinin sərhəd-buraxılış məntəqələrinin işinin təkmilləşdirilməsi, nəqliyyat daşımaları tarifləri və s. məsələlər nəzərdən keçirilmişdir.

Göründüyü kimi, təhlükəsizlik, enerji və digər strateji sahələrdə Azərbaycanla Gürcüstan arasıdakı tərəfdaşlıq və müttəfiqlik münasibətləri keçən müddətdə dönmədən inkişaf etmişdir. İndiyədək iki ölkə arasında müvafiq sahələr üzrə 100-dən artıq hüquqi-normativ sənəd imzalanmışdır. Bu ölkələri strateji cəhətdən hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, tikilməkdə olan Bakı-Tbilisi-Karas dəmir yolu və TRASEKA kimi qlobal nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla para-

[420] http://e-qanun.az

lel olaraq, ATƏT, Avropa Şurası, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, regional qurumlar çərçivəsində formalaşmış çoxtərəfli əməkdaşlıq və ikitərəfli strateji əlaqələr də bu ölkələrin münasibətlərini möhkəmləndirməkdədir. Hazırda hər iki dövlət regionda təhlükəsizlik və sülhün təmin olunması üçün birgə fəaliyyət göstərir, məsləhətləşmələr aparır, ümumi enerji layihələri həyata keçirir. «*Gürcüstanla Azərbaycan strateji tərəfdaş, mehriban qonşu və qardaş ölkələrdir*» - bu fikri 2004-cü ilin martında Gürcüstan Prezidenti Mixail Saakaşvilinin Bakıya rəsmi səfəri zamanı hər iki ölkənin dövlət başçıları bəyan etmişlər.

Azərbaycanla Gürcüstanın xarici siyasət prioritetləri təxminən eynidir. Bunları mütəxəssislər müvafiq olaraq:

- dünya birliyinin diqqətinin təcavüzkar separatizm probleminə yönəldilməsinə və dövlətlərin sərhəd toxunulmazlığı prinsipinin bərpasına nail olmaq;
- müxtəlif güc mərkəzlərinin geosiyasi maraqlarının kəsişdiyi Cənubi Qafqazda sabitlik, sülh və əməkdaşlıq mühiti yaratmaq, bütün maraqlı tərəflər üçün cəlbedici amilə çevrilmək, güc mərkəzlərinin geosiyasi ziddiyyətlərindən istifadə edərək öz dövlətinin milli təhlükəsizliyini möhkəmləndirmək;
- ərazilərdəki etnik münaqişələri dinc yolla həll etmək və ərazi bütövlüklərini bərpa etmək;
- Rusiyadan geosiyasi və geoiqtisadi asılılığı azaltmaq üçün Qərbin siyasi və iqtisadi dəstəyindən bəhrələnmək;
- neft və qaz yataqları ilə zəngin olan Orta Asiya, Xəzər və Avropa arasında tranzit ölkəyə çevrilmək, enerji və nəqliyyat layihələrində birgə iştirak edərək Qərbə çıxış üçün alternativ yollar tapmaq və sairə ilə bağlayırlar.

2005-ci ilin iyulunda Gürcüstan özünün növbəti Milli Təhlükəsizlik Konsepsiyasını qəbul etmişdir. Ölkənin milli maraqları, xarici siyasətin prioritetləri və digər dəyərləri əks olunan bu sənəddə Gürcüstanın xarici siyasi tərəfdaşlarının təsnifatı aşağıdakı kimi verilmişdir:

- Strateji tərəfdaş – ABŞ, Ukrayna, Türkiyə və Azərbaycan
- Tərəfdaş – Rusiya
- Praqmatik əməkdaşlıq – Ermənistan

Konsepsiyadan da göründüyü kimi, Azərbaycan Gürcüstanın dünyadakı dörd əsas strateji tərəfdaşından biri hesab olunur. Bütün yuxarıda qeyd olunun şərtlər, o cümlədən ortaq təhlükəsizlik məqsədləri və maraqları Bakı ilə Tbilisinin geostrateji tərəfdaşlığını şərtləndirən və iki ölkəni bir-birinə bağlayan amillərdir. Mütəxəssislərin fikrinə görə, hazırda Azərbaycanla Gürcüstanın geosiyasi və geoiqtisadi təhlükəsizilyi ciddi şəkildə bir-biri ilə bağlıdır. Əvvəla, enerji ehtiyatlarına malik olmadığı üçün bir çox geosiyasi ölçülərə görə Gürcüstanın Rusiyadan mövcud asılılığının aradan qaldırılmasında Azərbaycanın rolu strateji əhəmiyyət kəsb edir. Məsələn, 2000-ci ilin dekabrında Rusiya Gürcüstana təbii qaz nəqlini dayandırdıqdan sonra bütün ölkə elektrik enerjisiz və qazsız qaldı ki, bu fakt rəsmi Tbilisinin Azərbaycanın enerji mənbələrinə nə qədər ehtiyacının olduğunu bir daha sübut etdi. İkincisi, iqtisadi böhran, milyardlarla dollarlıq xarici borc, kütləvi işsizlik və digər neqativ hallar Gürcüstan üçün Azərbaycanla regional iqtisadi əlaqələrin strateji əhəmiyyətini getdikcə artırır. Gürcüstanın özünün əsas iqtisadi və maliyyə hesablarını ölkənin coğrafi vəziyyətindən və tranzit imkanlarından bəhrələnmə üzərində qurmuşdur. Azərbaycanla əməkdaşlıq etmədən isə bu sahədə real nəticələr əldə etmək qeyri-mümkündür. Təsadüfi deyil ki, uzun fasilədən sonra Gürcüstanda müəyyən iqtisadi artım yalnız 2003-cü ildən sonra qeydə alınıb. Bey-

nəlxalq Valyuta Fondunun ekspertləri hesab edir ki, bu, Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisi ilə əlaqədardır.

Gürcüstanın inkişafı üçün lazım olan əsas maliyyə mənbələrindən biri kimi bu ölkənin Şərq-Qərb əlaqələrindəki əlverişli coğrafi vəziyyəti və tranzit imkanları çıxış edir ki, bu da Azərbaycanla tərəfdaşlıq etmədən qeyri-mümkündür. Gürcüstan entik azərbaycanlıların bu ölkə daxilində sabitliyi qorumaq istiqamətindəki fəaliyyəti baxımından da müəyyən qədər Azərbaycandan asılıdır. O ki, qaldı Azərbaycana, bu ölkə öz enerji resurslarının xaricə ixracı, qərblə nəqliyyat-kommunkasiya əlaqələrinə görə Gürcüstandan daha çox asılıdır.[421]

Əhali xarakteristikasına görə, Azərbaycanın Gürcüstan üzərindəki geosiyasi təsiri Gürcüstanda yaşayan etnik azərbaycanlıların miqdarı və vətəndaşlıq mövqeyi səbəbindən daha üstün olsa da, həmin etnik əhalinin milli hüquqlarının, təhlükəsizliyinin, firavan həyatının və d. məsələlərinin təmin edilməsi baxımından Azərbaycan Gürcüstanın güclənməsinin, sabit inkişafının və firavanlığının maraqlı tərəfdarı qismində çıxış edir.

Azərbaycanla Gürcüstanı Cənubi Qafqazda bir-birinə bağlayan digər amil, hər iki ölkənin ərazi bütövlüyünü və milli təhlükəsizliyini təhdid edən etnik separatizmlə qarşılaşması, qonşuları tərəfindən ərazi iddialarına məruz qalması və bu fonda regional münaqişəyə cəlb olunması hesab oluna bilər. Bundan başqa, bu ölkələrin həm də Cənubi Qafqazda müstəqil siyasət yürütməsi, Qərbə inteqrasiya xətti götürməsi, Rusiyanın təsirindən xilas olaraq, tam bərabərhüquqlu regional əməkdaşlıq qurmaq istəyi və s. də onları təhlükəsizlik sahəsində regional tərəfdaşa çevirir.

Beləliklə, qeyd etmək olar ki, Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindən biridir. Cənubi Qafqazın

[421] C. Eyvazov. Göstərilən əsəri. c.168.

indiki kövrək təhlükəsizlik sistemi çərçivəsində hər iki ölkə ciddi formada bir-birinin inkişafı, təhlükəsizliyinin təmin olunması və kənar təsirlərdən azad olmasında maraqlıdır. Qərb tədqiqatçılarının fikrincə, Cənubi Qafqazın etnik münaqişələri ən çox Azərbaycan və Gürcüstana təsir göstərdiyindən, etnik separatizm və regional münaqişələrə qarşı mübarizə fonu bu iki ölkəni birləşdirir.

2013-cü ildə Azərbaycanla Gürcüstan arasında ticarət dövriyyəsi milyard dollardan yuxarı olub. Azərbaycanda və Gürcüstandasa müştərək və qonşu dövlətin kapitalı ilə işləyən 100-dən artıq yaxın müəssisə fəaliyyət göstərir. Gürcüstanın ən aktiv ticarət əlaqəsi olan ölkələr sırasında Azərbaycan birinci yerlərdən birini tutur. Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Tbilisi-Ərzurum kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan ərazisindən keçməsi, TRASEKA layihəsi və s. «İpək yolunun qapısı» adlandırılan bu ölkənin geosiyasi və geostrateji əhəmiyyətini daha da artırmışdır.

İki ölkə arasındakı münasibətlərdə əsas məqsədlər və maraqlar üst-üstə düşsə də, onların yürütdüyü regional və beynəlxalq siyasi kurs, malik olduğu geoiqtisadi şərait, ölkədaxili ictimai-siyasi və sosial vəziyyət, milli hərbi təhlükəsizlik taktikası və s. məsələlərə yanaşmasında müəyyən fərqlər də müşahidə olunur. Bakı ilə Tbilisinin regional və xarici siyasi kursundakı əsas fərqli cəhət, mütəxəssislərin fikrinə görə onunla bağlıdır ki, Azərbaycan bölgədə marağı və nüfuzu olan bütün ölkələrlə dostluq və tərəfdaşlıq əlaqələri saxlamaqla, regional münasibətləri daha tarazlı və balanslı vəziyyətə gətirmək yolunu tutduğu halda, Gürcüstan rəhbərliyi yalnız onların Qərblə inteqrasiya kursunu dəstəkləyən dövlətlərlə əməkdaşlığa üstünlük verir. Gürcüstanın indiki hakimiyyəti Qərblə siyasi, iqtisadi və hərbi inteqrasiya kursunu ali məqsəd kimi elan edib.

Gürcüstan özünün Cənubi Qafqaz siyasətində Türkiyə və Azərbaycanla yanaşı Ermənistanla da yaxşı münasibətlər qur-

mağa çalışır. Düzdür, o, Ermənistanla münasibətlərdə Azərbaycan və Türkiyədən fərqli olaraq, daha praqmatik əməkdaşlığa üstünlük verilir.

8 iyun 2012-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirləri arasında imzalanan və üç bölgə ölkəsinin bir çox sahələr üzrə regional geosiyasi və geoiqtisadi maraqlarının uzlaşdırılması siyasətini nəzərdə tutan "Trabzon protokolu"nu da bəzi mütəxəssislər hər üç ölkənin geosiyasi, geoiqtisadi və hərbi-təhlükəsizlik sahəsində öz səylərini birləşdirmək və xarici aləmin əsassız geosiyasi təzyiqlərindən qurtarmaq cəhdi kimi qiymətləndirmişlər. İmzalamadan sonrakı bəyənatlarında bu ölkələrin xarici işlər nazirliəri həmin protokolun yalnız üç ölkəyə aid olduğunu, hər hansı üçüncü ölkəyə qarşı çevrilmədiyini bəyan etsələr də, bəzi rusiyalı mütəxəssislər bu sənədi məhz "Rusiyanın bölgədəki geosiyasi təsirindən qurtulmaq cəhdi" kimi dəyərləndirdilər.[422]

Bir çox mütəxəssislər Azərbaycan, Gürcüstan və Türkiyənin regional təhlükəsizlik istiqamətindəki bütün səylərinə baxmayaraq Rusiyanın ATƏT-in "Regional təhlükəsizlik və Avropada döyüş silahlarının məhdudlaşdırılması" haqqında 1992-ci il "Cinah sazişi"nin tələblərini nəzərə almadan Cənubi Qafqazda öz hərbi iştirakını və geostrateji gücünü getdikcə artırmasını, beynəlxalq nəzarətdən yayınan işğalçı Ermənistanı, Cənubi Qafqazdakı digər separatçı hərbi-siyasi rejimləri dəstəkləməsini və s. halları nəzərdə tutaraq, bütün Qafqazda bundan sonra da qeyri-müəyyən hərbi-geostrateji vəziyyətin hökm sürəcəyini proqnozlaşdırırlar. Belə vəziyyətdə, Türkiyədən fərqli olaraq, heç bir hərbi blokda iştirak etməyən Azərbaycan və Gürcüstanın təhlükəsizliyinə hər hansı beynəlxalq təminatın veriləcəyinə qarantiya yoxdur.

[422] Bax: Средняя Азия между Китаем, Россией и США //http:inosmi.ru.

Təkrar və məşğələ sualları:

1. Beynəlxalq təhlükəsizlik sisteminin formalaşması prosesi, hüquqi əsasları və normaları, geosiyasi tələbləri haqqında nə bilirsiniz və Azərbaycan özünün bu sahədəki siyasətini və fəaliyyətini həmin normalara necə uyğunlaşdırıb?

2. Beynəlxalq və regional təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasət vəzifələri və fəaliyyətinin strategiyası haqqında danışın. Azərbaycan, Gürcüstan və Türkiyənin regional təhlükəsizlik platformasını təhlil edin.

3. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik mühitini, regional bloklaşma reallıqlarını və hərbi-strateji güclərin təsnifatını verin. Rusiya, ABŞ, NATO və Avropa Birliyinin bölgənin regional təhlükəsizliyinə yanaşmasını və bunun bölgənin təhlükəsizlik mühitinə təsiri məsələlərini təhlil edin.

III FƏSİL
ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ CƏNUBİ QAFQAZIN ƏSAS TƏHLÜKƏSİZLİK PROBLEMİ KİMİ: BEYNƏLXALQ, REGİONAL YERLİ MARAQLAR VƏ AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ MƏSƏLƏSİ

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi SSRİ-nin dağılması və postsovet respublikalarının öz müstəqilliyinə qovuşması dövründə, qonşu Ermənistanın Azərbaycan Respublikasına ərazi iddiaları, bəzi xarici geosiyasi qüvvələrin təsiri və yardımı ilə etnik separatizmin qızışdırılması zəminində meydana çıxmış və nəinki Cənubi Qafqazın, eyni zamanda, bütün Avrasiya bölgəsinin, Avropa və dünyanın təhlükəsizlik mühitinə çox mənfi və pozucu təsir göstətən regional münaqişələrdən birinə çevrilmişdir. Bu münaqişənin qarşısının vaxtında alınmaması və bəzi beynəlxalq, regional və yerli qüvvələrin ondan öz geosiyasi maraqları çərçivəsində istifadə etmək cəhdləri, sonrakı illərdə ciddi qeyri-humanist faciələrə, qırğın və qətliamlara, bu tipli onlarla yerli və regional münaqişənin başqa ərazilərdə alovlanmasına səbəb olmuşdur. Bu münaqişənin nizama salınması və onun ağır maddi və mənəvi nəticələrinin aradan qaldırılması, demək olar ki, dünyanın bütün aparıcı dövlətlərinin, beynəlxalq və regional təşkilatlarının gündəliyində mühüm yer tutur.

§3.1. Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri haqqında

Tarixi mənbə və ədəbiyyatın təhlili göstərir ki, ermənilərin Azərbaycana qarşı ərazi iddialarının, etnik təcavüzünün başlıca məqsədi onun torpaqları hesabına öz dövlətinin yaradılması və sonradan müxtəlif yollarla bu dövlətin ərazilərinin genişləndirilməsi, "Böyük Ermənistan" adlanan xülyanın gerçəkləşdirilməsindən ibarət olmuşdur.

Strateji baxımdan böyük əhəmiyyətə malik olan Azərbaycanın Qarabağ bölgəsində erməni əhalisinin yerləşdirilməsi XIX əsrin əvvəllərində, xüsusilə Azərbaycan torpaqlarının bölüşdürülməsi haqqında Rusiya və İran arasında bağlanan 1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra baş vermişdir. Çar Rusiyasının Cənubi Qafqazda, o cümlədən Azərbaycanda müstəmləkəçilik siyasətinin yeni mərhələsi də məhz XIX əsrin 20-ci illərinin sonundan etibarən başlamışdır. Rus çarizmi Azərbaycanın Qarabağ bölgəsində xristianların sayını artırmaqla bu regionda nüfuzunun möhkəmlənməsi və müstəmləkəçilik siyasətinin həyata keçirilməsi üçün real zəmin yaradırdı.

Rusiyanın Qafqazı işğal etməsini N.N.Şavrov açıq söyləyir və bu məqsədlə həmin əraziyə ilk dəfə başqa millətlərin köçürülməsi haqqında yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətimizə Qafqaza rus əhalisinin deyil, xaricilərin köçürülməsindən başladıq. Vətəndə arzuedilməz ünsürlər sayılan bu kolonistlərdən Tiflis və Yelizavetpol quberniyalarında koloniyalar yaratdıq. Onlara ən yaxşı torpaqlar ayrıldı və müxtəlif imtiyazlar verildi." [423]

1804-1813-cü və 1826-1828-ci illər Rusiya-İran müharibələrinin gedişində, həm də bütün XIX əsr boyunca ermənilə-

[423] Dağlıq Qarabağ münaqişəsi. Tammətnli elektron materiallar məcmuəsi: http://www.elibrary.az/

rin İran, Türkiyə və Cənubi Azərbaycandan kütləvi surətdə Şimali Azərbaycana, o cümlədən Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artmağa başladı. N.N. Şavrovun yazdığı kimi, ümumiyyətlə, 1828-1830-cu illər ərzində ermənilərin azlıq təşkil etdiyi İrəvan və Yelizavetpol quberniyasına, o cümlədən Qarabağın dağlıq hissəsinə rəsmən 124 min, qeyri-rəsmi olaraq isə xeyli çox - 200 min erməni köçürülmüşdür.

XIX əsrin sonu – XX əsrin əvvəllərində də ermənilərin Cənubi Qafqaza köçürülməsi davam etdirildi. Təkcə 1896-cı ildən 1908-ci ilə kimi keçən 13 ildə Cənubi Qafqaza 400 min erməni köçürülmüşdür. 1911-ci ildə N.N.Şavrov bu barədə yazırdı: "1896-cı ildə general-adyutant Şeremetyev Zaqafqaziyada yaşayan ermənilər haqqında məlumatında onların sayının 900 min nəfər olduğunu göstərmişdir. 1908-ci ildə isə onların sayı 1 milyon 300 min nəfərə çatmışdır, yəni bu müddət ərzində ermənilər 400 min nəfərdən artıq çoxalmışlar. Halhazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyon nəfəri diyarın köklü sakinləri deyil. Onları buraya biz köçürmüşük".[424]

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi İrəvanda və Qarabağın dağlıq hissəsində demoqrafik vəziyyətə, regionda baş verən hadisələrə ciddi təsir göstərmiş və onların gələcək ərazi iddialarının baş qaldırmasına səbəb olmuşdur. İndiki Ermənistan dövlətinin yerləşdiyi tarixi Azərbaycan torpağı olan İrəvan xanlığı 1827-ci ildə Rusiya tərəfindən işğal olunanda əhalinin 73,8%-i (dörddə üçü) müsəlman türklərdən ibarət idisə, erməni köçürmələri və azərbaycanlılara qarşı deportasiya və genosid siyasəti nəticəsində hal-hazırda Ermənistanda azərbaycanlı əhali qalmamışdır. "Böyük Ermənistan" yaratmaq

[424]Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., 1911, с. 59-60

xülyasına qapılan erməni millətçiləri və qəsbkarları 1905-1906-cı illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Onlar Bakıda, Şuşada, İrəvanda, Naxçıvanda, Gəncədə, Zəngəzurda, Qazaxda və Tiflisdə dinc azərbaycanlılara qarşı qırğınlar törətdilər.

Birinci Dünya müharibəsi, eyni zamanda, Rusiyada baş vermiş 1917-ci il fevral burjua və oktyabr bolşevik inqilablarından məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci il martın 30-u, 31-i və aprelin 1-də bolşevik qiyafəsinə bürünən silahlı ermənilər Sovet Rusiyasının hərbi yardımı ilə Bakıda dinc azərbaycanlı əhaliyə qarşı əsil soyqırımı törədərək, 10 min nəfərdən çox insanı qətlə yetirmişdir. Həmin ilin aprel-may aylarında ermənilər Şamaxıda, Qubada, Ağsuda, Kürdəmirdə, Salyanda, Lənkəranda kütləvi qırğınlar törətmiş və 50 mindən artıq dinc sakini ən vəhşi üsullarla öldürmüşlər.

1918-ci ildə Azərbaycan və Ermənistan Respublikaları müstəqilliklərini elan etdikdən dərhal sonra Qarabağın dağlıq hissəsində məskunlaşan ermənilər Ermənistanın millətçi dairələrinin təhriki və təzyiqi ilə Azərbaycan hakimiyyətini tanımaqdan imtina etdilər. Ərazi bütövlüyünü qoruyub saxlamağı və vətəndaşlarının təhlükəsizliyini təmin etməyi özünün başlıca vəzifəsi hesab edən Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə (1918-1920) Ermənistan tərəfindən Qarabağın dağlıq hissəsini diplomatik və hərbi vasitələrlə ələ keçirmək cəhdlərinin qarşısı qətiyyətlə alındı. Sonrakı illərdə hər üç Cənubi Qafqaz respublikasının müstəqilliyini itirərək Sovet Rusiyasının tərkibinə qatılması ərazi-sərhəd məsələləri qoyuluşunun özünü də mənasız etdi. Lakin Cənubi Qafqazda sovet hakimiyyətinin qurulması da Dağlıq Qarabağ məsələsini bir çox millətçi, separatçı erməni təşkilatlarının gündəliyindən çıxarmadı. Çünki Sovet Rusiyası diplomatiyasının dərinliklərində çarizmin xarici siyasətinə dönüş, etnik münaqişələr

yaratmaq və ondan bəhrələnmək kimi meyillər açıq-aşkar hiss olunurdu.

Sovetləşmənin ilk illərində Sovet Rusiyasının mövqeyindəki bu meyil Azərbaycana münasibətdə məhz Dağlıq Qarabağ məsələsi ilə bağlı özünü göstərdi. Elə bunun nəticəsi idi ki, Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində yaşayan ermənilərə 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) statusu verildi. Bu siyasət məhz Sovet Rusiyasının himayədarlığı və Bakı Sovetindəki erməni-daşnak qüvvələrin bilavasitə iştirakı ilə həyata keçirildi. Azərbaycanın tərkibində DQMV-nin yaradılması, heç şübhəsiz, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından və etnik düşmənçiliyindən istifadə edən Sovet Rusiyasının "uzaqgörən və məqsədyönlü" siyasətinin nəticəsi idi. Sonrakı tarix göstərdi ki, bu, ermənilərin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün zəmin və vasitə imiş.

Bununla yanaşı, Cənubi Qafqazın sovetləşməsindən sonra da ermənilər Rusiyanın köməyi ilə Azərbaycan torpaqlarını ələ keçirmək siyasətini davam etdirərək, 1920-ci ildə Zəngəzuru və bir sıra digər torpaqları Ermənistan SSR-in ərazisi elan etdilər. Sonralar isə erməni millətçiləri Ermənistan ərazisindəki azərbaycanlıların kütləvi surətdə deportasiya edilməsi siyasətini genişləndirmək məqsədi ilə yeni vasitələrə əl atdılar. Belə ki, onlar dövlət səviyyəsində, Stalinin köməyi ilə 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçular və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarının qəbul olunmasına və 1948-1953-cü illərdə 150 minədək azərbaycanlı əhalinin öz tarixi torpaqlarından kütləvi şəkildə deportasiyasına nail oldular.

Sovet dövründə Dağlıq Qarabağ məsələsinin qaldırılmasına ermənilər və onların himayədarları bir neçə dəfə cəhd göstərsələr də, məqsədlərinə çatmağın qeyri-real olduğunu

görərək, müəyyən məqam gözləmək qərarına gəldilər. Belə bir məqam isə 1985-ci ildə SSRİ rəhbərliyinə gəlmiş M.Qorbaçov və onun yaxın ətrafının ermənipərəst mövqe nümayiş etdirməsi nəticəsində yetişdi ki, ermənilər ondan dərhal istifadə etməyə başladılar.

§ 3.2. XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və sovet rəhbərliyinin ermənipərəst Qafqaz siyasəti

1980-ci illərin ikinci yarısından Sovet İttifaqında yenidənqurma adı altında siyasi və dövlət idarəetmə sahəsində bir sıra dəyişikliklər həyata keçirildi. Belə bir şəraitdə ermənilər yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə özlərinin avantürist və mənfur "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək üçün hərəkətə keçdilər. Onlar SSRİ-də yaranmış "aşkarlıq" və "demokratiya"dan istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə ərazi iddiaları ilə çıxış etməyə başladılar.

1988-ci il hadisələri başlayanda ilk vaxtlar vəziyyəti gərginləşdirməyə, ictimai rəyi öz tərəflərinə çəkməyə çalışan erməni siyasətçiləri və onların Moskvadakı himayədarları vilayətin "iqtisadi geriliyini" bəhanə gətirərək, iqtisadi tələblər pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı uzun müddətdən bəri hazırlanan plan üzrə kütləvi mitinqlər və davamlı tətillər təşkil etməyə başladılar. Əslində, muxtar vilayətdə 1988-ci ilin əvvəllərinədək olan iqtisadi vəziyyəti əks etdirən rəqəmlərə nəzər saldıqda, həmin bölgənin bütün sahələr üzrə sosial-iqtisadi inkişafının Azərbaycanın digər bölgələrindən və Ermənistandan öndə olduğu açıq-aşkar görünür. Lakin baş verən sonrakı hadisələr DQMV-nin sosial-iqtisadi geriliyi barədə fikirlərin saxta və bəhanə, əsas

məqsədinsə Ermənistanın Azərbaycana qarşı ərazi iddiası olduğunu göstərdi.

Sovet rəhbərliyinin məsələyə vaxtında və prinsipial qiymət verməməsi, Ermənistanın əsassız ərazi iddialarının rədd edilməməsi DQMV-nin Əsgəran rayonunda, sonra isə Sumqayıtda ermənilər tərəfindən xüsusi plan əsasında hazırlanan təxribatların və qarşıdurmaların törədilməsinə gətirib çıxardı.

SSRİ Ali Soveti Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də DQMV-də və onun ətrafında millətlərarası münasibətlərin gərginliyinin davam etməsi ilə əlaqədar və guya "bunun qarşısını alıb, regionda vəziyyəti sabitləşdirmək" məqsədi ilə, SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndini "rəhbər tutaraq", Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtar vilayət statusunu saxlamaqla, DQMV-də xüsusi idarə formasının tətbiq edilməsi haqqında qərar qəbul etdi. Həmin qərarda Azərbaycanın hüquqları kobud şəkildə pozularaq DQMV-də bilavasitə SSRİ-nin ali dövlət hakimiyyəti və idarə orqanlarına tabe olan Xüsusi İdarəetmə Komitəsi (XİK) yaradıldı.

XİK millətlərarası münasibətlərin kəskinləşməsinin qarşısını almaq və regionda vəziyyəti sabitləşdirmək "məqsədi ilə" yaradılsa da, onun fəaliyyəti DQMV-dəki vəziyyəti və Azərbaycan-Ermənistan münaqişəsini daha da kəskinləşdirdi. XİK-in sədri Arkadi Volski bölgədə millətlərarası vəziyyəti sabitləşdirmək və etnik separatçılıq hərəkatını dayandırmaq deyil, əksinə, daha da qızışdırmaq və şəraiti gərginləşdirmək siyasəti yürütməyə başladı. Onun fəal "səyləri" nəticəsində az müddət ərzində vilayətin idarə və müəssisələrinin, demək olar ki, hamısı Azərbaycanın tabeliyindən çıxarılaraq mərkəzin tabeliyinə keçirildi. Bütün sənədlərdə DQMV artıq faktiki olaraq Azərbaycanın tərkibindən çıxarılmışdı.

Sovet rəhbərliyinin baş verən hadisələrə ermənipərəst münasibəti, Dağlıq Qarabağın qeyri-qanuni olaraq Ermənistana birləşdirilməsi cəhdinin qarşısını vaxtında almaması, Azərbay-

canın ərazi bütövlüyünə və suverenliyinə bilərəkdən qəsd yolu tutması respublikada haqlı və kütləvi etirazlara səbəb oldu. Mərkəzin etinasız və ermənipərəst mövqeyindən istifadə edən Ermənistan parlamenti 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında heç bir hüquqi əsası olmayan qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Birbaşa sovet rəhbərliyinin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin faktiki olaraq Azərbaycandan ayrılması və Ermənistana istiqamətləndirilməsi baş verdi. Eyni zamanda, Ermənistan SSR İttifaqın bəzi hərbi hissə rəhbərlərinin və mərkəzi orqanlarının himayədarlığı ilə Azərbaycanın digər ərazilərinə silahlı qüvvələr göndərərək açıq hərbi təcavüzə başladı.

1990-cı il yanvarın 15-də vəziyyətin getdikcə gərginləşdiyini görən SSRİ rəhbərliyinin göstərişi ilə Ali Sovetin Rəyasət Heyəti "DQMV-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" qərar qəbul etdi. Daha sonra isə Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi, SSRİ Ali Soveti Rəyasət Heyəti və SSRİ Nazirlər Sovetinin "Azərbaycan və Ermənistan xalqlarına müraciəti" qəbul olundu. Qəbul edilən sənədlərdə təcavüzkarla (Ermənistanla) təcavüzə məruz qalanın (Azərbaycanın) eyni tutulması, bir ittifaq respublikasının digərinə qarşı təcavüzkar müharibə aparmasına, onun ərazilərini açıq-aşkar işğal etməsinə belə etinasız münasibət göstərilməsi Azərbaycan xalqının İttifaq rəhbərliyindən üz döndərməsinə səbəb oldu. Bütün bunlar və erməni təcavüzünün qarşısının alınması sahəsində yerli rəhbərlərin fəaliyyətsizliyi Azərbaycanda həm SSRİ, həm də yerli rəhbərliyə qarşı kütləvi çıxışların və etirazların meydana çıxmasına təkan verdi. Artıq əhalinin Kommunist Partiyası rəhbərliyinə olan inamı tamamilə heçə enmiş və çox böyük narazılıq yaranmışdı.

Bu dövrdə ermənilərin silah ələ keçirmək məqsədi ilə sovet ordusunun hərbi hissələrinə, o cümlədən daxili qoşunlara etdiyi hücum və basqınlar adi hal almışdı. Belə bir şəraitdə silahların ələ keçirilməsinə mərkəzi hakimiyyət tərəfindən biləրəkdən etinasızlıq göstərilir və göz yumulurdu. Sovet rəhbərliyinin çox ciddi və bağışlanılmaz səhvləri və ermənipərəst siyasəti 1990-cı ilin sonu - 1991-ci ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxarmış, DQMV-də və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas almışdı. Bu illərdə Moskva-Bakı sərnişin qatarlarında, Tbilisi-Bakı, Bakı-Ağdam, Ağdam-Şuşa, Ağdam-Xocalı marşrutları üzrə hərəkət edən avtobuslarda törədilən çoxsaylı terror aktları nəticəsində yüzlərlə dinc azərbaycanlının həyatına son qoyuldu. Minlərlə azərbaycanlı Moskvanın hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu.

1988-1991-ci illərdə, yəni hadisələrin başlanğıcından SSRİ-nin süqutuna qədər olan dövrdə Sovet İttifaqının hakim dairələri tərəfindən himayə edilən Ermənistan Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeritmiş, nəticədə minlərlə dinc sakin qətlə yetirilmiş, çoxlu yaşayış məntəqələri dağıdılmış, talan edilmiş və yandırılmışdır. Bu illərdə Sovet İttifaqının rəhbər orqanları regionda vəziyyəti sabitləşdirmək üçün hər hansı ciddi və səmərəli tədbirlər həyata keçirmək niyyətində olmadığını aydın nümayiş etdirirdi. 1988-ci il hadisələri başlayan gündən Dağlıq Qarabağ məsələsi SSRİ-nin mərkəzi mətbuatının səhifələrində birtərəfli şəkildə şərh olunurdu, Azərbaycan faktiki olaraq informasiya blokadası şəraitində idi.

SSRİ hökumətinin, xüsusilə,onun başında duranların qətiyyətsizliyi, Azərbaycana qarşı açıq-aşkar ərazi iddiaları irəli

sürən Ermənistana himayədarlıq etməsi səbəbindən hadisələr getdikcə mürəkkəbləşdi və hər iki respublika müharibə vəziyyətində qarşı-qarşıya dayandı. Ermənilərin Moskvanın hakim dairələrində müdafiə olunması Ermənistanın Azərbaycana qarşı təcavüzünün daha da genişlənməsinə gətirib çıxardı.

Sovet İttifaqının mövcud olduğu illərdə mərkəzin himayədarlığı ilə öz məqsədlərinə müəyyən qədər nail olan ermənilər insan hüquqlarının müdafiəsi pərdəsi altında Dağlıq Qarabağa BMT qoşunları yeritməyə və bütün bunlara beynəlxalq xarakter verməyə cəhd göstərirdilər. Beləliklə, SSRİ süqut etdikdən sonra ermənilər və onların havadarları Dağlıq Qarabağ məsələsini beynəlxalq əhəmiyyətli problemə çevirmək üçün geniş miqyaslı kampaniyanın yeni mərhələsinə başladılar.

§3.3. Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı və münaqişənin BMT Təhlükəsizlik Şurasında müzakirəsi

1992-ci ilin əvvəllərində Ermənistan silahlı qüvvələri birbirinin ardınca Qarabağın dağlıq hissəsində azərbaycanlıların yaşadığı əksər yaşayış məntəqələrini işğal etdilər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə onlar Xankəndində yerləşən SSRİ-nin 366-cı motoatıcı alayının fəal iştirakı ilə Xocalı şəhərinə hücum edərək, 613 nəfər dinc sakini amansızcasına qətlə yetirdilər. Xocalı soyqırımı əsrin ən böyük faciələrindən biri idi. Xocalı erməni-sovet birləşmiş qüvvələri tərəfindən işğal edildikdən sonra az müddət içərisində bütün Yuxarı Qarabağ zəbt olundu.

1992-ci il mayın 8-də Azərbaycanın qədim şəhəri və mədəniyyət mərkəzi olan Şuşa ələ keçirildi. Ermənistan ordusu

Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini tamamilə Ermənistan Respublikasına birləşdirmək məqsədilə ətraf rayonlara hücuma başladı. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi yolunda onların arasında yerləşən Azərbaycan şəhəri Laçın əsas maneə idi. 1992-ci il mayın 17-də Laçın şəhəri də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Beləliklə, "öz müqəddəratını təyin etmək" ideyasını reallaşdırmaq adı altında Azərbaycanın Dağlıq Qarabağ bölgəsini Rusiya hərbi hissələrinin köməyi ilə işğal edən ermənilərin təcavüzkar siyasəti getdikcə geniş vüsət almağa başladı.

Laçının işğalı müharibənin artıq Dağlıq Qarabağın hüdudlarından kənara çıxdığını və Ermənistanın işğalçılıq niyyətinin daha böyük olduğunu göstərdi. Ermənilərin "humanitar dəhliz" adlandırdıqları Laçın yolu ilə Dağlıq Qarabağa qısa zaman çərçivəsində külli miqdarda silah, döyüş sursatı, ağır hərbi texnika və qüvvə gətirildi. Nəticədə 1993-cü il ərzində Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4.400 kv. km) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları (17.000 kv. km) işğalçı silahlı qüvvələr tərəfindən ələ keçirildi. Dağlıq Qarabağ uğrunda müharibədə 20.000 nəfərədək Azərbaycan vətəndaşı həlak olmuş, 100.000 nəfərədək yaralanmış, 50.000 nəfər isə əlil olmuşdur. Ermənistandakı tarixi torpaqlarından və Azərbaycanın işğal olunmuş ərazilərindən qovulan 1 milyona qədər azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə zamanı respublikamızın yüzlərlə yaşayış məntəqəsi dağıdılmış, talan edilmiş və yandırılmışdır. Hazırda Azərbaycan ərazisinin 20 faizdən çoxu Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. (Bax: Xəritə 39)

ERMƏNİSTANIN TƏCAVÜZÜNÜN NƏTİCƏLƏRİ



DAĞLIQ QARABAĞ MV(1989)

Əhalisi	189 085
Ermənilər	145 450 (76,9%)
Azərbaycanlılar	40 688 (21,5%)
Digər xalqlar	2 947 (1,6%)
Sərhədlərin uzunluğu	485 km

DAĞLIQ QARABAĞ ZONASININ KƏNARINDAKI RAYONLAR

Rayonlar	*İşğal olunmuşdur*
Laçın rayonu	18 may 1992-ci il
Kəlbəcər rayonu	2 aprel 1993-cü il
Ağdam rayonu	23 iyul 1993-cü il
Cəbrayıl rayonu	23 avqust 1993-cü il
Füzuli rayonu	23 avqust 1993-cü il
Qubadlı rayonu	31 avqust 1993-cü il
Zəngilan rayon	29 oktyabr 1993-cü il

DAĞINTILAR VƏ ZİYANLAR (1988-1993-cü illər)

Yaşayış məntəqələri	900
Evlər	150 000
İctimai binalar	7 000
Məktəblər	693
Uşaq bağçaları	855
Tibb müəssisələri	695
Kitabxanalar	927
Alban kilsələri	67
Məscidlər	57
Tarixi abidələr,saray-lar və muzeylər	473
Muzey eksponatları	40 000
Sənaye və kənd tə-sərrüfatı müəssisələri	6 000
Avtomobil yolları	2 670
Körpülər	160
Su kommunikasiyaları	2 300 km
Qaz kommunikasiyaları	2 000 km
Elektrik xətləri	15 000 km
Meşələr	280 000 ha
Kənd təsərrüfatına yararlı torpaqlar	1 000 000 ha
İrriqasiya sistemləri	1 200 km

Dəymiş maddi ziyan 300 mlrd-dan çox ABŞ dolları həcmindədir

QAÇQIN və MƏCBURİ KÖÇKÜNLƏR

Ermənistandan qaçqınlar	350 000
Azərbaycanın işğal olunmuş ərazilərindən məcburi köçkünlər	788 950
Cəmi	1 138 950

HƏRBİ TƏCAVÜZÜN QURBANLARI (1988-1993-cü illər)

Həlak olmuşdur	30 000 nəfər
İtkin düşmüşdür	4 866 nəfər
Əlil olmuşdur	60 000 nəfər

246km Cəbhə xəttinin uzunluğu
≈20 % İşğal edilmiş ərazi
Çadır düşərgələri
Dəmir yolu yük vagonla-rından ibarət qəsəbələr
Qaçqın və məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı ərazilər
Fin tipli qəsəbələr

Xəritə 39.

Azərbaycanın işğal edilmiş əraziləri

Dağlıq Qarabağ bölgəsi

Ərazisi	- 4 388 km^2
Əhalisi (1989)	- 189 085
Ermənilər	- 145 450 (76,9%)
Azərbaycanlılar	- 40 688 (21,5%)
Ruslar	- 1922 (1%)
Digər xalqlar	- 1025 (0,6%)

Şuşa rayonu

Ərazisi	- 289 km^2
Əhalisi (1989)	- 20 579
Azərbaycanlılar	- 19 036 (92,5%)
Ermənilər	- 1 377 (6,7%)
İşğal olunduğu tarix	- 8 may 1992

Dağlıq Qarabağın ətrafındakı işğal edilmiş rayonlar

	İşğal olunma tarixi	*Köçkünlər*
Laçın	- 18 may 1992	- 71 000
Kəlbəcər	- 2 aprel 1993	- 74 000
Ağdam	- 23 iyul 1993	- 165 600
Füzuli	- 23 avqust 1993	- 146 000
Cəbrayıl	- 23 avqust 1993	- 66 000
Qubadlı	- 31 avqust 1993	- 37 900
Zəngilan	- 29 oktyabr 1993	- 39 500

Təcavüzün qurbanları

Qətlə yetirilib - 20 000 **Yaralanıb -100 000 nəfər**
Əlil edilib - 50 000 İtkin düşüb - 4 866

Dağıdılanlar və dəymiş zərər

Yaşayış məntəqələri	- 890
Evlər	- 150 000
İctimai binalar	- 7 000
Məktəblər	- 693
Uşaq bağçaları	- 855
Səhiyyə ocaqları	- 695
Kitabxanalar	- 927
Məbədlər	- 44
Məscidlər	- 9
Tarixi yerlər	- 9
Tarixi abidələr və muzeylər	- 464
Muzey eksponatları	- 40 000
Sənaye və kənd təsərrüfatı müəssisələri	- 6 000
Avtomobil yolları	- 800 km
Körpülər	- 160
Su boru kəmərləri	- 2 300 km
Qaz kəmərləri	- 2 000 km
Elektrik xətləri	-15 000 km
Meşələr	- 280 000 hektar
Əkin sahələri	- 1 000 000 hektar
Suvarma sistemləri	- 1 200 km

Zərərin ümumi dəyəri 320 milyard ABŞ dollarına qədərdir

Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ilə əlaqədar, BMT Təhlükəsizlik Şurası 7 bəyanat və 4 qətnamə qəbul etmişdir. Kəlbəcər rayonunun işğalı ilə əlaqədar 822 (30 aprel 1993), Ağdam rayonunun işğalı ilə əlaqədar 853 (29 iyul 1993), Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğalı ilə əlaqədar 874 (14 oktyabr 1993), Zəngilan rayonunun işğalı ilə əlaqədar isə 884 (11 noyabr 1993) saylı qətnamələr qəbul edilərkən, Şuranın daimi üzvü olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək, münaqişənin ATƏT-in Minsk prosesi çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunması mövqeyini seçdilər. Cəzasız qaldığından ruhlanan Ermənistan BMT TŞnın münaqişəyə dair qəbul etdiyi 4 qətnaməyə də məhəl qoymadı.

Dünya birliyi Ermənistanın bu açıq-aşkar təcavüzünə göz yumdu və onun cilovlanması üçün heç bir əməli tədbir görmədi. 1992-1993-cü illərdə münaqişəni nizama salmaq üçün BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr zamanı və sənədlər qəbul edilərkən, Şuranın daimi üzvləri olan böyük dövlətlər Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşməsinin səbəbləri, xarakteri və mahiyyətinin qiymətləndirilməsinə birmənalı yanaşmadılar. Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü "Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə" kimi qiymətləndirilmişdir. Şuranın daimi üzvləri bu münaqişəyə Ermənistanın ərazi iddiaları əsasında başlanmış "Ermənistan - Azərbaycan müharibəsi" kimi deyil, "Azərbaycanın Dağlıq Qarabağla etnik münaqişəsi" kimi yanaşaraq, ona fərqli rəng vermişlər.

§3.4. ATƏT- in Minsk qrupunun yaradılması, münaqişənin həlli istiqamətində sülh axtarışları, münaqişə tərəflərinin mövqeyi və ümumi nəticələr

1992-ci ilin əvvəllərindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tədricən beynəlxalq xarakterli münaqişəyə çevrilməyə başlayır. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) üzvü oldu və həmin il iyulun 8-10-da ATƏM-in Helsinkidə keçirilən zirvə toplantısında onun sənədlərini imzaladı. Müstəqilliyini qazanan Azərbaycan Respublikası ATƏM-in üzvü olduqdan sonra Dağlıq Qarabağ münaqişəsi də bu təşkilatın prinsiplərinə uyğun olaraq, üzv dövlətlərin daha çox diqqət obyektinə çevrildi.

ATƏM-in Xarici İşlər Nazirləri Şurasının 1992-ci il martın 24-də keçirilən görüşündə Dağlıq Qarabağdakı vəziyyət müzakirə edildi və "münaqişənin sülh yolu ilə nizama salınması istiqamətində aparılan danışıqların səmərəliliyini artırmaq məqsədi ilə" "ATƏM-in Dağlıq Qarabağa dair xüsusi sülh konfransının çağırılması haqqında" qərar qəbul edildi. Qərara görə, Minskdə çağırılacaq bu konfrans iki böyük region ölkəsi – Rusiya və Türkiyə, dörd Qərbi Avropa dövləti - Fransa, Almaniya, İtaliya və İsveç, iki Şərqi Avropa ölkəsi - Çexiya və Slovakiya, iki münaqişə edən ölkə - Azərbaycan və Ermənistan, həmçinin ABŞ-ın nümayəndələrinin iştirakı ilə keçirilməli idi.

1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa və Laçının işğalı münaqişənin mahiyyətini dəyişərək, yeni siyasi problem yaratdı və sülh missiyasını üzərinə götürmüş Minsk konfransının keçirilməsi yolunda ciddi maneəyə çevrildi. Minsk qrupu çərçivəsində aparılan danışıqlarda qarşı tərəflər arasında ziddiyyətlərin qalması, xüsusilə, Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan

böyük dövlətlərin mövqeyində də yekdil fikrin olmaması sülh prosesinin ləngidilməsinə və münaqişənin dondurulmuş vəziyyətdə qalmasına gətirib çıxardı.

Ermənistan-Azərbaycan münaqişəsinin vasitəçilik tarixini şərti olaraq mərhələlərə bölsək, onların hər birinin xeyli dərəcədə Rusiya-Qərb qarşıdurmasının xarakterindən asılı olduğunu görmək olar. 1992-ci ilin martında Minsk qrupu yaradılan zaman Rusiya bütövlükdə bu təşəbbüsü müdafiə etsə də, dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən münaqişənin nizama salınmasına dair "vasitəçilik səylərinin fəallaşmasını" narahatlıqla qarşılamağa başladı. Belə bir vaxtda Rusiya münaqişənin dinc vasitələrlə həlli prosesində təşəbbüsü beynəlxalq təşkilatların və dünya dövlətlərinin əlindən almağa və bununla da regionda özünün zəifləmiş mövqelərini möhkəmləndirməyə cəhd göstərdi.

Məqsədlərinə nail olmaq üçün Rusiya, ərazi bütövlüyünə və vətəndaşlarının təhlükəsizliyinə heç bir ciddi təminat vermədən, Azərbaycana hərbi-strateji təzyiq göstərərək, qoşunlarını "sülhməramlı qüvvələr" adı altında münaqişə bölgəsinə gətirmək niyyətində idi. Lakin məqsədinə çatmayan Rusiya Ermənistanda qoşunlarının sayını bir qədər də artırdı, bu ölkəni gizli və aşkar yolla silahlandıraraq, Azərbaycan ərazilərinin daha geniş miqyasda işğal olunmasına dəstək verdi.

1997-ci ilin əvvəllərində Rusiyadan Ermənistana qanunsuz olaraq dəyəri 1 milyard ABŞ dollarından çox olan müasir hərbi silah-sursatın verilməsi haqqında faktlar üzə çıxan zaman məlum oldu ki, bu silahlar 1993-cü ildən etibarən, yəni Ermənistan ilə Azərbaycan arasında qızğın hərbi əməliyyatlar getdiyi vaxtdan göndərilmiş və nəticədə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsinə şərait yaradılmışdır. Ermənistanın Rusiya tərəfindən silahlandırılması prosesi atəşkəs elan ediləndən sonra da davam etdirilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınması 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyevin dövründən başlayaraq xarici siyasət fəaliyyətində əsas yer tutmuşdur. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra münaqişənin aradan qaldırılmasına nail olmaq üçün dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli və də çoxtərəfli görüşlər, ATƏT-in zirvə toplantılarında Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələr, beynəlxalq forumlarda, həmçinin Ermənistan prezidenti ilə birbaşa danışıqlarda göstərilən ardıcıl səylər dövlət başçısının apardığı siyasətin mühüm tərkib hissəsini təşkil edirdi.

Prezident Heydər Əliyev bu məqsədlə Azərbaycanın təhlükəsizlik problemlərini, xüsusilə, Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü məsələsini beynəlxalq aləmin müzakirəsinə çıxararaq, regionda sülhün bərqərar olması üçün nüfuzlu beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizamlanması məqsədi ilə məhz Prezident Heydər Əliyevin qətiyyəti, əzmkarlığı və gərgin fəaliyyəti sayəsində 1994-cü il mayın 12-də atəşkəs haqqında razılıq əldə edildi və bundan sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı.

1994-cü il dekabrın 5-6-da ATƏM-in Budapeştdə keçirilən zirvə toplantısında beynəlxalq sülhməramlı qüvvələrin yaradılması və münaqişə bölgəsinə göndərilməsi qərara alındı. Budapeştdə həmsədrlik institutu da təsis edildi. Minsk konfransına iki həmsədrin təyin edilməsi və Minsk qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçirilməsi barədə qərar qəbul olundu. Rusiyanın bu münaqişədə maraqlı tərəf olduğu nəzərə alınaraq, ATƏM-in Minsk konfransında, o cümlədən Minsk qrupunda həmsədrlik Rusiya və Finlandiyaya tapşırıldı. Bu razılıq təkcə Budapeşt görüşünə qədər gərgin olaraq qalan

Qərb-Rusiya münasibətlərinin yumşaldılması deyil, həm də münaqişənin həlli istiqamətində Rusiyanın "fərdi sülhyaratma" istəyinin qarşısının alınması idi.

1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən zirvə toplantısında qəbul edilən və münaqişənin nizama salınmasının beynəlxalq hüquqi bazasını təşkil edən sənəd - bəyanat Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasının üç əsas prinsipini ortaya qoydu. Bu prinsiplər: 1. Ermənistan və Azərbaycan respublikalarının ərazi bütövlüyünün tanınması; 2. Razılaşma əsasında Azərbaycanın tərkibində Dağlıq Qarabağa öz müqəddəratını təyin etmə prinsipinə söykənən ən yüksək özünüidarəetmə hüquqi statusunun verilməsi; 3. Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə beynəlxalq təminatın verilməsindən ibarət idi.[425] Zirvə toplantısı zamanı Prezident Heydər Əliyevin gərgin əməyi, diplomatik istedadı, bacarığı sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivələrini və əsas prinsiplərini müəyyənləşdirən bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin yekun qərarında əksini tapdı. ATƏT-in Lissabon zirvə görüşündən sonra Rusiya ilə yanaşı ABŞ və Fransa nümayəndələri də Minsk qrupunun həmsədrliyinə daxil oldular.

1997-ci ilin ikinci yarısından indiyə kimi Minsk qrupunun həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq, Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 7 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə dair bir neçə təkliflə çıxış etmişlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin "paket" (bu variantda Dağlıq Qarabağın statusu da daxil

[425] Həsənov Ə.M. Azərbaycan və ATƏT. Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997, s.74

olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu), həmin ilin sentyabrında irəli sürdükləri ikinci təklif isə münaqişənin "mərhələli" (bu variantda münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu) həllindən ibarət idi. Azərbaycan tərəfi təqdim olunan təklif və planlarla tam razı olmasa da, sülh prosesinin ölü nöqtədən çıxarılması məqsədilə həmsədrlərin hər iki təklifini ümumən qəbul etmişdir. Ermənistan tərəfi isə hər iki halda qeyri-konstruktiv mövqedən çıxış edərək təkliflərlə razılaşmamışdır.

1998-ci ilin noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qəbulu qeyri-mümkün hesab edilən üçüncü təklif irəli sürdülər. Bu təklif dünya praktikasında mövcud olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilən "ümumi dövlət" təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, həm də ATƏT-in Budapeşt və Lissabon zirvə toplantılarında qəbul olunmuş sənədlərə də etinasız yanaşmanın göstəricisi idi.

ATƏT-in Minsk qrupunun son təklifindən Azərbaycan tərəfi birmənalı şəkildə imtina etdikdən sonra, 1999-cu il fevralın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev Minsk qrupunun həmsədrləri olan dövlətlərin (ABŞ, Rusiya, Fransa) başçılarına məktubla müraciət etdi. Minsk qrupunun fəaliyyətini, xüsusilə, həmsədrlərin axırıncı təklifini ciddi surətdə tənqid edən dövlət başçısı "ümumi dövlət" ideyasının ATƏT-in prinsiplərinə uyğun olmadığını və sülh prosesinə xeyli zərər verdiyini göstərməklə yanaşı, ABŞ, Fransa və Rusiya dövlət başçılarını münaqişənin ədalətli həlli və tezliklə aradan qaldırılması üçün səylərini ciddi surətdə artırmağa çağırdı.

"Ümumi dövlət" prinsipi nizamasalma prosesinə ciddi maneə törətməklə yanaşı, münaqişənin həlli yollarına dair tərəflərin mövqeyindəki ziddiyyətləri daha da dərinləşdirdi. Nəticədə danışıqlar prosesində bir durğunluq yarandı və

münaqişənin nizama salınması istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı.

2004-cü ildən başlayaraq Minsk qrupu həmsədrləri "Praqa prosesi" adlanan üçtərəfli danışıqlar çərçivəsində (Minsk qrupu, Ermənistan və Azərbaycan-Ə.H.) "Madrid prinsipləri" kimi tanınan dördüncü təkliflər paketini irəli sürmüş və tərəflərin müzakirəsinə təqdim etmişlər. Yeni təkliflərin əsas prinsipləri haqqında tərəflərin açıqladığı fikirlər onu göstərir ki, Azərbaycan ATƏT-in Lissabon sammitində bütün üzv dövlətlərə qəbul etdirdiyi "münaqişənin həllinin üç əsas prinsipindən" bütövlükdə imtina etməmiş, lakin ona, məzmunu hələ açıqlanmayan bəzi redaktələrin aparılmasına razılıq vermişdir.

"Madrid prinsipləri" əsasında həmsədrlərin iştirakı ilə və onlarsız Azərbaycan Prezidenti İlham Əliyev Ermənistan prezidentləri Koçaryan və Sarkisyanla iyirmiyə yaxın ikitərəfli və çoxtərəfli görüşlər keçirsə də, mövqeləri uzlaşdırmaq hələ ki mümkün olmamışdır. Ermənistan tərəfi hələ də qeyri-konstruktiv mövqeyi ilə münaqişənin həllinə çətinliklər törədir. Münaqişənin həlli istiqamətində növbəti cəhd 15 fevral 2010-cu ildə ATƏT-in yeni sədri, Qazaxıstanın xarici işlər naziri Kanat Saudabayevin Cənubi Qafqaza səfəri çərçivəsində baş tutmuşdur. Bakıda onun Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüşdə vurğulanmışdır ki, ATƏT Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində öz səylərini bir qədər də artıracaq və "Madrid prinsipləri" çərçivəsində aparılan danışıqlarda ciddi irəliləyişə nail olunmasına çalışacaqdır. K. Saudabayev məhz bu məqsədlə regiona səfərə gəldiyini və münaqişə edən hər iki tərəflə ciddi müzakirələr aparacağını bəyan etmişdir. Lakin ATƏT-in Astanada keçirilən son sammitində də bu problemin həlli ilə bağlı nə hansısa qərar qəbul edildi, nə də həmsədr ölkələr tərəfindən işğalçı Ermənistana hər hansı təzyiq göstərildi.

ATƏT-in münaqişənin dinc yolla həll edilməsi istiqamətindəki son cəhdi 19 noyabr 2013-cü ildə Avstriyanın paytaxtı Vyanada olmuşdur.[426] Təşkilatın Minsk Qrupu həmsədrlərinin- Robert Bradtke (ABŞ), Bernar Fasye (Fransa) və İqor Popov (Rusiya) iştirakı ilə münaqişədə iştirak edən ölkə prezidentlərinin 2012-ci ilin yanvarından dayandırılmış ilk təkbətək görüşünün hansı sonluqla başa çatmsı barədə mətbuata məlumat verilməsə də, diplomatik mənbələr Dağlıq Qarabağ məsələsininin vasitəçilərin iştirakı olmadan yenidən təkbətək görüş formatında müzakirəyə çıxarılmasını bütövlükdə əhəmiyyətli hadisə kimi qiymətləndirmişlər.[427]

Görüş ərəfəsində həmsədr ölkələrdən birinin- ABŞ-ın dövlət katibi Con Kerrinin Azərbaycan və Ermənistan prezidentlərinə telefon açmasını, iki ölkə prezidentlərinin birbaşa görüşünü dəstəkləməsini və danışıqların xüsusi irəliləyişə səbəb olacağına inam ifadə etməsini, mütəxəssislər münaqişənin gələcək həlli baxımından müsbət dəyərləndirilmişlər.[428] Bu haqda Con Kerri Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu ilə Vaşinqtonda keçirdiyi birgə mətbuat konfransında məlumat vermişdir. Con Kerri Ermanistan Azərbaycan Dağlıq Qarabağ probleminin həlli istiqamətində danışarkən qeyd etmişdir ki, "Türkiyə bu prosesdə və bir çox digər məsələlərdə böyük rol oynayır. Artıq aylardır ki, biz Kipr və Dağlıq

[426] ikitərəfli bu format çərçivəsində 2007-ci ildən 2014-cü ilədək Azərbaycan və Ermənistan prezidentləri arasında 17 görüş keçirilib. 2008-ci il iyunun 5-də Sankt-Peterburqda, noyabrın 2-də Moskvada, 2009-cu il yanvarın 28-də Sürixdə, mayın 7-də Praqada, iyunun 4-də Sankt-Peterburqda, iyulun 17-18-də Moskvada, oktyabrın 8-9-da Kişinyovda, noyabrın 22-də Münhendə, 2010-cu il yanvarın 25-də Soçidə, iyunun 17-də Sankt-Peterburqda, oktyabrın 27-də Həştərxanda, 2011-ci il martın 5-də Soçidə, iyunun 24-də Kazanda, 2012-ci il yanvarın 25-də Soçidə, 2013-cü il noyabrın 19-da Vyanada, 2014-cü il avqustun 10-da Soçidə, oktyabrın 27-də Parisdə keçirilmiş görüşlərdə heç bir irəliləyiş olmayıb.

[427] Bax: "Yeni Müsavat" qəzeti, №308, 20.11. 2013. s.9.

[428] Yenə orada

Qarabağ haqqında müzakirələr aparırıq... Sakit bir tərzdə bu təşəbbüslərin önündə və ortasında olan səfirlərimizin prosesi davam etdirməsinə çalışırıq. Mən son 48 saatda... həm prezident Əliyev, həm də Sarkisyanla danışmışam. Onlar az sonra görüşməlidirlər. Biz həmin prosesin irəli getməsini istəyirik və bu işlərdə iştirakımızı davam etdirəcəyik".[429]

Göründüyü kimi, həm ABŞ dövlət katibi, həm də Türkiyənin xarici işlər naziri Dağlıq Qarabağ münaqişəsinin həllində Ankara və Vaşinqtonun sıx əməkdaşlıq etdiyini, müxtəlif vasitələrlə, o cümlədən Minsk Qrupu və başqa ikitərəfli məsləhətləşmələr yolu ilə bu dondurulmuş münaqişəni tezliklə həll etməyə, Qafqaza və ətraf regionlara dayanıqlı sülh gətirməyə eyni perspektivdən baxdıqlarını təsdiqləmiş və bu istiqamətdə prezident Sarkisyan və prezident Əliyev arasındakı bu görüşün uğurlu olacağına ümid etdiklərini bəyan etmişlər.[430]

Qeyd edək ki, görüşdən bir gün əvvəl digər həmsədr ölkənin- Rusiyanın xarici işlər naziri Sergey Lavrov da Vyanadakı danışıqların uğurlu olacağına ümid etdiklərini bəyan edib. "Rusiya Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ məsələsi üzrə birbaşa təmasların bərpa olunacağına ümid edir və problemin həllinə dəstək verməyə hazırdır" söyləyən, S.Lavrov münaqişənin daha əvvəl əldə olunmuş müəyyən razılıqlar və hər iki tərəf üçün məqbul əsasda həlli üçün lazımi atmosferin yaradılmasına hər cür kömək göstərəcəklərini vurğulayıb.

Azərbaycan və Ermənistan prezidentlərinin Vyanada keçirilən görüşünə ATƏT-in Minsk qrupunun və əsas həmsədr ölkələrin münasibətini şərh edən bəzi ekspertlər hesab edir ki, hazırda Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqlar prosesinin formatı dəyişir: "ATƏT-in Minsk qrupu

[429] Bax: "Bakı xəbər" qəzeti,№209, 20.11.2013.s.9
[430] Bax: "Yeni Müsavat" qəzeti, №308, 20.11. 2013. s.9.

davamlı işləməyə və hansısa nəticələr əldə etməyə cəhd edir. Lakin, əsas işi ATƏT-in Minsk qrupu deyil, həmsədr ölkələr görəcək. Rusiya münaqişə tərəfləri arasında razılığın əldə olunması üçün çox şey elədi, lakin nəticə əldə olunmadı. İndi isə Azərbaycan və Ermənistan prezidentləri Moskvada deyil, Vyanada görüşürlər. Yaxın zamanlarda isə iki ölkənin XİN başçıları Kiyevdə görüşəcəklər. Bu onu göstərir ki, münaqişənin həllinə edilən cəhdlər Minsk qrupunun rəhbərliyi altında həyata keçirilir.[431] Rusiya İctimai Siyasi Tədqiqatlar Mərkəzinin direktoru, hərbi-siyasi ekspert Vladimir Yevseyevin fikrinə görə Rusiya dünyada və bölgədə cərəyan edən hazırkı geosiyasi proseslərin təsiri altında Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə aktiv vasitəçi kimi qoşulmaqdan getdikcə məsafə saxlamağa çalışır. Vladimir Putinin ikinci hakimiyəti dövründə Rusiya münaqişənin həlli istiqamətində əvvəlki illərdə nümayiş etdirdiyi fəaliyyəti faktiki olaraq dayandırıb. Moskva münaqişədə iştirk edən tərəflərdən birini- Ermənistanı yeni yaratmağa çalışdığı Avrasiya və Gömrük İttifaqlarına qoşulmağa razı sala bilib və bunun müqabilində onunla öz hərbi-texniki əməkdaşlığını gücləndirməyə söz verib. [432] V. Putinin 2 dekabr 2013-cü ildə İrəvana son səfəri çərçivəsində iki ölkə arasında bir çox, o cümlədən hərbi-texniki əməkdaşlığın daha da dərinləşdirilməsinə dair saziş imzalandı. Bu sazişdə təkcə Ermənistan ordusunun modernləşdirilməsi deyil, həm də qarşılıqlı informasiya mübadiləsi və ümumilikdə hərbi sahədə sıx tərəfdaşlıq məsələləri öz əksini tapıb. Bütün bunlar onu göstərir ki, hazırda Cənubi Qafqazda Azərbaycanın bitərəf siyasət yürütməsi və Gürcüstanınsa Avropa Birliyinə üzvlüyə can atması fonunda Rusiya-Ermənistan münasibətlərinin yaxşılaşması prosesi gedir. Ona görə də, politoloqun fikrinə görə,

[431] Bax: APA xəbər bülleteni, 20 noyabr 2013//www.apa.az
[432] Yenə orada

Rusiya hazırkı vəziyyətdə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində hansısa konkret addım atmayacaq. Əksinə, Rusiya-Azərbaycan münasibətlərində staqnasiya dövrü davam edəcək. Vladimir Putinin bu ilin avqust ayında Azərbaycana səfəri görünür ki, bir çox problemləri tam həll edə bilməyib. Bu işdə, Azərbaycanın qərbyönümlü siyasət yürütməsi də öz sözünü, rolunu oynayır. Mütəxəssisə görə, Azərbaycan müstəqil, suveren dövlət olaraq müstəqil siyasət yürütməsi beynəlxalq hüquq normasına əsaslanaraq normal hal olsa da, Rusiyanın mövcud vəziyyətdə eyni vaxtda həm Bakı, həm də İrəvanla münasibətləri bərabər səviyyədə saxlaya bilməməsini də başa düşmək lazımdır. Onun fikrinə görə, Rusiyanın Ermənistanla hazırkı hərbi-geostrateji münasibətləri birbaşa Bakıya qarşı yönəlməsə də, Cənubi Qafqazda Ermənistanla müttəfiqlik münasibətlərini gücləndirmək də Rusiyanın haqqıdır və onun milli mənafelərinə cavab verir.[433]

Rusiya ilə Ermənistan arasındakı hərbi tərəfdaşlığın dərinləşdirilməsi prosesi indi başlamayıb. Bir müddət əvvəl Rusiya müdafiə nazirinin, Baş Qərargah rəisinin Ermənistana səfərləri bu proseslərin başlanğıcı idi. Daha sonra Ermənistanın Gömrük İttifaqına qoşulmaq niyyətini bəyan etməsi bu prosesləri daha da sürətləndirdi. Prezident V. Putinin səfəri isə proseslərə tam aydınlıq gətirdi. Bir qədər əvvəl Rusiyanın Ermənistandakı hərbi bazasının komandanı Andrey Ruzinskinin "Krasnaya zvezda" jurnalına verdiyi müsahibəsindəki "əgər Dağlıq Qarabağda yenidən Ermənistanla-Azərbaycan arasında müharibə başlasa Rusiya öz bitərəfliyini qoruya bilməyəcək və hərbi müttəfiqi olan Ermənistana yardım göstərəcək" fikrini şərh edən V. Yevseyev bildirib ki, Dağlıq Qarabağ Ermənistanın tərkib hissəsi deyil və Rusiyanın öz müttəfiqi qarşısında Dağlıq Qarabağın ərazisini müdafiə etmək kimi

[433] Bax: APA xəbər bülleteni, 20 noyabr 2013//www.apa.az

öhdəliyi yoxdur: "Bir sözlə desək, Qarabağda Azərbaycanla Ermənistan arasında yenidən müharibə başlasa, Rusiyanın müharibəyə qoşulmaq öhdəliyi yoxdur. Lakin dolayısı yolla bu, Rusiyanı da müharibəyə sürükləyəcək. Bu dolayısı yol o deməkdir ki, Rusiya Ermənistanla vahid hava hücumundan müdafiə sistemi yaratmağa hazırlaşırsa və gələcəkdə radiolokasiya sistemlərinin əldə etdiyi informasiyaları bir-birləri ilə mübadilə edəcəklərsə, onda Rusiyanın mövqeyi məlumdur. Politoloq onu da qeyd edir ki, bütün Cənubi Qafqaz Rusiyanın radiolokasiya sisteminin əhatə dairəsindədir və Rusiya Dağlıq Qarabağda müharibə başlayacağı zaman radiolokasiya sisteminin əldə etdiyi məlumatları Ermənistandan gizlətməyəcəkdir. "Rusiyanın Ermənistanda böyük hərbi eskadrilyası yerləşir. Çox güman ki, gələn ay İrəvanda aparılacaq danışıqlarda eskadrilyanın daha da zənginləşdirilməsi, hərbi aviasiyanın modernləşdirilməsi barədə razılıq əldə olunacaq. Ona görə də hesab edirəm ki, Dağlıq Qarabağda hərbi əməliyyatlar başlayacağı təqdirdə, Rusiya birbaşa da olmasa, dolayısı yolla müharibəyə qoşulacaq".[434]

Prezidentlərin təkbətək görüşünün nəticələri ilə bağlı həmin gün ATƏT-in fəaliyyətdə olan sədri, Ukraynanın xarici işlər naziri Leonid Kojara da bəyanat vermişdir. Bəyanatda deyilir ki, bu görüş və yüksək səviyyədə keçirilən dialoq tərəflər arasında etimad və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə müsbət təsir göstərəcək və Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesinə öz töhvəsini verəcək. Biz hesab edirik ki, bu cür danışıqlar sülhə və sabitliyə zəmanət verir və regional əməkdaşlıq üçün yeni imkanlar açır. Bəyanatda həmçinin qeyd olunub ki, Ukrayna ATƏT-nin sədri olaraq ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan-Ermənistanın və Dağlıq Qarabağ münaqi-

[434] Yenə orada

şəsinin beynəlxalq hüquq normaları əsasında nizamlanmasına yönəlmiş istənilən dialoqun qurulması üzrə səyləri dəstəkləməyə hazırdır.

Görüşün keçirildiyi gün Minsk qrupunun həmsədrləri də bəyanat yaymışlar. Bəyanatda deyilir ki, bu, 2012-ci ilin yanvar ayında Soçidə keçirilmiş sammitdən sonra prezidentlərin ilk görüşüdür. "Üzbəüz görüşlərin və daha sonra həmsədrlərin nazirlərin iştirakı ilə keçirilmiş işgüzar görüşlərin gedişində prezidentlər Dağlıq Qarabağ münaqişəsinin həllinə dair geniş miqyasda sualları müzakirə ediblər. Prezidentlər dinc nizamlanmanın nail olunmasına yönəlmiş gələcək danışıqlara impuls vermək üçün razılaşıblar. Onlar öz xarici işlər nazirlərinə tapşırıblar ki, həmsədrlərlə birlikdə prosesin dinc fəallaşması məqsədilə görülmüş işlər əsasında fəaliyyəti davam etdirsinlər. Onlar qarşıdan gələn aylarda yenidən görüşməyə razılaşıblar". [435]

Göründüyü kimi, ATƏT çərçivəsində müxtəlif formatlı danışıqlar aparılsa da hazırda Azərbaycan Dağlıq Qarabağın nə müstəqilliyinə, nə də Ermənistana birləşməsinə razı olmadığına, ermənilər isə bu ərazinin Azərbaycanın tərkibində saxlanmasına razılıq vermədiklərinə görə, münaqişənin həlli uzanır və hələ ki, real nəticə yoxdur. Ermənilər "Milli azlıqların öz müqəddəratını təyin etməsi hüququ"nu bu münaqişəyə şamil edərək Dağlıq Qarabağın ya müstəqil elan olunması, ya da Ermənistana birləşməsini tələb edirlər. Azərbaycan isə ATƏT-in və beynəlxalq hüququn əsas prinsiplərindən hesab olunan "ölkələrin ərazi bütövlüyünün pozulmazlığı" prinsipini əsas gətirərək, DQ-nin həm müstəqillik qazanmasını, həm də başqa dövlətlə birləşməsi variantını birmənalı şəkildə rədd edir, öz milli yaşam haqlarını reallaşdırmaq məqsədilə Dağlıq Qarabağda yaşayan ermənilərə "yalnız Azərbaycanın ərazi bütöv-

[435] Bax: AzərTac informasiya agentliyinin xəbər bülleteni, 19-20 noyabr 2013.// www.Azertag.com.

lüyü çərçivəsində hər hansı muxtariyyət statusunun verilə biləcəyini" qəbul edir.

Danışıqlar prosesi hazırda heç bir müsbət sonluq vəd etmir. Azərbaycanın müharibə çağırışları və yaxud "öz torpaqlarını azad etmək hüququnu" bəyan etməsi hər dəfə beynəlxalq güclərin etirazı ilə qarşılaşır və onlar bu məsələdə öz səylərini bir az da artırmaq imitasiyası nümayiş etdirirlər. Dağlıq Qarabağ probleminin həlli istiqamətindəki bütün səyləri o cümlədən, münaqişənin mövcud vəziyyətini dəyərləndirən beynəlxalq tədqiqatçıların fikrinə görə, problemin həlli, bir tərəfdən beynəlxalq aləmin ciddi iradə nümayiş etditməkdən yayınması, digər tərəfdənsə münaqişəyə cəlb olunmuş Azərbaycan və Ermənistanın ciddi şəkildə silahlanması, müharibə meylinin atrması fonunda günü-gündən çətinləşir ki, bu da Cənubi Qafqazın və bütövlükdə Avrasiyanın regional təhlükəsizliyini ciddi şəkildə təhdid edir. Vaşinqton Beynəlxaq və Strateji Araşdırmalar Mərkəzi Dağlıq Qarabağ münaqişəsini hazırda Avrasiya regionu, xüsusən, Cənubi Qafqaz üçün bir nömrəli problem və təhdid kimi dəyərləndirir.[436] Məsələ burasındadır ki, hazırda Dağlıq Qarabağ münaqişəsinin həllində həm Minsk qrupu və onu təmsil edən üçlük- ABŞ, Rusiya və Fransa, həm də digər beynəlxalq təşkilatllar Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və Dağlıq Qarabağın separatçı rejimini dəstəkləməsi faktını birmənalı şəkildə beynəlxalq hüquqa zidd hal kimi qiymətləndirməkdən, münaqişənin həlli istiqamətində vahid yanaşma nümayiş etdirməkdən boyun qaçırırlar. Onlar etnik separatizmə mənfi qiymət vermək, beynəlxalq hüququn "ölkələrin ərazi bütövlüyünün pozulmazlığı" prinsipini dəstəkləmək əvəzinə, "ərazi bütövlüyü" ilə "özünümüəyyənetmə" hüququ arasında tərəddüd etməkdə və balans axtarmaqda davam edirlər. Fikrimizcə, bu hal münaqişənin yaxın zamanlarda

[436]Bax: "Yeni Müsavat"qəzeti, 5 aprel 2012, № 86. səh. 9 .

dinc yolla həllinə mane olan *birinci* əsas amildir. Konkret olaraq Dağlıq Qarabağ problemini və Cənubi Qafqazdakı digər etnik separatizm üzərində yaranmış münaqişə ocaqlarını aqressiv separatçılıq təmayüllərini birmənalı şəkildə pisləmədən və ciddi formada qarşısını almağa cəhd göstərmədən, sülh yolu ilə həll etmək qətiyyən mümkün deyil. Əgər beynəlxlaq aləm, xüsusən, sülhyaratma prosesinə cəlb edilmiş ATƏT-in Minsk qrupu bu məsələdə birmənalı mövqe nümayiş etdirməsə və ona uyğun da separatçı rejimlərə, onları açıq dəstəkləyən ölkələrə qarşı ciddi tədbir görməsə, o zaman münaqişənin həlli mümkün olmayacaqdır.

Cənubi Qafqazın regional təhlükəsiziyik sistemini ən çox təhdid edən münaqişələrin, xüsusən, Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolundakı *ikinci* əsas maneə bu separatçı rejimlərin 1990-cı illərdəki "ictimai təşəbbüslər" formasında deyil, təpədən dırnağadək silahlanıb millitaristləşmələri, hər birinin arxasında güclü hərbi baza və təminatçı dövlətin dayanması ilə bağlıdır. Belə halda nə Azərbaycan, nə Gürcüstan, nə də ki, oxşar aqressiv separatçı rejimlərlə mübarizə aparan hər hansı başqa ölkə bu münaqişələri dinc yolla həll etmək iqtidarında deyillər.

Hazırda beynəlxalq təşkilatlar Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını təsdiqləsələr də, bu halı birmənalı formada pisləməkdən, işğalçı dövləti ittiham etməkdən və beynəlxalq təsir mexanizmlərindən istifadə edərək, onu BMT-nin Qətnamələrinə tabe etdirmək iradəsi nümayiş etdirməkdən çəkinirlər. Ən yaxşı halda, həm BMT, həm ATƏT və Avpropa Birliyi, o cümlədən sülhyaratma prosesinə cəlb olunmuş Minsk qrupunun həmsədrləri "iki ölkə arasında kompromis mövqelər axtarmaq" və "onların özlərinin ortaq nöqtələr tapması" yolu ilə gedərək, bu münaqişəni həll etməyə cəhd edirlər ki, bu da faktiki olaraq status-kvo vəziyyətini neçə illərdir ki, uzatmaqda davam edir.

Beynəlxalq təşkilatlar hesab edir ki, münaqişəni "iki tərəf" həl etməlidir, onlarsa bu işdə "əldə olunacaq razılığın pozulmazlığına" qarantiya verməlidirlər. Nəzərə alınsa ki, Azərbaycan üçün münaqişənin həlli *onun ərazi bütövlüyünün təmin olunması və bu ərazilər üzərində suveren dövlət hüquqlarının tanınması hesab olunur,* Ermənistan və separatçı Dağlıq Qarabağ rejimi üçünsə- *Dağlıq Qarabağın Azərbaycandan qopardılması,* o zaman bu münaqişənin həllində qarşılıqlı kompromislərin nədən ibarət olacağını hələ ki, heç bir ekspert müəyyən edə bilmir.

§3.5. Digər beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi və Azərbaycanın diplomatik fəaliyyətinin nəticələri

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əsasən ATƏT və qismən BMT məşğul olsa da, 1993-cü ildən başlayaraq Azərbaycan dövlətinin səyi ilə digər beynəlxalq və regional təşkilatlar da bu məsələyə birbaşa, yaxud dolayısı ilə münasibət bildirmişlər. Məsələn, Azərbaycanın üzv olduğu və dünyanın 50-dən artıq müsəlman dövlətini birləşdirən İslam Konfransı Təşkilatı (İKT) bütün zirvə toplantılarında Azərbaycan torpaqlarının işğalı məsələsini gündəliyinə salaraq, mühüm əhəmiyyət kəsb edən prinsipial qərarlar qəbul etmişdir. Belə ki, 1994-cü ildə Kasablankada İKT-nın zirvə toplantısında, 1996-cı ildə Cakartada İKT-nın üzvü olan dövlətlərin xarici işlər nazirlərinin 24-cü konfransında, 1997-ci ildə Tehranda və 2000-ci ildə Dohada keçirilən İKT-nın zirvə toplantılarında Ermənistanın Azərbaycana təcavüzü haqqında qətnamələr qəbul edilmişdir. Onu da qeyd etmək vacibdir ki, İKT Ermənistanı birmənalı şəkildə təcavüzkar dövlət kimi tanıyan ilk beynəlxalq təşkilatdır.

Azərbaycanın 2001-ci il yanvarın 25-də Avropa Şurasına bərabərhüquqlu üzv qəbul olması respublikanın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün yeni bir tribuna rolunu oynadı. 2001-ci il aprelin 24-27-də Azərbaycan Respublikasının AŞ PA-dakı nümayəndə heyətinin ilk dəfə olaraq bu qurumun iclasında tamhüquqlu üzv kimi iştirak etdiyi plenar sessiyada dövlətçilik maraqları baxımından mühüm, xüsusilə, Ermənistanın Azərbaycana təcavüzü faktlarını özündə əks etdirən bəzi sənədlər, o cümlədən 9 ölkə və AŞ PA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış "Ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımının tanınması" adlı yazılı Bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış "Ermənistan və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar" adlı məlumat AŞ PA-nın rəsmi sənədləri qismində yayılmışdır.

Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin qətlə yetirilməsi, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi, Ermənistanda, eyni zamanda, işğal edilmiş Azərbaycan ərazilərində uşaq, qadın və yaşlı insanların da daxil olmaqla, çoxsaylı azərbaycanlı girovların saxlanılması faktı və digər vacib məsələlər öz əksini tapmışdır.

2001-ci il iyunun 25-29-da AŞ PA-nın növbəti plenar sessiyası zamanı Azərbaycanla bağlı daha iki mühüm sənəd AŞ PA-nın rəsmi sənədləri kimi yayılmışdır. "Azərbaycan Respublikasında (Dağlıq Qarabağ, Laçın, Qubadlı, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan) ekoloji vəziyyət" adlı birinci sənəddə Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində ekoloji vəziyyətin düşünülmüş şəkildə korlanması məsələsi, "Azərbaycanın mədəni irsinin qəsb olunması və dağıdılması" adlı ikinci sənəddə isə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində yerləşən mədəni abidə və sərvətlərin

dağıdılması məsələsi Avropa ictimaiyyətinin diqqətinə çatdırılmışdır.

AŞ PA-nın 2001-2010-cu illər arasında keçirilən çoxsaylı plenar sessiyalarında və ayrı-ayrı tədbirlərində Azərbaycan nümayəndə heyəti tərəfindən hazırlanmış və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bu və ya digər aspektini əks etdirən onlarla mühüm sənəd də yayılmışdır. Burada işğal faktı dolayısı ilə təsdiqlənmişdir. Bütün bunlara baxmayaraq, Avropa Şurası hələ ki, Ermənistanı nə İKT-nın etdiyi kimi, birbaşa işğalçı dövlət elan etmiş, nə də ki, ona qarşı işğal etdiyi Azərbaycan torpaqlarını tərk etmək tələbi irəli sürmüşdür.

Azərbaycanın diplomatik səyləri nəticəsində İKT, Avropa Şurası və ATƏT-lə yanaşı, 2004-cü ildən Avropa İttifaqı və onun ayrı-ayrı strukturları da münaqişənin dinc vasitələrlə həlli istiqamətində müəyyən səylər göstərməyə başlamışdır. Belə ki, 2004-cü ilin əvvəlində Avropa Parlamenti Cənubi Qafqazda təhlükəsizlik məsələlərini müzakirə edərək belə qərara gəlmişdir ki, bölgədə təhlükəsizliyə və davamlı sülhə mane olan əsas hadisə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir və bütün Avropa ölkələri onun nizama salınmasına ciddi səy göstərməlidir. Avropa Parlamentinin sessiyasında "Avropa İttifaqının Cənubi Qafqaz siyasəti" mövzusunda Pyer Qartonun məruzəsi əsasında qəbul edilmiş qətnamədə ermənilərin işğal etdikləri ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə apardıqları haqqında bəzi faktlar göstərilmişdir. Eyni zamanda, Avropa Parlamenti Cənubi Qafqazda təhlükəsizliyin bərqərar olmasına maneə olan münaqişənin nizama salınması üçün işğal olunmuş Azərbaycan ərazilərinin (Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) azad edilməsi təklifi ilə çıxış etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın prinsipial mövqeyini 1993-2003-cü illərdə Prezident Heydər Əliyev, 2003-cü idən etibarən isə Prezident

İlham Əliyev dəfələrlə BMT, ATƏT, NATO, AŞ, Aİ, İKT, MDB və digər beynəlxalq və regional təşkilatların tribunalarından səsləndirmiş, bu təşkilatların rəhbərləri ilə keçirilən görüşlərdə və s. tədbirlərdə mütəmadi olaraq qaldırmış və məntiqi mülahizələrlə əsaslandırmışlar. Bütün bu görüşlərdə iştirak edən beynəlxalq təşkilatların rəhbərləri, dövlət başçıları və digər məsul şəxslər Azərbaycanın haqlı olduğunu, onun beynəlxalq hüquqlarının pozulduğunu, ərazilərinin işğal edildiyini və Ermənistanın bu məsələdəki qeyri-konstruktiv mövqeyini vurğulamış, lakin işğalçı ölkəyə hər hansı bir ciddi təzyiq göstərmək təklifindən yayınmışlar. Məsələn, Prezident İlham Əliyev 2004-cü il martın 17-də Bratislavada "Daha geniş Avropaya doğru: yeni gündəlik" mövzusunda keçirilən beynəlxalq konfransdakı çıxışında vurğulamışdır ki, Ermənistanın işğalçılıq siyasəti nəinki təkcə Azərbaycanı çətin vəziyyətə salmış, həm də bütünlüklə Avropada, xüsusilə, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsinə, insanların rifah halının yaxşılaşdırılması işinə ciddi maneə yaratmışdır. Konfransda Azərbaycan Prezidentinin haqlı mövqeyini və fikirlərini iştirakçıların əksəriyyəti qəbul edərək dəstəkləsə də, Ermənistana təzyiq etmək məqsədi ilə hər hansı bir qərar qəbul edilməmişdir.

Prezident İlham Əliyev bu tədbirdə Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək hüququ ilə bağlı irəli sürülən iddiaların beynəlxalq hüquqa zidd olduğunu məntiqi mülahizələrlə sübut etmiş və ermənilərin artıq öz müqəddəratını təyin etdiyini, Ermənistan adlı müstəqil dövlət yaratdıqlarını vurğulamışdı. Azərbaycan Prezidenti çıxışında qeyd etmişdi ki, ermənilər yaşadıqları bütün digər ölkələrdə öz müqəddəratını təyin etmək fikrinə düşsələr, dünyada hansı vəziyyətin yaranacağını və hansı hadisələrin baş verəcəyini söyləmək çətindir. Bununla yanaşı, dövlət başçısı münaqişənin nizama salınması prosesində ATƏT-in Minsk qrupunun fəaliy-

yətinin heç bir səmərə vermədiyini vurğulayaraq, Avropa Birliyi və Avropa Şurasını münaqişənin dinc vasitələrlə həlli istiqamətində səylərini gücləndirməyə çağırmışdı.[437]

2004-cü il aprelin 29-da AŞ PA-nın yaz sessiyasında Prezident İlham Əliyevin Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü haqqında ətraflı çıxışı böyük əks-səsdaya səbəb olmuş və Avropa ictimaiyyətində bu münaqişə haqqında geniş təsəvvür yaratmışdır. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın düşdüyü vəziyyət haqqında ətraflı danışan dövlət başçısı məsələ ilə bağlı özünün qətiyyətli və prinsipial mövqeyini bir daha nümayiş etdirərək söyləmişdir: "Əlbəttə, biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətlə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən geri çəkilməlidir. Qaçqınlara-köçkünlərə doğma yurdlarına qayıtmaq imkanı verilməlidir. XXI əsrdə Avropa Şurasının üzvü olan bir ölkənin-Ermənistanın Avropa Şurasının üzvü olan digər ölkənin-Azərbaycanın ərazilərini işğal etməsinə yol verməməliyik".[438] Ümumiyyətlə, Prezident İlham Əliyevin Ermənistanın ərazi iddiaları və təcavüzkarlıq siyasətinin ifşası istiqamətində faktlara əsaslanan çox məzmunlu çıxışı Azərbaycan diplomatiyasının növbəti uğurlu addımı kimi qiymətləndirilməlidir.

Cənubi Qafqazda ən "uzunömürlü" münaqişə olan Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmamasının regionun təhlükəsizliyinin təmin edilməsinə və Cənubi Qafqazın bütövlükdə inkişafına ciddi maneə olduğunu artıq BMT,

[437] "Azərbaycan" qəzeti, 18 mart 2004-cü il
[438] "Azərbaycan" qəzeti, 30 aprel 2004-cü il

ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı və b. qurumlar da rəsmi şəkildə bəyan etmişlər. ATƏT-in Minsk qrupunun həmsədri olan dövlətlərin (ABŞ, Rusiya, Fransa) rəsmi şəxsləri də münaqişənin tezliklə aradan qaldırılmasında maraqlı olduqlarını bildiriblər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın prinsipial mövqeyini Avropa Parlamenti də dəfələrlə qəbul etdiyi müraciət və qətnamələrində müdafiə etmişdir. Avropa Parlamenti Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistanın silahlı qüvvələrinin çıxarılması, bu torpaqların Azərbaycanın nəzarətinə qaytarılması, qaçqın və məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtması hüquqlarının olduğunu dəfələrlə təsbit etmiş və Ermənistandan işğal edilmiş Azərbaycan ərazilərinə nizami ordu göndərilməsinin dayandırılmasını tələb etmişdir. 2004-cü il mayın 12-də Avropa Parlamentinin Cənubi Qafqaz üzrə məruzəçisi Pyer Qarton Ermənistanda "Genişlənmiş Avropa - yeni qonşular" proqramı çərçivəsində keçirilən müzakirələrdə "Ermənistan işğal altında saxladığı ərazilərdən öz qoşunlarını tədricən çıxarmalıdır" - deməklə, Avropa İttifaqının Cənubi Qafqaz regionunda münaqişənin tezliklə aradan qaldırılmasının tərəfdarı olduğunu bildirmişdir.

Avropa Parlamentinin Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və Cənubi Qafqazda yürütdüyü işğalçı siyasətə münasibətinin ən bariz göstəricisi isə qurumun 2013-cü il oktyabrın 23-də Avropa Qonşuluq Siyasəti üzrə qəbul etdiyi xüsusi qətnamədə öz əksini tapmışdır.[439] Qətnamənin 16-cı paraqrafında Avropa Parlamenti tərəfindən "Şərq tərəfdaşlığı" Proqramında iştirak edən bir dövlət tərəfindən digər dövlətin ərazisinin işğal edilməsinin Şərq tərəfdaşlığının fundamental prinsip və məqsədlərinin pozulması olduğu barədə

[439] Bax: Azər TAC-ın xəbər bülleteni, 23 oktyabr, 2013-cü il.

mövqeyi xatırladılmış və bu xüsusda, Dağlıq Qarabağ münaqişəsinin həllinin BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələri və 2009-cu il 10 iyul tarixli Akvil birgə bəyanatında ehtiva olunan ATƏT-in Minsk qrupunun baza prinsipləri əsasında həll edilməli olduğu vurğulanmışdır. Qətnamədə ilk dəfə olaraq Ermənistan-Azərbaycan münaqişəsinin məhz işğalçı qüvvələrin dərhal, qeyd-şərtsiz və tam şəkildə işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılması və Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının təmin olunmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməli olduğu vurğulanmışdır.

Bu sənəd bir daha onu təsdiq edir ki, beynəlxalq birlik münaqişənin BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında həllinin tərəfdarıdır.

Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məsələyə dünyanın nüfuzlu beynəlxlaq təşkilatlarından biri olan Şimali Atlantika Alyansında (NATO) da baxılmış və onun 2006-cı ilin noyabrında Riqada keçirilən sammitində müzakirə olunmuşdur. 26 dövlətin nümayəndələrinin iştirak etdiyi sammitdə qəbul olunmuş "Yekun bəyannaməsi"ndə Azərbaycanın ərazi bütövlüyü prinsipi öz əksini tapmışdır. Baxmayaraq ki, NATO ATƏT çərçivəsində həyata keçirilən nizamlama prosesində bilavasitə iştirak etmir, lakin bəyannamədə göstərilir ki, NATO bu məsələnin tezliklə və sülh yolu ilə, ölkələrin ərazi bütövlüyü çərçivəsində həll edilməsinin və bölgədə sabitliyin yaranmasının tərəfdarıdır. [440]

Şimali Atlantika Təşkilatı təxminən eyni mövqeni özünün 2008 və 2009-cu illərdə keçirilən növbəti zirvə toplantılarında da nümayiş etdirmişdir. Bundan başqa, təşkilatın 19-20 noyabr 2010-cu ildə keçirilən Lissabon sammitinin "Yekun bəyanna-

[440] Bax: газ. "Зеркало", 11 февраля 2010 г.

məsi”nin 35-ci maddəsində də Azərbaycanın ərazi bütövlüyü prinsipi öz əksini tapmışdır. Sənəddə qeyd edilir ki, NATO bir daha Gürcüstanın, Azərbaycanın və Moldovanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini tanıdığını və münaqişələrin sülh yolu ilə həllinə tərəfdar olduğunu bəyan edir.[441]

Azərbaycan hökuməti 1999-cu ilin aprelindən başlayaraq beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllinə cəlb edilməsi və onların səylərinin artırılması istiqamətində nümayiş etdirdiyi fəaliyyəti ilə yanaşı, münaqişənin dinc vasitələrlə nizamlanması məqsədilə digər addımlar da atmışdır. Bunların içərisində Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşləri xüsusi əhəmiyyət daşıyır. 1993-2003-cü illərdə Prezident Heydər Əliyevin o zamankı Ermənistan rəhbərləri ilə onlarla belə görüşü olmuşdur. Ölkə prezidentləri Moskvada, Vaşinqtonda, Cenevrədə, Yaltada, İstanbulda, Davosda, Nyu-Yorkda, Minskdə, Parisdə, Ki-Uestdə, Soçidə, Kişinyovda, Praqada, Strasburqda, habelə iki respublikanın sərhədində - Sədərəkdə 25-ə yaxın ikitərəfli görüş keçirmişlər. Bundan başqa, 2003-2010-cu illərdə Prezident İlham Əliyev Ermənistan prezidentləri ilə təkbətək, ATƏT-in Minsk qrupunun həmsədrləri, yaxud Rusiya Prezidentinin iştirakı ilə 20-dən artıq görüş keçirmiş, Dağlıq Qarabağ münaqişəsinin həlli və Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə bağlı məsələləri müzakirə etmişdir. Bu görüşlərdə, qarşılıqlı olaraq, münaqişənin həllinin dinc yolla aradan qaldırılması imkanlarının hələ də tükənmədiyini vurğulamaqdan savayı, prezidentlər hələlik hansısa ciddi razılığa gəlinməsi haqqında heç bir fikir səsləndirməmişlər.

Siyasətşünaslar hesab edirlər ki, indiyə qədər reallaşdırılan çox ağır və çətin danışıqlarda Azərbaycan tərəfi öz haqlı mövqeyini ciddi şəkildə müdafiə etsə də, beynəlxalq münasi-

[441] Bax: “Azərbaycan” qəzeti, 23 noyabr 2010-cu il

bətlərin indiki reallıqları bu məsələdə bir sıra obyektiv və subyektiv çətinliklər yaratmaqdadır. Məsələ ondadır ki, münaqişə başlayandan bu günə kimi keçirilən bütün görüşlərdə və aparılan əksər danışıqlarda təcavüzkar Ermənistan rəhbərliyi açıq-aşkar qeyri-konstruktiv və hərbi güc mövqeyindən çıxış edərək, işğalçılıq siyasətindən əl çəkmək fikrində olmadığını dolayısı ilə göstərmişdir. Ermənistanın rəsmi şəxsləri dünya birliyinin bu münaqişəyə "ikili standartlar" prinsipindən yanaşmasını, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz öhdəliklərini və qəbul etdikləri qərarları həyata keçirmək üçün konkret addımlar atmaq "iqtidarında olmadığını" nəzərə alaraq, danışıqlar prosesində özlərini çox sərbəst hiss edirlər. Bu da danışıqların nəticəsiz şəkildə uzanmasına səbəb olur. Azərbaycan tərəfi mötəbər beynəlxalq tribunalardan dəfələrlə bəyan etmişdir ki, beynəlxalq birlik Dağlıq Qarabağ kimi münaqişələrin və Ermənistan kimi təcavüzkarların qarşısını almaq məqsədilə, BMT Nizamnaməsinin 7-ci fəslinə müvafiq olaraq ciddi tədbirlər görməsə, dünyada sülhü və təhlükəsizliyi təmin edən BMT və onun Təhlükəsizlik Şurasının üzvləri müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzlərin və təcavüzkarların cəzasını verməsə, planetimizi təhlükəsiz hesab etmək olmaz. Azərbaycan etnik separatizm və ərazi iddiaları əsasında yaradılmış Dağlıq Qarabağ münaqişəsinin regionda və dünyada törədə biləcəyi təhlükələr haqqında xəbərdarlıq edərək, dünya birliyini qəti şəkildə praktik addımlar atmağa, Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməyə və işğalçılıq siyasətindən daşındırmağa çağırır. Azərbaycan xəbərdarlıq edir ki, təcavüzkarın qarşısı alınmazsa, beynəlxalq dairələrin Cənubi Qafqazda, Avropada və bütöv dünyada sülhün və sabitliyin bərqərar edilməsinə yönəldilmiş səyləri əbəs olacaq, müxtəlif səbəblərlə yaranan lokal münaqişələr genişlənərək bütün dünyaya yayılacaq, nəticədə bəşəriyyət qlobal təhlükəyə sürüklənəcəkdir.

Təkrar və məşğələ sualları:

1. Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinin Cənubi Qafqazın əsas beynəlxalq və regional təhlükəsizlik problemi kimi qiymətləndirilməsinin əsas səbəblərini təhlil edin və bu problemlə bağlı beynəlxalq, regional və yerli maraqlar sistemini araşdırın.

2. Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, gedişi və mövcud vəziyyəti haqqında danışın, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının bu münaqişənin yaranmasındakı rolunu təhlil edin

3. Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın həyata keçirdiyi fəaliyyəti və onun nəticələrini təhlil edin.

4. Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinin həlli sahəsində beynəlxalq təşkilatların və ATƏT-in Minsk qrupu üzvlərinin fəaliyyətini təhlil edin və qiymətləndirin.

IV FƏSİL
AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ: ƏSAS MİLLİ MARAQLARI, GEOSİYASİ KODU VƏ TƏHLÜKƏSİZLİK PERSPEKTİVLƏRİ

§4.1. Azərbaycanın milli təhlükəsizlik siyasəti: formalaşması, əsas ölçüləri və mexanizmləri

XX əsrin sonlarında dövlət müstəqilliyinin bərpa edilməsi Azərbaycana dövlət quruluşunda əsaslı dəyişikliklərin həyata keçirilməsi, yeni sosial-iqtisadi və ictimai-siyasi münasibətlərin formalaşması və s. daxili siyasət məsələləri ilə yanaşı, həm də davamlı olaraq öz təhlükəsizliyinin qayğısına qalmaq kimi daimi bir məsuliyyət gətirdi.

Müstəqil dövlətçilik maraqlarının təmin edilməsi tələbləri, yeni geosiyasi aktorlarla birbaşa ünsiyyətin yaradılması, tamamilə fərqli təhlükəsizlik mühitinə daxil olması, iqtisadi, ictimai-siyasi münasibətlərin demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı yoluna çıxması və s. yeniliklər digər postsovet respublikalarında olduğu kimi, Azərbaycanda da şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinə dair yeni-yeni yanaşmaların, proqram və konsepsiyaların yaradılması zərurətini ortaya çıxarmışdır. Bütün bunlar Azərbaycan dövlətindən ölkənin milli vəzifə və tələblərinə uyğun, yeni prinsiplərə söykənən **Milli Təhlükəsizlik Konsepsiyasının** (MTK) formalaşdırılmasını tələb etmişdir.

Azərbaycan Respublikasının müstəqilliyə qovuşduğu 1991-ci ildən milli təhlükəsizliyinin əsas məqsədləri, milli

maraq çərçivəsinin müəyyən edilməsi və təmin olunması, milli təhlükəsizlik siyasətinin vəzifələri, mexanizmləri, metod və vasitələrinin tapılması və s. haqqında müxtəlif dövlət qurumları səviyyəsində, akademik dairələrdə və ictimai-siyasi institutlarda rəsmi və qeyri-rəsmi müzakirələr başlandı. Əlbəttə, milli inkişaf strategiyasının, milli maraq dairəsinin, ölkənin təhlükəsizliyinin əsaslarının müəyyən olunması və lazımi səviyyədə təşkili, onun təhlükəsizlik çərçivəsinin, geosiyasi kodunun yaradılması və milli təhlükəsizlik siyasətinin həyata keçirilməsi kimi mühüm dövlət vəzifələrinin həlli yenicə müstəqillik qazanmış və milli təhlükəsizlik sistemi hələ kifayət qədər möhkəmlənməmiş bir dövlət üçün düşünüldüyü kimi də asan iş deyildi. **Ölkənin milli inkişaf və təhlükəsizlik siyasətinin konseptual əsasları, mahiyyəti, əsas istiqamətləri, həyata keçirilmə yolları və mexanizmləri ilə bağlı dövlət qurumlarında və cəmiyyətdə əsaslandırılmış yanaşmalar və təsəvvürlər olduqca səthi idi. Sistemsiz və səriştəsiz aparılan təhlükəsizlik siyasətinin uğur qazanması çox çətin idi.** Xüsusən də nəzərə alınsa ki, 1991-1992-ci illərdə bu respublikada mürəkkəb və çətin vəziyyət yaranmışdı, ərazilərinə Ermənistanın təcavüzü ilə yanaşı, Azərbaycanın daxilində ictimai-siyasi sabitlik pozulmuşdu, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və ölkə daxilində hakimiyyət uğrunda mübarizəyə başlamışdı. Təbii ki, müxtəlif silahlı dəstələrin iştirakı ilə aparılan hakimiyyət mübarizəsi kimi hallar Azərbaycanın milli inkişafı və təhlükəsizliyinin təmin olunmasına da öz mənfi təsirini göstərirdi.

Yalnız 1993-cü ildən ölkə səviyyəsində xüsusi istiqamət kimi, vahid prinsiplərə söykənən milli inkişaf və təhlükəsizlik siyasəti həyata keçirilməyə başladı. Azərbaycanın milli inkişaf və təhlükəsizliyinin nəzəri və praktiki məsələləri geniş ictimai-siyasi və elmi müzakirəyə çıxarıldı, onun konseptual əsasları müəyyən edildi. Həmin dövrdən etiba-

rən bu siyasət müstəqil dövlət quruculuğu proseslərinin bütün sahələrini əhatə edərək, milli inkişafın və dövlət idarəçiliyinin əsas vasitələrindən birinə çevrildi.

Azərbaycanın milli təhlükəsizlik fəaliyyəti ilk 5-6 ildə əsasən təcili və təxirəsalınmaz işlərdən - ölkədə dərin ictimai-siyasi və sosial-iqtisadi böhranın doğurduğu daxili və xarici təhdidlərin qarşısının alınmasından, vətəndaş qarşıdurmasının dayandırılmasından və ölkə miqyasında dövlət idarəçiliyinin yaradılmasından ibarət idisə, sonrakı illərdə, xüsusən, 1998-ci ildən başlayaraq *dövlətin xarici və daxili təhlükəsizliyinin milli sisteminin yaradılması* sahəsində ardıcıl konseptual siyasi xəttə çevrilmişdir.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin nəzəri əsasları müstəqil dövlətimizin banisi Heydər Əliyevin 1993-2003-cü illərdəki ayrı-ayrı çıxışlarında öz əksini tapmışdır. Lakin bütövlükdə ölkənin Milli Təhlükəsizlik Konsepsiyasının ərsəyə gəlməsi və təhlükəsizlik siyasətinin tam formalaşdırması üçün Azərbaycan hökumətinə xeyli vaxt lazım olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev ölkənin milli maraqları ilə bağlı dövlət siyasətini formalaşdırarkən bir çox iqtisadi, siyasi, ideoloji, coğrafi, mədəni və digər amilləri, daxili siyasi maraqları, müxtəlif sosial-siyasi qüvvələrin manevrlərini, beynəlxalq aləmin mümkün reaksiyalarını, ulu öndərin təhlükəsizliklə bağlı zəngin nəzəri irsini nəzərə alaraq, ölkə vətəndaşlarının milli iradəsini və dövlətin ali təhlükəsizlik maraqlarını rəhbər tutmuşdur.

2004-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi **"Milli təhlükəsizlik haqqında"** Qanun qəbul etmişdir. Bu Qanun özündə Ümummilli lider Heydər Əliyevin milli təhlükəsizlik təliminin əsas prinsiplərini, məqsəd və vəzifələrini əks etdirməklə yanaşı, həm də ölkənin Milli Təhlükəsizlik Konsepsiyasının yaradılmasını şərtləndirmişdir. Həmin il Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Milli Təhlükəsizlik

Konsepsiyasının (MTK) hazırlanması üzrə işçi qrupu yaradılmış, layihə üzərində iş başlanmış, qısa müddətdə yekunlaşdırılaraq ölkə Prezidentinin 2007-ci il 23 may tarixli Sərəncamı ilə təsdiq olunmuş və fəaliyyət üçün əsas götürülmüşdür.

Milli Təhlükəsizlik Konsepsiyası ölkənin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində uzunmüddətli strateji vəzifə və prioritetləri özündə əks etdirən konseptual sənəd hesab olunur. Konsepsiyada Azərbaycanın gələcəkdə hərbi və sərhəd doktrinasının, xarici siyasət və təhlükəsizlik strategiyasının, iqtisadi, ekoloji, informasiya və digər həyati əhəmiyyət kəsb edən sahələrin təhlükəsizliyi siyasətinin formalaşdırılmasının vahid prinsipləri müəyyən olunmuş, hər bir sahə üzrə ayrıca təhlükəsizlik konsepsiyasının hazırlanması tövsiyə edilmişdir. [442]

Giriş, dörd bölmə və yekun müddəalardan ibarət olan MTK-da XXI əsrdə ölkənin milli maraqlarının təmin olunması ilə bağlı hakimiyyət strukturlarının bəzi fəaliyyət istiqamətləri müəyyən edilmiş və milli təhlükəsizlik sahəsində dövlət siyasətinin normativ-hüquqi bazası öz əksini tapmışdır.

Təhlükəsizlik siyasətinin əsas məqsəd və vəzifələri

Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsasını *dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşu və milli maraqlarının, vətəndaşların hüquq və mənafelərinin təmin edilməsi, onların daxili-xarici təhlükələrdən və təhdidlərdən qorunması* təşkil edir.

Milli təhlükəsizliyin **əsas obyektlərinə** *dövlət* – onun müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu, milli əraziləri-

[442]Daha ətraflı bax: Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti: əsas məqsədləri, vəzifələri və icra mexanizmləri //Heydər Əliyev və inkişafın Azərbaycan modeli. Bakı, 2010, s. 32 -48

onun bütövlüyü və təhlükəsizliyi, *vətəndaşlar* – onların hüquq və azadlıqları, *cəmiyyət* – onun maddi və mənəvi dəyərləri daxildir.

Milli təhlükəsizliyin **əsas subyektlərinə** isə insanların, cəmiyyətin və dövlətin təhlükəsizlik maraqlarının və tələbatlarının təmin edilməsi məqsədi ilə yaradılmış *dövlət hakimiyyəti orqanlar, hərbi və təhlükəsizlik institutları* aid edilir.

Milli təhlükəsizlik siyasətinin birinci ali məqsədini *Azərbaycanın dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, vətəndaşların hüquqlarının, cəmiyyətin milli və vətəndaş birliyinin, ölkənin sabit inkişafının tələb etdiyi ən ümdə dövləti vəzifələr və onların təminatı yolları, mövcud milli ehtiyatların bu işə səfərbər edilməsi proqramı və bəhs olunan sahədə məsuliyyətli dövlət idarəçiliyinin yaradılması* təşkil edir.

Hər bir dövlət kimi, Azərbaycan da *xaricdən müdaxilə olmadan öz dövlət idarəçiliyini yaratmaq, ölkənin strateji inkişaf yolunu seçmək, konstitusiya quruluşunun, daxili həyatının, cəmiyyətin və hər bir vətəndaşın təhlükəsizliyini, əhalinin firəvan həyatını təmin etmək, milli - vətəndaş birliyini və ictimai-siyasi sabitliyi qorumaq və s. kimi strateji vəzifələr* həyata keçirir. Bu vəzifələrin reallaşdırılması onun milli təhlükəsizliyik siyasətinin **ikinci əsas məqsədini** təşkil edir.

Milli təhlükəsizlik siyasəti beynəlxalq hüquq normalarına, ölkə konstitusiyasına, daxili qanunlara və prinsiplərə, insanların, cəmiyyətin və dövlətin maraqları arasında tarazlığın gözlənməsinə, həmin tərəflərin qarşılıqlı məsuliyyətinə əsaslanmalıdır. Mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycan Respublikası müstəqilliyə qovuşduğu andan *hüquqi və dünyəvi dövlət, demokratik cəmiyyət və siyasi plüralizm yolunu öz inkişafının və konstitusiya quruluşunun əsası elan edərək, bölgə ölkələri ilə sülh və mehriban qonşuluq şəraitində, dünyanın qabaqcıl siyasi, iqtisadi və təhlükəsizlik sistemləri ilə bərabər-*

hüquqlu əməkdaşlıq etmək və bu strukturlara inteqrasiya olunmaq xətti yürüdür. Bu vəzifələr Azərbaycandan həm öz daxili təhlükəsizliyini təmin edən, həm də regionun və dünyanın güc mərkəzləri, geosiyasi aktorları, transmilli strukturları ilə münasibətlərə dair xüsusi düşünülmüş və ardıcıl həyata keçirilən Milli Təhlükəsizlik Konsepsiyasının reallaşdırılmasını tələb edirdi. Bu konsepsiyanın yaradılması və ondan irəli gələn məsələlərin həlli ölkənin **milli təhlükəsizliyik siyasətinin üçüncü əsas məqsədini və vəzifəsini** təşkil edir.

Azərbaycanın xarici siyasətinin və geosiyasi hədəflərinin müəyyənləşməsində milli təhlükəsizlik məsələləri aparıcı yer tutur və onun əsas prioritetlərini təşkil edir. Bundan irəli gələrək, *ölkənin milli təhlükəsizliyinin təmin olunması, suverenliyinin və ərazi bütövlüyünün qorunub saxlanması, dünya birliyində nüfuzunun möhkəmlənməsi* onun həm xarici siyasətinin, həm də milli təhlükəsizliyinin **prioritet istiqamətlərindən və məqsədlərindən** hesab olunur.

Milli təhlükəsizlik siyasəti təkcə ölkənin məxsusi maraqlarının təmin edilməsinə deyil, həm də yerləşdiyi regionda və dünyada təhlükəsizlik mühitinin yaxşılaşmasına xidmət göstərməlidir. Bu anlamda Azərbaycanın **təhlükəsizlik siyasətinin məqsəd və istiqamətləri sırasına** sabit, ədalətli və demokratik dünya mühiti naminə beynəlxalq proseslərə müsbət təsir göstərmək, dövlətlər arasında bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinə töhfə vermək, milli mənafelərin təmin olunması məqsədilə dövlətlərlə və dövlətlərarası birliklərlə üst-üstə düşən ortaq maraqlar tapmaq və bunun əsasında ikitərəfli, çoxtərəfli tərəfdaşlıq münasibətləri formalaşdırmaq kimi məsələlər də daxildir.

Müasir beynəlxalq aləmdə Azərbaycanı dinamik inkişaf edən, insan hüquq və azadlıqlarını qoruyan, sosial yönlü siyasət yürüdən, bazar iqtisadiyyatı və liberal biznes mühiti qaydalarına hörmətlə yanaşan, sabit iqtisadi, siyasi, sosial, milli,

dini və vətəndaş cəmiyyətinə malik olan, tam müstəqil xarici siyasət yürüdən demokratik bir dövlət kimi tanıtmaq yolu ilə onun vətəndaşlarının və xaricdə yaşayan azərbaycanlıların hüquqlarını müdafiə etmək və s. milli maraqları reallaşdırmaq mümkündür. Deməli, **ölkənin müsbət beynəlxalq imicinin formalaşdırılması vəzifəsi də milli təhlükəsizlik və xarici siyasətin əsas məqsədlərindən** hesab olunur.

Təbii ki, müasir dünyada baş verən fundamental və dinamik dəyişikliklər Azərbaycan Respublikasından və onun vətəndaşlarının maraqlarından yan keçmir. Buna görə də Azərbaycanın **milli təhlükəsizlik və xarici siyasəti həm də beynəlxalq aləmdə baş verən hadisələrin axarını, transmilli qloballaşma prosesinin xüsusiyyətlərini nəzərə almalı və bu sahədə mövcud olan bütün vasitələrdən istifadə etməlidir.** Məsələn, Azərbaycan hesab edir ki, XXI əsrdə beynəlxalq münasibətlərin tənzimlənməsinin və münaqişələrin həllinin əlaqələndirmə mərkəzi BMT olmalıdır. Odur ki, ölkəmiz BMT-nin beynəlxalq aləmdə baş verən siyasi və iqtisadi dəyişikliklərə məqsədyönlü şəkildə uyğunlaşdırılması məqsədi ilə, bu beynəlxalq təşkilatda səmərəli islahatların aparılmasını daim dəstəkləməlidir. Yaxud da, Azərbaycan bir çox nüfuzlu beynəlxalq və regional təşkilatların üzvü kimi dünyanın aparıcı dövlətləri ilə münasibətləri inkişaf etdirir, dünya iqtisadiyyatına və siyasətinə sürətlə inteqrasiya olunur, Cənubi Qafqaz regionu ilə bağlı beynəlxalq münasibətlərin formalaşmasına həlledici təsir göstərir. Eyni zamanda, ölkəmiz həm milli, həm də beynəlxalq təhlükəsizliyin təmin olunması üçün hüquq bərabərliyi, qarşılıqlı hörmət və faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan sabit dünya nizamının mövcud olmasına çalışır. Çünki bu halda dünya birliyinin hər bir üzvünün siyasi, hərbi, iqtisadi, informasiya, humanitar və digər sahələrdə etibarlı və bərabər təhlükəsizliyini təmin etmək mümkündür.

§4.2. Təhlükəsizlik mühitinin formalaşması və beynəlxalq imicin qazanılması

Hər bir ölkənin milli təhlükəsizlik siyasətinin səmərəliliyi və müvəffəqiyyəti ölkənin təhlükəsizlik mühiti və beynəlxalq imicindən asılıdır. Dövlətin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqlarının təminatı, davamlı inkişafı, vətəndaşlarının sosial-siyasi hüquqlarının və rifah halının təmin olunması və milli-mənəvi dəyərlərinin qorunmasına təsir edən əsas amillər məhz təhlükəsizlik mühitini və beynəlxalq imici müəyyən edir.

Azərbaycan müstəqil bir dövlət olaraq, beynəlxalq hüququn subyekti kimi müasir dünyanın bir hissəsidir, BMT, ATƏT, Avropa Şurası, İKT, MDB, GUAM, EKO, TDB və digər beynəlxalq və regional təşkilatların üzvüdür. O, siyasi, sosial-mədəni baxımdan nüfuzlu beynəlxalq strukturlara hərtərəfli inteqrasiya xətti yürüdür və çoxsaylı beynəlxalq konvensiyalara qoşulmuşdur. Bütün bunlar həm ölkənin təhlükəsizlik mühitinə, həm də beynəlxalq imicinin müəyyənləşməsinə bilavasitə təsir göstərir.

Azərbaycan coğrafi və geosiyasi əhəmiyyəti olan bir regionda yerləşir. Onun malik olduğu geosiyasi, geoiqtisadi və geostrateji mövqe də, yürütdüyü daxili və xarici siyasət kimi dünyanın və regionun aparıcı dövlətlərinin maraqlarına toxunur və onların diqqətindən kənarda qalmır. Bu reallıq həm bölgənin, həm də ölkənin daxili təhlükəsizlik mühitinə birbaşa təsir göstərir. ABŞ və Qərbi Avropanın böyük ölkələri, regionun Rusiya, Çin, Türkiyə, İran kimi dövlətləri və digər geosiyasi aktorlar Cənubi Qafqazda, Orta Asiyada və bütövlükdə Avrasiyada öz maraqları çərçivəsində fəal geosiyasət reallaşdırırlar. Bu da Azərbaycanın həm regional, həm də beynəlxalq maraqlarından yan keçmir.

Azərbaycanın hərbi-geostrateji durumu, bu sahədə yürütdüyü siyasət və atdığı addımlar həm Qərbin, xüsusilə ABŞ, AB və NATO-nun, həm də Rusiya, İran və Çin kimi region ölkələrinin diqqət mərkəzində olur. Regionun Rusiya, İran və Türkiyə kimi güclü ölkələri ilə həmsərhəd olması, dünyada və bölgədə tarazlaşdırılmış xarici siyasət aparması, heç bir hərbi-strateji bloka üzv olmaması, əksər ölkələrlə tərəfsiz əməkdaşlıq etməsi və s. geosiyasi addımları da onun təhlükəsizlik mühitinə və beynəlxalq imicinə təsirsiz ötüşmür. Bu mənada Azərbaycanın müstəqillik illərində davamlı olaraq yürütdüyü dinc tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq siyasəti ona "regionda geosiyasi gərginliyi azaldan və bərabərhüquqlu əməkdaşlıq mühiti yaradan konstruktiv dövlət" imici qazandırmışdır. Bu amil dünya birliyində ölkəmizi etibarlı tərəfdaş kimi tanıtmış, Xəzər hövzəsi və Cənubi Qafqazda onun reallaşdırdığı transmilli layihələrə diqqəti artırmış və bölgədəki geosiyasi roluna ciddi maraq yaratmışdır.

Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına malik olması və öz milli sərvətlərindən insanların rifahı, dünyada sülhün və iqtisadi inkişafın təmin olunması naminə istifadə etməsi, bəşəriyyətin XXl əsrdə artan enerji və nəqliyyat-kommunikasiya ehtiyaclarını təmin etmək məqsədi güdən nəhəng transmilli layihələrin əsas təşəbbüskarı kimi çıxış etməsi onun müsbət beynəlxalq imicinin formalaşmasına xüsusi təsir göstərmiş və dünyanın əsas güc mərkəzlərinin diqqət mərkəzinə çıxarmışdır. "Əsrin müqaviləsi" çərçivəsində 1994-cü ildən etibarən çoxsaylı xarici şirkətlərlə birlikdə Xəzər dənizində özünün zəngin neft və qaz yataqlarının istismarına başlaması Azərbaycana ABŞ, Böyük Britaniya, Fransa, Norveç, Türkiyə, İtaliya, Yaponiya, Rusiya, Səudiyyə Ərəbistanı kimi dövlətlərlə və çoxsaylı nəhəng transmilli şirkətlərlə ortaq tərəfdaşlıq münasibətləri qazandırmışdır.

Bütün bunlarla yanaşı, Azərbaycanın bir çox əhəmiyyətli enerji, nəqliyyat-kommunikasiya və tranzit yükdaşıma layihələrində (Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Avropa-Qafqaz-Asiya nəqliyyat-kommunikasiya dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu və s.) iştirak etməsi onun regiondakı geoiqtisadi əhəmiyyətini artırmaqla yanaşı, həm də beynəlxalq enerji-nəqliyyat təhlükəsizliyinin təmin olunmasında mühüm rolu olan ölkələrdən birinə çevrilməsinə şərait yaratmışdır. Məsələn, mərkəzində Azərbaycanın dayandığı TRACECA layihəsinin Hindistandan və Çindən başlayaraq Portuqaliya və İspaniyaya qədər böyük bir coğrafi ərazidə yerləşən Avropa və Asiya dövlətlərini, Cənub-Şərqi Asiyadan Avropa İttifaqına qədər nüfuzlu iqtisadi güc mərkəzlərini əhatə etməsi və ən əlverişli marşrutla birləşdirməsi regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasına böyük töhfə oldu. Lakin Azərbaycanın yerləşdiyi əhəmiyyətli coğrafi mühit ona mühüm geosiyasi üstünlüklər və arzu olunan tərəfdaş imici qazandırmaqla yanaşı, həm də ciddi rəqiblər yaratmış, onu bir sıra özünəməxsus təhlükəsizlik problemləri və təhdidləri ilə üzləşdirmişdir.

§ 4.3. Azərbaycanın milli maraqları və onun çərçivəsi: milli təhlükəsizliyə təhdidlər

Azərbaycan Respublikasının əsas inkişaf prioritetləri ilk növbədə onun milli maraqlarının formalaşması və təmin olunması ilə bağlıdır. Müasir dövrdə ölkələrin milli inkişaf tələbləri onların daxili və xarici siyasətini, sosial-iqtisadi və siyasi-hüquqi inkişafının vəzifələrini və səviyyəsini, coğrafi və geosiyasi mövqeyini, milli-tarixi ənənələrinin qorunması və inkişaf etdirilməsini, dövlətin suverenliyinin və milli təhlükəsizliyinin təmin olunmasını və s. çoxsaylı vəzifələrin həyata keçirilmə-

sini tələb edir. Bütün bunlar öz əksini geosiyasət elminin **"milli maraq"** kateqoriyasında tapır.

Milli maraqlar öz məzmununa görə ictimai maraqlardan bir qədər fərqlənir. Belə ki, ictimai maraqlar dövlətin daxili siyasətini müəyyənləşdirən qanunlar sistemi ilə bağlıdır və onunla tənzimlənir. Milli maraqlar isə əsasən dövlətin xarici siyasət sahəsinə aiddir və beynəlxalq aləmlə təmasda onun rəsmi fəaliyyətinin əsasını təşkil edir. Lakin bu fərqlərə baxmayaraq, hər bir ölkənin ictimai və milli maraqları bir-birini tamamlayır. Çünki həm beynəlxalq aləmin və ölkələrarası münasibətlərin təsiri ictimai maraqlardan yan keçmir, həm də milli maraqlar ölkədəki sosial-iqtisadi vəziyyətdən, ictimai-siyasi sabitlikdən və mənəvi-əxlaqi mühitin sağlamlığından bilavasitə asılı olur. Keçid dövrünü yaşayan ölkələrdə isə ictimai və milli maraqlar arasındakı qarşılıqlı təsir və birbaşa bağlılıq özünü daha qabarıq şəkildə büruzə verir. Bütün bu formulları Azərbaycan Respublikasına da şamil etmək olar.

Azərbaycanın daxili siyasətində vətəndaşların əsas maraqlarını hakimiyyət qurumları, ictimai-siyasi təşkilatlar və digər yerli strukturlar ifadə edirsə, milli maraqları beynəlxalq aləmdə əsasən Azərbaycan dövləti və onun müvəkkil etdiyi qurumlar həyata keçirir.

Azərbaycan Respublikasının **milli maraq çərçivəsi** dünya ölkələrinin yuxarıda sadalanan universal təhlükəsizlik ölçülərini nəzərə almaqla yanaşı, həm də məxsusi təhlükəsizlik təhdidlərindən qaynaqlanan bəzi xarakterik xüsusiyyətləri ilə seçilir.

Azərbaycanın milli təhlükəsizliyinin bu gün üçün **ən əsas problemi və hərbi-geostrateji vəzifəsi** *illərdir uzanan və hələ ki sonu görünməyən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq, ölkənin pozulmuş ərazi bütövlüyünü və suveren dövlət hüquqlarını bərpa etmək, regionda sülhü və dinc əməkdaşlıq mühitini təmin etməkdən ibarətdir.* Ölkənin xarici aləmlə bütün təmaslarında, ikitərəfli və çoxtə-

rəfli münasibətlərində bu problemin müzakirəsi və beynəlxalq hüquq normaları çərçivəsində həlli məsələsi daim diqqət mərkəzində saxlanılır. Bu problem 20 ildən artıq bir dövrdə nəinki təkcə Azərbaycana, onun müstəqil dövlət quruculuğu prosesinə, vətəndaşlarının sabit həyat şəraitinə ciddi zərbə vurmuş, eyni zamanda regionda (Qafqaz, Xəzər-Qara dəniz hövzəsində) dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələri pozmuş, ölkələri və xalqları qarşıdurmaya sürükləmiş, onların bir-biri ilə və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstərmişdir. Hazırda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həm Cənubi Qafqazda, Avrasiya və Avropada, həm də bütövlükdə qlobal dünyada həllini gözləyən ən çətin və mürəkkəb problemlərdən biri hesab olunur.

Azərbaycanın milli təhlükəsizliyinin həyati əhəmiyyət kəsb edən **ikinci əsas məsələsi** *malik olduğu təbii sərvətləri, karbohidrogen və enerji ehtiyatlarını (xüsusən Xəzər dənizinin Azərbaycana aid olan milli sektorunda istehsal olunan neft və təbii qazı) xarici müdaxilə olmadan, özünün müəyyən etdiyi xarici tərəfdaşlarla birgə işləmək, təhlükəsiz və əlverişli yollarla dünya bazarlarına çıxarmaq və əldə olunan gəliri ölkənin inkişafına və digər ehtiyaclarına yönəltməkdən ibarətdir.*

Azərbaycanın milli maraq çərçivəsinə həmçinin:

- Ermənistanın işğalçılıq siyasətinin doğurduğu nəticələrin aradan qaldırılması, yurdundan didərgin salınmış qaçqın və məcburi köçkünlərin geri qaytarılması və əzəli torpağında məskunlaşdırılması;
- işğalın bir daha təkrarlanmaması üçün zəruri təhlükəsizlik tədbirlərinin görülməsi, o cümlədən milli ordunun lazımi hərbi hazırlıq vəziyyətinə gətirilməsi;
- Azərbaycan xalqının milli birliyinin və varlığının, əsrlər boyu formalaşmış adət-ənənələrinin, milli-

mənəvi dəyərlərinin, dilinin, dininin qorunması, yaşadılması və ümumbəşəri dəyərlər hesabına zənginləşdirilməsi;

- ölkədə hüquq normaları və qanunçuluğun, insan hüquq və azadlıqlarının dönmədən təmin olunması, mövcud ictimai-siyasi sabitliyin, vətəndaş cəmiyyəti normalarının, tolerant etnik və dini mühitin qorunması və inkişaf etdirilməsi, separatçılığın, siyasi, etnik və dini ekstremizmin aradan qaldırılması;
- dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təmin edilməsi, onların vətənpərvərlik hisslərinin gücləndirilməsi və azərbaycançılıq ideyası ətrafında birləşdirilməsi, dünyada yaşayan soydaşlarımızın milli və vətəndaş hüquqlarının təmin edilməsi və s. təxirəsalınmaz vəzifələr daxildir.

Məkan əlamətlərinə görə Azərbaycanın milli maraq çərçivəsinə:

- ölkənin öz sərhədləri daxilində təzahür edən;
- regional münasibətlərdə, qonşu ölkələrlə təmasda, beynəlxalq məkanda və ya hər hansı hökumətlərarası təşkilatlar çərçivəsində təmsil olunan maraqlar daxildir.

Milli maraqlar **əsas** və yaxud **ikinci dərəcəli, daimi,** yaxud **əvəzlənən, uzunmüddətli**, yaxud **qısamüddətli** maraqlara ayrılır.

Əsas və daimi milli maraqlar bir çox mühüm geosiyasi parametrlərinə - dövlətin beynəlxalq münasibətlər sistemindəki yeri və roluna, nüfuzu və hərbi gücünə, özünün suverenliyini qoruyub saxlamaq və vətəndaşlarının təhlükəsizliyini təmin etmək qabiliyyətinə və s. görə müəyyənləşir.

Azərbaycanın milli maraq çərçivəsi **onun geosiyasi parametrlərinə, dövlətin iqtisadi, hərbi gücü və resurs imkanlarına uyğun olaraq** formalaşır. Bu amil özündə millətin

təkamül mərhələsini, iqtisadi, siyasi, sosial, milli-psixoloji və digər amillərin mürəkkəb kombinasiyası ilə reallaşan tarixi inkişaf prosesini ehtiva edir. Göstərilən amillər eyni zamanda həm də Azərbaycan xalqının milli iradəsini, milli dövlət quruculuğu və tarixi təcrübəsinin məzmununu və xarakterini əks etdirir. Bu halda milli maraqlar ictimai-tarixi fenomen kimi çıxış edir, xalqın identikliyi ilə sıx qarşılıqlı əlaqə yaradır.

Milli təhlükəsizliyə təhdidlər

"Milli təhlükəsizlik" anlayışı və "təhlükəsizlik təhdidləri" terminindən ilk dəfə 1904-cü ildə Amerika alimlərinə məxsus geosiyasi ədəbiyyatda istifadə olunmuşdur. "Milli təhlükəsizlik" termini sonrakı illərdə dünya geosiyasət elmində bir çox dəyişikliklərə məruz qalmışdır. Əvvəlcə bu anlayışa daxili məzmun daşıyan məsələlər - *əmlakın, şəxsiyyətin və dövlətin mühafizəsi aid edilirdisə, sonradan bu sıraya beynəlxalq və milli təhlükəsizlik məsələləri də əlavə olunmuşdur.* 1986-1987-ci illərdən etibarən dünya siyasətşünaslığında milli təhlükəsizliyə *insanların, cəmiyyətin və dövlətin daxili və xarici təhdidlərdən qorunmasını təmin edən inteqral anlayış kimi* yanaşılmağa başlandı.

Azərbaycanın qanunvericilik və normativ-hüquqi aktlarına müvafiq olaraq*, milli təhlükəsizlik insanların, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli mühüm maraqlarının, həmçinin milli dəyərlərin və həyat tərzinin daxili və xarici təhdidlərdən etibarlı müdafiəsidir*. Milli təhlükəsizlik sistemi ilə milli təhlükəsizliyin təmin olunması sistemi öz məzmununa görə bir-birindən fərqlənir. Birincisi maraq və təhdidlərin qarşılıqlı təsiri prosesini əks etdirən funksional nəzəri (konseptual) sistemdirsə, ikincisi milli təhlükəsizliyin təmin olunmasının praktiki məsələlərini həll etməyi nəzərdə tutan orqanlar, vasitələr, müxtəlif təşkilatlar (institusional) sistemidir.

Qeyd etməliyik ki, maraqların həyata keçirilməsi ilə bağlı fəaliyyət zamanı geosiyasi aktorlar - fərdlər, sosial qruplar və dövlətlər arasında bəzi obyektiv ziddiyyətlər meydana çıxır. Həmin ziddiyyətlər çoxsaylı fəaliyyət sahələrindən və konkret şəraitdən asılı olaraq müxtəlif formalarda təzahür edir. Bir-birinə zidd maraqların (daxili yaxud xarici) toqquşması əvvəl potensial, sonra isə real təhdidlər yaradır. Lakin maraqların üst-üstə düşən və paralellik təşkil edən digər növləri də olur. Bunlar isə öz məzmununa görə müsbət münasibətlərin formalaşmasına şərait yaradır, ictimai və beynəlxalq münasibətlərdə qarşılıqlı anlaşmaya nail olmaq üçün baza rolunu oynayır.

Təhdidlərin aşkar edilməsi və aradan qaldırılması, milli təhlükəsizliyin təmin olunması müvafiq qurumlardan bu məsələlərə vaxtında reaksiya verilməsini, insanların, cəmiyyətin və dövlətin maraqlarının müdafiəsinin lazımi səviyyədə, məsuliyyətlə təşkil olunmasını tələb edir.

Azərbaycanın milli təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlər müəyyən təsnifat üzrə qruplaşdırılır. Bu təsnifat təhdidlərə qarşı, onların konkret xüsusiyyətlərini nəzərə almaqla, təşkilati tədbirlər görməyə lazımi imkanlar yaradır. Təsnifatın əsasında təhlükə mənbəyinin yerləşdiyi məkan, təhdidin formalaşma səviyyəsi, xarakteri və s. dayanır.

Təhdidlər təhlükə mənbəyinin harada yerləşməsindən asılı olaraq **daxili** və **xarici təhdidlərə** bölünür. Əgər təhdidlər xarici dövlətdən və onun vətəndaşlarından gəlirsə, onlar xarici təhdidlər adlanır. Təhdidlərin mənbəyi dövlətin daxilində və onun vətəndaşları ilə bağlıdırsa, onlara daxili təhdidlər deyilir.

Formalaşma səviyyəsinə görə təhdidlər **potensial** və **real təhdidlərə** ayrılır. Potensial təhdidlər özündə təhlükənin yaranmasını, onun ilkin şərtlərinin formalaşmasını, zərər yetirmək imkanlarını ehtiva edir. Real təhdidlər isə artıq formalaşmış hadisədir və onun zərər yetirməsi üçün bir və yaxud bir neçə amil çatışmır. Real təhdidlər yaranan zaman milli təhlü-

kəsizliyi təmin etmək sisteminin qarşısında təhdidin kəskinliyini azaltmaq və onu aradan qaldırmaq üçün lazımi tədbirlər görmək vəzifəsi dayanır.

Təhdidlər xarakterindən asılı olaraq **təbii, antropogen** və **sosial** təhdidlərə bölünür. Təhdidlərin bu cür növlərə ayrılması daha kəskin təhdidləri məqsədyönlü şəkildə aşkarlamağa, onların qarşısını vaxtında almağa, milli təhlükəsizliklə bağlı fəaliyyətin səmərəliliyini artırmağa imkan verir.

Ümumi təhlükəsizlik prinsiplərinə, təhdidlərin növünə, miqyasına, onların təhlükəsizlik obyektlərinə təsir vasitələrinə görə Azərbaycanın təhlükəsizlik konsepsiyasında müasir dövrdə milli təhlükəsizliyinin üzləşdiyi təhdidlər sırasına aşağıdakı məsələlər aid edilir: [443]

- Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər;
- qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyalarının yerinə yetirilməsinə qarşı yönəlmiş fəaliyyət;
- separatçılıq, etnik, siyasi və dini ekstremizm;
- terrorçuluq və kütləvi qırğın silahlarının yayılması;
- regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlıq;
- ölkəmizin enerji infrastrukturuna qarşı fəaliyyət;
- xarici siyasi, hərbi və ya iqtisadi asılılıq;
- iqtisadi qeyri-sabitlik;
- peşəkar insan ehtiyatlarının çatışmazlığı;
- regional hərbiləşdirmə;
- ekoloji problemlər.

[443] Bax: http://e-qanun.az

Təhdidlərin bu cür bölgüsü milli təhlükəsizliyin təmin olunması sisteminin təşkilində və onun əsas fəaliyyət istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynayır.

§ 4.4. Azərbaycanın milli təhlükəsizliyin təmin olunmasının əsas vasitələri və ehtiyatları

Azərbaycanın milli maraq və milli təhlükəsizliyinin təmin edilməsi birbaşa onun daxili və xarici maraqlarının düzgün müəyyənləşdirilməsi və təmin olunması mexanizmlərinin yaradılmasından asılıdır. Ölkənin milli təhlükəsizlik maraqları və onun çərçivəsi müəyyənləşdirilərkən konkret zaman - SSRİ ilə ABŞ arasındakı "soyuq müharibə" dövründən və birincinin dağılmasından sonra yaranmış "müasir dünya nizamı" adlandırılan beynəlxalq münasibətlər sistemindəki mühüm dəyişikliklər və dünya geosiyasi məkanındakı indiki qüvvələr nisbətindən irəli gələn xarakterik xüsusiyyətlər nəzərə alınır.

Milli maraqların məzmunu, çərçivəsi və ölçüləri cəmiyyətin dəyərlərini özündə əks etdirən **"milli idealla"** müəyyənləşir. Ümumi şəkildə götürdükdə, millətin və xalqın ən mühüm "idealını" ilk növbədə özünüqoruma, özünüyaşatma və davamlı inkişaf (yeniləşmə, təkmilləşmə və s.) maraqları təşkil edir. Məsələn, Azərbaycan öz milli təhlükəsizliyinin çərçivəsini və təmin edilməsi mexanizmlərini 1992-1995-ci illərin "özünüqoruma və özünüyaşatma" vəziyyətindən 1996-cı ildə başlanan "davamlı inkişafa qədərki" keçid dövrünün dinamikasında yarada bilmişdir.

Milli maraq çərçivəsi **milli vəzifələrin əhəmiyyətinə və dərəcəsinə görə** sıralanır və tez-tez istifadə olunan **"həyati əhəmiyyətli maraqlar"** ifadəsində öz əksini tapır. Qeyd etmək lazımdır ki, bu ifadə dünyanın əksər dövlətlərinin normativ-hüquqi sənədlərində xüsusi yer tutur. Məsələn, Rusiyanın

"Federal təhlükəsizlik haqqında" Qanununda, Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasında və s. sənədlərdə "həyati əhəmiyyətli mühüm maraqlar" anlayışı öz əksini tapmışdır. Bu sənədlərdə həmin anlayış altında fövqəladə dərəcədə vacib olan, millətin təhlükəsizliyi və özünüyaşatma idealı ilə bağlı məsələlər nəzərdə tutulmuşdur. Rusiya Federasiyasının adı çəkilən qanununda həyati əhəmiyyətli mühüm maraqlara "milli tələbatlar məcmusu" kimi baxılır. Onların da reallaşdırılması insanların, cəmiyyətin və dövlətin mövcudluğunu, mütərəqqi inkişaf imkanlarını etibarlı şəkildə təmin edir.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında göstərilir ki, milli maraqlar xalqımızın fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur və aşağıdakılardan ibarətdir:

- dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;
- Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının aşılanması;
- vətəndaş cəmiyyətinin formalaşdırılması, əsas insan hüquq və azadlıqlarının təmin olunması;
- demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmin edilməsi yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi və əhalinin təhlükəsizliyinin qorunması;
- beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizliyə, sabitliyə töhfə vermək üçün beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi;
- bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olun-

ması məqsədi ilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;

- təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, təhsil, elmi və texnoloji potensialın artırılması yolu ilə xalqımızın gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;
- milli özünəməxsusluğun və dünya azərbaycanlıları arasında həmrəyliyin möhkəmləndirilməsi;
- xalqımızın mədəni-tarixi irsinin, mənəvi dəyərlərinin qorunması və ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi;
- özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialın inkişaf etdirilməsi və s.[444]

Milli təhlükəsizlik ölçüləri

Milli təhlükəsizliyin təmin olunması müasir dövrdə istənilən dövlətin daxili və xarici siyasətinin prioritet vəzifəsi hesab olunur. Milli təhlükəsizlik ölçüləri və milli maraq çərçivəsi texniki tərəqqinin və qlobal inkişafın dönməz xarakter aldığı XX əsrin sonlarına qədər daha çox *ölkələrin müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun və suveren dövlət idarəçiliyinin birbaşa xarici hücumlardan, hərbi müdaxilələrdən, cəmiyyət həyatına və şəxsiyyətə qarşı qəsdlərdən, xəfiyyə fəaliyyətindən və s. təhdidlərdən qorunması kimi başa düşülürdüsə,* qloballaşmanın vüsət aldığı və ölkələrarası sərhədlərin şəffaflaşdığı müasir dövrdə bu anlayışa həm də:

- regional münaqişə və transmilli cinayətkarlıq, nəzarətsiz ərazi və mütəşəkkil silahlı dəstələrdən qaynaqlanan təhdidləri;

[444] Bax: http://e-qanun.az

- dövlətdaxili ictimai həyatın (cəmiyyətin) milli, dini, sosial tarazlığının və ölkənin demoqrafik mühitinin pozulmasını və qanunsuz miqrasiyanı;
- dövlətlərin iqtisadi, siyasi, sosial, ərzaq, enerji, ekoloji, nəqliyyat, maliyyə, milli valyuta təhlükəsizliyinə və makroiqtisadi mühitinə müdaxiləni və xarici aktorlardan asılı vəziyyətə düşməsini;
- ölkələrin informasiya-kommunikasiya sistemlərinə, ictimai rəyyaratma, ideoloji və mətbuat vasitələrinə total xarici, transmilli müdaxiləni və geosiyasi təsir-etməni;
- transmilli beynəlxalq terrorizmi, kütləvi qırğın və digər silahların nəzarətdənkənar yayılmasını, narkotik maddələrin ticarətini və digər milli təhlükəsizlik sahələrini aid edirlər.

Geosiyasi ədəbiyyatda milli təhlükəsizliyin XXl əsrdəki əsas ölçülərinin qloballaşmanın səviyyəsi və mövcud ölkənin transmilli dünyaya inteqrasiyasının dərinliyi ilə bağlı müəyyənləşəcəyi göstərilir. Sərhədlərin şəffaflaşması ilə mal dövriyyəsi və ticarətin, pul, texnologiya və informasiya innovasiyalarının transmilliləşməsi dövlətlərin öz geoməkanlarını qorumaq işini getdikcə çətinləşdirir. Bir çox ölkələr artıq əvvəlki kimi, sərhəd maneələri yaratmaqla yerli bazarın təhlükəsizliyini təmin etmək, dünyanın əsas transmilli şirkətlərinin, arzuolunmaz ideologiyaların, təbliğat-informasiya materiallarının onun ərazisinə daxil olmasının qarşısını almaq iqtidarını itirməkdədir. Bu vəziyyət getdikcə milli adət-ənənələrin, mənəvi dəyərlərin itirilməsinə, ənənəvi həyat tərzinin pozulmasına və kosmopolit mühitin formalaşmasına, ictimai, siyasi və sosial həyatın standartlaşmasına səbəb olur. Bu da ölkənin milli varlığını bilavasitə təhlükə qarşısında qoyur. Bundan başqa, əsas məqsədi gəlir götürmək olan transmilli şirkətlər ölkələrin təbii sərvətlərini və sağlam ekoloji mühitini vəhşicəsinə istis-

mar edir, təbiətini korlayır, sabit və tarazlı inkişafını pozaraq xammal mənbəyinə çevirir, əhalisini gələcək iqtisadi, sosial, ekoloji və s. geosiyasi, geostrateji və geoiqtisadi təhlükələrlə üz-üzə qoyurlar. Bütün bunlar və qloballaşmanın dövlətlərin milli maraqlarının təmin olunması yolunda yaratdığı digər müasir problemlər hər bir ölkədən milli maraqlarını və milli təhlükəsizliyini təmin etmənin xüsusi strategiyasını yaratmağı və onu dönmədən həyata keçirməyi tələb edir.

Milli təhlükəsizliyin təmin olunmasının əsas vasitələri və ehtiyatları

Milli maraqların və milli təhlükəsizliyin təmin olunması üçün dövlət öz sərəncamında olan bütün maddi və mənəvi vasitələrdən, daxili və xarici ehtiyatlardan - iqtisadi, siyasi, ideoloji, diplomatik və s. mexanizmlərdən istifadə edir.

Milli təhlükəsizliyin təmin olunması ölkənin sabit və davamlı inkişafında strateji əhəmiyyət daşıyır, ictimai həyatın bütün sahələrini əhatə edən dinamik dəyişikliklər prosesinə mühüm təsir göstərir.

Milli təhlükəsizliyinin təmin olunması üçün dövlət özünün həm **daxili ehtiyatlarından**, həm də **xarici siyasət vasitələrindən** (siyasi, iqtisadi, hərbi, təbliğat, informasiya və s.) istifadə edir. Xarici siyasi fəaliyyətin əsas vasitəsi ilk növbədə rəsmi diplomatiya qurumları hesab olunur. Diplomatiya xüsusi institutların timsalında və beynəlxalq hüquqa uyğun olan çoxsaylı metod və vasitələrin köməyi ilə dövlətin rəsmi xarici fəaliyyətini təşkil edir və ona rəhbərliyi həyata keçirir.

Dövlətin malik olduğu iqtisadi vasitələr qarşıya qoyulan məqsədlərə nail olmaq üçün iqtisadi ehtiyatlardan istifadə etməyi və xarici iqtisadi imkanlardan bəhrələnməyi nəzərdə tutur. Çünki dövlət güclü iqtisadiyyata və maliyyə mənbələrinə malik olmaqla, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirə

bilər. Hərbi vasitələrə ordunu, onun sayını, silahlanmanın keyfiyyətini və silahlı qüvvələrdə mənəvi əhval-ruhiyyəni ehtiva edən dövlətin hərbi qüdrəti aiddir.

Xarici siyasətin təbliğat və informasiya vasitələrinə isə bütün müasir informasiya vasitələrinin fəaliyyəti və xarici diaspor qurumlarının imkanları daxildir. Bu vasitələr Azərbaycan dövlətinin milli maraq və təhlükəsizliyinin təmin olunmasında, dünya birliyindəki nüfuzunu yüksəltməsində, özünə çoxsaylı tərəfdarlar qazanmasında və onlarla qarşılıqlı faydalı əməkdaşlıq yaratmasında böyük əhəmiyyətə malikdir.

Təhlükəsizliyin təmin edilməsində ən çox istifadə olunan daxili ehtiyatlar və siyasət vasitələrinə dövlət orqanları və qeyri-hökumət strukturları, siyasi partiyalar, vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri, milli elita və s. daxildir. Dövlət bu qurumların hər biri ilə xüsusi iş aparır və onların bəzi tələbatını ödəməklə, imkanlarından milli təhlükəsizliyin təmin olunması istiqamətində istifadə edir.

Milli təhlükəsizliyin daxili şərtləri sırasına dövlətin ali orqanlarının ölkədə konstitusiya normalarını, qanunçuluğu, ictimai-siyasi sabitliyi, demokratiyanı və hüquqi dövlət maraqlarını dönmədən təmin etməsi, milli-vətəndaş birliyinə nail olması, tolerant mühit yaratması, elmi, təhsili, sosial həyatı inkişaf etdirməsi, milli-mənəvi dəyərləri qoruması, iqtisadi, mənəvi, sosial tərəqqiyə nail olması və s. daxildir.

Azərbaycanın təhlükəsizlik siyasəti daxili sabitlik və sərhəd təhlükəsizliyinin təmin olunması, ölkədaxili miqrasiya, enerji, nəqliyyat təhlükəsizliyi, fövqəladə halların idarə edilməsi, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi, informasiya təhlükəsizliyi və s. məsələlərin də daim diqqətdə saxlanılmasını tələb edir.[445]

[445] Bax: http://e-qanun.az

V FƏSİL
MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

§ 5.1. Azərbaycanın hərbi təhlükəsizlik siyasəti

Azərbaycan Respublikasının *milli təhlükəsizlik siyasətinin əsas vəzifə və istiqamətlərindən biri ölkə ərazisinin və əhalisinin birbaşa xarici hərbi müdaxilələrdən, hər hansı təhdidlərdən qorunması, dövlətin hərbi təhlükəsizliyinin təmin olunması və suveren hakimiyyət səlahiyyətlərinə xarici müdaxilələrin qarşısının alınmasından ibarətdir.* Ölkə hərbi sahədə milli maraqların təmin edilməsi məqsədi ilə özünün hərbi təhlükəsizlik siyasətini formalaşdırır. Bu siyasətin məqsədi, əsas istiqamətləri və prinsipləri öz əksini ümumu şəkildə milli təhlükəsizlik konsepsiyasında, daha geniş və əhatəli şəkildə isə hərbi təhlükəsizlik konsepsiyası və hərbi doktrinada tapır.

Azərbaycanın hərbi təhlükəsizlik konsepsiyasının yaradılması və ona müvafiq hərbi doktrinasının qəbulu silahlı qüvvələrin hərbi taktikasının müəyyən olunması və ölkənin müdafiə qabiliyyətinin möhkəmlənməsində əsas amillərdən biri hesab olunur. **Hərbi Doktrina** *vətəndaşların, cəmiyyətin və suveren dövlət hakimiyyətinin xarici hərbi basqınlardan, hər hansı təhlükə və təhdidlərdən qorunması taktikasını* müəyyənləşdirir.

Azərbaycanın müstəqilliyə qovuşduğu ilk illərdə onun ərazi bütövlüyünün və suveren hüquqlarının işğalçı Ermənistan qoşunları tərəfindən pozulması, torpaqlarının iyirmi faizinin

işğal olunması, bir milyona yaxın dinc əhalinin qaçqın və məcburi köçkünə çevrilməsi ölkə rəhbərliyini hərbi təhlükəsizliklə bağlı təcili tədbirlər görməyə sövq etdi. Cənubi Qafqaz və Xəzər hövzəsinin təhlükəsizliyi ilə bağlı regionun və dünyanın aparıcı dövlətlərinin, kollektiv təhlükəsizlik strukturlarının fərqli geosiyasi maraqlar nümayiş etdirməsi və regional münaqişələrə münasibətdə ikili standartlara yol verməsi Azərbaycanın milli və hərbi təhlükəsizliyinin təmin edilməsi və ümumiyyətlə, təhlükəsizlik sahəsində xarici siyasət fəaliyyətini xeyli çətinləşdirirdi. Odur ki, mütəxəssislərin fikrincə, 1994-2010-cu illərdə Azərbaycanda hərbi təhlükəsizlik siyasətinin formalaşdırılması, milli ordu quruculuğunun həyata keçirilməsi, regionda və dünyada Ermənistanın hərbi təcavüzünü pisləyən və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən siyasi və hərbi müttəfiqlərin axtarılması, xarici siyasət və milli təhlükəsizlik strategiyasının yaradılması və s. təxirəsalınmaz tədbirlərinin görülməsi milli fəaliyyətin ən vacib məsələləri sırasına çıxarılmışdır.[446]

Məlumdur ki, dünyanın hər bir dövləti öz hərbi vəziyyətinə, geosiyasi əhatəsinə, milli təhlükəsizliyinə uyğun olaraq, hərbi konsepsiya və doktrina yaradır. Hərbi təhlükəsizliklə bağlı dövlətin rəsmi mövqeyini ifadə edən belə sənəd bir çox ölkələrdə müxtəlif adlar altında təsdiq olunur: məsələn, Rusiya, Belarus, Qazaxıstan, Azərbaycan və digər postsovet dövlətlərində "Hərbi Doktrina", ABŞ-da "Milli Təhlükəsizlik Strategiyası", NATO hərbi ittifaqında "Strateji Konsepsiya", Çin Xalq Respublikasında "Müdafiə Doktrinası" və s. adlanır.

Azərbaycanın Hərbi Doktrinasında ölkənin hərbi təhlükəsizliyinə təhlükə və təhdidlərin vaxtında aşkarlanması və qarşısının alınması, səmərəli müdafiə və hərbi təhlükəsizlik

[446] Ниязов Н.С. Основные векторы политики военной безопасности Азербайджанской Республики в 1994-2010 годы. Санкт-Петербург, 2010, с. 4-5

sisteminin yaradılması, onun cəlb olunduğu müharibə və regiondakı mövcud silahlı münaqişələrin aradan qaldırılması, hər cür silahlı təcavüzün dəf edilməsi, ölkənin dünyadakı mövcud hərbi-strateji və təhlükəsizlik bloklarına münasibəti və s. məsələlərlə bağlı dövlətin rəsmi mövqeyi əks olunmuşdur.

Doktrinanın hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və digər normativ-hüquqi aktları, Milli Təhlükəsizlik Konsepsiyası, həmçinin ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir. Doktrinada qeyd olunur ki, Azərbaycanın müdafiə qüdrətinin artırılması, ordu quruculuğu və hərbi siyasəti ölkənin milli maraqlarının qorunmasını nəzərdə tutur, milli ehtiyatlara əsaslanır, beynəlxalq hüquq normaları, regionun və dünyanın mövcud təhlükəsizlik vəziyyəti ilə uzlaşır. Hərbi siyasət bütün ölkələrlə dinc yanaşı yaşamaq, digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və müstəqilliyinə hörmət etmək, onların daxili işlərinə qarışmamaq, mövcud dövlət sərhədlərinin toxunulmazlığı və dəyişməzliyi prinsiplərinə söykənir.

Doktrinada Azərbaycanın hərbi siyasətinin əsas məqsədi kimi *ölkənin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, xarici hərbi təcavüzlərin qarşısının alınması və dəf edilməsi üçün silahlı qüvvələrin döyüşə və səfərbərliyə hazır vəziyyətdə saxlanması və s.* məsələlər göstərilir.

Sənəddə vurğulanır ki, Azərbaycan dünyada mövcud olan heç bir hərbi blokun, yaxud kollektiv təhlükəsizlik birliyinin üzvü deyil və hələlik bu mövqeyini dəyişməyi məqsədəuyğun hesab etmir. Buna baxmayaraq, ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi və milli ordunun gücləndirilməsi tələbi onun bu cür bloklarla hərbi və texniki əməkdaşlığını, təcrübə mübadiləsini, regional və beynəlxalq manevrlərdə, sülhyaratma missiyalarında birgə iştirakını zəruri edir. Odur ki, Azərbaycan ordusu neçə illərdir bir çox digər postsovet respublikaları ilə yanaşı, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı

çərçivəsində müştərək layihələrdə yaxından iştirak edir. Doktrinada *Azərbaycanın hərbi-strateji ehtiyatlarının ordu quruculuğuna səfərbər edilməsi, onun güclü müdafiə qüdrətinin yaradılması, eyni zamanda silahlı qüvvələrin hərbi-texniki və kadr potensialının gücləndirilməsi taktikası ölkənin müdafiə təhlükəsizliyinin mühüm amili kimi* dəyərləndirilir.

Qeyd etmək lazımdır ki, müdafiə təhlükəsizliyi anlayışı hərbi təhlükəsizlik anlayışından daha geniş məzmun daşıyır. Belə ki, birinci anlayışda yalnız ölkənin hərbi deyil, həmçinin iqtisadi, siyasi, mənəvi gücü və qüdrəti, informasiya infrastrukturu, sosial vəziyyəti və digər amillər nəzərə alınaraq, dövlətin ümumi təhlükəsizliyinin təmin olunması nəzərdə tutulursa, ikinci anlayış milli təhlükəsizliyin məhz hərbi vasitələrlə təmin olunmasını ifadə edir.

Hərbi Doktrinada Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasəti aparması, təcavüzkarlıq hərəkətlərini bu gün də davam etdirməsi Azərbaycanın milli təhlükəsizliyinə mənfi təsir göstərən əsas amil hesab olunur. Sənəddə vurğulanır ki, hazırda Azərbaycanın işğal olunmuş əraziləri beynəlxalq nəzarətin hər hansı formasından kənarda qalmışdır. Həmin ərazilərdə "Avropada adi silahlı qüvvələr haqqında" 1990-cı il Müqaviləsinin və "Etibarın möhkəmləndirilməsi və təhlükəsizlik tədbirləri üzrə danışıqlar haqqında" 1999-cu il Vyana sənədinin inspeksiya fəaliyyəti ilə əhatə olunmayan, hesabı aparılmayan və nəzarət edilməyən silah-sursat və hərbi texnika toplanmışdır. Həmçinin bu ərazilərdə insan hüquqlarının müdafiəsi ilə bağlı milli və beynəlxalq mexanizmlər öz fəaliyyətini itirmiş, insan alveri, narkotik və psixotrop maddələrin qeyri-qanuni istehsalı və dövriyyəsinə münbit şərait yaranmış, silah ticarəti üzrə tranzit marşrutları formalaşmış, qanunsuz silahlı birləşmələr və terrorçular üçün bazalar yaradılmışdır. Ermənistanın həmin ərazilərdə qeyri-qanuni məskunlaşdırmanı davam etdirməsi onun təcavüzkar niyyətlərindən hələ də əl çəkmə-

diyini göstərir. Ermənistan tərəfindən işğal edilmiş ərazilərin müvəqqəti olaraq Azərbaycan Respublikasının hakimiyyət orqanlarının nəzarətindən kənarda qalması regionda sülhün və sabitliyin bərqərar olmasına da mənfi təsir göstərir.[447]

Yuxarıda qeyd edilənlərlə yanaşı, doktrinada Azərbaycanın hərbi təhlükəsizliyinə təsir göstərən digər xarici amillər də sadalanır. Məsələn, Xəzər dənizinin Azərbaycan Respublikasına aid hissəsində karbohidrogen yataqlarının istismarı və dünya bazarlarına çıxarılması, ölkəmizin əhəmiyyətli geosiyasi məkanda yerləşməsi, beynəlxalq sülhyaratma və terrorçuluqla mübarizə əməliyyatlarında fəal iştirakı onun təhlükəsizlik mühitinə ciddi təsir edən amilə çevrilmişdir.

Hərbi təhlükəsizliyin təmin edilməsi sahəsində Hərbi Doktrinada öz əksini tapmış başlıca vəzifələrindən biri ölkənin müstəqilliyini və ərazi bütövlüyünü, konstitusiya quruluşunu, milli maraqlarını hərbi, siyasi və digər təhdidlərdən qorumaqdan ibarətdir.

Hərbi Doktrinada Azərbaycanın hərbi təhlükəsizliyinə təsir göstərən təhdidlər xarici və daxili olmaqla iki qrupa bölünür.

Xarici hərbi təhdidlərə:

- Azərbaycanın 20% ərazisinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılması;
- qonşu dövlətlər tərəfindən ona qarşı əsassız ərazi iddialarının irəli sürülməsi;
- ölkənin daxili siyasi və sosial-iqtisadi vəziyyətinin gərginləşdirilməsinə, sabitliyin pozulmasına yönəldilmiş separatçı və dini-ekstremist hərəkətlər;
- dövlət sərhədinin hərbi birləşmələr və silahlı dəstələr tərəfindən pozulması, sərhəd mübahisələrinin kəskinləşməsi;

[447] Bax: Azərbaycan Respublikasının Hərbi Doktrinası. http://e-qanun.az

- digər dövlətlər tərəfindən ölkə ərazisinə göndərmək üçün qanunsuz silahlı qrupların və terrorçuların hazırlanması;
- dövlət sərhədlərinin və ərazi sularının bilavasitə yaxınlığında hərbi bazaların yaradılması, qoşun qruplaşmalarının cəmləşdirilməsi, silahların artırılması və digər hərbi iştirakın gücləndirilməsi ;
- ölkənin daxili işlərinə hər hansı mümkün kənar hərbi müdaxilə;
- qonşu ölkələrin dövlətlərarası münaqişələrdə iştirakı;
- müxtəlif xarici dairələrin təsiri altında nüvə və digər kütləvi qırğın silahı növlərinin yayılması və s. daxildir.

Daxili hərbi təhdidlərə:

- ölkə qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin və yaxud qrupların yaradılması cəhdləri;
- terrorçu, dini-ekstremist və separatçı təşkilatların daxili sabitliyin və ölkənin ərazi bütövlüyünün pozulmasına yönəldilmiş qanuna zidd əməlləri;
- konstitusiya quruluşu əleyhinə qəsdlər, dövlət hakimiyyəti və idarəetmə orqanlarının təşkilati strukturunun dağıdılması və ictimai-siyasi sabitliyin pozulmasına yönəldilmiş cəhdlər;
- hərbi təhlükəsizliyə təhdid yaradan mütəşəkkil cinayətkarlıq və digər qanuna zidd fəaliyyət;
- təxribat, terror aktları və digər qanunazidd əməlləri həyata keçirmək üçün istifadə oluna bilən silah-sursatın, partlayıcı maddələrin və digər vasitələrin ölkə ərazisində qanunsuz toplanması və dövriyyəsi;
- hərbi əhəmiyyətli və mühüm dövlət obyektlərinə, kommunikasiya qurğularına və informasiya infra-

strukturuna qarşı silahlı hücumlar, təxribatlar və s. aiddir.

Azərbaycanın hərbi təhlükəsizliyinin təmin olunması, eyni zamanda ölkə ətrafında əlverişli daxili və xarici geosiyasi şəraitin yaradılması dövlətin düzgün hərbi-geostrateji və müdafiə siyasəti ilə sıx bağlıdır. Ölkənin hərbi-geostrateji və müdafiə siyasəti onu əhatə edən dövlətlərin geosiyasi davranışı və bundan irəli gələn regional hərbi-siyasi şəraitlə, bölgənin geostrateji inkişaf meyilləri, mövcud regional və beynəlxalq təhlükəsizlik blokları arasındakı münasibətlərlə də sıx bağlıdır. Odur ki, bütün bu amillərin və şərtlərin nəzərə alınması, bəhs olunan proseslərin təhlili və müvafiq taktikanın yaradılması da Hərbi Doktrinanın əsas vəzifələri sırasına daxildir. Azərbaycanın Hərbi Doktrinası bu mənada həm də ölkəyə qarşı yönəlmiş, yaxud yarana biləcək real və potensial hərbi təhlükələr və təhdidləri kompleks şəkildə araşdıraraq müvafiq hərbi təhlükəsizlik və müdafiə taktikası irəli sürür.

Doktrinada ölkənin müdafiə siyasətinin əsas məqamlarından biri kimi, "Ermənistanın onun ərazisinin bir hissəsini işğal etməsi, sülh yolu ilə geri qaytarmaqdan imtina etməsi, buna görə də Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü, hərbi güc tətbiq etmə də daxil olmaqla, bütün lazımi vasitələrlə bərpa etmək hüququnu özündə saxlaması" faktı vurğulanır.[448]

Hərbi Doktrinada Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə yol verməyi qeyd olunur. Lakin hərbi-siyasi şəraitdə əsaslı dəyişikliklər baş verdiyi halda, Azərbaycan Respublikası ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə, yaxud digər formada xarici hərbi iştiraka müvəqqəti icazə verilməsi halını da istisna etmir.

[15] Azərbaycan Respublikasının Hərbi Doktrinası. http://e-qanun.az

Bu sənəddə ölkənin müdafiə siyasətini təşkil edən məsul dövlət orqanlarının, cavabdeh qurumların və Silahlı Qüvvələr komandanlığının səlahiyyətləri də əksini tapmışdır. Bu səlahiyyətlərə uyğun olaraq onların həyata keçirdikləri tədbirlər, o cümlədən silahlı qüvvələr və başqa silahlı birləşmələrin qarşısında qoyduqları vəzifələr, hərbi səfərbərlik elan etmək, səfərbərliyin səviyyəsini, döyüş hazırlığı dərəcəsini müəyyən etmək və s. məsələlər - "dinc dövr", "real təhdid dövrü" və "müharibə (silahlı münaqişə) dövrü" adlanan üç şərti təhlükəsizlik şəraiti əsasında müəyyənləşdirilir.

Dinc dövrdə həmin tədbirlər ölkənin müdafiə qabiliyyətini möhkəmləndirmək, mümkün təhdidlərin qarşısını almaq və potensial düşməni öz bədxah əməllərindən, yaxud təcavüzkar hərəkətlərdən çəkindirmək məqsədi daşıyır. Dinc dövrdə müdafiə siyasəti çərçivəsində əsas tədbirlərin aşağıdakı sahələr üzrə həyata keçirilməsi nəzərdə tutulur:

- dövlət sərhədlərinin mühafizəsi və onların toxunulmazlığının təmin edilməsi;
- ikitərəfli və çoxtərəfli hərbi-siyasi əməkdaşlığın gücləndirilməsi və beynəlxalq təhlükəsizliyə töhfə verilməsi;
- dövlət orqanlarının, ölkə iqtisadiyyatının, əhali və ərazinin müdafiəyə hazırlanması;
- müdafiə və döyüş potensialının, silahlı qüvvələrin və başqa silahlı birləşmələrin yüksək döyüş qabiliyyətinin, səfərbərlik hazırlığının zəruri səviyyədə saxlanılması;
- mülki müdafiə tədbirlərinin həyata keçirilməsi və s. [449]

Dinc dövrdə silahlı qüvvələrin əsas vəzifələri sırasına Azərbaycana qarşı silahlı təcavüzə hazırlığın vaxtında aşkarlanması, ölkəmizə yönəlmiş hər hansı təcavüzə qarşı kifayət

[449] Azərbaycan Respublikasının Hərbi Doktrinası. http://e-qanun.az

qədər güc və çəkindirmə vasitələri potensialının yaradılması, qoşunların döyüşə hazırlığı kimi əsas vəzifələr də daxildir. Əslində, gələcəkdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nəticələrindən asılı olmayaraq bu ölkənin "monoetnik dövlətçiliyi, etnik təmizləmə və ərazi ekspansiyasını öz siyasətinin tərkib hissəsi kimi davam etdirməsi" və s. kimi addımları göstərir ki, Azərbaycan ona qarşı öz müdafiə qabiliyyətini daim yüksək səviyyədə saxlamalıdır.

Hərbi Doktrinada Azərbaycanın hərbi təhlükəsizliyi real təhdidə məruz qaldığı zaman ölkənin müdafiə siyasəti çərçivəsində aşağıdakı sahələr üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- Azərbaycana qarşı real silahlı hücum təhlükəsi yarandıqda ölkənin, əhalinin və ərazinin, eləcə də silahlı qüvvələrin və başqa silahlı birləşmələrin müdafiəyə hazır vəziyyətə gətirilməsi;
- ölkəmizin ərazi bütövlüyünün pozulmasına, onun konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönəldilən hərəkətlərin aradan qaldırılması və s. [450]

Real təhdid dövründə bütün silahlı birləşmələrin vəzifə və tapşırıqları, eləcə də onların silahlı qüvvələrlə qarşılıqlı fəaliyyəti əvvəlcədən tərtib edilmiş plan əsasında müəyyən olunur.

O ki qaldı müharibə dövründə həyata keçirilən tədbirlərə, Hərbi Doktrinada bu, ilk növbədə düşmənə ciddi hərbi zərbələr endirməklə onu silahlı münaqişəni davam etdirməkdən imtinaya və Azərbaycan Respublikası üçün əlverişli şərtlərlə sülhə, siyasi tənzimləməyə məcbur etmək məqsədi daşıyır. Müharibə dövründə hərbi təcavüzü dəf etmək və ölkəni, əhalini, ərazini qorumaq məqsədi ilə müdafiə siyasəti çərçivəsində həm də aşağıdakı tədbirlərin görülməsi nəzərdə tutulur:

[450] Azərbaycan Respublikasının Hərbi Doktrinası. http://e-qanun.az

- Azərbaycan Respublikası ərazisinin qorunması üzrə hərbi fəaliyyətin həyata keçirilməsi;
- təcavüzün dəf edilməsi üçün zəruri olan qüvvə və vasitələrin səfərbər olunması, müdafiə sahəsində hərbi, siyasi, diplomatik, informasiya, iqtisadi və digər tədbirlərin həyata keçirilməsi;
- beynəlxalq təşkilatlar və bütün dövlətlər tərəfindən təcavüzkarın qınanmasına və təcrid edilməsinə nail olunması və s.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üçün təcavüzkara strateji təzyiqin artırılması, zəruri olduqda hərbi güc tətbiq etməklə münaqişənin qısa zamanda həlli üçün qoşun qruplaşmaları potensialının lazımi səviyyəyə çatdırılması müharibə dövründə silahlı qüvvələrin əsas vəzifələri sırasında dayanır. Bu dövrdə silahlı qüvvələrin və başqa silahlı birləşmələrin əsas vəzifələrinə Doktrinada:

- cəbhəboyu ərazilərdə döyüş xidmətinin aparılması və qoşun qruplaşmalarının təcavüzün dəf edilməsinə daim hazır vəziyyətdə saxlanılması;
- sərhədyanı silahlı münaqişələrin lokallaşdırılması və zərərsizləşdirilməsi;
- ölkə ərazisinə daxil olmuş təcavüzkarın qoşun qruplaşmalarının və onun əməliyyat ehtiyatlarının darmadağın və məhv edilməsi üzrə döyüş əməliyyatlarının aparılması;
- əhalinin, iqtisadi obyektlərin və infrastrukturun mühafizəsi və s. daxildir.

Silahlı təcavüzün dəf edilməsi vəzifələrinin icrası Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının əmr və göstərişlərinə uyğun olaraq həyata keçirilir. Silahlı Qüvvələrin birləşmələri Hərbi Doktrinada müəyyən edilmiş

potensial və real hərbi təhdidlərin konkret istiqamətlərinə uyğun olaraq yerləşdirilir.

Azərbaycan dövləti öz təhlükəsizlik mühitini, real və potensial hərbi təhdidləri, eləcə də ümumi hərbi-strateji vəziyyəti nəzərə alaraq, Silahlı Qüvvələrinin strukturunu formalaşdırır və idarə edir. Bu sahədə iş aparılarkən zəruri hərbi qabiliyyətin yaradılması və saxlanılması, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının nəzarəti altında olmaqla, hərbi rəhbərliyin mərkəzləşdirilməsi və vahidliyi, qarışıq (könüllü və çağırış üzrə) sistemə uyğun olaraq komplektləşdirmə, daim döyüşə və səfərbərliyə hazır vəziyyətin saxlanılması və s. prinsiplər əsas götürülür. Mütəxəssislərin fikrincə, ölkənin siyasi və hərbi rəhbərliyinin ciddi fəaliyyətinin nəticəsi olaraq hazırda Azərbaycanda müasir döyüş sistemləri və silahlarla təmin olunmuş, taktiki, hərbi, fiziki və mənəvi cəhətdən əksər hərbi və döyüş vəzifələrini yerinə yetirməyə hazır olan, məxsusi zabit korpusuna malik, dəqiq strukturlaşdırılmış və öz komandir heyətinin tapşırıqlarını icra etməyə hazır olan həqiqi müasir və peşəkar ordu yaradılmışdır.[451]

Bundan başqa, Azərbaycanın hərbi təhlükəsizliyinin səmərəli təmin edilməsi məqsədi ilə silahlı qüvvələrin, eləcə də bu sahədə yaxından iştirak edən dövlət orqanlarının hərbi, iqtisadi-texniki və s. ehtiyaclarının ödənilməsi üçün ümumi təchizat siyasəti həyata keçirilir. Bu siyasətdə silahlı qüvvələrin və hərbi təhlükəsizliyin təmin edilməsində iştirak edən dövlət orqanlarının müdafiə təyinatlı məhsullara olan ehtiyacını əks etdirən Dövlət Müdafiə Sifarişi Proqramının hazırlanması və icrası mühüm yer tutur.

Azərbaycanın yerləşdiyi Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsində dövlətlərin ümumi hərbi təhlükəsizliyini təmin edən iki sistem – Rusiyanın rəhbərlik etdiyi

[451] Ниязов H.C. Göstərilən əsəri, s.7

Kollektiv Təhlükəsizlik Təşkilatı (KTMT), ABŞ və onun Avropa müttəfiqlərinin yaratdığı Şimali Atlantika Hərbi Alyansı - NATO bloku, eyni zamanda müstəqil olaraq təhlükəsizliyinin qeydinə qalan İran kimi ölkələr mövcuddur. Yaxın illərdə NATO-ya qoşulmaq Azərbaycan üçün qeyri-real görünür. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına qoşulmaq isə onun şərtləri və təminatları (əslində təminatsızlığı) çərçivəsində Azərbaycanın mənafelərinə uyğun deyildir. Belə şəraitdə, kənar təsir və təzyiqlərdən qorunmaq, öz hərbi təhlükəsizliyini və suveren hüquqlarını təmin etmək, xarici hərbi müdaxilələrin qarşısını almaq üçün hansısa formada beynəlxalq təminatın qazanılması vəzifəsi ölkənin xarici siyasət prioritetlərindən birinə çevrilmişdir. Müasir dünyanın əksər dövlətlərində olduğu kimi, Azərbaycanın da siyasi və hərbi təhlükəsizlik maraqları ölkə rəhbərliyindən mövcud beynəlxalq təhlükəsizlik sistemləri ilə münasibətlərin yaradılması, yeni-yeni siyasi və hərbi müttəfiqlərin, tərəfdaşların və dostların qazanılması, milli ordunun hərbi ehtiyaclarını təmin etmək məqsədi ilə ən qabaqcıl texniki, müdafiə təchizat sisteminin yaradılması və yaxud alınması, ictimaiyyətdə, milli orduda hərbi vətənpərvərlik, özünə və qələbəyə inam hissinin gücləndirilməsi və s. kimi təxirəsalınmaz strateji məsələlərin həllini tələb edir.

§ 5.2. Azərbaycanın sərhəd təhlükəsizliyi siyasəti

Azərbaycan kimi çox da böyük olmayan, lakin kifayət qədər əhəmiyyətli geoməkan xarakteristikası ilə seçilən ölkələrin milli və hərbi təhlükəsizliyi təkcə onların sərhədləri daxilində - məxsusi ərazilərində həyata keçirilən tədbirlərlə məhdudlaşa bilməz. Dövlətin xarici aləmlə sərhədlərinin möhkəmliyi, sərhədətrafı rayonların geosiyasi xarakteristikası - sərhəd yaxınlığında baş verə biləcək yerli, regional və transmilli cinayətlər, etnik, sosial münaqişələr və digər gözlənilə biləcək təhdidlər,

yerli əhalinin milli, sosial, dini mənsubiyyəti və geosiyasi baxışları və s. **Sərhəd Təhlükəsizliyi Konsepsiyasına** (STK) müvafiq olaraq öncədən təhlil olunmalı, proqnozlaşdırılmalı və milli təhlükəsizlik doktrinasında əksini tapmalı, bu sahədə müvafiq hərbi və təhlükəsizlik qurumlarının fəaliyyəti əlaqələndirilməlidir. Azərbaycanın müharibə vəziyyətində olduğu Ermənistanla, çox mühüm geosiyasi yükü olan İranla, hərbi-geostrateji önəm daşıyan Rusiya ilə (Dağıstan və dəniz sərhədləri nəzərdə tutulur), tranzit əhəmiyyətli layihələrin həyata keçirildiyi ərazilərdə və Ermənistana bitişik rayonlarda Gürcüstanla sərhəd təhlükəsizliyi məsələləri daimi və xüsusi diqqət tələb edir.

Azərbaycanın təhlükəsizlik maraqları həmçinin onun sərhədləri kənarında həyata keçirilən çoxsaylı beynəlxalq və regional xarakterli geosiyasi, geoiqtisadi və hərbi-strateji tədbirlərin, ölkələrarası münasibətlərin izlənməsini və təhlil edilməsini, Cənubi Qafqaz və Xəzər hövzəsində reallaşdırılan əlaqələrin (Rusiya-İran, Rusiya-Ermənistan, Rusiya-Türkmənistan, Rusiya-Gürcüstan, Ermənistan-İran, Ermənistan-Gürcüstan, İran-Rusiya, İran-Türkmənistan, İran-Türkiyə, Türkiyə-Rusiya, Türkiyə-Ermənistan, Türkiyə-Gürcüstan və s.) qiymətləndirilməsini və müvafiq addımların planlaşdırılmasını tələb edir.

XXl əsrdə getdikcə vüsət alan qloballaşmanın yeni tələbləri çərçivəsində hər bir dövlət kimi, Azərbaycan da özünün milli təhlükəsizlik məsələlərini yenidən təhlil edərək, onu müasir texniki vasitələrin yaratdığı reallığın, dövrün və zamanın tələblərinə uyğunlaşdırmalıdır. Planetin qlobal inkişafı bütün ölkələrin sərhədlərini şəffaflaşdırmış, müxtəlif transmilli iqtisadi, siyasi, sosial, hərbi-strateji, informasiya və s. strukturların ölkələrin ərazisinə giriş-çıxışını asanlaşdırmış, milli iqtisadi, siyasi, sosial, informasiya, mənəvi və ekoloji maraqların qorunması imkanlarını çətinləşdirmişdir.

Naxçıvan MR ərazisinin geostrateji vəziyyəti nəzərə alınmadan, Azərbaycanın geoməkanının yığcam və bütöv məkan xarakteristikasına malik olmasına baxmayaraq, onun xarici ölkələrlə sərhədləri və sərhədətrafı yaşayış məntəqələrinin, burada yaşayan əhalinin xarakterik xüsusiyyətləri, sərhədlərin relyefi və texniki vəziyyəti ölkənin geosiyasi, geoiqtisadi və hərbi-strateji təhlükəsizliyinə xarici müdaxilələri istisna etmir. Müasir elmi-texnoloji nailiyyətlərin bir çox ölkələrin xarici kəşfiyyat strukturları üçün yaratdığı yüksək texniki imkanlar nəzərə alınsa, o zaman Azərbaycan kimi əhəmiyyətli geoməkana malik ölkələrin öz ərazilərinin təhlükəsizliyinə nəzarət etməsinin getdikcə çətinləşməsinin şahidi ola bilərik.

Qonşu dövlətlərlə - İran, Rusiya, Gürcüstan, Ermənistan, Türkmənistan, Türkiyə və Qazaxıstanla sərhədətrafı ərazilərin əhalisinin milli və sosial tərkibi, Azərbaycan dövlətçiliyinə və xalqına münasibəti məsələsi də geosiyasi, geostrateji təhlükəsizlik anlamında ciddi əhəmiyyət kəsb edir. Bu sırada Gürcüstanın Azərbaycanla həmsərhəd Borçalı, Rusiyanın Dağıstan bölgələrində, əsas sərhədboyu yaşayış məntəqələri və kəndlərdə məskunlaşan əhalinin milli-sosial və dini mənsubiyyətinin, mövcud tərkibinin, sosial-dini istiqamətlərinin öyrənilməsi, bu ərazilərdə informasiya-təbliğat vasitələrinin hansı ölkə tərəfindən idarə olunması, KİV-lərin təsir dairəsi, sərhədətrafı kommunikasiya vasitələri, ötürücülər, sərhəd xətləri və s. kimi məsələlərin vəziyyəti qarşılıqlı olaraq həm Azərbaycanın, həm də qonşu dövlətlərin milli təhlükəsizliyi ilə bilavasitə bağlıdır.

Sərhədlərin hərbi xarakteristikası və mühafizə vəziyyəti: Azərbaycan Respublikası quru və dənizdə 7 ölkə ilə – Gürcüstan, Rusiya Federasiyası, Ermənistan Respublikası, Türkiyə Respublikası, İran İslam Respublikası, Türkmənistan Respublikası və Qazaxıstan Respublikası ilə həmsərhəddir. Quru sərhədlərinin ümumi uzunluğu 3370.4 km təşkil edir ki, bunun 2657.4 km quru, 713 km isə sahil xəttindən ibarətdir. Sərhədlə-

rin uzunluğu müvafiq olaraq - İran İslam Respublikası ilə 765.0 km, Rusiya Federasiyası ilə 390.3 km, Gürcüstan ilə 480.0 km, Ermənistan Respublikası ilə 1007.1 km, Türkiyə Respublikası ilə 15.0 km təşkil edir.

Azərbaycanın inzibati rayonlarının 32-si bilavasitə qonşu dövlətlərlə sərhəddə yerləşir.

Azərbaycanın İran İslam Respublikası ilə 765.0 km sərhədinin rayonlar üzrə uzunluğu müvafiq olaraq: Astara rayonu (56.0 km), Lerik rayonu (52.0 km), Yardımlı rayonu (75.0 km), Cəlilabad rayonu (86.0 km), Biləsuvar rayonu (68.0 km), İmişli rayonu (14.0 km), Beyləqan rayonu (30.0 km), Füzuli rayonu (45.0 km), Zəngilan rayonu (55.0 km), Cəbrayıl rayonu (65.0 km), Naxçıvan MR - Ordubad rayonu (42.0 km), Culfa rayonu (30.0 km), Babək rayonu (75.0 km) və Şərur rayonu üzrə (72.0 km) təşkil edir.

İranla sərhədlərinin vəziyyəti də təhlükəsizlik baxımından istənilən səviyyədə qənaətbəxş deyildir. Sərhəd xəttindən 117 km dağlıq (meşəlik), 51 km düzənlik ərazilərdən və 597 km çaylar üzrə keçir. Azərbaycanın siyasi və dövlət strukturlarının bu ölkə ilə mehriban dostluq və qonşuluq cəhdlərinə baxmayaraq, qarşı tərəfin bəzi rəsmi və qeyri-rəsmi dairələri, müvafiq strukturları, sərhəd keşikçiləri, bir qayda olaraq, bu məsələyə müəyyən qədər etinasızlıq göstərirlər.

İranla sərhədin mühafizəsinə təsir göstərən mənfi amillər sırasında mütəxəssislər və sərhədçilər:

- qanunsuz sərhəd pozmalarını, sərhəd bölmələrinə silahlı basqınları və təzyiqləri;
- narkotik və silah qaçaqmalçılığı cəhdlərini;
- qanunsuz miqrasiya, dini və ideoloji missionerlik, qanunsuz mühacirlərin sərhədləri pozması və Avropa ölkələrinə tranzit cəhdlərini;
- İran hökuməti tərəfindən nüvə proqramının inkişafı istiqamətində işlərin davam etdirilməsi və Rusiya ilə

bu sahədə əməkdaşlığın Azərbaycan ərazisi vasitəsilə reallaşdırılması, bununla bağlı Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş beynəlxalq qətnamələrə Azərbaycan tərəfindən əməl edilməsinə bu ölkənin kəskin reaksiyası və onun yaratdığı gərginliyi (Rusiyadan İrana göndərilən və atom sənayesində istifadə olunan mallara və texnologiyalara sərhəd baxışı bu ölkənin rəsmilərini daim qıcıqlandırır);

- İrana məxsus üzmə vasitələrinin tez-tez Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sularına qanunsuz daxil olma cəhdlərini;
- sərhəd pozucularına və narkotik daşıyıcılarına köməklik göstərən silahlı və mütəşəkkil bələdçi qrupların fəaliyyətinin davam etməsini və s. göstərirlər.

Bəzi məlumatlara görə, son 7 il ərzində İranla sərhəddə qarşı tərəfin günahı üzündən 100-dən çox silahlı təxribat qeydə alınmışdır. Bunun nəticəsində 6 sərhədçi həlak olmuş, 8-i yaralanmışdır. 2009-cu ildə sərhəddə qaçaqmalçılarla 16 dəfə silahlı toqquşma qeydə alınmışdır.

2009-cu ilin iyun ayının 16-da dövlət sərhədini qanunsuz keçməyə cəhd göstərən terrorçu qrupun zərərsizləşdirilməsi (əməliyyat zamanı 1 sərhədçi həlak olmuş, 2 sərhədçi yaralanmış, 2 terrorçu məhv edilmişdir) və s. kimi təkrarlanan qanunsuz hallar Azərbaycan hökumətinə bu istiqamətdə milli təhlükəsizliyinə tam əmin olmaq imkanı vermir. [452]

İranla sərhəddə baş verən və münaqişə yaradan əsas problemlərdən biri qarşı tərəfdən olan ayrı-ayrı cinayətkar qrupların və vətəndaşların mütəşəkkil şəkildə Azərbaycan ərazisini

[452] Bu rəqəmlər və respublikanın sərhədləri ilə bağlı digər faktlar Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəsmi məlumatlarından götürülmüşdür.

transmilli narkotik ticarətinin marşrutlarından birinə çevirmək cəhdi ilə bağlıdır. BMT-nin Narkotiklərə Qarşı Mübarizə İdarəsinin (UNODK) hesablamalarına görə, hər il Əfqanıstan-İran-Rusiya və Əfqanıstan-İran-Türkiyə marşrutu üzrə on tonlarla heroin və digər narkotik maddələr daşınır. Bunun da bir hissəsi İrandan Mehri və Araz çayı keçidlərindən, Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ və ona bitişik ərazilərindən istifadə etməklə (bu ərazilərdə hətta narkotiklərin geniş istehsalı ilə bağlı da məlumatlar mövcuddur - Ə.H.), Ermənistan-Gürcüstan marşrutu ilə, digər hissəsi isə yenə də İrandan bilavasitə qaçaqmalçılıq yolu ilə Azərbaycana, buradan da Gürcüstan-Türkiyə-Rusiya marşrutu üzrə Şərqə və Qərbə daşınır.[453]

İranla Azərbaycan arasındakı sərhəd təhlükəsizliyinin əsas problemli sahələrindən biri Xəzər dənizinin iki ölkə arasındakı milli sektorlarının ayırıcı xətləri ilə bağlıdır. Dənizin dibinin və səthinin iki ölkənin müştərək su sərhədləri boyunca hələ də delimitasiya edilməməsi və rəsmi şəkildə dövlətlərarası sazişlə təsdiqlənməməsi İranın Azərbaycanın dəniz sərhədlərini tez-tez pozmasına zəmin yaradır. Məlum olduğu kimi, İran neçə illərdir ki, Xəzərin sektor bölgüsü və statusu ilə bağlı heç bir beynəlxalq normaya və dənizin yerli şəraitinə uyğun gəlməyən, özünəməxsus prinsiplərə söykənən təkliflə çıxış edir ki, bunun qəbul edilməsi də qalan dörd ölkə tərəfindən tamamilə mümkünsüz sayılır.[454] Odur ki, İran neçə illərdir ki, birtərəfli qaydada onunla həmsərhəd olan Azərbaycanın milli sektorunda hər hansı iqtisadi fəaliyyətlə məşğul olmağa imkan vermir. Hətta 2001-ci il iyun ayının 23-də bu ölkəyə məxsus iki hərbi təyyarə və hərbi gəmi Azərbaycan sektorundakı "Alov" yata-

[453] Bax: www.unodc.org

[454] Daha ətraflı bax: Həsənov Ə.M. Xəzərin hüquqi statusu və Azərbaycanın geoiqtisadi maraqları // "525-ci qəzet", 14 noyabr 2010-cu il

ğında BP-AMOKO transmilli şirkətlərinin sifarişi ilə neft-qaz kəşfiyyatı aparan "Geofizik-3" və "Əlif Hacıyev" gəmilərini "suda batırmaq"la hədələyərək ərazidən çıxarmışdır. Bunun ardınca İranın bir ədəd hərbi təyyarəsi Azərbaycanın hava sərhədlərini pozaraq Bakının 90 millik məsafəsinə qədər yaxınlaşmış, yalnız qarşı tərəfin ciddi xəbərdarlığından sonra ölkənin hava sərhədlərini tərk etmişdir.[455]

Göründüyü kimi, İranla Azərbaycan arasındakı qarşılıqlı münasibətlərdə Xəzər dənizinin təhlükəsizlik məsələləri önəmli rol oynayır. Məlum olduğu kimi, Xəzər ölkələri içərisində hövzədə "vahid təhlükəsizlik təşkilatı" yaratmaq ideyasını ilk dəfə 1992-ci ildə İran irəli sürmüşdür. Lakin İran dənizdə milli sektor bölgüsünə dair Rusiya-Qazaxıstan-Azərbaycan razılaşmasına qoşulmayaraq, keçən müddətdə Xəzərin militaristləşdirilməsi işini hamıdan çox davam etdirmiş, hövzədə reallaşdırılan iqtisadi layihələrə mane olmağa çalışmışdır. Bu ölkə hətta Xəzərin dinc məqsədlərlə istifadəsinə dair bir çox hökumətlərarası sazişlərə belə tam əməl etməmişdir.

Hazırda İran Xəzərdə Rusiyadan sonra ən güclü hərbi donanma, hərbi aviasiya və hərbi dəniz qüvvələrinə malikdir. Bəzi məlumatlı mənbələrin açıqlamalarına görə, İranın Xəzərdə yüzdən artıq kiçik və yardımçı hərbi gəmisi mövcuddur ki, onların sırasına: üçü özünün buraxdığı, Şimali Koreya tipli sualtı qayıqlar, ABŞ istehsalı olan köhnə "Salman" hərbi gəmisi və patrul katerləri daxildir. Bütün bunlarla yanaşı, mütəxəssislərin fikrinə görə, İran qısa müddətdə Xəzərdəki hərbi-dəniz qüvvələrinin sayını Fars körfəzindəki potensialından istifadə etməklə 50% artıra bilər.[456] Bundan başqa, bəzi mənbələrin məlumatına görə İran hazırda özünün Xəzər hərbi donanması

[455] Bax: Может ли Россия из-за энергоресурсов развязать войну на Каспийском море? // www.inosmi.ru/ Asia/ 2011/07/12
[456] Bax: qaz. "Зеркало", 19 июля 2011 г.

üçün "Fateh" sinifli, dizel mühərrikli dənizaltı hərbi gəmi sifariş verib və yaxın zamanlarda bu gəmi İslam İnqilabı keşikçiləri Korpusunun (SEPAH-ın) Xəzərdəki bölmələrinin tərkibinə veriləcək. Mövcud dənizaltı gəminin Bəndər-Abbas tərsanəsində eyni layihə üzrə tikilən gəmidən 8 metr daha uzun- yəni 48 metr olacağı gözlənilir. Mənbənin məlumatına görə, İran bundan sonra da yeni-yeni hərbi vasitələrlə özünün Xəzər donanmasını gücləndirmək niyyətindədir.[457] Nəzərə alınsa ki, Azərbaycanın paytaxtı və əsas neft infrastrukturları Xəzərdə və hövzə ətrafında yerləşir, o zaman bölgə ölkələrinin indiyə qədərki əksər sektor bölgüsü təşəbbüsünü dəstəkləməyən İrandan dənizdə qaynaqlanan hərbi-geostrateji təhlükələri nəzərdən qaçırmaq olmaz.

Azərbaycanın Rusiya Federasiyası ilə sərhədləri: quruda Balakən rayonu (49.4 km), Qax rayonu (37.4 km), Zaqatala rayonu (61.0 km), Şəki rayonu (44.6 km), Oğuz rayonu (48.1 km), Qəbələ rayonu (14.7 km), Qusar rayonu (119.0 km) və Xaçmaz rayonu (16.1 km) ərazilərinə düşür. Rusiya ilə sərhəd xəttinin 297.2 kilometri çətin mühafizə olunan dağlıq, 42 kilometri düzənlik, 10.1 kilometri meşəlik ərazilərdən və 41 kilometri Samur çayı üzərindən keçir.

Azərbaycanın Rusiya ilə sərhədlərinin də həm dəniz, həm də quru hissəsi təhlükəsizlik baxımından şəffaf və qismən problemli olaraq qalmaqdadır. Bu sərhədlərdən, xüsusən, Dağıstandan Qusar, Zaqatala və Balakən istiqamətində tez-tez sərhəd pozmaları, silah, narkotik qaçaqmalçılığı və s. kimi qanunsuz hallar baş verir. Mütəxəssislərin fikrinə görə, Rusiya ilə Azərbaycanın münasibətlərində son illərdə müşahidə olunan dostluq və tərəfdaşlıq münasibətləri, iki dövlətin siyasi və hökumət rəhbərləri arasında yaranan və inkişaf edən ikitərəfli mehriban qonşuluq əlaqələri bu ölkənin bir çox həmsərhəd

[457] Bax: "Bizim dövr" qəzeti, 19 fevral 2014-cü il

vilayətlərinin müvafiq strukturlarının fəaliyyəti ilə heç də həmişə üst-üstə düşmür. Odur ki, Azərbaycanın Rusiya ilə bəzi sahələr üzrə sərhəd təhlükəsizliyi məsələlərinin qarşılıqlı həlli hələ də özünü gözlətməkdədir. Mövcud problemlərin böyük qismi Rusiya Prezidenti Dmitri Medvedevin Bakıya 2-3 sentyabr 2010-cu il tarixli səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə imzaladığı "İki ölkə arasındakı dövlət sərhədlərinin müəyyən edilməsi" haqqında Müqavilə aradan qalxmışdır. Samur çayı üzrə iki ölkənin sərhəd xətlərinin delimitasiyası, çayın Azərbaycan ərazisi kimi tanınması, lakin suyundan müştərək istifadə haqqında əldə olunmuş dövlətlərarası razılıq necə illərdir ki, qonşu Dağıstan vilayətinin bəzi rəhbərlərinin əsassız iddiaları üzündən yaranmış problemləri aradan qaldırmışdır.[458]

Təhlükəsizlik baxımından hazırda Azərbaycanın Rusiya ilə sərhədlərində ən həssas nöqtə Xəzər dənizi olaraq qalır. Məlum olduğu kimi, paytaxtı bilavasitə Xəzər dənizinin sahilində yerləşən yeganə ölkə Azərbaycandır. Bundan başqa, dənizin Azərbaycan sektorunda ən çox kəmərlər, enerji və sənaye infrastrukturları - neft-qaz platformaları, kompressor-nasos stansiyaları və s. qurğular da məhz Azərbaycana və onun tərəfdaşlarına məxsusdur. Bütün bunların mühafizəsi ciddi hərbi donanma və sahil mühafizə sisteminin yaradılmasını tələb edir. Bu gün üçün Xəzər dənizində tam döyüş qabiliyyətli yeganə hərbi donanmanın Rusiyaya məxsus olduğunu nəzərə alsaq, həmin donanmanın nə zamansa, hansısa Xəzəryanı ölkəyə qarşı istifadə edilməyəcəyinə heç bir real beynəlxalq və regional təminat yoxdur. Doğrudur, 2010-cu ilin noyabr ayında Xəzəryanı ölkələrin Bakıda keçirilən sammitində Xəzərin ümumi təhlükəsizliyinə dair beş ölkə rəhbərlərinin birgə sazişi imzalanmış və dənizin militaristləşdirilməsinin yolverilməzliyi

[458] Bax: "Ekspress" qəzeti, 16 sentyabr 2010-cu il

haqqında ümumi razılığa gəlinmişdir. Lakin hətta birgə saziş imzalanandan sonra, verilən məlumatlara görə, Rusiyanın hərbi-dəniz qüvvələrinin baş komandanı bəyan etmişdir ki, Rusiyanın Xəzər hərbi donanması "Cənub" vahid strateji komandanlığı altında tezliklə öz arsenalını daha 16 ədəd yeni hərbi gəmi, bir neçə aviasiya qrupu, işıq sürətli "Yaxont" raketləri ilə təmin edilmiş "Bastion" raket kompleksi və s. silahlarla zənginləşdirəcəkdir.[459] Bundan başqa, bəzi məlumatlara görə, 2014-cü ildə Rusiya Xəzər dənizindəki öz hərbi donanmasını 5 ədəd yeni hərbi gəmi və 10-a qədər hərbi qayıqla daha da gücləndirmək fikrindədir. [460] Mütəxəssislərin fikrincə, Rusiyanın Xəzər dəniz donanmasında malik olduğu və "Uran" raket daşıyıcıları ilə təmin olunmuş "Tatarıstan" və "Dağıstan" hərbi-mühafizə gəmiləri onsuz da Xəzər dənizindəki ən güclü gəmilər hesab olunurdu.

Göründüyü kimi, Rusiyanın Xəzərdəki hərbi-geostrateji imkanları qarşısında istənilən hövzə ölkəsinin, o cümlədən Azərbaycanın dəniz sərhədlərinin, hövzədəki enerji infrastrukturlarının, xüsusən, dəniz sahilində yerləşən paytaxtının təhlükəsizliyinin hər hansı geostrateji təhdiddən və yaxud asılılıqdan tam sığortalanması haqqında fikir söyləmək çətindir. Gürcüstan-Rusiya müharibəsinin təcrübəsi göstərdi ki, Rusiya lazım gələndə postsovet məkanında hər hansı hərbi-geostrateji fəaliyyət göstərməkdən çəkinməyəcəkdir.

Rusiya ilə Azərbaycanın quru və dəniz sərhədlərinin mühafizəsinə mənfi təsir göstərən bir çox amillər də mövcuddur. Bunların sırasında, mütəxəssislərin fikrinə görə:

- Rusiya federal strukturlarının vəziyyətin normallaşdırılması istiqamətində bəzi tədbirləri gücləndirməsi-

[459] Bax: Может ли Россия из-за энергоресурсов развязать войну на Каспийском море?// www.inosmi.ru/Asia/ 2011/07/12
[460] Bax: "Bizim dövr" qəzeti, 19 fevral 2014-cü il

nə baxmayaraq, Şimali Qafqaz regionunda qanunsuz silahlı dəstələr tərəfindən sərhədyanı ərazilərdə terror aktlarının davam etdirilməsi və ictimai-siyasi vəziyyətin gərgin qalması;

- siyasi münasibətlərin gərginləşməsi səbəbindən Rusiya ilə Gürcüstan arasında diplomatik və nəqliyyat əlaqələrinin kəsilməsi;
- terrorçu, dini ekstremist və digər qanunsuz silahlı qruplar tərəfindən dövlət sərhədinin pozulması cəhdlərinin davam etdirilməsi (2009-cu ilin iyul ayının 18-də Azərbaycanla dövlət sərhədini qanunsuz keçməyə cəhd göstərən terrorçu qrup zərərsizləşdirilmişdir. Əməliyyat zamanı 1 sərhədçi yaralanmış, 1 terrorçu məhv edilmişdir. Bununla yanaşı, külli miqdarda silah-sursat, hərbi geyim və ləvazimatlar aşkar edilmişdir) və s. xüsusi diqqət tələb edir.

Azərbaycan-Gürcüstan sərhədləri: Azərbaycanın Gürcüstanla mövcud olan 480 kilometrlik müştərək sərhədlərinin rayonlar üzrə uzunluğu müvafiq olaraq - Qazax rayonu (11.5 km), Ağstafa rayonu (107.9 km), Tovuz rayonu (33.6 km), Samux rayonu (75.0 km), Qax rayonu (65.7 km), Balakən rayonu (96.0 km) və Zaqatala rayonu üzrə (90.3 km) təşkil edir. Sərhəd xəttinin 315 kilometri düzənlik ərazidən və 165 kilometri isə çaylar (göllər) üzrə keçir.

Mütəxəssislər – sərhədçilər Gürcüstan ilə sərhədin mühafizəsinə təsir göstərən amillər sırasına:

- Rusiya-Gürcüstan silahlı münaqişəsinin baş verməsi nəticəsində Gürcüstanın sərhədyanı rayonlarında əməliyyat şəraitinin qeyri-sabitliyini;
- Gürcüstanın ermənilər yaşayan hissəsinə Ermənistan tərəfindən ərazi iddialarının getdikcə artmasını;
- Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin fəaliyyətə başlaması ilə yanaşı,

Şərqlə Qərbi Avropanı birləşdirən nəqliyyat dəhlizinin yaradılmasını nəzərdə tutan Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə dair üçtərəfli sazişin imzalanmasını və s. aid edirlər.

Azərbaycan-Ermənistan sərhədləri: Azərbaycanın Ermənistanla sərhədləri onun xarici aləmlə sərhədlərinin ən böyük hissəsini təşkil edir. Əksəriyyəti quru olmaqla, bu ölkə ilə sərhədlərin uzunluğu 1007.1 kilometrdir. Həmin sərhədlərin uzunluğu rayonlar üzrə müvafiq olaraq: Naxçıvan Muxtar Respublikası (274.3 km), Qazax rayonu (123.9 km), Ağstafa rayonu (19.7 km), Tovuz rayonu (50.9 km), Gədəbəy rayonu (101.7 km), Daşkəsən rayonu (9.2 km), Kəlbəcər rayonu (125.4 km), Laçın rayonu (128.9 km), Qubadlı rayonu (74.6 km) və Zəngilan rayonu üzrə (98.5 km) təşkil edir. Sərhəd xəttinin 1000.5 kilometri çətin mühafizə olunan dağlıq, 6,5 kilometri isə düzənlik ərazilərdən keçir.

Ermənistanla sərhədlərin mühafizəsi və təhlükəsizliyinə təsir göstərən amillər sırasına mütəxəssislər:

- Azərbaycan Respublikasının ərazisinin 20%-nin, o cümlədən Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrinin və Azərbaycan-Ermənistan dövlət sərhədinin 733 kilometrinin Ermənistan silahlı qüvvələri tərəfindən bilavasitə işğal olunmasını, 20 mindən çox vətəndaşın öldürülməsini, 50 mindən çoxunun yaralanmasını və əlilə çevrilməsini, erməni silahlıları tərəfindən dinc insanlara, qadın və uşaqlara, qocalara qarşı törədilmiş Xocalı soyqırımı və digər anti-insani kütləvi cinayət hadisələrini, əhalinin yaşayış məskənlərindən zorla qovulması və məcburi qaçqın-köçkünə çevrilməsini;
- sərhədin bu hissəsində ölkənin milli təhlükəsizliyinə birbaşa qəsd və onun suveren hüquqlarının kobud surətdə tapdanmasını, işğal olunmuş ərazilərdəki bütün

yerli infrastrukturların, sənaye, kənd təsərrüfatı və mədəni-sosial mülkiyyətin və obyektlərin dağıdılmasını, bu ərazilərin ekoloji durumuna ciddi zərbə vurulmasını, münbit torpaqların çirkləndirilməsini, qeyri-münbit və şoranlaşmış ərazilərə çevrilməsini, torpaqların narkotik maddələrin becərilməsi və tranziti, ekoloji cəhətdən ziyanlı olan digər fəaliyyətlərin məskəninə çevrilməsini;

- ərazidə cəmlənmiş nəzarətsiz və qeyri-qanuni silahlı qüvvələrin, hərbi texnikanın həm Azərbaycanın torpaqlarına və əhalisinə, həm də bütün bölgənin təhlükəsizliyinə ciddi təhdidə çevrilməsini, regionda daimi təhlükə və geostrateji problemlər yaratmasını;
- faktiki olaraq beynəlxalq hüququn heç bir subyektinə tabe olmayan və bütün beynəlxalq normaların pozulduğu bu məkanda nəzarətsiz hərbi-separatçı rejimin yaradılmasını və qeyri-qanuni fəaliyyətin davam etdirilməsini, problemin sülh yolu ilə həlli istiqamətində görülmüş işlərin nəticə verməməsini;
- Ermənistan tərəfindən blokada vəziyyətində saxlanılan Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının əsas hissəsi ilə birbaşa nəqliyyat əlaqəsinin pozulmasını və beynəlxalq aləmə yeganə çıxış yolu kimi Türkiyə və İran sərhədlərindən istifadə edilməsini;
- Cənubi Qafqazda həyata keçirilən transkontinental enerji layihələrindən kənarda qalmış Ermənistanın regional inteqrasiya və əməkdaşlıq proseslərinə qarşı daim təxribat törətməsini və pozucu fəaliyyət göstərməsini;
- Gürcüstan ərazisindən çıxarılan Rusiyaya məxsus hərbi texnikanın Ermənistanda və Ermənistanın işğal etdiyi Azərbaycan Respublikası ərazilərində yerləşdi-

rilməsini, bu işğalçı ölkənin hərbi potensialının gücləndirilməsi istiqamətində Rusiya ilə birgə fəaliyyətin davam etdirilməsini və s. aid edirlər.

Azərbaycan-Türkiyə sərhədləri: Azərbaycanın Türkiyə Respublikası ilə sərhədi cəmi 15.0 kilometrdir. Bunun da əksəriyyəti Araz çayı boyunca Şərur-Sədərək rayonları (Naxçıvan Muxtar Respublikası) ərazisindən keçir. Azərbaycan üçün ciddi geostrateji əhəmiyyət kəsb edən və qardaş Türkiyə ilə geosiyasi birliyi təmin edən bu sərhəd sahəsi, bəlkə də ölkənin xarici aləmlə yeganə problemsiz hüdudu hesab olunur.

SSRİ-nin dağıldığı 1991-ci ildən sonrakı dövrdə aparılan ikitərəfli danışıqlara baxmayaraq, ölkənin həm quru, həm də dəniz sərhədlərinin böyük hissəsi **delimitasiya** olunsa da, *Xəzər vasitəsilə İran və Türkmənistanla, quru vasitəsi ilə isə Gürcüstanla sərhədlər tam* **demarkasiya** *olunmamış, yaxud bu proses başa çatmamışdır. Ermənistanla müharibə vəziyyəti davam etdiyinə görə onunla hətta sərhəd delimitasiyası da həyata keçirilməmişdir.*

2010-cu il sentyabrın 3-də Rusiya Prezidenti Dmitri Medvedevin Azərbaycana rəsmi səfəri zamanı "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında" Müqavilə imzalanmışdır. Həmin sənədlə Azərbaycan və Rusiya sərhədlərinin delimitasiyası prosesi başa çatmışdır. Müqavilə 2010-cu il dekabrın 21-də Azərbaycan Respublikasının Milli Məclisi, 2011-ci il iyunun 17-də isə Rusiya Federasiyasının Dövlət Duması tərəfindən ratifikasiya olunmuşdur.

Azərbaycan-Gürcüstan sərhədlərinin müəyyənləşdirilməsi üzrə dövlətlərarası delimitasiya komissiyasının 2009-cu il 17-18 iyunda Tbilisidə keçirilmiş 10-cu iclasından sonra sərhədlərin 283 kilometri (59%) razılaşdırılmışdır.

Xəzəryanı ölkələrdən *İran və Türkmənistanla Xəzər dənizinin orta xəttinin müəyyən olunması və milli sektorların koordinatları məsələsində Azərbaycanın bir çox problemləri möv-*

cuddur. Doğrudur, Ermənistan istisna olmaqla, Azərbaycanın hər hansı həmsərhəd dövlətlə indiyə qədər ciddi sərhəd münaqişəsi və yaxud silahlı qarşıdurması (İran hərbi təyyarələrinin və sərhədçilərinin 2001-ci ildə Xəzər dənizinin Azərbaycana məxsus milli sektorunun "Alov" neft yatağında kəşfiyyat-qazma işləri aparan BP mütəxəssislərinə hərbi təzyiq göstərməsi və onları ərazini tərk etməyə məcbur etməsi faktı istisna olmaqla - Ə.H.) mövcud olmamışdır. Lakin Xəzəryanı və Cənubi Qafqaz ölkələri ilə ortaq sərhəd xətlərinin hələ də axıra qədər demarkasiya və delimitasiya edilməməsi ciddi narahatlıq mənbəyi olaraq qalmaqdadır. Bundan başqa, mütəxəssislərin məlumatına görə, 2020-ci ilə qədər Xəzəryanı ölkələrin hərbi dəniz qüvvələrinə və sahil mühafizəsinə bütövlükdə, təxminən 60-a yaxın hərbi gəmi və kater daxil edəcəyi gözlənilir ki, bu da birbaşa dənizin millitaristləşdirilməsinə dəlalət edəcəkdir. Xəzər sahili ölkələrindən Rusiyanın 18, Qazaxıstanın 7-9, Türkmənistanın 12 və digərlərinin 2020-ci ilə qədər dənizə buraxacağı neçə-neçə hərbi gəmilərin mövcudluğu şəraitində, Azərbaycan rəsmiləri öz ölkələrinin Xəzər dənizindən qaynaqlanan təhlükəsizliyi haqqında ciddi düşünmək məcburiyyətində qalacaqdır.

Azərbaycanın qonşularından **dəniz sərhədlərinin orta xəttinin müəyyənləşməsində** İranla yanaşı, Xəzəryanı ölkələrdən problemli olaraq qalan ikinci dövlət **Türkmənistandır.** SSRİ dağılandan sonra Azərbaycan bu ölkə ilə dəniz sərhədlərinin orta xəttinin və Xəzərdəki bəzi neft-qaz yataqlarının mənsubiyyətinin müəyyənləşməsində bəzi problemlər yaşayır. Artıq yuxarıda qeyd olunduğu kimi, Xəzərin hüquqi statusu "müəyyənləşmədən" və onun milli sektorlarının delimitasiyası, demarkasiyası aparılmadan Azərbaycanın dənizdə həyata keçirdiyi beynəlxalq neft-qaz layihələrinə Türkmənistan da, Rusiya və İrana qoşularaq, rəsmi şəkildə müəyyən etirazlar səsləndirmiş və özünəməxsus iddialar irəli sürmüşdür. Əslində,

öz milli maraqlarının ziyanına olaraq Xəzərin hüquqi statusunun müəyyən olunmasını indiyə qədər uzadan iki ölkədən biri məhz Türkmənistandır. Bu ölkə müstəqillik dövrünün ayrı-ayrı illərində xalqlarımızın ortaq din, dil, mədəniyyət və etnik soykökünə malik olmasını, iki ölkənin strateji maraq çərçivələrinin və geosiyasi, geoiqtisadi mənafelərinin üst-üstə düşməsini, bu maraqların onlar arasında strateji tərəfdaşlıq tələb etməsini nəzərə almadan, bəzi məsələlərdə tam anti-Azərbaycan mövqeyi nümayiş etdirmişdir. Lakin Azərbaycan rəhbərliyi bu ölkəni idarə edənlərin nə vaxtsa real gerçəkliyi dərk edərək, Xəzər hövzəsində respublikamızla eyni geosiyasi düşərgədə mövqe tutacağına ümid bəsləmiş və onların bəzi əsassız bəyanatlarına, qeyri-sağlam hərəkətlərinə göz yummuşdur.

Türkmənistan özünü Xəzər hövzəsi və Orta Asiyada bitərəf dövlət elan edərək, bölgədəki təhlükəsizlik və hərbi-strateji bloklardan uzaq qalacağını bəyan etmişdir. Lakin bu ölkənin Xəzərdə həyata keçirmək istədiyi hərbi-geostrateji siyasət və bu haqda verdiyi bəzi bəyanatlar Azərbaycanı özünün hərbi və iqtisadi təhlükəsizliyi baxımından biganə qoya bilməz. Son dövrlərdə bəzi mənbələrin verdiyi məlumata görə, özünün "təhlükəsizlik maraqlarının təmin olunması"nı əsas gətirərək, Türkmənistan Xəzər dənizində güclü hərbi-dəniz qüvvələri yaratmaq, onu müasir texnika ilə təmin etmək haqqında milli proqram açıqlamışdır. Ölkənin Milli Təhlükəsizlik Şurasının qərarı ilə qəbul edilmiş həmin proqramda Türkmənistanın 2015-ci ilə qədər Xəzər hərbi-dəniz qüvvələri formalaşdırması, dənizdə hərbi-strateji planlar həyata keçirən, öz geoiqtisadi və təhlükəsizlik maraqlarını təmin edən hərbi donanma yaratması nəzərdə tutulmuşdur. Mütəxəssislər son illərdə bu ölkənin Xəzər dənizində yerləşən Türkmənbaşı hərbi-dəniz sərhəd dəstəsinə aldığı "Kalkan M", "Qrif T" tipli, Ukraynadan alınmış onlarla patrul katerlərini, İrandan alınmış 7 sahil-mühafizə hərbi katerini və bir ədəd minadaşıyan gəmini, ABŞ-la hərbi

əməkdaşlıq çərçivəsində aldığı ”Point Jackson” patrul katerini və digər hərbi-dəniz texnikasını, ölkə rəhbərliyinin səsləndirdiyi çoxsaylı anti-Azərbaycan bəyanatlarını və qeyri-standart hərəkətləri, o cümlədən İranın Xəzərin Azərbaycana məxsus “Alov” yatağına 2001-ci ildə həyata keçirdiyi hərbi müdaxilə nümunəsini və s. nəzərə alaraq, bu proqramı Azərbaycanın təhlükəsizlik maraqlarına bilavasitə təhlükə kimi qiymətləndirmiş və Xəzərdə yeni - “türkmən təhlükəsinin” gələcək geostrateji konturlarını nəzərdən qaçırmamağı tövsiyə etmişlər.[461] Məlumatlara görə, bu yaxınlarda türkmən hərbi-dəniz donanması Rusiyadan alınmış iki ədəd “Sobol” patrul kateri ilə öz cəbbəxanasını bir qədər də gücləndirmişdir.[462] Bundan başqa, ən son məlumata görə, hazırda Türkmənistan Türkiyə hərbi şirkətlərindən biri ilə iki ədəd yeni gözətçi gəmi istehsal edir ki, onlar da silahlandırılaraq təyinatı üzrə Xəzər dənizinə daxil ediləcəklər.[463]

Türkmənistanın siyasi və hərbi dairələri Xəzərin hərbiləşdirilməsindən narahat olan ölkələrə verdiyi cavabda “bütün bu addımların hər hansı Xəzərətrafı dövlətə qarşı yönəlmədiyini, yalnız ölkənin dəniz sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıdığını” bildirsələr də, mütəxəssislər 2009-cu ilin avqust ayında Türkmənistan rəsmilərinin “Xəzər hərbi-donanması üçün raketlərlə təchiz olunmuş, bütün dəniz akvatoriyasını optik və lokasiya nəzarətində saxlayan müasir hərbi gəmilərin alınması haqqındakı” bəyanatının tamamilə fərqli geostrateji planlardan xəbər verdiyi qənaətindədirlər. Onların fikrinə görə, Türkmənistanın bu addımları Xəzərdə reallaşdırılan əsas transmilli neft-qaz layihələrinin sahibi qismində çıxış

[461] Bax: Велиев Е. Каспий остается проблематичной зоной // газ. “Зеркало” , 26 января 2010 г.
[462] Yenə orada
[463] Bax: “Bizim dövr” qəzeyi, 19 fevral 2014-cü il.

edən və bu sahədə Türkmənistanla bir çox problemi olan Azərbaycanı hamıdan artıq narahat etməlidir.[464]

Beləliklə, qloballaşan dünyada sərhəd təhlükəsizliyi məsələlərinin və ölkənin məkan təhlükəsizliyi tələblərinin qısa təhlili göstərir ki, digər xarici ölkələrdə olduğu kimi, Azərbaycanın da Milli Təhlükəsizlik Konsepsiyasına uyğun olaraq məxsusi sərhəd siyasəti formalaşdırılmalı, bu siyasətinin əsas məsələlərini özündə əks etdirən **Sərhəd Təhlükəsizliyi Konsepsiyası** hazırlanmalıdır. Ölkənin geoməkan xarakteristikası, sərhədlərinin xüsusiyyətləri və təhlükəsizliyi, onun təmin olunması yolları, vasitələri və ehtiyatları ilə bağlı bütün məsələlər həmin sənəddə öz əksini tapmalıdır.

§ 5. 3. Azərbaycanın milli enerji təminatı və təhlükəsizliyi siyasəti

Azərbaycan Respublikası Cənubi Qafqazın yeganə ölkəsidir ki, zəngin karbohidrogen ehtiyatlarına, inkişaf etmiş yanacaq-energetika infrastrukturuna və özünü tam təmin edən enerji sisteminə malikdir. Ölkənin təkcə milli və regional səviyyədə deyil, həm də dünya enerji sistemində getdikcə həlledici bir vəsiləyə çevrilməsi, transmilli enerji bazarlarında özünəməxsus yer tutması və Avropanın enerji təhlükəsizliyində fəal iştirakı onun regional və planetar geosiyasi, geoiqtisadi mövqeyinin möhkəmlənməsinə xüsusi təsir göstərməkdədir.

Azərbaycanın enerji ehtiyatları həm də milli iqtisadiyyatın bütün sahələrinin dinamik inkişafının əsasını təşkil edir, ölkənin ümumi daxili məhsulunun, əsas maliyyə - iqtisadi göstəricilərinin formalaşmasında həlledici amil kimi çıxış edir. Odur

[464] Bax: Велиев Е. Каспий остается проблематичной зоной // газ. “Зеркало”, 26 января 2010 г.

ki, mövcud təbii ehtiyatlardan, yanacaq-enerji potensialından səmərəli istifadə edilməsi siyasəti Cənubi Qafqazın regional geosiyasi və geoiqtisadi vəziyyəti fonunda ölkənin davamlı iqtisadi inkişafının və iqtisadi təhlükəsizliyinin əsas təminatlarından birini yaradır.

Geosiyasi ədəbiyyatda hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyin mühüm tərkib hissələrindən biri kimi dəyərləndirilir. Enerji təhlükəsizliyi dedikdə, bütün ölkənin, onun vətəndaşlarının, cəmiyyətin, iqtisadiyyatın yanacaq və enerji təchizatı vasitəsi İlə xarici və daxili təhdidlərdən müdafiəsi nəzərdə tutulur. Xarici təhdidlərə geosiyasi, xaricdən qaynaqlanan makroiqtisadi xarakterli problemləri, daxili təhlükəsizliyə isə ölkənin milli enerji sektoru ilə birbaşa bağlı olan məsələləri aid edirlər.

Enerji təhlükəsizliyinin təmin olunmasının əsas prinsipləri aşağıdakılardır:

- strateji və mühüm obyektlərin enerji ilə etibarlı təmin olunması;
- sərf edilmiş yanacaq ehtiyatlarının yerinin doldurulması;
- yanacağın və enerji növlərinin diversifikasiyası (şaxələndirilməsi);
- ekoloji tələblərin nəzərə alınması;
- enerji ehtiyatlarından səmərəsiz istifadənin qarşısının alınması;
- daxili və xarici bazarlarda enerji ehtiyatlarının lazımi gəlir gətirməsi və səmərəli ixrac üçün azad iqtisadi şəraitin yaradılması və s.[465]

Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin əsasları, onun təmin olunması prinsipləri öz əksini "Əsrin müqavilə-

[465] Bax: "Energetika haqqında" Azərbaycan Respublikasının Qanunu//www.mie.gov.az/cgi- bin/min/main.cgi.id

si”nin imzalanması ilə başlanan və 1994-cü ildən həyata keçirilən yeni neft strategiyasında tapmışdır. Bundan başqa, Azərbaycanın transmilli və daxili enerji siyasəti, bu sahədə həyata keçirilən tədbirlər, reallaşdırılan vəzifələr və enerji təhlükəsizliyinin təmin olunması ilə bağlı digər məsələlər 2003-2014-cü illərdə qəbul olunmuş bir çox rəsmi dövlət sənədlərində də əks olunmuşdur. Bunların sırasında “Energetika haqqında” Azərbaycan Respublikasının Qanununu, “Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə” Dövlət Proqramını, “2005-2015-ci illərdə ölkənin yanacaq-enerji kompleksinin inkişafı” Dövlət Proqramını, “Şahdəniz 2” təbii qaz və s. göstərmək olar.[466]

Azərbaycan dövləti hazırda kənar təsirlərdən asılı olmayan milli enerji sektorunun yaradılması və davamlı iqtisadi inkişafının təmin edilməsi məqsədi ilə çevik enerji siyasəti həyata keçirir. Bu siyasətin prioritet vəzifələri *ölkənin təbii enerji ehtiyatlarının qorunması və səmərəli istifadəsi, milli energetika sektorunun inkişafı, əhalinin və iqtisadiyyatın neftə, qaza, elektrik enerjisinə və digər enerji daşıyıcılarına olan daxili tələbatının tam və davamlı təminatı, xarici ölkələrin Xəzər bölgəsindəki beynəlxalq, regional və yerli enerji maraqlarının və təhlükəsizliyinin respublikanın milli maraqları ilə əlaqələndirilməsi, ölkənin enerji təhlükəsizliyindən irəli gələn digər strateji məsələlərin həllindən ibarətdir.*

Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunması məqsədi ilə son illərdə ölkə daxilində bir sıra təşkilati-texnoloji tədbirlər həyata keçirilmiş və bu gün də keçirilməkdədir. Onların sırasına yanacaq-enerji kompleksinin texnoloji bazasının və infrastrukturların modernləşdirilməsi, yanacaq-enerji ehtiyatlarının mənimsənilməsi və istismarının dünya standartları səviyyəsinə qaldırılması, neft-qaz istehsalının ekoloji təmizliyinin

[466] http://e-qanun.az

və iqtisadi səmərəliliyinin artırılması və s. daxildir. Azərbaycanın enerji təhlükəsizliyi sahəsində həyata keçirdiyi daxili siyasətin əsas vəzifələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

- yanacaq-enerji kompleksinin müasir tələblərə uyğun inkişafını müəyyənləşdirmək və təmin etmək;
- yanacaq-enerji kompleksinə daxil olan sənaye sahələrinin fəaliyyətində səmərəliliyin artırılması üçün müvafiq elmi-texniki və təşkilati tədbirlər həyata keçirmək;
- enerji ehtiyatlarının istehsalı, emalı, nəqli, saxlanması, uçotu və istehlakı üzrə mütərəqqi texnoloji tədbirlərin həyata keçirilməsini təmin etmək;
- yanacaq-enerji sektorunda sağlam rəqabət mühiti formalaşdırmaq;
- yanacaq-enerji kompleksinin inkişafına cəlb edilən sərmayələrin həcmini artırmaq;
- yanacaq-enerji kompleksində ekoloji təhlükəsizliyi təmin etmək;
- yanacaq-enerji ehtiyatlarının istehlakına görə ödənişlərin daha dolğun yerinə yetirilməsini təmin etmək və s.

Enerji təhlükəsizliyini təmin etmək üçün ötən illərdə Azərbaycan hökuməti həm də xarici siyasət sahəsində, transmilli və regional aləmlə sistemli iş aparmış, bu istiqamətdə aşağıdakı əsas tədbirləri həyata keçirmişdir:

- Xəzərin Azərbaycan sektorunda xarici investorların imkanlarından istifadə etməklə, enerji ehtiyatlarının istehsalı və satışı sahəsində səmərəli fəaliyyətin təşkil edilməsi, dünya yanacaq-enerji bazarında layiqli yer tutmaq üçün rəqabətə davamlı məhsul çıxarılması;
- ölkənin neft-qaz istehsalı və ixracının regional təhlükəsizliyinin təmin edilməsi və bu istiqamətdə beynəlxalq aləmin təminatının alınması;

- Azərbaycanın milli yanacaq-enerji tarazlığının yaradılması və daxili enerji təminatının xarici asılılıqdan çıxarılması;
- enerji sektorunda çevik elmi-texniki və innovasiya fəaliyyətinin təmin edilməsi, dünyada mövcud olan qabaqcıl texnoloji yeniliklərin tətbiq olunması və s.

Azərbaycanın son illərdə nümayiş etdirdiyi dinamik iqtisadi inkişaf ölkənin enerji ehtiyatlarına olan məxsusi tələbatını əhəmiyyətli dərəcədə artırmışdır. Bu isə öz növbəsində iqtisadi baxımdan səmərəli və dinamik inkişaf edən, ekoloji standartlara uyğun, qabaqcıl texnologiyalarla və yüksək ixtisaslı kadrlarla təchiz olunmuş yanacaq-energetika kompleksinin formalaşdırılmasını və modernləşdirilməsini tələb edir.

İqtisadiyyatın və ölkə əhalisinin enerjinin bütün növləri ilə uzunmüddətli və sabit təmin olunması elmi cəhətdən əsaslandırılmış enerji siyasəti ilə sıx şəkildə bağlıdır. Bu siyasətin əsas məqsədi həm də təbii yanacaq-enerji ehtiyatlarından iqtisadiyyatın inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün səmərəli şəkildə istifadə olunmasına yönəlmişdir.

Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunması ölkə səviyyəsində davamlı şəkildə aşağıdakı vəzifələrin həyata keçirilməsini nəzərdə tutur:

- ölkə iqtisadiyyatının və əhalinin uyğun qiymətlərlə enerji ehtiyatları ilə davamlı təmin olunması;
- ölkənin enerji təminatı sahəsində risklərin azaldılması və baş verə biləcək böhran hallarının qarşısının alınması;
- enerji ehtiyatlarından faydalı istifadə olunması və itkilərə yol verilməməsi;
- enerji daşıyıcılarının istehsalı, neft-qaz məhsullarının çıxarılması, emalı və nəqli zamanı itkilərin azaldılması;

- enerji sektorunun potensialından istifadə zamanı səmərəliliyin artırılması;
- müasir texnoloji vasitələrdən istifadə etməklə energetikanın ətraf mühitə texnogen təsirinin azaldılması və s.

Hazırda neft-qaz sənayesi ölkəmizin makroiqtisadi göstəricilərinə, xüsusilə, iqtisadi artım surətinə, sənaye istehsalının, ixracatın və investisiyaların həcminə, büdcə gəlirlərinə böyük təsir göstərməkdədir. Neft-qaz gəlirlərindən qaynaqlanan iqtisadi inkişaf regional infrastrukturların yeniləşməsinə, qeyri-neft sektorunun tərəqqisinə və yeni iş yerlərinin açılmasına güclü stimul verir. Azərbaycan ildə istehsal etdiyi təxminən 28 milyard kub metr qazın yarıdan bir qədər azını, 50 milyon tondan çox neftin beşdə birini daxili ehtiyacların ödənilməsinə, qalanını isə xarici ölkələrə ixraca yönəltmişdir. Hər iki istiqamətdə mövcud vəziyyət ölkənin tamamilə nəzarəti altındadır və xarici geoiqtisadi amillərdən asılılıq, demək olar ki, yox dərəcəsindədir.

Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində indiyədək 71 neft və qaz yatağı istifadəyə verilmişdir. Onlardan 43-ü quruda, 28-i Xəzərdəki milli sektorda yerləşir. Hazırda 54, o cümlədən quruda 36, dənizdə 18 yatağın dövriyyəyə daxil edilməsi ilə bağlı işlər davam etdirilir, 9 yataq isə kəşfiyyat mərhələsindədir. Azərbaycanda yataqların işlənməyə başlanmasından hazırkı dövrədək 1,5 milyard ton neft (kondensatla birlikdə) və 480 milyard kub metrdən artıq qaz hasil edilmişdir, o cümlədən dəniz sahəsindəki yataqlardan 0,5 milyard ton neft (kondensatla birlikdə) və 352 milyard kub metr qaz çıxarılmışdır.

Ölkənin yanacaq-enerji kompleksini daha da inkişaf etdirmək məqsədi ilə neft və qaz hasilatı sahəsində qarşıdakı illərdə aşağıdakı işlərin aparılması nəzərdə tutulur:

- yeni yataqların axtarışı və kəşfiyyatı;
- aşkar edilmiş yataqların tammiqyaslı işlənməyə cəlb edilməsi;

- işlənməkdə olan yataqlarda yeni quyuların qazılması və fəaliyyətsiz quyuların bərpası;
- işlənməkdə olan yataqlar üzrə neftvermə əmsalının artırılması məqsədi ilə yeni texnika və texnologiyaların tətbiqi;
- neft-qaz hasilatı, nəqli və emalı sistemlərinin tikilməsi, yenidən qurulması və modernləşdirilməsi;
- elm və texnikanın nailiyyətlərindən və qabaqcıl təcrübədən geniş istifadə edilməsi və s.

Azərbaycanın enerji təhlükəsizliyinin əsas istiqamətlərindən biri də ölkənin **elektrik enerjisinə** olan daxili ehtiyacının fasiləsiz təmin edilməsindən ibarətdir. Bu məqsədlə son illərdə qarşıya qoyulmuş əsas vəzifələr milli elektrik enerjisi sisteminin yenidən və müasir texniki tələblərə uyğun şəkildə qurularaq Avropa standartları səviyyəsinə çatdırılması, daxili enerji tələbatının tam ödənilməsi və qonşu ölkələrə elektrik enerjisi satışının artırılmasından ibarətdir.

Müstəqillik illərində, xüsusən də 2001-ci ildən başlayaraq Azərbaycanın milli elektrik enerji sistemi, enerji istehsal edən əksər strukturları yenidən qurulmuş, ölkədaxili və Azərbaycanı xarici ölkələrlə birləşdirən magistral elektrik xətləri yeniləşdirilmiş, şəhər və rayonlarda onlarla böyük və kiçik elektrik stansiyaları tikilmişdir. Bu da nəinki ölkənin elektrik enerjisinə olan illik təxminən 18 milyard kvt/saat daxili tələbatını ödəməyə, eyni zamanda qonşu ölkələrə 2 milyard kvt/saata yaxın enerji ixrac etməyə imkan vermişdir.[467]

Azərbaycanın elektrik enerjisi sisteminə hazırda 13 istilik və 6 su elektrik stansiyası (ümumi elektrik istehsalının 90%-i istilik, 10%-i isə su elektrik stansiyalarının payına düşür) daxildir. "Azərbaycan Respublikasında yanacaq-enerji komplek-

[467] Bax: Azərbaycan energetikası. 2010-cu ilin I rübünün hesabatı. http://www.mie.gov.az/cgi-bin/min/main.cgi?id

sinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı"na uyğun olaraq, 2005-2015-ci illərdə respublikada ümumi gücü 3000 meqavata yaxın daha bir neçə elektrik stansiyasının istismara verilməsi nəzərdə tutulmuşdur ki, bu da Azərbaycanın həm daxili enerji təchizatını, həm də ixrac potensialını ciddi şəkildə artıracaqdır.

Azərbaycan özünün elektrik enerjisi təminatı ilə bağlı problemini (generasiya gücünü) həll etsə də, enerji sisteminin dayanıqlığını və etibarlılığını təmin edə biləcək digər sahənin - enerji ötürücü və paylayıcı sisteminin yenidən qurulmasını hələ də başa çatdıra bilməmişdir. Rəsmi məlumata görə, respublikanın enerji sisteminin əsas ötürücü xətlərinin (təxminən 100 min km. ötürücü xətlərinin) çoxu, 200-dən artıq yarımstansiyanın böyük əksəriyyəti sovet hakimiyyəti dövründən qalır və respublikanın etibarlı enerji təhlükəsizliyi tələblərinə cavab vermir. [468]

Azərbaycan Respublikasının enerji siyasətinin əsas vəzifələrindən biri də ölkənin Cənubi Qafqaz və Xəzər hövzəsinin elektrik enerjisi ixrac edən əsas dövlətlərindən birinə çevrilməsidir. Bu məqsədlə, bir tərəfdən, ölkədə elektrik enerjisi istehsalının artırılması, digər tərəfdən həmin enerjinin xarici ölkələrə çatdırılması sisteminin yenidən qurulması və yaxud da yaradılması nəzərdə tutulur. Hazırda Azərbaycanın elektrik enerjisi sisteminin xarici ölkələrə əsas bağlantıları - Rusiya (330 kv-luq «Dərbənd-Yaşma» xətti), Gürcüstan (500 kv-luq «AzDRES-Muxranis Veli", 330 kv-luq "Ağstafa-Qardabani» xətləri), Türkiyə (154/220 kv-luq «İqdır-Babək» xətti) və İran (230 kv-luq «İmişli-Parsabad», 220 kv-luq «Astara», 132 kv-luq «Araz», 132 kv-luq «Culfa» yüksək gərginlikli hava xətləri və 11 kv-luq kabel xətti) vasitəsilə həyata keçirilir. Ölkənin elektroenergetika sistemində 2003-cü ildən çoxsaylı yeni istilik

468 Yenə orada

və su elektrik stansiyalarının tikintisi, mövcud enerji bloklarının müasirləşdirilməsi, alternativ enerji mənbələrindən (kiçik SES-lər, külək, günəş, termal sular və s.) istifadə edilməsi hesabına hazırda fəaliyyətdə olan generasiya güclərinin 2015-ci ildə 6500-7000 meqavata çatdırılması gözlənilir. Bu da həm daxili ehtiyacları tam ödəyəcək, həm də xaricə satılan enerji miqdarını bir neçə dəfə artırmağa imkan verəcəkdir.[469]

Müasir dünyanın inkişaf etmiş ölkələrində ənənəvi enerji mənbələrinin getdikcə tükənməsini və onlardan istifadə zamanı ətraf mühitə külli miqdarda ziyan vurulmasını nəzərə alaraq, ekoloji cəhətdən təmiz alternativ (bərpa olunan) enerji mənbələrindən (su, günəş və külək enerjisi, termal sular, biokütlə enerjisi) istifadəni günü-gündən genişləndirirlər. Bu sahədə ABŞ, Kanada, Almaniya, Finlandiya, Norveç, Danimarka, İspaniya, Yaponiya və Çin daha qabaqcıl mövqe tutur. Qeyd edək ki, inkişaf etmiş ölkələrdə bərpa olunan enerji mənbələrinin payına (su elektrik stansiyaları daxil olmaqla) ümumi istehsal olunan enerjinin 13,5 faizi düşür. Yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da ekoloji cəhətdən təmiz, alternativ (bərpa olunan) enerji mənbələrindən geniş istifadə edilməsinə imkan verir. Bu, istilik elektrik stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaətlə yanaşı, ətraf mühitə atılan zərərli tullantıların miqdarının xeyli azaldılması deməkdir. Ölkənin təbii potensialından istifadə etməklə, alternativ enerji mənbələrinin elektrik və istilik enerjisi istehsalına cəlb olunması elektroenergetikanın inkişafında mütərəqqi dəyişikliklər etməyə imkan yaradır. Külək enerjisi digər alternativ enerji mənbələri olan günəş, hidroenergetika, geotermal və biokütlə

[469] Bax: Azərbaycan energetikası. 2010-cu ilin I rübünün hesabatı. http://www.mie.gov.az/cgi-bin/min/main.cgi?id

enerjisi ilə müqayisədə özünün maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə görə daha sərfəli hesab olunur.

Təcrübə göstərir ki, Azərbaycanın bir çox rayonlarında külək və digər bərpa olunan enerji mənbələrindən istifadə edilməsinin, bu yöndə müasir qurğuların qurulması və tətbiqinin böyük perspektivi vardır. Həmin perspektivi və mövcud imkanları nəzərə alan Azərbaycan hökuməti 2008-ci ildə "Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə" xüsusi Dövlət Proqramı qəbul etmiş və hazırda onun reallaşdırılmasına başlamışdır. Hesablamalara görə, Azərbaycan özünün coğrafi vəziyyətinə, təbii şəraitinə və iqtisadi infrastrukturuna görə 800 MVt-a yaxın illik külək enerji ehtiyatına malikdir. Həmin ehtiyat ildə 2,4 milyard kVt/saat elektrik enerjisinə bərabərdir. Bu isə, öz növbəsində, ildə 1 milyon tona yaxın şərti yanacağa qənaət, ən əsası isə külli miqdarda tullantıların, o cümlədən atmosfer üçün zərərli maddə olan karbon dioksidin qarşısının alınması deməkdir.[470]

Azərbaycanın transmilli dünya ilə enerji tərəfdaşlığı münasibətlərinin yaradılması

Keçən müddətdə Azərbaycanın Xəzər dənizində ona məxsus zəngin karbohidrogen ehtiyatlarını dünyanın aparıcı ölkələrinin qabaqcıl şirkətlərilə birgə yeni texnologiya əsasında istehsal etməsi və müstəqil marşrutlarla dünya bazarlarına çıxarması onun enerji təhlükəsizliyinə beynəlxalq dəstəyi artırmış, dünya enerji sistemindəki rolunu yüksəltmişdir. Bütün bunlar ölkənin enerji təhlükəsizliyinin qorunmasına və təmin olunmasına həm də beynəlxalq dəstəyi gücləndirmişdir. Bakı-

[470] Bax: Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı // www.mie.gov.az/cgi-bin/min/main.cgi?id

Tbilisi-Ceyhan əsas neft və Bakı-Tbilisi-Ərzurum qaz ixracı kəmərləri dünya dövlətləri ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq münasibətlərinin yaranmasına və müvafiq olaraq onun iqtisadi cəhətdən inkişaf etməsinə təkan vermişdir.

Lakin Xəzər hövzəsində qlobal enerji layihələrinin reallaşması təkcə Azərbaycanın deyil, həm də bütövlükdə Avrasiya regionunun, beynəlxalq aləmin və transmilli dünyanın enerji təhlükəsizliyinə müsbət təsir etmiş, neft-qaz ixracı sahəsində uğurlu beynəlxalq tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət göstərmişdir. Azərbaycanın ciddi səyləri nəticəsində Xəzər bölgəsinin zəngin enerji ehtiyatlarından səmərəli istifadə, onun üzərində transmilli nəzarətin təmin olunması, neftin və qazın təhlükəsiz marşrutlarla dünya bazarlarına çatdırılması sistemi yaranmışdır ki, bu da qloballaşan dünyanın geosiyasi müstəvisində təkcə Azərbaycanın deyil, həm də bütöv Xəzər bölgəsinin geoiqtisadi rolunu artırmışdır. Azərbaycan Avropanın müasir enerji təhlükəsizliyi sistemində mühüm yer tutaraq yeni-yeni transmilli layihələrin hazırlanması və həyata keçirilməsində arzuolunan və etibarlı tərəfdaşa çevrilmişdir. Həmin tərəfdaş ölkələrlə birgə reallaşdırılan layihələr, çəkilən neft və qaz kəmərləri ona öz ixrac və təchizat marşrutlarını şaxələndirməyə, əhalinin iqtisadi, sosial və s. tələbatlarını daha dolğun ödəməyə lazımi imkanlar yaratmışdır.

Xəzər hövzəsindən hasil edilən neft və təbii qazın Qara, Aralıq və Baltik dənizlərinin limanlarına, ətraf regionlara, habelə Mərkəzi Avropaya çatdırılması üçün transmilli enerji ixracının şaxələndirilməsi siyasətini həyata keçirən Azərbaycan hazırda çoxvariantlı ixrac marşrutlarının və kəmərlərinin yaradılmasına çalışır. Bu onun müstəqil enerji siyasətini və ixrac təhlükəsizliyini təmin etməklə yanaşı, həm də regionun neft-qaz ölkələrinin maraqlarına, Avropanın enerji təhlükəsizliyinə xidmət edir.

Azərbaycan bu gün regionda kənardan heç bir enerji asılılığı olmayan, bütün sahələr üzrə öz enerji tələbatını daxili imkanları hesabına tam ödəməyə qadir olan iki ölkədən biridir. Hazırda onun həyata keçirdiyi enerji siyasətinin məqsədi ölkənin dünya bazarlarına çıxış imkanlarını daha da artırmaqdan və dünya ölkələri üçün alternativ enerji mənbəyi yaratmaqdan ibarətdir. Son illərdə dünya enerji satışı bazarında çəkisini və rolunu xeyli dərəcədə gücləndirməsi Avropa dövlətlərinin Azərbaycanla əməkdaşlığa marağını daha da artırmışdır. Hazırda Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaması dünyanın inkişaf etmiş dövlətləri və aparıcı beynəlxalq təşkilatlar tərəfindən birmənalı şəkildə etiraf olunur.

2006-cı ilin noyabrında Brüsseldə "Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması həm Azərbaycanın, həm də Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinə mühüm töhfə oldu. 2007-ci ilin may ayında Krakov şəhərində təşkil olunmuş enerji sammiti bu sahənin təhlükəsizlik məsələlərinin Avropa üçün getdikcə daha qlobal səciyyə daşıdığını, mühüm geosiyasi reallıqlarla şərtləndiyini növbəti dəfə təsdiqlədi. Polşa, Azərbaycan, Gürcüstan, Litva və Ukrayna prezidentlərinin, eləcə də Qazaxıstanın dövlət nümayəndələrinin iştirak etdiyi bu sammitdə enerji sahəsində yeni subregional inteqrasiya modeli yaratmağın vacib olduğu vurğulandı. Sammit çərçivəsində müzakirə olunmuş Odessa-Brodı-Qdansk marşrutu Qara dənizə çıxarılan neftin Baltik dənizi sahilinə çatdırılmasını, oradan Avropa və dünya bazarlarına daşınmasını nəzərdə tutur. 2007-ci ilin oktyabrında Litvanın paytaxtı Vilnüs şəhərində "Vilnüs enerji təhlükəsizliyi konfransı - 2007: məsul tərəfdaşlar üçün məsul energetika" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak edən dövlətlər Xəzər dənizinin karbohidrogen ehtiyatlarının Avropa bazarlarına daşınması üçün milli şirkətlərin iştirakı ilə yeni konsor-

siumun – "Sarmatiya"nın yaradılması barədə razılığa gəlmişlər. Bu konsorsiumun əsas məqsədi Azərbaycan, Gürcüstan, Ukrayna və Polşanın ərazisindən keçməklə, Xəzər dənizindən Avropaya və beynəlxalq bazarlara gedən daşınma sistemlərinin reallaşdırılmasını təmin etməkdən ibarətdir. Tədqiqatçıların fikrincə, belə bir konsorsiumun yaradılması Avropa Birliyinin enerji təhlükəsizliyi maraqlarına tam cavab verir. 2008-ci il noyabrın 13-14-də Bakıda keçirilən enerji sammitində Nabukko qaz layihəsinin reallaşmasında Azərbaycanın əsas söz sahibi olduğu bir daha aydınlaşdı.

Azərbaycan dövlətinin neft-qaz kəmərlərini şaxələndirməsi təkcə ölkənin enerji təhlükəsizliyinə xidmət etmir, eyni zamanda transmilli enerji ixracının daha səmərəli və məqsədyönlü təşkilinə müsbət təsirini göstərir. Hazırda Azərbaycan nefti üç istiqamət üzrə - Bakı-Tbilisi-Ceyhan vasitəsi ilə Aralıq dənizinə və dünya bazarlarına, Bakı-Supsa və Bakı-Novorosiysk xətləri vasitəsilə Qara dəniz limanları və Avropa bazarlarına çıxarılır. Növbəti layihə kimi, Bakı-Supsa xəttinin Odessa-Brodı-Plotsk-Qdansk marşrutu ilə Şərqi Avropaya qədər uzadılması nəzərdə tutulur. Bu məqsədlə "Sarmatiya" adlı müştərək şirkətin təsis edilməsi də prosesin yaxın perspektivdə sürətlənəcəyinə dəlalət edir. Bundan sonra Xəzər dənizinin enerji ehtiyatlarının nəqli üçün Avropa bazarlarına əlavə marşrutların reallaşdırılması yönündə əməli addımlar atılması nəzərdə tutulur.

Bu gün Xəzər hövzəsindən neftin və qazın dünya bazarlarına çatdırılması yollarının şaxələndirilməsi ABŞ və Qərb dövlətlərinin geosiyasi maraqlarına da tam cavab verir. Onlar Avropa bazarlarına neft göndərilməsi üçün Avrasiya neft nəqli dəhlizi sistemində Odessa-Brodı neft kəmərinin işə salınmasını, bölgənin karbohidrogen ehtiyatlarının etibarlı və təhlükəsiz nəqli üçün Xəzər-Qara dəniz və Xəzər-Baltik dənizi Enerji Tranziti Məkanının yaradılması təşəbbüslərini davam etdirmə-

yi vacib sayırlar. Bundan başqa, Qərb tərəfdaşları hesab edirlər ki, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Avropa bazarlarına nəqli regional əməkdaşlığın daha da möhkəmlənməsinə əhəmiyyətli dərəcədə təsir göstərir, dünyada enerji ehtiyatlarının hasilatçı, istehlakçı və tranzit ölkələrinin qarşılıqlı faydalı maraqlarını təmin edir. Bu dövlətlər Azərbaycanın Avropa və dünyanın enerji bazarlarına alternativ marşrutlar axtarma və ixracı şaxələndirmə siyasətini, Nabukko da daxil olmaqla, Gürcüstan, Türkiyə, Rumıniya, Bolqarıstan və s. kimi etibarlı, qeyri-asılı tranzit ölkələrinin ərazisi ilə yeni-yeni neft və qaz ixracı marşrutlarının yaradılması səylərini dəstəkləyirlər.

Qərbin Azərbaycanı özünün enerji təhlükəsizliyinin əsas təminatçılarından biri kimi qəbul etməsi Avropa İttifaqı - Azərbaycan əlaqələrini strateji səviyyəyə yüksəltmişdir. Bunun nəticəsidir ki, yuxarıda qeyd edildiyi kimi, 2006-cı il noyabrın 7-də Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair xüsusi Anlaşma Memorandumu imzalanmışdır.

Azərbaycan qazını Avropa bazarlarına çatdıracaq Türkiyə-Yunanıstan qaz kəmərinin 2007-ci il noyabrın 18-də istismara verilməsi ölkəmizlə Avropa İttifaqı arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın, həmçinin enerji tranzitinin yeni istiqamətini yaratmışdır. Bu kəmər Azərbaycan, Türkiyə və Yunanıstan üçün böyük geosiyasi əhəmiyyət daşımaqla bərabər, həm də enerji sahəsində bölgədə yeni transmilli iş birliyinin əsasını qoyur.

Türkiyə-Yunanıstan qaz kəmərinin işə salınması ilə Avropa İttifaqı - Azərbaycan əməkdaşlığı bəhrəsini verməyə başlayır. Yunanıstan Avropa İttifaqının üzvü olaraq enerji sahəsində Azərbaycanla əməkdaşlıq edir. Yaxın gələcəkdə bu əməkdaşlığa digər Avropa İttifaqı ölkələrinin də qoşulacağı gözlənilir. Çünki bu məsələ enerji təhlükəsizliyinin təminatı baxımından ilk növbədə Avropa İttifaqına daxil olan dövlətlərin geosiyasi

maraqlarına cavab verir. Artıq kəmərin Yunanıstandan İtaliya sərhədlərinə qədər uzanması barədə sənəd də imzalanmışdır.

Bundan başqa, 2010-cu ilin aprel ayında Buxarestdə, sentyabr ayında isə Bakıda Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstanın dövlət və hökumət başçılarının imzaladıqları müqaviləyə uyğun olaraq, AGRİ layihəsi çərçivəsində Azərbaycan qazının boru vasitəsi ilə Gürcüstanın Qara dəniz limanlarına çatdırılması, sonra sıxılaraq gəmilər vasitəsi ilə Rumıniya ərazisinə daşınması və oradan da Macarıstana, Bolqarıstana və digər Avropa ölkələrinə nəqli marşrutu yaradılmışdır. Bu marşrutla və 2012-ci ildə Azərbaycanla Türkiyə arasında inşası və ixrac şərtləri razılaşdırılmış Trans-Anadolu (TANAP) qaz kəməri vasitəsilə gələcəkdə Avropa ölkələrinə ildə, təxminən 20 -30 milyard kubmetr maye qazın ixracı nəzərdə tutulur.

Nəzərə alınsa ki, Azərbaycan Bakı-Tbilisi-Ərzurum qaz kəməri vasitəsilə 2005-ci ildən Türkiyə və Gürcüstana, Bakı-Mozdok və Bakı-Astara kəmərləri ilə 2009-cu ildən həm də qonşu Rusiya və İrana qaz ixrac edir, o zaman xarici bazarlara sərbəst çıxmaq və öz qazını müstəqil şəkildə ixrac etmək istiqamətində Azərbaycanın enerji təhlükəsizliyi tam təmin olunubdur.

2013-cü ilin dekabr ayında Bakıda dünyanın aparıcı neft-qaz şirkətləri və bir çox Avropa ölkələri ilə "Şahdəniz-2" layihəsi üzrə təbii qazın istehsalı, bölüşdürülməsi və ixracı üzrə yekun investisiya qərarının imzalanması isə XXl əsrdə nəinki təkcə Azərbaycanın, o cümlədən Avropa və dünyanın enerji təhlükəsizliyinin təmin edilməsində önəmli rol oynayacaqdır. "Şahdəniz-2" layihəsi Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsinə xidmət etməklə Trans-Anadolu və Trans-Adriatik qaz boru kəmərlərinin tikintisi ilə bağlı planların reallaşmasına təkan verəcək, Avropaya yeni qaz dəhlizi açacaq.[471]

[471] Bax: "Azərbaycan" qəzeti, №280, 19 dekabr 2013,.s.3.

Avropa ölkələri və aparıcı şirkətlərlə enerji sahəsindəki mövcud tərəfdaşlıq münasibətləri Azərbaycana özünün böyük qaz ehtiyatlarını dünya enerji bazarlarına çıxarmaq imkanı yaradır. Mütəxəssislərin fikrinə görə "Mərhələ-2" çərçivəsində işlənilməsi planlaşdırılan "Şahdəniz"in əlavə ehtiyatlarından, bu yaxınlarda Xəzərdə kəşf edilmiş "Abşeron" və "Ümid" yataqlarının, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundakı dərin qaz ehtiyatlarının, olduqca perspektivli "Şəfəq-Asiman", "Babək", "Zəfər-Məşəl" və başqa strukturların potensialından tam istifadə ediləcək.

§ 5.4. Azərbaycanın geoiqtisadi müstəqilliyi və təbii ehtiyatların təhlükəsiz istifadəsi siyasəti

Bütün dövrlərdə hər bir dövlətin *regional geoiqtisadi siyasətinin* əsas vəzifəsi ilk növbədə ölkənin *geoiqtisadi müstəqilliyini, təbii ehtiyatlarını və iqtisadi təhlükəsizlik maraqlarını* təmin etməkdən ibarət olmuşdur. Geoiqtisadi təhlükəsizlik maraqları anlayışı siyasi ədəbiyyatda *ölkənin milli iqtisadiyyatının inkişafı və təhlükəsizliyinin təmin olunması, iqtisadi həyatının arzuolunmaz xarici təsirlərdən qorunması və ətraf aləmdən geoiqtisadi asılılığının aradan qaldırılması* kimi təqdim olunur.

Məlum olduğu kimi, dövlətlər daxili inkişaf siyasətlərini formalaşdırarkən ilk növbədə özlərinin malik olduğu iqtisadi, sosial və əmək ehtiyatlarını təhlil edir, onların səmərəli istifadəsinin yollarını düşünür, ölkə əhalisinin yaşayışı, sosial – iqtisadi təminatında mühüm əhəmiyyət kəsb edən məsələləri müəyyənləşdirir və həlli ilə bağlı milli strategiya hazırlayaraq həyata keçirirlər. Dövlətin əsas elmi-tədqiqat və idarəçilik institutları ölkənin və əhalinin iqtisadi və sosial tələbatını, iqti-

sadi inkişafın daxili və xarici amillərdən asılılıq dərəcəsini öyrənir, iqtisadi müstəqilliyi və təhlükəsizliyi təhdid edən, yaxud iqtisadi inkişafa mane olan halları araşdırır, proqnozlaşdırır və həlli yollarını təklif edirlər.

Müstəqilliyinin ilk illərində Azərbaycanın iqtisadi həyatında cərəyan edən total böhran və hərc-mərclik, demək olar ki, respublika səviyyəsində iqtisadi idarəçilik sisteminin tam pozulmasına, əhalinin sosial-iqtisadi tələbatlarını təmin edən müəssisələrin fəaliyyətinin dayanmasına səbəb olmuşdu. Bundan başqa, milli iqtisadi strategiyanın yoxluğu, postsovet ölkələri arasında təsərrüfat - nəqliyyat əlaqələrinin pozulması və s. nəticəsində keçmiş SSRİ məkanındakı bazarlara məhsul ixrac edən müəssisələr öz işini dayandırmış, qarşılıqlı iqtisadi əlaqələr kortəbii şəkil almışdı. Bütün bu hallar müvafiq olaraq, respublikanın sənaye müəssisələrinin bütövlüklə iflic olmasına və fəaliyyətini dayandırmasına, ölkədə total işsizliyin yaranmasına gətirib çıxarmışdı. Daxili bazara işləyən müəssisələrdə mitinqlər, siyasi çəkişmələr və digər aksiyalar nəticəsində istehsal prosesi və işin ahəngi pozulmuşdu. Belə vəziyyət həmin dövrdə respublikanın bütün sahələrini bürümüş korrupsiya və rüşvətxorluq, milli əmlakın talanması və digər mənfi hallar da daxil olmaqla, Azərbaycanı qaçılmaz sosial – iqtisadi böhrana sürükləyərək, milli iqtisadiyyatı iflic vəziyyətinə salmışdı.

Bundan başqa, respublikanın sovet hakimiyyəti dövründə yaradılmış milli iqtisadi və sənaye potensialı – zavod və fabriklərin qiymətli avadanlıqları sökülərək dəmir qırıntıları qismində xarici ölkələrə satılmış, milli iqtisadiyyatın texnoloji bazası məhv edilmişdi. Azərbaycan iqtisadiyyatının şah damarı hesab olunan neft sənayesində isə işlər daha ağır vəziyyətdə idi. Bu sahəni ələ keçirmiş bir qrup transmilli cinayətkar elementlər ölkənin zəngin neft məhsullarının və onun satışından əldə olunan gəlirlərin milli iqtisadi inkişafa yönəlməsinin qar-

şısını alır, bu strateji məhsullardan gələn gəlirləri öz maraqları naminə istifadə edirdilər. Vəziyyət o qədər pisləşmişdi ki, Azərbaycanın ÜDM istehsalı SSRİ dövründəki səviyyədən bir neçə dəfə aşağı düşmüşdü.

Fikrimizcə, geoiqtisadi anlamda Azərbaycanın milli inkişafı və iqtisadi maraqlarının təhlükəsiz təminatı həmin dövr üçün bir neçə əsas vəzifəsi var idi. Onları aşagıdakı kimi təsnif etmək olar:

- İlk növbədə, günü-gündən dərinləşən iqtisadi böhranı dayandırmaq, respublika səviyyəsində məqsədyönlü yaxud kortəbii şəkildə həyata keçirilən iqtisadi dağıntıların qarşısını almaq, ölkənin milli iqtisadiyyatı və vətəndaşların həyati tələbatı üçün yaranmış təhlükələri aradan qaldırmaqdan ibarət idi.
- İkincisi, müstəqilliyə qovuşduqdan sonra Azərbaycanın bəyan etdiyi "açıq ölkə" siyasəti, bazar iqtisadiyyatına keçid, xarici aləmlə iqtisadi inteqrasiya, biznes mühitinin liberallaşdırılması, azad mülkiyyətçilik xəttinin qəbul olunması və s. kimi addımlar bütövlükdə müsbət hal olsa da, bu xətt öz-özlüyündə Azərbaycanın müstəqil iqtisadi inkişafını, iqtisadi və sosial təhlükəsizliyini təmin etmirdi. Bunun üçün, Azərbaycan ilk növbədə ərazisindəki mövcud iqtisadi və əmək ehtiyatlarının düzgün qiymətləndirilməsi, qorunması, səmərəli istifadəsi və faydalı idarə edilməsi strategiyasını müəyyən etməli idi.
- Üçüncüsü, o dövrdə ölkənin iqtisadi maraqları SSRİ tərkibindən ayrılmış region ölkələri ilə əvvəlki iqtisadi-təsərrüfat əlaqələrinin pozulmasını deyil, əksinə, bu əlaqələri saxlamaqla tədricən və düşünülmüş formada dünyanın qabaqcıl iqtisadi sistemlərinə, xüsusən, Avropa Birliyi sisteminə səmərəli inteqrasiyasıya siyasəti yürütmək tələb olunurdu. Azərbaycanın belə

bir sistemə inteqrasiyası onun arzuolunmaz regional geoiqtisadi təsirlərdən xilas olmasına və geoiqtisadi müstəqilliyinə zəmin yarada bilərdi. Bu, həm də Azərbaycanın o dövr üçün böyük ehtiyac duyduğu qabaqcıl dünya texnologiyalarının, xarici investisiya və kapitalın ölkə iqtisadiyyatına cəlb olunmasına və bunun nəticəsində yanacaq-energetika, neft və qeyri-neft sektorunun inkişafının təmin edilməsinə, ölkənin zəngin təbii sərvətlərindən, mövcud iqtisadi ehtiyatlarından onun inkişafı naminə daha səmərəli, təhlükəsiz və itkisiz istifadə edilməsinə imkan yarada bilərdi.

Azərbaycanın iqtisadi müstəqilliyi və geoiqtisadi maraqlarının təhlükəsizliyinin bəhs olunan dövr üçün ən uğurlu, səmərəli və faydalı yolu, əlbəttə, ABŞ və Avropa Birliyi ölkələri, Yaponiya, Çin və s. kimi beynəlxalq güclərlə transmilli əməkdaşlıqdan keçirdi. Uğurlu xarici iqtisadi siyasət yürütməklə bu ölkələrin iqtisadi, maliyyə-texnoloji imkanlarından istifadə etmək, milli iqtisadi inkişafa, geoiqtisadi müstəqilliyə və təhlükəsizliyə nail olmaq mümkün idi. Ölkənin ciddi böhrana düçar edilmiş və dağılmaqda olan iqtisadiyyatını da o dövrdə yalnız xarici iqtisadi strukturların maliyyə-texniki imkanlarından istifadə etməklə qaydaya salmaq olardı.

Bundan başqa, daxili iqtisadi, sosial və digər strukturların fəaliyyətinin bərpası, bütün bu sahələrdə tədrici inkişafa nail olunması və islahatlar yolu ilə iqtisadi fəaliyyətin səmərəliliyinin yüksəldilməsi, onun dünya standartları səviyyəsinə çatdırılması da ilk növbədə Qərblə, dünyanın digər inkişaf etmiş ölkələri ilə faydalı tərəfdaşlıq münasibətlərinin yaradılmasından asılı idi. Çünki həmin dövrdə, malik olduğu zəngin karbohidrogen ehtiyatlarını dövriyyəyə buraxmaq və bu əsasda öz iqtisadi inkişafını təmin etmək üçün Azərbaycana hava və su kimi üç əsas siyasi və maddi resurs lazım idi. Bunlar ilk növbədə:

- milyardlarla ölçülən maliyyə vəsaitindən,
- dənizdə ən qabaqcıl neft-qazçıxarma və daşıma texnologiyasından,
- Xəzər hövzəsində, bütövlükdə Avrasiya enerji sektorunda Azərbaycanla tam bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq istəyinə malik olan xarici dövlət, dövlətlər birliyi və iri transmilli şirkətlərdən ibarət idi.

Belə imkan və ehtiyatlar həmin dövrdə nə Azərbaycanın üzv olduğu Müstəqil Dövlətlər Birliyi ölkələrində, nə üstün regional geosiyasi mövqeləri ilə Azərbaycanı öz ənənəvi təsir zonasında saxlamağa can atan və yeni enerji siyasətində ona rəqib kimi yanaşan Rusiya və İranda, nə də Azərbaycanla əlaqələrdə özünü müttəfiq, tərəfdaş hesab edən, lakin iqtisadi istəyi mövcud imkanlarından qat-qat üstün olan dost Türkiyədə və başqa tərəfdaş ölkələrdə mövcud idi. Odur ki, Azərbaycan tam doğru olaraq bu sahədə özünə tərəfdaş kimi ABŞ və Avropa İttifaqı ölkələrini, Yaponiya və s. inkişaf etmiş dünya dövlətlərini seçdi. Onlar da sonrakı illərdə təsirləri altında olan digər qabaqcıl ölkələri, beynəlxalq maliyyə və texnologiya strukturlarını - Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Ümumdünya Ticarət Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi transmilli maliyyə qurumlarını Azərbaycanın enerji layihələrinə yönəltdilər. Bu addımları mütəxəssislər, müstəqilliyə qovuşduğu andan Azərbaycanın həyata keçirdiyi ən uğurlu xarici iqtisadi fəaliyyət kimi dəyərləndirmişlər.

Bu gün də Azərbaycanın iqtisadi müstəqilliyi və maraqlarının təhlükəsizliyinin əsas təminatlarından biri hesab olunan Qərblə iqtisadi əlaqələrin qurulması və qabaqcıl dünya sisteminə inteqrasiya xətti ölkənin vacib geoiqtisadi vəzifəsi olaraq gündəmdə dayanır. İnkişaf etmiş Qərb ölkələri ilə əlaqələrini müvəffəqiyyətlə davam etdirmək üçün Azərbaycan mütəmadi olaraq özünün Avrasiya məkanında kəsb etdiyi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji əhəmiyyətini, siyasi-iqtisadi pers-

pektivlərini, malik olduğu zəngin enerji ehtiyatlarının dünya ölkələrinə gətirəcəyi əlavə dividentləri lazımi səviyyədə təqdim və təbliğ etməlidir. Çünki yalnız inkişaf etmiş dünyanın köməyi və davamlı dəstəyi ilə ölkə iqtisadiyyatında başlanmış struktur islahatlarını müvəffəqiyyətlə başa çatdırmaq, dünyanın liberal istehsal, ticarət və biznes məkanına inteqrasiya olunmaq, hərtərəfli dinamik inkişaf yoluna çıxmaq, Cənubi Qafqazın lider dövləti statusunu qoruyub saxlamaq, lazım olan əlverişli beynəlxalq transmilli dəstəyə nail olmaq mümkündür.

Qloballaşmanın vüsət aldığı müasir dünyada Azərbaycan kimi ölkələr özlərinin iqtisadi strategiyaları ilə həm gələcək iqtisadi inkişafı və geoiqtisadi maraqlarının təhlükəsizliyini müvəffəqiyyətlə təmin edir, həm də beynəlxalq transmilli şirkətlərin ölkə ərazisindəki fəaliyyətini milli maraqların qorunması istiqamətinə yönəldirlər. Qloballaşmanın yeni tələbləri çərçivəsində *iqtisadi inkişafın və geoiqtisadi maraqların təhlükəsizliyinin özünü büruzə verən əsas tərəflərindən biri ölkənin mövcud geoməkanının iqtisadi inkişaf səviyyəsini, təsərrüfat funksiyasının dinamikasını və struktur xarakteristikasının digər amillərini nəzərə alaraq, çevik iqtisadi fəaliyyət nümayiş etdirməkdən ibarətdir.* Hər bir dünya ölkəsində olduğu kimi, Azərbaycanın da milli ərazisinin geoiqtisadi dəyəri, başqa keyfiyyətləri ilə yanaşı, həm də onun istifadə olunan və olunmayan təbii ehtiyatları, iqtisadi və əmək ehtiyatları, milli iqtisadiyyatının inkişaf potensialı, işçi qüvvəsinin keyfiyyəti, miqdarı və dəyəri, sənaye müəssisələrinin vəziyyəti, infrastrukturların, tikililərin, əkinçilik üçün yararlı torpaqların və onlardan istifadənin vəziyyəti, əlverişli iqlimi və s. ilə müəyyən olunur.

Bundan başqa, ölkə ərazisinin iqtisadi strukturunun, əmək və işçi ehtiyatlarının, ekoloji, sosial və mədəni inkişaf meyillərinin, əhalinin daimi məşğuliyyətinin, cəmiyyətin milli və ya kosmopolit inkişaf meyilliliyinin elmi və praktiki cəhətdən öyrənilməsi və nəzərə alınması, miqrasiya, demoqrafiya siyasə-

tinin düzgün idarə olunması və s. də iqtisadi təhlükəsizliklə bağlı bəhs olunan amillərə aid edilir.

Digər tərəfdən, *Azərbaycanın malik olduğu geoməkanın mövcud iqtisadi strukturlarının və mexanizmlərinin beynəlxalq iqtisadiyyatla bağlılığı və inteqrasiya imkanları, qapalı və yaxud liberal xarakter daşıması, dövlətin yürütdüyü iqtisadi siyasətin idarə olunmasında rəsmi qurumların və sahibkarların rolu, yerli və transmilli şirkətlərin kapital qoyuluşundakı payları və s. kimi məsələlər də onun iqtisadi müstəqilliyi və təhlükəsizliyi baxımından ciddi önəm kəsb edir*.

Azərbaycanın *əlverişli iqlim şəraitinə, münbit torpaqlara, zəngin maddi ehtiyatlara malik olması, respublikada lazım olduğundan artıq işçi qüvvəsinin mövcudluğu hökumətdən bu sahə ilə bağlı da xüsusi dövlət proqramının və iqtisadi planlaşdırmanın tərtib olunmasını, istehsalın strukturunun və xarakterinin tədqiqini, yerli istehsalın taktikasını, məhsulların reallaşdırılması və satışının təşkil olunmasını və s.* tələb edir. Bütün bu işlərin təşkili ölkənin **İqtisadi İnkişaf Strategiyanın** (İİS) hazırlanması və həyata keçirilməsini zəruri edir.

Azərbaycan neft ölkəsidir və bu amil müvafiq olaraq onun iqtisadi inkişafının əsasını təşkil edir. Ölkənin ümumi daxili məhsul istehsalının, milli gəlirinin və büdcəsinin formalaşması, iqtisadi inkişafının və təhlükəsizliyinin əsası da daha çox neft-qaz amilinə söykənir. Bu faktı mütəxəssislər təbii hal və reallıq kimi qiymətləndirirlər. Lakin eyni zamanda *ölkənin iqtisadi və sosial tələblərinin neftdən asılılığını getdikcə azaltmaq və minimuma endirmək, əmək ehtiyatlarından düzgün istifadə etmək, bütövlükdə ölkənin iqtisadi inkişafını müstəqil şəkildə təmin etmək onun iqtisadi strategiyasının əsas vəzifələrindən* biridir.

Məlum olduğu kimi, 1994-cü ildən başlayaraq Azərbaycanın daxildə və dünyada həyata keçirdiyi yeni neft strategiyasının və ölkənin xarici iqtisadi siyasətinin əsas vəzifəsi Xəzər dənizinin ona məxsus olan milli sektorunda mövcud

olan karbohidrogen ehtiyatlarının qabaqcıl Qərb texnologiyası və investisiya imkanlarından səmərəli istifadə etməklə çıxarılması, təhlükəsiz yollarla dünya bazarlarına çatdırılması, satışından əldə edilən vəsaitlə ölkənin gələcək inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi, əhalinin iqtisadi və sosial ehtiyaclarının ödənilməsi və sairdən ibarət olmuşdur. Bununla bağlı, həm də Xəzərin sektor bölgüsü, neft-qaz ixrac boru kəmərlərinin çəkilişi və təhlükəsizliyinin təmin olunması, ölkə iqtisadiyyatına davamlı xarici sərmayələrin cəlb edilməsi və səmərəli istifadəsi, dünya neft-qaz bazarında lazımi yer tutmaq kimi çətinliklərin aradan qaldırılması, bu sahədə xarici dövlətlərin imkanlarından maksimum yararlanmaq və s. kimi vəzifələr də bəhs olunan fəaliyyətin əsas prioritetlərindən olmuşdur.

Lakin qeyd etdiyimiz kimi, mütəxəssislər Azərbaycan tipli ölkələrin özünün bütün iqtisadi inkişafını, sosial-mədəni problemlərinin həllini neft amilinin üzərində qurmasını birmənalı mənfi qiymətləndirir və belə ölkələrin gələcək inkişaf perspektivlərinin ürəkaçan olmayacağını proqnozlaşdırırlar. Odur ki, *ölkənin iqtisadi inkişafı və təhlükəsizliyində neft gəlirlərindən asılılığın azaldılması, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafına nail olunması və s.* kimi işlər indiki halda çox ciddi əhəmiyyət kəsb edir, bugünkü və gələcək nəsillərin firəvan həyatının təmin edilməsində önəmli rol oynayır. Bu mənada Prezident İlham Əliyevin "neft gəlirlərindən istifadə etməklə, qeyri-neft sektorunun inkişafının təmin olunması, ölkənin bütün regionlarının infrastrukturlarının yenidən qurulması, əksər sosial-iqtisadi və əmək ehtiyatlarının işə salınması və səmərəli istifadəsi Azərbaycanın iqtisadi inkişaf strategiyasının əsasını təşkil etməlidir" - fikri bu gün və gələcəkdə ölkənin iqtisadi təhlükəsizliyinin mühüm amili olaraq, onun milli təhlükəsizliyinin əsas vəzifələrindən birinə çevrilməlidir.[472]

[472] Bax: "Azərbaycan" qəzeti, 19 yanvar 2010-cu il

Müstəqilliyinin ilk illərindən Azərbaycanın rastlaşdığı əsas problemlərdən biri də ölkənin *maliyyə müstəqilliyinin qorunması, milli pulun xarici valyutalardan asılılığının aradan qaldırılması və həyata keçirilən iqtisadi siyasətin maliyyə təminatının dönmədən həll edilməsi* idi. İlk illərdə milli pul vahidi demək olar ki, xarici valyutalardan tam asılı vəziyyətdə idi ki, bu da ölkədə davamlı olaraq iqtisadi, siyasi, maliyyə-kredit böhranı yaradır, Azərbaycanın milli pul vahidinin sabit kursunu pozurdu. Bundan başqa, qeyri-peşəkar makro və mikroiqtisadi fəaliyyət, kredit, investisiya və pul siyasəti də o dövrdə Azərbaycanı xarici kapitalın, ilk növbədə rus rublu və ABŞ dollarının tam təsiri altına salmışdı. İnflyasiya prosesləri ölkənin iradəsindən asılı olmayaraq cərəyan edir, nəzərdə tutulan büdcə, xəzinə və s. proqnozlar mütəmadi olaraq pozulur və iflasa uğrayırdı.

1996-2005-ci illərdə həyata keçirilən məqsədyönlü maliyyə-pul siyasəti və görülmüş ciddi tədbirlər ölkədə mövcud böhranı aradan qaldırdı, inflyasiyanı sabitləşdirdi, büdcə, xəzinə, xarici investisiya qoyuluşu və maliyyə-kredit problemlərini həll etdi. 2005-ci ildə manatın denominasiyası haqqında fərman imzalandı, xəzinəyə iki milyard ABŞ dollarından artıq pul toplandı, neft gəlirlərinin vahid fonda yığılması və istifadəsi strategiyası müəyyən edildi. Bu da ölkənin maliyyə təhlükəsizliyinin təmin edilməsində ciddi dönüşün başlanğıcı oldu.

Azərbaycanın hazırkı iqtisadi və maliyyə siyasətinin əsas prioritetlərindən biri *ölkənin maliyyə təhlükəsizliyinin davamlı olaraq təmin edilməsindən ibarətdir. Ölkənin maliyyə təhlükəsizliyinin təmin olunması, ilk növbədə, xarici valyutaların təsirinin getdikcə azaldılması, sabit daxili maliyyə vəziyyətinin qorunması, xarici kapital və investisiya üçün "əlverişli dövlət imicinin" möhkəmləndirilməsindən* ibarətdir. Bundan başqa, maliyyə təhlükəsizliyinin təmin edilməsi mövcud neft gəlirləri və xarici maliyyə imkanlarından istifadə edərək *qeyri-neft*

sektorunun hərtərəfli inkişafına nail olunması, yeni iş yerlərinin açılması, inflyasiyanın idarə edilməsi, beynəlxalq maliyyə qurumları ilə səmərəli əməkdaşlığın davam etdirilməsi, xarici borcların səviyyəsinin nəzarətdə saxlanılması, Azərbaycanın xarici kapitaldan və neft gəlirlərindən asılılığının getdikcə aradan qaldırılması kimi vəzifələrin də davamlı şəkildə həyata keçirilməsini tələb edir.

§ 5.6. Azərbaycanın ictimai-siyasi, sosial, etnik və insan ehtiyatlarının təhlükəsiz istifadəsi və idarə olunması siyasəti

Müasir dünyanın müxtəlif ölkələrində baş verən terror hadisələri, dövlət hakimiyyətinə, cəmiyyət həyatına, ölkədaxili sosial və milli-vətəndaş birliyinə qarşı yönəlmiş siyasi təhdidlər, geosiyasi təhlükələr hər bir ölkədə olduğu kimi, müstəqilliyə qovuşduqdan sonra Azərbaycan Respublikasında da daxili sabitliyin, ictimai-siyasi və sosial-etnik təhlükəsizliyinin, milli insan ehtiyatlarının idarə edilməsi və s. kimi ciddi məsələlərin qayğısına qalmaq kimi yeni bir milli vəzifə irəli sürdü. İctimai-siyasi, sosial-etnik təhlükəsizlik və milli insan ehtiyatlarının idarə edilməsi siyasəti *cəmiyyət həyatının sosial-mənəvi və milli-etnik sahələrini də əhatə edərək, ilk növbədə xarici aləmdən qaynaqlanan məqsədyönlü təhdid və təxribatlara, ölkədaxili ictimai-siyasi sabitliyi pozmaq, dövlətin konstitusion quruluşunu sarsıtmaq, cəmiyyəti xaos və qarşıdurmalara sürükləmək cəhdlərinə qarşı kompleks milli tədbirlər sistemidir.* Milli təhlükəsizlik sisteminin tərkib hissəsi kimi ictimai-siyasi və sosial təhlükəsizlik siyasəti dünyadakı və bölgədəki ictimai-siyasi münasibətlərin, cəmiyyət həyatını əhatə edən köklü dəyişikliklərin, onların milli təhlükəsizlik maraqlarına təsiri və s. məsələlərin operativ öyrənilməsini və nəzərə alınmasını

tələb edir. Bu siyasət cəmiyyətin siyasi sisteminin, bütün insan resurslarının və ölkədəki mövcud sosial-iqtisadi münasibətlərin xarakteri ilə sıx bağı olur. Odur ki, müstəqillik yolu seçmiş ölkələrin, xüsusən də Azərbaycan kimi mürəkkəb geosiyasi əhatəsi və rəngarəng etnik tərkibi olan dövlətlərin ictimai-siyasi və sosial-etnik təhlükəsizlik siyasəti yeni yaradılan sosial münasibətləri, keçid prosesinin, siyasi-iqtisadi sistemin daxili özünəməxsusluğunu, yeni sistemdə özünü göstərən ziddiyyətləri, bütövlükdə milli təhlükəsizlik sistemini təhdid edən digər riskləri mütləq şəkildə nəzərə almalıdır.

Bütün sahələrdə olduğu kimi, Azərbaycanda ictimai-siyasi və sosial təhlükəsizlik siyasətinin formalaşması və dövlət siyasəti səviyyəsində təmin olunması işi də 90-cı illərin əvvəllərində bir qədər təcrübəsiz şəkildə, qeyri-peşəkar formada həyata keçirilmiş, siyasi hakimiyyətsizlik, vətəndaş qarşıdurması, ağır sosial-iqtisadi böhran, səriştəsiz milli-etnik siyasət, sistemsiz dövlət quruculuğu, ölkənin aydın siyasi, iqtisadi və mənəvi inkişaf strategiyasının yoxluğu və s. bu siyasətin uğursuzluğunu şərtləndirmişdir. Həmin uğursuzluqların nəticəsi olaraq o dövrdə əhalinin yaşayış səviyyəsi gündən-günə ağırlaşmış, siyasi idarəçilik ciddi böhrana düçar olmuş, təhsil, səhiyyə, mədəniyyət və digər sahələr öz dinamik inkişafını sürətlə itirmişdir. Bütün bunlar həmin dövrdə ölkənin siyasi və sosial-etnik təhlükəsizliyi üçün ciddi təhdidlər yaratmışdır.

Məlumdur ki, dövlətin siyasi hakimiyyətinin, ölkənin sosial-ictimai strukturlarının, milli-etnik cəmiyyətlərin və s. daxili institutların fəaliyyətinin səmərəlilik dərəcəsi və dayanıqlığı ictimai-siyasi təhdidlərin müvəffəqiyyətlə dəf edilməsi zamanı ortaya çıxır. Siyasi təhlükəsizliyin təmin olunması əsasən ictimai-siyasi sabitliklə bağlıdır və bu istiqamətdə dövlət hakimiyyətinin apardığı siyasətin uzaqgörənliyindən asılıdır. Bunları nəzərə alaraq, Ümummilli lider Heydər Əliyev 1993-cü ildə vətəndaş müharibəsi təhlükəsi ilə üzləşmiş

Azərbaycan cəmiyyətində ictimai-siyasi sabitliyin, qanunçuluğun və vətəndaş birliyinin təmin olunması və qorunub saxlanılmasını dövlət siyasətinin prioritet vəzifəsinə cevirdi və milli təhlükəsizlik maraqlarının əsası kimi müəyyənləşdirdi. Azərbaycanın ictimai-siyasi təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlərin aradan qaldırılmasının əsas və ən mühüm şərtini ictimai-siyasi sabitliyin təmin olunmasında görən Heydər Əliyev o dövrdə bəyan edirdi ki, biz nəyin bahasına olursa-olsun respublikada ictimai-siyasi sabitliyin pozulmasına yol verməyəcəyik, ölkə daxilində anarxiya və xaos yaradılmasına yönəldilmiş hallarla qətiyyətlə mübarizə aparacağıq, Azərbaycanda qanunçuluğu, milli dövlətçiliyi möhkəmləndirmək üçün bütün imkanlarımdan istifadə edəcəyik.[473]

Milli təhlükəsizlik sistemində ictimai-siyasi, sosial-etnik təhlükəsizliyin mahiyyəti, məqsədi və vəzifələri ilə bağlı ümumi istiqamətlər Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında öz əksini tapmışdır. Sənəddə ölkə daxilində qanunun aliliyinin təmin olunması, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi dövlətin əsas daxili idarəçilik funksiyaları kimi təqdim edilir, bu funksiyaları pozmaq cəhdi, separatçılıq, etnik, siyasi və dini ekstremizm kimi hallar milli təhlükəsizliyin mümkün təhdidləri hesab olunur və öz məzununa görə ictimai-siyasi təhlükəsizliyə təhlükə kimi dəyərləndirilir. İctimai-siyasi təhlükəsizlik dedikdə şəxsiyyət, cəmiyyət və dövlətin maraqlarını təmin edən siyasi sistemin, siyasi münasibətlərin və institutların xarici və daxili təhdidlərdən müdafiəsi vəziyyəti başa düşülür.[474]

[473] Bax: Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.Birinci kitab: iyun, 1993 – may, 1994 / bur. məsul R. Mehdiyev. Bakı, 1997, s. 183

[474] Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası: //http://e-qanun.az

Milli Təhlükəsizlik Konsepsiyasında Azərbaycan Respublikasının ictimai-siyasi təhlükəsizliyinin təhdidləri sırasına ölkənin konstitusiya quruluşunun sarsıdılması, ictimai-siyasi sabitliyin pozulması, sosial-siyasi qarşıdurmanın qızışdırılması, cəmiyyətdə xaos və münaqişələrin yaradılması, vətəndaşların siyasi hüquq və azadlıqlardan məhrum edilməsi, Konstitusiyanın tələbləri ilə real siyasət arasında uyğunsuzluq, müxtəlif siyasi qüvvələrin toqquşması, qanunun aliliyinin pozulması, vətəndaş cəmiyyətinin dövlət hakimiyyəti institutları üzərində zəif nəzarəti, etnik separatizm və millətçilik, etnik münasibətlərin kəskinləşməsi və s. kimi məsələlər göstərilir.[475]

Azərbaycanın siyasi təhlükəsizliyinin *obyektlərinə*- ölkənin ərazisi, dövlət və ictimai-siyasi institutlar, hakimiyyət strukturları, vətəndaşların və sosial qrupların hüquq və azadlıqları, *subyektlərinə* isə siyasi təhlükəsizliyin təmin edilməsini həyata keçirən orqanlar, cəmiyyət və vətəndaşlar daxil edilir. *İctimai-siyasi təhlükəsizliyin təmin olunması sistemi* özündə ictimai-siyasi təhlükəsizliyinin təmin edilməsi zamanı tətbiq olunan bütün vasitələri, metod və üsulları, eləcə də ictimai-siyasi təhlükəsizlik siyasətini birləşdirir. İctimai-siyasi, sosial-etnik təhlükəsizliyin təmin olunması və milli insan resurslarının idarə edilməsi siyasəti əsasən ölkədaxili ictimai institutlar, siyasi vasitələr, milli ehtiyatlar və s. vasitəsilə idarə edilir və təmin olunur. Bu istiqamətdə milli siyasətin formalaşdırılması və həyata keçirilməsi həm də ölkənin siyasi sisteminin mövcud vəziyyətini və inkişaf dinamikasını, dövlətin yerləşdiyi geosiyasi ərazinin ətraf aləmlə (xarici aktorlarla) bağlılıq dərəcəsini, etnik-sosial vəziyyəti və s. məsələləri nəzərə almaqla müşaiyət olunur.

Siyasi təhlükəsizliyin təminatı sahəsində ölkənin dövlət idarəçiliyinin effektivliyinin və cəmiyyət həyatının dayanıq-

[475] Yenə orada

lığının əsas göstəricilərindən biri ictimai-siyasi sabitliyi təmin etmək və cəmiyyətdə vətəndaş həmrəyliyi yaratmaq qabiliyyəti hesab olunur. İctimai-siyasi təhlükəsizlik ehtiyacı həm də ölkə daxilində siyasi fəaliyyət həyata keçirən əksər institutların fəaliyyətlərini yaradıcı-konstruktiv məcraya yönəltməklə, onların öz maraqları çərçivəsində cəmiyyəti böhrana sürükləyə biləcək dağıdıcı qüvvəyə çevrilməkdən çəkindirir. İctimai-siyasi və sosial-etnik təhlükəsizliyin təmin olunması hər bir ölkədə, ilk növbədə xüsusi xidmət orqanlarının səmərəli fəaliyyətinin ölçüsü olmaqla yanaşı, həm də bütövlükdə dövlət hakimiyyətinin apardığı daxili və xarici siyasətin ölkə vətəndaşları tərəfindən dəstəklənməsi səviyyəsinin, ölkənin nüfuzlu ictimai-siyasi institutlarının hakimiyyətə münasibətinin göstəricisi hesab olunur. Geniş mənada götürsək, ictimai-siyasi və sosial-etnik təhlükəsizlik cəmiyyətin siyasi sisteminin sabitliyinin və effektiv inkişafının təmin olunması prosesidir. O, müxtəlif xarakterli təhlükələr, çağırışlar, risk və təhdidlər şəraitində dövlətin və cəmiyyətin dinamik inkişafını təmin etmək qabiliyyətini ifadə edir. Burada bir məqamı vurğulamaq olar ki, siyasi sistemin xarakteri ictimai-siyasi təhlükəsizliyin təmin edilməsi üsulları və məqsədlərinin formalaşmasına birbaşa təsir göstərir. Məlumdur ki, istənilən dövlətin siyasi təhlükəsizliyinin təmin olunmasında əsas rolu ölkənin siyasi elitasının səviyyəsi və dəyanəti, ali hakimiyyət orqanlarını funksional fəaliyyəti, həmçinin dövlətin təhlükəsizliyin əsas subyektləri hesab olunan güc strukturlarının fəaliyyəti oynayır. Demokratik siyasi sistemin mövcud olduğu dövlətlərdə ictimai-siyasi təhlükəsizliyin təmin olunması prosesində müvafiq hakimiyyət orqanları ilə yanaşı, digər təbəqələr, ictimai təşkilatlar, bütövlükdə vətəndaş cəmiyyəti də yaxından iştirak edir. Bu baxımdan, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasında müvafiq dövlət strukturları ilə bərabər bütöv cəmiyyət iştirak edir, yaranan təhlükələr haqqında rəsmi qurumları xəbərdar

edir, dövlətin təhlükəsizliyi, habelə vətəndaşların hüquq və maraqlarının müdafiə olunmasına bütün qanuni vasitələrlə çalışır.[476] Bu isə onu göstərir ki, cəmiyyətin mütərəqqi inkişafının təmin olunması və siyasi sistemin davamlılığına təminat verilməsi dövlətlə vətəndaş cəmiyyəti institutlarının birgə səylərindən çox asılıdır.

Qeyd edək ki, ictimai-siyasi və sosial-etnik təhlükəsizliyin təmin olunmasına təsir göstərən mühüm amillərdən biri də siyasi maraqlardır. Azərbaycanın geosiyasi vəziyyətinin xüsusiyyətləri, təbii resursları, əhalisi və milli tərkibi, sosial-iqtisadi inkişaf səviyyəsi, xarici və daxili təhdidlərin mövcudluğu, dövlət quruluşu, siyasi mədəniyyəti və s. siyasi maraqların formalaşmasında mühüm təsir göstərir. Milli təhlükəsizlik Konsepsiyasında göstərildiyi kimi, Azərbaycan cəmiyyətinin siyasi maraqları konstitusiya quruluşunun, dövlət hakimiyyəti institutlarının sarsılmazlığında, vətəndaş sülhünün və milli həmrəyliyin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün təmin olunmasında, ictimai-siyasi sabitlikdə, siyasi və dini ekstremizmin meydana gəlməsinə səbəb ola biləcək şəraitin aradan qaldırılmasında və s. ifadə olunur.

Azərbaycanın *sosial təhlükəsizliyinin* təmin olunması milli təhlükəsizlik siyasətinin əsas vəzifələrindən biri kimi, ölkənin dayanıqlı və dinamik inkişafının mühüm amili hesab olunur. Sosial təhlükəsizlik özündə şəxsiyyət, ailə və cəmiyyətin həyati əhəmiyyətli maraqlarının daxili və xarici təhdidlərdən qorunmasını ehtiva edir. Onun obyektini vətəndaşların sosial hüquq və azadlıqlarının (yaşamaq, işləmək, təhsil almaq, istirahət etmək və s.) qorunması təşkil edir.

Nəzərə alınmalıdır ki, cəmiyyətdə sosial təhlükəsizliyin vəziyyəti həm də dolayısı ilə əhalinin yaşayış səviyyəsindən

[476] Bax: Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu: http://e-qanun.az

asılıdır. Çünki sosial təhlükəsizliyin təmin olunması yalnız müvafiq hakimiyyət strukturlarının fəaliyyəti ilə məhdudlaşmır, eyni zamanda ölkənin ümumi sosial-iqtisadi inkişaf səviyyəsi ilə birbaşa bağlıdır. Cəmiyyətdə sosial təhlükəsizliyin təmin olunması dövlətin həyata keçirdiyi sosial siyasətin səmərəlilik dərəcəsindən asılıdır. Sosial siyasət nə qədər uğurlu həyata keçirilirsə, sosial təhlükəsizliyin təmin edilməsi səviyyəsi də bir o qədər yüksəlir. Sosial təhlükəsizliklə sosial siyasət arasındakı qarşılıqlı əlaqədən irəli gələn məqsəd və vəzifələr, bu bağlılığın öyrənilməsi və tətbiq edilməsi ehtiyacı və s. məsələlər Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında öz əksini tapmışdır. Sənəddə sosial təhlükəsizlik siyasətinin mahiyyəti və istiqamətləri müəyyənləşdirilərkən ölkənin iqtisadi və sosial inkişaf prioritetləri əsas götürülür.[477]

Mütəxəssislərin fikrinə görə, sosial təhlükəsizlik siyasəti aparılarkən Azərbaycanda sosial-iqtisadi inkişafın mövcud vəziyyətindən çıxış edilməsi təsadüfi deyildir. Çünki son illərdə ölkədə sosial-iqtisadi sahənin mövcud durumu və inkişafı birbaşa sosial təhlükəsizlik siyasəti ilə əlaqələndirilərək, bu sahənin qarşısında dayanan yeni-yeni vəzifələr müəyyənləşdirilmişdir. Azərbaycan hökumətinin sosial siyasəti əhalinin sosial hüquqlarının, davamlı iqtisadi inkişafın təmin olunmasını və s. tələbləri nəzərdə tutan sosial təhlükəsizlik prinsipinə əsaslanmışdır. Sosial təhlükəsizliyin təmin olunması ilə bağlı həyata keçirilən dövlət siyasətinin əsas vəzifələri sırasına: təhlükəsiz və davamlı sosial inkişafın bütün tərəflərini əhatə edən məsələlərin səmərəli həlli; əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi; cəmiyyətdə ifrat təbəqələşmənin qarşısının alınması və orta təbəqənin formalaşdırılması; nəinki bugünkü, həm də gələcək nəsillər üçün ləyaqətli həyat şəraitinin yaradılması və s. kimi vəzifələr daxil edilmişdir.

[477] Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası...

Beləliklə, göründüyü kimi sosial təhlükəsizlik siyasəti Azərbaycan Respublikasında həyata keçirilən dövlət sosial və milli təhlükəsizlik siyasətinin əsasını təşkil etmişdir. Buna görə də ötən illər ərzində əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, vətəndaşların sosial hüquqlarının təmin olunması istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirilmişdir. Azərbaycan Prezidentinin 2003-cü il 20 fevral tarixli Fərmanı ilə "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və "İqtisadi inkişaf üzrə Dövlət Proqramı" və 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və "Davamlı inkişaf üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Bu proqramların həyata keçirilməsi nəticəsində Azərbaycanda yoxsulluq səviyyəsi ildən-ilə aşağı düşmüşdür. Məsələn, əgər ölkədə 2003-cü ildə yoxsulluq səviyyəsi 44.7 faiz təşkil edirdisə, 2011-ci ildə bu rəqəm 7.6 faiz olmuşdur.[478]

Bundan başqa, Azərbaycanda yoxsulluq probleminin həll edilməsi əhalinin gəlir səviyyəsinin artırılması ilə yanaşı, sosial sahədə göstərilən xidmətlərin də inkişaf etdirilməsinə stimul vermiş, körpə, uşaq və ana ölümü, ərzaq təhlükəsizliyi və uşaqların qidalanması, yoluxucu xəstəliklərin yayılması, məktəbdə davamiyyət və qeydiyyat səviyyələri, habelə təlim nailiyyətləri kimi göstəricilərin monitorinqinin aparılmasına xüsusi diqqət yetirilmişdir.[479]

Son illərdə aparılan uğurlu iqtisadi siyasət nəticəsində ümumi makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadi artımın davamlılığının təmin edilməsi, sahibkarlığın inkişafı və yeni iş yerlərinin yaradılması əhalinin gəlir əldə etmək imkanlarının artmasına və rifahının əhəmiyyətli dərəcədə yaxşılaş-

[478] Yeni tərəqqi illəri : 2003 – 2011. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri, 2011, s. 246

[479] 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı: //http://e-qanun.az

masına mühüm təsir göstərmişdir. Məlum olduğu kimi, işsizlik yoxsulluğu yaradan əsas amillərdən biridir. Buna görə də əhalinin rifahına məşğulluğun təsiri nəzərə alınaraq yeni iş yerləri yaradılmış, məşğulluq strategiyası həyata keçirilmişdir. Sosial-iqtisadi inkişafın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində əhalinin iqtisadi fəallığı, o cümlədən məşğulluq səviyyəsi artmış və işsizliyin səviyyəsi aşağı salınmışdır.

Ölkə vətəndaşlarının sosial rifahının yaxşılaşdırılması, aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədin ilə əmək və pensiya siyasəti sahəsində mühüm addımlar atılmışdır. "2001-ci il iyulun 17-də Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasında Pensiya İslahat Konsepsiyasının təsdiq edilməsi barədə Sərəncamı 2001-2005-ci illəri əhatə etməklə pensiya islahatlarının mərhələlərlə həyata keçirilməsini nəzərdə tuturdu. Konsepsiyaya əsasən 2001-ci ildən başlayaraq "Vətəndaşların pensiya təminatı haqqında" və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarına zaman-zaman əlavələr və dəyişikliklər edilmişdir. Məhz bu dövrdə sığorta pensiya sisteminin müasir standartlara uyğunlaşdırılması istiqamətində zəruri addımlar atılmış, vətəndaşların pensiya təminatında sığorta prinsiplərinin tətbiqinə istiqamətlənmiş tədbirlər həyata keçirilmişdir". [480]

Azərbaycanda hər il yaşa görə əmək pensiyasının baza hissəsi və sosial müavinətlərin məbləği artırılmış, pensiyanın sığorta hissəsi inflyasiyanın səviyyəsinə müvafiq şəkildə indeksləşdirilmişdir. 2011-ci ilin sonuna ölkədə pensiyaçıların sayı 1278 min nəfər olmuşdur. Təyin edilmiş aylıq pensiyaların orta məbləği isə 145.2 manata çatmışdır ki, bu da 2006-cı ilin müvafiq göstəricisindən 3.5 dəfə çoxdur. Bu dövr ərzində yaşa görə pensiyaların orta aylıq məbləği 3.9 dəfə, əlilliyə görə

[480] Müstəqil Azərbaycan: 20 il. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri, 2011, s. 31

2.8 dəfə, ailə başçısını itirməyə görə 3.1 dəfə artmışdır. 2011-ci ilin sonuna müavinət təyin olunmuş şəxslərin sayı 306.8 min nəfər, bir nəfərə düşən orta aylıq məbləğ isə 40 manatdır. 2006-cı illə müqayisədə sosial müavinət alanların sayı 18 faiz, bir nəfərə düşən orta aylıq məbləğ 2.3 dəfə artmışdır. 2011-ci ildə 125.5 min nəfərə birdəfəlik müavinət ödənilmişdir ki, bu da 2006-cı ilin müvafiq göstəricisindən 24 faiz çoxdur". [481]

2005-ci il oktyabrın 21-də Azərbaycan Prezidentinin "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanunu imzalaması aztəminatlı ailələrin sosial vəziyyətinin yaxşılaşdırılması yönündə atılan mühüm addımlardan biridir. Qanuna uyğun olaraq, 2006-cı il iyulun 1-dən etibarən aztəminatlı ailələrə dövlət tərəfindən ünvanlı dövlət sosial yardımı verilir. 2011-ci ildə 122 min ailənin 547.8 min nəfər üzvünün hər biri orta hesabla ayda 22.95 manat ünvanlı dövlət sosial yardımı almışdır. 2006-cı ilə nisbətən ünvanlı dövlət sosial yardımı alanların sayı 2.5 dəfə, bir nəfərə düşən orta aylıq məbləğ isə 2.7 dəfə artmışdır.[482]

Azərbaycan dövlətinin ictimai-siyasi və sosial-etnik təhlükəsizliyi həm də ölkənin intellektual və işçi qüvvəsindən, insan kapitalından səmərəli istifadə edilməsi, onların faydalı yerləşdirilməsi və düzgün idarə olunmasını tələb edir. Bu anlamda əhalinin məskunlaşdırılması, intellektual və işçi ehtiyatlarının düzgün istifadəsi və idarə edilməsi sahəsində dövlətin xüsusi proqramı olmalıdır.

Qloballaşma şəraitində hər bir ölkənin iqtisadi və sosial inkişafının əsas şərtlərindən birini milli insan ehtiyatlarından düzgün və səmərəli istifadə edilməsi siyasəti təşkil edir. Müasir qlobal və transmilli dünyada böyük, maddi ehtiyatlarla

[481] Yeni tərəqqi illəri : 2003 – 2011. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri, 2011, s. 24
[482] Yenə də orada, s. 24

zəngin ərazilərə malik olmaq öz-özlüyündə nə ölkənin iqtisadi siyasi və sosial təhlükəsizliyinin təminatı məsələsini həll edir, nə də onun ciddi və əhəmiyyətli geoməkan xarakteristikasının, xüsusi iqtisadi gücünün, qüdrətinin göstəricisi hesab olunur. Hər bir məkanın geosiyasi, geoiqtisadi və geostrateji əhəmiyyəti, qeyd olunduğu kimi, həm də onun insan ehtiyatları, bütövlükdə əhalisinin və hər bir vətəndaşının maddi və mənəvi dəyərləri, ölkənin əmək potensialından düzgün istifadənin vəziyyəti, vətəndaşların iqtisadi və sosial səviyyəsi, rifah halı, yaşayış məskənlərinin mövcud infrastrukturlarının müasir tələblərə cavab verməsi və s. ilə ölçülür.

Dövlətin ictimai-siyasi və sosial-etnik təhlükəsizliyinin əsas ölçü meyarlarından biri kimi, həm də mövcud ölkənin öz daxili cəmiyyətinə nəzarət və təsir etməsinin vəziyyəti, sabit milli, dini və sosial cəmiyyət yaratmaq bacarığı və s. çıxış edir. Bu anlamda Azərbaycan ərazisinin xarakteristikası, əhalinin yerləşməsi, sənayenin, kənd təsərrüfatının strukturu, əmək və işçi qüvvələrinin yerləşdirilməsi, ölkə iqtisadiyyatının inkişafı və s. məsələlər milli təhlükəsizlik və milli inkişafla bilavasitə bağlıdır.

Dövlət müstəqilliyi bərpa ediləndən sonra, Azərbaycan hökumətinin öz geoməkan xarakteristikasını lazımi səviyyədə öyrənməsi, onun inkişafı və idarə edilməsi ilə bağlı vahid dövlət siyasəti formalaşdırması, bütün sahələrin xüsusi yanaşma əsasında idarə edilməsi vəzifəsi milli inkişafın və təhlükəsizliyin əsas tələblərindən birinə çevrilmişdir. Xüsusən, ölkənin giriş-çıxış qapısı hesab olunan sərhəd rayonlarının, sərhədboyu ərazilərin, paytaxtın və geosiyasi önəm daşıyan digər məkanların iqtisadi, siyasi, informasiya infrastrukturlarının inkişafına və idarə edilməsinə nəzarət və s. məsələlər dövlətin inkişafı, ictimai-siyasi və sosial-etnik təhlükəsizliyi ilə bilavasitə bağlıdır. Doğrudur, Azərbaycanın mərkəzi icra orqanları ilə yerli idarəçilik qurumları, yerli icmalar və s. idarəçilik institutları

arasında hazırda elə bir ciddi problem müşahidə olunmur. Lakin 90-cı illərin hadisələrini və acı təcrübəsini göz önünə gətirsək, xüsusən ölkənin Cənub, Şimal, Qərb bölgələrində xaricdən qızışdırılan bəzi separatçılıq meyillərini nəzərə alsaq, o zaman bu amilə mütləq şəkildə ciddi diqqət yönəldilməlidir. İctimai-siyasi, sosial-etnik təhlükəsizliyin təminatı tələblərinə görə, hər bir region və rayon mərkəzlə və mərkəzi hakimiyyətlə, ölkənin iqtisadi, sosial, mədəni və ictimai idarəçiliyi ilə ciddi əlaqələndirilməli, əhalinin milli və sosial tərkibi mütəmadi olaraq nəzarətdə saxlanılmalı, rayonlarla mərkəzi şəhərlərin inkişafındakı sosial-iqtisadi fərqlər aradan qaldırılmalıdır.

Azərbaycan dövlətinin ictimai-siyasi və sosial-etnik sahədəki təhlükəsizlik siyasətinin təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, ölkənin daxili həyatında bərqərar olmuş ictimai-siyasi sabitliik və vətəndaş birliyi, siyasi sistemin çevikliyi və demokratik xarakter daşıması, sosial inkişaf sahəsində həyata keçirilən məqsədyönlü siyasət və s. keçən illərdə ölkə əhalisinin əmin-amanlıq şəraitində yaşamasına və günü-gündən rifah halının yaxşılaşmasına xidmət göstərmişdir. İctimai-siyasi və sosial-etnik sahənin inkişafı ilə bağlı həyata keçirilən dövlət siyasəti, maddi və insan ehtiyatların idarə edilməsi məqsədyönlü və müvəffəqiyyətli olmuş və müvafiq sahənin təhlükəsizlik sistemini möhkəmləndirməklə bərabər, bütövlükdə ölkənin milli maraqlarına cavab vermişdir.

§ 5.7. Azərbaycanın ərzaq təhlükəsizliyi siyasəti

Cənubi Qafqazın ümumi geoiqtisadi vəziyyəti fonundan yanaşdıqda, müstəqilliyə qovuşduğu andan Azərbaycan Respublikasının milli geoiqtisadi təhlükəsizliyinin əsas vəzifələrindən birini ərzaq təhlükəsizliyinin təmin edilməsi təşkil edir. Ölkənin *ərzaq təhlükəsizliyi siyasətinin ali məqsədi əsas ərzaq*

məhsulları üzrə xarici bazarlardan asılılığın azaldılması, etibarlı daxili və xarici ərzaq təminatı mexanizmlərinin yaradılması və qəbul edilmiş beynəlxalq normalara uyğun olaraq, hər bir vətəndaşın lazımi ərzaq məhsulları ilə təchiz edilməsindən ibarətdir.

Ölkənin ərzaq təhlükəsizliyi, o cümlədən vətəndaşların lazımi səviyyədə qidalanmasının təmin edilməsi təkcə daxili strateji vəzifə deyil, həm də beynəlxalq hüquqi tələbdir. Azərbaycan Respublikasının qoşulduğu "Ümumdünya insan hüquqları Bəyannaməsi"ndə, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq Pakt"da, "Uşaq hüquqları haqqında beynəlxalq Konvensiya"da insanların lazımi səviyyədə qidalanma hüququnun təmin olunması məcburi beynəlxalq tələb kimi hər bir ölkələrin qarşısında dayanır.[483]

Son bir neçə ildə dünyada baş verən iqtisadi böhran, əhalinin sayının artması ərzaq məhsullarına olan tələbatın yüksəlməsi, iqlim dəyişkənliyi, su ehtiyatlarının məhdudluğu və digər səbəblərə görə əsas ərzaq məhsullarının dünya bazarlarında nisbi qıtlığı müşahidə olunmuş, qiymətləri artmağa başlamış və hətta bəzi ölkələrdə ərzaq çatışmazlığı real təhlükəyə çevrilmişdir. Dünya ərzaq bazarlarında müşahidə olunan qeyri-sabitlik bütün dünyada olduğu kimi Cənubi Qafqaz və Azərbaycanda da müəyyən məhsullar üzrə ərzaq çatışmazlığı və qıtlığı yaratmışdır. Bu vəziyyət Azərbaycanda bəzi məhsullar üzrə qiymətlərin xüsusi yüksəlməsinə öz təsirini göstərmişdir ki, bu da ölkədə daxili ərzaq bazarının inkişaf etdirilməsi və qorunması, əhalinin ərzaq təminatının idxaldan asılılığının maksimum azaldılması, milli ərzaq ehtiyatlarının yaradılması və s. istiqamətlərdə bir çox kompleks tədbirlərin görülməsini, ərzaq

[483] Права человека. Сборник международных документов. Варшава, 2001, с. 85

təhlükəsizliyi sahəsində sistemli addımların atılmasını, o cümlədən xüsusi dövlət proqramının qəbul edilməsini zəruri etmişdir.

Mütəxəssislərin fikrincə, dünyada, o cümlədən Xəzər hövzəsi və Cənubi Qafqaz ölkələrində əhalinin sabit ərzaq təminatının əsas şərtləri makroiqtisadi sabitliyə əsaslanan davamlı inkişafın əldə edilməsi, kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının artırılması qayğısına qalınması, yeni iş yerlərinin açılması, əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan qruplarının gəlirlərinin, minimum pensiya və əmək haqlarının artırılması, ölkə miqyasında ehtiyac meyarı səviyyəsinin yaşayış minimumuna çatdırılması və s. ibarətdir.

Azərbaycanda region ölkələri içərisində hamıdan əvvəl həyata keçirdiyi kolxoz-sovxoz sisteminin ləğv edilməsi və torpaqların özəlləşdirilməsi, davamlı aqrar islahatlar və s. nəticəsində kənd təsərrüfatında nəzərəçarpacaq inkişafa nail olunmuş, adambaşına düşən ərzaq məhsullarının istehsalı xeyli artmışdır. Bu sahədə görülən işlər kənd təsərrüfatının əsas göstəricilərini yaxşılaşdırmaqla yanaşı, ərzaq məhsulları istehsalının strukturunda da müəyyən dəyişikliklərə səbəb olmuşdur. İslahatlar ölkənin əkin strukturuna ciddi təsir edərək, əsas ərzaq məhsulları istehsalının artmasına, daxili və xarici bazarın tələblərinə uyğun formalaşmasına şərait yaratmışdır.

Azərbaycanda son illərdə ərzaq təhlükəsizliyinin təmin edilməsinə, dövlət səviyyəsində torpaqların münbitliyinin artırılmasını, aqrotexniki becərmənin, meliorasiya və su təsərrüfatının inkişafını nəzərdə tutan aqrar siyasətin də mühüm təsiri olmuşdur. Bu məqsədlə ölkənin ərzaq təhlükəsizliyi proqramında bir neçə istiqamət üzrə davamlı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bunlar:

- torpağın münbitliyinin və məhsuldarlığının artırılması, istifadə olunmayan əkinə yararlı torpaqlar hesabına əkin sahələrinin genişləndirilməsi;

- meliorasiya sistemlərinin tikintisi;
- heyvandarlığın sürətli inkişafı;
- bioloji su ehtiyatlarının potensialından intensiv istifadə olunması;
- ərzaq xammalını müasir tələblər səviyyəsində emal edən yeni texnologiyaların tətbiqi;
- aqrar-sənaye və balıq təsərrüfatı komplekslərində innovasion modellərlə işləməyi bacaran kadrların hazırlanması, onların ixtisasının artırılması və sairədən ibarətdir.[484]

Azərbaycanın ərzaq təhlükəsizliyinin prioritet istiqamətlərinə ərzaq məhsulları istehsalının artırılması, əhalinin təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi, ərzaq təminatı sisteminin institusional inkişafına dövlət dəstəyi, sahibkarlıq mühitinin yaxşılaşdırılması sahəsində risklərin idarə olunmasının təmin edilməsi daxildir. Göstərilən istiqamətlər üzrə vəzifələrin yerinə yetirilməsi ölkədə sabit və adekvat ərzaq təklifinin formalaşdırılması, səmərəli istehsal və satış infrastrukturunun yaradılması, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi və s. deməkdir.

Sabit və adekvat ərzaq təklifi, ilk növbədə, aqrar sektorda intensiv təkrar istehsalla, o cümlədən kənd təsərrüfatı məhsulları emalının inkişaf etdirilməsi ilə sıx şəkildə bağlıdır. Ərzaq təklifi kəmiyyətcə qənaətbəxş səviyyədə olmaqla yanaşı, keyfiyyətcə də ən müasir tələblərə cavab verməli, ölkə əhalisi ekoloji cəhətdən təmiz məhsullarla təchiz edilməlidir. Bunun üçün ərzağın keyfiyyətinə və təhlükəsizliyinə səmərəli nəzarət sistemi qurulmalıdır. Səmərəli istehsal, saxlanma və satış infra-

[484] Bax: "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"; **"**2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı".http://e-qanun.az

strukturunun yaradılması da ərzaq təminatı sisteminin ən vacib elementlərindəndir.

Beynəlxalq təcrübə göstərir ki, ərzaq təhlükəsizliyinin ən mühüm cəhətlərindən biri ehtimal olunan risklərin səmərəli şəkildə idarə edilməsindən ibarətdir. Bununla əlaqədar olaraq zəruri həcmdə dövlət ərzaq ehtiyatının yaradılması və onun müasir tələblər səviyyəsində idarə edilməsi vacib məsələdir. Eyni zamanda ərzaq təminatı sisteminin institusional inkişafı diqqət mərkəzində saxlanılmalı, aqrar bölmənin elmi və kadr potensialı gücləndirilməli, sahibkarlığın inkişafı üçün qabaqcıl modellər tətbiq edilməlidir.

Azərbaycanda dayanıqlı ərzaq təminatının əldə olunması sahəsində 1994-cü ildən başlayaraq ardıcıl siyasət yürüdülmüş və səmərəli nəticələr əldə olunmuşdur. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə torpaq islahatları Müstəqil Dövlətlər Birliyi məkanında ilk dəfə Azərbaycanda həyata keçirilmiş, ölkədə kənd təsərrüfatı istehsalçılarına yardım mexanizmləri formalaşdırılmış, beynəlxalq təşkilatlarla birlikdə bu sahədə əhəmiyyətli layihələrin icrasına başlanmışdır. Bunun ardınca Azərbaycan Prezidentinin 2001-ci il 2 mart tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" və 2008-ci il 25 avqust tarixli sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" təsdiq edilmişdir. [485]

Bu sənədlər çərçivəsində görülmüş işlər nəticəsində son dövrdə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artmışdır. Azərbaycanda yoxsulluğun azaldılmasına, kiçik və orta sahibkarlığın, eyni zamanda regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarından və

[485] Bax: http://e-qanun.az

digər sənədlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi də əhalinin ərzaq istehlakında yerli məhsulların xüsusi çəkisinin artmasına mühüm təsir göstərmişdir.[486]

Son illər ərzində ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin edilməsi, aqrar sektorun inkişafına stimullaşdırıcı təsir göstərən pul və fiskal siyasətin həyata keçirilməsi, sosial xidmətlərin həcminin və keyfiyyətinin yüksəldilməsinə yönəlmiş büdcə siyasəti, regionlarda infrastruktur təminatının yaxşılaşdırılması və s. kimi tədbirlər daxili ərzaq təhlükəsizliyinin təmin edilməsinə öz müsbət təsirini göstərmişdir. Ölkədə ərzaq təminatının maddi-texniki təchizatı da əvvəlki illərə nisbətən xeyli yaxşılaşdırılmış, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri möhkəmləndirilmişdir.

Əhalinin təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi məqsədi ilə ərzaq məhsullarının istehsalı sahəsində İSO standartlarına uyğun keyfiyyətin idarə edilməsi sistemlərinin tətbiqi və beynəlxalq HACCP (Təhlükəli amillərin təhlili və böhranlı nöqtələrə nəzarət) sisteminə keçid üçün normativ hüquqi baza yaradılmış, ərzaq təhlükəsizliyi ilə bağlı beynəlxalq təcrübə nəzərə alınmaqla milli standartların hazırlanmasına və tətbiqinə başlanılmışdır. Beynəlxalq aləmdə tətbiq edilən "tarladan - süfrəyədək" prinsipi əsasında milli ərzaq istehsalı zəncirinin bütün mərhələlərində müvafiq sahələr üzrə keyfiyyətə nəzarət mexanizmi işlənib hazırlanmaqda və həyata keçirilməkdədir.

Sahibkarlıq mühitinin yaxşılaşdırılması və ərzaq təminatı sisteminin institusional inkişafı ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Bu amilin əhəmiyyəti nəzərə alınaraq, son illərdə Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı mütərəqqi modellərin tətbiqi genişləndirilir, kənd təsər-

[486] Bax: "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı". http://e-qanun.az

rüfatı məhsullarının istehsalı və emalı müəssisələrinə ayrılan güzəştli kreditlərin həcmi ildən - ilə artırılır və rəqabətə davamlı məhsul istehsalı üçün lazımi şərait yaradılır.

Rəsmi sənədlərə görə, Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunmasının qarşıda dayanan əsas vəzifələri aşağıdakılardır:

- ərzaq təhlükəsizliyinə daxili və xarici təhdidlərin vaxtında müəyyənləşdirilməsi və qarşısının alınması;
- əhalinin qida məhsulları ilə təmin olunması sisteminə hazırlıq görülməsi;
- qida məhsullarının strateji ehtiyatlarının formalaşdırılması;
- ölkənin ərzaq müstəqilliyinin təmin olunması üçün ərzaq və xammal istehsalının sabit inkişafı;
- hər bir vətəndaşın fəal və sağlam həyat tərzi yaşaması üçün təhlükəsiz qida məhsulları ilə təmin edilməsi və s.[487]

Qeyd etmək lazımdır ki, hər bir ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması onun iqtisadi vəziyyəti ilə sıx bağlıdır. Məhz iqtisadi inkişaf şəraitində hər bir vətəndaşın lazımi qida məhsulları əldə etməsi üçün əlverişli maddi imkanlar yaranır.

Ərzaq təhlükəsizliyinin təmin olunması bütün dünyada bir sıra risk və təhdidlərlə müşahidə olunur. Ən mühüm risklər aşağıdakılardır:

- makroiqtisadi risklər (iqtisadiyyatın mühüm sahələrinin xarici iqtisadi konyunkturadan asılılığı, ərzaq istehsalı sahələrinə investisiya qoyuluşunun azalması və s.);

[487] Bax: "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"; **"**2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı". http://e- qanun.az/print.php?internal

- texnoloji risklər (ərzaq məhsulları istehsal edən texnoloji avadanlıqların köhnəlməsi və bunun məhsulun təhlükəsizliyinə mənfi təsir göstərməsi);
- aqroekoloji risklər (əlverişsiz iqlim dəyişiklikləri, fövqəladə texnogen vəziyyət) və s.

Sadalanan bu risklər ərzaq təhlükəsizliyinə təhdidləri formalaşdırır. Bütün bunları nəzərə alan Azərbaycan hökuməti ərzaq təhlükəsizliyi siyasətinin aşağıdakı istiqamətlər üzrə həyata keçirilməsini planlamışdır:

- yoxsulluq səviyyəsinin azaldılması və əhalinin normal qidalanmaya daha çox ehtiyacı olan təbəqələrinin maddi vəziyyətinin yaxşılaşdırılması;
- hamilə qadınların, körpələrin, məktəbəqədər və məktəbyaşlı uşaqların sağlam qida ilə təmin olunmasının təşkili və s.[488]

Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunması mexanizmləri iqtisadiyyata və onun ayrı-ayrı sahələrinə dair normativ hüquqi aktlara müvafiq olaraq müəyyənləşir. Ərzaq təhlükəsizliyinin təmin olunmasına yönəlmiş tədbirlər və mexanizmlər bu sahənin daxili və xarici təhdidlərdən müdafiəsini nəzərdə tutur.

Ərzaq təhlükəsizliyinin təmin olunmasının təşkili və idarə edilməsi sahəsində əsas vəzifələrə dünya ərzaq bazarlarındakı dəyişikliklərə ölkə iqtisadiyyatının davamlılığının qiymətləndirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması strategiyasının həyata keçirilməsində dövlət informasiya ehtiyatlarının imkanlarından səmərəli istifadə edilməsi kimi məsələlər də daxildir.

Ərzaq təhlükəsizliyinə nail olmaq üçün Azərbaycan dövləti iki mərhələdən ibarət milli strategiyanın həyata keçirilməsini öhdəsinə götürür:

[488] Yenə orada

Birincisi, islahatlar aparıldığı müddətdə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün qısamüddətli və orta müddətli keçid tədbirlərinin tətbiqi. Bu, əsasən, özəl fermer təsərrüfatçılığına və sahibkarlığa dövlət dəstəyinin göstərilməsi nəticəsində təmin edilir.

Bu mərhələdə tədbirlərin aşağıdakı istiqamətlər üzrə aparılması nəzərdə tutulur:

- müvafiq qanunların həyata keçirilməsinə nəzarət;
- gözlənilən ilkin nəticələrin əldə edilməsi üçün lazım olan büdcə ayırmalarının dəqiqləşdirilməsi;
- ərzaq istehsalı sahəsində müvəqqəti vergi güzəştlərinin tətbiqi məsələsinə baxılması;
- qida məhsullarının istehsalı, emalı və satışı üçün kreditlərin alınmasına kömək göstərilməsi;
- qida məhsulları istehsalçılarının ərzaq idxalından müdafiə edilməsi;
- istehlakçıların hüquqlarının təmin edilməsi və s.

İkincisi, Azərbaycanın kənd təsərrüfatında gəlirliliyin və rəqabətə davamlılığın artırılması məqsədi ilə ərzaq təhlükəsizliyi sahəsində uzunmüddətli tədbirlərin həyata keçirilməsi.

Məlum olduğu kimi, bütün dünya ölkələri ərzaq təhlükəsizliyini əsasən kənd təsərrüfatının inkişafı və ərzaq istehlakı vəziyyətinin yaxşılaşdırılması hesabına təmin edirlər. Azərbaycanda bu vəzifəyə nail olmaq üçün ölkə səviyyəsində ərzaq təhlükəsizliyi ilə bağlı idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, fermer təsərrüfatlarının bazar iqtisadiyyatı tələblərinə cavab verən qurumlara çevrilməsi, ərzaq məhsulları növləri istehsalının inkişafı və kənd təsərrüfatı infrastrukturuna investisiya qoyuluşu kimi məsələlər ön plana çəkilmişdir.[489]

[489] Bax: "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"; **"**2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı". http://e-qanun.az/print.php?internal

Azərbaycanın ərzaq təhlükəsizliyi siyasətinin əsas istiqamətlərindən birini torpaq ehtiyatlarından istifadənin səmərəsini yüksəltməklə istehsalın artırılması və məhsul bolluğunun yaradılması təşkil edir. İstehsalın səviyyəsinin artması, müvafiq olaraq, xaricdən gətirilən ərzaq məhsullarının yerli məhsullarla əvəz edilməsini nəzərə tutur.

Araşdırmalar göstərir ki, Azərbaycanın bəzi rayonlarının vətəndaşlarında dəmir və yod mikroelementlərinin çatışmazlığı halları müşahidə olunur. Məsələn, xörək duzunda yod çatışmazlığı nəticəsində dağ rayonlarında zob xəstəliyinin yayılması hallarına rast gəlinir. Buna görə də ölkənin ərzaq təhlükəsizliyi siyasətinin əsas məqsədlərindən biri əhalinin tarazlaşdırılmış qidalanmasını təmin etməkdən ibarət olmalıdır.

Bundan başqa, əhalinin tam və normal qidalanmasının yaxşılaşdırılmasına nail olmaq üçün ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarət mexanizminin yaradılması, yerli ərzaq məhsulları istehsalının, emalının və marketinqinin təmin olunması mühüm məsələdir. Bu məqsədlə ərzaq məhsullarının keyfiyyəti və təhlükəsizliyi üzərində nəzarətin artırılması, təhlükəsizlik normalarına uyğun gəlməyən və gömrük orqanları tərəfindən saxlanılan ərzaq məhsullarının məhv edilməsi vacibdir.

§ 5.8 Azərbaycanın informasiya təhlükəsizliyi siyasəti

XXI əsrin əvvəllərindən dünyada cərəyan edən əsas geosiyasi proseslərin idarə edilməsi, beynəlxalq münasibətlərin tənzimlənməsi, ölkələrin milli təhlükəsizliyinin təmin olunması və s. məsələlərdə ənənəvi hərbi-geostrateji, coğrafi-ərazi, iqtisadi, siyasi, sosial və s. problemlərlə yanaşı, dövlətlərin infor-

masiya fəaliyyəti və təhlükəsizliyi məsələsi də ciddi müzakirə olunur. Qloballaşmanın vüsət aldığı, virtual informasiya məkanının günü-gündən genişləndiyi, milli informasiya mühitininin pozulduğu, milli dəyərlərin meyarlarının və sədlərinin "universallaşdığı" müasir dünyada beynəlxalq və yerli ictimai rəyin idarə olunması, siyasi proseslərin məqsədli yönləndirilməsi günü-gündən aktuallaşır. Transmilli informasiya siyasəti və milli sərhədləri asanlıqla aşan beynəlxalq təbliğat fəaliyyəti ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına, milli cəmiyyətlərin vəziyyətinə ciddi təsir göstərir.

Hər bir ölkənin informasiya məkanı və informasiya mühiti, informasiya ehtiyatları və texnologiyaları cəmiyyətin sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafının səviyyəsini və dinamikasını müəyyənləşdirir. Geosiyasi ədəbiyyatda "informasiya mühiti" beynəlxalq və yerli sistemyaradıcı amil olmaqla bərabər, bəlli məkanlarda siyasi, iqtisadi, müdafiə, sosial-mənəvi və digər sahələrə müdaxilə edərək, milli təhlükəsizlik sisteminə ciddi təsir göstərən vasitə kimi də dəyərləndirilir. Beynəlxalq və milli idarəetmə qərarlarının səmərəliliyi toplanmış informasiyanın həcmi, onun işlənmə və istifadə sürəti ilə müəyyənləşir. Beynəlxalq, regional və milli münasibətlərin, daxili və xarici sosial-iqtisadi proseslərin idarə olunmasında informasiya siyasəti və təhlükəsizliyinin əhəmiyyəti getdikcə artır.

Müstəqilliyinə nail olduqdan sonra Azərbaycanın milli təhlükəsizliyinin əsas problemlərindən biri ölkənin vahid informasiya siyasətinin formalaşdırılması və təhlükəsizliyinin təminatı, milli informasiya mühitinin yaradılması, qorunması və idarə edilməsi ilə bağlı olmuşdur. 1990-cı illərin əvvəllərində bəzi xarici qüvvələrin sistemli şəkildə həyata keçirdikləri informasiya müdaxiləsi, ideoloji təbliğat fəaliyyəti Azərbaycan

ərazisində əhalinin bəzi sosial və milli-etnik təbəqələrində ciddi anti-milli və anti-dövlət meyili formalaşdırmış, müstəqil dövlətin əsaslarına, vətəndaş həmrəyliyi və birliyinə təhlükə yaratmışdı. Xarici dairələr bununla kifayətlənməyərək Azərbaycanın ictimai rəyinə, daxili və xarici siyasətinə təsir göstərmək məqsədi ilə çoxsaylı dini, ideoloji, informasiya və təbliğat şaxələri yaratmış və öz məqsədləri üçün istifadə etmişlər. Belə təxribatçı hərəkətlər ölkədaxili sabitliyin pozulmasına, mərkəzi hakimiyyətin cəmiyyət üzərindəki nəzarətinin itirilməsinə və daxili anarxiyanın yaranmasına yönəlmişdi.

Bundan başqa, həmin dövrdə Azərbaycanın daxili informasiya sistemləri, o cümlədən, informasiya yaratma, ötürmə, ümumiləşdirmə və təhliletmə vasitələri, şəbəkə və xətləri ya iflic olmuş, ya da bütövlükdə xarici ölkələrin nəzarəti altına keçmişdi. Xüsusən, nəzərə alınsa ki, o dövrün bütün informasiya texnologiyaları - telefon, peyk rabitəsi, internet, o cümlədən informasiya ötürmə sistemləri, milli təhlükəsizlik və müdafiə nazirliklərinin istifadə etdiyi digər informasiya vasitələri bütövlükdə xarici ölkələrin və beynəlxalq informasiya güclərinin nəzarəti altında idi, bu halda ölkənin informasiya təhlükəsizliyi sahəsindəki problemləri və boşluqları təsəvvür etmək o qədər də çətin olmaz.

Bütün bunlar və digər proseslər 90-cı illərin birinci yarısında Azərbaycan hakimiyyəti qarşısında *məxsusi informasiya fəaliyyəti və təhlükəsizliyi siyasətinin formalaşdırılması, milli informasiya fəaliyyətinin vahid strategiyasının hazırlanması və həyata keçirilməsi kimi təxirəsalınmaz vəzifələr* qoyurdu. 1993-cü ildən başlayaraq prezident Heydər Əliyevin rəhbərliyi altında *özündə müstəqil dövlət maraqlarını və beynəlxalq dəyərləri, ümumi təhlükəsizlik normalarını və milli postulatları əks etdirən informasiya fəaliyyəti və təhlükəsizliyi siyasəti*

həyata keçirilməyə başlandı. Dövlətin informasiya siyasətinin əsas vəzifələri, istiqamətləri, prioritetləri və resursları müəyyən edildi, nəzəri və praktiki əsasları yaradıldı, sonrakı dövrdə müxtəlif inkişaf mərhələlərindən keçərək təkmilləşdirildi və dövlət həyatının bütün sahələrində tətbiq olunmağa başlandı. Demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas tələbi kimi *söz və məlumat azadlığının təminatı, demokratik və siyasi plüralistik kütləvi informasiya vasitələrinin (KİV) yaradılması, iqtisadi və siyasi müstəqilliyinin təmin edilməsi, beynəlxalq rəqabətədavamlılığının artırılması, informasiya fəaliyyətinin hüquqi-normativ əsaslarının yenidən qurulması və s. bu siyasətin əsas prioritetlərinə* çevrildi. Azərbaycan hakimiyyəti bu istiqamətdə bir çox beynəlxalq təşkilatlarla və inkişaf etmiş demokratik ölkələrlə əməkdaşlıq edərək respublikada azad informasiya mühiti formalaşdırdı, ölkənin informasiya təhlükəsizliyinin təminatı mexanizmlərini bərqərar etdi.

Keçən iyirmi ildə Azərbaycanda milli informasiya siyasəti və təhlükəsizliyi sahəsində müəyyən qanunlar, konsepsiyalar, doktrinalar, xüsusi dövlət proqramları və s. sənədlər qəbul edilib, çoxsaylı praktiki addımlar atılıb və işlər görülüb.

Azərbaycanın dövlət informasiya siyasətinin əsasları: müstəqil kütləvi – informasiya vasitələrinin formalaşdırılması siyasəti və informasiya-kommunikasiya texnologiyalarının inkişafı

Azərbaycanda söz və informasiya azadlığının bərqərar olmasının, azad informasiya mühitinin və müstəqil kütləvi informasiya vasitələrinin yaradılması siyasətinin banisi Ümummilli lider Heydər Əliyevdir. Məhz onun prezidentliyi dövründə

ölkədə azad, müstəqil, beynəlxalq rəqabətədavamlı, demokratik milli kütləvi informasiya vasitələrinin formalaşması və hərtərəfli inkişafının təmin edilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirilməyə başlanmışdır. Heydər Əliyevin rəhbərliyi altında ölkədə plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran bütün süni maneələr aradan qaldırılmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş yeni Konstitusiyasında söz, fikir və məlumat azadlığı, hər kəsin məlumat almaq və yaymaq hüququ, KİV üzərində hər hansı senzuranın yolverilməzliyi birmənalı formada təsbit edilmişdir. Ötən əsrin 90-cı illərindən başlayaraq Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması, onun hüquqi-normativ bazasının qurulması, iqtisadi müstəqilliyinin təmin edilməsi üçün geniş imkanlar yaradılmışdır. Azərbaycan Prezidentinin 6 avqust 1998-ci il tarixli Fərmanı ilə Nazirlər Kabineti nəzdində mətbuatda və digər KİV-lərdə dövlət sirlərini mühafizə edən baş idarə ləğv edilmişdir.[490] Senzuranın ləğvi demokratik cəmiyyət olaraq Azərbaycanın gələcək plüralistik informasiya siyasətinin həyata keçirlməsini şərtləndirmiş və sürətləndirmişdir. Fərmanda nəzərdə tutulan digər tədbirlər müstəqil KİV-in inkişafını, vətəndaşların beynəlxalq hüquq və Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığını təmin etmiş, ölkənin informasiya siyasətini dolğunlaşdırmışdır. Bunun ardınca dövlət informasiya siyasətinin ardıcıllığını

[490] Bax: "Azərbaycan Respublikasınında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı http://www.e-qanun.az

təmin etmək məqsədi ilə 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv olunmuş və dövlətin mətbuat üzərində nəzarət funksiyasından imtina edilmişdir. 2003-cü ildə Azərbaycan Jurnalistlərinin l Qurultayında mətbuatın özünütənzimləmə orqanı və dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizamlanması funksiyalarını yerinə yetirən müstəqil Mətbuat Şurası yaranmışdır.

Azərbaycanın müasir informasiya təminatı və təhlükəsizliyi siyasəti hüquqi, təşkilati-texniki və iqtisadi metodlarla təmin olunur. *Hüquqi metodlar* informasiya sahəsində münasibətləri tənzimləyən normativ hüquqi aktların, informasiya təminatı və təhlükəsizliyi ilə bağlı normativ metodiki sənədlərin işlənib hazırlanması və qəbulunu nəzərdə tutur. *Təşkilati-texniki metodlara* informasiya-telekommunikasiya sistemlərinin normal fəaliyyətinə təhlükə yaradan texniki qurğuların, proqramların aşkarlanması və s. daxildir. *İqtisadi metodlar* isə informasiya təminatı və təhlükəsizliyinin təmin olunması sahəsində iqtisadi tədbirlərin görülməsi və onların maliyyələşdirilməsi ilə əlaqədardır.

1999-cu ilin dekabrında İnsan Haqları və Əsas Azadlıqları üzrə Avropa Konvensiyasının əsas tələblərinə uyğunlaşdırılmış "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının yeni demokratik Qanunu qəbul olunmuşdur.[491] 2001-ci il dekabrın 28-də Milli Məclisin yeni redaksiyada qəbul etdiyi həmin Qanun, mütəxəssislərin fikrinə görə, bütün demokratik tələblərə- söz və məlumat azadlığına, KİV-lərin və jurnalistlərin müstəqilliyinə və sərbəst fəaliyyətinə tam təminat verir.

[491] Bax: "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu http://www.e-qanun.az

2002-ci ildə Avropa Şurası ilə əməkdaşlıq şəraitində beynəlxalq standartlara tam cavab verən "Televiziya və radio yayımı haqqında" Qanun işlənib hazırlanmış və qəbul edilmişdir.[492] Bunun ardınca, 2003-cü ildə elektron KİV sahəsində fəaliyyətin demokratik normalara uyğun qurulmasını təmin edəcək, TV və Radio sahəsində fəaliyyəti tənzimləyən müstəqil dövlət orqanı- Milli Televiziya və Radio Şurası yaradılmışdır. Şura öz fəaliyyətində yalnız qanuna tabedir.

2004-c ü ildə "İctimai Televiziya və radio yayımı haqqında" yeni qanun layihəsi işlənib hazırlanmış və qəbul edilmişdir.[493] Xüsusi qeyd olunmalıdır ki, qanunun hazırlanmasında Avropa Şurasının ekspertləri bilavasitə iştirak etmiş və əksər prinsipial müddəalar onlarla razılaşdırılmışdır.

2004-cü ilin sentyabrından etibarən "Dövlət sirri haqqında" Qanun qüvvəyə minmiş, bir müddət sonra isə Azərbaycan Prezidenti bu kateqoriyaya aid məlumatlar siyahısını təsdiq etmişdir. Bu, əsasən, hərbi sahəyə, dövlətin kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə dair məlumatlardır. Jurnalistlərin informasiya almaq azadlığının tam reallaşdırılması üçün 2005-ci il sentyabrın 30-da Azərbaycan Prezidentinin Sərəncamı ilə "İnformasiya əldə etmək haqqında" yeni Qanun təsdiq olunmuşdur.[494] Qanun layihəsinin hazırlanmasına həm əsas jurnalist təşkilatları, həm də Avropa Şurasının ekspertləri cəlb olunmuşdur. Nəticədə qanun yerli və xarici ekspertlər tərəfindən yüksək qiymətləndirilmiş və hazırda Avropa məkanında ən mütə-

[492] "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu http://e-qanun.az

[493] 493 "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu http://e-qanun.az

[494] "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu http://e-qanun.az

rəqqi qanunvericilik aktlarından hesab olunur. "İnformasiya əldə etmək haqqında" Qanun qəbul edildikdən sonra dövlət orqanlarında ictimaiyyətlə əlaqələr idarələrinin və mətbuat xidmətlərinin formalaşdırılmasına başlanmışdır. Qanunla müəyyən edilmiş bütün informasiya sahibləri, mərkəzi və yerli hakimiyyət qurumları onlara məxsus internet informasiya resusları yaradaraq jurnalistlərin xidmətnə təqdim etmişlər. Hazırda həmin resursların fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təmin edilməsi, qərarların qəbulu və idarəçilikdə ictimaiyyətin iştirakının genişləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqi üçün Azərbaycan Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.[495] Sənəddə İnformasiya əldə edilməsinin asanlaşdırılması, dövlət orqanlarının öz fəaliyyəti barədə ictimaiyyətə müntəzəm məlumat verməsi, normativ hüquqi aktların vahid elektron bazasının fəaliyyətinin təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi, elektron xidmətlərin təkmilləşdirilməsi, maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində, vergi nəzarəti və yoxlamaları prosesində, mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflığın artırılması, açıq hökumətin təşviqi üçün görülən tədbirlərlə bağlı maarifləndirmənin və əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Müstəqillik illərində Azərbaycanda söz və məlumat azadlığının təmin edilməsi, KİV-lərin maddi-texniki bazasının

[495] Yenə orada: http://e-qanun.az

möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl qərarlar qəbul edilmiş, müvafiq fərman və sərəncamlar imzalanmışdır. 1998-ci ilin sonunda KİV-lərin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə ölkə prezdentinin Sərəncamı ilə qəzet redaksiyaları əlavə dəyər vergisindən azad edilmişdir. Vergi Məcəlləsində KİV-lərin inkişafının stimullaşdırılması, onların maliyyə durumunun yaxşılaşdırılması və maddi-texniki bazasının gücləndirilməsi üçün sərfəli güzəştlər nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il iyulun 20-də imzaladığı "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" Fərmanla ölkəyə gətirilən qəzet kağızına gömrük rüsumları ləğv olunmuş, qəzetlərə uzunmüddətli və güzəştli kreditlər verilməsi qərara alınmışdır. Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2002-ci il tarixli Sərəncamı ilə Sahibkarlığa Kömək Milli Fondundan KİV sahəsində layihələrin maliyyələşdirilməsi üçün 600 min manat vəsait ayrılmışdır. 2003-cü il yanvarın 9-da Azərbaycan Prezidentinin Sərəncamı ilə qəzetlərin "Azərbaycan" nəşriyyatına borcları 3 il müddətinə dondurulmuş, 2006-cı ilin martında isə onların 450 min ABŞ dolları həcmində borcunun dövlət büdcəsi hesabına ödənilməsi qərara alınmışdır.

Qeyd edilməlidir ki, 2000-ci ildən Azərbaycan milli mətbuatının yubileyləri dövlət səviyyəsində qeyd olunur. 2005 və 2010-cu illərdə yüzlərlə jurnalist fəxri adlar və dövlət mükafatları ilə təltif olunmuşlar. Hər il ölkənin aparıcı qəzet redaksiyaları və informasiya agentliklərinə dövlət tərəfindən birdəfəlik maliyyə yardımı ayrılır.

2008-ci il iyulun 30-da Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi

informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nı təsdiq etmişdir.[496] Kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin əsas məqsədi vətəndaş cəmiyyəti quruculuğu prosesində KİV-in rolunu nəzərə almaqla fikir, söz və məlumat azadlığını inkişaf etdirmək, kütləvi informasiya vasitələrinin müstəqilliyini dəstəkləmək, redaksiyalara yardım mexanizmini təkmilləşdirmək, informasiya sektorunda yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqini stimullaşdırmaq, cəmiyyət və kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlığı gücləndirmək, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artmasına şərait yaratmaq, sosial müdafiəsini gücləndirmək, dövlət və cəmiyyət üçün prioritet təşkil edən məsələlərin həllində kütləvi informasiya vasitələrinin potensialından səmərəli istifadə etməkdən ibarətdir.

2009-cu il aprelin 3-də Konsepsiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmışdır.[497] Fondun əsas vəzifəsi söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi üçün Konsepsiyada nəzərdə tutulmuş müddəaların həyata keçirilməsini, habelə KİV-lərin proqram, layihə və digər tədbirlərini maliyyələşdirməkdir. Fond müstəqil orqandır, onun fəaliyyətinə vətəndaş cəmiyyəti institutlarının təmsil olunduğu Müşahidə Şurası nəzarət edir. 2009-cu ildən sonrakı dövrdə KİV layihələrinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən Fonda 15 milyon manatdan artıq vəsait ayrılmışdır.

[496] Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası http://e-qanun.az

[497] "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı http://e-qanun.az

Azərbaycan Prezidentinin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında" 2010-cu il 22 iyul tarixli Sərəncamı ilə jurnalistlər üçün yaşayış binasının tikilməsi məqsədi ilə xüsusi vəsait ayrılmışdır. 2013-cü il iyulun 22-də jurnalistlər üçün tikilmiş binanın açılış mərasimi keçirilmiş və 156 KİV əməkdaşına yeni mənzillər paylanmışdır. Elə həmin gün Azərbaycan Prezidentinin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncam imzalamış və jurnalistlər üçün yeni- 240 mənzilli binanın tikintisinə vəsait ayirmışdır.

Bu gün Azərbaycanda dünya standartlarına uyğun azad, plüralist media formalaşmışdır. Dövlət KİV-lərin müstəqil və hərtərəfli inkişafı üçün zəruri şərait yaratmışdır. Azərbaycan dövləti hesab edir ki, kütləvi informasiya vasitələri vətəndaş cəmiyyətinin dinamik inkişafına mühüm təsirə malik güclü vasitədir. Kütləvi informasiya vasitələrinin kəmiyyətinə görə, Azərbaycan Respublikası MDB və Şərqi Avropa ölkələri arasında lider mövqelərdən birini tutur. Azərbaycanda 5000-ə yaxın KİV müvafiq dövlət orqanında uçota götürülmüş və ya qeydiyyatdan keçmişdir. Təsis edilən KİV-lər müxtəlif siyasi, ictimai mövqeli təşkilatlara, özəl qurumlara və fiziki şəxslərə məxsusdur. Ölkədə 40-a yaxın gündəlik, 200-dən artıq həftəlik və aylıq qəzet nəşr olunur. 80-dən artıq elmi-praktiki, ictimai-siyasi, sosial-iqtisadi məsələləri, uşaq və qadın problemlərini işıqlandıran və əyləncə xarakterli jurnal çıxır. Azərbaycanda 20-yə yaxın informasiya agentliyi ölkədə və dünyada baş verən hadisələrlə bağlı müntəzəm və çeşidli məlumat yayır. Bölgələrdə 100-ə yaxın qəzet və jurnal nəşr olunur.

1998-ci ildən sonra Azərbaycanda yeni özəl televiziya və radio kanalları açılmış, son illər kabel televiziyasının miqyası

genişlənmişdir. Hazırda Azərbaycanda 10 ümumrespublika, 1 peyk, 14 regional və 14 kabel televiziyası, 14 radio fəaliyyət göstərir. 2005-ci ildə Azərbaycan Dövlət Televiziyasının bazasında "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır. Elə həmin il ikinci dövlət kanalının bazasında İctimai Televiziya və Radio Yayımları Şirkəti təsis edilmiş və fəaliyyətə başlamışdır. İctimai Televiziyanın maddi-texniki təminatı və real olaraq fəaliyyətə başlaması üçün bütün zəruri tədbirlər görülmüşdür. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il tarixli qərarına əsasən ölkə ərazisində rəqəmsal yayımın tətbiqinə başlanmışdır. 2014-cü il ərzində Azərbaycanda rəqəmsal yayıma keçidin başa çatacağı gözlənilir.

Azərbaycanda 50-dən artıq jurnalist təşkilatı qeydiyyatdan keçmiş, 30-a yaxın təşkilat söz və məlumat azadlığının inkişaf etdirilməsi, mətbuatın iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin hüquqlarının müdafiəsi, KİV-lərin informasiya əldə etmək imkanlarının genişləndirilməsi, cəmiyyətlə KİV arasında münasibətlərin tənzimlənməsi və digər məsələlərlə aktiv məşğul olur. Ölkədə müstəqilik illərində mətbuat yayımı həyata keçirən müstəqil kommersiya şirkətlərinin sayı artmışdır. Hazırda 23 mətbuat yayımı firması paytaxt və bölgələrdə geniş fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda söz və informasiya azadlığının təmin olunması, müstəqil KİV-lərin inkişafı və beynəlxalq rəqabətədavamlılığının artırılması, medianın maddi texniki bazasının gücləndirilməsi, ölkə jurnalistlərinin peşəkarlığının artırılması və s. sahələrdə həyata keçirilən dövlət siyasəti tezliklə öz müsbət nəticələrini göstərmişdir. Belə ki, 2009-cu ildən bəri jurnalistlərin insanları böhtan və təhqir etmə maddəsi ilə və ümumən yaradıcılıq fəaliyyəti ilə bağlı həbsə alın-

ması faktı qeydə alınmamışdır. Hazırkı şərait Azərbaycanda "difamasiya haqqında" yeni qanun layihəsinin müzakirəyə çıxarılması və qəbul olunmasını, jurnalistlərin fəaliyyətinin daha da asanlaşdırılması və təhlükəsizliyinin dolğun təmin olunmasını gündəmə gətirmişdir. Ölkə rəsmiləri və mətbuat ictimaiyyəti hazırda inkişaf etmiş demokratik dövlətlərin bu sahədəki təcrübəsini öyrənərək, Azərbaycanda tətbiqi üzərində birgə fəaliyyət göstərir.

Yeni minilliyin başlanğıcından dünyanın müxtəlif ölkələrində, xüsusən də inkişaf etmiş dövlətlərdə İKT-nin inkişafı, qabaqcıl inkişaf texnologiyaları və innovativ iqtisadi münasibətlərə əsaslanan informasiya cəmiyyətinin yaradılması istiqamətində transmilli fəaliyyət bir qədər də güclənmişdir. Bu fəaliyyət yeni minilliyin əsas inkişaf tələbləri və çağırışları kimi BMT-nin müvafiq Sammitinin qərarlarında da öz əksini tapmışdır. Son on ildə Azərbaycanda da ölkənin sabit və dinamik inkişafı, cəmiyyətin sosial-iqtisadi problemlərinin həlli, söz və mətbuat azadlığının təmin edilməsi, milli KİV-in maddi-texniki bazasının gücləndirilməsi və beynəlxalq rəqabətədavamlılığının artırılması məqsədi ilə *İKT və rabitə sektorunun inkişafına* mühüm əhəmiyyət verilir. İKT-nin inkişafı siyasəti hazırda Azərbaycan dövlətinin fəalyyətində mühüm yer tutur. Cəmi bir neçə ildə bu sahə üzrə həm milli qanunvericilik, həm də praktiki fəaliyyət xeyli gücləndirilmiş və ciddi nəticələr əldə edilmişdir. Ölkə üzrə informasiya cəmiyyətinin, yeni texnoloji və innovativ biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması dövlət tərəfindən dəstəklənir. Respublikada informasiya təhlükəsizliyinin təmin olunması və informasiya texnologiyalarının inkişafı ilə bağlı milli qanunvericilik bazası xeyli təkmilləşdirilmişdir. "Kütləvi informasiya vasitələri haqqında", "İnformasiya, informasiyalaşdırma

və informasiyanın mühafizəsi haqqında", "Məlumat azadlığı haqqında", "Elektron sənəd və elektron imza haqqında", "İnformasiya əldə etmək haqqında", "Telekommunikasiya haqqında", "Dövlət sirri haqqında" və s. qanunların qəbul edilməsi bunun əyani sübutudur.[498]

Bunlardan əlavə, Azərbaycan Prezidenti tərəfindən "Azərbaycanın inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003 – 2012-ci illər)", "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" və s. mühüm sənədlər də təsdiq olunmuşdur. Strategiya çərçivəsində "Elektron Azərbaycan - 2005-2008-ci illər" və "Elektron Azərbaycan - 2010-2012-ci illər" dövlət proqramları qəbul olunmuş və icra edilmişdir.[499]

Son llərdə Azərbaycanda İKT-nin sürətli inkişafı ölkə çərçivəsində internetin imkanlarının genişlənməsinə şərait yaratmış və müasir internet şəbəkəsi formalaşmışdır. İKT-nin inkişafı yönündə aparılan məqsədyönlü dövlət siyasətinin nəticəsidir ki, 2008-ci ildə Davosda keçirilən Ümumdünya İqtisadi Forumunun hesabatında Azərbaycan İKT sahəsindəki inkişaf səviyyəsinə görə MDB ölkələri arasında birinci yeri tutmuşdur. Ümumdünya İqtisadi Forumunun hesabatına görə, hazırda ölkə üzrə internet istifadəçilərinin sayı əhalinin 70%-ni təşkil edir. Mili internet provayderinin sayı 40-a çatmışdır. Son illər genişzolaqlı sürətli internet istifadəçilərinin sayı 50 faizə yaxınlaşmışdır ki, bu da ümumdünya orta göstəricisindən 2

[498] Cm:http://e-qanun.az
[499] Yenə orada

dəfə yüksəkdir. 5 ildə internet trafikinin giriş-çıxış həcmi 40 dəfə yüksəlmiş və hazırda 200 GB-dən çoxdur. İnternet xidmətlərindən istifadə haqları region ölkələrindəki tariflərlə uyğunlaşdırılmışdır. Bölgələrdə internet istifadəçilərinin sayı 12-15 dəfə çoxalmışdır. Ucqar kəndləri də nəzərə almaqla Azərbaycanın bütün bölgələrində internetdən istifadə etmək üçün şərait yaradılmışdır. Bu gün 9 milyon əhalisi olan ölkədə 2 milyona yaxın sosial şəbəkə, o cümlədən 1.2 milyon Facebook istifadəçisi, vardır. "AZ" domenində qeydiyyatdan keçmiş internet saytlarının sayı 20 minə çatmışdır. Ölkədə 300-ə yaxın xəbər və analitik internet saytı fəaliyyət göstərir və onların sayı durmadan artır.

2011-ci il mayın 23-də "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı [500] imzalanmışdır. Fərmana əsasən, dövlət orqanları öz fəaliyyət istiqamətlərinə uyğun olaraq bütün sahələrdə elektron xidmətlər təşkil etmişlər. Elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında təşkilinin təmin edilməsi məqsədi ilə "www.e-gov.az" vahid elektron hökumət portalı yaradılmışdır. Nazirlər Kabinetinin 2012-ci il 22 oktyabr tarixli qərarı ilə dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin növləri hazırda 417-yə çatdırılmışdır. Bununla yanaşı dövlət orqanları əhaliyə 300-ə yaxın elektron xidməti göstərir.

Azərbaycanda İKT sahəsi son illərdə sürətlə inkişaf edir. Bu illər ərzində İKT-yə ümumi investisiya qoyuluşunun həcmi təxminən 3 milyard ABŞ dolları təşkil etmişdir. Ölkə ərazisində uzunluğu 1161 kilometr olan Trans-Asiya-Avropa (TAE) fiber-optik kabel magistralı çəkilmişdir. Bu şəbəkə daxili ehti-

[500] Yenə orada

yatlar hesabına daha da genişləndirilmiş, ölkənin digər bölgələri magistral xəttə qoşulmuş və şimal sərhədinə qədər optik xəttin tikintisi təmin edilmişdir.

Azərbaycanda hazırda radio-televiziya proqramlarının peykdən yayımını təmin edən (TV-UP-Link) peyk rabitə stansiyaları ilə yanaşı, xarici ölkələrlə rabitənin təşkili, məlumatların ötürülməsi və qəbulu, internet şəbəkələrinin və daxili korporativ şəbəkələrin yaradılması məqsədi ilə müxtəlif peyklər üzərindən peyk rabitə kanalları (daşıyıcılar) vasitəsi ilə bir neçə peyklə işləyən yerüstü stansiyalar qurulub istifadə edilir. Əhaliyə, o cümlədən ölkə xaricində yaşayan azərbaycanlılara informasiya çatdırmaq üçün İKT-nin imkanlarından geniş istifadə olunur. AzTV, İTV və digər milli televiziya kanalları, televiziya və radio proqramları AZƏRSPACE-1 ilə yanaşı, iki digər peyk üzərindən də Asiya, Avropa və bütün dünya ölkələrinə yayımlanır.

Müasir informasiya cəmiyyətinin yaradılmasına, söz və məlumat azadlığının təminatına, İKT-nin inkişafı və milli informasiya təhlükəsizliyi sahəsində görülən ciddi işlərə baxmayaraq, Azərbaycan bir çox göstəricilərə görə hələ də ümumdünya səviyyəsindən geri qalır. Odur ki, ölkədə **informasiya cəmiyyətinin inkişafı,** rabitə və informasiya texnologiyalarının, eyni zamanda "İKT-nin inkişafı üzrə Milli Strategiya"nın qarşısında dayanan vəzifələrin tam yerinə yetirilməsi **hazırda həyata keçirilən dövlət siyasətinin mühüm vəzifələrindən biri hesab olunur. Bu məqsədlə 2 aprel 2014-cü ildə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" nın təsdiq edilməsi haqqında ölkə Prezidentinin Sərəncamı imzalanmış və ölkədə sayca ikinci milli fəaliyyət**

proqramı qəbul olunmuşdur.[501] Bundan əvvəl qəbul olunmuş Milli Strategiya 2003–2012-ci illəri əhatə edirdi bu sahə üzrə milli fəaliyyət proqramının əsas vəzifə və istiqamətlərini, həyata keçirilməsinin əsas prinsiplərini və prioritetlərini müəyyənləşdirmişdi.

Cəmiyyət həyatının İKT-nin müasir tələbləri çərçivəsində inkişafı, dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi və şəffaflığının artırılması, yeni-yeni milli informasiya ehtiyatlarının yaradılması və təhlükəsizliyiin təmin edlməsi, müasir elmi biliklərə əsaslanan iqtisadiyyatın inkişafı, bütün sahələrdə yeni texnologiyaların geniş tətbiqinə nail olunması, informasiya təhlükəsizliyi və azadlığının müdafiəsi, qlobal informasiya fəzasına inteqrasiyanın genişləndirilməsi ölkədə informasiya cəmiyyətinə keçidi təmin edəcək fəaliyyətin tərkib hissələridir.

Azərbaycan dövlətinin 2013-cü ildə özünün AZƏRSPACE-1 video-informasiya ötürücü peykini yeraltı orbitə çıxarması və regionda Rusiya, Türkiyə ilə birlikdə kosmik ölkəyə çevrilməsi onun həm informasiya fəaliyyəti və təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamış, həm də ölkəyə İKT sahəsində yaxın gələcəkdə böyük uğurlar qazandırmağa şərait yaratmışdır.

Göründüyü kimi, müstəqillik illərində Azərbaycan Respublikasında yeni informasiya fəaliyyətinin təşkili, fikir, söz və məlumat azadlığı sahəsində qazanılmış uğurlar milli dövlət quruculuğu siyasətinin və əldə olunmuş demokratik nailiyyətlərin mühüm tərkib hissəsi olmuşdur. Azərbaycan hökuməti bundan sonra da demokratiyanın inkişaf etdirilməsi sahəsində üzərinə düşən vəzifələri yerinə yetirmək əzmindədir.

[501] Bax: "Azərbaycan" qəzeti, 3 aprel 2014-cü il.

İnformasiya təhlükəsizliyi siyasəti

Qeyd etmək lazımdır ki, informasiya təhlükəsizliyinə xarici və daxili təhdidlər, onların qarşısının alınması metodları və s. kimi məsələlər milli təhlükəsizliyin bütün sahələri üçün əsasən ümumi xarakter daşıyır. Lakin bu sahələrin (iqtisadi, siyasi, hərbi, sərhəd və s.) hər biri özünəməxsus xüsusiyyətlərə malik olduğuna görə. Mütəxəssislərin fikrinə görə, onların təhlükəsizliyinin təmin olunması metodları bir-birindən fərqlənir.

Azərbaycanda informasiya təhlükəsizliyinin təmin olunması məsələləri yuxarıda adı çəkilən bir çox qanunlarla yanaşı ümumi formada Milli Təhlükəsizlik Konsepsiyasında və Azərbaycan Respublikasının "Milli Təhlükəsizlik haqqında" qanununda da öz əksini tapmışdır. Milli Təhlükəsizlik Konsepsiyasında ölkənin informasiya təhlükəsizliyinə təhdidlər ümumi və qısa formada öz əksini tapmışdır. Konsepsiyada qeyd olunur ki, Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir.[502]

Konsepsiyada Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması məqsədi ilə ölkədə informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturunun inkişaf etdirilməsi və möhkəmləndirilməsi zərurəti qeyd olunur. Bundan başqa, dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya

[502] Bax: Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası // http://e-qanun.az

təminatının həyata keçirilməsi məqsədi ilə obyektiv və mühüm məlumatların toplanması təklif edilir.

Sənəddə ümumi formada ölkənin kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin uzlaşdırılması və səmərəliliyinin artırılması zərurəti, habelə məxfi informasiyanın mühafizə olunmasının koordinasiyasının milli təhlükəsizlik sektorunun əsas məsələlərdən biri olduğu vurğulanır və qeyd edilir ki, Azərbaycan bundan sonra da öz milli kəşfiyyat və əks-kəşfiyyat qabiliyyətini artıracaq, dövlət sirrinə aid edilmiş məlumatların mühafizəsi ilə bağlı fəaliyyətini davam etdirəcəkdir.[503]

İnformasiya təhlükəsizliyi siyasəti "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunda da ümumi formada öz əksini tapmışdır. Qanunda Azərbaycan Respublikasının informasiya sahəsində əsas milli maraqları aşağıdakı sahələr üzrə təsnif olunur:

- məlumatların qanuni yolla əldə edilməsi, ötürülməsi, hazırlanması və yayılması kimi vətəndaşların konstitusiya hüquqlarının təmin edilməsi;
- informasiya ehtiyatlarının qorunması və inkişaf etdirilməsi;
- informasiya məkanının formalaşdırılması və onun qorunmasının təmin edilməsi;
- dünya rabitə və informasiya sisteminə daxil olma.[504]

Qanunun 15-ci maddəsində Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsas sahələri qismində iqtisadi, hərbi, sosial, informasiya, ekologiya, elm, mədəniyyət, mənəviyyat və digər sahələr qeyd olunur.[505]

[503] Yenə orada
[504] Bax: http://www.mns.gov.az/nslawcp1_az.htm
[505] Yenə orada

Azərbaycanın informasiya təhlükəsizliyi sahəsindəki əsas təhdidlər "Milli təhlükəsizlik haqqında" Qanunda aşağıdakı kimi təsnif olunur:

- informasiya texnologiyaları sahəsində geriləmə və dünya informasiya məkanına daxil olmağa maneələrin mövcudluğu;
- informasiya azadlığı əleyhinə yönəlmiş qəsdlər;
- dövlət sirlərinin aşkarlanmasına yönəlmiş qəsdlər;
- digər ölkələr tərəfindən Azərbaycana informasiya təcavüzü, beynəlxalq aləmdə ölkə həqiqətlərinin təhrif edilməsi;
- informasiya sisteminə və ehtiyatlarına qarşı qəsdlər və s. daxil edilmişdir.[506]

Göründüyü kimi, Milli Təhlükəsizlik Konsepsiyası və Milli Təhlükəsizlik haqqında Qanunda informasiya təhlükəsizliyi problemi əsas vəzifə kimi qoyulmur, yalnız ölkənin ümumi milli təhlükəsizliyi fonunda təsnif olunur. İnformasiya təhükəsizliyi ilə bağlı sadalanan təhdidlər də bir qədər ümumi xarakter daşıyır və ölkənin siyasi, iqtisadi, müdafiə, sosial-milli, elm, texnika, mənəvi-əxlaqi və digər sahələr üzrə konkret informasiya təhlükəsizliyi tələblərinə toxunmur. İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, Azərbaycanda da bu sahə üzrə ayrıca İnformasiya Təhlükəsizliyi Konsepsiyasının yaradılmasına ciddi ehtiyac vardır. Həmin Konsepsiyada milli informasiya fəaliyyəti və təhlükəsizliyi siyasətinin hüquqi əsasları müəyyənləşdirilməli, sistemli formada dövlətin informasiya mühitinin təhlükəsizliyinə təhdidlər öyrənilməli, qruplaşdırılmalı və sistemləşdirilməli, təhdidlərin doğura biləcəyi

[506] Bax: http://www.mns.gov.az/nslawcp1_az.htm

konkret nəticələr proqnozlaşdırılmalı və bu sahə üzrə dövlət qurumlarının praktiki fəaliyyətin effektivliyi ciddi şəkildə təmin edilməlidir. Ümumiyyətlə, mütəxəssislərin fikrinə görə, hər bir ölkədə informasiya təhlükəsizliyinə təhdidlərin vaxtında müəyyənləşdirilməsi və qarşısının alınması milli təhlükəsizliyinin bütövlükdə təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. İnformasiya təhlükəsizliyinə təhdidlərin vaxtında müəyyənləşdirilməməsi siyasi, iqtisadi, müdafiə və digər sahələrdə milli maraqlara ciddi zərbə vurulmasına, cəmiyyətin xaos və qarşıdurmalara sürüklənməsinə, idarəetmə sisteminin iflic olmasına və mənəvi-əxlaqi dəyərlərin aşınmasına gətirib çıxara bilər.

Azərbaycanın informasiya təhlükəsizliyi mühitinin mövcud vəziyyətinin təhlili göstərir ki, şəxsiyyət, dövlət və cəmiyyətin həyati əhəmiyyətli bütün maraqlarının daha yüksək və təkmil səviyyədə qorunması hazırda həm də ölkənin informasiya təhlükəsizliyi siyasətinin əsas məqsədi kimi çıxış etməli, onun dinamik inkişaf səviyyəsinin tələblərinə cavab verməli, milli informasiya resurslarının reyestri yenidən aparılmalı və təkmilləşdirilməli, informasiya təhlükəsizliyinin meyarları və metodları hərtərəfli işlənilməlidir. Mütəxəssislərin fikrinə görə, müasir dünyada hər bir ölkənin informasiya təhlükəsizliyinin təmin olunması ilk növbədə bu istiqamətdə yürüdülən dövlət siyasətinin prioritet istiqamətlərinin dəqiq müəyyənləşdirilməsindən, informasiya təhlükəsizliyi mühitinin dəqiq, obyektiv, elmi baxımdan düzgün qiymətləndirilməsindən və bu sahədə səmərəli fəaliyyətin təşkil olunmasından asılıdır. Bu baxımdan, hazırda Azərbaycanın informasiya təhlükəsizliyi mühitinə təsir edən əsas amillərin müəyyənləşdirilərək sistemləşdirilməsi və onların ayrıca olaraq İnformasiya Təhlükəsizliyi Konsepsiyasında öz əksini tapması vacibdir.

Milli İnformasiya təhlükəsizliyi Konsepsiyasında həm də beynəlxalq aləmdə, ölkə daxilində, ictimai-siyasi və sosial-iqtisadi həyatda baş verən proseslərin dövlətin informasiya təhlükəsizliyinə təsiri və bundan irəli gələn vəzifələr öz əksini tapmalıdır. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2011-ci ilin yekunlarına həsr olunmuş illik toplantısında dünya ölkələrinin müasir informasiya-kommunikasiya siyasətinin xarakterik xüsusiyyətlərini, planetimizdə günügündən genişlənən internet resurslarının, transmilli mətbuat-informasiya sistemlərinin beynəlxalq ictimai rəyin formalaşmasındakı mühüm rolunu, dünyada virtual informasiya əlaqələrin bütün milli sərhədləri aşması tendensiyasını və s. məsələləri nəzərə alaraq, müasir dövrdə hər bir ölkənin milli təhlükəsizliyinin əsas istiqamətlərindən biri kimi informasiya təhlükəsizliyinin rolunu xüsusi qeyd etmiş, bu sahədə Azərbaycanda görülməsi vacib olan işlər haqqında danışmışdır. O qeyd etmişdir ki, biz informasiya əsrində, internet və digər informasiya texnologiyalarının inkişafı dövründə yaşayırıq. Azərbaycanda siyasi plüralizm hökm sürür, azad mətbuat, internet və informasiya orqanları fəaliyyət göstərir, əhalinin 50 faizindən çoxu internetdən istifadə edir. İndi hər bir kəndə, hər bir yaşayış məntəqəsinə genişzolaqlı internet şəbəkəsinin çəkilməsi planlaşdırılır. Lakin, təəssüf ki, qlobal informasiya məkanında internetdən, informasiya vasitələrindən, transmilli mətbuatdan bəzən insanların informasiya ehtiyacını ödəməklə yanaşı, həm də xüsusi təxribat vasitəsi kimi istifadə edirlər, ayrı-ayrı xalqlara, dövlətlərə və insanlara qarşı böhtan kompaniyası aparırlar. Bu təxribatlar, məqsədyönlü kompaniyalar bəzi hallarda açıq, bəzi hallarda gizli aparılır. Əlbəttə, belə şəraitdə ölkələrin informasiya təhlükəsizliyi məsələləri çox aktuallaşır.[507]

[507] Bax**:** "Azərbaycan" qəzeti, 17 aprel 2012-ci il.

Azərbaycanın informasiya təhlükəsizliyi siyasətinə toxunan ölkə başçısı vurğulamışdır ki, hazırda bizə qarşı dünyada sistemli informasiya müharibəsi aparan qüvvələr mövcuddur. Elə ölkələr var ki, orada nəinki hər həftə, hər gün Azərbaycanla bağlı böhtan xarakterli yazılar dərc edirlər. Təbii ki, bu, əlaqələndirilmiş bir anti-Azərbaycan siyasətidir. Bu işdə ilk növbədə, erməni lobbisinin fəallığını qeyd etmək lazımdır, onlar mütəmadi olaraq Azərbaycanın milli-mədəni dəyərlərini, real inkişafını və həqiqətlərini inkar edərək, onu geridə qalmış, antidemokratik, antixristian ölkə kimi dünyaya təqdim etməyə çalışır.[508]

Ölkə başçısının fikirlərindən göründüyü kimi, informasiya təhlükəsizliyi Konsepsiyasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həyata keçiriləcək informasiya siyasətinin əsas istiqamətləri və bu sahədə qarşıda duran vəzifələr ayrıca əks etdirilməlidir. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, hazırda Azərbaycana qarşı həyata keçirilən informasiya müharibəsində Ermənistan xüsusi canfəşanlıq göstərir. Erməni diasporu müxtəlif ölkələrin informasiya vasitələrində Azərbaycanın dünyada gündən-günə artan nüfuzuna, siyasi, iqtisadi, mədəni sahələrdə əldə etdiyi uğurlarına kölgə salmağa çalışır. Bu məsələdə ermənipərəst xarici və daxili siyasi dairələr xüsusi aktivlik nümayiş etdirir. Ermənilərin və onlara himayədarlıq edən siyasi dairələrin əsas məqsədi nəyin bahasına olursa-olsun beynəlxalq ictimai rəydə Azərbaycanla bağlı mənfi fikir formalaşdırmaqdır.[509]

Müasir informasiya təhlükəsizliyi sahəsində ölkənin milli maraqlarından irəli gələn bir çox vəzifələrə toxunan Azərbay-

[508] Yenə orada
[509] Bax**:** "Azərbaycan" qəzeti, № 82, 17 aprel 2012-ci il.s.4.

can Prezidenti, bütün ölkə rəsmilərini və vətəndaşlarını, dünya azərbaycanlılarını erməni lobbisi ilə informasiya mübarizəsinə daim hazır olmağa səsləmişdir. Onun fikrinə görə, son illər bu sahədə vəziyyət xeyli dərəcədə bizim xeyrimizə dəyişmişdir. Azərbaycanın diaspor qurumları, qeyri-hökumət təşkilatları, xaricdəki səfirliklərimiz, ölkə ictimaiyyəti bu işə öz dəstəyini göstərir. Azərbaycanı dəstəkləyən insanların xarici mətbuat və informasiya vasitələrindəki çıxış imkanları və mövqeləri getdikcə güclənir. Ancaq hələ ki, erməni lobbisi Avropada və başqa dünya dövlətlərində, xüsusən, böyük ölkələrdə kifayət qədər güclü və təsirlidir. Onlar onilliklər, yüzilliklər boyu bu istiqamətdə məqsədyönlü fəaliyyət göstərmiş, ciddi şəkildə təşkilatlanmış, çox aqressiv və mənfi bir şəbəkə yaratmışlar. Azərbaycana qarşı əksər mənfi informasiyaların təkanverici qüvvəsi məhz erməni lobbisidir.[510]

Müstəqillik qazanandan sonra ermənilər xarici ölkələrdə mövcud olan diasporalarının imkanlarından istifadə edərək Azərbaycana qarşı informasiya mübarizəsi aparan böyük bir şəbəkə yaradıblar. Bu şəbəkənin əhatə və təsir dairəsi kifayət qədər genişdir. Bura müxtəlif ölkələrin aparıcı mətbu orqanlarında çalışan, bəzən öz mənşəyini gizlədərək başqa familiyalarla çıxış edən erməni əsilli jurnalistlər, diasporanın təsiri altında olan xarici mətbuat orqanları, informasiya vasitələri, teleradio kompaniyaları və s. daxildir. Onların Azərbaycan fəaliyyəti məqsədyönlüdür və koordinasiya edilir. Bundan başqa, Azərbaycan əleyhinə dünyada informasiya mübarizəsi aparan digər qüvvələr də mövcuddur ki, bunlar da əsasən erməni lobbisinin təsiri altında olan, onların pulu ilə maliyyələşən bəzi xarici ölkələrin qeyri-hökumət təşkilatları, tanın-

[510] Yenə orada

mış mədəniyyət və ictimai-siyasi xadimləri və s. qüvvələrdən ibarətdir. Onların çoxu açıq şəkildə, bir qismi isə gizli formada ermənilər dəstəkləyir, qondarma "Dağlıq Qarabağ Respublikası"nın yaşaması və tandılmasına səy göstərir, dünyada anti-Azərbaycan təbliğatı aparır. Dünyada anti-Azərbaycan təbliğatının qidalandığı üçüncü mənbə son illərdə bəzi ölkələrdə vüsət almış islamofobiya meyilləri hesab oluna bilər. Bu hal müasir dünyanın hazırda müşahidə olunan ən mənfi reallıqlarından biridir və Azərbaycan da bir islam ölkəsi kimi bu reallıqdan ciddi əziyyət çəkir. Dünyada islamofobiya meyilləri gücləndikcə müsəlman ölkələrinə münasibət də mənfi istiqamətə dəyişir. Hazırda ayrı-ayrı ölkələrdə islamofobiya xəstəliyinə yoluxmuş siyasətçilərin sayı günü-gündən artır və onlar müsəlman ölkələrinə qarşı ciddi bir qüvvəyə çevrilir. Həmin qüvvələr öz müsbət inkişaf tendensiyaları ilə seçilən, müasirliyi, müstəqil siyasəti və s. ilə fərqlənən Azərbaycan kimi müsəlman ölkələrinə qarşı təsirli kompaniya aparırlar. Azərbaycana qarşı informasiya müharibəsi aparan dördüncü qrupa isə sadəcə olaraq Azərbaycanın müstəqil siyasətini qəbul etməyən insanlar, təşkilatlar və ölkələr daxildir. Bu qrupun təmsilçiləri elə hesab edir ki, Azərbaycan kimi kiçik ölkələr müstəqil siyasət yürütməməli, kiminsə "qanadının altına" keçməlidir. Prezident İlham Əliyev bununla bağlı qeyd etmişdir ki, Azərbaycanın müstəqil siyasətini qəbul etməyən həmin qüvvələr çalışırlar ki, fərqli-fərqli imkanlardan, informasiya texnologiyalarından və s. istifadə edib ölkəmizə qarşı təxribat etsinlər, dünya ictimaiyyətinə müxtəlif yalan, böhtan xarakterli məlumatlar ötürsünlər. Əlbəttə, Azərbaycanın müstəqil siyasəti, hər bir beynəlxalq məsələ ilə bağlı ortaya qoyduğu qəti mövqe dünya birliyində bizim etimadımızı artırır. BMT Təhlükəsizlik Şurasına seçilməsi Azərbaycanın xarici siyasətinin böyük təntənəsi və zəfəridir.

Dünyanın 155 ölkəsinin dəstəyini qazanmaq, bizim müstəqil siyasətimizə, müstəqil dövlətimizə böyük inam və etimadın göstəricisidir. Azərbaycan öz müstəqil yolu ilə gedir.

Ölkə başçısı bildirmişdir ki, Azərbaycana qarşı informasiya təxribatları, əfsuslar olsun təkcə bu faktlarla məhdudlaşmır. Elə qüvvələr vardır ki, bölgədə vəziyyəti qarışdırmaq, Azərbaycanı öz qonşuları ilə üz-üzə qoymaq istəyirlər. Bu işdə də informasiya təxribatlarından istifadə edilir. Biz bütün qonşularla, - Ermənistan təbii ki, istisna olmaqla, - normal, yaxşı dostluq münasibətləri yaratmışıq. Azərbaycan heç vaxt başqa ölkələrin qarşıdurma planlarında iştirak etmir və etməyəcəkdir. Mən bunu hələ prezidentlik dövrümün əvvəlində də demişəm. Azərbaycan qarşıdurma arenasına çevrilməyəcəkdir. Biz heç vaxt imkan verə bilmərik ki, ərazimizdən qonşulara qarşı istifadə edilsin. Belə olan halda yenə gəlir informasiya təxribatı məsələləri. Mötəbər, dünya səviyyəli mətbu orqanlarında bu istiqamətdə çirkin yalanlar dərc edilir. Sonra bu yalanları təsir altında olan digər mətbu orqanlar yayır. Beləliklə, olmayan hadisələr, proseslər haqqında yalan rəy formalaşdırmağa çalışırlar.[511]

Mütəxəssislərin fikrinə görə, Ermənistanın hərbi Doktrinası, milli təhlükəsizlik Strategiyası və digər rəsmi sənədlərində milli təhlükəsizik, o cümlədən informasiya təhlükəsizliyi siyasəti ilə bağlı məsələlər Ermənistan və qondarma "Dağlıq Qarabağ Respublikası"nın maraqları kontekstində izah edilir. Bu sənədlərdə Dağlıq Qarabağ münaqişəsinin Ermənistanın milli maraqları çərçivəsində həll edilməsi Ermənistanın milli təhlükəsizliyinin əsas vəzifəsi kimi göstərilir. Buna görə də Azərbaycanın informasiya təhlükəsizliyi Konsepsiyasında

[511]Bax**:** "Azərbaycan" qəzeti, 17 aprel 2012-ci il.

Ermənistanın işğalçılıq siyasətinin mahiyyəti ilə bağlı beynəlxalq ictimai rəyin formalaşdırılması və ermənilərin saxta iddialarının ifşası, anti-Azərbaycan təbliğatının neytrallaşdırılması istiqamətində effektiv siyasətin məqsəd və vəzifələri düzgün müəyyənləşdirilməlidir.

Müasir dövrdə hər bir ölkədə olduğu kimi, Azərbaycanın da informasiya təhlükəsizliyində ölkənin hava-kosmik və peyk informasiya vasitələrinə kənar müdaxilələrin, yerli ictimai rəyi idarə etməyə yönələn pozucu təbliğat kompaniyalarının qarşısının alınması mühüm yer tutur. Mütəxəssislərin fikrinə görə, hazırda Azərbaycanın milli informasiya təhlükəsizliyi sisteminin yaradılması bu istiqamətdə qarşıda dayanan əsas vəzifələrdən biridir. Xüsusən virtual məkanda ölkənin tarixi, mədəniyyəti, iqtisadi və siyasi sistemi, mövcud vəziyyəti və milli təhlükəsizliyi sahəsindəki problemləri, ərazilərinin Ermənistan tərəfindən işğala məruz qalmasını, Dağlıq Qarabağ həqiqətlərini və s. dünya ictimaiyyətinə çatdıran çoxsaylı yerli və xarici məlumat mənbələrinin, veb-saytların və digər elektron informasiya vasitələrinin izlənilməsi, öyrənilməsi və idarə edilməsi günün ən aktual və həllini gözləyən məsələsi hesab edilir. Nəzərə alınsa ki, Ermənistan hökuməti özünün bütün daxili potensialını, o cümlədən dünya erməni diasporunun maddi və ideoloji resurslarını, intellektual vasitələrini məqsədəyönlü şəkildə anti-Azərbaycan təbliğatına yönəldib, o zaman qlobal və virtual informasiya məkanında ölkənin ideoloji və informasiya təhlükəsizliyi sahəsindəki mübarizəsinin əhəmiyyətini anlamaq çətin olmaz.

Azərbaycanın informasiya təhlükəsizliyi siyasətinin əsas vəzifələrindən biri həm özünün, həm də tərəfdaş region dövlətlərinin, transmilli informasiya vasitələrinin imkanlarından maksimum bəhrələnərək, beynəlxalq ictimaiyyətə çıxış kanal-

ları və təsir mexanizmləri yaratmaqdan ibarətdir. Mütəxəssislərin fikrinə görə, hazırda ABŞ və digər böyük dövlətlərin mövcud informasiya-kommunikasiya texnologiyaları onlara bütün dünya ərazilərinə geosiyasi, hərbi-strateji və informasiya nəzarəti etmək imkanı verir. Yaxud transmilli peyk, kompüter və informasiya texnologiyaları, mobil telefon şəbəkələri həm beynəlxalq ictimaiyyətin, həm də bilavasitə dövlətlərin əhalisinin lazımi istiqamətə yönəldilməsi və idarə edilməsinin həlledici amilinə çevrilmişdir. Əlbəttə, Azərbaycan tipli dövlətlər dünya informasiya məkanında lazım olan səviyyədə iştirak etmək imkanlarına malik deyildir. Lakin hər bir müstəqil dövlət kimi, Azərbaycanın da milli informasiya siyasətinin formalaşdırılması, ölkənin informasiya məkanının kənar qüvvələrin təsirindən və müdaxiləsindən maksimum qorunması, milli informasiya maraqlarının təmin edilməsi, dünyanın qlobal və virtual informasiya məkanına müxtəlif yollar tapılması, dünya ictimai rəyinə təsir imkanları yaradılması günün vacib vəzifələri sırasına daxildir. Azərbaycanın informasiya təhlükəsizliyinin təmin edilməsi, rəsmi dairələrin və mütəxəssislərin fikrinə görə, bütün ölkə səviyyəsində, vahid konsepsiya və fəaliyyət proqramı əsasında həyata keçirilməli, dövlətin daxili və xarici informasiya siyasəti, təbliğat və ideoloji işi sistemli formada və bir mərkəzdən idarə edilməlidir.

İnformasiya təhlükəsizliyinin təmin olunmasında hazırda dünyanın böyük dövlətləri kosmik-peyk informasiya və nəzarət mexanizmlərindən geniş istifadə edir, onların vasitəsi ilə dünya ölkələrinə, o cümlədən geosiyasi əhəmiyyət kəsb edən "açar" ərazilərə nəzarətin bütün metod və vasitələrini tətbiq etməyə çalışırlar. Əlbəttə, Azərbaycan o dövlətlərdən deyil ki, dünya ölkələrinin ərazilərinə və strateji hədəflərə kosmik nəzarət

həyata keçirsin, hərbi-strateji və peyk-informasiya nəzarətinin müasir texniki imkanlarına malik olsun. Lakin Azərbaycan hərbi-strateji tərəfdaşları vasitəsi ilə milli təhlükəsizliyinin təmin olunması üçün regional əhəmiyyətli lazımi informasiya texnologiyalarından öz məqsədləri üçün istifadə edə bilər.

Müasir dünya geosiyasətində informasiya və təbliğatın beynəlxalq ictimai rəyə təsir imkanlarından geniş danışılır. Hazırda bir ölkənin başqa dövlətin ərazisində mövcud informasiya sistemlərini nəzarət altına alması və yaxud idarə etməsi yalnız onun hərbi və milli təhlükəsizlik məsələlərinə təsirlə yekunlaşmır. Bu, həm də yerli ictimai rəyin kənar təsirlərə məruz qalmasına və idarə edilməsinə, ölkənin idarəçilik sisteminin pozulmasına və iflic olmasına səbəb ola bilər. Mütəxəssislərin fikrincə, xarici texnologiyanın mövcud gücü ilə hazırda ayrı-ayrı ölkələrin daxili idarəçilik sistemləri arasındakı rabitə əlaqələrini nəinki kəsmək və pozmaq, hətta bu sistemə girərək, dezinformasiya yaymaq yolu ilə onların fəaliyyətini yönəltmək və sarsıtmaq mümkündür. Dünyada bəzən ayrı-ayrı qurumlar müasir informasiya kommunikasiya texnologiyalarının imkanlarından istifadə edərək, beynəlxalq internet şəbəkələrində, bu və ya digər ölkələrin ərazilərində və "etibarlı mənbə" adı altında xüsusi dezinformasiya yayır, dövlət qurumlarını, vətəndaşları və bütövlükdə ictimaiyyəti çaşdıran məqsədli fəaliyyət həyata keçirirlər. Bu da həmin ölkələrin daxili sabitliyini, idarəetmə orqanlarının ahəngdar fəaliyyətini pozur ki, nəticədə milli təhlükəsizliyə xarici müdaxilə üçün əlverişli şərait yaranır. Məsələn, bu gün bəzi Qərb dairələrinin elektron kəşfiyyat və xüsusi əməliyyatlar yolu ilə bir çox Şimali Afrika və ərəb dövlətlərində həyata keçirdiyi, dövlətlərin öz vətəndaşları və cəmiyyətləri üzərindəki nəzarətini zəiflətməyə yönəlmiş müəy-

yən addımları 1992-1995-ci illərdə və digər dövrlərdə müxtəlif qüvvələr tərəfindən Azərbaycanda da həyata keçirilmişdir. Azərbaycanın o dövrkü informasiya və təbliğat vəziyyətinin təhlili göstərir ki, dövlətin informasiya təhlükəsizliyi, demək olar, tamamilə xarici amillərin təsiri altında idi. Milli teleradio və mətbuat vasitələrinin fəaliyyəti zəif olduğundan və bütün ölkə ərazisini əhatə edə bilmədiyindən, o zaman ictimai rəyin formalaşmasında və idarə edilməsində Rusiya, Türkiyə və İranın, habelə beynəlxalq transmilli KİV-lərin rolu açıq-aşkar üstünlük təşkil edirdi.

Beləliklə, göründüyü kimi, Azərbaycan Respublikasının milli təhlükəsizliyi bu gün də ümumölkə səviyyəsində hərtərəfli informasiya təhlükəsizliyinin təmin olunmasından əhəmiyyətli dərəcədə asılıdır. Odur ki, fikrimizcə ölkənin gələcək İnformasiya Təhlükəsizliyi Konsepsiyasında müasir qlobal dünyanın çağırışları, Azərbaycanın sabit, təhlükəsiz və dinamik inkişaf səviyyəsini əks etdirən effektli informasiya təhlükəsizliyi siyasəti və fəaliyyəti öz əksini tapacaq, dövlətin informasiya təhlükəsizliyi siyasətinin əsasları sistemləşdiriləcək, hakimiyyət orqanlarının mövcud sahədəki fəaliyyət istiqamətləri dəqiqləşəcək və qarşıda duran vəzifələr müəyyən olunacaqdır.

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyi sahəsindəki əsas vəzifələrin yerinə yetirilməsi, milli informasiya resurslarının qorunması və təhdidlərin qarşısının alınması, bu sahədə effektli tədbirlərin gücləndirilməsi məqsədi ilə son zamanlar dövlət səviyyəsində ciddi fəaliyyət başlanmışdır. Bu tədbirlər sırasında Azərbaycan Respublikası Prezidentinin Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin yaradılması haqqında 26 sentyabr 2012-ci il tarixli və "İnformasiya təhlükəsizliyi sahəsində fəa-

liyyətin təkmilləşdirilməsi tədbirləri haqqında 5 mart 2013-cü il tarixli Fərmanlarını qeyd etmək olar.[512]

"İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında Fərmanla ölkə başçısı Azərbaycanda informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması, bu sahədə təhdidlərin qarşısının alınması, təhlili və qabaqlanması üçün dövlət və qeyri-dövlət informasiya infrastrukturu subyektlərinin, onların istifadəçilərinin fəaliyyətinin əlaqələndirilməsi, kibertəhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi və idarə olunması, ümummilli hazırlığın və maarifləndirmənin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin bazasında *Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi* yaratmış və onun əsas fəaliyyət prinsiplərini təsdiq etmişdir. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında *Elektron Təhlükəsizlik Mərkəzinin* yaradılması haqqında Fərmanda isə kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını, mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanı, əhalinin, özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara metodiki kömək göstərilməsini təmin edən əlaqələndirici mərkəzin yaradılmasını təmin edilmişdir.

Adlarından da göründüyü kimi, həm Agentlik, həm də Mərkəz əlaqəli şəkildə:

- Azərbaycanda kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturunu subyektlərinin fəaliyyətinin koordinasiya edilməsini;

[512] Bax; http://president.az

- informasiya sistemlərinin və şəbəkələrinin, kompyuter avadanlıqlarının və onların proqram təminatının, lokal və korporativ informasiya sistemlərinin və ehtiyatlarının təhlükəsizliyinə qarşı yönəldilmiş kiberhücumların, qanunsuz müdaxilələrin, ziyanverici proqramların toplanması, təhlil edilməsi və zərərsizləşdirilməsini;
- mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanın həyata keçirilməsini, kibertəhlükəsizlik sahəsində istifadəçilərin maarifləndirilməsini;
- elektron təhlükələrin qarşısının alınması istiqamətində, o cümlədən istifadəçilərə qarşı istifadə oluna biləcək proqramlar, texniki vasitələr barədə təlimatların hazırlamasını, onlara tövsiyələrin verilməsini, metodiki dəstəyin göstərilməsini təmin edir;
- ümumi internet trafikində qlobal kiberhücumların qarşısını almaq məqsədi ilə milli internet operatoru ilə birlikdə qabaqlayıcı tədbirlərin həyata keçirilməsini;
- kibertəhlükəsizlik üzrə hazırlığı təmin etmək məqsədi ilə ölkədə fəaliyyət göstərən digər aidiyyati qurumlarla qarşılıqlı əlaqənin təmin edilməsini öz üzərinə götürür.[513]

Bundan başqa, 10 fevral 2014-cü ildə Respublika Prezidentinin sərəncamı ilə "Azərbaycanda 2014-2018-ci illərdə dövlət sirrinin qorunması sisteminin inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Sərəncamda informasiya sahəsində dövlət sirlərinin və informasiya resurslarının qorunmasının koordinasiyası Milli Təhlükəsizlik nazirliyinə həvalə edilmişdir.[514]

[513] Bax: http://www.cert.az/
[514] Bax: "Azərbaycan" qəzeti, 11 fevral 2014.

§ 5.9. Azərbaycanın ekoloji təhlükəsizlik siyasəti

Son yüzillikdə dünyada elmi-texniki tərəqqinin sürətli inkişafı insan fəaliyyətinin ətraf mühitə təsirinin artmasına və təbiətin həddən artıq istismarına səbəb olmuşdur. Müasir dövrdə Yer kürəsində iqlimin getdikcə istiləşməsi, səhralaşma prosesinin daha geniş əraziləri əhatə etməsi, bioloji müxtəlifliyin kəskin azalması, ətraf mühitin çirkləndirilməsi və s. dünyada qlobal ekoloji problemlərin yaranmasına, müxtəlif xəstəliklərin geniş yayılmasına səbəb olmuşdur. Vaxtında həllini tapa bilməyən və kiçik bir təbiət hadisəsi kimi izah olunan bəzi ekoloji problemlər indi artıq bəşəriyyət qarşısında qlobal, qarşısıalınmaz fəlakətlərlə başa çata biləcək prosesə çevrilmişdir.

Ekoloji təhlükəsizliyin təmin edilməsi *hər bir dövlət üçün öz ərazisində və onun ətrafında təhlükəli ekoloji vəziyyətlərin qarşısının alınması, onların mənfi nəticələrinin maksimum aradan qaldırılması üzrə milli tədbirlər sisteminin yaradılması və həyata keçirilməsini ehtiva edir*. Ekoloji təhlükəsizlik yalnız milli fəaliyyət deyil, qlobal geosiyasi məsələ olduğundan, onun əhatə dairəsi ayrıca götürülmüş bir ölkənin ərazisi, lokal strukturlar və yerli səviyyəli fəaliyyətlə məhdudlaşmır. Müasir dünya siyasətinin prinsiplərinə görə, bir ölkənin yaxud regionun iqtisadi-texniki inkişafı, digər dövlətlərin və bütövlükdə Yer kürəsinin ekoloji vəziyyətinin pisləşməsi hesabına təmin oluna bilməz. Belə hal bilavasitə beynəlxalq hüquq normalarına ziddir.

Azərbaycanın ekoloji vəziyyətinə gəldikdə, qeyd etməliyik ki, Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövrü (1918-1920-ci illər) istisna olmaqla, XX əsrin sonlarınadək bu ölkənin əraziləri və təbii qaynaqlarının istismarı,

xüsusən də neft sənayesi sahəsi əsasən xarici dövlətlərin və iş adamlarının əlində olmuşdur. 1920-ci illərin əvvəllərindən başlayaraq Azərbaycanın neft-qaz sənayesinin inkişafı SSRİ-nin ittifaq strukturlarının birbaşa rəhbərliyi ilə həyata keçirilmişdir. İttifaq miqyasında bu işə səthi yanaşılması ucbatından ölkə ərazisi, xüsusən, Bakı şəhəri və Abşeron yarımadası bir sıra ciddi ekoloji problemlərlə üz-üzə qalmışdır. Müasir dövrdə Azərbaycanın yaşadığı əsas ekoloji problemlərin çoxu da məhz keçmiş SSRİ-nin enerji ehtiyaclarına uyğun olaraq, uzun müddət Abşeron yarımadasında, Xəzər dənizi və sahil ərazilərdə heç bir ekoloji tələb və nəticələr nəzərə alınmadan həyata keçirilmiş neft-qaz hasilatının acı nəticələrinin aradan qaldırılması ilə bağlıdır. Bakı və Abşeronun neft hasilatı və yanacaq-enerji kompleksinin qurulması ətraf mühitin çirklənməsinin əsas mənbəyi kimi çıxış etmişdir. Bu sahədə ən mühüm ekoloji problem ənənəvi neft çıxarılan ərazilərdə ətraf mühitin neft və neft məhsulları ilə çirklənməsi məsələsi olmuşdur. On illərlə həm ölkənin təbii ehtiyatları, neft məhsulları, faydalı yataqları, çayları, gölləri, torpağı, meşə örtükləri, flora-faunası və s. SSRİ-nin ittifaq nazirlikləri tərəfindən ekoloji nəticələr nəzərə alınmadan, vəhşicəsinə istismar edilmişdir, həm də onun ekologiyasına aradan qaldırılması çox çətin olan zərbələr vurulmuşdur.

SSRİ-nin dağılmasından sonra digər postsovet ölkələri kimi, Azərbaycan da ekoloji təhlükəsizliyinin qeydinə qalmaq, məxsusi milli ərazilərdə ətraf mühitin sağlamlaşdırılması və mühafizəsi ilə bağlı ekoloji siyasət formalaşdırmaq və həyata keçirmək zərurəti ilə üzləşdi. İlk dövrdə məlum iqtisadi, siyasi və sosial böhranla əlaqədar ölkə rəhbərliyi ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində ciddi işlər görə bilməsə də, 1990-cı illərin sonundan başlayaraq, Azərbaycan özünün eko-

loji təhlükəsizlik siyasətini formalaşdırmağa başladı. Bu sahənin işi tezliklə ölkənin milli təhlükəsizliyinin əsas istiqamətlərindən biri kimi dəyərləndirilərək, dövlət siyasəti səviyyəsinə qaldırıldı və ekologiya sahəsində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə başlandı.

"Ekoloji təhlükəsizlik haqqında" Qanunda *Azərbaycanın ekoloji təhlükəsizlik siyasətinin əsas məqsədi* - insanın həyatını və sağlamlığını, cəmiyyəti, onun maddi və mənəvi dəyərlərini, ətraf mühiti, o cümlədən atmosfer havasını, kosmik fəza, su obyektləri, yerin təki, torpaq, təbii landşaft, bitki və heyvanlar aləmini təbii və antropogen amillərin təsiri nəticəsində yaranan təhlükələrdən qorumaq kimi xarakterizə edilmişdir.[515]

Bu qanunda və sonrakı dövrdə qəbul olunmuş ekoloji tədbirlər haqqında milli fəaliyyət proqramında Azərbaycan Respublikasının ekoloji təhlükəsizlik sahəsində *dövlət siyasətinin əsas istiqamətləri və vəzifələri* aşağıdakı kimi müəyyən edilmişdir:

- ölkənin inkişaf strategiyasının formalaşdırılmasında və həyata keçirilməsində ekoloji təhlükəsizliyin üstün qaydada təmin edilməsi;
- ekoloji təhlükəsizliyi ümumdünya, regional və yerli səviyyədə təmin etmək məqsədi ilə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi;
- biosferin və onun bütün komponentlərinin qorunub saxlanılması və ekoloji cəhətdən təhlükəsiz şəraitin yaradılması;
- ölkənin ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda dövlət və

[515] Bax:"Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu. http://e-qanun.az

yerli özünüidarəetmə orqanlarının uzlaşdırılan ekoloji fəaliyyətinin təmin edilməsi;

- təhlükəli və fövqəladə ekoloji vəziyyətlərin qarşısının alınması, bununla bağlı tədbirlər planının hazırlanması və ardıcıl həyata keçirilməsi;
- ətraf mühitə mənfi təsir edən təsərrüfat və digər fəaliyyət növlərinə nəzarət olunması və s.[516]

Ekoloji təhlükəsizliyin təmin olunması Azərbaycan dövlətinin və müvafiq strukturların qarşısında bir çox cari və strateji vəzifələrin həlli məsələsini qoymuşdur. Bunların sırasına aşağıdakılar daxildir:

- təbii ehtiyatlardan ekoloji cəhətdən təhlükəsiz istifadəyə və təsərrüfat subyektlərinin ekoloji təhlükəsizliyinin tələblərinə əməl edilməsinə nəzarət etmək;
- təhlükəli ekoloji vəziyyətlərin yaranması və genişlənməsinə səbəb olan halları və hadisələri aşkar etmək və proqnozlaşdırmaq;
- ekoloji təhlükəsizliklə bağlı informasiya təminatını təşkil etmək və həyata keçirmək;
- ekoloji təhlükəsizlik sahəsində əhalinin təlimatlandırılmasını təmin etmək;
- ekoloji təhlükəsizliklə bağlı qanunvericilikdə müəyyən edilmiş vəzifələri həyata keçirmək və s.[517]

Azərbaycanın müstəqillik illərində formalaşdırdığı ekoloji təhlükəsizlik siyasətinin əsas istiqamətlərini respublika ərazi-

[516] Bax: "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər Planı". http://e-qanun.az/print.php?internal

[517] Bax: "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər Planı". http://e-qanun.az/print.php?internal

sində ekoloji vəziyyətin sağlamlaşdırılması, su ehtiyatlarının çirklənməsinin və torpaqların aşınmasının qarşısının alınması, biomüxtəlifliyin qorunması, yaşıllıqların artırılması, atmosfer havasının mühafizəsi, neft və digər tullantılarla çirklənmiş torpaqların təmizlənməsi, sənaye və məişət tullantılarının idarə olunmasının təkmilləşdirilməsi və s. təşkil edir.

Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə olunması ekoloji təhlükəsizlik siyasətinin vacib istiqamətlərindən biri hesab olunur. Xüsusən, ətraf mühitin antropogen və təbii təsirlər nəticəsində yaranan təhlükələrdən qorunması ölkənin ekoloji təhlükəsizlik siyasəti ilə sıx şəkildə bağlıdır. Lakin bu sahədə uzun illərdən bəri yığılıb qalmış problemləri yalnız ölkənin daxili imkanları hesabına qısa müddətdə həll etmək çox çətindir. Buna görə də ətraf mühitin mühafizəsi işində Azərbaycan hökuməti beynəlxalq, regional, ikitərəfli və çoxtərəfli dövlətlərarası əməkdaşlığın imkanlarından, qoşulduğu beynəlxalq konvensiyalar çərçivəsində həyata keçirilən tədbirlərdən və digər vasitələrdən geniş istifadə edir. Ekoloji təhlükəsizliyin təmin olunması üçün beynəlxalq konvensiyalara qoşulmaqla, hər bir ölkə həm beynəlxalq tələblərə əməl etmək öhdəliyi götürür, həm də ekoloji siyasətini təmin etmək istiqamətində ciddi beynəlxalq dəstək qazanır. İndiyədək Azərbaycan Respublikası ekologiya sahəsində 20-dək beynəlxalq konvensiyaya qoşulmuş və ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq standartlara cavab verən milli qanunvericilik sistemi yaratmışdır.

Ətraf mühitin mühafizəsi sahəsində qarşıda duran əsas vəzifələrdən biri də Abşeron yarımadasının antropogen təsirlər nəticəsində çirklənmiş ərazilərinin təmizlənməsidir. Abşeronda belə ərazilərin ümumi sahəsi 33,3 min hektardır. Bunun da

10,6 min hektarı neft və neft məhsulları ilə çirklənməyə məruz qalmışdır. Bundan başqa, yarımadada 3325 hektar ərazini əhatə edən, tullantı və lay suları ilə çirklənmiş 200-ə qədər göl və gölməçə mövcuddur.

Ölkə əhalisinin 1/3-nin yaşadığı Bakı şəhəri və Abşeron yarımadasını illərlə toplanmış neft, istehsalat və məişət tullantılarından təmizləmək, ölkənin yanacaq-enerji və sənaye kompleksinin, məişət tullantılarının ətraf mühitə mənfi təsirini məhdudlaşdırmaq, şəhər təsərrüfatını və ətraf aləmin mühafizəsini Avropanın ekoloji normalarına yaxınlaşdırmaq vəzifəsi ölkənin ekologiya sahəsində həyata keçirdiyi ən önəmli layihələrdən biri olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Bakı və Abşeron yarımadasında "İllər, əsrlər boyu neftlə çirklənmiş gölməçələr, yerlər, ekoloji cəhətdən məqbul olmayan mənzərə vardır. Biz son illərdə bu istiqamətdə çox böyük işlər görmüşük. Çünki neft hasilatı Azərbaycanda artıq 200 ilə yaxındır ki, aparılır. Ancaq əfsuslar olsun ki, ekoloji vəziyyətə diqqət lazımi səviyyədə olmamışdır. Ona görə biz ekoloji vəziyyətlə bağlı məsələləri daim diqqət mərkəzində saxlayırıq".[518] Son illər bu sahədə mövcud problemlərin aradan qaldırılması üçün dövlət səviyyəsində çox ciddi və bahalı ekoloji təmizlik layihələri həyata keçirilir, neftçıxarmada, neft-qaz və digər sənaye sahələrində ekoloji baxımdan səmərəli və təhlükəsiz istehsal texnologiyaları tətbiq olunur, enerji sektoruna və şəhər təsərrüfatına yönəlmiş investisiya layihələrində ekoloji məsələlərin qoyuluşuna xüsusi diqqət yetirilir.

[518] Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında İlham Əliyevin nitqi (13 aprel 2014) http://president.az/articles/11475

Bütün ölkə ərazisində, xüsusən Bakı və digər sənaye şəhərlərində dövlət ekoloji ekspertiza sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülür. "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər Planı"na uyğun olaraq, Abşeron yarımadasında və ölkənin digər ərazilərində neftlə çirklənmiş sahələrin təmizlənməsi işlərinə 2007-ci ildən başlanılmış və bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilməkdədir. Belə ki, "Bibi Heybət" zonasında 190 hektar torpaq sahəsi bərpa edilmiş və həmin ərazidə yaşıllıqlar salınmışdır. Neftlə çirklənmiş ərazilərin bərpası istiqamətində Suraxanı və Balaxanı ərazilərində də müəyyən işlər görülmüşdür.

Bundan başqa, "Böyük Şor gölünün təmizlənməsi, abadlaşdırılması və şəhər əhalisi üçün istirahət zonası kimi istifadə edilməsinə dair Konsepsiya" və gölün abadlaşdırılması istiqamətində pilot layihə hazırlanmışdır. Abşeron yarımadasında yerləşən göllərin və digər sututarların ekoloji vəziyyətinin sağlamlaşdırılması layihəsi də tərtib edilmişdir. Bu sahədə görülən işlərin səmərəliliyini artırmaq məqsədi ilə son zamanlar ölkə ərazisində bir çox işlər planlaşdırılmış və həyata keçirilməkdədir. Onların sırasında təhlükəli tullantıların ətraf mühitə zərərli təsirinin qarşısının alınmasına dair qanunvericiliyə əlavə və dəyişikliyin edilməsini, Gəncə şəhərində təhlükəli tullantılar meydançasının inşasını və mövcud tullantı yerlərinin müvafiq tələblərə uyğun yenidən qurulmasını qeyd etmək olar.[519]

Azərbaycanda ekoloji təhlükəsizlik siyasətinin mühüm vəzifələrindən birini də SSRİ dövründən respublikanın sənaye müəssisələri ərazilərində yığılıb qalmış təhlükəli istehsal tul-

[519] Bax: "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər Planı". http://e-qanun.az/print.php?internal

lantılarının zərərsizləşdirilməsi təşkil edir. Bu tullantıların və istehsal qalıqlarının miqdarı və saxlanılma şəraiti ekoloji norma və standartlara cavab vermir, ətraf mühit və insan sağlamlığı üçün ciddi təhlükə mənbəyi hesab olunur. Yaranmış vəziyyətin aradan qaldırılması üçün əsasən Bakı və Sumqayıt şəhərlərindən müxtəlif tərkibli təhlükəli istehsalat tullantıları Təhlükəli Tullantıların İdarə Olunması üzrə Milli Mərkəzə daşınaraq basdırılır. O cümlədən, Sumqayıtda ətraf mühitin ciddi çirklənməsinə səbəb olan 287 min ton civə tərkibli toksiki tullantıların bir neçə il ərzində təhlükəli tullantılar poliqonuna daşınaraq zərərsizləşdirilməsi prosesi 2009-cu ildə başa çatdırılmışdır.

Azərbaycanın şirin su ehtiyatlarının qorunması və səmərəli istifadəsi ekoloji təhlükəsizlik siyasətinin mühüm istiqamətlərindən biridir. Məlum olduğu kimi, Azərbaycanın istifadə etdiyi Kür, Araz, Samur və s. çaylardakı şirin su ehtiyatlarının böyük həcmi (70%) qonşu ölkələrdə - respublika sərhədlərindən kənarda formalaşır. Azərbaycan Respublikası ərazisinin ¾ hissəsi Kür çayının hövzəsinə düşür. Bu çay ölkə əhalisi üçün əsas içməli su mənbəyidir. Qonşu dövlətlər tərəfindən təmizlənməmiş tullantı sularının Kür və Araz çaylarına axıdılması onun hidrokimyəvi rejiminə və suyun keyfiyyətinə mənfi təsir edir. Belə ki, məsələn, Kür çayının suyunda mis, sink, fenol və neft məhsullarının qatılığı bəzi hallarda normadan 10 dəfələrlə çox olur. Ermənistan və Gürcüstan dövlətlərinin ərazilərindəki su mənbələrinin mövcud kimyəvi, radioaktiv və digər zərərli maddələrlə intensiv çirklənməyə məruz qalması Kür və Araz çaylarının çirklənməsinə səbəb olur. Bu da Azərbaycan əhalisinin içməli su ilə təmin olunmasında ciddi və təhlükəli problemlər yaradır.[520]

[520] Bax:www.eko.gov.az

Eyni zamanda, Cənubi Qafqaz regionunun həm ətraf mühitinə, həm də içməli su ehtiyatlarına Ermənistan ərazisində seysmik zonada yerləşən və texnoloji baxımdan köhnəlmiş Metsamor Atom Elektrik Stansiyası ciddi təhlükə törədir. Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarında ətraf mühitin qəsdən çirkləndirilməsi, münbit torpaqların aşınması, təbii ehtiyatlardan səmərəsiz istifadə, sənaye və məişət tullantılarının emal olunmadan çaylara axıdılması, ekosistemin məhv edilməsi, ərazilərin flora-faunasının talan edilməsi və səhraya çevrilməsi, genişmiqyaslı yanğınların törədilməsi və s. də ətraf mühitə, bölgənin su ehtiyatlarına, Azərbaycana axan çayların su mənbələrinə ciddi problem yaradır.[521]

Azərbaycan Respublikasının şirin su ehtiyatlarına bir çox yerli təhdidlər də mövcuddur. Bunların sırasında ölkə daxilində su ehtiyatlarının tullantı suları ilə çirkləndirilməsini, içməli su ehtiyatlarının keyfiyyətinin pisləşməsi və anti-sanitariya hallarının mövcudluğunu, sel və daşqınların intensivliyinin və gücünün artması nəticəsində ölkənin içməli su təsərrüfatında yaranan problemləri, dağ buzlarının əriməsi və bununla əlaqədar bulaqların qurumasını, qrunt suların səviyyəsinin qalxmasını və s. aid etmək olar.[522]

Son zamanlar əhalinin ekoloji cəhətdən təmiz içməli su ilə təminatına dair Azərbaycan Prezidentinin sərəncam və göstərişləri çərçivəsində təmiz suya ehtiyacı olan yaşayış məntəqələri mərkəzləşmiş şəkildə təhlükəsiz içməli su ilə təmin edilmişdir. 12 rayonun 122-dən çox kəndində başa çatdırılmış işlər nəticəsində indiyədək 224 min nəfər əhali Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə təmin

[521] Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. http://e-qanun.az
[522] Bax: www.eko.gov.az

olunmuşdur. Bunun üçün 1300-ə qədər supaylayıcı məntəqə, 600 kilometrdən çox su xətti inşa edilmişdir.

Ekoloji təhlükəsizlik sahəsində Azərbaycanda ciddi narahatlıq doğuran məsələlərdən biri də ildən-ilə Xəzər dənizinin ekoloji vəziyyətinin pisləşməsidir. Xəzər dənizi dünyanın okeanla əlaqəsi olmayan ən böyük qapalı su hövzəsidir. Neft, qaz və digər təbii resursları ilə zəngin olan Xəzər, mütəxəssislərin fikrinə görə, özünün fiziki-coğrafi xarakteristikası və nadir bioresursları ilə dünyanın analoqu olmayan dənizlərindəndir.[523] Ətrafında beş ölkənin müxtəlif sənaye və emal müəssisələrinin fəaliyyət göstərdiyi, neçə illərdir ki həyata keçirilən neft-qaz sənayesi işlərinin aparıldığı və həddindən artıq çirkləndirilmiş çayların axıdıldığı Xəzər dənizi, həm də mütəmadi olaraq su səviyyəsinin qalxması, ətraf ərazilərin zaman-zaman su altında qalması nəticəsində ətraf yaşayış məntəqələrinin və ölkələrin ciddi ekoloji probleminə çevrilir.

Xəzər dənizinin unikal bioresursları, ilk növbədə dünyada yeganə məşhur nərə balığı və qara kürüsü ilə, strateji neft, qaz yataqları və s. sənaye potensialı arasında həmişə ziddiyyətli bir vəziyyət yaradır. Məsələ burasındadır ki, dənizə axıdılan şirin sulu çay mənbələrinin yaratdığı və Xəzərdə mövcud olan, təxminən 2900 min ton, 123 növ balıq ehtiyatının yaşaması üçün lazım olan hidrokimyəvi tərkib, sənaye tullantıları nəticəsində yaranan hidrokimyəvi maddələrlə pozulur ki, bu da dənizin bioresurslarının getdikcə azalmasına və məhvinə səbəb olur.[524] Rəsmi məlumatlara görə, son illərə qədər ətraf beş ölkənin dənizboyu yerləşdirilən balıq artırma və emal müəssisə-

[523] Bax: Жилцов С.С.,Зонн И.С.,Ушков А.М. Геополитика Каспийского Региона. Москва, 2004. с.185.
[524] Bax: Казанчеев Е.Н. Рыбы Каспийского моря. Определитель.- Москва, 1981. с.168.

ləri vasitəsi ilə ildə, təxminən 300 min ona yaxın 25 növ unikal balıq ehtiyatları və min tona qədər qara kürü istehsalı həyata keçirilirdi. 1989-cu ilə qədərki dövrdə ildə SSRİ üzrə 1365 ton, İran üzrə isə 282 tona yaxın qara kürü istehsal edirdi. Bundan başqa, Xəzər həm də, bütün Avrasiyanın və keçmiş SSRİ ərazilərinin, Aralıq dənizi ətrafı ölkələrin quşlarının qışladığı bir su hövzəsidir. Burada, təxminən ildə 10-12 mln. növ quş qışlayır. SSRİ zamanında ildə dənizə 50-60 mln. kürü buraxılırdı ki, bu da dənizdə nərə balığı ehtiyatlarının balanslı saxlanmasına və ovlanmasına şərait yaradırdı.[525]

Hazırda Xəzər dənizinin balıq və kürü ehtiyatları getdikcə tükənir. Bunun əsas səbəblərindən biri dənizin çirklənməsi və onun suyunun biokimyəvi tərkibinin dəyişməsidirsə, digər səbəbi, dənizə buraxılan balıq kürülərinin sayının əvvəlki illərlə müqayisədə dəfələrlə azalması, lakin eyni zamanda Xəzərdə balıq ovlanmasının (xüsusən brakonyerlik və qeyri-qanuni yollarla) bir neçə dəfə artmasıdır. Rusiyanın Federal Sərhəd Xidməti Agentliyinin hesablamalarına görə, təkcə Rusiyada Xəzərdən daşınan qeyri-qanuni kürünün illik dəyəri 125 mln. ABŞ dollarına bərabərdir. Xəzər dənizinə dəyən brakonyerlik zərərinin ümumi miqdarı isə 1,5 mlrd. dollar təşkil edir. Həmin məlumata görə, təkcə Moskvada ildə 37 min ton nərə balığı və kürüsü istifadə olunur.[526]

Mütəxəssislərin fikrincə, Xəzər dənizinin ekoloji vəziyyətinə mənfi təsir göstərən və onun çirklənmə mənbəyi hesab olunan dörd əsas amil mövcuddur. Bunlar: 1) Xəzər dənizində həyata keçirilən sənaye fəaliyyəti; 2) Sahil zonasında reallaş-

[525] Bax: Жилцов С.С.,Зонн И.С.,Ушков А.М. Göstərilən əsəri.. s.186-187.
[526] Bax: Сохранение биологического разнообразия в Росии. Проекты главного экологического фонда.
"Сохранение биоразнообразия", Москва, 1997, с. 170.

dırılan işlər və onların dənizə təsiri; 3) Suyun qalxması nəticəsində dənizkənarı sahələrin su altında qalması; 4) Xəzərə daxil olan suların və çayların həddən artıq çirklənməsindən ibarətdir.

Xəzər dənizində ekoloji vəziyyətin pisləşməsi dənizin bioehtiyatlarının məhvinə, dənizətrafı təbii və antropogen ekosistemin pozulmasına, ərazidə yaşayan əhalinin sağlamlığının və həyat tərzinin pisləşməsinə, dənizin hədsiz dərəcədə çirklənməsinə səbəb olur. Qeyd etmək lazımdır ki, hələ 1992-ci ildə - SSRİ dağılandan sonra Xəzər dənizinin çirklənməsinin qarşısını almaq və bioehtiyatlarını qorumaq məqsədi ilə Rusiya ərazisindən dənizə axan Volqa və Terek çaylarının hövzəsi həmin ölkənin müvafiq dövlət qurumları tərəfindən "ekoloji fəlakət zonası" elan edilmiş, ərazinin ekoloji cəhətdən təmizlənməsi proqramı tərtib olunmuşdur. Proqramda xüsusi qeyd olunurdu ki, həddən artıq çirkləndirilmiş Volqa çayı Xəzəri ən çox çirkləndirən fəlakət mənbəyidir.[527]

Xəzər dənizinin çirklənməsinə mənfi təsir göstərən əsas amillərdən biri də neft daşıyan tankerlər, bərə, barj və s. nəqliyyat vasitələridir. Mütəxəssislərin fikrincə, neft daşımalarında istifadə edilən tankerlərin geriyə hərəkəti zamanı başqa dənizlərdən öz boş çənlərinə doldurduqları suyu qayıdarkən Xəzərə boşaltmaları yad mikroorqanizmlərin dənizin suyuna daxil olmasına və onun bioehtiyatlarının məhvinə səbəb olur. Bundan başqa, dənizdə neft məhsullarının qalıqlarının suya buraxılması nəticəsində suyun xüsusi bioloji çirklənməsi də baş verir.

[527] Bax: Государственный доклад «О состоянии окружающей среды Российской Федерации в 1992 году». М., 1993

Azərbaycan Xəzərin ekologiyasının qorunması və yaxşılaşdırılması sahəsində hövzə ölkələri içərisində ən fəal siyasət yürüdən və real iş görən ölkə hesab olunur. Əslində, dənizin çirklənməsindən ən çox əziyyət çəkən də bu ölkənin əhalisi, xüsusən, sahildə yerləşən Bakı, Sumqayıt, Lənkəran və b. şəhər və rayonların, yaşayış məntəqələrinin sakinləridir. Ölkə prezidentinin "Xəzər dənizinin çirklənmədən qorunması üzrə bəzi tədbirlər haqqında" 2007-ci il 20 iyun və 2008-ci il 13 iyun tarixli sərəncamlarından və "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair" Milli Strategiya və Fəaliyyət Planından irəli gələn vəzifələrin həyata keçirilməsi nəticəsində, Abşeron yarımadasının Bilgəh, Buzovna, Mərdəkan, Pirşağı, Nardaran, Novxanı və Sumqayıt sahilboyu ərazilərində bataqlaşmış sahələrin və çirkab gölməçələrin əksəriyyəti qurudulmuş, ekoloji tarazlıq bərpa olunmuşdur. Bundan başqa, Abşeron yarımadasında modul tipli sutəmizləyici qurğulardan ibarət 16 stansiya qurularaq, "Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi sistemi" yaradılmışdır. Pirallahıdan Novxanıyadək 86 km məsafədə sahilboyu ərazilərdən gün ərzində təkcə bu stansiyaların gücü ilə 6 min kubmetrdən çox çirkab suyun təmizlənmədən dənizə axıdılmasının qarşısı alınmış, həmin ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində mühüm nailiyyətlər əldə olunmuşdur.[528]

Azərbaycan ekologiyasının sağlamlaşdırılması və bioloji müxtəlifliyin qorunub saxlanılması ölkənin ekoloji təhlükəsizliyinin mühüm məsələlərindən biridir. Hazırda antropogen amillərin təbii mühitə getdikcə artan mənfi təsiri nəticəsində ölkə ərazisində biomüxtəlifliyin azalması meyli müşahidə

[528] "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı". http://e-qanun.az/print.php?

olunur. Azərbaycan Respublikasında bioloji müxtəliflik və meşə ekosistemlərinə təhdidlər aşağıdakı kimi dəyərləndirilir:

- köçəri ekstensiv maldarlığın sürətli inkişafı;
- elektrik enerjisinin və təbii qazın fasilələrlə verilməsi nəticəsində meşələrdə ağacların kəsilməsi;
- ekosistemlərin tərkibi və coğrafi yayılmasının dəyişməsi, ziyanvericilərin artması;
- səhra, quraqlıq və yarımquraqlıq ekosistemlərində şəraitin pisləşməsi;
- eroziya proseslərinin, dağlıq ərazilərdə sel, sürüşmə və qar uçqunlarının baş verməsi;
- buzlaqların əriməsi, bulaqların və çayların quruması;
- meşə yanğınlarının artması və s.[529]

Yuxarıda sadalanan təhdidlərin qarşısının alınması üçün "Azərbaycan Respublikasında meşələrin bərpa olunması və artırılmasına dair Milli Proqram", "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı", «Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı" qəbul edilmiş, onların çərçivəsində mühüm ekoloji layihələr reallaşdırılmış və işlər görülmüşdür. Belə ki, 2002-ci ildə xüsusi mühafizə olunan təbiət zonaları ölkə ərazisinin 4,5%-ni təşkil edirdisə, hazırda bu rəqəm 10,1%-ə çatdırılmışdır. Azərbaycanın xüsusi mühafizə olunan təbiət əraziləri sisteminin müasir tələblərə uyğunlaşdırılması, bütün vacib ekosistemlərin və əsas növlərin qorunması, dəhlizlərin və mühafizə zonalarının yaradılması məqsədi

[529] "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı". http://e-qanun.az/print.php?

ilə son illər yeni 8 milli park, 4 dövlət təbiət qoruğu, 6 yasaqlıq və 3 təbiət abidəsi təşkil edilmişdir. Son 15 ildə meşə ilə örtülü sahələr 989 min hektardan 1 milyon 21 min hektara çatdırılmışdır. Bu da ölkəmizin örtülü ərazilərinin 11,4%-dən 11,8%-ə qədər, yəni 0,4% artması deməkdir.[530] Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2010-cu ilin "Ekologiya ili" elan edilməsi ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində mühüm hadisə oldu. "Ekologiya ili"ndə Azərbaycanda 8 milyon 200 min ağac və kol bitkisi əkilmişdir ki, bunun da 1 milyon 540 mini Bakıətrafı ərazilərin payına düşür.[531]

Son illərdə Azərbaycanda səhiyyə və sağlamlıq sahəsində ekoloji təhlükəsizliyin təmin olunması istiqamətində xüsusi siyasət yürüdülür. Bu siyasətin əsas məqsədi ölkə ərazisində əlverişsiz ekoloji amillərin təsirini azaltmaqla, əhalinin uzunömürlüyünü təmin etmək, ətraf mühitin ekoloji göstəricilərini yaxşılaşdırmaq, əhalinin sağlamlığında ekoloji riskləri aşağı salmaq, istifadə olunan suyun və havanın keyfiyyətini ekoloji standartlara uyğunlaşdırmaq, əhalini ekoloji baxımdan təhlükəsiz qida məhsulları ilə təmin etmək, genetik modifikasiya olunmuş qida məhsullarına nəzarəti artırmaq və sairdən ibarətdir.

Müasir dövrdə yaranmış ekoloji və sosial-iqtisadi vəziyyət nəzərə alınaraq, Azərbaycanın ekoloji siyasəti aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və onun mühafizəsinin tənzimlənməsi məqsədilə mütərəqqi üsulların tətbiq edilməsi;

[530] Bütün göstərilən faktlar Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi hesabatından götürülmüşdür.
[531] http://president.az/articles/738

- indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii ehtiyatlardan və tükənməyən alternativ enerji mənbələrindən istifadə olunması;
- qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi və onların həlli yollarının müəyyənləşdirilməsi və s.

Ekoloji təhlükəsizlik sahəsində vəziyyət və aparılan işlərin qısa təhlilindən aydın olur ki, Azərbaycanın davamlı iqtisadi inkişafı ölkənin ekoloji təhlükəsizliyinin təmin olunmasına, ətraf mühitin mühafizəsi və sağlamlaşdırılmasına, əhalinin sağlamlığının təmin edilməsinə, ardıcıl və səmərəli ekoloji təhlükəsizlik siyasətinin yürüdülməsinə və s. vacib həyati məsələlərin həllinə öz müsbət təsirini göstərmişdir. Hər bir ölkədə ekoloji təhlükəsizliyin təmin olunması yönündə atılan addımlar isə ümumdünya səviyyəsində qlobal ekoloji problemlərin həllinə və bütövlükdə bəşəriyyətin sağlam gələcəyinin təmin olunmasına layiqli töhfəsini verir.

Təkrar və məşğələ sualları:

1. Azərbaycanın milli təhlükəsizlik siyasətinin formalaşması və həyata keçirilməsi, əsas məqsəd və vəzifələri, ölçüləri və s. ilə bağlı əsas məqamları təhlil edin.

2. Azərbaycanın təhlükəsizlik siyasətinin əsas istiqamətləri hansılardır və bu istiqamətlər üzrə yürüdülən siyasətin əsas məqamlarını şərh edin.

3. Azərbaycanın hərbi və sərhəd təhlükəsizliyi siyasəti haqqında nə bilirsiniz və bu sahədə hökumətin fəaliyyətini neçə təsnif edərdiniz?

4. Azərbaycan hökumətinin milli enerji təminatı və təhlükəsizliyi, geoiqtisadi müstəqilliyi və təbii ehtiyatların təhlükəsiz istifadəsi siyasətini və onun praktiki nəticələrini şərh edin.

5. Azərbaycan hökumətinin ölkənin ictimai-siyasi, sosial-etnik və milli insan ehtiyatlarının təhlükəsiziliyi və idarə olunması, ərzaq təminatı və təhlükəsizliyi siyasəti haqqında nə bilirsiniz və bu sahədəki praktiki fəaliyyətin yekunlarını necə dəyərləndirirsiniz?

6. Azərbaycan hökumətinin informasiya və ekoloji təhlükəsizlik sahəsində yürütdüyü siyasəti və bu sahədə reallaşdırdığı fəaliyyəti təhlil edin.

İstifadə edilmiş mənbə, ədəbiyyat və informasiya resursları

Mənbələr

Azərbaycan dilində

1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (ARDTA) materialları: f.202, siy.1, iş 25; f. 202, siy. 1, iş 71; f. 970, siy. 1, iş 1; f. 277, siy. 2, bağ. 1, iş 9;
2. Azərbaycan Respublikasının Konstitusiyası. Rəsmi nəşr. Bakı, 2009
3. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Akademik Z. M. Bünyadovun redaktəsi ilə. Bakı, "Elm", 1990, 179 s.
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 46 cildlik tam külliyyat. Bakı, Azərnəşr, 1997-2010.
5. Əliyev I.H. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyənatları 2003-2014-cü illər. http://president.az/articles/11725
6. Müstəqil Azərbaycan: 20 il. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri. Bakı, 2011.
7. Yeni tərəqqi illəri: 2003-2011. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri. Bakı, 2011.

Türk dilində

1. Atatürk'ün Tanım, Telqraf ve Beyannameleri. IV. Ankara, 1964, 162 s.

Ədəbiyyat
Azərbaycan dilində

1. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, "Azərnəşr", 1992, 262 s.
2. Cəfərov N. Azərbaycanşünaslığın əsasları. Bakı, "Pedaqogika", 2005, 256 s.
3. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, "Azərnəşr", 1993, 299 s.
4. Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı, "Letterpress", 2013, 452 s.
5. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1998-2011). Bakı, "Letterpress", 2012, 912 s.
6. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, "Tuna", 1998, 137 s.
7. Əhmədov M. Azərbaycan*:* yeni neft erası və beynəlxalq siyasət. Bakı, "Elm", 1997, 124 s.
8. Əzimli A. Azərbaycan - NATO münasibətləri *(1992-2000).* Bakı, "Adiloğlu", 2001, 226 s.
9. Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı, "Azərnəşr", 1999, 200 s.
10. Fətəliyev M., Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi. II hissə. Bakı, "Adiloğlu", 2008, 338 s.
11. Həsənov C.P. SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı. Bakı, "Adiloğlu", 2005, 544 s.
12. Həsənov Ə. M. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda.Bakı, "İşıq", 1997, 82 s.

13. Həsənov Ə. M. Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru. Bakı, "Azərbaycan Universiteti", 1997, 107s.
14. Həsənov Ə. M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996-cı illər). Bakı, "Azərnəşr", 1998, 331s.
15. Həsənov Ə. M. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri. (1991-1996). Bakı, "Elm", 2000, 391s.
16. Həsənov Ə. M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan", 2005, 752 s.
17. Həsənov Ə. M., Vəliyev A. Azərbaycanın və xarici ölkələrin siyasi sistemləri. Dərs vəsaiti. Bakı, "Azərbaycan", 2007, 248 s.
18. Həsənov Ə. M. Geosiyasət. Dərslik. Bakı, "Aypara-3", 2010, 604 s.
19. Həsənov Ə. M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, "Letterpress", 2011, 440 s.
20. Həsənov Ə. M.. Niyazov X. Avrasiya zirvələri: Azərbaycandan baxış. İstanbul, "Marmara", 2012, 248 s.
21. Həsənov Ə. M., Vəliyev A. Dünya ölkələrinin müasir siyasi sistemləri. Bakı, "Zərdabi LTD", 2013, 776 s.
22. Həsənov Ə. M. Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifələri, prinsip və istiqamətləri (1991-1997-ci illər) //Tarix və onun problemləri. Bakı, 1998 № 2.s.49-69.
23. Həsənov Ə.M. H. Əliyev və Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin qurulması //Bakı Universitetinin xəbərləri, sosial-siyasi elmlər seriyası. Bakı, 1998, № 1.s.29-39..

24. Həsənov Ə.M. Azərbaycan beynəlxalq münasibətlər sistemində //Qafqaz Universiteti jurnalı, № 11, Bakı, 2003-cü il, s.47-61.
25. Həsənov Ə.M. Müasir Azərbaycanın daxili və xarici siyasəti // "Bioqrafi analiz" jurnalı. İstambul, fevral 2004.s.10-14.(türk dilində).
26. Həsənov Ə.M. Neft strategiyası və Azərbaycanın xarici siyasət fəaliyyəti //Əsrin müqaviləsi – 10. Azərbaycan böyük inkişaf yollarında. Bakı, 2004,s.11-16. .
27. Həsənov Ə.M. Dünya ölkələrinin enerji siyasəti və Azərbaycanın yeni neft strategiyası //Azərbaycanda milli siyasət və strateji inkişaf XXI əsrin astanasında. Bakı, 2005.s. 3-16.
28. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti (Regional təhlükəsizlik) //Heydər Əliyev irsi və Azərbaycanın davamlı inkişaf strategiyası. Bakı, 2006. s.59-76.
29. Həsənov Ə.M. Heydər Əliyev Azərbaycanın xarici siyasət strategiyasının yaradıcısıdır //Heydər Əliyev yolu: Azərbaycan inkişafın yeni mərhələsində. Bakı, 2007. s.351-377.
30. Həsənov Ə.M. Heydər Əliyevin dövlət quruculuğu təlimi //Heydər Əliyev və Azərbaycan. Bakı, 2008. s.391-401.
31. Həsənov Ə.M. Heydər Əliyevin xarici siyasətində nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsi //Heydər Əliyev ideyaları XXI əsrdə. Azərbaycanın inkişaf yolu. Bakı, 2009, s. 326-342.
32. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti: əsas məqsədi, vəzifələri və icra

mexanizmləri //Heydər Əliyev və inkişafın Azərbaycan modeli. Bakı, 2010. s. 32-48.
33. Həsənov Ə.M. Azərbaycanın müasir geosiyasi inkişafı: mövcud vəziyyət və perspektivlər //“Geostrategiya” aylıq ictimai-siyasi, elmi populyar jurnal №1, Bakı, mart 2011, s.10-20.
34. Həsənov Ə.M. Heydər Əliyevin geosiyasi təlimi: XXI əsrdə Azərbaycanın əsas geosiyasi vəzifələri və perspektivləri // “Geostrategiya” aylıq ictimai-siyasi, elmi populyar jurnal, №2, aprel 2011.s. 3-18.
35. Həsənov Ə.M. Azərbaycanın alternativ neft-qaz ixracı siyasəti və onun geosiyasi nəticələri // “Geostrategiya” aylıq ictimai-siyasi,elmi populyar jurnal, №3, may 2011.s.17-29.
36. Həsənov Ə.M. Xəzər hövzəsinin enerji resursları və onun bölgə ölkələrinin geosiyasi vəziyyətinə təsiri //“Geostrategiya” aylıq ictimai-siyasi, elmi populyar jurnal, №4, iyun 2011.s. 28-34.
37. Həsənov Ə.M. Xəzərin hüquqi statusu məsələsi və Azərbaycanın geoiqtisadi maraqları //“Fəlsəfə və sosial-siyasi elmlər” jurnalı, №1, 2011.s.s. 77-110.
38. Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinə konseptual yanaşma //“Geostrategiya” aylıq ictimai-siyasi, elmi populyar jurnal, №5, 2011.s. 3-7.
39. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın milli inkişaf siyasəti: xarakteristikası, əsas vəzifələri və tələbləri //“Azərbaycan” qəzeti, № 275,13 dekabr 2011. s.2-3.
40. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın müasir geosiyasi inkişafı // Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası. Bakı, 2011.s. 31-43.

41. Həsənov Ə.M. Xəzər hövzəsinin karbohidrogen resursları və Avropanın enerji təhlükəsizliyi //“Ekovitrin” aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 148, aprel 2012. s. 66-71.(türk dilində).
42. Həsənov Ə.M. Xəzər-Qara dəniz hövzəsi ölkələrinin enerji ixracı siyasəti və Azərbaycanın neft strategiyası // “Kobi Efor” aylıq sənaye və iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 151, aprel 2012. s. 62-65. (türk dilində).
43. Həsənov Ə.M. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik mühiti və Azərbaycanın hərbi-geostrateji problemləri //“Ekovitrin” aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 149, may 2012. s. 60-64 .(türk dilində).
44. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın 20 illik milli inkişaf strategiyası: xarakteristikası, əsas vəzifələri və tələbləri // Azərbaycan 2020: inkişafın yeni hədəfləri. Bakı, SBS, 2012. s.51-65.
45. Həsənov Ə.M. Iranın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə yanaşması və Azərbaycanın hərbi-geostrateji maraqları //“Geostrategiya” aylıq ictimai-siyasi, elmi populyar jurnal, №2 (8) mart-aprel 2012.s. 6-14.
46. Həsənov Ə.M. Türkiyə və Azərbaycanın Cənubi Qafqazdakı regional təhlükəsizlik maraqları //“Ekovitrin” aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 150, iyun 2012. s.192-195. .(türk dilində).
47. Həsənov Ə.M. Türkiyənin Cənubi Qafqazın regional təhlükəsizliyinə yanaşması və Azərbaycanın təhlükəsizlik maraqları //“Ekovitrin” aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 151, iyul 2012. s.132-135 .(türk dilində).

48. Həsənov Ə.M. Cənubi Qafqazın regional təhlükəsizliyinə Türkiyənin yeni yanaşması və bunun Azərbaycanın geostrateji mövqeyinə təsiri //"Ekovitrin" aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 152, avqust 2012. s.134-138 .(türk dilində).
49. Həsənov Ə.M. Cənubi Qafqazın regional təhlükəsizlik sistemi və Ermənistan: qonşu ölkələrə qarşı ərazi iddiasının bu dövlətə vəd etdiyi geosiyasi erspektivlər //"Geostrategiya" jurnalı, №3 (9) may-iyun 2012.s. 6-12.
50. Həsənov Ə.M. Transmilli dünya gücləri və bölgə dövlətlətinin Xəzər hövzəsindəki geoiqtisadi siyasəti, maraqları və fəaliyyətinin xarakteristikası //"Geostrategiya" aylıq ictimai-siyasi, elmi populyar jurnal, №4 (10) iyul-avqust 2012.s. 8-13.
51. Həsənov Ə.M. Kollektiv Təhlükəsizlik Müqaviləsi təşkilatı və Azərbaycanın hərbi-geostrateji maraqları //"Ekovitrin" aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 153/10, sentyabr 2012. c.88-95. .(türk dilində).
52. Həsənov Ə.M. Çoxqütblü dünya güclərinin və bölgə ölkələrinin Xəzər hövzəsindəki geoiqtisadi maraqları, siyasətləri və fəaliyyətlərinin xarakteristikası //"Ekovitrin" aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 155, noyabr 2012/11. s.26-31.(türk dilində).
53. Həsənov Ə.M. "EKO" Zirvəsinin ardından. EKO-nun fəaliyyəti və Azərbaycan //"Ekovitrin" aylıq iqtisadiyyat jurnalı, Türkiyə, İstanbul, № 156/12, dekabr 2012. s.42-47. .(türk dilində).
54. Həsənov Ə.M. Xəzər hövzəsi və Cənubi Qafqazın enerji resursları və Avropanın enerji təhlükəsizliyində iştirakı // Dövlət idarəçiliyi.nəzəriyyə və təcrübə jurnalı,N4(40), 2012, s.125-134.

55. Həsənov Ə.M. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizlik mühiti: hərbi qruplaşma reallıqları və proqnozları, geostrateji cüclərin təsnifatı// "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı. №1 (41), Bakı 2013. s. 94-99.
56. Həsənov Ə.M. Türkiyənin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional təhlükəsizliyinə yanaşması və Azərbaycanın geostrateji maraqları //"Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı. №3 (43), Bakı 2013. s. 129-137.
57. Həsənov Ə.M. Azərbaycanın enerji təminatı və təhlükəsizliyi siyasəti// "Geostrategiya" aylıq ictimai-siyasi, elmi populyar jurnal, №6 (18) noyabr-dekabr 2013.s. 3-11.
58. Həsənov Ə.M. Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin başlıca istiqamətləri//"Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı. №4 (44), Bakı 2013. s. 127-135.
59. Həsənov Ə.M. Azərbaycan Respublikasında informasiya fəaliyyəti və təhlükəsizliyi siyasəti// "Geostrategiya" aylıq ictimai-siyasi, elmi populyar jurnal, №1 (19) yanvar-fevral 2014.s. 3-15.
60. Həsənov Ə.M. Azərbaycan Respublikasının ekoloji təhlükəsizlik siyasəti// "Geostrategiya" aylıq ictimai-siyasi, elmi populyar jurnal, №2 (20) mart-aprel 2014.s. 3-10.
61. Həsənov Ə.M. Azərbaycanın müasir geosiyasi inkişaf xarakteristikası və perspektivləri //"Geostrategiya" aylıq ictimai-siyasi, elmi populyar jurnal №4(22), Bakı, iyul-avqust 2014, s.3-16.
62. Həsənov Ə.M. Azərbaycanın milli dövlət quruculuğu və geosiyasi inkişaf xrakteristikası: keçilmiş yol, mövcud imkanlar və perspektivlər//"Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı. №3 (47), Bakı 2014. s. 79- 97.

63. Həşimov D. Siyasi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi kimi (Azərbaycan Respublikasının materialları əsasında). Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2010, 21 s.
64. Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində (1991-1997-ci illər). Bakı, 1998, 138 s.
65. Xəlilov S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi // Heydər Əliyev və Azərbaycan. Bakı, 2008.Xəlilov Səlahəddin. Lider. Dövlət. Cəmiyyət. Bakı, "Azərbaycan Universiteti", 2001, 358 s.
66. İsmayılov F. Qarabağ konflikti ABŞ-ın *qlobal* siyasəti kontekstində. Bakı, Azərbaycan Milli Ensiklopediyası NPB, 2001, 150 s.
67. Qasımov M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914 – 1918-ci illər). 3 hissədə. III hissə (sənədlər, materiallir, xəritələr, şəkillər). Bakı, "Adiloglu", 2004, 532 s.
68. Qasımlı M. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il-dekabr 1922-ci il). Bakı, "Mütərcim", 1998, 7,5 ç.v.
69. Qəndilov S. Dövlətçilik təfəkkürü, idarəçilik məharəti. Dərs vəsaiti. Bakı, "Azərbaycan", 2009, 432 s.
70. Qəndilov S. Müstəqillik illərinin düşüncələri. Bakı, "Naksiana", 2006, 501 s.
71. Mahmudov Y. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər). Bakı, "Təhsil", 2006, 416 s.
72. Mahmudov Y.M., Şükürov K.K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi (dövlətlərarası müqavi-

lələr və digər xarici siyasət aktları). 4 cilddə. I cild. Bakı, 2009, 512 s.
73. Mehdiyev R.Ə. XXI əsrdə milli dövlətçilik. Bakı, "XXI əsr – YNE", 2003, 248 s.
74. Mehdiyev R.Ə. Azərbaycan 2003-2008: zaman haqqında düşünərkən. Bakı, "Şərq-Qərb", 2009, 240 s.
75. Mehdiyev R.Ə. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, Azərbaycan Milli Ensiklopediyası NPB, 2001, 273 s.
76. Mehdiyev R.Ə. Azərbaycanın inkişaf dialektikası. Bakı, 2000, 286 s.
77. Mehdiyev R.Ə. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. Bakı, 2000, 204 s.
78. Mehdiyev R.Ə. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı, "Şərq-Qərb", 2008, 215 s.
79. Mehdiyev R.Ə. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: məqalələr, çıxışlar, müsahibələr. 2 cilddə. I cild. Bakı, "XXI əsr – YNE", 2006, 624 s.
80. Mehdiyev R.Ə. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: məqalələr, çıxışlar, müsahibələr. 2 cilddə. II cild. Bakı, "XXI əsr -YNE", 2006, 672 s.
81. Mehdiyev R. Yeni siyasət: inkişafa doğru. 2 cilddə. I cild. Bakı, "Oskar" NPM, 2008, 581 s.
82. Mehdiyev R.Ə. Yeni siyasət: inkişafa doğru. 2 cilddə. II cild. Bakı, "Oskar" NPM , 2008, 343 s.
83. Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, "XXI əsr – YNE", 2005, 463 s.
84. Mehdiyev R.Ə. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı, "Şərq-Qərb", 2008, 791 s.
85. Mehdiyev R.Ə. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı, "Polygraphic Production", 2006, 583 s.

86. Məmmədov H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Dərslik. Bakı, "Çinar- Çap", 2010, 564 s.
87. Nəsirov E. Azərbaycan-ABŞ münasibıtləri (1991-1999-ci illər) Bakı, Qanun, 1998, 136 s.
88. Nəsirov E. Azərbaycan nefi və beynəlxalq müqavilələr (1991-1999-cu illər) Bakı, "Respublika Xatirə Kitab Evi", 1999, 104 s.
89. Nəsirov E. ABŞ və dünya 11 sentyabrdan sonra. Bakı, Qanun, 2003, 262 s.
90. Nəsirov E. ABŞ-ın antiterror doktrinası və onun tətbiqi mexanizmləri. Bakı, "Elm və təhsil", 2008, 312 s.
91. Nəsibov E. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası. Bakı, "Çıraq", 2006, 312 s.
92. Papava V. "Qafqaz tandemi"nin yaradılması və inkişafı // "Azerbaijan Focus" jurnalı, 2009-cu il, №1.
93. Paşayev H. M. Bir səfirin manifesti. Bakı, "Şərq-Qərb", 2007, 248 s.Petersen A. Azərbaycanın Avroatlantik baxışları // "Azerbaijan Focus" jurnalı, 2010-cu il, №2.
94. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı, "Bakı Universiteti", 2005, 545 s.
95. Raar A., Riider S. Azərbaycanın Qara dəniz – Xəzər hövzəsi regionunda geosiyasi rolu// "Azerbaijan Focus" junalı, 2009-cu il, №1.
96. Rayner Fraytaq-Virminqhaus. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti//"Azerbaijan Focus" jurnalı, 2009-cu il, №1.
97. Vəliyeva S. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi. Məsələnin qoyuluşuna dair. Bakı, "Azərbaycan Universiteti", 2002, 140 s.

98. Vəliyeva S.M. Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası. Bakı, "Azərbaycan", 2003, 128 s.
99. Virminqhaus R.F. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti// "Azerbaijan Focus" jurnalı, 2009-cu il, №1

Türk dilində

1. Ahmedov E.İ. Azerbaycan'ın NATO ile İşbirliğinin Gelişmesinde Haydar Aliyev'in Rölu. // Sosyal Bilimler Araştirma Dergisi. Yil:IX, Sayi:22, Eylül-2013, Diyarbakr, s.111-121.
2. Ahmedov E.İ. Avrupa-Atlantik kurumlara entegrasyon çerçivesinde Azerbaycan Cümhuriyyeti ve Avrupa Birliğ ilişkileri. // Siyaset, ekonomi ve toplum üzerine. 3.Uluslararası Mavi Karadeniz Kongresi: Uyuşmazlık çozümü, işbirligi ve demokratikleşme. 15-17 Ekim 2012. Sakarya Universitesi/ Adapazarı, s.223-231.
3. Bülent Gökay. Bolşevizm ile emperyalizm arasında Türkiye (1918-1923). İstanbul, "Agora Kitaplığı", 2006, 295 s.
4. Cemilli Elnur. ABD'nin Güney Kafkasya Politikası. İstanbul, „Kültür Sanat Yayıncılık", 2007, 192 s.
5. Dedeoğlu Beril. Uluslararası Guvenlik ve strateji. İstanbul, "Derin", 2003, 289 s.
6. Demir Ali Faik. Türk dış politikası perspektifinden Güney Kafkasya. İstanbul, "Baglam", 2003, 358 s.
7. Hasanov A. M., Ülkü İ.Süleyman Demirel. İstanbul, 1999, 254 s.
8. Hasanov A. M. Jeopolitik. İstanbul, "Babiali Kültür Yayıncılığı", 2012, 460 s.

9. Hasanov A. M. Azerbaycan Cumhuriyyetinin Ulusal Kalkınma ve Güvenlik Politikası. Ankara, "Ötüken Neşriyat A.S", 2013, 432 s.
10. Gürsoy Barıs. Soğuk savaştan günümüze asimetrik tehdit. İstanbul, "Kültür Sanat Yayıncılık", 2005, 208 s.
11. Karabayram Fırat. Rusya Federasyonu'nun Güney Kafkasya Politikası. Ankara, "Atılım Üniversitesi", 2007, 357 s.
12. Kasım Kamer. Uluslararası güvenlik sorunları. Ankara, "ASAM", 2004, 307 s.
13. Levent Şen. Turkiye ve Guney Kafkasya gerçegi: Soğuk Savaş sonrası Türkiye'nin Güney Kafkasya politikası. Ankara, "Ürün Yayınları", 2009, 205 s.
14. Mehmet Gönlübol, Cem Sar. Atatürk ve Türkiyenin dış politikası (1919-1938). Ankara, Atatürk Araştırma Merkezi, 1997, 152 s.
15. Ömer Göksel İşyar. Bölgesel ve global güvenlik çıkarları bağlamında Sovyet-Rus dış politikaları ve Karabag sorunu. İstanbul, "Alfa Yayınları", 2004, 697 s..
16. Öymen Onur. Ulusal çıkarlar: küreselleşme çağında ulus-devleti korumak. Istanbul, "Remzi Kitabevi", 2005, 484 s.
17. Salahi R. Sonyel. Türk kurtuluş savaşı ve dış politika. I. Mondros bırakışmasından Böyük Millet Meclisi' nin açılışına kadar, Ankara, "TTK Yayınları", 1995, 255 s.
18. Suat İlhan. Türklerin Jeopolitiği ve Avrasiyaçılık. Ankara, "Bilgi Yayınevi", 2005; 221 s.
19. Mert Bilgin. Avrasiya Enerji savaşları. İstanbul, "İQ Kültür Sanat Yayıncılık", 2005, 384 s.
20. Kaynak M. Büyük Ortadoğu projesi ve Türkiye üzerine stratejik analizler. İstanbul, "Truva Yayınları", 2008, 224 s.
21. Arslan Bulut. Küresel Haçlı Seferi. Ankara, "Bilgi Yayınevi", 2005, 240 s.

22. Ahmet Davutoğlu. Stratejik Derinlik. Türkiye,nin uluslararası konumu. Ankara, "Kürə Yayınları", 2009, 584 s.
23. Ahmet Davutoğlu. Bügünden yarına Türk dünyasında Stratejik bakış. İstanbul, 2008;
24. Celalettin Yavuz. Avrasyada Türk jeopolitiği. Ankara, "Berikan Yayınları", 2009, 656 s.
25. Yılmaz Hasan, Kaşıkçı Nihat. Tarihin Sıkıştığı Coğrafya: Kuzey ve Güney Kafkaslar. Ankara, "Elips Kitap", 2006, 217 s.

Rus dilində

1. Аббасов А.Ф. Роль внутреннего производства в обеспечении продовольственной безопасности Азербайджанской Республики. //Проблемы современной экономики, 2005, № 3-4.
2. Арбатов А. Г. Национальная идея и национальная безопасность //Внешняя политика и безопасность современной России. Хрестоматия. Том 1, кн.1, Москва, «Международные отношения»,1999, с. 235-245.
3. Артемова А.Н. Формирование системы обеспечения экономической безопасности на корпоративном уровне //Микроэкономика, 2010, №1.Архитектура евроатлантической безопасности. Под ред. И.Ю.Юргенса, А.А.Дынкина, В.Г.Барановского. Москва, «Эко-Информ», 2009, 124 с.
4. Ахмедов Э.И. Важный этап динамичного развития Азербайджана в современных геополитических условиях (2003-2013 годы) // "Кавказ и Мир" Международный научный журнал, Грузия,Тбилиси, 2014, №18, стр.61-67.

5. Ахмедов Э.И. Сотрудничество Азербайджана с Европейским Союзом в контексте в интеграции Евроатлантические структуры. // “Право и политология” Международный научный журнал, Кишинэу, Молдова, №19, март, 2012, стр.56-60.
6. Бабаева З. Г. Внутренняя безопасность в системе национальной безопасности Азербайджана в современных условиях //Политика и общество, 2009, № 1.
7. Багирли В.Д. К вопросу о полномочиях президентов Азербайджанской Республики и США в сфере обеспечения национальной безопасности //Юридические науки, 2009, № 3.
8. Багиров Э. М. Приоритеты внешней политики Ирана и проблемы региональной безопасности на Южном Кавказе на рубеже XX-XXI вв. АКД, Москва, 2006, 21 с.
9. Баранец В.Н. Генштаб без тайн. В 2-х тт., Москва, «Вагриус», 1999, 463 с.Бармен Скотт. Разработка правил информационной безопасности. Москва, «Вильямс», 2002, 208 с.
10. Барсегов Ю.Г. Каспий: вопросы международного права // Европа и Россия: проблемы южного направления. Сб. статей, Отв. ред. Шаболин И.А., Москва, «Интердиалект», 1999, с. 323-343.
11. Белов Е.Б., Лось В.П. и др. Основы информационной безопасности. Учебное пособие для вузов. Москва, «Горячая линия – Телеком», 2006, 544 с.
12. Бжезинский З. Выбор: мировое господство или глобальное лидерство. Москва, «Международные отношения», 2005, 288 с.
13. Бжезинский З. Великая шахматная доска. Господство Америки и ее геостратегические императивы. Москва, «Международные отношения», 1998, с.256.

14. Богомолов В.А., Барикаев Е.Н. и др. Экономическая безопасность. Москва, «ЮНИТИ-ДАНА», 2009, 228 с.
15. Боровский Ю.В. Энергетическая безопасность Российской Федерации в рамках СНГ //Аналитические записки НКСМИ, 2005, № 4.
16. Бурков В.Н., Щепкин А.В. Экологическая безопасность. Москва, ИПУ РАН, 2003, 92 с.
17. Быков О.Н. Международная безопасность: прошлое, настоящее, будущее. Москва, ИМЭМО РАН, 2006, 219 с.
18. Быстрова А.К. Проблемы транспортной инфраструктуры и экологии в Каспийском регионе (добыча и экспортные перевозки углеводородов). Москва, ИМЭМО РАН, 2009, 96 с.
19. Валлерстайн И. Анализ мировых систем. Москва, «Университетская книга», 2006, 186 с.
20. Велиев Е. Каспий остается проблематичным // газ. «Зеркало», 26 января 2010 г.
21. Вершинина Д.Б. «Конфликт цивилизаций» в региональном преломлении: Кавказ и Балканы // Полис, 2007, № 4.
22. Вишняков В. Россия-Иран и региональная стабильность// Международная жизнь, 1998 № 11-12.
23. Вишняков В. Внешние связи стран Прикаспия в условиях глобального кризиса и интересы России. Москва, ИМЭМО РАН, 2010, 131 с.
24. Гаджиев К.С. Геополитика Кавказа. Москва, Международные отношения, 2001, 464 с.
25. Гаджиев К.С. Кавказский узел в геополитических приоритетах России. Москва, «Логос», 2010, 532 с.
26. Гасанов А.М. Современные международные отношения и внешняя политика Азербайджана. Баку, «Шарг-Гарб», 2007, 904 с.

27. Гасанов А.М. Геополитика. Баку, «Zardabi LTD», 2012, 688 с.
28. Гасанов А.М. Современные международные отношения и внешняя политика Азербайджана. 2-ое изд. Баку, «Zardabi LTD», 2013, 1008 с.
29. Гасанов А.М. Политика национального развития и безопасности Азербайджанской республики. Баку, «Zardabi LTD», 2014, 672 с.
30. Гасанов А.М., Аббасбейли А. Азербайджан в системе международных и регионалъных отношений. Баку, «Азернешр», 1999, 255с.
31. Гасанов А.М. Внешняя политика Азербайджана и новые принципы организации мира после 11-го сентября //Цивилизация и террор. Баку, 2002.
32. Гасанов А.М. Великий Шелковый путь. История и современность. Вместо предисловия //Великий Шелковый путь и Азербайджан: вчера, сегодня, завтра. Сб. статей. Баку,1998. s.3-7.
33. Гасанов А.М. Ситуация региональной безопасности в Каспийско- Черноморском бассейне и на Южном Кавказе: реалии и прогнозы об объединении в блоки, классификация геостратегических сил // Право и политология. Международный научный журнал, №20, Кишинэу, Молдова, август-2012, с.30-35.
34. Гасанов А.М. Энергетические ресурсы Каспийского бассейна и Южного Кавказа и участие в енергетической безопасности Европы // Кавказ и Мир. Международный научный журнал, Грузия, Тбилиси, №14, 2012, с.18-28.
35. Гасанов А.М. Организация Экономического Сотрудничества (ОЭС): Создание и деятельность. ОЭС и Азербайджан // “Geostrategiya”. Ежемесячный научно-

популярный, общественно-политичесий журнал, Азербайджан, Баку, №5 (11), 2012, с.3-8.
36. Гасанов А.М. Отношения России с США, НАТО и Европейским Союзом, ее влияние на геополитическую позицию, региональную безопасность Южного Кавказа и Азербайджана // “Geostrategiya” Ежемесячный научно-популярный, общественно-политичесий журнал, Азербайджан, Баку, №1 (13), 2013.с. 5-13.
37. Гасанов А.М. Подход Ирана к Каспийско-Черноморскому бассейну и безопасности Южного Кавказа, геостратегические интересы Азербайджана в области безопасности // “Geostrategiya” “Geostrategiya” Ежемесячный научно-популярный, общественно-политический журнал, Азербайджан, Баку, №3 (15), 2013.с. 6-14.
38. Гегелашвили Н. А. Каспийский регион в контексте Российско-Американских отношений // США - Канада. Экономика, политика, культура, 2009, №12.
39. Гегелашвили Н.А. Политика Вашингтона в государствах Южного Кавказа и Центральной Азии // США – Канада: экономика, политика, культура, 2007, № 5. Геополитика. Антология. Москва, «АП Культура», 2006, 1008 с.
40. Гиззатов В. Правовой статус Каспийского моря: проблемы и перспективы сотрудничества прикаспийских государств //Политика,1995, № 3.
41. Гобл П. Соединенные Штаты и ГУАМ: от тактического взаимодействия к партнерству // Центральная Азия и Кавказ, 2008, № 3-4.
42. Государственный доклад «О состоянии окружающей среды Российской Федерации в 1992 году, Зеленый мир, 1993, № 19-26.

43. Гусев Л.Ю. Россия - Азербайджан: энергетический диалог. Новое развитие ситуации после конфликта в Южной Осетии. Информационно-Аналитический Центр МГУ-РГГУ, 12.02.2009 г. Электронный ресурс: http://www.ia-centr.ru/expert/3838/?print.
44. Гушер А. Кавказское прозрение // Азия и Африка сегодня, 2009, № 2.Гушер А. Стратегия США в Каспийском регионе// Азия и Африка сегодня, 2003, № 5.
45. Гушер А. Азербайджан. Стратегические приоритеты: расчеты и реальность // Азия и Африка сегодня, 2000, №10.
46. Гушер А. Стратегия национальной безопасности России на юге// Азия и Африка сегодня, 1997, № 1.
47. Гушер А. Южный Кавказ, Америка, НАТО // Азия и Африка сегодня, 2005, № 10.
48. Гюль У. Политика Турции в отношении Закавказья и тюркоязычных республик Центральной Азии // Дипломатическая служба, 2006, № 5.
49. Давутоглу А. Внешняя политика Турции и Россия// Россия в глобальной политике, 2010, № 1.
50. Дарабади П. Глобализация и геополитические процессы в Центральной Евразии // Центральная Азия и Кавказ, 2006, № 3.
51. Дегоев В. Кавказ между бывшим Востоком и нынешним Западом /Дружба народов, 2008, № 6.
52. Добаев И. Глобальная конкуренция на Кавказе //Ориентир, 2008, №7.
53. Добаев И. Прикаспийский регион: перспективы развития // Ориентир, 2007, № 1.
54. Добаев И. Кавказский макрорегион в фокусе геополитических интересов мировых держав: история и совре-

менность // Южный научный центр РАН, Ростов на Дону, 2007, 207 с.
55. Дугин А. Геополитика постмодерна. СПб., «Амфора», 2007, 789 с.Дугин А.Основы геополитики. Геополитическое будущее России. Москва, «АРКТОГЕЯ – Центр», 2000, 804.с.
56. Дюрре М. Э. Проблемы турецко-российских отношений в новой системе международной безопасности //Азия и Африка сегодня, 2007, № 4.
57. Жизнин С. В поисках интересов (Геополитические и экономические аспекты каспийских нефти и газа) // «Независимая газета», 12 января 2010 г.
58. Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона. Москва, «Международные отношения», 2003, 280 с.
59. Жильцов С. Трубопроводы Каспийского региона: Состояние и перспективы // Каспий- территория развития. Материалы международной конференции «Каспий-территория развития». Астрахань, 15 марта 2011 г. http://casfactor.com/files/file/05_2011_15_24_32_130614 9872.pdf.
60. Жоламанова Г. «Современные геополитические интересы «ключевых» игроков в Каспийском регионе». http://www.analitika.org.
61. Забурдаева Е.В. Информационная безопасность в современном обществе (анализ зарубежного опыта) // Труд и социальные отношения, 2008, № 8.
62. Завьялова Е.Б. Национальная экономическая безопасность// Внешнеэкономические связи, 2005, № 5.
63. Захаров В.А. Продвижение НАТО на Южный Кавказ: реалии последних лет // Современный Кавказ: геополитический выбор. Сборник научных статей. Ред. В.В.

Дегоев, В.Н. Панин. Пятигорск, ПГЛУ, 2009, с. 331–378.
64. Изотов В.С. Особенности формирования геополитической стратегии России в постсоветский период (концептуальный аспект). Автореф. дис. канд. полит. наук. Москва, 2009 г.
65. Илинский Г.П. Иран в период общего кризиса мировой капиталистический системы. Москва,1953, 52 с.
66. Йигаталиев Ш. О некоторых моделях отношений между США, КНР и РФ в контексте стратегии в Центральной Азии и на Кавказе / // Центральная Азия и Кавказ, 2007, № 2.
67. Кавказ в российской политике: история и современность. Материалы междунар. науч. конференции. Москва, 16–17 мая 2006 г. / МГИМО(У) МИД России, Центр Кавказских исследований. Под ред. В.В. Дегоева. Москва, «Русская панорама», 2007, 239 с.
68. Казанчеев Е.Н. Рыбы Каспийского моря. Определитель. Москва, "Легкая пищевая промышленность", 1981, 168 с.
69. Кан Сам Гу. Этно-национальные конфликты в Закавказье и Центральной Азии в контексте их геополитического положения. Москва, ИМЭМО РАН, 2005,198 с.
70. Каспий не поделили, но объявили безопасной зоной// «Независимая газета», 19 ноября 2010 г.
71. Киссинджер Г. Дипломатия. Москва, «Ладомир», 1997, 903 с.
72. Киссинджер Г. Нужна ли Америке внешняя политика? К дипломатии XXI века. Москва, «Ладомир», 2002, 352 с.
73. Колосов В., Мироненко Н. Геополитика и политическая география. Москва, «Аспект-пресс», 2001, 509 с.

74. Конопляник А.А. Каспийская нефть на Евразийском перекрестке. Москва, 1998, 110 с.
75. Корнилов А., Сулейманов А. Евразийская дипломатия Анкары //Международная жизнь, 2010, № 4.
76. Крамаренко А. В. Геоэкономические конфликты в топливно-энергетической сфере Каспийского региона //Вестник Московского университета. Серия «География», 2010, № 1.
77. Крутских А., Федоров А. О международной информационной безопасности // Международная жизнь, 2000, № 2.
78. Кудряшова Ю. Государства Южного Кавказа в Европейской политике соседства // Аналитические записки НКСМИ, 2008, № 6.
79. Кузнецов Ю., Никольский В. Введение в теорию национальной безопасности. Москва, 2004, 395 с.
80. Кукушкина А.В. Экологическая безопасность, разоружение и военная деятельность государств: международно-правовые аспекты. Москва, «ЛКИ», 2008, 176 с.
81. Кулагин В.М. Международная безопасность. Учебное пособие для студентов вузов. Москва, «Аспект Пресс», 2006, 319 с.
82. Ланда К.Г. Влияние глобализации на Каспийский регион //Современные проблемы науки и образования, 2008, № 3.
83. Ланда К.Г. Геополитические проблемы Каспийского региона //Власть, 2010, № 5.
84. Ланцов В.М., Хамзин Д.М., Шандра К.А., Капранова М.Н. Национальная безопасность - сущность, основы теории и практического анализа. Казань, "Новое знание", 2003, 194 с.

85. Логунов А.Б. Региональная и национальная безопасность. Москва, «Вузовский учебник», 2009, 432 с.
86. Луков В., Остин Г., Хенниг О., Барановский В. Евроатлантическая безопасность: путь в будущее //Международная жизнь, 2009, № 11.
87. Лунев С. Центральная Азия и Южный Кавказ как геополитические регионы и их значение для России //Центральная Азия и Кавказ, 2006, № 3.
88. Лутовинов В.И. К проблеме формирования стратегии национальной безопасности России //Власть, 2008, № 10.
89. Магеррамов А.А. Вопросы участия Азербайджанской Республики в конвенциях по охране окружающей среды // Евразийский юридический журнал, 2009, № 17.
90. Магеррамов А.А. Двустороннее сотрудничество Азербайджанской Республики с международными организациями в сфере экологической безопасности //Вопросы гуманитарных наук, 2010, № 1.
91. Магомедов А. М. Энергетическая и транзитная геополитика "Большого Каспия" //Свободная мысль, 2009, № 2.
92. Макиндер Х. Географическая осъ истории // Геополитика. Антология. Москва, 2006.
93. Максаковский В.П. Каспий – Европа, из новой книги. Москва, 2002.
94. Малышева Д. Кавказский узел мировой политики //Свободная мысль, 2008, № 10.
95. Малышева Д. Конфликты в Каспийском регионе и меняющаяся Россия //Вестник Евразии, 2002, №2.
96. Малышева Д. Центральная Азия и Южный Кавказ: региональная безопасность в эпоху нового миропорядка //Россия и мусульманский мир, 2004, №11.

97. Малышева Д. Южная Евразия в стратегии США //Мировая экономика и международные отношения, 2005, № 8.
98. Маринченко А. В. Геополитика. Учебное пособие. Москва, «ИНФРА», 2009, 429 с.
99. Маркедонов С. Азербайджан в «Большой Игре» на Кавказе //Европейская безопасность: события, оценки, прогнозы, 2005, №17.
100. Медведев Р. Казахстанская модель: // Евразия сегодня, 2006, № 6 (49).
101. Меликли Г. Стратегия национальной безопасности в государственном строительстве Азербайджанской Республики //Современные гуманитарные исследования, 2010, №2.
102. Миронов Н.В. Международная энергетическая безопасность. Москва, МГИМО, 2003, 165 с.
103. Нартов Н. А., Нартов В.Н. Геополитика. Москва, «ЮНИТИ-ДАНА: Единство», 2007, 527 с.
104. Национальные интересы и проблемы безопасности в меняющемся мире. Материалы семинара. Отв. ред. К.С. Гаджиев, Г.В. Каменская, Э.Г. Соловьев. Москва, ИМЭМО РАН, 2003, 128 с.
105. Ниязов Н.С. Основные векторы политики военной безопасности Азербайджанской Республики в 1994-2010 годы. Санкт-Петербург, Изд-во Санкт-Петербургского Университета, 2010, 208 с.
106. Нуриев Э. Ни мира, ни войны: геополитическая игра на Кавказе продолжается //Центральная Азия и Кавказ, 2000, № 6.
107. Нуриев Э. Внешнеполитическая стратегия Азербайджана и проблемы национальной безопасности// Центральная Азия и Кавказ, 2003, № 4.

108. Ознобищев С. Южный Кавказ: тенденции и проблемы развития// Россия в глобальной политике, 2009, № 1.
109. Папаева В. «Центральная Кавказия» вместо «Центральной Евразии» // Центральная Азия и Кавказ, 2008, № 2.
110. Панин В.Н. Проблема региональной безопасности на Кавказе в ситуации турбулентности мирового политического процесса // Вестник Института стратегических исследований. Вып. 1, 2011.
111. Период полураздела // газ. «Коммерсант», 19 ноября 2010 г.
112. Петров С. П. Каспийская нефть как фактор мировой и региональной политики (конец XX - начало XXI вв.). Дис. канд. ист. наук. Москва, 2005.
113. Права человека. Сборник международных документов. Варшава, 2001, 458 с.Прогрессивный блок НАТО// газ. «Известия, 22 ноября 2010 г.
114. Плотников В.С. Социальная безопасность в транзитивном обществе: содержание и механизм обеспечения. Автореф. дисс. на соискание ученой степени кандидата социологических наук. Новосбириск, 2004.
115. Раджабли А. Национальные интересы и международная безопасность. Баку, «Китаб Алеми», 2004, 400 с.
116. Редкоус В.М. Правовое регулирование обеспечения национальной безопасности в Республике Азербайджан //Вестник Московского университета МВД России, 2008, № 2.
117. Рзаев И.Б. Вооруженные силы Азербайджана как составляющая государственной системы обеспечения национальной безопасности //Вестник Российского университета дружбы народов. Серия «Международные отношения», 2006, № 2.

118. Русско-германский добавочный договор к Мирному договору между Россией, с одной стороны, и Германией, Австро-Венгрией, Болгарией и Турцией – с другой. 27 августа 1918 г.- Документы внешней политики СССР, т. 1, Москва, 1957.
119. Салимов С.М. Энергетические индикаторы устойчивого развития Азербайджана – экологический аспект //Проблемы экономики и управления нефтегазовым комплексом, 2010, № 3.
120. Самедов А. Механизмы влияния Российской Федерации на разрешение конфликтов на Кавказе. Баку, 2007, 191 с.
121. Семедов С. Кавказ во внешней политике США //Обозреватель, 2007, № 8.
122. Семедов С. Основные аспекты современной политики Турции на Кавказе //Вестник Московского университета. Серия «Социология и политология», 2008, № 2.
123. Соловьев Э.Г. Национальные интересы и основные политические силы современной России. Москва, «Наука», 2004, 198 с.
124. Состояние и перспективы взаимодействия России со странами Центральной Азии и Закавказья. Отв. ред. чл.-корр. РАН Г. И. Чуфрин. М., ИМЭМО РАН, 2009, 139 с.
125. Сохранение биологического разнообразия в Росии. Проекты главного экологического фонда. “Сохранение биоразнообразия”, Москва, 1997.
126. Старченков Г. Каспийская нефть в региональной экономике и мировой политике // Центральная Азия и Кавказ, 2006, № 1.

127. Степанов Е.А., Корнеев И.К. Информационная безопасность и защита информации. Москва, “ИНФРА”, 2001, 304 с.
128. Стратегическая стабильность после холодной войны. Москва, ИМЭМО РАН, 2010, 60 с.
129. Сулейманов А.В. Политика Турции и Ирана в Закавказье: сопоставительный анализ // Вестник Российского университета дружбы народов. Серия «Международные отношения», 2010, № 1.
130. США в поисках ответов на вызовы XXI века (социально-экономический аспект). Под ред. Э.В. Кириченко. Москва, ИМЭМО РАН, 2010, 290 с.
131. Тузиков А. Р.Основы Геополитики. Москва, «Кнорус», 2004, 269 с.
132. Федоров Ф.В. Информационная безопасность в мировом политическом процессе. Москва, «МГИМО-Университет», 2006, 220 с.
133. Федулова Н. Правовой статус Каспийского моря: позиции прибрежных государств //Мировая экономика и международные отношения, 2008, № 8.
134. Хантингтон С. Столкновение цивилизаций. Москва, 2005.
135. Центральная Азия. Кавказ. Балканы: региональные подсистемы и региональные проблемы безопасности. Дипломат. акад. МИД России, Ин-т актуальных междунар. проблем. Под ред. Г.А.Рудова, Е.Г. Пономаревой. Москва, “Научная книга”, 2005, 479 с.
136. Чернявский С. И. Формирование внешнеполитической стратегии Азербайджана (1988-2003). Дис. д-ра ист. наук. Москва, 2004 .

137. Чернявский. Кавказская стратегия Вашингтона// Международная жизнь, 1999, № 31.
138. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., 1911.
139. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., 1911.
140. Шатунов А.А. Диверсификация энергетических поставок в геополитическом измерении. Автореф. дис. канд. полит. наук. Москва, 2008 г.
141. Шеварднадзе Э. Мой выбор. В защиту демократиии и свободы, Москва, «Новости», 1991.
142. Шмелев Н.П. Страны Каспия и Закавказья – государства СНГ: перспективы устойчивого роста// Европа и Россия: проблемы южного направления. Средиземноморье – Черноморье – Каспий. Москва, 1999.
143. Эжиев И. Политические риски в Кавказско-Каспийском регионе // Власть, 2007, № 5.
144. Эйвазов Джаннатхан. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, «Нурлан», 2004, 352 с.
145. Экологические проблемы добычи и транспортировки углеводородов Каспия и каспийского региона. Москва, ИМЭМО РАН, 2004, 132 с.
146. Явчуновская Р. А. Глобальная и региональная безопасность. Курс лекций. Москва, «РАГС», 2009, 184 с.
147. Язькова А. Государства Закавказья и Россия в новом геополитическом измерении // Россия и современный мир, 2003, №2.

İngilis dilində

1. Allison Graham T. U.S. policy on Caspian energy development and exports: mini-case and illustrative paradigm. Cambridge, MA: Harvard University, John F. Kennedy School of Government, Caspian Studies Program, 2001, 27 p.
2. Ariel Cohen.Ethnic Conflicts Threaten US Interests in the Caucasus// Herritage Foundation Backgrounder, №1222, September 25, 1998.
3. Brenda Shaffer. The Formation of Azerbaijani Collective Identity in Iran, Nationalities Papers , Volume 28, №3, 2000.
4. Central Asia and the South Caucasus: reorientations, internal transitions, and strategic dynamics: conference report. Washington, D.C: National Intelligence Council, 2000, 85 p.
5. Chandler William. Energy and Environment in the Transition Economies. Between Cold War and Global Warming. Westview Press, 2000, 248 p.
6. Crandall Maureen S. Energy, economics, and politics in the Caspian region: dreams and realities. Westport, CT: Praeger Security International, 2006, 245 p.
7. Croissant Cynthia. Azerbaijan, oil and geopolitics. NY: Science Publishers, 1998, 117 p.
8. De Waal Thomas. The Caucasus: an introduction. Oxford University Press, 2010, 259 p.
9. Doug Stokes and Sam Raphael. Global energy security and American hegemony. Baltimore, Md: Johns Hopkins University Press, 2010, 280 p.

10. Energy and conflict in Central Asia and the Caucasus / edited by Robert Ebel and Rajan Menon. Lanham, MD: Rowman & Littlefield Publishers, 2000, 267 p.
11. Energy and security: toward a new foreign policy strategy / edited by Jan H. Kalicki and David L. Goldwyn. Johns Hopkins University Press, 2005, 604 p.
12. Greg Hansen, Humanitarian Action in the Caucasus: A Guide for the Practitioners // The Thomas J. Watson Jr. Institute for International Studies, Brown University, USA, 1998.
13. Hooman Peimani. Conflict and security in Central Asia and the Caucasus. Santa Barbara, Calif: ABC-CLIO, 2009, 373 p.
14. Michael Cohen. The effect of oil revenues on transition economics: the case of Azerbaijan // "Geopolitics of energy" Journal, № 6, June, 2006.
15. Nation R. Craig. Russia, the United States, and the Caucasus. Strategic Studies Institute, Washington, 2007.
16. Notes of Meeting Held at President Wilson' s House in the Place des Etats-Unis, Paris, on Friday, May 2, 1919, at 11 a.m. - Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Confenrence. Volume V. Washington, United States Government Printing Office, 1946, p. 407.
17. Notes of a Meeting of the Ministers of Foreign Affairs, held at the Quai d'Orsay, Paris, Saturday, Yanuary 10, 1920, at 11: 30 a.m .- Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Confenrence. Volume IX. Washington, United States Government Printing Office, 1946, p. 835.

18. Notes of a Meeting Held in M. Pichon's Room, Quai d'Orsay, Paris, Monday, January 19, 1920, at 10: 30 a.m.- Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Confenrence. Volume IX, p. 889-904.
19. Oil and geopolitics in the Caspian Sea Region / edited by Michael P. Croissant and Bülent Aras; foreword by Patrick Clawson. Westport, Conn: Praeger, 2000, 305 p.
20. Security sector governance in Southern Caucasus: challenges and visions / Study Groups, Regional Stability in Southern Caucasus. Geneva Centre for the Democratic Control of Armed Forces, 2004, 214 p.
21. Statistical Review of World Energy, june 2010.
22. Svante E. Cornell. Geopolitics and strategie alignments in the Caucasus and Central Asia // Jurnal of International Affair, june-august 1999
23. The Baku-Tbilisi-Ceyhan pipeline: oil window to the West / edited by S. Frederick Starr and Svante E. Cornell. Washington, D.C: Central Asia-Caucasus Institute; Uppsala, Sweden: Silk Road Studies Program, 2005,150 p.
24. The Organization for Security and Co-operation in Europe (OSCE) (Global Institutions) by David J. Galbreath (Jun 20, 2007), p.65.
25. The security of the Caspian Sea Region / edited by Gennady Chufrin. Oxford University Press, 2001, 375 p.
26. The South Caucasus: a challenge for the EU / edited by Dov Lynch. Paris: Institute for Security Studies, 2003, 205 p.

İnformasiya resursları

Azərbaycan dilində

1. **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi saytı**
   Əliyev İ.H. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları. Tam külliyyat. http://www.president.az/
2. **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kitabxanası**
   Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Elektron külliyyat (1-46-cı cildlər): http://heydaraliyev.preslib.az
3. **Azərbaycan Respublikası normativ hüquqi aktlarının rəsmi mətnləri** http://e-qanun.az/
4. **Dağlıq Qarabağ münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi**.
   http://www.elibrary.az/docs/karabakh/gl1.pdf
5. **Heydər Əliyev İrsini Araşdırma Mərkəzi**
   Elektron kitabxana: Ümummilli lider Heydər Əliyevin çıxış, müsahibə, görüş, bəyanat və məktublarının mətni: http://www.aliyev-heritage.org/
6. **Ekologiya və Təbii Sərvətlər Nazirliyi**
   http://www.eco.gov.az/
7. **Xarici İşlər Nazirliyi**
   http://www.mfa.gov.az/
8. **Milli Təhlükəsizlik Nazirliyi**
   http://www.mns.gov.az/

9. **Nəqliyyat Nazirliyi. Nəqliyyat siyasəti, nəqliyyat dəhlizləri:**
   http://www.mot.gov.az
   http://www.mot.gov.az/?mod=inside&lang=az&menu=138
   http://www.mot.gov.az/?mod=inside&lang=az&menu=119
10. **Sənaye və Energetika Nazirliyi.** Hesabatlar:
    http://www.mie.gov.az/cgi-bin/min/main.cgi?s=9;s2=1
11. **İqtisadiyyat və Sənaye Nazirliyi**
    http://www.economy.gov.az
12. **Dövlət Statistika Komitəsi**
    http://www.stat.gov.az
13. **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi**
    http://www.refugees-idps-committee.gov.az
14. **Azərbaycan Respublikası Dövlət Neft Şirkəti**
    http://www.socar.az
15. **Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin nəşrləri**
    http://sam.gov.az/nesrler
16. **Elektron Təhlükəsizlik Mərkəzi**
    http://www.cert.az
17. **Azərbaycan Milli Elmlər Akademiyası**
    Dissertasiyalar, dövri nəşrlər:
    http://www.science.gov.az/az/referat.php
    http://www.science.gov.az/az/cat.php?fid=publications
18. **Azərbaycan Milli Kitabxanası. Elektron Kitabxana**
    http://www.anl.az/el.php\
19. **İnformaisiya agentliklərinin xəbər bülletenləri:**
    AzərTAc – http://azertag.az/
    "Trend" – http://www.trend.az/
    APA - http://apa.az/
    "İnterfaks" - http://www.interfax.az/

Rus dilində

1. **Московский государственный институт международных отношений**
   Публикации
   http://www.mgimo.ru/publications/index.phtml
2. **Институт международных организаций и международного сотрудничества Государственного университета – Высшей школы экономики**
   Монографии, Вестник международных организаций
   http://www.iori.hse.ru/publications/monograf.shtm
   http://www.iori.hse.ru/publications/herald.shtm
3. **Институт проблем международной безопасности РАН**
   Международные договоры и соглашения, стратегическое управление в сфере обороны и безопасности
   http://www.ipmb.ru/index.html
4. **Институт мировой экономики и международных отношений РАН**
   http://www.imemo.ru/
5. **Институт США и Канады РАН**
   Журналы:
   «США - Канада: экономика, политика, культура»
   http://www.iskran.ru/journal.
   «Россия и Америка в XXI веке»
   http://www.rusus.ru/
6. **Институт экономики РАН**
   Книги, монографии, сборники
   http://inecon.ru/ru/index.php?go=Content&id=25
7. **Институт Европы РАН**
   Доклады, книги, журнал "Современная Европа"
   http://www.ieras.ru/info8.htm

8. **Социологический институт РАН**
   Книги, публикации
   http://www.si.ras.ru/index.php?pid=9&lid=1
9. **Институт всеобщей истории РАН**
   Публикации, авторефераты и программы
   http://www.igh.ru/
10. **Научная электронная библиотека – диссертации и авторефераты**
    http://www.scholar.ru/
11. **Научная электронная библиотека LIBRARY.RU**
    http://elibrary.ru/defaultx.asp
12. **Научные ресурсы - Научная литература в интернете**
    http://www.scintific.narod.ru/literature.htm
13. **Электронная библиотека - книги, журналы, диссертации, авторефераты**
    http://www.lib.ua-ru.net/
14. **Электронный каталог библиотек МГУ**
    http://www.msu.ru/libraries/
15. **Диссертации России.**
    Электронный каталог: диссертация, автореферат
    http://www.lib.ua-ru.net/disser/ru.html
16. **LITRU.RU - Электронная Библиотека**
    http://www.litru.ru/
17. **Русский Гуманитарный Интернет – Университет**
    Библиотека учебной и научной литературы
    http://www.i-u.ru/biblio/
18. **Информационные агентства**
    Агентство РИА Новости - http://ria.ru/
    Агентство “РБК” - http://www.rbc.ru/
    Агентство УНИАН – http://www.unian.net/
    Агентство Ukranews – http://ukranews.com/
    Агентство Новости Армения -
    http://www.newsarmenia.ru/

Lenta.ru - http://lenta.ru/
ИА Regnum - http://www.regnum.ru/
РИА Новости - http://ria.ru/
Новости Грузия - http://newsgeorgia.ru/

İngilis dilində

1. **Harvard Libraries** http://lib.harvard.edu
2. **Questia – Online Library** http://www.questia.com/Index.jsp
3. **The Internet Public Library** http://www.ipl.org
4. **The Library of Congress** http://catalog.loc.gov
5. **The British Library** http://www.bl.uk
6. **United Nations Office on Drugs and Crime** www.unodc.org
7. **The Finansial Times** http://www.ft.com/home/uk
8. **«Reuters" News Agency -** http://www.reuters.com/
9. **Euronews** - http://euronews.com/

Dövri mətbuat

Azərbaycan dilində

1. “Azərbaycan” qəzeti, 1994-2014-cü illər.
2. “Xalq qəzeti” 1994-2014-cü illər.
3. “Kaspi” qəzeti, 16 sentyabr 2007-ci il; 20 dekabr 2012-ci il; 8 oktyabr, 3, 14 dekabr 2013-cü il; 24 sentyabr 2014-cü il.
4. “Ekspress” qəzeti, 16 sentyabr 2010-cu il.
5. “Bizim yol” qəzeti, 17 sentyabr 2011-ci il; 29 noyabr 2013-cü il; 29 sentyabr 2014-cü il.
6. “İki sahil” qəzeti, 20 senytabr 2013-cü il, 26 fevral 2010-cu il.
7. “Bakı xəbər” qəzeti, 7 mart 2012-ci il; 20 noyabr 2013-cü il.
8. “525-ci qəzet”, 14 noyabr 2010-cu il.
9. “Bizim dövr” qəzeti, 19 fevral 2014-cü il.
10. “Şərq” qəzeti, 30 yanvar, 20 fevral 2010-cu il; 30 sentyabr 2010-cu il.
11. “Səs” qəzeti, 23 fevral 2010-ci il.
12. “Olaylar” qəzeti, 25 oktyabr 2013-cü il.
13. “Gündəlik Teleqraf” qəzeti, 7 fevral 2012-ci il.
14. “Yeni Müsavat” qəzeti, 24 fevral 2010-cu il; 5 aprel 2012-ci il; 20, 30 noyabr 2013-cü il.
15. Geostrategiya” jurnalı, mart-avqust 2011-2014-cü il.
16. “Azerbaijan Focus” jurnalı, № 1, 2, 2009.
17. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, 2012-2014 cü illər.

Rus dilində

1. “Зеркало”, 26 января; 11,12, 24 февраля, 22 июля; 27 августа, 2, 24 сентября, 9, 23 октября, 3 ноября 2010 г.
2. «Известия», 9 июня 1920 г; 18 , 22 ноября 2010 г.
3. “Красная звезда», 1 марта 2003 г.
4. “Независимая газета”, 6 декабря 1997 г., 10 февраля 2004 г., 20 июля 1997 ., 19 ноября 2010 г.
5. “Российская газета”, 7 декабря 1997 г.

Summary

The geopolitics and international relations of Azerbaijan Republic on the background of demonstrated geopolitical, geoeconomical, geostrategic-military interests and running policy of the world countries and international community in Eurasia, the former Soviet Union, including the Caspian-Black sea basin and the South Caucasus were researched and analyzed in the book **"Geopolitics of Azerbaijan".**

The first chapter of this book analyzes the past, present and future of geopolitical development issues, basis of the state policy aimed to determine and ensure the national interests of the Republic of Azerbaijan.

The preparation of the geopolitical code of Azerbaijan Republic, concepts of the national and foreign policy, determination and ensurance of national interests framework, formation of conseptual basis of geopolitical, geoeconomical and military-geostrategical relations with the region countries and the international community, main geopolitical actors of the world and the region, as well as many issues has being undertaken to the research in this chapter, also there has been analyzed main aspects of the implementation of transnational projects, such as prospects for future development of our state, exploitation and output of Caspian energy resources to the world markets, the establishment and use of the East-West transportation and communication corridors, and so on.

In the second chapter of the book tells about the interpretation of the general geopolitical situation established in the Eurasian region after the collapse of the Soviet Union, particularly in the post-soviet space, the Caspian and Black Sea basin, Central Asia and South Caucasus, also here has been analyzed the conducted policy and demonstrated geopolitical interests of the world's leading countries, international power centers and regional countries and have given the characteristics

of local and global processes taking place in the background of all those.

In this chapter particularly explored the system of national, regional and international geopolitical interests of Azerbaijan in the region, also here are analyzed and gived appropriate interpretation of strategies and tactics of geopolitical relations with each regional and international actors that conduct own interests and policy in Eurasia.

In the third chapter of the book, there has been researched the policy of joint development of Caspian Sea energy resources with leading companies of the world and output to the world markets of those resources by alternative ways, within the framework of new oil strategy of Azerbaijan. Also here analyzed how the status of Caspian Sea drew attention and its solution, the situation and activities in the field of reconsulation of the geoeconomical interests of international community and region countries, and reviewed the role, tactics and balanced policy of Azerbaijan in this area.

In this chapter also has been analized the situation in the field of creation and exploitation of East-West and North-South Transport and communication corridors in the Caspian-Black Sea basin and South Caucasus and came into relevant scientific conclusion.

The situation over the military-strategic and security issues in the Caspian-Black Sea basin and South Caucasus, participiation of global and regional security centers in this process, the tactics of Azerbaijan in the security sector, relationship with international and regional security systems, main aspects of of security policy and etc has being investigated in the fourth chapter of the book. This section also focuses on the study and analyze of the local, regional and global process that threaten the national interests of the Caspian-Black Sea and South Caucasus countries in the background of the modern and projected geopolitical relations that take place in Eurasia.

In the separate chapter on Security issues there have systematically studied the bases, goals and objectives, the main directions and mechanisms of national development and security policy in the twenty-year period following the date of the independence of Azerbaijan. Also here given the extensive political analysis of the security activities carried out in the socio-political, socio-economic, military-border, transport and transit, food, information, ecology and other spheres. And explored the scientific-theoretical aspects of conducted policy on the country's national, regional and international security spheres, measures carried out for security, internal and foreign activity. Here evaluated the formation and implementation of the national security strategy, its practical results and efficiency in terms of geopolitics.

The book opens a new research direction in the study of Azerbaijan's geopolitics. In the book here have been researched the identification and provision of vital geopolitical, geo-economic and military-strategic interests of Azerbaijan, in the background of the requirements and challenges of globalization, as well as modern transnational processes taking place in the region. Also the real level of public policy that is pursued in this direction was investigated, its efficiency is estimated, and the need for more flexible, pragmatic action is justified. In addition, local, regional and international process, geopolitical, geoeconomical and geostrategic-military situations that can threaten the national interests of Azerbaijan were scientifically investigated; projected and appropriate recommendations were given.

РЕЗЮМЕ

В книге **«Геополитика Азербайджана»** освящается политика мировых государств и международных сообществ на фоне геополитических, геоэкономических, военно-геостратегических процессов и интересов в регионе Евразии, Каспийско-Черноморском бассейне и на Южном Кавказе, анализируется геополитика и геополитические отношения Азербайджана с внешним миром.

В первом разделе книги анализируются основные этапы политического развития Азербайджана, а также направление современной государственной политики в определении и обеспечении национальных интересов.

В этом подразделении исследуются такие многочисленные вопросы как: создание геополитического кода, национальной и внешнеполитической Концепции Азербайджанской Республики, определение и обеспечение рамок национальных интересов, формирование концептуальных основ взаимоотношений с основными геополитическими акторами мира и региона, анализируются важные аспекты перспективы развития государства, эксплуатация энергетических ресурсов Каспийского бассейна и их транспортировки на мировые рынки, создание и использование транспортно-коммуникационных коридоров Европа-Азия и проведение других транснациональных проектов.

Во втором разделе книги разъясняется общая геополитическая ситуация, образовавшаяся в Евразийском регионе, особенно на постсоветском пространстве, Каспийско-Черноморском бассейне, в Центральной Азии и на Южном Кавказе после распада СССР; анализируются геополитические интересы и геополитика, проводимая в этом пространстве ведущими мировыми державами, международными силовыми центрами и региональными государствами, также на этом фоне дается характеристика локальных и глобальных про-

цессов, происходящих в регионе.

В этом разделе отдельно исследуется система национальных, региональных и международных геополитических интересов Азербайджана, анализируется геополитическая стратегия и тактика взаимоотношений с каждым региональным и международным актором, проводимые ими политика в Евразии и даются соответствующие пояснения.

В третьем разделе книги после распада СССР в рамках новой нефтяной стратегии Азербайджана исследуется политика о совместной разработке энергоресурсов Каспийского бассейна с ведущими мировыми компаниями и их транспортировка альтернативными путями на мировые рынки; исследуется вынесение на повестку дня правового статуса Каспия и его решение, ситуация и деятельность по согласованию геоэкономических интересов мирового сообщества и стран региона, а также роль, тактика и сбалансированная политика Азербайджана в этой сфере.

Также в этом разделе исследованы и даны научные выводы о ситуации создания и эксплуатации транспортно-коммуникационных коридоров Восток-Запад, Север-Юг в регионе Каспийско-Черноморского бассейна и Южного Кавказа, роль, участие, тактика и политика Азербайджана в этой сфере.

В четвертом разделе учебника исследуется сложившаяся военно-геополитическая ситуация в сфере безопасности вокруг Каспийско-Черноморского бассейна и Южного Кавказа, характеризуется участие глобальных и региональных центров силы в этом процессе, отношения Азербайджана с международными и региональными системами безопасности. В этом разделе также уделяется внимание изучению и исследованию локальных, региональных и глобальных процессов безопасности на фоне современных и прогнозируемых геополитических отношений, происходящих в Евразии и угрожающих национальным интересам Каспийско-Черно-

морского бассейна и стран Южного Кавказа.

В разделе безопасность системно исследуются цели и задачи, основные направления политики безопасности Азербайджана после восстановления независимости; проводится расширенный политологический анализ действия государства в области безопасности общественно-политической, социально-экономической, военно-пограничной, транспортно-транзитной, продовольственной, информационной, экологической и других областях жизни; с геополитической точки зрения оценивается степень эффективности внутренней и внешней политики государства, проводимой в сфере национальной, региональной и международной безопасности.

Книга открывает новое направление исследования в области изучения геополитики Азербайджана. На фоне глобализации, а также требований и вызовов современных транснациональных процессов, происходящих в регионе, в книге исследуются вопросы определения и обеспечения жизненно важных геополитических, геоэкономических и военно – геостратегических интересов Азербайджана; анализируется реальный уровень проводимой государственной политики в этом направлении, оценивается эффективность и гибкость, обосновывается необходимость прагматичной деятельности. Кроме того, с научно-политической точки зрения исследуются, прогнозируются и даются соответствующие рекомендации локальным, региональным и глобальным процессам, которые могут угрожать национальным интересам Азербайджана.

ƏLİ HƏSƏNOV

AZƏRBAYCANIN GEOSİYASƏTİ

Mətbəənin direktoru: **Elman Qasımov**
Dizayner: **Mətanət Əliqızı**

Çapa imzalanmışdır: 24.02.2015
Formatı 60x90 1/16. Həcmi 66 ç.v.
Sifariş № 07. Tiraj 3000

«Zərdabi LTD» MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ iş (012) 514-73-73,
mob. (050; 055; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru